# AZƏRBAYCAN

## QƏZETİ

*1918-1920-ci illərdə nəşr olunmuş*
*“Azərbaycan” qəzetinin tam külliyyatı*

***20 clddə***

# VI CİLD

(Mart 1919)



UNİVERSİTET • UNIVERSITY
ADA

# AZƏRBAYCAN

QƏZETİ

1918-1920

## VI CİLD

(Mart 1919)

## TRANSLİTERASİYA EDƏNLƏR

**Mehdi Gəncəli**
Filologiya üzrə fəlsəfə doktoru

**Azad Ağaoğlu**
Filoloq, tərcüməçi

## ELMİ REDAKTOR

**Teymur Kərimli**
Akademik

**ADA Universitetinin**
**təşəbbüsü və dəstəyi ilə nəşr edilir.**

# MÜNDƏRİCAT

**Ön söz**
**Oxucuların diqqətinə**
**Nömrə 126** (2 mart 1919) .......... **1**
**Nömrə 127** (3 mart 1919) .......... **21**
**Nömrə 128** (4 mart 1919) .......... **41**
**Nömrə 129** (5 mart 1919) .......... **61**
**Nömrə 130** (6 mart 1919) .......... **81**
**Nömrə 131** (7 mart 1919) .......... **105**
**Nömrə 132** (9 mart 1919) .......... **123**
**Nömrə 133** (10 mart 1919) .......... **143**
**Nömrə 134** (11 mart 1919) .......... **163**
**Nömrə 135** (12 mart 1919) .......... **185**
**Nömrə 136** (14 mart 1919) .......... **205**
**Nömrə 137** (16 mart 1919) .......... **229**
**Nömrə 138** (17 mart 1919) .......... **249**
**Nömrə 139** (18 mart 1919) .......... **269**
**Nömrə 140** (19 mart 1919) .......... **289**
**Nömrə 141** (20 mart 1919) .......... **309**
**Nömrə 142** (21 mart 1919) .......... **327**
**Nömrə 143** (26 mart 1919) .......... **345**
**Nömrə 144** (27 mart 1919) .......... **365**
**Nömrə 145** (28 mart 1919) .......... **385**
**Nömrə 146** (30 mart 1919) .......... **405**
**Nömrə 147** (31 mart 1919) .......... **429**
**Adlar göstəricisi** .......... **455**

# ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), "Azərbaycan" qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

"Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

"Azərbaycan" qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

**Hafiz PAŞAYEV,**
**ADA Universitetinin Rektoru**



## OXUCULARIN DİQQƏTİNƏ

"Azərbaycan" qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, "çox" yerinə qəzetdəki kimi "çoq", "yox" yerinə "yoq", "etməyi" yerinə "etməgi", "kimi" yerinə "kibi", "nömrə" yerinə "numero" və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan "-yor" qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm "-yor", həm "-ır, -ir, -ur, -ür" şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün "-yor" şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik ("Bulqarıstan" yerinə "Bolqarıstan", "Kiyef" yerinə "Kiyev" və s.). Eləcə də, "Bakü" yerinə bugünkü kimi "Bakı" yazdıq. Soyadı sonluqlarını da ("-of", "-yef" və s.) müasirləşdirməyi ("-ov", "-yev" və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: "...xəstəliklərin bittamam rəf'inə [tamamilə aradan qaldırılmasına] qədər..." Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: "...Xarici [İşlər] nazirinin..."

Hər nömrədən sonra əlavə edilən "Qeyd və şərhlər"də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də "Adlar göstəricisi"nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də "Qeyd və şərhlər" bölməsində verilmişdir.

Cildin sonunda "Adlar göstəricisi" verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər "Adlar göstəricisi"nə daxil edilmişdir.

**Mehdi Gəncəli** **Azad Ağaoğlu**



آذربایجان

اعلان

آذربایجان حکومتنک قرارلرندن

حکومت امرلری

گنجه

Bazar, 2 mart 1919-cu il, nömrə 126

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 29 cəmadiyələvvəl sənə 1337. 2 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
### On ikinci iclas
### Fevral 1919

İclas açılır saat 2-nin yarısında.

**Sədr** - Həsən bəy Ağayev.

**Katib** - Əhməd Cövdət Pepinov.

**Sədr** - İclas davam edir. Növbədəki sənədlərə keçmədən qabaq rica edərdim dünən günkü iclasda qəbul etdiyiniz qanun layihəsi – ki "Müsavat" firqəsi tərəfindən təklif olunan – hər komissiyaya birər əza [üzv] verilsin. Komissiyaların miqdarı da bu surətlədir: "Müsavat" - 23, "İttihad" - 11, "Əhrar" - 1, "Hümmət" - 5, Sosialistski blok - 5, bitərəflərdə - 12, Rus-slavyan cəmiyyətində - 5, ermənilərdə - 7. Bu miqdarla olan surətdə "Müsavat"dan qeyri hər fraksiya birər, "Müsavat" isə ikinci nümayəndə dünən qəbul etdiyiniz layihə mövcibincə [layihə əsasında] verəsiniz. Maliyyə və büdcə komissiyasına isə hər fraksiyadan birər, "Müsavat" isə üç nümayəndə verməlidir. Çünki onun üzvləri 23-dür. Sonra [iki] yeni qanun daxil olmuşdur. Biri – gömrük idarəsinin təbdili [dəyişdirilməsi], ikinci – hökumətə yüz milyon pul buraxmaq. Təklif olunur ki, bu layihələrdən birincisi Ləvaehi-qanuniyyə [Qanun layihələri] komissiyasına, ikinci qanun isə Maliyyə və büdcə komissiyasına verilsin və rica edərdim iki yeni komissiya əzaları tənəffüs zamanı burada qalaraq özlərinə heyəti-rüəsa [rəyasət heyəti] seçsinlər. Keçirəm növbədəki məsələyə. Söz verilir doktor Musa bəy Rəfiyevə.

**Musa bəy** *(yerindən)* - Nə barəsində?

**Sədr** - Bakı şəhərinə dörd milyon istiqraz barəsində.

**Musa bəy Rəfiyev** (Müsavat) - Bakı Bələdiyyəsi Daxiliyyə Nəzarətinə bir layihə təqdimlə təklif etmişdi ki, Bələdiyyə İdarəsinə dörd milyon manat borc pul buraxılsın. Daxiliyyə naziri bu layihəni Parlamana göndərmiş, Parlaman da Maliyyə və büdcə komisyonuna vermişdi. Komisyon məzkur [deyilən] layihəni tədqiq edərək hüzurunuza ərz edir. Bakı Bələdiyyə idarəsi 4 milyon istədikdə bəyanatda bulunub deyir ki, Bələdiyyə İdarəsinin 1917-1918-inci il övzası [vəziyyəti] cığırından çıxmış, hər şeyin qiyməti artmış, digər tərəfdən əhalidən alınan vergi miqdarı azalmış. Bundan dolayıdır ki, şəhərin kassasına pul girməyir. Buna əlavə, məvaciblər dəxi həddən ziyadə artmış-

dır. Məsələn nümunə üçün göstərilir 17-ci ildə 9 ay müddətində məxaric 14 milyon olduğu halda, mədaxil 8 milyona çatmamışdır. Sonra ilin axırındakı son üç ay zərfində şəhəri təmizləməkdən və yolu öz qaydasına salmaqdan ötrü 7.950.000 min rublə məxaric göstərilibdir. *(Oxuyur)*

Bakı idarəyi-bələdiyyəsinin [Bələdiyyə İdarəsinin] balada [yuxarıda] məruz iqdamatı [ərz etdiyi təşəbbüsü] münasibətilə Daxiliyyə Nəzarəti şəhər idarəsinin aşağıda saydığımız məvaddan [maddələrdən] ibarət olan ehtiyacatının:

1) Şəhərin son dərəcə pisliyindən, pək böyük məsarifati-nəqdiyyəni mövcib olan sihhiyyəcə şəhərin təmiri [Şəhərin son dərəcə natəmizliyi səbəbindən, böyük məbləğdə nəğd pula başa gələn gigiyenik cəhətdən bərpası].

2) Şəhər soqaqlarının "mostovoylarının" [səkilərinin] bundan fəzlə [bundan artıq] və büsbütün xarab olmasına meydan verməmək üçün təmir və təcdidi [yenilənməsi].

3) Yanacaq, yemək məvaddının [maddələrinin] olduğu kimi əlbisənin də [paltarın da] fövqəlhədd [həddən artıq] bahalandığından və əmrazi-sariyyənin [yoluxucu xəstəliklərin] əhali arasında intişarından mütəhəssil [yayılmasından hasil olan, əmələ gələn] şəraiti-həyatiyyənin [həyat şəraitinin, güzaranın] ağırlığı üzündən şəhər əhalisinə son dərəcə möhtac olduğu müavinəti-tibbiyyənin [tibbi yardımın] lüzum dərəcədə təşkil edilməsi.

4) Şəhərin məkatib dairələrinin [məktəb idarələrinin] kəndi ümuratını [öz işlərini] cərəyani-təbiidə olaraq [təbii axarında] idarəsinin təmini [və sair]. Həqiqətən [bu ehtiyacların] rəf edilməsi [aradan qaldırılması] lazım olduğundan, bir tərəfdən məvadd [və] məsai [material və əmək] qiymətlərinin artması və digər tərəfdən keçən sənədə vüqu bulmuş olan əhvali-siyasiyyə dolayısı ilə şəhər vergilərinin pək cüz'i miqdarda olaraq kassaya düxulu səbəbilə şəhər heç bir vəchlə şu ehtiyacı yalnız kəndi mənabeyindən [qaynaqlarından] rəf və izalə edəmməyəcəkdir [aradan qaldıra bilməyəcəkdir].

Bütün bu məşruhata binaən [izahlara əsasən] və bir də Bakı şəhərinin Cümhuriyyət daxilində dövlətin hökuməti-mərkəziyyəsinin məqərri [mərkəzi hökumətinin paytaxtı] bulunması etibarı ilə Cümhuriyyətdə yalnız həyati-idariyyənin bir mərkəzi-rəsmi deyil, bəlkə iqtisadi, mədəni və elmi bir mərkəzi olduğu dəxi nəzəri-etibara alınaraqdan kəndisinə vəsaiti-ümumiyyeyi-dövlətdən [dövlətin ümumi vəsaitindən] müavinətdə bulunmanın son dərəcə mətlub [lazım] olduğu meydana çıxar. İşbu mülahizata istinadən [mülahizələrə əsasən] Nəzarət atidə mühərrər layiheyi-qanuniyyəni [Nazirlik aşağıda yazılan qanun layihəsini] Məclisi-Məbusanın təsdiqinə təqdim eylər. Şəhərin bərvəchi-bala məxaricləri [yuxarıda yazılan xərcləri] mövcud olub, bu məxaricə müqabil mədaxili cüzidir. Üç ayda səkkiz milyona kimi pul lazımdır. Mədaxil isə 500 min olubdur. Şəhərin mədaxili olan vergilər alınıb xərc olunmuşdur. Bu xərcləri yerinə yetirmək qeyri-mümkündür. Şəhər mədaxilindən yalnız bir su mədaxili mövcud olub, o da çox cüzidir. Bununla bərabər, Bakı şəhəri dövlətli bir şəhərdir. Borc almağa da iqtidarı vardır. Yəni borcunu ödəyə bilər. Bir çox şeylər vardır ki, məsələn imarətləri, yerləri və dəniz kənarında olan körpüləri və sairələr kimi mədaxil qapıları mövcuddur. Şəhər, deməli, müvəqqət qüvvəsizdir. Gələcəkdə şəhərin qüvvəsini yerinə gətirməyi aşkar etdirir. Şimdilik bu xərcləri ödəməkdən ötrü şəhər idarəsi Duma ilə bərabər qərar vermiş ki, 7 milyon pul istiqraz etsin [borc alsın]. Bu məbləğdən 3 milyonu oktyabrda alınmış, yerdə qalan 4 milyonu qalmış idi. Şimdi də ehtiyaca məbni [ehtiyaca görə] o 4 milyonun buraxılmasını hökumətdən xahiş edir. Xərclərin tərtibi böylədir:

Bələdiyyə qulluqçularına hər ayda veriləcək məvacib - 1.450.000

Şəhəri təmizləmək üçün arabalar məxarici (maaşdan başqa) - 200.000

İtfaiyyə qitəsinə [yanğınsöndürən heyətinə] - 75.000

Müalicəxanalara - 750.000

Bələdiyyə dairələrinə – 125.000

Odun, mazut, neft, benzin, truba, su, kantor taqımları [dəftərxana ləvazimatı], ələf və başqa təxiri [gecikdirilməsi] qəbul olmayan məxarici - 400.000

Yekun - 3.000.000

Bunlarla bərabər birdəfəlik xərclər də mövcuddurlar. Müfrədatı zirdə [aşağıda] oxuyuram:

Sabiq borcların faizinin tədiyəsi [ödənməsi] - 1.200.000

19 xəstəxana təmiratı - 336.671

Seldən sonra küçələrin təmiratı - 353.200

23 məktəb binalarının təmiratı - 181.532

Dəva [dərman] alınmağa - 200.000

Şəhər sallaqxanalarının təmiratı - 40.321

Kitabxana üçün bina hazır edilməsinə - 13.200

Şəhər obozları [yük arabaları] hazırlatdırmağa - 375.000

Nəqliyyatın təzələnməsinə - 400.000

Mayəhtac [avadanlıqlar] - 20.000

Yekun - 3.124.924

Daxiliyyə Nəzarəti öz tərəfindən şu layihənin qəbulunu təklif edir: *(Oxuyur)*

1) Hökumətin keçmiş sənə 7 təşrinisanidə (noyabr) qərardadına tövfiqən [uyğun olaraq] vermiş olduğu 3 milyon manatlıq müavinəti-nəqdiyyəyə əlavətən Bakı idareyi-bələdiyyəsinin xəzineyi-dövlət vəsaitindən sənədə beş faizli olaraq iki müddətdə, yəni iki milyonun şimdi, iki milyonun isə gələcək şubatda (fevralda) verilməsi.

2) Məzkur [adı çəkilən] şəhər idarəsindən, kəndisinə verilmiş olan müavinəti-nəqdiyyənin şəhərin varidat və məsarifat dəftərinə qeyd edilməsilə üç sənə zərfində və hər sənə müsavi [bərabər] hissələrlə tə'diyə edilməsinə [qaytarılmasına] iltizam alınması.

Maliyyə və büdcə komissiyası da bu xüsusda böylə bir qərar qəbul etmişdir: *(Oxuyur)*

Maliyyə və Büdcə Komisyonunun 21 fevral 1919 tarixli iclası bəratülqövlündən [protokolundan] iqtibas olunmuş: Bakı Bələdiyyə İdarəsinə dörd milyon rublə borc buraxılması xüsusunda Daxiliyyə Nəzarətinin təqdim etdiyi qanun layihəsi qəbul olunsun və Daxiliyyə Nəzarətinə tezliklə bələdiyyə seçki qanununun tənzim və Məclisi-Məbusana təqdim edilməsi təklif olunsun.

Maliyyə və Büdcə Komisyonu rəisi:
Musa bəy [Rəfiyev]

Büdcə və Maliyyə komisyonu bu layihəyə baxaraq qəbul olunmaq üçün Məclisi-Məbusana təqdim edir.

**Sədr** - Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** - Möhtərəm məbuslar! Hökumətlərdə olan borc sistemi indi də şəhərlərə sirayət edir. Necə ki, hökumət xərcini ödəməkdən ötrü hədsiz-hesabsız kağız pullar buraxırlar. İndi bələdiyyə idarələri də həddən ziyadə xərclərini ödəmək üçün iki şeydən birini etməlidir: ya pul kəsmək, ya borc almaq. Bakı idarəsi asan yollarla getmək istəyir ki, öz işlərini yaxşı aparsın. Üzr istəyirəm! Mən Bakı Bələdiyyə İdarəsinə pul verilməsi tərəfdarı olardım və olmalıyam da. Pul verilməsini də istərəm. Heyf ki, bu layihədə bu borcun nə cür qaytarılacağı və mədaxil yolu göstərilməyir. Parlaman özünü aldatmamalıdır. Keçənlərdə Bələdiyyə İdarəsinə bir milyon borc verdik və onun qaytarılması vaxtı göstərildi. Fəqət, bu dörd milyonu Bələdiyyə İdarəsi qaytara bilməyəcəkdir. Bunu Parlaman da bilir. Ona görə Büdcə və Maliyyə Komisyonu bu layihənin qəbulunu bizə təklif etməməliydi. Mən təklif edirəm: bu pulu borc deyil, qaytarılmamaq üzrə Bələdiyyə İdarəsinə verək və mədaxilini artırmaq üçün yollar göstərək. Tainki hökumətdən borc almağa məcbur olmayıb özü özünü idarə edə bilsin. Hər yerdə olduğu kimi hökumətin borcudur ki, şəhər idarəsinə kömək eyləsin. Hökumət şəhərin camaat ehtiyacını ödəyən azarxana, məktəblər və qeyri müəssisələri saxlamaq üçün pul buraxmalıdır. Amma məxaric mədaxildən çox olduğu halda bu qayda çox davam edə bilməz. Gərək Daxiliyyə nazirimiz, Büdcə və Maliyyə Komisyonu şəhər idarələrinin məxariclərinin artması üçün layihə ilə yollar göstərsin. Bələdiyyə İdarəsi bəzi mədaxilləri öz əlinə almaq üçün istibdad dövründə bu məsələni qaldırmışdı ki, bununla 3-4 milyon mədaxil ala biləcəkdi. Bunu onun əlindən aldılar. Bu barədə hətta Dövlət Dumasında da danışıldı. İndi gərək tezliklə qət olunsun [qərar verilsin] ki, o vergilər şəhərin mənfəətinə getsin. Şəhər idarəsi ticarət müəssisələrindən, işıqdan və bu kimi yerlərdən xüsusi vergi almalıdır. Bu verginin alınması ilə bahalığa heç qorxu yoxdur. Ərzaq Nəzarəti put vergisindən 550.000 rublə pul yığmışdır. Bu pul şəhər Bələdiyyə İdarəsinə verilməli idi. Amma bu vaxta kimi şəhərə gəlməyibdir. Hökumətin cəm etdiyi [yığdığı] vergilər müəyyəndir. Bu put vergisi isə şəhər mənfəətinə olmalıdır. Mən istəməzdim ki, layihənin qəbulu təxirə salınsın. Şəhər fəlakətli bir haldadır. Ancaq bu layihədə Bələdiyyə İdarəsinin mədaxilinin artırılması üçün heç bir yol göstərilməyibdir. Mən təklif edərdim bu pul 3 sənəyə deyil, qaytarılmamaq şərti ilə [Bələdiyyə] İdarəsinə verilsin. Bələdiyyə İdarəsi məlumdur ki, bu borcu bu müddətdə qaytara bilməyəcəkdir. Ona görə şərt qoymalıdır ki, Bələdiyyə İdarəsi özü mədaxillərini artırmaq üçün tədbirlər görsün, tainki zərəri olmasın.

**Sədr** - Söz Yusifəli Əliyevindir.

**Yusifəli** (Müsavat) - Bələdiyyə İdarəsinin dörd milyon istiqraz haqqında – "Müsavat" fraksiyası əhalinin mənafeyi-ümumiyyəsinə xidmət edən müəssisələrin parasız qaldığını nəzərə alaraq bu dörd milyon borcun verilməsi tərəfdarıdır. Bununla bərabər, fraksiyamız Bələdiyyə İdarəsi və əzasının nəzər-diqqətini buna cəlb edib deyir ki, ildə 8 milyon varidat ilə 13 milyon məxaric olarsa, getgedə üzərinə yüklədiyi borcu bir vaxt gələr ki, verə bilməz. Əhali və onun özü üçün borcdan çıxmaq çətin olar. Yaxşı olardı Bələdiyyə İdarəsi özü üçün mədaxil mənbələri arasın. Məsələn, dedilər ki, Ərzaq Nəzarətində yüklərdən put vergisi alınır və bu pul şəhər idarəsinə çatmalıdır. Bu pullar ola bilər ki, şəhərə qaytarılsın, lakin nədənsə, Bələdiyyə İdarəsi bu barədə təşəbbüsatda bulunmamışdır. Bundan başqa şəhərin bir çox boş yerləri var ki, Bələdiyyə İdarəsi onlardan istifadə edə bilərdi və yaxşı mədaxil hasil olardı, amma nədənsə etməyibdir. Bir də Bələdiyyə İdarəsi ticarət və sənaət [sənaye] müəssisələrindən alınan vergiləri artıra bilər. Bundan başqa Bələdiyyə İdarəsi ilə əhali arasında bir çox mübahisəli yer məsələsi var ki, bu məsələnin həll olunması ilə Bələdiyyə İdarəsinə 3 milyondan ziyadə para daxil ola bilər və şəhərin də abadlığına səbəb olar. Ağa Aşurovun bu dəfəlik müavinəti-nəqdiyyə verilməsi təklifinə görə tərəfdar ola bilmərik. Bu pul borc surətində verilməlidir. Bələdiyyə İdarəsi də bilsin ki, borcu vardır və borcu ödəmək üçün yeni varidat mənbələri arasın.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında olan gürcü nümayəndəsinin məlumatı**

Sülh Konfransında olan Gürcüstan Cümhuriyyəti nümayəndəsi xəbər verir ki, Müttəfiq dövlətlər bizim Parisə getməyimizə icazə vermişlərdir. Fransa paytaxtına gəldiyimizdən sonra bizim Sülh Konfransında iştirak edib-etməməyimiz məsələsi həll ediləcəkdir. Milyukov ilə Sazonov kimin namından [adından] və hansı vəkalətnamə ilə müzakiratda bulunduğu mənə məlum deyildir. Hər halda bu ağalar əski Rusiyanı bərpa etmək əvəzinə, bolşevizm yanğınını söndürməyə çalışsalar yaxşı olardı. Hər halda bu ağaların Qafqaziya hökumətləri haqqında bəyani-əfkarda bulunmağa [fikir bildirməyə] heç haqları yoxdur.

## TELEQRAF XƏBƏRLƏRİ

**İngilis qoşunlarının övdəti [qayıtması]**

İngilis qvardiya firqəsinə əmr verilmişdir ki, Reyndən qayıtsınlar. Bu firqənin xüsusi bölükləri az zamanda İngiltərəyə qayıdacaqlardır.

* İspaniya Kabinəsi istefa vermişdir. Fəqət büdcə qəbul edilənədək köhnə Kabinə iş başında qalacaqdır.

**Könüllülər Odessada**

Odessa, 15 fevral - Burada olan Könüllü qoşunları arasında möhtəkirlik və yəğmaçılıq davam edir. Bunlar həcz təriqi ilə [müsadirə yolu ilə] kəndçiləri qarət edirlər. Odessada 3 min nəfər könüllü vardır ki, saldatlığı əvəz eyləmiş afiserlərdir.

London - İngiltərə sahillərində casusluğundan şübhə edilən 3 nəfər tövqif edilmişdir [tutulmuşdur]. Zənn edilir ki, bunların birisi nemes, ikisi isə rus afiserləridir. Bunlara verilən suallara qətiyyən cavab verməmişlərdir.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Vilson əleyhinə sui-qəsd**

* Nyu-York - Yekşənbə [bazar] gecəsi 4 nəfər ispaniyalı Amerika rəisi-cümhuru [prezidenti] Vilson canına sui-qəsd hazırladıqları üçün həbs edilmişlər.

* Parisdə olan amerikalılar Vilsonun dübarə [təkrar] Parisə gəlməsilə həyatından ehtiyat edib Vilsonun Amerikada qalmasını təkid edirlər.

**Çin hökumətinə borc**

Nyu-Yorkun böyük bankları Çin hökumətinə 50 milyon dollar borc verirlər.

**Müxtəlif xəbərlər**

* 100 min put neft qəbul etməkdən ötrü "Luç" paraxodu Odessadan Batuma gəlmişdir.

* İzmirdə rus və yunan bəhriyyəliləri [matrosları] arasında ciddi toqquşma olmuşdur.

* Varşavada işsizlikdir. Rusiyadan xammallar alınmadığına görə fabrikalar qapanmaqdadır.

**Macarıstanda bolşevizm**

Macarıstanda artmaqda olan bolşevizm hərəkatından ehtiyat edirlər. Peştədə alınan xəbərlərə görə, Rusiya bolşevikləri gizlin bir iclasda qərar qoymuşlar ki, Macarıstana 50 min nəfərlik bir boşevik dəstəsi göndərsinlər. Peştə əhalisi təbəddülat [qeyri-stabillik] olacağından qorxurlar.

**Ermənistan istiqlaliyyəti**

Ermənistan istiqlaliyyəti haqqında ingilis qəzetələrində məqalələr dərc edilmişdir. Bu qəzetələrin birində Ermənistan Hökumətinin sərhədləri də qeyd edilmişdir. Bu qəzetələrin yazdıqlarına görə hal-hazırda ermənilər öz qüvvələrini kəndilərini müdafiə və mühafizə edəcək qədər artırana qədər bir hökumət axtarırlar ki, onlara zamin olsun.

* Tiflisdə olan ingilis heyəti Gürcüstan teleqraf idarəsindən təvəqqe edir ki, zeyldəki [aşağıdakı] xəbəri elan eyləsin:

Mövsuq [mötəbər] mənbələrdən alınan xəbərlərə nəzərən, fevralın 26-da osetinlərlə inquşlar general Denikinin Könüllü ordusuna qoşularaq bolşeviklərlə mübarizə edəcəkdir.

**Nuri paşa və Mürsəl paşanın həbsi**

Tiflisdə olan ingilis komandanı təvəqqe etmişdir ki, zeyldəki məlumat ümuma elan edilsin:

Türkiyə qoşunlarının sabiq komandanı Nuri paşa və Mürsəl bəy Batumda həbs edilərək mühakiməyə verilirlər.

* İzmirdə yunan matrosları ilə rus matrosları arasında qayət qızğın və qanlı müharibə vaqe olmuşdur.

## QƏZETƏLƏRDƏN

**Şimali Qafqaziyada**

Alınan mövsuq [etibarlı] xəbərlərə görə, Cənub Rusiya komissarı Orconikidze Mərkəzi Şura Hökumətinin Dağıstan Cümhuriyyətini təsdiq etməyi qərarını Dağıstan Hökumətinə xəbər vermişdir.





**Dağıstan Cümhuriyyəti və general Denikin**

Dağıstan Hökumətinin siyasi nümayəndəsi Kantemirovun öz hökumətindən aldığı xəbərlərdən görünür ki, Dağıstan Hökumətilə Könüllü ordu ərkanı [qərargahı] arasında onların gələcək münasibatı [münasibətləri] haqqında davam edən uzun müzakirat heç bir nəticə verməmişdir. Denikin ordusu Şimali Qafqaziya millətlərinin və onların Parlamanının arzusuna baxmayaraq, dinc əhali əleyhinə öz hərbi hərəkatında davam etməkdədir. Denikin ordusu Qroznıya çatıb Dağıstan Hökumətinə təklif etmişdir ki, iş başından çəkilib Dağıstan ordusunu buraxsın. Burada işləyən məşhur irticapərəst general [Vladimir Platonoviç] Lyaxovdur. Lyaxov Tersk-Dağıstan ordusu komandanı təyin edilmişdir. Bunun qəsdi odur ki, Dağıstanlılar İttifaqını milli nahiyələrə təqsim edib [ayırıb] hər nahiyə başında öz məmurlarını qoysun. 1905-ci ildə öz irticai fəaliyyətlərilə məşhur olan generallar indidən hər nahiyəyə namizəd edilmişlərdir. General Lyaxov Könüllü ordu heyətinə daxil olmaq üzrə Dağıstanda alaylar təşkil etmək niyyətindədir. Hər yerdə şiddətli cəza tədbirləri tətbiq edilir. Əhali həyəcana düşüb narazılıq izhar etməkdədir. Dağıstan Cümhuriyyəti Parlamanı Könüllü ordunun hər bir tələbatını rədd edib hökumətə təklif etmişdir ki, hər cür vəsaillə [vasitəylə] Dağıstan Cümhuriyyətini irəliləməkdə olan qara irticadan mühafizə etsin. İngiltərə heyəti Teymurxanşuradan geri dəvət edilmişdir. General Tomson indiyə qədər Könüllü ordu tərzi-hərəkəti haqqında bir cavab verməmişdir.

- Böylə xəbər verilir ki, dağıstanlıların Könüllü orduya üsyanları bütün Şimali Qafqazı tutmuşdur. Könüllü orduya qarşı edilən müharibədə balkar, kabardin, inquş, osetinlər iştirak edirlər. Qafqay [Vladiqafqaz] və Proxladnı dairəsində olan Dolakovo, Kantışevo kəndlərində qayət qızğın müharibələr olmuşdur. Dağıstanlılardan iki mindən ziyadə adam qətl edilmişdir. Könüllü ordu tələfatı isə daha artıqdır. Könüllü ordu irəlilədikcə bir neçə Dağıstan afiserləri və bəyləri də onlara qoşulmuşdur. Camaat silahlarını vermək istəməyirlər. Könüllü ordunun tələbi əhalini həyəcana salıb, bu tələbi əbədən [əsla] qəbul etməyirlər. Dağıstan Hökuməti Dağıstan və Könüllü ordu ixtilafına Müttəfiqlərin müdaxilə etmələrini arzu edir.

**Varşavada tətil**

Fevralın 7-sində Varşavada bolşevik mətbuatı təzyiq edildiyi və bolşeviklərdən bir çoxları həbs edildiyi üçün ümumi tətil elan edilmişdir. Elektrik mövqifi [stansiyası], su yolu, tramvay və sairə tətil etmişlərdir.

Kiyev – Voznesensk şəhəri Odessaya hücumda bulunan şura qoşunları tərəfindən işğal edilmişdir. Odessa əhalisinə su verən böyük su kəməri bolşeviklərin əlinə keçmişdir. Odessa əhalisi artıq həyəcan keçirməkdədir.

**Türkiyədə: Sanders paşa**

İstanbuldan xəbər verilir ki, general Liman fon Sanders paşa müharibə zamanında erməni qırğınına əmr verdiyi üçün şimdi məhkəməyə cəlb edilmişdir.

**Türklərin tələfatı**

Rəsmi surətdə bildirildiyinə görə, Türkiyənin müharibə zamanında tələfatı böylədir: ölən 437.000, yaralanan 408.000, əsir düşən 104.000.

**Sevastopolda**

Sevastopol şəhərinə 4 dənə böyük tank gətirilmişdir. Bunlar şimala göndəriləcəklərdir. Külli miqdarda Müttəfiq əsgərlərinin Sevastopol şəhərinə varid olacaqlarına [gələcəklərinə] görə hamı mehmanxanalar, boş evlər və otaqlar həcz [müsadirə] edilmişdir. Məktəbləri həcz etmək niyyətindədirlər.

**Batumda ictima**

Bu günlərdə Batum oblastı əhalisi nümayəndələrinin Batumda ictiması [yığıncağı] olacaqdır. Bu ictimada məhəlli [yerli] hökumət məsələsi müzakirə edilib, mümkün olsa təzə intixabat [seçki] olacaqdır.

**Soçi nahiyəsinin təxliyəsi**

Ən mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Soçi nahiyəsinin Könüllü ordu tərəfindən təmizlənməsi binagüzarlığı [sərəncamı] Londondan verilmişdir.

**Rusiyada**

Helsinqfors [Helsinki] qəzetəsi xəbər verir ki, Finlandiyada rus əsgəri firqəsi təşkil edilməkdədir. Həmin qəzetənin yazdığına görə, bolşevikləri dağıtmaqdan ötrü 70 minlik bir ordu Petroqrad üzərinə hərəkət etməkdədir. Bolşeviklər də Petroqradı boşaltmaqdadırlar.

**Baltik dənizində**

Xəbərlərə görə, Baltik dənizində ingilislərlə müharibə əsnasında “Petropavlovsk” zirehlisi qərq, “Oleq” paraxodu Müttəfiqlərə təslim olmuşdur.

**Rus nümayəndələri**

Parisdən alınan simsiz teleqraf xəbərlərinə görə, knyaz [Georgi Yevgenyeviç] Lvov, [Nikolay Alekseyeviç] Maklakov və [Boris Viktoroviç] Savinkov Lloyd Corc tərəfindən hüzura qəbul edilmişlərdir. Bu nümayəndələr qəbul edildiyi zaman Pişon dəxi iştirak etmişdir. Bu müşavirədən qəti nəticələr gözlənir.

**Hacı-Tərxan cəbhəsi**

Stavropoldan xəbər verirlər ki, general Stankeviç ilə Maniçin ordusu Hacı-Tərxan quberniyasında Elitsa şəhərini işğal edib Hacı-Tərxandan gətirilmiş olan mühimmati-hərbiyyəni [hərbi sursatı] ələ keçirmişdir. Elitsa şəhərinin işğalı ilə Yaskuldan Hacı-Tərxana gedən yollar bolşeviklərin üzərinə qapanmışdır. Bolşeviklər bundan belə həman yerə mühimmati-hərbiyyə daşımaqdan məhrum edilmişlərdir.

**Tsaritsın ətrafında**

Tsaritsın ətrafında inadlı müharibələr davam edir. Könüllü əsgərlər bolşevikləri şərqə tərəf sıxmaqdadırlar.

**Ukrayna ilə bolşeviklər arasında**

Ukrayna ilə məhafili-siyasiyyənin [siyasi dairələrin] nüfuzlu nümayəndələri izhar edirlər ki, Velikorossiya ilə mehriban qonşuluq münasibatı bərpa etmədən əvvəl iki əsaslı məsələ haqqında saziş lazımdır. Bu məsələlərdən biri sərhəd təyini və digəri Rusiya əmvalının təqsimidir [mallarının bölünməsidir].

Professor Eyxelmanın hesabına görə, Ukrayna bütün Rusiya əmvalının 21 faizini almalıdır.

Başqa məsələlər cümləsindən Sülh Konfransında Kamçatka haqqında müzakirat olmuşdur. Şura Hökuməti Kamçatkanı Amerikaya satmaq niyətində imiş. Amerika da həmin şibhi-cəzirə [yarımada] üçün 62 milyard təklif edirmiş. Hərgah Kamçatka şibhi-cəzirəsinin satılması haqqında müqavilənamə əqd edilərsə [imzalanarsa], şibhi-cəzirənin satışından vüsul olan məbləğdə Ukraynanın da hissəsi olmalıdır. Hərgah Şura Hökuməti Ukrayna Cümhuriyyətinin dediyinə razı olsa, bu yaxın zamanda sülh müzakiratı başlamaq mümkün olar. Rəsmi xəbərlərə görə, Ukrayna Direktoriyası Velikorossiya ilə Getman tərəfindən qət edilmiş müzakiratı təcdid etmək [kəsilmiş müzakirələri bərpa etmək] təhti-qərara almışdır. Bu məqsədlə Direktoriya Xalq Komissarları Şurasına teleqraf göndərib sülh nümayəndələrinin Kiyevə göndərilməsini təklif etmişdir. Bu teleqrafa hələ cavab alınmamışdır.

**Vladiqafqaz-Petrovsk arasında dəmiryol münasibatı**

Vladiqafqaz ilə Qroznı arasında dəmiryol xətti Könüllü ordu tərəfindən düzəlmişdir. Sərnişin qatarları qeyri-müntəzəm bir surətdə hərəkət edirlər. Petrovskdan Qerzel-Aula qədər də qatarlar işləyir.

**Denikin ordusu**

Denikinin Könüllü ordusunun bir hissəsi Kaspi dənizi kənarına çatmışlardır. Bunlar 12 saatda 350 verst yol getmişlərdir. 100 min nəfərdən ibarət olan bolşevik qoşunları pərişan olmuşlar imiş. Bu müvəffəqiyyət general Denikinə Dona diqqət etməsinə imkan vermişdir. Orada bolşeviklər bu yaxınlarda güclü hücumda bulunmuşlardır.

**Denikinin gələcək qərargahı**

Sevastopol - General Denikinin mənzil işinə baxan məmurları buraya varid olmuşlardır [gəlmişlər]. Ərkani-hərbinin [hərbi qərargahının] də bu günlərdə vürudu gözlənir. “Kit”, “Vetsel” mehmanxanaları könüllülərə məxsus olmaq üzrə həcz [müsadirə] edilmişdir.

Sevastopol - Bilafasilə [fasiləsiz olaraq] buraya Müttəfiqlərin və Könüllülərin qoşunu gəlir.

**General Krasnovun istefası**

“Priazovski kray” qəzetəsinin 1-ci nömrəsində xəbər verilir ki, hərbi dairələr məxfi iclasında Don ordusunun komandanı general [Svyatoslav Varlamoviç] Denisova ədəmi-etimad izhar edilmişdir [etimadsızlıq göstərilmişdir]. Ataman [Pyotr Nikolayeviç] Krasnov bu ədəmi-etimadı özünə də aid qəbul edib istefa vermişdir. Bunların istefası qəbul edilmişdir. Zabitlər qaçır. Böyük həyəcan var. Krasnov qaçmışdır.

**Romaniyanın zərəri**

Romaniyanın məlumati-rəsmiyyəsinə [rəsmi məlumatına] görə, Almaniya, Avstriya, Türkiyə və Bolqariya hücumundan Romaniyaya 28 milyard 500 milyon frank, rus saldatlarının təcavüzündən isə 4 milyard zərər toxunmuşdur.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

* İstinaf Məhkəməsinin [Məhkəmə Palatasının] baş sədri təyini barəsində Ədliyyə nazirinin məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Ələkbər bəy Xasməmmədovu Azərbaycan İstinaf Məhkəməsi baş sədri təyin etməli.

* Ərzaq nazirinin İran, Orta Asiya ilə ticarət və sənaye əlaqəsi peyda etmək istəyən müəssisənin təşəbbüsatı barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Həman müəssisənin Ərzaq Nəzarəti ilə əqd etdiyi [bağladığı] müqavilənamənin ləğv edilməsinə dair təşəbbüsatını məqbul hesab etməli. Həman Ərzaq Nəzarəti yurist-konsulluğuna [hüquq məsləhətxanasına] tapşırmalı ki, işbu işi təhrirən [yazılı olaraq] icra etsin ki, hökumət üçün istənilməyən nəticələr çıxmasın.

* Hərbiyyə nazirinin Ləki mövqifindəki [stansiyasındakı] Yegiazarov, Arzumanov və Gizeyə məxsus zavodların hərbiyyə işləri üçün həcz [müsadirə] edilməsi barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə nazirinin fəaliyyətsiz qalmış zavodları həcz etmək barəsindəki məruzəsini təsviblə [bəyənməklə], Daxiliyyə nazirinə tapşırmalı ki, Hərbiyyə Nəzarəti ilə bərabər işbu işi qövldən feilə [sözdən işə] gətirsinlər.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

* Məvaciblərin artırılmasına dair məsələləri müzakirə edən Beynəddəvair Komisyonunun [Dairələrarası Komissiyanın] iclası bu gün martın 2-si, axşam saat 7-də təyin edilmişdir.

* Məsai [Əmək] Nəzarəti tərəfindən Gədəbəydəki fəhlələrin əhvalını məhəllində [yerində] təhqiq etmək üçün göndərilən Rəhim Hüseynzadə cənabları öz səfərindən qayıtmışdır. Oradakı təsiratı [təəssüratı] barəsində Nəzarətə müfəssəl bir məruzə təqdim edəcəkdir.

* Yenə həman Rəhim Hüseynzadə cənabları tərəfindən Göyçə qaçqınlarının əhvalı barəsində müfəssəl bir məruzə hazırlanıb Nəzarətə təqdim edilmişdir.

**QALİB MİLLƏTLƏR**
**İKİ İŞ ARASINDA**

Hər kəscə məlumdur ki, keçən sənə müharibədə, bu sənə də müsalihə [sülh] ərəfəsində bulunan millətlər, sənələrcə kamali-fəaliyyətlə hazırlandıqdan sonra nəhayət 4-5 sənə sürən hərbi-ümumi hailəsini [faciəsini] açdılar. Öylə bir hərb ki, bunun bir mislini gərək Qüruni-vüsta, gərəksə Qüruni-üla tarixi [istər Orta əsrlər, istərsə Qədim dünya tarixi] yazmamışdır. Hətta xilqəti-aləmdən [dünya yaranandan] bəri bəşəriyyətin başına böylə müdhiş bir fəlakət gəldiyin[i] də biləmməyiriz.

Bütün hərb cəbhələrində qanlar dərələr kim axdı. Bir çox gənclər qara torpaqlara sərildi. Tali dərəcəsindən ali dərəcəsinə varana qədər bir çox məktəb tələbəsi dəxi yaxasını qurtarammadı, bu fəlakətin ayaqları altında çiynəndi. Bir çox ailə pərişan oldu. Qadınlar dul və çocuqlar yetim qaldı. Xanimanlar söndü, şəhərlər xak ilə yeksan [yerlə yeksan] oldu. Sənələrcə dağlar başında, çamurlar içində həyat keçirmək məcburiyyətində qalan bir çox həmcinslərimizin kimisi ayağından, kimisi əlindən, kimisi gözündən ayrıldılar.

Bu xaniman yaxan qital [qırğın], təxribatını ancaq hərb cəbhələrində icra etməklə iktifa [kifayət] etmədi. Hərb cəbhəsində yapdığı qədər hərbin arxasında qalan yerlərdə dəxi bütün dəhşətilə təxribat icra etdi.

Yeganə ümidgahı olan övladlarından ayrılan annələr, rəfiqi-həyatından [həyat yoldaşından] cüda [ayrı] düşən qadınlar, babalarının mərhəmət qucağından məhrum edilən mini-mini çocuqlar aclıq və səfalət altında əzilə-əzilə, əyilə-əyilə qırıldılar, məhv oldular. Saheyi-hərbdən [müharibə meydanından] vətənlərinə övdət edən [qayıdan] əsgərlər vətəndaşlarına yadigar olmaq üzrə xolera, tifo, ispanka [ispan qripi] və sair kimi sari illətlər [yoluxucu xəstəliklər] mikrobunu gətirdilər. Bir xeyli həmcinslərimiz də böylə fəlakətlərin qurbanı oldular ki, bu da hərbi-ümuminin məşum nəticələrindən biri idi.

İradəsi əlində bulunan bəşəriyyətin bu fəlakətlər arasında yuvarlanmaqdan məqsədi nə idi? Bilə-bilə işbu fəlakətlərə nə üçün qatlanırdı?!

Bu sualların cavabı bütün müharib [savaşan] dövlətlər ricali-siyasiyyəsi [siyasət adamları] tərəfindən şimdiyə qədər bir qaç dəfə verilmişdir ki, o da: "Məhkum millətlərin əsarətdən təxlis [xilası] və təmini-istiqlalları." Hərbin bidayətindən [başlanğıcından] bəri müharib dövlətlərin siyasi simalarından hər hangi biri kürsiyi-xitabətə çıxdısa, bütün aləmə xitabən "İştə biz, məhkum və əsir millətlərin xilas və istiqlalı üçün bu qədər zəhmətə qatlanırız. Bizim bütün qayəmiz bəşəriyyəti qurtarmaqdır" dedilər. Bu söz ittifaqçılar tərəfindən söyləndiyi kimi etilafçılar tərəfindən də bütün hərarətilə ortaya atılırdı. Biz o zaman kəndi-kəndimizə şöylə bir sual irad edirdik: Əcəba, hangi tərəfin sözü doğru ola bilər?

Şübhəsiz ki, hər iki tərəfin sözü doğru olammazdı. Çünki hər iki tərəfin də sözü doğru olarsa, işbu fəcaətli hərbə ehtiyac qalmazdı. Çünki iki tərəf də eyni məqsədlə çalışmış olacaqdı, eyni qayəni təqib etmiş olacaqdı. O halda bu müharibəyə cinnətdən [dəlilikdən] başqa heç bir məna veriləmməzdi. Binaənileyh [ona görə], mütləqa bir tərəfin üzünə işbu siyasi maska taxılmış olduğuna hökm edirdik. Lakin bu maska hangi tərəfin üzündə olduğunu bilməyirdik. Şübhəsiz ki, bütün aləm bizim kimi böyük maraqla bunu öyrənmək istəyirdi. Lakin bir tərəf qalib olmadıqca həqiqəti öyrənmək mümkün deyildi. Nəhayət görürüz ki, bu gün etilafçılar qalibiyyəti qazandılar. Bütün millətlərin və hətta tarixin böyük maraqla bilmək istədiyi məsələnin həll ediləcək zamanı gəldi. Artıq bu dəqiqələrdə qalib millətlər iki mühüm iş arasındadırlar.

Birincisi, hərbin bidayətindən [başlanğıcından] bəri bir çox dəfə aləmi-insaniyyətə [insanlıq aləminə, bəşəriyyətə] qarşı söylədikləri işbu sözlərinin səmimi və xa-

lis olduğunu bilfeil [əməli surətdə] isbat edərək əsrimizdə mühüm bir miqdar təşkil edən məğdur [məzlum] və əsir millətləri qeydi-əsarətdən [əsarət zəncirindən] qurtarmaqla gələcək nəsillərinə xalis və səmimi dost və minnətdarlar qazandırmaq, kəzalik [eləcə də] tarixi-istiqbalda "müncilik" [xilaskarlıq] şərəfini ehraz etmək [qazanmaq].

İkincisi isə, bu tatlı vədlərin əfkari-ümumiyyəni [ictimai rəyi] qazanmaq üçün yapılan bir xədiyeyi-siyasiyyə [siyasi fırıldaq] olduğunu və üzlərinə örtülən siyasət maskasından başqa bir şey olmadığını feilən isbat etməklə işbu məhkum millətlərin qəlblərində kəndilərinə qarşı böyük qeyz, nifrət və ədavət bəsləmək.

İştə, qalib millətlərin bugünkü xətərnak [təhlükəli] mövqeləri öylə bir mövqe ki, oradan – tarixcə – uçuruma doğru yuvarlanmaq da əllərində, səmaya doğru yüksəlmək də əllərində. Sözümüzə nəhayət vermədən şurasını da söyləyəlim ki, bugünkü qalib millətlər böylə aləmi aldadacaq qədər böyük bir dənaəti irtikabla [alçaq hərəkətə bulaşmaqla] tarixlərini ləkələyəcəklərinə heç ehtimal verəmməyirəm.

Binabərin [buna görə], sülh masasında bundan sonra, bu günə qədər məhkumiyyət altında yaşayan başqa millətlərlə bərabər 70-80 milyon türk millətini dəxi hürr, müstəqil olaraq yaşadacaq surətdə qərarlar ittixaz edəcəklərini [qərarlar qəbul edəcəklərini] qəviyyən [möhkəm] ümid ediriz. İşbu ümidimizdə haqlı olub-olmadığımızı artıq zaman göstərəcəkdir.

*Daşkəndli*
*Xalid Səid*

## KƏND QADINLARININ ƏHVALİ-MÜƏSSİFƏSİ [TƏƏSSÜFLÜ HALLARI]

Kəndlərimizdə cərəyan edən həvadisati-qəbihələr [mənfi hadisələr] cümləsindən biri də cəbrən [zorla] qız götürüb qaçmaq məsələsidir. Şu adəti-qəbihənin [pis adətin] gündən-günə tərəqqisini görürüz. Gün olmaz ki, filan kənddə filankəsin qızını cəbrən sürüyüb apardılar və aparan vaxtda qızın qardaşını və ya əqvamını [qohumlarını] müdafiə zamanı yaraladılar və ya öldürdülər, xəbərin[i] görüb eşitməyək. Nə etməli? Bəstəri-cəhalətdə [cəhalət döşəyində] yatan, dünya aləmindən xəbəri olmayan kəndlilərdə bir sahibi-vicdan tapılmazmı insana yaraşmayan bu vəhşi əməllərə qarşı etiraz edə, insaniyyət naminə mütəəssir ola? Əstəğfirullah! Bəlkə təqazayi-cəhalət olaraq [cəhalət səbəbindən] dəni-təb'lər [alçaq təbiətlilər] vəhşilərin qəbayihini [qəbahətlərini] şücaət bilib mədh edirlər. Amma, qızın biçarə validəsi mafövqü mütəsəvvər olmayan [bundan daha artığı təsəvvür edilə bilməyən] şu zülmü görüb nə etmək, nerəyə və hangi məhəllə [hansı məqama, hansı yerə] müraciət edim deyib öz məzlumiyyətinə ağlamaqdan başqa çarə bilməyir.

Kəndlərdə rəislik adını daşıyan vicdansızlar qızın anasına məzəmmət dili açaraq ağlamağına etirazən deyərlər: Nə olub, məgər qiyamətmi qopub? Bu iş hələ sənincünmü düşüb, sən bu qədər ağlayırsan?! Bir qızdan ötrü bir igid oğlanı öldürmək olarmı? Qızı itə verdin, iti də aldatdın deyirlər... Ar olsun o cür cühəlalara [cahillərə]. Ağuşi-şəfqətində [şəfqət qucağında] bəslənən anasının həmcinsini itdən əskik hesab edib də qəbahətin[i] qanmayan vicdansızlara insanmı demək olar?! Həmçinin bu kimi qəbahətin[i] qanmayan arsızlar məzlumə qıza da növbənöv məzəmmətlər edib əqd oxunmağa [kəbin kəsilməyə] razı etmək istəyirlər. Ah, zavallı qız, sevmədiyi oğlana necə razı olsun və razı olmayıb da nə eyləsin? İffət və isməti ləkələnib tarixi bir istehza olacağını bilir. Bu mülahizə ilə töv'ən və kərhən [könüllü-könülsüz] guya riza verir... Məcburi izdivacdan təvəllüd tapanlarda millət hissi, şan və şərəf olarmı? Xeyr, əksinə olar. Nifaq, arsızlıq, vəhşilik – bunlardan başqa bir şey olmaz, zənnindəyəm. Qadınlarımız haqqında rəva görülən bunca cəbr və zülmə qarşı çarə aramaq və dəf'inə çalışmaq kənddə yaşayan üləmalarımızın vəzifeyi-şər'iyyəsi [din alimlərimizin qanuni vəzifəsi] deyilmi? Bu qəbih və narəva [rəva olmayan] hərəkətləri görüb öz evində rahat oturmaq laqeydlik əsəri deyilmi? Əgər, şu adəti-qəbihəmiz [pis adətimiz] islah olmazsa, istiqbalımızın [gələcəyimizin] nə olacağı məlum deyilmi? Şu qəbih və naməşru [qanunsuz] əməllərin önünü almağa yeganə ümidimiz cavan hökumətimizədir. Ümid var hökumətimiz vəhşilərin qabağına sədd çəkib kənd qadınlarımızı bu zülmdən qurtarar.

*Qulam Həsənzadə*

## BAKI XƏBƏRLƏRİ

### Hərbi gəmilərin getməsi

Srağagün, axşam Bakıdakı İngiltərə komandanlığı tərəfindən bəhri-Xəzər donanmasına tərk-silah etmək təklifi ilə ultimatum təqdim edilmişdir. Ultimatumun vaxtı dünən, martın 1-də gündüz saat 12-də tamam olurdu. Ultimatumda tərk-silah etməklə bərabər Denikin ordusuna mülhəq olmaq [birləşmək] tələb edilmişdir.

Ultimatumu qəbul etməyərək hərbi gəmilərdən "Ərdahan", "Qars" və bir daha digəri gecə ilə işıqsız olaraq şəhərdən çıxıb getmişlərdir. Şəhərdə dövran edən şayiata [şayiələrə] görə, onlar Hacı-Tərxana getmişlərdir. Dünən səhər Krasnovodskdan Bakıya gələn "Dolo" adlı paraxod onları görmüşdür. Bakıdakı İngiltərə komandanlığı Petrovska teleqrafla gəmilərin tövqif [həbs] edilməsini əmr etmişdir. Bəzilərinin dediyinə görə, azuqələri və güllələri olmadığından gəmilər dənizdə təslim olmağa məcbur ediləcəklərdir.

### Təzəpirdə yığıncaq

Fevralın 27-də Təzəpir məscidi həyətində müsəlmanların yığıncağı vaqe olmuşdur. Yığıncaqda şəhərin müxtəlif məhəllələri tərəfindən gəlmiş 500 nəfərdən ziyadə camaat hazır idi. Əvvəlcə Bakı qalabəyisi [komendantı] vəzifəsini ifa edən Lütfəli bəy Əmircanov cənabları camaata müraciətən bir nitq irad edərək [söyləyərək], axır vaxtlar şəhərdə gecələr güllə atılması şiddət etdiyindən bəhslə tezliklə böylə hərəkətin önünü almağı təklif etdi. Bir qədər müzakirədən sonra camaat mütəffiqülqövl [yekdilliklə] hər məhəllədən üç nəfər olmaq üzrə nümayəndələr intixab edilməsini [seçilməsini] təhti-qərara aldı. Həmin nümayəndələr srağagün, fevralın 28-də hər məhəllənin camaatını öz məscidinə dəvət edib güllə

atmaq məsələsini qəti surətdə müzakirə etmişlərdir. Məzkur [deyilən] nümayəndələr hər məhəllədə güllə atanları tövqif [həbs] edib təhti-mühakiməyə [mühakimə altına] alınmasını öhdələrinə qəbul etməlidirlər. Güllə atanları vermədikləri halda nümayəndələr özləri cavabdəhəndə [cavabdeh] olacaqdırlar.

**Mütəallimlər [tələbələr] həyatında**

Müsəlman şagirdlərinin cəmiyyəti

Cümə günü 28 şubatda saat 10-da Realnı məktəbində biçiz [yoxsul] olan şagirdlərə müavinət etməkdən ötrü ictima [yığıncaq] tərtib olundu. Həman məclis ictimasında əksəriyyəti-ara [səs çoxluğu] ilə sədr və müavini-sədr [sədr müavini], bir katib, bir nümayəndə və təftiş komissiyası intixab olundu [seçildi]. İntixabdan sonra Abdulla xan Həbibzadə cənabları tərəfindən bir nitq söylənilib və sonra ianə toplanmaq təklif etdi və fil-məclis [məclisdə] bir qədər pul toplandı. Seçilən bunlardır:

Sədr - Hüseynqulu Hüseynzadə; müavini-sədr - Abdulla xan Həbibzadə; katib - Əli Yusifzadə; nümayəndə - Məhəmmədsadiq Vəlizadə; xəzinədar - Əbülfəzl Dadaşzadə və müfəttişlər - Nurizadə, Əlizadə, Mahmudzadə.

**Müsəlman tələbə və talibatının [oğlan və qız tələbələrinin] nəzər-diqqətlərinə**

Cümə günü fevralın 28-inə təyin edilmiş tələbələr iclası martın 4-ü axşam saat 5-də Birinci Realnı məktəbi mülkündə iniqad edəcəkdir [baş tutacaqdır]. Yoldaşlardan vaxtında gəlmək rica və təmənna edilir.

**Hadisat**

* Milyonnı-Malakanski küçələrin küncündə olan Qafqaz-Türküstan Cəmiyyətinin araq anbarında naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən qıfıl sındırılıb 80 min manatlıq mal oğurlanmışdır. Bədəfkarlar tövqif [həbs] edilmişlərdir.

* Bələdiyyə İdarəsi məmuru polisəyə məlum etmişdir ki, ərzaq anbarından 140 put sabun oğurlanmışdır. Bədəfkarlar gizlənmişlərdir.

* Bibiheybət Neft Cəmiyyətinin anbarından bədəfkarlar qıfılı sındıraraq 40 min manatlıq sabun oğurlamışlardır. Təhqiqat davam edir.

* Bülbülə kəndində sükunət edən [yaşayan] Məsumə xanım Mirkərim qızı polisəyə məlum etmişdir ki, o, evdə olmadığı halda qapı sındırılıb 4.730 manatlıq ev müxəlləfatı [əşyaları] oğurlanmışdır. Oğurluqda məzkur [adı çəkilən] kəndin sakini Lütfulla Abbas oğlundan şübhə edilib tövqif edilməsindən ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

## HÖKUMƏTİN İSTEFASI MÜNASİBƏTİLƏ

**"Fəhlələr nümayəndələri iclasında qəbul edilən qətnamə"**

27 şubat tarixində pəncşənbə [cümə axşamı] günü saat 2 bə'dəzzəval [günortadan sonra] Sabunçu, Ramanı, Zabrat, Balaxanı məntəqələri mədənlərində çalışan müsəlman işçiləri nümayəndələri Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsində iclas təşkil edərək məclisi idarə etmək üçün öz aralarından Rəhim bəy





Cahangirzadəni sədr, Qara Məhərrəmzadəni katib intixab etdikdən [seçdikdən] sonra: 1) Hökuməti-hazirənin [hazırkı hökumətin] istefası; 2) Hökumət tərəfindən fəhlələri işdən kənar etmək və işə qəbul etmək ixtiyarı mədən sahiblərinə vagüzar edilməkdən [tapşırılmaqdan] bilistifadə [istifadə etməklə], kantorlar fəhlələri heç bir təqsiri olmaqsızın qulluqdan kənar etmələrindən dolayı fəlakətə düçar olanların tedadı [sayı] gündən-günə təzayüd etmək [artmaq] məsələləri müzakirə edildi. Nəticədə "Azərbaycan" qəzetəsi vasitəsilə Azərbaycan Cümhuriyyəti Parlaman heyəti-məbusanına müraciətən iclas namından [adından] aşağıda yazılan təkliflərinin sərəncamına müsaidə göstərmələrini rica etmək qərara alındı:

1) Cavan cümhuriyyətimiz Denikin misilli qara və irticai qüvvələr tərəfindən təhdid olunduğu bir zamanda azəri türklərinin mayeyi-iftixarı [qürur mənbəyi] və yeganə istinadgahi-siyasilərindən biri ədd [hesab] edilən Rəisi-vükəla [Baş nazir] Fətəli xan həzrətləri hökumətin[in] istefası ilə hasil olan tərəddüdlü [qeyri-sabit] halı məmləkət üçün son dərəcə xətərli bildiyimizdən yeni kabinənin bir an əvvəl təşkilini tələb ediriz. Yeni təşkil ediləcək kabinə Parlamanın mərkəz və ondan sol firqələrdən mütəşəkkil bir əksəriyyətinə istinad edəcəyinə və yalnız şu surətlə də demokratik bir hökumətin vücuda gələcəyinə qaneyiz. Biz müsəlman işçiləri ancaq müqəddəsati-diniyyəmizə [dinimizin müqəddəs dəyərlərinə] ehtiram və hüquqi-milliyyələrimizi etirafla bərabər, zəhmətimizi təmin edici bir islam hökumətini etiraf [qəbul] və tam mövcudiyyətimizlə bütün maneələrə qarşı müdafiə edəcəyiz.

2) Fəhlələri xidmətdən kənar etmək və qulluğa götürmək ixtiyarı mədən sahiblərinə vagüzar edilməsindən naşi [ötrü] sənələr müddəti bir mədəndə çalışmaqla vücudunun dəyərli bir üzvünü qeyb etmiş olan zavallılardan hər gündə onlarcası günahsız və təqsirsiz xidmətdən kənar edilib fəlakətə sövq olunduqları münasibətilə bu kimi zavallı biçarələrin müqəddəratı bir taqım vicdansız mədən müdirlərinin və müavinlərinin keyfəmayeşalarına [özbaşınalıqlarına] tövdi edilmiş [tapşırılmış] olmasından nəşət edəcək [irəli gələcək] sui hallara nəzər-diqqətinizi cəlb edərək, fəhlələrin işdən kənar edilmək və işə qəbul edilmək ixtiyarı mədən komissiyalarına verilməsi zimnində [dolayısı ilə] lazım gələn məhəllinə işar edilməsinə [lazımi yerlərə bildirilməsinə] müsaidə buyurmaqla bu cür haqsızlıqlara bir intəha verib müfsidlərə [fitnəkarlara] istifadə macalı buraxmayacağınıza əminiz.

*Sədr - Rəhim Cahangirbəyzadə*
*Katib - Qara Məhərrəmzadə*

## MÜRƏTTİBLƏR MƏKTUBU

Möhtərəm müdir əfəndi!

Şu sətirlərin qəzetənizdə dərcini rica edəriz.

Srağagün təəccüb və təəssüflə eşitdik ki, hökumətimiz istefa vermişdir. Məmləkətimizin bu qədər ciddi bir vəziyyət altında bulunduğu zaman hökumətimizin iş[dən] istefa verməsinə biz türk mürəttibləri çox təəssüflər ediriz. Əzcümlə [o cümlədən], həman Kabinə daxilində bulunan Maarif naziri həzrətləri biz mü-

rəttibləri qələmlə yazmaq mümkün olmayacaq dərəcədə razı buraxmış və bu vaxtadək bizim haqqımızda mehriban bir ata kimi olub həmişə qeydimizə qalmış, dərdimizə çarə etmişdir. Nazir həzrətləri bizi yalnız maddətən təminlə iktifa [kifayət] etməyib, sənətimizdə məharət, işimizdə tərəqqi kəsb etməyimizə də çalışmışdır. Ona görədir ki, böylə alicənab bir haminin istefası bizi son dərəcə mükəddər edir [kədərləndirir]. Binaənileyh [ona görə], Nəsib bəy həzrətlərini bir nazirdən ziyadə qeydkeş bir ata kimi görərək, biz türk-müsəlman mürəttibləri Maarif Nəzarəti başında həmişə o cənabı görməyi arzu edirik və ümidvarıq yenə görəcəyiz.

*Türk-müsəlman mürəttibləri*

## GÜRCÜSTANDA

**Azərbaycan siyasi nümayəndəsi**

Azərbaycan Hökuməti tərəfindən Ermənistan Hökuməti nəzdinə təyin olunan Məhəmməd xan Təkinski Tiflisə varid olub [gedib] fevralın 25-də Ermənistan Ədliyyə nazirinin görüşünə getmişdir.

**Poçta-teleqraf münasibatı [əlaqələri]**

Əqd olunan müqavilənamələr mövcibincə [bağlanan müqavilələrə əsasən] martın 1-dən etibarən Azərbaycan, Gürcüstan və Ermənistan arasında hər cür poçta-teleqraf münasibatı bərpa ediləcəkdir.

**Tiflis müsəlmanlarının istedası [xahişi]**

Tiflis şəhərinin təzə Bələdiyyə idarəsində şəhərin müsəlman əhalisindən nümayəndə olmadığına görə, müsəlman Şurayi-Millisi [Milli Şurası] şəhər rəisi yerini dolandırana [vəzifəsini icra edənə] müraciət edib, keçmişdə olduğu kimi namizədlər siyahısında göstərilən üç nəfərdən birinin duma heyətinə daxil edilməsini xahiş etmişdir.

**Bolşeviklərin həbsi**

Bolşevik başçılarından Kərimov, Baxtadze, Aqniyev, Çinçadze və qeyriləri həbs edilib Metex dustaqxanasına salınmışlar. Tiflis məhkəmə palatasının müddəiyi-ümumisi binagüzarlığı ilə Şura Hökumətinin məşhur başçılarından Sergey Kaftaradze həbs edilmişdir.

**Gürcüstan dəmiryolları**

Dəmiryollar naziri Gürcüstanda təzə yollar salınması layihəsini təsdiq olunmaqdan ötrü Gürcüstan Hökumətinə təqdim etmişdir. Məmləkətin tezliklə nəşvü-nüma tapmasından [tərəqqi etməsindən] ötrü yeni dəmiryollar salınması təsəvvür olunur.

**Ermənistana getmək müvəqqətən dayandırılmışdır**

İngiltərə dəmiryol heyəti xəbər verir ki, İngiltərə əsgəri qatarlarında Ermənistana getməkdən ötrü xüsusi elan edilənə qədər icazə vəsiqələri verilməsi dayandırılmışdır.

**Ərzaq şöbəsi**

Tiflis Şəhər idarəsinin Ərzaq şöbəsi mart ayının 1-dən ləğv ediləcəkdir.

**Bolşevik dəstəsi**

Lars mövqifi [stansiyası] yanında gürcülərə təslim olan 100 nəfər çinli bolşevik dəstəsi fevralın 24-də Tiflisə varid olmuşdur [gəlmişdir].





**Neft qiyməti**

Tiflisdə neftin girvənkəsi 3-4 manata satılmaqdadır. Gürcüstan dəmiryolları idarəsi öz qulluqçularına girvənkəsi 46 qəpikdən buraxmaqdadır.

İrəvanda neftin girvənkəsi manatadır. Neft İrəvana Ağstafadan araba ilə aparılır. Hər puta 50 manat kirayə alınır. 80 manata tamam olan neft 120 manata satılır.

**Neft göndərilməsi**

Bakı-Batum neft yolu keçən il dekabrın 12-dən işə başlamışdır. Fevralın 15-inə qədər Gürcüstan Hökumətinə 1 milyon 100 min put, İngiltərə heyətinə 295 min put buraxılmışdır. Bu miqdardan Batuma İngiltərə ərkani-hərbi namına [hərbi qərargahı adına] 237 min put göndərilmişdir. Bundan əlavə, İngiltərə heyətinin tələbatına görə, Ermənistana 57 min put neft buraxılmışdır.

**Axıska hadisələri**

Fevralın 12-də Axıskadan qaçmış olan gürcü saldatları Borjoma varid olmuşlardır. Bunlar topları və sair mühimmatı [hərbi ləvazimatı] birinci vaqona yükləyib qaçmışlardır. Axıska fevralın 11-də axşam saat 6-da müsəlmanlar tərəfindən işğal edilmişdir. Bu hadisədən bir neçə gün əvvəl oraya gəlmiş olan 500 nəfər ingilis qan tökülməməkdən ötrü gürcülərə Axıskadan çıxmağı və şəhəri özlərinə təslim etməyi təklif eyləmişlərdir. Müsəlmanlar da buna razı olmuşlar. İngilislər şəhərdə bəzən gürcülərin nəfinə müğayir [xeyrinə zidd] olan əmrnamələr verirlərmiş. Gürcülər arasında dəhşətli həyəcan olduqdan sonra ingilislərin bu təklifinə razı olmuşlardır. 4-cü alayın saldatları birinci atəşdən sonra cəbhəni buraxıb qaçmışlar. Ricət [geri çəkilmə] yolunda olan Klde kəndinin işğal edildiyi şayiatı [şayiələri] gürcülərin dəxi də artıq həyəcanına səbəb olur. Yalnız afiserlər [zabitlər] vuruşmaqda idilər ki, onların da 30-40 nəfəri ölüb və yaralanmışdır. Almanlar tərəfindən gürcülərə verilmiş olan dörd zirehli avtomobil, bir neçə top və külli ləvazimati-hərbiyyə [hərbi sursat] müsəlmanların əlinə keçmişdir. Yürüş edən müsəlmanlar arasında bir çox türk zabit və əsgərləri varmış. (?)Bugünlərdə Borjomun da müsəlmanlar tərəfindən işğalı gözlənir. Tiflis[ə] Axıska cəbhəsindən 150 nəfər yaralı gəlmişdir. Abastumanda gürcü qırğını olmuşdur deyə şayiat vardır.

Axıskada olan ermənilərlə müsəlmanların əlaqəsi yaxşıdır. Gürcülər getdikdən sonra Axıskada ingilis əsgərləri şəhəri mühafizə edə bilirlər. Şəhərdə gürcülərin güclü mühimmatı [sursatı] qalmışdır.

Fevralın 12-də Z[ori] Zoryan Borjomdan Axıskaya əzimət eyləmişdir [yola düşmüşdür]. Müsəlmanlar şəhərdə 20 nəfər erməni xadimlərini azad etmişlərdir. Bunlar türk və müsəlmanlarla mübarizə etmək niyyətilə təşkilat düzəltdikləri üçün gürcülər tərəfindən həbs edilmişlərdi.

**Təbriz dəmiryolu**

Tiflis ilə Təbriz arasında olan dəmiryolu müntəzəm haldadır. Fevralın əvvəlində Tiflisdən Təbrizə müxtəlif şeylər aparan qatar fevralın 24-də Tiflisə övdət

eyləmişdir [qayıtmışdır]. Açıq vaqonlarda Təbrizdən kişmiş və xüşkbar [quru meyvə] gətirirmiş. Fəqət yolda Aleksandropolda erməni hökuməti ingilislərin rizası ilə bu malları həcz [müsadirə] eyləmişdir. Təbrizdən gələnlər deyirlər ki, İranda külli xüşkbar, düyü və sair şeylər vardır və bunlar ucuz satılır. Amma nəqliyyat vasitələri yoxdur. Rus manatı İranda 7 qəpikdən 10 qəpiyə kimi gedir. Ət isə girvənkəsi 2 manatdan satılır.

**Borjomda**

General Kvinitadze Borjomdan Tiflisə Daxiliyyə vəzirinə [nazirinə] teleqrafən bildirir ki, Borjoma külli fərarilər [qaçqınlar] gəlmişlərdir. Gürcüstan Hökumətinin fərari işlərinə baxan vəkili onlara lazım gələn müavinəti etməkdən acizdir. General təvəqqe edir ki, fərarilər Borjoma göndərilməsin. Zira orada gürcü qoşunları üçün belə mənzil yoxdur.

**Təzə dəmiryolları**

Bir dəstə Amerika mühəndisləri Asiyayi-suğrada [Kiçik Asiyada] müstəqil hökumətlər təşkili ilə Sülh Konfransına müraciət edib Türkiyə vilayətlərində təzə dəmiryolları inşasından ötrü xüsusi dəmiryol komisyonu təşkil edilməsini təklif etmişlərdir. Amerika mühəndisləri Qafqaziyaya yaxın rayonlara artıq əhəmiyyət verməkdədirlər. Buna görə, bu yaxın zamanda Amerika mühəndislərinin və dəmiryol mütəxəssislərinin birinci dəstəsi Tiflisə varid olacaqdır [gələcəkdir]. Bu dəmir yolların Amerika dəmiryolları şəklində inşa ediləcəyi təsəvvür olunur.

**Şüləver əhvalı**

Axıska hadisələrinə görə Borçalı uyezdində bir çox müsəlmanların cəm olduğu müşahidə edilir. Buna görə Şüləverdə olan əsgəri dəstə mövqeyini tərk edib Tiflisə çəkilmişdir. Xəzinə dəxi köçürülmüşdür. Hal-hazırda hökumət məhəlli [yerli] əhali, yəni ermənilərin əlindədir.

**Talibə (kursistka)**

Ali-ibtidai məktəbinin hər siniflərinə şagirdlər hazır edir. Saat 11-dən 1-ədək, 4-dən 7-ədək. Adres: Qubernski və Sisyanovski küçələrin küncündə, nömrə 7, diş həkimi Levinin evində.

*5713*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur.

Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Elan**

Azərbaycan Posta və Teleqraf Nəzarəti elan edir ki, bu şubatın 24-dən etibarən Bakıda böyük posta və teleqraf məktəbi açılır. Dərs axşam saat 5-də başlanır. Ərizə Posta və Teleqraf Nəzarətində qəbul olunur.

Adres: Mirbabayevin evində 3-cü mərtəbədə, Naberejni küçədə.

*Dəftərxana baş müdiri: Blajevski*
*Kargüzar: D. Rəhimli*
*45 3-4*

**Xırda Neftçilər İttifaqı**

Neft quyusu sahiblərinə elan edir ki, fevral ayı məvacib vərəqələrini (tabel) mart ayının 1-dən 5-inə kimi Şaxski küçədə 35 nömrəli evdə Atababayevin kantorunda axşam saat 4-dən 7-ə kimi İttifaqın idarəsinə təqdim etməlidirlər.

*1-1*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 2. “4) Şəhərin məkatib dairələrinin…”: bu maddə qəzetdə müəyyən qüsurlarla getmişdir; bərpa etdik.

“Bütün bu məşruhata binaən…”: qəzetdə bu cümlənin əvvəlində səhvən 5-ci maddə nömrəsi qoyulmuşdur.

səh. 4. “put vergisi”: xüsusən limanlarda bəzi ticarət mallarından put başına alınan vergi.

**Cümə günkü mühüm xəbərlər**

səh. 6. “İzmirdə rus və yunan bəhriyyələri…”: qəzetdə “İzmirdə” yerinə “İzmiddə” getmişdir.

**Qalib millətlər iki iş arasında**

səh. 10. “Tali dərəcəsindən…”: tali (ikinci dərəcəli) məktəblər ibtidai məktəblə ali məktəb arasındakı təhsil qurumları idi.

səh. 11. “ittifaqçılar”: İttifaq Dövlətləri yaxud Mərkəzi Hökumətlər (Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası, Bolqarıstan).

“etilafçılar”: Etilaf Dövlətləri yaxud Antanta (Böyük Britaniya, Fransa, Rusiya).

**Bakı xəbərləri: Hərbi gəmilərin getməsi**

səh. 13. “…və bir daha digəri…”: “Ərdahan” və “Qars”la birgə gedən üçüncü gəmi “Leytenant Şmidt” adlı gəmi idi.

**Bakı xəbərləri: Hadisat**

səh. 14. “Milyonnı-Malakanski”: Bakıda, indiki Fikrət Əmirov və Xaqani küçələri.

**Gürcüstanda: Gürcüstan dəmiryolları**

səh. 16. “…yeni dəmiryollar salınması…”: qəzetdə “bir dəmiryollar salınması” getmişdir.

**Gürcüstanda: Bolşevik dəstəsi**

səh. 17. “…100 nəfər çinli bolşevik dəstəsi…”: qəzetdə “çinli” yerinə “çinlər” getmişdir.

**Gürcüstanda: Axıska hadisələri**

səh. 17. “Yürüyüş edən müsəlmanlar arasında bir çox türk zabit və əsgərləri varmış. (?)”: sual işarəsi (?) qəzetdə getmişdir.

**Xırda Neftçilər İttifaqı**

səh. 19. “Şaxski küçə”: Bakıda, indiki Mirzə Fətəli küçəsi.





**Bazar ertəsi, 3 mart 1919-cu il, nömrə 127**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 30 cəmadiyələvvəl sənə 1337. 3 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## MÜRACİƏTNAMƏ

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən**

Həyati-siyasiyyə içrə camaat müharibə və hərc-mərcliyin minlərcə nahaq qurbanlarını yadlarından çıxarmışdır. Evsiz, ac və naxoş qaçqınlar Azərbaycanın hər yerinə dağılmışlardır. Bir tək Qarabağda arvad, uşaq və qocalar üzərinə hücum edən quldur dəstələrinin xainanə əli ilə 119 müsəlman kəndi xarabazara döndərilmişdir və 50 mindən ziyadə bu kəndlərin qaçqınları Qarabağın düzlərində və çöllərində ah-zar edirlər. Onların arasında səpmə yatalaq azarı dəhşətli bir surətdə hökmfərma olub [hökm sürüb], üsrətdən [çətinliklərdən] və qəm-qüssədən özünü itirmiş insanları amansız bir surətdə biçməkdədir. Bundan əlavə, arvad və uşaqları tanınmaz bir hala salmış olan aclıq və bir köynək ilə bədənləri göyərmiş balaca uşaqları titrətməkdə olan soyuq daha amansız bir surətdə hökmfərmadır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Qarabağ qaçqınlarının ehtiyacını öyrənmək və onlara müavinət etməkdən ötrü təşkilatlar düzəltməyə göndərilən xüsusi komissiya bir çox arvad və uşaqların ac və çılpaq qaldığını görmüşdür. Bir tək Qarabağda 50 min nəfər qaçqın vardır. Bunlardan əlavə, Şamaxıda, Lənkəranda və İrəvan quberniyasından Gəncəyə, Qazaxa gələn nə qədər qaçqınlar vardır. Bu bədbəxtlər Azərbaycanın hər yerində soyuqdan, aclıqdan və xəstəlikdən məhv olurlar. Bu biçarələri ölümdən xilas etməkdən ötrü təcili surətdə pul, paltar və ərzaq şeyləri ilə geniş bir dairədə müavinət [kömək] lazımdır. Bunun üçün böyük pul lazımdır. Hökumət, camaatın köməyi olmadan bu qaçqınları lazımi qədər təmin etmək iqtidarında deyildir. Buna görə hökumət, Azərbaycan vətəndaşlarına müraciətlə bu qaçqın qardaşlara müavinət göstərməyə dəvət edir. Sizin köməyiniz gözlənir. İsti evdə qarnı tox, salamat və aclıq, soyuqluq dəhşətini görməyənlər qulaqlarını tutmamalıdırlar. Öz uşaqlarınıza baxaraq çörəksiz, paltarsız, soyuqda titrəyən bədbəxt yetimləri yadınıza salınız! Hər kəs öz qüvvəsinə görə pul və paltarla müavinət etsin. Bir qəpiyə də utanmayınız. Dama-dama göl olar, deyiblər. Yüz minlərcə öz qardaşlarınızı amansız əcəldən xilas etməkdən ötrü hər kəs

öz payını versin. İanələr qəbul olunur. Pul vermək istəyənlər Naberejnı küçədə 33 nömrəli evdə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin Qaçqınlar şöbəsinə, şey vermək istəyənlər Nikolayevski küçədə Parlaman binası altında "İsmailiyyə" binası tərəfindən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin mərkəzi anbarına müraciət etməlidirlər.

## TELEQRAF XƏBƏRLƏRİ

**Amerikada Vilsondan narazıdırlar**

Amerikada Vilsonun siyasətinə edilən tənqid Vilson Amerikada olmadığı müddət ərzində daha da artmışdır. Bu narazılıq Vilsonun Sülh Konfransında olan məramnaməsindən, bundan əlavə, Yevropada olan möhtac hökumətlərə 100 milyon dollar borc verilməsi münaqişəsindən nəşət etmişdir [irəli gəlmişdir]. Rəisicümhur namizədi Hardinq övdət edən [qayıdan] saldatlara iş vermək üçün təzə məramnamə hazırlamaqdan ötrü Vilsonun qayıtmasını tələb etmişdir. Hardinq demişdir ki, bolşevizmin qərbə tərəf yolunu saxlamaq əhalini ərzaqdan təmin etməklə olar.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Sülh Konfransının təsəvvüratına görə Elzas-Loren əhalisinə də Fransa əhalisi misalı tezliklə haqq və ixtiyar vagüzar edilməlidir [verilməlidir]. Bəzi tədabir ancaq ittifaqlarda tətbiq ediləcəkdir. Buna görə Sülh Konfransı əhalini cümhuriyyət qanunlarından istifadə etməkdən məhrumedici hər cür tədabir layihəsi əleyhinə olacaqdır. Konfrans heyəti-rüəsası [rəyasət heyəti] çaharşənbə [çərşənbə] günü gündüz vaqe olan iclasda Belçika komissiyası üzvünün konfrans şurası tərəfindən vəkalətinin dürüst müəyyən və aşkar edilməsi xahişinə, Transilvaniyada romaniyalılarla macarlar arasında ixtilaf olmaması üçün görülməsi lazım gələn tədbirlərə və erməni komitəsi ilə Ermənistan Cümhuriyyəti sədri Poqos Nubar paşa tərəfindən təqdim edilən Ermənistan tələbatına baxılmışdır.

Qupers sədarəti [sədrliyi] altında beynəlmiləl qanunlarına baxan komissiyanın iclası vaqe olmuşdur. İngiltərə layihəsinin beynəlmiləl qanunlarına görə öz vəzifəsini ifa etməyən hökumətlər haqqında görüləcək tədbirlərə dəxli olan maddələrinə baxıldıqdan sonra, iclas müstəmləkələrdə beynəlmiləl ... təşkilatı məsələsilə məşğul olmuşdur. ... bu təşkilatın gələcəkdə təbdili [dəyişdirilməsi] məsələsinə də baxılmışdır.

**Cəmiyyəti-Əqvamda**

Parisdən verilən xəbərdə deyilir ki, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası yunan, Polşa və Romaniya nümayəndələrinin müzakiratda iştirak etmələrinə müttəhidülqövl [yekdilliklə] razı olmuşdur. Komissiya öz işlərinin üçdən bir hissəsini görüb, Cəmiyyəti-Əqvam təşkil edilməsi məqsədinə müstəqim [birbaşa] münasibatı olmayan bir çox maddələri müzakirə etmişdir. Komissiyanın maddələr haqqındakı qərarları müvəqqətidirlər. Bir çox gözlənilən müşkülatlar rəf edilib [aradan qaldırılıb], bütün layihəyə münasibəti olan əsaslar haqqında ümumi saziş hüsula gəlmişdir. Buna görə qalan maddələrin də tezliklə müzakirə ediləcəyi gözlənir.





## QƏZETƏLƏRDƏN

**Rusiya haqqında Müttəfiqlər**

Müttəfiqlər Rusiyanı cəmahiri-müttəhidə [birləşmiş cümhuriyyətlər] və yaxud federasiya hesab edirlər. Bundan əlavə, Müttəfiqlər sosialist tələbatı ilə uzlaşma olmasını mümkün hesab edirlər. Müttəfiqlərin Rusiya haqqında qəsbedici fikirləri yoxdur. Hərgah bir tərəfdən bu və ya digər surətdə zəbt məsələsi qaldırılarsa, o da Müttəfiqlər siyasəti başında olan məsuliyyətli şəxslər tərəfindən rədd edilər. Amerika və Fransa bu barədə müttəhidül-rəydirlər [həmfikirdirlər].

**Ermənistan haqqında**

Təzə təşkil olunan hökumətlərə Yevropada hüsn-təvəccöhlə baxıb, millətlərin müstəqil olmaları haqqını təsdiq edirlər. Hal-hazırda muxtariyyətlərin müxtəlif surətlərini öyrənirlər. Ermənistan məsələsini həll edilmiş hesab edirlər. Erməni millətinin arzusu təmin ediləcəkdir. Bu barədə iki plan vardır. Birisi Rusiya Ermənistanının Rusiya Federasiyasına (ola bilər ki Qafqaziya Federasiyasına) daxil edilməsi və Türkiyə Ermənistanından da altı vilayət və Kilikya, Ponti yunanlıları ilə bir yerdə (ola bilər ki bir para kürd tayfaları ilə) əlahiddə [ayrıca] federasiya təşkil edilsin. İkinci plan Rusiya və Türkiyə Ermənistanını bitişdirib Böyük Rusiya federasiyası cümləsinə daxil etməkdən ibarətdir. Birinci planın nöqsanı bundadır ki, Rusiya və Türkiyə Ermənistanı təqsim edildikdə [bölündükdə] Rusiya Ermənistanının dənizə çıxacaq yeri olmayacaqdır.

**Bolşevik cümhuriyyətləri**

Royter acentəliyinə xəbər verirlər ki, bolşeviklər Şura Cümhuriyyətinin federalnı bir hissəsi kimi Litva ilə Çervonnını kommunist cümhuriyyəti elan etmişlərdir.

**Petlyura və Denikin**

Şayiata görə Petlyura fransız generalı Bertlo ilə aşağıdakı şərait üzrə [şərtlərlə] sazişə girmişdir: Petlyura diktator təyin edilir. Fransız komandanlığından bixəbər, Petlyura heç bir hərəkati-hərbiyyəyə iqdam edə [girişə] bilməz. Petlyura əsgərlərinin hər bir bölüyünə fransız müəllimləri təyin edilir. Ukrayna əsgərləri Denikin ordusu ilə birləşib Denikin komandasına daxil olurlar. Ukrayna dəmiryolları, ərzaq mövcüdatı və Ukrayna siyasəti fransızlar ixtiyarına keçir.

**Rostov əhvalı**

Tiflisdə olan İngiltərə heyəti fevralın 27-də xahiş etmişdir xəbər verilsin ki, Rostov və Novoçerkassk həyəcanları haqqında şaye olan [yayılan] xəbərlər əsilsizdirlər. Hər iki şəhərdə halət adi qərar üzrədir. Denikin ordusu bütün cəbhə boyu irəli hərəkət etməkdədir.

**Rusiyada xəstəlik**

Petroqradda, Moskvada və Rusiyanın sair şəhərlərində səpmə yatalaq xəstəliyi hökmfərmadır [hökm sürməkdədir]. Xəstəxanaların birində 12 təbib və 40 şəfqət

bacısı vəfat etmişdir. Kifayət qədəri tabut hazırlamaq mümkün deyildir.

**Almaniya gəmilərinin təqsimi [bölünməsi]**

“Tan” qəzetəsinin məlumatına görə, fevralın 19-da vaqe olan Büdcə komissiyası iclasında Almaniya sualtı qayıqlarının məhv edilməsi barəsində Bəhriyyə vəzirinə [Dənizçilik nazirinə] verilən suala məzkur [adı çəkilən] vəzir böylə cavab vermişdir: Mən bu tədbirin qətiyyən əleyhindəyəm və zənn edirəm ki, düşmən gəmiləri Müttəfiq dövlətlər arasında təqsim edilməlidir [bölünməlidir]. Bu cavab Büdcə komisiyyasını qənaətləndirmişdir.

**Petroqrad altında**

Bolşevik simsiz teleqrafı xəbər verir ki, Çud gölünün şimalında Narvada İngiltərə-eston əsgərləri ilə bolşevik əsgərləri arasında müharibələr davam edir. Düşmən tərəfdən uzaqvuran toplar və tanklar iştirak edir.

## AZƏRBAYCAN HƏŞƏRATI

Hamımızın məlumu olan məşhur “Daşnaksutyun” firqəsinin mürəvvici-əfkarı [mətbuat orqanı] və Bakıda nəşr olunmaqda olan “Vperyod” qəzetəsinin 15-inci nömrəsində Zaqatala xristianlarından Bakıdakı Rus Milli Komitəsinə verilmiş “Bir ərizədən” deyə yazılmış bir məqalə, daha doğrusu müğalitənamə [əsassız, qələt sözlər] gördüm. Həqiqətlə münasibəti olmayan bu müğalitənaməni ənzari-amməyə [ictimaiyyətin diqqətinə] ərz və bu haqda bir neçə söz söyləməmi kəndimə borc bildim. İştə, məktub budur:

*“Rusiya inqilabi-əziminin ibtidalarından [Böyük Rusiya inqilabının əvvəllərindən] bu ana qədər Zaqatala okruqu əski idarə məmurları və əhalinin cəhaləti səbəbli bir tilsimə düşübdür. Hələ bu tilsim içindən doğru yola çıxammayır. Əski idarə məmurları əlindən çıxıb yenə siyasi şantajistlər və quldurlar əllərinə keçib və məfövqlərində [özlərindən yuxarıda] kəndilərini təhti-məsuliyyətə alacaq [məsuliyyətə cəlb edəcək] idarələr görmədiklərindən, qəlblərində olan düşmənliklərini izhar [açığa vurmağa] və adət etmiş cinayətlərində davam etməyə başladılar. Bir il yarımdan bəri işbu məmurlar müavinəti [yardımı] ilə okruqdakı müsəlmanlar tərəfindən işlənmiş fövqəladə oğurluq, soyğun və cinayətləri görən əhli-insafın heyrətdə qalmaması mümkün deyildir.*

*Məhəlli [yerli] məmurların vəhşiyanə hərəkətlərinin nəhayəti yoxdur. Bunlar səbəbli bütün dəhşətilə hökmfərma olan [hökm sürən] anarşiya seylabına [selinə] xristianlar açıq-açığına qurban olmaqdadır. Min dürlü cövr və cəfaya, zülmlərə düçar olmayan heç bir xristian kəndləri qalmamışdır. Zaqatala şəhərindəki pravoslavnı kilsəni məscidə təbdil edib [çevirib], məzlum xristianları ibadətdən məhrum etməklə əvvəlki zülmləri bir qat daha artırdılar. Bu kilsənin əmvalını [mallarını] qarət, keşişini qətl etdilər. Xristian qəbirlərini, qəbristanda olan tikililəri dağıtdılar.*

*Məhəlli Azərbaycan məmurlarından vali Haşımbəyov (sabiq Qars valisi müavini), Şabanbəyov, şəhər komissarları Mustafa bəy Qəbulov və Yusif bəy Ağayevlər hal-hazırda belə kəndi mənfəəti-şəxsiyyələri üçün əsassız, dəlilsiz olaraq günahsız adamları, hətta qadınları, çocuqları döymək, söymək, heysiyyətlərinə toxunmaq, mallarını müsadirə etmək və qeyri bunun kimi bəd əməllərdə bulunurlar. Zaqatala okruqunda xristianlara olan hədsiz-hesabsız zülmlərin, talanların, qarətlərin, qətllərin bəziləri göstərilməklə kifayət olunur ki, məhəlli məmurlar bunun önünü almadıqlarından və caniləri bildikləri halda məhkəməyə vermədiklərindən müqəssirdirlər. Qətl edilənlər:*

*1) Gürcü keşişi Mixail (oktyabrda);*

*2) Erməni keşişi Ter-Mkırtıçyan (avqustda);*

*3) Parsam Zaxarov, Keqomona Sakanov (Mazıx kəndində, oktyabrda);*

*4) Serdyuk Artinov, Aleksandr Serkisov (Balakənd yolunda);*

*5) Şamil Qriqoryans, Əmircan Ayrapetov, Mkırtıç Pantoryans, Aqasanov (Carda);*

*6) 6 nəfər Balakənd yolunda: Mendereşvili, Keqo, Vano, Gegile. Bir grek atasıyla və oğlu;*

*7) Baqqal Samson (Balakənd yolunda);*

*8) Qəribşah Ayrapetov, Krebit Avanesov;*

*9) Kazar Qriqoryans (Qax kəndində);*

*10) Sergey Atomyans (Talada);*

*11) Ağamirzə Avanesov, bunun qızını götürüb qaçanda arvadını da yaralamışlardır;*

*12) Petros Petrosov (Talada).*

*Soyulmuşlar:*

*13) Marqarit Stepanyans, Kirkov, Simonov, Şerbakov, Akopov, bir qızın irzinə təcavüz edilmək;*

*14) Aleksandr Avetov, Boqos Akopov və oğlu, Zarya Ananova, Yelena Oskanova, Aram Xaçaturov, Qriqori Baronov və qeyriləri (3 dəfə soyulmuşdur).*

*Administrasiya və məhkəmə yoxluğundan bura xristianları hər bir müavinətdən [köməkdən] məhrum qalmışlardır. Bunlar üzərinə yollar qapalı olduğundan, heç bir yerə gediş-gəlişləri mümkün deyildir.*

*Onu da demək lazımdır ki, burada olan türk əsgərlərindən (!) və müsəlman alayı zabitlərindən çox zülmlər görürük. Bunlar açıq-açığına deyirlər ki, biz Türkiyə hökumətinə yəmin etmişik. Ona görə, başqa hökumətə tabe olmarıq. Bu zabitlər əvvəlki qaçaqlardan daha zalım, daha tərbiyəsizdir. Bunlar hər gün əsgərlər və jandarmalarla xristian evlərinə gəlirlər, heç sual etmədən qapını sındıraraq evə girirlər, məhkəməsiz adamları döyürlər və həbs edirlər. Bir neçə saatdan rüşvət alıb buraxırlar və buraxdıqda döyülmədiyini bildirən qəbz alırlar.*

*Hamıdan artıq zalım, quldur, qaçaq vəzifəsini ifa edən şəhər komissarı Mustafa bəy Qəbulovdur. Mərqum [adı çəkilən şəxs], camaatın 100 min manatdan artıq pulunu yeyib və yediyini də açıq-açığına söyləyir. Qəbulov Likvidasiya Komisyonunun [Ləğvetmə Komissiyasının] sədri olduğu halda “miravoy sud”un [məhkəmənin] və başqa müəssisə şeylərinin talan olunmasına imkan verdi. Bu haqda valiyə olan hər dürlü şikayətlər əncamsız qalır.*

*Gürcüstanla Azərbaycan arasında Zaqatalaya malik olmaq üstündə tabəhal [bu günə kimi] mübahisə davam edərkən, bu söylənən sözlərdən burasını vaqedə*

*[hal-hazırda] Azərbaycan qəsb etdiyi görünür."*

Azərbaycan vilayətindən gəlmiş bir ərzi-halın Azərbaycan Hökumətinə deyil, Rus Milli Komitəsinə verilməsindən və həman ərzi-halın "Daşnaksutyun" qəzetəsində nəşr edilməsindən bu ərzi-halın nə məqsədlə verildiyini hər kəs anlar zənn edirəm.

Bu məktubu oxuyanlardan bir çoxu Zaqatalada xeyli xristian kəndləri olduğunu və bu kəndlərin müsəlmanlar tərəfindən qarət və talan edildiyini zü'miyyatda buluna [haqsız yerə düşünə] bilərlər. Binaənileyh [ona görə], Zaqatala vilayətində bütün xristianların miqdarını göstərməyi kəndimə borc bilirəm: Erməni 270 xanə, rus 17 xanə, gürcü (yəni ingiloy) 560 xanə olub, Qax, Əlibəyli, Meşəbaşı, Alatəmir və Kötüklü kəndlərindən ibarətdir. Deməк, kəndlərdə ancaq gürcü milləti vardır. Rus, erməni millətləri isə Zaqatala şəhərində, qismən də Qax qəsəbəsində sükunət etməkdədirlər. Gürcülər yerli, ruslar Nikolay yadigarı, ermənilər Qarabağ və İrəvan tərəflərindən ticarət qəsdi ilə 15-20 sənə bundan müqəddəm [qabaq] gələnlərdir.

1917 oktyabr ortalarında qətl edilmiş gürcü keşişi Mixail tənəssür etmiş [sonradan xristian olmuş] bir adamdır. İslam vaxtında ismi Mirzə olduğuna görə "Mirzə Keşiş" - deyə məşhurdur. Mirzə Keşiş 120 xanədən ibarət olan Tasmalı adlı islam kəndində ancaq bir xristian ailəsinə keşişlik edirdi. Fövqdə məzkur [yuxarıda deyilən] tarixdə Alatəmir isimli gürcü kəndi yanında qətl edilmişdir. Mirzə Keşişin qövmləri [qohumları] Tasmalı kəndinin müsəlmanları öldürmüş olar zənni ilə olsa gərək, Alatəmir yaxınlığında yol ilə ötüb gedən Tasmalı müsəlmanlarından bir arabaçını yoldaşı ilə birlikdə öldürüb, mallarını da aparırlar. Təqibatda bulunan Əliabad nahiyə müdiri Temiraz cənabları məqtul [öldürülən] arabaçının malları ilə bir yerdə caniləri tutur. Canilər Mirzə Keşişin qövmlərindən 4 dənə gürcü olduğu aşkar olur.

Gürcülər Əlibəyli gürcü kəndi yanından keçib gedən 80 sinninə ermiş [yaşına çatmış] Hacı Məhəmməd ismində bir Almalı[lı]nı boğazlamışlardır. Bununla kifayət etməyərək Qax qəsəbəsinə bazarlıq üçün gedən bir müsəlman arabasını gülləyə tutmuşlardır. Arabanın içində olan 2 qadın, 4 kişidən 3-ü ölür, 1-i yaralanır.

İştə bu səbəbli Almalı müsəlmanları ilə Əlibəyli gürcüləri arasında atışma başlanır. Bunu eşidən komissar Musa bəy, Milli Komitə sədri Qazızadə, gürcü keşişi Portsiladze və başqa adamlar həman dəm gedib bu iki kənd adamlarını barışdırır. Atışmada heç bir tərəfdən ölən olmayır. İşbu hadisədən sonra gürcülərlə müsəlmanlar arasında nəinki düşmənlik, heç bir soyuqluq belə olmamışdır və olmayacaqdır da. Ona görə "min dürlü cövr və cəfaya, zülmlərə düçar olmayan heç bir xristian kəndliləri qalmamışdır" cümləsi daşnaklara məxsus uydurma və müfəttinanə [fitnəkarca] bir sözdür.

Məktubda göstərilmiş məqtullar siyahısı doğrudur. Fəqət bu qətllər komissariat və Zaqafqaziya hökumətləri zamanlarında vaqe olmuşdur. Bu hökumətlər vaxtında Zaqatalada qətl edilmiş və soyulmuşlar yalnız xristian olmayıb, bir çox islamlar da qətl və qarətə düçar olmuşdur. Əzancümlə [o cümlədən] polkovnik Hacıxan bəy Sultanov, yoldaşı Səfərağa; bunlar Çobankol kəndi yaxınlığında güllə ilə öldürülmüş və başları daşla əzilmişdir. Dağıstanlı Əmirxanov ismində bir zabit (Balakənd yolunda), Hacı Bilal (şəhər bağları yanında), gənc alimlərimizdən Molla Məhəmmədəli (kəndi evi daxilində), Tala kəndinin yüzbaşısı Ömər adında biri (məsciddən çıxıb evinə gedəndə), Almalı[lı] Hacı Məhəmməd (Əlibəyli kəndi yanında), Tasmalılı ... (Alatəmir kəndi yanında), iki İlisulu (şirəkdə [şumda]), Mosul kəndində bir nəfər (öz evində), Zaqatala şəhərində Həsən Məhəmmədkərim oğlu (öz dükanı daxilində), İran təbəəsindən Şıxəli adında bir nəfər (şəhər hamamının içində).

Soyulanlar: Tiflisdən Zaqatalaya gələrkən bir fayton islam qadınlarını soymuşlardır ki, yalnız Hacı Zeynal Əsgərov və İsmayıl Axundov hərəmlərindən 12 min manatdan fəzlə [çox] pul alınmışdır; Şaban Yusif oğlu, Əziz Qurbanəli oğlu (Balakənd yolunda), Mustafa Məhəmmədzadə, Qeybulla Əhmədov (İtitala yolunda) və qeyriləri.

İştə bu yazdıqlarımdan anlaşılır ki, 1917-ci sənə axırki və 1918-ci sənənin əvvəlki aylarında Zaqatala vilayətində vaqe olmuş qətl və soyğuna yalnız xristianlar deyil, müsəlmanlar da giriftar olmuş, müsəlmanlar bəlkə daha artıq mütəzərrir olmuşdur [zərər çəkmişdir]. Ona görə "bunlar səbəbli bütün dəhşəti ilə hökmfərma olan anarşiya seylabına xristianlar açıq-açığına qurban olmaqdadırlar" sözləri bütün-bütünə yalan və iftiradır. Əgər Zaqatala müsəlmanlarında xristianları qırmaq fikri olmuş isə idi, 1918 fevral 16-22 arasında, yəni 6 günün zərfində İrəvan vilayətində 42 müsəlman kəndini ermənilər xak ilə yeksan edən bir zamanda Zaqatalada heç bir erməni sağ qalmazdı. Halbuki, birinin də burnu qanamadı. Əgər bura müsəlmanları xristianlara zərər iras etmək [zərər yetirmək] istəmiş olsaydılar, daşnaklar bolşevik dərisi geyib bolşeviklərlə birlikdə Bakı-Şamaxı müsəlmanlarını qətl və qarət, qadınlarının irz və namuslarına canavarcasına təcavüz edən bir vaxtda Zaqatala xristianlarını bir saat içində məhv və nabud [yox] edərlərdi. Halbuki bu vaxt bura xristianları bizlə birlikdə rahatcasına yaşadılar və yaşamaqdadırlar. Bilxassə Nikolay yadigarları əvvəlki məmuriyyətlərində əmnü asayişlə [əmin-amanlıqla] iş görməkdədirlər. Yalnız fövqdə məzkur məktubu Bakıya gətirən rusun məmurluğu əlindən alınmışdır. Məəhaza [bununla bərabər] bu da boşda qalmasın üçün sadədil [sadəlövh] müsəlmanlar buna da kooperativlərdə yer vermişlərdir.

Məscidə təbdil edilmiş kilisə haqqında: Zaqatala qalası, şəhərindən 50-60 sajın miqdarda yüksək bir təpədə olduğuna görə, qala ilə şəhərin münasibəti yoxdur. Yəni, qalada ancaq hərbi məmurlar sükunət edir [yaşayır]. Qala içərisində bulunan kilsədə də yalnız hərbi məmurlar ibadət edirlərdi. Rus əsgərləri çəkildikdən sonra qalada islam əsakiri [əsgərləri], islam zabitləri qərarlaşmışdır və həmişə də islam əsakiri olacaqdır. Ona görə qala daxilində olan bu "əsgəri kilsə"nin tövləyə deyil, məscidə təbdil edilməsi [çevrilməsi] lazım və labüd idi. Kilsə təbdil edildikdə içərisində dinə, ibadətə mütəəlliq [məxsus] bütün əşyası həman

kilsənin keşişi Portsiladzeyə verildi. Portsiladze isə hal-hazırda sağ və salamat olub, Zaqatala ali-ibtidai məktəbində "zakon bojiy" [şəriət] müəllimidir. Binaənileyh [ona görə], "Zaqatala şəhərindəki pravoslavnı kilsəni məscidə təbdil edib, məzlum xristianları ibadətdən məhrum etməklə əvvəlki zülmləri bir qat daha artırdılar; bu kilisənin əmvalını qarət, keşişini qətl etdilər" cümlələri yersiz, olduqca haqsız bir böhtandır. 80-90 nəfər pravoslavnı məzhəbində olanlar üçün şəhər daxilində ayrıca kilsələri vardır. Yuxarıda yazdığım həqiqi və bitərəfanə sözlərimdən, Azərbaycanın təşəkkülündən əvvəl, yəni komissariat və Zaqafqaziya hökumətləri vaxtında Zaqatalada vaqe olmuş məzkur cinayətlərdə milli və dini rəng olmayıb, dinini, milliyyətini tanımayan naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən bilatəfriqi-din [din fərqi qoymadan] sadir olduğunu [meydana çıxdığını] və bu məktubun nə məqsədlə yazıldığını hər bir əhli-vicdan hiss və dərk etsə gərək.

Məktubda Azərbaycan məmurlarının da məzkur cinayətlərdə iştirak etmələri dərmiyan edilmişdir [meydana atılmışdır]. Bu tamamən yalan və iftiradır. Çünki məktubda göstərilmiş cinayətlərin, soyğunların hamısı Azərbaycan Cümhuriyyəti dünyaya gəlməzdən əvvəl vaqe olmuş və Azərbaycan Cümhuriyyəti təşkil edildikdən sonra Zaqatalada heç bir xristianın burnu belə qanamamışdır.

Erməni keşişi Ter-Mkırtıç Mkırtıçyans isə Zaqatala vilayəti daxilində öldürülməmişdir. Eşitdiyimə görə, mərqum [adı çəkilən] keşiş Zaqatala ermənilərindən ianə toplayıb, Ararat Cümhuriyyətini təbrik, topladığı ianəni məhəllinə [yerinə] vermək üçün İrana getmişdir.

Aleksandr Serkisov erməni-gürcü müharibəsində Gürcüstandan qaçıb Zaqatalaya gələrkən hüdudda öldürülmüşdür. Bunun da gürcülər tərəfindən yapılması zənn olunur.

Ey daşnaklar! Qars, Ərdahan müsəlmanlarını qırdığınız halda Zaqatalada heç birinizə güldən ağır söz deyən olmadı. Bakı, Şamaxı, İrəvan və Qarabağ türklərini canavarcasına boğazladınız, qadın-qızların irz, namuslarına təcavüz etdiniz, Zaqatalada yenə sağ qaldınız. Erməni-gürcü müharibəsində Gürcüstandan qaçıb Zaqatalaya gəldiniz. Sizi hüsn-təvəccöhlə qəbul etdik. Yenə də içərimizdə xoşbəxtanə yaşayırsınız. Bu qədər güzəşt və insaniyyət qabağında bir neçə monarxist rusları da özünüzə quyruq yaparaq bədəfkarlar tərəfindən keçmişdə vaqe olan şeylərə din rəngi vermənizdən heç həya etməyirmisiniz? Vilayətimizdə heç bir türk təbəəsi olmadığı halda alayımız içərisində türk əsgərləri olduğunu və zabitlərimizdən zülm gördüyünüzü yalan yerə yazmağınızda məqsədiniz nədir? Kimin müdaxiləsini istəyirsiniz? Məktubunuz axırında "burasını vaqedə Azərbaycan qəsb etdiyi görünür" cümləsini yazmağınızdan fikriniz nədir? Yoxsa Zaqatalada xristian ismi altında başqalarının əli ilə daşnak hökumətimi qurmaq istəyirsiniz?

*Bayram Niyazi [Kiçikxanov]*

**TƏŞKİLATLARIMIZ**

Mart faciəsi və ondan sonra uzanan istiqlaliyyət və paytaxtımızı xilas mübarizələri münasibətilə bütün mədəni təşkilatlarımız da tərki-fəaliyyətə məcbur olmuşlardı.

O təşkilatlardan ən məşhurları "Cəmiyyəti-Xeyriyyə", "Nicat", "Səfa" və "Nəşri-Maarif" tərəqqi cəmiyyətləri, "Qənaət", "İsmailiyyə" və bir çox bu kimi iqtisadi və kooperativ ittifaqları idilər ki, Azərbaycan-türk xalqının mədəni və ictimai həyatında böyük rollar oynayırdılar.

Paytaxtımızın fəthindən sonra bu təşkilatlar fəaliyyətə şüru etmədilər [başlamadılar]. Ancaq bircə "Cəmiyyəti-Xeyriyyə" (erkək və xanımlar[ın]ki) yenidən seçki icra etmişlərdir.

Bunların əvəzində yeni mədəni təşkilatlar da doğulmadı ki, hökumətimizin və millətimizin işlərini bir qədər yüngülləşdirsin. Fəqət böylə mədəni təşkilatların varlığını millət, xüsusən camaatımızın ziyalı hissəsi hiss edirdi, anlayırdı və bilirdi ki, əhvali-hazirədən xəbərsiz ölü kimi kəndi hüququnu anlamaqdan məhrum olan zavallı türk kütləsini düşmənlərimizin alətliyindən azad etməkdən ötrü türk ürəfası [ziyalısı] birləşməli və xalq içinə doğru getməlidir.

Bir tərəfdən bu əhvali-hazirə təcrübələri, varlığımıza vurulan tətil zərbələri, demokratiyamızı süpürüb aparan "..." aclıq, bahalıq, o biri tərəfdən də məktəblərin milliləşməsi münasibəti ilə elmi, fənni, ədəbi kitablara olan ehtiyac təsiri ziyalılarımızı toplaşmağa və yeni təşkilatlar vücuda gətirməyə məcbur etdi.

Bu təşkilatlardan birinci olaraq "Türk Ocağı"nı əlavə etmək lazımdır. Mən keçmişdə və gələcəkdə öylə bir mədəni təşkilat zənn etməyirəm ki, Türk Ocağı qədər əhəmiyyət və qiymətə malik ola bilsin. Bir dəfə diqqət verilsin: parça-parça olmuş, müstəqil millətlər halına gəlmiş türk xalqını dil, hiss, ədəbiyyat və tarixcə ümumiləşdirməyi, mədəni bir türk milləti yaratmaq vəzifəsini öhdəsinə alan bir cəmiyyət nə qədər ağır və mühüm məqsədlə çalışmış olur. Fəqət ümumi cəmiyyətlərimizdə olan ümdə nöqsan məqsəddə deyil, üzvlərin zəifliyindədir. O nöqsan burada da büruzə verilmişdir. Türk Ocağı bu vaxta kimi öz işində heç hərəkət etməyir vəhalonki [halbuki] kütləmizin hissini, düşüncə və diləyini təshih etmək, ölkəmizdə türk mədəniyyəti yaratmaq vəzifəsini daşıyır.

Türk Ocağından sonra mədəni bir cəmiyyət təşkil etmək fikri tələbə, gənc, ziyalı və mütəallimlər [şagirdlər] içində qalxışdı. Tələbələr və mütəallimlər xüsusi birər təşkilat yapmağa müvəffəq oldular. Fəqət ümumi türk ziyalılar təşkilatı yapmaq fikri ortadan qalxmadı. Ziyalı türk gənclərinin erkək və qadınını bir bayraq altına toplayıb, bir yerdə çalışdırmaq fikri qövldən feilə [sözdən işə] gəlməyə başladı.

"İrşad" adını daşıyan bu cəmiyyət hökumət tərəfindən təsdiq olunmuş, hətta 3 minə kimi müavinət də görmüşdür. Cəmiyyət böyük diqqət və üsul ilə təşkil olunur və müvəffəqiyyətinə də ümid vardır.

Yeni təşkilatlardan birisi də fevralın 15-də təşkil olunan Bakı və Ətrafının Müsəlman Zəhmətkeş Ziyalılarının İttifaqıdır. Bu cəmiyyət şəhərimizin mütəxəssis ziyalıları, doktor, yurist, mühəndis, müəllimləri tərəfindən təşkil olunur. Məqsədi də camaatımıza maddi, siyasi, ictimai, iqtisadi və mədəni müavinət etmək, onda bir vətəndaşlıq, bir qrajdanlıq

hissi oyatmaq və müsəlman xalqı ilə qonşu millətlərin arasını gözəlləşdirmək fikri olacaqdır.

Cəmiyyətin mədəni tərəfindən başqa siyasi, milli və camaatın hüquq və ictimai işlərinə qatışması ümumi iclasda mühüm bir məsələ də ortaya atmış oldu. Tərəfimdən verilən o sorğu da bundan ibarət idi: Camaatda oyadılacaq vətəndaşlıq, siyasi və milli oyanıqlıq nasıl olacaqdır? Yəni camaata nə deyiləcək? Söylənəcəkmi ki, sən türksən və yainki yazdığınız kimi "müsəlman milləti" adı ilə çalışılacaq və camaatda öylə bir duyğu da oyadılmağa səy ediləcəkdir.

Məlum oldu ki, cəmiyyət müsəlmanlıq fikri və adı ilə çalışmağı qət etmişdir və bu barədə olan "türk, Azərbaycan" təklifləri ümumiyyətlə rədd olunub qaldı.

Əgər bu yeni təşkilat ancaq mədəni və iqtisadi məsələlərlə iktifa [kifayət] edib dursaydı və müsəlmanlıq və türklük kimi öylə mühüm və əsaslı məsələlər təbliğatını da proqramına əlavə etməsəydi, ola bilərdi ki, o cəmiyyət həqiqətən zəhmətkeş ziyalıların bir ittifaqı ola biləydi. Fəqət təəssüf ki, böylə deyildir. Ziyalılar arasında vaqe olan xüsusi siyasi və milli nəzərlər o cəmiyyəti zəif salmış olacaqdır və ümumi mütəxəssis ziyalılar bir bayraq altında toplanammayacaqlar.

Millətin doktor, yurist, mühəndis, müəllim, mühərrir və bu kimi mütəxəssis ziyalılarının ittifaqı ancaq sənətləri olan elmlərin nəşrinə çalışmalı və o biliklərlə millətlərinə yardım etməlidir. Siyasi və milli məsələlər təbliği isə onların sənəti olmadığı kimi, camaatın da bir sinfini ziyalılardan qaçırar. Xalqımızda mədəniyyətə və maarifə "mühafizəçilik" kimi bir hal törədər.

*Məhəmmədzadə Mirzəbala*

## GENERAL SÜLEYMAN BƏY

Bugünlərdə Azərbaycan Cumhuriyyəti ordusu komandanlarından, ordunun böylə mühüm bir vəziyyətində mirliva [general-mayor] Süleyman bəy Əfəndiyevin tif xəstəliyindən vəfat etməsi xəbəri gəldi. Rəhmətullahi əleyhi rəhmətən vasiə.

Mirliva Əfəndiyevin vəfatı nəinki yalnız mütəvəffanın [vəfat edən şəxsin] əqrəba və mütəəlliqatını [yaxınlarını] məhzun və dilgir edəcəkdir, bəlkə onu tanıyan, onun haqqına arif, onun vətən və millət uğrundakı xidmət və fədakarlıqlarını bilmiş olan cümlə azərbaycanlıları dilxun və dağdar [ürəyi qanlı və qəlbi dağlı] edəcəkdir.

Süleyman bəy Əfəndiyev kim idi? Bu suala hazırki Hərbiyyə nazirimiz general Mehmandarov həzrətləri: "Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda təhti-idarəmdəki cümlə zabitan [əmrim altındakı bütün zabitlər] arasında ən birinci mövqe tutanlardan idi!" deyə cavab vermişdir.

Bizlər isə mərhumun səhifeyi-tarixiyyəsinə bir nəzər edəlim. Mən onun bütün səhaifi-tarixiyyəsindən bəhs etməyə məəttəəssüf [təəssüf ki], qadir deyiləm. Bu mənə dəxi məchuldur. Fəqət mərhumun Gəncə şəhərindəki imrari-həyatından [ömür sürməsindən] bəhs etmək mümkünümdür.

O vaxt miralay [polkovnik] rütbəsində olan Süleyman bəy 917-ci sənənin təmmuz [iyul] ayında Gəncə şəhərinə təşrif gətirdilər. Müəyyən bir vəzifə ilə Məvərayi-Qafqaz Hökuməti [Zaqafqaziya Seymi] tərəfindən ezam edilmiş idi. Vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan [çatan] kimi Gəncə Müsəlman Milli Komitəsinə təşrif gətirərək bəyanat verdi və Azərbaycan türklərinin qüvayi-əsgəriyyəsi [ordusu] olmaması və buna əşəddi-ehtiyac [şiddətli ehtiyac] xüsusunda izahat verərək əlavə etdi ki, əgər bu məsarifi Gəncə Milli Komitəsi öz öhdəsinə götürərək qüvayi-əsgəriyyə təşkili əsasına ibtidar etmək [başlamaq] arzusunda bulunarsa, məəlməmnuniyyə [məmnuniyyətlə] bu xüsusda heç bir fədakarlıqdan çəkinməyəcəkdir.

Milli Komitə işə başladı. 150 nəfərlik leyli və nəhari [gecə və gündüz növbəsi] olaraq bir məktəbi-hərbiyyə güşadına [hərbi məktəb açılmasına] qərar verdi. Bu miqdarı Gəncə vilayəti qəzaları arasında nüfus etibarı ilə təqsim edərək [əhalinin sayı nisbətində bölərək] namizədlər və onların məsariflərini göndərmək xüsusunda cümlə qəzaların milli komitələrinə müraciət etdi. Bəzi qəzalardan mütəəllimlər [şagirdlər] göndərildi. Lakin məsarif üçün para gəlmədi. Bəzi komitələr tərəfindən para göndərildi isə nəhayət az miqdar. Mərhum Süleyman bəy çalışmağa başladı. Pulsuzluq, aclıq, əlbisəsizlik onu məyus etmədi, qorxutmadı. Hətta özü 1917-ci sənə ağustosunun əvvəlindən vəzifəyə başladığı halda 1918-ci sənənin şubat ayında keçmiş maaşlarını almaq üçün özü utanıb bəndəni vasitə etdi. Bu qədər müddət öz hesabına xidmət etdikdən sonra yenə maaş istəməyi özünə bir müşkül əmr [çətin bir iş] hesab edirdi.

Gəncədə anarşi başlandı. Cümlə mülki və hərbi məmurlar dəxi qarətgərlərə, talançılara iltihaq etdilər [qoşuldular]. Kimsə kimsəni tanımaq istəmədi. Kimsə kimsəyə itaət etmədi. Şimdi demək olar ki, düz, doğru, qeyrət və namuslu şəxslər tapılmayacağı bir dərəcəyə gəldi. Mərhum Əfəndiyev gündüzlər ac, gecələr uyqusuz öz cavan mütəəllimləri ilə şəhərin hirasətinə [mühafizəsinə], şəhərdə əmnü asayiş [əmin-amanlıq] əmələ gətirməkdə zərrə qədər qüsur göstərmədi. Şəhərdə, istasyonda nerəyə gedilsə, Süleyman bəy görülürdü. Özü namus və qeyrətli, mütəəllimləri düz, doğru.

Şəmkir müharibəsi əsnasında isə mərhum Süleyman bəy heç bir fədakarlıqdan çəkinmədi. Əvvəldən axıradək ən təhlükəli, ən mühüm nöqtələrdə isbati-vücud [iştirak] edənlərin birincisi oldu. Bundan sonra Süleyman bəyin məmuriyyəti Qarayazıya təbdil edildi [dəyişdirildi]. Bir müddət Gəncədən getdi. Bu halda müsəlman ordusu təşkilinə hökumət tərəfindən müsaidə edildi. General Əliağa Şıxlinski baş komandan təyin edildi. Gəncədə qüvayi-əsgəriyyə təşkilinə başlanıldı. Yenə mərhum Süleyman bəy 5-ci alay komandanlığına təyin edilərək Gəncəyə təşrif gətirdi. Yenə fəaliyyətə, fədakarlığa başladı. Bu vaxt şəhərdə öylə bir anarşi hökmfərma idi [hökm sürürdü] ki, heç bir qüvvə təmini-asayişə müqtədir deyildi. Nəhayət, mövcud türk əsgərlərini müsəlləh edərək [silahlandıraraq] onların namus və qeyrətlərinə istinadən onların vasitəsi ilə iadeyi-asayişə [asayişi geri qaytarmağa] və Bakı tərəfindən Gəncə üzərinə tərtib edilməkdə olan hücuma qarşı

müdafiə etməyə müqtədir ola bilmək lüzumu hiss edilərək buna təşəbbüs edildi. Süleyman bəy: "Mən bu vəzifəni qəbul edə bilərəm" - deyə bütün üsəranı [əsirləri] öz alayına qəbul və hər bir cəhətdən təmin etdi. Həqiqətən bununla da Gəncədə iadeyi-asayiş əmələ gələrək nizam-intizam bərqərar edildi.

Böyləcə, mərhum mirliva Süleyman bəy Əfəndiyev heç bir gün fədakarlıqdan çəkinməyərək fəaliyyətinə davam etməkdə idi.

Bugünlərdə bir ziyayı-əbədi qəbilindən mə'dud olaraq [əbədi bir itki qəbilindən sayılaraq] darülbəqaya irtihal edərək [əbədiyyət evinə köçərək] cümlə azərbaycanlıları hüzn və ələm dəryasına qərq etmiş. Rəhmətullahi əleyhi rəhmətən vasiə.

*Səid*

## BAKI XƏBƏRLƏRİ

### Hərbi gəmilər əhvalatı

Dün nəşr olunan nömrəmizdə Bakıdakı hərbi donanmadan "Ərdahan", "Qars" və "Leytenant Şmidt" hərbi gəmilərinin İngiltərə komandanlığı tərəfindən verilən ultimatumu qəbul etməyərək gecə ilə şəhərdən getmələrini xəbər vermişdik. Bu gün isə bu xüsusda mövsuq [etibarlı] mənbələrdən aldığımız məlumatı dərc ediriz:

Fevralın 28-də gecə Bəhri-Xəzər donanmasından "Ərdahan", "Qars" və "Leytenant Şmidt" hərbi gəmiləri tərki-silah etmək və Könüllü orduya dəxi təslim olmaq istəməyərək bu barədə İngiltərə komandanlığı tərəfindən verilən təklifi rədd etmiş və işıqları söndürdükləri halda hərbi iskələdən [limandan] çıxıb getmişlərdir. Məzkur [adı çəkilən] hərbi gəmilərin zabitlər heyəti tamamı ilə olaraq sahildə qalmışdır. "Qars" gəmisində qalmış zabitlərdən bir hissəsi gəmi nəfəratının [matroslarının] böylə xudsəranə [özbaşına] hərəkətinə tabe olmaq istəməyərək dənizə tullanmış və salamatlıqla kənara üzüb çıxmışdır.

Səhər saat 8 radələrində dənizə getmiş gəmilərin dalınca "Göytəpə" gəmisi dəxi bir nəfər zabitlə nəfəratı ilə olduğu halda dənizə getmişdir. Gəmilər Nargin cəzirəsi [adası] dalında dayanmış və işin aqibətini gözləyirlərmiş. Gündüz saat 11 radələrində "Nobel" adlı [gəmi], güllə ilə dolu olan "Belaya" gəmisi[ni] arxasına qoşub hərbi gəmilərin dalınca sürət etmişdir.

Dənizə getmiş olan "Ərdahan" gəmisinin sahildə qalmış matrosları "Astarabad" gəmisi nəfəratı arasında təbliğat yapıb onları dəxi həman gəmilərin dalınca dənizə getməyə dəvət edirmişlər. Bundan sonra həman matroslar iskələ kantorundan dəmir daxılı (kassanı) zəbt edib, həman gəmiyə aparmışlardır. Bu vaxt "Astarabad" gəmisinə general Tomson tərəfindən təklif edilmişdir ki, bir saat yarım ərzində Bakı iskələsini tərk edib getsin və yaxud təslim olmaq tələbatını qəbul edərək, 12 və 13-cü körpülərə qayıtsın. "Astarabad" gəmisinin komandiri tərəfindən təslim və tabe olmaq təklifi qəbul edildiyinə baxmayaraq, gəmi nəfəratı özbaşına gəmini dənizə aparmışdır. Bu gəminin zabitləri isə tövqif [həbs] edilib İngiltərə ərkani-hərb [qərargah] idarəsinə gətirilmişdir. "Astarabad" gəmisinin getməsi haqqında təhqiqat icra edildikdən sonra zabitlər azad edilmişlərdir. Azad edildikdə onlardan söz alınmışdır ki, yekşənbə [bazar] günü martın 2-də, gündüz saat 10-da yenidən İngiltərə ərkani-hərb idarəsinə gəlsinlər.

"Astarabad" paraxodu getdikdən sonra bütün hərbi iskələ dairəsi İngiltərə əsgərləri tərəfindən mühasirə edilmişdir. Bir para yerlərdə pulemyotlar qoyulmuş idi. Hərbi iskələdə olanların həpsi həbs edilmişlərdir. Hərbi iskələdə qalan gəmilər tədriclə 12 və 13-cü körpülərə keçməyə başlamışlar. Gedən gəmilərə isə "Vstreça" qayığı ilə general Tomsonun yazmış olduğu qəti tələbatı göndərilmişdir ki, gəmilər qayıdıb göstərilən körpülərə gəlsinlər. Əks surətdə hamı gəmilər qərq ediləcəklərdir. Bundan sonra saat 4-dən başlamış hamı gəmilər biri-birinin dalınca tədricən göstərilən körpülərə gəlmişlər. Gəmi komandanları İngiltərə əsgərlərinin şiddətli mühafizəsi altında olaraq sahilə buraxılmamışlardır. Bulvara yaxın hərbi gəmilər dayanan hissə dəxi İngiltərə əsgərləri tərəfindən mühasirəyə alınmışdır.

12 və 13-cü körpülərə cəm edilən hamı hərbi gəmilər dünən martın 2-də, saat 2-yə qədər tərk-silah edilməyib İngiltərə məmurlarının binagüzarlığı [sərəncamı] olana qədər hələ İngiltərə əsgərlərinin mühafizəsi altındadırlar. Hərbi gəmilər hadisatına görə İngiltərə ərkanı həbs edilənlərin ailələrini də mühafizə altına almışdır. Həbs edilənlərin ailələri arasında şayiə nəşr olunmuşdur [şayiə yayılmışdır] ki, guya hərbi gəmilərdə özlərini öldürənlər vardır. Mövsuq [etibarlı] mənbədən verilən xəbərlərə görə, bu şayiələr yalandır.

Hərbi gəmilər hadisatı münasibatı ilə şəhərdə cürbəcür yalan xəbərlər buraxılmışdır. Məhəlli [yerli] fəhlələr arasında həyəcan olduğunu söyləyirlər. Buna baxmayaraq gəmilərin bilaixtilaf tərk-silah ediləcəkləri ümid olunur. Bizə verilən xəbərlərə görə, gəmilərin tayfaları [heyəti] İngiltərə maryakları ilə əvəz edilib, onlar isə Batuma göndəriləcəklərdir. Hərbi gəmilərin zabitlərindən bir hissəsi bu hadisat qurtarandan sonra Bakıdan Tiflisə və qeyri şəhərlərə getmək niyyətindədirlər.

### Müsəlman məhbuslarının ərizəsi

Bakı Mərkəzi Həbsxanasında olan müsəlman məhbuslarından 37 nəfəri Bakı qubernatoruna zeyldəki [aşağıdakı] ərizə ilə müraciət etmişlərdir:

*"Biz Mərkəzi Həbsxanada olan 37 nəfər müsəlman məhbusları yaşımızın əsgərliyə təsadüf etdiyini nəzərə alaraq gənc Azərbaycan Cümhuriyyətinin müdafiə və möhkəmləşməsi uğrunda hər bir fədakarlığa hazır olduğumuzu bildirərək tezliklə əsgərliyə qəbul olmağımızı rica ediriz. Bununla məlum ediriz ki, əsgərliyə getməyimizi kəndimizə böyük şəraf və müqəddəs vəzifə əd [hesab] edərək bu yolda çalışmaq və var qüvvəmizlə vətəni mühafizət etməyə hazırız. Ümidvarız, bizim şu ricamız qəbul olub da əsgərliyə alınmamıza binagüzarlıq ediləcəkdir [sərəncam veriləcəkdir].*

*İmzalar"*

### Rüşvət almaq

4-cü polis idarəsinin məmuru okolotoçnıy nadziratel [şəhər polisi] Lomakin rüşvət almaqda müttəhim edilərək Bakı

qubernatoru tərəfindən təhti-mühakiməyə alınmışdır. Rüşvət almağı qubernator kəndisi ona sübut etmişdir.

**Rus Milli Komitəsinin hərəkəti**

Bakı qalabəyisi [komendantı] bəratülqövl [protokol] ilə qubernatora məlum etmişdir ki, Bakıdakı Rus Milli Komitəsi Bakıda və Azərbaycanın başqa yerlərində sükunət edən [yaşayan] ruslara öz tərəfindən şəhadətnamələr və pasportlar verərək özünü hökumət kimi tanıtmaq istəyir. Məzkur [deyilən] komitənin böylə hərəkətini Azərbaycan Cümhuriyyətinin heysiyyət və nüfuzuna zərərli və böylə hərəkətin Azərbaycan istiqlaliyyətinə və onun hüququna təcavüzədd [hesab] edərək qalabəyi cənabları qubernatordan böylə qeyri-təbii hərəkətin bir an əvvəl önünün alınmasını və bir daha təkrar edilməməsini rica etmişdir. Bəratülqövl ilə bərabər məzkur komitə tərəfindən bir nəfərə verilmiş olan pasport dəxi qubernatora təqdim edilmişdir. Bu münasibətlə Bakı qubernatoru tərəfindən Bakı və Balaxanı-Sabunçu qalabəyiləri və həmçinin bütün uyezd naçalniklərinə zeyldəki təlimnamə (sirkulyar) göndərilmişdir:

*"Axır vaxtlar müşahidə olunur ki, Bakıdakı Rus Milli Komitəsi Bakıda və Azərbaycanın başqa yerlərində sükunət edən ruslara öz tərəfindən şəhadətnamələr və pasportlar verməkdədir. Məzkur komitənin böylə hərəkətini qanundankənar və Azərbaycan istiqlaliyyətinin hüququna təcavüz hesab edərək əmr edirəm ki, bu andan etibarən həman komitə tərəfindən verilmiş və bundan sonra* veriləcək olan pasportlar və şəhadətnamələr etibara alınmayıb, onların sahibləri tövqif [həbs] edilsinlər."

**Bakı quberniyasında qatarın güllələnməsi**

Balaxanı-Sabunçu dairəsinin 7-ci polis müdiri (Bakı qəza qaimməqamı) qubernatora məlum etmişdir ki, neçə gün bundan əqdəm [qabaq] dəmiryol qatarı Güzdək mövqifi [stansiyası] yaxınlığında güllələnmişdir. Təhqiqatdan məlum olur ki, qatar qaçaqmal (tüfəng, patron) aparan Şahsevən quldurları tərəfindən güllələnmişdir. Qaçaqmal ilə yüklü olan sahibsiz bir at dəmiryol xəttinə yaxınlaşdıqda qatar saxlanıb atı axtarmaq istədikdə quldurlar atəş açmağa başlamışlardır. Atışmadan sonra atı yükü ilə bərabər qaçırmışlardır.

**Öldürmək**

Göyçay uyezdi Zərdab kəndi yüzbaşısı uyezd naçalnikinə [qəza rəisinə] məlum etmişdir ki, Lələağacı kəndi əhilləri İsmayıl Osman oğlu, Həsən Cavad oğlu öz həmkəndliləri ... tüfəngdən atdıqları güllə ilə yaralamışlardır. Müqəssirlər tövqif [həbs] edilmişlər. Təhqiq davam edir.

Göyçay uyezdi Axarlı kəndinin yüzbaşısı naçalnikə məlum etmişdir ki, həman kəndin əhli Məşhədi Həmzə Şirəli oğlu öz həmkəndliləri Məhəmmədvəli Ağakişi oğlunu öldürüb və onun qardaşı Fətəlini ağır surətdə yaralamışdır.

**AZƏRBAYCANDA**

**Quba qəzasında**

Xüsusi müxbirimizdən: Anarşidən sonra bir azacıq asayiş görə bilmiş Quba qəzası şimdi bir taqım vicdansız millət və vətən xainlərinin intriqalarına məruz qalıb həyəcanlı günlər keçirmədədir. Ötədən bəri gizli olaraq "işləməkdə" olan şu həriflər Parlamanda qaldırılan süni böhrandan sonra bir xeyli daha cürətlənərək ortaya buraxmış olduqları fitnəəngiz şayiələrlə yalnız hökumətimizin nüfuz və etibarını qırmağa deyil, hənüz bərkiməmiş istiqlalımız əleyhinə də bir nümayişçi kimi nəzərə atılırlar. Hələ cayi-təəssüf [təəssüf yeri, təəssüf ediləsi] şurasıdır ki, müfəttinlər [fitnəçilər] başında duran "ziyalı" adını qəsb etmiş ziyadan məhrum olan həriflərin "fəaliyyətləri" ara-sıra əsərsiz [təsirsiz] də qalmayır. Bəzən olur ki, bir köydə bir qaç kişi "üsyan bayrağı" qaldıraraq "əsgər verməyəcəyiz" kimi cəsarətlərdə bulunurlar. Xüsusən neçə aylardan bəri qımıldana bilməyən quldurlar şimdi övzanı [vəziyyəti] kəndiləri üçün əlverişli görüb ortanı qarışdırmış provakasiyadan istifadə ilə ötə-bəridən qətl və qarət kimi cinayətlərə başlamışlar.

Eşitdiyimə görə, bu məsələ ilə əlaqədar olaraq Ədliyyə Nəzarəti məmurlarından bir zat bugünlərdə Qubaya varid olub [gəlib] təhqiqat yapmaya şüru etmişlər [başlamışlar].

Müqəssirləri ağır cəzaya düçar etmək hökumətimizin vicdani vəzifələrindən biri olsa gərəkdir.

———

İləri zamandan bəri, xüsusən Mart hadisatından sonra Quba qəzası köylərində məskən etmiş bir xeyli iranlılar vardır ki, təhəmmülgüdaz dürlü məsaib və müşkülata [müxtəlif dözülməz müsibətlər və çətinliklərə] qarşı olaraq bir parça əkmək əldə edib zillətlər içində imrari-həyat edirlər [ömür sürürlər].

Quba qəzası Müşkür polis məntəqəsi Həmşəhri denilən bir köydə İbad Talıb oğlu nam [adlı] bir iranlı yaşayırmış ki, qaç illərdən bəri fəhlə və əkinçilik kimi işlərdə çəkmiş olduğu əziyyətlərə müqabil olaraq 20 min rublə qədər təxmin edilə biləcək bir qaragünlük kəndisi üçün toplaya bilmiş imiş. Bu yaxın günlərdə həman İbad nam xəstələnib vəfat edir. Bu əhvalı eşidən naib həzrətləri [kənd icmasının başçısı] məzkur [adı çəkilən] köyə cumub mütəvəffanın [vəfat edən şəxsin] tərk etmiş olduğu var-yoxunu, İbadın dul qalmış zövcəsi ilə kiçik xalası (teyzə) oğlunun dad və fəryadına etina etməyərək yarı bahasına, yəni 10 min rubləyə yaxın bir məbləğə satıb vərəsələrinə verəcəyəm deyə alır və əvəzində isə bir parça möhürsüz, peçatsız kirli kağız üzərində bir qəbz verir.

Söylənilməsinə görə həman məbləğin 3 min rubldən ziyadəsini naib həzrətləri Xaçmaz istasyonunda mütəvəffanın "gəncəfə [qumar, kart oyunu] vərəsələrinə" bir neçə şahidlər yanında ehda etmiş [hədiyyə etmiş] imiş.

———

Parlaman iclasında hökumətə qarşı söyləmiş olduqları nitqləri içində Quba qəzası qaimməqamını da odun satmaqda müttəhim edən məbus Qarabəyli əfəndinin ittihamından dolayı qaimməqam Xoyski əfəndi müddəiyi-ümumiyə [prokurora] aşağıdakı ərzi-halı göndərmişdir:

Bakı İstinaf [Apellyasiya] Məhkəməsi müddəiyi-ümumisi hüzuri-alilərinə.

Keçən sənə kanuni-əvvəlində [dekabrında] Şamaxı qəzası Altıağac malakanları Türkiyə ordusu ehtiyacatından ötrü Quba qəzası Qızılburun mövqifində [stansiyasında] 7 vaqon odun hazır etmişlər imiş. Yapdığım təhqiqat nəticəsində aşkar olmuşdur ki, həman 7 vaqon odunu Türk Ordusu Azərbaycandan çəkiləndən sonra məzkur [adı çəkilən] malakanlar Bakı Mərkəzi Ev Komitəsinə satmışlar və Mərkəzi Ev Komitəsi vəkili İsmayıl bəy İsgəndər bəy oğlu Hacınski vəsiqələrini təqdim ilə odunları Bakıya aparmışdır. Amma nədənsə Parlaman məbusu Qara bəy Qarabəyli Parlamanda söyləmiş olduğu nitqi içində şu odunları mən öz mənfəətimə satmışam deyə məni müttəhim edərək təqsirlətmişdir. Bu xüsusda hüzurunuza ərz edərək zati-alilərinizdən rica edirəm ki, söyləmiş olduğu böhtandan dolayı məzkur Qarabəylini ədalət məhkəməsinə çəkib qanuni cəzaya düçar et-məklə mənim heysiyyətimi müdafiə edəsiniz.

*Quba qəzası qaimməqamı*
*podpolkovnik Xoyski H.R.*

**Ağdaşdan**

16 fevralda Ağdaş cavanları saat 2-də məktəb zalına toplanaraq qaçqınlara yardım komitəsi təşkili xüsusunda məşvərət eylədilər. Bədəhu [sonra] məclis tərəfindən müvəqqəti olaraq Qasım Qasımov sədr, Mirabdulla Qədirov katib intixab olundular [seçildilər]. Müvəqqəti sədr cənabları məclisi işbu sözlərlə açdı:

*"Həzərat, cinsən, dinən bir olan fələkzədə [fələk vurmuş] qardaşlarımızın acınacaq hallarına yardımda bulunmaq üçün bizlər ruhən borclu olduğumuz kimi bu yolda işləmək dəxi müqəddəs vəzifələrimizdən olsa gərəkdir. Məattəəssüf [təəssüf ki], lazım gələn əməliyyatımızda nöqsana uğramışız, yəni vaxtı itirmişiz. Bu nöqsan yalnız bizim şəxsi qüsurumuz olduğundan gec də olmuş olsa, yenə işə başlamamız fərz qəbilindən olduğu məlumi-alilərinizdir. Qaçqınlara yardımda bulunmaq üçün bir həqiqi idarə intixab eyləmənizi rica edirəm."*

Hər tərəfdən "düzdür, doğrudur" sədaları eşidilirdi. Nəhayət həqiqi idarə olaraq bir səslə Qasım Qasımovu sədr, Əlibaba Abbasovu xəzinədar və Mirabdulla Qədirovu katib intixab eylədilər.

Bədəhu sədr cənabları tərəfindən qaçqınların əsamisi [adları, siyahısı] tərtib olunması təklif olunaraq məclis tərəfindən bu iş üçün üç komissiya qərar verildi ki, bu surətlədir:

Birinciyə Əbdülbaqi Hacı Həmidzadə və Əli Hacı Rza oğlu, ikinciyə Məsum Ələkbər oğlu və Sultan Xəlilov, üçüncüyə Əşrəf Səmədov və Ağamehdi Lətif oğlu.

Bədəhu [sonra] cəmiyyət əzalarına həftədə bir gün cümə olmaq şərti ilə dəvətnaməsiz toplanmağı təklif etdi. Əzalar isə məəlməmnuniyyə [məmnuniyyətlə] bu qərarı dəxi qəbul eylədilər və cəmiyyətə maddi və mənəvi müavinətdə bulunmalarını əzalar təhti-qərara aldılar.

Nəhayət sədr əfəndi, müəllim Əbülqasım əfəndi Əminzadə cənablarından cəmiyyətin binalı və işlərinin müvəffəqiyyətli olması üçün duada bulunmasını rica və əzaların ayağa qalxmalarını təklif eylədi. Əzalar ayağa qalxaraq dua başlandı və nəhayət "amin" deyə məclisə saat 4-də xitam verildi.

*Məhəmmədrza*
*Əbdizadə*





**İtibdir**

Əli Mehrab oğlunun Suraxından aldığı pasportu itibdir. Etibardan saqitdir [düşmüşdür].

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qəqbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Doktor**
**Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Talibə (kursistka)**

Ali-ibtidai məktəbinin hər siniflərinə şagirdlər hazır edir. Saat 11-dən 1-ədək, 4-dən 7-ədək. Adres: Qubernski və Sisyanovski küçələrin küncündə, nömrə 7, diş həkimi Levinin evində.

*5713*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər

saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
“Fani və kompaniya”, Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5792*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Müraciətnamə**

səh. 21. Bu müraciətnamə daha əvvəl qəzetin 27 fevral 1919-cu il tarixli 124-cü nömrəsində də eynən dərc edilmişdir.

səh. 22. “Naberejni”: Bakıda, indiki Neftçilər prospekti.

“Nikolayevski”: Bakıda, indiki İstiqlaliyyət küçəsi.

**Sülh ətrafında**

səh. 22. “İngiltərə layihəsinin beynəlmiləl...”: bu və sonrakı cümlənin bəzi sözləri qəzetdə silinmişdir.

**Qəzetələrdən**

səh. 23. “altı vilayət”: Burada söhbət Osmanlı dövlətinin Ərzurum, Van, Mamürətüləziz, Diyarbəkir, Sivas və Bitlis vilayətlərindən gedir. Bu vilayətlər, Rusiya və Qərb dövlətləri tərəfindən, bölgədə erməni dövləti qurulması layihəsinin tətbiq sahəsinə çevrilmişdi. Bu vilayətlərə “Ermənistan” yaxud “Erməni vilayətləri” deyilməyə, San-Stefano və Berlin sülh müqavilələrindən sonra başlanmışdır. 1877-1878 Türkiyə-Rusiya müharibəsi nəticəsində 3 mart 1878-ci ildə imzalanan San-Stefano sülh müqaviləsinin XVI maddəsində bu bölgədən “Ermənistan” deyə söz edilmiş və Türkiyənin burada dərhal reformlara başlaması, həmçinin erməni əhalisinin təhlükəsizliyini təmin etməsi tələb edilmişdir. 13 iyul 1878-ci ildə imzalanan və San-Stefano müqaviləsinin Türkiyə üçün ağır şərtlərini müəyyən ölçüdə yüngülləşdirən Berlin müqaviləsində də bu bölgədən “ermənilərin yaşadıqları vilayətlər” deyə söz edilmiş və eyni tələblər təkrarlanmışdır.

səh. 24. “Tan”: 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik “Le Temps” qəzeti nəzərdə tutulur.

**Azərbaycan həşəratı**

səh. 27. “Tasmalılı ... (Alatəmir kəndi yanında)”: şəxsin adı qəzetdə silinmişdir.

“Sajın” yaxud “sajen”: metrik sistemdən əvvəl işlənən, təxminən 2,13 metrə bərabər uzunluq ölçüsü.

**Təşkilatlarımız**

səh. 29. “...bir qədər yüngülləşdirsin”: qəzetdə “bu qədər yüngülləşdirsin” getmişdir.

“süpürüb aparan ... aclıq”: arada bir söz oxunmur.

“...qövldən feilə gəlməyə başladı”: qəzetdə “qövldən” yerinə “qüvvədən” getmişdir.

**General Süleyman bəy**

səh. 30. “Rəhmətullahi əleyhi rəhmətən vasiə”: “Allah ona çox-çox rəhmət eləsin.” (ərəbcə)

**Bakı xəbərləri**

səh. 34. “öz həmkəndliləri ... tüfəngdən atdıqları güllə ilə yaralamışlardır”: yaralanan şəxsin adı qəzetdə silinmişdir.

**Azərbaycanda**

səh. 35. “Həmşəhri”: güman ki, “Həmsar” olmalıdır.



آذربایجان

ایکنجی سنه دوامیه

قسم رسمی

حکومت نه‌یه استعفا ایتدی؟

آذربایجان مجلس مبعوثانده

*"Azərbaycan" qəzetinin 128-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 4 mart 1919-cu il, nömrə 128**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 1 cəmadiyəlaxir sənə 1337. 4 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

### Azərbaycan Məşixəti-İslamiyyəsi İdarəsindən

İdareyi-məşixət [Şeyxülislamlıq İdarəsi] kargüzarı Hüseynqulu Səlimov "məvacib azlığından istefaya məcbur oldum" məzmunlu istefanaməsini İdareyi-məşixət qəbul edib işbu 1919 sənəsinin mart ayının 1-dən etibarən mümaileyhi [adı çəkilən şəxsi] xidməti-sabiqəsindən [sabiq vəzifəsindən] azad hesab etməyi qərara almışdır.

*Məşixət sədrləri: [Mustafa əfəndi] Əfəndizadə və [Axund Ağa] Ağaəlizadə*

### HÖKUMƏT NİYƏ İSTEFA ETDİ?

Parlaman üsulu ilə idarə olunan məmləkətlərdə hökumətin istefası, kabinə böhranları müxtəlif şəkillərdə ola bilər. Parlamanın etimadını qazanammayan bir hökumət həman istefa edər, yerinə başqa bir kabinə təşkil olunar. Bəzən də olar ki, parlaman ilə ixtilafı çıxan hökumət camaatın kəndisinə vasitəsiz olaraq müraciət eylər. Bu halda, məclis buraxılıb təzə intixablar [seçkilər] təyin olunar. Yeni gələn məbuslar [deputatlar] əski məbusların nöqteyi-nəzərində durarlarsa, o zaman kabinə qalar, yoxsa artıq hökumətin dəyişməsi icbari olar. Parlamentarizmin bu cəhəti yalnız şəkli-hökumətləri və qanuni-əsasiləri [konstitusiyaları] təəyyün etmiş [formalaşmış] olan məmləkətlərdə tətbiq oluna bilər. O məmləkətlərdə ki, hökumət ilə məclis arasında cümhuriyyət rəisinin şəxsi, müvazinəçi bir amil olmaq üzrə bulunar.

Bizdə isə hal böylə deyildir. Cümhuriyyətimiz dəxi rəis intixab eyləməmişdir. Hər nə qədər parlaman rəisi cümhuriyyət rəisi yerini görür kimi isə də sözün mənayi-tamı [tam mənası] ilə bu hüquqa malik deyildir. Parlaman rəisi olmaq həsəbi [səbəbi] ilə o, qüvveyi-təşriiyyənin (yəni qanun qoyan Məclisi-Məbusanın) tabeidir [ona tabedir]. Hər nə qədər hökumət rəisini dəvət eyləmək ona mühəvvəl olunmuş [verilmiş] bir haqq isə də, məclisi fəsx edib də yeni seçkilər dəvət eyləmək haqqı kəndisinə verilməmişdir.

Bu halda Azərbaycan Cümhuriyyətinin Qanuni-əsasisi [Konstitusiyası] tədvin

[tərtib] olununcaya qədər hökumətin qalması və ya düşməsi yalnız Məclisin etimad və ya ədəmi-etimadına [etimadsızlığına] bağlı bir məsələdir. Hökumətin Məclislə münaqişəyə girib də davanın həlli üçün üçüncü daha səlahiyyətdar bir qüvvətin hakəmliyinə [arbitrliyinə] müraciət eyləməyə imkanı yoxdur.

Bu nöqteyi-nəzərdən baxılınca, Fətəli xan hökumətinin istefası ciddi bir səbəbdən, hüquqi bir illət [problem] üzündən irəli gəlməmiş deməkdir. O halda, istefanamədə göstərilən zahiri səbəb, hökumət rəisinin xəstəliyidir.

Biz buna zahiri səbəb deyiriz. Çünki, batini [daxili] səbəb başqadır. Bu səbəb hər nə qədər şəklən mövcud deyilsə də, Parlaman firqələrinin son sorğu münasibətilə göstərdikləri zehniyyət onun ruhən mövcud olduğunu pək əla hiss etdirməkdədir.

Məlum idi ki, hökumət müxtəlif firqə və qruplardan təşəkkül edən Parlamanımızın "İttihad" xaricində olaraq bütün fraksiyalarına istinad edirdi. Fətəli xan bir çox israr və ilhahlardan [təkidlərdən] sonra bir firqə mənsubu deyil, bir şəxs olmaq etibarı ilə Hökumət rəyasətini qəbul edib Kabinəni də kəndisi bildiyi kimi təşkil eyləmiş, firqələr isə bu xüsusda Hökumətə adətən "kart-blanş" vermişlərdi.

Fəqət getdikcə Hökumətə verilmiş olan bu etimad Parlaman firqələrinin əksərindən ötrü gevşəməyə [laxlamağa] başladı. Firqələr firqə mənafeyini kənara ataraq böylə bir zamanda Parlamanda qüvvətli bir mərkəz vücuda gətirmək niyyətilə bir qədər olsun xüsusiyyətlərini fəda etmiş ikən, getdikcə siyasilikdən ziyadə əhalinin fikrinə qapılaraq tənqidata başladılar. Nəhayət, pusuda [pusquda] duran "İttihad" daşını cibindən çıxardı, hökuməti vurdu. Bu zərbənin təsiri ilə solda duran sosialistlərin də tənqid eyləmək həvəsi gəldi. Dövlət nöqteyi-nəzərində duran yalnız bir "Müsavat" firqəsi qaldı. Bitərəflər, "Əhrar" dəxi şiddətli davrandılar. Nəticədə, hər nə qədər hökumət etimad rəyi qazandısa da, mövqeyi heç şübhəsiz ki, eyi mövqelərdən deyildi. Firqələr tənqid etmişlər, fəqət nəticədə çarəsiz qalaraq ədəmi-etimad göstərməmişlərdi. "Həsən keçəl və ya keçəl Həsən" demişlərdi.

Halbuki məmləkətin ehtiyacı böylə çarəsizlikdən təhəmmül olunar bir hökumətə deyil, bilaşərt [qeydsiz-şərtsiz] etimad olunar bir heyətədir.

Bu nöqteyi-nəzərdən baxılarsa, bu vaxta qədər hökuməti tutan firqələr arasındakı ixtilafi-nəzər Kabinənin deyil, Parlaman mərkəzinin böhranını isbat edər.

Böhran Parlamanın üzərindədir. Əgər Parlaman firqələri keçirdiyimiz zamanın əhəmiyyətini dərk edər də həqiqətən də sabit bir mərkəz vücuda gətirə bilərlərsə, o zaman sabit və qüvvətli bir hökumət vücuda gələ bilər.

Böylə sabit bir mərkəzin sola doğru bir ittihadla [birliklə] vücuda gələcəyi Parlaman firqələrinin əksəriyyətincə məqbul görünürsə də, iş hələ nəzəriyyatdan fe'liyyata keçməmişdir.

Bu xüsusda anlaşa bilmək üçün vəziyyəti-siyasiyyənin nə kimi əsaslar daxilində etilaf etmək iqtiza eylədiyini [uzlaşmağı şərtləndirdiyini] bilməlidir.

Bu xüsusda yarın.

*M. Ə.*





## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabə'd)*

**Yusif Əhmədov** (bitərəf) - Bələdiyyə İdarəsi tərəfindən istənilən 7 milyon borc xüsusunda məncə qabaqcadan bir qərar qət etməli idi. Bu pulu o vaxt tamamilə verməli idi. Genə də verilsin. Şimdiki izahatdan məlum oldu ki, şəhərin ayda 3 milyon manat xərci var. Təbii böylə borclar ona kifayət etməz. Bir şəhərin ki, ayda 3 milyon xərci ola, böylə məbləğlər onun ehtiyacı[nı] ödəməz. Vaxtın əhəmiyyətini də bir nəzərə alıb ətraflı düşünməlidir ki, nə kimi bir vaxtda yaşayırız, nə vaxt və nə üçün borc istənilir. Məlumunuzdur ki, şəhərin varidatı bir neçə şeydən ibarətdir. Məsələn, imarətlərdən, ticarətdən və sairədən. Ticarət şimdi bilmərrə [heç] yoxdur, ümum [bütün] ticarət dairələri bağlanıbdırlar. Şəhər də bunlardan varidat ala bilməz. Bir də xəstəxanalardır ki, qabaqlarda orada yatanlardan müəyyən xərc alınırdı. Bir para səbəblərə görə indi o da alınmayır. Bir neçə mənbə də var ki, inqilab içində olduğumuzu nəzərə alsaq, nə səbəbə onlardan varidat alınmadığı təbii görülər. Mən öylə güman edirəm ki, ərz etdiyim səbəblərə görə əski mədaxil gətirən yollar kamilən kəsilmiş olduğundan Bələdiyyə İdarəsinin əvvəlcə istəmiş olduğu 3 milyon verildiyi kimi, indi istədiyini də vermək lazımdır. Qulluqçuların maaşını nəzərə almalıdır. Məruzədən məlum olur ki, ayda bir milyon 450 min manat olmaq üzrə ildə qulluqçuların məvacibi 18 milyon olur. Xidmətçilərə bu maaş verilməzsə, şəhərin bütün işləri yatar. Hələ bələdiyyə xidmətçilərinin maaşı sair qulluqçulardan azdır. Bunu da nəzərə almalıdır.

Mənim yadımdadır, bir yerdə hökumət üzvlərindən birisi Bələdiyyə Məclisi əzasından [üzvlərindən] birini məzəmmət edib deyirdi ki, işləməyirlər, şəhəri təmiz saxlamayırlar, fəaliyyətsizlik göstərirlər. Əgər bu fəaliyyətsizlik pulsuzluqdan isə hökumətə müraciət etsə, hökumət Bələdiyyə İdarəsinin ehtiyacını təmin eylər. Təklif olunan məbləğ çox deyildir. O şey ki, ehtiyaclarıdır, onu istəyirlər. Bələdiyyə İdarəsində mən də varam. O qeyri bir çarə bilməyir, zəruri ehtiyacı üçün pul istəyir, həm də müavinət deyil, borc istəyir. Şəhərin 36 milyon manat xərci var. Əlbəttə 4 milyon verməklə ehtiyacı rəf etmək [aradan qaldırmaq] olmaz.

Buyururlar ki, şəhər iş görməyir. Hansı idarə layiqilə iş aparır ki, o da apara bilsin. Əlbəttə, şəhərin borcudur, mədaxil yerlərini gözləsin. Lakin bir haldayız ki, bir ay sonra nə olacağını bilməyiriz. Keçmişi də gördük. O sədəmələr [zərbələr] ki, dəymişdi, indi onun acısını çəkiriz. Mən təklif edirəm istənilən 4 milyon verilsin. Verilməsə, Bələdiyyə İdarəsi bağlanacaqdır. Buna da təbii heç bir fraksiya razı olmaz. Onun bağlanması digər idarələrə də çox təsir edər.

Bir də ərz etməliyəm ki, qlasnıların vəkalət müddəti qurtarmışdır. Şimdi yeni qlasnılar seçmək lazımdır. Təbii, bu xüsusda müzakirat olacaq və əminəm ki, tezliklə Bələdiyyə qanunu verilər. Mən dübarə [yenə] təklif edirəm 4 milyonluq qərz [borc] verilsin. Yalnız borcun hangi varidatdan ödənəcəyini bilmək lazımdır. Natiqlərdən birisi təklif edir ki, bu məb-

ləğ qaytarıl[ma]maq üzrə verilsin. Mən deyirəm ki, böylə bir üsul yoxdur. Pul verilsin nəinki 3 ilə, 6, 9 hətta 12 ilə verilsin, amma müavinət təriqi ilə [kömək kimi] yox, borc təriqi ilə.

**Sədr** - Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** (sosialist) - Əfəndilər! Aşurov cənabları doğru buyurdular ki, indi nəinki hökumətlər, hətta bələdiyyə idarələri də ya borc edib, ya pul kəsməklə yaşayırlar. Çünki böyük müharibə nəticəsi iqtisad və ticarət işlərinə sui-təsir etdiyindən, hər şey öz adi halını qeyb edib yolundan çıxmışdır. Bir tək Bakı bələdiyyəsi deyil, qeyri bələdiyyə idarələrinin də halı fənadır. Bunların bu halına görə borc istəməyə haqları da vardır. Bizim fraksiya da Bakı bələdiyyəsinə veriləcək 4 milyon borc əleyhində deyildir. Bu borc verilməlidir. Hərgah biz bu borcu verməzsək, parasızlıq üzündən camaatı təmin edən müəssisələr qapanmağa məcbur olar. Fəqət bu müəssisələr füqərayi-kasibə ehtiyacatını rəf etməyə [aradan qaldırmağa] çalışdığından, bağlanmalarına yol verməməlidir. Şəhər idarəsinə kömək eyləmək hökumətin borcudur. Fəqət biz buna iktifa [kifayət] etməyiriz. Ağa Aşurov cənabları doğru buyurdular ki, bu borclar haradan veriləcək? Şəhər idarəsi bu borcları geri verə bilməyəcəkdir. Burasını əlbəttə, nəzər-diqqətə almalıdır. Əhmədov cənabları dedi ki, bugünkü gündə ticarət yoxdur. Ona görə şəhər idarəsinin mədaxili azalmışdır. Fəqət, tamamilə də böylə deyildir. Doğrudur, ticarət əvvəlki qərarla deyildir. Ticarətin bir qismi dayanıbdır. Lakin əvəzində bəzi yeni ticarətlər artıbdır. Deməli, ticarətdə bir dəyişiklik olmuşdur ki, o da möhtəkirlikdir. *(Alqış)*

Şəhər idarəsində demokratiya [xalq] nümayəndələri olmadığından, orada oturanlar həman möhtəkirlərdən vergi almağı özlərinə sərf bilməyirlər. Çünki, qismən kəndiləri bu işlə məşğuldurlar. Odur ki, bu cür nümayəndələr öz ciblərindən pulu çıxarıb bələdiyyə sandığına qoymazlar. Şəhər idarəsində demokratiya nümayəndələri oturmalıdırlar. Lakin biz onu da demirik ki, demokratiya nümayəndələri orada oturmaqla işlər büsbütün yaxşı gedər. Təbii bir qədər qüsur olacaqdır. Bu qüsurlar Gürcüstan, Ermənistanda olduğu kimi burada da olacaqdır. İqtisadi həyat fəna olduğundan həyat deməkqeyri-mümkündür. Lakin heç olmazsa həyatımızı adi hala tərəf çəkmək lazımdır ki, bunu da ancaq demokratiya nümayəndələri edə bilərlər. Ona görə də tezliklə demokratiya nümayəndələri şəhər idarəsinə keçməlidirlər. Şəhər idarəsinin demokratik əsas üzrə qurulması xüsusundakı uzlaşma tezliklə qövldən feilə gətirilsin. Şəhər idarəsində oturan nümayəndələrin vaxtı bitdiyindən, yeni demokratik seçkiləri üsulu Parlamana təqdim edilsin ki, tezliklə hər yerdə bu üsul ilə bələdiyyə idarələri təsis olunsun. Hər yerdə bu cür bələdiyyə idarələri təsis edilmişdir. Hətta Gürcüstanda bələdiyyələrin ittifaqı da vardır ki, bizim bələdiyyə ittifaqımızla münasibata girişmək istəyirlər. Bu xüsusda bizə müraciət edib Azərbaycanda bələdiyyə idarələri ittifaqı olub-olmadığını soruşmuşlar. Fəqət bizdə nəinki bələdiyyələr ittifaqı, bəlkə demokratik üsulla təsis edilmiş bir bələdiyyə idarəsi də yoxdur. Hökumət burasını nəzərə almalıdır. Və ikinci, zemstvo [yerli özünüidarə] idarələrinin təşkili üçün qanun tərtib verib Parlamana təqdim etməlidir. Bundan başqa, bələdiyyə seçkiləri hazırlayan komisyon da yeni bələdiyyə üsulu hazırlayıb Parlamana təqdim etsin. Bildiyimə görə, yeni seçkilər üsulu hazırlayan komissiyaya seçkilər üsulu hazırlanması yanvarın 29-da həvalə olunmuşdu. Lakin bu gün fevralın 25-də həman komisyonun hələ birinci iclası dəvət edilmişdir. Bu komisyon tezliklə işlərini qurtarıb seçki üsulunu Parlamana təqdim etməlidir. Bizim fraksiyamız ələlümum [ümumilikdə] bu borcun hələliyə verilməsini qəbul edir. Bununla bərabər, ümid edir ki, yeni bələdiyyə idarəsi seçkiləri qanunu tezliklə Parlamana təqdim olunar.

**Sədr** - Söz Heybətqulu Məhəmmədbəyovundur.

**Heybətqulu** (İttihad) - Burada keçmiş natiqlər söylədilər ki, şəhərin varidatı məsələsində guya Bələdiyyə İdarəsi iqdamatda [təşəbbüsdə] bulunmur. Necə ki məlumdur, Bakı bələdiyyəsi köhnə qanunla varidatı alır. Burada dedilər ki, Ərzaq naziri "poputnı sbor" alır. Bu pulu nədənsə bələdiyyə almayır. Əgər Məkulat Nəzarəti [Ərzaq Nazirliyi] böylə şey edibsə, o öz tərəfindən edibdir. Son zamanlarda bu haqqı şəhərdə idi. Keçən ildən isə Ərzaq Nəzarəti əlinə almışdır. Şimdi gərək yeni bir qanun olsun ki, əvvəlkiləri Bələdiyyə İdarəsi öz əlinə alsın. Bu qanunu da şəhər özü verə bilməz. Bunu gərək qabaqda olan Milli Məclis edə idi, ya gərək indiki Parlaman etsin. Bələdiyyə necə ola bilər ki, xoddəravərdə [özü durub] gedib pul istəsin. Buyurdular, ticarətxanalarda xərc alınmayıb. Bu xüsusda ərz edirəm ki, Bələdiyyə İdarəsinin ixtiyarı yoxdur ki, yeni xərclər qoysun. Necə ki, məlumdur promıslovıy naloq hökumətin xüsusi varidatıdır. Bələdiyyə böylə işlərə qarışmaz. Geridə qaldı traktirni məsələ. Bunu da ümum üçün deyə bilərəm ki, 1919-cu il üçün yalnız "Kazino"-dan 280 min naloq alınır, həmçinin "Metropol" və qeyriləri var. Bələdiyyənin əsl daxodu [gəliri] isə dəhyekdir ki, bu da evlərin mədaxilindən alınır. Keçmiş Kerenski hökuməti müvəqqəti qanun verərək o "dəhyeki" birə-iki artırıb "dəhyek" əvəzinə indi 20 prosent alınır. Bu vergiləri artırmağa şəhərin qanunən ixtiyarı yoxdur. Necə ki, müvəqqəti qanuna görə rəsmən o xərcləri də kiralara artıra bilməzlər. Öz aralarında nə cür artırarlarsa, o başqa məsələdir.

Burada şəhərin torpaq məsələsindən bəhs olundu. Bilirsiniz ki, bu torpaq məsələsi cəncəlli bir məsələdir. Əksəriyyətlə bu torpaqlar füqəra və kasıbların əlindədir. Onun da icarəsini birə-on və ya 20 dəfə artırmağı bələdiyyə edə bilməz. Əvvəla bu bələdiyyəyə yaraşan şey deyil, ikincisi qeyri-mümkündür. Ola bilər 2, 3, 4 dəfə arta bilsin. Bununla da varidat bir ya bir yarım milyon artar ki, bu da 40 milyon məxaricə təfavüt eyləməz. Və bir də deyirlər ki, "yer" məsələsi var. Deyirlər şəhər ondan iki milyon mədaxil edə bilər. Ona da deyə bilərəm ki, Çənbərəkəndində bu yerdən 26 uçastok var. Əgər bələdiyyə bu yerdə oturanlara "kupça" versə, bir milyon mədaxil edər. Bu bir milyonun da əvəzinə yarım milyonunu xərc edib həman yerdə bir para küçələrin açılmağı üçün lazım olan yerləri sökəcəkdir. Bu da mümkün deyil. Hərgah şə-

hər istəyə ki, mədaxil və məxarici bərabər etsin, gərək məxarici əskiltsin. Şəhər bu saat 2000-ə qədər xəstə saxlayır. Onları qovmaq olmaz. Nə qədər məktəbləri var. Məktəblərdə şagirdləri var. Bu məktəbləri bağlaya bilməz. Məxaricləri də əskiltmək olmaz. Ən az məvacib də alan bələdiyyə qulluqçulardır. Süpürgəçilər və sairələri 500-dən artıq məvacib ala bilməyir.

Bir də söyləyirlər ki, Duma demokratik üsul ilə seçilsin. Bu da bələdiyyənin öz vəzifəsi olmayıb, Parlamanın hüququdur. Parlaman bu işi yapar, Hökumətə verər. Hökumət də bu barədə bələdiyyəyə təbliğat ilə layihə hökmünü icra etdirər. Təklif edərdim layihə qəbul olunsun. Nə qədər çox vaxt verilsə, bələdiyyə öz işlərini yaxşı apara bilər. Hərçənd 4 milyonla iş düzəlməz.

Bir də deyirlər bələdiyyənin indiki zamanda ən böyük mədaxil yolu sudur. Bu da budkalardan vedrəsi camaata üç qəpikdən buraxılır. Deməli, hər bir budkadan gündə 45 manatlıq su buraxılır. Su buraxan xidmətçinin məvacibi isə gündə 35 manatdır. Bələdiyyə İdarəsi suyun da qiymətini artıra bilməz. Edə bilməz ki, camaata 10 qəpikdən vedrəsi su versin. Bir də evlərdən 5, 6, 7 qəpik artırmaqla şəhərin mədaxilinə heç bir şey olmaz. Şəhərin mədaxil yolları qeyri olaraq tapsın və bu mədaxili artırmaq üçün hökumət Bələdiyyə İdarəsinə yeni qanunlar tənzim edilərək ixtiyar versin.

**Sədr** - Söz Sultanməcid Qənizadənindir.

**Qənizadə** (İttihad) - Mətləb burada şəhərə borc vermək xüsusundadır ki, şəhərə 4 milyon verilsin ya yox? Şəhərin işi çətindir. Bu məsələ ətrafında danışılan sözlərin bir çoxu yersizdir. Burada Bələdiyyə İdarəsinin demokratik üsulunda olub-olmaması barəsində danışdılar. Ona qarşı deyərdim ki, əlbəttə, bizim Bələdiyyə idarəmiz demokratiçeskidir. Çünki demokratik əsası ilə seçilibdir. Hökumətimiz cümhuri demokratik olduğundan Bələdiyyə İdarəsi də demokratik olmalıdır. Əgər deyilsə də, Parlaman qayda və qanun qoymalıdır ki, öylə də olsun. Qaldı ki, deyirlər guya şəhər bərşikəst [müflis] olub alacağını qaytara bilməyəcək, ona ianə verək, bu doğru deyildir. Çünki şəhər həyatı bu saat təbii yolundan çıxmışdır. Şəhər qeyri vaxtda ki özünü dolandırırdı, indi dolandıra bilmir. Bu hal həmişəlik deyildir. Şəhərin indiki halı xəstə bir cismə oxşar ki, sağ olarkən özünü dolandıra bilirdi, amma indi xəstə olduğundan müvəqqəti özünü dolandıra bilmir və müavinətə möhtacdır. Fəqət o xəstəyə çörək lazım olduğu kimi, şəhər idarəsinə də əmələ [işçi] haqqı, məktəb, xəstəxana, su və qeyri camaatın ehtiyacını rəf edən [aradan qaldıran] idarələr üçün məvacib verməyə para lazımdır. Bələdiyyə İdarəsi bu paraları Bakı və Bakı ətrafında olan əhali üçün sərf edir. Bakı Bələdiyyəsi, Gəncə Bələdiyyəsi – bunları biz hökumətdən ayrı bir şey hesab edə bilmərik. Bunlar hamısı səltənətin [dövlətin] bir parçasıdır. Ələlxüsus Bakı Bələdiyyəsi. Şəhər idarəsi saxladığı məktəb və xəstəxana və qeyrilər səltənətin özünündür. Hərgah biz Bələdiyyə İdarəsinə pul verməyib bizim işimiz deyil deyərsək, Bələdiyyə İdarəsi də deyər ki, mədaxil olmadığından məktəbləri və xəstəxanaları və qeyriləri bağlayıram. Onda hökumətin





özünün borcudur ki, bağlanmış məktəb və xəstəxanaları açsın, su yoxsa, gətirsin və qeyrə. Madam ki, şəhər idarəsi özü bu barədə çalışmaq istəyir və onun üçün də müvəqqəti müavinət diləyir, biz bunun qabağında təşəkkür etməliyik. Ayrı söz ola bilməz. Hər halda, hökumətin borcudur ki, Bələdiyyə İdarəsinə kömək etsin. Hətta istibdad hökuməti də bu xoşbəxt şəhərə kömək edirdi. Bələdiyyə İdarəsi 4 milyon ki, müvəqqəti borc istəyir, burada ayrı mübahisə lazım deyildir; təşəkkür ilə bu borcu verməliyik. Nəinki faizsiz, bəlkə ianə surətində verməlidir. Bu qədər neft və ticarət sərvətinə malik olan şəhər idarəsinə özünü düzəldənə qədər arxayın olub borc verməmək olmaz. Bu borc gərək verilə və heç şərt-zad lazım deyildir.

**Sədr** - Təklif var ki, bu məsələyə etiraz olmadığından müzakirat qət olunub [müzakirələr kəsilib] səsə qoyulsun. Bu barədə dörd təklif var. Etiraz yoxsa, axırıncı söz məruzəçiyə verilib sonra səsə qoyulsun. Buna etiraz yoxsa, qəbul olunur. Axırıncı söz məruzəçiyə verilir.

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

### Zərərlər alınması

Avamlar Kamerasında Bentik əsirlərin və əsirlikdə ölənlərin ailələri nəfinə [xeyrinə] hökumətin Türkiyədən təvizat [əvəz] tələb edib-etməyəcəyini xəbər almışdır. Bonar Lou cavab vermişdir ki, biz Türkiyədən də başqa düşmən hökumətlər kimi hər bir şeyi alacağız.

### Burlar arasında

Kapştaddan xəbər verirlər ki, Cənubi Afrikada cümhuriyyət cərəyanı müqabilinə müxalifət hərəkatı artmaqdadır. Bütün məmləkətdə protesto mitinqləri qurulmaqdadır. Mitinqlərdən birində Cənubi Afrika İttifaqı ilə münasibat qət edilməsi [münasibətlərin kəsilməsi] və İngiltərə ilə əlaqəyə girmək təşviqatı əleyhinə qətnamə çıxarılmışdır.

### Romaniyanın zərəri

Romaniyanın hesabına görə, Mərkəzi Dövlətlər müharibə zamanında Romaniyanın zərəri olaraq Romaniyaya 1 milyard 140 milyon borcludurlar. Rusiya isə 160 milyon borcludur.

### Təzə aeroplan

Parisdən xəbər verirlər ki, doktor Raten təzə bir aeroplan ixtira etmişdir. Bu aeroplanın çarxı dəqiqədə 3 min dəfə dövr vurub çox ucaya qalxır. Bu aeroplanla Parisdən Əlcəzirəyə [Əlcəzairə] 5 saata, İstanbula 8 saata və Qahirəyə 11 saata uçmaq olar.

### Türkiyədə vüzəra böhranı

İstanbuldan Səlanikə verilən xəbərlərdə denilir ki, Müttəfiqlər yunanlılar və ermənilər əleyhinə olan tədhişin [terrorun] dayandırılmasını və müharibə zamanında nəfy [sürgün] edilmiş yüz minlərcə ermənilərin və yunanlıların müsadirə edilmiş mallarının qaytarılmasını Türkiyə hökumətindən tələb etdiklərinə görə To-

fiq paşa kabinəsi istefa vermişdir. Təzə kabinə təşkilini sultan öz öhdəsinə alır.

**Klemansonun əhvalına dair**

Keçənlərdə yaralanmış olan Fransa Rəisi-vükəlası [Baş naziri] tamamilə səhhətyab olmuşdur [sağalmışdır]. Pəncşənbə [cümə axşamı] günü səhər vaxtı isə öz məşğələsinə şüru eyləmişdir [işinə başlamışdır]. Sonra Hərbiyyə Nəzarətinə gedib qoşun rəisləri ilə müsahibədə bulunmuşdur. Ümid edirlər ki, Klemanso neçə gündən sonra Sülh Konfransında öz vəzifəsinə mübaşir olacaqdır [başlayacaqdır].

**Vilson**

Amerika Rəisi-cümhuru Vilson ikinci Avropa səfərindən qayıdanadək Amerika Konqresinin təcili iclasını dəvət etməyəcəkdir. O daimi sülh əqdinədək [imzalanmasınadək] Avropada qalmağı kəndisinə vəzifə bilir.

* Fevralın 25-də Vilson Bostona gəlməmişdən qabaq, ona hazır edilən suiqəsd kəşf edilmişdir.

* Stokholm - 18 fevral. Nyu-York birjasında bu son günlərdə rus pulunun kursu qalxmışdır.

**Rostovda sakitlikdir**

Tiflisdə olan ingilis heyəti zeyldəki [aşağıdakı] xəbəri elan eyləyir:

Aldığımız məlumatdan anlaşılır ki, Rostov və Novoçerkasskda camaat arasında həyəcan var deyə, bolşeviklərin simsiz teleqraf xəbərləri doğru deyildir. Bizim məlumatımıza görə, hər iki şəhərdə əhval yaxşıdır. Tsaritsından qərb tərəfə olan Denikin ordusunun cəbhəsi möhkəmdir.

Fevralın 20-sindən verilən ən doğru xəbərə görə, Denikin ordusu şimali Don cəbhəsində müvəffəqiyyətlə 20 verst irəliləmişdir. Bir çox əsir və mühimmati-hərbiyyə [hərbi sursat] almışdır.

**Dağıstan və Denikin**

Tiflisdən alınan məlumata nəzərən, Könüllü [ordu] inquşlara verdiyi ultimatumun mislini Dağıstana da vermişdir. Bu tələbatda onlar, dağıstanlıları bolşeviklərlə mübarizədən ötrü səfərbərliyə dəvət edirlər. Dağıstandan bir neçə süvari alay istəyirlər.

**Bolşeviklərin yürüşü**

Kiyev - Şura qoşunları müharibə ilə Nikolayev şəhərini işğal etmişlərdir.

* Kiyev, 25 fevral - Kiyevdə Direktoriya tərəfindən buraxılmış 3 min ədəd pulemyot, 500 avtomobil, 3 milyon put kağız, neçə milyon put saldat şineli, 100-dən ziyadə yeni toplar, telefon, teleqraf və mühəndis əyaları və neçə min tüfəng bolşeviklərin əlinə keçmişdir. Fastov alınandan sonra bu qənaimin [qənimətlərin] miqdarı dəxi də artacaqdır. Kazatin-Fastov hissəsində Direktoriya yolları mühafizə etmək niyəti ilə 7 ədəd zirehli qatar buraxmışdılar. Fəqət bolşeviklər çox sürətlə yürüş etdiklərindən bu qatarlar onların əlinə keçmişdir. Berdiçevdə əmələ [fəhlə] və kəndçi şurası təşkil edilmişdir.

* Fastov, 26 fevral - Şura qoşunları tərəfindən Kazanka mövqifi [stansiyası] işğal edilmişdir. Hal-hazırda Qırmızı qoşunlar yürüş edirlər. Əsirlər deyirlər ki, düşmənlər qayət dəhşətli surətdə möhkəmləşir. Fevralın 21-ində bolşeviklər Belı Serkov şəhərini işğal eyləmişlər. Direktoriya oranı buraxaraq xəzinədə, banklarda olan pulları aparmışdır. Hal-hazırda şəhərdə asudəlik hökmfərmadır [hökm sürməkdədir].

## SÜLH ƏTRAFINDA

**Ermənilər Sülh Konfransında**

Tiflis, 28 fevral (fransız mətbuatı) - Çaharşənbə [çərşənbə] günü erməni sülh mürəxxəsləri [nümayəndələri] tərəfindən Sülh Konfransına Ermənistan tələbatı təqdim edilmək münasibətilə erməni mürəxxəslərindən Aharonyan "Tan" qəzetəsində işbu məlumatı verir:

*"Erməni Milli Şurası 1918-ci sənə mayın 27-sində Ermənistan istiqlaliyyətini elan eyləmişdir. Ermənistan Parlamanını dəvətlə hökumət təşkil edilmişdir. Milli Şura öz haqqını Parlamana güzəşt eyləmişdir. Hal-hazırda Ermənistan Cümhuriyyəti 60 min mürəbbe [kvadrat] kilometrdən ibarətdir. Əhalisi təxminən 2 milyondur. Ordusu isə 30 mindən 40 minədəkdir. Ermənilər ta müharibə ibtidasından [başlanğıcından] türklərin təklifini rədd edərək müharib [savaşan] dövlətlər cərgəsində Müttəfiqlərin nəfinə [xeyrinə] çalışmışlardır. Şimdi, əgər erməniləri Sülh Konfransından kənar edərlərsə, bu erməni milləti üçün böyük müsibət olacaqdır. Binaənileyh [ona görə], mənim hökumətim, başında bulunduğum erməni sülh heyətinə mühəvvəl etmişdir [tapşırmışdır] ki, ən əvvəl Ermənistan Cümhuriyyəti istiqlaliyyətinin təsdiq edilməsini, saniyən [ikinci olaraq] erməni mürəxxəslərinin Sülh Konfransına buraxılmasını tələb edək. O ki, qaldı sair milli tələbatımıza, biz tələb edirik ki, Türkiyədə olan erməni vilayətlərinin Ermənistan Cümhuriyyətinə ilhaq edilməsi [birləşdirilməsi] ilə bizə mükəmməl istiqlaliyyət verilsin. Böyləliklə təşkil ediləcək yeni Ermənistan Cümhuriyyəti Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfindən təmin və böyük dövlətlərdən birinin müavinətinə məzhər [nail] olmalıdır. Təbii, bu böyük dövlət dəxi Cəmiyyəti-Əqvam tərəfindən göstərilməlidir. Gələcəkdə tərəqqi etmək üçün biz tələb ediriz ki, bizim dənizə çıxmağımıza müsaidə verilsin. Onsuz erməni milləti yaşaya bilməz."*

## DAĞISTANDA

**Lyaxov və çeçenlər**

Aldığımız məlumata görə, Könüllü ordu başçısı general Lyaxov iki dəfə çeçenləri Qroznıya çağırıb Könüllü orduya və özünə tabe olmağı təklif etmişdir. Hər iki dəfə çeçenlər Lyaxovun təklifini rədd ilə cavab vermişlər ki, Dağıstan Hökuməti razı olmadıqca onlar Könüllü ordu binagüzarlıqlarına [əmrlərinə] əməl etməyəcəklərdir və çeçen camaatı Dağıstan Hökumətinin əmrlərini gözləyir.

**Denikin və müridlik**

Könüllü ordu tərəfindən inquş və çeçenlərə zülm və təcavüzlər edildiyindən,

Könüllü orduya tabe olmaq istəməyən inquş və çeçenlər arasında müridizm adı ilə məruf [tanınan] dini bir hərəkət başlanmış və artmaqdadır. Dörd mindən ziyadə adam evini, aulunu tərk edib dağlara çəkilmiş və əhd etmişlər ki, Denikini tamamilə vətəndən qovanadək abreklik [qaçaqlıq] edəcəklərdir.

**Dağıstan arvadları müharibədə**

Könüllü ordu ilə dağıstanlılar arasındakı şiddətli müharibədə Dağıstan arvadları da iştirak edirlər. Neçə dəfə arvadlar Denikin kazak və könüllüləri ilə qanlı müsadiməyə [toqquşmaya] girişmişlərdir. Qafqaydan [Vladiqafqazdan] gələn bir şəxs rəvayət edir ki, arvadların müharibədə iştirakı dağıstanlılara öylə təsir edir [ki], onlar daha artıq şiddətlə davaya girərək hətta bəzi vaxt qılıncla düşmənə hücum edirlər.

**Yolların təxribi**

Şayiata [şayiələrə] görə, Könüllü orduya tabe olmaq istəməyən dağıstanlılar onların irəliləməsinə mane olmaq üçün dəmiryolları xarab edirlər. Dağıstan camaatı Kotsev hökumətindən narazı qalırlar ki, Könüllü ordu müqabilinə ciddi tədabir [tədbirlər] görməyir.

Şayiata görə, Dağıstan Hökuməti ilə Könüllü ordu arasında olan ixtilaf kəskin bir surət almışdır. Könüllü ordu başçıları Dağıstan hökumətinə iş başından çəkilməyi və Rusiyaya hücum edib bolşeviklərlə mübarizə etməkdən ötrü Dağıstandan əsgəri dəstələr verilməsi təklifində bulunmuşlar. Dağıstan Hökuməti bu təklifi rədd edib əhalini mübarizəyə dəvət edir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən Gəncə qəzasının 5-inci dairəsi müfəttişinə bir böylə kağız göndərilmişdir:

"Məsai Nəzarəti müvəkkili Hüseyn Rəhimzadənin Gədəbəy zavodu haqqındakı məruzəsini istemadan [dinlədikdən] sonra Nəzarət qət etmişdir [qərara almışdır]:

1) Təcili surətdə 8 saatlıq iş günü təyin ediniz!

2) Bayram axşamları və cümə axşamları 7 saat işləməlidir.

3) Hərbi İnqilab Komitəsi tərəfindən verildiyinə görə, bütün fəhlələrə təsviyyə pulu verməli.

4) Nəzarət tərəfindən müştərək [kollektiv] müqavilənamə tərtib edilənədək fəhlələrə bahalığa münasib məvacib verməli.

5) Fəhlələrə zavod komitəsi və kəsbkarlar ittifaqı [həmkarlar ittifaqı] təşkil etməyə izin verməK.

6) Fəhlə Komitəsi əzası [üzvləri] Nəzarət cənbindəki [Nazirliyin nəzdindəki] xüsusi müşavirədən izinsiz əzl [azad] edilə bilməzlər.

Fabrika və yaxud zavod müdiriyyəti maddələrin birinə əməl etməzsə, qanuni cavabdeh olacaqdır.

* Maliyyə Nəzarəti Məsai Nəzarətinə müraciətən təcili surətdə qulluqdan çıxarılacaq fəhlələrə veriləcək pulun miqdarını isticvabda bulunmuşdur [soruşmuşdur].

**Dövləti Müfəttişlikdə**

Dövləti Müffəttiş [Əliağa] Həsənzadə həzrətləri Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən sor[uş]muşdur ki, dəmiryolları xidmətçiləri xəstəlikləri və yaxud başqa bir hadisatdan sonra nə kimi mükafat alacaqlar. Nəzarət bununla bərabər məlum etmişdir ki, dəmiryolları qulluqçularını təmin etmək üçün dövləti sığorta təşkil etmək mənfəətdən xali deyildir [faydalıdır].

## İRƏVAN MÜSƏLMANLARININ HALI

İrəvan müsəlmanları nümayəndəsi Paşa Bayramov tərəfindən Azərbaycan Hökumətinə təqdim edilmiş məruzə:

Türklər İrəvan quberniyasından getdikdən sonra, 1918-ci sənə kanuni-əvvəlinin [dekabrının] ortalarında Ermənistan Hökuməti İrəvan müsəlmanları və ermənilərdən mürəkkəb [ibarət] bir heyət göndərib müsəlmanlar nəzdində qaçqın erməniləri öz kəndlərinə buraxmaq barəsində təşəbbüsatda bulundu.

Komisyon müsəlmanları inandırdı ki, ermənilərin müsəlmanlar əleyhinə heç bir iqdamatda bulunmaq [addım atmaq] fikirləri yoxdur. Fəqət [sadəcə olaraq] müsəlmanlarla sülh və müsalimətdə [əmin-amanlıqda] yaşamaq istəyirlər.

İşbu sözlərə inanmış müsəlmanlar erməniləri kəndlərə buraxdılar. Bunu da əlavə etməlidir ki, müsəlman kəndləri ermənilər tərəfindən yandırıldığı üçün müsəlmanlar erməni kəndlərində yerləşmişdilər.

Müsəlmanlar erməniləri şadlıqla qəbul edərək öz evlərində belə yerləşdirdilər. Ucuz qiymətə ərzaq və mühimmat buraxırdılar. Müsəlmanların məqsədi əski qonşuları ilə əlaqeyi-dostanədə yaşamaq idi.

Əfsus ki, böylə olmadı. Qaçqınlar ardınca erməni qoşun qitəatı [hissələri] kəndlərə doldular. Qaçqın ermənilər miyanında [arasında] min növ müfəttinlik [fitnəkarlıq] yapmaqla bir çox macəralar törətməyə müvəffəq oldular.

Ermənilər müsəlmanlardan kəndləri buraxıb getməyi tələb etməyə başladılar. Müsəlmanlar onlara kəndlərinin ermənilər tərəfindən yandırıldığını söyləməklə qış günlərində nerəyə gedə biləcəklərini də qeyd edirdilər. Heç olmazsa baharadək vaxt verilməsini dəfələrlə rica etdilərsə də, müvəffəq olmadılar. Zira ermənilər dinləmək belə istəməyirdilər. Bundan sonra ermənilər müsəlmanlar üzərinə dəhşətlər açmağa başladılar.

Özlərinin tələf olacaqlarını hiss edən müsəlmanlar ermənilərə təklif etdilər ki, qırğın qət edilsin [dayandırılsın], onlar çıxıb getməyə hazırdırlar.

Ermənilər bununla iktifa [kifayət] etməyib, müsəlmanların mallarını belə almağa başladılar. "Türklər gəldikdə bizim mallarımız itmişdir, şimdi siz gərək bizim xəsarətimizi verəsiniz" deyərək müsəlmanların var-yoxlarını yağma edirdilər.

Müsəlmanlar buna da razı oldular. Zira can qorxusu biçarələri hər bir zülmü qəbul etməyə məcbur edirdi. Müsəlmanlar mallarını, əşyanı [şeylərini] buraxıb çıxıb gedirdilər. Ermənilər yenə iktifa etməyib yollarda qaçqınlar üzərinə hücumlar yapıb öldürməyə başladılar.

Məsələn, İrəvan qəzasının 3-cü, 4-cü və 2-ci dairələrində, Eçmiyədzin qəzası-

nın 1-ci və 3-cü dairələrində və Sürməli qəzasının 1-ci dairəsində müsəlmanlar 10 milyonlarla malları qarət və yəğma edilib, 5000 nəfərdən ziyadə can tələfatı vermişlərdir.

Bu bəlalardan xilas olmuş bütün müsəlmanlar Sürməli qəzasının 2-ci "Aralıq dairəsi" nam [adlı] Ararat dağı ətəyindəki yerə cəm olub şimdiyədək orada yaşamağa davam edirlər.

Bunların halı olduqca fənadır. Aclıq və sari [yoluxucu] xəstəliklərdən insanlar milçək kimi qırılmaqdadırlar. Heç yerdən müavinət [yardım] yox. İşbu biçarələrin miqdarı 100 minədəkdir.

Bunlar keçən sənədə də böylə qarətə məruz qalmışdılar. Fəqət türklərin gəlməsi ilə yenə öz yurdlarına qayıda bildilər. Şimdi isə bütün dünyadan əlləri üzülmüşdür. Aradan bir Maku xanlığına yol vardır ki, oradan ufaq-təfək ərzaq alınır. Bunlara müavinət edilməzsə, hamısı qırılmağa məhkumdurlar. Hamı qaçqınlar açıq havada qalmışlar. Ermənilər paz kimi Sürməli qəzasına soxulmuşlar. Qəzanın 1-ci dairəsinin üçdən birini işğal etmişlərdir. Buranın mərkəzi İğdırdır. Bütün 2-ci dairəni və İrəvan qəzasının 4-cü dairəsinin bir hissəsini Qəmərli ilə bərabər tutmuşlardır.

Eçmiyədzin qəzasının bütün 3-cü dairəsi ilə 1-ci dairəsinin bir hissəsini də işğal etmişlər. Sərdarabad, Eçmiyədzin, Uluxanlı və Dəvəli mövqifləri də buraya daxildirlər. Əvvəllərdə buralar Araz Cümhuriyyətinin ərazisi idi.

Ermənilər bunlarla iktifa etməyib [kifayətlənməyib] müsəlman kəndlərinə də soxulmağa başlamışlardır. Müsəlmanlar buna etirazla məlum etdilər ki, müsəlmanlarla məskun [müsəlmanların yaşadığı] ərazi Ermənistana daxil olammaz. Ermənilər, bütün İrəvan quberniyası bizimdir, deyərək öz hərəkətlərində davam edirlər. Müsəlmanlar əhvalın məxuf və müdhişliyini [qorxulu və dəhşətli olduğunu] dərk etdiklərindən, axırıncı vəsaitədək mübarizədə bulunmağı qət etdilər.

Əvvəllərdə müsəlmanlar ermənilərin önünü almaqdan aciz idilər. Buna görə, ermənilər qalibanə bir surətdə yürüş edərək İrəvan qəzasında 8 müsəlman kəndini top atəşi ilə yerlə yeksan etdilər. Burası Vedibasar dairəsi idi. Ermənilər Şərur qəzasına da soxulub bir hissəsini tutdular.

Məruzəmdən muradım Azərbaycan Hökumətindən təcili tədabir ittixazı [tədbirlər görülməsi] təmənna və istirhamıdır [xahişidir].

Əvvəla: Sürməli və Vedibasar dairələrini – ki, Araz ilə Sürməli qəzasına hüduddur – Azərbaycan Hökuməti öz öh-dəsinə alsın.

Saniyən [ikincisi]: təcili surətdə Sürməli qəzasında cəm olmuş qaçqınlara müavinət edilsin (Aralıq dairəsi).

Salisən [üçüncüsü]: əkin zamanı yaxlaşdığı üçün bunların öz yurdlarına qayıtmaları üçün lazımi tədabir ittixaz edilsin və erməni quldur dəstələrindən xəsarət çəkmiş müsəlmanların zərərləri Ermənistan Hökuməti tərəfindən verilsin.

Ermənistandakı müsəlmanların əhvalı barəsində də bir neçə söz demək istərəm.

Zəngibasar dairəsindəki Uluxanlı mövqifi [stansiyası] ətrafındakı müsəlmanlar qayda üzrə soyulmağa məhkum qalmışlar. Allahsızcasına, müsəlmanların özlərinə kifayət belə etməyəcək ərzaqları həcz





[müsadirə] edilir, müsəlmanları aclıqla tərk-silah edirlər, böyük pul verməyə məcbur edirlər.

İşbu saydığım işlər daima macəralarla davam edir. Belə ki, daima ölüm, qarət, vəhşiyanə əlaqəni [vəhşicə münasibəti] görmək mümkündür. Bütün müsəlmanlar nəzəri-ilticalarını [yalvaran gözlərini] bircə Azərbaycana döndərib ümid bəkləyirlər. Vəilla [yoxsa], bu biçarələr təhqirat hədəfi olub tələf olacaqlardır.

İrəvan şəhəri müsəlmanlarının əhvalı böylədir. Şəhərdə erməni hökumətinin qüvvəsi yoxdur. "Xumblar" və bu kimi müsəlləh [silahlı] dəstələr Ermənistan Hökumətinə tabe olmayaraq müsəlmanları qətl-qarət etməkdə davam edirlər. Məsələn, Əkbər Hüseynov namdan [adlı şəxsdən] 40 min rublə, Həbib Məhəmmədovdan 50 min rublə tələb etmişlər. Saat 4-dən sonra müsəlmanlar küçələrə çıxa bilməyirlər. Ermənistan Hökuməti müsəlmanları təmin etməkdən acizdir. Binaənileyh [ona görə], müsəlmanlar şəhərdən çıxmağa məcburdurlar.

Türklərin övdətindən [qayıtmasından] sonra şəhərdə qalmış müsəlmanlar başqalarını da şəhərə gətirdilər. Böyləliklə 500 evədək müsəlmanlar yerlərinə qayıtdılar. Yolda bunlar qarət edildilər. Şəhərə gəldikdə ev tapmadılar ki, başlarını çəkib otursunlar. Zira bir çoxları məskun [içində sakinlər olan, dolu], digərlərinin bütün qapı, pəncərə, taxtabəndləri çıxarılıb yandırılmışdır. Müsəlmanlar məcburən məscidlərdə oturmuşlar.

Zəngibasardakı müsəlmanları tərk-silah etmək qəsdilə "qəhrəman" Aslan namın [Aslan adlı birinin] idarəsi altında bir qoşun qitəsi göndərildi. Aslan Yuxarı Necili kəndinə gəlib ictima [yığıncaq] dəvət edərək hər kənddən 500 ədəddən az olmamaq şərtilə tüfəng verməyi tələb etdi. Halbuki silahın sayı əhalinin sayından fəzlə çıxırdı. Müsəlman nümayəndələrinin iltiması [xahişi] qəbul edilmədi. Beş nəfər nümayəndəni iynəli və mıxlı ağaclarla döyməyə başladılar. Biçarələrdən birisi vəfat edərək digərisi çolaq oldu. Üçü isə çox zaman yataqda xəstə yatmağa məcbur oldular. Əhalini Məmiş Məşhədi Rəhim oğlu nam bir sərvətli müsəlman fəlakətdən xilas etdi. İşbu şəxs pul toplayıb ətrafından tüfəng alıb "Böyük Ermənistan" nümayəndələrinə verdi. "Qəhrəman" Aslanı və onun quldur dəstəsini öz xərcinə qonaq etdi. Böyləliklə bir çox silah cəm edildi. Aslan zəhmət haqqı olaraq hər kənddən 20 min rublə olmaq üzrə 180 min rublə pul, bir neçə min put da düyü və buğda aldı. Məmiş erməni başçısı olan Aslanı qonşu icmayadək ötürür və qayıdarkən Aslan ona üç saldat qoşub geri qaytarır. Saldatlar yolda Məmişi soyundurub qətl etdikdən sonra Zəngiyə atmışlar.

İşbu sənənin kanuni-sanisi [yanvarı] ortalarında Uluxanlı nam müsəlman kəndi yaxınlığında bir nəfər müsəlləh müsəlman görülmüşdü. Həman dairə komissarı kəndə gəlib bütün İrəvan şəhəri müsəlmanlarını həbsə aldı (fərar etmiş müsəlman irəvanlı idi). Bunları bir çox cəzaya düçar edərək fərarini tələb edirdi. Xalq fərarinin pədərinin [atasının] evini göstərməyə məcbur oldular. Qoca kişi oğlunun yerini bilmədiyindən bunun tələbini əmələ gətirməkdən aciz idi. "Qoçaq" komissar kəndxudanı çağırıb "Bunun meyitini götürərsiniz" dedi. Birazdan sonra yazıq

pədəri qətl etdilər. Fərarinin namı [adı] Məşhədi Məhəmməd, pədərinin namı Məşhədi Qulu Əkbər idi.

Müsəlman başçılarını tutub gülləbaran edirlər. Rəşid bəy Şəmsəddinov, Kərbəlayi Nəcəf, Yunis Ağa və kürdlərdən Teymur bəy və Həsən kimi zəvat [şəxslər] qətl edilmişlərdir. Erməni Hökuməti qət etmişdir ki, 7 nəfər müsəlman Ermənistandan çıxarılsınlar.

Ermənistan Hökumətinin cinayətlərini saymaqla qurtarammaz. Bir-birini mütəaqibən [bir-birinin ardınca] müdhiş və məxuf [qorxulu] hadisat törəməkdədir.

## BAKI XƏBƏRLƏRİ

**Parlaman iclası**

Məclisi-Məbusanın dünkü növbəti iclası üzv az gəldiyindən baş tutmamışdır. Sədr Parlamanın nəzəri-diqqətini son zamanlar müşahidə olunan absenteizmə cəlb etmişdir.

**Könüllü ordunun Bakıdan çıxması**

Azərbaycan Hökuməti tərəfindən verilən ultimatuma görə, keçən gün Bakıda olan Könüllü ordu dəstələrindən iki eşelon Bakıdan çıxmışdır. Eşelonlar özləri ilə bir çox mühimmati-hərbiyyə [hərbi sursat] və avtomobillər aparmışlar. Məlum olduğu üzrə, bu vaxtadək Bakıdan iki eşelon könüllülər Petrovska azim olmuşlar [yola düşmüşlər]. Onların bir hissəsi hələlik Bakıdadırlar ki, bugünlərdə onlar da çıxıb gedəcəklər.

**Müsəlman sosialistləri miyanında [arasında]**

Eşitdiyimizə görə, müsəlman sosialistləri bugünlərdə Parlamanda bir deklarasiya oxuyacaqlar. Deklarasiyada müsəlman sosialistləri Rusiyanın federasiya əsası üzərində qurulması əsasını qəbul eylədiklərini bəyan edəcəklərmiş. Rusiya sosialistləri ilə bu barədə etilaf [razılıq] əmələ gəlmişdir.

**Pristavın həbsi**

Aldığımız məlumata görə, Bakı qalabəyisi dairəsi 10-uncu uçastok [sahə] pristavı Muradov adam öldürməkdə müttəhim edilərək Bakı qubernatoru Rəşid bəy Axundzadənin binagüzarlığı [sərəncam] ilə xidmətdən əzl [kənar] edilmiş və həbsə alınmışdır.

## FƏHLƏ KONFRANSI

Martın 2-si, saat 1-də Fəhlə Konfransının təcili iclası dəvət edilmişdi. İclas açıldıqda Roxlin son iki günkü əhvalat barəsində məlumat verərək deyir ki:

Əvvəllərdə Biçeraxov Qafqaziya qoşunlarının komandanı olduğu halda Denikin ordusunun əleyhinə idi, Rusiya və Azərbaycan, xüsusən Bakı demokratiyası əleyhində deyildi. Biz sosialistlər bunu layiqincə bilirdik. Yoldaşlar! Bunu da dərmiyan etməliyiz [meydana qoymalıyız] ki, bolşeviklər də həman Rusiyanın böyük kütləsini təşkil edən kəndçilər və fəhlə nümayəndələridirlər. Biz onların da zorla denikinlərə baş əyməsinə ziddik. Biçeraxov Bakıdan getdi. Əvəzində Prjevalski gəldi. Bunların həpsi başda Denikin olmaq üzrə irticaçıdırlar. Buraya bunlar gələn kimi əhvalat dəyişdi. Müsəlmanların dediklərinə görə, bunlar burada ermənilərdən dəstələr tərtib verirdilər ki, müsəlmanların və türk demokratiyasının əleyhinə işlətsinlər. Bu şayiatın doğru-yalan olduğunu bilmirəm, fəqət əhvalın dəyişməsini hamımız görürdük.

Şimdi bütün həqiqi sosialistlər işbu məsələni həll etməlidirlər. Rusiya "Yedinaya Rossiya"nın Rusiyası olmamalıdır. Zira o Rusiyada da velikoruslar ağa olmalıdırlar. Xeyr, bizim əqidəmizdəki Rusiya bütün millətlər üçün bir olmalıdır! Bizim əqidəmizdəki Rusiyaya hamı xırda millətləri təbliğat və məsələni tənvir etməklə [aydınlaşdırmaqla, izah etməklə] mülhəq etmək [birləşdirmək] mümkün olacaqdı. Yumruq isə iş görəmməz. Biz bütün müsəlman sosialistlərinə xəbər verdik ki, yumruq ilə sizi Rusiyaya mülhəq etmək istəyənlər əleyhinə biz də sizlə bərabər iştirak edəcəyiz. Biz bunu daima türk istiqlaliyyətçiləri, türk sosialist yoldaşlarımıza demişik, yenə də deyiriz.

Şimdi Denikinin əlindəki bayraqda "Rusiyanı cəm" sözləri yazılmışdır. Hərgah, bütün xırda millətlər bizimlə olarsalar, o vaxt biz həman bayrağı onun əlindən qapmağa qadir olarız. O vaxt denikinlər heç şey yapmazlar.

Bəlkə bu sözləri biz ağır sözlərlə, kinayələrlə söylədik. Fəqət, həqiqət buradadır ki, biz söyləmişik. Biz onlara deyirdik ki, üçüncü bir qüvvəni aramıza aldıqca işimiz o qədər korlanacaqdır. Biz layiqincə anlayırız ki, Rusiya generalları və yaxud Rusiya Milli Komitəsi zəif Azərbaycan Hökumətini üçüncü bir qüvvə kənarına atacaqdır. Ona görə də öylə bir siyasət yürüdürdük ki, bu olmasın. Biz bilirdik ki, bizim firqəmizin Azərbaycan Parlamanına getmək qətnaməsi bir çoxunun xoşuna gəlməmişdir. Bunlardan bir parası bolşeviklər tərəfdarı olduqları üçün Parlaman qəbul etməzlər. Digərləri isə başqa parlamanları qəbul edirlər, fəqət Azərbaycan Parlamanını xeyr. Bu isə fəna bir hissdir, deyə biz təbliğatda bulunurduq.

Prjevalski iş başına gəldikdən sonra flotda [donanmada] siyasət yürütməyə başladı. Bunu da deməliyəm ki, Biçeraxov iş başında olduğu vaxt flot Denikindən para alırdı. Avtokolonna [avtomobil qatarı] da öylə idi. Fəqət Prjevalski isə işi dəyişdirməyə başladı. Yoldaşlarımız bəhriyyun [matroslar] və avtokolonnaçılar bizə müraciətən bizdən məsləhət sordular. Onların miyanında [arasında] bir neçə cərəyan var idi.

Birinci cərəyan deyirdi ki, Denikindən pul almaq olmaz. Digəri deyirdi, pulun qorxusu yoxdur, pulu alıb onların əmrlərinə itaət etməmək yaxşıdır. Üçüncü cərəyan flotu dağıtmaq tərəfdarı idi. Hacı-Tərxana getmək haqqında isə biz rədd cavab verdik. Zira kim bilir, Hacı-Tərxana gedənlər, geri Bakı üzərinə qayıtmayacaqlardır?

Bir cərəyan var idi, deyirdi ki, [elə] bir qüvvədən pul almalıdır ki, o qüvvə az zərər versin. Bu cərəyan deyirdi ki, Denikin Azərbaycan üzərinə gələrsə, flot Azərbaycanla bərabər Denikin əleyhinə müharibə açar. Yox, Rusiya demokratik əsasları ilə təşkil taparsa, bəlkə də Azərbaycan Rusiyaya mülhəq olsun. Bir də Azərbaycan Hökumətini demokratik əsasları üzərində təşkil etmək mümkün olar və yaxud Azərbaycan, flotu bitərəf etsin.

Bizim əqidəmizcə Azərbaycan məhəlli [yerli] xəstəlikdir, Denikin isə ümumrusiya xəstəliyidir. Üçüncü qüvvə isə bizə də,

Azərbaycana da mənfəətli deyildir. Binaənileyh [ona görə], Azərbaycan tərəfinə getmək yaxşıdır. Nə isə.

İki gün bundan əvvəl İngiltərə komandanlığı əmr etdi ki, flot tərki-silah etməlidir. Şayiata [şayiələrə] görə, Prjevalski xəbər vermişdir ki, "Mən bunu edə bilmərəm, etmək də istəmirəm." Bunun doğruluğunu biz bilməyiriz. Fəqət şayiat böylə idi. Bundan sonra İngiltərə komandanlığı bunlara da bir vaxt verib o vaxtadək Bakıdan çıxmağı tələb etdi. Prjevalski çıxıb getdi. Şayiata görə, hətta [hərbi] xəstəxanalar da 24 saatadək Bakıdan çıxmalıdırlar. Flota da xəbər verildi ki, tərki-silah etməlidirlər. Flotun bir hissəsi Nargin cəzirəsi [adası] arxasına çəkildi, bir hissəsi Bakıda qaldı. Flot inqilab vəziyyətini aldı. Əqidəmizcə, böylə də olmalıydı. Zira hamı flot [bütün donanmalar] düşmənə təslim olmaqdansa, çıxıb gedər.

İngilislər xəbər vermişdilər ki, flot tərki-silah etməzsə, tədabir ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

Mən, Çurayev və Yevanqulov general Tomsonun yanına gedib bu barədə danışmaq istədik. General bizi təbəssümlə qarşıladı. Biz generalla inqilabçı lisanı ilə söyləşməyə başladıq. General bizə dedi ki, flot Biçeraxova da təbəiyyət etmədi [tabe olmadı], Prjevalskiyə də təbəiyyət etmək istəmədi. Biz əvvəllər bu işə qarışmaq istəməyirdik. Fəqət şimdi biz divanə deyiliz ki, həm pul verək, həm də təbəiyyət etməsinlər. Biz elam etdik [bildirdik] ki, flot hərb vəziyyəti almış, ola bilsin ki, yarım saatdan sonra qan töküləcək. Bizi buraxınız, flotla görüşüb danışaq. General təbəssümlə dedi ki, flot ya qayıtmış, ya qayıdır. Biz generala xəbər verdik ki, onlar Rusiya demokratiyası əleyhinə gedirlər. Bakı füqərayi-kasibəsi əleyhinə silah işlədəcək olarsanız, türk demokratiyası da buna razı olmaz. Müsəlmanlar anlayacaqdır ki, siz Rusiya demokratiyası əleyhinə silah işlədirsiniz. General axırüləmr [axırda] bizim flot yanına gedib danışığımıza riza verdi. General bizim üçün böylə bir kağız oxudu. Rus flotu öz komandanlığına itaət etmədiyi üçün tərki-silah etdirilib İngiltərə komandanlığı göstərəcək yerə gedəcəkdir. Bir hadisat baş verəcək olarsa, İngiltərənin lazımi qədər qüvvəsi vardır ki, hadisatı bərtərəf etsin [aradan qaldırsın].

Yoldaşlar, biz flot yanına getmədik. Zira flot özü qayıtdı. Avtokolonnanın da bir hissəsi vaporlara [gəmilərə] yerləşdirilmişdir ki, buradan göndərilsin.

Bundan sonra birinci dəfə olaraq avtokolonna məsələsi müzakirəyə qoyulur. Məlum olur ki, avtomobillər yüklənmiş gəmilər getməyib durmuşlar. Onlar konfransın qərarını gözləyirlər. Bu vaxtda bir nəfər bəhriyyun [matros] gəlib xəbər gətirir ki, vaporların üçü getmiş, dördünə də demişlər ki, getməsələr həbs ediləcəklər.

**Bir nəfər müsəlman** - Yoldaşlar! Burada danışıldığı üçün denikinlər Rusiya demokratiyası deyil, Azərbaycan üçün də qorxulu bir düşməndir. Şimdi həman avtomobilləri Rusiya demokratiyası üzərinə işlədəcəkdir. Burada qalacaq olarsa, bəlkə Azərbaycanın özü[nə], yaxud konfransa veriləcəkdir. Biz gəmiləri getməyə buraxmayalım. Bizim topumuz yoxdur, tüfəngimiz yoxdur. Fəqət tətilimiz var. Qoy, yoldaşlarımızı həbs etsinlər. Biz də mübarizə edəriz.

**Vəlǝdzadə** - Yoldaşlar! Rusiyanın bir avtomobilləri deyil, bir çox başqa şeyləri də bizim pulumuzla alınmışdır. Denikinlər solları, yoldaşlarımız bolşeviklər[i] məğlub etdikdən sonra, mərkəzi də məğlub edib əzməyə çalışacaqdır. Biz razı olmarız ki, bizim paramızla alınan silah yoldaşlarımız bolşeviklərin əleyhinə işlədilsin. Tətilimiz müavinət [kömək] etməzsə əksinqilabçılar üzərinə gedəriz.

Qət edilir ki, 5 nəfər nümayəndə seçilib getsin ki, vaporları getməyə buraxmasın. 5 nəfərdən 2-si Zülfüqar və Qarayev olmaq üzrə müsəlmandan intixab edilirlər [seçilirlər]. Heyəti-rüəsa [rəyasət heyəti] tərəfindən Qənizadə gedir. Bundan sonra Roxlin böylə təklif edir:

1. Həbslər olmasın, həbs edilənlər azad edilsinlər.
2. Bəhriyyun və avtokolonnaçılara məvacibləri və çıxmaq pulu verilsin.
3. Xəstəxanalar Bakıda qalsınlar.
4. Gəmilər konfrans nümayəndələri təhti-nəzarətində [nəzarəti altında] tərksilah edilərək bitərəf saxlanılsın.
5. Bunlar qəbul edilməzsə, təcili iclas çağırılıb tədabir ittixaz edilsin.

Təklif ümumiyyətlə qəbul edilir

## GÜRCÜSTANDA

### General Prjevalski

Tiflis qəzetələri yazırlar ki, Bakıdan verilən xəbərlərə görə, Qafqaziyada olan rus qoşunu komandanı general Prjevalskinin ərkanı[nı] [qərargahını] Bakıdan Petrovska nəql etmək təsəvvüratındadırlar. General Prjevalski Petrovskda Könüllü ordu təşkil etmək niyyətindədir.

## TEATRO VƏ MUSİQİ

Zaqafqaziya müsəlman mütəəllimlərinin [tələbələrinin] Mərkəzi Komitəsi nəfinə [xeyrinə] səşənbə [çərşənbə axşamı] günü martın 4-ə Hökumət Teatrosunda oynanılması təyin edilən "O olmasın, bu olsun" operettası və şərqi müsamirə asılı olmayan səbəblərə görə təxirə salınmışdır. Tamaşa oynanan gün əlahiddəcə xəbər veriləcəkdir. Bilet alanlardan rica olunur öz biletlərini saxlasınlar.

**Talibə (kursistka)**

Ali-ibtidai məktəbinin hər siniflərinə şagirdlər hazır edir. Saat 11-dən 1-ədək, 4-dən 7-ədək. Adres: Qubernski və Sisyanovski küçələrin küncündə, nömrə 7, diş həkimi Levinin evində.

*5713*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Axşam tamaşası**
**Təzə opera**
Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşları müdiriyyəti tərəfindən
cümə günü cəmadiyəlaxir ayının
4-ündə martın 7-sində
1919-uncu sənəsi
*Müdiriyyətin dirijoru musiqişünas və bəstəkar Müslüm bəy Maqomayev və məşhur artist Hüseynqulu Sarablının şərəfinə (benefisinə)*
Müslüm bəyin təzə yazmış olduğu
**"Şah İsmayıl"**
operası birinci dəfə olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır.
6 pərdədə
Bəstəkarı Müslüm bəy Maqomayev,
sözləri Mirzə Qədir İsmayılovundur.
Bu tamaşada bir ildən ziyadə
səhnəmizdə iştirak etməyən
məşhur artistka Y. N. Olenskaya,
böyük xor və balet dəstəsi
iştirak edəcəkdir.
Biletlər teatrın kassasında
indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Möhtərəm tamaşaçılardan
xahiş olunur ki, biletləri indidən
alsınlar ki, tamaşa günü bilet almaqda
müşkülata düşməsinlər.
*T-50 3-1*

**Doktor Musa bəy Rəfiyev**
Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.
*b-37*

**Diş həkimi S. M. Hamburq**
Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.
Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.
Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Sərablı Məşhədi Möhsün Əliyev**
Bunun ilə möhtərəm həmvətənlərinə elan edir bizim Sabunçu və şəhər idarələrimizdə 1918-inci ildə qarət hadisəsindən naşi təxirə düşən hesabları vermişik. Hər kəsin tətimmə [əlavə; tamamlanası] hesabı qalıbsa, təşrif gətirib alsın.
Adres: Kamenisti küçədə 132 nömrəli mülkdə Əliyevlərin qədim hücrəsi.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Hökmət niyə istefa etdi?**
səh. 42. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Azərbaycan Məclisi-Məbusanında**
səh. 44. "...uzlaşma tezliklə qövldən feilə gətirilsin": qəzetdə "qövldən" yerinə səhvən "qüvvədən" getmişdir.
səh. 45. "poputnı sbor": put vergisi; xüsusən limanlarda bəzi ticarət mallarından put başına alınan vergi.
"promıslovıy naloq": "ticarət vergisi"; dövlətin ticarət və sənaye müəssisələrindən aldığı birbaşa vergi.
"traktir": yeməkxana, meyxana, mehmanxana kimi xidmət müəssisələri.
"Kazino": Bakıda, Malakan (indiki Xaqani) küçəsində mehmanxana.
"dəhyek": onda birlik vergi.

**Teleqraf xəbərləri: Zərərlər alınması**
səh. 47. "Avamlar Kamerası": Böyük Britaniya Parlamentinin İcmalar Palatası nəzərdə tutulur.

**Teleqraf xəbərləri: Burlar arasında**
səh. 47. "Burlar": Cənubi Afrika afrikanerlərinin subetnik qrupu.
"Cənubi Afrikada": qəzetdə səhvən "Cənubi Amerikada" getmişdir.
"Cənubi Afrika İttifaqı": qəzetdə səhvən "Cənubi Amerika İttifaqı" getmişdir.

**Teleqraf xəbərləri: Romaniyanın zərəri**
səh. 47. "Mərkəzi Dövlətlər" (yaxud İttifaq Dövlətləri): Birinci Dünya müharibəsinin tərəflərindən biri olan Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası, Bolqarıstan.

**Teleqraf xəbərləri: Türkiyədə vüzəra böhranı**
səh. 47. "Tofiq paşa": 1909, 1918-1919 və 1920-1922-ci illərdə Osmanlı dövlətində Baş nazir olmuş Əhməd Tofiq paşa (Əhməd Tofiq Okday) nəzərdə tutulur.
səh. 48. "Təzə kabinə təşkilini sultan öz öhdəsinə alır.": 1918-1922-ci illərdə Osmanlı sultanı olan VI Məhməd Vəhidəddin nəzərdə tutulur.

**Teleqraf xəbərləri: Kiyev**
səh. 48. "Kiyevdə Direktoriya tərəfindən buraxılmış...": qəzetdə "Direktoriya" yerinə "Diktatoriya" getmişdir. Ukrayna Xalq Respublikasının ali hakimiyyət orqanı olan və 1918-ci ilin noyabr ayından 1920-ci ilin noyabr ayına qədər fəaliyyət göstərən Ukrayna Xalq Respublikası Direktoriyası nəzərdə tutulur.

**Teleqraf xəbərləri: Fastov**
səh. 48. "Fastov": qəzetdə səhvən "Kastov" getmişdir.

**Sülh ətrafında**
səh. 49. "Aharonyan": qəzetdə "Aranyan" getmişdir.
"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən "Le Temps" qəzeti nəzərdə tutulur.

**Dağıstanda**
səh. 50. "Müridizm": Əslində bir sufizm cərəyanı olan müridizm 1820-1860-cı illərdə Şimali Qafqaz dağlılarının rus müstəmləkəçiliyinə qarşı milli azadlıq hərəkatının da adı olmuşdur.

**Nəzarətlərdə**
səh. 50. "Hərbi İnqilab Komitəsi tərəfindən verildiyinə görə...": belə başa düşülməlidir: "Hərbi İnqilab Komitəsi tərəfindən verilən öhdəliyə əsasən..."

**İrəvan müsəlmanlarının halı**

səh. 52. “...5000 nəfərdən ziyadə...”: qəzetdə səhvən “500 nəfərdən ziyadə” getmişdir.

“Aralıq dairəsi”: qəzetdə səhvən “Araq dairəsi” getmişdir.

səh. 53. “Xumblar”: erməni könüllü hərbi dəstələri; ermənicə “xumb” (dəstə) sözündən.

“Yuxarı Necili”: qəzetdə bu kəndin adı, ərəb qrafikasındakı hərflərinin nöqtələrinin bir-birinə qarışdırılması səbəbindən “Yuxarı Bəxli” kimi getmişdir.

**Bakı xəbərləri**

səh. 54. “absenteizm”: seçkilərdə iştirakdan boyun qaçırmaq yaxud kollegial orqanların üzvlərinin iclaslarda iştirak etməməsi.





**Çərşənbə, 5 mart 1919-cu il, nömrə 129**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 2 cəmadiyəlaxir sənə 1337. 5 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağa Musa Nağıyevin baş kantoru kamali-yəs və təhəssürlə [böyük bir hüzün və kədərlə] **Ağa Musa Nağıyevin** dünən martın 4-ü, gündüz saat 10-da vəfat etdiyini xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağa Əli Nağıyev, bacısı və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Tağı, Xədicə xanım, Sadıq və Murad Nağıyevlər **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mirzə Əsədullayev, öz övrəti və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Yelizaveta Qriqoryevna Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mirzə Məhəmməd və Kövsər xanım

Həsənovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Bakı Cəmiyyəti-Xeyriyyəsinin İdarəsi öz fəxri üzvü **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Fətulla bəy Rüstəmbəyov **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağa Musa Nağıyevin ümdə kantorunun xidmətçiləri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Bakı Tacirlər Bankı Şurasının sədri Hacı Zeynalabdin Tağıyev İdarə sədri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şəmsi Əsədullayevin oğlanlarının ümdə kantoru **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Səlim və Rüqiyyə xanım Sadıqovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Neft mədənlərinin xidmətçiləri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.





**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ümmüsəlimə xanım Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Neft mədənlərinin fəhlələri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

## HÖKUMƏT NİYƏ İSTEFA HALINDADIR?

Dünkü məqaləmizdə mərkəzlə solların ittihadından [birliyindən] hasil olacaq sabit bir mərkəzin nə kimi əsaslar daxilində təşəkkül edə biləcəyinin təhlilini bu günə vəd etmişdik.

Təşəkkül edəcək hökumətin tutacağı məslək, zamanın iqtizasına [tələblərinə] uymalıdır. Bu məsləkin "Bismillahir-rəhmanir-rəhim"i heç şübhəsiz ki, bütün türk fraksiyonlarının bəyannaməsində kamali-sərahətlə [açıqca] söylənmiş istiqlal və müdafieyi-istiqlaldan ibarət olmalı, ondan sonra isə istiqlal və hürriyyətimizi təhdid edən qara qüvvətlərə qarşı əzm və cəzmlə [qətiyyətlə] mübarizə edə biləcək bir mahiyyətdə olan ünsürləri barışdıra bilməlidir.

Bu məqsədlə təşəkkül edəcək və bir an əvvəl Məclisi-Müəssisan toplayacaq, dövlət idarələrini ciddiləşdirəcək, xalqla daha yaxından əlaqədə bulunacaq bir hökuməti və bu hökumətin arxasında duracaq ciddi bir əksəriyyəti, şübhəsiz ki, yalnız sola doğru təmayül edən bir mərkəz, bir koalisyon vücuda gətirə bilər. Müxalifət isə yalnız sağa münhəsir [məxsus] olar.

Fəqət bu əsası qəbul etməklə bərabər, digər bir əsas da vüqua gələcək etilafın [meydana çıxacaq uzlaşmanın] zəminəsini [təməlini] təşkil etməlidir. Firqələr Parlamandakı qüvvətləri nisbətində hökumətə iştirak etməklə bərabər, Kabinə rəisi haqqında şəxs etibarı ilə ittihad eyləməli və onun məsuliyyətini müştərəkən qəbul etməlidirlər. Eyni zamanda, heç bir firqəyə mənsub olmayıb da işgüzarlığı bütün etilafa gələcək firqələrcə məqbul olan bir-iki bitərəfin dəxi Kabinəyə girmələri münasib görülməlidir.

Bu surətlə təşəkkül edəcək bir Kabinəyə artıq ona bəyani-etimad etmiş firqələrcə ehtiramı lazım, etimadı zəruri bir heyət kimi tələqqi [qəbul] olunub heç bir müxalifətə baxmadan məmləkət gəmisi

sürülməlidir. Yoxsa firqə mənfəətləri, propaqan[da] məqsədləri iləri sürülər, ölçüyə gəlməz bir taqım iddialarla meydana çıxarsa, o zaman böhran həman davam edib gedər. Böhranın davamı isə məmləkətin mənafeyinə heç də müvafiq deyildir.

Nə qədər ki, Parlaman böylə sabit əksəriyyət əsasını vəz edə [həyata keçirə] bilməmişdir, nə qədər ki, firqələr öz aralarında anlaşa bilməmişlərdir, o zamana qədər də hökumətin istefa halında qalması təbiidir.

Ümid edəlim ki, mülahizəsiz hücumları ilə hökumətin mövqeyini gevşətən [laxladan] firqələr, fəzlə firqəçilik üzündən yeni təşəkkül edəcək hökumətin işini dəxi işkal etməzlər [çətinləşdirməzlər].

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabə'd)*

**Musa bəy Rəfiyev** (məruzəçi - Müsavat) - Aşurov həzrətləri nitqlərində biriki söz söylədilər ki, onunla da Büdcə-Maliyyə komissiyasına yeni bir vəzifə vermiş oldular. Natiq deyir ki, Maliyyə-Büdcə komissiyasının varidat barəsində bir nəzəri varmı, mədaxil yollarını niyə göstərməyib, yaxud mədaxil yollarını niyə sormayıbdır? Bu bizim vəzifəmiz deyil, komissiya böylə bir vəzifə ifasına borclu deyildir. Büdcə-Maliyyə komissiyası ancaq bunu müzakirə edir ki, bu pul verilsin ya yox. Bir də, əgər kənar bir təşkilata pul verməli olsa, komissiya onun etibarlı olub-olmadığını təhqiq etməlidir. Bir də Sultanməcid [Qənizadə] ilə [Heybətqulu] Məhəmmədbəyov deyirlər ki, Bələdiyyə İdarəsi etibarlıdır, istədiyi qədər pul verilə bilər. Bəli, şəhərin o qədər etibarı var ki, 50, 100 həttа 150 milyon da borc edə bilər. Hələ qədimdə ingilis bankları şəhərimizə 28 milyon etibar edirlərdi. Şimdi biz öz paytaxtımız olan Bakıya 7 milyon vermək məsələsini qalxızmaq lazımmıdır? Özgə 30 milyon etibar etdiyi bir şəhərə, biz 7 milyon damı etibar etməyəcəyiz? Hərgah şəhərə bu pullar verilməsə, hökumətin borcudur küçələri təmir etdirsin, xəstəxanaları və məktəbləri saxlasın və sairəni öz öhdəsinə alsın. Əhməd [Cövdət] bəy buyurdu ki, şəhərin üsulu düz deyildir. Büdcə-Maliyyə komissiyası bu xüsusda müəyyən təklif təqdim edir. Əvət, şəhərin üsulu düz deyildir. Ona görə də məzkur [adı çəkilən] komissiya Daxiliyyə Nəzarətinə təklif edir ki, bələdiyyə intixabatı [seçkiləri] haqqında sürətlə bir qanun tərtib və Məclisi-Məbusana təqdim etsin. Şimdiyə qədər şəhərin öz təşkilatı vardı və bütün işlər bu təşkilatla idarə olunurdu. Bələdiyyə İdarəsi bu ana qədər öz vəzifəsini mümkün olan qədər ifa etmişdir. Fəqət, bundan böylə Daxiliyyə Nəzarəti bələdiyyə seçki qanunu hazırlamalıdır ki, şəhər idarələri demokratik üsul ilə seçilsin və idarə olunsunlar.

Qanun səsə qonularaq əksəriyyətiara [səs çoxluğu] ilə qəbul olunur. Borcun faizsiz olaraq buraxılması haqqında sosialistlər tərəfindən və 10 il müddətinə verilməsi barəsində Aşurov tərəfindən varid [daxil] olan təklif qəbula keçmir.

Növbədə: Dəmiryol tarifəsinin artması məsələsidir.





**Abuzər bəy Rzayev** (məruzəçi) - Keçən iclasda dəmiryol tarifələrinin artırılması məsələsinə baxdıq. Bu məsələ xeyli mühüm və camaata zərər toxuna biləcəyi ehtimal daxilində olduğundan, Parlaman qət eylədi ki, layihə çap olunub fraksiyalara göndərilsin. Qanun layihəsi çap olunub fraksiyalara göndərildi. İndi fraksiyaların fikrini bilmək lazımdır.

**Qənizadə Sultanməcid** (İttihad) - Keçən dəfə danışıldı ki, dəmiryol tarifələri artsın. Tarifəni bir dəfə də Seym artırmışdı. İndi o tarifələri bir daha artırmaq istəyirlər. Mən öylə bilirəm ki, dəmiryol əmələlərinin [işçilərinin] məvacibi və sair xərcləri artmış olduğundan, tarifələri artırmamaq olmayacaqdır. Çünki ayda 8 milyon manat zərər var. Əgər kirayə [daşınma xərci] artsa, güman edirəm zərər olmaz. Ona görə, malların kirayəsinin artırılmasına riza vermək olar. Malın üstünə nə qədər pul gəlsə, alış-verişçi də camaatın boynuna qoyacaqdır. Onsuz da alış-verişçilər storoja [mühafizəçiyə], streloçnikə [keçidçiyə, dəmir yolunda keçidlərə nəzarət edən və onları dəyişdirən şəxsə] və sairələrinə pul verir. 15 əvəzinə 30 artırsaq da alış-verişçiyə təfavüt etməz. Ona görə, mən buna etiraz etməyib, mal kirayəsinin artırılmasına riza verirəm, tainki yolun xərc və məxarici çıxsın. Amma sərnişin kirayələrinin artırılmasına riza verə bilmərəm. Biri var tacirdir ki, öz mənfəəti üçün gedir, verdiyi pulu da malın üzərinə gələcəkdir. Bir də var ki, vacib bir iş üçün başqa bir şəhərə gedir, heç mənfəəti də yoxdur. Məsələn, Gəncədən teleqraf gəlib ki, ailəsi naxoşdur. Əvvəl 5 manat verdiyi halda, indi 160 manat yol kirayəsi verməli olar ki, bu da kasıblar üçün xeyli müşküldür. Bu zülümdür, buna heç vaxt riza vermək olmaz ki, sərnişin biletləri də mal kirayəsi kimi artırılsın. Ona görə mən rica edirəm ki, Parlaman yük tarifələrinin artmasını layihədə göstərildiyi kimi qəbul etsin. Amma sərnişin biletlərini artırmasın. Seym qoyduğu qərar üzrə qiymətlər baqi qalsın.

**Ağa Əminov** (Müsavat) - Keçən həftə tarifələrin artırılması haqqındakı qanun layihəsi qəbul edilmədi. Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri buyurdular ki, dəmiryolunun ayda 8 milyon zərəri var. İndi deməli, keçən həftə qanunu qəbul etmədiyimizə görə gündə 70-80 min olmaq üzrə bu vaxtadək 2 milyon zərər etmiş oluruz. Hələlik yolun mədaxili olmadığına görə, bu zərərləri ödəmək üçün tarifələri artırmaq, yaxud kağız pulları çoxaltmaq lazım gəlir. Pulların çoxalması qədir-qiymətinin azalmasına və şeylərin bahalanmasına səbəb olur. Bugünkü iclasa sair smetalar dəxi gəlmişlərdir. Bunlar əsla mədaxili olmayan Nəzarətlərdə [Nazirliklərdə] məvaciblərin artırılması və qeyri məsarif haqqındadır. Bunların da artırılması ilə yenə də kağız pul artacaqdır. Bəzi natiqlər dedilər ki, sərnişin biletləri tarifəsi artmasın. Amma burasını bilməlidir ki, bu saat dəmiryolu ilə gedənlərin əksəri alış-verişçidir. Kəndçilər isə dəmiryolu ilə ancaq quberniya şəhərlərinə gedirlər. Bu da nüdrətən düşür [nadir olur]. Onların çox getdikləri uyezd [qəza] şəhərləridir ki, oralara da dəmiryolu olmadığından, hər kəs öz atı və arabası ilə gedir. Kəndçilərin quberniya şəhərlərinə gəlmələri üçün dördüncü sinif vaqonlar təklif olunur. Bunun da qiyməti üçüncü sinifdən ucuzdur. Böylə ki, Seym qabaq-

da 6 dəfə artırdığı üçüncü sinifdən indiki dördüncü sinif daha ucuzdur. Bir də o vaxt “Maksim Qorki” adlı dördüncü sinif bir qatar gedirdi ki, bir günlük yola 5 günə ancaq gedib çıxırdı. İndi isə dəmiryol naziri dördüncü sinfi sərnişin qatarı ilə yola salacaqdır. Bu surətlə fəqir-füqəranın da halı nəzərə alınıb yüngülləşdirilmişdir. Bir də istərdik deyək və sübut edək ki, tarifələrin artması malların bahalanmasına səbəb olmayacaqdır. Məsələn, bu saat şəhərdə hər şeydən ucuz kartofdur. Onun da putu bir manat artırılsa, girvənkəsinə 2 qəpik yarım düşür ki, bu da indiki vaxtda bir pul deyildir. Bir də buğda 160 manata qalxmışdı, indi yenə 120 manata düşmüşdür və halonki [halbuki] bu vaxt zərfində tarifə nə artmış, nə də əskilmişdir. Tarifə artmadığı halda, ət bahalaşmışdır. Halbuki tarifə artsa belə ətin qiymətinə təsir edəmməz, çünki qaramal çöl ilə gətirilir. Bu barədə fraksiyaların məlumatı olmadığından tarifələrin artmasına riza vermirlər. Amma biz təklif edirik, bu qanun müvəqqəti olduğu üçün qəbul edilsin və arzu edərdik ki, mütləqa müvəqqət olsun. O vaxta qədər də yollar naziri ətraflı məlumat toplar və hasil olan məlumatı əsl bir qanun layihəsi ilə təqdim edər. İndi isə "Müsavat" fraksiyası bu layihənin qəbulunu təklif edir.

**Əhməd Cövdət** - Keçən səfərki iclasda mən də, Əbilov cənabları da bu xüsusda öz nöqteyi-nəzərimizi bəyan etdik. Bu gün də bu məsələ müzakirə olunduğundan genə də fraksiya tərəfindən təkrar olaraq deyiriz ki, bizim nöqteyi-nəzərimiz budur ki, bu kimi layihələr Parlamana təqdim olunan vaxt Nəzarət gərək ətraflıca, bütün səfərlərlə bərabər səhih [doğru] məlumat versin. Nəzarət deyir ki, ayda 8 milyon zərər olur və bu zərərləri göstərmək üçün misal olaraq dekabr ayını götürür. Məlumunuzdur ki, dekabr ayı qarışıq bir zaman idi. O zaman bir çox vaqonlar əsgərlər tərəfindən alınmış, bütün dəmiryolu işləri cığırından çıxmış və idarə pərişan bir halda idi. Bu səbəblərdən bəlkə o ayda kassaya mədaxil gəlməmiş idi. Lakin getdikcə hərəkət qaydaya düşüb, işlər düzəlib, mədaxili də artmaqdadır. Yanvar ayındakı mədaxili bilməyiriz, lakin biz onu biliriz ki, zərər 8 milyon deyil, azdır. Yük tarifələrinin artmasına sözümüz yox, amma sərnişin tarifələrinin artması füqərayi-kasibənin mənafeyinə toxunacaqdır. Buyurdular ki, füqəra üçün ayrıca dördüncü klas vaqonu buraxılacaqdır. Amma o həman vaqonlardır ki, irəli 36 at doldurulurdu, indi 100 adam doldurulacaqdır. Amma hər vətəndaşın hüququnu gözləmək lazımdır. Biletləri artırmaq surəti ilə fəqir-füqəranın at vaqonu ilə getməsinə səbəbiyyət verilməsin. Bu mülahizələrlədir ki, yük tarifələrinin artmasına razı ola bilərik, amma sərnişin tarifəsinin artması əleyhindəyiz. Əgər alışverişçilər üçün artırılırsa, bu pul onlardan başqa qayda ilə alınsın. Bunun üçün xüsusi bir qanun tərtib verilsin. Nəzarət, məxarici qapatmaq üçün yalnız böylə tarifə artırmaq və sairə kimi şeylər düşünməyib, başqa mədaxil yolları tapmağa çalışsın. Məsələn, bizim Gürcüstanda vaqon və paravozlarımız var, uzun müddətdən bəri orada saxlanılırlar. Onlar gərək tezliklə alınsınlar. Hökumət və Nəzarət bu xüsusda ciddi tədbirlər görməlidir. Bir para vaqon və paravozlarımız var ki, təmirə möhtacdırlar. Onların da təmiri ağır gedir, səbəbi də taxta əqsamının [hissələrinin] olmadığıdır. Nəzarət bu xüsusda da tədbirlər görərək haradan mümkün isə tapsın, meşələrə sifariş versin və işlər qabağa getsin. Bir də Hacıqabul istasyonunda paravozlar dəyişməlidir. Vaqonların bir çoxunu agentlər xüsusi işdən ötrü alırlar. Bu kimi xüsusi işlərdən ötrü təxsis edilən [ayrılan] vaqonların miqdarı azalmalı, hətta tamamilə camaata verilməlidir ki, camaat istifadə edə bilsin. Daha bir çox xüsuslar da var ki, tədbir görülsə, gediş-gəliş artar və dolayısı ilə mədaxil artaraq, zərər azalar, hətta heç zərər olmaz. Fraksiyamız tərəfindən təklif ediriz komisyonun yük tarifəsi artırılması haqqındakı təklifi qəbul edilsin, biletlərin qiyməti isə artırılmasın.

*(yenə var)*

## TƏƏSSÜRAT

Vüzəra böhranımız nə oldu? Bitdimi, bitmədimi? Bitmədi isə nə üçün bu cürə ciddi bir zamanda nə məntiqlə bu böhranı bu qədər uzadırlar? Yeni bir Kabinə təşkilinə hazır adamlarımız varmı? Varsa bəs neyçün Kabinə təşəkkül etməyir? Bəlkə təşkilinə mane olanlar var? Neyçün mane olurlar? Qorxmurlarmı ki, bu uzun böhran dövlətimizi həmi daxilən və həm də xaricən böyük müşkülata sala bilər?

Denikin qoşunu paytaxtımızdan tamamiləmi rədd oldu? Nə şərtlə onları yola saldıq? Silahlımı getdilər, silahsızmı getdilər? Nerəyə getdilər? Dağıstanamı? Bəs Dağıstan buna razı idimi? Şimaldan denikinlər hücumuna məruz qalan dağıstanlılar cənubdan dəxi denikinlilərin gəlməsinə nə nəzərlə baxarlar? Denikin hücumlarına qarşı dağıstanlı qardaşlarımız yalnızmı müdafiə edirlər? Biz onlara kömək yetirməyə borçlu deyilmiyik? Dağıstan denikinlilərin çəngalına [caynağına] keçərsə, bizim dövlətimizin halı necə olar?

Neyçün ingilislər flotun [donanmanın] silahlarını aldılar? Kimdən ötrü aldılar? Nədən ötrü inglislər flotun silahını alıb denikinlərə vermək istəyir, ingilislərlə Denikinin əlaqəsi nədir? Flotun silahından biz də istifadə edə bilərikmi????

Qərəz, bu növ suallardır ki, başımıza dolub cavab istəyirlər və cavab tapılmadığı halda beynimizi deşəcək dərəcədə bizi incidib istirahətdən salırlar.

Birdən istəyirsən ki, bu sualların hamısına bir kərəlik:

– Əşşi, mən nə bilim?!

deyib, yaxanı qurtarasan. Lakin olmur, suallar səndən əl çəkməyirlər. Nerədə olsan, nə halda olsan səni təqib edib cavab istəyirlər. Deyirlər, indi ki, qəzetəçi olub da bu cürə işlərə qatışırsan, onda bu sualların cavabını ver. Deyirsən ki, bu sualların cavabını gərək hökumət versin. Deyirlər ki, elə biz də onu soruşuruq ki, bəs hanı hökumət? Deyirsən ki, inşallah hökumət bu tezlikdə əmələ gələr. Deyirlər ki, hanı “bu tezlik” ki, hələ heç axırı görünməyir? Deyirsən ki, yəqin partiyalar səy edirlər ki, öylə bir möhkəm hökumət əmələ gətirsinlər ki, daha bir də itələyəndə yıxılmasın. Deyirlər ki, onlar səy edib yeni hökumət əmələ gətirincə düşmənlərimiz də “səy” edib başqa bir hökumət əmələ gətirərlər... O halda qalırsan belə, bilmirsən ki, nə cavab verəsən...

Birdən fikrinə bir şey düşür. O “şey”

səni şadlandırır, qəlbin rahat olur, fikir səni basmır, hətta iştahın açılır. Vaxtında yeyib, vaxtında yatırsan və başındakı suallara deyirsən ki, bir az səbr ediniz, inşallah hamınıza cavab verəcəyəm.

O şey nədir?

Parlaman.

Bu gün Parlamanın iclasıdır. Gedərəm oraya və məbuslarımızın söhbətlərini eşidib işlərimizdən xəbərdar olaram. Bu ciddi və həyəcanlı vəqələrə dair nəzərlərini bilib – pis nəzər də olsa qəbuldur, təki nəzər yetirdiklərini bilim – cahil ikən alim olaram.

Saata baxıb görürəm ki, Parlaman iclasına bir qədər gecikmiş olacağam. Tez kağız-kuğuzlarımı yığıb kamali-əcələ [tələsik] və sürətlə Parlaman imarətinə tərəf yorturam ki, birdən:

– Nahaq yerə özünü yorma!

sədası məni bilaixtiyar dayandırır. Səda sahibi tanışımdır.

– Parlamanamı yüyürürsən?

– Bəli.

– Nahaq yerə.

– Neyçün?

– Bu gün zasedaniyanı [iclası] atlajit elədilər [təxirə saldılar].

– O neyçün?!

– Kvorum yox idi.

– Bəs o neyçün?!

– Məbuslar yığılmadılar...

– Hansı məbuslar?

– Əlbəttə müsəlman məbusları! Ermənilər, ruslar, yəhudi, polyaklar hamısı vaxtında gəlmişdilər. Müsəlmanlardan da ancaq bir neçəsi vardı. Yerdə qalanlarını sədr cənabları gözlədi, gözlədi; gəlib çıxmadılar. Ona görə də kvorum əmələ gəlmədi və iclas baş tutmadı.

Əgər mən bizim müqəddəratımızın parlaq gələcəyinə inanmayan bədbinlər cümləsindən olsaydım, bu əhvalatdan heç də mütəəssir olmayıb bədbinliyimi isbat edəcək keyfiyyətlərdən ən qüvvətlisidir, deyə sakit olardım.

Lakin bədbin olmadığıma görə sakit ola bilmədim və o dərəcə mütəəssir oldum ki, axırı özümə də acıdım...

Necə də mütəəssir olmayım ki, bu cür fövqəladə bir zamanda, Parlamanımızın fövqəladə iclaslar qurmağı lazım gələrkən, millət “seçilmişləri” öz adi vəzifələrini də ifa etməyib, müəyyən iclaslara gəlməyirlər və gəlməyib də gələnlərin də işini korlayıb məclisin baş tutmamağına səbəb olurlar.

Bu növ həyəcanlı bir zamanda Azərbaycan Parlamanı ikinci kərədir ki, məbusların yığılmadığına görə mövquf olub [işini dayandırıb] bizi əğyarlar [yadlar] yanında gülünc edir. “Yedinaya Rossiya” qəzetəsi bizim Parlamanımıza “əz bərayi xali nəbudəni mürasilə” qondarma bir şeydir dedikdə bizim acığımız tutur. Halbuki bu cürə gülünc töhmətlərə səbəbiyyət verən özümüzük.

*Üzeyir*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə naziri həzrətlərinin Azərbaycanda əxzi-əsgərdən [hərbi çağırışdan] ötrü müəssisə təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə naziri həzrətlərinin məruzəsini təsvib ilə [bəyənməklə], tapşırılsın ki, Parlamana idxal edilmək üçün qanun layihəsi surətində tərtib versin.

* Qubernator [İbrahim ağa] Vəkilov cənabları tərəfindən Xariciyyə naziri müavini namına [adına] bir böylə teleqram gəlmişdir:

*“Şimdi Novo-Bayəzid qəzasının Zağalı kəndinin 311 nəfərdən mürəkkəb [ibarət] bir heyəti mənim yanıma gəlib məlum etmişlər ki, onların kəndi ermənilər tərəfindən xarabazara döndərilmişdir. 15 nəfər müsəlman qətl edilmişdir. Öz kəndlərini buraxaraq Gəncə quberniyası tərəfinə azim olmuş [yola düşmüş] kəndlilər bir neçə nəfər də donmuş tələfat vermişlərdir. Bunların heç bir şeyləri yoxdur.*

*Qubernator Vəkilov”*

## SÜLH ƏTRAFINDA

* Paris – Mütarikə şəraitinin [atəşkəs şərtlərinin] daha ağır olmasından bəhs edən qəzetələr deyirlər ki, general Foş bu axır vaxtlarda hədəyə məcbur olmuşdur ki, bu yolla Almaniya nümayəndələrini mütarikə komisyonunda iştirak etməyə vadar etsin. Bu axırıncı iki həftədə Almaniya nümayəndələri öz vəziyyətlərini dəyişdirmişlərdir. İndi onlar bəyan edirlər ki, ancaq qələbəsiz sülhü qəbul edəcəklərdir. Bundan əlavə, fransızlar zənn edirlər ki, Almaniya, qoşunlarının tərxisini dayandırıb şərq xəttinə Hindenburqun komandası altında 18 firqə [diviziya] qoşun qoymuşdur. Müttəfiqlər bu etiqaddadırlar ki, Almaniyanı öylə bir vəziyyətə qoymalıdırlar ki, Almaniya mütarikə maddələrinə müqavimət göstərə bilməsin. Foş Ali Hərbi Şurada bəyan eyləmişdir ki, almanlar özlərinin məğlub olduqlarını yadlarından çıxarırlar. Onlar nəqliyyat vasitələrinin təslimini təxirə salmaqla müşkülat törədirlər. Foşun əqidəsinə görə, Müttəfiqlər Esseni işğal etməlidirlər.

* Berndən göndərilən teleqraf xəbərlərindən anlaşılır ki, Haaze Berndəki sosialistlər konfransından çıxarkən bəyan eyləmişdir ki, feldmarşal Hindenburq Şərqi Prussiyada altı yüz min nəfərlik könüllü ordu təşkil edir və məqsədi Almaniyada köhnə üsulu bərpa etməkdir. Hindenburqun ərkani-hərbi [qərargahı] Kolberqdədir. Haaze təklif edir ki, Müttəfiqlər Hindenburq qoşunların[ın] hərəkətinə diqqət etsinlər. Lazım olarsa, bu qoşun cəminə [yığılmasına] bir sərhəd qoysunlar.

* “Tan” qəzetəsi deyir ki, Ukrayna Şurası Müttəfiqlərlə müştərəkən məşvərətdə bulunmağı qəbul etmişlərdir. Fəqət onlar Parisi Böyükadaya tərcih verirlər və təvəqqe etmişlər ki, fevralın 10-unda məşvərət məclisi qurulsun.

## TELEQRAF XƏBƏRLƏRİ

* Zürixdən verilən xəbərlərə nəzərən fevralın 8-ində axşam Berlində spartaklar böyük bir iğtişaş çıxarmışlardır. Matroslarla saldatlar Eyqoronun təhti-komandasında [komandası altında] mühüm nöqtələri işğal etmişlərdir. Hökumət qoşunları nəticədə atəş açıb 8 nəfəri öldürüb, 40 nəfəri də yaralamışlardır. Dəhşətli sansür [senzura] qoyulmuşdur.

* Köln – Rəsmi surətdə xəbər verilir ki, orta siniflərin tətili qurtarmışdır. Spartaklar burjuaznı tətilçilərin tələbatını qəbul etmişlərdir.

* İstanbul – Erməni qırğını salmaqla

itham edilənlərin işləri Divani-Hərbdə [Hərbi Məhkəmədə] mühakiməyə başlamışdır. Sabiq qubernator Kamal bəy və jandarma rəisi Tofiq bəy də müqəssirlər arasında vardır. Erməni hüquqşünaslarının bəyanatına görə, 3700 nəfər erməni qırğında tələf olmuşlar.

Bazel – Kovnodan [Kaunasdan] çəkilmiş olan teleqrafa nəzərən Litva qoşunlarının müvəffəqiyyəti və Fin-Eston qoşunlarının irəliləməsi münasibətilə bolşeviklər Vilna [Vilnüs] şəhərini təxliyə edir.

* İngiltərədə həftədə 40 saat işləmək tələbi uğrunda əmələlərin tətil hərəkatı getdikcə artır.

**Macarıstanda tətil**

Amsterdam – Budapeştədən verilən xəbərlərdən anlaşılır ki, bütün Macarıstanda çexlərə qarşı tətil elan edilmişdir. Bu tətildə dəmiryol, ticarətxana və şəhər idarələri məmurları ilə əmələlər iştirak edirlər. Bütün işlər dayanıb, bütün mağazalar, mehmanxanalar, qəhvəxanalar bağlanmışdır.

Köln – Orta sinif spartakların üsulidarəsindən narazı olduğundan, Düsseldorfda əhval yaxşı deyildir. Spartaklara qarşı bir çox qəzetələr, advokatlar, doktorlar, mehmanxanalar tətil elan etmişlərdir.

**Almaniyada iğtişaş**

Berlin – Almaniyanın bütün qitələrindən [hissələrindən] iğtişaş barəsində xəbərlər alınmaqdadır. Düsseldorf ilə Hamburqda vətəndaş müharibəsi davam edir. Şuralar Lübekdə teleqrafla telefon idarələrini əllərinə keçirmişlərdir və məqsəd də budur ki, hökumətə xəbər verməyə imkan verməsinlər. Lakin buna spartalar nail olmamışlardır. Zira məmurlar spartaklara qarşı vəziyyətlərini dəyişdirmişlərdir. Spartaklar Milli Məclis əleyhinə təbliğatda bulunurlar.

Berlində ümid edirlər ki, mərkəzi firqə yeni hökumətə daxil olmaqla hökumətin vəziyyəti möhkəmləşəcəkdir.

Tiflis, 1 mart (ingilis mətbuatı) - Bugünlərdə Paris qəzetələrində böylə məlumat var idi ki, guya sualtı qayıqlarını məhv etmək istəyirlər. Bu barədə Royter ajansı mövsuq [etibarlı] mənbədən xəbər verir ki, İngiltərə tərsanəsi sualtı qayıqları inşa edən zavodların məhv edilmək və bundan sonra sualtı ilə müharibə etmək planını təsvib edir [bəyənir]. Əlbəttə bu tədbir beynəlmiləl müahidə [saziş] tərəfindən təsvib və təmin edilməlidir. İngiltərənin Bəhriyyə Nəzarətində bu məsələ əhəmmiyyəti haizdir [əhəmiyyət daşıyır]. Zira İngiltərənin hal-hazırda külli sualtı qayıqları vardır və bundan sonra da sualtı qayıqları inşa etmək fikrində idi.

**Bavariyada Şura Cümhuriyyəti**

Berlin, 23 fevral – Bavariyanın Münxen şurası iclasında şura cümhuriyyəti elan edilmişdir. İclasda qərar qoyulmuşdur ki, füqəra sinfi təslih edilsin [silahlandırılsın]. Sosializmi yeritmək və sosialist firqələrini birləşdirmək üçün komitələr intixab edilmişdir [seçilmişdir]. Şura cələsəsində [iclasında] Bavariyanın məşrutəsi [konstitusiyası] elan edilmişdir. Belə ki, daimi qoşunlar buraxılıb bunun əvəzinə kəndçilərdən qvardiya təşkil ediləcəkdir.





Münxendə olan bütün qəzetə idarələri şura qoşunları tərəfindən işğal edilib Münxendə yalnız şura xəbərləri nəşr edilir.

Krakov – Polyaklarla nemeslər arasında mütarikə şəraiti [atəşkəs şərtləri] imza edildi. Bu şərait mövcibincə [bu şərtlərə əsasən] Almaniya polyaklara qarşı olan hərəkati-hərbiyyəni dayandırır. Almaniya əsgərlərinə sərhədi keçmək qadağan edilir.

## QƏZETƏLƏRDƏN

**Orenburq**

Fevralın 29-unda verilən bolşevik simsiz teleqraf xəbərlərinə nəzərən Ural kazakları tərəfindən təzyiq edilən Qırmızı qoşun Orenburq şəhərindən çıxmışdır. Şəhər Dutov kazakları tərəfindən işğal edilmişdir.

- Yenə həman xəbərdə denilir ki, Qırmızı qoşunlar Vyatka şəhərindən çıxmışlardır. Bunlar cənub-qərb tərəfinə ricət edirlər [çəkilirlər].

- Qafqaziyadan Odessaya külli erməni qoşunları varid olmuşdur [gəlmişdir].

**Hindenburqun həbsi**

Berlində hökumətin əmri üzərinə feldmarşal Hindenburq və general Radek həbsə alınmışlardır.

* Şimali Qafqaziyadan bir çox bolşevik komissarları Hacı-Tərxana qaçmışlardır.

* Sabiq Xariciyyə naziri Sazonov Parisdə məlum eyləmişdir ki, Rusiyanın köhnə üsula qayıtması mümkün deyildir və kimsə bunu arzu etməz.

* Dardanel boğazı ticarət gəmiləri üçün açıqdır. Odessa ilə Yaffa arasında gəmilər hərəkatı başlanmışdır.

## BAKI XƏBƏRLƏRİ

**Zabrat kəndində mitinq**

Şənbə günü martın biri, saat 3-də Zabrat kənd əhalisi Nəşri-Maarif məktəbi binasında ictima [yığıncaq] edərək hökumətin istefa vermək məsələsini müzakirə bə'dində [müzakirə etdikdən sonra] "Azərbaycan" qəzetəsi vasitəsilə zeyldəki [aşağıdakı] təklif ilə Azərbaycan Parlamanına müraciət etməyi təhti-qərara aldı:

Bu kimi xətrəli [təhlükəli] bir mövqedə hökumətin istefası gözləmədiyimiz bir ittifaq [hadisə] qəbilindən olduğu kimi, yeni Kabinənin təşkilini təxirə uğratmaq yaxud Kabinə təşkilində ixtilafa yol vermək son dərəcə dəli [başısoyuqluq] olduğu nöqteyi-nəzərindən yeni Kabinə təşkilində təxiri caiz görməyib, heç bir ixtilafa yol verməksizin Parlamana əksəriyyət təşkil edən mərkəz və ondan sol fraksiyalardan demokratik hökumət vücuda gətirilməsinə bəzli-məsai edilməsini [çox səy göstərilməsini] rica ediriz və əlavə olaraq vətən istiqlalını bütün manеələrə qarşı müdafiəyə hazır olmamız kimi, xəyanəti-milliyyə kimi əzim [böyük] bir cinayətə irtikab etmişlərinin [batmışların] hökumət idarəsini təsahüb etməsinə

[hökumət idarəsinə sahib çıxmasına] əbədən razı olmayacağımızı da ittila [xəbər] veririk.

*Sədr: Qiyas Əlizadə*
*Katib: Hüseynzadə Məzahir*

**Balaxanıda Maarif Cəmiyyəti**

Neçə il əqdəm [qabaq] kəndimizdə “Qardaş birliyi” maarif cəmiyyəti adında ziyalılarımız tərəfindən bir cəmiyyət təşkil olunmuşdu. Məzkur [deyilən] ziyalılarımız öz bacardıqları qədəri maarifə xidmətdə bulundular. “Ənvər” adlı bir qiratəxana da açmışdılar, lakin məəttəəssüf [təəssüf ki], bəzi səbəblərə görə cəmiyyətimiz yarımcan, hətta bu axır vaxtlarda ölüm halətində olub, kəsbi-afiyət etməsinə [sağalmasına] heç kəs ümid etməyirdi. Fəqət srağagün mart ayının 3-ündə məzkur ziyalılarımız tərəfindən cəmiyyəti ehya etmək [diriltmək] qəsdi ilə bir ictima [iclas] qurulub, atidə [aşağıda] isimləri mündəric zatlardan [adları dərc olunan şəxslərdən] ibarət idarə intixab olunub [seçilib] təzədən işə şüru etdilər [başladılar].

Heyəti-idarə bu zatlardan ibarətdir:

Sədr: Sahib Maqsudi; katib: Həbib Cəbizadə; xəzinədar: Fətulla Hüseynzadə.

**Dəmiryolunda paravoz yoldan çıxması**

Sabunçu stansiyasında dəmiryol xətti bir yerindən xarab olduğuna görə paravoz yoldan çıxmışdır. İnsan tələfatı yoxdur. Bu səbəbə görə 48 nömrəli qatar 30 dəqiqə təxirə uğramışdır.

**Şikayət**

Üçüncü məntəqə əhalisindən 205 nəfərin imzası ilə Sentrodoma [Mərkəzi Ev Komitəsinə] bir ərizə verilərək bildirilmişdir ki, fevralın 28-ində vaqe olmuş iclasda seçkilər düz olmamışdır. Çünki, orada camaatı çox sıxışdırmışlardır. Camaat öz istədiyi adamları seçə bilməmişdir. Hətta ziyalılar iclasa iştirak etməyərək zaldan çıxmışlardır, həm də camaatın həpsinə xəbər verilmədiyindən 800 seçki[çi] əvəzinə ancaq 150 adam iştirak etmişdir.

**Hadisat**

Patron tutulması

3-üncü uçastokun pristavı Mollazadə Bakı qalabəyisinə [komendantına] məlum etmişdir ki, Persidski və Serkovnı küçələrin küncündə faytonda gedən bir şübhəli şəxsi tövqif [həbs] etmişdir. Axtardıqda faytondakı Qobu kəndinin əhli Yahya İsrafil oğlu olub, bir kisə patron tutulmuşdur. Məzkur [adı çəkilən] şəxs onu azad etmək üçün okolotoçnıya 200 manat pul təklif etmişdir. Pristav pulu və patronları qalabəyinə təqdim edib və rica etmişdir ki, həman pul məzkur şəxsi tövqif etmiş olan qaradavoya verilsin.

* Məlik Balaağa oğlu məlum etmişdir ki, Krasnovodsk[i] küçədə müsəlləh bədəfkarlar [silahlı cinayətkarlar] ona hücum edərək 6325 manatını qarət etmişlərdir.

3-üncü uçastok pristavı Mollazadə bədəfkarların birisinin gizləndiyini eşidərək dərhal onu axtarıb həbs eyləmişdir.

**Cərimələr**

Bakı qalabəyisi [Lütfəli bəy] Əmircanovun binagüzarlığı [sərəncamı] ilə Bakı sakini Aslan Avakoviç Altunyans icazəsiz mauzer tapança gəzdirməkdə müqəssir hesab edilərək 1000 manat cərimə edilmişdir.

Şamaxı əhli Tatevos Xaçiyeviç Tarzanov icazəsiz olaraq yanında 15 dənə üçaçılan tüfəng patronu gəzdirməkdə müqəssir hesab edilərək 25 manat cəriməyə məhkum edilmişdir.

**Soymaq**

- 7-inci Çornı-qorod küçəsində Hacıyevin 19 nömrəli evinə 5 nəfər naməlum bədəfkarlar hücum edərək ev sahibinin bütün müxəlləfatını [ev əşyalarını] qarət etmək istəmişlərdir. Həman evdə sükunət edən Bağırov öz yoldaşları ilə bədəfkarlara müqabilə göstərmək istəmişlər və bir qədər ataşdən sonra oğrulardan birisini öldürmüşlər, qalanı isə qaçmışdır.
- Zabratlı Əsli Əliyoldaş qızı 3-üncü uçastok pristavına məlum etmişdir ki, həman kəndin əhilləri Musa və Fərəc Kərbəlayı Bəhram oğlanları pəncərəsini sındırıb onun evindən 2000 manatlıq ev müxəlləfatı oğurlamışlardır. Oğrular tövqif [həbs] edilmişlərdir.
- Balaxanılı Gülziyad Eyvaz qızı polisəyə məlum etmişdir ki, o, evdə olmadığı halda naməlum bədəfkarlar onun evindən 70000 manatlıq ev müxəlləfatı və qızıl oğurlamışlardır.

**Öldürmək**

Martın 2-sində Kaspi Neft Cəmiyyətində işləyən İran rəiyyəti Əbdülhüseyn Əhməd oğlu xəncər yarası ilə öldürülmüşdür. Qatilləri məlum deyildir. Onları axtarmaqdan ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Bələdiyyə İdarəsində**

Maliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, əhali miyanında [arasında] əskilmiş [köhnəlmiş] pulları yenisinə dəyişmək üçün böyük ehtiyac hiss edildiyindən Maliyyə Nəzarəti işbu düsturüləməli [təlimatı] tərtib və təsdiq etmişdir ki, ehtiyacı bərtərəf etsin [aradan qaldırsın]. Kağızın axırında Nəzarət Bələdiyyə İdarəsindən rica etmişdir ki, pul dəyişməsi məsələsini olduqca təcili surətdə qövldən feilə [sözdən əmələ] gətirsin.

**Düsturüləməl**

Bakı Bələdiyyə İdarəsinin və şəhər təsərrüfatı əski pullarını dəyişmək haqqındakı düsturüləməl:

1) Bakı Bələdiyyə İdarəsi və şəhər təsərrüfatı əski pulları (bon) işbu yerlərdə dəyişilməldir: a) Dövləti bankın Bakı şöbəsində; b) Xəzinədə.

2) Padşahlıq bankı əski pulları fəqət [sadəcə] xəzinə üçün məcburən dəyişməlidir. Xüsusi adamlar və xüsusi müəssisələr üçün isə mümkün dərəcədə dəyişəcəkdir.

3) Xəzinə hamısı üçün pulları dəyişəcəkdir. Belə ki, Bakıda xəzinə bir nəfər üçün qeyri-məhdud miqdarda dəyişə bilər. Gəncə xəzinəsində isə bir nəfər üçün 10.000 rublə, başqa yerlərdə isə 1000 dəyişəcəkdir.

4) Dəyişməli pullar bir pul olduğu halda yüz-yüz bağlanmalıdır.

5) Pullar yeni pullara dəyişiləcəkdir.

6) Gəncə və Zaqatala və başqa qəza xəzinələri köhnə pulları ancaq Bakı xəzinəsinə göndərib yeni pullar almalıdır.

7) 6-ncı maddədə göstərilmiş kimi göndərilən pullar öylə bağlanmalıdır ki, içərisindəki məlum olsun və göndərən

xəzinənin möhürü və ünvanı lazımdır. Hər böylə bağlı üzərində işbu imzalar olmalıdır: Xəzinədar və baş hesabdar, dəxldar [kassir] və hesapçı. Bunlar bağlı pul üçün cavabdəhəndədirlər.

8) Böylə bağlanmış bağlılar Bakı xəzinəsində açılıb təhqiq edilir.

9) Məhəlli xəzinə 7-inci maddədə göstərilən kimi bağlıları Padşahlıq bankına verir. Bank onları açmayır və məsuliyyəti də öz öhdəsinə götürməyir.

10) Qəbul edildikdə işbu pullara baxmalıdır: 10 rubləlik (Bələdiyyə İdarəsinin) və həman Bələdiyyə İdarəsinin 25 rubləliyinə və şəhər təsərrüfatının da həmı pullarına. Zira qayırma pullar çoxdur.

11) Bunları xarab etmək üçün bankla Maliyyə Nəzarəti miyanında [arasında] etilaf [razılaşma] üzrə gün təyin edilir.

12) Xarab ediləcək pullar bağlıları təhqiq edildikdən sonra işbu nümayəndələrdən mürəkkəb [ibarət] bir komisyon hüzurunda sayılır: Bank, Maliyyə Nəzarəti dəftərxanası nümayəndəsi, bon qayıran litoqrafiya, Dövləti Kontrol [Dövlət Müfəttişliyi] və Bələdiyyə İdarəsi. Kömək üçün həman müəssisələrin hesabdarları da göndərilə bilərlər.

13) 10-uncu fəsildə göstərilən pullar litoqrafiya nümayəndəsi tərəfindən təhqiq edilməlidir.

14) Böyləliklə təhqiq edildikdən sonra pullar xüsusi komisyon hüzurunda yazılır.

15) Komisyon öz işləri barəsində məzənnə tərtib verərək qayırma çıxan pullar barəsində bəratülqövl [protokol] bağlamalıdır ki, müqəssirlərə cəza verilsin.

## BAKI QUBERNİYASINDA

### Rüşvət almaq

Rəcəblər kəndinin əhli Məşhədi Heybət Kərbəlayı Məhəmməd oğlu qubernatora verdiyi ərizədə məlum edir ki, məzkur [adı çəkilən] kəndin yüzbaşısı onu həbs edərək 1000 manat rüşvət aldıqdan sonra azad etmişdir. Həmin işi təhqiq etmək Cavad uyezd naçalnikinə həvalə olunmuşdur.

### Quldurların hücumu

Cavad uyezd naçalniki qubernatora məlum etmişdir ki, Saraytəpə uryadniki fevralın 8-ində İran sərhədinə yaxın olan Məhəmmədrzalı kəndi əhalisindən bir dəstə təşkil edib İran quldurlarının – Şahsevənlərin qətl-qarət etmələrinə imkan verməməkdən ötrü getmişdir. Həman kəndin yaxınlığında Azərbaycan Cümhuriyyətinin sərhədini keçmiş olan bir dəstə quldurlarla atışmaya başlamışlar. Quldurlardan bir nəfəri öldürülmüş və qalanları isə İran torpağına qaçmışlardır. Uryadnikin dediyinə görə, quldurlar Mil səhrasında olan kəndlərə hücum etməkdən ötrü 300 nəfərdən ibarət bir quldur dəstəsini təşkil etmişlərdir. Quldurlarla mübarizə etməkdən ötrü naçalnik tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

## AZƏRBAYCANDA

### Borsunludan

Gəncə qəzasının maarif müfəttişi Cavad bəy Cuvarlı cənabları 11 fevral tarixində şəhərdən çıxıb qəryələrdə [kəndlərdə] olan məktəblərə nəzarət yetirib, hər qəryələrdə camaatı məktəbə cəm edib oxumağa və təzə məktəblərin açılmasına təhris və tərğib edib [təşviq edib və rəğbətləndirib], bəzi qəryələrdə uşaqları icbarən məktəbə qoydurdu. Binəva avam müsəlman camaatı ağlayaraq iltica edirdilər [yalvarırdılar] ki, bizim əhvalımıza rəhm eylə, bizim uşaqlara yazığın gəlsin, bizim əlimizdən alıb məktəbə qoyma, çünki bu[n]ların oxumaq və məktəbə getmək vaxtı deyil, ancaq 15 yaşları var...

Müfəttiş cənabları o cümlədən Borsunlu qəryəsində camaatı məktəbə dəvətlə uşaqları oxudub və imtahan edib sonra uşaqlara bir neçə düşüncəli sözlər dedi ki:

*"Oğlanlarım, sizlər oxumaqdan ötrü çalışın, oxuyun, ta ki, xoşbəxt olasınız!"*

Sonra üzünü camaata tutub dedi ki:

*"Ay camaat, qardaşlar! İndiyə kimi bu məktəblər olmuşdu rus əlində. Düzdür, rus hökuməti məktəblər açmışdı bizim içimizdə, lakin məhz ruslaşdırmaq politikası ilə. Amma indi, əlhəmdülllah, məktəblərdə olanlar öz müəllimlərimiz və ruhanilərimizdir. Yaxşı oxunur "Quran" dərsi və türk dilimiz və şəriətimiz. Lazımdır bundan sonra uşaqlarınızı ürəklə göndərəsiniz məktəbə və əlavə bizim hökumətimiz yeni bir hökumətdir. Bu saat bizlərə ən vacib odur ki, çalışaq mədəni olaq, yəni işə yarayan. İşə yaramaq dəxi oxumaqla olar. Gərək millətimiz oxusun, biri maşinis[t] olsun, biri teleqrafçı, biri mexanik, biri müəllim, tainki hökumətimizi öz əlimizdə saxlamağı bacaraq. Keçən zəlilanə əhvalımızı yada salıb indiki azad halımıza şükür edək, böyük nemət sanıb qədrini bilək."*

Camaat bu sözlərə qulaq asıb maarif işlərinə həvəs etməyə başladılar.

*M. Ayn. Naxçıvani*

## GÜRCÜSTANDA

### Gürcüstan Məclisi-Müəssisanı

Gürcüstan Məclisi-Müəssisanının birinci iclası martın 9-unda və ya 12-sində açılacaqdır.

### Gürcü-erməni münasibatı

Gürcüstan ilə Ermənistan arasında siyasi münasibat [əlaqələr] bərpa edilmişdir. Bu yaxınlarda İrəvana Gürcüstan siyasi nümayəndəsi təyin ediləcəkdir. Tiflisdə olan erməni heyəti Tumanov başda olmaq üzrə işə başlamışdır.

### Ağahüseyn Tağıyevə suiqəsd

Cümə günü fevralın 28-ində səhər saat 8-də Sululaq küçəsində "İnternasional" nömrələrində yaşayan Bakı taciri Ağahüseyn Tağıyevi beş nəfər qarətgər soymaq istəmişdir. Ağahüseynin səsinə milisionerlər gəldikdə canilər güllə ataata qaçmağa başlamışlar. Qarətgərlərdən ikisi tutulmuşdur. Biri ölüb, digəri qaçıb qurtara bilmədiyindən özünü öldürmüşdür.

### Batumda

Məhəlli [yerli] əhali ilə bərabər fəhlələr də şəhərə qayıdıb işə başlamaqdadırlar. Əczaxana qulluqçularının tətili qurtarmışdır. Kobulet[i]də yerli polisə idarə-

si Acarıstanın azadlığı üçün çalışan komitənin fəaliyyətini dayandırmışdır. Bununla belə, rəqiblər asudəcə təşviqat yapmaqdadırlar. Onlar məzkur [adı çəkilən] komitəni əhali nəzərində alçaqlatmağa çalışırlar. İngilislərə təqdim etməkdən ötrü təzə müxtirə [nota] hazırlanmışdır. Bu müxtirədə yerli əhali Cənub-Qərb Cümhuriyyətinə mülhəq olmağı [birləşməyi] tələb edirlər. Bir neçə kəndi həmin müxtirəni imza etməyə məcbur etmişlərdir. Şübhə yoxdur ki, imzalanmış bu müxtirəni, əhalinin arzusunu bəyan edici bir sənəd olmaq üzrə Sülh Konfransına göndərəcəklər.

**Krımda**

"Tavriçeski qolos" qəzetəsinin təşəbbüsatı ilə Vilsona və Amerika camaatına müraciətən göndəriləcək müştərək ərzihal [kollektiv ərizə] yüz minlərcə arvadlar tərəfindən imza edilməkdədir. Bu ərzihalda bolşeviklər əleyhinə ediləcək mübarizə üçün müavinət göstərilməsi xahiş olunur. "Yedinaya Rossiya" cəmiyyəti də böylə bir ərzihal verəcəkdir.

## İDARƏYƏ MƏKTUB

Müdir əfəndi!

Sizin dünkü nömrənizdə böylə bir fəqərə [hadisə] yazılmışdı:

"Eşitdiyimizə görə, müsəlman sosialistləri bugünlərdə Parlamanda bir deklarasiya oxuyacaqdır. Deklarasiyada müsəlman sosialistləri Rusiyanın federasiya əsası üzərində qurulması əsasını qəbul etdiklərini bəyan edəcəklərmiş. Rusiya sosialistləri ilə bu barədə etilaf [razılıq] əmələ gəlmişdir."

Bununla bəyan edirəm ki, bu yazılan şeylər həqiqətdən kənardır. Sosialistlər fraksiyasında böylə bir qətnamə olmamışdır.

*Sosialistlər fraksiyon rəisi:*
*S[əməd ağa] Ağamalov*

**İdarədən**: Bu rəddiyyəni [təkzibi] kamali-məmnuniyyətlə dərc edib də qəzetəmizdə sosialistlərimiz barəsində müğayiri-həqiqət [həqiqətə zidd] bir şayiənin dərci keyfiyyətindən dolayı bəyani-etizarla [üzr istəməklə] bərabər izhari-təəssüf edirik [təəssüfümüzü bildiririk].

## TEATRO VƏ MUSİQİ

**"Şah İsmayıl"**

Türk-Azərbaycan səhnəsi, həm opera repertuarı yeni bir əsərlə zənginləşmişdir. Cümə günü Hökumət Teatrosunda həman bu yeni əsər mövqeyi-tamaşaya qoyulacaqdır. Yeni operanın süjesi xalq arasında məşhur olan "Şah İsmayıl" nağılından götürülərək mərhum Mirzə Qədir İsmayılzadə tərəfindən yazılmışdır. Musiqi qismini isə Hacıbəyov Qardaşları müdiriyyətinin dirijoru musiqişünas Müslüm Maqomayev cənabları yazıb musiqiyə salmışdır. Müslüm bəy əfəndi məzkur [adı çəkilən] operanın üstündə çox çalışaraq repertuarımızı zənginləşdirmişlərdir.

Bu əsər səhnədə birinci dəfə oynanacaqdır və Hacıbəyov Qardaşları müdiriyyəti yeni operanın ilk dəfə təntənə və şükuhlu [xoşagələn] bir surətdə çıxması üçün tədbirlər görmüşdür.





## İDARƏDƏN CAVABLAR

**Şəkidə Əbdüləhəd xan Sultanzadə əfəndiyə:** Bildiyimizə görə, türk tələbələri içində təhsil üçün Amerikaya getmək həvəsi indilikdə artıq yoxdur. Bu xüsusda qəzetəmizdə bir neçə münasibi-hal [vəziyyətə uyğun] məqalələr yazılmışdı. Türk tələbələri bu müvəqqəti "univeristetsizlik" vaxtları öz ana dillərinin təhsilinə sərf etməyə çalışsalar, vətən və millətin gələcəyi üçün xidmətlər göstərməyə qadir olarlar.

**Qazaxda H. Q. əfəndiyə:** Yazdığınızı bərayi-təhqiqat [təhqiqat üçün] Daxiliyyə Nəzarətinə göndərdik. İmzanız məhfuzdur [gizli saxlanmışdır].

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və tə-

zə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**İtibdir**

Heybət Ağakişi oğlu və Qaraş Məhəmməd oğlu. Əyninə boz pencək və kürk geymiş, 25 sinnində, uca boylu. Heybət Məşhədi Ağakişi oğlu isə əyninə kürk geymiş, 35 sinnində, orta boylu. 25 gündür ki, çöldən Bakıya gəliblər, yoxdurlar. Onların barəsində bir məlumat bilənlərdən çox xahiş edirəm ki, gəlib Suraxanski küçə nömrə 144 Əliəkbər Əliəkbərova müraciət etsinlər.

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okin-şeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Bakı Şəhər İstiqraz Cəmiyyəti**

Bununla elan edir ki, 1917-ci sənəsi dekabrın 17-də 21918 nömrəli kağız ilə Petroqraddan padşahlıq kağız pulları hazırlayan idarə tərəfindən Cəmiyyət abliqatsiyasının [istiqraz vərəqəsinin] 5 faizli 2419 nömrəli qiymətli posılkasıyla göndərilmiş olan birinci seriya müxtəlif nömrələr ilə 100 manatlıq 2324 nömrədən 2459 nömrəyədək, 500 manatlıq 2824 nömrədən 2980 nömrəyədək, 1000 manatlıq 8516 nömrədən 8859 nömrəyədək; və ikinci seriya müxtəlif nömrələr ilə 100 manatlıq 5331 nömrədən 5480 nömrəyədək, 500 manatlıq 6261 nömrədən 6430 nömrəyədək və 1000 manatlıq 1935 nömrədən 19724 nömrəyədək; 20 kuponlar və talonlar ilə cümlətan 666200 manat yolda oğurlanıb. Buna görə bu abliqatsiyaların talonu da həmçinin batildirlər. Bu abliqatsiya və talonları hər bir müəssisə yaxud xüsusi adamlar almış olsalar, İstiqraz Cəmiyyəti məsuliyyəti öz öhdəsinə almayır.

*T-51*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Hökumət**
**niyə istefa halındadır?**

səh. 64. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Təəssürat**

səh. 68. "əz bərayi xali nəbudəni mürasilə": "deputatlığın boş qalmaması xətrinə" (farsca)

"Üzeyir": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**Sülh ətrafında**

səh. 69. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən "Le Temps" qəzeti nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 70. "Sabiq qubernator Kamal bəy və jandarma rəisi Tofiq bəy": Türkiyənin Yozqat vilayətinin Boğazlıyan qəzasının rəisi Mehmed Kamal bəy və Yozqat vilayətinin jandarma komandiri Binbaşı Tofiq bəy nəzərdə tutulur.

Bavariya Şura Cümhuriyyəti (Bavariya Sovet Respublikası): Münxendə Fəhlə və əsgər deputatları soveti tərəfindən elan edilən dövlət. 1919-cu ildə qısa müddət mövcud olmuşdur.

"...füqəra sinfi təslih edilsin.": qəzetdə "təslih" yerinə "təslim" getmişdir.

səh. 71. "Dutov kazakları": Orenburq kazaklarının atamanı general-leytenant Aleksandr İliç Dutovun rəhbərliyi altındakı kazak qoşunları nəzərdə tutulur.

"Hindenburq": qəzetdə "Gindenburq" kimi getmişdir.

**Bakı xəbərləri**

səh. 72. "Persidski": Bakıda, indiki Murtuza Muxtarov küçəsi.

"Serkovnı": Bakıda, indiki Vidadi küçəsi.

"Krasnovodski": Bakıda, indiki Səməd Vurğun küçəsi.

səh. 73. "7-ci Çornı-qorod": Bakıda, indiki Ayaz İsmayılov küçəsi.

"...böyük ehtiyac hiss edildiyindən...": "ehtiyac" yerinə qəzetdə "ehtiyat" getmişdir.

**Bakı quberniyasında**

səh. 74. "uryadnik": qəzalarda xidmət edən kiçik rütbəli polis.

**Azərbaycanda**

səh. 74. "Borsunludan": Goranboy rayonunun Borsunlu kəndi nəzərdə tutulur.

**Gürcüstanda**

səh. 76. "Cənub-Qərb Cümhuriyyəti": 1918-1919-cu illərdə cənub-qərbi Qafqazda təsis edilmiş Cənub-Qərbi Qafqaz Respublikası (Qars Demokratik Respublikası) nəzərdə tutulur.


آقا موسى نقى يوفك

*"Azərbaycan" qəzetinin 130-cu nömrəsinin 1-ci səhifəsi*





**Cümə axşamı, 6 mart 1919-cu il, nömrə 130**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 3 cəmadiyəlaxir sənə 1337. 6 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rubledir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Ağa Musa Nağıyevin baş kantoru kamali-yəs və təhəssürlə [böyük bir matəm və kədərlə] **Ağa Musa Nağıyevin** martın 4-ündə gündüz saat 10-da vəfat etdiyini xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Ağa Əli Nağıyev, bacısı və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Tağı, Xədicə xanım, Sadıq və Murad Nağıyevlər **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Mirzə Əsədullayev, öz övrəti və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Yelizaveta Qriqoryevna Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Mirzə Məhəmməd və Kövsər xanım

Həsənovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ümmüsəlimə xanım Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Fətulla bəy Rüstəmbəyov **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Bakı Tacirlər Bankı Şurası sədri Hacı Zeynalabdin Tağıyev İdarə sədri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Səlim və Rüqiyyə xanım Sadıqovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

**ELAN**

Bu gün cümə axşamı saat 11-də Azərbaycan Məclisi-Məbusanının [Parlamentinin] növbəti iclası təyin edilmiş olduğu məbus əfəndilərə elan edilir.

*T-52*

**HAZIRLANAN TƏTİLƏ DAİR**

Azərbaycan istiqlalı yolunda ən böyük iqdamatdan [təşəbbüslərdən] olmaq üzrə Könüllü ordunun paytaxtımızdan çıxarılması və dava gəmilərinin tərk-silah etdirilməsi, vətənimizin aşkar və gizli düşmənlərinin xoşuna getməmişdir. Ona görə də bunlar əmələ-fəhlə sinfini həyəcana gətirərək ümumi bir siyasi tətil çıxarmaq istəyirlər. Burada türk-islam fəhlə və əmələsi böyük bir rol oynaya biləcəyindən, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi müsəlman qardaşlara xitabən bir müraciətnamə nəşr etmişdir. Vətənin səlaməti və millətin istiqlalı üçün camaatı anlatmaq niyyətilə bu müraciətnaməni eynilə qəzetəmizdə dərc ediriz. İştə müraciətnamə:

Millətdaşlar və yoldaşlar!

Şəhərimizdə axırıncı günlərdə bir neçə mühüm məsələlər oldu. "Dobrovolçeski otryad" adı ilə toplanan saldatlar şəhərimizdən getdilər. Dənizdə olan voyennı flot [hərbi donanma] ingilislərə təslim oldu. Oradakı matrosları da Batuma göndərirlər.

Bu məsələlər ətrafında xalq arasında, ələlxüsus əmələlər arasında min cürə xəbərlər çıxarırlar.

"Dobrovolçeski otryad" da, "voyennı flot" da əvvəlcə hamınıza məlum olan Biçeraxovun komandasında idi. Sonra Biçeraxov komandanlığından çıxdı. Bunun yerini Prjevalski tutdu. Biçeraxov da, Prjevalski də Azərbaycan Hökumətinə dost deyil, ikisi də düşmən idi. Biçeraxovun müsəlmanlar əleyhinə nə qədər müharibələr etdiyini kim bilməyir? Prjevalski dəxi Rusiya tərəfdarı və monarxist bir adamdır, Denikinin adamıdır.

Bakıda bulunan rus əmələləri və bu əmələnin yol göstərəni olan Rusiya sosialistləri vaxtilə Biçeraxovun, bu "demokrat" generalın qulluqdan xaric olduğuna çox təəssüf eylədilər. O zaman biz Biçeraxov otryadının paytaxtımızdan çıxmalarını tələb eylədiyimiz zaman onlar buna zidd gedir, Biçeraxov adı ilə toplanan şübhəli adamların, bir taqım amazasplar əli ilə toplanan halları məlum könüllülərin buradan getmələrində "demokratiya"nın təkyə etdiyi [söykəndiyi] sütunun laxlamasını görürlərdi.

Doğrudur, Prjevalskini bunlar Biçeraxov kimi qəbul etmədilər, fəqət Azərbaycan Hökuməti və xalqının dobrovolçeski otryadın hər nə cür olsa da buradan çıxarılmalarını dəxi o şiddətlə istəmədilər.

Otryad Prjevalskiyə tabe olmuş, fəqət "voyennı flot" olmamışdı. Flotda olan matroslar nə Prjevalskini, nə ingilisi, nə də Azərbaycanı tanımayırdılar. Halbuki pul almaq lazım idi. Pulu kimdən alsınlar? Bu, bir məsələ idi.

Təklif edən olmuşdu ki, pulu Azərbaycandan alsınlar, amma onun qulluğuna getməyib rahat və sakit qalsınlar. Bu təklifi guya Azərbaycan tərəfdarı olan Rusiya sosial-demokratları edirdilər. Deyirdilər, çünki Azərbaycan zəifdir, ona görə də flot onun əlində olsa, zərəri az olar. Çünki onların nəzərində Denikin "böyük bəla", Azərbaycan isə "kiçik bəla"dır. Bunun azını qəbul etmək ağıl işidir.

İngilis komandanlığı Azərbaycan millətinin və dövlətinin israrla eylədiyi tələbinə görə Prjevalski otryadını buradan çıxartdırdı. Halbuki dənizdə kimsəyə tabe olmaq istəməyən, hətta sosial-demokratların "kiçik bəla" deyə tövsiyə eylədikləri Azərbaycana surətən də olsa təhəmmül göstərməyən [dözməyən] silahlı gəmilərin Bakı bəndərində [limanında] durmalarına təbii yad qala bilməzdi. Çünki şəhərin general-qubernatorluğunu öhdəsinə çəkmiş olan Tomson xalqın əmniyyətindən məsuldur. Həm xalqa qarşı, həm də Azərbaycan Hökuməti ilə Avropa əfkari-ümumiyyəsi [ictimaiyyəti] və öz hökuməti qarşısında cavabdehdir. Edə bilməzdi ki, Bakı bəndərində heç kəsi tanımayan və heç bir iş görmək istəməyən dava gəmilərinin durmasına soyuq baxsın. Bunun üçün şəhəri

təhdid edən gəmiləri zərərsiz bir hala qoymaq lazım idi. Bu iş dəxi görüldü.

Qurudan və sudan bizi qorxutmaqda olan iki qüvvət həman rədd oldu.

Bunların rəddi üzərinə politika çevirən bəzi adamlar şəhərə, bilxassə [xüsusilə] əmələlərin arasına bir xəbər çıxardılar:

"İngilislər Denikin adamlarını qovdular, flotu təslim etdirdilər, bir azdan sonra Azərbaycana deyəcəklər qalx Gəncəyə get, Bakını beynəlmiləl bir şəhər qayıracağız" - deyə aralığa fitnə salmaq istədilər.

Ortaya bir "avtokaloniya" məsələsi çıxdı. Məlum olduğu üzrə, sentyabrda Biçeraxov ordusu Bakıdan çəkilərkən özü ilə bərabər Bakıda olan bütün avtomobilləri də aparmışdı. Təkrar ingilislərlə bərabər buraya dönərkən bu avtomobillər də gəlmiş idi. Bu avtomobillərin hamısına onun təmirinə baxan masterskoyla bir yerdə "avtokaloniya" deyirlər ki, burada bir qədər əmələ çalışır. Prjevalski gedərkən bu avtomobillərin Bakıda qalmalarını tələb eyləmiş, tələbləri üstündə israr etmişlərsə, bunun qabağını saxlaya bilməmişlər. Avtomobillərdən bir qismi dəmiryolu ilə deyil, dəniz ilə gəmilərə yüklənib aparılmışdır. Təbii idi ki, bu avtomobillərin Bakıda qalması şəhərin, Azərbaycanın mənfəətindən idi. Bu avtomobillərin tamamilə burada qalması üçün hamımız çalışmalı idik. İştə, bir tərəfdən bizi həqiqətən də əndişəyə salan bir xəbər çıxarılır, digər bir tərəfdən bizim həqiqətən xoşumuza gələn bir avtomobil tələbi ortaya qoyulur. Nəticədə Bakı demokratiyasının adı ilə hərəkət edən ağalar ingilis komandanlığına bir taqım tələblər qoyur, yoxsa zabastovka elan eyləyəcəkləri ilə təhdid edirlər. Tələb təqribən bundan ibarətdir:

1- Təslim olan gəmi matroslarının (ki səkkiz yüzə yaxındırlar) "vıxodnoy"larını versinlər və özlərini başqa yana göndərməyib şəhərdə qoysunlar.

2- Bayıldakı elektrik stansiyasındakı ingilis əsgərlərini çıxarsınlar.

3- Burada və Krasnovodskda tutulan məhbusları, əzcümlə [o cümlədən] Bakı bolşeviklərinin arvad-uşaqlarını buraxsınlar.

4- "Avtokaloniya"nın şeylərini Bakıdan aparmasınlar.

5- İngilis qoşununu Bakıda azaltsınlar.

Baxalım bu tələblərin bizə nə dərəcədə faydası var və onlardan ötrü zabastovka eyləmək lazımmı?

1- Bu heç kimə tabe olmaq istəməyib müftə pul yeməyə öyrənmiş matrosların Bakıda qalmalarından nə fayda gözlənə bilər. Şəhərimizdə onsuz da Azərbaycan Hökuməti və istiqlalı əleyhində bollu olan qüvvətlərə səkkiz yüz də canı acımış, sərkeşliyə [özbaşınalığa] öyrənmiş matros əlavə olacaq.

2- Bayıldakı elektrik stansiyasının ingilislərdən boşadılması tələbinin səbəbi aşkardır. Stansiya əldə olunca şəhəri qaranlıqda saxlamaq asandır. Bundan da Bakını Rusiyanın bir hissəsi hesab edən ağalar fayda apara bilərlər.

3- Tutulan məhbusların, bilxassə arvad və uşaqların buraxılması tələbi əlbəttə nəzərə xoş və ürəyə sinən bir tələbdir. Fəqət o qədər böyük bir məsələmidir ki, ondan ötrü paytaxtın həyatı durdurulsun?

4- Avtokolonna şeylərinin məsələsi





öz-özlüyündə doğru və haqlı bir tələb olsa da, ondan ötrü böyük bir məsələ çıxarılammaz və bu da "vəzni-şeir" üçün qoyulmuşdur.

5- İngilis qoşununun azalmasına gəlincə, bunu istəyən ağalar görək bizi Denikin ordusu və yaxud başqa bir hücuma qarşı hangi qüvvətlə müdafiə edəcəklərdir?

Yuxarıda biz söyləmişdik ki, Prjevalskinin getməsi ilə flotun təslimi rusiyaçı sosialistləri rahat buraxmayır. Görünür ki, yanılmamışıq. İştə Rusiya sosial-demokrat firqəsinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] "İskra" qəzetəsi nə yazır? O deyir ki:

"İngilis komandanlığı tərəfindən Kaspi voyennı flotu əleyhinə, hətta Prjevalski otryadı əleyhinə görülən tədbirlərin əsl işə baxanda Rusiya demokratiyası əleyhində bir iş olduğu haqqında iki rəy olammaz."

Demək ki, Prjevalski Rusiya demokratiyasının sütunu imiş. Demək ki, hər nə Rusiya naminə hərəkət edən qüvvət varsa, nəticədə həman demokratiya qüvvəti imiş. Yalnız Azərbaycan tərəfindəki qüvvətlər, türklərin mənafeyini gözləyən təşəbbüslərdir ki, demokratiyanın əleyhinə imiş.

Böylə ikiüzlü olduqları üçündür ki, bu ağalar bu məsələlərdən ötrü fövqəladə konfrans çağırdıqda yalnız sosialist firqələrini çağırmaq bəhanəsilə "Müsavat"ı işdən xəbərdar eyləməmişlərdir. Əlbəttə, təqdir edərsiniz ki, bununla onlar bilərək müsəlman əmələsini kənarda qoymaq istəmişlərdir. Çünki bilirlər onların bu macərapərəstliklərinə müsəlman əmələsi uymaz, öz əli ilə düşmənlərini qüvvətləndirməz. Qalxıb istəməz ki, bizə top atmış olan və hər zaman da atmağa hazır olan matroslar burada saxlansın və yainki dallarınca bir daş göndərdiyimiz "Dobrovolçeski otryad" üçün heyflənsin.

Kimsənin yadından çıxmamışdır ki, imdi ingilisləri demokratiyanın düşməni deyə əleyhlərinə çıxan ağalar özləri onları buraya çağırdılar. O zaman ingilis, ağalar üçün yaxşı idi, çünki Bakını sahiblərinə verməyirdilər. İmdi isə yamandırlar, çünki rus qüvvətlərini zəiflədir, rus saldatlarını buradan çıxarır, rus flotunun da silahını alır, matroslarını da şəhərdən qovurlar. Arada fitnəli xəbər də çıxarır, deyirlər ki, guya bunların bütün təşvişi onun üçün imiş ki, ingilislər Bakını Azərbaycanın da əlindən almaq istəyirlərmiş.

Fəqət əsl məqsəd bu deyilmiş. Mətləb budur ki, ingilis Bakını sahiblərinin əlindən alıb ruslara verməyir.

Bakı Azərbaycanın paytaxtıdır.

Burada Azərbaycanı tanımayan rus əsgəri, rus flotu dura bilməz. Bu haqqımızı müdafiə edən ingilis komandanlığı bizim hər zaman dostumuzdur. İngilis komandalığı bizim bu haqqımızı feilən qəbul eyləmişdir. Rəsmən qəbul etməyəcəyini göstərəcək bir dəlil olsa da əldə yoxdur. Halbuki utanmadan Bakı demokratiyası adı ilə hərəkət edən əfəndilər bizə "bəla" kimi baxırlar. Halbuki bizim başımızın bəlası onların özləridir.

Bunun üçün ey vətənini, hürriyyətini, istiqlalını sevən türk və müsəlman əmələsi, sərvaxt [ayıq-sayıq] ol. Bəzi şirin sözlərə, aldadıcı mətləblərə qulaq verme. Sədaqətinə inandığın bir firqədən

məlumat almayınca, məbada zabastovka eyləmə!

Bugünlərdə olunacaq zabastovka, bil ki, müşkülat içində olan vətənimizə böyük əngəl çıxara bilər. Qara düşmən Denikin qüvvəti şimaldadır. Hökumət istefa halındadır. Böylə bir zamanda zabastovka eyləmək, dəmiryollarını saxlatmaq, işıqları durdurmaq, işləri saxlatmaq məmləkətin diriliyini fəlc [iflic] bir hala qoymaq deməkdir ki, vətənə xəyanətdir.

Azərbaycanı özləri üçün vətən hesab etməyən, Bakını əllərindən çıxan bir dövlət kimi görən adamlar ortanı şuluğa verib də zabastovkadan bəhs edə bilər, on avtomobil üçün minlərlə əmələni işdən-gücdən saxlaya bilərlər, amma bizlər bu macəranın qətiyyən [qətiyyətlə] əleyhində olmalıyız.

Demokratlıq adı ilə fəqət rusluq məqsədi ilə elan edilmək istənilən zabastovkada biz yoxuz deməli, zabastovkaya qoşulmamalıdır.

*Türk Ədəmi-Mərkəziyyət*
*"Müsavat" firqəsi Mərkəzi Komitəsi*

## GETSİNLƏR, GƏLMƏSİNLƏR!

Şəhərimizdə rus-erməni könüllü ordusu təşkili kimi istiqlalımıza, şərəf və heysiyyətimizə toxunan və gələcəyimiz üçün böyük bir təhlükə təşkil edən qeyri-normal hadisəyə qəzetəmiz çoxdan bəri idi ki, hökumətimizin diqqətini cəlb edib bu cürə şeylərin tezliklə önü alınmasını tələb edirdi. Hökumətimiz bu hadisəyə lazım olan dərəcədə diqqət yetirib əhvalatı ingilis komandasına bildirdi və bu könüllü qoşununun paytaxtımızdan tezliklə rədd edilməsini tələb etdi və "Əks surətdə biz özümüz əlimizdən gələn vasitə ilə iş görməyə məcbur olacağıq" – deyə müstəqil hökumətə yaraşan bir dil ilə danışdı.

General Tomson həzrətləri dəxi bu hadisənin qeyri-normallığı haqqında bizimlə şərik olduğunu bildirib, könüllülərin çıxıb getmələrinə razı oldu. İngilis komandası rəisinin bu razılığı məhz hökumətimizin təhdidi nəticəsi olaraq vüqu buldu deyib də fəxr etsək, əlbəttə özümüzü bir dərəcəyə qədər aldatmış olarıq. Çünki, əgər ingilis hökumətinin indiki politikası Könüllü ordusunun Bakıda qalmasını iqtiza etsəydi [lazım bilsəydi], o halda "qan tökülə bilər" ehtimalı – qərini-həqiqət [həqiqətə yaxın] olsa da – nəzərə alınmazdı və bu iş o tərəf və ya bu tərəfin zərbi-dəsti [qol gücü] ilə həll olunmağa münhəsir [bağlı] olaraq qalardı. Halbuki denikinlər üçün hazırlanan ordunun Azərbaycan paytaxtında saxlanılmasından ingilis hökumətinin bugünkü politikası heç bir şey udmazdı. Bəlkə nəticədə uduzardı ki, o uduzduğu şey də azərbaycanlıların ingilislərə qarşı ibraz etdiyi [göstərdiyi] etimad və hüsn-rəğbətdən ibarət olardı.

Mətləbi bir az daha aydın etmək üçün ingilis politikasının nazik nöqtə və nüktələrini [incəliklərini] şərh etmək niyyəti ilə lovğa-lovğa meydana atılmayıb da ancaq bir qəzetəçi sifətilə aşkara dərk etdiyimiz yerlərindən bəhs etmək istərik. İş bundadır ki, ingilislər bolşevikliyin istər Rusiyada, istər Almaniyada, istər sair bir məmləkətdə olsun, əleyhinə qarşı politika yeridib mübarizə etməkdədirlər. Bu nöqteyi-nəzərdən, hər kəs bolşevikliyə ziddir və bolşevikliklə mübarizəyə girişir, ingilislər tərəfindən hüsntəvəccöh qazanır. Ona görədir ki, bu gün ingilislər rus bolşeviklərinə qarşı müharibə açmaqda olan denikinlərə də hüsntəvəccöhdən başqa mühimmat və ləvazimat sarıdan dəxi əl tutub kömək göstərməkdədir. Deməli ingilislərin denikinlilərlə olan əlaqəsinin isti və soyuqluğunu bu axırkıların bolşeviklərə qarşı açmaqda olduğu mübarizənin mizanı dərəcəsi ilə ölçmək olar. Qoy "Vahid Rusiya" tərəfdarları bu zümdə [zəndə, gümanda] olsunlar ki, ingilislər denikinlərə kömək edib də Rusiyanı yenidən diriltmək və 1914-cü sənə hüdudu daxilində bərqərar etmək istəyirlər. Biz isə heç vaxt buna inana bilmərik ki, ingilislərin İran daireyi-nüfuzuna qarşı şərik çıxan və bir gözü daima Hindistan sərvətlərində olan "Rus çarlığını" yenidən diriltmək istəyən kim olsun? İngilislər! Halbuki bu cahanşümul müharibədə qalib çıxan ingilislərin ələlümum politikası, təbiidir, bu yolda olacaqdır ki, qələbəsindən istifadə edib də müharibədə itirmiş olduğu zərərləri təzmin etməkdən başqa, bir də özünü nəinki yalnız Almaniya kimi təzə düşmənlərinin, bəlkə Rusiya kimi qədim düşməninin də gələcək hiylə və dəsisələrindən [intriqalarından] məsun və məhfuz [toxunulmaz və qorunmuş] qılsın.

Ona görədir ki, denikinlər ingilislərin sevmədiyi bolşeviklərə qarşı mübarizə işini kənara qoyub da "Rusiyanı diriltmək" kimi başqa avantüralara iqdam [təşəbbüs] edərlərsə, ingilislərin hüsntəvəccöhü ilə köməklərindən də məhrum olarlar. Denikin qoşununun "Soçi" bəhanəsi ilə Gürcüstana qarşı qəsd etmiş olduğu hücumi-xəyalpərəstanəsini dayandıran ingilislər oldu ki, bu "fakt" yuxarıdakı sözlərimiz üçün sübuti-kafi və dəlili-şafi [qənaətləndirici dəlil] ola bilər. Denikin və Dağıstan Cümhuriyyəti müsadiməsi [toqquşması] məsələsi isə genə əgər dağıstanlılar müttəhidülqövl [yekdil, həmrəy] olsalar, ingilislər əli ilə toxdadılacaqdır. İndiyə qədər toxdadılmamasının səbəbi isə başqadır ki, o barədə bildiyimizi mövqeyi gələn vaxtında söylərik. Bu səbəbdəndir ki, məhz bolşeviklərlə mübarizə etmələri lazım gələn könüllüləri, bolşeviklik qorxusu olmayan və biləks [əksinə] bolşevikliyə müxalif surətdə təşəkkül etmiş olan bir hökumət paytaxtında saxlamaqda ingilislərin heç bir qəsd və qərəzi ola bilməzdi. O idi ki, hökumətimizin bir kərə müraciət etməklə general Tomson həzrətləri Azərbaycan türklərinin xoşuna gəlməyən könüllüləri şəhərimizdən çıxartmağa razı oldu və razı olub da sözünə əməl etdi. Könüllülər getdilər və getmək üzrədirlər. Müdəbbir [tədbirli, uzaqgörən] Tomson bu işdən istifadə edib də vəziyyətləri şübhəli görünən flot gəmilərini də kamali-ustadi ilə [ustalıqla] ələ gətirib əslihələrini [silahlarını] boşaltdı. Bu tədbirlərin sayəsində Azərbaycan paytaxtı şimalın sağ və sol qorxularından qurtardı. Böylə ki, "Yedinaya Rosiya" kimi sağ "Vahid Rusiya"lıların ümidgahı olan könüllülər rədd edildiyi bir anda, "Znamya truda" kimi sol "Vahid Rusiya"lıların da istinadgahı olan flot silahsız qalıb "zərərsizləndi".

Nəql edildiyi üzrə, könüllülər gedərkən “Bir zaman keçməz Azərbaycan üzərinə hücumla gələrik və Azərbaycanın axırına yetərik” deyə təhdidatda bulunurmuşlar. Əlbəttə qovulmaq acılığını dərk edən adam ağzına gələni danışacaqdır. Hər halda biz, könüllülər getdi və flotun silahı alındı deyə rahat olub da Fətəli xan həzrətləri demişkən, başımızı yastığa qoyub da yatmamalıyıq. Biz hər bir hadisə vüquuna [baş verməsinə] hazır olmalıyıq. Özümüzü o dərəcədə müdafiə halına gətirməliyik ki, çağrılmamış qonaqlar bir də üzərimizə “qonaq” gəlmək istəsələr, mehmannəvazlığımızın [qonaqpərvərliyimizin] hər bir surətindən xəbərdar olub da “xörək”lərimizin dadı damaqlarından çıxmasın.

Keçək flot məsələsinə.

Prjevalski ilə könüllülərin Bakıdan rədd edilmələri sağ “Vahid Rusiya”lılar üçün gicəlləndirici bir zərbə olan kimi, flot təslimi hadisəsinin də sol “vahidli”lər üçün eyni dərəcədə bir zərbə olduğunu anlamaq üçün Roxlinin bu münasibətlə yığılmış fövqəladə fəhlə konfransında söyləmiş olduğu bəyanatını oxumalıdır. Bu bəyanatdan əzcümlə məlum olur ki, “milyoner” Biçeraxovun pul və mal köməyindən məhrum qalmış olan flot əmələcatını [işçilərini] bir növ dolandırmaq və flotu sağ “vahidli”lər əlinə salmamaq üçün “iki şər”dən ən kiçiyinə razı olub da flotu Azərbaycana satmaq istəyirmişlər və hesabları da böylə imiş ki, pul Azərbaycandan çıxacaq amma mal öz əllərində qalacaq. Yəni Azərbaycan Hökuməti flotu olub da “matrosları olmadığına görə” həman mövcud matrosları da məvaciblə saxlayacaqdır və nəticə də bu olacaqdır ki, roxlinlər məvacibsizlik üzündən zabastovka edən avtokalonlar kimi matroslar zabastovkasından azad olub da Azərbaycan yolu ilə flotu öz əllərində saxlayacaqdırlar ki, lazım olan vaxtında topların ağzını Azərbaycan paytaxtına tərəf çevirsinlər.

Roxlinlərin alış-veriş işində müştərini aldatmaq məharətləri bütün aləmcə məşhur bir keyfiyyətdir. Lakin biz Azərbaycan türklərinin aldadılacaq dərəcədə safdərun [sadəlövh] müştəri olmadığına qail olanlardanıq [inananlardanıq]. Şübhəsiz, Azərbaycan dövləti flotu başqa üsullardan vaz keçib də pul ilə almaq istəsəydi alardı və aldıqdan sonra mövcud matrosların hesabını verib də azad edərdi. Flotun bu halda bizim əlimizdə olmadığına təəssüflər etməklə bərabər, əlimizdə olmasa da “ziyansız” bir hala düşməsindən dolayı məmnun olduğumuzu gizlətməyirik və ümidvarıq ki, bu flot axırdan-axıra genə bizim olacaqdır, nəinki Roxlin arzusuna görə “raboçi”lərin, ki bunların flot saxlamaq kimi işlərlə gərək heç bir əlaqələri olmasın.

Qərəz, solların istinadgahı zərərsizlənən kimi, sağların ümidgahı da çıxıb getdi.

Çox gözəl...

Bunların bir kərə “yerli-dibli” çıxıb getmələri arzu və intizarında olub da son söz olmaq üzrə dallarına bunu deyə bilərik ki:

- Getsinlər, gəlməsinlər!

*Hacıbəyli Üzeyir*





**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

*12-ci iclas axırı*

**Aşurov** - O sistem ki, bəyani-ərz etdim, düz deyil, biri də tarifəni artırmaqdır. Deyirlər tarifəni artıraq, bu sistem düz deyildir. Tarifəni artırmaq özü-özündən sərbəst bir məsələ deyil. Bu bir başqa funksiyadan asılıdır ki, tarifəni nə vaxt və nə qədər artırmaq olar. Bunu nəzərə almalıdır.

Tarifənin artırılması heç vaxt mənfəət verməyibdir. Necə ki, qabaqda zərər vermişdir, ayrı cür ola da bilməz. Tarifəni o vaxt artırarlar ki, məxaric çox ola, mədaxili də artırmaq mümkün olmaya. Onu da öylə artırmalıdır ki, rəqib sənə qalib gəlməsin və zərər çıxmasın. Bunun da müəyyən bir sərhədi var. Bundan ziyadə artıranda daha möhtəkirlik olur. Deyirlər ki, dəmiryolu zərər etdiyinə görə artırmağa məcburuz. Bu ona oxşar ki, bir az çox pul kəsmək üçün maşının xodunu artıraq. Heç mədaxilin artırılması barəsində bir söz yoxdur. Bu barədə görək mədaxili artıran, məxarici azaldan şeylərin hangi birisi nəzərə alınmışdır. Mən zənn edirəm ki, xayır, bunların heç birisi nəzərə alınmamışdır. Məsələn, dəmiryolu ilə gedirsən, qatar həmişə təxirə düşür vəhalonki [halbuki] vaxt – puldur. Burada neft sərf olunur. Hər saatın qiyməti var. Bunu hələ bir qaydaya salmayıblar. Halbuki biz biliriz opazdaniyanın [gecikmənin] azalmasının nə qədər əhəmiyyəti var. Hələ bir də biletsiz adamlar gedirlər. Bu da bizim mədaxilimizdən gedir. Nə biliriz ki, tarifəni artırsaq, bunlar olmayacaqdır. Bunlara diqqət edilsə, bəlkə heç tarifəni artırmağa lüzum görülməz. Bir də baxaq görək yolumuz nə qədər yük apara bilər. Mən bunun nəzərə alındığını görməyirəm. İşlər hələ qabaqkı kimi gedir. Əlbəttə istibdad zamanı kimi yox. Öylə getsəydi xoşbəxt olardıq. Mən təklif edərdim ki, bu sistemdən əl çəkək, tarifəni artırmayaq. Əgər məxarici azaldacaq bir yol olmasa, mədaxili artıracaq bir mənbə bulunmasa, zərər də eyləmiş olsaq, biz tarifəni artırmamalıyız. Tarifəni artırmaq sağlam bir sistem deyildir, bu daha da mədaxilin azalmasına səbəb olar. Yazın ki, dəmiryolu 60 milyon zərər edir. Bu daha sağlam sistemdir, nəinki həm tarifəni artıraq, həm də zərər çəkək. Məsələn, mən teleqrafda gördüm, orada gündə 3 min manat mədaxil var idi. Sonra teleqraf qiyməti bahalandığına görə, indi çox adam teleqraf vura bilməyir. Ona görə də mədaxil azalır. Madam ki, tarifəni artırdıqca, mədaxilin azalacağını biliriz, biz nə üçün təzədən artırırız? Mən demokratiyanı [xalqı] da nəzərə alaraq təklif edirəm ki, tarifəni artırmayaq, mədaxilin artmasına, məxaricin azalmasına çalışaq və nə qədər zərər olsa, hamısını hökumət öz ayağına götürsün.

*Yusif Əhmədzadə* (bitərəf) - Dəmiryol tarifələrinin barəsində çox danışıq oldu. Hərgah mən bilsəydim ki, bu tarifə daimi olacaqdır, natiqlərin etirazına şərik olardım. Təkrar ərz edirəm ki, hər hökumətdə olduğu kimi, bizdə də bu xərclər müvəqqətidir. Yoxsa daimi olsa, buna heç hökumət davam edə bilməz. Çünki qüvvədən xaric xərclərdir, başqa çarəsi

də yoxdur. Əminəm ki, işlər sərəncam alandan sonra bu xərclər də olmaz. Əhali bu məmləkətin birər üzvüdür. Onlardan artıq almaq özü-özümüzdən artıq almaq kimidir. Amma əlac yoxdur. Ona görə, məvaciblərin artırılması müqabilində tarifələr də müvəqqət artırılmalıdırlar. Bu qatarlarla gedən sərnişinlərin əksəri tacirlərdəndir. Çünki tacir olduğuma görə işlərə bir qədər bələdəm. Hərgah fəhlə qismi gedirsə, onlar da şəxsi işlərindən ötrü məcbur olub gedirlər. Onlar üçün də 3 və 4-üncü sinif qatarları var. Bir də 18 qəpiklik ətə 18 manat verən fəhlə bir manatlıq biletə 2 manat versə, bir şey itirməz. Bir bileti əksiltməklə füqəra və fəhlənin işi düzəlməz. Dübarə ərz edirəm ki, bu da müvəqqətdir. İşlər ümumi qaydaya düşənə qədər bu layihə qəbul olunsun. Ticarətə qalanda zənn edirəm ki, tacir üçün şey bahadır; bilet bahadır, teleqraf bahadır – bunlar bir şey deyildir. Tacirlər çalışırlar ki, mal tez gəlsin, tez mümkün olsun, vəssalam. Şey tez gələndə təbiidir ki, bazarda mal çox olar, arada bir rəqabət düşər ki, bu da şeylərin ucuzlanmasına səbəb olar. Bunun üçün də yolların nizama salınmasına fikir vermək lazımdır. Böylə olmasa, dövlət xəzinəsi zərər edəcək, biz də əmri-vaqe [fakt] qarşısında qalıb məcburən tarifələri artıracağız. Mən deyərdim Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirindən xahiş olunsun, gələcək üçün mədaxillərin artmasından ötrü tədbirlər görüb yollar göstərsin. İndilikdə təklif edirəm bu layihə olduğu kimi qəbul edilsin.

**[Heybətqulu] Məhəmmədbəyov** (İttihad) - Mən tarifə haqqında danışmaq istəməyirəm, ancaq burası var ki, o hökumətdə ki ordu var, onun Hilali-Əhmər [Qızıl Aypara] təşkilatı da olmalıdır. Mən fraksiya namından təklif edirəm ki, bu layihə qəbul olunsa da, olunmasa da Hilali-Əhmər nəf'inə [xeyrinə] hər manata yarım qəpik vergi təyin edilsin.

**Məlikaslanov** (Türüq və Məabir naziri) - Möhtərəm məbuslar! Sizə məlumdur ki, dəmiryolu nə halda idi və indi nə haldadır. Biz bir tövr ilə bu yolu düzəltmişik. İndi bu yolda hərəkat davam edir. Dəmiryolu barəsində danışanda sülh vaxtındakı halı nəzərə almamalıdır, indiki hal nəzərdə tutulmalıdır. Bir zamanlar dəmiryolunda gediş-gəliş bilmərrə mümkün deyildi. Amma şimdi bu günlərdə dəmiryol hərəkatı yoluna salınmışdır. Mən yenə ərz edirəm ki, Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] yolların düzəlməsi barəsində hər dürlü fikir işlədibdir. Dəmiryolunu islah etmək üçün Nəzarətdə bulunan texniklər və ukladçiklər [rels döşəyənlər] çox çalışırlar. Amma nə qədər düzəlsə də, yenə çox zərər çəkəcəyiz. Keçən dəfə də ərz etmişdim ki, dekabr hesabı ilə ayda 8 milyon zərər çəkiriz. Möhtərəm Əhməd bəy [Pepinov] buyurdu ki, yanvar hesabı bizə məlum deyildir, bəlkə yanvarda mədaxil artmışdır. Bu suala cavabən mən qabaqda demişdim ki, hələ yanvar hesabı mənə məlum deyildir, sonra olacaqdır. Şimdi bu xüsusda bir qədər məlumat verəyim:

Yanvarda mədaxil həqiqətən bir qədər artmışdır. Gürcüstandakı vaqonların bir qismi əlimizə çatmışdır. Bir qismi də ingilislər əlində Batuma və İrəvana getmişdir. Qaytarılan vaqonların bir qismi





fəna bir haldadır. İndi mümkün olduqca onları düzəldirik. Əvvəlki aylara nisbətən yanvarda mədaxil bir milyon 500 min manat artıq olmuşdur. Məxaric haqqında sərih [dəqiq] məlumat yoxdur, amma deyirlər o da artmışdır.

Dekabr ayı barəsində smeta hazırlanmışdır. Mədaxil və məxaric bu qərar ilədir. *(Oxuyur)* Bu hesabla dəmiryolu ildə 180 milyon manat zərər edir. Heç vaxt bu zərəri ümum camaat boynuna qoymaq olmaz. Demokratik nəzərlə də bunu edə bilmərik ki, möhtəkirlərin xərcini kəndçilərin boynuna qoyaq.

Məlumunuzdur ki, o biri Nəzarətlər də zərər verirlər. Məsələn, Ədliyyə, Daxiliyyə və qeyrə. Bir-iki Nəzarət var ki, mənfəət verir. Onlardan biri də Türüq və Məabir Nəzarətidir. Pepinov cənabları bəzi suallar verir ki, məsələn, vaqonlar təmir olunsun, paravoz böylə olsun. Bu barədə biz həmişə fikirdəyiz və iş də görülür. Aşurovun buyurduğunu qəbul etmək olmaz. Məsələn, o buyurur ki, dinclik vaxtında tarifə artanda mədaxil əskilər, şimdi bunu etmək olmaz. Zira tarifə o qədər artırılmayır ki, mədaxilə böyük təfavüt etsin. Nəzərə alınsın ki, sülh vaxtı 20 manat məvacib alan bir xidmətçi şimdi 800 manat alır. Dəmiryolu üçün qabaqda bir manata alınan şey, indi 150 manata alınır. Amma sərnişin biletləri artırılır birə 15 dəfə, həm də bu qanun müvəqqətidir. Bir komisyon təşkil edilib, necə ki lazımdır, işlərə baxacaqdır, özgə tarifələr hazırlanaraq Parlamana idxal ediləcəkdir.

Bir də Aşurov deyir ki, vaqon təxirlə gedir, biletsiz gedən çoxdur. Keçən dəfə ərz etmişəm, yenə deyirəm ki, bu fənalıqlar olmuşdur. Fəqət şimdi bunları bir qədər düzəldiriz. İndi daha mal aylarla növbə gözləməyir. Qabaqlarda gündə 5 vaqon gəlirdi, indi 60 vaqon gəlir. Amma bununla bərabər yolun zərərlərini ödəmək başqa cür mümkün deyil, gərək tarifəni artıraq. Tarifə layihəsinin təsdiqini bir neçə gün də saxladıq, bir qədər də artıq zərər oldu. İndi təvəqqe edirəm bu gün qəbul edəsiniz.

**[Abuzər bəy] Rzayev** (məruzəçi) - Tarifələrin artırılması qanununa hamıdan artıq soldan etiraz olunur. Onlar deyirlər ki, tarifələrin artırılması ilə ərzaq şeyləri bahalanacaqdır. Amma mən sübut edərəm ki, böylə deyildir. Məsələn, Poyludan Bakıya qabaqca bir manat isə, şimdi iki manat olsa, şeyin qiymətinə təfavüt etməz. Deyirlər ki, dəmiryolu ilə gəlib-getmək kasıb əhali üçün baha olacaq. Amma mən deyirəm ki, bunlar üçün 4-üncü klas var. O da Əhməd Cövdət [Pepinov] əfəndinin təsvir etdiyi kimi deyildir. Bunlar sərnişin qatarı ilə gedirlər, skamyalı və rahatdırlar. Burada demokratik əsası da nəzərə alınmışdır. Bir də dedilər ki, biletlər artmayıb, yük tarifəsi artırılsın. Gərək sərnişin və yük tarifəsi, hər ikisi artırılsın. Dəmiryolu həmişə mənfəət verirdi. Amma indi vaxtın təqazasına [ehtiyacına] görə zərər verir. Bunu da nəzərə almalıdır ki, layihə qəbul edilsə, yenə zərər tamamilə qapanmayaraq, 8 əvəzinə 5 milyon olacaqdır. Bunu qəbul etməsək, kağız pulları artırmağa məcbur olacağız ki, bununla da pulun qiyməti düşüb, şeylər bahalanır. Kağız pul nə qədər az olsa, şey də o qədər ucuz olar. Gərək hökumət və Parlaman camaat içində kağız pulları

azaltsın. Maliyyə-büdcə komisyonu bunları nəzərdə tutaraq tarifə layihəsinin qəbulunu təklif edir.

Səsə qonulduqda qanun layihəsi komissiyanın göstərdiyi kimi qəbul olunur.

## QƏZETƏLƏRDƏN

**Vladiqafqazda**

Könüllü ordu komandanlığı tərəfindən Tersk və Dağıstan oblastlarına baş məmur təyin edilən general Lyaxov çeçen idarəsini general [Erisxan] Əliyevə tapşırıb ona müavin, istibdad zamanında Nalçik nahiyəsi naçalniki polkovnik Klijbiyevi təyin etmişdir. Kabarda idarəsi general Bekoviç-Çerkasskiyə həvalə edilmişdir. İnquşistanı idarə etmək üçün general Malsaqovu təyin etmək istəmişlərsə də, qəbul etməmişdir. İnquşlar general Fyodorovun təyin edilməsini xahiş etmişlərsə də, onların bu xahişi rədd edilmişdir. Lyaxov demişdir ki, Fyodorov Pyatiqorska qayıtmalıdır. Dağıstan idarəsinin knyaz Nuh-bəy Tarkovskiyə həvalə olacağı təsəvvür olunur.

- İki gündür ki, Vladiqafqazda “Svoboda” meydanında üç nəfər boğazdan asılı qalmışdır. Bunlar qarətgərlik üstə asılmışlardır.

**Erməni-yunan münasibatı [əlaqələri]**

Bu axır vaxtlarda erməni-yunan dairələrində hər iki millətin sıxı münasibatı nəf’inə [xeyrinə] hərəkat müşahidə olunmaqdadır. Bu hərəkat təbii olaraq erməni-yunan mənafeyinin, o cümlədən Ermənistan və Ponti sərhədlərinin həll edilməsi məsələsindən nəşət etmişdir [əmələ gəlmişdir]. Bu hərəkat geniş bir surət alıb bir çox erməni, yunan komitələri təşkil edilmişdir. Ermənistan və Ponti sərhədləri məsələsi haqqında təsəvvürata görə Ermənistan Sivas vilayətindən Qara dənizə qədər yerə malik olacaqdır.

**Türküstanda**

Türküstanda nəşr olan “Q. S. A.” qəzetəsi yazır ki: Keçən gün teleqraf dəhşətli bir xəbər gətirmişdir. Çarcodan qaçıb gələnlərin rəvayətinə görə orada tədhiş [terror] davam edir. Rus və madyar [macar] əsgərləri gedib, onların əvəzinə çinlilər və qırğızlar gəlmişlərdir. İndiyə qədər qarət olunmayan şeylər qarət edilməkdədir. Arvadların irz-namusuna təcavüz olunur. Kişiləri güllələyirlər. 15 nəfər maşinist tutulub güllələnmişdir. Bundan əlavə, bir çox adamlar güllələnmişdir.

**Bolşeviklərin məğlubiyyəti**

“Tayms” qəzetəsinin müxbiri xəbər verir ki, Mərvdən 50 mil şimal-şərqə tərəf Anenkov yanında müttəhid [birləşmiş] ingilis-hind-rus-türkman əsgərləri bolşeviklərin hücumunu dayandırmışlardır. Hava duman olduğundan düşmən sol cinahda hərəkatda buluna bilməyib, yenə də Mərv yaxınlığında dəmiryolunu kəsməyə müvəffəq olmuşdur. Lakin bundan istifadə edə bilməyib dəmiryol xətti tezliklə düzəlib hind qüvvəsi gətirilmişdir. Rus topxanasının köməyi ilə bolşeviklərin hücumu dəf edilmişdir. Bolşeviklərdən 560 adam tələf olmuşdur. Düşmənin ümdə qüvvəsi Avstriya hərbi əsirlərindən ibarət imiş.





**Çində**

Bu ayda Xitada [Çində] Xitanın şimali və cənubi qitələri [bölgələri] nümayəndələrinin sülh konfransı dəvət ediləcəkdir. Bunlar Xita müqəddəratı barəsində bu vaxtadək öz aralarında uzlaşa bilməmişlərdir. Konfrans Şanxayda vaqe olacaqdır [baş tutacaqdır].

**Banklar**

Türkiyədə olan banklar Müttəfiqlərin kontrolu altındadır. Banklarda olan məbləğ diqqətlə təhqiq edilib, qızıl mövcudunun Türkiyədən çıxarılmaması üçün tədbirlər görülmüşdür. Bu yaxınlarda bu banklar təsviyə [ləğv] ediləcəkdir.

## DAĞISTAN HÖKUMƏTİNİN NOTASI

Dağıstan Cümhuriyyətinin Azərbaycan Hökuməti nəzdindəki diplomasi nümayəndəsi Ə. Xan Kantemirov general Tomson cənablarına bu məzmunda nota göndərmişdir:

“Ali-şan ingilis qoşunlarının komandanı və Müttəfiqlərin Bakı nümayəndəsi həzrətləri!

Həmin nota ilə bərabər 3 fevral 1919-uncu sənə 216 nömrə ilə Dağıstan Rəisivükəlası [Baş naziri] namına göndərilmiş general-mayor [Vladimir Pavloviç] Şatilovun təqdim olunan məktubundan və Könüllü ordunun verdiyi elamnaməsindən [bəyanatından] görürsünüz ki, Könüllü ordusu qətiyyən nə Dağıstan Hökumətini, nə də Dağıstan Cümhuriyyətini tanımayır. Dağıstan Hökumətinə təklif edir ki, öz xahişi ilə hökumətdən əl çəksin və həman ordu kəndisi öz mülahizəsilə hökumət təşkil etmək istəyir. Könüllü ordu tərəfindən Dağıstan işlərinə müdaxilə edildiyi təqdirdə zatialiləriniz tərəfindən bu cür işlərin dəf edilməsinə verdiyiniz vədəyə nəzərinizi cəlb edərək məlum edirəm ki, həmin məktubda göstərilən sənədlər nəinki könüllülərin Dağıstan işlərinə müdaxilə edilməsini göstərir, bəlkə büsbütün Dağıstan istiqlaliyyətini qəbul etməyirlər. Dağıstanlıların öz xahişləri ilə könüllülərə müti olacaqları şayiatı [itaət edəcəkləri şayiələri] əbədən [əsla] doğru deyildir. İstilakaranə təcavüz nəticəsi olaraq dağıstanlıların onlara müti olacağı barəsində danışmaq belə lazım deyildir.

Kamali-ehtiramla hökumətim namından zati-alilərinizdən rica edirəm ki, bilatəxir [dərhal] Tersk oblastından Veden, Qroznı, Nazranovski, Vladiqafqazski və Nalçikdən Könüllü ordunu çıxarıb Könüllü ordunu bizim işlərimizə müdaxilə etməyə yol verdirməyəsiniz. Bu da məxfi qalmasın ki, hərgah Könüllü ordunun tutduğu vəziyyətinə qarşı qəti tədbirlər ittixaz edilməzsə [tədbirlər görülməzsə], Könüllü ordu ilə dağıstanlılar arasında qanlı müharibə vaqe olacaqdır.

*Kantemirov*”

**Dağıstan Hökumətinin diplomasi nümayəndəsinin məktubu**

Təhti-idarənizdə müntəşir [idarəniz altında nəşr olunan] qəzetənin 45-inci nömrəsində və digər bəzi məhəlli [yerli] qəzetələrdə Tiflisdə olan ingilis heyətinin böylə məlumatı dərc edilmişdi:

“Bu gün mövsuq [etibarlı] mənbələr-

dən verilən xəbərlərə nəzərən osetin və inquşlar general Denikin ordusuna bolşeviklərlə mübarizə etməkdən ötrü mülhəq olmuşlardır [birləşmişlər]."

Bu məlumat münasibətilə özümə borc bilirəm məlum edim ki, Könüllü ordu nəinki yalnız bolşeviklər əleyhinə, hətta Dağıstan Hökumətini qəbul edən dinc Dağıstan əhali[si] qarşısına da müharibə açmışlardır.

Osetiya ilə İnquşistanda Denikin ordusu tərəfinə bir neçə nəfər monarxistlər [keçmişdir] ki, bunlar da mülkədar və çarizm düşdükdən sonra rütbələrini qeyb etmiş olan afiserlərdir [zabitlərdir]. Osetin və İnquşistan əhalisi əllərində silah olaraq Könüllü ordu qarşısına özlərini və hüquqlarını mühafizə üçün mübarizə və yalnız Dağıstan Parlamanına müti olacaqlarını bəyan edirlər. Tiflisdə olan ingilis heyəti Şimali Qafqaziyadakı həqiqi əhvaldan bixəbər olduğuna görə asan surətdə şəkkə düşə bilər. Ona görə də həqiqəti açmaq məqsədilə işbu məktubun qəzetələrdə dərc edilməsini arzu edirəm.

*Kamali-ehtiramla:*
*Dağıstan Cümhuriyyətinin*
*Azərbaycan Hökuməti nəzdindəki*
*diplomasi nümayəndəsi*
*Ə. X. Kantemirov*

## İRAN İŞLƏRİ

### Sipəhdarın təyini

"Rə'd" qəzetəsinin verdiyi xəbərlərə görə, məşhur irticapərəst və böyük mülkədar Sipəhdari-ə'zəm Şimali İran general-qubernatorluğuna təyin edilmişdir. Məhəlli-iqaməti [oturacağı yer] Təbriz şəhəri müəyyən olunub və müşarü-nileyh [adı çəkilən şəxs] bugünlərdə Tehrandan oraya əzimət edəcəkdir [gedəcək].

### Şiraz üzərində aeroplan

Yenə həman qəzetənin yazdığına görə, bugünlərdə Şiraz şəhəri üzərində naməlum bir aeroplan görünmüşdür. Aeroplan bir qədər teyr etdikdən [uçduqdan] sonra şəhərin yaxınlığında yerə enmişdir.

### Hərc-mərclik

İranın hər tərəfində hərc-mərclik davam etməsi barəsində məlumat alınmaqdadır. Bir çox quldur dəstələri dinc əhalini qətl-qarət etməkdədirlər. Böylə cinayətlər əksəriyyən Astrabad və Şimali İran həvalisindədir [tərəflərindədir].

## ŞƏKİ ŞƏHƏRİNİN SON TƏNƏZZÜLÜ

Şəki nə olduğunu bilən varmı? Əvət! Marsel, Beyrut, Moskva və başqa bir neçə Rusiya şəhərləri, bir qədər də Tiflis bilirdi ki, Şəki nədir.

Şəkinin güclü ipəyi, fındığı və dərisi Moskvada işə keçirdi. Lastısı Marseldə satılırdı. Beyrutdan Şəkiyə barama toxumu gəlirdi. Tiflisdə Şəkinin gönü və başqa məhsulatı satılırdı və hakəza [həmçinin] iyirmi beş sənə bundan əqdəm [qabaq] Şəki tədricən tənəzzülə üz qoymağa başlamışdı. O vaxta kimi bütün Dağıstanın şal məhsulu, Buxaranın dərisi orada satılırdı. Burası böyük bir yarmarka idi, birinci ticarət mərkəzi idi. Bir çox yerlərə





sənətkarlar və oxucular buradan dəvət olunurdu. Şəki xüsusi və milli mədəniyyətə malik bir mərkəz idi. Maarif tərəfə burada hər yerdən qabaq qədəm qoyulubdur. Milli zükur [oğlanlar] və ünas [qızlar] məktəblərinin əvvəlinci binası Şəkidə qoyulubdur. Müəllimi-şəhir [tanınmış müəllim] Şeyxzadə cənabları, ədibi-möhtərəm Faiq əfəndi, Yusif Kənan bəy və bir çox başqa müəllimlər və ədiblər müddətlərcə Şəkini özlərinə məskən ittixaz etmişlərdir [seçmişlər].

Keçmişdə Şəki bir tərəfdən Gürcüstan-Bakı-Türküstan və İran ticarət yolunun, digər tərəfdən Zaqafqaz-Dağıstan ticarət yolunun üzərlərində ən zəngin bir şəhər idi. O zaman Bakı və Gəncə şəhərləri ticarətdən hələ bir şey dadmamışdılar. Zaqafqaz dəmiryolu mürurizaman ilə [vaxt ötdükcə] Şəkinin birinci yolunu əhəmiyyəttdən saldı, Vladiqafqaz dəmiryolu isə ikinci yolunu xarabazara döndərdi. Yavaş-yavaş Şəki qəzası nahiyələrindən Qəbələ mahalında (alma-armudun, şahbalutun, qoz-fındığın və düyünün mədəni) bütün alverini dəmiryola yavuq olan Ağdaşa və Göyçaya köçürdü. Bundan əlavə, qəzanın Nic, Padar, Cəfərabad və Göynük kimi mərkəzi qəsəbələrində həftə bazarları açıldı; alver büsbütün Şəkidən daşındı. Şəhərin əlaqəsi öz qəzasından mürurla [tədricən] kəsilməyə başladı. Böylə ki, bu halda ticarət nöqteyi-nəzərindən qəzanın şəhərə mənfəəti yoxdur.

Bu minval, zavallı şəhərin hər cəhətdən alveri kəsilib yalnız ipəkçilik peşəsi üzərinə atıldı. Bu iş get-gedə böyüməyə başladı. Fabrikaların sayı gündən-gündən artdı. İpək işi böyük bir tərəqqiyə üz qoydu. Coğrafiyalarda yazıldığı kimi Şəki doğrudan da bütün Qafqaziyanın və sabiq qoca Rusiyanın ipək mərkəzi, ipək mədəni idi. Bir zaman firəng tacirləri Nuxunu ticarət üçün mərkəz ittixaz etmişdilər. Hətta iki sənə bundan əqdəm [əvvəl] ipək öylə bir tərəqqi etmişdi ki, bütün Zaqatala, Ağdaş, Tiflis və Bakı xəzinələri Şəki üçün işləyirlərdi. Yalnız Şəki xəzinəsinin gündəlik mədaxil və məxarici 180.000-200.000 manata yetişmişdi. Rus hökuməti-müstəbidəsi belə öz nəf'ini [xeyrini] gözəl düşündüyündən buraya böyük əhəmiyyət verib Шелководственная станція [İpəkçilik stansiyası] adında ipək işini genişlətmək üçün əsaslı bir ipək təşkilatı düzəltmişdi və get-gedə işi böyüdürdü. Fabriklərə son sistem makinalar gətirilib İtaliya fabrikləri ilə mübarizəyə girişildi. Daha on sənə bundan əqdəm Şəki ilə Tiflisin alver əlaqəsi ol qədər zorlaşmışdı [güclənmişdi, yaxşılaşmışdı] ki, bu iki şəhərin arasında ikinci teleqraf xətti çəkilməyə səbəb oldu.

Yenə həman hökuməti-sabiqə bir daha ziraət, maldarlıq və bağbanlıq işini yaxşılaşdırmaq üçün Огрономическое отдѣленіе [Aqronomluq şöbəsi] adında bir təşkilat düzəltmişdi ki, bu təşkilat az da olsa kəndçilərin və bağbanların imdadına yetişirdi. Sənaye işinə də yavaş-yavaş girişilməkdə idi. Orta Qafqaz dəmiryolu projesində ən birinci əhəmiyyət qazanan Şəki idi. Burada elektrik işığı, elektrik hərarəti və tramvay binası üçün imtiyazlar alınırdı. Fəqət müharibə başlanar-başlanmaz hər şey unuduldu. Marsel ticarəti bağlandı. Neçə sənə sonra Moskva da əldən çıxdı. Alver tədriclə

dayandı. Zavodlar batdı. On minlərlə fəhlələr küçə-bazara töküldü. İşsizlik, aclıq və bunların həmrahları [yoldaşları] olan müsri [yoluxucu] xəstəlik əhalini ot kimi biçib tökür. Gələcəyə azacıq ümid yolu qalsaydı, işin böylə bir dəhşətli uçurumlara sarı yürüməsi ol qədəri insanı acındırmazdı ………. Bu tənəzzül Şəki şəhərinin son tənəzzülüdür. İki dəfə olub ………… Şəkinin həyati-xüsusiyyəsindən müxbir [xəbərdar] olmamaq deməkdir. Moskva kimi geniş bir bazar əldən çıxandan sonra Şəkiyə milyardlar çəkib gətirən bazarı nerədən bulacaqsan? Moskva bir daha diriləcəkmi? Diriləcəksə, əvvəlki bazara malik olacaqmı? Olacaqsa, yapon və İtaliya ipəyi ilə Şəki ipəyi rəqabət edə biləcəkmi? Şəkinin səbəbi-həyatı olan ipək mətasını satmağa başqa bir bazar bulunacaqmı? Türküstandan, Gürcüstandan və Türkiyədən bilaaram [fasiləsiz] axıb gələn barama və qeyri ipək ləvazimatı bir daha geriyə dönəcəkmi? Bu gün başqa alverə girişmiş və asan vəchlərlə [asan surətdə] para qazanan fabrikçilər bir daha fabrik müşkülatına, əmələ tələbatına boyun əyəcəkmi? Şəkinin yolları və başqa pozğunluğu tez bir zaman içərisində düzəlib, ərzaq müşkülatının önü bir dərəcəyə qədər alına biləcəkmi?

Budur hal-hazırda Şəkinin son fəlakətini təşkil edən lövheyi-tarixiyyəsi üzərində qeyd edilmiş acı suallar. Mən bunların əksərinə "Yox!" sözünü qəti bir cavab olaraq söyləməkdən çəkinməyirəm. Mabaqisinin [qalanının] qarşısında "Ümid azdır" deyirəm. Daha bu gündən sonra insafa yerləşməz ki, hər yerdən əlaqəsi kəsilmiş və gələcəyə ümidi olmayan altmış min əhalini iki dərənin içərisində acından qırasan. Belə bir fəlakətə, böylə bir zülmə heç kəsin vicdanı təhəmmül etməz [dözməz] zənnindəyəm. Lazıməsi budur ki, işi bir an təxirə buraxmayıb, Şəkinin üzərində yerli fəal adamlardan mütəşəkkil şəhər idarəsi müavinəti [köməyi] ilə bir Komitə əmələ gətirilsin. Bu komitəyə varlılar və hökumət maddi və mənəvi müavinətdə bulunsun. Komitənin əsas proqramı həmin bu maddələrdən ibarət olsun:

1) Fəqir əhali və işsizlər üçün məccani [pulsuz] aşxanalar və müalicəxanalar açmalı.

2) Əhalini leksiya vasitəsilə düşündürməli ki, ipək zavodlarında vücudunuz zəhərlənib sill [vərəm] naxoşluğu qazanmaqdansa, doğma anadan artıq sizə ruzi verə bilən müqəddəs vətən torpağına azacıq zəhmət sərf etsəniz, həm maaşınız [dolanışığınız] təmin və həm canınız salamat olar. Zavod əmələsini [işçisini] inandırmalıdır ki, daha ipək işi tənəzzül etmişdir, gələcəyinə də ümid yoxdur. Əkinçilik deyilsə, sizi möhtəkirlər caynağından qurtaracaq başqa bir şey yoxdur.

3) Fəqir əhalidən xahiş edənlər[i] [istəyənləri], "Daşyüz" və "Bozdağ" deyilən gözəl havalı xali [boş] yerlərdə sakin etməlidir. Orada onlara indidən yazlıq taxıl əkməyə kömək verməlidir. Hümmət camaat tərəfindən olarsa, hökumət də müavinəti müzayiqə etməyəcəkdir [köməyi əsirgəməyəcəkdir].

4) Cəfərabad düzündə şəhər zindəganlığından [yaşayışından] əl çəkmək istəməyənlər üçün bir şəhər binası tərtib etməlidir. Şəki dərəsindən daha şəhər olmayacaqdır. Çünki, axırıncı tənəzzülə





üz qoyubdur. Çünki bircə tərəfdən yolu vardır ki, o da Qarasudan başlamış dağa doğru getdikcə yüksəlir. Çünki, Cəfərabadda olan tərəddüd [gediş-gəliş] və alver Şəkinin özündə yoxdur və daha sonra olan tərəddüd də kəsiləcəkdir. Şəhərin içərisində küçələri yox, məccani müalicəsi yox, xəstəxanası yox, sağlam suyu, səhiyyəsi, müntəzəm idarəsi və başqa təşkilati-mədəniyyəsi dəxi yoxdur. Bunların ola biləcəyinə bu ana kimi azçox ümid var idisə də, şimdi quru ümid də qalmadı. Şəkidə gözəl-gözəl bağbağçalar, müntəzəm daçalar və sanatoriyalar əmələ gələ bilər. Bunlar üçün də gözəl tikililər az deyildir və bir də Cəfərabada "Yeni Şəki" binası qoymaq kimsəni qorxutmamalı. Orası həm Şəkiyə yavuqdur, həm də istəyən gedəcəkdir. Və bir də şəhər köçürmək işinə təcili olaraq əncam vermək lüzumu da bu halda yoxdur. Bircə füqərayi-kasibəni təmin edəcək vəsilələrin əncamı üçün əcələ etməli. Hər halda "Yeni Şəki"nin binası indidən qoyularsa, şəhərin gələcəyi təmin edilmiş olar.

5) Şişədə [Şuşada] Azad bəy Əmirov cənabları bir neçə ziyalılarla ittifaqən [birgə] az məxariclə əmələ gətirdiyi mahut şal və başqa gözəl toxunmalar təşkilatı kimi, Şamaxıda olan ipək toxunmalar fabrikləri kimi müəssisələr tərtib etməli; sabun fabriki açmalı, tənbəki işini və bağ peşəsini daha da vüsətləndirməli, ikmal etməli [kamilləşdirməli]. Sənətlərdə bağbanlığa və ziraətə böyük əhəmiyyət və həqiqi bir rövnəq verməli. İpək fabriklərindən vətənimizə yetişəcək miqdarda bir-iki fabrik saxlayıb, mabaqisini [qalanını] yuxarıda göstərilən təşkilatlarla doldurmalı və bu işlərin tez bir zaman içərisində əncam bulmasına lazım gələn hümməti, qeyrəti və hərəkəti müzayiqə etməməlidir.

*Parlaman üzvlərindən:*
*Abdulla Əfəndizadə*

## MUSA NAĞIYEV

Çoxdan bəri xəstə bulunan Bakı neftçi və milyonerlərindən Musa Nağıyev cənabları mart ayının dördündə vəfat eyləmişdir.

Əvvəli kasıb və ömrünün axırınadək savadsız olan bu mərhumun sərvətcə bu dərəcəyə yetməsi ticarət aləmində nə qədər istedada malik olduğunu göstərir.

Mərhumun ən dəyərli yadigarı özünün sevgili oğlu mərhum İsmayıl namına tikdirib də Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə bəxş etdiyi möhtəşəm "İsmailiyyə" binası idi ki, keçən Mart hadiseyi-əliməsində vəhşi əllər tərəfindən yandırılıb bu anadək o halda qalmaqda və bütün Azərbaycan türklərinin qəlbini cərihədar etməkdədir [yaralamaqdadır].

Biz ümid ediriz ki, mərhumun vərəsələri həmi Musa Nağıyevin, həmi də mərhum İsmayılın təbidi-namları [adlarını əbədiləşdirmək] üçün həman imarətin inşasına yenidən şüru edərlər [başlayarlar].

Mərhum Musa Nağıyev müsəlmanların maarif işlərinə dəxi biganə qalmayıb, Realnı məktəbinin 3-üncü mərtəbəsini öz xərci ilə inşa etdirərək orada müsəlmanlara məxsus əlifba şöbəsi açdır-

mışdı. Mərhum Musa Nağıyev sonsuz olaraq 90 yaşlarında ikən vəfat eyləmişdir. Allahtaala mərhumu qəriqi-rəhmət eyləsin [rəhmətinə qərq eyləsin].

*H. Ə.*

## HÜSEYN ƏRƏBLİNSKİ

İki gün əvvəl sağ idi, salamat idi. Bədənində ölmək, yox olmaq əlaməti yox idi. Ruhu isə öz qəlibində qalmaq və qalmaqla sahibi-qəlibi yaşatmaq və ümidlərlə pərvaz etdirmək [qanadlandırmaq] həvəsi ilə səhneyi-həyatda dolandırırdı. Bu gün isə qanına bələşmiş olan bu bədən, qəlibi-biruh [cansız qəlib] olaraq yıxılıb dil ilə deyil, zəbani-hal [hal dili] ilə: “Ey xalq, mənim zülmümə şahid olun!”



Hüseyn Ərəblinski

deyir. Qəddar, cahil və zalım bir əl, bir güllə ilə bu bədəni yerə yıxmaqla onun o həvəsli ruhu bədəndən fariğ olub [bədənini tərk edib], qatilə qarşı nifrin və lənət edə-edə uçdu və övci-səmada napədid oldu [səmanın ən uca nöqtəsində gözdən itdi].

Ey tamaşaçılar! Zülüm və sitəm səhnəsi üzərində yıxılmış olan bu qanlı bədən, bu ruhsuz qəlib Nadirin, Ağa Məhəmməd Şah Qacarın qətlini təmsil edən diri ölü deyildir. Bu, Hüseyn Ərəblinskinin öz facieyi-həyatını axan qanı və yıxılmış canı ilə təsvir edən naşidir ki, son rolu öz ömrünün faciəsində axırıncı dəfə oynalmaqla sizə həqiqi bir faciə tamaşası göstərib də əlvida edir… Lakin nahaq yerə əl çalmayın! Bu bədən təkrar durmaz. Durub da sizin alqışlarınıza qarşı qana bələşmiş başını əyməz. Facieyi-həyatının son pərdəsi bir də açılmamaq üzrə əbədi olaraq qapandı. Lakin bu məzlumun, bu zərərsiz insanın, bu kimsəsiz və arxasız cavanın qətli-fəcianəsi əsrarını [faciəli qətlinin sirrini] örtən pərdəni qaldırmaq və bu sirri faş etmək hər kəsin mənəvi borcu olduğu kimi, ən əvvəlcə cavan dövlətimiz Azərbaycan Hökumətinin müqəddəs vəzifəsidir.

*Mizrab*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Qafqaziya səhnəsi daha bir xadimini qeyb etdi – Hüseyn Ərəblini. Fəqət səhnəmiz bu vaxtadək nə qədər dəyərli xadim qeyb etmişsə, böylə böyük bir zərbə





yeməmişdir. Bu zıya [itki] Qafqaziya türk səhnəsi üçün bir ordunun baş komandanını qeyb etməsi kimidir.

Hüseyn Ərəbli, yəni ömrünü, səhhətini, rahatını, hətta adını, sanını səhnəyə qurban etmiş, Qafqaziya səhnəsi üçün bu gün gördüyümüz artistləri yetirmiş Hüseyn Ərəbli qətl edilmişdir.

Kərratla [dəfələrlə] yoldaşlarının “Balam, at bu artistliyi, müsəlman səhnəsindən çörək çıxmaz, gəl kasıbçılıq et” deyə məsləhət görməsinə qarşı: – “Yox, mən gərək öz zəhmətim, öz çalışmağımla sübut edim ki, müsəlman səhnəsi də artist yarada bilər, bizim səhnəmiz də sənətkar hasil edər və bu sənətdən çörək çıxar” – deyən Ərəbli öldü. Fəqət bəhəqq [həqiqətən] isbat etdi ki, səhnəmiz dirilər, sənət tərəqqi edər və xadimlərini maddətən yaşada bilər.

Bu gün canfəşanlıqla səhnəyə xidmət etmiş dəyərli, mahir bir sənətkarımızın qətli türk səhnəsi, türk ədəbiyyatı və türk sənayeyi-nəfisəsini [incəsənətini] sevən hər bir türkü bir hüzün və ələm dəryasına qərq edir.

Mərhumun mahir bir sənətkar olduğunu təqdirlə, səhnə xadimləri təşkilatının ən mükəmməli olan Hacıbəyov Qardaşları Müdiriyyəti iki ildən bəri onu rejissor dəvət etmişdi. Hüseyn 17 il zəhmətdən sonra indi ancaq həm maddətən rahat yaşamağa, həm mənən nəşvünüma etməyə [böyüməyə, çiçəklənməyə] imkan tapmışdı ki, qəddar bir əl sanki “Sən murada çatmamalısan” deyə o zavallı cavanı əlimizdən aldı.

Allah rəhmət eyləsin.

*X. İ.*

## BAKI XƏBƏRLƏRİ

Balaxanı mədənlər mərkəzi “Müsavat” idarəsi Sabunçu-Balaxanı dairələrində çalışan bütün müsəlman işçilərinə elan edir ki, lazımlı məsələlər müzakirə edilmək üçün şənbə günü 8 mart saat 2-də mədənlər mərkəzi “Müsavat” idarəsində işçilər müşavirə iclası təşkil ediləcək. Binaənileyh [ona görə], hər mədən öz nümayəndəsini təyin edilmiş vaxtda göndərməsi rica olunur. Məsələlər olduqca mühüm olduğundan, iclasa gələcək qardaşlar dəf’ülvəqt etməməlidirlər [gecikməməlidirlər, təxirə salmamalıdırlar].

*Katib: Yusifəli [Əliyev]*

**“Müsavat”ın müraciəti**

Əmələlər, sərvaxt [ayıq-sayıq] olun!

Yoldaşlar, millətdaşlar!

Təzədən zabastovka məsələsi çıxarmaq istəyirlər. Siyasi zabastovka etmək istəyirlər. Bizim istiqlalımızı, hürriyyətimizi qorxu altında saxlayan rus saldatlarının buradan çıxarılmaları ilə bizi tanımayan rus flotunun təslim edilməsi, onları rahat buraxmayır, güclərini kimə isə göstərmək istəyirlər. Bu gün bu məqsəd üçün konfrans çağırmışlar. Ancaq bu xüsusda “Müsavat”a xəbər verməməklə, müsəlman əmələlərini keçəndə olduğu kimi qəflətdə qoymaq istəmişlərdir. Əlbəttə sərvaxt olun, inandığınız firqələrdən lazım gələn xəbər verilməyincə, ara sözlərinə qulaq verməyin, qətiyyən zabastovkaya qoşulmayın! Bu zabastovka çətinlik içində olan vətənimizi müşkülatda qoyacaq, ailələrə də zərrəcə faydası olmayacaqdır.

Məsələnin təfsilini ikinci vərəqədə və türkcə qəzetələrdə oxuyunuz!

*Türk Ədəmi-Mərkəziyyət*
*"Müsavat" firqəsi Bakı Komitəsi*
*Bakı, 5 mart 1919*

## AZƏRBAYCANDA

**Lənkərandan**

Astara mahalını nizama salmaq üçün ingilis əsakirinin [əsgərlərinin] oraya varid olmaları [gəlmələri] "Azərbaycan" ruznaməsinin [qəzetinin] 102-ci sayında yazılmışdısa da, lakin Lənkəran müsəlmanları kamali-vəcd ilə [böyük bir ruh yüksəkliyi ilə] ingilis yolunu gözləyirdilər. Onların gəlmələrindən bəlkə şəhərdəki nizamsızlıq və yollardakı qətl və qarətin önünü alalar!

Bunlar olmadı. Yol ilə gedən şəxslərin halı gün-gündən fənalaşır, tərəddüd [gediş-gəliş] kəsilir. Astara-Lənkəran yolu ilə gedən şəxsləri də qarət edəndən sonra qətl edirlər.

Kanuni-saninin [yanvarın] 28-ində bir arabaçı, beş nəfər lənkəranlı; Məhəmməd Kərbəlayi İsmayıl oğlu, Səfər və Şirəli Məşhədi Məmi oğlanları (iki qardaş), Hüsü Hacıağa oğlu və Əlibala Feyzulla oğlu Astaradan arşın malı alıb Lənkərana gətirmək istəyirlər. Yolda Vel kəndindən bir az keçmiş Vel əsgərləri tərəfindən altı nəfəri də qətl edilmiş, yüz əlli min manata qədər arşın malını və dörd araba atını aparıblar. Üç gündən sonra bir araba və iki meyit tapılmış, qalanlarından xəbər yoxdur.

*T. Bayraməlibəyzadə*

## GÜRCÜSTANDA

**Amerika heyətinin vürudu**

İyirmi nəfər zabitdən ibarət Amerika heyəti bugünlərdə Tiflisə varid olacaqdır [gələcəkdir]. Bu heyətin qəsdi Zaqafqaziya əhvalı ilə məhəllində [yerində] aşina [tanış] olmaqdır. Sonradan heyət Sülh Konfransına əzimət edəcəkdir [gedəcəkdir].

**Tersk oblastında gürcülərin əsgərliyə dəvəti**

Gürcüstan Hökuməti iclas[ın]da Tersk oblastında olan gürcülər əhvalı müzakirə edilmişdir. Maçabelidən alınan teleqrafa görə general Denikin əsgərliyə düşməməkdən ötrü vətənlərinə getmək istəyən bütün gürcülərin əsgərliyə alınmaları haqqında əmr vermişdir. On beş min nəfər gürcü əsgərliyə düşməməkdən ötrü vətənlərinə getmək istəyirlər. Hökumət qərar qoymuşdur ki, İngiltərə heyətindən xahiş etsin ki, gürcülərin Tersk oblastında əsgərliyə alınmamaları üçün Denikinə icrayi-təsir edilsin. Əks surətdə Gürcüstan Hökuməti də Gürcüstanda yaşayan rusları əsgərliyə dəvət edəcəkdir. Tersk oblastından gürcüləri Gürcüstana gətirməkdən ötrü yarım milyon manat təxsis edilmişdir [ayrılmışdır].

**Azərbaycan üçün daş kömür**

Gürcüstan Hökuməti Tkibuli daş kömür mədənləri müdirinə icazə vermişdir ki, Azərbaycana daş kömür aparılsın.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

İşbu məktubumun qəzetənizə dərc olunmasını xahiş edirəm.

"Azərbaycan" qəzetəsinin 109-uncu nömrəsində Məclisi-Məbusanda Quba haqqında söylənən bir para fitnəəngiz [fitnə salan] sözlərdən dolayı artıq dərəcədə məyus olduq. Neçə min illərdən bəri bizim bu pak və əziz olan vətənimiz – ki Azərbaycan ola – əğyarların [düşmənlərin] əsarət zəncirinin altında min illərlə yaşayıb qalmaqda idi. Sonra bir tövfiqiqeybi [ilahi kömək] vasitəsilə zənciriəsarətdən nicat tapıb istiqlala nail olmaqla haqq öz mərkəzində qərar tapdı. Məclisi-Məbusan parlaq surətdə qiyam etməyə [qalxmağa, yüksəlməyə] başladı. Vətən vüzərasın[ı] [nazirlərini] iş başında görüb ruhumuz təcəlla etməkdə [qanadlanmaqda] və ancaq xaricdən əmin deyildik ki, bəlkə Azərbaycana bir tərəfdən düşmən çıxıb rəxnə vuralar. Biz bu xəyalda ikən daxildən düşmən görünməyə başladı, nəinki Azərbaycana bəlkə cəmi milləti-islama tarixi bir zərbə vurmaq istədi. Parlamanda danışılan sözlərdən böylə məlum oldu ki, guya bizim Nəzarət məmurları öz sui-istemallarından [sui-istifadələrindən] qorxaraq camaat arasında min cür intriqalar çıxardırlar. Quldurlardan və qoçulardan dəstə düzəldib əhalini bir-birlərinin üzünə salışdırıb əhali arasında dəstəbazlıq salır və məzhəb davası törədirlər və sairə. Nə bir böyük iftiradır. Qubada bir belə söz, yəni sünni və şiə məsələsi ortada görünməkdə deyildir! Məgərinki bir nəfər Qubada keçənlərdə bu rolu oynayıb öz mənafeyişəxsiyyəsindən ötrü hər bir vaxtda camaatdan bir təmənnası olan zamanda sünni və şiə məsələsi ortaya atıb öz məqsuduna nail olurdu. Parlaman üzvləri bu cür müfəttinlərin [fitnəkarların] firibinə [hiyləsinə] uyub bizim haqqımızda böylə bir çirkin olan şeyləri rəva görməkdə böyük xəta edirlər. Qubada bu vaxtadək böylə məsələ ortada olmayıb və olmayacaqdır!

Möhtərəm Parlaman əzalarımız [üzvlərimiz] bu cürə fitnəəngiz sözlərə etina etməsinlər, bəlkə bu fitnəni salmaq istəyənləri tutub məhkəməyə cəlb ilə cəzalarına yetişdirsinlər. Quba camaatı isə, əlhamdülillah, bu gün o qədər huşyar [ayıq] və durbindir [uzaqgörəndir] ki, müfəttinlərin sözlərinə etibar etməyib...

*Bir qubalı*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Axşam tamaşası**
**Təzə opera**
Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşları müdiriyyəti tərəfindən
cümə günü cəmadiyəlaxir ayının
4-ündə martın 7-sində
1919-uncu sənəsi
*Müdiriyyətin dirijoru musiqişünas və bəstəkar Müslüm bəy Maqomayev və məşhur artist Hüseynqulu Sarablının şərəfinə (benefisinə)*
Müslüm bəyin təzə yazmış olduğu
**"Şah İsmayıl"**
operası birinci dəfə olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır.
6 pərdədə
Bəstəkarı Müslüm bəy Maqomayev,
sözləri Mirzə Qədir İsmayılovundur.
Bu tamaşada bir ildən ziyadə
səhnəmizdə iştirak etməyən
məşhur artistka Y. N. Olenskaya,
böyük xor və balet dəstəsi
iştirak edəcəkdir.
Biletlər teatrın kassasında
indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Möhtərəm tamaşaçılardan
xahiş olunur ki, biletləri indidən
alsınlar ki, tamaşa günü bilet almaqda
müşkülata düşməsinlər.

*T-50 3-1*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**
Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
"Fani və kompaniya", Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5792 6-4*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Hazırlanan tətilə dair**

səh. 83. "amazasplar": dinc azərbaycanlı əhaliyə xüsusi qəddarlıqla divan tutmuş, minlərlə dinc sakinin qatili erməni terroristi Hamazasp Srvandzyan nəzərdə tutulur.

səh. 85. "vəzni-şeir üçün qoyulmuşdur": əslində xüsusi bir ehtiyac olmayan və şeirin mənasına təsir etməyən, sırf vəzni tamamlamaq məqsədi ilə artırılan söz kimi mənasız, "olmasa da olar" söz, tələb, maddə və s.

**Qəzetələrdən**

səh. 92. "Ponti" (yaxud Pontus, Pont): Kiçik Asiyanın (Anadolunun) şimal-şərqində tarixi bölgə.

"Q. S. A.": Asxabadda (indiki Aşqabadda) nəşr edilən və ağqvardiyaçıların orqanı olan "Qolos Sredney Azii" qəzeti nəzərdə tutulur.

"Rus topxanasının köməyi ilə bolşeviklərin hücumu dəf edilmişdir.": qəzetdə "dəf" yerinə "rəf" yazılmışdır.

**Dağıstan hökumətinin notası**

səh. 93. "…könüllülərin Dağıstan işlərinə müdaxilə…": qəzetdə "müdaxilə" yerinə "müdafiə" getmişdir.

**Şəki şəhərinin son tənəzzülü**

səh. 94. "lastı": güman ki, atlas toxumalı pambıq parça olan "lastik" nəzərdə tutulur.

səh. 95. "Müəllimi-şəhir Şeyxzadə cənabları": pedaqoq, dərs kitabları müəllifi Məhəmmədəmin Şeyxzadə nəzərdə tutulur.

"ədibi-möhtərəm Faiq əfəndi": Ömər Faiq Nemanzadə nəzərdə tutulur.

"Yusif Kənan bəy": güman ki, Yusif Kənan Rəhimov nəzərdə tutulur.

səh. 96. "insanı acındırmazdı…": silinmiş, oxunmur.

"iki dəfə olub…": silinmiş, oxunmur.

**Hüseyn Ərəblinski**

səh. 98. "Mizrab": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**İnna lillahi və inna ileyhi raciun**

səh. 99. "X. İ.": bu imza Xəlil İbrahimə məxsusdur.

**İdarəyə məktub**

səh. 101. "etibar etməyib…": silinmiş, oxunmur.



*“Azərbaycan” qəzetinin 131-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 7 mart 1919-cu il, nömrə 131**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 4 cəmadiyəlaxir sənə 1337. 7 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları Müdiriyyəti, müdiriyyətin baş rejissoru səhnə xadimi məşhur artist **Hüseyn Ərəblinskinin** bədəfkar [cani] əlində vəhşiyanə qətl olunduğunu kamali-hüzn və təhəssürlə xəbər verir.

Cənazəsi bu gün saat 10-da Serkovnı küçədə 6-ncı tupikdə [dalanda] özünün 1-inci nömrəli evindən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

*T-58*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Türk-müsəlman mühərrirləri sevgili və məşhur səhnə və ədəbiyyat xadimi **Hüseyn Ərəblinskinin** fəcianə [faciəvi] bir surətdə qətl edildiyini böyük hüzn və təhəssürlə elam edirlər [bildirirlər].

Mərhumun cənazəsi bu gün martın 7-sində Tserkovnı küçədə 6-ncı dalan 1 nömrəli evdən qaldırılıb Təzəpir məscidinə aparılacaq.

*b*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Bakı komitəsi artıq yə’s və təhəssürlə Türk-Azərbaycan səhnəsinin xadimi, böyük sənətkar **Hüseyn Ərəblinskinin** qətl edildiyini xəbər verir.

Mərhumun cənazəsi martın 7-sində saat 10-da Tserkovnı küçədən 6-ncı tupik 1 nömrəli evdən Təzəpir məscidinə aparılacaqdır.

*T-58*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Hacıbəyli Qardaşlarının Müdiriyyətinin ümum artistləri sevgili yoldaşları məşhur artist **Hüseyn Xələfov Ərəblinskinin** bədəfkar tərəfindən vəhşiyanə bir surətdə qətl olunduğunu kamali-hüzn və təhəssürlə xəbər verir. Cənazəsi bu gün saat 10-da Serkovnı küçədə 6-ncı tupikdə özünün 1-inci nömrəli evindən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

*T-55*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

“Azərbaycan” qəzetəsinin türk mürəttibləri müsəlman səhnəsinin sevgili və məşhur artisti **Hüseyn Ərəblinskinin**

canilər tərəfindən fəcianə bir surətdə qətl edildiyini böyük yə's və təhəssürlə elan edirlər. Mərhumun cənazəsi bu gün saat 10 tamamda Tserkovnı küçədə 6-ncı dalan 1 nömrəli evdən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Bakı Müsəlman Aktyorları İttifaqı İdarə üzvü sevgili və məşhur artist-rejissor Hüseyn Ərəblinskinin martın 5-inci gecəsi fəcianə bir surətdə canilər tərəfindən qətl edildiyini kamali-hüzn və təhəssürlə hamı səhnə və sənayeyi-nəfisə [incəsənət] xadimlərinə xəbər verir.

Mərhumun cənazəsi bu gün cümə günü səhər saat 10-da Tserkovnı küçədə 6-ncı dalan birinci nömrəli öz evindən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

*T-56*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Hərbiyyə nazirinin nitqi**

Azərbaycan ordusu təşkilatı haqqındakı qanun layihəsi müzakirə edilərkən Hərbiyyə naziri general **Səməd bəy Mehmandarov** şiddətli və sürəkli alqışlar içində kürsiyi-xitabətə [xitabət kürsüsünə] çıxaraq şu nitqi irad edir [söyləyir]:

Mən qabaqca Parlamandan üzr istəməliyəm ki, rusca danışacağam. Çox utanıram ki, öz dilimi Məclisi-Məbusanda danışmaq qədər bilmədiyimdən rusca söyləməyə məcburam. Bu gün sizə təqdim olunan heyət və maaş miqdarı ən vacib olan əqsamdan [qisimlərdən] tərtib verilmişdir. Bunu müzakirə edərkən şu ərz olunan mülahizələri də nəzərdə tutmalıdır ki:

1. Cəbhədə bulunmuş bütün zabitan [zabitlər] ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimati-hərbiyyə [hərbi sursat] deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər. Bu qisim şeyləri yenidən düzəltmək üçün bir manatlıq bir nəsnəyə otuzdan yüz manata qədər pul verməlidir.

2. Hamıya ağır bir təsir edən bahalıq ziyadəsincə zabitana sui təsir etməkdədir. Ailələrindən uzaq düşüb, kənd və kəsəklərdə yaşamağa məcbur olan zabitan iki ev məsarifi təəyyüş [iki evi dolandırmaq] məcburiyyətindədirlər.

3. Əsgərə təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan, əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zabitan yalnız irq cəhətincə deyil, zahirən dəxi əsgərə hüsn-təsirbəxş olmalıdır. Onun əlbəsəsi [geyimi] daima təmiz və faxir [gözəl, fəxr edilməyə layiq] olması vacibdir. Zabitan əlbəsəsi üçün nə qədər bahalı şeylər gərək olduğu hamının məlumudur.

4. Azərbaycanın iqtidarlı və təcrübəli zabitana ehtiyacı ziyadədir. Müstəqil yaşayan millət ordusuna rus ordusunda məmuriyyətdə bulunmuş yabançı millətlərdən zabitan dəvəti məcburiyyətindəyiz. Bu xüsusda olduqca diqqətli intixab [seçim] lazımdır.

Baş əsgərlərin ədəmi-mövcudiyyətini [olmamasını] və əsgərlik tərbiyəsi görməmiş əhalidən əsgər toplanmasını





nəzərə alarsaq, yeni ordu təşkilatı üçün ən təcrübəli və iqtidarlı zabitan lüzumiyyəti icab edir və bu növ iqtidarlı və təcrübəli zabitan üçün hər bir hökumət dairəsində artıq maaşla məmuriyyət mümkün olduğu üçün bunları hərbiyyə məmuriyyətinə gətirmək və gətirib də saxlamaq üçün artıcaq maaşla maraqlandırmaq vacib olacaq.

5. Əski müsəlman [ordusunun] ərkani-hərbiyyə[si] [qərargahı] tərəfindən əski qərar üzrə zabitana beş aydan bəri verilən maaş sentyabr ayında artıq görünürdüsə də, hal-hazırda zabitin zəruri ehtiyacatını güclə təmin edə bilir. Xırda zabitan üçün isə heç bir vəch ilə bu maaş kafi olammaz. Hal-hazırda qiymətlərin anbaan təzayüd etdiyindən [artdığından], bu yaxın vaxtda maaşların azalması deyil, bəlkə artması məsələsinin qalxması möhtəməldir [ehtimal olunur].

6. Maaş alanlara maaşın azlığı daima sui təsir etməkdədir və şübhə yox ki, keçirdiyimiz vəziyyət nəticəsində olan əhalinin haləti-təraddüdü [qeyri-sabit vəziyyəti] və qarışığı dəxi az maaş alanların fəaliyyətinə dəxi sui təsir edəcək.

7. Zabitanın fəaliyyəti hərb zamanında deyil, təbii halda dəxi ağır bir vəziyyət içərisində keçir. Əksər övqat [çox vaxt] nasalim məhəllərdə [təhlükəli yerlərdə], bəzən (manevra zamanları) açıq havada, qar və yağmura baxmayaraq bəzən ac və susuz yaşamağa məcbur olan zabitan, vətən üçün afiyətləri[ni] [sağlamlığını] deyil, canlarını belə qurban edir. Bu da yalnız əsnayi-hərbdə [müharibə vaxtı] deyil, əksərən təbii bir zamanda dəxi böylədir. Şimdiki halda əhalinin həyəcanına səbəb olan əsassız şayiələr nəticəsində əksər övqat düçari-bəla olanlar zabitandır. Xəta onların həyati-bəşəriyyəsinə olmasa da, onların sərbəst dolanmasına olur.

Fövqdəki [yuxarıdakı] təsəvvürləri nəzərə alıb ərkani-hərbiyyə tərəfindən qərara alınmış maaşların bu bəyannaməyə əlavə olunmuş layihə üzrə göstərilən təbəddülatı [dəyişikliyi] nəzərə almaq şərti ilə baqi olmasına [saxlanmasına] hökumətdən müsaidə istəməlidir.

*İmza: Komisyon sədri*
*general-leytenant Şıxlinski.*
*Üzvlər: general-mayor Qacar,*
*general-mayor Tlexas,*
*miralay [polkovnik] Məmməd Mirzə*
*[Qacar], miralay Ağalarov,*
*minbaşı Vəkilov.*
*Komisyonda iştirak edənlər:*
*miralay Səlimov, miralay*
*Serebrenikov, ərkani-hərb*
*[qərargah] rəisi Səlimov.*

**Ərz-hal**

Təqdim olunan maaşlar sıralarının [siyahılarının] layihəsi komisyon tərəfindən ay yarım bundan qabaq tərtib olunmuşdu və o zaman hər bir zabitin ehtiyacatını və bir nəfər tayınını (payok) nəzərə alarsaq, təmin edərdi. Halbuki həyat irəliləyir və qiymətlər gündən-günə artır. Gəncədə dekabrda mal ətinin girvənkəsi [4 manat] olduğu halda şimdi 6 manata getməsini söylər isək, kifayət edər. Ehtimal var ki, ət qiyməti daha da təzayüd edər [artar].

Komisyon tərəfindən qərara alınmış maaşlar maəqəllidir [ən aşağısıdır]. Hal-

hazırda maaşla təəyyüş edənlərə [maaşla dolananlara] bir nəfər tayını verilərsə, o halda verilən maaş onları bir növ təmin edə bilər. Böylə olmazsa şübhə yox, az bir zamandan sonra maaşların təzayüdü [artması] barəsində təkrarən vəsatət qaldırılıb rica olunacaq. Bununla bərabər biz genə də əmin deyiliz ki, irəlidə maaşların artmasına ehtiyac olmayacaq. Hərgah vəziyyət öylə dəyişərsə və iaşə qiymətləri xeyli düşərsə, ol vaxt əvvəl bir nəfər tayını ləğv olunar, sonraları isə maaşların azalması barəsində təşəbbüsə girilər.

*General Mehmandarov*

Həzərat, maaş layihəsi smetanı və bu surətlə də büdcənin bir qismini təşkil edir. Parlamanın bir Nəzarətə [Nazirliyə] qarşı müvafiqət edici ya müvafiqət etməyən [uyğun görən yaxud uyğun görməyən] vəziyyətdə bulunması, xüsusən smeta müzakirə olunan zaman tamamilə in'ikas edər [özünü büruzə verər]. Binaənileyh [ona görə], mən Hərbiyyə Nəzarətinin fəaliyyəti və əsgəri işlər haqqında bir qədər məlumat verməyi lazım bilirəm.

Əlbəttə heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası, onların hərəkətini tənqid etməyimizə də mane olammaz. Hərbiyyə Nəzarəti Gəncəyə köçənədək bizə xəbər verilirdi ki, əsgər işlərimiz yaxşıdır, əsgər yaxşı və çoxlu yığılır, lazım olan kimi məşq verilir və ilx. Mən Gəncəyə böylə gözəl ümidlə getdim. Hər yeri gəzdim, qitəati-əsgəriyyəmizə [hərbi hissələrimizə] baxdım, fəqət iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşgün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, atların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamlarına dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər, mövqif [stansiya] komandanları öz vəziyyətlərindən sui-istifadə edirlərdi. Çox vaxt bir külfətin yeganə çörək gətirənini əsgər alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuri paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur. Məlumdur ki, Türkiyə komandanlığı başında duran adamları aldatmışlardı. Türklər gedərkən ordu üçün mənə bilmərrə libas verməmişlərdi. Ona görə mən əsgəri təşkilatla bərabər maddi cəhətdən çalışmalı idim. Nə ki mümkün idi etdim.

Amma türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Külli miqdarda taxıl, heyvan və sair məkulat [qida məhsulları] qalmışdır. Ona görə mən əmr etdim ki, əsgərlərə yarım girvənkə əvəzinə üç rüb [dörddə üç girvənkə] ət, girvənkə yarım çörək əvəzinə iki girvənkə bir rüb [2 ¼ girvənkə] çörək verilsin. Xörəkləri öz camaatımızın adət etdiyi kimi olub, onlara dolma, bozbaş və sairə versinlər. Həftədə bir dəfə plov verilsin. Bundan əlavə əmr etdim əsgərlərə gündə 6 misqal qənd, yarım misqal çay versinlər. Qızdırma, yatalaq və sairə kimi azar olan yerlərə əsgərlərə [çiy] su içməmək üçün 9 misqal qənd verilir.

Libas məsələsi daha da fəna idi. Gürcüstan Hərbiyyə nazirinə kağız yazdım ki, libas məsələsində mənə kömək etsin; mütəəssifanə [təəssüf ki], bir şey çıxmadı. İndi Gürcüstan Hökuməti nəzdində siyasi nümayəndəmiz Cəfərovun yanında pulumuz və adamlarımız var ki, parça alsınlar. Bundan əlavə Şuşada fabrikada yaxşı əsgəri libasa yarar parça toxunur. Həman fabrika ilə müqavilənamə bağlamışıq. Orada külli miqdarda yararlı parça əldə etdik. Bu surətlə yaxın zamanda bu məsələ də hüsn-həll olunacaqdır. Əlbəttə, möcüz[ə] göstərmək olmaz, amma nə ki mümkündür, edəcəyəm.

Hal-hazırda Hərbiyyə Nəzarəti, smetasının ancaq bir qismini təqdim etmişdir. Bütün smeta martda təqdim ediləcəkdir, çünki Ərzaq Nəzarəti anbarlarında olan şeylərin miqdarını təyin etmək lazımdır. Hərbiyyə Nəzarətinin təhti-idarəsində [tabeçiliyində] bu saat üç anbar var: Hacıqabulda, Gəncədə və Ağdamda. İndi hökumətin qərardadına görə Ərzaq Nəzarəti ixtiyarında olan sair anbarların da həpsi Hərbiyyə Nəzarətinə veriləcəkdir. Ona görə ərzaq mövcudunu tamamilə hesablamalıdır.

Mən ümdə diqqətimi əsgər yığmaq işlərinə verdim. Bu vaxtadək əsgər alınmalı olanların siyahısı tərtib verilməmişdi. Hər yerdə kasıblar əsgər alınırdılar. Heç yerdə qoşun içində bir dövlətli ya bəy, xan oğlu görmədim. Ona görə əmr etmişəm əsgər düşənlərin siyahısı tutulsun və bir surəti Hərbiyyə Nəzarətinə göndərilsin, tainki yığılanlara diqqət verək.

Əxzi-əsgər [hərbi çağırış idarəsi] rəisləri qəzaların həpsində yoxdur. Hal-hazırda əxzi-əsgər idarələri bu yerlərdə mövcuddur:

Gəncə və Qazax qəzalarında – 1; Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında – 1; Ərəş, Şəki və Zaqatalada – 1; Quba və Bakı – 1; Şamaxı və Göyçay – 1; Cavad və Lənkəranda – 1; və Bakı ilə mədən dairəsinə də biri təyin edilmişdir. Bu surətlə cümlətanı 7 əxzi-əsgər rəisimiz var. Qəza əxzi-əsgər idarəsi isə 11-dir. Şikayətlərə baxmaq üçün Azərbaycan əxzi-əsgər idarəsi təşkil edilməsi təhti-qərara alınmışdır. Hal-hazırda bu xüsusda Daxiliyyə Nəzarəti bir qanun layihəsi tərtib verir və yaxın zamanda Məclisi-Məbusana təqdim olunacaqdır.

Məlumunuzdur ki, Rusiyada hər yerdə birdən əsgər yığırdılar. Mən bu qaydanı dəyişmişəm. Biz qoşunu tədricən yığacağız və yığan zaman əxzi-əsgər rəisləri orada hazır olaraq düzlüyünə diqqət verəcəkdir. Əsgərlikdən ancaq bu adamlar azad ediləcəklərdir: müəllimlər (çünki məktəblər milliləşmişdir), dəmiryol məktəbi müəllimləri, maşinist, kaçiqar [ocaqçı], hökumət mətbəələrinin mürəttibləri və çay seyri-səfain xidmətçiləri [çay gəmilərində xidmət edənlər] (müqavilənamə vaxtları qurtaranədək).

Hal-hazırda 6 ilin əsgəri silah altına çağrılır. Amma güman edirəm ki, bu ilin axırında daha buna ehtiyac olmayacaqdır. Ancaq iki ilin, yəni 19 və 20 yaşında[kı]ları yığmaq kifayət edəcəkdir. Əsgərlikdən qaçmaq məsələsinə gəlincə, bu da denilən kimi olmayıb, o qədər də layiqi-əhəmiyyət deyildir. Hər yerdə mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] tətbiq olunanda böylə şeylər olur. Məsələn, 1888 sənə mükəlləfiyyəti-əsgəriyyə qanunu ermənilərə və gürcülərə təşmil ediləndə [şamil olunanda]

çox adam əsgərlikdən qaçırdı. Hələ indi də qaçan çoxdur. Bizdə də çox adam qaçırdı, fəqət əksilməlidir. Bu da tədriclə olar. Gəncədə son zamanlar bir adam qaçmamışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtla heç kəs qaçmayacaqdır.

Qitəati-əsgəriyyə [hərbi hissələr] təşkili barəsində məni bağışlayın, əsgəri sirlər açıq danışılmazlar.

Bir qədər də Ağdam hadisatı [hadisələri] haqqında məlumat verməyi lazım bilirəm. Oraya getmiş heyəti-məbusanın məruzəsi olmasaydı, heç o qədər diqqət verməyə dəyməzdi. Bu məruzədə iş böyük təsvir edilmişdir. Əvvəlcə oraya Bərdədə bulunan qoşun ilə general S[üleyman] b[əy] Əfəndiyev göndərilmişdi. Sonra müfəssəl təhqiqat icra edilmişdi. Bu işlərin həpsi camaat arasında nalayiq adamların təbliğatından nəşət etmişdi [əmələ gəlmişdi]. Mən oraya gedərkən Parlaman rəisi doktor Ağayev Gəncəyə gəldi, orada əsgərimizə baxdı, hərçənd məşqdən sonra idi və əsgərlərimiz hazırlaşmamışlardı, fəqət doktor Ağayev bəyan etdi ki, qitəati-əsgəriyyəmiz hüsn-təsir bağışlamış və çox xoşuna getmişlərdir.

Təbib və xəstəxana işləri də fəna idi. Lakin indi bu da düzəlir. Təbiblər dəvət etmişik və xəstəxanalar yaxşı qayda ilə təşkil olunurlar.

Bir neçə söz də şəxsim ətrafında qaldırılmış səs-küy haqqında ərz edəcəyəm. Bu sözləri o ağalar danışırlar ki, qoymamışam Azərbaycan xəzinəsinə südlü inək və Hərbiyyə Nəzarətinə darüləcəzə kimi baxsınlar. Mən bəyan edirəm ki, bu vaxtadək olduğu kimi bundan sonra da tutduğum yol ilə gedəcəyəm və heç bir qüvvə məni bu yoldan çıxara bilməz. Hər kəs məndən sonra nazir olsa görər ki, nə qədər zəhmət çəkilmiş və nə işlər görülmüşdür. *(Şiddətli alqış)*

Hərbiyyə naziri həzrətləri axırda salondan çıxarkən yenə bütün məclis şiddətli və sürəkli alqışla onu təşyi edir [yola salır].

## HÖKUMƏTDƏN SONRA PARLAMAN ƏNGƏLLƏRİ

İkinci dəfədir ki, Məclisi-Məbusanda xamuşanlıqdır [səssizlikdir]. Səbəbi isə bəzi məbusların ehmalçılığı, qeydsizliyidir. Qanuna görə, məclisin iniqadı [baş tutması] o vaxt düzələ bilər ki, hərgah məbusların kvorum denilən müəyyən qədəri məclisdə hazır olmuş ola. Məclisin açılmağı üçün kvorum olmadığı halda məclis münəqid [baş tutmuş] olmaz. Təşrif gətirmiş məbusan da bica yerə bir qədər vaxt zaye edərək peşmancasına mənzillərinə qayıdarlar. Yəni bir neçə yoldaşın səhlənkarlığı, onların qiyabəti [yoxluğu] məmləkətin ən böyük bir müəssisəsinin ətalətinə, fəaliyyətsizliyinə bais olar. Bəzi övqat [bəzi vaxtlar] bir nəfər məbusun qiyabəti ilə məclis münəqid olmayır. Bir nəfərin təşrif gətirməsinə yüzlərcə toplanmış məbuslar müntəzir qalırlar. İş görmək istəyirlər, amma çifayda [təəssüf ki], axsaq yoldaş mane olur, məmləkətin makinəsini dayandırır.

Əlhaq [doğrudan da], bu bir səhlənkarlıq deyilmi ki, bir neçə nəfər məbusun keyfəmayəşası [özbaşınalığı] ilə məmləkətin böylə ağır və böhranlı günlərində onun Parlamanı atil [işsiz, hərəkətsiz] qalsın? Gürcüstan Parlama-nının az bir vaxtda gördüyü işləri bizimkiləri iqaz etmədimi [yuxudan ayıltmadımı]? Yoxsa, bizim məbuslar haqlarını, vəzifələrini kamalınca düşünməmişlərdir? Bunları seçib Bakıya göndərmiş əhalinin məqsədi bundan ibarət deyilmidir ki, məbus əfəndilər əhalinin nümayəndəsi və tərəfdarı olaraq onun halına ağlasınlar, dərdlərinə çarə arasınlar?

Öylə məbuslarımız vardır ki, hələ indiyə qədər ağzını açıb əhalinin dərdindən bir kəlmə belə danışmamışdır. Nə eybi vardır? Natiqlik qabiliyyətini Allah hamıya qismət etməmişdir. Bunu biz də onlara irad tutmarıq. (Hər oxuyan Molla Pənah olmaz.) Lakin bunların borcu budur ki, hər müzakiratda bulunsunlar, iştirak etsinlər. Kənar bir işlə məşğul olaraq sair məbusların da işlərinə mane olmaq millət hüzurunda böyük bir məsuliyyətdir.

Əcəba, bunlar nə kimi işlərlə məşğul olurlar ki, bunların diqqətini Parlaman məşğuliyyəti cəlb edəmməyir? Məmurluq və ticarətlə məşğul ola bilməzlər. Zira yeni qanun hökmü ilə böylə məsələlər məbuslar üçün məmnudur [qadağandır]. Zənnimcə bu iki şeydən biri onları Parlamandan ayıra bilər: 1) xəstəlik; 2) isti mənzillərdə uzun-uzadı istirahətlə səhlənkarlıq. Birinci isə, şər'i [qanuni] və məqbul [qəbul edilən] bir üzrdür. İkincisinə gəldikdə isə, qoy bunun fitvasını da millət özü versin. Xəstəliklə mübtəla olmuş məbusların birinci vəzifələri rəsmi sənədat [sənədlər] ilə öz hallarından Divani-rəyasəti xəbərdar etməkdir, zənnindəyəm.

Tamam üç gün Məclisi-Məbusan hökumətin bəzi qüsuruna dair uzun-uzadı mübahisələr açdılar. Onu istefa verməyə də məcbur etdilər. Hökumətin istefaya məcburiyyəti ədalət üzrəmi vaqe oldu yaxud burada ayrı bir mənzur da mülahizə olundu [ayrı bir məqsəd də güdüldü]? Bunlarla işim yoxdur. Lakin, əsl məsələ buradadır ki, hökumətin ixtiyarı Parlaman əzası [üzvləri] əlindədir. Hökumət ricalı [adamları] qanundan kənar bir iş görərsə, Məclisi-Məbusan dərhal onları vəzifə başından düşürməyə haqlı olar. Yəni, əzayi-hökumət [hökumət üzvləri] Parlaman hüzurunda məsuldur. Parlaman ricalına gəldikdə, bunların da məsuliyyəti onları intixab etmiş [seçmiş] əhalinin əlindədir. İştə, məbuslarımızın fəaliyyəti, yaxud səhlənkarlığı mütləq əhali tərəfindən gərək təftiş olunsun. Müdam [daim] nəzərə alınsın, vəilla [yoxsa] hər kəs başlı-başına davranarsa, istədiyi vaxt məclisə gedər, istəmədiyi halda da isti rəxtxabdan [yorğan-döşəkdən] başını qavzayıb istirahətini pozmaz. Hökumətin qüsurunu axtaran Parlamanın özündə də gərək qüsur olmasın. Yoxsa hökumət qarşısında nüfuzunu və əhalinin də etimad və etibarını itirmiş olar.

Parlamana getməyən üzvlərin yoldaşları gərək qabaqca buna bir çarə yapsınlar. Böylə ki, məbusların hamısı "Müsavat", "İttihad", "Əhrar" kimi bir neçə firqəyə mənsubdurlar. Hər firqə

özünə məxsus üzvlərin iniqadlarda [yığıncaqlarda] davamını tələb edə bilməyirlərmi? Zənnimcə, hər firqə öz əfradını [fərdlərini, üzvlərini] ciddi nəzarət altına alarsa, qiyabətlərin də ədədi mürurizamanla [vaxt ötdükcə] azalar. Bu da çarə etməsə, işi bilavasitə əhalinin özünə həvalə etməlidir.

Lakin yüz çağırımlarca uzaqda qalmış əhalinin məbuslarından, onların hərəkatından əsla xəbərləri yoxdur. Məbuslardan kim Bakıda nə iş görür, ümdə məşğuliyyəti nədən ibarətdir? Bunu avam camaatımız heç bilməyir. Lazımdır ki, ayda bir dəfə əhaliyə məlumat göndərilsin. Qoy camaat bilsin ki, bir ayın ərzində neçə kərə məclis iniqadı ittifaq düşmüşdür. Bunun neçəsi məbus tərəfindən buraxılmış və neçəsinə də gedilmişdir. Həmin bu məlumat əhaliyə göndərilməklə bərabər, məhəlli cəridələrdə [yerli qəzetlərdə] də dərc olunmalıdır. Ümidvaram ki, bu üsulun qəbulu ilə yevropalıların dediyi "absenteizm" fəqərəsi [hadisəsi] özü-özündən rədd olsun.

Bundan əlavə, bəzi məbuslarımız Parlamandan rüxsət alıb bir neçə həftəyə yerlərinə gedirlər. Burası maraqlıdır ki, görən mürəxxəs [seçilmiş, nümayəndə] məbuslar mahala gələrkən əhalisini Parlaman və hökumət işlərindən aşina qılırlarmı, siyasi cərəyanlardan məlumat verirlərmi? Buna dair qəzetələrdə indiyədək bir şey görünmədi. Hərgah, bu adət indiyə qədər icra olunmayırdısa, bundan sonra gərək icra olunsun. Divani-rəyasət bunu mürəxxəslərdən tələb etsin. Bakıya qayıtdıqları əsnada da əhalinin əhval və övzasına [vəziyyətinə] dair müfəssəl məlumat, nüfus təhriri [əhalinin sayı, siyahıya alınması] və sair zəruri siyasi və ictimai nəzəriyyat təqdim etsinlər.

İştə, məbusluq ondan ibarət deyil ki, məvacib alıb vəzifəyə kəmetinalıq ilə kamali-istirahətə məşğul olsunlar. Bir gün gələr, millət sizdən hesab istər. Hökuməti məsuliyyət altına almaq haqqınız vardır. Lakin özünüzün də millət hüzurunda məsul olduğunuzu düşünüb də böylə ağır günlərdə qəflət etməyiniz.

*Fərhad Ağazadə*

### BÖHRAN TEZ QURTARSIN

125 nömrəli "Azərbaycan" qəzetəsinin "Yeni böhran" sər məqaləsini [baş məqaləsini] oxuyub, bu acı xəbərdən xeyli mütəəssir olduq. Fətəli xan həzrətləri istefa verib zimami-hökuməti [hökumətin cilovunu, idarəsini] özgə bir ələ ötürməyə qərar verdi. Əcəba bizim firqələrimiz və ya Məclisi-Məbusanda oturan ağalarımız və ya bizim Azərbaycan torpağının övladı olan atalarımız işbu istefaya nə nəzərlə baxırlar? Aya [görəsən], biz kasıbları firqəçilik bir rahi-nicata [xilas yoluna, qurtuluşa] çıxartdımı? Dəryanın dərin yerində fırtına qarşısında qalan gəmimizə fırtınadan nicat verdilərmi? Və ya biz kasıbların başı üstə yanan atəşə əlac olundumu? Və ya yenə biz kasıbların başına Mart hadisatını [hadisələrini] gətirmək xəyalındadırlar? Və ya yenə əlsiz-ayaqsız uşaqlarımızın əlindən tutub kəndlərə və ya İrana qaçmaq fikrinə düşüblər? Xeyr, xeyr. Bu acı xəbəri biz kasıblar eşidə bilmərik. Biz kasıblar bu ixtiyarı firqəçilərimizə verməmişik hər beş nəfərin ürəyi nə istəsə şunu etsin!

Firqə kasıb[ların] və camaatın fikrində olar və camaata xidmət edər. Aya bu xidmətdirmi ki, edirlər? Bir mülahizə edək görək, aya bu hökumət deyildi ki, çalışıb-çabalayıb bizi dəryanın kənarı görükməyən yerindən salamat keçirib, fırtınanın gündən-günə artıq olan zamanında bizə bir işıq yolu göstərdi? Əcəba, Paris məclisinə gedən vəkillərimizdən xatircəmlik xəbəri almışıqmı ki, böhranlar törədirik? Yeni vücuda gəlmiş olan Azərbaycan hökumətimizin Rəisi-vüzərası [Baş naziri] hər kim olsa, bir beş nəfər firqəçilərimizin ondan xoşu gəlməsə, ona bir acı və ya çirkin sözlə onu istefaya vadar edəcəkdirmi? Biz bir gözlə baxa bilmərik, gərək iki gözümüzü açaq, baxaq, fəryad edək. Bacarıqlı və iş bilən kişilərimizi iş başından düşməyə qoymayaq. Səsimizi ucaldaq. Bir ağızla deyək və rica edək ki, hər sözlə istefa etməsinlər. Məclisi-Məbusanımız razı olmasın ki, zimami-hökumət hər 5-10 gündə bir adam əlinə keçsin.

Əfəndilər, baxın qonşularımızda təzə təşkil olunmuş hökumətlərin rəislərinə nə cür hörmət olunur. Laməhalə [ən azından] biz də onlar gedən yol ilə gedək. Şimdi biz fəqir camaat təvəqqeyi-acizanə edirik ki, bu böhran uzaq çəkməsin. Tezliklə hökumət əmələ gəlsin və möhkəm iş bilən bir hökumət olsun ki, bundan sonra öylə olmasın ki, hər beş gündə təzə bir hökumət əmələ gəlsin.

*Kərbəlayi Balakərim Salamzadə*

### TELEQRAF XƏBƏRLƏRİ

**Royter, 4 mart**

Hindistan işlərinə baxan nazir bəyan etmişdir ki, Əfqanıstandan gələn xəbərlər az olduğundan, əfqan əmirinin qətli barəsində müfəssəl və qəti məlumat yoxdur. Əmir Cəlalabadda dəfn edilmişdir. Orada əmirin qardaşı sərdar Nəsrulla özünü əmir elan etmişdir. Çünki məqtul əmirin böyük oğlu Əmanulla əmirlikdən imtina etmişdir. Amma Əfqanıstanın paytaxtı olan Kabil şəhəri yeni əmiri təsdiq etməmişdir. Kabildə məqtul [qətl edilmiş] əmirin üçüncü oğlu sərdar Əmanulla yaşayır. Son məlumata görə, Nəsrulla sərdar Əmanullaya tabe olmuşdur.

* Almaniya Hökuməti Düsseldorfu spartak qoşunlarından təmizləmişdir. Mərkəzi və cənubi Almaniyada siyasi tətil davam edir.

* Bonar Lou bəyan etmişdir ki, Londandan İrlandaya yeraltı dəmiryolu (tunel) layihəsi hazırlanır.

**Almaniyada iğtişaş**

Berlin - General Foş Almaniya Hökumətinə əmr vermişdir ki, qoşunlarını Düsseldorfa spartakların əleyhinə çevirsin. Külli qitəyə [çox sayda hərbi hissəyə] spartak hərəkatı sirayət eyləmişdir. Yalnız Essendə 3 min nəfər spartak vardır. Düsseldorfda spartakların miqdarı 15 minə çatır.

* Almaniyada iğtişaş gün-gündən artır. Eysnerin mərasimi-dəfnində vaqe olan nümayiş büsbütün bir üsyana

dönmüşdür. Bunları sakit etmək üçün hökumət qoşunları göndərilmişdir.

* Vestfaliyada hökumət qoşunları ilə spartaklar arasında qanlı müharibə vaqe olmuşdur. Spartaklar vağzal və sonra şəhəri işğal etmişlərdir. Bütün işlər dayandırılmışdır. Münxendə hərəkat artır.

* Mərkəzi Almaniyada vaqe bütün mədənlərdə əmələlər [fəhlələr] tətilə başlamışlardır. Dəmiryol əmələləri Hallədə dəhşətli tətil hazırlayırlar.

* "Forverts" qəzetəsi Münxendə böyük nümayiş olduğunu xəbər verir. Bu nümayişdə 150 min adam iştirak eyləmişdir. Bayraqlarda bu sözlər yazılmışdır: Yaşasın Rusiya Şura Cümhuriyyəti! Yaşasın şura üsulu!

## SÜLH ƏTRAFINDA

- Paris - Bu gün Müttəfiq dövlətlərin nümayəndələrinin Parisdə Xariciyyə Nəzarətində iclasları vaqe olmuşdur. İclas saat 3-dən 6-yadək davam eyləmişdir. İclas[da] Belçikaya və Romaniyaya aid məsələlər müzakirəsindən başqa, Ermənistan Cümhuriyyəti nümayəndəsi Aqaronyan və Poqos Nubar paşa Ermənistanın tələbnaməsini təqdim eyləmişdir. Gələn iclas pəncşənbə [cümə axşamı] günü.

- Tilzit, 25 fevral – "Tilziter çaytunq" "Tayms"ın zeylədki [aşağıdakı] bəyanatını elan edir:

Müttəfiqlər yeni mütarikə şəraitində [atəşkəs şərtlərində] işbu maddələrə razı olmuşlardır: Almaniya bilatəxir [dərhal] Müttəfiqlərə 16 kruvazör [kreyser], 42 müxrib [destroyer], 50 ədəd torpedo verməlidir. Bütün sualtı qayıqlar və bu qayıqlara mütəəlliq [məxsus] şeylər 15 gün müddətində məhv edilməlidir. Müavinətçi kruvazörlər tərk-silah etdiriləcəkdirlər.

**Müttəfiqlər və Rusiya**

Londonda müntəşir "Deyli nyus" qəzetəsi yazır:

Mütəffiqlərin Ali Hərbiyyə Şurası istəyir ki, yenidən Rusiya firqələrinə müraciətlə onları Sülh Konfransına dəvət eyləsin. Hərgah, bu dəfə Müttəfiqlərin təklifini firqələr rədd edərlərsə, o zaman Müttəfiqlər bir hərbi komissiya təşkil edərək Rusiyanı istila etmək üçün nə qədər qoşun lazım olduğunu təxmin edəcəkdir. Amerika bu komissiyada iştirak etməkdən imtina edir.

**Klemansonun yaralanması barəsində**

Lahey [Haaqa] - Parisdən ingilis qəzetələrinə xəbər verilir ki, Klemanso yaralanmasının istintaqından anlaşılmışdır ki, canilər Pişonu vurmaq istəyirmişlər. Bu münasibətlə təzədən səkkiz nəfər sosialist həbsə alınmışlar.

**Amerika qoşunlarının Murmandan dəvəti**

Vaşinqtondan verilən xəbərlərə nəzərən, Amerika Rəisi-cumhuru Vilson Murmanda [Murmanskda] olan Amerika qoşunlarının geri qayıtması barəsində əmr vermişdir.





* Berlin - Klemansoya suiqəsd edildikdən sonra Müttəfiqlər tezliklə sülh əhdnaməsini imzalamaq istəyirlər.

## DAĞISTANIN HALI

**Dağıstan siyasi nümayəndəsinin Azərbaycan Xariciyyə nazirinə notası**

Nazir həzrətləri! Bununla sizə məlum edirəm ki, Könüllü ordu ilə mənim hökumətim arasında olan müzakiratın [müzakirələrin] nəticəsiz olduğu, təqdim etdiyim sənədlərdən aşkardır.

Könüllü ordu, Şimali Qafqaziya millətləri və onların Parlamanı və Hökumətinin arzusunu nəzərə almayıb, dinc əhali əleyhinə hərəkati-hərbiyyədə davam etməklə Qroznı şəhərinə gəlib çatmışdır.

General Denikin tərəfindən Tersk Dağıstan qoşunları komandanı təyin edilən general Lyaxov Dağıstan Hökumətinə iş başından çəkilməyi və Dağıstan ordusunu buraxmağı təklif etmişdir. General Lyaxov bizim ittifaqımızı milliyyətlərə təqsim edib [ayırıb] milli nahiyələrə məmurlar təyin edilməsi üçün layihə düzəltmişdir. Hər bir rayona dağıstanlıların istiqlaliyyəti amalına düşmənliyi ilə məşhur olan əks-inqilabçı generallar namizəd edilmişlərdir. General Lyaxov buna iktifa [kifayət] etməyərək, Könüllü ordu heyətinə daxil olmaq üzrə təzə dəstələr təşkil edilməsi tələbindədir. Dağıstan millətləri şəxsiyyətlərinə edilən təcavüzdən ziyadəsi ilə narazıdırlar.

Dağıstan Hökuməti və Parlaman, Könüllü ordunun hər bir tələbatını rədd ilə Dağıstan Cümhuriyyətini hər bir vasitə ilə müdafiə etməyi hökumətə təklif etmişdir. Bundan əlavə, Zaqafqaziya cümhuriyyətlərindən, o cümlədən Dağıstanla qan bir olan qardaşımız Azərbaycandan müavinət [kömək] xahiş edilməsi təklifi dəxi edilmişdir.

Burasını da əlavə edirəm ki, Dağıstan Hökuməti indiyə qədər öz əlində olan qüvvətlərdən istifadə etməmişdir. Biləks [əksinə] camaat, ələlxüsus İnquşistan, çeçen və Dağıstan əhalisi arasında olan narazılığın qarşısını almağa çalışmışdır.

Mənim hökumətim 1918-inci sənəsi noyabrın 27-də general Tomsondan məktub almışdır. Bu məktubda Müttəfiqlər, Qafqaziya müqəddəratı Sülh Konfransında həll edilənə qədər Şimali Qafqaziyada Dağıstan Hökumətini etiraf etdiklərini [tanıdıqlarını] bildirmişdi. General Tomson şifahən dəxi demişdir ki, general Denikin Dağıstan Cümhuriyyəti daxilinə buraxılmayacaqdır. Könüllü ordu isə əhdşikənanə bir surətdə [xaincə] Dağıstan üzərinə hücum etmişdir.

Müttəfiq dövlət komandanlığı general Tomson şəxsində Könüllü ordu tərəfindən Dağıstan üzərinə edilən təcavüz münasibətilə müstəqim [birbaşa, birmənalı] cavab verməkdən imtina edir. Teymurxanşurada hökumətimiz nəzdində olan Müttəfiq dövlət heyəti Railson başda olmaq üzrə, bizim torpağımızı tərk edib Bakıya varid olmuşdur [getmişdir].

Biz bunları Dağıstan millətlərinin və Zaqafqaziya cümhuriyyətlərinin həyatı üzərində bir ölüm təhlikəsi əlamətiədd [hesab] edirik. Bunları sizə xəbər verib, bu barədə təcili surətdə Hökumətinizi və Parlamanınızı xəbərdar etməyi xahiş edirəm. Bu ağır bir zamanda Dağıstan

tayfaları Hökumətinizin və Parlamanınızın müavinətinə istinad edir.

*Kamali-ehtiramla:*
*Azərbaycan Cümhuriyyəti nəzdində olan Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemirov*

**Dağıstanlıların protestosu**

Dağıstan Hökumətinin siyasi nümayəndəsi Əlixan Kantemirov öz hökumətindən vəkalətnamə almışdır ki, Könüllü ordunun Dağıstan torpağını işğal etmək və Dağıstan Hökumətini yıxmaq istədiyinə qarşı Müttəfiqlər komandanlığına, İran dövlətinə, Zaqafqaziya cümhuriyyətlərinə protesto eyləsin. Böylə protesto Müttəfiq hökumətlərə və Sülh Konfransına dəxi göndəriləcəkdir.

**Gürcüstan Hökumətinin notası**

General Denikin tərəfindən Dağıstan Hökumətinə hökuməti buraxmaq təklifi münasibətilə Gürcüstan Hökuməti Müttəfiqlər komandanlığına müraciətlə dağıstanlılara hüsn-münasibətini izharla Dağıstan istiqlaliyyətinin bərpa olması üçün dağıstanlılarla müttəfiq olduğunu bildirmişdir.

## NƏZARƏTLƏRDƏ

**Dövləti Müfəttişlikdə**

Dövlət müfəttişi Ərzaq nazirinə müraciətlə təvəqqe etmişdir ki, Ərzaq Nəzarətinə məkulat [ərzaq] və zəruri şeylər verməələri haqqında fevralın 2-sində bağlanmış müqavilənamənin ləğvi xüsusunda: 1) Azov-Don Bankı Bakı şöbəsi namına [adına] göndərilmiş kağızın; 2) Məzkur [adı çəkilən] bank müdirinin vəkalətnaməsinin; və 3) İran və Vəsəti [Orta] Asiya Ticarət Şirkətinin ərzi-halının [ərizəsinin] surətlərini Dövlət Müfəttişliyinə göndərsin.

## AZƏRBAYCAN FƏHLƏLƏRİNİN BORCU

Şimaldan qara bulud kimi gələrək hazırda Dağıstan füqərayi-kasibəsi [proletariatı] üzərinə ildırım yağdırmaqda olan Könüllü ordunun bir qolunun da Azərbaycanın ürəyi olan Bakıda təşkil edilərək öz sinəmizdə, öz südümüzlə vətənimizə düşmən əmələ gətirilməsinə razı olmadığımız və bu məsələ ilə əlaqədar olaraq dava gəmilərinin də təslim və tərk-silaha məcbur edilmələri siyasi firqələri bizdən küsdürmüşdür. Bu "demokratik firqələr" fəhlə konfransı çağıraraq ingilis komandanlığına 5 maddəlik bir tələbnamə verməyi və əgər ultimatum qəbul olunmasa, ümumi tətil elan etməyi təhti-qərara almışlardır.

Ümumi tətil:

Yəni bu tətilə o əmələ və fəhlələrdən iştirak edəcəklərmiş ki, "Dünya Denikinə dönsə, Azərbaycan qorxan deyil!" havasını oxuyurlar.

Bu tətilə o fəhlələr iştirak edəcəklərmiş ki, öz iclaslarında, mitinqlərində qərar verirlər ki, Azərbaycan Hökumətini və Məclisi-Məbusanını canlarından əziz tuturlar; var qüvvələri ilə müdafiə edəcəklər, hətta Azərbaycan yolunda lazım gəlsə, canlarından keçəcəklərdir.

Yəni bu tətildə Azərbaycan türk-müsəlman fəhlələri də iştirak edəcəklərmiş!

Əcəba doğrudurmu bu qərar? Doğrudanmı Azərbaycan türk-müsəlman fəhlələri də tətil edəcəklər?

Bizim fəhlələrimiz bu qərarın verilməsinə iştirak etməmişlərdir. İclasa güclə getdiyi kimi, iclasdan da nümayişkaranə bir surətdə çıxmışlardır. Müsəlman fəhlələri iclasa güclə girmişlərdir. Yəni bildirmişlərdir ki, Azərbaycan paytaxtında Azərbaycan hökumət və hürriyyətinə dəxli ola biləcək heç bir məsələ həll oluna bilməz ki, Azərbaycanın qeyrətli fəhlələri orada iştirak etməsinlər!

Sonra, iclasdan nümayişkaranə bir surətdə çıxmışlardır. Bununla da özgələrə sübut etmişlər ki, daha müsəlman fəhləsini "tovariş" sözü ilə aldatmaq olmaz. Onlar öz xeyir-şərlərini və dost-düşmənlərini tanımışlardır. Hər millətin özünün milli mənafeyi, milli ideyası, milli arzusu olan kimi, Azərbaycan fəhləsinin də öz hökuməti, öz vətəni və öz Məclisi-Məbusanı və bu surətlə də öz milli mənafeyi, milli arzusu və milli ideyası var.

Azərbaycan fəhləsi məvacib, istirahət, məişət məsələsində ümum millətlərin füqərayi-kasibəsilə yoldaş olmaqla bərabər, siyasi məsələdə ancaq və ancaq Azərbaycan siyasətinə tabedir. Ona görədir ki, bir cəllad Azərbaycan üzərinə qılınc çəkərsə bu fəhlə, bu zəhmətkeş kütlə qabarlı əlini, çirkli sinəsini qabağa verər: "Qoymaram!" deyər.

Keçən səfərki ümumi tətildən özgələrin damağında şirə qalıbdır. Onlar elə bilirlər ki, həmişə müsəlman fəhləsini aldada bilərlər. Bunlar elə bilirlər ki, yenə gedib "Tovariş, maaşımızın artırılması, məişətimizin yaxşılaşması üçün tətil ediriz" deyərək müsəlmanları tovlaya biləcəklər. Yox! İndi onların istədikləri məlumdur:

Konfransın tələbi budur:

1) Daxili işlərə müdaxilə edilməsin.

2) Bütün məhbuslar sorğu-sualsız buraxılsınlar.

3) Mərkəzi Kaspi donanmasının hesabı bilatəxir verilsin.

4) Bundan sonra heç kəs tutulmasın.

5) Rus dövlətinin əmvalı [malları] siyasi firqələr nümayəndələrindən mütəşəkkil [təşkil olunmuş] bir komisyona verilsin.

Azərbaycanlı qardaş, fəhlə yoldaş!

Bax gör, bu tələblərin içində heç iqtisada aid bir məsələ varmı?

Əlbəttə, yox.

Bunlar həp siyasi tələblərdir. Tətil də siyasi tətildir. İndi sən bilməlisən ki, bu tələb azərbaycanlı tələbi deyil.

Azərbaycan Hökumətinin, Azərbaycan istiqlalının mənfəəti budur ki, paytaxtımızda nadinc adam olmasın. Vətənimizdə sakitlik olsun. Tainki xalq başını aşağı salaraq kəsbi [işi, qazancı] ilə, fəhləliyi ilə məşğul olsun!

Azərbaycanın mənfəəti buradadır ki, hangi millətdən, hangi firqədən olur-olsun nadinc adamlar meydandan çəkilsinlər. Dinc, farağat adamlar asudə yaşasınlar.

Fəqət tətilçilər nə deyirlər?

Qoy, fəhlə yoldaşlarımız özləri bilsinlər.

Ancaq bunu da bilsinlər ki, tətil olsa, əvvəla hamıdan ziyadə bizim mənafeyimizə qarşıdır. Saniyən [ikincisi] də bizim əleyhimizə də olmasa hər günün tətili bizim bünövrəmizə, kökümüzə

balta çalmaqdadır. Əlbəttə, bunları bilən fəhlə heç vaxt özü istədiyi hökumətinin, vətəninin, millətinin kökünə balta çalmaz!

Konfransda fəhlələr öz mənfəətlərini bildiklərini isbat etdilər. İndi də isbat etməlidirlər ki, hər millət, hər firqə, hər sinif öz vətəni, öz milləti üçün mübarizə etdiyi kimi, Azərbaycan fəhləsi də öz Hökuməti, öz Parlamanı, öz vətəni və öz mənafeyi uğrunda mübarizə etməyi bacarır! O da öz mənafeyini özgəyə fəda etməz!

*Xəlil İbrahim*

## BAKI XƏBƏRLƏRİ

**Mütəallimlər iclası**

Cümə günü, martın 7-si, səhər saat 10-da Qafqaziya Müsəlman Mütəallimləri [Tələbələri] Mərkəzi Komitəsinin fövqəladə iclası təyin edilmişdir (Persidski küçə, nömrə 121).

Ümum təftiş komissiyası əza [üzv] və namizədləri də isbati-vücud [iştirak] etməlidirlər. Yoldaşlardan təvəqqe olunur vaxtında gəlsinlər.

**Ərəblinski**

Hüseyn Ərəblinskinin qətlini xəbər vermişik. Şənbə günü təfsilatını məlum edəcəyiz.

**Dağıstan Hökuməti nəzdində Azərbaycan nümayəndəsi**

Məşhur camaat xadimi və ədib Əbdürrəhim bəy Haqverdiyev cənabları Azərbaycan Hökuməti tərəfindən Dağıstan Cümhuriyyətində siyasi nümayəndə təyin edilərək Teymurxanşuraya əzimət etmişdir [yola düşmüşdür].

**Fəhlə Konfransı**

Dün Fəhlə Konfransının fövqəladə iclası vaqe olaraq, ingilis komandanlığına 5 maddəlik bir ultimatum verərək, qəbul olunmasa ümumi tətil elan etməyi təhtiqərara almışdır. Təfsilatı gələn nömrədə.

**Hadisat**

- Fevralın 28-də gecə Nijni Təzəpir küçəsində, 157 nömrəli evdə 14 yaşında İsmayıl Kərbəlayi Murad oğlu öldürülmüşdür. Təhqiqat davam edir.

- Həman gecə 6-cı Paralelni küçədə sükunət edən [yaşayan] Nənəxanım İbrahim qızı və onun oğlu 17 yaşında Qəni Hüseyn Əlibala oğlu öldürülmüşlərdir.

- Əvvəlinci Paralelni küçədə sükunət edən Matvey Maçalovun evindən naməlum bədəfkarlar [canilər] qıfılı sındırıb 45 kisə arpa və buğda oğurlamışlardır. Malın qiyməti 35 min manatdır.

- Fevralın 7-si, axşam 7-də Kranovodski küçədə kooperatif "Soyuz" cəmiyyətinin idarəsinə dörd nəfər na-məlum bədəfkarlar daxil olub, öldürmək təhdidi ilə 63 min 44 manat pul qarət edib qaçmışlar.

- Ufa quberniyası əhli Nikolay Hinderen polisəyə məlum etmişdir ki, fevralın 26-sında, axşam saat 10-da, Kamenisti küçə ilə getdikdə üç nəfər naməlum bədəfkarlar ona hücum edib 800 manat pulunu, 500 manatlıq papağını və 900 manatlıq ayaqqabılarını alıb gizlənmişlərdir.

- Gimnaziçeski küçədə sükunət edən Osip Papanovun dükanından naməlum bədəfkarlar qıfılı sındırıb 20 min manatlıq mal qarət etmişlərdir. Təhqiqat davam edir.

## BAKI QUBERNİYASINDA

* Kürdəmir uçastoku pristavı Göyçay uyezd naçalnikinə [qəza rəisinə] məlum edir ki, Sığırlı kəndi yüzbaşısı bəratülqövlündən [protokolundan] məlum olmuşdur ki, məzkur [adı çəkilən] kəndin əhli Əliqara Əziz oğlu neçə vaxt bundan əqdəm [qabaq] Şişəbəyim Şamil qızını ərə veribsə də, onun qövmü [qohumu] Dədəqulu razı olmamışdır. Məzkur Əliqaranın adamları Şişəbəyimin razılığı ilə onu aparmaq istədiyi vaxt Dədəqulunun adamı Əlibalaxan Məhəmməd oğlu tüfəngdən güllə ataraq onu yaralamışdır. Yaralı iki saatdan sonra vəfat etmişdir. Qatil gizlənmişdir. Onu tövqif [həbs] etməkdən ötrü pristav tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

* Şamaxı uyezdi Mədrəsə uçastoku pristavı naçalnikə məlum etmişdir ki, 6 nəfər naməlum bədəfkarlar Saqiyan kəndi əhli Rüstəm Gülbəndyansın evinə hücum edib özünü, anasını, qardaşı arvadı Aşxananı və onun evində qonaq olan Babacanı, Qriqori Ağayanı, Sedrak Vaçiyansı öldürüb və Aram Gülbəndyansı da yaralamışlardır. Bədəfkarları tövqif etməkdən ötrü Şamaxı uyezd naçalniki tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir.

* Göyçay uyezdi Barquşeti uçastoku pristavı məlum edir ki, Qaziyan kəndinin əhilləri Məhəmmədbağır Əbdüləziz oğlu, Əli Abbas oğlu və İran rəiyyəti Kərbəlayi Məhəmməd, Kərbəlayi Əmir Əziz oğlu Qarabəyli kəndi əhli Nəsir Seydşəkər oğlunun atını oğurlamışlardır.

## İDARƏDƏN CAVABLAR

**Məhzun oğlu əfəndiyə:** Müxbirlik arzunuz qəbuldur. Bir neçə məqalələrinizdən sonra idarə özü mövcud qaydalarımız üzrə şərtini təyin edər.

**Əfi əfəndiyə:** "Səyahət" namındakı məqalənizi bəzi "taktika" səbəblərindən dolayı çap edə bilmədik. Etmək mümkün olsaydı, bir para yerlərini pozub düzəltmək lazım gəlirdi. Halbuki üslub və ifadəniz o qədər xoşumuza gəldi ki, yazdıqlarınızı korlamaq istəmədik. Bu üsuli-ifadə ilə başqa şeylər dəxi yazsanız kamali-məmnuniyyətlə çap edərik.

**Fatma Kərbəlayi Hüseynağa qızı xanım əfəndiyə:** Kağızınızı öylə bir bisavad adama yazdırmışsınız ki, heç oxumaq mümkün deyildir. Bir nəfər savadlıya yazdırınız ki, mətləbiniz məlum olsun.

**Elan**

Gimnaziya müəllimi dərs verməyə pansiyona şagird qəbul edir. Adres: Suraxanski 113. Rzabəyov.

*5736*

**Axşam tamaşası**
**Təzə opera**

Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşları müdiriyyəti tərəfindən
cümə günü cəmadiyəlaxir ayının
4-ündə martın 7-sində
1919-uncu sənəsi
*Müdiriyyətin dirijoru musiqişünas və bəstəkar Müslüm bəy Maqomayev və məşhur artist Hüseynqulu Sarablının şərəfinə (benefisinə)*
Müslüm bəyin təzə yazmış olduğu
**“Şah İsmayıl”**
operası birinci dəfə olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır.
6 pərdədə
Bəstəkarı Müslüm bəy Maqomayev,
sözləri Mirzə Qədir İsmayılovundur.
Bu tamaşada bir ildən ziyadə
səhnəmizdə iştirak etməyən
məşhur artistka Y. N. Olenskaya,
böyük xor və balet dəstəsi
iştirak edəcəkdir.
Biletlər teatrın kassasında
indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Möhtərəm tamaşaçılardan
xahiş olunur ki, biletləri indidən
alsınlar ki, tamaşa günü bilet almaqda
müşkülata düşməsinlər.

*T-50 3-1*

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
“Fani və kompaniya”, Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5702 6-4*

**Bakı Şəhər İstiqraz Cəmiyyəti**

Cəmiyyətin nizamnaməsinin 65-inci maddəsinə görə, bununla elan edir ki, cəmiyyətə üçillik nümayəndə intixab edilməkdən [seçilməkdən] ötrü cəmiyyətin müstəqrizləri [borcluları] iclasa dəvət olunur. 1-ci razryad [dərəcə] 11 aprel; 2-ci 12 aprel; 3-cü 13 aprel. Həmin 1919-cu ildə, saat 5-də cəmiyyətin idarəsinin binasında - Vorontsovski küçə, Eyvazovun evində, nömrə 18.

Qeyd: Cəmiyyətin nizamnaməsinin 68-inci maddəsinə görə iclasa gələnlərin miqdarına baxmayaraq, qanuni hesab olunur.

*T-50*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, martın 13-ündə saat 12-də “Xozyaystvennı rasparyaditelni” [Təsərrüfat-İdarəetmə] şöbəsinin dəftərxanasında şəhər evlərinin – hansı ki, biri Balaxanski və Budaqovski küçələrin küncündə nömrə 110 və ikincisi Balaxanski şosedə nömrə 169 – icarəyə (arendaya) vermək barəsində torq [hərrac] təyin olunur. Bəyannaməni yuxarıda zikr olunan şöbənin dəftərxanasında oxumaq olar.

*T-53*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.





Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**“Müsavat” firqəsinin Bakı konfransı**

Bu gün saat 11-də, Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Bakı konfransı təyin olunmuşdur. Konfransa Bakı komitəsi əzaları [üzvləri], promıslalardakı [mədənlərdəki] şöbələrin heyəti-idarəsi və hər 25 müsavatçı əmələdən [fəhlədən] bir nümayəndə iştirak edəcək. Baxılacaq məsələlər:

1) Hazırkı zaman məsələləri;

2) Firqə təşkilatına aid məsələlər.

Konfrans Məclisi-Məbusan binası, “Müsavat” şöbəsində vaqe olacaqdır.

*T-57*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 107. “Xəta onların həyati-bəşəriyyəsinə olmasa da, onların sərbəst dolanmasına olur.”: bu cümlə belə başa düşülməlidir: “Onların (zabitlərin) həyatı olmasa da, dolanışığı təhlükə qarşısında qalır.”

səh. 108. “…barəsində təkrarən vəsatət qaldırılıb…”: qəzetdə “vəsatət” yerinə “vasitə” getmişdir.

səh. 109. “Şamaxı və Göyçay – 1”: qəzetdə “Göyçay” yerinə “Göyçə” getmişdir.

səh. 110. “…müsəlmanlarda olan fitri nizam və ədəbə görə…”: qəzetdə “olan” yerinə səhvən “onlar” getmişdir.

“…Hərbiyyə Nəzarətinə darüləcəzə kimi baxsınlar”: “qocalar evi; əlillər evi” mənasına gələn “darüləcəzə” sözü burada “xeyriyyə təşkilatı” mənasındadır; Mehmandarov rusca nitqinin bu yerində “богоугодное заведение” ifadəsini işlətmişdir.

**Hökumətdən sonra**
**Parlaman əngəlləri**

səh. 112. “absenteizm”: seçkilərdə iştirakdan boyun qaçırmaq yaxud kollegial orqanların üzvlərinin iclaslarda iştirak etməməsi.

**Teleqraf xəbərləri**

səh. 113. “Hindistan işlərinə baxan nazir…”: burada söhbət, 1917-1922-ci illərdə Britaniyanın Hindistan İşləri naziri olan Edvin Semuel Monteqyodan [Edwin Samuel Montagu] gedir.

“…əfqan əmirinin qətli barəsində…”: söhbət 1901-1919-cu illərdə Əfqanıstan əmiri olan Həbibulla xandan gedir.

"...külli qitəyə...": qəzetdə "külli" yerinə "gələn" getmişdir.

"Spartak": 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat Spartak İttifaqı nəzərdə tutulur.

səh. 114. "Halle": qəzetdə "Qalle" kimi getmişdir.

"Forverts" [Vorwärts]: Almaniya Sosial-Demokrat Partiyasının orqanı.

**Sülh ətrafında**

səh. 114. "Tilziter çaytunq" [Tilsiter Zeitung]: 1894-1914-cü illərdə Berlində nəşr edilmiş gündəlik qəzet.





**Bazar, 9 mart 1919-cu il, nömrə 132**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 6 cəmadiyəlaxir sənə 1337. 9 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Molla Əli, Qədir, Əliəkbər, Əliheydar və Səkinə xanım Heydərovlar əvvəlincinin arvadı və axırıncıların anaları **Zəhra xanım Heydərovanın** ağır xəstəlikdən sonra vəfatını kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir. Mərhumun cənazəsi bu gün saat 10-da özünün Şaxski küçədəki 17 nömrəli evindən Hacı Hüseyn məscidinə aparılacaqdır.

*b.*

## DAĞISTANA KÖMƏK

Şimal təhlükəsinə qarşı böyük bir səngərimiz müqabilində olan Dağıstan, bir səngər üzərinə tərəttüb edən [boynuna düşən] vəzifəsini ifa etmək məcburiyyətindədir.

Qaragüruhların qara qüvvələri, yəni Denikin qoşunları, dağıstanlıların hörmətçilik və mehmannəvazlığından [qonaqpərvərliyindən] sui-istifadə edərək şimal ayısına məxsus bir hirs ilə [hərisliklə] Dağıstan qartallarının üzərinə hücumlar etmək üzrədirlər. Qroznı və Qafqay [Vladiqafqaz] kimi şəhərlər onların əllərinə keçməklə, təhlükə bəri tərəfləri dəxi təhdid etməkdədir.

Denikinlərin dağıstanlılara qarşı açmış olduqları müharibə, qaragüruha məxsus xainanə bir surətdə əmələ gəldi. Böylə ki, əvvəlcə "Bizim sizə və sizin istiqlaliyyətinizə qarşı heç bir sui-fikrimiz yoxdur, yalnız bolşeviklərlə mübarizə edirik və bu yolda sizdən kömək diləyirik" - deyə safdil dağıstanlıları iğfal edib [aldadıb] onların mərdanə köməyi ilə bolşeviklərə faiq [üstün, qalib] gəldilər. Bədəhu [sonra] bolşeviklər basıldıqdan sonra özlərini o tərəfdən asudə görüb silahlarının ağzını namərdlərə yaraşan utanılmaz bir həyasızlıqla, qafil olmuş dağıstanlılar üzərinə çevirdilər və bu qəflətdən istifadə ilə bir neçə müvəffəqiyyətlərə nail olub da ümum [bütün] Dağıstan Cümhuriyyətinin istiqlal və azadlığına qarşı xainanə hərəkatda bulunmağa başladılar. Tələb edirlər ki, Dağıstan Hökuməti dağılıb, ümum Şimali Qafqaz Denikin könüllülərinin malı olsun və bu maldan istifadə edilib istər bolşeviklərlə, istər Azərbaycan və Gürcüstan ilə müharibə edilsin.

Bu tələbi rədd etmək üçün Dağıstan Cümhuriyyəti Denikin ordusuna qarşı müntəzəm bir surətdə mübarizə meydanı açmalı və bu ordunu tarmar etməklə bəlanı üzərindən dəf'ə çalışmalıdır.

Pəs [elə isə], biz hər halda və hər bir vəchlə Dağıstana kömək etməyə borcluyuq və məsələ yalnız burasındadır ki, nə tövr kömək edəlim. Parlaman bu məsələni Hökumətə vagüzar etdi [tapşırdı] və bu xüsusda ona müəyyən bir yol göstərməyib, Hökumət hər nə tövr tədbirlər ittixaz edərsə [tədbir görərsə] Parlaman razıdır, deyib hələlik bununla iktifa [kifayət] etdi. Biz dəxi bu xüsusda hökumətimizin müdəbbiranə [uzaqgörənliklə] və aqilanə tədbir görəcək istedadına etimadımız olduğunu qeyd edib də yalnız ümumi nəzərimizi burada söyləməyi mənfəətdən xali [faydasız] bilməyirik ki, zatən Parlamanamızın bəzi fraksiyaları dəxi nəzərdən səthi olaraq bəhs edib, deyib keçdilər.

İş bundadır ki, Denikin qaragüruhun[un] hərəkatı, deyil yalnız Dağıstana və Azərbaycana, bəlkə ümum Qafqaz cümhuriyyətlərinə, yəni Gürcüstana və zənn edirik Ermənistana dəxi aid olan ümumi bir təhlükədir. Buna görə də bu təhlükənin dəf'i üçün bütün Qafqaz cümhuriyyətləri möhkəm bir ittifaq bağlamalıdırlar. Böylə ittifaq ki, hər cümhuriyyət əvvəla burasını bilməlidir ki, Dağıstan üstünə yeriməkdə olan bu bəla ümumi bir bəladır. Aşkar şeydir ki, bu gün Dağıstan denikinlərin qurbanı olarsa, sabah növbət Azərbaycana yetişər. Deməli, əgər bu şər Dağıstan üzərindən ittihad [birlik] və ittifaq ilə dəf edilərsə, Azərbaycan dəxi o şərin gələcək təhlükəsindən qurtulmuş olar.

Fəqət qomşumuzun və qomşuluqdan əlavə, həmdinimiz olan bir məmləkətin üzərinə çökmüş olan bəlaya və bu bəlanın dəf'inə biz nə nəzərlə baxmalıyıq? Və bu hadisə qarşısında bizim vəzifəmiz nə yolda olmalıdır?

Bu suallara cavab olmaq üzrə Azərbaycan Cümhuriyyətinin Parlamanı müttəhidülqövl olaraq [yekdilliklə] qərar qoydu ki, Dağıstana Azərbaycan tərəfindən kömək edilsin və Hökumətə təminat verdi ki, bu xüsusda hər nə növ tədbirlər görsə, Parlaman ona razıdır.

Bəli, Dağıstana kömək etməyə Azərbaycan borcludur və borcu bizim üzərimizə həvalə edən səbəblər o qədər vacib və o qədər haizi-əhəmiyyətdir [əhəmiyyətə malikdir] ki, borcun altından qaçmağa heç bir vəchlə imkanımız yoxdur.

Öz istiqlalımızın təsdiq, təyid [qəbulu] və təqviyəsi [möhkəmlənməsi] yolunda çalışdığımız kimi, Dağıstan haqqında da bir o qədər çalışmalıyıq və buna görə də Dağıstan kimi bir İslam Cümhuriyyətinin denikinlər tərəfindən dağıdılmasına heç bir vəchlə razı olmamalıyıq.

Bu birinci səbəbdir ki, bugünkü mövcud istiqlalımızın feilən müdafiəsinə aid həyati bir əmrdir [faktdır].

Və saniyən [ikincisi], dağıstanlılar bizim din bir qardaşlarımızdır; dindən əlavə milliyyət və qövmlük rabitələri ilə dəxi biz dağıstanlıların böyük bir hissəsi ilə əlaqədarıq. Bu üzdən, dini və milli vəzifəmiz dəxi bizi dağıstanlılara köməyə vadar edir. Denikin ordularının hücumlarına qarşı müdafiədə bulunan dağıstanlı qardaşlarımız möhtaci-imdad bir vəziyyətdə bulunduqları halda, biz bu faciəyə biganə tamaşaçı nəzərilə baxa bilmərik. Din və milliyyət hisslərimiz coşub mütəəssib [təəssübkeşlik] dərəcəsinə gələr də bizi köməyə qoşmağa vadar edər.

Birinci olan həyati və ikinci olan dini və milli əmrlərdən [faktlardan] başqa, üçüncü olaraq siyasi bir əmr dəxi vardır ki, o da bizi köməyə icbar edən böyük səbəblərdən biridir. Böylə ki, Qafqaz cümhuriyyətləri arasında Azərbaycandan əlavə digər bir islam cümhuriyyəti mövcud olarsa, bunun Qafqaz müvazineyi-siyasiyyəsinə [siyasi müvazinətinə] gələcəklərdə böyük bir təsir edəcəyi şübhəsizdir. Bu üzdən biz, öz-özlüyündə başqa cümhuriyyətlərə inanıb da "bel bağlamağa" qəlbində bir itminan [inam] olduğunu hiss etsin; yəni ittifaq, etibarlı bir ittifaq olsun; qabağa tərəf köməyə yüyürən hər bir fərd, arxadan xainanə bir surətdə zərbələnməyəcəyindən əmin olsun.

Bu cür bir ittifaqa denikinlilər əlindən Soçi zərbəsi yemiş olan Gürcüstanın ruyi-riza göstərəcəyinə [razılıq verəcəyinə] ümid çoxdur. Denikinlərin ümum Qafqaz üçün təhlükə təşkil etdiyini gürcü qəzetələri dəxi bizimlə şərik olub əhvalatın çegunəliyinə [necəliyinə] lazımınca vaqifdirlər.

Ermənistana gəlincə, bu xüsusda nə rəsmi dairələrinin, nə də qəzetələrinin müəyyən fikrini bilmirik. Mümkündür ki, Ermənistan; Dağıstan, Gürcüstan və Azərbaycan arxasında daldalanmasındanmı, ya başqa səbəblərdənmi Denikin ordusundan özü üçün təhlükə ehtimalına əhəmiyyət verməyir. Bu da mümkündür ki, bu axır zamanda yunan ilə yaxınlıq məsələsindən şirin söhbət açmış olan ermənilər, istiqballarının əlverişli olacağını Qafqaz cümhuriyyətləri ittifaqında deyil, bəlkə özgə bir ittifaqlardan asılı zənn edirlər. Hər halda Dağıstan, Azərbaycan, Gürcüstan ittifaqı Ermənistansız əmələ gələrsə, o halda bu hökumətin bu ittifaqa qarşı ətf ediləcək [yönələcək] nəzərini və ixtiyar ediləcək vəziyyətini pişəzvəqt [əvvəlcədən] müəyyən surətdə bilmək lazım olacaqdır.

Bizim zənnimizcə Ermənistan dəxi denikinlərin ümum Qafqaz və əzcümlə [o cümlədən] Ermənistan üçün dəxi gələcəkdə bir təhlükə olduğunu iqrar [təsdiq] edərsə və iqrar edib də bu ümumi bəlanın dəf'i işində özünə düşəcək borcunu kamali-sədaqətlə əda edərsə, bəla dəf'i bə'dində [bəla dəf edildikdən sonra] mənfəətdən başqa heç bir zərər görməz.

İştə, Dağıstana kömək əmrində [işində] Hökumətimiz şübhəsiz bu xüsusları nəzərə alıb da Azərbaycanın həm xaricən və həm daxilən hazırlıqlarına mümkün olduğu qədər səy göstərib də ümumi bəlanın dəf'i və dağıstanlı qardaşlarımızın təxlisi [xilası] işində Azərbaycan üzərinə düşən böyük vəzifəni layiqilə ifa edəcəkdir.

*Hacıbəyli Üzeyir*

**TELEQRAF XƏBƏRLƏRİ**

**Qaradağ Hökumətinin protestosu**

Ali Hərbi Şura martın 5-ində Qaradağ məsələsinə baxmışdır. Vaşinqtonda olan Qaradağ səfiri Qvozdenoviç kral Nikola

namından [adından] kral Nikolanın taxtından xəl edilməsinə [endirilməsinə] və Qaradağın da Serbiyaya ilhaq edilməsi [birləşdirilməsi] qərarı əleyhinə protesto etmişdir.

**Berlin əhvalı**

Berlindən verilən axırıncı teleqraflara görə, hökmfərma olan [hökm sürən] hərc-mərcliyə baxmayaraq, hökumət iş başındadır. Böyük və kiçik zavod fəhlələri ümumi tətildə iştirak etməkdən imtina edirlər. Hökumət qoşunları və külli miqdarda təchizat Berlinə varid olmaqdadır [gedib çatmaqdadır]. Bir çox patrul dəstələri küçələrdə gəzirlər.

**Lloyd Corcun fəhlələrə müraciəti**

Martın 4-də Lloyd Corc keçən həftə intixab edilmiş [seçilmiş] Sənaye Komitəsi iclasında bir nitq irad etmişdir [söyləmişdir] – Milli sənaye konfransı fəhlə məsələlərini həll etməlidir. Lloyd Corc demişdir ki: Sülh Konfransında iştirak etmək üçün gedir və Sülh Konfransının bütün dünyaya sülh verəcəyinə ümidvardır. Rusiya məhv olmuşdur. Almaniya da indiki əlamətlərə görə məhv olmaq üzrədir. Bizim köhnə məmləkətimiz mədəniyyəti xilas edən bir məmləkət ola bilər. Siz bunu yaddan çıxarmamalısınız. Mən fəhlələrin və iş sahiblərinin nəzərdiqqətini gələcəyə və konfrans qərarlarının gələcəkdə daimi olmasını təmin etməyə cəlb edirəm. Gərək bir öylə üsul tapılsın ki, fəhlələri həmişəliyə aclıqdan və müşkülatdan mühafizə və müdafiə etsin. Fəhlələr mənfəətdən öz paylarına malik olacaqlarına ümidvar olmalıdırlar.

* Sülh Konfransında Yaponiyanın hərəkatı haqqında Pekin mətbuat dəvairində [dairələrində] narazılıq müşahidə edilir. Əvvala onun üçün ki, guya Yaponiya Sülh Konfransında Çinin mənfəətini gözləyir, yainki çalışır Çin işlərinə kontrolluq etsin. İkincisi Çin sülh nümayəndələrinin məhdud edilməsinə Yaponiya səbəb olmuşdur. Bu xəbəri Yaponiya təkzib edir və qeyd edilir ki, Çin Hökumətinin zeyldəki [aşağıdakı] nümayəndələri Parisdə təqdim olunmuşlardır: Çin Xariciyyə naziri Lu [Çenq-Çanq], Pekinin ən böyük məmuru Vanq [Da], Vaşinqton səfiri Qu [Veytzyun], İngiltərə səfiri Sze [Alfred Saoke]. Konfrans özü bu qədər vəkillərin Sülh Konfransında işləyə biləcəklərini qət eyləmişdir. Yaponiya məmurlarının bəyanatına görə, Yaponiya siyasəti Çindaonun Yaponiyaya qaytarılmasından və Çinlə Yaponiya arasında sıxı bir münasibat əmələ gətirməkdən ibarətdir.

**Hüquqi-nisvan [Qadın hüquqları]**

Vaşinqton - Federalnı Məşrutə [Konstitusiya] Departamenti tərəfindən arvadların səs verməyə haqlı olduqları barəsində verilən qanun layihəsini Senat təkrar rədd eyləmişdir.

**İngiltərə Hökumətinin əmələlərə cavabı**

London - Altı saatlıq iş vaxtı barəsində olan İngiltərədəki dağ-məadin əmələlərinin [mədən fəhlələrinin] tələbinə qarşı ingilis hökuməti böylə cavab verir: Hərçənd hökumət əmələlərin məişətinin yaxşılaşmasına tərəfdar və bunu arzu edirsə də, fəqət bunu nəzərə almalıdır





ki, məvaciblərin artması məhsulat qiymətlərini də artıracaq və bundan dolayı ümumi ticarətə nə cür təsir edəcəyini fikir etmək lazımdır. Hökumət təklif edir ki, bir komitə təşkil edilsin. Bu komitəyə dağ mədənləri əmələləri də təqdim olunmalıdırlar. Bu komitə zeyldəki [aşağıdakı] məsələləri müzakirə etməlidir:

1) Kömür məhsulatı və nəqliyyatı[nı]n qiyməti;

2) Bazar qiyməti və mədaxili;

3) Dağ-məadin ticarəti indiki əsaslarla baqi qalmalımı yoxsa müttəhid kontrolluq altına alınmalı yaxud onlar milliləşdirilməlidir.

O ki qaldı məvaciblərin artırılması məsələləsinə, hökumət razıdır ki, gündə bir şillinq verilən hərbi maaşa əlavə edilsin. Sair tələbat isə yuxarıda zikr edilən komitəyə verilsin. Hökumət əmələlərdən rica edir ki, bu cavaba xeyirxahlıq nəzəri ilə baxsınlar və bilsinlər ki, hökumət hər növlə əmələlərə müavinət etmək istəyir. Mədən əmələlərinin tərxis edilməsi məsələləsinə gəldikdə, bu da ümumi tərxis işlərindən asılıdır. Hökumət zənn edir ki, sair əmələlər şəraitindən kənar dağ-mədən əmələlərini tərxis etmək olmaz.

## DAĞISTAN ƏHVALI

Teymurxanşuradan Bakıya varid olan [gələn] Dağıstan Cümhuriyyətinin Müttəfiq Şurası üzvü Şimali Qafqazya hadisatı haqqında müxbirimizə böylə müfəssəl məlumat vermişdir:

Don və Tersk oblastları əhalisi əvvəlcə Könüllü ordunu duz və çörəklə qarşılayıb Könüllü orduya geniş surətdə müavinət [kömək] göstərmişlər. Könüllü ordunun müvəffəqiyyəti də bununla təfsir [izah] edilir. Lakin Könüllü ordu özünü müvafiqətsiz [münasib olmayan] bir surətdə aparmışdır. Birinci gündən bir çox adamlar gülləyə tutulmuşdur. Cəza dəstələri hər yerdə nizamsızlıq başlamışdır. Sonra Könüllü ordu kazak əhalisinin 14 yaşından 44 yaşına qədər olanlarını əsgərliyə dəvət etmişlərdir. Osetinlərə 5 süvari alay ilə 8 plastun [piyada kazak] bölüyü verilməsi təklif edilmişdir. Qabardinlərdən 4 süvari alay və 6 piyada bölük, inquşlardan isə 600 nəfərdən ibarət 6 süvari alay istənilmişdir. Bu əsgəri dəstələrin hamısı məhəlli [yerli] əhalinin sərmayəsi ilə müsəlləh edilib [silahlandırılıb], hal-hazırda və gələcəkdə də azuqədən təmin edilməli imişlər. Buna görə, özləri üçün ərzağı olmayan və aclıq çəkən kəndlər, ordu üçün ərzaq almaqdan ötrü yüz verstlərcə yol getməyə məcbur olmuşlardır. Könüllü ordunun bu əmrlərinə tabe olmamaq mümkün deyildir. Çünki bu binagüzarlıqların [sərəncamların] ifasında müsamihə [səhlənkarlıq] göstərənlər dərhal gülləyə tutulub boğazdan asılmağa məhkum edilirlər. Bu işlərin axırı o yerə müncər olmuşdur [gəlib çatmışdır] ki, bir az vaxt bundan irəli Könüllü ordunu şövqlə pişvaz edən [qarşılayan] əhali indi onları "pis bolşevik" adlandırır. Könüllü ordunun bolşevik əsgərləri ilə vəhşiyanə bir surətdə müamilədə bulunması [rəftar etməsi] əhalini böylə acındırmışdır ki, nə bir dağıstanlı, nə bir kazak "könüllü" sözünü lənətsiz yad etməyir. Qırmızı ordu əsgərlərinin bir çoxunu güllələyib, hətta rəvayətə görə yeri

qazdırıb bir-birlərini diri-diri dəfn etmək əmri vermişlərdir. Bundan əlavə, güllələnmək təhdidi ilə bütün kənd əhalisinə Qırmızı ordu əsgərlərinə heç bir yeməli şey satılmaması əmr verilmişdir. Nəticədə Qırmızı ordu əsgərləri meşələrə dağılıb aclarından həlak olmuşlardır.

Məzkur [yuxarıda deyilən] şəxs deyir ki, Don oblastında bolşeviklərin böyük müvəffəqiyyəti vardır. Don kazaklarının hamısı, o cümlədən Denikin ordusuna daxil olan altı kazak alayı bolşeviklər tərəfinə keçmişlər. Mövsuq [etibarlı] məlumata görə, Novoçerkassk şəhəri bolşeviklər tərəfindən işğal edilmişdir. Rostov şəhərinin də bolşeviklər tərəfindən alınmasını rəvayət edirlər.

Dağıstan Cümhuriyyətinə gəldikdə, xalqın gözü açılmağa başlamışdır. Dağıstan Hökuməti bir tək dağıstanlılardan ibarət deyildir. Dağıstan Hökuməti heyətinə 6 terskli, ancaq iki nəfər dağıstanlı daxil olmuşdur. Bundan əlavə 4 yer kazaklara verilmişdir ki, bunların xristian və müsəlman nümayəndələri vardır. Bu barədə “Yedinaya Rossiya” qəzetəsinin yazdığı əsilsizdir.

Dağıstan Hökumətinin Aksaya köçməsi haqqında “İskra” qəzetəsinin yazdığı xəbər də həqiqətdən uzaqdır. Çünki Dağıstan Hökumətinin Poçta və Teleqraf naziri vəzifəsini ifa edən mühəndis Abuyev Azərbaycan Hökuməti ilə poçta, teleqraf və dəmiryol münasibatı [əlaqələri] üçün saziş hüsula gətirməkdən ötrü keçən gün Teymurxanşuradan Bakıya varid olmuşdur [gəlmişdir].

Dağıstan Hökumətinin Müttəfiq Şura üzvü axırda demişdir ki, Dağıstan Parlamanı bütün hökumətlərə müraciətən Könüllü ordu əleyhinə protesto etməyi qərara almışdır. Könüllü orduya ultimatum verilmişdir ki, tezliklə Dağıstan Cümhuriyyəti daxilindən çıxsın. Bundan əlavə, Cümhuriyyət daxilində Könüllü ordu təşkili qadağan edilmişdir.

## İRAN İŞLƏRİ

Qraf Kerzon Məclisi-Əyanda bəyan eyləmişdir ki, İranda Şirazı azad etmək üçün göndərilən qoşunlara keçən ay ser Persi Saksın təhti-komandasında [komandanlığı altında] olan qoşunlar da mülhəq olmuşdur [birləşmişdir]. Bu barədə olan məlumat gələcəkdə elan ediləcəkdir. Bir liva generalı [briqada generalı] Persi Saks 1915-ci ilin ibtidasında [əvvəlində] cənubi İrana göndərilmişdi. Məqsəd də o idi ki, orada olan İran qoşunlarını təhkim və Almaniya qoşunlarına mülhəq olan asi jandarmaları sakit eyləsin. Ser Persi Saks cəsarətli iqdamatda [təşəbbüsdə] bulunub qəti surətdə Şiraza malik olmuşdur. İki ilin müddətində bu naçalnik cənubi İran karabiner qəbiləsindən 6 min nəfərlik ordu təşkil eyləmişdir. Bunların böyrünə səkkiz yüz nəfər də Hindistan qoşunları qoşularaq, komandanlıq da ingilis zabitlərinə mühəvvəl edilmişdir [tapşırılmışdır]. Xain qəbilələrin hərəkatından dolayı daima Pers dəstəsi xətrə [təhlükə] və nəhayət karabinə sədaqəti də şübhə altında idi. Bəzi ittifaqlar düşürdü [bəzi hallar olurdu] ki, bunlar ordudan qaçırdılar. Lakin ingilis dəstəsi və ingilis afserlərinin [zabitlərinin] ciddiyyəti ilə bu xətrə [təhlükə] bərtərəf edilmişdi [aradan qaldırılmışdı].





## MÜXTƏLİF XƏBƏRLƏR

* “Oleq” adlı bolşevik zirehlisi Baltik dənizində ingilislərə təslim olmuşdur.

* Hərgah Prens adalarında olan rus nümayəndələri şurası Rusiyanı zəbt etməyi qərara alarsa, Müttəfiqlər öz əsgərlərini Rusiyaya çəkəcəklər.

* Hacı-Tərxanda aclıqdır. Ticarət dayanıb, həbsxanada 400 zabit vardır. Bunları cüzi işlər üstdə güllələyirlər.

**Bolqariya əhvalı**

Yunan rəsmi mənbələrindən xəbər verirlər ki, Sofiyadan verilən məlumata görə, bolqarlar əvvəlki kimi Müttəfiqlər barəsində, ələlxüsus serblər və yunanlılar haqqında düruyə [ikiüzlü] bir mövqe əxz etmişlərdir [tutmuşlar]. Bolqarların fikrincə, Müttəfiqlər arasında böyük nifaq vardır. Bu nifaq kəskin bir surət aldığı zaman Bolqariya öz mənfəətinə nail olacaqdır.

* Nauen, 26 fevral - Bolşeviklər hərəkatından vücuda gəlmiş olan ümumi tətil bütün Saksoniyaya keçmişdir. Leypsiqdə Münxen əhalisinə hüsnrəğbət izharı üçün şura böyük siyasi tətil hazırlayır. Mərkəzi Almaniyada dəxi tətil hərəkatı artmaqdadır.

* “Qolos raboçi[x]” adlı Sibiriya qəzetə[si] xəbər verir ki, Yaponiya Hökuməti amiral Kolçaka kömək olmaqdan ötrü Yaponiyadan Sibiriyaya təzə əsgəri dəstələr göndərilməsi əmrini vermişdir.

## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

* Post və Teleqraf nazirinin post və teleqraf qulluqçularından bir parasının Könüllü orduya yazılmaları barəsindəki məruzəsindən sonra həm Azərbaycan xidmətində, həm də Könüllü orduda olmağın naməqbul olması təhti-qərara al[ın]mışdır.

* Rəisi-vükəlanın [Baş nazirin] Axısqa barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Xariciyyə Nəzarətinə [Xarici İşlər Nazirliyinə] tapşırılsın ki, Gürcüstan Hökumətinə öz müqəddəratlarını öz əllərinə almış müsəlmanlar əleyhinə silah işlətmək əleyhinə etirazda bulunulsun. Etirazın surəti Müttəfiqlər komandanlığına təqdim edilsin.

* Daxiliyyə nazirinin elatın rahat yaylaqlarına köçməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə [Daxili İşlər Nazirliyinə] tapşırılsın ki, elatın qorxusuz yaylaqlara köçməsindən ötrü lazımi binagüzarlıqda bulunsun [lazımi tədbirləri görsün].

* Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Şamaxı qəzasının Mərəzə kəndində olan buğdanın Nəzarətə [Nazirliyə] verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mərəzədə ordu ehtiyacı üçün cəm edilmiş və Ərzaq Nəzarəti təhti-idarəsində olan buğdanı Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə verməli.

* Maarif nazirinin Bakıda Ali Ziraət məktəbi güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif nazirinin layihəsi təsviblə [bəyənilməklə], ona tapşırılsın ki, Məclisi-Məbusana təsdiqdən ötrü bir böylə qanun layihəsi idxal edilsin.

* Hərbiyyə nazirinin Bakıda konvoy qoşunu qitəsi [mühafizə qoşunu dəstəsi] təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Konvoy təşkilatı Hərbiyyə Nəzarətinə verilərək tapşırılsın ki, konvoyun hesabı 100 nəfər olaraq 50 nəfəri süvari, 50 nəfəri piyada olsun. Bütün təşkilat, başqa məxaricatı Hərbiyyə Nəzarəti hesabına artırılsın.

* Maliyyə nazirinin Poylu mövqifindən [stansiyasından] aparılacaq mallar üçün Bakıda gömrük almaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin layihəsi təsvib edilsin [bəyənilsin].

## YÜZ DOST AZDIR,
## BİR DÜŞMƏN ÇOXDUR

"Ədu kəsib qapını, biz evdə bixəbəriz,
Nə başqa-başqalarız, nə ittihad edəriz."

*Turani*

Qəribə hallar müşahidə ediriz. Heç bunu biz indiyə qədər anlamamışıq ki, Azərbaycanın yer üzündə minlərcə düşməni, bədxahı var imiş. İndiyə qədər bunları görmürdük. Üzərimizə qarşı bəslədikləri ədavəti anlamırdıq. Bəlkə heç də hiss etməyirdik. Çünki yüz illərcə başımıza qapaz endirib zalımların zülmlərinə davam etmək adətini bizdə oyatmışdılar. Şərabxorların şərabsız yaşaya bilmədikləri adəti kimi, bizim əhali də zülmsüz yaşaya bilməyirdi. Buna adətkərdə olmuşdu. Əhalinin qanını soran düşmənlərimiz onun hissini öylə korşatmışdır ki, əsəbiyyətini öylə bir hala salmışdır ki, bədəninə soxulan neştərlərin, çuvalduzların ağrısını belə duymayırdı. Bunların müdafiəsinə qalxmış ürəfamızın [ziyalılarımızın] da üzlərinə işgəncələr və həbsxana qapıları açıq idi. Odur ki, haqgu [haqqı söyləyən] ağızlar qapalı, adilanə-nəvis [ədaləti yazan] qələmlər də sınıq olduğundan, meydanı mübarizdən xali [boş] görən düşmənlər hər yerdə türk ünsürünü yəhərləyib ulaq kimi minmişdilər. Yerləri ərzan [ucuz] qiymətlərlə əllərindən alınırdı. Müflis düşüb fəhləlik dalınca gedərkən, fəhlə zümrəsinə də qəbul olunmazdılar. Ənvayi sənətlərin [müxtəlif peşələrin] təlimi bunlar üçün gizli qalırdı. Mənfəətli ticarətlərin yolları bağlanmışdı. Azərbaycan zəhmətkeşi məxaricinə açılmış məktəblərdə özgələr təlim tapırdı. Hökumət müəssisələrində dərman üçün bir nəfər də müsəlman tapılmazdı. Böylə ki, Yevropadan gəlmiş bir səyyah məmləkətimizin "Azərbaycan" olduğunu tarixdən öyrənərək burada xaricilərdən başqa əsl azərbaycanlılardan heç bir əsər müşahidə etməzdi.

Qəyur [qeyrətli] cavanlarımızın sayəsində bu gün öz müqəddəratımızı əlimizə ala bildik. Hökumət və Parlaman yapdıq. Bunlara arxayın olaraq Bakının təxlisinə [xilasına] gəlmiş cavanlar öz





yerlərinə qayıtdılar. "Qoy, hökumətimiz və Parlamanımız bizi idarə etsinlər, dərdlərimizə çarə arasınlar" dedilər.

Lakin dərdlərimizə çarə aranırmı? Üzərimizə hazırlanan ənvayi zərbə və sədəmələrin [bəlaların] qabağı alınırmı? Xayır. Qiymətli saatlar və dəqiqələr ayrı işə sərf olunur. Hökumət kişilərindən bəzilərinin səhv və xətaları Parlaman əzasının [üzvlərinin] mübarizə sərməşqi [mübarizə arqumenti] olmuşdur. Mübarizə axirüləmr [axırda] hökumətin istefası ilə tamam oldu. Yox, əstəğfurullah, tamam olmadı. Məslək mübarizəsi indi də şəxsi qüsurlara mübəddəl olmuşdur [çevrilmişdir]. Hələ burası təəccübdür ki, bu qüsurları açmaq üçün hər partiya özünə məxsus birər rusca qəzetə nəşrinə başlamışdır. Rusca nə üçün? Aya [görəsən], bu qəzetələr kim üçün yazılır? Azərbaycan türkləri və ələlxüsus demokratları məgər ruscamı oxuyurlar? Aşkardır ki, bu qəzetələr türklər üçün deyil, türklərin kəmində yatmış [pusqusunda dayanmış] bəzi düşmənləri üçündür ki, onlar da fürsəti fövtə verməyərək bizim cənabların yazılarını dördəlli qarmalayıb qərəz və ədavətlə dolu haşiyələri ilə bərabər tamam dünyanın hər tərəfinə yayırlar. Milçəkdən fil yaradıb lazım yerlərə, bəzi ağaların hüzuruna təqdim edirlər. Partiyaçılarımız bunu anlamayırlarmı ki, millətimizə uçurumlar hazır edən düşmənlərin əllərinə kəskin bir alət verirlər? Bu nə milli mübahisədir ki, indi də şəxsiyyətə keçmişdir? Vətənə qarşı hazırlanan hücumları unudub da, bunların Parlamandakı üç günlük mübahisələri yunanlıların o halına oxşayır ki, türklər İstanbulu mühasirəyə saldıqları əsnada Ayasofya kimi böyük kilsələrdə bimənə [mənasız] bir dini məsələyə dair qızğın bəhslər açmışdılar ki, xaç çəkmək üçün barmaqları nə tövr tutmaq caizdir. Hərçənd, xaç məsələsi ilə xəyanət məsələsinin təfavütü çoxdur. Lakin hər iki millətin düşməni unudub etinasızca davranmağı birdir. Barı yunanlıların bu tarixi halı bizim partiyaçılara bir ibrət dərsi olaydı. Anlayaydılar ki, "dəvədən böyük fil var". Rüşvətçiləri, xəyanətçiləri həmişə təhti-məsuliyyətə [məsuliyyət altına] almaq olar. Hətta bu gün məhkəməyə də vermək mümkündür.

Lakin "qəza qədərlənəndən" [bir iş baş verəndən] sonra buna heç bir çarə olmaz. Buna "əmri-vaqedir" [faktdır] deyərlər. Yəni, keçmiş ola! Öylə olmasın ki, sizin qəflətiniz millətin həyatına, qanı ilə qazanılmış müqəddəratına, xudanəkərdə [Allah göstərməsin] bir sədəmə toxundura bilsin. Böylə olarsa, Mart hadisatı bir də təkrar olarsa, uzaq yerlərdən Bakının xilasına gəlmiş əfradi-millət [millətin fərdləri] əmin olunuz ki, düşmənlərlə bərabər sizi də Bakıdan qovmağa haqlı olacaqlar. Çünki Mart hadisatından qabaq burada neçə müsəlman partiyası əmələ gəlmişdi. İndiki kimi onların da arasında mübarizələr gedirdi. Hər partiya özünə məxsus bir qoşun hazırlayırdı. Zabitlər fabrikası açılmışdı. Küçələrdə gəzən gözəl libaslı cavan (bəlkə uşaq) zabitlərin həddü hesabı yox idi. Zabit libasını bir gün qardaşı geyirdi, sabahı gün həman libas kiçik qardaşın əyninə taxılırdı. Üç qisim qoşun saxlanırdı ki, hər biri bir partiyaya yaxud bir nüfuz sahibinə məxsus idi. Bunların bir qisminə Təzəpirdə, bir

qisminə İsmailiyyə həyətində və bir qisminə də başqa bir yerdə məşq və təlim verilirdi. Bunu əhali görüb də şad olurdu ki, millətin nə çox qeydkeşləri vardır. Əmin olurdu ki, məqami-zərurətdə milləti bir yerdən deyil, üç yerdən müdafiə edəcəklər. Binaənileyh [ona görə], millət rəislərinə arxayın olaraq hər kəs öz kəsbkarlığı [işi, dolanacağı] dalınca gedirdi. Lakin bunlara bağlanılan ümidlərin hamısı puç çıxdı. Mart hadisatı başlar-başlamaz nə qoşunlarımızdan, nə də bunların banilərindən bir əsər göründü. Hamı qaçıb özlərini salamatca kənara çıxardı. Başçılarına ümidvar olmuş biçarə və məzlum millətin yaxası Azərbaycan atlıları gələnə qədər qəddar bolşeviklərin və daşnakların əllərində qaldı. Tökülmüş məsum qanların həddi, hesabı yox idi. Bu bizə bir ibrət dərsi olsun. Təfriqəbazlıqdan [partiyaçılıqdan] əl çəkək. Çünki bizim üçün hələ tezdir. Camaat işləri dalınca gedən ürəfamızın [ziyalılarımızın] ədədi o qədər azdır ki, hərgah bunlar da iki-üç firqəyə ayrılarsa, əllərindən heç bir şey gəlməyəcək. Qabaqkı partiyalar kimi aciz qalacaqlar.

Ədədi bizimkindən on qat artıq olan erməni ürəfasının fəaliyyəti bu dəfə dəmi bizi oyandırmayacaqdır? Bir kərə mülahizə olunsun ki, dünyada öylə bir siyasi firqə yoxdur ki, erməni ürəfasından orada tapılmasın. İnqilabiyyun, ictimaiyyun [sosialistlər], kadetlər [konstitusion-demokratlar] və yüzlərcə millətçi daşnakdan başlayaraq pozğunçu anarşilərə qədər hangi siyasi firqədə erməni əfradı [fərdləri] tapılmaz? Bainhəmə [bununla belə], bunlardan hangisi Ermənistan dairəsində mülkədarlar ilə rəncbərin, burjuy ilə zəhmətkeşin arasına bir toqquşma, bir ədavət salmışdır? Azərbaycanın Hindarxını müsəlman rəncbərlərinə dağıtdıran şaumyanlar, Gürcüstanın knyazları ilə kəndlilərinin torpaq iğtişaşına (аграрное движение) bais olmuş erməni bolşevikləri bir kərə də olsun erməni məlikləri ilə kəndlilərinin arasına heç bir pozğunluq salmadılar. Tiflis ilə Bakı Şaumyanın propaqanda yeri olmuşdu. Gürcü knyazları və müsəlman xan və bəyləri bunların təbliğat sərlövhələri olmuşdur və yenə bu üsul davam edir. Bunların bihəyalıqlarına bax ki, “Biz türk demokratlarına imdad üçün Azərbaycan sosialistlərinə yoldaş olacağız” deyə Parlamanımıza təşrif gətirmişlər. Çox sağ olun, ağalar! Olmazmı bu köməyi erməni demokratlarına yapasınız?

Bəli, bizim firqələr ermənilər kimi “ev bizim, sirr bizim” etmədilər. Biri-birinin qüsurunu açmağa məşğuldurlar. Amma düşmən də bildiyini müzayiqə etməyir [əsirgəmir]. Bir tərəfdən sünni-şiə təbliğatı, bir tərəfdən “Azərbaycana əsgər verməyiniz” kimi şeytənətlər [fitnələr], o biri tərəfdən Tiflisdən Zaqatala[ya] qaçmış ermənilərin gördükləri mehmannəvazlığın [qonaqpərvərliyin] qarşısında qalxızdıqları böhtanlar, Qarabağda Andranik, Bakıda Amazasp fitnələri... Sülh Konfransına göndərdiyimiz möhtərəm Əhməd bəyi qırmızı böhtanlarla ləkədar etdilər [ləkələdilər] ki, İstanbuldan Parijə gedə bilməsin. Çünki gedərsə, Peterburq fəqərəsi [hadisəsi] yenə təkrar olar, yenə ağaların oğurluqları açılar. Dağıstanlıların başına gələn, olsun ki, bir gün bizim də başımıza gələ. Öylə zənn etməyiniz ki, Dabravollar [Könüllülər] getdilər də bizim də yaxamız qurtardı. Sabahkı günün tədbirini çəkin, əfəndilər! Şəxsi ədavəti buraxın. Gələcəyin fikrinə qalın ki, məbada bir də millət hüzurunda xəcil olasınız!

*Fərhad Ağazadə*





## GENERAL TOMSON İLƏ FƏHLƏLƏRİN MÜZAKİRƏSİ

**Fəhlə Konfransının general Tomsona məktubu:**

1) İngilislər bilmərrə daxili işlərə müdaxilə etməsinlər.

2) Məhbus maryaklarla [matroslarla] onların ailələri, əllərindən alınan şeylər özlərinə qaytarılmaq üzrə sorğu-sualsız azad edilsinlər.

3) Mərkəzi Kaspi donanma maryaklarının haqq-hesabı bilatəxir [dərhal] verilsin.

4) Həbs və axtarış bilatəxir qət edilsin [dərhal dayandırılsın] və bundan sonra bu cür işlər olmasın.

5) Rusiya dövlətinə mütəəlliq əmval [məxsus mallar], o cümlədən avtokalonna, demokrat təşkilatları ilə sosialist firqələri nümayəndələrindən mütəşəkkil [ibarət] bir komisyonun kontrolu altında burada qalsın.

6) Fəhlə, Kəndli və Matros Vəkilləri Şurasının sərmayəsi ilə tikilmiş olan 12-nci xəstəxana Şikəst Əsgərlər İttifaqına qaytarılsın.

Bu tələbata əməl edilmədiyi zaman Fəhlə Konfransının heyəti-rəyasəti Tətil Komitəsi təşkili ilə tətil elan etməyə vəkil edilmişdir.

Konfrans heyəti-rüəsası [rəyasət heyəti] İngiltərə komandanlığı ilə ixtilaf olmasın deyə müsbət nəticələrə ümidvardır.

Tez bir zamanda cavab verməyiniz təmənna [xahiş] olunur.

*Heyəti-rüəsa sədri Çurayev*
*Müavini-sədri (imza)*
*Katib (imza)*

**General Tomsonun cavabı**

1) “İngilislərin daxili işlərə qarışmamaları” nə deməkdir? İngiltərə komandanlığının işlərə müdaxilə etməsi sayəsində siz azadiyi-mətbuat, ictima [mətbuat, yığıncaq azadlığı], hamı vergilərin, məvaciblərin verilməsindən təmin edilmişsiniz. İngilislər Bakı şəhərini ərzaq şeylərindən təchiz etməyə və şeylərin qiymətini aşağı salmağa kömək edib, ac əhaliyə və xəstəxanalara müavinət göstərmişlərdir. İngilislərin Kaspi Donanması ilə rus avtokalonnası məsələsinin tezliklə həll edilməsi haqqındakı tələbatınız ingilislərin daxili işlərə müdaxilə etməsini tələb etmək deməkdir. Bolşevik arvadlarının və uşaqlarının Aşqabaddan azad edilməsi işi də, həmçinin daxili işdir ki, İngiltərə komandanlığı tərəfindən ifa edilmişdir. Siz istəyirmisiniz ki, bunlar hamısı qət edilsin [bu işlərə son verilsin]?

2) Sizin məktubunuzda olan təhdidə görə – ki tələbatınıza əməl olmadıqda tətil elan ediləcəkdir – həbs edilən maryaklardan indiyə qədər azad edilmələrinin məsələsi növbədən götürülür. Tətil

təhdidi götürülməsə, heç kəs həbsdən azad edilməyəcəkdir.

3) Bunun daxili iş olmasına baxmayaraq, İngiltərə komandanlığı martın 4-ündə sizə xəbər verildiyi kimi maryakların haqq-hesabının verilməsinə çalışmaqdadır. Hərgah tətil elan edilsə, bu məsələ də həmçinin təxirə salınacaqdır.

4) Heç bir həbs və axtarış olmamışdır.

5) Sizə xəbər verilmişdir ki, İngiltərə komandanlığının təklifinə görə komissiya təşkil ediləcəkdir. Bu da daxili işdir.

6) 12-ci xəstəxana general Biçeraxovun razılığı ilə ingilislər tərəfindən təhvil alınmışdır. Xəstələr heç vaxt zorla xəstəxanadan kənar edilməmişlərdir. Xəstələrdən bir paraları həkimlərin razılığına görə ingilis səhiyyə avtomobillərində başqa xəstəxanaya aparılmışdır.

Hərgah Fəhlə Konfransı heyəti-rüəsası [rəyasət heyəti], İngiltərə komandanlığı ilə ixtilaf olmamasını və müsbət nəticələrə nail olmasını istəyirsə, general Tomson martın 7-də səhər saat 11-in yarısında onlarla görüşməyə hazırdır.

*Bakıda olan Müttəfiq ordu*
*komandanı*
*general-mayor V. M. Tomson*

Fəhlə Konfransı tərəfindən intixab olunan [seçilən] heyət general Tomson nəzdinə getmişdir.

Saat 12-nin yarısından saat 2-yə qədər müsahibə [söhbət] davam etmişdir. Fəhlə Konfransının heyəti-rüəsası tərəfindən qaldırılmış olan hamı məsələlər müzakirə edilmişdir.

Saziş hüsula gələcəyinə ümidvar olmaq olar.

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan Hökumətinin notası**

Azərbaycan Hökuməti Şimali Qafqaziyada Denikin ordusunun iqdamatından [addımlarından] dolayı Bakıdakı Müttəfiq qoşunları komandanına bir nota vermişdir.

**Hüseyn Cavid əfəndinin vürudu [gəlişi]**

Mart hadisəsində düşmən əlinə əsir düşüb də xoşbəxtanə salamat qalmış və sonra Bakıdan çıxmış və İran təriqi [yolu] ilə kəndi vətəni olan Naxçıvana getmiş və nəhayət neçə vaxt bundan əqdəm [qabaq] vəfat etdiyi xəbər verilmişsə də, sonra bunu qəzetəmiz, rəsmi dairələrdən aldığı məlumata istinadən təkzib etmiş, Təbrizdə və Naxçıvanda olduğunu bildirmişdi; bir sənəyə yaxın bir müddətdən bəri arzusunda olduğumuz məşhur şair Hüseyin Cavid əfəndi həzrətləri yenidən şəhərimizə vürud etmiş və dün idarəmizə təşrif gətirmişdir.

Hüseyin Cavid əfəndi üç yoldaşla bərabər sabiq Araz-Türk Hökuməti və sonra millətin ümumi rəyi ilə Azərbaycanın bir qismi elan edilmiş olan Cənubi Qafqaziya tərəfindən müəyyən vəkalət və vəzifə ilə gəlmişlərdir.

**Suraxanı "Müsavat" şöbəsində**

Suraxanıda bu mart ayının 9-unda, axşam saat 4-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" idarəsində iclas təyin olunmuşdur. Xahiş edirik yoldaşlardan təşrif gətirsinlər. İclasda heyəti-idarə seçiləcəkdir.

**Təchiziyyə heyətində**

Bakı Müsəlman Təchiziyyə Heyətinin 26 fevralda vüqu bulmuş iclasında zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

1) 5 nəfər üçün – dəxldar [kassir], xadim [xidmətçi], Çəmbərəkənd qəbiristanının gündüz qarovulçusu, sallaqxana tərəfində qəbiristan qarovulçusuna xəstəxanalardakı meyitləri gətirmək, təftiş etmək əmrinə mübaşir olan [işini yerinə yetirən] xidmətçilərə məvacib təyin edilsin.

2) Muxtar Kərimzadənin təklifi üzrə qərardad edilmiş ki, şəhərdə və Çornıqorodda xəstəxanalar hər gün təftiş edilib, orada olan müsəlman meyitləri qapaqlı tabutlarda qəbiristana aparılıb, orada islam qanunu ilə qüsl, kəfn və namaz qılınıb dəfn edilsinlər. Şəhər xəstəxanalarında olan füqəra meyitlərinin təchiz məxarici Bələdiyyə İdarəsindən və Çornı-qorod xəstəxanasındakı müsəlman meyitlərinin təchiz məxarici Sovet Syezddən [Bakı Neft Sənayeçiləri Qurultayı Şurasından] tələb edilsin.

3) Şəhərdə öz evlərində vəfat etmiş füqəra xüsusunda müzakirə olunub qərardad edilmişdir ki, onların fəqir və müstəhəqq [cənazə xərclərinin cəmiyyət tərəfindən ödənməsinə haqq qazanan] olmalarının isbatı üçün məhəllə ruhanisinin və həman məhəllədə olan bu heyət üzvünün şəhadətnaməsi və təsdiqi gəldikdə heyətin borcudur ki, həman meyiti məccani [pulsuz] olaraq təchiz etsin və böylə füqəranın təkfini [kəfənlənməsi] üçün heyət Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciət edib beqədri-kifayət [lazımi qədər] ağ alsın.

4) Təşrihə [yarılmağa] möhtac olan meyitlərin və ya məqtulların [qətl edilənlərin] qəbristanda təşrihiyyə odalarında [meyitlərin yarıldığı otaqlarda] neçə günlərlə mütəəffin [qoxumuş] bir halda qalmalarını heyət müzakirəyə qoyub bu halın hifzüsihhəyə müğayir [gigiyenaya zidd] olduğunu və meyitin hətki-hörmətinə [hörmətdən salınmasına] səbəb olduğunu nəzərə alaraq qət etdi ki, bu xüsusda hifzüsihhə heyəti sədrinə müraciət edilib bir tədbir ittixaz edilsin [tədbir görülsün] ki, bundan sonra böylə ittifaqlar düşdükdə [belə hallar olduqda], bizim heyət o heyətə rücu [müraciət] etdiyi zaman bilatəxir [dərhal] bir doktor göndərib meyiti təşrih etsin.

* Bakı qalabəyisi [Lütfəli bəy] Əmircanovun binagüzarlığı [sərəncamı] ilə Bakıda sükunət edən [yaşayan] Mixail Loginanoviç Axvelidiyani icazəsiz olaraq 20 dənə "Brauninq" tapançası gülləlri saxlamaqda müttəhim edilərək həbsə alınmışdır.

* Nijni Naqornı küçədə sükunət edən Səfiyyə Məlikməhəmməd qızı Bakı qubernatoruna bir ərizə verərək məlum etmişdir ki, neçə vaxt bundan əvvəl Novxanı kəndi sakini Hacı Qardaşbala Dadaşbala oğlu onun bacısını nikah etmək istəmişdir və razılıq aldıqdan sonra evlənmişdir. Bir qədər sonra həman Hacı Qardaşbala Səfiyyə xanımı öz yanına çağırıb və təklif etmişdir ki, o öz ərini zəhərləyib öldürsün və sonra ona, Hacı Qardaşbalaya ərə getsin. Əkssurətdə onu öldürəcəyini bildirmişdir. Buna görə də Səfiyyə pristava ərizə vermişsə də bu vaxta qədər heç bir

cavab almamışdır. Bunu məlum edərək Səfiyyə qubernatordan rica edir ki, Hacı Qardaşbaladan bir daha təhdid etməyəcəyi haqqında imza alsın.

**Əslihə tutulması**

Təhərri [axtarış] polisə naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə bugünlərdə Sənaye Məktəbində təftiş icra edilib, 5 ədəd vinçester və 16 ədəd rus tüfəngi və pulemyot ləvazimatı tapılmışdır. Həmin əslihə [silahlar] zəbt edilərək bəratülqövl [protokol] ilə bərabər Bakı qalabəyisinə [komendantına] göndərilmişdir.

## ƏRƏBLİNSKİNİN MƏRASİMİ-DƏFNİ

Srağagün böyük izdihamla, xainanə bir surətdə qətl edilmiş olan türk səhnəsi xadimi məşhur artist Hüseyn Ərəblinskinin mərasimi-dəfni icra edildi.

Səhər saat 11 radələrində camaat mərhumun evinə gəlməyə başlamış və bir qədərdən sonra ətraf küçələr camaatla dolmuşdu.

Cənazə qaldırılmadan əvvəl mərhumun bacısı müxtəsər bir nitq irad edərək [söyləyərək] camaata xitabən mərhumun heç bir kəsi olmadığını və məzlumanə bir surətdə qətl edildiyini bəyanla, Azərbaycan Hökumətindən onun qatillərinin ağır cəzaya düçar edilməsini tələb etdi. Sonra cənazə oradan qaldırılıb Təzəpir məscidinə aparıldı. Burada namaz qılındığından sonra Məhəmməd Əmin Rəsulzadə cənabları müfəssəl bir nitq irad edərək vətən və millət uğrunda göstərmiş olduğu fəaliyyəti və türk səhnəsinin Ərəblinski kimi müqtədir və məharətli bir ustadını qeyb etdiyinə son dərəcə təəssüf edərək artist yoldaşlarına və ziyalılara sərsəlaməti izhar etdi [başsağlığı verdi]. Məclisi-Məbusan Sosialist İttifaqı namından Qaraşarov millətinin cəhalətini səhnələrdə camaata göstərən Ərəblinskinin həman cəhalət tərəfindən qətl edildiyinə bəyani-təəssüf etdi [təəssüfünü bildirdi].

Buradan cənazə böyük bir izdiham ilə, musiqi xor dəstəsi ilə Qubernski küçəyə aparılıb, Hacıbəyov Qardaşları Müdiriyyəti idarəsinin qarşısında saxlandı. Müdiriyyət tərəfindən Üzeyir bəy Hacıbəyli Ərəblinski kimi mahir bir artist və rejissora fələk rejissoru böyük bir rol verdiyini və Ərəblinskinin həman rolu canını fəda edər dərəcəsinə qədər səy və mətanətlə ifa etdiyini bəyanla izhari-sərsəlaməti etdi. Müsəlman artistləri namından Məhəmmədəli Sidqi cənabları Ərəblinskinin böylə tez bir zamanda fəcianə bir surətdə qətl edildiyini bəyanla təəssüf və sərsəlaməti izhar etdi. Müsəlman mütəəllimləri [tələbələri] namından [Cəfər] Cabbarzadə və Hacıbəyov artistləri namından Kazım Kazımov sərsəlaməti bəyan etdi.

Sonra cənazə buradan qaldırılıb Qubernski, Vorontsovski və Nikolayevski küçələrlə qəbiristanlığa tərəf aparıldı. Tabut və mafə güllər ilə və böyük əklillər ilə bəzənmiş, mərhumun şəkli artist yoldaşları və xanım əfəndilər əlləri üzərində aparılırdı. Musiqi və artistlərdən ibarət xor dəstəsi yol uzunu tabutun qabağında nəğmələr oxuyurdular.





Cənazəni Bakı qazısı Axund Əbdürrəhim Hadizadə, Bakı qubernatoru Rəşid bəy Axundzadə, Bakı qalabəyisi [Lütfəli bəy] Əmircanov başda olmaq üzrə bir çox polis məmurları, Məclisi-Məbusan üzvləri, bütün məktəblərin müsəlman şagirdləri, bütün mədəni, maarif və xeyriyyə cəmiyyətlərin[in], siyasi firqələrin nümayəndələri müşayiət edirlərdi.

Müqəddəs Nina məktəbinin qabağına çatdıqda cənazə saxlanıb məzkur [adı çəkilən] məktəbin elmi-ilahi müəllimi Rza Zaki əfəndi bir nitq söyləyərək Ərəblinskinin fəaliyyəti və onun türk səhnəsinə göstərmiş olduğu xidmətləri tedad ilə [sadalayaraq], bəyani-təəssüf və sərsəlaməti izhar etdi. Müsəlman Ziyalıları İttifaqı tərəfindən Xəlil İbrahim Ərəblinskinin 17 illik fəaliyyətindən məlumat verərək vaxtsız şəhid düşdüyünə son dərəcə təəssüfünü izhar və sərsəlaməti bəyan etdi. Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk, Xəzər dənizinin şərq sahili] müsəlmanları tərəfindən məşhur şair Salman Əsgər oğlu "Mümtaz" cənabları gözəl və şairanə bir nitq irad edərək Ərəblinskinin az vaxtda çox iş gördüklərini və onun məharətini, oynadığı rollarını bura müsəlmanları kimi Mavərayi-Bəhri-Xəzər və Türküstan müsəlmanları dəxi görüb alqışlamışlar və indi isə onların dəxi ağladıqlarını bəyanla izhari-təəssüf etdi. Müsəlman tələbələri və İctimaiyyuni-inqilabiyyun firqəsi [Sosialist İnqilabçılar partiyası] tərəfindən [Hənəfi] Zeynallı, Qafqaz Müsəlman Mütəəllimləri İttifaqı tərəfindən Əbdülvahab Məhəmmədzadə, Erməni Artistləri İttifaqı namından artist Kostanyan erməni dilində gözəl bir nitq irad ilə izhari-sərsəlaməti və bəyani-təəssüf etdilər.

Nitqlərdən sonra cənazə qaldırılıb əl üzərində qəbiristana qədər aparıldı. Meyit qəbirə qoyulmadan əvvəl qoca artist Mirzə Muxtar Məhəmmədov son dərəcə məhzunanə və ah-zar etdiyi halda Ərəblinski ilə əlvida edərək: "Get, mən dəxi dalınca gəlirəm!" dedi. Bundan sonra meyit torpağa tapşırıldı.

Həman gün axşam Azərbaycan Hökumət Teatrosunda "Şah İsmayıl" operası mövqeyi-tamaşaya qoyulduğu zaman pərdə qalxmadan əvvəl musiqi kərratla [dəfələrlə] təziyə marşı çalıb suflyor müavini Kazımov, mühərrirlərimizdən Piri Mürsəlzadə və Tiflis müsəlman artistləri tərəfindən İbrahim əfəndi birər nitq irad edərək mərhumun fəaliyyət və xidmətindən məlumat verərək izhari-sərsəlaməti etdi və mərhumun istirahəti-ruhu üçün camaat bir neçə kərə ayağa qalxdı.

## AZƏRBAYCANDA

**Lənkərandan**

*(Xüsusi müxbirimizdən)*

Lənkəranda özlərini bolşevikin hökuməti adı ilə adlandıran, bolşeviklik qayəsini sürməyib, bəlkə bolşevik pərdəsi altında işləyən qara fikirli bir "dəstə" millətpərəstlərdir. Bu "dəstə" əvvəlcə bolşevizm, sonraları menşevizm, indi isə bütün-bütünə başqa bir məsləki yürüdən erməni daşnakları və qara Rusiyanın qaçaq "ağ generalları" və "ayrılmaz Rusiyanı" [vahid Rusiyanı] təcdid

[bərpa] etmək fikrini sürən müstəbid zalımlardır. Bu cəlladlar dörd gözlə əksinqilabçı Denikini gözləyib dururlar. Bunların əhali arasında yürütdüyü siyasət müsəlmanları parça-parça edib, biri-biri ilə döyüşdürmək və müsəlman qanının axmasına səbəb müsəlmanların özləri səbəb olmaqdan ibarətdir. Təəssüflər olsun ki, müsəlmanlar cahil olduqlarından böylə aşkar bir siyasəti göz önünə almayaraq həqiqətdə biri-biri ilə boğuşmağa başlamışlar. Deməl cəlladlar, müstəbidlər öz fikirlərinə nail olmuşlar. Bu axır günlərdə Lənkəran uyezd komissarı Şefkunov və Lənkəran hökuməti tərəfinə keçən [Qaçaq] Yunis adlı bir quldurbaşı öz atlıları ilə dağlara gedib bir çox müsəlmanları tərk-silah etdikdə zalimanə bir müamilədə [rəftarda] bulunmuşlar. Hətta Amunədigə kəndini də yaxmışlar.

Lənkəran hökumətini tanımaq istəməyən dağlı müsəlmanlar qəhrəmananə bir müqabilədə durub, başçıları Şahverən Əsgər oğlunu gözləmişlər. Axırda məzkur [adı çəkilən şəxs] öz atlıları ilə gəlib düşmənlə atışmağa başlamışdır və nəticədə düşmən 15 nəfər ölən və 30 nəfər yaralı buraxaraq qaçmışdır. Fəqət aldanmayalım. Bir ufaq müzəffəriyyət gözlərimizi pərdələməsin.

Şefkunov yeni qüvvə ilə və toplarla müsəlləh [silahlanmış] bir surətdə təzə hücuma başlamaq niyyətindədir. Söz yoxdur ki, bu hücumda bir çox qanlar töküləcək, fəqət kimin qanı töküləcək? Əlbəttə, müsəlmanın!

Üzümü hökumətə çevirib bütün Lənkəran əhalisi tərəfindən deyirəm: Ey hökumət adamları! Allah eşqinə, böylə bir qanın tökülməsinə var qüvvə ilə mane olunuz. Bəsdir bu qədər zalımlara qatlaşmaq! Daha səbrimiz tükənmişdir. Azərbaycana qoşulmaq istəyən qardaşlarınızı unutmayın. Unutmayıb da ciddi tədbirlər ittixaz edin [tədbirlər görün].

*T[eymur bəy] Bayraməlibəyov*

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm!

Rica olunur, möhtərəm qəzetənizdə bu təşəkküratımızın dərcinə müsaidə buyurasınız. Bülbülə əhli Mahmud bəy Ağabala bəy oğlu Qulubəyov Bülbülə kəndində Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın şöbəsinə 100 manat ianə etdilər. Böylə fəal və ehsan sahiblərinin çoxalmasın[ı] Allah-taaladan istirham ediriz.

*1 mart 1919*
*Sədr: İzzətulla Şərifzadə*
*Katib: Ş[eys] Bakıxanzadə*

**Satılır**

Abstanovka [avadanlıq], yatacaq (spalni), stalovı, kabinə [kabinet], qaliçələr [xalçalar], palazlar, yumuşaq mebel və şəkillər.

Ünvan: Tarqovı küçə, nömrə 29, Musa Nağıyevin evində, əvvəlinci podyezd [giriş], 2-ci mərtəbədə. Baxmaq olar saat 11-dən 2-yədək; 4-dən 6-yadək.

*5737*





**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qəqbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Elan**

Gimnaziya müəllimi dərs verməyə pansiyona şagird qəbul edir. Adres: Suraxanski 113. Rzabəyov.

*5736*

**Doktor**
**Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər

saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
“Fani və kompaniya”, Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5792*

**Bakı Şəhər İstiqraz Cəmiyyəti**

Cəmiyyətin nizamnaməsinin 65-inci maddəsinə görə, bununla elan edir ki, cəmiyyətə üç illik nümayəndə intixab edilməkdən [seçilməkdən] ötrü cəmiyyətin müstəqrizləri [borcluları] iclasa dəvət olunur. 1-ci razryad [dərəcə] 11 aprel; 2-ci 12 aprel; 3-cü 13 aprel. Həmin 1919-cu ildə, saat 5-də cəmiyyətin idarəsinin binasında - Vorontsovski küçə, Eyvazovun evində, nömrə 18.

Qeyd: Cəmiyyətin nizamnaməsinin 68-inci maddəsinə görə iclasa gələnlərin miqdarına baxmayaraq, qanuni hesab olunur.

*T-50*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, martın 13-ündə saat 12-də “Xozyaystvennı rasparyaditelni” [Təsərrüfat-İdarəetmə] şöbəsinin dəftərxanasında şəhər evlərinin – hansı ki, biri Balaxanski və Budaqovski küçələrin küncündə nömrə 110 və ikincisi Balaxanski şosedə nömrə 169 – icarəyə (arendaya) vermək barəsində torq [hərrac] təyin olunur.

Bəyannaməni yuxarıda zikr olunan şöbənin dəftərxanasında oxumaq olar.

*T-53*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Bakı “Obşestvennı Sobraniyasının”**
**[Bakı İctimai Yığıncağının]**
**Şurası**

Öz üzvlərinə məlum edir ki, kantor tərəfindən “starşina” intixab edilmək [seçilmək] üçün blanklar, üzvlərin siyahısı və 1918, 1919, 1920-ci illər üçün rəis (starşina) intixab etmək [üçün] paketlər hazır edilibdir. Həmin blanklar Sobraniyanın xidmətçiləri ilə üzvlərin evlərinə göndərilir. Üzvlərin hər birisinə həmin blanklardan çatmayıb, Sobraniyanın kantorunda ala bilərlər. Paketlərin və intixab siyahılarının alınmağının axrıncı vaxtı martın 15-inə qədərdir.

*T-60*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Dağıstana kömək**

səh. 125. “Bu üzdən biz...”: bu cümlə problemlidir; güman ki, bəzi sözlər düşmüşdür.

**Teleqraf xəbərləri**

səh. 125. “Qvozdenoviç”: bu soyadı qəzetdə təhrif edilmişdir.

səh. 126. “kral Nikola”: söhbət 1910-1918-ci illərdə Qaradağ (Monteneqro) kralı olan I Nikola Petroviçdən gedir.

**Dağıstan əhvalı**

səh. 127. “...özünü müvafiqətsiz bir surətdə aparmışdır.”: qəzetdə “müvafiqətsiz” yerinə “müvəffəqiyyətsiz” getmişdir.

**İran işləri**

səh. 128. “Məclisi-Əyan”: İngiltərə Parlamentinin yuxarı palatası olan Lordlar Palatası nəzərdə tutulur.

“cənubi İran karabiner qəbiləsindən”: Karabinerlər “karabin” adı verilən qısalüləli tüfənglə silahlanmış qoşun növü idi. Burada söhbət cənubi İrandakı karabinerlərdən gedir, fəqət xəbər mənbə dildən tərcümə edilərkən “karabiner” qəbilə adı kimi başa düşülmüşdür.

“Xain qəbilələrin hərəkatından dolayı...”: bu cümlə də xəbər mətninin mənbə dildən tərcüməsində səhv anlaşılmışdır. Belə başa düşülməlidir: “İran karabinerlərinin sədaqəti şübhə doğururdu.”

**Yüz dost azdır, bir düşmən çoxdur**

səh. 130. “Ədu kəsib qapını, biz evdə bixəbəriz...”: misralar “Turani” təxəllüsü ilə şeir yazan Əli bəy Hüseynzadəyə məxsusdur.

səh. 132. “Sülh Konfransına göndərdiyimiz möhtərəm Əhməd bəyi...”: Əhməd bəy Ağaoğlu nəzərdə tutulur.

"Peterburq fəqərəsi [hadisəsi] yenə təkrar olar...": Əhməd bəy Ağaoğlunun, 1905-ci il hadisələri haqqında həqiqətləri qələmə aldığı və "Sankt-Peterburqskiye vedomosti" qəzetində çap edilən məqaləsi nəzərdə tutulur. "Правда о бакинских событиях" [Bakı hadisələri haqqında həqiqət] adlı bu məqalə, 1905-ci il hadisələri ilə bağlı rus ictimaiyyətini yanıldan erməni yalanlarını ifşa etməsi baxımından əhəmiyyət daşıyırdı.

**Bakı xəbərləri**

səh. 135. "...böylə füqəranın təkfini üçün...": qəzetdə "təkfini" yerinə "təklifi" getmişdir.

"Brauninq": odlu silah ixtiraçı-konstruktoru Con Brauninq tərəfindən ixtira edilmiş tapança.

"Nijni Naqornı": Bakıda, indiki Zülfü Adıgözəlov küçəsi.

**Ərəblinskinin mərasimi-dəfni**

səh. 136. "Qubernski": Bakıda, indiki Nizami küçəsi.

"Vorontsovski": Bakıda, indiki İslam Səfərli küçəsi.

"Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət prospekti.





**Bazar ertəsi, 10 mart 1919-cu il, nömrə 133**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 7 cəmadiyəlaxir sənə 1337. 10 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## DÜZ YOL

Neçə gün əvvəl qəzetəmizdə şayiat cümləsindən [şayiə qəbilindən] olaraq bir xəbər dərc edilmişdi ki, bizim türk sosialistlərimiz öz taktikalarını dəyişib xarici sosialistlər əsasını qəbul etmək fikrindədirlər.

Baisi-məlalımız olan [bizi kədərləndirən] bu xəbər, Parlaman Sosialistlər İttifaqı sədri cənabları tərəfindən təkzib edilməklə, məlalımız rəf edilib [aradan götürülüb], əvəzində xoşhal olduq və bu əsilsiz xəbərin qəzetəmizdə nəşr edilməsindən dolayı izhari-təəssüf etməklə bərabər bəyani-etizarda bulunmağı [üzr istəməyi] dəxi lazım gördük.

Fəqət sosialistlərimizin rus dilində nəşr edilən "Zarya" qəzetəsi bəyani-etizarımıza iltifat etməyib, bizə istehza təriqi ilə [istehzalı bir şəkildə] kinayələr etməyi rəva görür və bu məsələ dolayısı ilə yazılmış baş məqaləsindən əzcümlə böylə anlaşılır ki, guya türk "Azərbaycan" qəzetəsi dəxi "Müsavat" partiyasına mənsub firqəvi bir qəzetə imiş.

Bu axırkı fəqərə [məsələ] barəsində bunu bəyan etməyi lazım bilirik ki, qəzetəmiz partiya qəzetəsi deyildir. Vətən istiqlalı yolunda çalışmaqdan ibarət olan məsləki, xüsusi firqəvi proqram daxilində məhdud deyildir.

Bu məslək genişliyi, hər bir partiyanın Azərbaycan istiqlalına kömək yolu ilə denilən sözlərini və görülən işlərini qəzetəmiz sütununda təmcid [tərifləyib] və təqdir edib, xalq arasında nəşr və təmiminə [yayılmasına] böyük yol verir.

Qəzetəmizin yazılarına göz yetirməkdə olanlar şübhəsiz bunu bilirlər. Ancaq burasını heç də gizlətmirik ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kamalınca [mükəmməl surətdə] – biduni-haşiyə [haşiyə çıxmadan, kənar şərhə yol vermədən] – arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək tərəddüdündən azad olub da rast [doğru, düz] bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdiyimizdən, bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib, onun fikir və arzularına qəzetəmizdə kamali-məmnuniyyətlə yer verməyi özümüzə borc bilirik.

Keçək əsl mətləbə:

"Zarya" qəzetəsi burasını bilməlidir ki, fövqəlzikr [yuxarıda deyilən] xəbəri biz durduğumuz yerdə, öz-özümüzdən ixtira

etməmişdik və qəsdimiz də böylə bir əsilsiz xəbər buraxmaqla meydana "sensatsiya" salmaq deyildi. Müxbirimiz bu xəbəri bir yerdən eşitmişdi və xəbər sosialistlərimiz partiyasının taktikası gedişinin bizcə baisi-əndişə [narahatlığa səbəb] olan başqa bir yola çönməsi kimi calibi-etina bir fəqərə [diqqətəlayiq bir hadisə] olduğundan, çap etməyi lazım bildik ki, bunun doğru olub-olmadığını sosialistlərimizin öz ağzından eşidək.

Bu təşəbbüsümüzdə müvəffəqiyyət hasil oldu. Sosialistlərimiz dilləndilər və dillənib də xəbərin yalan olduğunu sözlə bəyan edib, bizi xoşhal etdilər.

Fəqət... bir var ki, "söz" ola, bir də var ki, "iş" ola.

İştə bu "iş", yəni sosialistlərimizin bu axırkı günlərdə müşahidə etməkdə olduğumuz bir para rəftarı həman xəbərin, təkzibə rəğmən, tamamilə yalan olmadığını isbat etməkdədir. O rəftarın təfsilatından dəlil olmaq üzrə bəhs açmağı hələlik yersiz hesab edib, ümumi olaraq bu rəftara işarə edirik ki, xarici sosialistlərin Azərbaycan istiqlalı əsasına meyl edəcəyini arzu edib gözlədiyimiz bir halda, biləks [əksinə] bizim sosialistlərimizin o tərəfin ümum Azərbaycan istiqlalı tərəfdarlarınca qeyri-qabili-qəbul [qəbuledilməz] ədd [hesab] edilən əsasları tərəfinə mail olduqlarını müşahidə edirik və bu da o zamanda ki, bu xaricilər, Könüllü ordusunun ölkəmizdən getməsinə və öz əllərində saxlamaqda olduqları flotun [donanmanın] tərk-silah edilməsinə qarşı Azərbaycan istiqlalına və məmləkətimizin asayişinə heç də müvafiq olmayan bir nəzər ibraz edib [bir mövqe nümayiş etdirib], təkrar bizi inandırdılar ki, bunlardan vətənimiz xeyrinə bir mənfəət gözləmək, öküzdən süd ummaq kimi boş bir arzudur.

Bu səbəbdən o sosialistlərin bizə yaxınlaşması gözlənildiyi halda, bizim sosialistlərimizin onlara tərəf meyl etməsi fəqərəsini "Vperyod" kimi qəzetələr təbrik edib kamali-xoşnudi [böyük məmnuniyyət] ilə alqışlarsa, bizim qəzetəmiz bu xüsusda ancaq təəssüflər izhar edə bilər.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 15-inci iclas

Altı martda Məclisi-Məbusanın növbəti iclası vaqe olmuşdur.

**Sədr** - İclası açaraq ibtida [əvvəla] sabiq Seym üzvü və Milli Şura müavini-sədri Mirhidayət Səidov ilə general-mayor Süleyman Əfəndizadənin vəfat etmiş olduqlarını xəbər verərək, mərhumların ailələrinə təziyət teleqrafı çəkməyi və tərhimi-ruhu [ruhuna rəhmət oxumaq] üçün Parlamanın ayağa qalxmasını təklif edir. *(Hamı qalxır)* Və teleqraf çəkməyə Heyəti-rüəsanı [Rəyasət heyətini] vəkil edirlər.

Bədəhu [sonra] Hacı Kərim Sanıyevin doğru intixab edilməməsi [seçilməməsi] haqqında şikayət varid [daxil] olduğu bildiriləsrək Mandat komissiyasına verilir.

Sonra Yusif Əhmədzadəyə 3 həftə məzuniyyət verilməsi haqqındakı ərizəsi qəbul olunur.

Üçüncü növbədə mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] haqqında Daxiliyyə Nəzarəti tərəfindən təqdim edilmiş layihə bilamüzakirəLəvaehi-qanuniyyə, [Qanun layihələri], Etibarnamə komisyonuna verilir.

Növbədə "İttihad" fraksiyasının təklifidir. Bu fraksiya öz daxilindən Məclisi-Məbusana bir müavini-sədr seçilməsini istəyir. Bir qədər danışıqdan sonra bu məsələ gələn iclasa buraxılır.

Növbədəki məsələ Azərbaycan Məclisi-Məbusanının nizamnaməsi müzakirəsidir. Nizamnamənin fəsli oxunaraq yerdə qalanı gələcək iclasa buraxılır.

Bundan sonra patentlərin artırılması və ispirt və tənbəki aksizlərinin təzayüdü [artırılması] haqqındakı qanun layihələrinə baxılaraq bir qədər mübahisə nəticəsində əksəriyyəti-ara ilə [səs çoxluğu ilə] hər iki layiheyi-qanuniyyə qəbul olunur.

**Dağıstan haqqında**

Nəhayət Rəisi-vükəla [Baş nazir] Xan Xoyski həzrətləri növbədən xaric söz alaraq Denikinin hücumu münasibətilə Dağıstanın vəziyyəti və Azərbaycanın rəftarı haqqında məlumat verərək bəyan edir ki:

Bu münasibətlə Dağıstan Hökuməti-Cümhuriyyəsinin Azərbaycandakı siyasi nümayəndəsi martın 5-ində bizə böylə bir məktub yazdı:

*"Nazir həzrətləri!*

*Şimali Qafqaziya və Dağıstan millətləri Rusiya inqilabının yaxşı vaxtlarında azad və asudə olaraq öz xahişləri ilə bir siyasi ittifaq əmələ gətirərək istiqlaliyyət elan və Hökumət, həm Parlaman təşkil etmişdirlər.*

*General Tomson 27 noyabr 1918-də Cümhuriyyət Hökuməti namına [adına] bir məktub yazaraq Dağıstan istiqlal və hökumətinin Müttəfiqlər tərəfindən Sülh Konfransının qərarınadək qəbul edildiyini bildirmişdi. Buna baxmayaraq Könüllü ordu, dağıstanlıların Müttəfiqlər komandanlığına etimadından bilistifadə [istifadə edərək], bolşevizmlə mübarizə bəhanəsi ilə əhdşikənanə [xaincə] bir surətdə cümhuriyyət daxilinə soxulmuşdur. Şimali Qafqaziya millətləri Könüllü ordunun təcavüzkaranə məqsədlərini gördükdə, öz qəzəbini saxlaya bilməyərək Hökumətin xahişinə rəğmən əldə silah olaraq Könüllü ordu müqabilinə çıxmışdır.*

*General Lyaxovun Tersk-Dağıstan nahiyələri baş naçalniki təyin edilməsi, Cümhuriyyət hökumətinə ümuri-idarədən [idarə işlərindən] vaz keçib Dağıstan qoşunlarını buraxması təklif edilməsi, Dağıstanlılar İttifaqını mili parçalara ayırmaq layihəsi, Könüllü ordunun təkmili [təkmilləşdirilməsi] üçün dağıstanlılardan güclə əsgər aparılması, camaatın qaramal və məkulatının [ərzağının] güclə əlindən alınması (həczi) [müsadirəsi], bunların həpsi Könüllü ordu tərəfindən camaatın hüququna təcavüz və onların həyatını və Şimali Qafqaziya millətlərinin tərəqqi və təalisi [ucalması] üçün lazım olan şəraiti təhdiddən ibarət hərəkətlərdir.*

*Hökumətin xüsusi tapşırmasına görə, cənab nazir, bununla Könüllü ordunun hərəkatı müqabilinə qəti və ciddi surətdə protesto edirəm.*

*General Denikin ordusunun Dağıs-*

*tanda qalması nəticəsi olaraq camaatın fəlakəti və qan axıdılması müqabilinə kəndi tərəfinizdən lazımi tədbirlər görmək üçün bu xüsusu nəzəri-etinanıza ərz ilə [diqqətinizə təqdim etməklə], bunu da əlavə edirəm ki, əgər Könüllü ordu ilə münasibətimiz bir nizama salınmasa, Hökumətim Cümhuriyyətinin səlaməti və Şimali Qafqaziya, həm Dağıstan millətlərinin mövcudiyyəti-cismaniyyəsini [fiziki mövcudluğunu] müdafiə uğrunda müsəlləh [silahlı] müqavimətindən belə geri durmayacaqdır.*

*Ehtiram və übudiyyətimin [itaətimin] qəbulunu rica edirəm.*

*Azərbaycan Hökuməti nəzdində*
*Qafqaziya Cibaliyyun [Dağlılar]*
*İttifaqı Hökuməti-Cümhuriyyəsi*
*nümayəndəsi"*

Bu məktubu aldıqdan sonra Xan Xoyski həzrətləri general Denikin barəsində Müttəfiqlər komandanı general Tomsona böylə bir nota göndərmişdir:

*"Bakıda olan Müttəfiqlər qüvvəsi komandanı general Tomson cənablarına.*

*Azərbaycan Hökuməti keçən gün martın 5-ində Dağıstan Hökumətindən surəti təqdim olunan bir məlumat almışdır. Bu məlumatdan görünür ki, Könüllü ordu Dağıstan Cümhuriyyəti daxilinə soxulub Hökumətə iş başından çəkilmək və bütün ordunu buraxmaq təklifində bulunmuşdur. Bununla bərabər, eyni zamanda Könüllü ordu nümayəndələri Könüllü ordudan ötrü Dağıstan əhalisindən ibarət əsgəri dəstələr təşkilinə və əhalinin qaramalını və ərzaq şeylərini həcz [müsadirə] etməyə başlamışlar. Könüllü ordu ali nümayəndələrinin general Denikin ilə bərabər dəfələrlə verdikləri elanlara istinadən Qafqaziya əhalisi zənn edə bilər ki, Könüllü ordunun məqsədi Rusiyada olan bolşevizm və hərc-mərcliklə mübarizədən ibarət olub, azadlıq arzusunda olan və istiqlaliyyətləri Yevropa və Amerika hökumətləri tərəfindən etiraf edilən [tanınan] millətlərə təcavüz etmək deyildir. Bu nöqteyi-nəzərlə Azərbaycana dost olan Dağıstan əhalisinin müstəqil hüquqlarına təcavüz etmək işləri Azərbaycan Hökuməti tərəfindən protestosuz qala bilməz. Bununla bərabər, Azərbaycan Hökuməti bu zənndədir ki, hazırda Şimali Qafqaziya və Dağıstan əhalisi qarşısında durmuş Rusiya inqilabi-əziminin fütuhatını [Böyük Rusiya inqilabının nailiyyətlərini] təhdid edən təhlükə bu yaxın gələcəkdə Qafqaziyanı bir hərc-mərclik və qan dəryasına döndərər ki, bunun da nişanələri Qara dəniz sahilində Soçi nahiyəsində görünmüşdür.*

*Bu şərait üzrə Azərbaycan Hökuməti öz qövmü olan Dağıstan əhalisinin öz həyatını və müqəddəs istiqlaliyyətini müdafiə etmək işində hücum edən irticai qüvvələr əleyhinə qeyri-müsavi mübarizəsində sakit durammaz. Buna görə, Azərbaycan Hökuməti hər bir qüvvəsi ilə bu ağır dəqiqədə Dağıstan əhalisinin köməyinə getməyə özünü borclu bilir.*

*Azərbaycan daxilində Müttəfiq dövlətlər baş nümayəndəsi olmağınız sifəti ilə bu barədə siz alicənaba xəbər verib bütün Qafqaziyanı tuta biləcək yanğını və qan tökülməsini bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü insaniyyət naminə tə'kidanə sizdən xahiş edirəm ki, general Denikinin Könüllü ordusu tərəfindən Dağıstan Cümhuriyyətinə edilən hərəkatı dayandırmaq və onların Dağıstan Cümhuriyyətindən tezliklə kənar edilmələri üçün ən qəti tədbirlər görəsiniz.*

*Sizdən xahiş edirəm ki, öz binagüzarlıqlarınız [addımlarınız] barəsində məni də xəbərdar edəsiniz.*

*Kamali-ehtiramla*
*Rəisi-vükəla və Xariciyyə naziri*
*Fətəli xan Xoyski"*

*(mabədi var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

* Forest - 4 mart. Ukraynalılar ilə polyaklar arasında hərəkati-hərbiyyə başlanmışdır. Müttəfiqlər heyəti Lvovdan çıxırlar.

* Üç gün sakitlikdən sonra polyak-alman cəbhəsində hərəkati-hərbiyyə başlanmışdır.

* İngilis mətbuatının yazdığına görə, Almaniya Hökuməti Almaniyanın mərkəzi və cənubi cəhətlərində əmələ [fəhlə] hərəkatını iskat etməkdən [sakitləşdirməkdən] acizdir.

**Vilson və Cəmiyyəti-Əqvam**

Amerika Rəisi-cümhuru Vilson Avropaya qayıdarkən Nyu-Yorkda bir nitq iradı ilə [nitq söyləməklə] ümum Amerika əhalisini Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] müavinət [yardım] etməyə dəvət eyləmiş və demişdir ki, Amerika əhalisinin əksəri Cəmiyyəti-Əqvama tərəfdardır.

Gizli diplomatiya başlıca onun ümumiləşməsindən ehtiyat edir. Hərgah, Cəmiyyəti-Əqvam təşkilatı olsaydı, çoxdan bəri gizli diplomatiya ilə hesablaşardı. Hərgah, Cəmiyyəti-Əqvam Serbiya məsələsini bütün cahan müzakirəsinə bir həftə əvvəl verə bilsəydi, Almaniya heç bir zaman müharibəni başlamazdı. Müharibə başlatmaq ərəfəsində ingilis Xariciyyə Nəzarəti təklif eyləmişdi ki, bu məsələ bir-iki gün təxirə salınsın, tainki Avropa nümayəndələri bir-birləri ilə görüşüb bu məsələni həll etsinlər. Fəqət Almaniya müzakirat üçün vaxt vermədi. Bütün aləmi-bəşəriyyət Almaniyanın millətlərin hüququnu tapdalamaq fikrini duydu. O zaman hamı millətlər Almaniyaya qarşı mübarizədən ötrü birləşdilər. Bu da bizə aşkar surətdə məlumdur ki, hərgah Almaniya İngiltərənin Rusiya və Fransa tərəfinə keçəcəyini bilsəydi, heç bir vaxt böylə bir macəraya iqdam [təşəbbüs] etməzdi. Cəmiyyəti-Əqvam qanuni millətlərin hüququnu tapdalamaq istəyənlərə qarşı ehtiyatkarlıq vəzifəsini ifa edəcək, nəinki yalnız İngiltərədə, Amerikada və sair dövlətlərdə böylə macəraculuğun [avantüranın] təkrar etməməsi işlərində iştirak edəcəkdirlər. Uğrunda bu qədər qanlar tökülüb də qazanılan şüarı [prinsipi] saxlamaq üçün Cəmiyyəti-Əqvam bir etilaf [razılaşma, uzlaşma] müəssisəsidir. Avstriya-Macarıstan və Türkiyədə azad edilən millətlər bizə müraciət edirlər. Biz də onların halının islah edilməsinə çalışmalıyız.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Sülh Konfransında olan bütün komissiyalara düsturuləməl [təlimatnamə] göndərilərək təklif edilir ki, şənbəyədək öz dakladlarını versinlər. Belçikanın hüdud komisyonu işi qurtara bilməmişdir.

* Parisdə Almaniya vəkillərini istiqbala [qarşılamağa] hazırlaşırlar. Hər halda Klemanso, Lloyd Corc, Vilson Almaniya Baş vəzirinə sülh şərtnaməsini qiraət edəcəkdirlər. Sonra Baş vəzir Veymara övdət edərək [qayıdaraq] Parlamana daklad edəcəkdir.

Tiflis - 5 mart (ingilis mətbuatı). "Tayms"ın Paris müxbiri dəniz işləri barəsində olan mütarikə şərtnaməsinin [atəşkəs sazişinin] təfsilatını xəbər verir. Belə ki, yeni mütarikə şərtnaməsi Almaniya, Avstriya, Türkiyə və Bolqariyaya şamildir. Bunların mükəmməl bir surətdə tərk-silah etdirilməsi tələb edilir. Bütün Almaniya sualtı qayıqları, sualtı təxlis [xilasetmə] gəmiləri, Kildəki sualtılara məxsus doklar qismən Müttəfiqlərə təhvil [verilməli], qismən yaramaz hala salınmalıdır. Bunlar üçün də iki həftə vaxt qoyulmuşdur. Məhv edilmiş gəmilərin materialları sülh ehtiyacatına sərf edilməlidir. Müttəfiqlərin iskələlərində [limanlarında] qalmış olan Almaniyanın gəmiləri tutulmuş hesab edilərək yaramaz hala salınacaqdır.

Ən yaxın bir zamanda nemeslər zeyldəki [aşağıdakı] gəmilərin silahlarını Müttəfiqlərə təslim etməlidirlər: "Oldenburq", "Türingen", "Ostrisland", "Helqoland", "Pozen", "Vestfalen", "Reynland", "Nassau"; yüngül kruvazerlərdən [kreyserlərdən] "Pilato", "Qraudens", "Regensburq", "Ştralzund", "Strasburq", "Soteburq", "Kolberq", "Ştutqart", 42 müxrib gəmi [destroyer], 50 torpedo lodkası [qayığı].

Bundan əlavə, yeni inşa edilən gəmilər yaramaz hala salınmalıdır. Helqolandda olan hərb[i] iskələ [liman] və tabyalar [istehkamlar, redutlar] Almaniyanın xərcinə təxrib edilməlidir. Cəzirələrin [adaların] müqəddəratı isə konfransda həll ediləcəkdir. Baltik boğazını bağlayan təhkimatın [müdafiə qurğularının] həpsi bərtərəf edilməlidir [aradan götürülməlidir]. Düşmən iskələlərində yaxud Müttəfiqlərin iskələlərində olan müavinətçi kruvazerlər ticarət gəmilərinə təbdil ediləcəkdirlər [çevriləcəklər]. Bu şərait [şərtlər] altına 31 alman, 40 Avstriya-Macarıstan gəmiləri daxildir.

Nauen, Hannover və Berlində olan simsiz teleqraf mövqiflərindən [stansiyalarından] ancaq ticarət məqsədi ilə istifadə etmək olacaqdır. Avstriyada Vyana, Budapeştədə, Poloda olan simsiz teleqraf mövqifləri hakəza [həmçinin] yuxarıdakı şərait altında olacaq və bunların ümumuna Müttəfiqlər kontrolluq edəcəkdirlər.

13 hərbi gəmi, 2 kruvazer, 10 yüngül kruvazer, 19 torpedolu lodka, 33 sualtı qayığı və 20 monitordan ibarət olan Avstriya flotu [donanması] Müttəfiqlərə təslim ediləcəkdir. Türkiyə və Bolqariyanın hərbi gəmiləri ilə də böylə rəftar ediləcəkdir. Qara dənizlə Bəhri-səfid [Ağ dəniz, Aralıq dənizi] arasında seyri-səfain işləri [gəmilərin hərəkəti] beynəlmiləl tərəfdən təmin və bütün təhkimat təxrib ediləcəkdir [bütün müdafiə qurğuları, manеələr ləğv ediləcəkdir]. Ticarət gəmilərinin qərqindən [batırılmasınan] dolayı varid olan xəsarətin [əmələ gələn ziyanın] düşmənlər tərəfindən əda edilməsi [ödənməsi] barəsində də şərtnamə vardır.





## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

* Hərbiyyə nazirinin miralay [polkovnik] [Həbib bəy] Səlimovun mirliva (general-mayor), minbaşı (podpolkovnik) [Nuh bəy] Sofiyev və Şıxlinskinin miralaylığa tərfisi barəsindəki məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Hərbiyyə nazirinin layihəsini təsvib [təsdiq] etməli.

* Hərbiyyə nazirinin hərbiyyə müəssisələrindən ötrü at alınması barəsindəki məruzəsindən [sonra] qət edilmişdir:

Hərbiyyə nazirinə əsgəri müəssisələrindən ötrü lazımi miqdarda at alınması tapşırılsın. Daxiliyyə Nəzarətinə tapşırılsın ki, at alınması, qiymət edilməsi və konvoy hesabında Hərbiyyə Nəzarətinə müavinətdə bulunsun.

* Ərazi nazirinin torpaq islahatı müdiriyyəti, Mirab [Suvarma] Müfəttişliyi təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ərazi Nəzarəti cənbində [nəzdində] işbu müəssisələri lüzumlu hesab etməli:

a) Torpaq islahatı müdiriyyəti;

b) Mirab müfəttişi müavinliyi.

Məzkur müavin, sular işləri yuristkonsuludur [hüquq məsləhətçisidir].

* Ərazi nazirinin Muğandakı su arxları təmiratından ötrü istiqraz açılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı 20 milyon fonddan Muğandakı su arxları təmiratı üçün 200 min rublə buraxılsın. İşbu məbləğ Ərazi Nəzarətinin 1919-cu sənədəki smetasından verilməlidir.

* Rəisi-vükəlanın [Baş nazirin] İrəvan Müsəlman Milli Şura sədrinin cövhər [kerosin] buraxılması haqqındakı təşəbbüsatı haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət qətnaməsindən kənar olaraq – ki cövhər Ermənistandakı siyasi nümayəndə vasitəsi ilə buraxılmalıdır – İrəvan Müsəlman Milli Şurasının sədri Ağa xan İrəvanskinin təşəbbüsatına görə nağd hesabla müsəlmanların ehtiyacından ötrü 10.000 put cövhər buraxılsın. Fəqət Gürcüstan və Ermənistan tərəfindən həcz [müsadirə] edilməyəcəyi haqqında sənəd pişnihad [təqdim] etmək şərtdir.

* Daxiliyyə nazirinin Muxax dairəsi füqəra əhalisi üçün Zaqatal qubernatorunun müavinət təşəbbüsatı haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ərzaq Nəzarətinin Zaqatal quberniyasındakı ərzaq ehtiyatından Muxax füqəra əhalisi üçün 1715 put buğda buraxılsın. İşbu buğda təqsimi [paylan-

ması] Zaqatala qubernatoru ilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəsinə mühəvvəl edilməlidir [tapşırılmalıdır].

* Daxiliyyə nazirinin Bakı şəhəri polisindən ötrü məvacib üçün para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı iyirmi milyon fonddan Daxiliyyə Nəzarətinə Bakı və Balaxanı-Sabunçu polis məxaricatı üçün 1.000.000 rublə buraxılsın. İşbu məbləğ Məclisi-Məbusanda Daxiliyyə Nəzarəti smetası təsdiq edildikdən sonra verilməlidir.

* Ümuri-Xeyriyyə və Nafiə nazirinin qaçqınlar üçün 10.000.000 para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin layihəsi təsviblə [bəyənilməklə] tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana layihə təqdim etsin.

* Post və Teleqraf nazirinin Azərbaycandan mal çıxarılmasının mən'i [qadağan edilməsi] qərardadının yenidən baxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məsələ Maliyyə və İqtisadiyyə komisyonuna verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

### Dövləti Müfəttişlikdə

Dövləti Müfəttiş [Əliağa] Həsənzadə həzrətləri Maliyyə Nəzarətinə bir böylə kağız göndərmişdir:

Bakıda sabiq Şura Hökuməti təşkilinədək Bakı Kontrol Palatası təhti-nəzarətində [tabeliyində] olan gömrük dairələrində Gömrük Vergiləri Departamenti qərardadına görə statistika tərtib edilirdi. Bu statistika malın nerədən gəlməsi, malik və başqanı [başqa məlumatları] havi olurdu [əhatə edirdi]. Sonralar böylə statistikalar Gömrük Vergiləri Departamentinə göndərilirdi. Orada isə məmləkətin mal gətirilməsini və çıxarılmasını havi [əhatə edən] məlumat tərtib verilirdi.

Bu iş şimdi, fəqət bir Bakıda qövldən feilə gətirilməkdədirsə də [icra edilməkdədirsə də], yenə bir çox məlumat buraxılır. Məsələn, malın nerədən gəlməsi və nerəyə getməsi yazılmayır. Böylə məlumatlar heç yerdə göndərilməmiş qalır.

Məmləkətin maliyyə və iqtisadiyyə cəhətlərindəki əhəmiyyəti və ticarət müqavilənamələri əqdində [bağlanmasında] lüzumiyyətindən dolayı Dövləti müfəttiş ehtimal edir ki, bütün gömrükxanalar cənbində [nəzdində] böylə məlumat cəm etmək üçün lazımi müəssisələr təsis edilsinlər.

Departament vəzifəsi Gömrük İdarəsi İşləri Departamentinə həvalə edilməlidir [tapşırılmalıdır].

Kağızın axırında müfəttiş həzrətləri Maliyyə Nəzarətinin nəzəriyyatını məlum etməyi [mövqeyini bildirməyi] rica və təmənna etmişdir.

### Maliyyə Nəzarətində

Cümə günü axşam saat 5-də Maliyyə Nəzarəti cənbindəki [nəzdindəki] məvacibləri artıracaq komisyonun müşavirəsi olacaqdır.

### Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində

* Şərur qəzasının 267 nəfərədək müsəlman qaçqınları – ki Andranik dəstələri tərəfindən öz yurdlarından çıxarılmışlar – Cavad qəzasının Ağamalılar nam [adlı] kəndində səfil bir həyat keçirməkdədirlər. Bu vaxtlarda oraya azim olmuş [getmiş] Dövləti Xeyriyyə İşlərinin Bakı müfəttişi müavini onların hallarının fənalığını təsvir edir.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] əmr vermişdir ki, təcili surətdə onlar üçün 6 put 27 girvənkə qənd, 33 ½ girvənkə çay, 500 arşın bez göndərilsin. Həman oraya gedəcək məmura tapşırılmışdır ki, orada 90 put buğda, 17 put arpa alınıb paylansın.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ərzaq Nəzarəti ilə etilafa girmişdir [razılığa gəlmişdir] ki, Qazax ərzaq anbarından nahiyə müfəttişliyinə min put buğda buraxılsın. Buğda Qazaxda fərarilər miyanında təqsim ediləcəkdir [qaçqınlar arasında bölüşdürüləcəkdir].

### Məsai Nəzarətində

* Məsai Nəzarəti [Əmək Nazirliyi] öz məmuru Rəhim Hüseynzadə tərəfindən təqdim edilmiş qaçqınlara dair məruzəni Şurayi-Vükəlaya irsalən [Nazirlər Kabinetinə göndərərək] rica etmişdir ki, Gədəbəy civarında təcəmmö etmiş [toplaşmış] qaçqınlara təcili surətdə müavinət [köməklik] edilsin və hakəza Müttəfiq komandanlığın nəzərlərini erməni vəhşiliklərinə cəm etməklə bərabər lazımi qədər qoşun qitəatı [hissələri] göndərmək üçün iqdamatda [təşəbbüsdə] bulunsun.

* Məsai Nəzarəti Gədəbəy fəhlələri haqqındakı qərardadları Kəsbkarlar [Həmkarlar] İttifaqı ilə Gədəbəy zavodunun fəhlə komitələrinə göndərib qövldən feilə [sözdən işə] gətirilməsi barəsində tədabir ittixaz etmişdir [tədbirlər görmüşdür].

## İNQİLAB DÖVRÜNDƏ İDİLBOYU [VOLQABOYU] TÜRK-TATARLARI

Mərkəzi Rusiya bolşeviklər istibdadı altında qalmağı kimi, Sibir və Ural boyları sağ istibdadçılar əlinə keçdi. Bu iki türlü istibdad içində qalan Orta Rusiya, həm Sibir türk-tatarlarının siyasi vəziyyətləri nə halda olduğunu bəyan etmək azərbaycanlı qardaşlarımız üçün əhəmiyyəti haiz [əhəmiyyət daşıyır] zənn edirəm. Buna binaən [buna görə] bir neçə məqalə ilə oranın həyatını təsvir etmək istəyirəm.

Orta Rusiya türk-tatarları ismi ilə Kazan şivəsində söyləyən türkləri adlandırırlar. Başqırdlar bəzi bir iqtisadi məsələlərdə və milli adətlərində Kazan müsəlmanlarından ayrılsalar da ümumən dil birlik səbəbli bu ayırma etibara alınmış idi. Lakin onların özlərinə məxsus hökumətləri olduğuna görə, onlar haqqında hələ sükut edib, sonra xüsusi məqalə dərc edərik.

Rusiyanın əski hökuməti vaxtında bir neçə əsrlər boyunca milləti-məhkumə olub yaşayan, məzkur [deyilən] hökumətin ən qəhərli zülmləri[ni] görmüş

hüquqsuz tatar milləti üçün Fevral inqilabının nə tövr böyük bir səadət olduğu hər kəsin məlumudur. Çünki bu inqilab üç yüz ildən artıq vaxt əsir olan bir millətin milli müqəddəratını özü həll qılmağa imkan verən böyük bir inqilab idi. Ona görə də bu millət inqilabdan fayda almağa borclu idi. Hürriyyətdən nə tövr fayda çıxarmaq mümkün isə, əvvəl ona haqlı idi. Lakin 25 aylıq inqilab tarixində biz türk-tatar milləti bu inqilabdan lazımınca bir müvəffəqiyyət ala bilmədik. Bu bəxtsizlik bizim istedadsız millət olduğumuzdan deyildir. Bəlkə əski hökumətin bizi daim nadanlıq zəncirində saxladığından çıxan nəticəsidir. Zatən inqilabdan bu günə qədər rusların özlərinin də bir nömrə çıxardıqları yox. Amma biz türk-tatar balaları özümüzün əslən türk-tatar olduğumuzu isbat etməyə borclu idik.

Bundan barı bir il yarım müqəddəm [əvvəl] Kazan soqaqlarında [küçələrində] müqəddəs yaşıl ələmlər [bayraqlar] "Yaşasın milli və mədəni muxtariyyət!", "Yaşasın İdil-Ural ölkəsi!" şüarları ilə hər müsəlmanın ruhunu şadlandıran, onun keçmişdəki qara günləri[ni] unutdurub gələcəkdəki işıq[lı] həyatına, milli səadətinə könlünü ümidvar edirdi. Ufa, Kazan, Orenburq kimi müsəlman mərkəzləri olan şəhərlər bütün Orta Rusiya, həm Sibir müsəlmanlarının günəşi kimi türk-tatar dünyasını münəvvər edib, özlərinə diqqəti cəlb edirdi.

17-ci ilinin mayında üç[üncü] syezdin qoşma məclisində milli və mədəni muxtariyyət elan qılındıqdan sonra Kazanın yaşıl ələmlər ilə zinətlənmiş uramlarında [küçələrində] minlərcə gözlərdən şadlıq yaşları tökülüb, minlərcə ağızlardan "Milli azadlıq, milli bütünlüyünü saxlamaq yolunda qurban olaram", deyən sədalar eşidilə idi. Türk-tatar milləti münəvvər [parlaq] ümid günəşi altında yaşayırdı. Vaxt keçdi, inqilab dalğaları dəhşətli surətdə güclənməyə başladı. Hürriyyət düşmənləri xalqın nadanlığı ilə istifadə edib bir taqım qeyri-qabili-hüsul [əldə edilməsi imkansız] və'dələr edib doğru yoldan azdırdılar. Tərbiyətsizliklər yasıyıb [edib], xalqı inqilabdan tövbə etdirmək işinə girişdilər və tezliklə səmərəsini də gördülər.

Oktyabr inqilabından bir çox vaxt keçmədi ki, iqtisadi ağırlığa, daimi iğtişaşa düşən xalqın bəzi bir təbəqələrində "Ay, əski zaman yaxşı idi" məalında [mənasında] fəryadlar eşidilməyə başladı.

Bizim türk-tatar dünyasına da hakəza [habelə] Oktyabr inqilabı fəna təsir etdi. Bir çox əməl edilmiş işlərimiz yoxa çıxdı. Milli həyatımıza zərbə oldu. Xalq arasında türlü firqə və partiyalara da səbəb olub qayeyi-əməllərimizə [məqsədlərimizə] yetişməyi uzağa saldı. Xüsusən tərbiyətsizliklərlə xalqın əhvali-ruhiyyəsinə təsir edən, sonrakı inqilab zamanında xalqın geniş təbəqələrində təcdidi-həyata [həyatın yenilənməsinə, yeniliklərə] qarşı düşmanlatmağa səbəb olub idealımız olan milli müəssisələrimizi də ağır hallar keçirməyə məcbur etdi.

Hər nə isə, bolşevizm qüvvətləndi. Bizim milli əsgərimizin dağılmağına birinci səbəb oldu və bunun nəticəsində "İdil-Ural" ölkəsi meydana çıxmayıb qaldı.

İdil-Ural ölkəsi məsələsi böylə idi: 17-ci ilin payızında Ufada yığılan milli Parlamentimizin qərarı boyunca Kazan, Ufa, Orenburq, Vyatka, Perm, Astraxan, Simbir və Saratov vilayətlərindən (məzkur vilayətlərin bəziləri qismən) ibarət İdil-Ural ölkəsi ismi ilə Rusiya Federasiyası təşkilinin bir ölkəsi olmaq üzrə elan edilmək lazım gəlirdi. Bu ölkədə müsəlmanlar 48 faiz olub, başqa qeyri-rus millətlərlə birgə ruslara qarşı əksəriyyət təşkil etdiyinə görə, ölkənin "Türk-tatarlar ölkəsi" namı ilə elan qılmasını caiz ədd edilmişdi [uyğun hesab edilmişdi].

Parlamentin bu qərarını işə tətbiq etmək və məzkur ölkəyə məxsus materiallar yığıb, layihə düzəldib, iş tamam olduqda İdil-Ural ölkəsi deyə elan qılmaq üçün bir komissiya əmələ gəldi. Bu komissiya öz işini tamam etdi.

17-ci ilin axırlarında üzərinə aldığı vəzifəni ifa üçün hazır olduğu halda, bizim tatar əsgərləri arasında da bolşevizm fikri qüvvətlənib, məzkur komissiyanın dağılmağına səbəb oldu. Halbuki bu böyük vəzifə müsəlman əsgərləri yardımı ilə vücuda çıxacaq idi. Şol günlərdə Kazanda bütün Rusiya müsəlman əsgərlərinin ikinci syezdləri vaqe oldu. Bir aydan çox davam edən yığıncaqlarında bu syezd iki güruha bölünüb, elan ediləcək ölkəni "burjuaznı" [burjuaziyaya xas] adlandırıb bolşeviklər tərəfdarının qələbəsi ilə tamam oldu. Bu vəq'ə biz türk-tatarları üçün tarixi bir xəta mənzələsində [yerində] oldu. Bunu bu gün xəta yola çönmüş əsgərlər də dəxi iqrar [təsdiq] edirlər.

İştə şol syezd vaxtları ilə bizim münəvvər ümid günümüzə qaranlıq vuruldu. Böylə ki, biz imkan və əhval müsaidə bulduğu halda öz məqsədimizi vücuda gətirə bilmədiyimizi göstərdik. Dürüst, bu xətada bolşevizmə uymuş qırx yaşlı gənclərimizi itham edirlər. Lakin şol bolşevizmə uymaqlığımız özü bizim nə dərəcədə olduğumuzu görsətdi. Biz bolşevik və ya başqa qəlibə girsəydik də öz mənfəətlərimizi unutmamalı və yaxşı "və'dələrə" aldanmamalı idik. Lakin təəssüf ki, biz bolşeviklərdən istifadə edib də onların vasitəsilə yuxarıda məzkur "ölkə"ni meydana çıxarmaq həvəsinə düşdük. Safdil gənclərin internasional bayrağı altına girmələri ilə ölkə məsələsi əsasən pozuldu. Çünki Kazanda bolşevizm qüvvətlənəndən sonra "Kazan ölkəsi" ismində ancaq iqtisadi və qeyri-milli ölkə əmələ gəlməsi və onun milliyyətlə qatışdırılması haqqında söyləşməyə başladılar.

İştə, bu surətdə biz "ölkə"ni düzəldə bilmədik. Əlimizdəki süngüləri alıb da bizimlə artıq haqq və hesaba girişmədilər. Bu bizim üçün inqilab dövründə aldığımız bir dərsi-ibrətdir.

Əsrlər boyunca bizə vəhşi deməyi adət edən və bizə qarşı düşmənlik ruhu ilə tərbiyələnən rus millətinin ən geniş internasionalistləri də bizi başqa bir arşınla ölçmək adətindən geri dura bilməyirlər. Onlar hənuz ali şüarlarla xalqı "səadət" yoluna çağırarkən, bizi ögey bala mənzələsində görmək adətlərində davam edirlər. Mötədil sosialistlərin işləri "Rusiya ruslar üçün" şüarına müvafiqdir.

Ən son sosialist ismi altında olan bolşeviklər tərəfindən Türküstanda əsrlər boyunca müsəlman əlində yaşayan yerlərdə bütün şəhərlərin yox edilməsi, bütün qəbilələrin uşaqlarına qədər qətli, öldürülmüş müsəlman xatunlarının qa-

rınları yarılıb içində balaları dəxi öldürülmək kimi son vəhşiliklər, nəhayət minlərcə ac müsəlman güruhlarının çörək üçün məhəlli [yerli] hökumət olan sovetlərə müraciət edən vaxtlarında "Krasnı armiyaya yazılınız" cavabında: "Yaxşı, tüfəng veriniz" sözü eşidib, "Yox, siz sovetləri qovarsız; gediniz avtonomiyanız sizə çörək versin" deyib pulemyotlarla günahsız müsəlmanları qırmaq işləri əlbəttə yuxarıdakı fikrimizi təqviyə etsə [sözümüzə qüvvət olsa] gərəkdir. Hakəza, Direktoriya zamanında Şərqi Rusiyada və Sibiryada bir çox vəq'ə bizim "ögey"liyimizi əlavə olaraq isbat etdi.

Bolşevikləri məğlub etmək mətlubları [məqsədləri] isə də, müsəlman hərbi gücü qüvvətlənməsindən qorxub başqırd diviziyasın[ı] korpus halına gətirmədilər. General Dotsev atlı kazakların başqırdlardan ədəd cəhətindən artıq edilməsi qəsdi ilə başqırd əsgərləri on dənə patronla müharibə meydanına göndərdi. Onların üst-başlarına lazım olan geyim verməyib, başqırd saldatları vətənlərinə qaytarıb göndərdilər.

Qırğız Hökuməti "Alaş-Orda"nın rəisi Əlixan Bökeyxanov Direktoriya əzası [üzvü] general Boldırevə qırğızlardan bir neçə illik cavanları silah altına almağa rüxsət sorduqda, Boldırev: "Qırğızlar son[ra] Türkiyə ilə müharibə edərlərmi?" sualı ilə qırğızları yığmağa rüxsət verməmişdir. Halbuki, bolşeviklərə qalib olmaq gərək deyib qışqırırdı.

Orenburq və Ural atlı-kazak hökumətləri mövcud olduğu halda başqırd və kazak (qırğız) hökumətlərinin süqutu haqqında fərman çıxır.

İştə biznin [bizim] inqilabdan aldığımız dərslərimizdir ki, bizə itab [məzəmmət] və xitab ilə: "Heç kimin sözünə və və'dəsinə aldanma! Ancaq özünün güclü qollarındakı silahına və könlündəki imanına inan!"

*Saleh*

## İTTİHAD LAZIMDIR

İslam aləmindən müqəddəm [qabaq] insanlar cəhalət, küfraniyyət, ədavət və qətl-qarətlə yaşayırdılar. Allah-taala bəndələrini küfraniyyətdən islamiyyətə, cəhalətdən mədəniyyətə, ədavətdən üxüvvətə [düşmənçilikdən qardaşlığa], zülmatdan nuraniyyətə tərəf gətirmək üçün nuri-islam ilə tamamən dünyanı münəvvər eylədi. Həmişə zülmat aləmində kor qalanlar birdən-birə gözlərini açıb özlərini nuraniyyət aləmində gördülər. Allah-taala cəhalət mərəzinə mübtəla olan naxoşlara öz tərəfindən Rəsuli-əkrəm həzrətlərini təbib göndərib, islamiyyət dərmanı ilə müalicə etməyə məmur eylədi. Cəhalət mərəzi ilə çürüyüb məhv olan bədənlər dini-islama daxil olmaqla səhhət tapdılar. Amma – çünki cəhalət təsiri hələ başlarında qalmışdı – o səbəbə əyan, əşraflar, əğniyalar [varlılar] özləri ilə fəqir-füqəraya fərq qoyub, təkəbbürlük edib, nifaq salırdılar.

Rəsuli-əkrəm buyurdu: Camaat, heç kəs öz nəsil-nəcabətinə və ya dövlətinə məğrur olub füqəralara təkəbbürlük edə bilməz. Bu sifətlərlə müttəsif olan [bu xüsusiyyətləri daşıyan] genə islamiyyətdən məhrum olub cəhalətdə baqi qalar. İslamiyyət ibarətdir ədalətdən, müsavatdan, üxüvvətdən: İnnəməl-müminunə ixvətun. Milləti-islam cəmiyyən bərabər müsavi qardaşdır. Mən dövlətliyəm, mən nücəbayam [nəciblərdənəm, əsilnəcabət sahibiyəm], sən füqərasan, mən filanam, sən filansan və sairə mənlik-sənlik cəhalət zamanında qaldı. Hamı bir Adəmin oğludur.

Bu gunə [bu cür] demokratik üsul sayəsində idi ki, əsakiri-islam [islam əsgərləri] Məğrib ilə Məşriq arasında olan cəmi padşahlara, millətlərə qələbə çalıb özlərinə tabe etdilər və dünyanın hər bir qitəsinə malik olub hökumət etdilər.

Lakin çox təəssüflər olsun ki, sonradan milləti-islamın tərəqqidən tənəzzül etməyinə, düşmənlər əlində əsir olmağına bəzi vicdansız xaini-islam, xainimillət və vətən olan şəxslər bais olub cürbəcür müridbazlıq [mürid yığmaq, tərəfdar toplamaq] üçün milləti-islam arasında məzhəb fabrikası açıb dürlü-dürlü məzhəblər icad edib xalq arasına təfriqə [ayrı-seçkilik] saldılar və nifaq kəməndini bizim boynumuza salıb düşmənlərə əsir verdilər.

Bundan əlavə, hər bir yerdə iş başında olan əğniyalar [varlılar] rəyasətdən [başçılıq etməkdən] ötrü başlarına dəstə yığıb, müsəlmanları bir-birinə qırdırıb, aralığa nifaq salıb da bu əsarətə səbəb oldular.

Hürriyyətdən sonra olan rəyasət davası göz qabağındadır. Həmişə biz avamları "təkfir" edən [kafir elan edən, lənətləyən] kafirlər əsarətdən xilas olub milli hökumət təşkil etdiyimiz halda genə aramıza bir para məzhəb nifaqı salıb da təkrar boynumuza əsarət zəncirini vurub düşmənlərə təslim etmək istəyirlər. Halbuki, qəsd-qərəzləri din-filan olmayıb, məhz mənfəəti-şəxsiyyədir [şəxsi mənfəətdir].

Qardaşlar, bizim istiqlaliyyətimizin, cavan hökumətimizin, vətənimizin, millətimizin, islamiyyətimizin fəlakəti ilə nicatı mövqufdur [bağlıdır] əsgərlik məsələsinə, yəni əsgərlik işi müntəzəm olub [qaydaya salınıb] qabağa getsə, naili-bəməram olarıq [məqsədimizə nail olarıq]. Halbuki əsgərlik işimizin dəxi asudəliklə qabağa getməyinə genə xain və müfəttinlərin [fitnəkarların] fitnə və fəsadları mane olur.

İrəvan, Naxçıvan, Qarabağ, Şirvan, Lənkəran, Bakı, Dağıstan və Türküstan tamamən yerlə yeksan oldu, qəryələr [kəndlər] odlandı, məscidlərimiz topa bağlanıb, Quranımız yandı. Hamilə analarımızın qarnı parçalanıb, döşləri kəsildi. Məsum çocuqlarımız düşmən nizələrinə vuruldu. Xanım bacılarımızın, gəlin-qızlarımızın ismət və namusuna düşmən təcavüz etdi. Məgər ittifaqla əhd edibsiniz ki, yer üzündə islamiyyətdən bir nişanə baqi qalmasın?

Bəsdir, ey xainlər, əl çəkin yaxamızdan! Bu xəyanətlərə kifayət etməyib avam qardaşlarımızı milli hökumətimizdən nifrətləndirməyə çalışırsınız.

Ey sevgili millət vükəlaları, ey azəri türklərinin ümidgahı olanlar! Allah rizasına, bu xəyanətlərin qabağına sədd çəkin! Olan əsgərlərə diqqət edin ki, onların içində dövlətli, bəy, xan, fəqir, kasıb hamısı bir olsun və fitnəçilərin dili lal olsun.

Ey milli hökumətimizin şanlı əsgərləri! Siz də fövqdə [yuxarıda] yazılan qardaşlarımıza təbəiyyət edib [tabe olub]

türklük və islam baydağını ucaldasınız!

Qardaşlar, əsgərlik bilirsinizmi nədir? Əsgər, yəni Allah qoşunu. Əsgər, Rəsuli-Xudanın yavru ənsarıdır [Allah peyğəmbərinin kiçik köməkçiləridir]. Əsgər, mücahidi-islamdır [islam mücahididir; islamiyyət üçün çalışandır]. Əsgərlikdə olan zəhmətləri, məşəqqətləri, mülahizə edib əsgərlikdən qaçmayın. Mart hadisatında çox ölənlər, qaçanlar oldular. Ölməkdən qorxub qaçanlara Allah-taala Qurani-məciddə [şanı uca "Quran"da] görək nə buyurur:

Ey ölümündən qorxub cihada getməyənlər! Yəqin edin ki, ölüm sizləri dərk edəcəkdir [haqlayacaqdır], əgər möhkəm qalalarda, bürclərdə olasınız.

Ey vətənin qəyur [qeyrətli] cavanları! Həmişə islamın ümidgahı olun. Ey füqəralar, ey Bakı şəhərində və ətraf mədənlərdə olan fəhlə qardaşlar! İttifaqla əl-ələ verib toplaşın, qoymayın ki, gizli düşmənlərimiz sizləri aldatsınlar. Qardaşlarım, ucaldın türk-islam Azərbaycan bayrağını milli hökumətimizin başının üstünə və yaşasın Azərbaycan Hökuməti sözlərini virdi-zəban edin [dilinizdən düşürməyin]!

*Mirhəsən Seyidzadə Qarabağlı*

## "MÜSAVAT" FİRQƏSİNİN FƏHLƏ KONFRANSI

Cümə günü, martın 7-də Parlaman binasında Məhəmməd Əmin Rəsulzadənin sədarəti altında "Müsavat" firqəsinin fəhlə konfransı vaqe olmuşdur. Konfransda bütün mədən rayonlarının fəhlə nümayəndələri, Bakı komitəsi üzvləri, Mərkəzi Komitə üzvlərindən bir neçəsi, "Müsavat" firqəsinin Parlaman fraksiyonu, həmçinin Maarif naziri Nəsib bəy Yusifbəyov isbati-vücud [iştirak] etmişlərdir.

Məhəmməd Əmin Rəsulzadə tətil ilə əlaqədar olan əhvali-siyasiyyə və fəhlə konfransının tərzi-hərəkəti barəsində müfəssələn [ətraflı] məlumat vermişdir. Qızğın münaqişat və müzakiratdan [münaqişə və müzakirələrdən] sonra, konfrans müttəhidülqövl [yekdilliklə] işbu zeyldəki [aşağıdakı] qərarı qəbul etmişdir:

"Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin fəhlə konfransı martın 7-də vaqe olan iclasında ümumi fəhlə konfransının tətil elan edilməsi məsələsini müzakirə edib qərara almışdır ki:

1) Firqənin Mərkəzi Komitəsinin fəhlələrə müraciətən vaxtlı-vaxtında dəvətnamə buraxması hərəkətini təqdirlə və martın 5-də ümumi fəhlə konfransında yoldaş Qənizadənin çıxışının doğru olduğunu təsvib [təsdiq] eylər.

2) Böyük rusluq [Velikorossiya] məqsədi olan siyasi tətilə bilmərrə qarışmamaq üçün fəhlələrə müraciət edilsin."

## GENERAL TOMSON VƏ FƏHLƏ KONFRANSI

Fəhlə konfransı sədri Çurayev İngiltərə komandanlığına verilən tələbat haqqında müzakiratda bulunmaqdan ötrü srağagün general Tomson yanına getmişdir.

General Tomson demişdir ki, tətil





təhdidi istibdad deməkdir. Buna görə, bu tətil təhdidi altında olmağa görə, tələbatları təmin etmək, müzakiratda bulunmaq çətindir.

Daxili işlərə qarışmamaq məsələsinə gəldikdə general Tomson demişdir ki, bu sözlərin mənası nə olduğunu bilməyir. Çurayev buna cavab vermişdir ki, tətil komitəsi tərəfindən tətil elan edilməmişdir, lakin tətil bir mübarizə vasitəsi olduğuna görə, rəf edilə [aradan qaldırıla] bilməz. Daxili məsələlər isə ələlümum [ümumiyyətlə] Rusiyanın və onun hissələrinin işidir.

Həbs edilən matroslar haqqında general Tomson demişdir ki, məhbusları Fəhlə Konfransının heyəti-rüəsasına [rəyasət heyətinə] zamin verməklə azad etməyə hazırdır.

Srağagün, saat 4-də tətil komitəsinin iclası vaqe olub, bu məsələlər orada müzakirə edilmişdir. Nəticədə bu aşağıdakı qərarlar qəbul edilmişdir:

1) General Tomsona cavab verməli ki, tətil məsələ[si] müzakirat müddəti[ndə] rəf edilir [aradan götürülür].

2) "Daxili işlərə qarışmamaq" sözü bu deməkdir ki, İngiltərə komandanlığı Rusiya Cümhuriyyəti və müstəqil millətləri ilə özü mübarizə etməsin və onlarla mübarizə edən əks-inqilabçı qüvvələrə müavinət [köməklik] göstərməsin.

3) General Denikinin irticai qüvvəsi tərəfindən dağıstanlıların hədə altına alınmasını öz istiqlalımız üçün xətrə [təhlükə] hesab ediriz. Biz də Parlaman protestosuna mülhəq olub [qoşulub] öz hökumətimizdən tələb ediriz ki, bu məsələyə qarşı ən ciddi iqdamatda [təşəbbüsdə] bulunsun.

4) Qafqaz cümhuriyyətləri istiqlaliyyətlərinin məsuliyyəti[ni] öhdəsinə alan Müttəfiqlər komandanlığından tələb ediriz ki, qanlı general Lyaxovun qaragüruh bandasına qarşı, yəni onları azad Dağıstandan çıxarmaq üçün ciddi və qəti iqdamatda bulunsun.

5) Könüllü ordunun paytaxtımızdan çıxarılmasına dair hökumətin görə-cəyi tədbirlərinə biz hər növlə müzahirət [köməklik] edəcəyiz və tələb ediriz ki, Denikinin Bakıda olan nümayəndəsi general Erdeli və qoşun böyüklərinin də Bakıdan çıxarılmasına eyni tədbirlər ittixaz edilsin [görülsün]. Onların paytaxtımızda olmasını biz cümhuriyyətimizin şanına layiq görməyiriz.

## BAKI XƏBƏRLƏRİ

### Qubernatorun əmri

Bakı qubernatoru tərəfindən Bakı və Balaxanı-Sabunçu qalabəylərinə [komendant-larına], Bakı quberniyasının bütün uyezd naçalniklərinə [qəza rəislərinə] zeyldəki [aşağıdakı] əmrnaməni göndərmişdir:

*"Bununla qalabəylərə və uyezd naçalniklər[in]ə təklif edirəm ki, Daxiliyyə və qeyri Nəzarətlər [Nazirliklər] tərəfindən göndərilən bütün tələbat və sorğulara bilatəxir [dərhal] əməl edilib, bir həftənin ərzində təqdim edilməlidir. Hərgah, göstərilən vaxtın əvəzində buna əməl etmək mümkün olmazsa, o vaxt buna səbəb olan mümaniəti* [maneəni] *göstərməlidir. Bundan ötrü idarələrdə müdirlərin xüsusi katibləri həmin işləri təqib etməlidirlər."*

**Türk talibə və tələbələri [qız və oğlan tələbələri]**

Türk tələbələrinin ənənəvi işlərini təhqiq edən xüsusi təftiş komissiyası hamı müsəlman tələbə və kursistkalarını [qız tələbələrini] martın 10-unda, axşam saat 5-də İkinci Ünas [qızlar] gimnaziyası binasında (Qubernski küçədə) vaqe olacaq ümumi iclasa dəvət edir. Müzakirə ediləcək məsələlər:

1) Komissiyanın məruzəsi;

2) İclasda qaldırılacaq məsələlər.

İclas üçüncü dəfə olduğu üçün yoldaşlardan nə miqdar gəlmiş olsa da qanuni hesab ediləcəkdir.

**Cəmiyyəti-Xeyriyyədə**

Pəncşənbə [cümə axşamı] günü, mart ayının 6-sında Qasım Qasımov cənablarının sədarətində [sədrliyi ilə] Cəmiyyəti-Xeyriyyə idarəsinin növbəti iclası vaqe olmuşdur [baş tutmuşdur].

Sədr yeni təsis edilən məhəllə heyətlərinə məxsus tərtib edilmiş düsturuləməli [nizamnaməni] qiraət edir. İdarə təsvib edərək [bəyənərək] qərar qoyulur ki, bu düsturuləməlin surəti məhəllə heyətlərinə göndərilərək heyətlərin işə başlamaları xahiş edilsin.

1915-inci sənədə köhnə hökumət zamanında tərtib edilən Cəmiyyəti-Xeyriyyə nizamnaməsinin indiki vaxta müvafiqət etmədiyini [uyğun gəlmədiyini] idarə nəzərə alaraq nizamnamənin bəzi maddələrinə təğyir [düzəliş] vermişdir. Bu yaxınlarda çağırılacaq fövqəladə ümumi iclasa təqdimlə orada təsdiq ediləcəkdir.

3-üncü məsələ, müsamirə [konsert, tədbir] məsələsi idi. Qərar qoyulur ki, bayramdan bir neçə gün sonra müsamirə tərtib verilsin.

4-üncü məsələ: Bu axır vaxtlarda Bakı küçələrində görülməkdə olan balaca dilənçi uşaqların küçələrdən yığılması barəsində Sentrodom [Mərkəzi Ev Komitəsi], idarədən bir nümayəndə istəmişdi. İdarə bir nəfər nümayəndənin göndərilməsinə qərar verir. Dilənçilərin əksəri iranlılardan olduğu üçün Bakıda İran konsuluna və İran müəssisələrinə müraciət etmək də qərara alınır.

Sentrodom nəzdində olan uşaqlara müavinət [köməklik] edici büroya bir nümayəndə göndərmək məsələsi sədrə mühəvvəl edilir [tapşırılır].

Nəhayət, Cəmiyyəti-Xeyriyyənin sökülüb yenidən inşa edilməsi məsələsi müzakirə edilir. İdarə heyəti-sədarətinə təklif edir ki, bu barədə mükəmməl layihə tərtib edilərək idarəyə təqdim olunsun. İdarə Cəmiyyəti-Xeyriyyə inşasından ötrü hökumətdən nəqdi müavinət istəmək xəyalındadır.

* Bu gün saat 4-də Duma salonunda Cəmiyyəti-Xeyriyyə nəzdində olacaq məhəllə heyətlərinin müttəhid [birgə] iclası vaqe olacaqdır.

**Müəllimlər iclası**

Bu gün martın 11-i, axşam saat 4-də, Doqquzuncu ibtidai məktəbdə bütün Bakı və dairəsi müsəlman şəhər məktəbləri müəllimlərinin iclası təyin edilmişdir. İclasda sabiq Müəllimlər İttifaqı fəaliyyətini təcdid [bərpa] etmək qəsdi ilə işbu məsələlər mövqeyi-müzakirəyə qonulacaqdır:

1) Sabiq idarənin məruzə və istefası;

2) Yeni idarə intixabatı [seçkisi];

3) İclasda qalxıla biləcək məsail [məsələlər].

İclas ikinci dəfə dəvət edildiyi üçün qanuni hesab ediləcəyindən, bütün müəllimlərin isbati-vücudu mütəmənnadır [iştirak etməsi xahiş olunur].

**Bakı üçün qənd**

Aldığımız məlumata görə, bugünlərdə Bakıya 4 vaqon qənd gətiriləcəkdir. Qənd xüsusi əşxas [şəxslər] tərəfindən bir neçə gün bundan əqdəm [qabaq] Ukraynadan alınıb, fəqət şimdi gəlib çıxmaqdadır. Bundan naşi [buna görə], şəhərdə qənd qiyməti əskilməkdədir.

**Dağıstanlıların yığıncağı**

Bu gün saat 1-də, Təzəpir məscidində Bakı və ətrafında yaşayan ümum dağıstanlıların yığıncağı təyin edilmişdir. Yığıncaqda Könüllü ordu və Denikinin Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyəti torpağına keçib, istiqlaliyyətin təhdidi məsələsi və bununla əlaqədar başqa mühüm məsələlər müzakirə ediləcəkdir. Bakıda və ətrafında yaşayan ümum dağıstanlıların həmin yığıncağa təşrif gətirmələri arzu olunur. Məlum olduğu üzrə, Bakıda 20 min nəfərdən artıq dağıstanlılar sükunət edirlər [yaşayırlar].

**Müsəlman tələbə və talibatı nəzəridiqqətlərinə**

Martın 13-ündə, pəncşənbə [cümə axşamı] günü axşam saat 5 tamamda, Birinci Realnı məktəbində bütün müsəlman tələbə və talibatının [oğlan və qız tələbələrinin] ümumi iclası təyin edilmişdir. İclasda baxılacaq məsail [məsələlər]:

1) Yeni komitə intixabatı [seçkisi];

2) Təftiş komisyonu intixabı;

Yoldaşlardan vaxtında gəlmələri rica olunur.

*Müvəqqəti Komisyon*

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsinin iclasında başqa məsələlər cümləsindən olaraq qət edilmişdir ki, sentyabr hadisatından sonra xidmətə gəlməyib sonradan gələnlər üçün vaxt 6 aydan az olarsa, onlar üçün hesab edilsin. Bu vaxt 1918-ci sənənin 15 sentyabrından hesab olunmalıdır.

* Səşənbə [çərşənbə axşamı] günü martın 11-də Bələdiyyə Məclisinin iclası təyin edilmişdir.

## SİYASİ ZİYAFƏT

Gürcüstan vüzəralarından [nazirlərindən] şəhərimizdə müsafir bulunan Maliyyə naziri Juruli həzrətlərinin şərəfinə olmaq üzrə martın 8-i axşamı “Metropol” mehmanxanasının zalında Hökumətimiz tərəfindən böyük bir ziyafət verildi. Ziyafətə dəvət edilmişlər bunlar idi: Gürcüstan Maliyyə naziri Juruli həzrətləri, başda Fətəli xan Xoyski həzrətləri olmaq üzrə ümum nazirlərimiz, Parlaman sədri Həsən bəy Ağayev həzrətləri ilə bərabər Divani-rəyasət əzaları [üzvləri], Parlaman fraksiyalarının rəisləri, Balkana getmək üzrə şəhərimizə varid olmuş [gəlmiş] olan İran səfiri Mirzə Əliəkbər xan Bəhmən həzrətləri ilə bərabər Bakı İran konsulu Səidülvüzəra həzrətləri, Dağıstan Hökumətinin Bakı səfiri Kantemirov həzrətləri, Gürcü Milli

Komitəsi ilə bərabər Erməni Milli Komitəsi əzaları, qoşun böyüklərimizdən bir xeyli böyük rütbəli zabitanımız, Bakı ziyalı qismindən bir neçələri və mətbuat tərəfindən rus[ca] və türk[cə] "Azərbaycan" qəzetələrinin müdirləri. Məclis mehmandarlıq vəzifəsini icra edən Xariciyyə nazirimiz Ədil xan Ziyadxanov həzrətləri tərəfindən gözəl bir nitq iradı [söylənməsi] ilə açılıb, məclisin yuxarısında zalın divarını təzyin etməkdə [bəzəməkdə] olan Azərbaycan milli bayrağı hazirun [iştirakçılar] tərəfindən ayağa qalxmaq mərasimi ilə salamlandı.

Bədəhu [sonra] Fətəli xan həzrətləri nitqə başlayıb Gürcüstan Hökumətilə bizim aramızda olan səmimi dostluqdan danışarkən sözünü Juruli həzrətlərinin şəhərimizə vüruduna ətf ilə [şəhərinə gəlməsinə sözü gətirərək] Gürcüstan nazirinin sağlığına badənuş oldular [qədəh qaldırdılar]. Əhli-məclis nazir həzrətlərini sürəkli alqışlarla salamlayıb şərəfi münasibətinə olaraq qədəh qalxızdılar.

Bədəhu, Dağıstan, Ermənistan və İran dövlətləri şərəfinə idareyi-əqdah edilib [qədəh qaldırılıb], nümayəndələri tərəfindən cavabi nitqlər söyləndi və əhli-məclis tərəfindən səmimiyyətlə alqışlandı.

Bundan sonra Fətəli xan həzrətləri idareyi-məclis[i] Poçta-Teleqraf və Məsai nazirimiz olan Aslan bəy Səfikürdski həzrətlərinə həvalə ilə mümaileyhi [adı çəkilən şəxsi] "tamada" seçdi. Aslan bəy nitq söyləmək istəyən natiqləri hərəsinin haqqında lətifəvari sözlərlə əhli-məclisə təqdim və təarüf [tanış] edib özü də münasibi-hal [vəziyyətə uyğun] nitqlər söyləyirdi. Natiqlərin nitqi ələlümum Azərbaycan dövlətinin şərəfinə və ümum Qafqaz, ittihad, ittifaq, sülh və sazişə aid olub məclisə böyük bir səmimiyyət hissi verirdi.

Ziyafətin axırında Ədil xan Ziyadxanov həzrətləri xatimə olaraq təkrar pürmənə [mənalı] bir nitq irad edib, əzcümlə buna işarət etdilər ki, bu axşam yeni təqvim hesabı ilə Novruz bayramı hülul edir [daxil olur]. Bu ziyafət bu axşama təsadüf etməklə iki bayramın axşamı oldu ki, onun biri də burada yığılan millətlər nümayəndələrinin bir-birinə qarşı ibraz etməkdə olduqları mehribançılıq və səmimiyyətdir ki, bunun nəticəsi Qafqaz dövlətlərini bir-biri ilə ittifaq və sazişlə istiqlalları yolunda çalışmağa vadar etməklə ümum qafqazlılar üçün həqiqətdə də siyasi bir bayram axşamı olmaq sifətini haiz olacaqdır [daşıyacaqdır].

Filhəqiqə [doğrudan da], bu ziyafət rəsmilikdən artıq səmimi bir rəng almaqla bir tərəfdən Azərbaycan Hökumətinin şan və şərəfini artırmaq və digər tərəfdən dəxi ümum Qafqaz dövlət və millətləri arasında ittifaq və sazişə bir yol açacaq qədər böyük bir əhəmiyyəti haiz olub, ümum əhli-məclisi məmnun və məsrur [şad] buraxdı.

Ziyafət saat 6-da başlanıb, saat 10-a qədər davam etdi.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Bakı Şəhər**
**İstiqraz Cəmiyyəti**

Cəmiyyətin nizamnaməsinin 65-inci maddəsinə görə, bununla elan edir ki, cəmiyyətə üç illik nümayəndə intixab edilməkdən [seçilməkdən] ötrü cəmiyyətin müstəqrizləri [borcluları] iclasa dəvət olunur. 1-ci razryad [dərəcə] 11 aprel; 2-ci 12 aprel; 3-cü 13 aprel. Həmin 1919-cu ildə, saat 5-də cəmiyyətin idarəsinin binasında - Vorontsovski küçə, Eyvazovun evində, nömrə 18.

Qeyd: Cəmiyyətin nizamnaməsinin 68-inci maddəsinə görə iclasa gələnlərin miqdarına baxmayaraq, qanuni hesab olunur.

*T-50*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, martın 13-ündə saat 12-də "Xozyaystvennı rasparyaditelni" [Təsərrüfat-İdarəetmə] şöbəsinin dəftərxanasında şəhər evlərinin – hansı ki, biri Balaxanski və Budaqovski küçələrin küncündə nömrə 110 və ikincisi Balaxanski şosedə nömrə 169 – icarəyə (arendaya) vermək barəsində torq [hərrac] təyin olunur. Bəyannaməni yuxarıda zikr olunan şöbənin dəftərxanasında oxumaq olar.

*T-53*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Düz yol**

səh. 144. "…Könüllü ordusunun ölkəmizdən getməsinə…": qəzetdə "ölkəmizdən" sözü təhrif edilmişdir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 146. "…əhalinin qaramalını və ərzaq şeylərini…": qəzetdə "şeylərini" yerinə "işlərini" getmişdir.

**Sülh ətrafında**

səh. 148. "…zeyldəki gəmilərin silahlarını…": sıradakı gəmi adlarından bəziləri qəzetdə təhrif edilmişdir.

"monitor": ağır artilleriya silahları ilə təchiz edilmiş zirehli hərbi gəmi.

**Vükəla Şurasında**

səh. 149. "…Muxax dairəsi… Muxax füqəra əhalisi": qəzetdə "Muxax" yerinə "Muxasi" getmişdir.

**Nəzarətlərdə**

səh. 150. "Orada isə məmləkətin mal gətirilməsini və çıxarılmasını havi məlumat tərtib verilirdi.": qəzetdə "havi" yerinə səhvən "maddi" getmişdir.

**İnqilab dövründə İdilboyu türk-tatarları**

səh. 152. "17-ci ilin mayında üç[üncü] syezdin…": 1917-ci ilin 1-11 may tarixlərində Moskvada Şəmsi Əsədullayevin evində keçirilən Ümumrusiya Müsəlmanları Qurultayı nəzərdə tutulur. Qurultayda Qafqaz, Krım, Türküstan, Sibir, Buxara və Xivədən 800 nəfərdən artıq nümayəndə iştirak etmişdi.

səh. 153. "bütün Rusiya müsəlman əsgərlərinin ikinci syezdləri": Ümumrusiya Müsəlmanlarının İkinci Hərbi Qurultayı nəzərdə tutulur. Bu qurultay 1918-ci ilin 8 yanvar-20 fevral (21 yanvar-3 mart) tarixlərində fasilələrlə Kazanda keçirilmişdi.

səh. 154. "Alaş-Orda": Qazaxların 1917-ci ilin axırlarından 1919-cu ilin yayına qədər mövcud olan milli muxtariyyətləri nəzərdə tutulur. Alaş-Orda Hökumətinin (Müvəqqəti Xalq Şurasının) sədri Əlixan Bökeyxanov idi.

"Direktoriya": Ufa Direktoriyası yaxud Omsk Direktoriyası adlanan Ümumrusiya Müvəqqəti Hökuməti nəzərdə tutulur. Direktoriya 1918-ci ilin sentyabr-noyabr aylarında Rusiyada ali hakimiyyət orqanı olmuşdur.

"Orenburq və Ural atlı-kazak hökumətləri…": Uralda 1917-1920-ci illərdə mövcud olmuş federativ qurumlar – Orenburq Kazak Dairəsi və Ural Kazak Dairəsi nəzərdə tutulur.

**İttihad lazımdır**

səh. 155. "İnnəməl-müminunə ixvətun…": "Quran"ın Hucurat surəsinin 10-cu ayəsindən bir parça; mənası: "Həqiqətən, möminlər qardaşdırlar…"

səh. 156. "Yəqin edin ki, ölüm sizləri dərk edəcəkdir [haqlayacaqdır]…": burada "Quran"ın Nisa surəsinin 78-ci ayəsinə işarə vurulur.

**General Tomson və Fəhlə Konfransı**

səh. 157. "…öz hökumətimizdən tələb ediriz ki…": qəzetdə "…o hökumətimizdən tələb ediriz ki…" getmişdir.

**Bakı xəbərləri**

səh. 159. "Müsəlman tələbə və talibatı nəzəri-diqqətlərinə": bu xəbərdəki "talibat" [qız tələbələr] sözləri qəzetdə səhvən "tələbat" kimi getmişdir.





**Çərşənbə axşamı, 11 mart 1919-cu il, nömrə 134**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 8 cəmadiyəlaxir sənə 1337. 11 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Bakı qubernatorunun əmri**

Fevralın 22-sində, axşam saat 7 radələrində Spasski küçə 3-üncü polis [sahəsində] 3 nəfər müsəlləh bədəfkarlar [silahlı canilər], öz oğlu ilə bərabər evə getdiyi halda bir nəfər Bakı sakininə hücum edib 26.000 manat pulunu qarət etmişlərdir.

Həmin hücum barəsində məlumat aldıqda üçüncü uçastok [sahə] pristavı Mollazadə həman saat öz müavinləri Haqverdibəyov və Vəkilov ilə bərabər və həmçinin təhərri [axtarış] polisəsi acentəsi Ananov ilə bərabər böyük məharət və qəhrəmanlıqla və həyatlarının təhlükəsini nəzərə almayaraq bədəfkarları təqib etməyə və onları tövqif [həbs] etməyə sürət etmişlərdir [tələsmişlər]. Nəticədə bədəfkarlar tutulub və qarət edilmiş məbləğin bir hissəsi ələ gətirilmişdir. Atışma əsnasında Ananov yaralanıb və sonra ölmüşdür. Üçüncü bədəfkarı tövqif etməkdə okolotoçnıy nadziratel [şəhər polisi] Xarkovski və qaradavoy Əlövsət Məhəmmədsadiq oğlu iştirak etmişlərdir.

Bundan əlavə, pristav müavini Haqverdibəyov və qaradavoy Mirzəağa Rzayev Aziatski küçədə bir evə hücum edib və 63.000 manat qarət etmiş olan 5 nəfər bədəfkarları tövqif etməkdə böyük fəaliyyət və hünər göstərmişlərdir.

Həmin əmrnamədə təhti-idarəmdə [idarəçiliym altında] olan quberniyada böylə bir təqdir edilməli əhvalı və məzkur [adı çəkilən] polis məmurlarının öz vəzifələrini layiqi surətdə ifa etmələrini qeydlə, pristav Mollazadəyə, onun müavinləri Haqverdibəyov və Vəkilov, okolotoçnıy nadziratellər Mirzəyev və Xarkovskiyə və qaradavoylar İsabəyov və Əlövsət Məhəmmədsadiq oğluna təşəkkürатımı izhar etməyi kəndimə vəzifəədd [hesab] edirəm.

Öldürülmüş olan təhərri polisə acenti Ananovun ailəsinə maaş təyin edilməsi və Mollazadə ilə yuxarıda göstərilən qeyri məmurlara mükafat verilməsi məsələsindən dolayı mən Daxiliyyə Nəzarətinə müraciətlə bu barədə səydə bulunacağam.

*Bakı qubernatoru*
*[Rəşid bəy] Axundzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

### Amerikanın silahlanması

Nauendən verilən xəbərlərə görə, belə görünür ki, ancaq quruda müharibələrin qət edilməsi [dayandırılması] təsəvvür olunur. Çünki Amerika, Yaponiya və İngiltərə öz donanmalarını artırmaqda davam edirlər. Amerika artıq bir dərəcədə donanmasını artırmaqdadır. İngiltərənin bəhriyyə [donanma] komissiyası müttəhidülqövl [yekdilliklə] hökumətin təzə bəhriyyə məramnaməsini qəbul etmişdir.

### Amerika sosialistlərinin işi

Çikaqodan Parisə xəbər verirlər ki, sosialist başçılarının işi qurtarmaq üzrədir. Bunlar üsyanda və qanunu xələldar etməkdə [pozmaqda] müttəhim edilmişlər.

### İngilislərin tələbatı

Krım mətbuatının verdiyi məlumata görə, Berlindən xəbər verirlər ki, Baltik sahilində olan İngiltərə əsgərləri komandanı Almaniya Baş komandanlığına bir ultimatum göndərib tələb edir ki, alman əsgərləri nəinki bir tək bolşeviklərin hərəkatına mümaniət [maneçilik] göstərməlidirlər, hətta Valka ilə Vendeni belə işğal etməlidirlər.

"D. T." alman qəzetəsinin yazdığına görə, bolşeviklər iki ordu ilə hücum etməkdədirlər. 4-üncü firqə [diviziya] Riqa üzərinə, 3-üncü firqə Vilno [Vilnüs] və Kovno [Kaunas] üzərinə hərəkət edirlər. Almanların üç firqə müharibəyə yarar əsgərləri vardır.

* Avam Kamerasında almanların birinci dəfə nə kimi mütarikəyə razı olduqları bəyan edilmişdir. Almanlar bütün ağır topları, səhra topları[nı], pulemyotları, aeroplanlarını xəndək mortirləri[ni], 4065 vaqon paravoz, 126.836 vaqon [və] 1278 motoru təslim etməli imişlər.

### Almaniyanın halı

Berlin komandanı 2-inci dəfə olaraq əhaliyə müraciətlə hər növ çıxışdan və iqdamatdan [ayaqlanmadan] çəkinmələrini təklif eyləmişdir.

Mart ayının 4-ündə vaqe olan iclasında poçta-teleqraf qulluqçuları tətilə müdaxilə etməmələrini qət etmişlərdir [qərara almışlar].

Dəmiryol əmələləri [fəhlələri] isə ümumi tətilə mülhəq olmaları [qoşulmaları] barəsindəki təklifi rədd eyləmişlərdir. Halledə idareyi-əsgəriyyə [hərbi rejim] elan edilərək divani-hərb [hərbi məhkəmə] təşkil edilmişdir.

### Almaniyada
### Almanlar Mərakeşdə

* Madriddən xəbər verilir ki, Mərakeşdə almanların təbliğatına qarşı ciddi tədbirlər ittixaz edilir [tədbirlər görülür]. Bu yaxınalarda bir çox nemeslər Mərakeşdən təbid [sürgün] ediləcəklərdir.

* Almanlar öz ordularının miqdarını 250 minə qədər əskildəcəkdirlər. Bu miqdardan artıq olan qoşunlar Müttəfiqlərin kontrolu altında olacaqdır.

## SÜLH ƏTRAFINDA

### Rusiya işləri

Bu həftə Sülh Konfransında növbədə Rusiya məsələsidir. Oradan alınan məlumata görə, Rusiya işlərinin Sülh Konfransı tərəfindən təxir və həll edilməsi tələb edilir. Lloyd Corcun sabah konfransında iştirak etməsi bu məsələyə başlamağa və sonradan Vilson ilə simsiz teleqraf vasitəsilə müzakiratda bulunub sazişə nail olmağa imkan verir.

### Cəmiyyəti-Əqvam

Amerikada vaqe olan hadisələrə İngiltərədə artıq əhəmiyyət verirlər. İngiltərə dairələrində təsəvvür edilir ki, İngiltərə Monro şüarının saxlanılmasına mümaniət [maneçilik] göstərməyəcəkdir. Bununla bərabər, Amerika heyəti dairələrində bu rəydədirlər ki, Cəmiyyəti-Əqvam şəraiti [Millətlər Cəmiyyətinin şərtləri] xeyli əlverişlidir və konfransa təqdim edilən təshihlər ancaq bu şəraitin bir para yerlərini dəyişmək üçün olur. (Teleqrafın burasında bir qədər buraxılmışdır.) ...İngiltərənin müvəzzəf [vəzifəli] şəxslərini xəbərdar etmişdir ki, hərgah, şərait müxtəlif bir surətdə tərtib edilsə, aşkardır ki, rəisi-cümhur [prezident] öz şərait surətini geri götürəcəkdir. Aşkar olur ki, xırda hökumətlər tərəfindən Cəmiyyəti-Əqvam şəraitinə bir çox təshihlər daxil ediləcəkdir. İngiltərə dairələri bu təshihlərin komissiyaya qaytarılması rəyindədirlər. Buna görə də bir çox maddələrə təzədən baxılıb təkmil olunacaqdır [təkmilləşdiriləcəkdir].

### İran

On nəfərdən ibarət İran sülh nümayəndələri fevralın 16-sında Parisə varid olmuşlardır [çatmışlar]. Bunlar Sülh Konfransında iştirak edəcəklərdir.

## QƏZETƏLƏRDƏN

### Ənzəlidə

General Prjevalskinin əmrinə görə, Ənzəlidə olan rus qarnizonu ləğv edilib, orada olan əmvalın [malların] bir hissəsi satılıb, digər hissəsi Bakya gətiriləcəkdir.

### Ponti Hökuməti

Yunanıstan siyasi dairələrində, ələlümdə [xüsusilə] Venizelos başda olmaq üzrə Yunanıstan diplomasi dairələrində bir cərəyan müşahidə edilməkdədir ki, bu cərəyan müstəqil Ponti hökuməti deyil, geniş muxtariyyətlə yunan müstəmləkəsi təşkil edilməsi tərəfdarıdır. İzmir vilayəti bütün Yunanıstana mülhəq edilir [birləşdirilir].

### Türkiyədə

* İstanbulda girvənkəsi 16 qəpikdən adam başına bir çetvert çörək buraxılır. Üç manat yarıma azad çörək satılır. İstanbulda daş kömür yoxdur. Müttəfiqlər İstanbula daş kömür gətirməkdədirlər.

* Köstəncə-Bükreş-Paris arasında dəmiryol münasibatı [əlaqəsi] başlanmışdır. Hər bir gəliş-gediş ancaq Müttəfiq dövlət komissarlarının icazəsi ilə mümkündür.

* Fevralın 16-sında İstanbuldan çıxmış olan P. K. namında bir zat [şəxs] bugünlərdə Tiflisdə müntəşir [nəşr olunan] "Zakavkazskoye slovo" qəzetəsinin idarəsinə gəlib böylə məlumat vermişdir:

Mümaileyhin [o şəxsin] dediyinə görə, general Franşe D'Esperi İstanbula gələrkən şahanə bir cəlal ilə qarşılanmışdır. Həman gün sultan İstanbulda olan saraydan çıxıb Bosforun Asiya cəhətində olan Bəylərbəyi sarayına gəlmişdir. Bu saray-

da bir vaxtda Əbdülhəmid yaşayırmış.

Fevralın 17-sində İstanbuldan çıxıb 27-sində Tiflisə varid olan bir zat "Zakavkazskoye slovo" qəzetəsi mühərrinə İstanbul həyatı haqqında böylə məlumat vermişdir:

Şəhərin ixtiyarı Müttəfiq dövlətlər əlindədir. Müttəfiqlər bir çox bürolar təşkil etmişlərdir. Bu büro heyətləri hələliyə İngiltərə, Fransa və İtaliya nümayəndələrindən ibarətdir. Polisə ingilislərin, jandarma fransızların əlindədir. Jandarma idarəsi başında sabiqdə Makedoniya və Türkiyə üçün jandarma təşkil edən polkovnik Flon dayanmışdır. Bu təşkilatlar hamısı müvəqqəti deyil, daimi və möhkəm bir surət[də] olub, gələcəkdə İstanbulun Müttəfiqlər tərəfindən bitərəf bir hala salınmasını göstərir. Yıldız köşk[ün]ün və Sultan sarayının Bəylərbəyi sarayına köçməsi dəxi bunu nişan verir.

Bütün Frakiya, Çatalca mövqelərinə qədər yunan əsgərləri tərəfindən istila edilmişdir. Yunan hökuməti Frakiyada əsgəri idarələr əvəzində mülki təşkilatlar yapmağa başlamışdır. İstanbulda yunan əsgərləri Kadıköydə dayanmışlar. İstanbuldan Odessaya 50 minə qədər yunan əsgəri göndərilmişdir.

## MÜXTƏLİF XƏBƏRLƏR

* İngilis hökuməti Finlandiya ilə Almaniya arasında başlanan ticarəti qadağan eyləmişdir.

**Drezdendə**

Mart ayının 26-sına Drezdendə müstəqil sosialistlərin və bolşeviklərin böyük bir nümayişi təyin edilmişdir. Bütün Almaniyada ümumi tətil hərəkatı güclənir. Leypsiq Əmələ Şurası əksəriyyətlə qət eyləmişdir ki, fevralın 27-sindən etibarən ümumi tətil başlansın. Bunlar çalışırlar ki, sərvətdarların qəzetə əmələlərini də öz tərəflərinə çəksinlər. Dəmiryol hərəkatı qətiyyən [tamamilə] dayandırılmışdır. Bern və Noynkirx dairələrində olan kömür mədənlərində ümumi tətil elan edilmişdir. Ümumi tətil elan edildikdən sonra 23 şəhər tətilçilərə qoşulmuşlardır.

* Bolşeviklər Don cəbhəsində əczayikimyəviyyə ilə [kimyəvi maddələrlə] doldurulmuş qumbaralar atırlar.

* Amiral Kolçakın ordusu Ufa-Vyatka tərəfdə hücum etməkdədirlər.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

Gürcüstan Maliyyə naziri Juruli Gəncədən Rəisi-vükəla [Baş nazir] namına [adına] böylə bir təşəkkür teleqrafı çəkmişdir:

Sizin gözəl vətəniniz hüdudundan keçdikdə mən bir dəfə də Gürcüstan Hökuməti nümayəndəsi kimi haqqımda ibraz edilən mehmannəvazlıq [qonaqpərvərlik] əvəzində izhari-rizaməndi etməməkdən acizəm [razılığımı bildirməyə bilmərəm]. Mən inanıram ki, bugünlərdə dostluq, qardaşlıq və məhəbbət toxumları iki millətin istirahətinə əsas ola biləcəkdir.

*Juruli*





## AZƏRBAYCAN HÖKUMƏTİNİN GÜRCÜSTANA NOTASI

Azərbaycan Hökumətinin Xariciyyə naziri aşağıdakı nota ilə Gürcüstan Cümhuriyyətinin Xariciyyə nazirinə müraciət etmişdir:

*"Azərbaycan Hökumətinin məlumatına görə, Gürcüstan Hökuməti Axıska uyezdi və qonşu rayonlarda olan müsəlman əhalisinin müstəqil və muxtar siyasi həyat arzusunda olduqlarını silah gücü ilə yatırmaq iqdamatına [təşəbbüsünə] başlamışdır. İstiqlaliyyət əsasınca hamı millətlərin öz müqəddəratlarını azad bir surətdə özləri həll etməyə ixtiyarları olduğunu və bu münasibətlə millətlərin hüququna təcavüz edilməsinə imkan verilməyəcəyini nəzərə alıb Azərbaycan Hökuməti öz həmdin, həmmilləti əleyhinə müsəlləh [silahlı] hərəkatın dayandırılmasını, etilafi-mütəqabilə [qarşılıqlı anlaşma] və ya həkəm [arbitr] məhkəməsi vasitəsilə hər bir mübahisəli məsələlərin sülhcuyanə [sülhpərvər] bir surətdə həll edilməsi üçün hər cür tədbirlər ittixazını [tədbirlər görülməsini] dostanə bir surətdə Gürcüstan Hökumətindən xahiş etməyi kəndi vəzifəsiədd [hesab] edir.*

*Xariciyyə naziri əvəzinə: Ədil xan Ziyadxanov"*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

* Azərbaycan dəmiryolları xidmətçilərindən Limarov [adlı] bir nəfər İngilterə Məsai [Əmək] komissarına bir ərzihal verib onun məvacibinin verilməməsini məlum etmişdir. Məsai komissarı ərzihalı Məsai Nəzarətinə [Əmək Nazirliyinə] irsal ilə [göndərib] rica etmişdir ki, xidmətçinin məvacibi verilməsi barəsində lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

* Fevralın 18-ində Məsai Nəzarəti Ərzaq Nəzarətindən fəhlələr üçün ərzaq tədabiri [tədarükü] barəsində isticvabda [sorğuda] bulunmuşdu. Ərzaq Nəzarəti cavabən bildirmişdir ki, fəhlələr üçün beş vaqon un buraxmaq mümkün olacaqdır. Bununla belə, Nəzarətdən hangi dairələrdə və hangi məntəqələrdən buraxılmaq lüzumu haqqında məlumat istəmişdi. Şimdi məlum olmuşdur ki, zavod və ticarət və sənaye dəvairində [dairələrində] 49.000 fəhlə vardır ki, un onlar miyanında təqsim edilməlidir [onların arasında bölünməlidir].

## YENƏMİ ADAM ÖLDÜRMƏK ADƏTİ BAŞLANIR?

Biçarə Hüseyn Ərəblini qətlə yetirdilər. Məzlumə qoca anası əli dizində, gözü qapılarda qaldı.

Azərbaycanın sair qəsəbə və şəhərlərində adam qətli çox az təsadüfən ittifaq düşdüyü halda, Bakıda bu bir adi məsələlərdən sayılırdı. Rus hökuməti əsnasında bir gün olmazdı ki, Bakıda üç-dörd adam öldürülməsin. Doğrudur, o vaxtlar Qafqazın sair millətlərindən də hərdəmbir adam öldürürdülər. Məsələn bir vaxt gürcülər general Əlixanovu və ermənilər də Bakı qubernatoru knyaz

Nakaşidzeni öldürmüşdülər. Lakin müsəlman qatilləri ilə xristian qatilləri arasında yer-göycə böyük bir təfavüt var idi. Xaricilər məhz millət xainlərini, millətin düşmənlərini qətlə yetirib millətə rəva görülmüş zülmlərin intiqamını alırdılar. Bizim pəhlivanlar isə şəxsi ədavətlərdən naşi [şəxsi düşmənliklərinə görə] və bir çox dəfə də bimənə və cüzi bəhanələrlə qardaş qanı axıdıb, yetimlərin ah-nalələrini ərşədək ucaldırdılar. General Əlixanov Gürcüstanın Quriya mahalını atlı kazaklara dağıtdırmışdı. Knyaz Nakaşidze isə Bakıda erməni-müsəlman qırğını və Eçmiyədzində də kilsə mövqufatını [mallarını] zəbt etdirmişdi. Odur ki, bunları öldürmək qəsdi ilə neçə mərdanə gürcülər və ermənilər öz aralarında yəmin etdilər, məqamını gözlədilər, məramlarına nail oldular, millətlərinin də məhəbbətini qazandılar. Bunlara qatil deyil, "millətin nicatçıları" dedilər.

İrəlicə Nikolayın zalım generalı Lyaxov İranı hərc-mərc eylədi. Bunun öhdəsindən gələ bilən bir diliranə [ürəkli] igid tapılmadı ki, həm o vaxt İranı və həm də bu gün dağıstanlıları bu zülmün çəngalından [caynağından] qurtara biləydi! Xülasə, bizim qatillər fədakar deyillər. Öldürdükləri şəxslər də millət xainləri deyil, bəlkə əksərən mərhum Hüseyn Ərəbli kimi nahaqdan və bəzən də beş-on manatlıq dünya cifəsi [malı] üstündə öldürülmüş məsum adamlardır.

Buna səbəb nə olmuşdu ki, rus istibdadı dövründə hər yerdən artıq Bakının müsəlman əhalisi arasında qətl-qarət şiddət etmişdir? İştə sabiq Qafqaz canişinləri Qolitsin və Vorontsov-Daşkov kimi məlunların iblisanə bir tədbirləri idi ki, martınovların əlləri ilə müsəlmanlara rəva görünürdü. 1902-nci ildə knyaz Qolitsinə daklad verirlər ki, zəlzələdən Şamaxı şəhərinin müsəlmanları böyük xəsarətə düçar olmuşlar. Bunun müqabilində knyaz dakladçıya cavab verir ki, "Kaş, ruslara bir şey olmasın. Müsəlmanların canı cəhənnəmə! Məscidi-camiləri də qoy yerlə-yeksan olsun."

Erməni-müsəlman toqquşmasından sonra xəsarət tapmış əhalinin əhvalını öyrənmək üçün qraf Vorontsov-Daşkov Bakıya təşrif gətirir. Yolu üzərində yüzlərcə əhalinin yanmış evlərinə, dağılmış mədənlərinə, zərərdidələrin [zərər çəkənlərin] verilmiş şikayətlərinə əsla mültəfit olmayaraq [baxmayaraq] qraf həzrətləri birbaş Balaxanıdakı öz mədəni üstünə çapır. Şəxsi zərərini öyrənərək yenə Tiflisə qayıdır!

Bundan daha maraqlısı, Dondukov Qafqaza canişin təyin olunaraq Tiflisə varid olduğu [gəldiyi] halda, dəftərxana məmuru Qafqazın əhval və övzasından [vəziyyətindən] müxtəsərcə bir məlumat verir. Əzancümlə [o cümlədən], bunu da qeyd edir ki, Qafqazda qətl və qarət keçmiş sənələrə nisbət[ən] indi artmışdır. Bunun müqabilində Dondukov sual edir ki, "Bu qətl və qarətlərdən Qafqazın hangi milləti xəsarətə artıq məruz qalır?" "Hamıdan artıq müsəlmanlar xəsarətə məruzdurlar" - cavabını aldıqda, çox gözəl, шутъ съними deyə cavabını vermişdir!

İşbu məzkur [deyilən] tarixi vəq'ələri burada qeyd etməkdə məqsədim bunu sübut etməkdir ki, rus generalları Qafqaza təşrif gətirdikdə ancaq rus millətinin müraatı [himayəsi] ilə bərabər mənfəəti-şəxsiyyələrini güdürdülər. Bunların nəzərində mühacir bir xaxolun murdar olmuş ulağı, məqtul müsəlmanın qan bahasından artıq tutulurdu. Bunların zahirən və batinən yeritdikləri politikaları bundan ibarət idi ki, qoy, yüzlərcə, minlərcə müsəlmanlar bir-birini öldürsün, birbirini tarumar etsin, lakin bir xoxolun burnu qanamasın, bir rusun toyuğuna kiş deyilməsin.

Böylə əfkari-fasidə [pis fikirlər] ilə məmləkətimizə təşrif gətirmiş ağaların bizə kəramət etdikləri ənamları [verdikləri hədiyyələri] Martınov kimi rüşvətxor və alçaq-mizac jandarmalardan başqa bir şey ola bilməzdi. Odur ki, azərbaycanlılar ədalətli hakimin üzünü illərcə görməzdilər. Təsadüfən görsəydilər, az bir müddətdən sonra yenə buna həsrət qalardılar. Zatən müsəlman əhalinin fəsadına [pozulmasına] çalışan Qafqaz canişinləri onların arasına da rüşvətxor, qansoran və fəsadçı qubernatorlar təyin edirdilər ki, bunların da ən müfsidi [fitnə-fəsad çıxaranı], ən qəddarı Bakıya göndərilirdi. Bakının neft cəhətindən milyonlarca mədaxili rus hökumətini düşündürürdü. Neft mədənlərinin mənbəyi olan "Abşoran" [yarım]adası başdan-başa müsəlmanlarla məskun idi.

Buranı boşaltmaq məqsədi ilə əhalinin nüfuzunu qırmaq lazım idi. Bunu öylə bir mahiranə üsul ilə yaratmaq lazım idi ki, həm iş də öz qaydası ilə yerisin, həm də hökumətin böylə bir şeytənətindən [fitnəsindən] müsəlman əhali xəbərdar olmasın. Həyalı, mütədəyyin [dindar] və sadədil [sadəlövh] bir millətin arasında şərarət [yamanlıq] və əxlaqsızlıq toxumunu saçmaq niyyəti ilə Bakı dairəsinə fəsadçı, tərbiyəsiz və rüşvətxor qubernator və pristavlar göndərdilər. Cüzi qəbahətlər üstündə əhali cəzalanır, cərimələnir, polis şərarələrindən [mərdiməzarlığından, şərindən] azad olmaq üçün rüşvət almaq və vermək üsulu ittixaz olunur [qəbul edilir]. Qradonaçalnikindən başlayaraq axırıncı qaradovoylara qədər tamam polis məmurları rüşvətçiliyə qurşanırlar. Böylə ki, bir azdan sonra əhali polis rüşvətinə bir dərəcədə alışırlar ki, ən böyük cinayəti rüşvət vasitəsilə örtüb basdırırlar. Rüşvətə ümidvar olaraq əhali bir-birinin haqqına təcavüz edir. Neftli yerlərin qəsbi, neft oğurluğu və bunlardan nəşət etmiş [irəli gəlmiş] insan qətli icad olunur. Şərq aləmində intiqam adəti olduğundan, hər qətlə qətl ilə cavab olunur. Bu tərəf yenə qətl, o tərəf yenə intiqam...

Dudmanlar [böyük ailələr] dağılır, möhtəşəm familiyalar yurdunda bir pişik də qalmayır. Müsəlmanlar ac qurd kimi bir-birinin canına daraşır. Müstəbid generallara da müsəlmanların bu halı lazım idi ki, məramlarına nail oldular. Bakının küçələrində, günün günorta çağı açıqca adam öldürülürdü. Xüsusi bir sənət icad olunmuşdu ki, adına "qoçuluq" deyirdilər. Qoçuların vəzifəsi pul ilə adam öldürmək idi. Bunların şərarətindən [şərindən, pisliyindən] iztirab içində yaşayan əhali gördüklərini gizlədib məhkəmə şəhadətliyindən qaçırdılar. Haqqaniyyəti deməzdilər. Nahaq qanlar aralıqda batıb gedərdi.

Müsəlmanların bu pərişanlığı Azərbaycan Hökuməti təşkilinə qədər davam etdi. Bakının birinci qubernatoru Bəhaəddin cənabları türklərin şiddətli cəza-

larına istinadən müsəlmanların qətlkarlıq kimi adatı-qəbihələrini [pis adətlərini] kökündən qazıyıb tərk etdirmişdi. Türklər getdilər, idarəni öz əlimizə aldıq. İndi qoçular yenə baş qavzayıb rus zamanında öyrəndikləri sənətlərinə şüru etmək [başlamaq] istəyirlər. Adam öldürmək fəqərəsi [məsələsi] yenə başlanır. Zənn edirəm ki, hökumətimiz bu məsələni başlı-başına buraxmayıb caniləri, qatilləri üqubati-şədidə [ağır cəzalar] ilə cəzalandırsın. Buna dair fövqəladə tədbirlər ittixaz etsin [tədbirlər görsün]. Caniləri gizlədib hökumətə verməyən əşxası da [şəxsləri də] təhti-məhkəməyə alsınlar. Yeni qubernatorun da ciddi fəaliyyəti sayəsində ümidvaram ki, insaniyyətə yaxışmayan bu vicdansızlıq tezliklə aramızdan götürülsün.

*Fərhad Ağazadə*

## QƏFLƏT ETMƏMƏLİYİZ!

Mart facieyi-əliməsini [ələmli mart faciəsini] və daşnak-bolşevik dövri-mənhusəsini [nəhs dövrünü] hər bir azəri türkü dərxatir etdikdə [yada saldıqda] nə qədər düşüncələrə dalmış olsun gərək və işbu məzkur [deyilən] dövrdə biz müsəlmanların başına gələn cümlə bəla və cövr-cəfaların ən yeganə səbəbi bizcə qəflətimizdir. İştə bu qəflətdir ki, qaç [neçə] əsrlərdən bəri yalnız biz azəri türklərini deyil, ta həttа bütün aləmi-islamı belə tövqif və təxrib etmədədir [geri qoymaqda və pozmaqdadır]. Bir millət ki, qəflət kimi mühlik [öldürücü] bir mərəzə düçar oldu, ətrafda bulunan vüquata [hadisələrə] göz yumdu, istər o millət nə qədər artıq ta həttа çinlilər qədər mütəəddid [çoxsaylı] olsun, yenə də pozular və münqəriz olar [süqut edər]. Qəvanini-hökumət və üsuli-idareyi-dövlət [hökm etməyin qaydaları və dövlət idarəsinin üsulları] öylə bir şeydir ki, ilk zamanlardan bəri əldən-ələ, millətdən-millətə keçməkdədir. Vüsətlənməkdə və təcdid olunmaqdadır [genişlənməkdə və yenilənməkdədir]. Vəqta ki [o vaxt ki], barbar istilaları dünyanın bir çox məmur [abad] yerlərini paymali-vəhşət eylədi [barbarlığın tapdağına saldı], Qərbi Romanı süpürdü və onların mədəniyyətini dağıtdı və bu mədəniyyətin bəqiyyəsi [bu mədəniyyətdən qalan] manastırlara, Şərqi Roma imparatorluğuna, xülasə nəsraniyyətə iltica eylədi [xristianlığa pənah apardı].

Vəqta ki, xristianlığın nüfuzu ilə barbarlar bir dərəcəyə qədər sükunət buldular, o bəqayayi-mədəniyyə [mədəniyyətin qalıqları] qərbdə manastırlardan və aləmi-nəsraniyyədən yenidən doğmağa başladı və bu yeni dövr bir dövri-təcəddüd [yenilənmə dövrü] namını [adını] aldı. Nədənsə bu yeni tülua [doğuşa, günəşin doğmasına] qarşı biz göz yumduq, daha doğrusu qəflət uyqusuna dalıb qaldıq. Bu mədəniyyəti-cədidə sayəsində Yevropa aləmi bir qaç səltənəti-müəzzəmə və möhtəşəmə [əzəmətli və ehtişamlı dövlətlər] təşəkkül etdi. Şərq aləmi, xüsusən islam millətləri saiqeyi-cəhl iləmi [cəhalət səbəbindənmi], bilməm nə iləmi bu dövri-cədidəyə göz qapadı. Öyrənmək və bilmək belə istəmədi. İstəməyincə də mütəzərrir oldular [zərər çəkdilər] və gün-gündən tənəzzülə üz qoymağa başladılar və bugünkü acınacaq bir hala düşdülər.

Bu ölümdən betər qəflətimizin sayəsində dəfəatla mütəzərrir olduğumuz halda, şimdi bari olsun yenə belə ibrət götürmək əsəri bizdə belə görünməyir. Başqalarda bir təcəlli olur, bir ixtira olur, bir dövr açılır – biz bixəbəriz və ya bir dövlət batar, bir qitə, bir cahan, bir Amerika başdan-başa kəşf olunar – biz biçarə yenə də bixəbəriz. Guya ki, bizi başqalardan bir səddi-möhkəm ayırmış.

Dindaşlar, bəsdir qəflət uyqusunda qaldınız! Bidar olunuz [oyanınız], ətrafınıza baxınız, düşününüz! Nerədəsiniz və nerəyə gedirsiniz? Ətrafınızda qopan qiyaməti bir müşahidə ediniz. Bu gün tam dünyaya bir vəlvələ düşmüş, hərə öz hüququnu istəyir. Yəhudi kimi hökumətsiz bir millət cümhuriyyət təşkil edir. Üç-dörd milyondan fəzlə olmayan yunan milləti on iki-on üç milyonluq Osmanlı türklərini nəinki Frakiyadan, ta həttа Anadoludan belə qovmaq arzusuna düşür və Yevropaya venizeloslarını rəcəzxanlıqla [meydan oxuyaraq] göndərir.

Nəhayət, heç olmasa da qonşumuz gürcü millətinin sözün tam mənası ilə milli bir əsas üzrə qurulmuş cümhuriyyətinə diqqət etməliyiz və bacardığımız qədər vaxtı qənimət sanaraq cavan hökumətimizin möhkəmləşməsinə səy etməliyiz. Hökumətimizin möhkəmləşməsi yalnız hökumət başında duranların öhdəsinə deyil, hər bir istiqlaliyyət və hürriyyət tərəfdarı olan vətən övladının vəzifəsidir. İstiqlaliyyəti və hürriyyəti yalnız quru sözlə deyil, mal və can ilə müdafiədən çəkinməməlidir. Təəssüflər olsun ki, biz istiqlaliyyəti və hürriyyəti para qazanmadan, möhtəkirlikdən ibarət bilib onun müdafiəsini yalnız hökumət başında duranların öhdəsinə buraxmışız. Əgər biz məzkur [deyilən] kəlmələrin mənasını düşünmüş olsaydıq, sevgili vətənimizin müdafiəsi üçün ən haizi-əhəmiyyət olan [əhəmiyyət daşıyan] əsgərlik kimi müqəddəs bir vəzifədən boyun qaçırmazdıq və qəflət edib ətrafa göz yummazdıq. Əgər qəflət etməmiş olsaydıq, Mart facieyi-əliməsini eyicə düşünərək ətrafa kamali-diqqətlə bir nəzər etmiş olardıq.

Şimdi, vətəndaşlar, qəflət uyqusundan bidar olalım [oyanalım]! Dünü bir dərsi-ibrət hesab edərək bu günü düşünəlim. Qarşımıza gələn hər bir bəlanın önünü almaq üçün lazımi təşəbbüsatda bulunalım. Çünki:

Səri-çeşmə bayəd giriftən bəbil
Çü por şod nə şayəd güzəştən bəpil.

*Mirzəcani*

## İRAN İŞLƏRİ

**Tehranda Rusiya səfarəti**

“Znamya truda” qəzetəsi yazır ki:

“Yedinaya Rossiya” qəzetəsinin müxbiri Tehranda general fon-Etter başda olmaq üzrə sabiq padşah səfarətinin fəaliyyətə başlaması münasibətilə sevinir. Məzkur [adı çəkilən] heyətin bu axır illər fəaliyyətindən, tarixindən bir şəmmə [bir az, cüzi] yazaq.

Müharibəyə qədər İran iki məntəqeyi-nüfuza təqsim olunmuş idi [iki nüfuz sahəsinə bölünmüşdü]. Cənubi İran İngiltərə qəyyumluğuna verilib, şimalda isə

rus nüfuzu möhkəmləşmişdi. Bu zamandan başlayaraq İran müstəbid Rusiyanın iqtisadi qulu olmuş idi. Bir zaman İran zahirdə müstəqil bir halda olub, özünün Parlamanı (Məclis) və öz hökuməti var idi. Amma həqiqətdə İranı və iranlıların müqəddəratını aşkara və təsəvvürü qeyri-mümkün bir surətdə əllərinə alan rus səfiri və qüvvətli rus qoşunları idilər. İranda rus siyasi nümayəndəsinin bütün keçmiş[i] intriqa, rüşvətxorluq və bədbəxt İran camaatının gözyaşları və İran vətənpərəst və inqilabçılarının boğulub asılması ilə örtülüdür. "Məşhur" general Snarski, Fyodorov və onlar kimilərin hərəkətləri kimə məlum deyildir? İndiyə qədər iranlılar rus səfirinin tələbatı ilə qraf Vorontsov-Daşkov tərəfindən Ənzəli, Rəşt, Qəzvin və Təbrizə göndərilən cəza dəstələrinin "ağalıq" etdiklərini dəhşət və qorxu ilə yada salırlar. Rus diplomatiyasının İranda xudsəranə [özbaşına] hərəkətdə bulunması əleyhinə protesto etmək istəyən məşhur və iranlılar tərəfindən ən möhtərəm sayılan müctəhidin asılması əmrini verən general-konsul [Aleksandr Yakovleviç] Millerin tutduğu işlərini indiyə qədər Təbrizdə yaddan çıxarmırlar. Bundan əlavə, İran inqilabı və Rusiya səfiri tərəfindən rus pulu və süngüsü ilə məxlu [taxtdan endirilmiş], müstəbid Məhəmmədəli şahın təzədən taxta çıxarılması təşəbbüsatı yaddan çıxan şeylərdən deyildir. İran inqilabçılarının xəl edilmiş [hakimiyyədən salınmış] irtica ilə mütəşəkkil bir surətdə mübarizə eylədikləri bir zamanda Tehrandan verilən əmrə görə, Qəzvində olan rus konsulu iranlıların rus konsulxanasına hücum etmələri macərasını düzəltdikdə dərhal Ənzəlidə hazırlanmış piyada, süvari və topçu dəstələri gətirilmişdir.

Hərgah, ingilislər müdaxilə etməsəydilər, İran inqilabından bir nişanə belə qalmazdı.

Bizim diplomatiyamızın hakimiyyəti altında İran xanları, bəyləri, mollaları və qeyri məmurları öz bədbəxt məmləkətlərini dilənçi bir hala salmışlar ki, halhazırda İran ölü bir cəsəd halındadır. Şimali İranın külli miqdarda olan təbii sərvəti, vasitəçilik edən rus səfiri tərəfindən rus macəraclarına [avantüristlərinə] dəyər-dəyməzinə paylanırdı və bu vasitəçiliklə rus səfiri böyük mənfəətlərə malik olurdu. İndiyə qədər davam edən kargüzarlıqlar, yəni İran təbəələri ilə ruslar arasında olan ixtilafa baxmaqdan ötrü təşkil olunan məhkəmələr kimin yadından çıxmışdır? Bu məhkəmələrdə hakimlik edən rus konsulları kefləri istədiyi kimi hərəkətdə bulunub, külli miqdarda dövlət qazanmışlardır.

Rusiya inqilabı başlandıqda rus səfarəti və rus konsulxanaları kəskin bir surətdə öz əhəmiyyətlərini itirdilər. Qara irticanın qəhrəmanları olan gildenbrandtlar, kirsanovlar və Kotlubovski səslərini içəri çəkib bilaixtiyar pusdular. İranlılar Ənzəlidən Kərəndə qədər İranı zəbt edən rus əsgərlərinin vəkilləri şurasına [əsgər deputatları sovetinə] pənah gətirdilər. Fəqət Tehranda olan heyət təslim olmurdu. Hər gün rus səfiri tərəfindən yüz min manatlarca xərci olan təntənəli ziyafətlər tərtib edilib, Rusiyanın inqilabından xilas olması üçün qədəhlər qaldırılırdı. Kerenskidən sonra bizim İran diplomatiyamız öz qaragüruh





arzusuna nail oldu. Şkuro və bunun misalında ordudan qovulmuş "Rusiya nümayəndəsi" olan rus zabitləri ilə bir yerdə "Boje tsarya xrani" nəğməsini oxuyub, inqilabı ləkələyib, özlərinin ləzzətli və şad keçirdikləri həyatı təəssüflə yad edirdilər. Lakin inqilab gəldikcə irəlilədiyindən, həmin diplomatlar ingilislər tərəfinə keçməkdən başqa bir yaxşı şey tapammadılar.

İndi "Yedinaya Rossiya" qəzetəsi müxbirinin yazdığına görə, Tehranda olan rus heyəti dirilib, Denikin və Kolçakla münasibata [əlaqəyə] girişmişdir. İranda yaşayanlar və çarizm dəhşətlərinin bu qəhrəmanlarını tanıyanlar tezliklə qara diplomatik korpusunun diplomatları olan bizim diplomatların məharətlərini eşidərlər. Bu diplomatik korpusunun fəaliyyəti hətta padişahlıq Dumada belə məlum idi.

## BAKI XƏBƏRLƏRİ

**Hürriyyət bayramı**

Çaharşənbə [çərşənbə] günü martın 12-sində Bakı xalqı, Azərbaycanın paytaxtı böyük Rusiya inqilabının iki illiyini yad edəcək, o günü, hürriyyət bayramını saxlayacaq [qeyd edəcək].

Rusiyanın hürriyyəti yalnız Rusiyanın deyil, bütün Şərq aləminin, ələlxüsus türk dünyasının hürriyyəti deməkdir. Azərbaycan istiqlalının mənbeyi-həyatı, şübhəsiz ki, Rusiya inqilabı və Rusiya hürriyyətidir. Yaşasın 12 mart! Yaşasın böyük Rusiya inqilabı!

Siz də, ey qardaşlar, ey millətdaşlar, bu günü bayram saxlayın! Milli bayraqlarla inqilab bayraqları altında Parlaman qarşısına gəlib sevindiyinizi göstərin. Deyin ki, rədd olsun istibdad, yaşasın istiqlal!

**Müsamirə**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" nəfinə [xeyrinə] mart ayının 18-ində gözəl bir proqram üzərinə təntənəli bir müsamirə [konsert, tədbir] veriləcəkdir. Müsamirə iki qismə ayrılmışdır. Birinci qismi saat 12-yə qədər davam edəcək və səhnədə müxtəlif şeylər göstəriləcəkdir. Saat 12-dən sonra məşhur artist və artistka tərəfindən milli rəqslər, deklarasiyalar və sairə olacaqdır.

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi 1919-uncu sənənin mədaxil və məxaric smetası tərtibinə şüru etmişdir [başlamışdır].

*Bələdiyyə İdarəsinin Bələdiyyə Məclisinə təqdim edəcəyi məruzəsi. Bələdiyyə Məclisinin 1919-uncu sənəsinin 4 fevral qərardadına məbni [əsasən] Bələdiyyə İdarə əzasından [üzvlərindən] Arutyunov ilə Hacınskinin yadigarı [xatirəsi] haqqında Bələdiyyə İdarəsi işbu qətnaməni qəbul və təsdiq etmişdir:

1. Arutyunovun əksini Bələdiyyə idarəsinin Maliyyə şöbəsi üzvü kabinəsində asmalı.

2. Arutyunov naminə stipendiya [təqaüd] təyin etməli:

a) Bir stipendiya Mixaylovski aliibtidai məktəbi cənbindəki [nəzdindəki] buxalteriya kurslarına;

b) Biri Mariinski ünas [qızlar] məktəbində;

c) Biri də Bakı ali məktəbində.

3. Arutyunovun oğlu üçün edadi və ali məktəblərdə şəhər stipendiyası təyin etməli.

4. Hacınski naminə də stipendiya təyin etməli:

a) Üç stipendiya Müsəlman ali-ibtidai məktəbində;

b) Biri Birinci Bakı zükur [oğlanlar] gimnaziyasında;

c) Bir stipendiya da Bakı ali məktəbində.

**Hadisat**

* Bolşoy Morskoy küçədə sükunət edən [yaşayan] Əbdül Rəhmanov polisəyə məlum etmişdir ki, martın 6-sında axşam saat 7-də 5-inci Qanlıtəpə küçəsinin küncündə 4 nəfər naməlum bədəfkarlar [canilər] onu saxlayıb öldürmək təhdidi ilə 3250 manatını alıb qaçmışlardır.

* Martın 6-sında Kamenisti küçədə olan "Dekadens" hamamına 70 sinnində bir qoca kişi gedib nömrəyə daxil olmuşdur. Hamamçı onun gec çıxmasından şəkkə düşərək nömrənin qapısını açmış və kişinin vannada ölü düşdüyünü görmüşdür. Meyit təşrih [yarma] otağına göndərilmişdir.

* Martın 6-sında Suraxanski küçənin tinində 4-üncü uçastokun okolotoçnısı qaradavoy Əlibala Bala oğlunu qəflətən güllə ilə vurub yaralamışdır. Yaralı xəstəxanaya aparılmışdır.

* Martın 7-sində axşam saat 9-da Kladbişinski küçədə Xankişi Quliyevin evində Yakov Şpitovun mənzilində forsunkadan od alaraq yanğın vaqe olmuşdur. Xəsarətin miqdarı 10 min manatdır. İnsan tələfatı yoxdur.

* Saray kəndinin əhli Məşhədi Abbas Sevdim oğlu polisəyə məlum etmişdir ki, martın 4-ündə o, şəhərdən kəndə gedərkən yolda naməlum bir şəxs onu saxlayıb öldürmək təhdidi ilə atını alıb qaçıb gizlənmişdir. Atın qiyməti 5 min manatdır.

**Oğurluq**

* Martın 3-ündə gecə Hacı Zeynalabdin Tağıyevin Qorçakovski küçədə olan bəzzaz malı [parça, arşınmalı] anbarından 10950 manatlıq mal oğurlanmışdır. Oğrular həman gecə, səhər saat 6 radələrində 5-inci uçastok qaradavoyu tərəfindən mal ilə bərabər tövqif [həbs] edilmişlərdir. Tövqif edilənlər İran rəiyyətləri Haşım Şahbaz oğlu, Zaki Həsən oğlu, Malaxan Vəli oğlu və Abdulla Əliəkbər oğlu olub, istintaqda məlum etmişlər ki, onları bir nəfər erməni Tağıyev anbarından mal aparmağa dəvət etmişdir. Burada bir nəfər başqa ermənilər 8 tay malı onlara verib aparmaq istəmişlərsə də tövqif edilmişlərdir.

* Əxzi-əsgər [əsgərliyə çağırış] idarəsi rəisi Bakı qubernatoruna məlum edir ki, gecə martın 7-sində idarənin həyətindən bir faytonla iki rəs [baş] at oğurlanmışdır.

**Öldürmək**

* Məşqət [Maştağa] kəndinin polis müdiri, qalabəyinə məlum etmişdir ki, martın 4-ündə Ləhiş bağlarından naməlum qatillər tərəfindən öldürülmüş olan Məşqət kəndi sakini Seyid Baqi Ağamir oğlunun meyiti tapılmışdır.

* Martın 5-ində naməlum bədəfkarlar Tarqovı küçədə Hacıyevin kantoruna gəlib dəxldarı [kassiri] öldürməklə hədələyərək qızıl papiros qabını və 15349 manat pulu qarət edərək qaçmışlar.





**BAKI QUBERNİYASINDA**

* Cavad pristavı məlum edir ki, Xəlfələr kəndi sakinləri Allahverdi Qənbər oğlu ilə Seyfulla Hacı Bədir oğlunun arasında mübahisə vaqe olaraq Seyfulla onu qılçından yaralatmışdır.

* Qaravəlli kəndi yüzbaşısı Cavad uyezd naçalnikinə məlum edir ki, Mirzəli kəndi sakini 11 yaşında Əlinağı Vəli oğlu Dəlilər kəndində olduğu halda Məsum Əmiraslan oğlunun təhriki ilə onun – Məsumun arvadı Mirvarid Ələsgər qızını öldürmüşdür. Müqəssirlər həbs edilmişlərdir.

* Quba uyezd naçalniki qubernatora məlum edir ki, martın 1-ində Tülər kəndinin sakini Hacı Murad Əsəd oğlu öz arvadı Aybala Qurban qızını xəncərlə yaralamışdır.

* Şamaxı uyezdi Kalva kəndinin əhli Molla Mehcan Hacıəfəndi oğlu məlum etmişdir ki, həman kəndin sakinləri Ədil bəy və Rzaəli bəy oğlanları onun oğlu İsanı güllə ilə öldürmüşlərdir.

* Şamaxı qəza qaimməqamı [qəza rəisi] Bakı valisinə məlum edir ki, neçə vaxt bundan əqdəm [qabaq] öldürülmüş erməni keşişi Saqiyan kəndinin əhli Rüstəm Gülbəndiyan[s] və ailəsinin qatilləri tövqif [həbs] edilib təhti-mühakiməyə [mühakimə altına] alınmışdır.

* Şamaxı qaimməqamı Bakı qubernatoruna məlum edir ki, bir ay yarım bundan əqdəm [əvvəl] Gilan Qorlanı kəndinin əhli Tərlan Murad [oğlu] naməlum səbəbdən öz arvadı Leyla Əlihəsən qızını öldürmüşdür.

**Fəhlə həyatından**

8 mart tarixində şənbə günü saat 2-də Sabunçu-Balaxanı dairələri mədənlərində çalışan bütün müsəlman işçilərinin bavəsiqə intixab edilmiş [vəsiqə ilə seçilmiş] nümayəndələri tərəfindən mədənlər mərkəzi "Müsavat" idarəsində təşkil edilmiş işçilər müşavirə iclasında bəzi iqtisadi və siyasi məsələlər müzakirəsi cümləsində Denikin Könüllü qitəatının [hissələrinin] Dağlılar Hökumətinə qarşı hərəkati-təcavüzkaranəyə başladıqları da müzakirə edildi. Nəticə, ingilis Qafqaziya qolordu [korpus] komandanı və Müttəfiqlər nümayəndəsi cənab general Tomsona Azərbaycan nümayəndəsi vasitəsilə bu qərarla müraciət edilməsi qərara alındı:

Müttəfiq dövlətlər Qafqaziya nümayəndəsi cənab general Tomson canibialilərinə

Qomşu arxadaşlarımız Dağıstan füqərayi-kasibəsinin [proletariatının] hüquqi-mədəniyyə və siyasiyyələrinə Denikin qitəatı tərəfindən edilən haqsız təcavüzə qarşı Bakı neft mədənlərində çalışan biz müsəlman işçiləri laqeyd qalmamız imkan xaricindədir. Binaənileyh [ona görə], Qafqaziya millətlərinin gələcək müqəddəratı beynəlmiləl Sülh Konfransında həll və təyin edilincəyə qədər məzkur [adı çəkilən] millətlərin hüquqi-ictimaiyyə və siyasiyyələrini bütün xarici maneələrə qarşı müdafiə edəcəyinizi təsrihən [açıqca] vəd etmiş olduğunuz, nəzərinizdən məhv olmayacağına əmin olduğumuzdan, zati-alilərinizə müraciətən Denikin ordusunun Dağıstandakı hərəkati-təcavüzkaranələrinin bir an əvvəl dayandırılmasına əmr verilməsini canibi-alilərinizdən rica edəriz. Artıq fəsad dairəsinin vüsətlənib qan tökülməsinə meydan ver-

məyəcəyinizə əminiz.

*İclas sədri: İbrahim Cahangirzadə*
*Katib: [Əbdürrəhim] Yusifzadə*

**Balaxanı kəndində**

2 mart tarixində, yekşənbə [bazar] günü saat 12 zəvalda [günorta] Balaxanı kənd əhalisi Sovet Syezd məktəb binasında cəm olub zirdə mühərrər [aşağıda yazılmış] məsələləri mövqeyi-müzakirəyə qoydular:

1) Hökumətin istefası;
2) Su məsələsi;
3) Məktəb və təbib məsələsi.

Müzakirə bə'dində [müzakirədən sonra] "Azərbaycan" qəzetəsi vasitəsilə Parlaman heyəti-məbusanına müraciətən fövqəlzikr [yuxarıda deyilən] məsələlər xüsusunda lazımeyi-iqdamata [lazımi addımların atılmasına] müsaidələrini rica et-mək ümumiyyətlə qət və təsvib edildi [qərara alındı və bəyənildi]:

Biz, Balaxanı kənd əhalisi;

1. Hökuməti-hazirənin böylə bir mövqedə istefa etdiyi və istefanın Parlaman tərəfindən qəbul edildiyi halda yeni təşkil ediləcək Kabinənin təşkili təxir edilməsi və yaxud təşkilində ixtilafa yol verilməsi məmləkət üçün sui-nəticə verəcəyini nəzərə alaraq, bilatəxir [dərhal] Kabinə təşkilinə şüru edilməsini [başlanmasını], təşkil ediləcək Kabinə isə millətin əksəriyyətini təşkil edən zəhmətkeş xalq camaatının amalına müvafiq türklük və islamlıq tərəfdarı olmağı ilə fəhlə və əkinçi camaatın zəhmətini təmin edici əşxasdan [şəxslərdən] mütəşəkkil demokratik bir hökumət vücuda gətirilməsini təmənna edəriz.

2. Zərurati-həyatiyyə miyanında [yaşamaq üçün zəruri olan şeylər arasında] suyun dərəceyi-əhəmiyyəti bəyani-ehtiyacından müstəğni olduğu [nə qədər vacib olduğunu deməyə ehtiyac olmadığı] cəhətə qəhti-ab [su qəhətliyi] üzündən çəkdiyimiz üsrəti [çətinliyi] şərh etməyə lüzum görməyərək, su tədarükü zimnində [barəsində] lazım gələn məhəllinə işar edilməsinə [lazımi yerlərə məlumat verilməsinə] müsaidə buyurmağınız rica olunur.

3. Qəryəmiz [kəndimiz] daxilində "Sovet syezd" tərəfindən bina edilmiş məktəb və xəstəxanada, keçən sənələr məzkur müəssisə tərəfindən müəllim və təbib bulunduğu və səneyi-cariyyə [cari ildə] müəllim və təbib göndərilməməsi nədən nəşət etdiyi [nədən irəli gəldiyi] məlumumuz olmadığı cəhətə, məzkur müəssisəyə keçən sənələr olduğu kimi müəllim və təbib göndər[il]məsi xüsusunda iqdamatda bulunmağınız mərcudur [təşəbbüs göstərməyiniz xahiş olunur].

*Sədr: Sadıq Sadıqzadə*
*Katib: Balasadıq Zeynalzadə*

**Ramana kəndində**

3 mart tarixində, düşənbə [bazar ertəsi] günü saat 11 əvvəl radələrində Ramana kənd əhalisi Nəşri-Maarif məktəb binasında ictima [yığıncaq] edib sədarətə [sədrliyə] Şükür Balazadəni, kitabətə [katibliyə] Böyükağa Vəlizadəni intixab etdikdən [seçdikdən] sonra kəştiyi-müqəddəratımızı [müqəddəratımızın gəmisini] sahili-nicata [xilas sahilinə] yanaşdırmaq uğrunda şu kəştinin naxudası [kapitanı] məsabəsində [mövqeyində] olan hökumətə müavinətdə hər dürlü fədakarlığa hazır olmaq, bütün azəri türklərinin hər bir fərdinin həm vəzai- fimilliyyəsindən olduğu bir zamanda Şurayi-Hökumətin kəndi vəzifəsindən istefa etdiyi və istefanın Parlaman tərəfindən qəbul edildiyi və böylə bir mövqedə yeni Kabinə təşkil edilməsi təxir edildiyi [gecikdirildiyi], yaxud Kabinə təşkilində ixtilafa meydan verildiyi təqdirdə cərəyani-ümuri-idareyi-məmləkətə [ölkənin idarə edilməsi işlərinin gedişinə] də səktə vaqe olacağından [zərbə vurulacağından] vüqusu qeyri-məmul [baş verməsi arzu edilməyən] hadisələr baş göstərəcəyi ehtimali-qəvi [güclü ehtimal] daxilindən olmaq məsələləri müzakirə edildi. Nəticədə iqtizayi-zamana təb'ən [zəmanənin ehtiyaclarına tabe olaraq] millətin əksəriyyətini təşkil edən xalq camaatının amalına müvafiq demokratik bir hökumət təşkilinə bir an əvvəl iqdam edilməsi zimnində [girişilməsi barəsində] Parlaman heyəti-məbusan[ın]a müraciət etmək qərarı qəbul edildi.

*Sədr: Şükrü Balazadə*
*Katib: Böyükağa Vəlizadə*

**AZƏRBAYCANDA**

**Salyandan**

Bu günlərdə Salyan və ətrafından əsgər toplanmaq işi kamali-müvəffəqiyyətlə davam edir. Salyandan toplanan əsgərlər ikinci dəfə olmaq üzrə Gəncə şəhərinə sövq və təhşid edilmişdir [yığılmışdır]. Əsgərlər sövq olunduğu gün şəhər əhalisinin qismi-əzəmi [əksər hissəsi] və qeyri-müslim vətəndaşlardan dəxi müşayiətdə isbati-vücud [iştirak] edirlərdi. Əsgərlər musiqinin tərənnümsaz olması ilə müşayiət edilirdi. Vapora bindikləri zaman o günə və şimdiki siyasətimizə dair nitqlər söylənmişdir. Əhalimizdə bilümum, əsgərlərimizdə bilxüsus ruh yüksəkliyi müşahidə olunurdu.

Hərçənd, bəzi əsgərlikdən qaçanlar və yaxud kəndi övladlarını verməmək üçün bin dürlü "vəsilələrə" təvəssül edənlər [vasitələrə müraciət edənlər] görülürsə də, bu hal yenə tərbiyeyi-ibtidaiyyənin olmamasından və əsrlərlə məhkumiyyətin nəticeyi-məş'uməsi [pis nəticəsi] olaraq hübbülvətən [vətəni sevmək] hissi və hakimiyyət ruhundan büsbütün düşürüldüyümüzdən irəli gəlmişdir, zənnindəyiz. Gələcək az zamanda bu babdakı [barədəki] səviyyeyi-izanımızın [anlayış səviyyəmizin] daha yüksək olmasına iman eyləriz. Zira hər nə qədər bir buçuq əsrlik bir müddət zərfində "rusifikasiya" (ruslaşdırmaq) politikasının hər dürlüsünə məruz qalaraq hakimiyyəti-milliyyə zövq və ruhundan düşürüldüksə də, yenə türk milləti-nəcibəsinə məxsus Cənabi-haqqın vədiası [Allahın əmanəti] olan zəkavət, şücaət, mətanət kimi təbii xassələrimizi hənüz itirməmişiz. Fəqət bunları şu hissiyyati-təbiiyyəmizi oyadacaq, cünbüşə [hərəkətə] gətirəcək o vasitələrə, qüvvətlərə möhtacız. Bu halı Salyan müharibəsində 45 nəfərdən ibarət olan Osmanlı türklərinin arxasında olaraq, "bolşevik" boyasına boyanmış kəsrətli [çoxsaylı] və fəqət hərbcə müntəzəm daşnaklarla vətəni, namusu uğrunda qəhrəmancasına çarpışaraq qalib gələn gənclər, cavanlarımız artıq isbat etdilər. Məqsədim məqalə yazmaq deyil,

xəbər yazmaq olduğu üçün ixtisarən keçirdim.

**Muğanın açılması**

Qanlı Mart hadisəsindən bu ana qədər Azərbaycanın cüzi-layənfəki [ayrılmaz hissəsi] olub da üzümüzə bağlı qalan Lənkəran qəzası, bərəkət versin, şimdi açılmaq üzrədir. Bir qaç vaxtdan bəridir ki, məzkur [adı çəkilən] qəza ilə münasibatımız başlanmışdır. Hər gün yüzlərlə arabalar Salyana ərzaq gətirməkdə və Salyandan isə bəzi zəruriyyat alaraq götürməkdədirlər. Yollar qaçaqlardan bir dərəcəyə qədər təmizlənmişdir. Lakin kəndisini "Muğan Cümhuriyyəti" təsmiyə edərək [adlandıraraq] ortalığa çıxan "hökumət" hənuz haqsızcasına, ...cəsinə kəndi inadında bərdavam olmaqdadır [davam etməkdədir].

*İskəndərzadə*

* Gəncə qubernatoru Xariciyyə naziri namına [adına] bu məzmunda teleqraf göndərmişdir:

Novo-Bayəzid uyezdi, Göyçə mahalı nümayəndələri mənim yanıma gəlib özlərinin qayət müşkül bir halda olduqlarını söyləmişlərdir. Ermənilərin müntəzəm [nizami] qoşunları müsəlman kəndlərinə hücum edərək onların əmlakını və ərzaqlarını əllərindən alırlar və əhalini öldürürlər. Onlar Azərbaycan Hökumətinə müraciətlə müavinət edilməsini rica edirlər.

* Toxulçalın yüzbaşısı Sultanov Tovuzdan bu məzmunda bir teleqraf göndərmişdir:

Novo-Bayəzid mahalının erməniləri müsəlmanların Bana kəndini bombardman edirlər. Külli tələfat vardır. Sizin binagüzarlığınızı [sərəncamınızı] gözləyiriz.

*Qubernator: [İbrahim ağa] Vəkilov*

## GÜRCÜSTANDA

**Axıska cəbhəsində hücum**

Gürcüstan ərkani-hərbi [qərargahı] xəbər verir ki, martın 5-ində bizim əsgərlərimiz səhərdən başlamış Axıska cəbhəsində ümumi hücuma keçmişlərdir. Düşmən öz mövqeyindən çıxarılıb geri çəkilməkdədir. Martın 6-sında səhərdən yenə hücumumuz təzələnmişdir.

Axıska cəbhəsindən xalq qvardiyası baş ərkanına [qərargahına] teleqrafla xəbər verirlər ki, martın 5-də əsgərlər Azğuru alandan sonra Aqara kəndinə qədər irəli hərəkət edib 18 nəfər müsəlləh [silahlı] adam əsir almışlardır. Bizim tərəfimizdən bir nəfər əsgər qətl edilmişdir. Əsgərlərin əhvali-ruhiyyəsi gözəldir. Sabah Axıska üzərinə hərəkət edəcəyik.

**Gürcüstan Müsəlmanlarının Milli Şurasında**

Martın 2-sində vaqe olan iclasda Gürcüstan müsəlmanlarının ictiması (qurultayı) məsələsi müzakirə ediləcəkdir. Müzakiratdan sonra ictima məramnaməsi tərtib etməkdən ötrü xüsusi bir komissiya təşkil edilmişdir. Komissiyaya [Mirzə Hüseyn] Həsənzadə, [Mirzə Saleh] Muxtarov, [Fətəli] Axundov, Sübhanqulov və [Əlimirzə] Nərimanov intixab edilmişlərdir. Keçən iclasda intixab edilmiş ruhani şöbəsi öz vəzifəsi ifasına başlamışdır.

**Yük nəqliyyatı**

Gürcüstan ilə Azərbaycan arasında vaqon təbdili [dəyişdirilməsi] və yük nəqliyyatı haqqında vaqe olan saziş mart ayı ibtidasından [əvvəlindən] qanuni qüvvəyə daxil olmuşdur. Bu saziş mövcibincə [bu sazişə əsasən] yüklər tez bir zamanda aparlılb-gətiriləcəkdir.

**Əhməd bəy Ağayevin xəstələnməsi**

Krıma varid olan [gedən] Həsən Səbri Ayvazovun dediyinə görə, Əhməd bəy Ağayev İstanbulda İstanbul nəzləsi [qripi] xəstəliyinə mübtəla olmuşdur.

**Axıska mahalında**

Borjom, 2 mart (xüsusi müxbirimizdən) - İngilis nəqliyyat arabaları ilə Axıskadan 7 adam varid olmuşdur [gəlmişdir]. Bunların 2-si Abastumandan çıxmışlardır. Bunların sözünə görə, Axıska əhvalı böylədir:

Fevralın 12-sində Sərvər bəy Koblianskinin təhti-komandasında Potsxof qoşunları Axıskaya varid olmuşdur. Hərəkati-hərbiyyəni Atsxurinin sabiq naçalniki türk zabiti Lətif bəy idarə edirmiş. Qars Hökuməti qoşunları arasında bir çox türk afserləri varmış. Onlar Axıskaya varid olduqdan sonra bütün məmurlar və məhəlli [yerli] milislər tövqif [həbs] edilmişlərdir. Bunlar da həman məmur və milislərdir ki, şəhərdən çıxmağa fürsət tapmamışlardır. Bunlar üç nəfəri ciddiyyətlə axtarırdılar: Heydər Abaşidze, Leburxadze və Qədir Şervaşidze. Kəndlərdə gizləndiklərini zənn edən Atabəyov hökuməti üç dəfə Məclisi-Müəssisan namizədi kəndçi Heydər Kvazmadzeni dəvət etmişdir. Varid olanlardan birisində bu məzmunda bir vəsiqə tapılmışdır: Cənubi-qərbi Qafqaz torpağı Axıska, Axalxələk nahiyələrinin müvəqqəti komissariyyatı. Bu sənədi komissariyyat sədri əvəzinə rusca Tomaşeviç imza eyləmişdir. Bu əvvəlcə türklərin yanında xidmət edirdi. Sonra xəyanətinə görə həbsə salınmışdı. Axıskadan gələnlərin rəvayətinə görə, oralarda mükəmməl anarşi davam edirdi. Camaatı qarət edirlər. Axıskada da qarət davam edir. Məşhur mülkədar Orbeliani və digərləri yəğma edilmişlərdir. Buna görə də şəhər idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan edilmişdir. Gürcü kəndçilərinin bir hissəsi Axıskaya köçmüş, bir hissəsi isə qarət və məhv edilmişlərdir.

Milis naçalniki müavini, bütün milislər, məmurlar atılmaqla edam edilmişlərdir. Qars hökuməti binagüzarlığında Potsxof dairəsinin qoşunları ilə yerli əhalidən bunlar qoşun cəm edirlər. Səfərbərlik elan edilmişdir. Səfərbərlikdən imtina edənlər qətl edilirlər. Şəhərə 50 nəfər müsəlləh [silahlı] kəndçilər gətirilmişlər. Bunları mahalın müxtəlif nöqtələrindən cəm etmişlərdi. İkinci gün bunlar fərar edərək deyirmişlər: Yaşasın camaat!

İmdi anlaşılır ki, Axıskada Baxşibəy Maçabeli böyük rol oynayır. Məzkurun ixtiyarında 100 nəfər müsəlləh adamlar vardır. Atabəyov ilə Maçabeli arasında ixtilaf əmələ gəldiyi şaye olunur [deyilir].

Komissariyat təşkilində ermənilər iştirak etməmişlərdir. Qars Hökuməti qoşunları arasında bir neçə erməni afserləri də vardır. Hökumət mahal komissariyatı imarətini işğal edərək orada olan bütün övraqı [sənədləri] müsadirə eyləmişdir. Gürcüstan Hökuməti tərəfindən əhali ehtiyacı üçün göndərilən ərzaq, qənd, cövhər, manufaktura məhv edilmişdir. İkinci talandan sonra şəhər acı bir mənzərə təşkil edir. Əhalidə[n] tələf olanlar var. Türklər şəhərə girdikdə salamat qalmış mineral hamamları tamamilə qarət edilmişdir. Abastuman sarayının divarlarından taxtaları çıxarıb aparmışlardır. Axalkələk mahal naçalnikliyinə Yasun bəy Palavandov təyin edilmişdir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm əfəndim!

Bu aşağıda yazılan sözlərə qəzetənizin bir sütununda yer verməyinizi rica edirəm:

Qəzetənizin 106-ncı nömrəsində cəmadiyüləvvəlin 4-ündə Mirməcid cənabları tərəfindən Bərdə əczaxanası barəsində yazılmış olan məqaləsində deyir ki, Bərdədə əczaçı 50 rubləyə tamam olacaq bir reçetəyə 250 rublə və daha artıq fəzlə alaraq camaatı sıxındırır. Təvəqqe edirəm ki, Mirməcid cənabları yazdığı sözləri əczaxanə barəsində sübut eyləsin. Böylə ki, nə vaxt bir reçetəyə 250 manat almışam və kimdən almışam və hərgah Mirməcid cənabları yazdığı sözləri sübuta yetirməkdən boyun qaçırsa, o vaxt həman cənab böhtançı sifətilə Ədliyyə Məhkəməsi hüzurunda cavab verəcək olar.

*16 fevral 1919*
*Bərdə əczaxanası*

**İtibdir**

Fevralın 13-ündə, 1919-uncu ildə Ərrəhman Babayevin adına olan möhür (peçat) itibdir. Etibardan saqitdir [etibarsızdır].

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*





**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

### Qismi-rəsmi

səh. 163. "Spasski": Bakıda, indiki Zərgərpalan küçəsi.

"Aziatski": Bakıda, indiki Əlövsət Quliyev küçəsi.

### Teleqraf xəbərləri

səh. 164. "D. T.": "Deyli teleqraf" [The Daily Telegraph] qəzeti nəzərdə tutulur.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

"xəndək mortiri": qısalüləli top növü; lüləsinin çox qısa olması və böyük bucaq altında atəş edə bilməsi bu topların xəndək və səngərlərdə istifadəsini asanlaşdırırdı.

### Sülh ətrafında

səh. 165. "Monro şüarı": ABŞ prezidenti Ceyms Monro tərəfindən 1823-cü ildə elan edilən xarici siyasət prinsipləri nəzərdə tutulur. Monro Doktrini adı verilən bu prinsiplərin əsasını ABŞ-a xarici müdaxilələrin (əsasən Avropa dövlətlərinin müdaxiləsinin) qarşısının alınması təşkil edirdi.

səh. 166. "Əbdülhəmid": 1876-1909-cu illərdə Türkiyə sultanı olan II Əbdülhəmid nəzərdə tutulur.

### Yenəmi adam öldürmək adəti başlanır?

səh. 167. "...gürcülər general Əlixanovu... öldürmüşdülər": burada söhbət general Maqsud Əlixanov-Avarskidən gedir, 1905-ci ildə Quriya və İmeretidə üsyanı yatıran da odur. Əlixanov-Avarski gürcülər tərəfindən deyil, erməni daşnak terroristləri tərəfindən öldürülmüşdür. Ermənilər Əlixanovu 1905-ci il iğtişaşlarında azərbaycanlıların tərəfini tutmaqda günahlandırırdılar.

səh. 168. "martınovlar": 1909-1916-cı illərdə Bakının Bələdiyyə sədri olan Pyotr Martınov nəzərdə tutulur.

"Dondukov": 1882-1890-cı illərdə Qafqaz canişini olan Aleksandr Dondukov-Korsakov nəzərdə tutulur.

"шуть сњними": "şut snimi" (rusca); "cəhənnəm olsunlar".

### Qəflət etməməliyiz

səh. 171. "venizeloslar": 1917-1920-ci illərdə Yunanıstanın Baş naziri olan Elefterios Venizelos nəzərdə tutulur.

"Səri-çeşmə bayəd giriftən bəbil / Çü por şod nə şayəd güzəştən bəpil.": "Çeşməni başdan bellə tutmaq lazımdır / Əgər dolsa, fil ilə də keçmək olmaz." (farsca)

### İran işləri

səh. 172. "...ən möhtərəm sayılan müctəhidin asılması...": söhbət Mirzə Nəsrulla Məlikül-Mütəkəllimindən gedir.

"gildebrandtlar": 1917-ci ilin iyun-dekabr aylarında Rusiyanın Qəzvindəki vitse-konsulu olan G. G. Gildebrandt nəzərdə tutulur.

"kirsanovlar": 1910-cu ildə Rusiyanın Mosul və Bağdadda vitse-konsulu və hərbi agenti olan Vladimir Fyodoroviç Kirsanov nəzərdə tutulur.

səh. 173. "Boje tsarya xrani": (Tanrım, çarı qoru) 1833-1917-ci illərdə Rusiya imperiyasının dövlət himni olmuşdur. Sözləri Vasili Jukovskinin, musiqisi Aleksey Lvovundur.

### Bakı xəbərləri

səh. 173. "...böyük Rusiya inqilabının iki illiyini...": Rusiyada 32 fevral – 6 mart (yeni təqvimlə 8-16 mart) 1917-ci ildə baş vermiş burjua-demokratik inqilabı nəzərdə tutulur.

"Arutyunov ilə Hacınski": 1917-ci ilin dekabr ayında Bakı Bələdiyyəsinin sədri olan D. D. Arutyunov və 1896-1919-cu illərdə Bakı şəhər Dumasının üzvü (qlasnısı) olan İsa bəy Hacınski nəzərdə tutulur.





"Bələdiyyə idarəsində": bu mətndə hərflərlə işarələnən maddələr qəzetdə ərəb əlifbasının hərf sırasına müvafiq olaraq "əlif", "be", "te"... kimi verilmişdir.

səh. 174. "Bolşoy Morskoy": Bakıda, indiki Bülbül küçəsi.

"5-ci Qanlıtəpə": Bakıda, indiki Vladislav Plotnikov küçəsi.

"Kamenisti": Bakıda, indiki Bəşir Səfəroğlu küçəsi. Qəzetdə bu küçənin adı səhvən "Kamenski" kimi getmişdir.

"Suraxanski": Bakıda, indiki Dilarə Əliyeva küçəsi.

"Kladbişinski": Bakıda, indiki Mehdi Hüseyn küçəsi.

"Qorçakovski": Bakıda, indiki Hacı Zeynalabdin Tağıyev küçəsi.

"Tarqovı": Bakıda, indiki Nizami küçəsi.

### Bakı quberniyasında

səh. 176. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

səh. 177. "Şükrü Balazadə": bu şəxsin adı mətnin içində "Şükür Balazadə" kimi getmişdir.

### Azərbaycanda

səh. 178. "hənuz haqsızcasına, ...cəsinə": qəzetdə belə getmişdir.

### Gürcüstanda

səh. 178. "Aqara kəndinə qədər...": qəzetdə "Aqara" yerinə "Anqara" getmişdir.

səh. 179. "Heydər Abaşidze": qəzetdə "Heydər Habaşidze" kimi getmişdir.

"Atabəyov hökuməti": Mesxet müsəlmanlarının siyasi və hərbi lideri Osman Sərvər bəy Atabəyovun hökuməti nəzərdə tutulur.

"Baxşibəy Maçabeli": qəzetdə "Yetmiş bəy Maçabeli" kimi getmişdir.



*"Azərbaycan" qəzetinin 135-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə, 12 mart 1919-cu il, nömrə 135**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 9 cəmadiyəlaxir sənə 1337. 12 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

1919 sənəsi mart ayının 12-sində, çaharşənbə [çərşənbə] günü, gündüz saat 12-də **inqilabın ikinci səneyi-dövriyyəsi münasibətilə** Azərbaycan Məclisi-Məbusanının təntənəli iclası vaqe olacağı elan edilir.

*T-63*

## ÜMUM MÜSƏLMANLARA VƏ MÜSƏLMAN TƏŞKİLAT VƏ MÜƏSSİSƏLƏRİNƏ

Azərbaycan Məclisi-Məbusanı İdarəsinə təhrirən [yazılı olaraq] müraciət etdikdə türkcə müraciət etmələri və əgər başqa dildə müraciət edərlərsə, istida və xahişlərinin bisərəncam qalacağı elam edilir [bildirilir].

*T-62*

## RUS İNQİLABİ-KƏBİRİ

Bu gün Rus İnqilabi-Kəbirinin [Böyük Rus İnqilabının] iki illiyidir. Əsrlərcə hökm sürmüş olan rus istibdadı zahirən əzəmətli görünürdüsə də, batinən [daxilən] o qədər boş və çürük bir halətə düşmüşdü ki, inqilab zərbəsinə davam edə bilməyib yıxıldı. İstibdad yıxılmaqla bərabər rus padşahlığının şan, şövkət, izzət və hörməti dəxi məhv olub, dünən düvəli-müəzzəmə [böyük dövlətlər] ailəsində möhtərəm bir üzv hesab olunan bu padşahlıq, bugün tanınmaz və sanılmaz bir hala düşdü. Deməli, bu şan və şövkət, izzət və hörmət rus dövləti üzərində deyil, rus istibdadı üzərində imiş ki, istibdad yıxılmaqla bu şan və şövkət və sairə dəxi onunla bərabər yıxılıb, məhv olub getdi...

Rus istibdadını yıxmış olan bu inqilabi-kəbiri şayani-təzim və səzayi-ikram [təzimə və hörmətə layiq]ədd [hesab] edib hər il səneyi-dövriyyəsi hülulunda [ildönümündə] bir eydi-kəbir [böyük bir bayram] kimi salamlayıb əhəmiyyət və əzəməti qarşısında səfbəsteyi-ehtiram olub [hörmətlə cərgəyə düzülüb] baş əymək layiqdirmi?

Bəli! Rus çarlığı kimi qara bir istibdadı yıxıb məhv edən bir inqilab, bu nöqteyi-nəzərdən şayani-təzim və ehtiramdır. Lakin yalnız bu nöqteyi-nəzərdən!

Vəilla [yoxsa] aləmşümul [bütün dünyanı əhatə edən] müharibə müşkülatı nəticəsi olaraq meydana gəlmiş olan bu inqilabın təsiri aləmşümul deyildir. İstib-

dad yıxmaq cahan tarixində yeni bir hadisəədd edilməz. Tarix uzunu bir çox istibdadlar yıxıldığı məşhurdur. Sosializm fikrinin rəvac və intişarına [yayılmasına] və bu yoldakı nəzəriyyatın həyata tətbiq edilməsi işinə gəlincə, rus inqilabi-kəbiri bununla dəxi aləmi-bəşəriyyəti heyran edə bilməz. Çünki sosializm fikrini meydana atan rus inqilabı deyildir. Sosializm bəşəriyyət əfradı[nın] [fərdlərinin] fikrini rus inqilabından əvvəl olaraq məşğul etmədə idi və halən [indi də] etmədədir. Rus inqilabı yeni olaraq meydana calibi-diqqət [diqqətəlayiq] bir şey çıxardısa, o da bolşeviklikdir. Lakin bolşevikliyin ideyası dəxi sosializmdən çıxan bir fikir olaraq ruslara məxsus olmayıb, ruslara məxsus olan cəhəti yalnız bir adı və bir də bu fikrin Rusiya həyatına qismən tətbiqi keyfiyyətidir.

Fəqət rus bolşevikliyi nəinki bəşəriyyəti, hətta Rusiya torpağında yaşayan millətləri belə sevindirmədi. Biləks [əksinə], bir çox cəhətdən ikrah edib [nifrət etdirib] bu fikirdən üz döndərtdi. Əgər din və millət ayrılığını aradan götürmək istəyən rus bolşevikliyi meydana "sinif" ayrılığı salıb da insanları iki müxasim [düşmən] hissəyə bölməsə və yalnız şəxsin, kim olur-olsun, hər bir süni qeyd [zəncir] və əsarətdən qurtulub da tam mənası ilə hürr və azad olmasına çalışsaydı, o, ümum bəşəriyyətcə təqdir ediləcək bir inqilab kimi tələqqi [qəbul] oluna bilərdi. Vəilla "burjuy"luğu öldürmək əvəzində "burjuy" adlandırdığı minlərcə bəşəriyyət əfradını divanəvar [dəlicə] bir vəhşiliklə öldürən bolşeviklik, kənardan baxanların ancaq istikrahını mövcib ola bilər [ikrahına səbəb ola bilər]...

Pəs [deməli], Rus İnqilabi-Kəbiri aləmşümul bir mənanı haiz ola [daşıya] bilmədi və yalnız bir istibdadı yıxmaq şərəfincə nami-xeyr ilə [yaxşı adla] yad olunub bayram edilə bilər.

Amma... əgər rus inqilabını törədənlər bu inqilaba bəşəri bir əhəmiyyət vermək istəsəydilər, verə bilərdilər və verməyə də əllərində böyük bir vəsilə [imkan] var idi.

Cahanşümul müharibə bədayətində [əvvəlində] çaylarca axan insan qanının bəşəriyyət vicdanına toxunan sui-təsirini [mənfi təsirini] azaltmaq və insanları öz tərəflərinə cəlb etmək istəmiş olan müharib [savaşan] dövlətlər: "Biz bu müharibəni əsir millətlərin azadlıq və istixlası [qurtuluşu] üçün açmışıq" – deyə meydana bu kimi dilfirib [könül aldadan] bir şüar atdılar.

Bu şüar, filhəqiqə [doğrudan da], əsir olan millətləri dərin bir sevinclə mütəəssir qıldı. Əsarətdən bilaxirə azad olmaq arzusu, əsarət zülmətinin təzyiqi altında sönmüş olan ümidləri təkrar işıqlandırdı. Bir şəxsi qul halında saxlamaq kimi rəzalət və zəlalətdən qurtulmuş olan bəşəriyyət, bu aləmşümul müharibə bə'dində [sonrasında] bir milləti digər bir millətə qul və əsir etmək şərəfsizliyindən dəxi xilas olacaq deyə hər əsir millətə ruh verən bu şüar, rus inqilabının ruhu olub da istibdad yıxıldıqdan sonra rus imperializmi qurbanı olan millətlər tamamilə azad edilmiş olsa idi, o halda bu inqilab istibdadı yıxmaq şərəfindən başqa bir də əsir millətləri azad etmək kimi cahannümun [qlobal] bir təsir bəxş edib "Daha bir millət digər bir millət üzərində ağa və sahib olmaz" fikrini





bütün aləmə nəşr ilə [yaymaqla] ümum cahanda əsir halında yaşayan millətlərin istixlasına böyük bir yol açmaq izzəti ilə şayani-təzim və layiqi-ehtiram sanılan cahani bir inqilabi-kəbir olardı.

Millətləri azad etmək fikrinin nə qədər haizi-əhəmiyyət [əhəmiyyət daşıyan] bir ideya olduğunu bolşeviklər rəisi Lenin dəxi iqrar [qəbul, təsdiq] edirmiş ki, aləmi-islama müraciətən bir intibahnamə buraxıb "Sizləri imperializm əsarətindən azad edəcəyik" – deyə müsəlmanların təvəccöhünü qazanmaq istəmişdi.

Əgər Lenin öz sözünə əməl edib də Rusiyadakı millətləri azad etmək kimi məqduru olan əmri [gücü çatan bir işi] yerinə yetirsəydi, bolşevikliyə böyük bir xidmət göstərmiş olardı. Halbuki azadlıq əvəzinə nə gördük? Azad olmağa cürət etmiş olan millətlərin bolşevik qoşunları tərəfindən qətliam edilməsini gördük... Və bu qətliam hansı millətlər üzərində icra edildi? O millətlər üzərində ki, imperializm əsarətinin ən ağır bənd və zəncirləri altında inildəməklə hamıdan əvvəl azad olmağa möhtac və layiq idilər.

O millətlərin bir çoxu "Yanğıdan çıxdım, yalova düşdüm" müfadınca [mənasına uyğun olaraq], Nikolay istibdadı zülmündən xilas edilib də bolşevizm əsarəti altına düşməklə, indi də bu əsirliyin qurbanı mənzələsində [yerində] acı və ağır bir ömür sürməkdədirlər...

Türküstan, İdilboyu [Volqaboyu] və Krım müsəlmanlarının təkrar əsarət altında qalmalarına acınmaq və yanmaqla bərabər, sevinirik ki, biz Azərbaycan türkləri qəhrəman Osmanlı türk qardaşlarımızın imdadi-bəradəranəsi [qardaş köməyi] ilə bizi əsirlik təzyiqi altında məhv etmək istəyən rus inqilabçılarının müxalifi-insaniyyət olan bu arzusuna qarşı qiyam edib qanlar tökdük, canlar qurban etdik, xanimanlar yandırdıq da bilaxirə [axırda] əsarətdən qurtulduq. Lakin bu əsir saxlamaq hırsı [hərisliyi] nə qədər "şirin" bir ehtirasat qəbilindən imiş ki, bu ehtirasat mərəzinə mübtəla olan güruhlar hər bir növ ilə dami-təzvirlər [hiylə tələləri] qurub bizi təkrar əsir etmək həvəsilə dörd tərəfimizdə dolanırlar.

Lakin səyləri bicadır [əbəsdir]. Dami-təzvirin nə yerlərdə gizlədilmiş olduğunu görən gözümüz və hiylə kəməndinin iplərini qıracaq qollarımız olduğu kimi, demokratizm, sosializm fikirlərinin də mənasını anlayacaq başımız vardır. Bugünkü arzumuz xarici əsarətdən qurtarmaqdır. Vətənimizin daxili tərzi-idarəsini təyin və təşkil etmək isə öz xüsusi işimizdir. İstərik bolşevik idarəsi quraraq, istərik menşevik olarıq. Qərəz özümüz bilərik, millətimiz öz səlahına [məsləhətinə] baxar və ümum millət əfradının mənafeyini nəzərə alıb hürr və azad olaraq demokratik bir dövlət əmələ gətirər. Arzuyi-yeganəmiz, təkrar edirik ki, özgələrin əsiri və qulu olmamaqdır. Vəssalam!

*Hacıbəyli Üzeyir*

**HÜRRİYYƏT BAYRAMI**

Bugün martın 12-si böyük inqilabın ikinci səneyi-dövriyyəsidir.

1917 sənəsinin yanvar və fevral aylarında rus istibdadı tüğyan edərək işsiz, ac fəhlələrin "ya iş, ya çörək" verilməsi

haqındakı tələbinə qarşı kar və kor qalaraq, eyni zamanda demokratiya üzərinə sıxıntısını gündən-günə şiddətləndirərək nəhayət bir dərəcəyə gəldi ki, martın 10-unda (təzə qayda) xalq nümayəndəliyi olan Dövlət Dumasını qoğdu və çörək istəyən ac fəhlələrə damlardan pulemyot atışı ilə cavab verdi. Bu əmr nəhayət xalq həyəcanını, demokratiya qəzəbini artıraraq "qəhr olsun qara istibdad" deyə qələmlər, dillər, fikirləri bağlamış olan qara zənciri qırdılar. Protopopov hökumətini yıxaraq Dövlət Duması əzasından [üzvlərindən] bir komitə təşkili ilə ayaq altına salınmış hüquq yenə xalqa qaytarıldı.

Çar Nikolay özü və oğlu tərəfindən tac-taxtından əl çəkib veliki knyaz [böyük knyaz] Mixail Aleksandroviçə vermək istədi, fəqət o dəxi xalqın hüququnu xalqa tapşırmaq üzrə padşahlıqdan Məclisi-Müəssisan dəvətinədək vaz keçməyə məcbur oldu.

Nəhayət knyaz [Georgi Yevgenyeviç] Lvov başda olmaq üzrə əksəriyyən kadetlərdən ibarət bir müvvəqqət hökumət təşkil edildi. Lakin bu hökumət dəxi çox ömür sürə bilməzdi. Zira Nikolay hökuməti ilə onun arasında fərq çox az idi. Zatən Nikolay hökuməti həmişə cahangirlik [imperializm] siyasətində bu firqəyə və bu adamlara istinad edirdi.

Camaat isə cahangirlik, militarizm siyasətini rusluq, qeyri-rusluq şüarını, ruslaşdırma politikasını bir daha görmək belə istəməyirdi. Artıq "millətlərin təyini-müqəddərat hüququ" şüarı meydana çıxmışdı. O idi ki, Lvov-Quçkov-Milyukov kabinəsi də tez zamanda süqut etdi. İş başına o vaxtın kiçik tanrısı olan Kerenski başda olmaq üzrə müxtəlit [qarırşıq] hökumət keçdi.

Bu Kabinə dərhal hərbi dayandırmamaq bəs deyil, bir də hücum əmri verməklə özünə edam əmri yazdı. Fəqət bu əmrə əməl edəcək güclü bir qüvvə yox idi. İyulun 3-5-də Petroqrad çıxışı göstərdi ki, hələ bolşeviklər dəxi o qədər güclü deyildirlər. Bu surətlə Kerenski, kompaniyası ilə iş başında qaldı fəqət hücum xətasına bir səhv dəxi əlavə etdi:

İnqilabın böyük şüarı olan təyini-müqəddərat hüququnu millətlərə vermək istəmədi.

Burası artıq Rusiyada yaşayan xırda millətləri öyrətdi ki, Petroqraddan onlara kömək yoxdur. Özləri özlərinə çarə qılmalıdırlar. Bunu etiraf edən məhkum millətlər ilk qədəmdə Kiyev ədəmi-mərkəziyyətçilər qurultayını dəvətlə öz xahiş və qüvvələrini nümayiş etdirdilər və Petroqrada bildirdilər ki, artıq başlarına cilov vurulmağa izin verməyəcəklərdir.

Eyni zamanda bolşeviklər dəxi müharibədən yorulmuş əsgərləri evlərinə buraxmaq və fəhlələri "behiştə aparmaq" kimi vədlərlə öz tərəfinə çəkərək qüvvət kəsb etdilər [qazandılar] və nəhayət 1917-inci il oktyabrının 26-sında yeni bir inqilab qaldıraraq, Kerenski Hökumətini iş başından düşürərək işləri öz əllərinə aldılar.

O vaxtdan bir qədər keçib təqribən 1918 sənəsi ibtidalarında [əvvəllərində] nəhayət Rusiya ilə ətraf arasında münasibat tamamilə kəsildi. Rusiya qeyri-təbii bir surətdə istibdad zənciri ilə bağlanmış olan təbii parçalara ayrıldı. Əzcümlə [o cümlədən], Zaqafqaziya aprelin 9-unda





özünü Rusiyadan ayrılmış elan etdi. Bundan sonra nəhayət Zaqafqaziya millətləri hər biri öz müqəddəratını öz əlinə almaq yolu ilə daha da irəlləyərək elani-istiqlal etdilər. O cümlədən, sevgili vətənimiz Azərbaycan dəxi 28 May tarixində müstəqil cümhuriyyət elan edildi.

Bizim başımız burada məhəlli [yerli] və milli məsələlərimizlə qarışmış ikən, demokratiyanın birinci zərbəsindən guşə-bucağa çəkilmiş olan Rusiya əks-inqilabçıları yavaş-yavaş baş qaldırmağa başlayaraq ötədə-beridə padşah tərəfdarları təşkilatı əmələ gələrək Rusiyanı təcdid [bərpa] uğrunda çalışmağa iqdam etdilər [başladılar]. Hazırda bu qüvvənin ən böyüyü şərqdən Rusiyaya hücum edən Kolçak və şimaldan Qafqaziyanı, Dağıstanı sıxışdıran Denikin təcavüzkar və qəsbkarlarıdır ki, millətlərin müstəqil və azad yaşamasını istəməyərək, təzədən onların boynuna əsirlik zənciri vurmaq istəyirlər.

Fəqət keçmiş ola:

"Bir şəm' ki haqdan yana, hec bad ilə sönməz."

Azad millətlər bir daha istibdad boyunduruğuna baş əyməzlər. Hürriyyətpərvər millətlərin istiqlalını heç bir əks-inqilab yeli əllərindən qopara bilməz.

Bu gün Rusiya inqilabının ikinci səneyi-dövriyyəsini bayram edərək deyəlim ki:

Yaşasın Hürriyyət!

Qəhr olsun onu öldürmək istəyən qara qüvvələr!

Var olsun Denikin qabağına çıxan mübarizlər!

*X. İ.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### Denikinin Dağıstana hücumu məsələsi

Məclisi-Məbusanın 6 mart tarixli iclasında Denikin qoşununun Dağıstan üzərinə hücumu münasibətilə Parlamanda növbədən xaric müzakirat vaqe olaraq Rəisi-vükəla [Baş nazir] və fraksiya rəisləri Hökumət, Parlaman və firqələrimizin [partiyalarımızın] bu məsələyə nə nəzərlə baxdıqları və nə təsəvvürdə olduqları haqqında nitqlər irad etmişlərdi [söyləmişlərdi]. Qəzetəmizin srağagünkü nömrəsində bu münasibətlə Dağıstan siyasi nümayəndəsinin Hökumətimizə məktubu və Hökumətimizin Tomsona notasını dərc etmişdik. Şimdi həman gün Parlamanda söylənmiş olan nitqlərin məzmununu qarelərimizə [oxucularımıza] təqdim ediriz.

**Xan Xoyski** - (Baş vəzir) Möhtərəm məbuslar! Mən özümü borclu bilirəm son zaman vüqu bulan hadisat haqqında sizə bir qədər məlumat verəyim.

Bir neçə gün bundan qabaq, necə ki, eşitmişsiniz, hamımıza yaxın və dost və həmdin olan Dağıstan Cümhuriyyəti üzərinə Könüllü ordu qoşunu yürüş edib, yerlərini istila və hökumətinə təklif edir ki, özünü ləğv etsin, Dağıstan qoşunlarını buraxsın, özləri də cəbrən əhalidən əsgər yığmağa başlayırlar. Biz bu sözləri eşidən kimi onların səfirlərindən məlumat istədik – əhvalat nə yolda və hökumət nə fikirdədir? Dün Dağıstan Hökuməti səfiri tərəfindən Azərbaycan Xariciyyə Nəzarətinə bu barədə bir kağız gəlmişdir. Bu kağızdan anlaşılır ki, doğ-

rudan da böylə şeylər olmuşdur. *(Kağızın məzmunu srağagünkü qəzetəmizdə vardı.)* Aşkardır ki, bu kağız gələndən sonra bizim Hökumət və Parlaman və bütün Azərbaycan camaatı bir fikirdədir ki, dağıstanlılara böylə zülm olan halda biz sakit otura bilmərik. O şey ki, əlimizdədir ediriz; o tədbirlər ki, lazımdır görəcəyiz. İmdi Hökumət özünü borclu bildi bu xüsusda Müttəfiqlər nümayəndəsi general Tomsona Azərbaycan Hökumətinin nöqteyi-nəzərini bildirsin. Hökumətimizin protestosunu elam olmaq [bildirmək] üzrə bu gün Tomsona bu məzmunda bir kağız yazdım. *(Notanın da tərcüməsi "Azərbaycan" qəzetəsinin srağagünkü nömrəsində vardı.)*

Hökumət özünü borclu bildi, bu xüsusda sizə məlumat versin. Biz var qüvvəmizlə Şimali Qafqaziya Hökumətinə kömək etməliyiz. Siz bilirsiniz ki, Könüllü ordunun əsl siması imdi açılır. Əvvəlcə onların hərəkəti bir balaca Gürcüstanda oldu. Azərbaycan dairəsindən biz onları çıxarmışıq. Şimali Qafqaziyada olan Könüllü ordunun fikri yalnız bolşeviklərlə mübarizə deyil, onların mübarizəsi cəmi xırda millətlərlədir və istəyirlər ki, xırda millətlərin ixtiyaratını yox edib tapdalasınlar. Bu barədə bir millət o birinin ixtiyarının əlindən alınmasına aşkardır ki, bitərəf baxa bilməz. Aşkardır ki, Dağıstan Hökumətinə dəyən zərbə bizə dəymiş kimidir. Mən bizim Hökumət və Parlamanımızın Dağıstan Hökumətinə kömək edəcəyini onların səfirinə xəbər verdim. Azərbaycanın nə Hökuməti və nə də Parlamanı qoymayacaqdır onların hüququ tapdalansın. Var qüvvəmizlə onlara kömək edəcəyiz. *(Gurultulu alqış)*

*(Məbuslar ayağa qalxaraq Dağıstan səfiri lojasına təvəccöhən [dönərək] şiddətli bir surətdə səfiri alqışlayırlar. Səfir əfəndi ayağa qalxır, alqış daha da şiddətlənir. Səfir baş əyərək təşəkkür edir, yenə gurultu qopur.)*

**Məhəmməd Əmin Rəsulzadə** - (Müsavat) Həzərat! Denikin ordusunun qara təhlükəsi qarşısında ilk zərbəni yeməkdə olan şimali qafqaziyalı qardaşlarımız ilə daima bərabər olaraq hüquq və istiqlalımızı müdafiə edəcəyimizi burada yüksək səslə bütün aləmə söyləməyə ehtiyac yoxdur. Çünki bu o qədər aydın və aşkar bir məsələdir ki, Azərbaycan Məclisi-Məbusanının, bu böyük Məclisin, Hökumətin düşündüyündən başqa cür düşündüyünü təsəvvür etmək mümkün deyildir. Bütün Məclisi-Məbusan fraksiyaları bu kürsüdən, şimaldan gələcək bir qorxu qarşısına ciddiyyətlə çıxaraq müqabilədə bulunacaqlarını öz bəyannamələrində söyləmişlərdi. Zatən qara bir qüvvənin gələcəyini biz həmişə mümkünatdanədd [hesab] edirdik. O qüvvə də mütləqa şimaldan gələcəkdi. Bu təhlükəyə qarşı hökumətimizin gördüyü tədbirlər və dağıstanlı qardaşlarımıza yar və müin [köməkçi, havadar] olmaq təşəbbüsü firqələrin bəyannamələrində göstərilmiş və bəyannamələrin əsasını təşkil etmişdir. Biz bilirdik ki, düşmən ordusu "qəlyanaltı"sını Dağıstanda eyləsə, "nahar"ını Bakıda yeyəcəkdir. Ona görə bütün millət və Məclis bir təni-vahid [vahid bir bədən] kimi var qüvvəsilə çalışıb bu qara qüvvə qarşısında dayanmalıdır. Və dağıstanlı qardaşlarımıza deməliyiz ki: buraxmayın o qara qüvvəni, qoymayın o istibdadı gəlsin. Müharibə edin, biz də sizinlə varıq. Onlar nə simaya girəcəklər girsinlər, biz öz hüquq və istiqlalımızı müdafiə edəcəyiz. Biz əvvəldən bilirdik təhlükələr gələcəklərdir və bu təhlükə şimaldan gələcəkdir. İştə o təhlükə gəlir. Bu qüvvə əsl simasını açmayırsa da, lakin Soçi tərəfindən Gürcüstana, bu tərəfdən də Şimali Qafqaziyaya hücum edib, oradan da bizi boğmağa gəlmək istəyənlərin və daxildə də binamızın altına bomba qoyub patlatmaq istəyənlərin kim olduqlarını biz yaxşı tanıyırız. Onlar həman əski çarizmin müməssili [nümayəndəsi], bu qüvvə əski çarizm qüvvəsidir. Bunlar bu gün bolşeviklərlə mübarizə edirlərsə də, məhz millətlərə istiqlal kimi haqq və hüquq vermiş olduqları üçün edirlər. Məzkur [deyilən] qara qüvvənin çıxışı inqilab və hürriyyət əsasları əleyhinədir. Zira onlar – bu əks-inqilab qüvvətləri, artıq məhkum olmaq istəməyən sabiq məhkum millətləri yenidən zənciri-əsarət altına alıb məhkum etmək istəyirlər. Bu bir əks-inqilab qüvvəsidir. Qafqaziya cümhuriyyətləri – Azərbaycan da onlar daxilində olaraq – böylə əks-inqilab qüvvətlərinə tabe olmaq istəməzlər. Ona qarşı çıxıb bütün varlıqları ilə mübarizə edər, yaxın gəlməyə qoymaz, deyərlər ki: Qəhr olsun üzərimizə gələn qara qüvvət! Yaşasın Dağıstan! *(Şiddətli alqış)*

**Əhməd Cövdət** - (Sosialist) Mötərəm məbuslar! Rusiya inqilabının nəticəsi bu idi ki, Rusiya daxilində yaşayan bütün xırda millətlər öz müqəddəratını həll etmək ixtiyarına malik olsunlar. İnqilab vüquu [baş verməsi] ilə çarizm istibdadı kökündən vuruldu. Bütün millətlərin ixtiyarat və hüququ özünə verildi. Nəinki rus milləti çarizmin zülmündən qurtardı, hətta bütün millətləri – ki şimdiyə qədər nə olduqlarını bilmirdilər – onları da zülmdən qurtardı. Rus demokratiyası [xalqı] bütün digər millətlər demokratiyası ilə bərabər xırda millətlərin hüquq və ixtiyaratının özünə verilməsinə qol çəkdi. Demokratiya, hər millət öz müqəddəratına hakimdir, dediyi halda guşədə-bucaqda bulunan bəzi əks-inqilabçılar – ki onlar hamı hüququ ayaq altına almaq və ixtiyarat və sairəni tanımamaq istəyirlərdi – həmin bu qara qüvvələr yavaş-yavaş güc tapıb yığılmağa və qeyri xırda qüvvətləri güclə özlərinə tabe qılaraq çarizm əsasını möhkəmləşdirməyə başladılar. O cümlədən kolçaklar, denikinlər və qeyrilərinin idarələri altında bu qara qüvvələr azad xırda millətlərin üzərinə yürüyərək inqilabın bəxş etdiyi hüququ təkrar qəsbə başladılar. Xüsusən o tərəflərdə ki, qüvvətlər xırda-xırda, biri-birindən ayrı və gücsüzdürlər və bugünkü gündə Rusiyadan gücsüz görünürlər. Rusiyada qüvvə çox olduğu üçün bu Könüllülər dişlərini orada sınaya bilməyib üzlərini Qafqaziyada Dağıstana, Azərbaycana və qeyri xırda millətlərə çevirirlər. Buralara hakim olaraq öz qüvvələrini artırmaq istəyirlər. Rusiya demokratiyası ilə çarpışmaq üçün onlar müsaid bir zəmin olmaq üzrə Bakını intixab etmişlərdir [seçmişlərdir]. Onlar nə qədər şimdiki halda Gürcüstana və Şimali Qafqaziyaya hücum edə gəlməkdə isələr də, əsl məqsədləri Bakıdır. Bu qara qüvvə ilə çarpışmaq yalnız Dağıstan ya Gürcüstanın vəzifəsi deyildir. Çünki bu gün Dağıstan hüduduna gələn yarın Bakıya gələcək və Bakıya gələn

qüvvə yarın Tiflisi də istila etmək istəyəcəkdir. Binaənileyh [ona görə], bu təhlükə ümum Zaqafqaziya təhlükəsi və millətlərin haqq və hürriyyətini təhdid edən bir təhlükədir ki, bunun qabağını bütün Qafqaziya millətləri və camaatı bir vücud kimi ittihad etməklə [birləşməklə] saxlamalıdırlar. Bu barədə Hökumətin verdiyi notaya bütün varlığımızla tərəfdarız. Ancaq bunlara qarşı yalnız nota ilə çıxmaq kifayət etməz. Bu qara qüvvələrlə mübarizə məsələsi, təkrar edirəm, yalnız inquş arvadları öhdəsinə buraxılmayaraq, böylə mühüm bir vəzifə qarşısında qətiyyən Zaqafqaziya millətlərinin birləşərək əlbirliyi ilə və ciddiyyətlə çarpışması lazımdır. Bunun üçün də biz öz tərəfimizdən Azərbaycana və Gürcüstana təklif ediriz qəti və şiddətli tədbirlər görməyə əcələ etsinlər. *(Bir səs: Ermənistanı da)* Bir də general Prjevalski öz atryadı [dəstəsi] ilə mühitimizdən çəkilib getdiyi halda, yenə o qara qüvvədən məmləkətimizdə bir çoxları mövcuddur. O cümlədən, onların nümayəndəsi Erdeli və sairədir ki, əlan [indi] buradadırlar. Onların barəsində Hökumətimiz qəti tədbirlər görüb həbs etməlidir. *(Ümumi alqış)* O fikirli adamlar daha da varsa, gərək onlar da məmləkətimizdən çıxarılsınlar. Bir də məlumunuzdur ki, qəzetələrin yazdığına görə, Dağıstanda bəzi köhnə çinovniklər Denikinə lazım olan məlumatı verib onun Dağıstana gəlməsinə müavinət göstərmişlərdir. O çinovniklərin misalı bizim paytaxtımızda da var. Ona görə öylə çinovniklərin buradan rədd edilmələri lazımdır. *(Alqış)* Bu kimi adamlar Gürcüstanda da mövcud idilər. Amma gürcülər böylə həriflərə qarşı bizdən daha qəti və şiddətli tədbirlər görərək onları öz aralarından rədd etmişlərdir. *(Səslər: Doğrudur)* Bizim də o surətlə hərəkət etməyimiz lazımdır.

Bundan başqa, bu qara qüvvələrə kömək edənlər dəxi vardır. O özü-özlüyündən gələn qüvvət deyildir. Xaricdən onlara qətiyyən kömək verirlər. Bu da Müttəfiqlər komandanlığı özüdür. O kömək verir, qüvvə də hərəkət edir. Müttəfiqlər müharibədən qabaq və müharibə əsnasında deyirlərdi ki, bu ümumi müharibə azadlıq müharibəsi və xırda millətlərin ixtiyaratı üçündür. Böylə söylənildiyi halda, xırda millətlərin haqq və ixtiyarını qəsb edən həmin qara qüvvələrə kömək edən yenə Müttəfiqlər komandanlığıdır. Əgər Müttəfiqlərin köməyi olmasa o qüvvə cəsarət edib üstümüzə gəlməz. Hal-hazırda həman qara qüvvə bütün varlığı ilə xırda millətlərin ixtiyarını qəsbə qalxışmışdır. Biz Müttəfiqlər komandanlığından qəti surətdə tələb etməliyiz ki, siz onlara kömək edirsiniz, binaənileyh onların bu hərəkətlərində siz məsulsunuz. Əgər siz həqiqətən xırda millətlərin ixtiyaratı tərəfdarı isəniz, bu gün hüququ qəsb edilən millətlərə kömək ediniz və qara qüvvəyə əmr veriniz buradan rədd olsunlar. Yoxsa bu gün Dağıstanı çiynəyən [tapdalayan] qüvvə yarın sırası ilə Azərbaycanı və Gürcüstanı da çiynəyəcəkdir. Əmin olunuz ki, təcavüz əsl Müttəfiqlərdəndir.

**Qarabəyov** - (İttihad) Həzərat! Üç ay bundan əvvəl həmin bu minbərdən bütün firqələrin dedikləri bu idi ki, Azərbaycan və bütün Qafqaziya millətləri istiqlalını son qətrə qanımıza qədər müdafiə edəcəyiz. Dağıstan Hökuməti də Qafqaziyada təşəkkül etmiş müstəqil dövlətlərin biridir. Şimdi görürüz o adamlar ki, özlərinə Rusiya sahibi deyirlər, Dağıstanın hürriyyətini dağıtmaq istəyirlər və Dağıstan bu yolda yalnız qalmışdır. Və halonki [halbuki] yayda bizim üzərimizə düşmən gələndə dağıstanlılar çaxmaqlı tüfənglə bizim köməyimizə gəldilər. Bu qardaşlıq hissi bizi vadar edir əlimizdə silah olaraq onların köməyinə gedək. Onların müharibəsi bizim müharibəmizdir. Biz burada söz ilə deyil, feilən onların müharibəsinə şərik olmalıyız. Onlar Qafqaziyanın müqəddimül-ceyşidirlər [öncül qüvvəsidirlər, avanqardıdırlar]. Onların qələbəsi bizim qələbəmizdir. Ona görə hökumətin ittixaz etdiyi [gördüyü] tədbirləri alqışlarız və daha da şiddətli tədbirlər ittixazını firqəmiz tərəfindən təklif edəriz. *(Sağdan alqış)*

**Bəhram bəy Axundov** - (Bitərəf) Möhtərəm məbuslar! Qabaqkı natiqlərin dediklərini eşitdiniz, ələlxüsus Əhməd bəy Pepinovun. Mən də bunların dediklərinə şərik olmaqla bərabər, Könüllü ordu haqqında bir neçə söz demək istərdim. Denikin[in] ətrafına toplananlar kimlərdir? Lyaxov kimdir? Lyaxov həman adamdır ki, neçə il bundan əvvəl İran inqilabı əleyhinə qalxıb İran demokratiyasını əzdi. Böyük alimlərdən müctəhid Məlikül-Mütəkəllimini asdırdı. İmdi Lyaxov və onun kimi generallar Denikin[in] ətrafına yığılmışlardır. Həmin Lyaxov əvvəl fikrində tutub ki, Badkubəyə gəlib bizim demokratiya və hürriyyətpərvər üləmamızı da [alimlərimizi də] parçalasın. Ona görə bitərəflər namından [adından] keçən natiqlərin dediklərini müdafiə edərək təklif edirəm ki, bizə yaxın olan Dağıstan Hökumətinə axır qanımıza qədər kömək edib canımızı da onlara fəda edək. *(Alqış)*

**Yusif Əhmədov** - (Tacirlər nümayəndəsi) Möhtərəm məbuslar! Məncə böylə məsələlər ki, indi eşitdiniz, həmişə inqilabdan sonra olar. İnqilab öylə bir şeydir ki, ondan sonra böylə çıxışlar təbiidir. Bir məmləkətdə ki, inqilab oldu, orada yaşayan cəmi camaat bir rəydə ola bilməz. Ən şədidləri [şiddətliləri, qəddarları] olduğu kimi, rəhmlisi də olar. Bunun bir çarəsi var. Olmasın Denikin, Lyaxov, olsun İvanov və qeyrə. O qara qüvvələr Bakıda, Gəncədə, Şamaxıda, hər yerdə, hətta Avropada da var. Lakin avropalılar dəqiqdirlər. Hər bir qorxunu vüquundan [baş verməmişdən] qabaq bilib çarəsini edirlər. Üç gün əvvəlki hadisə buna bir dəlildir. Onlar özbaşlarına getmədilər. Qara qüvvə var. Şimdi düşünməlidir, nə yapmaq ki, bu iş qorxusuz, qan tökməksizin bərtərəf olsun [aradan qaldırılsın]. Nə təhər etmək ki, qan tökülmədən işlər yaxşılaşsın? Necə ki, Müttəfiqlər hal-hazırda cəmi Avropaya hakimdirlər və haqları da varmış. Görünür ki, bu qüvvə ittihaddan [birlikdən] hasil olmuşdur. Deməli, müttəfiq qüvvə lazımdır. Öylə ittifaq qarşısında, əmin olunuz ki, qara qüvvə bərtərəf olar. Bu saat bu qara bəlanın dəf'i üçün bütün Qafqaziya millətləri bilafərq [fərq qoymadan] – erməni, gürcü, azəri türklər və sairləri lazımdır ittifaq etsinlər. Əqidəm budur ki, nə qədər Qafqaziyadakı cümhuriyyətlər bir olmasalar, nifaqları olsa, bu qara qüvvələrin təcavüzü olacaqdır. Əvvəl evin içini düzəltmək lazımdır. Əgər bu olmasa,

qara qüvvələr daha da güclənib gələcəklərdir. Denikin qorxulu deyildir. Hətta bir məmləkət üçün beş məmləkət də qorxulu olmaz, əgər o məmləkət içində birlik ola. Yeganə bir çarə varsa, o da ittifaqdır. Doğrudan da o bəlalar nə səbəbdəndir? Bizim biri-birimizlə anlaşa bilmədiyimizdən. Bu mülahizələrlə dörd müstəqil hökumət yaxınlaşsın, hərgah Denikin bu dörd hökumətin birləşdiyini görsə, cürət edib gəlməz, deyər ki, şimdi onlara güc çatmaz, getmək nahaqdır. Hal-hazırda bizim üzərimizdə hakim bir millət var. Onlarla bir yerdə iş görməliyiz. Necə ki, şimdiyə qədər müraciət edirdik, şimdi də deməliyiz ki, bu vaxtədək nə olmuşsa bizim səhvimizdən idi, bundan sonra hər nə olsa sizin öhdənizədir. O Şimali Qafqaziya camaatı ki, Denikin qüvvəsini öz torpağına buraxıb, öylə güman ediblər ki, qabaqca onlara verilən söz doğrudur. Onlar Şimali Qafqaziyaya müraciət etdikdə qüvvələri yox idi. Varsa da az və əhəmiyyətsiz idi. Fəqət böylə intriqalar, vədlərlə Dağıstanda özünə bir qədər qüvvə tədarük etdi. İmdi Dağıstan Hökumətini tanımamağa, onların hüququnu qəsbə çalışırlar. Mən təklif edərdim Müttəfiqlərə denilsin ki, Parlamanı olan məmləkətlərdə böylə xətti-hərəkət yürütmək olmaz. Sizlər razısınızmı ki, millətlər biri-birilə vuruşsunlar, siz ki, həman qüvvəyə kömək edirsiniz, o qüvvənin millətlərə əziyyət etməsinə və onları qırmasına tərəfdarsınızmı? Hərgah böylə yolsuzluqlar ədəb dairəsində bərtərəf edilməsə, gərək hər millət özü-özünü saxlasın. Mənim birinci təklifim budur ki, Qafqaziya cümhuriyyətləri birləşsinlər. İkinci təklifim budur ki, Müttəfiqlərə məlum edilsin ki, Şimali Qafqaziya Cümhuriyyətinə edilən hücumun qabağını saxlasınlar. Hərgah saxlamasa, biz özümüz istiqlalımızın bəqası üçün o hücumun qabağını saxlamaq qəsdi ilə Şimali Qafqaziya Cümhuriyyətinə kömək edəcəyiz. *(Alqış)*

**Aslan bəy Qardaşov** - (Əhrar) Bir vilayətə ki, xaricdən qorxu ola, zənn edirəm heç bir firqə olmaz ki, mübarizədən boyun qaçırsın. Məndən qabaqkı natiqlər məsələni ətraflıca söylədiklərindən, bu barədə çox danışmağı lazım bilmirəm. Natiqlərin sözlərinə və görülən tədbirlərə iştirak etməklə bərabər onu da deyərdim ki, Zaqafqaziya hökumətlərinin birliyi əmələ gəlməsə, mübarizə işi çətin olacaqdır. Ona görə ümidvarız ki, Hökumət tərəfindən bu barədə lazımi tədbirlər görüləcəkdir. *(Alqış)*

**Malxazov** - (Erməni fraksiyası) Rus dilində bir nitq söyləyir.

**Sultanməcid Qənizadə** - (İttihad) Rəisi-vükəla həzrətlərinin oxuduğu məktubdan hamı firqələr razı qalıb səmimi-qəlb ilə iştirak edirlər. Parlaman dəxi camaat nümayəndələrindən ibarət olub hamının fikrini təmsil etdiyindən, demək bütün millət dağıstanlı qardaşlarımıza kömək etmək istəyir. Çünki onlara vurulan zərbə bizim ciyərimizə və ürəyimizə dəyən kimidir. Onlar ayrı, biz ayrı deyiliz. Xudanəkərdə [Allah eləməsin] Dağıstana bir qəza olarsa, bizə olmuş kimidir. Bir az fasilədə onların başına gələn bizim başımıza da gələ bilər. Bu Azərbaycan bayrağının bir ucu Dağıstan Hökumətinin çiynindədir. O yıxılarsa, bizim bayrağımız da yıxılar. Mən deyərdim ki, bu məsələ barəsində çox danışmaq lazım deyildir. Tezliklə iş görək. Əhməd Cövdət mərdanəlik ilə dedi ki, əgər Müttəfiqlər doğrudan da asayiş üçün gəlmişlər, qüvvətlərini götürüb Dağıstanı xilas etsinlər. Çünki biz onlara özümüzə baxan kimi baxırız. Əgər Dağıstan fövt olsa [məhv olsa], biz də olarız. Mən deyərdim Hökumət bir layihə düzəltsin ki, lazım olduğu zaman Denikin və Könüllü ordu ilə mübarizə üçün hamımız silahlanıb dağı aşaq və dağıstanlı qardaşlarımızın harayına çataq. *(Ümumi alqış)*

**Sədr** – "Müsavat" tərəfindən bir təklif varid [daxil] olmuşdur.

**Katib** - *(oxuyur)* Azərbaycan Məclisi-Məbusanı qara irtica qüvvəsinin qardaş Şimali Qafqaziya Cümhuriyyətinin hüququna təcavüzünü şiddətlə protesto edərək bu hüququn müdafiəsi yolunda Hökumətin görəcəyi hər növ qəti tədabir və qərarlarını təsvib edir [bəyənir].

Təklif müttəhidülrəy [yekdilliklə] qəbul olunur.

## TELEQRAF XƏBƏRLƏRİ

### Royter ajansından

**Almaniya sülh şərtnaməsini qəbul etməyir**

Almanlar Müttəfiqlər tərəfindən təklif edilən sülh şərtnaməsini qəbuldan imtina etdikləri üçün Asiyada olan danışıq qət edilmişdir [kəsilmişdir]. Fransanın Asiyada mütarikə [ataşkəs] komissiyasında olan nümayəndələri oradan çıxmışlardır. Almaniya öz ticarət flotunu [donanmasını] Almaniya üçün ərzaq daşımaqdan ötrü Müttəfiqlərə verməkdən imtina edir və deyir ki, indiki biçinlə gələn biçinin arasında Müttəfiqlər iki milyon beş yüz min ton Almaniyaya taxıl verilməsi və ərzaq təmin etmədikcə gəmiləri verməyəcəkdir. Müttəfiqlər böylə məcburiyyəti qəbuldan imtina etmişlərdir. Bu axırıncı Asiya hadisəsi Parisdə bu gün müzakirə ediləcək. Ali İqtisadi Şura bu barədə təklifdə bulunacaqdır. Hər halda Müttəfiqlər Almaniyaya qandıracaqlar ki, ticarət gəmilərinin təslim edilməsi məsələsi mütarikə şərtnaməsində vardır və bu da Almaniya tərəfindən qəbul edilmişdir. Bu işin icrası Müttəfiqlərdən asılı deyildir. Ona görə Müttəfiqlər bu xüsusda heç bir məcburiyyət götürə bilməz. "Tayms" qəzetəsi Ali Şuraya və Xüsusi Şurada Klemansoya sübut edir ki, Almaniya tərəfindən imza ediləcək hərbi şərtnamə Marşal Foşun layihəsindəki şərtnamədən daha dəhşətli olmalıdır.

**Berlində iğtişaş**

Berlində əhval son dərəcə xətrəlidir [təhlükəlidir]. Hökumət qoşunları xətrəli məhəlləri mühafizə edirlər. Şəhərdə nizamsız atışma vardır. Yaralıların miqdarı artır. 50 nəfər spartaklar Lixtenberhov uçastokuna [rayonuna] həmlə edib qarətdə bulunmuşlardır. Demokratlar 40 milyon mark pul aparmışlardır. Reyn qoşunları bunlara həmlə edib onların qırmızı bayraqlarını zəbt etmişlərdir.

## SÜLH ƏTRAFINDA

* Verilən xəbərlərə nəzərən mart ayının 22-də aprelin 1-dən 19-dək nemeslərlə birlikdə Sülh Konfransı cələsələri

[iclasları] təyin edilməsi qət ediləcəkdir [qərara alınacaqdır].

Royter ajansının xüsusi müxbiri yazır: Mükafat komissiyası təxmin edəcəkdir ki, [neçə] ildə və nə müddətdə Almaniya zərərləri iadə etməyi bacaracaqdır. Bu komissiyanın bəyanatına görə düşmənlər 24 milyon ingilis lirəsi verməlidirlər. Fransa bu əqidədədir ki, düşmən dövlətləri 100 milyon ingilis lirəsi qiymətində ticarəti əmtəə və gəmi və bir qismini də əcnəbi veksellləri və meşələri [taxta-şalban] ilə əda etməlidirlər [ödəməlidir]. Almanların Müttəfiqlərə verəcəkləri taxta və ağac malın qiyməti 8 milyon ingilis lirəsi miqdarında olacaqdır. "Deyli meyl" qəzetəsinin müxbiri zənn edir ki, Almaniyaya təklif ediləcəkdir ki, bu məbləğin bir hissəsi şimdi veriləcək, qalan hissələrinin verilməsinə isə Almaniyaya 20-30 il möhlət veriləcəkdir. Komissiya hələlik öz rəyini verməmişdir. Zira hələlik məsələni həll edilməmiş hesab edirlər.

## QƏZETƏLƏRDƏN

**Türkiyədə**

**Əhməd Paşanın həbsi**

Fevralın 8-indən xəbər verirlər ki, Ənvər paşanın atası Əhməd paşa Fransa jandarmaları tərəfindən həbsə alınmışdır. Əhməd paşa sabiq Hərbiyyə nazirinin sarayında olan əmvalı [malları] özü üçün götürmüş olduğundan müttəhim edilir. Bu şeylərin hamısı Əhməd paşadan alınmışdır. Verilən xəbərlərə görə məzkur [deyilən] sarayda general Franşe D'Esperi yaşayacaqdır.

**Trabzonda Jön türklər**

Türkiyədə nəşr olunan "Söz" qəzetəsi xəbər verir ki, Trabzonda olan Jön türklər Trabzon vilayəti əfkari-ümumiyyəsində [ictimai düşüncəsində] bir təbəddülat [hərəkət, dalğalanma] törətmək qəsdi ilə ciddi bir surətdə fəaliyyət göstərməkdədirlər. Jön türklərin Trabzonda olan nümayəndəsi Xəlil bəy iki aydır ki, Trabzon şəhərindədir və şəhər məmurları onun hər bir təşəbbüsatına müavinət göstərməkdədirlər. Məzkur [adı çəkilən] qəzetənin rəyinə görə, bu işlərin hamısının təqsiri hökumətdədir. Bununla hökumət İttihad və Tərəqqi komitəsinin təzədən fəaliyyətə başlamasına imkan verir.

**Ömər Faiq əfəndi həbsdən azad edilmişdir**

Gürcüstan Hökuməti tərəfindən həbsə alınıb Tiflis həbsxanalarında saxlanan məşhur mühərrir [publisist] və camaat xadimlərindən Ömər Faiq əfəndi Nemanzadə bugünlərdə həbsdən azad edilmişdir.

**Batumda**

Batumdan xəbər verirlər ki, martın 4-ündə Potidən "Proqress" paraxodu varid olmuşdur [gəlmişdir]. Sərnişinlərin rəvayətinə görə, paraxod Supsa sahilinə yaxınlaşdıqda gözlənilməyən bir surətdə paraxodda olan 15 nəfər oğru atəş açıb, paraxodun sahilə yaxınlaşmasını tələb etmişlərdir. Paraxod sahilə yan aldıqdan sonra quldurlar sərnişinləri qarət etməyə başlamışlardır. Sonradan qayığa oturub sahilə çıxmışlardır. Sərnişinlərdən bir milyon manata qədər nəğd para və qiymətli şeylər qarət edilmişdir. Qarət olunanlar arasında alış-verişçilər də vardır. Bunlar bu axır vaxt Gürcüstanla mal dəyişmək işlərinə məşğul imişlər. Bu əhvalat əhalinin narazılığına bais olmuşdur.





**Təfkilevin vəfatı**

Sabiq Dövlət Duması üzvü və Duma ictimalarının [yığıncaqlarının] hamısında müsəlman fraksiyası sədri Q. M. Təfkilev Ağməsciddə vəfat etmişdir.

## DAĞISTAN ƏHVALI

**Dəvətnamə**

3-üncü Dağıstan nişançı batalyonu komandanı camaata xitabən böylə bir dəvətnamə nəşr etmişdir:

Dağıstan oğlanları!

Kürreyi-ərzdə yaşayanlar dörd ildən artıq davam edən aləmşümul müharibəyə intəha [nəhayət] verdilər. Əmsalı tarixlərdə görülməyən bu davada hürriyyət və insaniyyət hüququna nail olmaqdan ötrü çalışan qəhrəmanlar məqsədlərinə nail olub dövreyi-istibdadı [istibdad dövrünü] əlil və zəlil mərtəbəyə salmağa müvəffəq olduğu halda, ümid olunurdu ki, bu qədər keşməkeşlər, bu qədər nahaq tökülən qanlardan sonra asudəçilik, asayiş bərpa olub və rifahiyyət törənib, mədəniyyət və maarifə yol veriləcəkdir.

Vəli [ancaq] təəssüflər olsun ki, sabiqki kimi vəhşiyanə, zalimanə xunxarlıqlar [qaniçənliklər] və dəhşətamiz hərəkat biri-birinin ardınca icra edilir. Bəzi müfəttinlər [fitnəkarlar], təhrikçilər, hürriyyət mənafeyindən məlumatı olmayanlar, şərəf və namuslarını düşünməyənlər kəndi rəzil olan amallarına nail ola bilmədikləri üçün asarı [əlamətləri] qalmış mədəniyyəti məhv etməyə sai olub [səy göstərib] böyük olan məmləkətimizi xarabazara döndərmək uğrunda çalışmaqdan bir an çəkinməyirlər. Bu növ əlləri qardaş qanı ilə boyanan vəhşi mütəəssiblərin xam xəyalların yırtıcı əlləri hər nəyə yetirsə fəqət özündən bir xarabalıq nişanəsi və səfahət asarı yadigar buraxırlar.

Hindəki [indiki] hərc-mərclik, asayiş və rifahiyyəti qeyb edib binizamlıq [nizamsızlıq] davam etdiyi vaxtda Şimali Qafqaz Dağlılar İttifaqı Cümhuriyyəti, Müttəfiqlərin himayəti və həmdərdliyi ilə mükafatsız və sədaqətlə öz qüvvələrini camaatımızın mənafeyinə fədakarlıq yapmaqlarından istifadə edərək məsuliyyəti böyük olan mühüm məsələni, yəni Şimali Qafqaz camaatının arasında ittihad, ittifaq törətməyə, məzkur [adı çəkilən] cümhuriyyətin daxilində qanun və asayişlə dolanmağa, dağlıları əhatə edən binizamlıq və hərc-mərclikdən və onlarla mərbut [bağlı] olan aclıqdan müdafiə etmək məsələsini kəndi öhdəsinə qəbul edibdirlər.

Lihaza [buna görə] hökumət güman edir ki, etimadlı, nafe [faydalı] və həqiqi qüvvə hazırda olduğu vaxtdaki qanun və ədalətlə camaatın malının və canının mühafizəçisi olsa, fəqət [ancaq, yalnız] ol zaman müsaviyülhüquq [bərabərhüquqlu] olan camaatın xüsusunda olan iqdamatları cari ola bilər [addımları baş tuta bilər].

Binaənileyh [buna görə], hökumətimiz tərəfindən əmr sadir olub [əmr verilib] ki, Şimali Qafqaz qüvvəsi toplansın. Hökumətimiz biz əfradi-millətdən [millət fərdlərindən] canfəşanlıqla hazır olmağı, onun

işlərinə sədaqət nəzəri ilə baxıb var qüvvəmizlə yardım etməyi gözləməyə haqlıdır. Vaxtdır bizə ənvai əqsam müfфətinanə intişar tapan səslərdən [fitnəkarca yayılıb ucalan müxtəlif növ səslərdən] etiraz etmək və həcviyyat [boş sözlər] danışmaqdan əl çəkib qəflət uyqusundan ayılmaq və sabiqi [keçmişi] nəzərə alıb istiqbalımız [gələcəyimiz] üçün çalışmaq və bunu da məddi-nəzərimizdə [gözümüzün qabağında] tutaq ki, biganələrdən heç kəs bizlər üçün işləməz və bizlərin işə böylə soyuqqanlı, arami-qəlb ilə [sükunətlə, narahatlıq keçirmədən] laqeyd və kəmetinalıqla baxmağımız fəaliyyət göstərənlərimizin, çalışanlarımızın iş başından kənar olmalarına bais ola bilər.

Şimdi ümum səhlənkarlıq, qafilliyi kənara tullayıb, nəticəsi olmayan qövldən [sözdən] sədaqətlə feilə [işə] keçmək zamanı gəlmişdir. Sədaqətlə vətənə xadim olmaq istəyənlərin cümləsinə iş vardır.

Mən 3-üncü Dağıstan nişançı batalyonu təşkil etmək səadətinə müvəffəq olub, bəradəranə [qardaşca] öz dəvətnaməm ilə əhaliyə müraciət edib ümid edirəm ki, hamılıqla bu işə lazımi diqqət, hümmət və qeyrətlə girişib, sədaqət və məhəbbətlə həman batalyonun səflərinə [cərgələrinə] daxil olub tez bir zamanda vətənin doğru və mühib [sevən] oğlanlarından olaq.

Cənabi-haqq hidayət və tövfiq kəramət buyursun [doğruluq və yardım qismət etsin] bizim batalyona safdil [təmizürəklilik] və can-qəlb ilə daxil olub Dağlılar İttifaqı Hökumətinin istiqbalı yolunda çalışanlara!

Qəhr və lə'n [lənət] olsun, qövlən və feilən [sözlə və işlə] bu işə rəxnə vurub [zərər vurub] pişrəftinə [tərəqqisinə] mane olanlara!

*3-üncü Dağıstan nişançı batalyonunun komandanı polkovnik Hacıyev*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan qoşunlarının vürudu [gəlişi]**

Yekşənbə [bazar] günü, martın 9-unda Gəncədən Azərbaycan qoşunlarının bir hissəsi Bakıya varid olub [gəlib] və Salyan kazarmasında yerləşmişlər.

**Hürriyyət bayramı münasibətilə**

* Hürriyyətin iki illik səneyi-dövriyyəsi münasibətilə qəzetəmizin növbəti nömrəsi martın 14-ündə çıxacaqdır.

* Bu gün bütün hökumət və ictimai müəssisələr Hürriyyət bayramı münasibətilə işləməyəcəklərdir. Yeməli şeylər satan dükanlar açıq olacaqdır. Mədən dairələrində və şəhərin bir çox yerlərində mitinqlər tərtib ediləcəkdir. Müsəlman fəhlələri "Raboçi Klub"a [Fəhlə Klubuna] yığılacaqdır.

**Zabitlər haqqında**

Hökumət Şurasının qərardadına görə, bütün Nəzarətlərə [Nazirliklərə], valilərə və qəza qaimməqamlarına [qəza rəislərinə] yenə əmr olunmuşdur ki, Hərbiyyə Nəzarətinin icazəsi olmadan Azərbaycan ordusu zabitləri hökumət qulluğuna qəbul edilməsinlər.

**Kəndlilərin istidası**

Bakı qəzası Əmbizli kəndi camaatı,





Bakı qubernatoruna bir ərizə verərək xhiş etmişdir ki, hökumətin binagüzarlığı [sərəncamı] ilə onlardan alınmış silah (70 dənə tüfəng) yenə onlara qaytarılsın. Çünki ətrafdan quldurlar onları narahat etdiyindən müdafiə üçün silahları yoxdur.

**Mühazirə**

* Cümə günü martın 15-ində Binəqədidə "Narodnı dom" [Xalq evi] binasında Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən Piri Mürsəlzadə Könüllü ordu və Qafqaziya millətləri mövzusunda mühazirə oxuyacaqdır. Mühazirə axşam saat 4-də başlanacaqdır.

* Yekşənbə [bazar] günü martın 9-unda Keşlə kəndində Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən Piri Mürsəlzadə əhvali-hazirə haqqında mühazirə oxumuşdur. Mühazirədə bir çox kəndlilər və Çornı-qorodda [Qara şəhərdə] işləyən əmələlər hazır olmuşlardır. Yekşənbə günü martın 17-sində məzkur [adı çəkilən] kənddə ümum kəndlilər və Çornı-qorod əmələlərinin yığıncağı vaqe olacaqdır. Burada Piri əfəndi Azərbaycanın indiki halı mövzusunda mühazirə oxuyacaqdır.

**İran şahı haqqında**

Bakıda müntəşir [nəşr olunan] rusca "Znamya truda" qəzetəsi neçə gün bundan əqdəm [qabaq] dərc etmiş olduğu bir xəbərdə İran şahı Sultan Əhmədin tiryək çəkib də vəfat etdiyini bildirmişdi. Bu xüsusda Bakı konsulu Məhəmməd xan Səidülvüzəra müxbirimizi həmin xəbəri təkzib etməyə vəkil etmişdir.

**Bakı Müsəlman Ünas Cəmiyyəti-Xeyriyyəsində**

1919-uncu il fevralın 28-də Müsəlman Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsinin iclası vaqe olmuşdur [baş tutmuşdur]. Məclisə Liza xanım Muxtarova sədarət [başçılıq] edirdi.

1) Məclisin sədri şəhərimizə gələn müsəlman fərarilərinin [qaçqınlarının] əhvalı barəsində dakladda bulunur. Qərar qoyulur ki, bu məsələ xüsusunda Müsəlman Cəmiyyəti-Xeyriyyəsi İdarəsi ilə məa [birgə] iclas qurulsun. Hələlik fərari Məhəmməd nama [adlı şəxsə] 500 manat maaş verilsin.

2) Darüleytam [yetimxana] xadiməsinə avans təriqi ilə [avans olaraq] 200 manat verilməsi məsələsi müzakirə edilərək bu məbləğin məzkura [adı çəkilən şəxsə] verilməsinə qərar verilir.

3) Sədr, darüleytamda olan uşaqlara məxsus bayram təsis edilməsi məsələsini bəyan edir. Qərar qoyulur ki, cəmiyyət sərmayəsindən 600 manat buraxılaraq uşaqlar üçün şirni hazırlansın. "Sentrodom" [Mərkəzi Ev Komitəsi] xərci ilə bayram günü uşaqlar üçün plov hazırlansın.

4) Sədr bayram münasibətilə uşaqlar üçün alt əlbisələrinin tikilməsini təklif edir və qərar qoyulur ki, H. H. Milyukova[ya] 5 cift [cüt] libaslıq ağ, 2 ip; X. X. Axundovaya 5 cift libaslıq ağ, 2 ip; C. X. Əlibəyova[ya] 4 cift libaslıq, 2 ip; Nigar xanıma 5 cift ağ, 2 ip verilsin.

5) Sədr 8 nəfər müsəlman fərarilərinə 1600 manat pul buraxılmasını təklif verir. Məsələ qəbul edilir.

6) Xəstə fərarilər nəfinə [xeyrinə] 2675 manat pul buraxılmasını sədr təklif edir və qərar qoyulur ki, bu məbləğ verilsin.

7) Sədr bəyan edir ki, cəmiyyət nəfinə tərtib verilmiş çay ziyafətindən 65775 manat mədaxil, 30 min manat məxaric olmuşdur və böyləliklə cəmiyyət nəfinə 35775 manat pul qalmışdır.

* Bu yaxın zamanlarda Birinci Realnı məktəbinin müsəlman mütəallimləri [tələbələri] təşkilatı tərəfindən ikinci təntənəli Milli Türk Müsamirəsi tərtib veriləcəkdir. (Birinci böylə müsamirə [konsert] keçən il, yəni 1918-inci ildə yapılmışdı və böyük müvəffəqiyətlə kecmişdi.) Dəvətnamələri almaq olar hər gün saat 4-dən axşam saat 7-yədək Birinci Realnı məktəbinin binasında.

**Dağıstanlıların yığıncağı**

Düşənbə [bazar ertəsi] günü martın 10-da Təzəpir məscidində Bakı və ətrafında yaşayan dağıstanlıların yığıncağı vaqe oldu. Yığıncaqda şəhərdə və mədən dairəsində işləyən ümum dağıstanlılar – ləzgi, osetin, inquş və çeçenlərin nümayəndələri hazır olaraq bir çox adam iştirak edirdi. Azərbaycanlılardan dəxi gələnlər var idi. Məclis açıldıqda Dağıstan Hökumətinin Azərbaycan Hökuməti nəzdində siyasi nümayəndəsi Könüllü ordunun Dağıstan Cümhuriyyəti torpağına soxulması münasibətilə məruzədə bulunub dağıstanlıları müttəfiqən [birlikdə] hərəkət etməyə və vətəni müdafiəyə dəvət etdi. Bədəhu [sonra] Piri əfəndi Mürsəlzadə hal-hazırda Dağıstan üzərinə kəndi istiqlaliyyəti uğrunda üç sənədən ziyadə çarpışmış olan azadə Dağıstanın hürriyyətinə xain və qanlı əllərini uzadan general Lyaxovun İranda Məclis və Məşhədi-müqəddəsdə İmam Rza rövzəsini topa tutduğunu yadavər eylədi [xatırlatdı]. Azərbaycanlıların da vəzifəsi böylə bir ümumi təhlükənin qarşısını almaq üçün dağıstanlılara kömək etmələrini vacib bilərək bir qüvvə kimi ümum Qafqaziya türk və müsəlmanlarını mübarizəyə dəvət etdi. Başqa bir neçə natiqlər dəxi bu barədə söz söyləyərək ələlümum Bakı və ətrafında yaşayan dağıstanlı fəhlələrini istibdad və qara qüvvələrlə mübarizə və müdafiəyə dəvət etdilər. Nəhayət, bir çox müzakiratdan sonra yığıncaq müttəfiqülqövl olaraq [yekdilliklə] zeyldəki [aşağıdakı] qətnaməni qəbul etdi:

“Bakı və və ətrafında yaşayan ümum dağıstanlı əmələlər [fəhlələr] fövqəladə ümumi iclasda Könüllü ordunun Dağıstan Cümhuriyyətinin əleyhinə hərəkət etməsi barəsində məlumat alaraq həmin məsələni müzakirə etdikdən sonra zeyldəki qərara gəlir:

1) Könüllü ordunun zorən və xainanə hərəkətinə qarşı protesto edib, Müttəfiqlər komandanlığından həman ordu dəstələrinin tezliklə Dağıstan Cümhuriyyəti torpağından çıxarılmasını tələb edir.

2) Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətlərinin fəhlə və kəndlilərinə müraciətən onları Dağıstan xalqına yardıma dəvət edir.

3) Dağıstan Cümhuriyyəti Hökumətindən bütün qüvvəsi ilə son nəfəsinə qədər fəhlə sinfi və kəndlilərin hüququna təcavüz etmiş olan Denikin və Lyaxovun qarşısına çıxıb mübarizədə davam etməsini tələb edir.

4) Bern Əmələ Konfransına müraciətlə Dağıstan demokratiyasına yardım etməyə dəvət edir.





5) Həmin yığıncaq tərəfindən general Tomsonun yanına bir heyət göndərilib Könüllü ordunun Dağıstan torpağından çıxarılması qəti surətdə tələb edilsin.

Bundan sonra məclis dağıstanlılardan ibarət 6 nəfərlik bir məlumat heyəti intixab edir [seçir] ki, tez-tez Dağıstan əhvalı haqqında Bakıdakı dağıstanlılara məlumat versin. General Tomsonun yanına gedəcək nümayəndələr heyəti üç nəfəri mədən dairəsi əmələlərindən və bir nəfəri şəhərdən olmaq üzrə intixab edib məclis xitam buldu.

**Kəndçilər İttifaqında**

Yekşənbə [bazar] günü mart ayının 9-unda Kəndçilər İttifaqı İdarəsinin məclisi vaqe olaraq [baş tutaraq] qərar verilir ki, birinci növbədə tezliklə Ərzaq Nəzarətindən İttifaqın adına kəndçilərə paylanmaq üçün ərzaq istəmək məsələsi müzakirə olunaraq qərar verilir ki, bu barədə Ərzaq Nəzarətinə təcili bir məktub yazılsın. Sonra Ərzaq Nəzarətinə hər dəfə müraciət edib ərzaq şeylərini alaraq İttifaqın idarəsinə təhvil vermək üçün idarə üzvlərindən Ağarəşid Feyzullazadə, Nəsir Əlikərimov bu işdə İttifaq tərəfindən vəkil edilirlər. Bədəhu [sonra] qərar verilir ki, şəhər istiqraz cəmiyyətlərinin birində Kəndçilər İttifaqı adına hesabati-cariyyə [cari hesab] açılsın və banklarda[n] və qeyri istiqraz cəmiyyətlərindən alınacaq və həmçinin məzkur [deyilən] idarələrə veriləcək pullar İttifaqın sədri ilə iki nəfər idarə üzvlərinin imzası ilə olsun. Axırda qət olunur, Ərzaq Nəzarətindən xahiş olunsun, Nəzarət binası otaqlarından bir və ya ikisi İttifaqın idarəsinə verilsin.

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq Nəzarətinin əqd etdiyi müqavilənaməyə görə Kuban oblastından 60 min put un və buğda alıb Ərzaq Nəzarəti namına [adına] göndərməkdən ötrü Dmitri Sidoroviç Sverçkov Kuban oblastına göndərilir.

* Ərzaq Nəzarəti üçün qənd, çay almaq, həmçinin parası verilməsi və buraya gətirmək məsələsini aşkar etməkdən ötrü Ərzaq Nəzarəti nəzdində olan agent (renter) [kirayəçi] Gürcüstan daxilinə göndərilir. Ərzaq Nəzarəti bu barədə Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsinə bir məktub yazıb məzkur [deyilən] agentə lazım olan zaman müavinət göstərilməsini xahiş etmişdir.

* Mərkəzi Ev Komitəsi Ərzaq Nəzarətinə müraciətlə Bakıdan Lənkərana öz xüsusi anbarlarından min put səbzə [tərəvəz] və 25 put çay aparıb əvəzində un və taxıl gətirməyə icazə verilməsini xahiş etmişdi. Ərzaq Nəzarəti, Mərkəzi Ev Komitəsinə xəbər vermişdir ki, Komitənin bu xahişi Vükəla Şurası tərəfindən qəbula keçməmişdir.

* D. V. Stroqov Ərzaq Nəzarətinə bir ərizə verib Bakıdan ötrü min put Suxum[i] tənbəkisi gətirməyə və əvəzində Bakıdan Gürcüstana düyü, kişmiş, çərəz, balıq və neft aparılmasına icazə verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti bu ərizə mövcibincə [əsasında] məzkur Stroqova icazə vermişdir ki, Bakıya Ərzaq Nəzarəti namına [adına] putu 400 manata qədər min put tənbəki gətirib tənbəkidən hasil olan məbləğdən ziyadə olmamaq şərtilə istədiyi şeyləri aparsın.

**Elan**

Gimnaziya müəllimi dərs verməyə pansiyona şagird qəbul edir.

Adres: Suraxanski 113, Rzabəyov.

*5736*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Elan**

Bakıda İrəvanlıların Həmtorpaqlılar Cəmiyyəti idarəsi cəmiyyətin üzvlərindən və Bakıda sakin [yaşayan] İrəvan müsəlmanlarından ümumi iclasa təşrif gətirməklərini rica edir. İclas Azərbaycan Parlamanı salonunda mart ayının 13-ündə pəncşənbə [cümə axşamı] günü, saat 6-da vaqe olacaq.

*Sədri-idarə: Teymur Makinski*
*Katib: Rəşid bəy İsmayılov*
*5739*

**Bakı "Obşestvennı Sobraniyasının"**
**[Bakı İctimai Yığıncağının]**
**Şurası**

Öz üzvlərinə məlum edir ki, kantor tərəfindən "starşina" intixab edilmək [seçilmək] üçün blanklar, üzvlərin siyahısı və 1918, 1919, 1920-ci illər üçün rəis (starşina) intixab etmək [üçün] paketlər hazır edilibdir. Həmin blanklar Sobraniyanın xidmətçiləri ilə üzvlərin evlərinə göndərilir. Üzvlərin hər birisinə həmin blanklardan çatmayıb, Sobraniyanın kantorunda ala bilərlər. Paketlərin və intixab siyahılarının alınmağının axrıncı vaxtı martın 15-inə qədərdir.

*T-60*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Hürriyyət bayramı**

səh. 187. "Bugün martın 12-si böyük inqilabın səneyi-dövriyyəsidir.": Rusiyada 32 fevral – 6 mart (yeni təqvimlə 8-16 mart) 1917-ci ildə baş vermiş burjua-demokratik inqilabı nəzərdə tutulur. 27 fevral (12 mart) tarixində Petroqradda silahlı üsyan başladı. Çar Hökuməti son ilcasını keçirdi. Dövlət Dumasının Müvəqqəti Komitəsi hakimiyyəti öz əlinə aldığını elan etdi. 12 mart inqilabın qalib gəldiyi gün kimi qəbul edilir.

səh. 188. "Çar Nikolay özü və oğlu": Rusiya çarı II Nikolay və oğlu Aleksey Nikolayeviç Romanov nəzərdə tutulur.

"Lvov-Quçkov-Milyukov": Rusiyada Müvəqqəti Hökumətin sədri Georgi Yevgenyeviç Lvov, bu hökumətin Hərbi və Dənizçilik naziri Aleksandr İvanoviç Quçkov və Xarici İşlər naziri Pavel Nikolayeviç Milyukov nəzərdə tutulur.

səh. 189. "X. İ.": bu imza Xəlil İbrahimə (Xəlil İbrahimova) məxsusdur.

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 194. "Rus dilində bir nitq söyləyir.": qəzetdə belədir: "Rus dilində bir nitq söyləyərək." Malxazov nitqində, Qafqaz xalqlarının ilk dəfə öz azadlıqlarını itirmə təhlükəsi ilə qarşı-qarşıya qaldıqlarını söyləyərək onları birləşməyə çağırmışdır.

**Teleqraf xəbərləri**

səh. 195. "Spartaklar": Birinci Dünya müharibəsindən sonra Almaniyada fəaliyyət göstərən Marksist təşkilat Spartak İttifaqı [Spartakusbund] nəzərdə tutulur.

"Lihtenberhof uçastoku": güman ki, Berlinin inzibati rayonu olan Lixtenberq [Lichtenberg] nəzərdə tutulmuşdur.

**Sülh ətrafında**

səh. 196. "Deyli meyl" [Daili Mail]: Londonda nəşr edilən qəzet nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 196. "Jön türklər" (yaxud "Gənc türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəzlinin meydana gətirdiyi siyasi hərəkət.

**Bakı xəbərləri**

səh. 198. "Əmbizli": güman ki, Xızı rayonunun Əmbizlər kəndi nəzərdə tutulur.

səh. 199. "Yekşənbə günü martın 17-sində": tarixlə həftənin günü arasında uyğunsuzluq var; bazar günü 16 mart olmalıdır.

səh. 200. "Bern Əmələ Konfransı": Sosial-demokrat partiyalarının 1919-cu ilin fevralında Berndə baş tutan konfransı nəzərdə tutulur.



*"Azərbaycan" qəzetinin 136-cı nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 14 mart 1919-cu il, nömrə 136**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 11 cəmadiyəlaxir sənə 1337. 14 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Nəcəfqulu Rzayev öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanılı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzün və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5748*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Kərbəlayi Əlihüseyn Kərbəlayi Əbdürrəhim oğlu öz qardaşı Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5741*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Möhsün Səlimov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlunun Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5742*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Heybət Babayev öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlunun Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5749*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Eyyub bəy Məşhədibəyov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5743*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Şıx Balayev öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlunun Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5754*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Mətləb Sadıqov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5745*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Məhəmməd bəy Məşhədibəyov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5746*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Məhəmmədağa Molla Ağakişi oğlu Abdullabəyov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5747*

**ÜMUM MÜSƏLMANLARA VƏ
MÜSƏLMAN TƏŞKİLAT VƏ
MÜƏSSİSƏLƏRİNƏ**

Azərbaycan Məclisi-Məbusanı İdarəsinə təhrirən [yazılı olaraq] müraciət etdikdə türkcə müraciət etmələri və əgər





başqa dildə müraciət edərlərsə, istida və xahişlərinin bisərəncam qalacağı elam edilir [bildirilir].

*T-62*

**OPERETTA
AXŞAM TAMAŞASI**

Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və
Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
tərəfindən cümə günü
cəmadiyəlaxir ayının 11-ində
(1919-ncu sənəsi martın 14-ündə)
Müdiriyyətin məşhur artistkaları
Süráyya xanım və Xanım Tanailidinin
şərəfinə (benefisinə)
Üzeyir bəy Hacıbəylinin
yazmış olduğu məşhur
**"Arşın mal alan"**
Biletlər benefis qiymətinə indidən
satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.

**İXTAR
[XƏBƏRDARLIQ]**

"Bakı və Ətrafının Zəhmətkeş Ziyalıları İttifaqı" bütün işsiz qalmış ziyalılardan rica edir ki, işbu mart ayının 15-dən başlayaraq idarəyə təşrif gətirib kəndilərini yazdırsınlar. İdarə səhər saat 11-dən 2-yə kimi açıq olacaqdır. İttifaqa üzv olmaq istəyənlər isə idarə mənzilində katib Camo bəy Cəbrayılzadəyə rücu [müraciət] edə bilərlər.

Ünvan: Vrangelski və Voznesenski sokakların guşəsində 3 nömrəli bina, qapısı Voznesenskidən.

*5750*

**QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]**

**Məşixətdən [Şeyxülislamlıq İdarəsindən]**

İşbu 1919 sənəsinin mart 11-indən etibarən Şamaxı şəhəri əhlindən (Bakıda iqamət edən [yaşayan]) Hacı Şeyx Həsən Axund Molla Sadıqzadə İdareyi-Məşixətdə üzvlük mənsəbinə nəsb və təyin edilmişdir.

*Məşixət sədrləri: [Axund Ağa]
Ağaəlizadə, [Mustafa] Əfəndizadə*

**HÜRRİYYƏT GÜNÜNÜN
GÖSTƏRİŞİ**

Azərbaycanın paytaxtı Rusiya inqilabi-kəbirinin böyük bayramını Bakının inqilablı, yəni küləkli bir günündə icra eylədi. Fəqət təbiətin inqilabına baxmayaraq, millətlərin həqqi-istiqlallarını elan etmiş olan böyük inqilab bayramını təbrik üçün Azərbaycan demokratiyası [xalqı] şənliyindən geri qalmadı.

Parlamanın müqabil al inqilab bayrağı ilə yanaşı duran üç rəngli dirəxşan [parlaq] yıldızlı milli Azərbaycan bayrağı və səma rəngli göy türk bayraqları ilə donadılmış [bəzənmiş] küçə, əksəriyyəti əmələdən [fəhlələrdən] ibarət minlərə baliğ [çatan] xalqla dolmuşdu.

Hürriyyət alqışlanır, Məclis alqışlanır, "Yaşasın Azərbaycan!" denilirdi.

Məbuslar, Parlaman rəisi və nazirlər xalqı təbrik edir, xalq kəndi mötəmədlərini [etimad etdiyi şəxsləri] alqışlayırdı. Parlaman binası bu gün başqa bir şükuh [təntənə], başqa bir cilvədə idi.

Hürriyyət bayrağı ilə istiqlal bayrağı, bu, əslində nuri-ürfan saçan binanın üzərində Bakı yelinin təsiri ilə püriztirab [iztirablı halda] çırpınır və sıcaq busələrlə yek-digəri ilə öpüşürdü.

Ötədə "İsmailiyyə"nin yanıq binası kəndisini təskinə gələn xalqa məlul bir nəzərlə baxır, fəqət kəndisini unutmayıb üzərinə iki hürriyyət və istiqlal bayrağını taxdıqları üçün millətə zəbani-hal ilə ərzi-şükran edirdi.

Parlamandan sonra müsəlman əmələləri "Raboçi klub" [Fəhlə klubu] binasında toplaşdılar. Bura da eyni təzahürat ilə və hürriyyətpərvəranə ilə keçdi. Parlamanı təbrik qətnaməsi qəbul olundu. Rayonlarda dəxi əhval bu surətlə keçmiş, türk demokratiyası kəndisinin istiqlalpərvər olduğunu rəna [gözəl] surətdə göstərmişdir.

Bu xüsusu bərtəfsil [ətraflı] qismi-məxsusumuzda [xüsusi hissəmizdə] oxuyacaqsınız. Biz yalnız bu göstərişlərin mənayi-əslisini qeyd etmək istəriz. Bu məna isə bizcə əvvəlcə də bəlli idi. Fəqət qoy münkirlər [inkar edənlər] də görsünlər, anlasınlar ki, Azərbaycan istiqlalı bəylər, xanlar və ağalar fikri deyil, türk demokratiyasının tələbi və amalıdır.

Var olsun türk demokratiyası!

*M. Ə.*

## TELEQRAF XƏBƏRLƏRİ

### Bolşeviklərlə mübarizə

* Don ordusu Krasnovka ilə Pokrovski denilən yeri işğal etmişlərdir. Don hövzəsində iki zabit batalyonu Rotı mövqifini [stansiyasını] işğal etmişlərdir. Bu mövqif Baxmutun 12 ağaclığındadır və vuruşmada 8 yüz nəfər ölən vardır.

* Şimali Qafqaziyada Denikin qoşunları Kumarinə çatmışlardır.

* Bolşeviklər Səmərqənddə Cərcoda olduğu kimi qital [qırğın] başlayıb 300 adam öldürmüşlərdir. Cərcoda bolşevik qoşunları qayət biintizam bir haldadır. Bu yaxınlarda bir çox macarlılar Orenburqa əzimət etmişlərdir [yola düşmüşlər]. Oradan da öz vətənlərinə keçəcəkdirlər.

* Axırıncı xəbərlərə görə, bolşeviklər əleyhinə olan qoşunlar Daşkənd yanında olan Çernyayevo mövqifini işğal etmişlərdir. Böyləliklə Daşkənddə olan bolşeviklərlə Amudərya cəbhəsindəki və Səmərqənddəki bolşeviklərin əlaqəsi kəsilmişdir. Bu dəstə Əndican xəttinə də malik olduğundan bolşeviklər öz paravozları üçün daşkömür hasil etməkdən məhrum olmuşlar. Bir tərəfdən də neft olmadığından onların əhvalı daha da fənalaşır.

### Almaniyada

* Veymardan verilən rəsmi xəbərlərə görə Berlin sosialist nümayəndələri ilə Kabinə arasında ixtilaf əmələ gəlmişdir. Axşam qatarı ilə əmələ nümayəndələri Berlinə varid olmuşlardır [gəlmişlər]. Bunlar tətil etmiş əmələlərin tələblərini hökumətə bəyan edəcəklər.

* Berlində olan ümumi tətil halı hələ təbəddülatsızdır. Berlin əmələlərinin yalnız bir hissəsi, o da könülsüz tətilə qoşulmuşlardır. Elektrik idarələrinin xidmətçiləri bəyan etmişlər ki, ümumi tətil itmam [tamam] olduqdan sonra tətili tərk edəcəklərdir. Mərkəzi hökumət qərar qoymuşdur ki, tətili silah gücü ilə də olsa yatırtsın. Polkovnik Reynqartın könüllü ordusu və general fon Lütviz topxana ilə Berlinə varid olmuşlardır. Berlin küçələrində saldatlar görünür. Berlin komandanı əhaliyə müraciətlə tətilçilərə qarşı ciddi tədbirlər ittixaz edəcəyini [tədbirlər görəcəyini] bildirir.

* Mart ayının 6-sında bə'dəzzöhr [günortadan sonra] hökumət qoşunları müvəffəqiyyətlə irəliləmişlərdir. Könüllü orduların və qvardiyanın spartak və qarətçilərə qarşı hücumu müvəffəqiyyətlə davam edir. Polis idarəsi üsyan etmiş şəxslər tərəfindən mühasirə edilmişdir. İstila qoşunları şəhərə varid olub, hökumət əleyhinə olan şəxslərin silahını almışlardır. Qısa bir müharibədən sonra spartaklar çəkilməyə başlamışlardır.

* Duysburg şəhər qlavasına spartaklar ultimatum verərək tələb edirlər ki, əmələlərə silah paylanıb, məhbusları azad etsinlər.

### Amerika qoşunları

Parisdən teleqraf ilə xəbər verilir ki, Avropadan Amerika əsgərlərini Amerikaya aparmaqdan ötrü Almaniya paraxodları hazır edilmişdir. Qərb cəbhəsində bulunan Amerika qoşunları da bu yaxınlarda Amerikaya övdət edəcəkdirlər [qayıdacaqlar].

### Klemansonun yaralanması barəsində

Parisdən xəbər verilir ki, Fransanın burjuaznı mətbuatı Klemansoya sui-qəsd hazırlamaqları ilə bolşevikləri təqsirləndirirlər.

* Rusiyanın sabiq siyasiyyunlarından [siyasətçilərindən] Avksentyev Kanada vasitəsilə Nyu-Yorka varid olmuşdur. Oradan Sülh Konfransına Parisə əzimət edəcəkdir [yola düşəcəkdir].

### Fransada bahalıq

Fransız hökuməti bahalığa qarşı ciddi tədbirlər ittixaz edir və çalışır ki, ən yaxın bir müddətədək bahalıq 40 faizədək əskilsin. Şəhərin 15 yerində böyük dükanlar açılmışdır. Bunlar əhaliyə ucuz mal buraxırlar. Bu yaxınlarda bir çox bu cür dükanlar açılacaqdır.

* Reyn və Berlində idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan edilmişdir. Yeni bir inqilab başlandığına dair məlumat alınmışdır. Yenə xəbər verilir ki, fon Lütviz Berlini spartaklara qarşı müdaifə edəcəkdir.

* Kopenhaqdan mart ayının 3-ündə göndərilən teleqraf xəbərlərinə nəzərən, Berlində bugünlərdə yeni bir iğtişaş başlanmışdır. Külli camaat polis nəfəratına hücum edərək polis idarələrini işğal etmişlərdir. İdareyi-əsgəriyyə elan və divani-hərb [hərbi məhkəmə] təşkil edildikdən sonra axşam saat 6-dan sonra küçələrdə görünənlər edam ediləcəklərdir.

* Bu gün Almaniya Milli Məclisi buraxılacaqdır. Hər halda bir dəxi Məclisin yığışmasına güman yoxdur.

## SÜLH ƏTRAFINDA

### Vilsonun Cəmiyyəti-Əqvam haqqında nitqi

Nyu-Yorkdan xəbər verirlər ki, səşənbə [çərşənbə axşamı] günü rəisi-cümhur [prezident] Vilson Metropoliten Opera Teatrosunda Cəmiyyəti-Əqvam [Millət-

lər Cəmiyyəti] haqqında nümayişkaranə bir nitq irad etmişdir [təntənəli bir nitq söyləmişdir]. Teatroda bir çox siyasi və maliyyə xadimləri, böyük ticarət nümayəndələri və ziyalılar isbati-vücud [iştirak] edirmişlər. Vilson teatro səhnəsinə çıxdıqda sürəkli alqışlarla təbrik edilmişdir. Vilson demişdir ki, Amerikanın öhdəmə atdığı vəzifəni, yəni dünyada möhkəm sülh bərpasını müvəffəqiyyətlə axıra yetirməyincə Yevropadan qayıtmayacağam. Vilson azad olmuş millətlərin azad bir surətdə yaşamalarını tələb edir. Yevropada olan dövlət xadimləri gün-gündən Cəmiyyəti-Əqvam amalına şərik olmaqdadırlar. Vilson nitqini qüvvətli və aydın bir səs və dərin bir etiqad, bəzən həyəcanla söyləmişdir. Vilsonun nitqi sameinə [dinləyicilərə] böyük təsir bağışlamışdır.

**Vilsonun Yevropaya əziməti**

Çaharşənbə [çərşənbə] günü səhər, Vilson arvadı ilə bərabər "Corc Vaşinqton" hərbi gəmisində Yevropaya azim olmuşdur.

**Sülh Konfransında**

* Konfransda sülh şərtnaməsinin bir çox maddələrini və düşmənin şəraitini [şərtlərini] müzakirə etmişlərdir. Bu barədə qətnamə sabah qəbul ediləcəkdir. Burası məlumdur ki, Bohemiya, Avstriya və Bavariyaya ərzaq yetirmək məsələsi müzakirə edilmişdir. Orada olan Amerika və ingilislərin rəsmi adamları bəyan etmişlər ki, yuxarıda zikr edilən yerlərdə ərzaq məsələsi qayət fəna bir haldadır. Birinci olaraq Bohemiyaya və Bavariyaya ərzaq göndərilməlidir. Bu da aclığın qabağını saxlamaq üçün deyil, bəlkə bu yerlərə ərzaq yetirməklə bolşevizmanın qabağını saxlamaq üçündür. Sabahkı iclasda Huverin də iştirak edəcəyi gözlənir. Mümaileyh [adı keçən şəxs] İtaliya təriqi [yolu] ilə oralara nə vasitə ilə ərzaq göndərilməsinin mümkün olduğunu söyləyəcəkdir.

* Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə nəzərən Sülh Konfransının bütün komissiyaları ciddi surətdə işləyirlər. Hətta zənn edirlər ki, sülh şərtnaməsinin layihəsi aprelin 1-ədək qurtaracaqdır. Bir neçə maddələr tamamilə qurtarmışdır. Lloyd Corcun ciddi iştirakı ilə, bu həftə, yəni Vilsonun vürudu [gəlişi] mart ayının 14-ədək məramnamə qurtaracaq və sonra Vilsonun mütaliəsinə veriləcəkdir. Nemeslərə təqdim ediləcək bəzi sənədlər isə martın axırınadək hazır olacaqdır. Rəsmi dairələr də bu əqidədədirlər ki, nemeslər müttəhid [birgə] konfrans iclasına buraxılmayacaqlardır. Ancaq bunlar konfrans komitələri ilə əlaqədar olacaqlardır.

Parisdə olan amerikalılar öz işlərinin müvəffəqiyyətlə irəliləməsindən məmnundurlar. Rəsmi xəbərlərə nəzərən, Amerika Konqresi və milləti ciddiyyən Cəmiyyəti-Əqvam məsələsinə tərəfdardırlar.

**Eyfel qülləsindən çəkilən simsiz teleqraf**

Rəisi-cümhur Vilson, Müttəfiq dövlətlərin Xariciyyə nazirləri və Baş vəkilləri [Baş nazirləri] və Yaponiya nümayəndələrinin iştirakı ilə vaqe olan iclasda qət edilmişdir [qərara alınmışdır], bütün cahana simsiz telqrafla məlumat verilsin ki:

Millətlər arasında möhkəm sülh paydar [bərqərar] etmək üçün hal-hazırda konfransda iştirak edən Müttəfiq hökumətlər, Avropanın və Şərqin müxtəlif yerlərindən silah gücü ilə torpağa malik olmaq istəyənlər barəsində yetişən xəbərlərdən müşkülata düçar olmuşlardır. Millətlərin qanuni və haqlı iddiaları ancaq Sülh Konfransının qət və qərarına vagüzar edilməlidir [tapşırılmalıdır]. Bu müttəhid hökumətlər özlərinə borc bilirlər məlum etsinlər ki, silah gücü ilə torpağa malik olmaq bu cür üsula iqdam edənlərin [təşəbbüs edənlərin] iddialarına, tələblərinə böyük əngəl yetirər. Onların bu kimi iqdamatı [təşəbbüsü], yəni silah gücü ilə torpağa malik olmaq istəyənlər[in] özlərinin iddialarının haqlı olduqlarında şübhəli olduqlarını andırır. Onlar silah gücü ilə məcburiyyətlə o cür yerlərə sahib olmaq istəyib milli və tarixi şəraiti silaha tərcih verirlər. Silah gücü ilə iş görmək istəyənlər özlərinin haqlı tələblərinə ləkə vurmuş olurlar. Bununla da özlərinin konfransa etimadları olmadığını bildirmiş olurlar. Bu kimi işlərin nəticəsi qayət fəna olacaqdır. Hərgah böylə iqdamatda bulunanlar ədalət axtarırlarsa, silah istemalından [istifadəsindən] vaz keçib mütləq öz iddialarını Sülh Konfransına təqdim etməlidirlər.

* Pekin - Yaponiya Xariciyyə naziri Çin Hökumətinə məlum eyləmişdir ki, Parisdə olan sülh nümayəndələri öz vəziyyətlərini dəyişdirməlidirlər. Yaponiya istəyir ki, Çin ilə Yaponiya arasında olan gizli əhdnamənin Sülh Konfransında açılmasına Çin Hökuməti məsul olsun. Çin nümayəndələri konfrans açılmadan əvvəl hər bir məsələdə Yaponiya nümayəndələri ilə bərabər işləməlidirlər. Yaponiya bunu da qeyd eyləmişdir ki, hərgah, Çin Hökuməti tərəfindən bu xüsusda lazım gələn müavinət [köməklik] edilməzsə, Yaponiya maliyyə cəhətindən Çin məmləkətini sıxışdıracaqdır. İndi Çin Hökuməti Yaponiyanın dostluğunu, yaxud əksini qəbula muxtardır [azaddır, ixtiyar sahibidir]. Çin dairələrində bəziləri rəisi-cümhuru Yaponiyaya qarşı güzəşt etməməyə vadar etmək istəyirlər. Yaponiyanın bu hərəkətləri Çin əhalisinin heyrətini mövcib olmuşdur [heyrətinə səbəb olmuşdur].

* Nyu-York - Tokiodan çəkilən teleqrama nəzərən, Yaponiya Hökuməti Parisdəki sülh nümayəndələrinə düsturüləməl [təlimatnamə] göndərərək təklif edir ki, Çin ilə Yaponiya arasında olan əhdnaməni xüsusi surətdə Müttəfiq dövlətlərə bildirsinlər.

* "A. P." qəzetəsinin Vaşinqton müxbiri yazır ki, rəsmi diplomasi məlumata nəzərən Çin ilə Yaponiya arasında olan gizli əhdnamələri Çin nümayəndələri açsalar, Yaponiya Çinə elani-hərb edəcəkdir. Müxbir zənn edir ki, Yaponiyanın bu hərəkəti sair Müttəfiq dövlətlər arasında xətrəyə [təhlükəyə] səbəb ola biləcəkdir. Çin Amerikanın, yaxud İngiltərənin müavinətini axtarır. Çin nümayəndələri Parisdə bəyan etmişlər ki, Yaponiyadan dəmiryol ilə gələrkən Çin ilə Yaponiya arasında bağlanmış əhdnamələrin surəti baqajdan oğurlanmışdır. Ona görə, nümayəndələr bu əhdnamələri elan etməyə imkan tapmamışlardır.

## QƏZETƏLƏRDƏN

**Vladiqafqazda**

Hal-hazırda Vladiqafqazda sakitlikdir. General Lyaxov "Paris" mehmanxanasında mənzil tutmuşdur. Vladiqafqazda qalan neçə min bolşevik əsgərləri hərbi əsir hesab edilirlər. Bunları məcburi surətdə işlədirlər. Vladiqafqaza ərzaq şeyləri gətirilməkdədir. Bununla belə, şəhərdə bahalıqdır. Qarğıdalı unundan bişən çörəyin girvənkəsi 5 manatdır. Yumurtanın 10 dənəsi 40 manata satılmaqdadır. "Terski kazak" adında nimrəsmi [yarı-rəsmi] qəzetə nəşr edilir. Bu qəzetədə əmrlər və rəsmi xəbərlər dərc edilməkdədir.

**Zaqafqaziya darülfünunu**

"Z. S." qəzetəsi xəbər verir ki, Azərbaycan Hökuməti Tiflisdə olan Zaqafqaziya Darülfünununun [Universitetinin] Bakıya köçürülməsi üçün darülfünun müdirinə rəsmi surətdə teleqraf göndərmişdir. Azərbyacan Hökuməti darülfünun məsarifi üçün ildə 5 milyon rublə və kitabxanadan ötrü 300 min rublə verməyi vəd etmişdir. Ermənistan Hökuməti də darülfünunun İrəvana köçürülməsi təklifində bulunmuşdur. Darülfününun hara köçürüləcəyi hələ həll edilməmişdir.

**İngiltərə heyəti**

Üç nəfərdən ibarət İngiltərə heyəti məhəllində [yerində] işlərdən xəbərdar olmaqdan ötrü Trabzona əzimət etmişdir [getmişdir].

**Dəmiryol Komitəsi**

Dəmiryol münasibatını [rabitəsini] düzgün bir hala salmaqdan ötrü İngiltərə komandanlığı Zaqafqaziya cümhuriyyətlərinə müraciət edib Dəmiryol Komitəsi təşkil edilməsi təklifində bulunmuşdur. Komissiya başında İngiltərə nümayəndəsi durub, hər cümhuriyyətdən komissiyaya iki nəfər nümayəndə daxil olacaqdır. İngiltərə komandanlığının bu təklifinin axırıncı maddəsində deyilir ki, komissiya sədri üzvlərin rəyi ilə şərik olmadığı halda məsələləri o bildiyi kimi həll edəcəkdir.

**Türkiyədə**

Ənvər paşanın əmisi Xəlil paşanın qaçması haqqında İstanbulda şaye olan [yayılan] xəbər münasibətilə "Tərcümani-həqiqət" qəzetəsi yazır ki, neçə vaxtdır ki, Xəlil paşa heç də görülməyir. Ancaq məlumdur ki, Xəlil paşa 10 gün əqdəm [qabaq] evdən çıxıb daha geri qayıtmamışdır.

**İstanbulda Azərbaycan teatrosu**

İstanbulda "Azərbaycan Türk Dram və Operetta Cəmiyyəti" təşkil edilmişdir. Bu cəmiyyət, türk-Azərbaycan əsərlərini mövqeyi-tamaşaya qoymaqdadır. Bugünlərdə "Məşhədi İbad" operettası oynanıb, "Arşın Mal Alan" operettası da mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanmaqdadır.

## TƏTİL GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Berlin** - İsveçrə qəzetələrinin məlumatına görə, Yaponiya paytaxtı olan Tokioda hökumətə qarşı dəhşətli nümayiş





olmuş, bu nümayişdə əmələlər [fəhlələr] və məktəb şagirdləri iştirak edərək, "Qəhr olsun padşahlıq" deyə qışqırırlarmış.

**Bazel** - Babret şəhəri spartaklar tərəfindən işğal edilmişdir.

**Berlin** - Berlində müntəşir [nəşr olunan] "Zatefand" qəzetəsi xəbər verir ki, Yassıda 60 min nəfər yeni əsgərliyə alınmış şəxslər əsgərlik vəzifəsindən imtina etmişlərdir.

**Luqano -** İtaliyada əmələ [fəhlə] hərəkatı gündən-günə artır. Hökumət silah, top və pulemyot gücü ilə əmələ hərəkatını yatırtmaq istəyir.

**Kiyev** - Serbiyada inqilab başlanır. Slaviyanın bir çox şəhər və qəsəbələrində mitinqlər qurulduğunu məlumat verirlər. Serbiya və Slaviyanın bir çox yerlərində əmələ şurası təşkil edilmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində [Əmək Nazirliyində]**

Bir çox əşxas [şəxslər] İngiltərə komandanlığı cənbindəki [nəzdindəki] Məsai komissarına ərzihal verirlər ki, komissar həman ərzihalı sonra Məsai Nəzarətinə göndərirdi. Məsai Nəzarəti, İngiltərə komandanlığına müraciətən rica etmişdir ki, bundan sonra ərzihallar bilavasitə Məsai Nəzarətinin dəftərxanasına verilməlidir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı xəzinəsinə müraciətən məlum etmişdir ki, müsəlman ətfalına [uşaqlarına] məxsus darüleytamlar [yetimxanalar] üçün Müsəlman Ünas [Qadın] Cəmiyyəti-Xeyriyyəsi rəisəsi [Liza] Muxtarov[a] xanıma 50 min rublə buraxılsın.

## MƏKTƏBLƏRİMİZ

Milli vicdan, milli məktəblərlə doğar. Milli məktəbləri, milli müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir çocuğa bənzər ki, kəndi xeyir və şərini düşünəmməz, dost və düşmənini fərq edəmməz. İştə çocuqlara kəndini tanıdan, milli ruhlarını, hisslərini yüksəldən, onların dağ çeşmələri qədər saf və təmiz ürəklərində böyük milli bir məfkurə doğuran, gələcəkdə sevgili vətən və milləti üçün ən dəyərli və qiymətli övlad yetişdirən və sarsılmaz bir qüvvət hazırlayan milli məktəblərdir. İştə, milli məktəblər millətin nur və səadət çırağıdır.

Əvət, iqrar [etiraf] etməliyiz ki, şimdiyədək milli məktəblərimiz olmadığından, milliyyət naminə heç bir şeyimiz yox idi. Müstəbid çar hökuməti milli məktəblərin nə dərəcədə əhəmiyyətli olduğunu düşündüyündən, nerədə bu mübarək ocağın az-çox şölələnib yandığını görsəydi, dərhal o üçbarmaqlı xain bilək uzanar, fövrən [dərhal] o milli, müqəddəs ocaq söndürülürdü.

Millət və mədəniyyət uğrunda çalışmaq, çabalamaq bir xəyanət, çalışmamaq isə sədaqət sayılırdı.

Yaradana həmdlər olsun ki, o jandarma hökuməti yerinə milli Azərbaycan Hökuməti təşəkkül edib vətən və millətimizi idarə üçün ayrı-ayrı Nəzarətlər intixab olundu [seçildi]. Hər kəs vəzifəsi başına keçdi. Yaradandan həpsinə minmin tövfiq [kömək] diləərəm.

Şimdi altı aydır məktəblərimiz milliləşmiş olduğundan, elmlər və fənlər tamamilə türk ana lisanında tədris olunur. Bu isə şayani-təqdir və pərəstişdir. Şübhəsiz məktəblərimiz və məktəblilər birər qəlib, müəllim isə sinfin ruhudur. Çalışqan və vicdanlı bir müəllim, sinfində nə kimi xariqələr yapa biləcəyi aşikardır.

Mən bir müəllim olduğum üçün ancaq məktəblərimiz haqqında bəhs etmək istəyirəm. Şimdiki məktəblərimizə və məmləkətimizin nə miqdar məktəbə ehtiyacı olduğuna nəzərən, kafi miqdarda müəllimlərimiz olmadığı kimi, mövcud bulunan müəllimlər içərisində dəxi əksəriyyətlə iki dürlü nöqsanlıq mövcuddur:

Birincisi, əslən müəllim olaraq rus darülmüəllimlərində [gimnaziyalarında] yetişmiş olan müəllimlərimizdir ki, bunlar əksəriyyət etibarı ilə türk ədəbiyyatına və fənni istilahlarına [elmi terminlərinə] vaqif deyildirlər.

İkincisi, xaricdə oxumuş və bilaxirə [sonra] məmləkətə süluk etmiş zəvatdır [gəlmiş şəxslərdir] ki, bunlar da üsuli-tədrisə əksəriyyətlə vaqif deyildirlər.

Üçüncü sinif – məktəblərimizin hər iki dürlü ehtiyacını rəf edə [qarşılaya] biləcək hazır müəllimlərimiz pək azdır.

Bunlardan maəda [başqa], məktəblərimizdə ən böyük ehtiyac kitabsızlıqdır ki, bu ehtiyac və nöqsan ən müqtədir və dahi müəllimlərimizi belə müvəffəqiyyətlərində aciz buraxmaqdadır. Bu xüsusatın təmini üçün ciddi təşəbbüs lazımdır:

Birinci, ümum məktəblərimizin ehtiyacını və müəllimlərimizin kamilən nöqsanını bilmək üçün bir dəfə ümumi müəllimlər konqresi tərtib edilməlidir.

İkinci, hər bir yerdə hazır müəllimlər arxadaşlarının nöqsanını ikmal [tamamlamaq] üçün məhəlli kurslar açılmalıdır.

Üçüncü, hər bir sinfə və hər bir fənnə məxsus mükəmməl kitablar tərtib etmək üçün ya müsabiqə açılmalı və yaxud müntəxəb [seçilmiş] müəllimlərdən müəyyən komisyonlar doğrulmalıdır ki, tezliklə məzkur [deyilən] kitabları təlif ya təbdil edərək [yazaraq yaxud dilimizə uyğunlaşdıraraq] vaxtında yetişdirilsin.

Bir əsgər qovğa meydanında ancaq əlindəki silahla müvəffəq ola bilər. Bir müəllim də bir əsgərdir. Silahı isə kitablarıdır. Kitabsız tədris edən bir müəllim, silahsız qovğa edən bir əsgərə bənzər. Silahsız bir əsgər qovğa meydanında nə qədər müvəffəq ola bilərsə, kitabsız bir müəllim də sinfində bir o qədər müvəffəqiyyət əldə edə bilər. Milli siniflərdə kitabsızlıq üzündən zavallı müəllim və mütəəllimlərimiz [şagirdlərimiz] nə qədər ağır zəhmət və məşəqqətlərə qatlanaraq, bir böhrani-əzim [böyük böhran] içində yuvarlanırlar.

Bu nöqsanların ikmalı ilə bərabər, müəllimlərin maddi ehtiyacını da unutmamalıdır.

Şübhəsiz, bir millətin bir arzusu, istəyi, məfkurəsi olduğu kimi, hər fərdin də xüsusi arzu və istəyi ola bilər. Hər fərd də birinci kəndini və ailəsini düşünməyə haqlıdır. Kəndinin və ailəsinin həyatını təmin edəmməyən şəxs hər bir şeyi düşünəmməz və nə qədər mütəəssib [təəssübkeş] və "idealist" olarsa, heç bir işdə səmimi çalışammaz. Zira ki, insan hava ilə deyil, qida ilə yaşar.

Bir insan kəndini və ailəsini gözəlcə bəsləyə bildiyi təqdirdə, havassı cəm [lazımi xüsusiyyətləri özündə toplaya] və kəndi vəzifəsini layiqincə icraya müstəid [qabil, qadir] ola bilər.

Məktəblərimizin tərəqqisi və təalisi [ucalması] naminə bu iki böyük ehtiyacın rəf'ini [aradan qaldırılmasını] arzu ediriz. Bu iki ehtiyac rəf olmayınca nə millət, nə hökumətimiz müəllimlərimizdən müvəffəqiyyət bəkləyə biləcək və nə də müəllimlərimiz kəndilərini məsul tutacaq.

*Talıbzadə Abdulla Şaiq*

## LƏNKƏRAN TİLSİMİ

Hökuməti-müstəbidə [istibdad hökuməti] uçdu, canişini də Qafqazdan təşrif apardı. Lakin ölkəmizdə o qədər əsərlər, o qədər yadigarlar buraxmışdır ki, qafqazlılar yüz illərcə onu fəramuş edə [unuda] bilməyəcəkdir. Bu yadigarların ən çoxu Azərbaycana qismət olmuşdur. Əzancümlə [o cümlədən], köhnə hökumət əli ilə Muğan çölündə yerləşmiş rus mühacirləri bizim üçün böyük bir duzaqdır [tələdir]. Rus hökuməti bunları buraya köçürdükdə öylə anlayırdı ki, guya mədəni (!) mühacirlər buraya köçüb də avam qalmış müsəlmanların tərəqqi və mədəniyyətinə böyük bir vasitə olacaqlar.

Bundan əlavə, sərhəd boyu yerləşmiş rus kəndləri "səddi-İskəndəri" kəsilərək Şahsevən kimi İran qaçqınlarının Qafqaz qitəsinə yapdıqları təcavüzlərinə mane olarlar. Hökumətin rəsmi bəyanatı bu idi. Lakin batinən [əsl] məqsədi ayrı idi. O da bundan ibarət idi ki, Rusiyanın mərkəz quberniyalarında dəhat əhli [kəndlilər] darısqallıq və sıxıntı çəkirdi. Torpaq cəhətindən qiyam və iğtişaş gözətlənirdi. Bəlanın dəfi üçün bunların pozğun bir hissəsini uzaq yerlərə köçürmək lazım gəlirdi. Bunları müsəlman kimi qeyri millətlərin arasında yerləşdirirdilər ki, mürurİ-zamanla [vaxt keçdikcə] onlar da ruslaşsınlar. İştə rus hökumətinin bu tədbiri ilə bir əldə iki qarpız tutulurdu: Həm iğtişaşçılardan hökumət yaxasını qurtarır, həm də qeyri-rusları ruslaşdırırdı. Lakin ruslaşdırmaq məsələsində hökumətin oxu daşa dəydi. Muğan əhlindən bir nəfər də olsun ruslaşmadı. Bunun müqabilində muğanlıların yerləri qəsb olunduğu üçün mühacirlərin də hökumət nəvazişi sayəsində keyfəmayəşa ilə [kefləri istədiyi kimi] yaşadıqları cəhətə, iki millətin arasında bir ədavət əmələ gəlmişdi.

Rus qubernatorları dövründə mühacirlərin Muğan əhli ilə rəftarı çox müstəbidanə və zalimanə olduğundan, təbiidir ki, əhalinin bir gün intiqamına məruz qalacaqlardı. Bunu duymuş mühacirlər inqilab günləri ciddi tədarüklər gördülər. Cəbhədən qayıtmış mühacir saldatları özləri ilə bərabər çox tüfəng və patron gətirib qonşu müsəlman kəndlərini təhdid altına aldılar. Bəzi narəva hərəkət-

lərlə öz rəislərini də rəncidə-xatir etdilər. Silahsız müsəlman kəndləri buna müqabil durdularsa da pozuldular. Çünki müsəlman kəndlərinin arasında ittihad və ittifaq yox idi. Bir çox müsəlman kəndləri dağıldı. Mart hadisatından sonra bolşeviklərlə bərabər buraya bir çox daşnaklar da gəldilər. Bundan sonra Avetisovun dəstəsi başsız müsəlman kəndlərinin axırına çıxır. Olmazın zülmləri, şərarəti [pisliyi] yapdılar. Yollar kəsildi, əhali şikayət etməyə bir yer tapmadı. Türklər Bakıya gəldikləri halda, Muğan ətrafının bolşeviklərlə əlaqəsi kəsildi. Buradakı sərsərilər "Muğan Hökuməti" adı ilə bir fitnə dağarcığı düzəldib daha şiddətlə müsəlmanları soymağa cürətləndilər. İş bu qərar ilə davam edərkən ingilis komandası Bakıya gəlir. Bu halda Muğan və Lənkəran nümayəndəsi Bakıya gələrək Azərbaycan Hökumətinə və general Tomsona şikayətlər verirlər. Muğandakı sərsərilərin qovulmasını istida [xahiş] edirlər. Bakı Rus Milli Komitəsinin işarəsi ilə Muğanda kəndlilər ictiması [yığıncağı] tərtib olunur. Guya bəzi müsəlmanların iştirakı ilə ictima Azərbaycanın təbəiyyətini [vətəndaşlığını] rədd və Rusiyaya mülhəq olma [qoşulma] məsələlərini qərara alır. Bakıda tərtib edilmiş Dabravol [Könüllü] dəstələri ilə Muğan mühacirlərinin aralarında gizli bir rabitə davam edir. Biçeraxov, Prjevalski və bunların dəstələri Bakıdan tərd olundu [qovuldu]. Amma Muğan, yaxud Lənkəran hökuməti yenə əvvəlki kimi müsəlmanların başına olmazın bəla və müsibəti gətirir.

Lənkəran hökuməti indi təzə bir hiylə ixtira etmişdir. Müsəlman quldur və qaçaqlarını xüsusi imtiyazat ilə öz tərəfinə cəlb edib, bunların vasitəsilə müsəlman kəndlərini oda tutur. Bir tərəfdən bizi Andranik kimi erməni quldurları dağıdır. O biri tərəfdən də müsəlman quldurları dağıdır. Andranik ermənidir, bizə hər nə eyləsə erməni millətinin mənfəəti, mülahizəsi ilə edir. Bəs, namərd müsəlman quldurları nədir ki, düşmənlərə qoşulub müsəlmanlar kəndlərini atəşə tutur?

Bəli, Şevkunovlar bir dəqiqə fürsəti fövtə verməyib müsəlman quldurları əli ilə dağ ətrafındakı müsəlman kəndlərinin əslihələrini [silahlarını] əllərindən alırlar, zorən özlərinə müti edirlər. İş böylə davam edərsə mürури-zamanla [vaxt ötdükcə] dağ kəndlərinin hamısını itaətə gətirərlər. Amma öylə zənn olunmasın ki, zorla müsəlmanları itaətə gətirmək mümkün olar! Bu çox çətin bir məsələdir. Bəlkə heç mümkün də deyil. Mülahizə ediniz ki, Şevkunov top və tüfənglə dağ kəndlərinin üstə hücum etmişdir. Müsəlman qeyrətli və namuskarı Şahverən cənabları buna müqabilə edərək düşməni böyük tələfatdan sonra qaçırmışdır.

Rəvayətə görə, Şevkunov təzə qüvvələr hazırlayaraq böyük bir hücumun tədarükünə çalışır. Söz yoxdur ki, dağ kəndliləri bu dəfə də mərdanə və diliranə [igidliklə] müqabilə edəcəklər. Bəlkə qırılacaqlar, amma zalımlara və qasiblərə [qəsbkarlara] müti olmayacaqlar.

Şevkunovlar Denikinin yolunu gözləyərək müsəlmanları tərk-silaha məcbur edir, itaətə gəlməyənləri atəşə tutur. Biçarə lənkəranlılar kərratla [dəfələrlə] şikayətə gəlmişlər. Ərz və istida [xahiş] etmişlər, imdad istəmişlər. Lakin hələ bunların imdad fikrinə qalan yoxdur.





Lazım olan yerlərə müraciətən deyirik ki, əhalinin imdadına çatın, zalımların çəngalından [caynağından] bunları qurtarın. Bir dəfə ciddi işə girərək məsələnin həllini öyrəniniz. Hərgah, ingilis komandasından asılıdırsa, general Tomsondan tələb ediniz ki, işə müdaxilə etsin, şərarətçiləri oradan kənara qovsun. Yox, hərgah, iş Azərbaycan Hökuməti əlindədirsə, nə əcəb indiyə qədər buna bir tədbir etməmişdir? Zahirən iş nəzərə balaca gəlirsə, batinən çox böyükdür. Lakin lazımdır ki, birdəfəlik bu Lənkəran tilsimi sındırılsın, qurtasın!

*F. A.*

## DAĞISTAN ƏHVALI

**Şatilovun məktubu**

Könüllü ordu generallarından general Şatilov Dağıstan Hökuməti rəisinə böylə bir məktub göndərmişdir:

Alicənab Pşemaxo!

Tersk-Dağıstan oblastı əsgərlərinin komandanı və baş komandan general Lyaxovdan bu yaxın günlərdə çeçen əhalisi arasında idareyi-məhəlliyyə (samouppravleniya) tətbiq edilməsini elan etmək düsturüləməlini [təlimatını] almışam. İdareyi-məhəlliyyə haqqında təqdim etdiyim elanımda bəyanat verilir. Sizin tərəfinizdən təyin edilən qubernator Cəfərovun Qroznıya varid olmasını [gəlməsini] general Lyaxova xəbər verdikdə general Lyaxov idareyi-məhəlliyyə haqqında ona binagüzarlıq [sərəncam] verməkdən ötrü Proxladnıya, öz yanına çağırmışdır.

Özümü borclu bilirəm, xəbər verim ki, Şimali Qafqaziya əhalisi öz razılıqları ilə Könüllü ordu komandanlığına tabe olub, hal-hazırda general Lyaxovun göstərdiyi idareyi-məhəlliyyə üsulunu tətbiq etməkdədirlər. Ancaq iğfal edilmiş [aldadılmış] üç inquş kəndi bizim əleyhimizə çıxıb məəttəəssüf [təəssüf ki], mütəzərrir olmuşlardır [zərər çəkmişlər]. Ancaq tezliklə onlar öz səhvlərini başa düşüb müharibənin axır günlərində bolşeviklər əleyhinə olaraq Könüllü ordu səflərinə daxil olmuşlardır. İnanıram ki, çeçen əhalisi də Şimali Qafqaziyanın başqa millətləri kimi hərəkət edib idareyi-məhəlliyyə üsulunu öz razılığı ilə qəbul etməklə bərabər, müəzzəm [böyük] və vahid Rusiyanı bərpa etmək işində Könüllü ordu ilə əlbir olacaqdır.

Bununla bərabər, lazım bilirəm öz şəxsi rəyimi də söyləyim ki, Dağıstan millətlərinin hər biri baş komandanın ümumi ali idarəsi altında idareyi-məhəlliyyə ilə idarə olunduqları halda, Dağıstan Hökumətinin vəziyyəti adi halından çıxacaqdır. Dağıstan millətlərinin və ümumi iş xeyrindən ötrü yaxşı olardı ki, iki hökumətliliyi rəf edib [aradan qaldırıb] təzə idareyi-məhəlliyyə tətbiqi ilə Dağıstan Hökumətinə ehtiyac qalmadığına görə, hökumətin iş başından çəkilməsi haqqında özünüz bir əmrnamə nəşr edəsiniz. Nəşr etdiyim elanda mən qəsdən Şimali Qafqaziya millətlərinin qəbul etdiyi Dağıstan Hökumətinin Könüllü ordu tərəfindən qəbul və təsdiq edilməməsini qeyd etməmişəm. Çünki bu məsələnin yuxarıda göstərilən qərar üzrə hökumət tərəfindən həll edilməsi arzu olunur. Mən ümidvar oluram ki, öz nümayəndələrinin dediyinə görə, Rusiya-

nın bərpa edilməsini arzu edən Dağıstan Hökuməti millətləri Dağıstan millətləri nəzdində öz vəzifəsini ifa etməkdən ötrü bu yolda iqdamatda [təşəbbüsdə] bulunar.

Səmimi ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Kamali-ehtiram ilə Çervlyonnı, Qroznı və Sernovodsk rayonunda olan Qafqaziya Könüllü ordusu baş naçalniki general-mayor:

*Şatilov*

## HÜRRİYYƏT BAYRAMI

Srağagün şəhərdə Rusiya inqilabının ikinci səneyi-dövriyyəsi [ildönümü] münasibətilə hürriyyət mərasimi-eydi [hürriyyət bayramı mərasimi] təntənəli bir surətdə icra edildi. Əvvəlcə bunu qeyd etməliyiz ki, həmin "Hürriyət bayramı" keçən illərə nisbət[ən] artıq dərəcə şükuhlu və həşəmətli [təntənəli və əzəmətli] bir surətdə icra edildi. Siyasi firqələr və qeyri təşkilatlar bayramın bu dərəcə hüsn-rəğbətlə qarşılanıb kamali-ehtiram və əzəmətlə saxlanacağını gözləməyirdilər. Şəhərin və mədən dairəsinin bütün bilafərqi-sinif və məzhəb [sinif və məzhəb fərqi olmadan] əhalisi həmin günü tətil edərək bayrama iştirak edirdi. Bu ilki hürriyyət bayramı ələlxüsus türk-müsəlmanlara son dərəcə icrayi-təsir edirdi ki, bu gün onlar bilafərqi-silk, sinif və firqə bayram mərasiminə iştirak etdi.

Həmin bayramın bu dərəcə ehtiramla qarşılanmasına birinci səbəb türk-Azərbaycan əmələlərinin [fəhlələrinin] iştirakı və onların bir xüsusi-fövqəladə ilə [fövqəladə bir halda] şəhər küçələrində cövlan edərək uca sədaları və alqışları ilə "Yaşasın Azərbaycan Cümhuriyyəti" deyə bu gün Bakı və mədən dairəsi əmələləri kəndilərini müstəqil və azad bir məmləktdə hiss etdiklərini və "Hürriyyət bayramı"nı həman gündə böylə bir dəbdəbə ilə saxlamalarına son dərəcə sevindiklərini izhar edirdilər.

Məclisi-Məbusan binası üzərində Azərbaycan milli bayrağı ilə bərabər qırmızı inqilab bayrağı yellənirdilər. Binanın içərisi böyük xalılar və ağaclarla bəzənmiş idi.

Saat 10 radələrində dükan-bazar bağlanıb camaat Məclisi-Məbusana tərəf gəlməyə başlayır. Bir qədərdən sonra binanın bütün odaları və zalları camaatla dolur. Burada Məclisi-Məbusanın bayram münasibətilə dəvət edilmiş təntənəli iclası açılıb, sədr cənabları hürriyyətin və inqilabın iki il ərzində keçirmiş olduğu böhranlara və bir çox təbəddülata [dəyişikliyə] uğrayaraq bilaxirə [axırda] millətlərin müvəffəq olduqları istiqlaliyyətindən bəhs edərək məbusları bu gün ilə təbrik etdi.

Ətraf mədənlərin müsəlman əmələləri, məktəblərin bütün mütəəllimləri [şagirdləri] dəstələrlə Məclisi-Məbusana gəlib oradan Təzəpir məscidinə getdilər. Dəstələri "İttihad" mədrəsəsinin musiqi dəstəsi müşayiət edir və mütəəllimlər nəğmələr oxuyurdular. Dəstələrin qabağında milli və qırmızı bayraqlar yellənir, hər kəsdə bir ruh, hər kəsin üzü gülür və simalarda bir sevinc müşahidə olunur. "Müsavat" firqəsi tərəfindən buraxılmış olan "İstiqlal" və "Naş put" qəzetələrinin fövqəladə nömrələri məccanən [pulsuz]





olaraq camaata paylanır və hər kəsin əlində oxunurdu.

Dəstələr şəhərin küçələrini lazımi dərəcə nizam və asayiş üzrə gəzərək Təzəpir məscidi həyətinə yığıldılar. Burada bir qədər dayandıqdan sonra qabaqda mütəəllimlər, onların dalınca əmələlər və qeyri siniflərdən mütəşəkkil dəstələr musiqi və zurna çalınıb nəğmələr oxunduğu halda Aziatski küçədən Vorontsovskiyə, oradan Nikolayevskiyə gəlib Məclisi-Məbusan qarşısında səfbəsteyi-ehtiram olub [ehtiramla cərgəyə düzülüb] durdular. Bir qədərdən sonra Nikolayevski küçəsi başdan-başa camaatla məmlu oldu [doldu]. Minlərlə camaat nəzərini Məclisin binasına cəlb edərək durmuş, kimi isə gözləyir, kəndi təəssürat və hissiyyatını ona izhar etmək istəyir. O biri tərəfdən Məclisi-Məbusan binasına, onun üzərində yellənməkdə olan milli bayraqlara baxdıqda şad və digər tərəfdən yaxılmış və atəşlərin tüstüsündən qara geyinmiş olan "İsmailiyyə" binasına, onun üzərində "Müsavat" firqəsi tərəfindən taxılmış olan milli bayraqlara baxır, qəmgin olur, olursa da fəqət, birinci hissi ikincisinə qalib gəlir, ümidini möhkəm və binanın üzərində olan ayələrə baxaraq onlara əməl edəcəyini kəndisinə vəd edir. "Müsavat" firqəsinin həman möhtəşəm binanı unutmayıb üzərinə bayraq taxması şayani-təqdirdir [təqdirəlayiqdir]. Çünki o, bununla "Azərbaycan istiqlaliyyəti" şüarını əfkar və ənzari-amməyə [ictimaiyyətin düşüncəsinə və nəzərinə] elan etmiş olduğu binasını unutmayıb, bəlkə daima ehtiramını saxlayaraq tezliklə onun təmiri məqsədində olduğunu göstərmişdir.

Məclis binası qarşısında kürsü qoyulub "Müsavat" firqəsi tərəfindən Qənizadə bir nitq irad edərək [söyləyərək] hürriyyət və inqilabın tarixi ilə camaatı aşina edərək Azərbaycan istiqlaliyyətinin müdafiəsi və onun möhkəmləşməsinə camaatı dəvət etdi. Bundan sonra Rza Zaki əfəndi, Rəhim Vəkilov və qeyriləri birər nitq irad edərək həmin yövmi-ali [böyük gün] münasibətilə camaatı və Məclisi-Məbusanı təbrik etdilər.

Camaat Məhəmməd Əmin Rəsulzadəni istəyir, alqışlayır, çağırır. Nəhayət, Məhəmməd Əmin Rəsulzadə gəlir, kürsiyi-xitabətə çıxır. Camaat onu gördükdə gurultulu alqışlar qopur, musiqi çalır, bir neçə dəqiqə natiqə söyləməyə imkan verilməyir. Nəhayət, Rəsulzadə cənabları fəsih və bəliğ bir nitq irad edərək ələlümum inqilab və onun cərəyanları haqqında müfəssəl və ətraflı surətdə olaraq məlumat verir. İki sənə zərfində inqilabın keçirmiş olduğu böhran və keşməkeşlərini te'dad edərək [sadalayaraq] millətlərin istiqlaliyyəti və onun əsasından bəhs etdi. Rusiya istibdadının boyunduruğu altında əzilib yuvarlanan müxtəlif millətlər cümləsində Azərbaycan türklərinin dəxi həqqi-istiqlaliyyətə nail olduqlarını və bu hüququn şərt-şürutsuz [qeydsiz-şərtsiz] olaraq qəbulunu cahan demokratiyası və füqəra camaatından tələb etdi və göstərdi ki, bu hüquq, hamısından əvvəl həman füqəra camaatındır. Burada natiq əfəndi gənclərə müraciətən Azərbaycan istiqlaliyyəti böyüklər tərəfindən tələb edilib və alınıbsa da onun ancaq nəsli-atiyə mütəəlliq [gələcək nəslə məxsus] olub, bəhrəsinin dəxi onlara qismət olacağını bəyanla

müdafiəsini onlara tapşırdı və "Var olsun Azərbaycan" dedi.

Natiq əfəndi nitqi əsnasında dəfəatla [dəfələrlə] alqışlanıb və musiqi çalınırdı.

Bədəhu [sonra] Məclisi-Məbusan rəisi doktor Həsən bəy Ağayev, Maarif naziri Nəsib bəy Yusifbəyli əfəndilər birər nitq irad edərək "Hürriyət bayramı" və Azərbaycan istiqlaliyyətindən bəhslə camaatı onun müdafiə və daima parlamasına dəvət etdilər.

Bədəhu, natiqlərdən Piri əfəndi Mürsəlzadə, [Rza bəy] Qaraşarov, Salman bəy Məlik-Yeqanov, Cabbarzadə, Abbasqulu Kazımzadə, Krım məbusu Faiq əfəndi, Tatar nümayəndəsi, məşhur şair Salman Əsgər oğlu "Mümtaz", Lənkəran nümayəndəsi Teymur bəy Bayraməlibəyov qayət hərarətli nitqlər irad edərək inqilab tarixindən və Azərbaycanın istiqlaliyyəti uğrunda çalışaraq böylə bir nemətin əldən çıxmamasına səy etməyə camaatı dəvət etdilər.

Buradan camaat "Raboçi klub"un [Fəhlə klubunun] zalına dolub, orada Abbasqulu Kazımzadənin sədarəti altında böyük və təntənəli surətdə bir mitinq vaqe oldu. Mitinqdə sədr cənabları əvvəlcə inqilabın tarixindən bəhs edib Azərbaycan istiqlaliyyəti barəsində danışdı. Onun müdafiəsinə əmələləri dəvət etdi. Bədəhu [sonra] Dağıstan nümayəndəsi Davud əfəndi Dağıstan əhvalı barəsində məlumat verib camaatı ona köməyə dəvət etdi. Bundan sonra Həmkarlar İttifaqı nümayəndəsi Bisuk müsəlman əmələlərini təbrik edib onları ittihada [birliyə] dəvət etdi. Piri əfəndi Mürsəlzadə, Məhəmməd Əli Rəsulzadə, Əli Yusif, Əliheydər Qarayev, Məlik-Yeqanov və qeyriləri birər nitq irad edərək əmələləri təbriklə, onlara mütəəlliq [məxsus] olan Azərbaycan istiqlalının müdafiəsini onlara tapşırdılar.

Natiqlərdən sonra Şimali Qafqaz nümayəndəsi olan bir inquş Azərbaycan əmələlərini təbrik edərək Şimali Qafqaziyada hal-hazırda çarpışmaqda olan kiçik inquş millətinin halını təsvir ilə köməyə dəvət etdi. Məclis tərəfindən Piri Mürsəlzadə məzkur [deyilən] nümayəndəyə təşəkkür izhar edərək, Azərbaycan demokratiyasının şimali qafqaziyalı qardaşlarını heç unutmayaraq həmin müharibədə var qüvvəsi ilə onlara kömək edəcəyini və meydani-müharibədə onlarla bərabər öz qanını axıdacağını bəyan etdi.

Nəhayət, Məclis müttəfiqülqövl [yekdil] olaraq zeyldəki [aşağıdakı] qətnaməni qəbul etdi:

*"Biçiz [yoxsul] Azərbaycan-türk demokratiyası (füqəra camaatı) "Hürriyyət bayramı" münasibətilə vaqe olmuş mitinqimizdə əhvali-hazirəni müzakirə edərək zeyldəki qətnaməni qəbul etdik:*

*Azərbaycan Məclisi-Məbusanına öz etimadımızı bəyan edərək tezliklə demokratik üsulu ilə Azərbaycan Məclisi-Müəssisanının dəvətini rica ediriz. Gürcüstan Məclisi-Müəssisanı rəsmi-güşadı [açılış mərasimi] olduğundan oraya təbrik teleqrafı göndərib və Axıska müsəlmanlarının hüququna təcavüz edilməsi əleyhinə protesto edərək onların istiqlaliyyəti verilməsi və onlara edilən hücuma kənar qüvvənin kömək etməməsi tələb edilsin. Dağıstan demokratiyası üzərinə hücum edən qara qüvvənin, Denikin və Lyaxov ordusunun Dağıstan torpağına keçməsi əleyhinə Müttəfiqlər komandanlığı hüzurunda protesto edilsin və Azərbaycan Hökumətindən tezliklə Dağıstana kömək etmək üçün ciddi tədbirlər ittixaz etməsi [tədbirlər görməsi] tələb edilsin. Gürcüstan, Ermənistan və başqa Qafqaziya hökumətlərinə və onların demokratiyasına müraciətlə Dağıstan Cümhuriyyətinə köməyə dəvət edilsin."*

Bundan sonra, sədr cənabları nəhayət atəşin bir nitq irad edərək məclis xitam bulur.

## ADİLİN VƏFATI

Mart hadiseyi-əliməsində [kədərli Mart hadisələrində] son dərəcə mətanət və mərdanəliyi ilə məşhur olmuş Kürdəxanı kəndi əhli Adil əfəndi tif xəstəliyindən naxoşlayıb və srağagün şəhər xəstəxanasında vəfat etmişdir. Mərhum, Mart müharibəsində böyük bir qəhrəmanlıq göstərib dənizdəki hərbi gəmilərdən atılan toplara, çahar ətrafdan [dörd tərəfdən] yağış kimi yağan pulemyot və tüfəng güllələrinə qarşı cansiperanə bir surətdə müqavimət göstərərək, miqdarca çox və nəhayətdə qəvi [güclü] düşmənlə çarpışmış və bu dərəcə qəhrəmanlığı sayəsində şəhərin bir hissəsini müdafiə və mühafizə etməklə bir çoxlarının ailəsinin irz və namusunun təcavüz olunmasına imkan verməmişdir. Mərhumun böylə bir surətdə müqabilə və müdaviməti [dözümlülüyü] hər kəsi heyrətə gətirir, onun qüvvəsinə sənaxan olmağa [dua etməyə] məcbur edirdi. Onun "səngəri" "uşkola" adı ilə məruf olmuşdu [tanınırdı]. Mərhumun üç gün ərzində göstərmiş olduğu cəsarət və fədakarlığını Bakı müsəlman əhalisi unutmaz və göstərdiyi xidmət, ifa etmiş olduğu vəzifəsi əvəzində ona rəhmət oxuyar zənnindəyiz. Allah-taala rəhmət eyləsin.

*Piri [Mürsəlzadə]*

## BAKI XƏBƏRLƏRİ

**Tətil gözlənir**

Martın 11-ində Fəhlə Konfransının təcili iclası vaqe olmuşdur. Fəhlə nümayəndələrindən başqa iclasa heç kəs buraxılmamışdır. İclasda Fəhlə Konfransı ilə general Tomson arasında olan müzakirata [müzakirələrə] baxılmışdır. Fəhlə rayonları nümayəndələri hamısı tətilin əleyhinə olmuşlardır. Çünki fəhlələr tətilin xələldar ediləcəyini [pozulacağını] yəqin etmişlərdir. Müsəlman fəhlələri tətilin əleyhinə olub qəti surətdə iştirak etməyəcəklərini bildirmişlərdir. İclasda tətil əleyhinə qərarlar çıxarılmışdır. Axırıncı xəbərlərə görə, Fəhlə Konfransı "axırıncı qalibiyyətə qədər" şüarı ilə vaxtsız siyasi tətil elan etməyi qərara almışdır. Tətilin nə zaman başlanıb nə vaxt qurtaracağını təzə intixab olunan [seçilən] konfrans heyəti-rəyasəti [konfransın rəyasət heyəti] elan edəcəkdir. "Müsavat" firqəsindən başqa hamı firqələr, hətta daşnaklar da tətil elan edilməsi tərəfdarıdırlar.

**Tapılıb**

Bumajnik [portmanat] içində pul və pasport. Sahibindən xahiş olunur Bazarnı küçə 76 nömrəli Hüseynqulu Quliyevin

dükanında müraciət etsin Ağaməhəmməd İbrahimzadəyə.

**Türkcə yeni məcmuə**

Bu gün Xəzər Müstəhlikin İttifaqı "Kooperasiya" tərəfindən nəşr olunan "Zəhmət həyatı" nam [adlı] türk məcmuəsinin birinci nömrəsi çıxmışdır.

**Böyük oğurluq**

Əliəkbər Xaliqov nam bir zat [adlı bir şəxs] idarəmizə xəbər verir ki, bir neçə gün əvvəl bir uşaq gəlib heç kəsi olmadığını bildirərək bir kömək istəmişdir. Əliəkbər, uşağı xidmət üçün evinə aparır. Dörd-beş gün evdə qaldıqdan sonra uşaq evdən bir kassa götürüb qaçmışdır. Kassada 60-70 min manatlıq qızıl əşya, bir neçə ev, dükan və neft yeri qəbaləsi [mülk sənədi] və sair sənədlər varmış. Aparılan əşyanın qiyməti təxminən yarım milyon hesab edilir. Şeylər oğurlanandan bir gün əvvəl, axşam evin qabağında yabançı bir adam gəzirmiş. Ev sahibi onu görüb nə gəzdiyini sorduqda həmin adam qaçmışdır. Son zamanlar böylə şeylər tez-tez ittifaq düşdüyündən mal sahibi güman edir ki, şəhərdə bir dolandırıcı dəstəsi var ki, böylə uşaqları o bəhanə ilə evlərə nökər verərək sonra əşya oğurladır.

**Tağıyev fabrikasında**

Fevralın 28-ində Tağıyev fabrikası əmələ şurasının iclası vaqe olmuşdur. İclasda 1500-dən ziyadə müsəlman və rus iştirak etmişlərdir. Bu iclasda birinci dəfə müsəlman fəhlə arvadları da isbati-vücud [iştirak] etmişlərdir. Tağıyev fabrikasının Kəsbkarlar İttifaqı "Hümmət" firqəsi nümayəndəsi [Əliheydər] Qarayevi bu iclasa dəvət etmişdi. Ruznameyi-müzakiratda [müzakirə gündəliyində] Tağıyev fabrikası ştatının azalması məsələsi idi. Müsəlman arvad fəhlələrindən birisi öz yoldaşları namından [adından] izhar etmişdir ki, onlar gündə 8 manata işə qəbul edilmişlərdir. Bu az məvaciblə onlar bir tövrlə öz uşaqlarını saxlayırdılar. İndi isə onları işdən kənar edib küçəyə salırlar. Məzkurə [adı çəkilən qadın] onların bu haldan xilas edilməsi xahişində bulunmuşdur. Sonra Kəsbkarlar İttifaqının katibi danışıb fəhlələri işdən xəbərdar etməklə bərabər, öz sinfi mənafelərini müdafiə etməkdən ötrü İttifaq ətrafında birləşmək təklifində bulunmuşdur. Sonra katib ştat azalmasının fabrika müdiri tərəfindən qəbul edilməməsini və onları qəbul etməyə ixtiyarı olmadığını göstərib fəhlələrə haqq-hesab üçün almaq təklifini etmişdir. Uzun müzakiratdan sonra haqq-hesab alınmaması qərar qoyulmuşdur. Sonra Petrovskdan fabrikaya material gətirməkdən ötrü nümayəndələr intixab edilmişdir [seçilmişdir].

## AZƏRBAYCANDA

**Lənkəranda**

* Kanuni-saninin [yanvarın] 23-də Böyük Bazarda erməni saldatları tərəfindən gecə saat 12 radələrində Məşhədi İbrahim Səmədovun dükanını sındırıb giriblər. Onun baqqal şeylərini – kişmiş, qənd, çay, yağ və qeyri nə qədər var isə götürüb aparıblar. Xəsarət 15 min manata baliğdir [çatır].





* Kanuni-saninin 25-də Gilək məhəllədə gecə saat 11-də əsgərlər tərəfindən Mirmehdi Quliyevin dükanını sındırıb, onun baqqal şeylərini aparıblar. Zərər 15 min manatdır.

* Kanuni-saninin 28-də Gilək məhəllədə, gecə saat 12 radələrində Məşhədi Cəbrayıl Abbasəliyevin dükanını yarıb giriblər. Onun arşın malını və baqqal şeylərini götürüb aparıblar. 18 min manatadək zərər vurub gediblər.

*T. Bayraməlibəyzadə*

**Qazaxdan**

Keçən fevralın 24-də Ağdamda müsri [yoluxucu] xəstəlikdən vəfat edən general Süleyman bəy Əfəndizadənin vəfatı xəbəri, cümləni [hamını] məhzun və qəmgin eylədi. Müstəqil Azərbaycanın bu böhran və təhlükə içində yaşadığı əsnada, onun fəal, millətpərəst, kargüzar [işgüzar] adamlara ehtiyacı olduğu halda, Süleyman bəy kimi hərbi işlərdə bacarıqlı və təcrübəli, az sözlü, çox işli, hünərmənd və sahibi-tədbir [tədbirli; uzaqgörən] bir şəxsin vəfatı böyük ziyan və tələfat növündəndir.

Mərhumun tabutu Ağstafa mövqifinə [stansiyasına] gəlməzdən müqəddəm [qabaq] oraya Qazaxdan, Dağ Kəsəməndən bir çox adam yığılmışdı. Saat 2-də nəşi gətirən qatar mövqifdə dayandı. Mərhumun nəşi ilə bərabər, onun xatunu və əqrəbalarından bir neçələri gəldilər. Burada Qazax əhalisi tərəfindən darülmüəllimin [seminariya] müdiri F. Köçərli cənabları Süleyman bəyin xatunu Laləndər xanıma sərsəlaməti [başsağlığı] verib mərhumun yalnız onun əlindən deyil, ümumi Azərbaycanın əlindən getməsini məəttəəssüf [təəssüflə] izhar eylədi.

Dağ Kəsəməndə milli əsgərlərimizdən bir bölük mərhumun təşyeyi-cənazəsinə [cənazəsinin yola salınmasına] qoşulub onun haqqında ehtiramati-hərbiyyəni layiqincə yerinə yetirdi. Dağ Kəsəmən qəbristanlığında möhtərəm Mustafa əfəndi mərhumun namazını qılıb, onun fəzail [fəzilətləri] və millət uğrunda göstərdiyi fədakarlıqdan söyləyib, hazirunu [orada iştirak edənləri] onun məğfirəti [bağışlanması] üçün dua oxumağa dəvət eylədi. Qəbir üstündə qəbləzdəfn [dəfindən qabaq] F. Köçərli mütəəssiranə [təsirli] bir nitq söyləyib cümləni dağdar etdi [hamının ürəyini dağladı] və qəlblərdə yatmış hissləri oyatdı. Əsgərlərə xitabən bunu dəxi əlavə etdi ki:

"Əgər istəyirsiniz ki, Süleyman bəyin ruhu sizdən şad olsun, onun əsgərlikdə göstərdiyi səbat və mətanəti-qəlbi özünüz üçün sərməşq [örnək] edib məqami-zərurətdə vətənin hifz və asayişi yolunda sinənizi sipər edin. Qoymayınız ki, düşmən vətənin müqəddəs torpağını tapdalayıb, irz və namusunuza toxunsun!"

Köçərli cənablarından sonra bir neçə söz, mərhumun keçən hürriyyət zamanında Gəncədə göstərdiyi hünərlərdən Məhəmməd əfəndi Yaqubzadə söylədi. Mərhumun cəsədi qəbirə qoyulduqda böyük hərbi ayinə müvafiq üç dəfə atəş açdı. Qazax uyezdinin rəisi İsfəndiyar bəy Muradzadə Süleyman bəyin təşyeyi-cənazəsi ehtiramlı olması yolunda lazımeyi-səy və ehtimamı müzayiqə etməmişdir [lazımi səy və qayğını əsirgəməmişdir]. Qazax şəhərinin əyan və əşrafı, sahibmənsəbləri və sair möhtərəm şəxslər hazır idi. Camaat qəbiristandan qayıdıb

mərhumun xatununa sərsəlamət verib dağıldılar.

**Bəyani-həqiqət**

Mötəbər "Əkinçi və fəhlə" qəzetəsinin 23-cü nömrəsində "H. H." imzasında bir zat məhəllindən yazılan bir məktub üzərinə Salyanın keçirmiş olduğu və şimdiki əhvalı haqqında kəndi vüqufu [bildikləri] daxilində olaraq məlumat vermişdir.

Mümaileyh [adı çəkilən] əfəndi əhvalı kəndisi bildiyi vəch üzrə təsvir edərək, Salyan qəzası qaimməqamının [qəza rəisinin] haqsızlıqlarından birər-birər yazaraq durduqdan sonra, bənam üləmamızdan [tanınmış alimlərimizdən] Ağa Seyid Əşrəf ağa cənablarını dəxi qaimməqama şərik göstərmək istəmişdir.

Biz məqalə sahibi əfəndinin doğru həqiqətlərə ədavəti-zatiyyədən təvəllüd edən bir qərəzi-şəxsi [şəxsi düşmənçilikdən irəli gələn bir şəxsi qərəzlik] qataraq nəşr və buna da qəzetə idarəsini şərik etdirmək istəməsindən, doğrusu, vicdanən acıdıq. Zatən ictimai qüsurumuzun birisi də budur. Binaənileyh [ona görə], əvvəla bu əfəndiyə demək istərdik ki, islahı məmul olan [arzuedilən] bir məsələyi-ictimaiyyəyə dair fikir yürütdüyü zaman şəxsiyyata əbədən yol verməməli, xüsusiyyata toxunulmamalıdır. Zira ümumiyyata aid məsələlərə xüsusiyyat qarışıldığı zaman əfkari-ümumiyyədə [ictimai fikirdə] sui-təsirdən maəda [özgə] heç bir şeyin hüsula gəlməyəcəyi varəsteyi-izahdır [izaha ehtiyacı olmayacak qədər aydındır]. Baxüsus ki, şu xüsusiyyat əsl və fəslsiz olmuş olsun [doğru olmasın].

Saniyən [ikincisi], Rusiya inqilabi-kəbiri [böyük inqilabı] və baxüsus Bakı qanlı Mart faciəsindən şimdiyə qədər Ağa Seyid Əşrəf ağa cənablarının Salyan və ətrafına göstərdiyi xidəmatı [xidmətləri], ibraz etdiyi qeyrəti ləyühsa [saysız-hesabsız, çox] olaraq xatir və xəyallardan unudulmayacaq bir dərəcəyə varmışdır. Mart hadisəsindən sonra bütün siyasi və ictimai ümurunu [işlərini] müşarünileyh [adı çəkilən] ağanın əlinə tövdi qılan [tapşıran] əhalimiz pək əla anlayırlar ki, islam sakin olduğu [müsəlmanların yaşadığı] hər bir tərəfdən ah və əninlər [nalələr], fəryad və vaveylalar qopduğu zaman Ağa Seyid Əşrəf cənablarının ağıl və məntiq dairəsində olan siyasəti, xətti-hərəkəti, daha doğrusu politikası olmasaydı, şübhəsiz Salyan və ətrafı da sair islam ölkələri kimi məhv olmaq dərəcəsinə gələcəkdi. Bunu inkar edən kordur, qərəz əmasıdır [qərəzli olaraq görmək istəmir].

Bu sözləri isbat üçün bizdən dəlil istənilərsə, o halda müddəamızı isbata yetirəcək dəlaili-müsbətə [sübut olunmuş dəlillər] gətirməyə hazırız.

İştə "H. H." əfəndi, bu babdakı yazılarının qərəzindən doğmuş bir əhvaldan və yaxud lazımi məlumatı əldə edəmmədiyindən irəli gəldiyini ərzlə bu xüsusda müxtəsər də olsa bəyani-həqiqət etməyi vicdanən hiss etdik.

*Salyan: İskəndərzadə*

## GÜRCÜSTANDA

**Gürcüstan Məclisi-Müəssisanı**

Rusiya inqilabının bayramı günü, martın 12-sində Gürcüstan Məclisi-Müəssisanın rəsmi-güşadı [açılış mərasimi] təyin edilmişdir.





**Poçta markaları**

Bu axır vaxt Gürcüstanda poçta markası azaldığından və Rusiyanın bir para yerlərində markalar ləğv edildiyindən Gürcüstan Hökuməti Maliyyə nazirinə təzə şəkildə hər cür markalar buraxılmasını həvalə etmişdir.

## ERMƏNİSTANDA

Ermənistanın azuqə məsələsi xeyli fəna bir haldadır. Ətin girvənkəsi 7 manat, çörək 8 manatdır. Düyü 12 manat. Yeməyə başqa şey yoxdur. Nə Qarsdan və nə Şərur mahalından heç bir şey gəlməyir. Yüzlərcə adamlar acından həlak olmaqdadır.

**Ermənistan siyasi nümayəndəsi**

Gürcüstan Hökuməti, Yevanqulovun Gürcüstan Hökuməti nəzdində siyasi nümayəndə təyin edilməsinə razılıq vermişdir.

## TEATRO VƏ MUSİQİ

Opera və operet repertuarımıza bir əsər dəxi daxil olmaqla kiçik repertuarımız bir dərəcə qədər böyüdü. Bu əsər, "Şah İsmayıl" operasıdır ki, musiqi həvəskarlarımızdan Hacıbəyli müdiriyyətinin dirijoru Müslüm bəy Maqomayev cənabları tərəfindən yazılmışdır.

Bizi maraqlandıran operanın sujesindən artıq, onun musiqisi idi. Yəni güftəsindən [sözlərindən] artıq, bəstəsi idi. Bu xüsusda onu deyə bilərik ki, Müslüm bəyin bu operası dəxi bizdə indiyə qədər mövcud olan operalar səpkində yazılıb musiqisinin böyük qismini tar çalır. Orkestr isə aralarda çalınıb, tara bəstəkarın istədiyi tonu verir. Bu səbəbdəndir ki, mövcud operalarımızdan "Əsli və Kərəm" və "Şah Abbas" kimi, bu "Şah İsmayıl" dəxi bəstəsi cəhətindən bəstəkarın tamamilə təsnifi olmayıb, sujesinin mühüm qismi bizdə mövcud olan "Segah", "Şikəstə", "Bayatı-Şiraz" və sair dəstgahlarla keçir.

Operalarmızı bu səpkidə yazmaq məcburiyyəti bəstəkarlarımızın tam bir musiqi hekayəsi meydana çıxarmağa müqtədir olmadıqlarına dəlalət deyildir. Bəlkə, camaatımızı yeni üsuli-musiqiyə öyrəşdirmək üçün anladığı musiqi dərəcələrindən başlayıb, yavaş-yavaş musiqi tərəqqisi yolunda tədriclə irəli tərəfə qədəm atmaq üsuluna tabe olmaq arzusundan irəli gələn keyfiyyətdir.

"Şah İsmayıl" operasında tam bir musiqi hissəsi olaraq balet vardı ki, həm havası və həm də ahəngi-orkestrəsi çox xoşumuza gəldi və Müslüm bəyin bir musiqinəvis [bəstəkar] sifəti ilə gələcəkdə böyük məharətlər göstərə biləcək istedadını aşkar etməklə bizi xoşhal etdi. Bu xüsusda kəndisinə müvəffəqiyyət diləriz.

*Mizrab*

—

Bu gün, martın 14-ündə axşam Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Hökumət Teatrosunda müdiriyyət artiskalarından Sürəyya xanım [və] Tanailidinin şərəfinə olaraq təntənəli bir surətdə "Arşın mal alan" operettası möv-

qeyi-tamaşaya qoyulacaqdır. Sultan bəyin rolunu Ələkbər Hüseynzadə, Əsgər – Sarablı, Süleyman – Xəlil Hüseynov, Gülçöhrə – Y[eva] Olenskaya, Asya - Sürəyya xanım, Telli - Tanailidi, Vəli – Rza Darablı ifa edəcəklərdir. Musiqi dəstəsi Üzeyir bəyin təhti-idarəsində olacaqdır. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır. Biletlər teatronun kassasında satılmaqdadır.

## İDARƏDƏN CAVABLAR

**"Bir Çəmbərəkəndli" əfəndiyə**: Türklər şəhərimizdə olarkən qətl və qarətdən və yersiz, mənasız atışmalardan asudə idik. Bu doğrudur. Parlaman əzalarından [üzvlərindən] [Səməd ağa] Ağamalıoğlu cənabları bizim hökuməti tənqid edərkən, "Siz türklərdən adət öyrəndiniz" deyə hökuməti danlayırdı. Amma haqqı yox idi. Çünki əgər hökumətimiz türklərdən adət öyrənmiş olsaydı, şəhərimizdə nə adam öldürmək olardı, nə də biməzmun atışmalar. Qiymətlərin bahalanmasına qaldıqda, bu xüsusda cəbr və məcburiyyətlə iş görmək olmaz. Çünki qiymət bahalanmasının başqa səbəbləri var ki, o səbəbləri rəf etmək [aradan qaldırmaq] dəxi əlbəttə ən əvvəl Hökumətin borcudur.

**Məhəmməd Babazadə əfəndiyə:** Salyandan İskəndərzadə əfəndinin yazdıqlarını oxudunuz, zənn edirəm.

**Qulaməliyev Kərim Hacı Həsən oğlu əfəndi ilə mühacir M. K. əfəndiyə və hamıya:** Məqalələri mürəkkəblə kağızın ancaq bir üzündə yazmazsanız çap edilməz.

**Əsədulla Məhəmmədzadə əfəndiyə:** Ticarət Nəzarətindən etdiyiniz şikayətlərin içində öylə şeylər var ki, onu yazmaqdan əvvəl sizin idarəyə tanınmış bir adam olmağınız icab edir. İstəsəniz idarəmizə təşrif gətiriniz.

**"Tiflisli" əfəndiyə:** Yeni hadisat ilə əlaqədar olan bir taqım səbəblərə görə məqalənizi hələlik saxladıq.

## İANƏ

Təvəqqe edirik, Balaxanıda olan ordubadlıların bu mühəqqər [çox kiçik] ianəsini qəbul ilə qaçqınlara sərf olunmaq üzrə məhəlli-aidinə yetirəsiniz.

*Hüseyn Kərbəlayı Oruc oğlu*

İanə verənlərin adları:

Məşhədi Hüseyn Məşhədi Qənbər oğlu 3 manat; Bayramqulu Məşhədi Rza oğlu 3 manat; Cəfər Məşhədi Ramazan oğlu 3 manat; Ağarza Əliyev 3 manat; Fərhad Kərbəlayı Ağa oğlu 5 manat; Baba Məhəmməd oğlu 50 qəpik; Bağır Cabbar oğlu 50 qəpik; Hüseyn Məşhədi Qulam oğlu 2 manat; Əliyar Kərbəlayı Təhməz oğlu 3 manat; Cabbar Salman oğlu 3 manat; Əbülfəz Əli oğlu 5 manat; Əliəkbər Məşhədi Qənbər oğlu 5 manat; Həsən Məşhədi Fətəli oğlu 5 manat; Ramazan Heydər oğlu 5 manat; Məşhədi Mikayıl Hüseyn oğlu 4 manat; Mənaf Haşim oğlu 5 manat; Məşhədi Qasım Şikar oğlu 5 manat; Mirzə Məcid Hacıyev 5 manat; Mustafa Məhəmmədcəfər oğlu 5 manat; Əziz Yusifzadə 3 manat; Hüseyn Kərbəlayi Oruc [oğlu] 3 manat.

Cümlətanı 81 manat 50 qəpik.

## ELANLAR

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Diş həkimi M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Hürriyyət gününün göstərişi**

səh. 208. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Sülh ətrafında**

səh. 209. "Metropoliten Opera Teatrı": Nyu-Yorkda əsası 1880-ci ildə qoyulmuş opera teatrı. Uzun müddət Brodveydəki binasında yerləşmişdir. Bu bina daha sonra sökülmüşdür.

səh. 210. "Bavariyaya ərzaq yetirmək": qəzetdə belə getmişdir: "Bavariyada ərzaq yeritmək".

"Huver": qəzetdə "Quvert" kimi getmişdir.

"Eyfel qülləsindən": qəzetdə "Eyfel qalasından" getmişdir.

səh. 211. "Onlar silah gücü ilə məcburiyyətlə o cür yerlərə sahib olmaq istəyib milli və tarixi şəraiti silaha tərcih verirlər.": mətnin ümumi mənasına baxdıqda, "...silahı milli və tarixi şəraitə tərcih verirlər" olmalı idi.

"A. P.": Assoşieyted pres" qəzeti nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 212. "Z. S.": Tiflisdə 1919-1921-ci illərdə nəşr edilən "Zakavkazskoye slovo" qəzeti nəzərdə tutulur.

**Lənkəran tilsimi**

səh. 215. "Səddi-İskəndər": "Quran"a görə, İskəndər Zülqərneynin Yəcuc-Məcuc qövmü ilə mədəni qövmlər arasında inşa etdiyi sədd. Ədəbiyyatda "keçilməz, aşılmaz sədd" mənasında işlədilir.

səh. 217. "F. A.": bu imza Fərhad Ağazadəyə məxsusdur.

**Dağıstan əhvalı**

səh. 217. "Pşemaxo": Dağlılar Respublikasının Baş naziri Pşemaxo Kotsev nəzərdə tutulur.

**Hürriyyət bayramı**

səh. 219. "Aziatski": Bakıda, indiki Əlövsət Quliyev küçəsi.

"Vorontsovski": Bakıda, indiki İslam Səfərli küçəsi.

"Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

"Müsavat firqəsi tərəfindən Qənizadə": güman ki, həkim Əbdülhəmid bəy Qənizadə nəzərdə tutulur.

"Nəhayət, Rəsulzadə cənabları fəsih və bəliğ bir nitq irad edərək ələlümum inqilab və onun cərəyanları haqqında mü-fəssəl və ətraflı surətdə olaraq məlumat verir.": Cümlə qəzetdə belə getmişdir: "Nəhayət, Rəsulzadə cənabları özünün fəsih və bəliğ bir nitq irad edərək ələlümum inqilab və onun cərəyanları haqqında müfəssəl və ətraflı surətdə olaraq məlumat verir."

səh. 220. "Teymur bəy Bayraməlibəyov": qəzetdə "Teymur bəy Atamalıbəyov" kimi getmişdir.

**Azərbaycanda**

səh. 222. "Böyük Bazar": Lənkəran şəhərinin məhəlləsi.

səh. 223. "möhtərəm Mustafa əfəndi": Qazax müftüsü Əfəndizadə Mustafa nəzərdə tutulur.

**Teatro və musiqi**

səh. 225. "Mizrab": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.





**Bazar, 16 mart 1919-cu il, nömrə 137**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 13 cəmadiyəlaxir sənə 1337. 16 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

1919 sənəsi mart ayının 17-sində düşənbə [bazar ertəsi] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

## MÜAMİLATIMIZA AİD

Qafqaz cümhuriyyətləri arasında "sabiq hakimlərimiz" mənzələsində [yerində, mövqeyində] olan ruslara qarşı ibraz edilən [göstərilən] münasibat və müamilatı [rəftarı] bir bitərəf surətilə mühakimə və müqayisə edən olarsa, hüsn-müamilat və hörmətli münasibatın hamıdan artıq Azərbaycan ilə Dağıstandan görüldüyünü əlində qeyri-qabili-rədd və təkzib [rədd və təkzib edilməsi imkansız] dəlillər ilə isbat etməyə geniş bir qüdrəti olar.

Filhəqiqə [doğrudan da], Azərbaycanda yaşayan ruslar, özlərinin yabançı bir dövlətdə olmadıqlarını hiss etməməyə hal-hazırda heç bir haqları yoxdur. Bu saat rusları sıxacaq, rus adat [adətlərinə] və məişətinə yaxışmayacaq və rusların həyat korluğu çəkməsinə səbəb olacaq heç bir qanunumuz yoxdur ki, rusların bizdən şikayətinə səbəb olsun. O hüquq ki, Rusiya biz Azərbaycan türklərindən müzayiqə edirdi [əsirgəyirdi], Azərbaycan ruslardan müzayiqə etməyir. Bu surətdən, vətənimizdə olan ruslar tərəqqi, təməddün [mədəniyyət], dövlət, sərvət və sair təkəmmülati-milliyyələri [milli kamilləşmələri] yolunda çalışmağa Azərbaycan Hökuməti tərəfindən indiyə qədər heç bir mümaniət [maneçilik] görməmişdirlər və bundan sonra da görməzlər.

Azərbaycanın istədiyi yalnız budur ki, vətənimizdə yaşamağı ixtiyar etmiş [seçmiş] olan ruslar bizim istiqlalımıza zərər yetirə bilən və müstəqil bir hökumət şan və şərəfini kəsr edə bilən [azalda bilən] hərəkat və müamilatdan çəkinib, farağat və sakit dolansınlar və kamali-istirahətlə yaşamaq istərlərsə, bu istirahəti pozacaq səbəblərə yol verməsinlər.

Kamali-məmnuniyyətlə qeyd edə bilərik ki, Azərbaycanda bizim bu nəzərimizə şərik olan ruslar vardır. Bunlar bugünlərdə şəhərimizdə nəşrə başlayan "Russki mısl" qəzetəsinin başında duran rus ünsürüdür ki, Azərbaycanın ruslara qarşı göstərməkdə olan hüsn-münasibatını təqdir ilə istiqlalımıza kin və kü-

durət nəzərilə baxan [həm]cinslərini bu əyri yoldan döndərmək niyyətindədirlər. Biz bu niyyətin xalis olduğuna inanırıq və "Russki mısl" başındakı partiyanın, müxaliflərə müqabil, güclənməsini arzu edirik. Bir arzumuz dəxi budur ki, bu partiya Azərbaycanda rus ünsürü mümessili [nümayəndəsi] məsələsi işinə də ciddiyyətlə girişib bu gün "Rus Milli Komitəsi" namı [adı] ilə meydanda isbati-vücud etməkdə [özünü göstərməkdə] olan "Yedinaya Rossiya"çıların bu namı üzərlərinə götürməkdə nə qədər haqlı olub-olmadıqlarını aşkar etsinlər. Çünki "Yedinaya Rossiya"çılar tərəfindən Azərbaycana qarşı ittixaz edilmiş olan vəziyyət [tutulan mövqe] əvvəldən bu günə qədər o dərəcə bədxahanə və hətta müfəttinanə [fitnəkar] bir rəngdədir ki, bu vəziyyət politikası nəticəsində ruslar ilə Azərbaycan türkləri arasında bir bürudət [soyuqluq] və gərginlik əmələ gələcək ehtimalı meydandadır. Bu bürudət gedə-gedə kəsbihərarət edərsə [qızışarsa, artarsa], axırda ruslar üçün xeyirli nəticələr verməz və təbiidir ki, vətəndaşlıq hörməti tamamilə rəf olub [aradan qalxıb] düşmənçilik əmələ gələr.

Əgər biz Azərbaycan türkləri türklük və islamlığımıza məxsus alicənablıq hissiyyatı sövqü ilə rahrovluq etməsəydik [yol yoldaşlığı etməsəydik; yola getməsəydik] ruslar Azərbaycanda bu qədər asudə dolana bilməzdilər. Halbiki keçmiş və gələcək siyasiyyat nöqteyi-nəzərindən isti hissiyyata dalmayıb, soyuq bir ağıl hökmünə tabe olmaq şərt edilərsə, ruslara nisbət başqa cür müamilat işlətməyə bizim həm tarixi və həm siyasi haqqımız vardır.

Biz ruslara deyə bilərik ki, siz qafqazlılardan hüsn-müamilə umursunuzsa, bunu əvvəlcə öz xristianlarınızdan umun. O xristianlar ki, bir neçə əsr bundan irəli rus çarlığının ağuşi-"madəranə"sinə [ana qucağına] atılmaqla öz ixtiyarı ilə öz istiqlaliyyətlərindən məhrum edildilər. Bizdən nə yaxşılıq ummağa haqqınız var, bir surətdə ki, qılınc və atəş zoru ilə istiqlaliyyətimizi əllərimizdən cəbrən alıb bizi əsir və qul surətində bir əsr saxladınız və sair millət arasında həmişə xar və zəlil olmağımıza səy edib məhvimizə də çalışdınız?

Lakin biz təkrar istiqlalımıza nail olduqdan sonra bu sözləri ruslara demədik və demək istəmədiyimizi də hüsn-müamilatımız ilə ələnən [açıqca] isbat etdik. Böylə olan surətdə bir para rusların "Yedinaya Rossiya"çıların həqqşikənanə [xaincə] politikası sövqü ilə bizlərə kin və küdurətlə baxmağa heç bir haqqları yoxdur. Bizim elani-istiqlaliyyət etməmiz, rusluq şərəfini əskildən və ruslara qarşı həqarətədd [hesab] edilə bilən hadisələrdən olmayıb da əvvəla paymal edilmiş [tapdalanmış] hüququmuzun istirdad [əldə edilməsi] və mühafizəsi və saniyən [ikincisi] "azad millətlər" şüarı kimi əsrimizə layiq ən böyük və ən müqəddəs bir fikirin hüsuluna [hasil olmasına] feilən xidmət göstərən və təkamüli-bəşəri [bəşəriyyətin təkamülü] qəbilindən layiqi-ehtiram olan tarixi bir vəq'ədir [hadisədir, faktdır]. İşə bu nöqteyi-nəzərdən baxmaq və "ağalığımız əlimizdən getdi" deyə əfsuslar etmək, çürük fikirliliyə dəlalət edən bir həqiqətdir ki, bu fikirin arşını ilə bizi və bizim müamilatımızı ölçmək istəyənlər böyük bir zəlalətdədirlər.

*Hacıbəyli Üzeyir*





## TELEQRAF XƏBƏRLƏRİ

### Almaniya Hökumətinin məramnaməsi

Veymardan çəkilmiş olan teleqrafa nəzərən, Şeydeman Almaniya Milli Məclisində hökumət siyasətindən məlumat verərkən demişdir ki, hökumətin ümumi siyasəti belə olacaqdır:

1) Mərkəzi Hökumət qüvvəti ilə Almaniya Dövlətinin vahidliyini müdafiə etmək.

2) Bilatəxir [gecikmədən] sülh əqd etmək [bağlamaq].

3) Vilson məramnaməsinə tərəfdar olmaq.

4) Heç bir təcavüzkaranə sülhə imkan verməmək.

5) Almaniya müstəmləkələrinin Almaniyaya qaytarılmasını tələb etmək.

6) Almaniya da sair millətlərlə bərabər hüquqda Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil olmalıdır.

(7-ci maddə buraxılmışdır)

8) Bütün dövlətlərin qoşunları tərk-silah edilməlidir.

9) Ümumi hakəm [arbitr] təşkil etmək.

10) Gizli diplomatiyanı məhv etmək.

### Cənubi Afrikada

Kapştad – Transvaal, Natal və Kapştad qitəsi [hissəsi, rayonu] Cənubi Afrika Hindu Konqresi böylə bir qərara gəlmişlərdir ki, bu yerlərin əhalisini əsarətdə saxlayan və onların Müttəfiqlərin torpağına keçməsinə müsaidə verməyən qanunlar ləğv edilsin. Konqre qərar vermişdir ki, Transvaal, Natal və Kapştaddan ikişər nümayəndə Londonda olan Hindistan Milli Konqresinə göndərilsin, Hindistanın muxtariyyəti barəsində olan hinduların iddiasını bildirsinlər. Nümayəndələr Cənubi Afrika hindularının da işləri barəsində təşəbbüsatda bulunmağı öhdələrinə götürmüşlərdir. Konqre qərar qoymuş ki, bu qanunlar ləğv edilməyincə Almaniyaya mütəəlliq [məxsus] Cənubi Afrika ittifaqa daxil edilməsin.

### Avam Kamerasında

Avamlar Kamerasında müzakirat zamanında Dolin bəyan eyləmişdir ki, İrlanda siyasəti dəyişməyəcək və İrlandaya muxtariyyət verilməlidir və yaxud onlara ixtiyar verilməlidir ki, İrlanda məsələsini Sülh Konfransına versinlər. Lloyd Corc Almaniya müstəmləkələri barəsində verilən suala cavab vermişdir ki, Sülh Konfransı qət eyləmişdir, nə olur-olsun müstəmləkələr Almaniyaya qaytarılmasın.

### Müttəfiqlər və Almaniya

Paris - Deyirlər ki, Müttəfiqlərin Hərbi Komitəsi bu qərara gəlmişdir:

1) Almaniyanı öylə hala salmaq ki, bir dəxi müharibə başlama[q]dan məhrum olsun.

2) Almaniyaya andırmalı ki, Müttəfiqlər qalib gəlmişlər və onların tələbini Almaniya bilatərəddüd qəbul etməlidir.

Hərgah, Almaniya öz xahişi ilə Müttəfiqlərə itaət edərsə, o zaman Etilaf [Antanta] dövlətləri nemeslərin adi işlərə başlamalarına müavinət [köməklik] edərlər.

Deyirlər ki, Cəmiyyəti-Əqvam komitəsi etilaf [razılaşma] xüsusunda böyük addımlar atmışdır. Belə ki, ingilis, Amerika nümayəndələri qət etmişlər ki, bey-

nəlmiləl ordu və flot [donanma] təşkili xüsusunda olan Fransa təklifini qəbul etsinlər.

## SÜLH ƏTRAFINDA

Sülh Konfransında nemes koloniyası [Almaniya müstəmləkələri] ilə Türkiyə oblastlarının [vilayətlərinin] Müttəfiqlər tərəfindən idarə edilməsi məsələsi müzakirə edilmişdir. Əğləb [qüvvətli] ehtimala görə amerikalılar Ermənistanı idarə edəcəkdirlər. İtaliya Ermənistan ilə İzmir arasında olan yeri [idarə] edəcəkdir. İngiltərə Beynənnəhreyn, Fələstin və Almaniyanın Şərqi Afrikada olan müstəmləkəsini alır. Fransa Kamerunun bir hissəsini və Konqonu alır. Amerikanın cənub-qərb hissəsində olan Almaniya müstəmləkələri Cənub-Qərbi Afrikaya mülhəq olacaq [birləşəcək]. Bəhri-mühitdə [Sakit okeanda] olan Almaniya cəzirələri də [adaları da] Yaponiyaya keçəcəkdir.

**Ərəblər Sülh Konfransında**

Əmir Faysalın işi bu yaxın zamanlarda Sülh Konfransında müzakirə ediləcəkdir. Bu münasibətlə İngiltərə üçün böyük əhəmiyyəti haiz olan [əhəmiyyət daşıyan] məsələ də müzakirə edilməlidir. Bunlardan siva [başqa] bir neçə qarışıq məsələlər də var ki, onlar da Sülh Konfransında həll edilməlidir. Əmir Faysal, Hicaz Krallığı sərhədinin vüsətlənməsini [genişlənməsini] tələb etməyir, fəqət təvəqqe edir, Misirdən İrana qədər olan ərəblərin bir tarix, bir qan, bir dil və bir dində olduqlarını Müttəfiqlər qəbul etsinlər. Əgər ki, şimdilik onları bir ərəb dövlətinin təhti-idarəsinə [idarəsi altına] cəm etmək mümkün deyilsə də, fəqət onların din və dilcə bir olduqları təsdiq edilməlidir. Hal-hazırda onlar federasyon əhvalı ilə təşkil edilməli, hər bir ərəb qitəsinin muxtariyyəti olmalıdır. Bunlar həpsi birlikdə bir dövlətin nəzarətində olmalıdırlar. O dövlət ərəblərin bacarmadığı işləri, dəmiryol, teleqraf, telefon işlərini idarə etməlidir. Axırda bu nəzarət məhəlli [yerli] ərəb hökumətinə mühəvvəl edilməlidir [tapşırılmalıdır].

Bu gün Əmir Faysal öz işlərini Sülh Konfransına təqdim eyləmişdir. Ərəblər bəyan edirlər ki, Suriyanın öz daxili işlərini idarə etməyə iqtidarı vardır. Bu da şübhədən aridir [uzaqdır] ki, onlara əcnəbilərin texniki məsləhəti və müavinəti lazımdır. Ərəblər əcnəbi məsləhətçilərinə hürriyyətlərini deyil, yol verməyə hazırdırlar. O ki qaldı Beynənnəhreynə, ərəblər zənn edirlər ki, Beynənnəhreynin tezliklə tərəqqi etməsinin bütün aləm üçün əhəmiyyəti olduğundan, Müttəfiqlər Beynənnəhreynə hərbi və maddi müavinət etməlidirlər. Amma bununla bərabər onlar arzu edirlər ki, Beynənnəhreyn hökuməti ərəblərin ruhuna və əsaslarına müvafiq olsun. Hökumət təşkil edildikdə təyin ilə deyil, intixab [seçki] üsulu ilə icra edilsin. Vüsətli miqyasda hökumət təsisi müşkül olan qeyri-müntəzəm dairələrdə fövqəlzikr [yuxarıda deyilən] əsasa daha artıq riayət edilməlidir.

Fələstində 75 min nəfər yəhudilərə nisbətən ərəblər miqdarca artıq olduğuna baxmayaraq, hökumət məsuliyyətini öhdələrinə almaq istəməyirlər. Fəqət hökumətin hər bir hərəkətini təftiş və nəzarət etməyə ərəblər muxtar olmalıdırlar. Ərəblər bir də tələb edirlər ki, onların torpağı dövlətlərin nüfuzu altına keçməsin.

Ərəblərin bu kimi tələbini Müttəfiqlər düşünməyirlər. Ərəblər müharibəyə qatışmadan əvvəl İngiltərə ilə Fransa arasında olan əhdnamə ilə Ərəbistan ingilis və fransızların nüfuzu altına keçmişdi. Bu əhdnaməyə müvafiq Fransa Suriyanı, İngiltərə Beynənnəhreyni nüfuzu altına almışdı. Sonra hər iki hökumət razılıq vermişlər ki, Cəmiyyəti-Əqvamın nəzarəti ilə İngiltərə Beynənnəhreyni, Fransa Suriyanı idarə etsinlər. Fəqət bu, Ərəbistanın nüfuzu altına keçməsi məsələsini qəti surətdə həll etməyir. Hərgah, məsələni mükəmməl surətdə həll etmək istəyirik, o zaman bu hökumətlərin biri və yaxud ikisi Ərəbistanda olan haqq və iddialarından vaz keçməlidirlər.

**Almaniya haqqında**

Hərbi mütəxəssislər gələcəkdə Almaniya qoşunlarının miqdarı barəsində rəylərini verdikdən sonra Ali Hərbi Şura qayət əhəmiyyətli qərarlara gəlmişdir. Almaniya ordusu 100 min nəfərdən ibarət olmalıdır. Bunlar könüllü olaraq 12 il müddətlə xidmət etməlidirlər. Lloyd Corcun nöqteyi-nəzərinə müvafiqət edən [uyğun olan] bu qətnamə, dünyanın tərki-əsgəriyyətinə birinci qədəmdir və böyləliklə mükəlləfiyyəti-əsgəriyyə ləğv edilmiş bulunacaq. General Plumerin ingilislər tərəfindən işğal edilən Almaniya yerlərində olan aclıq və ərzaq pozğunluğu xüsusundakı məktubu Spada danışıq başlanması kimi konfrans qətnaməsində böyük rol oynamışdır.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Londonda bolşeviklər**

London - "Deyli meyl" qəzetəsi yazır ki, hal-hazırda yalnız Londonda 20 min nəfər bolşevik vardır. Bunların əksəri rus yaxud başqa dövlət təbəələrindəndir. İngiltərə hökuməti bunların İngiltərə üçün nə dərəcə xətrəli [təhlükəli] olduğunu hiss edir və ona görə də ciddi tədbirlər görür.

**Fransızlara qarşı**

Mart ayının 2-sində, gecə Odessa mövqifində [stansyasında] dayanmaqda olan fransız komandanlığı qatarı altına naməlum şəxslər bomba qoymuşlardır. Bomba dəhşətli surətdə partlayıb, iki nəfər fransızı yaralamışdır.

**İngiltərədə əmələ hərəkatı**

London - Bu axır həftədə bir neçə xüsusi tətildən sonra əmələlər [fəhlələr] hökumətə qayət ağır tələbnamələr təqdim edirlər. Hərgah, tələbat qəbul edilərsə, bir çox şeylərin də qiyməti artacaqdır. Bu məsələdən məadin [mədən] əmələləri, dəmiryol və nəqliyyat əmələləri maraqlanırlar. Bunların miqdarı milyon yarımdır. Əmələlər gündə 6 saat işləməyi, məvaciblərinin 30 faiz artırılmasını, işsizlik zamanında əmələlərə mükəmməlan məvacib verilməyi tələb edirlər. Dəmiryol əmələləri isə məvaciblərinin 100 faiz artmasını, vaxtdan artıq işlədikləri üçün bir yarım artıq məvacib verilməsini tələb edirlər.

* Müttəfiqlər Almaniya ilə təzədən mütarikə [atəşkəs] danışığına başlayırlar.

Belə ki, bu dəfə Müttəfiqlər bir dərəcə güzəştdə bulunacaqlardır.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

* Ədliyyə nazirinin Kiçik Şura haqqındakı məruzəsindən sonra məruzənin təsdiq edilməsi təhti-qərara alınmışdır.

* Rəisi-vükəlanın [Baş nazirin] sərhəd qaraqolu təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə tapşırılsın ki, təcili surətdə hökumət müzakirəsinə Azərbaycan sərhəd qaraqolu təşkili haqqında məruzə pişnihad [təqdim] etsin. O vaxtadək Daxiliyyə nazirinə tapşırılsın ki, Muğanda İran sərhədlərini mühafizədən ötrü 200 nəfərlik süvari bir qüvvə təşkil etsin.

* Rəisi-vükəlanın zabit namizədlərinə məvacib təyini haqqındaki məruzəsindən sonra qət edilmişdir:

Gəncə Hərbiyyə məktəbini bitirmiş zabit vəkillərinə 800 rublə məvacib təyin etməli və təsdiqdən ötrü Məclisi-Məbusana təqdim edilməlidir.

* Daxiliyyə nazirinin Gəncə Milli Komitəsi qərzini [borcunu] Xəzinəyə qəbul etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə nazirinə tapşırılsın ki, Komitənin qərzi miqdarını müəyyən etsin.

* Daxiliyyə nazirinin Qarabağ general-qubernatorluğu xidmətçiləri təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə naziri tərəfindən təqdim edilən xidmətçilər siyahısı təsdiq edilsin. Onların maaşı Qarabağ general-qubernatoru ixtiyarındakı məbləğdən verilməlidir.

* Maarif nazirinin Mayılov qardaşlarının teatrosu həczi [müsadirəsi] haqqındakı şifahi məruzəsindən sonra qət edilmişdir:

Hökumət Teatrosu lüzumiyyəti üçün Maarif nazirinə tapşırılsın ki, Mayılov teatrosunu təhti-idarəsinə [idarəsi altına] almaqla xüsusi bir komisyon təyin etsin ki, teatronu qiymət etsin.

* Maliyyə nazirinin Dövləti Bank təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Azərbaycan Dövləti Bankı təsisi haqqındakı Maliyyə naziri layihəsini təsviblə [bəyənməklə] ona tapşırılsın, təcili surətdə nizamnamə hazırlasın.

**MƏCLİSİ-MƏBUSAN**
**VƏ ƏHALİ**

Azərbaycan Məclisi-Məbusanı iclaslarının bu axır vaxtlarda əksərən müsəlman məbuslarının iclasa vaxtında gəlməmələri ilə bir neçə kərə baş tutmaması əhali arasında şaye olaraq [yayılaraq], bu xüsusda Şəki ziyalıları tərəfindən idarəmizə böylə bir teleqraf gəlmişdir:

*"Böylə ağır günlərdə Məclisi-Məbusan üzvlərinin iclasa gəlməmələri ilə iclasların baş tutmaması bizi artıq qəmgin etmişdir. İclasa vaxtında gəlməyən üzvlərdən böylə qeyri-qabil hərəkətin dövlət və vətən xatirəsi üçün rəf edilməsini [aradan qaldırılmasını] acizanə rica edirik.*

*Şəki şəhəri ziyalıları"*





**AZƏRBAYCAN HƏŞƏRATI**

**II**

"Vperyod" qəzetəsinin 15-inci nömrəsində Zaqatala xristianları namından [adından] Bakı Rus Milli Komitəsinə göndərilmiş ərzihalın eynən tərcüməsini və cavabını "Azərbaycan"ın 127-ci nömrəsində yazmış idim. İşbu məktubum səbəbli Zaqatalanın müxtəlif nöqtələrindən bir çox məktub və teleqraflar aldım. Məktub və teleqrafların cümləsində Zaqatala xristianları namından Bakı Rus Milli Komitəsinə böhtanən verilmiş ərzihala kimlərin imza etdiklərini məndən sual edirlər. İşbu suallara cavab olaraq bir neçə söz söyləmək məcburiyyətindəyəm.

Azərbaycan Cümhuriyyəti daxilində yaşayan, Azərbaycan təbəəsi olan bir millətdən gələn ərzihalın Azərbaycan Hökumətinə deyil, Azərbaycanı tanımaq istəməyən Rus Milli Komitəsinə gəlməsindən və Azərbaycan məmurlarını dəxi işbu cinayətlərlə müttəhim göstərən ərzihalın kimlər tərəfindən yazıldığını və bu ərzihalın doğru olub-olmadığını təftiş və təhqiq etmək əlbəttə Hökumətin vəzifəsi idi. Fəqət təəssüflər olsun, Hökumət bu haqda heç bir təşəbbüsatda bulunmadı. Bu işin həqiqətə qərin [yaxın, uyğun] olub-olmadığını hamıdan artıq Zaqatala valisi Əliyar bəy [Haşımbəyov] meydana çıxarmalı idi. Halbuki, bu vaxt Bakıda olduğu halda nədənsə sükut ixtiyar etdi.

Nə yapalım; zülm görən türk, müttəhim edilən yenə türkdür. İşbu iki məyusiyyət üzərinə üçüncü olaraq "laqeydlik"i dəxi əlavə etmək məcburiyyətində bulunuruz ki, müsibətin ən əşəddi [şiddətlisi] də budur!

Ərzihala imza edən kimlərdir, sualını verən əfəndilərə mən sual edirəm: Meşəbəyi naçalniki Murzin, mal doktoru Vorobyov, Nikolay Martirosov və notarius nə işdədirlər?

Sail [sual verən] əfəndilər! Zaqatala istehlak cəmiyyətlərinin bezindən başqa əmtəəsini Similt nam [adlı] bir rus satdığını bildiyiniz halda xainin mürəbbisi [müəllimi, tərbiyəçisi]ədd [hesab] olunan və nerəli olduğu məlum olmayan İvanovu nə üçün bütün istehlak cəmiyyətlərinin sədrliyində yenə də saxlayırsınız? O İvanov ki, sentyabr ayında məhud [məlum] məsləki üçün həbs edilmişdi. Əcəba bu cəmiyyətlərə sədr olacaq adamınızmı yoxdur?

"Azərbaycan" qəzetəsinin 127-inci nömrəsində "Azərbaycan həşəratı" məqaləmdə Nikolay yadigarı demişdim. İndi də Nikolay yadigarı Denikin mühibbləri [dostları] deyəcəyəm. Bunlar Azərbaycan məmurluğunda olub, Azərbaycan pulu ilə təəyyüş etdikləri [dolandıqları] halda Denikin və Lyaxovların gəlmələrini dörd gözlə gözləyirlər və bu haqda bacardıqları qədər işləyirlər. İştə Zaqataladan Rus Milli Komitəsinə göndərilmiş ərzihal bunun müqəddiməsidir.

Qəribə burasıdır ki, inqilabın birinci günlərində Zaqatal vilayət İcraiyyə Komi-

təsi nəinki məmurluğundan, hətta Zaqatala vilayətindən sürgün edən Vorabyovu 14 ay sonra Hökumətimiz yenə əvvəlki məmurluğuna təyin etdi.

Doğrudur, bizə məmur lazımdır. Lakin Cümhuriyyətimizə, istiqlaliyyətimizə müxalif şəxslərin heç bir vaxtda məmurluğa alınması caiz olammaz!

Zaqatalada Cümhuriyyətimizə zərərli, Nikolaydan qalma rus çinovniklərinin hangiləri olduğunu vali Haşımbəyovdan Hökumətimiz sual etsə doğru məlumat alar, zənnindəyəm. Hər halda Hökumətin bu haqda qəti və təcili tədbirlərini dörd gözlə gözləyiriz.

*Bayram Niyazi [Kiçikxanov]*

**SƏRLÖVHƏSİZ**

*"Hər ruz qorg bərə əzin gəle mibərəd*
*İn gəlera bebinki çe asudə miçərəd"*
*Sədi*

Son on il zərfində həyati-ictimaiyyə və siyasiyyəmiz [siyasi və ictimai həyatımız] böyük və olduqca ağır təcrübələrə təhəmmül etmiş [dözmüş] və dəfəatla [dəfələrlə] gözləmədiyi təcavüzlərə hədəf olmuşdur. Bu "gözləmədiyi" kəlməsini söyləyirsək də, fəqət əfradi-millətimizin [millətimizin fərdlərinin] cəhalətini nəzərə aldıqda bundan vaz keçmək istəyiriz. Guya "böylə də olacaqdı və bir an əvvəl önü alınmazsa gələcəkdə dəxi olacaqdır" demək xəyalında bulunuruz. Guya bu tövr insaniyyətə yaxışmayan bir hərəkət bizlərdə təbiət halını almalı imiş və bunun rəf və izaləsi [aradan qaldırılması, yox edilməsi] heç vəchlə mümkün deyilmiş. Halbuki zərbənin biri endirildiyi vaxt ona məruz qalan tərəf bir daha digərinin endirilməsinə imkan verməməkdən ötrü səy və təlaş edər, kəndisini müdafiəyə qalxışar. Bu öylə bir həqiqətdir ki, kimsə inkar edə bilməz. Son neçə il ərzində bizlər bunu düşünmədik. Millətin cahil və avam hissəsi həman əski üsuli-idarənin bərəkətindən yekdigərinin [bir-birinin] canına susamış kimi hərəkati-vəhşiyanədə davam edərək yüzlərcə deyil, minlərcə gəncləri qanlarına qəltan etmiş, bir çox analar və bacıları giryan [ağlar] qoymuşdur. Bu isə camaatımızın bir tək avam və cahil sinfində deyil, bəlkə get-gedə başqa siniflərə dəxi sirayət edərək ümumi bir hal almağa başlamışdır. Nədənsə bizlər böylə hərəkatın ələlümum önünü almağa təşəbbüsdə belə bulunmamışız. Halbuki, o daha təkrar etmiş və edəcəyinə də şübhə yoxdur. Axırda bir də görəcəyiz ki, Afrika vəhşiləri kimi səhralarda üryan gəziriz.

Aşkar və aydın bir nəticədir ki, əvvəlini görmək çox da uzaq şeylərdən deyildir. Zira bir millətin rəhnüması, hadisi, irşadı və nasehi [yol göstərəni, doğru yola çəkəni, həqiqəti göstərəni və nəsihət verəni] aradan yox olarsa, təbii ki, o özü dəxi məhv olar. Tamamilə məhv olmazsa da, qüruni-uladakı [ibtidai dövrlərdəki] halını kəsb edər. Bunun nədən ibarət olduğu isə cümləyə məlumdur.

Lakin artıq yetər. Biz bir sənədən ziyadə minlərcə qurbanlar verib nail olduğumuz istiqlaliyyət və kəndimiz idarə etdiyimiz məmləkətdə böylə cəhalətə artıq yol verilməz. Getsin artıq o zamanlar ki, istibdadın xain və qanlı əlləri minlərlə cavanlarımızı xaki-əbədiyyətə [əbədiyyət torpağına] daldırdı. Hənuz gül şaxələri kimi açılaraq gözləməkdə olduğumuz bəhrələrdən bizi məhrum edirdi. Fəqət o şaxələr həman istibdadın sərsəri havası ilə tökülürdüsə də, əsli, kökü möhkəm olduğundan, milliyyətimiz, islamiyyətimizdən ibarət olan əsasımız məhv olmadı və olammaz!

İştə, bu əsasla biz kəndi hüququmuzu müdafiə edir və onu həyatımıza tətbiq ediriz. Biz əminiz ki, bu əsas tamamilə tətbiq edilərsə, mühitimizə müsəllət olmuş bu bəlanı rəf edə biləriz!

*Piri [Mürsəlzadə]*

**BAKI XƏBƏRLƏRİ**

**İngilis Baş ərkani-hərbindən [Baş qərargahından]**

Tətil və iğtişaş olmaması üçün İngiltərə komandanlığı öz vədinə görə flotun [donanmanın] tərk-silah edilməsində həbs olunan hamı maryak [dənizçi] və matrosların azad edilməsi əmrini vermişdir. "Qars", "Ərdahan" və "Astrabad" gəmiləri hərbi porta aparılırlar. Gəmilərdə olan ingilis qaraqolları götürülür. Ticarət gəmilərində olan Rusiya hökumətinə məxsus toplar gəmilərdən çıxarılıb, hərbi porta qoyulacaqdır. Gəmilər tərk-silah edildiyi zaman gəmilərdə tapılan hamı pullar hərbi port kapitanı Qriqoryevə təhvil verilir. Bundan əlavə, məzkur [adı çəkilən] Qriqoryevin Kaspi hərbi donanması nümayəndəsi olduğu İngiltərə Bəhriyyə məmurları tərəfindən etiraf [təsdiq] edilir.

*Bakı, 14 mart 1919*
*Baş Ərkani-Hərb Polkovniki (imza)*

**Fövqəladə İstintaq Komissiyası**

16 fevral 1919-uncu ildə Azərbaycan Hökumətində idarələr[d]ə sui-istemala [vəzifədən sui-istifadə hallarına] dair cümlə işlərin təftiş və istintaqına aid xüsusi heyət əmələ gəlibdir. Bu heyətin ixtiyarı var, hamının və hətta mənsəbdə olan şəxslərin də barəsində iş başlamağa. Əhalinin xeyri üçün və hökumətin cürbəcür üzvlərinin sui-istemala dair cümlə işlərini təftiş etməkdən ötrü heyət təklif edir, bu işin fəlahiyyətinə [rifahına] və xeyrinə məlumatı olan şəxslərə məlum etsin zəbani və ya məktubi [şifahi və ya yazılı].

Ünvan: Badkubə, Persidski və Kolyubakinski küçələrin tinində, Azərbaycan Təmyiz [Kassasiya] Məhkəməsi olan evdə.

Zəbani [şifahi] məlumat qəbul olunur hər gün, bayram günlərindən başqa, saat 12-dən 2-yəcən.

*Heyətin sədri: Patseviç*

**Adilin dəfni**

Dün Mart hadisatı zamanı böyük yararlıqlar və qəhrəmanlıqlar göstərən Məşhədi Adil Kərbəlayi Əbdürrəhim oğlunun mərasimi-dəfni təntənəli surətdə icra olunub, səhər saat 9 tamamda cənazə mərhumun evindən qaldırılıb, Təzə məscidə gətirildi. Orada "Quran" tilavətindən [oxunmasından] sonra Abbasqulu Kazımzadə cənabları qayət mövzun [münasib] nitqlə mərhumun ömrünün son vaxtlarında göstərdikləri fədakarlıqları və yararlıqları yad edərək Mart hadisa-

tından Bakı fəthinə qədər səngərlərdə yatdıqlarını təqdirlə Məşhədi Adilin son vaxtlar getdiyi fədakarlıq yolu ilə getməyi tövsiyə etdi. Mərhumun cənazəsi musiqi dəstəsi, 2-3 min nəfərlik bir izdihamın müşayiəti ilə "Tifaq" məscidinə və orada fotoqraf tərəfindən rəsim alındıqdan sonra Kürdəxanı kəndinə yola salınır.

**Mühazirə**

Bu gün martın 16-sında Keşlə kəndində Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə cənabları "Azərbaycanın indiki halı" mövzusunda mühazirə (leksiya) oxuyacaqdır. Mühazirə saat 3 tamamda başlanacaqdır.

**Bələdiyyə İdarəsində**

- Səhhəti-Ümumiyyə Nəzarəti [Səhiyyə Nazirliyi] Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, şəhərdəki müsri [yoluxucu] xəstəliklərin izdiyad etməsi [artması] səbəblərindən biri şəhərin həkimləri olmamasıdır. Bu da fəqət Bələdiyyə İdarəsindən verilən məvaciblərin azlığından olsa gərək. Nəzarət təcili surətdə həkimlərin məvaciblərinin artırılmasını rica etmişdir.

- Yenə həman Nəzarət [Nazirlik], Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Hökumət tərəfindən Bələdiyyə İdarəsinə şəhər arabalarının fəaliyyətini təcdid [bərpa] üçün para buraxılmışsa da, yenə şəhər təmizlənməsinə şüru edilməmişdir [başlanmamışdır]. Bahar daxil olduqda müsri xəstəliklər izdiyadını nəzərə alaraq Nəzarət rica etmişdir ki, bu məsələ barəsində də lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

**Hadisat**

**Quldurlarla atışma**

Martın 12-sində gecə Biləcəri mövqifi [stansiyası] yaxınlığında "Xırdalan ovdanı" deyilən yerdə Balaxanı-Sabunçu polis dairəsinin 6-ncı uçastok strajnikləri ilə quldurların arasında atışma vaqe olmuşdur. 6 nəfərdən ibarət quldur dəstəsi məzkur [deyilən] yerdə olan əşyanı qarət və strajniklərin silahlarını almaq qəsdi ilə gecə vaxtı qəflətən qarovula hücum etmişdir. Qarovul qaranlıqda iki nəfərin yaxınlaşmasını görərək tüfəngdən onlara atəş açmışdır. Tüfəngin səsinə başqa strajniklər gəlib, quldurlarla onların arasında şiddətli atışma başlanmışdır. Bir saatdan artıq davam edən atışmadan sonra quldurlar bir nəfər ölü buraxıb Qobu kəndinə tərəf qaçmışlardır. Strajniklər onları bir qədər təqib etmişlərsə də, onlar dumandan istifadə edərək dağlara qaçıb gizlənmişlərdir. Atışma əsnasında strajniklərdən Pərvaz Dadaş oğlu yüngül surətdə yaralanmışdır.

## FƏHLƏ HƏYATINDAN

**Balaxanıdan**

Mart ayının 12-si Rusiya hökuməti-mütləqəsinin [mütləqiyyət hökumətinin] rişələri qət olunan [kökləri kəsilən] gün divi-isdibdadın son mümməssili [nümayəndəsi] olan Nikolayın taxtdan düşməsi, Rusiya çarizminin qanlı çəngalından [caynağından] fəhlə və kəndçilərin azad olmaları və zülm imperializminin çəkilməz bari-giranından [ağır yükündən] millətlərin azad olan günü olmaq həsəbi [səbəbi] ilə Balaxanı köyündə H. Ağayevin evində möhtəşəm bayram tərtib olunub, Balaxanıda mövcud hamı firqələr iştirak edirdi. Bugünkü günün şərəfindən və inqilabın tarixindən müfəssələn danışdıqdan sonra sədr məclisi açmadan əqdəm [qabaq] inqilab günlərində ölən şühədanın [şəhidlərin] istirahəti-ruhları üçün, hür fikirli vəfat edən yoldaşların və Hüseyn Ərəblinski cənablarının ruhi-pürfütuhlarına [fateh, qalib ruhlarına] təzimən üç dəfə ayağa qalxaraq təzim olundu. Sonra atidə [aşağıda] dərc olunan dörd maddədən ibarət qətnaməni cavan hökumətimizə, Azərbaycan Parlamanına bildirmək münasib görüldü:

1) İstəkli əsgərlərimizin paytaxtımız olan Bakı şəhərinə tezliklə gəlmələrini rica ediriz.

2) Kəndlərdə təşkilatlar açıb, xalqımızın əfkarını tənvir etməyi [düşüncəsini aydınlatmağı] tələb ediriz.

3) Dağıstanda Denikin və Lyaxovların qəddar əlləri ilə axan dağıstanlı qardaşlarımızın [qanlarına] və bu qanlara bais olan gizlin siyasətçilərə protesto etməklə bərabər, aşkar surətdə biz fəhlə və kəndçilər onlara deyiriz ki, hər halda böylə hərəkətlərin önünü almağa axırıncı qətrə qanımızadək hazırız.

4) Tətil məsələsinə biz fəhlə və kəndçilər heç vaxt razı olmarız, zira tətildən nə millətmizə və nə hökumətimizə, nə də fəhlə hüququna heç bir mənfəət görməyib və bu tətilin gizlin siyasətini dərk ediriz. Hansı ki, avtokaloniya və Sentro-Kaspi hökumətini təşkil edən matrosların və neçə nəfər sosialistlərin arvad-uşaqlarının həbs etməsi üçün – hərçənd həbs məsələsi vicdanən rəva deyilsə də – lakin onunla bərabər yoldaşlarımıza bildiririz ki, hərgah tətil etmək lazım gəlsə, keçən illərdə Mart faciəsində axan məzlumların və hazırda Dağıstanda axan məzlumların qanlarına tətil etmək lazım gəlir, nəinki avtokaloniya və qeyrə üçün. Buna binaən [buna görə] fəhlə yoldaşlarımıza tətilə yol verməməyi tələb etməklə bərabər, hökumətimizin də böylə işlərə müsaidə verməməsini tələb ediriz.

*Sədr: Sad.*
*Katib: T. Dadaşzadə.*

## MÜƏLLİMLƏR İCLASI

Martın 11-ində, 9-uncu rus və müsəlmani məktəbində şəhər məktəblərinin bütün müsəlman müəllimə və müəllimlərinin iclası iniqad etmişdi [baş tutmuşdu]. Məclisi Səməd bəy Hacıəlizadə cənabları güşad edərək [açaraq] Müsəlman Müəllimləri İttifaqına dair məlumat verir. Bir sənə üç ay bundan əvvəl müsəlman müəllimlərinin İttifaqı fəaliyyətə başlamışdı. Üç ay müddətinədək işbu İttifaq işləyərək bir çox iqdamatda [təşəbbüsdə] bulunmuşdur. Məsələn, Rusiya müsəlman müəllimləri ilə əlaqə peyda etmək qəsdi ilə Kazan və başqa nöqtələrlə mükatibatda [yazışmada] bulunmuşdur. Fəqət Mart hadisatından sonra müəllimlər ittifaqı da başqa islam təşkilatları kimi təbii olaraq öz fəaliyyətinə xitam verməyə məcbur olmuşdu.

Sonra Səməd bəy cənabları o vaxtdan bu vaxtadək alınan məlumata görə, birisi müəllimə olmaq üzrə 8 nəfər

müsəlman müəllimlərinin vəfat etdiyini xəbər verməklə istirahəti-ruhları üçün dua oxumağı təklif edir. İclas ayağa qalxaraq dua və fatihə oxuyurlar.

Bundan sonra məclisə Əliməhəmməd [Mustafazadə] sədr, katibliyə Əfəndizadə cənabları intixab edilir [seçilir].

Sabiq İttifaq idarəsi namindən Ağababa İsrafilzadə idarənin fəaliyyəti barəsində məlumat verir. Yeni idarə intixab edilmək təklifindən sonra işbu cənablar: Ağababa İsrafilzadə, Baba bəy Səfərəlizadə, Səməd bəy Hacıəlizadə, Əliməhəmməd Mustafazadə, Süleyman Axundzadə, Nigar xanım Rzabəyzadə, Rəsul bəy, Emin əfəndi, Məhəmmədqulu Hüseynzadə idarə əzalığına [üzvlüyünə], Xudaverdi Kələntərzadə, Toxtamış əfəndi, Ayn. Əbdülzadə təftiş komisyonuna intixab edilirlər [seçilirlər].

Ümumi Müəllimlər İttifaqına daxil olmaq barəsindəki mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra üç müəyyən təklif edilir:

1) Müəllimlər İttifaqına bilaşərt [qeydsiz-şərtsiz] daxil olmaq.

2) Müəyyən şərait üzrə [şərtlərlə] ümumi İttifaqa daxil olmaq.

3) Ümumi İttifaqa daxil olmayıb, xüsusi ittifaq təşkil etməli.

İkinci təklif əksəriyyətlə qəbul edilir. Şərait cümləsindən biri də ümumi Müəllimlər İttifaqının nizamnaməsindəki "Ümumrusiya Müəllimləri İttifaqı" sözləri çıxarılıb, "Azərbaycan Müəllimləri İttifaqı" sözləri yazılmaqdır. Burada verilən məlumatdan anlaşıldığı üzrə, Bakıdakı rus müəllimləri ziyadəsincə Rusiya (?) tərəfdarı olmaq üzrə Azərbaycanı tanımaq belə istəməyirlərmiş!

*Tələbə*

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq Nəzarəti Dəmiryol nazirinə müraciətlə Azərbaycan təriqi [yolu] ilə Dağıstandan bilamümaniət [maneəsiz] balıq aparılması üçün Azərbaycan dəmiryol naçalniklərinə lazımi binagüzarlıqda bulunmağı [sərəncam verməyi] xahiş etmişdir.

* A. K. Muradov Türküstandan Ərzaq Nəzarəti naminə 20 vaqon buğda gətirməyi dəröhdə etdiyindən [öhdəsinə götürdüyündən], Nəzarət tərəfindən lazımi vəsiqə almışdır. Ərzaq Nəzarəti İngiltərə Komandanlığına müraciətlə məzkur [adı çəkilən] Muradova həman buğdaları Mərvdən Krasnovodska və oradan Bakıya gətirmək üçün müavinət [köməklik] göstərilməsini xahiş etmişdir.

* Ərzaq Nəzarəti Dağıstan Hökumətinin Azərbaycan Hökuməti nəzdində olan siyasi nümayəndəsinə müraciətlə Qayakənd mövqifində Səfərəli Rəsulova mütəəlliq [məxsus] min put buğdanın Rəsulov tərəfindən gətirilməsinə icazə verilməsini xahiş etmişdir.

* Ərzaq nazirinin Gəncə vilayəti vəkili A. L. Brilinski qulluq işlərindən ötrü Gürcüstana azim olmuşdur [getmişdir].

* Ərzaq Nəzarəti, Ticarət və Sənaət Nəzarətinə [Ticarət və Sənaye Nazirliyinə] yazır ki, sabun və nəbatat yağları az olduğuna [görə] Azərbaycan daxilində bu cür malların artması lazımdır. Bunları hazırlamaqdan ötrü də bir neçə milyon put çiyid vardır. Bu çiyid qaldıqca xarab olmaq üzrədir. Buna görə "Xlopok və maslo" səhmdaran şirkəti idarəsinin ərizəsi mövcibincə [ərizəsinə əsasən] Ərzaq Nəzarəti hərgah Ticarət və Sənaət Nəzarəti tərəfindən mümaniət [maneçilik] görülməsə, məzkur [adı çəkilən] idarəyə Ləki mövqifinə [stansiyasına] min put kaustiçeski soda [kaustik soda] aparılmasına icazə verilməsini lazım görür.

* Ərzaq Nəzarəti İngiltərə Komandanlığına müraciətlə hal-hazırda İngiltərə Komandanlığı ehtiyacatı üçün vagüzar edilən [verilən] təzə gömrükxana anbarlarındakı malların Ərzaq Nəzarəti ixtiyarına vagüzar edilməsi üçün binagüzarlıqda bulunmağı xahiş etmişdir. Həman anbarda min putdan ziyadə qəzetə kağızı və qeyri kağızlar vardır. Bundan əlavə, 1917-inci il yay fəslindən həman anbarlarda sabiq Qafqaziya ordusuna məxsus 28 ciftçi makinaları [kənd təsərrüfatı dəzgahları] saxlanmaqdadır. Ərzaq Nəzarətinin indi həman makinalara ehtiyacı vardır.

* Ərzaq Nəzarəti Bakı Gömrükxanasına müraciətlə "Moş" paraxodundan boşa[l]dılmış və hal-hazırda "Qafqaz-Merkuri" şirkətinin 16-ıncı körpüsündə olan tənbəkiyə Ərzaq Nəzarətinin gömrük və aksiz verib-verməməli olduğunu xəbər verməyi xahiş etmişdir.

* Ərzaq Nəzarəti təhərri [axtarış] polisə naçalnikinə yazır ki, xozyaystva [təsərrüfat] müdiri Şvetsovdan tutub Ərzaq Nəzarəti ixtiyarına göndərdiyiniz 33 min rublə paranı, 412 arşın manufaktura, 35 girvənkə qənd, 25 girvənkə sabun, 2 girvənkə çay, 2 girvənkə şam və balıq sənədlərinin məzkur Şvetsovun özünə qaytarılmasını xahiş edir. Həman şeylər və pullar sizin möhürünüzlə möhürlü olduğundan Ərzaq Nəzarəti tərəfinizdən göndərilən şeylərin Şvetsova qaytarılmasında mümaniət [maneə] olub-olmadığını və veriləcəyi təqdirdə həman şeylərin möhürünü götürməkdən ötrü nümayəndənizin gəlməsini xahiş edir.

* Ərzaq Nəzarəti general Tomsona yazmışdır ki, Ərzaq Nəzarətinin Petrovskda olan vəkillərinin verdiyi xəbərlərə görə, Petrovskda olan bir tək Rus-Asiya Bankı İngiltərə Komandanlığının əmrinə görə əsgərləriniz üçün mənzil edilmişdir. Ərzaq Nəzarəti Dağıstan Hökuməti daxilində taxıl almaqda olduğundan və alınan taxılların pulunu vermək üçün Petrovsk tək bir məntəqə olduğundan bankın qapalı olması Ərzaq Nəzarətinin işlərini ləngə salmaqla bərabər, Nəzarətə böyük zərərlər vurur. Buna görə Ərzaq Nəzarəti sizdən xahiş edir ki, Petrovskda olan bankın həczdən [müsadirədən] azad edilməsi üçün təcili surətdə binagüzarlıqda bulunasınız [sərəncam verəsiniz]. Bu mümkün olmadığı halda, bankın tezliklə fəaliyyətə başlaması üçün öz müavinətinizi [köməyinizi] göstərəsiniz.

## AZƏRBAYCANDA

**Lahıcdan**

Keçən kanuni-sani [yanvar] ayının 30-unda Ərəkit məhəlləsində məzkur [adı çəkilən] məhəllənin ibtidai məktəbinin müəllimi Həsən Rəhimzadə və mütəəllimləri [şagirdləri] tərəfindən məktəbin biçiz [kasıb] mütəəllimləri nəfinə [xeyrinə] olaraq "Cəhalət səmərəsi" nam [adlı], həm də bir pərdədən ibarət "Çoban" adlı məzhəkə mövqeyi-tamaşaya qoyulmuşdu. Pərdə qaldırmadan əvvəl mumaileyh [adı çəkilən] müəllim tərəfindən teatrın verdiyi mənfəət və teatrın əhali

həyatındakı bəxş etdiyi hüsn-təsir xüsusunda müxtəsərcə haziruna [iştirakçılara, orada olanlara] nitq söylə[n]di. Ondan sonra mütəallimlərdən Talıb Süleymanzadə peyğəmbəri-zişanımızın [şanlı peyğəmbərimizin] elm haqqında buyurduqları nəsayihi [nəsihətləri] camaata ixtar etdi [xatırlatdı]. Bədəhu [sonra] mütəallimlərdən İsgəndərzadə Məhəmmədəli "Əsgərlik müqəddəs vəzifəmizdir" ünvanında haziruna bəliğ bir surətdə bir xitabə söylədi. Pyeslər mövqeyi-tamaşaya qoyularaq böyük təntənə ilə keçib hazirunun ruh yüksəkliyinə bais oldu. Pərdələrin fasilələrində məccanən [pulsuz] olaraq Məşhədi Həsən tar çaldı və xanəndə oxuyurdu. Teatrodan xalis mədaxil olaraq xərcdən savayı 300 manat hasil oldu. Teatrın işlərində və mayehtacına [ehtiyaclarına] əldən gələn müavinəti edən Nəsrulla Süleymanzadəyə, Əmirəli Məlikzadəyə və iranlı qardaşımız Mirzə Ələkbərə müəllim və mütəallimlər izhari-təşəkkürlərini bəyan qıldılar. Hazirun artıq məmnun qaldıqlarından təkrar teatro çıxarmalarını rica etdilər.

*Tamaşaçı*

**Qarabağda**

Heyəti-vükəla sədrinə Cəbrayıldan böylə bir teleqraf gəlmişdir:

*"Əhvali-hazirəni müzakirə etməkdən ötrü martın 5-də qəza qaimməqamı Qəbulov tərəfindən dəvət olunan Zəngəzur qaçqınları və yerli əhali nümayəndələrinin ictiması [yığıncağı] doğma yurdunu, evini-eşiyini itirmiş qaçqınların qeydinə qalan cavan hökumətimizə və öz insaniyyətpərvərliyi ilə məşhur, fəal və bizə əziz olan Xosrov bəy Sultanovun Qarabağa general-qubernator təyin edilməsi münasibətilə hökumətə səmimi təşəkkür izhar etmək üçün bəndəni vəkil etmişdir. İctima, artıq üsrət [çox əziyyət] çəkmiş olan vətənimizə, əhalinin xoşbəxtliyi üçün siyasi qalibiyyət ətasını Allah-taala həzrətlərindən istirham edir. Bunların bu arzusunun Allah-taala tərəfindən dərəceyi-məqbula çatması Zəngəzur müsəlmanlarının cahan inqilabi-kəbiri [böyük dünya inqilabı] dövründə keçirdikləri üsrət və bədbəxtliklərin misilsiz əvəzi olar. Qoy, istiqbalımızın və nəsliatinin [gələcək nəsilin] rifahi-hal və səadətini təmin edəcək yeganə böyük və işıqlı bir amalımız olan müstəqil, azad Azərbaycan Hökuməti-Cümhuriyyəsi paydar olsun və burası məruz qalmış olduğumuz hər növ müdhiş tarixi fəlakət və həqarətlərin intəhasını təşkil etsin.*

*Bu xüsusu hüzuri-alilərinizə ərz ediriz.*

*Qazı: Bəhlul əfəndi*

*Vətəndaş: Ağalar bəy Hacıbəyov"*

**Qaçqınlar əhvalı**

Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] müdiri Səfərov, Şuşadan Məclisi-Məbusan sədri naminə böylə bir teleqraf göndərmişdir:

*"Qarabağda qaçqın məsələsi daimi bir hal kəsb etmişdir. Ərzaq şeylərinin məccani [pulsuz] paylanması hamı qaçqınların əxlaqını fəna bir hala salmışdır. Ərzaq şeylərinin bu cür təqsimində [paylanmasında] gözlənən ciddi müavinət görünməyir. İnsafsız müftəxorlar vücuda gəlmişdir ki, pulsuz ərzaq şeyləri verilməsini tələb edirlər. Bununla da qaçqınlar arasında müftəxorluq kəsbi-şiddət etməkdədir [artmaqdadır]. Hər gün yüz-*





*lərcə bədəni salamat adamlar Ümuri-Xeyriyyə İdarəsi ətrafına toplaşıb ərzaq şeyləri verilməsini tələb edirlər. Evsiz-eşiksiz qalanları təmin etmək mümkün olmadığından, o biçarələr müavinətsiz qalırlar. Qocalardan və uşaqlardan ötrü darüşşəfəqə [şəfqət evi, sığınacaq] vücuda gətirib bədəni salamat olanları işə cəlb etmək əvəzinə Ümuri-Xeyriyyə İdarəsi indiyə qədər ancaq pay təqsim etməklə məşğul olmuşdur. Bununla bərabər, Qarabağın hamı qaçqınları toxumaq işini yaxşı bilirlər. Odur ki, bunları işə cəlb etmək mümkün olar və onlara verilən paylar da zəhmət haqqı verilər ki, bununla da hökuməti böyük məsarifdən azad etmək olar. Çünki qaçqınları doyurmaq üçün yüz milyonlarca pul lazımdır. Keçmişlərdə qışlağa köçən köçərilər özlərini dağılmış və talanmışlar cərgəsində hesab edib, Şərur və Zəngəzur uyezdlərindən olduqlarına görə təxsisat [vəsait] tələb edib deyirlər ki: "Vaxta ki, hökumət verir, nə üçün almayaq?"*

*Qaçqınlar aldıqları şeylərə pul verməyə məcbur edilməsələr, heç bir tədbirlə xəyanətin qabağını almaq olmayacaqdır. Bu da qaçqınları işə cəlb etməklə mümkün olar. Hərgah böylə olarsa, o zaman həqiqətdə müavinətə ehtiyacı olanlar üçün darüşşəfəqə və iaşə məntəqələri açmaq olar. Qarabağda ucuz qiymətlə külli miqdarda yun tapmaq olar. Qaçqınları işə qoymaqla hökumət bir zərər etməz. Eyni zamanda müftəxorluğa bais olmayıb, həqiqi müavinət göstərməklə bərabər, mənfəətsiz və külli məsarifdən özü də azad olar. Bundan əlavə, Qarabağda əkilməmiş xəzinə yerləri vardır. Bu yerlər boş qalmasın deyə qaçqınları əkinçiliyə də cəlb etmək olar. Əhvalatı sizə xəbər verib vaxt az olduğuna görə tezliklə binagüzarlıqda bulunmağınızı [sərəncam verməyinizi] xahiş edirəm."*

## TEATRO VƏ MUSİQİ

**Gəncədə "Dram" cəmiyyəti**

Keçən sənələrdə Gəncə ziyalıları tərəfindən bir "Dram" cəmiyyəti təsis edilmişdir. Çalışan və sıcaqqanlı üzvlərə malik olan cəmiyyətin hər zaman fəaliyyəti müşahidə edilirdi. Münasib görüldükcə axşam tamaşası, bağ gəzişi tərtib edirlərdi. Gəncədə də birinci fəaliyyətli cəmiyyətlərdən sayılırdı. Lakin bu axır zamanlarda anarxiyaya məbni [görə] cəmiyyətin əzasından [üzvlərindən] bəzisi məmuriyyətlərə girsin deyə cəmiyyət əvvəlki kimi çalışmadı. Bu yaxınlarda bir aydan ziyadədir ki, cəmiyyətin böylə halını nəzərə alan "Dram" cəmiyyəti katibi bir şura dəvət etdi. Şurada cəmiyyətin fəaliyyətdən düşməsinə dair bir qaç əfəndi söz söylədikdən sonra bir heyət seçildi. Cəmiyyətin əşyası və başqa ləvazimatları onlara iadə ediləcəyi vəd edildi. Qonşumuz ermənilər hər həftə, bəlkə həftədə iki kərə olaraq axşam tamaşası göstərirlər. "Mütəallimlər [Tələbələr] Cəmiyyəti" də onun kimi, hətta bir "Əfkari-mütəallimin" [Tələbə düşüncəsi] namında jurnal da çıxarırlar. Lakin "Dram" cəmiyyəti heyəti isə heç bir təşəbbüsatda bulunmayır. Heyət əzalarının nəzərdiqqətini qonşularına ətf ilə bundan sonra sıcaq qanla çalışacaqlarını ümid edirəm.

*Müəllim Davud*

## İDARƏYƏ MƏKTUB

*(eynən)*

Möhtərəm müdir əfəndim!

Zati-cənabınızdan çox rica ediriz ki, bir qaç kəlmə sözümüzü Birinci Realnı məktəbinin ikinci milli sinfinin şagirdləri tərəfindən qəzetənizdə dərc edəsiniz. Böylə ki, bizim öz gələcəyimizə vacib və lazım olan vücudi-ali Hüseyn Cavid əfəndinin şəhərimizə varid olmaq [gəlmək] təbrikini qəzetə vasitəsi ilə müəzzəmi-ileyhə [o böyük şəxsə] yetirəsiniz.

Həqiqətdə, böyük bir xoşbəxtlik islam aləmində biz şagirdlərə üz verdi. Şükürlər olsun ki, böylə vücud düşmənlər qarşısına düçar olmayıb da salamat qalıbdır. Hər vaxtda "Bahar şəbnəmləri"ni gördükdə qəlbimiz yazın qara buludları kimi tutulurdu. Deyirdik ki, ya Rəbb böylə bir mühüm zamanda əziz şairimiz düşmən pəncəsinə keçdi yaxud necə oldu. Şimdi isə möhtərəm əfəndinin şəhərimizə vürudunu eşitdikdə biz şagirdlərin ürəyi baharın gülləri və çiçəkləri kimi açıldı.

*Birinci Realnı məktəbinin ikinci milli sinfinin şagirdləri tərəfindən:*
*Ə. Bədəlbəyov*

## ELANLAR

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708*

**Diş həkimi M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir.





Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Diş həkimi İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701*

**Müsamirə**

Yay Klubunun salonunda

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi nəf'inə [xeyrinə] mart ayının 18-ində Yay Klubunun salonunda fövqəladə bir müsamirə veriləcək. Müsamirə pək möhtəşəm və mütəntən [təntənəli] bir surətdə başlayacaq və Azərbaycan tarixinə, musiqisinə və ədəbiyyatına aid ən parlaq nümunələr göstəriləcəkdir. Faciələr, rəqslər, kabare, deklamasiya və sairə bu müsamirədə ən mötəna [etinalı] bir surətdə təmsil ediləcəkdir.

*T-66*

**Türk Ədəmi-Mərkəziyyət "Müsavat"**
**firqəsi Bakı Komitəsindən**

Şəhərdə Parlaman dairəsində, rayonlarda firqə şöbələrinin idarələrində əzalıq [üzvlük] dəftəri açılmışdır. Yazılmaq istəyənlər hər gün yazıla bilərlər. Firqə əzasından olan yoldaşlardan dəxi təkrar şöbələrə müraciət edərək əzalıq vərəqələrini təzələmələri rica olunur.

*T-68*

**Elan**

Bu mart ayının 16-sında yekşənbə [bazar] günü, axşam saat 6 tamamda Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi Bakı Komitəsi əzasının komitə iclasına təşrif gətirmələri rica olunur.

*Bakı Komitəsi*
*T-67*

**Bakı İkinci İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

Öz üzvlərinə məlum edir ki, cəmiyyətin ikinci növbəti iclası həmin mart ayının 16-sı bazar günü səhər saat 10-a təyin olunubdur. İclas bankın binasında vaqe olacaqdır.

*5740*

**Elan**

Salyan Ünas [Qızlar] Məktəbi-ibtidaisi üçün 2 türk müəllimməsi lazımdır. Xahiş edən xanım-

lar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

**“Xidmət” istehlak cəmiyyəti idarəsi**

Öz üzvlərindən xahiş edir ki, martın 23-ündə 1919-ncu ildə səhər saat 10-da Çadrovı küçə 216 nömrəli evdə Cəmiyyətin təyin edilmiş ümumi iclasına təşrif gətirsinlər. Müzakirə ediləcək məsələlər:

1) Cəmiyyətin fəaliyyəti haqqında idarənin məruzəsi;

2) 1917, 1918-ci ilin atçot və balanslarının Təftiş Komissiyasının qərarı ilə bərabər, həmçinin 1919-uncu ilin smetasının və Cəmiyyətin gələcək fəaliyyətinin təsdiqi;

3) 1917, 1918-ci ilin mədaxilinin təqsimi [bölünməsi];

4) Təftiş Komissiyasına və idarəyə üzv seçilməsi;

5) İclasda qaldırıla biləcək məsələlər.

Cəmiyyət nizamnaməsinin 31-ci maddəsinə görə üzvlərin beşdən bir hissəsi iclasa gəldiyi zaman iclas qanuni hesab ediləcəkdir. Hərgah təyin edilmiş vaxtadək üzvlərdən beşdən bir hissəsi gəlməzsə, bir saatdan sonra, yəni səhər saat 11-də ikinci ümumi iclas təyin olunur. Bu iclasa nə qədər üzv gəlmiş olsa qanuni hesab ediləcəkdir.

*İdarə*
*5753*

Müsəlman; baş müəssisələrində yaxud hökumət müəssisələrində yer axtarır. Neft mədəninin sabiq vəkili komisariyadan və texniçeski işlərdən böyük təcrübəsi var, əcnəbi dillərə malikdir, vəkil yaxud ticarət agenti ola bilər. Xahiş edənlər “Azərbaycan” qəzetəsi kantoruna müraciət etsinlər.

*“Q. N. N.”*
*5752*

**Ümum müsəlmanlara və müsəlman təşkilat və müəssisələrinə**

Azərbaycan Məclisi-Məbusanı İdarəsinə təhrirən [yazılı olaraq] müraciət etdikdə türkcə müraciət etmələri və əgər başqa dildə müraciət edərlərsə, istida və xahişlərinin bisərəncam qalacağı elam edilir [bildirilir].

*T-62*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 231. “Cənubi Afrika Hindu Konqresi” [South African Indian Congress - SAIC]: Cənubi Afrikadakı hindlilərin hüquqlarını müdafiə etmək məqsədi ilə qurulan təşkilat. Mahatma Qandi bu təşkilatın işində fəal iştirak etmişdir.

“Avam Kamerası”: Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 232. “Beynənnəhreyn” (İkiçayarası): Yaxın Şərqdə tarixi-coğrafi bölgə, Dəclə və Fərat çaylarının arasında qaldığından, bu adı almışdır.

səh. 233. “general Plumer”: qəzetdə “general Plamer” kimi getmişdir.

**Cümə günkü mühüm xəbərlər**

səh. 233. “Deyli meyl” [Daily Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

**Vükəla Şurasında**

səh. 234. “Kiçik Şura”: Azərbaycan Cümhuriyyəti hökumətində ikinci dərəcəli məsələlərə baxmaq üçün nazir müavinlərindən təşkil olunan şura.

**Sərlövhəsiz**

səh. 236. “Hər ruz qorg bərə əzin gəle mibərəd / İn gəlera bebinki çe asudə miçərəd”: “Hər gün qurd bu sürüdən bir quzu aparır / Bu sürüyə bax ki, necə rahat otlayır.” (farsca)

**Bakı xəbərləri**

səh. 237. “Azərbaycan Təmyiz Məhkəməsi”: qəzetdə “təmyiz” sözü “təməyyüz” kimi getmişdir.

səh. 238. “strajnik”: kiçik rütbəli polis məmuru yaxud gözətçi.

**Müəllimlər iclası**

səh. 240. “Ağababa İsrafilzadə”: qəzetdə “Ağabəy İsrafilzadə” kimi getmişdir.

**İdarəyə məktub**

səh. 244. “Bahar şəbnəmləri”: Hüseyn Cavidin kitabı.




*“Azərbaycan” qəzetinin 138-ci nömrəsinin 1-ci səhifəsi*





**Bazar ertəsi, 17 mart 1919-cu il, nömrə 138**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 14 cəmadiyəlaxir sənə 1337. 17 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rubledir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

1919 sənəsi mart ayının 17-sində düşənbə [bazar ertəsi] günü, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Qubernatorun əmri

Martın 5-ində, gündüz saat 11 radələrində Telefonnı küçədə olan Mirlasın saat mağazasını qarət qəsdi ilə dörd nəfər müsəlləh bədəfkarlar [silahlı cinayətkarlar] oraya soxulmuşlar. Məzkur [adı çəkilən] dairədə olan təhərri [axtarış] polisəsi müdiri Fərzəlibəyov, Bakı qalabəyisi [komendantı] müavini Zalsman və Fətəlibəyov, postda duran qaradovoylar Nağı Haşım oğlu, Vasili Valinkov, 7-ci uçastok pristavı Şpak, qaradovoy Suxomlinov ilə bədəfkarları təqib etmişlərdir. Bədəfkarlar onlara güllə ataraq atışmağa başlamışlar. Onlardan iki nəfəri yaralanıb, tövqif edildikdən [tutulduqdan] sonra xəstəxanaya göndərilmişlərdir.

Həmin əmrnamədə yuxarıda göstərilən polis məmurlarının fədakarlıqlarını qeyd edərək kəndilərinə təşəkkürümü izhar etməyi vəzifəmdən ədd [hesab] edirəm. Məmurlardan təhərri polisəsi müdiri Fərzəlibəyov, qalabəyi müavini Zalsman, pristav Şpak, nadziratellər Torqov, Speqalski və Fətəlibəyova təşəkkürlərimi izhar ilə qaradovoylar Nağı Haşım oğlu, Suxomlinov, Vasili Valinkova “sağ olunuz” deyirəm.

Bakı qalabəyisi və təhərri polisəsi naçalnikinə təklif edirəm, həmin hadisədə böyük müvəffəqiyyət göstərmiş olan məmurlar barəsində mənə məlumat təqdim edilsin. Bunlara mükafat olaraq pul veriləcəkdir.

*Bakı qubernatoru:*
*Rəşid bəy Axundzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANININ GÜRCÜSTAN MƏCLİSİ-MÜƏSSİSANINI TƏBRİKİ

Gürcüstan Məclisi-Müəssisanının [Təsisçilər Məclisinin] güşadı [açılışı] münasi-

bətilə Azərbaycan Məclisi-Məbusanı sədri tərəfindən Gürcüstan Məclisi-Müəssisanı sədrinə böylə bir teleqraf göndərilmişdir:

Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] iki illik səneyi-dövriyyəsi münasibətilə Azərbaycan Məclisi-Məbusanı martın 12-sində vaqe olan təntənəli iclasında dostumuz Gürcüstan Cümhuriyyətini, Məclisi-Müəssisan açılması kimi tarixi bir gün münasibətilə təbrik etməyi mənə həvalə etmişdir.

Müttəhid [bütöv] Gürcüstan kəndi amali-milliyyəsinin hüsulu arzusu ilə heç bir mümaniətdən [maneçilikdən] qorxmayaraq və heç bir fədakarlıqdan çəkinməyərək, istiqlaliyyət qazanan millətlərdən heç birisi[nin] indiyə qədər nail olmadığı bir müvəffəqiyyətə çatmışdır. Gürcü millətinin öz arzularına erişmək işində göstərdiyi fövqəladə əzmkarlıq, hürriyyətiəqvam [millətlərin azadlığı] tarixinin gözəl bir səhifəsini tutacaqdır. Gürcüstanın tərzi-idarəsini qəti surətdə müəyyən edici Gürcüstan Məclisi-Müəssisanı səadəti-milliyyəsini [milli xoşbəxtliyini] ancaq milli və məhəlli [yerli] istiqlaliyyətdə görən Qafqaziyanın başqa millətlərinin də bilaşübhə [şübhəsiz] arzusunu izhar edəcəkdir. Səmimi məhəbbətlə ruhlanan və yekdigərinin [bir-birinin] hüququna ehtiram edən Qafqaziya müstəqil hökumətləri öz aralarında olan daxili məsələləri – hər nə qədər müşkül məsələlər olarsa da – bilaixtilaf [münaqişəsiz] həll edə bilərlər.

Azərbaycan Məclisi-Məbusanı müşkül və məsul dövləti işlər və məsələlər həlli üçün dəvət olunmuş Gürcüstan məbuslarını təbrik və Gürcüstana səadət diləməklə bərabər, Qafqaziya millətlərinin sevgili Qafqaziyanı namuskaranə bir surətdə hər cür qara qüvvə və təcavüzlərdən müdafiə və xilas edə biləcəklərinə əmin olur.

*Azərbaycan Məclisi-Məbusanı rəisi:*
*Həsən bəy Ağayev*

## QƏZETƏLƏRDƏN

### Türkiyədə

İstanbuldan xəbər verirlər ki, Məclisi-Əyanda vaqe olan mühüm iclasda məmləkətin əhvali-ümumiyyəsi müzakirə edilmişdir. Hökumətin zəifliyi və fəaliyyətsizliyi tənqid edilmişdir. Sultanın təyin etdiyi qərar üzrə, Şurayi-Kəbir [Böyük Şura] təşkil edilməsi məsələsi qaldırılmışdır. Bu layihə, üsuli-məşrutəyə [Konstitusiya üsuluna] zidd olduğundan rədd edilmişdir. Sonra iclas Kabinə heyətində təbəddülat [dəyişiklik] məsələsini müzakirə edib qərar qoymuşdur ki, siyasi xadimlərdən və əyanlardan Baş vəzir [Baş nazir] yanına göndərib ittixaz edilən [görülən] tədbirlərdən xəbərdar olsun. Hərgah, [Əhməd] Tofiq paşanın bu barədə verəcəyi bəyanat kafi görülməsə, Məclisi-Əyan dübarə [təkrar] yığışıb nə qərar üzrə Sultana müraciət etməyi həll edəcəkdir.

### Təzə Kabinə haqqında

İstanbuldan xəbər verirlər ki, "Hürriyyət və Etilaf" firqəsi sədri Nurəddin paşa, Mustafa Səbri əfəndi və Əli Kamal bəy, Sultan tərəfindən hüzura qəbul edilmişlər.





### Türkiyə sosial-demokratları

Yenə İstanbuldan xəbər verirlər ki, Məclisi-Əyan sədri Əhməd Rza bəyin təşəbbüsatı ilə "Təcəddüd", "Hürriyyətpərvəran" və "Sosial-Demokrat" firqələri nümayəndələri Məclisi-Əyana cəm olub məmləkətin daxili siyasətinə qarışmayaraq xarici siyasətində iştirak etməyi qərara almışlardır. Bu birinci iclasda nə növ hərəkət ediləcəyi məsələləri müzakirə edilmişdir.

### Türkiyə əhvalı

Krım Hökumətinin İstanbulda olan siyasi nümayəndəsi Həsən Səbri Ayvazov fevral ayının axırlarında İstanbuldan Krıma qayıtdıqda İstanbul həyatından məlumat verib demişdir ki:

*"Sülh Konfransına getməkdə olan Azərbaycan heyəti hələ İstanbulda idi. Çünki başqa hökumət heyətləri də gəlib çıxmamışdılar. Bu heyətlərin əziməti [gedişi] vəsaili-nəqliyyə [nəqliyyat vasitəsi] olmadığına görə təxirə düşmüşdür. Azərbaycan heyəti üzvü Əhməd bəy Ağayev fevral ayı ibtidalarında [əvvəllərində] ispanka [ispan qripi] azarına mübtəla olmuş idi. Məmləkətin əhvali-daxiliyyəsinə gəldikdə, Gənc türklər iş başından çəkildikdən sonra millətin ruhani [mənəvi] qüvvələrini ətrafına cəm edə biləcək heç bir qüvvə qalmamışdır. Cəbhədə və hökumətdə olan təbəddülat [dəyişikliklər; çaxnaşmalar] isbat etdi ki, Türkiyədə məmləkəti diriltməyə müstəid [qabiliyyəti olan] bir qüvvə varsa, o da Gənc türklərdir."*

Ayvazovun rəyincə, millət arasında bu axır vaxt görünən hərəkat onu göstərir ki, Gənc türklər yenə də məmləkət daxilində əhvali-siyasiyyəni və hökuməti təzədən vücuda gətirəcəkdirlər. Gəldikcə müstəid qüvvələr Gənc türklər ətrafına toplaşmaqdadırlar. İstanbulun Müttəfiq dövlət əsgərləri tərəfindən istilasına və Fransa komandanlığının tərzi-hərəkətinə gəldikdə, türklər buna millətin təhqir edilməsi kimi baxırlar. O cümlədən, bir neçə ali məktəblər boşa[l]dılıb, binaları isə saldatlar üçün qışla [kazarma] edilmişdir. Bu əhval münasibətilə İstanbulda olan ingilislər bu və ya digər tərəflə yaxşı münasibat saxlamağa çalışırlar. Müttəfiq dövlət əsgərləri İstanbulu istila etdikdən bəridir ki, həyat iki dəfə bahalanmışdır. İstanbuldan Qara dəniz limanlarına gediş-gəliş xeyli müşküldür. Hər bir dəfə Şərq cəbhəsi komandanı general Bertlo Baş ərkanından [Baş qərargahından] xüsusi icazə almaq lazımdır. Bu tədbir, bir tək bolşeviklərin Türkiyəyə və ya qərbə tərəf gəlmələri əleyhinə deyil, Odessadan, Kerçdən və Ukraynadan ticarət üçün İstanbula gələn bir çox möhtəkirlər əleyhinə ittixaz edilmişdir.

Ayvazovun dediyinə görə, London ziyalılarının dekabr ayı axırlarında vaqe olan mitinqdə çıxardıqları qərar xeyli maraqlıdır. Bu qətnamədə deyilir ki, London zəhmətkeş ziyalıları hökumətə xəbər verirlər ki, ümumi tərki-silah üçün qəti tədbirlər görmək və ictimai məsələləri fəhlələr mənafeyinə həll etməkdən ötrü ingilislər əsgərləri, istila edilən yerlərdən geri gəlməlidirlər. London ziyalıları hökuməti inandırırlar ki, hökumət onları Rusiya demokrat bolşevikləri kimi mübarizə tərzi-hərəkətinə əl atmağa məcbur etməz.

**Şimali Qafqaziyada**

Vladiqafqaz ilə Rostov arasında müstəqim [birbaşa] dəmiryol münasibatı [əlaqəsi] başlanmışdır. Teleqraf münasibatı da düzəlmək üzrədir. Rusiyanın hər bir tərəfindən Şimali Qafqaziyaya göndərilən məktubat və müxabirat [məktublar və xəbərlər] hamısı Rostovda yığılıb qalmışdır.

**Bakı yolu**

Vladiqafqaz ilə Qroznı arasında dəmiryol hərəkatı başlanmışdır. Petrovska və Bakıya tərəf olan dəmir yolunu tezliklə düzəltmək mümkün olmayacaqdır. Veden nahiyəsində, Çeçendə, Qudermes ilə Xasavyurt arasında dəmiryol xətti nəhayət dərəcədə fəna bir haldadır. Dəmiryol idarəsi bu yolu düzəltməkdən ötrü külli miqdarda fəhlələr təşkilatı yapmaqdadır. Vladiqafqazda alınan məlumata görə, dəmiryolunun təmiri üçün Petrovskda külli miqdarda hər cür material və nəqliyyat vəsaili [vasitələri] vardır.

**Könüllü ordu**

Don hövzəsi bolşeviklərdən təmizlənmişdir. Luqan[sk], Baxmut dairələrində olan müharibələrdə Könüllü orduların bir hissəsi iştirak eyləmişdir. Davalardan birisində Kornilov alayı iştirak eyləmişdir. Bu alay, müharibə ibtidasında 1800 nəfər ikən, şimdi 4500 nəfərdir. Deməli, köhnə saldatlar şimdi bu alaya yazılmışlardır.

**Soçi nahiyəsi**

"Yedinaya Rossiya" qəzetəsi yazır: Gürcüstan mənabeyindən [mənbələrindən] alınan xəbərlərdən görünürdü ki, ingilis komandanlığı Könüllü orduya Soçi nahiyəsindən çıxmaq əmrini vermişdir. Bu xəbər həqiqətə müvafiq deyildir. Böylə bir əmrnamə verilməmişdir və verilə də bilməzdi. Əsil həqiqətdə isə, ingilislər Könüllü orduya dostanə bir təklifdə bulunmuşlardı. Böyük Soçi nahiyəsi halhazırda Könüllü ordu tərəfindən işğal edilmişdir. Suxum okruquna daxil olan bir yerdə isə iki ingilis bölüyü vardır. Soçi nahiyəsində olan gürcü dəstəsi general Konev ilə və bütün silah, topu ilə bərabər Könüllülər tərəfindən əsir edilmişdir.

**Rusiyada**

- Bolşeviklərin məlumatına nəzərən, Odessada olan fransız komandanlığı ilə Denikin nümayəndələri arasında ixtilaf əmələ gəlmişdir. Buna da Denikin əmri ilə ümumi səfərbərlik elanı səbəb olmuşdur. General Bertlo demişdir ki, ümumi səfərbərliyə müsaidə verməyib, yalnız zabitlərin səfərbərliyinə müsaidə verəcəkdir.

Bolşeviklərin teleqrafında denilir: *"Hər səhər Odessa küçələrinə bolşeviklərin intibahnamələri [vərəqələri] yapışdırılır. Qaragüruhlar bu intibahnamələri məhv etmək üçün tədbirlər ittixaz edirlərsə də, nəticəsiz qalır. Odessa Rusiyanın müxtəlif yerlərindən axıb gələn banda dəstələri ilə doludur. Bu bandalar müntəzəm olaraq, milis arasında da adamları vardır. Bunlar sərvətlilərdən dava xərci alırlar."*

- Rostovdan xəbər verilir ki, Bolşevik Hökumətinə xidmət edən məşhur əsgəri mühəndis-general Veliçko əks-inqilab, yaxud Könüllü ordu hücumunda Moskvanı müdafiə üçün bir plan hazırlamışdır. Bu plan mövcibincə [plana əsasən] Moskva şəhəri 16 hərbi məntəqəyə ayrılır.





Tinlərdə olan evlərə pulemyot və xırda toplar qoyulmuşdur. Kreml mərkəzi idarə və üssülhərəkədir [bazadır]. Trotski Veliçkonun bu layihəsini təqdir və təsvib edib [bəyənib] böyük bəxşiş vermişdir.

**Başqırdlar - Şura qoşunları ilə**

Orenburqdan xəbər verilir ki, Başqırd-Şura [Sovet] qoşunları beloqvardeyslərin [ağqvardiyaçıların] dəstələrinə qarşı müharibə edirlər. Bizim hissələrlə başqırd qoşunları arasında daimi əlaqə başlanmışdır. Əsirlərin sözünə görə, Dutov dəstələri başqırd qoşunlarının bolşeviklər tərəfinə keçdiklərini bilməyirlər.

## DAĞISTAN ƏHVALI

**Azərbaycana təşəkkür**

Denikinin təcavüzü münasibətilə Azərbaycan Məclisi-Məbusanının protestosuna cavab olaraq, Dağıstan Hökuməti Xariciyyə naziri Dağıstanın Azərbaycan nümayəndəsinə bu məzmunda bir teleqraf çəkmişdir:

*"Könüllü ordunun həqşikənanə [qanunsuz] bir surətdə Dağıstan torpağına hücum etməsinə qarşı Azərbaycan Parlamanının protesto etməsini və könüllülərlə mübarizədə Azərbaycanın Dağıstana müavinət [köməklik] edəcəyini bilib Dağıstan Parlamanı sizdən təvəqqe edir ki, Azərbaycan Parlamanına və Hökumətinə Dağıstan Parlamanının səmimi təşəkkürünü bəyan edəsiniz və dağıstanlılar Azərbaycan[lı] qardaşlarımızın müavinət edəcəklərinə güvəndiklərinə bir dəxi qənaət hasil etdilər. Biz dəxi Azərbaycan Parlamanına və Hökumətinə təşəkkür ediriz."*

**Gürcüstana təşəkkür**

Dağıstan Hökuməti Xariciyyə naziri Gürcüstanda olan Dağıstan nümayəndəsi Axundova bu məzmunda bir teleqraf göndərmişdir:

*"Dağıstan Parlamanı təvəqqe edir ki, Könüllü orduların Dağıstan torpağına təcavüz etməsi münasibətilə Müttəfiqlərə protesto və Gürcüstan Hökumətinin Dağıstana olan hüsn-təvəccöh və xeyirxahlığını bildirir [bildirən] Gegeçkorinin yaddaştına [memorandumuna] müqabil, Gürcüstan Hökumətinə Parlamanın səmimi təşəkkürünü yetirəsiniz. Dağıstan Parlamanı təvəqqe edir Gürcüstan Hökumətinə bildirəsiniz ki, Qafqaziya millətlərinin istiqlalı uğrunda dağıstanlıları həmişə ən sadiq xadim görür."*

**Dikeriyada müharibə**

Şimali Qafqaziyadan verilən xəbərlərə nəzərən, Könüllü ordunun Osetiyada və Dikeriyada müharibələri davam edir. Könüllü ordu dikeriyalılardan 30 milyon manat pul, min rəs [baş] yəhərli at və min ədəd yapıncı istəyir.

* Dağıstan sülh heyətinin üzvü Çermoyev Azərbaycanda olan Dağıstan nümayəndəsi [Əlixan] Kantemirova teleqraf göndərərək, Şimali Qafqaziyada Denikinin qanundankənar hərəkatı haqqında istizah etmişdir [məlumat istəmişdir]. Kantemirov hökumət namindən Çermoyevi vəkil edir ki, Müttəfiqlər və Müttəfiqlərin Ali komandanlığı hüzurlarında Könüllü ordu hərəkatı müqabilinə protesto versin.

**Əhvali-daxiliyyə [daxili vəziyyət]**

Şimali Qafqaziyadan alınan mövsuq [etibarlı] məlumata görə, inquşlar üç süvari alayı təşkil edilməsi təklifinə yeddi günün müddətində öz razılıqlarını bildirməlidirlər. Yəqindir ki, inquşlar bu təklifə razı olmaqdan imtina edəcəklərdir.

İnquşlar arasında Könüllü ordu əleyhinə böyük cərəyan vardır. Çeçenlər fevralın 18-ində və 28-ində Qroznıda Lyaxov ilə Dağıstanlılar İttifaqı nümayəndələrinin yanında vaqe olan ictimada [yığıncaqda] Könüllü ordu təşkilindən və general Lyaxov ilə müzakiratda bulunmaqdan qəti surətdə imtina etmişlərdir. Demək olar ki, Könüllü ordu Qroznıdan kənara hərəkət etməmişdir. Dağıstan və Çeçenistan ancaq Dağıstan Hökumətini qəbul edirlər. Bu qərar üzrə bu yaxınlarda Şimali Qafqaziyada asayiş bərpası və inquşların tərki-silah edilmələri ilə Dağıstan millətlərinin Denikin hökumətini qəbul etmələri haqqında verilən xəbərlər doğru deyildir. Teymurxanşuradan alınan məlumata görə, Çeçenistanda və Dağıstanda məhəlli [yerli] ruhanilər başda olmaq üzrə, dini hərəkat başlanmaqdadır.

**Dağıstan Parlamanında**

Dağıstanlılarla Könüllü ordu arasında olan ixtilaf münasibətilə Dağıstanlılar şurasında Dağıstan Baş vəkili [Baş naziri] Pşemaxo Kotsev xarici işlər barəsində zeyldəki ərzihalda bulunmuşdur [aşağıdakı məlumatı vermişdir]:

*"Möhtərəm şura üzvləri! Əlbəttə, siz mənim Bakı səfərimdən maraqlanırsınız. Əvvəla Könüllü ordunun vürudu [gəlişi] münasibətilə dəvəran edən şayiat [gəzən şayiələr] barəsində bir neçə söz söyləmək istərdim. Başlıca böylə şayiat var idi ki, güya ki, Könüllü ordu Qroznı ilə Vladiqafqazı işğal eyləmişdir. Mən özümə borc bilirəm məlum edim ki, bu xəbər həqiqətə müvafiq deyildir. Vladiqafqaz 11 fevralda saat 1-də alınmışdır. Bu şəhər Qırmızı ordu və partizanlar tərəfindən deyil, inquşlar tərəfindən alınmışdı. Şəhər işğalından bir həftə əvvəl bolşeviklər qayət əcələ ilə şəhərdən çıxırdılar. Qroznıda isə 200 kazak və Dağıstan qoşunları var idi.*

*Könüllü ordu komandanı general Qaydeman fevral ayının 2-sində inquş əhalisinə bu məzmunda bir ultimatum vermişdir:*

*1. İnquşistan tərki-silah edib silahını Könüllü orduya təslim etməlidir.*

*2. İnquşlardan olan həp [bütün] Qırmızı qoşun əfradı [əsgərləri] Könüllü ordu əlinə verilməlidir.*

*3. Könüllü ordu bilamümaniət [maneəsiz, müqavimətsiz] Qroznı şəhərinə buraxılmalıdır.*

*4. Tersk oblastında kazaklara verilmiş olan zərərlərin həpsi inquşlar tərəfindən tövdi edilməlidir [verilməlidir].*

*5. İnquş əhalisi 19 yaşından 40 yaşınadək Könüllü ordu cərgəsinə girmək üçün əsgər verməlidir.*

*6. Tersk oblastına kazakdan general-qubernator təyin edilməlidir.*

*Bu əmrnamə general tərəfindən imza edilib Tersk və Dağıstan mahalının Baş komandanı general Lyaxova göndərilmişdir.*

*Lyaxova təklif edilir ki, bu yerlərdə sakitliyi bərpa eyləsin, iqtisadi məişəti islah eyləsin. Məhəlli qüvvələrin azad surətdə tərəqqisinə çalışsın, Dağıstan əhalisini yenidən ruslara mail eyləsin.*





*Bu əmrdən görünür ki, general Lyaxov Dağıstanı həmi hərbi, həmi mülki idarəyə müvəzzəf edilmişdir.*

*Könüllü ordu başçısı Denikindən sonra ikinci məsul şəxs general Erdelidir. Mən Bakıda ikən Könüllü ordu barəsində onunla danışıqda bulundum. Görünür ki, Könüllü ordunun bizdən heç bir məlumatı yoxdur. Hakəza [eləcə də], Gürcüstandan bilkülliyə [tamamən] bixəbərdir. Gürcüstan barəsində xüsusi mənbələrdən qeyri-səhih xəbərlər almışlardır ki, bu xəbərlərlə könüllülərlə Gürcüstan arasında ədavət əmələ gəlmişdir.*

*Könüllülər, Dağıstan Hökumətinin olduğunu və anarxiyaya qarşı mübarizə etdiyini bilirlərsə də, fəqət bizim məqsədimiz onlara məlum deyildir. General Erdeliyə Dağıstanla Müttəfiqlər arasında bağlanan əhdnamənin Müttəfiqlər komandanlığı tərəfindən Sülh Konfransınadək istiqlaliyyətimizi qəbul etdikləri maddəsini göstərdikdə, general artıq bir heyrət və təəccübə düşmüşdür.*

*Bizim hökumətimiz bu nöqteyi-nəzərdədir:*

*Kimsə ilə ixtilaf çıxarmaq istəməyiriz və hər kəslə də dostanə münasibatda bulunmaq istəyiriz. Fəqət Rusiya içərisində bolşeviklərlə mübarizə etmək işlərinə də qatışmaq fikrində deyiliz. İnquş əhalisinə ultimatum təqdim edildikdə onu rədd edərək demişlər ki, Könüllü ordu bizim ölkəyə sülh ilə deyil, hərb ilə gəlirlər. Sonra inquşlar bəyan etmişlər ki, Vladiqafqazı Dağıstan Hökumətinin əmri ilə işğal etmişlərdir. Dağıstan Hökumətinin əmri olmayınca könüllüləri Qroznı yaxınlığına buraxmayacaqdırlar. Könüllülərlə inquşlar arasında xırda müsadimə [toqquşma] vaqe olmuşsa da, fəqət könüllülər müvəffəq olmamışlardır. Məsələn, könüllülər Vladiqafqaz şəhərini işğal edə bilməmişlərdi.*

*Kimsə tərəfindən təsdiq edilməyən Könüllü ordu general-qubernatorluğu ultimatum təqdim etmək haqqına malik deyildir. Biz bunu təsdiq edəmməriz. Mən general Erdeliyə bəyan eylədim ki, inquşların tərki-silah məsələsinə Nikolay, Vorontsov-Daşkov da müdaxilə etmişdi. Fəqət onlar belə məsələni həll edə bilməmişlərdi. Bolşeviklər başçılarının təslimi xüsusunda biz o qədər də mübahisə etmədik. Fəqət onlar Könüllü orduya deyil, bizə təslim edilməlidirlər.*

*Könüllülərin Qroznıya buraxılması məsələsinə gəldikdə, ən məqul [məntiqli] cavabı inquşlar vermişlərdir. Dağıstanlılar tərəfindən zərərlərin verilməsi barəsində mən demişdim ki, biz bu məsələyə bir qədər də geniş surətdə baxırız. Ola bilər ki, inquşlar qabardinlərə, osetinlərə də zərər vermişlərdir. Dəyilən zərərlər yalnız kazaklara verilməli, zərərləri iadə etmək üçün xüsusi komissiya təşkil edilməlidir.*

*İnquşların 19 yaşından 40 yaşınadək silah altına alınıb da daxili Rusiyaya, bolşeviklər qarşısına mübarizəyə göndərilməsi məsələsinə gəldikdə bəyan eylədim ki, bu məsələni nə biz və nə də onlar həll edə bilməriz. Bütün bolşevik rəislərini təslim etdikdən sonra onların arvadları qalacaqdır. Hərgah, bu təqsirsiz arvadları çıxarmış olsaq, bütün İnquşistan boş qalacaqdır. Biz zənn ediriz ki, buna razılıq vermək olmaz.*

*Kazaklardan general-qubernator təyini məsələsinə gəldikdə, dedim ki, hərgah,*

*qubernator təyin və intixabı [seçkisi] icab edərsə, o zaman, qubernator kazakdan deyil, dağıstanlılardan təyin edilməlidir. Buna da səbəb odur ki, Tersk mahal[ın]-da kazakdan çox dağıstanlılar məskundurlar [yaşayırlar]. İngiltərə komandanlığına və Erdeliyə bəyanat verilmişdir. General Tomson cavabında demişdir, Könüllü ordudan tələb edəcəkdir ki, Dağıstan torpağına qədəm basmasın. Bu əhval general Erdeliyə dəxi məlum edilmişdir.*

*Biz zənn ediriz ki, bizimlə öylə rəftar edirlər ki, əbədən [əsla] rəva deyildir. Kuban və Don cümhuriyyətlərini qəbul edən Könüllü ordu bizim istiqlaliyyətimizə təcavüz edə bilməz. Biz dedik, hazırıq Könüllü ordu arxasını saxlayaq. Bolşeviklərlə mübarizəyə də hazırıq. Amma bununla bərabər, o şeylərə razı olmarıq ki, Nikolay onu keçirməkdən aciz idi.*

*Yalnız Denikin tərəfindən istiqlaliyyətimizin qəbul edilməsinin əhəmiyyəti yoxdur. Rusiyada olan başqa cümhuriyyətlərin müavinət və rizası lazımdır. Biz istiqlalımızın Denikin tərəfindən təsdiq edilməsini arzu etməyiriz. Biz deyiriz ki, biz öz evimizin sahibiyiz. Dincliklə və sülhlə yaşamaq istəyiriz. Heç kimə mane olmaq fikrində deyiliz. Heç kim də bizə mane olmamalıdır. Müttəfiqlər komandanlığı bizim cümhuriyyətə müavinət edəcəyini vəd etdi və Denikinə əmr vermişdir ki, qoşunlarını Dağıstan torpağından çıxarsın. General Erdeli bəyan eyləmişdir ki, Könüllü ordu Dağıstan Hökuməti təşkilindən bixəbər idi və nəhayət vədə verdi ki, Dağıstanla Könüllü ordu arasında olan ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün ciddi tədbirlər ittixazına [tədbirlər görülməsinə] girişəcəkdir.*

*Bizim hökumətimiz [Zübeyr] Teymurxanovu Müttəfiqlər komandanlığı nəzdinə göndərir ki, bu barədə məşvərətdə bulunsun."*

Bu məlumatı verdikdən sonra Kotsev işbu cümlə ilə bəyanatını qurtarır:

*"Həzərat! Sizin müqəddəratınız öz əlinizdədir. Siz möhkəm dursanız, istiqlaliyyətinizi müdafiə edərsiniz. Bizim zəif hissələrimiz bizə yaşamağa müsaidə vermədi. Bu da qətl-qarətdir ki, bizim işimizin pişrəftinə [qabağa getməsinə] daima əngəl törədir. İştə, bunun üçündür bizi sakit etmək istəyirlər. İştə, bunun üçündür ki, vətənimizə general-qubernator təyin etmək istəyirlər. Bu da bizim zəif halımızdır. Hərgah müstəqil surətdə yaşamaq istəyirsinizsə, o zaman vətənimizdə bu işlərin imkanına yol verməməlisiniz. Biz istiqlalımızı müdafiə etməliyiz. Həzərat! Hər vaxtdan artıq şimdi bizə birlik lazımdır. Biz xüsusi və xırda məsələləri sonraya buraxmalıyız. Hərgah, şimdi də birləşməsək, Nikolay əsrindən daha pis hala düşəriz."*

## İRAN İŞLƏRİ

### Müharibə zamanında İranın zərəri

Tehranda nəşr olunan "Rə'd" qəzetəsi yazır ki, rus və türk əsgərləri Soyuqbulaq və ətrafında olduqları zaman əhaliyə bu aşağıdakı miqdarda zərər olmuşdur:

Rus əsgərlərinin vurduqları zərər 35 milyon 1 min tümən. Rus əsgərləri getdikləri zaman törətdikləri qətliamlarda tələf olanlardan başqa, şəhərdə və ətrafında 31 min adam həlak olmuşdur. Bundan əlavə, rus əsgərləri getdikləri zaman əsir sifətilə İrandan Rusiyaya 5 min adam aparmışlardır. Bunlardan bir hissəsi həlak olub, bir qədəri qayıtmışdır. Yerdə qalanlarının Rusiyada nə hal keçirdikləri məlum deyildir.

Türk əsgərlərinin İrana vurduqları zərər 825 min tümən hesab olur. 11 adam qətl edilmişdir. Bundan əlavə, aclıqdan və soyuqdan 5 min adam tələf olmuşdur.

Gərmərud və Xalxal tərəfdə türk əsgərləri 600 min tümən, rus əsgərləri isə min tümən zərər vurmuşlardır. Bu rayondan ruslar fəhlə sifətilə 12 min adam aparmışlardır. Bunlardan 300 nəfəri salamat qayıdıb, qalanları həlak olmuşlardır.

### İsfahanda bankın qarəti

İsfahan şəhəri ətrafında "əməliyyatda" bulunmaqda olan quldur dəstəsi tərəfindən bugünlərdə İsfahan bankı qarət edilib, min tümən pul və 20 tay bəzzaziyyə malı [parça] aparılmışdır.

### Hökumət və ermənilər

Şimali İranın qərbi cəhətlərində müharibədən dolayı öz vətənlərini tərk edib böyük xəsarətə düçar edilmiş olan ermənilərin halını nəzərə alaraq İran Hökuməti onlara ianə təriqi [yolu] ilə müavinət etməyi təhti-qərara almışdır.

### Quldurlar

İranın hər tərəfindən istər əhali, istərsə hökumət idarələri tərəfindən mərkəzi Hökumətə ərizələr verilib ətrafda hərəkatda bulunmaqda olan quldur dəstələrindən şikayət edilir. Quldurlar rəhmsiz bir surətdə əhalini qətl-qarət edirlər. Quldurların rəisləri məşhur Cəfərqulu xan və Rəcəbəlidir.

Neçə gün bundan əqdəm [qabaq] yerli qüvvələrlə quldurlar arasında toqquşma vaqe olmuş, quldurlar davam etməyərək geri çəkilmişlərdir.

Bugünlərdə onlardan bir neçə nəfəri Kaşan və Gəmrə şəhərləri ətrafında görünüb bəzi kəndlərə hücum etmişlərdir. Mərkəzi Hökumət tərəfindən quldurlarla mübarizə etməkdən ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

### Cəngəlilər

Qəzvindən "Rə'd" qəzetəsinə yazırlar ki, bir neçə gün bundan əvvəl cəngəlilərin dəstələri şəhərin ətrafında olan kəndlərə gəlib, əhalidən taxıl və qeyri məkulat [ərzaq] şeyləri həcz [müsadirə] etmişlərdir. Şəhərə yaxın olan Tarəm və Müncil qəsəbələri əhalisi mərkəzi Hökumətə müraciətən mühafizə istəmişlərdir.

## NƏZARƏTLƏRDƏ

### Məsai Nəzarətində

* "Demosfen" nam [adlı] vaporun 14 nəfər müsəlman xidmətçiləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişlər ki, səfərbərliyə düşdüklərindən dolayı xidmətdən çıxmalıdırlar. Binaənileyh [ona görə], xidmətçilər[ə] işbu sənənin iyul, avqust və sentyabr ayları və keçən sənənin noyabr ayının birinci nisfi [yarısı] üçün müştərək müqavilənamə [kollektiv müqavilə] üzrə məvacibləri verilməlidir. Xidmətçilər rica etmişlər ki, işbu məsələyə tezliklə baxılsın. Zira, sevgili vətənləri ordusuna tez daxil olmaq arzusundadırlar.

* Parlamana idxalı ehtimal edilən hökumət qulluqçularına məvaciblərinin 75% verilməsinə görə Maliyyə Nəzarəti Məsai Nəzarətinə məlum etmişdir ki, Nəzarət siyahı tərtib verib Kontrol vasitəsilə Maliyyə Nəzarətinin Xəzinə şöbəsinə verməlidir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] qaçqınlara müavinət [yardım] haqqında verdiyi müraciətnamə nəticəsi olaraq "Boğaz" vaporu xidmətçilərindən qaçqınlar nəfinə [xeyrinə] 180 rublə 50 qəpik ianə varid [daxil] olmuşdur. Nəzarət ianə verən zəvata [şəxslərə] təşəkkür izhar edir [bildirir].

## TİCARƏT HAQQINDA

Hər millətin dərəceyi-mədəniyyətini göstərən bir çox şeylər varsa, onların birisi də və bəlkə ən birincisi o millətin dünyada yapdığı ticarətidir. Bir millətin mədəniyyəti onun dünya bazarlarında yapdığı ticarətlə ölçülür. İngiltərə dövləti ilə sabiqən [keçmişdə] çar hökumətini tarixi düşmənlikdən etilaf əqdinə [razılığa gəlməyə] məcbur edən yalnız Almaniya ticarətinin dünya bazarlarında tərəqqi etməsi olmuş və şahidi olduğumuz Cahan müharibəsi yenə Etilaf dövlətləri ilə İttifaq dövlətlərinin ticarət rəqabətindən nəşət etmiş [əmələ gəlmiş].

Müstəqil və sərbəst yaşamaq arzusunda olan bir millət, kəndi vətəninin təbii sərvətindən istifadə etmək iqtidarına malik olmalıdır. Yalnız dövlətlər tərəfindən qəbul və təsdiq olunmuş bir hüdud daxilində hökumət təşkil edərək millətin zimami-idarəsini [idarə yüyənini] ələ almaqla həmişəlik və tam mənası ilə müstəqil yaşamaq olmaz. Müstəqil yaşamaqdan ötrü məmləkət daxilində bir də müstəqil ticarət, müstəqil sənaət [sənaye] və ziraət [kənd təsərrüfatı] təsis etmək lazım və həm də əsrə müvafiq təsis etmək lazım.

Dünyanın türk irqi ilə məskun yerləri ən böyük təbii sərvətə malikdirlər. Baba yurdumuz olan Türküstan, kəndi vətənimiz olan Qafqaziya Azərbaycanı, hakəza [eləcə də] İranın Azərbaycan qitəsi [hissəsi] ilə Osmanlının Anadolusu təbiətcə dünyanın ən zəngin yerlərindən ədd [hesab] oluna bilərlər. Lakin mütəəssifanə olaraq [təəssüf ki], vətənin təbii sərvətindən, vətənin doğma övladından artıq başqaları istifadə edirlər. Azərbaycanımızın parlaq istiqbalına [gələcəyinə] inanaraq Azərbaycan ricali-hökumətini [hökumət adamlarını] vətəndə olan təbii sərvətdən istifadə etməyə və həm milli sərmayələri bu işə cəlb etməyə dəvət ediriz. Hərçənd təbii sərvətdən istifadə etməkdən ötrü sərmayədən başqa, daha ayrı şeylər həm lazımdır. Lakin işə şüru olunarsa [başlanarsa] və hökumət başında duranlarımız millətin mövcud qüvvəsindən istifadə istedadına malik olarlarsa, inanırız eyi nəticələr əldə edilmiş olar.

Qəzetə sütunlarında mövzubəhs məsələdən danışmağı başqa vaxta buraxaraq, bura yalnız ticarətdən ötrü, daha doğrusu ticarətin daxili intizamından ötrü lazım olan bir məsələdən müxtəsər də olsa bəhs edəlim. Başqaları az bir sərmayə ilə böyük kantorlar və neçə şəhərlərdə kəndi kantorlarının şöbələrini açaraq ticarət edirlər. Bizim tacirlər isə böyük sərmayə ilə xırda bir kantoru idarə edəmməyirlər. Bunun səbəbi nədir əcəba? Türk irqinin, Anadolu türkləri müstəsna olunaraq, təbiətcə ticarətə artıq həvəsli və həm müstəid [qabiliyyətli] olduqlarını heç bir sahibi-vicdan inkar edə bilməz. Zənni-acizanəmcə tacirlikdə İran Azərbaycanının türkləri ən birinci mövqedə buluna bilərlərsə də, Qafqaziya türkləri həm ticarətə xeyli həvəsli və müstəiddirlər.

Ümumiyyətcə türk irqinin tacir bir millət olduğunu inkar etmək olmaz. Buna birinci dəlil Təbriz tərəflərini göstərmək olar ki, müntəzəm və Yevropa üsulunda kantorlar açmağa yalnız mədəniyyətcə müstəid olmadıqları halda, milyonlarla dad-sitad [alış-veriş] edərək kurur-kurur [çox-çox, artıqlaması ilə] para qazanırlar və hər kəs kəndi təcrübəsi ilə ixtira etmiş bir buxqalteriya ilə dəftərdarlıq edirlər. Əlbəttə atalar demişkən, "köhnə tuluq təzə sirkəni saxlaya bilməz" və habelə köhnə üsul ilə şimdi ticarət yapmaq artıq müşkül olacağı hamıca aşkardır.

Cahan müharibəsi bitər-bitməz böyük Yevropa və Amerika firmaları bütün Şərqdə və baxüsus [xüsusilə] böyük sərvətə malik olan Azərbaycanımızda şöbələr açmağa şüru edəcəklər [başlayacaqlar]. İndiyədək xammalımızı alaraq əvəzində kəndi fabrikalarının mallarını bizim vətəndə satdıqda vasitə yenə biz kəndimiz olurduq. Şimdi isə karxana mallarını satmaqdan ötrü həm xarici sərmayənin vətənimiz daxilində işə şüru etməsi pək möhtəməldir. Binaənileyh, hazır olmaq lazımdır. Bu hazırlaşmağı millət kəndisi etməli. Hökumət var, Parlaman var deyə qənaət gətirmək və hər bir işi hökumətin öhdəsinə buraxmaq, üzürü qəbul olunmayan günahlardandır. Millət kəndisi, kəndi varlığını hər dəqiqə və hər yerdə nümayiş etməlidir.

Qomşumuz ermənilərin neçə ildən bəri edadi ticarət məktəbləri və bir çox buxqalteriya kursları olduğundan, onlar bizdən çox qabaqdadırlar. Ticarətimizi vüsətləndirmək və Yevropa üsuluna salmaqdan ötrü biz də hakəza ticarət məktəbləri və buxqalteriya kursları açaraq gənc tacir sinifi və buxqalterlər vücuda gətirməliyiz.

Edadi və yaxud ali ticarət məktəbləri açmaqda cavan hökumətimiz əlbəttə camaata yardım etməlidir və bəlkə kəndi təşəbbüsü ilə Bakı və Gəncə kimi mərkəzlərimizdə birər ticarət məktəbləri açmalıdır. Bu ticarət məktəblərində məlum olduğu üzrə 8 sənə təhsil lazımdır. Binaənileyh, bundan yalnız ətfali-vətən [vətən uşaqları] istifadə edə bilər və yalnız atiyəmizi [gələcəyimizi] islah etmək üçün bu məktəblər neçə il sonra Yevropa üsulu ilə ticarət yapmağa müstəid [qabiliyyətli] istedadlı tacirlər buraxarlar. Bununla, əlbəttə ehtiyac rəf olmaz [aradan qaldırılmaz]. Çünki haliya [hal-hazırda] həm başqaları ilə ticarət mübarizəsi məcburiyyətində bulunuruz, hazırda tacirlərimizin əksəri türk, fars dillərində savadlıdırlar və həm qədim tacir olmaları həsəbilə [səbəbi ilə] ticarətə məhdud da olsa bələddirlər. Yalnız ticarətxanalarının hesabını Nuh əyyamından qalma bir üsul ilə, yaxud kəndi təcrübələri sayəsində ixtira etdikləri üsul ilə apardıqlarından, ticarət-

lərinə vüsət verə bilməyirlər. Binaənileyh, bu qısım tacirlərə həm kömək etmək lazımdır. Bunlardan ötrü buxqalteriya kursları açmaq və az bir zamanda ümumi üsul ilə ticarət aparmağı öyrətmək asan bir işdir. Lakin əvvəl tacirlərimizdə bu məsələyə bir həvəs olmaq lazım və ikinci buxqalteriya əməlində mütəxəssislərimiz bir-biri ilə görüşüb bir cəmiyyət təşkil edərək məzkur [deyilən] nöqtəyə diqqət etməlidirlər ki, bu barədə gələcək məqalədə kəndi rəyimi mövzubəhs məsələdən maraqlanan əfəndilərə bildirməyi dəröhdə oluram [öhdəmə götürürəm].

Burada isə xatimeyi-kəlam [sözümün axırı] olaraq buxqalter elmində mütəxəssislərimiz yoxdur denilir, məlum etmək istəyirəm ki, həqiqət buxqalterlərimiz çox azdılar, lakin yox demək olmaz və var qüvvəmizi səfərbərlik halına gətirsək buxqalteriya kurslarında ana dilində tədrisə qadir buxqalterlərimiz az da olsa tapılar.

*Tağı Nağdəlizadə*

## AXISKA QIRĞINI

Axıska hadisələrinə dair qəzetələrdə yazılan və oralardan gələnlərin ağızlarından duyduğum doğru xəbərlərin xülasəsinə görə, əski və yeni Axıska vəqələri [hadisələri] aşağıda yazdığım üzrə meydana gəlmişdir:

Osmanlılar Axıska və Axalkələk qəzalarından çəkiləndən sonra, buraların gürcülərə təslim edilib-edilməməsini müzakirə üçün Ömər Faiq əfəndinin başçılığı ilə dərhal Milli Komitə yığılıb uzun mübahisələrdən sonra təslimə qərar vermiş və bu qərar mövcibincə [bu qərara əsasən] gürcü əsgəri keçən il dekabrın 5-ində qorxusuzca şəhərə daxil olmuş, müsəlman camaatı təzə hökuməti razılıqla qarşılamış və ondan ucuzluq, rahatlıq, əminlik və hər dürlü ictimai və iqtisadi yardım gözləyərək öz işləri ilə məşğul olmağa başlamışlar. Aradan dörd-beş gün keçmiş, hökumət qəzanın başbilənlərini həbs edib Tiflisə, qalaya göndərmiş, uçastok komissarları ilə strajniklər, əsgərlər hər yerdə camaata əziyyət verməyə, mallarını pulsuz zəbt etməyə, birər bəhanələrlə döyüb-söyməyə, alçaqlamağa, əski öc-intiqamları almağa, talan və qarətə olanca gücləri ilə başlayıb, hər sinif xalqı incitmiş və narazı buraxmışlar.

İştə, bu sırada sərhəddə duran gürcü əsgəri Qarsa tabe Posxov müdiriyyətindən Axıska qəzasına gəlib keçən posxovluları da incitməyə və hətta bir gün toy ilə Posxova götürülən müsəlman gəlininə mane olmağa və toyda olan silahlı müsəlmanları tutub həbs etməyə cürət etmiş və get-gedə böylə arsızlıqlardan, müsəlmanların sakit durmalarından üz bularaq yanvarın ortalarında, günün birində Posxova hücumla oranı zəbt və Axıskaya qoşmaq xəyalına düşmüşlərdir. Posxovlular isə buna razı olmayaraq əvvəlcə müdafiə və sonra hücuma keçərək sərhəddə müsəlmanları həbs edən əsgərləri əsir tutub götürmüşlər. Gürcü əsgərləri idarəsi bunları qurtarmaq və müsəlmanları cəzalandırmaq üçün Posxova doğru bir alay sövq etmişsə də, 200-300 posxovlular bunları meşənin kənarında xəbərsizcə sarıb tamamilə pərişan ilə Axıskaya sıxışdırmışdır. Baş komandan işin ciddiyyət və təhlükəsini mülahizə edərək posxovlularla bərabər onlara qoşulan axıskalıların gözlərini tamamilə qorxutmaq üçün iki-üç min qüvvətlə irəliləyib üç-dörd köyü topla tamamilə yandırıb dağıtmış və bir qədər də irəliləmiş, lakin haqlı bir intiqamla döşləri qabarmış o 200-300 türk qəhrəmanları qarşılarındakı iki-üç minlik qüvvətin qiyməti-əsgəriyyəsini [hərbi dəyərini] heçə sayaraq hər tərəfdən partizan üsulu ilə hücum etmiş və özlərindən yüz qat artıq olan düşmənin yağdırdığı top və pulemyot atəşlərinə baxmayaraq, onu az vaxtda pərişan ilə qaçmağa məcbur etmişdir və o böyük qüvvət təsəvvürə gəlməyən bir hal ilə, generalları əsgərlərlə, zabitləri köylülərlə qarışaraq aciz qarılar kimi yüz cür qorxularla ancaq başlarını qurtara bilmişlər. Gərək əsgəri qüvvət və gərəksə mülki idarələr kiçik bir qüvvət qarşısında özlərini itirib qaçandan və Axıska uyezdindən tamamilə təmizlənəndən sonra, uyezd idarəsinə bir para mənfəətpərəst, alçaq, ikiüzlü bəylər, nüfuzlular soxulub camaat arasına nifaq saçmağa və "mənlik" davası ilə bir-birləri ilə boğuşmağa başlamışlar. Bu surətlə məmləkətdə bir-birinin ziddi bir neçə qüvvət meydana çıxarmışlar ki, bunların bir qismi qeyrətli, həmiyyətli olmaqla bərabər, təcrübəsiz, idarəsiz bəylərdən, digər qismi isə fəsadçı, alçaq və ancaq mənfəəti-şəxsiyyəsini düşünən bəylərdən ibarət imiş.

İştə bu bəylərin bir-birləri ilə boğuşmaları səbəbilə məmləkətin idarə və müdafiəsi zəifləşmiş və camaatın əvvəlki eşq və atəşi sönməyə, ruh və imanı pozulmağa və nəhayət, mühafizeyi-haqq və vətən vəzifəsi haqqı ilə görülməyərək təhlükələrə meydan açmağa başlamışdır. Böylə bir vaxtda camaat arasında onun etimad və inanını [inamını] qazanmış, onun mənfəəti üçün çalışdığını feilən isbat etmiş aqil və təcrübəli adamların bulunmaması isə məmləkət müqəddəratını daha qaranlıq və müşkülata buraxmış və qızıl səması üzərində toplanan qara buludların dəhşətini hiss etdirməmişdir.

Axıskalıların, daha doğrusu o həmiyyətli qəhrəmanların başlarında bulunan baş və beyinsizlərdən bəzilərinin bacarıqsızlığı, bəzilərinin də alçaqlıq və xəyanəti üzündən məmləkətdə vüqua [meydana] gələn keşməkeş vəziyyət və zə'fiyyətdən Borjomda toplanan düşmən günü-gününə xəbər alaraq qüvvətini artırmış və Baxşibəy Maçabeli alçağının göndərdiyi gizli xəbər üzərinə düşmən on minə yaxın qüvvəti fevralın 5-ində Azqur köyünə qarşı açdığı dəhşətli top atəşləri altında hərəkət edərək şose yolunun hər iki tərəfindəki köyləri, köylüləri yıxaraq, öldürərək irəliləyə bilmiş.

Bu gün Borjomdan ingilislərlə Tiflisə və oradan Bakıya gələn bir axıskalı bu son hadisəni böylə nəql edirdi:

Müsəlmanlar gürcülərin bir daha qüvvət cəm edib hücum edəcəklərinə az inanırlardı. Buna görə, cəbhədə qayət az əsgər bulundururlardı. Bu əsgərlər də cəbhəyə yaxın köylülərdən ibarət idi. Sərvər bəylə Baxşibəyin arasındakı xüsusi düşmənlik isə müdafiəyə gedəcək köylüləri ikiyə böldü və bunları bir-birləri ilə vuruşduraraq müdafiəni bütün-bütün unutdurdu. İştə, bu sırada, yəni cəbhədə 300 köylü qaldığı bir gündə gürcülər güc-

lü top və pulmeyotlarla müsəlləh [silahlanmış] 10 min qədər bir qüvvətlə irəlilədi. 300 müdafe [müdafiəçi] 10 min qüvvətlə üç-dörd saat vuruşdu. Axırda top güllərinin şiddət və kəsrəti [çoxluğu] ilə qismən tələf [oldu], qismən yaralandı. Gürcü əsgərləri müsəlman fədailərinin ancaq nə'şləri [cəsədləri] üzərindən yol tapıb irəli keçdi. Müsəlmanların müdafiə xətt və qüvvəti də bu birinci çarpışma ilə tamamən qurtardı. Çünki qalan camaat və köylər işin həqiqətindən bixəbər, evlərində rahat otururlardı. Top gülləleri köylərə düşüb, başlarında patladığı vaxt işin ciddiyyətini anladılar. Lakin, bu vaxt çocuqlarının əllərindən tutaraq və hər şeyi düşmənə buraxaraq qarlı meşələrə qaçmaqdan başqa çarələri yoxdu və böylə də eylədilər.

Gürcülər şosenin hər iki tərəfində bulunan köylərə güllə yağdıra-yağdıra bütün sağ qalan camaatını dağlara, meşələrə qaçıra-qaçıra irəlilədilər. Gürcü əsgərləri köylərə bir çox top atammamış, rast gəldiyi qoca, qadın, çocuq və sibyanı [bəbələri] gülləməmiş heç bir köyə girə bilmirlərdi. Köylərə girəndən sonra da yapdıqları vəhşilik və canavarlıqlar tərifin xaricindədir. Gürcü demokrat narodnaya qvardiyanın [Gürcüstan Demokratik Respublikası Xalq qvardiyasının] eylədiyi zülüm və vəhşəti müsəlman tarixi unutmasa gərək. Müsəlmanlar əsla güman etmədilər ki, dost ədd [hesab] edilən gürcü dövlətinin nizami əsgəri və Qırmızı Xas alayı rahat və silahsız camaata qarşı bu tövr qırmızı xunrizlik [qantökənlik], bu dürlü işgəncə və zülümlər icad edələr.

Azqurdan Axıskaya qədər 21 verst uzaqlığındakı 25-30 köyün on minlərcə camaatı köylərini tamamilə tərk edib meşələrə, dağlara qaçmışlardır. Deyirlər oralarda qarın yüksəkliyi bir arşına yaxındır. Əgər bu qaçan camaat bir-iki günə qədər yurdlarına dönməsələr, – ki, bu qeyri-qabildir – hamısı aclıqdan, soyuqdan tələf olacaqlardır. Meşələrə qaçan köylülərin qaramal, heyvan ilə bütün ev əşyasını, yeyəcəklərini, toxumlarını ac əsgərlər canavarlar kimi tələf edirlər. Müsəlman köylərinin yaxınlığındakı, hətta Borjom ətrafındakı minlərcə ac gürcü köylüləri yüzlərcə arabalarla sahibsiz qalmış müsəlman köylərinə daraşıb gecə-gündüz var-yoxu çəkib götürürlər. Böylə ki, sağ qalıb kəndlərinə gələcək müsəlmanlar bir çox vaxt kəndlərində də bir zad bulammayıb aclıqdan, xəstəlikdən tələf olacaqları aşkardır.

Mən Borjomda ikən müsəlman köylərindən gətirilmiş bir çox heyvan sürülərini Mixaylovoya doğru götürürlərdi. Müsəlmanların əşya və ərzağını yüklənmiş gürcü arabalarından yollarda keçmək olmur.

Azqurun ətrafında, şose yolu kənarlarında dörd-beş gündən bəri buraxılmış müsəlman nə'şlərini [cəsədlərini] itlər öylə dağıtmışlar ki, kim olduqlarını tanımaq mümkün deyil. Köylərdə kimsə yox ki, bunları bir hal ilə basdırsın. Amma olsalar da, gizləndikləri yerlərdən çıxmaları qabilmi? Hər köydə yüzlərcə əzrail insan sifətində dolaşır. Meydana çıxmaq, görünmək mümkünmü? Yolda gəlirkən orada-burada bir çox köy itlərinin yığışdıqları uzaqdan nəzərimizə çarpırdı. Onları[n] heyvan leşlərinə sarıldıqlarını zənn edirdik. Yaxın gəlib görürdük dağıtdıqları, yedikləri öz köylüləri və bəlkə də sahibləridir.

Gürcü əsgərləri arasında bulunan, daha doğrusu pəncələrinə düşmüş bir çox müsəlman qızlarının hallarını görməmək üçün inanınız gözlərimi qapadım. Məgər dünyada bu qədər vəhşət, bu qədər zalımanə "intiqam" olarmış! Hələ deyirlər, Axıskadan Posxova doğru olan yüzlərcə köylərin halı bunlardan da fəna, bunlardan da betərdir.

Doğrusu, bu dərəcə qarət və vəhşətin səbəbini, müdafiə etməyən köylərin bu mərtəbə, yəni tamamilə soyulub məhv edildiyinin hikmətini yalnız cahil əsgərlərin vəhşiliyində zənn edirdim. Lakin Borjom vaqonunda bir gürcü zabitinin: *"Yolların kənarlarındakı köylər tamamilə məhv edilməlidir ki, bir daha bizim xətti-ricətimizi [dönüş yolumuzu] kəsə bilməsinlər. Türklüyə meyl edən müsəlmanlar tamamilə yox edilib yerlərinə xalis gürcülər yerləşdirilməlidir ki, gələcəkdə bir daha başımıza Axıska məsələsi çıxmasın."*

Anladım ki, gürcü demokrat hökumətinin müsəlmanlar haqqındakı planı nə imiş, – dedi.

Müxatabımın [həmsöhbətimin] sözü burada qurtuldu. Bu ciyərsuz [ciyər yandıran, acınacaqlı] hadisəyə dair alacağım qanlı xəbərləri yenə yazaram.

*Ə. H.*

**Əlavə:** Bütün türkcə, rusca qəzetə idarələrindən rica edirəm ki, bu məqaləni dərc eyləsinlər.

*Ə. H.*

## BAKI XƏBƏRLƏRİ

### İstinaf Məhkəməsinin (Palatasının) rəsmi-güşadı

Dünən Bakı İstinaf [Apellyasiya] Məhkəməsinin (Palatasının) rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu. Sabiq Okrujnoy sud [Nahiyə məhkəməsi] binası xalçalar və göyərti [yaşıl budaqlar, çələnglər] ilə bərabər bəzənmiş, musiqi dəstəsi çalırdı. Rəsmi-güşadda Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski başda olmaq üzrə bütün Hökumət əzaları [üzvləri], məhkəmə sədri, üzvlər və xidmətçilər və Bakıdakı dava vəkilləri hazır olmuşlardır. Təfsilat sabahkı nömrədə...

### Səhiyyə işləri

* Səhhəti-Ümumiyyə [Səhiyyə] naziri Bakı qubernatoruna məlum edir ki, Bakı sakinləri Cəfərqulu Həmzəli oğlu, Müseyib Ələkbər oğlu, Hacəli Məhəmməd oğlu, Balakişi Əbdürrəşid oğlu, Vladimir Şpak və Məhəmmədnağı Hüseyn oğlu gizli surətdə olaraq mal və qoyun kəsməkdə müttəhim edilmişlərdir. Buna binaən [buna görə], məzkur [adı çəkilən] şəxslərin təhti-mühakiməyə alınmasından ötrü lazımi binagüzarlıq edilməlidir [sərəncam verilməlidir].

* Səhhəti-Ümumiyyə naziri Bakı qubernatoruna məlum edir ki, dəfəatla [dəfələrlə] elan verilib və binagüzarlıq [xəbərdarlıq] edildiyinə baxmayaraq bəzi evlərdən küçəyə zibil tullanılması müşahidə olunmaqdadır. Şəhərdə xəstəlik davam etdiyini nəzərə alaraq hifzüssihhəyə müzirr [sağlamlığa zərərli] olan böylə hərəkətin önü alınmasını məzkur Nəzarət [adı çəkilən Nazirlik], qubernatordan rica edir.

* Gürcüstan Müsəlman Şurayi-Millisi [Milli Şurası] sədri Əlimirzə Nərimanov cənabları xidməti vəzaif [tapşırıqlar] üçün Bakıya varid olmuşdur [gəlmişdir].

**İtibdir**

Elxani İsrafil oğlu 7 yaşında, başında ağ papaq, əynində boz pencək iki aydır itibdir. Onun barəsində məlumatı olanlardan çox xahiş edirəm ki, gəlib mənə xəbər versinlər. Balaxanski küçə, nömrə 43. İsrafil Abbas oğlu.

**ƏRƏBLİNSKİNİN QƏTLİ ƏTRAFINDA**

Tiflis Türk Dram Cəmiyyəti artistləri tərəfindən idarəmizə böylə bir teleqram gəlmişdir:

*"Tiflis Türk Dram Cəmiyyəti artistləri müsəlmanların ədəbiyyat və sənayeyi-nəfisəsi [incəsənəti] ulduzu olan, bütün islam aləmində şöhrət qazanmış artist Hüseyn Ərəblinskinin qətl edilməsini eşidərək mükəddər olmuşlardır. Ey böyük müəllimimiz! Allah sənə rəhmət etsin və səni hörmətli tutanlara əcri-cəmil əta eyləsin [gözəl əvəz, yaxşı mükafat versin]!*

*Cəmiyyət vəkili: Bağırov"*

* * *

Möhtərəm müdir əfəndi!

Bu məktubumun dərcini rica edirəm.

Keçən gün, martın 7-sində Bakı deposunda olan müsəlman əmələ və ustaları nümayəndələri mənim yanıma gəlib, canilər tərəfindən fəcianə bir surətdə qətl edilən hamının sevgilisi, məharətli artist Hüseyn Ərəblinskinin ailəsinə və yoldaşlarına qəzetəniz vasitəsilə izhari-yə's və təəssüf etməyi [hüzün və kədərlərini bildirməyi] xahiş etdilər. Biz müsəlman fəhlələri Ərəblinski şəxsində bir hürriyyət və istiqlaliyyət mübarizi və bir səhnə müəllimimizdən məhrum olduq. Miqdarı az olan ziyalılarımız arasından qəddar əli ilə bu ziyalını aramızdan yox edən qatil ən şiddətli cəzaya düçar olmalıdır. Bunu biz təkidlə xahiş edirik.

*Mühəndis: A. B.*

* * *

Mərhum Hüseyn Ərəblinskinin hərəmi Asiya xanım Ərəblinski Bakı qubernatoruna bir ərizə verərək məlum etmişdir ki, Ərəblinskinin qətlinə birinci səbəb və müqəssir olan Salam Zeynalov nədənsə həbsdən azad edilmişdir. Məzkur [adı çəkilən] qatil, arvadı Asiyanı dəxi öldürməklə təhdid edir. Onun qohumlarından olan İsmayıl dəxi arvadı təhdid edir və hər gün onun arvadı evinə gələrək onu müqəssir etməməyi tələb edir. Bunu məlum edərək Asiya xanım qubernatordan rica edir ki, yuxarıda göstərilən şəxsləri tövqif edib [tutub] həbsə alsın. Çünkü o, köməksiz arvad olduğu üçün onların qorxusundan evdən kənara çıxa bilməyir. Hərgah, bu iş etinasız qalarsa, həman şəxslərin arvadı öldürəcəklərinə şübhə yoxdur.

**ƏRZAQ İŞLƏRİ**

- Bakı Mahal Kəndçilər İttifaqı, Ərzaq Nəzarətinə müraciət edib İttifaqın məsuliyyəti altında kəndlilər arasında paylanmaqdan ötrü düyü buraxılmasına icazə verilməsini xahiş etmişdir.

- Bakı Mahal Kəndçilər İttifaqı, Ərzaq Nəzarətinə müraciət edib Nəzarət binasında Kəndçilər İttifaqının dəftərxanası üçün otaqlardan birinin vagüzar edilməsi [verilməsi] xahişində bulunmuşdur.

- Ərzaq Nəzarəti Balaxanı-Sabunçu polismeysterinə xəbər vermişdir ki, Ərzaq Nəzarəti tərəfindən "El dükanı" istehlak cəmiyyətinə 100 put lobu, 50 put kişmiş, 50 put təmizlənmiş və 50 put da təmizlənməmiş düyü buraxılmışdır ki, Sabunçu əhalisi arasında təqsim edilsin [paylansın]. Bu şeylər, bu qiymətlə buraxılmalıdır: lobunun putu 100 manata, təmizlənmiş düyü 180, təmizənməmiş düyü 160 manat, kişmiş 140 manat. Adam başına düyü, kişmiş və lobudan bir girvənkə veriləcəkdir. Ərzaq Nəzarəti polismeysterdən xahiş edir ki, bu şeylərin əhali arasında düz və doğru paylanmasına diqqət edib, axırda Ərzaq Nəzarətinə xəbər versin.

**BAKI QUBERNİYASINDA**

**Quldurlar ilə mübarizə**

Cavad qəzasının qaimməqamı [qəza rəisi] Bakı qubernatoruna məlum edir ki, axır vaxtlarda İran quldurları sərhədi keçərək oraya yaxın olan ətraf kəndlərə hücumla dinc əhalini qətl-qarət etməyə başlamışlardır. Uyezd polis dairəsinin qaravul dəstələri təşkil edilmək üzrə olduğundan, quldurlara mane olub onların önünü almaqdan acizdirlər. Buna binaən [buna görə], Bakı qubernatoru Hərbiyyə vəzirinə [nazirinə] müraciətən quldurlarla mübarizə etməkdən ötrü qoşun dəstələri göndərilməsini rica etmişdir.

**"Vergi"**

Binəqədi, Xırdalan və Digah kəndlərinin camaatı öz vəkilləri vasitəsilə Bakı qubernatoruna müraciətən məlum etmişlər ki, neçə vaxt bundan əqdəm [qabaq] məzkur [adı çəkilən] kəndlər Balaxanı-Sabunçu qalabəyisinin [komendantının] binagüzarlığı [sərəncamı] ilə Biləcəri kəndinə mülhəq edilib [birləşdirilib] və dörd kəndə bir nəfər Biləcəri kəndi əhli Məhəmmədcəfər Əbdüssəməd oğlu yüzbaşı təyin edilmişdir. İndi həman yüzbaşı məzkur kəndlərdən dəftərxana xərci olaraq hər ay beş min manat pul tələb edir. Kənd camaatının isə həmin "vergi"ni əda etməyə [verməyə] qüvvəsi yoxdur. Keçmiş müharibələrdə hər cəhətdən zərərdidə olub artıq dərəcə ehtiyac içində olduqlarını göstərərək kəndlilər qubernatordan rica edirlər ki, onları yüzbaşının təyin etdiyi vergidən azad etsin və məzkur kəndlər Biləcəri kəndindən ayrılıb sabiqki qərar üzrə hər kənd öz yüzbaşısı tərəfindən idarə edilsin.

**Balaxanı kəndində**

Martın 11-ində Balaxanı kəndi camaatı tərəfindən ümumi iclas dəvət edilib, zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

1) Əxzi-əsgər [Hərbi qulluğa çağırış] heyəti idarəsinə yeni dəvət edilən əsgərlər barəsində siyahı tərtib edib onların haqqında lazımi məlumat vermək üçün iki nəfərdən ibarət bir komissiya intixab

edilir [seçilir] və həman komissiyaya kərbəlayi Balakərim Kərimov və Dilim Budaqov seçilirlər.

2) Vergiləri təqsim etmək [bölüşdürmək] üçün Əlisabit Bağırov və Hüseyn bəy Hacıbəy oğlu seçilirlər.

Sonra iclas camaat işlərində bəzi suiistemalda [sui-istifadədə] bulunan şəxslərin və camaata mütəəlliq [məxsus] olan məbləğ barəsində müzakirədə bulunub qərar verir ki, həmin işləri təhqiq edib və sui-istemalda bulunan şəxsləri təhti-mühakiməyə almaq üçün bir təftiş komissiyası və bir nəfər də xəzinədar [mühasib] intixab edilsin. Bir qədər müzakirədən sonra iclas müttəfiqülqövl olaraq [yekdilliklə] zeyldəki şəxsləri intixab edir: Tatos Dadaşov, Əlihüseyn Axundov, Qəni Əlimərdanov, Fətulla Hüseynov və Ağahüseyn Fərəcullayev təftiş komissiyasına və Xanmirzə Xanmirzəyev xəzinədarlığa seçilirlər.

Bundan sonra, iclas kəndə bir təbib dəvət edilməsi məsələsini müzakirə edərək qərardad edir ki, bu barədə Sovet Syezdə müraciətən rica olunsun. Çünkü Sovet Syezd Xərasan və Qırməkidə olan neft quyuları sahiblərindən put hesabı olaraq müəyyən məbləğ alır. Buna görə də Balaxanı kəndinə məxsus bir təbib dəvət etmək məzkur idarənin borcudur.

## GÜRCÜSTANDA

### Gürcüstan Məclisi-Müəssisanı

Gürcüstan Məclisi-Müəssisanında firqə nümayəndələrinin miqdarı bu qərar üzrədir:

Sosial-demokratlar 109; Milli-demokratlar 8; Ədəmi-mərkəziyyətçi sosialistlər 8 və eserlər 5. Bitərəf, müstəqil, radikal-demokrat və daşnaksaqanların nümayəndələri yoxdur.

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Elan**

Salyan Ünas [Qızlar] Məktəbi-ibtidaisi üçün 2 türk müəlliməsi lazımdır. Xahiş edən xanımlar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Qəzetələrdən**

səh. 250. "Məclisi-Əyan": Osmanlı dövlətində konstitusiyalı monarxiya rejimində Məclisi-Məbusanla birgə Məclisi-Ümumini əmələ gətirirdi. Məclisi-Əyan Məclisi-Ümuminin yuxarı palatası idi. 1876-cı ildə qurulmuşdu.

səh. 251. "Gənc türklər" (yaxud "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkət.

səh. 252. Kornilov alayı: Rus ordusunun hərbi birləşməsi; 1917-1922-ci illərdə mövcud olmuşdur. Könüllü ordu yarandığı gündən etibarən Kornilov alayı onun tərkibində yer almışdır. General Lavr Kornilovun adıyla bağlıdır.

"Bu bandalar müntəzəm olaraq, milis arasında da adamları vardır.": Belə başa düşülməlidir: "Bu bandalar yaxşı təşkilatlanmışdır və milis arasında da adamları vardır."

**Dağıstan əhvalı**

səh. 253. "Dikeriya… dikeriyalılar…": Osetinlərin subetnik qrupu olan diqorlar və Şimali Osetiyanın qərbində diqorların yaşadığı ərazi olan Diqoriya nəzərdə tutulur.

səh. 255. "…inquşların tərki-silah məsələsinə Nikolay…": Rusiya imperatoru II Nikolay nəzərdə tutulur.

**İran işləri**

səh. 257. "Cəngəlilər": İranda 1915-1920-ci illərdə Qacarlara qarşı partizan hərəkatı (Cəngəlilər hərəkatı) iştirakçıları.

**Ticarət haqqında**

səh. 259. "edadi": orta məktəbin ali təhsilə hazırlıq mərhələsi; lisey.

**Axıska qırğını**

səh. 260. "...həbs edib Tiflisə, qalaya göndərmiş...": Tiflisdə, XIX əsrin əvvəllərindən etibarən həbsxana kimi istifadə edilən tarixi Metex qalası nəzərdə tutulur.

"...bir gün toy ilə...": qəzetdə "bir" yerinə "bu" getmişdir.

səh. 261. "Sərvər bəy": Mesxet müsəlmanlarının liderlərindən biri olan Atabəyov Osman Sərvər bəy nəzərdə tutulur.

səh. 263. "Ə. H.": bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

**Bakı quberniyasında**

səh. 266. "Sovet Syezd": Bakı Neft Mədənçiləri Qurultayı Şurası nəzərdə tutulur.

**Gürcüstanda**

səh. 266. "sosial-demokratlar": Gürcüstan Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

"milli-demokratlar": Gürcüstan Milli-Demokrat Partiyası nəzərdə tutulur.

"ədəmi-mərkəziyyətçi sosialistlər": Gürcüstan Sosialist-Federalistlər Partiyası nəzərdə tutulur.

"eserlər": Gürcüstan Sosialist-İnqilabçılar Partiyası nəzərdə tutulur.





**Çərşənbə axşamı, 18 mart 1919-cu il, nömrə 139**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 15 cəmadiyəlaxir sənə 1337. 18 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## YARAŞMAZ HƏRƏKƏTLƏR

Bugünkü nömrəmizdə dərc edilmiş olan Axıska hadisələrinin mövsuq [etibarlı] bir mənbədən yazıldığı bizcə məlumdur. Biz orada yazılanların doğruluğuna, əfsus ki, inanırıq. Ondan ötrü əfsus çəkirik ki, bu yazılanlara inanmaqla, dostumuz olan Gürcüstan Hökumətinin rəsmi qoşunu tərəfindən Axıska və Azqur müsəlmanları haqqında rəva görülmüş zülümlər icrasına dəxi inanmağa məcburuq. Bu əhvalatın ümum müsəlmanlara, baxüsus [xüsusilə] Azərbaycan türk və islamlarına fəna surətdə təsir edəcəyi şübhəsizdir. Bizim təəssüratımız isə oxucularımızınkından daha şiddətlidir, çünki bu yazılanların bir para yerləri vardı ki, məzlumların hali-ciyərsuzunu [ciyər dağlayan halını] və zalımların vəhşətini o dərəcə şiddətlə göstərirdi ki, bir tərəfdən qarelərin [oxucuların] əhvali-pərişanını bir daha pərişan etməmək, digər tərəfdən arada arzu edilməyən bir xüsumət ehdasına [düşmənçilik törənməsinə] səbəbiyyət verməmək qəsdi ilə, idarəmiz daxilində bilinsə də, idarə xaricində bilinməsin deyə, o yerlərini pozmağa məcbur olduq.

Qafqaz türk və islam ünsürlərinin bir hissəsini təşkil edən axıskalılar haqqında bu qədər zülüm və sitəmin gürcülər tərəfindən icra edildiyini eşidərkən, insanın əli-ayağı boşalır və heç bir şeyə və heç bir kəsə inanmamaq, hər kəsdən və hər bir şeydən rugərdan olmaq [üz çevirmək] arzusu əmələ gəlir. Bu arzunu rəf [yox] etmək və gürcü qomşularımıza qarşı bəsləməkdə olduğumuz rəğbət və xeyirxahlıq hissini xələldar etməmək qəsdilə gürcü qoşunu vəhşətinin qəlbimizdə caygir olmaq [qərarlaşmaq] istəyən fəna təsirlərini azaltmaq üçün bu hadisələrin səbəbi-vüquu [baş vermə səbəbi] haqqında gürcülər xeyrinə olaraq nə qədər fikirlər ediriksə də, o təsirləri kiçiltmək mümkün olmayır. Çünki Axıska müsəlmanlarının bu cürə zülüm və sitəmlərə müstəhəqq [layiq] olacaq dərəcədə günahkar olduğunu təsəvvürə gətirə bilmirik. Siyasi günahlardan ən böyüyü mətbu [tabe olunan, vətəndaşı olunan] dövlətə qarşı xəyanət əməlidir ki, bu günaha mürtəkib olanları [bulaşanları] dəxi o cürə cəza və intiqama layiq bilmək, baxüsus bu halda və bu zamanda əsla caiz deyildir vəhalonki [halbuki] vəhşəti törədən

səbəb, xəyanət-filan olmayıb, bəlkə gürcü məmurlarının yerli əhali haqqında rəva gördükləri sui-müamilatdan [pis rəftardan] əmələ gələn bir vəqədir.

Məlum olduğu üzrə, hökumətimiz Axıska türkləri haqqında rəva görülmüş olan bu zülümü eşidər-eşitməz, gürcü hökumətinə bir nota göndərib bu xüsusda protesto etdi. Bu notaya cavab olaraq gürcü hökuməti bizim protestomuzdan incidiyini bildirir və hökumətimizin rəftarını Gürcüstanın daxili işlərinə qatışmaq deyə adlandırıb izhari-təəccüb edir.

Axıska və ümumən qərbi-Qafqaziya [Qafqaziyanın qərbi] torpağı məsələsi Qafqazda beynəlmiləl bir məsələ şəklini aldığı, deyil Azərbaycan və Gürcüstanda, hətta Qafqazda olan Müttəfiqlər nümayəndələri tərəfindən etiraf edilən bir vəqədir. Oralarda baş verməkdə olan hadisat və hərəkatın ruhu həm Gürcüstanı, həm Azərbaycanı, həm Dağıstanı və həm Ermənistanı bu gün müstəqil bir hökumət şəklində bərqərar etdirən eyni ruhdur. Görünür ki, Gürcüstan hökuməti, istiqlalından əvvəl bu ruhun pərəstişkar və sənaxanı [tərifləyəni, öyəni] olarkən, istiqlalı bə'dində [müstəqil olandan sonra] başqa bir nöqteyi-nəzərə köçüb "azad millətlər" məsələsində müəyyən görünən ümumi nəzərə şərik olmaq istəməyir. Yəni gürcü hökuməti millətlər azadlığı deyil, Gürcüstan azadlığı nəzərini iltizam edib, qədim Gürcüstanın tarixdə mövcud olan yerlərini tamamilə ələ gətirmək üçün qədim Gürcüstan yerlərinin bugünkü etnoqrafi dəyişik[lik]lərini nəzərə almayıb, "azad millətlər" şüarını tapdalaya-tapdalaya mənzili-məqsədə tərəf yeriməkdədir.

Əvvəla, burası var ki, tarix məsələsi mübahisəli bir məsələdir. Əgər işə bu məsələ nöqteyi-nəzərindən baxmaq lazım gəlirsə, o halda deyil yalnız bir Gürcüstan tarixini araşdırmaq, bəlkə başqa Qafqaz millətləri tarixlərinin də səhifələrini vərəqləmək lazım olar.

Və saniyən [ikinci olaraq], tarixə istinad edib də bugünkü Qafqaz millətləri vəziyyətini və Qafqazın etnoqrafi xəritəsini nəzərə almamaq buna bərabərdir ki, "özü yaşamaq istəyib də, özgələrə yaşamaq imkanı verməmək". Halbuki biz indiyə qədər gürcü qomşularımızı bunun əks tərəfdarlığı ilə tanıyıb "özü də yaşamaq, özgəni də yaşamağa buraxmaq" mənasında olan arzularını daima alqışlardıq. Əgər bugünkü Gürcüstanın idareyi-ümuru [işlərinin idarəsi] mütəəssib [təəssübkeş] millətçi bir hökumət əlinə tapşırılmış olsa idi, "azad millətlər" şüarı xilafına olan bu rəftar bizi bir o qədər təəccübləndirməzdi. Halbuki bu gunə [bu cür] rəftarın sahibi millətçi deyil, bəlkə sosialist hökumətdir və bizi də təəccübləndirən və heyrətə gətirən, bu sosialist hökumətin bir mütəəssib millətçi məsləkinə yaraşan hərəkət və rəftarıdır.

İştə, biz azərbaycanlılar "azad millətlər" şüarı tərəfdarı olduğumuz cəhətdən qərbi-qafqazlılar türk və islamlarının halına yanırıq və bu yanığımızı Gürcüstan Hökuməti daxili işlərinə qarışmaq qəbili hərəkətdən ədd [hesab] etmirik.

Bundan əlavə, Gürcüstan Hökuməti bunu da bilməlidir ki, təhti-hökumətində [hakimiyyəti altında] olan türk və islamların hər bir ehtiyacat və diləklərinə cavab olaraq top və pulemyotlarla iş görəcəksə, Azərbaycan Hökuməti bu cürə işə, yəni həmcins və həmdin olan məzlumların ah və fəryadına iğmazi-eyn edə [göz yuma] bilməz. Bu hökumət bizimlə dostluq etmək istərsə, bu dostluğun əlamətlərindən olmaq üzrə öz təhti-hakimiyyətində yaşayan müsəlmanlarla hüsnmüamilədə bulunmalıdır. Dostluğumuzu möhkəmləşdirəcək olan bu müamilə Gürcüstanın öz daxili işlərinə də hüsntəsir edəcəyi şübhəsizdir.

Yoxsa bir gün Qafqaz müsəlmanları arasında öz fəaliyyəti-millətpərvəranəsilə məşhur olan Faiq əfəndi kimi möhtərəm zatların Gürcüstan məhbəslərində təhqir edilməsini, o biri gün Axıska müsəlmanlarının topa və güllləyə tutulduqlarını eşidəcək olarsaq, təbiidir ki, gürcülərə qarşı qəlbimizdə bəslədiyimiz olan meyil və rəğbət hissi get-gedə məhv olub, əvəzində qeyri-məmul [arzuolunmaz] hisslər peyda olar. Bu isə, Gürcüstanın və gürcülərin xeyiri deyildir, zənn edirik.

Ümidvar oluruq ki, bugünlərdə səmimiyyətlə alqışladığımız olan Gürcüstan Məclisi-Müəssisanı bu hadisata dərin və geniş bir nəzərlə baxıb, qərbi-Qafqaz məsələsi həllində "Azad millətlər" şüarına riayətdən əlavə Gürcüstan təhtihakimiyyətində olan müsəlmanların bütün ehtiyacatlarını rəf edər və haqsız olaraq top-tüfəng istemalını [işlədilməsini] öz hökumətinə tərk etdirər.

*Hacıbəyli Üzeyir*

**KABİNƏ TƏŞKİLİ XÜSUSUNDA**

Parlamanın dünənki iclasında sədr cənabları Parlaman əzalarına [üzvlərinə] elan etdi ki, yeni Kabinə təşkili əmrini [işini] özünə aid olan xətt üzrə Nəsib bəy Yusifbəyli həzrətlərinə tapşırıb, mümaileyh [adı çəkilən] həzrətlərinə Rəisi-vüzəralıq [Baş nazirlik] mənsəbini təklif etmişdir. Eşitdiyimizə görə, Nəsib bəy həzrətləri bugünlərdə Kabinəni düzəldib təsdiq üçün Parlamana təqdim edəcəkdir.

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Royter acentəliyindən)*

**Müttəfiqlər və Almaniya**

"Tayms" qəzetəsinin Paris müxbiri məlum edir ki, Brükseldəki mütarikə [atəşkəs] heyətinin sabahkı iclasında Müttəfiq dövlətlər Almaniyaya ərzaq verməyə özlərinin nə qədər insaniyyətpərəst olduqlarını yenidən isbat edəcəklərdir. Onlar Almaniyaya hər ay 300 min ton taxıl və 70 min ton yağ verəcəklər. Almaniyanın ticarət donanması yaxın günlərin birisində Müttəfiqlərə təslim ediləcəkdir. Həmin donanma Müttəfiqlər nümayəndələrindən ibarət bir komissiyanın təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Məzkur [adı çəkilən] komissiyaya Amerika və Almaniya tərəfindən bir nümayəndə qəbul olunacaqdır. Müxbir məlum etmişdir ki, Kil kanalı haqqındakı məsələ hələ 10 nəfərdən ibarət olan heyətin müşavirə və müzakirəsinə qoyulmamışdır. Helqoland məsələsi isə

hələ qət edilməmiş [qərarlaşdırılmamış], fəqət aşkardır ki, o, Almaniyaya qaytarılmayacaqdır. İngiltərə bəhriyyunları [dənizçiləri] zənn edirlər ki, məzkur cəzirənin [adanın] İngiltərə dəniz işlərində heç bir əhəmiyyəti yoxdur.

**İngiltərədə ərzaq azlığı**

İngiltərədə müşahidə olunan ərzaq azlığı nəqliyyat işlərinin çətinliyindən nəşət etmişdir [irəli gəlmişdir]. İngiltərə ərzaq naziri bu xüsusda məlum etmişdir ki, Müttəfiqlərin Şərqi Avropa və Cənub-şərqi Avropada vücuda gəlmiş yeni hökumətlərin ərzaq ehtiyacı düşmənin ehtiyacından irəli olaraq rəf edilməlidir [aradan qaldırılmalıdır].

**İngiltərə qoşunlarının miqdarı**

İngiltərənin Hindistandan savay, kəndi məmləkəti və xaricdə olan qoşunlarının miqdarı 150 min nəfərdir. Bu miqdar 79570 nəfərə qədər əskiləcəkdir.

**Yunanıstan məsələsi**

Yunanıstan işlərinə yaxın komissiyanın məlumatına nəzərən Yunanıstanın torpaq barəsində olan iddiası xüsusunda komissiyada razılıq əmələ gəlməmişdir. Komissiyada əksəriyyət İzmirin Yunanıstana verilməsinə tərəfdar olmuşlardır. Buna da səbəb iki şeydir. Əvvəla, İzmir şəhəri əhalisi əksərən yunanlılardan ibarətdir. Saniyən [ikincisi], İzmir Atina ilə rubəru [üzbəüz], Adalar dənizi ilə Yunanıstanı bölən bir nöqtədir. Komissiyada olan Amerika üzvlərinin nöqteyi-nəzəri başqa imiş. Onlar İzmiri Kiçik Asiya ticarəti üçün ən lazımlı bir iskələ [liman] hesab edirlər. Bu xüsusda komissiyanın hər iki cərəyanının rəyi qəti surətdə həll edilmək üçün düvəli-müəzzəmə [böyük dövlətlər] şurası mülahizəsinə mühəvvəl ediləcəkdir [tapşırılacaqdır]. Hal-hazırda İtaliya əlində olan Dodekanes cəzirələri Yunanıstana verilir.

* Brükseldə Müttəfiqlər nümayəndələri [ilə] Almaniya nümayəndələrinin mütarikə şəraiti [atəşkəs şərtləri] xüsusunda olan danışıqlar[ının] nəticəsi olaraq Almaniyanın maliyyə ablukasının [blokadasının] azad ediləcəyi gözlənir. Bu abluka, ticarəti abluka [ticarət blokadası] ilə bərabər tətbiq edilmişdi və hamı bitərəf dövlətlərə məlum edilmişdi ki, hərgah, onlar Almaniyaya mali müavinətdə [yardımda] bulunarlarsa, Müttəfiqlərin maliyyə müavinətlərindən məhrum olacaqlardır. Almaniyaya müavinətdə bulunan bitərəf bankirlər qarşısına dəxi tədbirlər ittixaz edilmişdi [tədbirlər görülmüşdü]. Böyləliklə, bütün dünyanın nəqdiyyə bazarlarından Almaniyanın əlaqəsi kəsilmişdi. Şimdi maliyyə ablukası götürüldükdən sonra bitərəf bankirlər Almaniyaya ərzaq üçün pul verə bilərlər və böyləliklə Almaniya ərzaq işlərini islah edə biləcəkdir.

## SÜLH ƏTRAFINDA

**Böyükadada**

"Tayms" qəzetəsi Müttəfiqlərin bolşeviklərə Böyükada Konfransına gəlmələri təklifinin nə növ təsir etdiyini xəbər verir.

"Pravda" qəzetəsində Daxiliyyə komissarı Pozern yazır ki, zənnimcə, biz gərək fürsətdən istifadə edib nümayəndələrimizi Böyükada Konfransına göndərək. Fəqət, bu şərtlə, orada danışılan sözlərin hamısını bütün cahan fəhlələri eşitməlidirlər. Bundan əlavə, biz Müttəfiqlərdən tezliklə Arxangelsk və Murmanın təxliyəsini tələb etməliyiz. Əks surətdə biz Müttəfiq dövlətlərin bu təklifinin səmimanə olduğuna inana bilmərik.

Alınan bir teleqraf münasibətilə dəvət edilmiş təcili iclasda Zinovyev demişdir ki, hal-hazırda xeyli müşkül bir halda olan İngiltərə, Fransa və Amerika quldurlarının planlarını açmaqdan ötrü Böyükada Konfransına nümayəndə göndərməyimiz şəksiz ki, mənfəətlidir. Şura Hökuməti konfrans zamanı silahını əldən yerə qoymayacaqdır. Hər bir zaman Qırmızı ordu və Qırmızı donanmanın qüvvəsini yenə, təzədən bütün dünyaya göstərməyə hazır olacaqdır.

Lenin Petroqrada, Zinovyevə böylə bir müxtəsər teleqraf göndərmişdir:

*"Brest-Litovskda vücuda gətirə bilmədiyimizi ifa etməkdən ötrü Böyükada Konfransına getmək lazımdır."*

**Sülh əqdinə dair**

Almaniya sülh nümayəndələrinin Versal şəhərinə vürudu [çatması] bu ayın axırında gözlənir. Nümayəndələri Müttəfiq dövlətlərin beş nəfər Baş vəkilləri [Baş nazirləri] pişvaz edəcəklərdir.

* Rəisi-cümhur Vilson Parisdə sülh işlərinə ciddi surətdə çalışmağa başlamışdır. Özünün qiyabətində sülh işlərinin sürətlə irəliləməsi göstərir ki, Vilson çox da Parisdə bənd olmayacaqdır. Vilson sülhün bir an əvvəl əqdinə səy edir.

## QƏZETƏLƏRDƏN

**İstanbul-Səlanik**

İstanbul ilə Səlanik [Saloniki] arasında bugünlərdə müstəqim [birbaşa] dəmiryol münasibatı [rabitəsi] başlanmışdır. İstanbul ilə Qalaç arasında seyri-səfayin [gəmi nəqliyyatı] başlanmışdır.

**Hava münasibatı**

İngiltərə ilə Hindistan arasında aeroplan vasitəsilə sərnişin və poçta münasibatı [rabitəsi] başlanacaqdır. Bu səfər yeddi-səkkiz gün çəkəcəkdir.

**Bolşeviklər əleyhinə**

Marşal Foş Almaniyadan tələb etmişdir ki, bolşeviklərlə mübarizə etməkdən ötrü Qrodno şəhərindən keçməyə polyak əsgərlərinə bilamümaniət [maneəsiz] yol verilsin.

**Müttəfiqlərin müavinəti**

"O. Yu." qəzetəsi xəbər verir ki, iki Fransa firqəsi [diviziyası] Müttəfiqlərin nəqliyyat gəmiləri ilə Bosfordan Qara dənizə keçmişlərdir.

Bu əsgərlər general Bertlo ixtiyarına göndərilirlər.

**Mədən Sularında**

Fevralın 15-inə qədər Georgiyevsk və Svyatoy Krest mövqiflərinə [stansiyalarına] xüsusi adamların gəlməsi qadağan edilmişdi.

İndi isə fevralın 10-undan etibarən Könüllü ordu komandanlığı məzkur [adı çəkilən] mövqiflərə və Mədən Suları xəttinə xüsusi adamların gəlib-getməsinə müsaidə etmişdir.

## DAĞISTAN ƏHVALI

**Dərbənddən**

Mart həvadisati-əliməsindən [kədərli Mart hadisələrindən] sonra Dərbənddə yaşayan 13 mindən ziyadə olan müsəlman əhalisi miqdarı 300-dən artıq olmayan bolşevik cildində gələn tarixi milli düşmənimizin ənva və əqsam [növbənöv və cürbəcür] zülümü, əziyyətləri altında əzilib, bilaxirə [axırda] avqustun əvailində [əvvələrində], zöhrdən [günortadan] sonra düşmən tərəfindən fəqət [sadəcə] şəhərin müsəlman hissələri top və mitralyoz gülləri ilə bombardman edilib, cameyi-məscidimizin günbədi-müqəddəsəsi [müqəddəs günbəzi] top nişanəsi oldu. Dörd saat zöhrdən getməmiş ümum müsəlmanlar ünasən və zükurən [qadınlı-kişili] evlərini, əşyalarını düşmənlər üçün buraxıb top-pulemyot gülləri altında dağlara dağıldılar.

Güman olunurdu ki, gələcəkdə fürsət müsəlman əlinə düşsə mazidən [keçmişdən] ibrət edib istiqbalımız uğrunda gecə və gündüz sai olacaqlardır [səy göstərəcəklərdir]. Vəli [ancaq] təəssüflər olsun ki, müsəlmanlar haqqında rəva görülən cəfalar, təzyiqatlar, dağlarda gecə qaranlığında oğlum vay, qardaşım vay, atam vay deyə analarımızın, bacılarımızın fəryadları yadımızdan çıxıb, şimdi sabiqki rüəsalarımız [başçılarımız], ziyalılarımız, avamlarımız [qara camaatımız] hər kəs kəndi mənafeyi uğrunda çalışırlar. Nə bir gələcəyi nəzərə alan və nə bir vətən və millət uğrunda avam camaatımızı çalışmağa təşviq və tərğib edən [rəğbətləndirən] var.

İki aydan ziyadə olar ki, dövlətimiz tərəfindən polkovnik Hacıyev həzrətləri Dərbənddə üçüncü Dağıstan atıcı batalyonu təşkil etməyə təyin olunublar. Bədbəxtanə, bir nəfər isə olsun məzkur batalyona yazılan yoxdur!..

Məziyunileyh [adı çəkilən şəxs] tərəfindən yazılan dəvətnamələr fəqət divarlarda oxunulur ki, məhafil və məcalislərdə [yığıncaqlarda və məclislərdə] fəqət nə gözəl iş olduğu işlədilir. Əcəba nə üçün üləmalarımız [alimlərimiz, ruhani alimlərimiz] təşviq və tərğib etməyirlər? Məgər bizim qüvveyi-hərbiyyə ilə müsəlləh olub [silahlanıb] düşmən əleyhinə hazır olmağımız şər'ən [şəriətə görə] lazım deyilmi? Əcəba düşmənin amalı və məqsədi dini-islamın məhv olmağı uğrunda deyilmi? Əcəba, qiyamət günündə məhkəmeyi-ədliyyeyi-ilahiyyə [ilahi ədalət məhkəməsi] hüzurunda üləmalarımız avam camaatı təhris və tərğib etmədikləri [təşviq etmədikləri, rəğbətləndirmədikləri] üçün "zəmmanə əslihələri ilə müsəlləhlənin" [zəmanə silahları ilə silahlanın] və bu əmsalda varid olan ayat və əhadisləri [Quran ayələrini və Peyğəmbər hədislərini] camaata yetirmədikləri üçün məsul olmayacaqlarmı?

Ziyalılarımız nə üçün sair millətlərin ziyalılarından ibrət edib kəndi vətəni və milləti yolunda fəaliyyət göstərməyirlər?

Nə vaxt bu qəflət uyqusundan ayılıb, kəndi mənafeyi-şəxsiyyələrindən əl çəkib vətənimiz və millətimiz yolunda çalışacayıq?

Cənabi-haqq həzrətləri biz Dərbənd müsəlmanlarına vicdan, hümmət və vətən uğrunda sai olmağı kəramət buyursunlar.

*M. H.*





## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

- Məsai [Əmək] nazirinin fəhlələrə məvacib verməyi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ticarət və Sənaye Nəzarəti ilə Maliyyə Nəzarətinə tapşırılsın ki, işbu mart ayının 17-sinə 10 milyon rubladən az olmamaq şərti ilə mədən sahiblərinə pul buraxılsın ki, fəhlələrin məvaciblərini verə bilsinlər. İşbu məvaciblər martın 18-indən verilməlidir.

- Daxiliyyə Nəzarətinin polis nəfəratı üçün silah almaq üçün para təxsisi [pul ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Qarabağ general-qubernatorluğu üçün ayrılan məbləğdən silah almaq üçün Daxiliyyə Nəzarətinə 200 min rublə buraxılsın.

- Maarif naziri müavininin Bakı Müqəddəs Nina məktəbi ləvazimat və mühimmatı [təchizatı] üçün 30 min rublə təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif Nəzarətinin Müqəddəs Nina məktəbi smetasına buraxılmış 21 min rubləyə 9 min rublə də əlavə edilsin. Məclisi-Məbusanda Nəzarət smetası təsdiq edildikdən sonra 20 milyon fonddan veriləcək işbu məbləğ qaytarılmalıdır.

**Məsai Nəzarətində**

- Baş Fabriçni müffətiş Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, Bakı quberniyası fabriçni müfəttişliyi xidmətçilərinə mart ayı məvacibi qədər Nəzarət işlərini yerinə yetirmək üçün maaş verilsin.

- Məsai Nəzarəti Ərzaq Nəzarətinə müraciətən bəyan etmişdir, fəhlələr üçün buraxılacaq 5 min put un fəhlələr miyanında təqsim [fəhlələr arasında paylanmaq] üçün Mərkəzi Ev Komitəsi ixtiyarına verilmişdir. Binaənileyh [ona görə], Ərzaq Nəzarəti həman unu Mərkəzi Ev Komitəsinə versin.

## ƏSGƏRLİYİMİZƏ AİD

Türkcə "Azərbaycan" qəzetəsinin 90-ıncı nömrəsində Cümhuriyyətimiz Məşixət İdarəsinin sədrləri və idarə üzvləri ilə imzalanmış və Azərbaycan müsəlmanlarına xitabən vəz və nəsihətlər təb [çap] olunmuşdu. Bu ali xitabəni Qurani-şərifin ayeyi-kəriməsi "Və əiddü ləhüm məstəta'tüm min-qüvvətin..." ilaxır başlayıb Qafqaz müsəlmanlarının hadiyi-din [dini rəhbər] olan ruhani babaları, cavanlarımıza əsgərliyin şərəfini göstərirlər. Bu nəsayehdəki ayat və əhadisi-nəbəviyyədən vazehdir ki [nəsihətlərdəki ayələrdən və Peyğəmbər hədislərindən aşkar olur ki], zamanımızın tələbinə görə, hər salim və silah daşımağa imkanı olan müsəlman, dəhşətli və fəlakətli vaxtlarda ruhən, bədənən və malən [malı, maddi imkanı ilə] müvəzzəf və mükəlləfdir [borclu və cavabdehdir] ki, ə'danın [düşmənlərin] hücum və təərrüzatını [təcavüzlərini] kəndi vətənindən rəf [aradan qaldırmağa] və dəf etməyə çalışa.

Genə bu ayə və hədislərdən məlum olunur ki, böylə bir böhranlı zamanda özünü müsəlman və türk hesab edən şəxs, millətinin canı, irzi, namusu və malı qəsdində duran və fürsət tapdığı halda

zəmin və zamandan nəfbərdar olub [istifadə edib] əf'al və ə'mali-qəddaranələrini [qəddarcasına işlərini və əməllərini] icra etməkdən vaz keçməyən düşmənlərin təərrüzü qabağında səddi-ahənin [dəmir sədd] kimi dayanıb onların amali-rəzilanələrini [rəzil arzularını] nəticəsiz qoymağa səy etməyən kimsənə, Allah-təala hüzurunda bir günahi-kəbir etmiş [böyük günah işləmiş] hesab olunacaqdır.

Əsgərlik məsələsinə ruhanilərimiz şəriət nöqteyi-nəzərindən böylə baxırlar.

İşə siyasi nəzərlə baxanda daha aşkar görünür ki, bir millət və dövlətin məzbut [nizamlı] və fünuni-hərbə müvafiq [hərbi elmlərə uyğun] bir müəyyən və kafi qədər əhəmiyyətli əsgəri – ki harisü-pasibani-millətdir [millətin keşikçisi və mühafizəçisidir] – mövcud olmazsa, böylə millətin nəinki şan və hörməti, bəlkə mövcudiyyəti-təbiisi dəxi çox asan vəchlə düşmən ayaqlarının altında paymal [tapdalanar] və məhv olar. Bu səbəbdəndir ki, əsrimizin ən mədəni millətləri və dövlətləri arasında "Hazır ol cəngə, əgər istər isən sülhü-səlah" cümləsi məşhur bir şüar dərəcəsini alıbdır.

Bizim əslimiz türk və dinimiz islamdır. İslamın əvvəl günlərindən başlayaraq Peyğəmbəri-zişanımız [şanlı Peyğəmbərimiz] və onun əshab və ə'vanı [köməkçiləri, yoldaşları] bu dini nəşr edəndə [yayanda], əllərində Quran tutub və bellərinə də qılınc bağlayardılar. Ata-babalarımız dəxi həmişə şücaət və qoçaqlıqla hörmət və şərəf qazanıb, daima öz el və əqrəbalarını qılıncla mühafizə edibdirlər. Bəs [elə isə], aşkar və məlumdur ki, qılınc – islamiyyət və türklük şərəfinin və aqibətinin gözətçisi olubdur.

Qarelərimizin [oxucularımızın] nəzər və fikirlərini tariximizin tərəfinə ətf edib türk dilavərlərinin [qoçaqlarının] əsgərlik və qılıncla nə qədər ülfət və ünsiyyətlərini yad etməyi münasib görürəm. Türk qəhrəmanları müharibəyə gedən zaman bazubəndlərinə Quran və kəmərlərinə qılınc bağlayıb, bunların hər ikisini də bir dərəcədə müqəddəs hesab edirdilər. Bu şəhamətli [igid] əcdadımız Qurana yəmin edən səyaqda "qılıncım haqqı" deyib də ehqaqi-haqq edirdilər [hər şeyə öz haqqını verirdilər] və bu təqdis etdikləri [müqəddəsləşdirdikləri] qılıncla vətənlərinin sərhəd və sınırlarını təərrüzati-ə'dadan [düşmənlərin hücumlarından] qoruyurdular.

Vətən! Bu həqiqi əhbablarını [dostlarını; sevənlərini] məftun edən kəlmənin mənasını bizim camaatın əksəri ancaq təvəllüd etdiyi [doğulduğu] mahaldan ibarət zənn edib, çox vaxt hirasət və siyanəti [qorunub saxlanması, mühafizəsi] barəsində qeydsizlik göstərirlər vəhalonki [halbuki], biz gərək vətənimizi bir valideyi-mehribana təşbeh edib [mehriban anaya oxşadıb] və necə ki, hər bir şəxs kəndi madərini [anasını] məhəbbəti-səmimi ilə sevib, onu hər bir dəhşət, müsibət və bəlalardan qurtarmağı və özündən xoşnud [razı] etməyi özünə borc bilir, öylə də gərək Qafqaz müsəlmanları bilsinlər ki, tariximizin bu təhlükəli vaxtında vətən – bu ümumi anamız məyus nəzərini özünün şəci [şücaətli] əsgər övladları tərəfinə çevirib zəbani-hal ilə [hal dili ilə, öz halı ilə] onlardan yardım etməyi ciddiyyətlə tələb edir və deyir ki, "Mənim namus və hüququmu mühafizə və təmin etmək sizə bir vəzifeyi-müqəddəsdir".

Ey Qafqazın türk balaları, gənc əsgərlər! Türklük tarixinin hər səhifəsinə baxsanız, görərsiniz əslaf [sələflərimiz, bizdən əvvəlki nəsillər] və əcdadımız vətəni müqəddəs bilib onun əzizliyindən ötrü heç bir fədakarlıqdan geri durmayırdılar. Biz Qafqaz türklərinin damarlarında cövlan edən qəyur [qeyrətli] əcdadlarımızın qanı gərək bizim cavan əsgərlərə bir heyrətəfza [heyrətə salan] qüvvət verib, silah qullanmağa qüdrəti olanları bilaistisna [istisnasız olaraq] vətəni düşmən təərrüzündən asudə qılmağa mükəlləf edə...

Arslan babaların əhfadı [nəvələri] gərək arslan balaları olaydılar. Amma həqiqətdə biz nə görürüz? O şir nəvə və nəticələrinin bir çoxu bu axırıncı iyirmi-otuz sənələrdən bəri cəbanət [qorxaqlıq], səbatsızlıq, əcz və məskənət [acizlik və çarəsizlik] dərdinə mübtəla olub dovşana bənzər bir mövcudat olmuşdurlar. Əgər bu az vaxtda böylə kəsalət [süstlük], qorxaqlıq və rəzalətlə ömür keçirdərsək, yəqin o cahangir babalarımızın xasiyyətlərinin bizim qəlbimizdən və cənbəmizdən [bədənimizdən] bilmərrə silinib məhv olmasına və millətimizin həlak və izmihlalına [puç olmasına] səbəb olacağız.

Bu vətən və əcdadımıza xəyanəti izalə etməkdən [aradan qaldırmaqdan] ötrü bizim cavanlara – ki millətin səadəti-istiqbalı [gələcək səadəti] onlara əmanətən tapşırılıbdır – lazım və vacibdir gələcəyimizə diqqətlə baxıb irəlidə gözlədiyimiz bəxtiyarlıq şəraitindən [şərtlərindən] olan (hal-hazırda ən ümdəsi) əsgərlik vəzifəsini necə ki layiqdir ifa etməyə, millətimizin hüquqlarını, heysiyyət və vüqarını saxlamağa səy edib bizim, müzməhil və nabud [məhv və puç] olmağımıza çalışan bədxahlarımıza özlərinin şüurlu, sövlətli [güclü] və qəyur türk əhfadları olduqlarını sübut edib, kamali-fəxr ilə onlara desinlər ki:

*"Fitrət dəyişər sanma,*
*bu qan yenə o qandır"*

*Şərif Mirzəyev*

## KÖHNƏ VƏ TƏZƏ TƏQVİMLƏR

İnqilabın siyasi və ictimai təbədüllatı [dəyişikliyi] ilə bərabər, məişətin sair cəhətlərinə də onun sirayəti aşkardır. Bunu həm tarix sübut etmişdir, həm də Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] bir çox nəticələri gözlərimizin önündədir. Rusiyanın təbədüllata uğramış məsələlərindən biri də köhnə təqvimi tərk ilə təzə təqvimin istemalıdır [işlədilməsidir]. Köhnə və təzə təqvimlərin nə olduğunu bilmək üçün onların bir qədər tarixlərindən bəhs etməliyiz.

Bəni-növi-bəşər [insan övladı] özünün təqvimə ehtiyacını ən qədim vaxtlardan bəri hiss edərək, onun tərtibi üçün bir çox səy və cəfalar çəkmişdir. Bəziləri səfəhati-qəməri (фазы луны) [Ayın fazaları] əsas ittixaz ilə [əsas qəbul etməklə] səneyi-qəməriyyə [Ay ili] təqvimini qəbul etmişlərdir. Lakin səneyi-qəməriyyənin böyük bir eybi vardır ki, ildə 10 gün qabağa qaçmaqla bayramları füsuli-ərbəənin [dörd fəslin] hamısında gəzdirir. Məsələn, yay fəslinə təsadüf etmiş indiki orucluq bir zaman sonra qarlı qışa da rast gələcəkdir. Binaənileyh [ona görə], bayramları əvvəlki mövqelərində bərqərar etmək üçün sair bir təqvimin icadına

ehtiyac var idi. Bu məsələ qədim mədəni millətlərdən romalıları pək düşündürürdü. O vaxtın heyətşünasları [astronomları] tapmışdılar ki, kürreyi-ərz [Yer kürəsi] bu məbdeyi-bahardan [baharın başlanğıcından] o biri məbdeyi-baharadək bir dəfə günəşin ətrafında dolaşarkən 365 gün 5 saat 48 dəqiqə və 48 saniyə vaxt sərf edir. Bunu nəzərə alaraq Roma qeysəri Yulius miladdan 45 sənə əqdəm [əvvəl] şəmsi bir təqvimin tərtibinə hökm vermişdir. Bütün günləri aylara təqsim edərək [bölərək] saat, dəqiqə və saniyələrdən azad olmaq üçün, üç əvvəlki illəri 365 və hər dördüncü ili isə 366 günə hesab etdilər. Yəni, hər ildə qırılıb atılan 5 saat 48 dəqiqə və 48 saniyə, dörd ilin ərzində 24 saata qədər bir müddəti-bəhəmə [birgə, ümumi müddət] gətirdiyindən naşi [ötrü], hər dördüncü ili bir gün artıq hesab etməyə qərar verdilər. 365 günlü illərə səneyi-adiyyə (простой годъ) və altı günlülərə də səneyi-kəbisə [uzun il] (високосный годъ) dedilər. Sənə başlanğıcı baharın düxulundan [girişindən] ədd [hesab] olaraq füsuli-ərbəə ayları və onların miqdarı bu minval ilə qət olunmuşdu:

1) Bahar ayları - mart 31 gün, nisan (aprel) 30 gün, mayıs (may) 31 gün.

2) Yay ayları - haziran (iyun) 30 gün, temmuz (iyul) 31 gün, ağustos 31 gün.

3) Payız ayları - eylül (september) 30 gün, təşrini-əvvəl (oktober) 31 gün, təşrini-sani (novembr) 30 gün.

4) Qış ayları - kanuni-əvvəl (dekabr) 31 gün, kanuni-sani (yanvar) 31 gün, şubat (fevral) adi illərdə 28 və kəbisə illərində 29 gündür.

İştə həmin şubat ayı üç il 28 və dördüncü ildə 29 gün olur. Bu bir gün, həman dört ilin müddətində illərdən kəsilib atılmış saat, dəqiqə və saniyələrdən əmələ gəlir. Şubat ayının 28 (adi) və ya 29 gün (kəbisə) olmağını bilmək üçün tarix illərinin ədədini dördə bölürlər: Qabili-təqsim isə [tam bölünürsə] 29, qeyri-qabili-təqsim isə [bölünmürsə] 28 gün olur. Məsələn 1919-uncu il qeyri-qabili-təqsim olduğundan şubatı 28 gün və gələcək 1920-nci ilə isə qabili-təqsim olduğundan şubatı 29 gün hesab olunacaqdır.

Bu təqvimi romalılar icad etdiyi üçün "rumiyyə", şəmsin hərəkətindən götürüldüyü üçün "şəmsiyyə" və mucidi [icad edəni] qeysər Yulius olduğundan da "Yulian" təqvimi deyilərək məşhur olmuşdur. Bu təqvim, qəməri təqvim kimi qaçağan olmayaraq bayram və əziz günləri müdam öz yerlərində və ittifaq düşdükləri fəsillərində göstərir. Roma bütpərəstlərindən qalma bu təqvim, düzgün və təbiətə uyğun olduğu cəhətinə tamam xristian aləminin də məhəbbətini qazanmışdır. Böylə ki, Yulian təqviminin icadından 45 il sonra kanuni-əvvəlin [dekabrın] 25-inci günü həzrəti İsa anadan olur. Bu vəq'ə xristian əhalisi üçün məbdeyi-tarix [tarixin başlanğıcı] ədd [hesab] olunaraq, bunu Yulian təqviminə uydurmaq üçün kanuni-əvvəlin mabaqisi [qalan] altı günü atmaq məcburiyyəti ilə xristian ruhaniləri kanuni-saninin qürrəsini [yanvarın ilk gününü] il başı və məbdeyi-tarix qərar verirlər. Xristianlar əli ilə il başlanğıcı mart ayından kanuni-sani ayına köçürülməyi, Yulian təqviminin əsası və zövqünə böyük rəxnə yetirmişdir [zərər vermişdir] və təqvimin əsası





şəmsin dövr və hərəkəti ilə mütabiq [uyğun] olaraq təbiətin ayıldığı günü, yəni baharın əvvəlini il başı qərar vermişdir. Odur ki, "yeddinci" və "səkkizinci" demək olan september və oktober ayları həqiqətdə də yeddinci və səkkizinci aylar hesab olurdu. Naqisliyi ilə məşhur şubat ayı da sənənin axırına qoşulurdu. Xristian mütəassibini [təəssübkeşləri] böylə nöqtələrə mültəfit olmayaraq [əhəmiyyət verməyərək] il başını kor-koranə qışın orta ayına köçürür. Böylə ki, qış fəslinin əvvəlki ayı köhnə ilə və sonrakı iki ayı da təzə ilə qismət olur. Yeddinci və səkkizinci mənasına gəlmiş september və oktober ayları bu dəfə doqquzuncu və onuncu sıralarda gəlir. Şubat ayı isə axırdan qopub ikinci yeri işğal edir. Xülasə, bütpərəstlərin gözəl və müntəzəm təqvimi xristianlaşdı və lətafətini də itirdi!

Yulian təqviminin ömrü xristian aləmində 1600 ilə qədər davam etdi. Bu vaxta qədər heyət üləmasından [astronomiya alimlərindən] bir çoxu bu təqvimin qüsurunu anlayıb da xristian cühəla və mütəəssibini qorxusundan tənqidinə cürət edəmməmişlər. Kopernik – ki yeni heyətin, "Kopernik üsulunun" mucidi idi – yerin hərəkətinə dair yazdığı kitabı əvaxiri-ömrünədək [ömrünün axırlarınadək] gizli saxlamışdır. Yenə ərbabi-heyətdən Qalile nam, kürreyi-ərzin hərəkətinə dair bir kitab nəşr etdiyi halda Roma ingizisyonu [inkvizisiyası] tərəfindən cəlb olunaraq bu fikrə inanmaqdan vaz keçdiyinə dair rəsmən kəlisada [kilsədə] kəndisinə yəmin etdirilmişdir.

Qüruni-vüstanın [Orta əsrlərin] xristianlıq cəhli bu qərar ilə davam edərkən, ərbabi-elmin [alimlərin] təqvim kimi məsələlərə dəyib-dolaşması çətin bir məsələ idi. Buna ancaq ruhani başçılarından bir çarə ola biləcəkdi. Odur ki, Roma papazlarından XIII Qriqori 1582-ci ildə Yulian təqviminin islahına iqdam etmişdir [təşəbbüs göstərmişdir]. Təqvimin əsil nöqsanı budur ki, kürreyi-ərzin sənəlik həqiqi hərəkəsi 365 gün 5 saat 48 dəqiqə 48 saniyə olduğu halda, bunu Yulius 365 gün 6 saat hesab etmişdir ki, 4 ildə bu 6 saatlardan tamam bir gün (24 saat) əmələ gələ bilsin. Yəni, hər ilə 11 dəqiqə və 12 saniyə nahaqdan artırılmışdır ki, 400 ilin ərzində bu artırmalardan üç günlük bir zaman bica artırılmış olur. XIII Qriqorinin vaxtına qədər bu artırmaların miqdarı 10 gün olduğundan, papazın hökmü ilə Yulian tarixinin üstə 10 gün artırılır. Bu hökm, oktyabrın beşinə təsadüf etdiyindən, sabahkı gün 15-inci hesab olundu. Böylə ki, təzə təqvim ilə köhnə təqvim arasında 10 günlük bir aralıq hüsula gəlir. Gələcəkdə böylə səhv və xətalara daha meydan verməmək üçün bu aşağıdakı üsul icra olunur.

Məlum olduğu üzrə, əsrlər (yəni yüz illər) qabili-təqsim olduqlarına görə, kəbisədən ədd olaraq şubatları da 29 gün ilə məhsub olunurdu [sayılırdı]. Lakin, yuxarıda zikr olduğu kimi, hər 400 ilin 3 günlük xətasından azad olmaq üçün Qriqorinin qanununa görə, əvvəlki 3 əsrləri adi, yəni şubatları 28 gündən və ancaq dördüncü əsr isə kəbisə, yəni şubatı 29 gün hesab olunacaqdır. Odur ki, hələ Qriqorinin sağlığında 10 gün irəliləmiş təzə təqvim 17-nci əsrdə bir gün, 18-inci əsrdə yenə bir gün və 19-uncu əsrdə də daha bir gün artırılaraq hal-hazıra da tamam 13 gün Yulian ta-

rixindən irəliyə düşmüşdür.

İştə, Yulian tarixi ilə Qriqorian tarixi arasında təfavüt budur ki, Qriqorian tarixinin təzə ili daxil olduğu halda Yulian tarixinin də təzə ilinə hələ 13 gün vaxt qalmış olur. Bunun müqabilində, Qriqorian tarixi yer üzündəki tarixlərin ən mükəmməli və ən düzgünü olduğundan tamam milləti-mütəməddinənin [mədəni millətlərin] hüsn-rəğbətini qazanmışdır. Bu gün Yevropa məmalikinin [ölkələrinin] arasında Qriqorian tarixini qəbul etməyən bir millət qalmamışdır. Hətta İran və Osmanlı kimi islam məmləkətləri də mülki idarələrində Qriqorian tarixini qəbul etmişlərdir. Köhnə Yulian təqviminə Osmanlılar "səneyi-rumiyyə" [rumi il] və təzə Qriqorian təqviminə də "səneyi-əfrənciyyə" [firəng ili] demişlərdir.

Ancaq, Rusiyanın mütəassib dindarları Roma bütpərəsti Yuliusun təqviminə qane olaraq qərb kəlisasının rəisi XIII Qriqorinin müntəzəm təqvimini də rədd etmişlərdir. Tamam 300 il davam edə bilmiş Rusiyanın missionerliyə istinadən bu məntiqsizliyi inqilab zühuru ilə uçub dağılmışdır. Bildirdən ruslar da təzə təqvimin qəbuluna məcbur olmuşlardır.

Cavan Azərbaycan idarəsi bir tərəfdən təzə təqvimin düzgünlüyünü və o biri cəhətdən də həman təqvimin düvəli-mütəməddinə [inkişaf etmiş dövlətlər] arasında istemalını [işlədilməsini] nəzərə alaraq təzə təqvimin qəbulunu birinci günlərdən qət etmişdir. Bolşeviklər zamanında bunu qəbul etmiş bizim ruslar, nədənsə 1919-uncu ilin düxulunda peşman olub, mövludi-İsanı və sair kəlisa bayramlarını köhnə təqvim qaydası ilə saxlamağı qərara aldılar. Ermənilər də bu minval ilə rəftar etdilər. Bu da Azərbaycana bir ədavətdirmi? Görünür, ayı meşədən küsüb, meşənin xəbəri yoxdur.

İndi bir az da öz eyiblərimizdən danışaq.

Şərq millətlərinin, əzancümlə [o cümlədən] biz müsəlmanların təqvimi qəmərin dövr və hərəkəti ilə tərtib verilmişdir. Bunun ümdə nöqsanı ildə 10 gün qabağa qaçmaqla bayramları bir fəsildən o biri fəsilə yüyürdür. Sənəsi naqis olduğu üçün hər əsrdə üç il qabağa qaçır. Məsələn, şəmsi təqvim ilə 100 il keçdiyi halda, qəməri təqvim ilə 103 il keçir. İşbu surətlə davam edərsə, hicri tariximiz miladiyyə tarixini 20 min ildən sonra basıb keçir. Hər ayın günləri ədədi müəyyən olmadığı üçün filan bayram haçan daxil olacaqdır deyə müsəlman əhli illərcə zehnini yormuşdur, çapalamışdır, təfriqələrə [ikitirəliklərə] rast gəlmişdir. Bir məmləkətin, bir millətin bayramı ənvai [fərqli] günlərdə icra olunmuşdur. Min ildən çoxdur ki, islam heyətşünasları [astronomları] tarixi-qəməriyyənin bu eyiblərini kəşf ilə şəmsi bir tarixin icadı üçün müddətlərlə çalışmışlar, cəfalar çəkmişlər, amma çifayda. Burada da islam ruhaniləri mane olmuşlardır! Bəttani, İbn Yunus, Ömər Xəyyam, Nəsirəddin Tusi, Yaqub Kindi, Uluqbəy və bir çox sairləri rəsədxanalar, ziclər və cədvəllər yapmışlar. Təqvim islahı üçün əməklər sərf etmişlər. 471-inci ildə Məlikşah Səlcuqi İranda bir tarixi-şəmsi vəz etmişdir [meydana qoymuşdur] ki, fəsli-rəbinin [bahar fəslinin] ibtidasından [əvvəlindən] başlanaraq, ayları büruci-səmaya [səma bürclərinə] müvafiq idi. Təqvimlərin əssah və əsləhi [ən dəqiq və ən yaxşısı] idi. "Tarixi-Cəlali" denməklə mərufdur [tanınır]. Lakin bu gözəl təqvimdən bizə "novruzi-sultani"dən başqa bir şey çatmamışdır.

Yenə bir təşəbbüs Şah Abbas dövründə, məşhur Şeyx Bəhaəddin tərəfindən olmuşdur. Bu cənab heyət vasitəsilə müsəlman bayramlarının füsuli-ərbəədə [dörd fəsildə] mövqelərini müəyyən göstərmişdir. Rəvayətə görə orucluq ayı payız aylarına rast gəlirmiş. Amma, əfsus ki, bu da qəbul olunmadı. Hərgah, qəbul olunsaydı yaxamız bir çox müşkülatdan qurtaracaqdı.

Azərbaycanın mükəmməl bir rəsədxanaya və bir çox qabil heyətçilərə ehtiyacı vardır ki, bu təqvimimizi papaz XIII Qriqori kimi islaha salıb bayram təfriqələrindən də bizi azad edə.

*Fərhad Ağazadə*

**BAKI XƏBƏRLƏRİ**

**Azərbaycan Məclisi-Müəssisanı**

Məclisi-Məbusan nəzdindəki Məclisi-Müəssisan dəvəti işlərinə baxan xüsusi komissiya tərəfindən həman məclisin dəvəti haqqında tərtib edilən qanun layihəsi bugünlərdə tamam olub və Məclisi-Məbusanın yaxın cələsələrindən [iclaslarından] birisində müzakirə ediləcəkdir.

**"Nobel" əmələlərinin tətili**

Nobel firması əmələlərinin [fəhlələrinin] tətili get-gedə artmaqdadır. Əmələlər məvaciblərinin bu ayın 19-21-inə qədər verilməsini tələb edirlər. Bununla əlaqədar olaraq əmələ konfransının təcili iclası dəvət edilmişdir.

**Telsiz teleqraf mövqifi**

Hökumət ehtiyacından ötrü təmir edilməkdə olan telsiz teleqraf mövqifi [stansiyası] bugünlərdə tamam olacaqdır.

**Zavod sahiblərinin istidası [xahişi]**

Azərbaycan torpağında olan pambıq zavodu sahibləri Ticarət və Sənaye Nəzarətinə müraciətən rica etmişlər ki, Ləki mövqifində olan yağ zavodu onlara verilsin. Bazar qiyməti hökumət ilə bərabər zavod sahibləri tərəfindən təyin ediləcəkdir.

**Zaqatal vəkillərinin vürudu [gəlişi]**

Bugünlərdə şəhərimizə Zaqatal okruqu vəkilləri varid olmuşlardır [gəlmişlər]. Məzkur [adı çəkilən] vəkillər tərəfindən Hökumətə və Parlamana 5 maddədən ibarət zeyldəki [aşağıdakı] ərzihal təqdim edilmişdir:

1) Bir neçə il bundan əqdəm [qabaq] əski hökumət tərəfindən Zaqatal camaatına mütəalliq [aid] olan yerlər və meşələr indi 30-40 verst məsafədə olan həmsərhəd gürcülər tərəfindən işğal edilmişdir. Buna binaən [buna görə], Parlaman bu barədə lazımi binagüzarlıqlar etməlidir [addımlar atmalıdır].

2) Məhəlli [yerli] hökumət məmurları öz vəzifələrini lazımi dərəcədə ifa etmədiklərindən naşi [ötrü] okruqda qətl, qarət, yol kəsmək, yol basmaq şiddət etmişdir. Bunun önünü almaq üçün hökumət tərəfindən lazımi tədbirlər ittixaz edilməlidir [tədbirlər görülməlidir].

3) Əsgər toplamaq barəsindəki qanun tamamilə tətbiq edilsin.

4) Fəqir camaat paltarsızlıqdan yorğan-döşəyin üzünü söküb özünə paltar tikir. Buna binaən, həman camaata lazımi qədərdə bəzzaz malı (bez və çit) buraxılsın.

* * *

Qafqaziya Müsəlman Mütəallimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsinin teatro müsamirəsi martın 23-ündə bazar günü Hökumət Teatrosunda vaqe olacaqdır. Biletlər satılırlar:

1) Nikolayevski küçədə, Kazımzadə və Şərifzadələrin mağazasında;

2) Qubernski küçədə, "İslamiyyə" mehmanxanasında;

3) Şamaxinkada, Məhəmməd Hənifə Tağızadənin manufaktur mağazasında.

Mütəallimlər Mərkəzi Komitənin Gimnaziçeski və Verxni-Təzəpirski küçədə olan idarəsindən seşənbə [çərşənbə axşamı] günündən etibarən, saat 11-dən 1-ə qədər, 4-dən 7-yə qədər bilet ala bilərlər.

## AZƏRBAYCAN İSTİNAF MƏHKƏMƏSİ

Srağagün şəhərdə sabiq okrujnoy sud [nahiyə məhkəməsi] binasında Azərbaycan İstinaf Məhkəməsinin (Palatanın) rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu. Rəsmi-güşadda Fətəli xan Xoyski başda olmaq üzrə bütün nazirlər, okrujnoy sud üzvləri, məmurlar, Bakı Müsəlman Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsi üzvləri, Bakı qubernatoru Rəşid bəy Axundzadə, Bakıdakı dava [məhkəmə] vəkilləri, İngiltərə ərkani-hərbi [qərargahı] nümayəndəsi, "Azərbaycan" qəzetələri müdirləri və bir çox qeyriləri hazır olmuşlardı. Binanın üzərində ilk dəfə olaraq Azərbaycan bayrağı nəsb edilib [bərkidilib], içərisi isə böyük xalılarla bəzənmişdi. Məhkəmə iclasının zalı göyərti [çələnglər] və bayraqlarla təzyin edilib [bəzədilib], rəisin başı üzərində ay və yıldız nişanəsi qoyulmuşdu. Binanın içərisi və qapısında milis nəfəratından mühafizəçilər qoyulub, Bakı qalabəyisi Əmircanov nizam və qaydaya nəzarət edirdi.

Saat bir radələrində Rəisi-vükəla [Baş nazir] Xan Xoyski həzrətləri iclası açaraq müxtəsər bir nitq ilə müstəqil Azərbaycanın bu gün tarixi bir günü olduğunu bəyanla camaatı məhkəmənin gələcəkdəki fəaliyyətindən və onun II Aleksandr qanunu ilə mühakimədə davam edəcəyini göstərdi və camaatı, ələlxüsus məhkəmə məmurlarını və dava vəkillərini Palata ilə müttəfiqən hərəkət etməyə dəvət ilə hökumət tərəfindən yeni ali müəssisəni təbrik etdi.

Bədəhu [sonra] Ədliyyə naziri [Teymur bəy] Makinski Palata açılması barəsində sadir olan fərmanı oxudu. Həmin fərman mövcibincə [əsasında] Bakıda Azərbaycan Palatası açılıb, rəisliyinə Ələkbər Xasməmmədov və müavinliyinə Orlov təyin edilirlər.

Bakıdakı dava vəkilləri tərəfindən vəkil Şor palata açılması münasibətilə bir nitq irad edərək [söyləyərək] onu təbrik etdi və gələcəkdə vəkillərlə məzkur [adı çəkilən] məhkəmə arasında sıxı münasibat və irtibat olacağına şübhə etməyərək bərabər işləməyə dəvət etdi.

Bundan sonra okrujnoy sud tərəfindən Makinski müxtəsər bir nitq ilə təbrik edib və məlum etdi ki, bugünün yadigarına olaraq Fətəli xan Xoyskinin birinci Rəisi-vükəla olduğu həsəbi [səbəbi] ilə onun adı mərmər üzərində yazılıb məhkəmə zalında asılması qərardad edilmişdir. Xan Xoyski bundan dolayı öz təşəkküratını izhar ilə rica edir ki, onun adı ilə bərabər Palata rəisi və üzvlərinin adları dəxi yazılsın.

Bədəhu [sonra] Palatanın birinci təntənəli iclası vaqe oldu. Sədr Xasməmmədov iclası açaraq müddəiyi-ümumiyə [prokurora] müraciətən bu barədə öz fikrini bəyan etməyi rica etdi. Müddəiyi-ümumi heç bir fikri olmadığını bəyan etdikdən sonra Azərbaycan Palatası açılması məsələsi müsbət surətdə həll və təsdiq edilir. Bəratülqövl [protokol] rəis və üzvlər tərəfindən imzalanır.

Məclis qapandığı vaxt Xasməmmədov Gəncədən üç dənə teleqram aldığını məlum edir. Teleqramlardan birisi Gəncə Bələdiyyə rəisi Ələsgər bəy Xasməmmədov, digəri Hərbiyyə naziri Səməd bəy Mehmandarovdan olub özlərinin həmin tarixi gündə Palata rəsmi-güşadında isbati-vücud [iştirak] etməyə imkanları olmadığından təəssüflərini izharla təbrik edirlər. Üçüncü teleqram isə Gəncə müddəiyi-ümumisi [Aslan bəy] Səfikürdskidən olub o dəxi isbat[i-vücud] etmədiyindən üzr istəyib və Palata rəsmi-güşadını təbrik edir.

Teleqramlar oxunduğundan sonra Fətəli xan bir nitq ilə məmurlara və dava vəkillərinə təşəkküratını izharla məclisi qapayır və qonaqlar zalda tərtib edilmiş olan süfrəyə dəvət olunurlar.

## FƏHLƏ KONFRANSININ ŞURASI

Mart ayının 18-ində seşənbə [çərşənbə axşamı] günü saat 10-da Fəhlə Konfransının təcili şurası olacaqdır.

## FƏHLƏ HƏYATINDAN

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən yoldaş doktor Qənizadə əfəndi Sabunçu qəryəsi [kəndi] məktəbinin binasında mart ayının 20-si saat iki tamamda mühazirə oxuyacaqdır. Müsəlman fəhlə və kəndçi yoldaşlardan rica olunur ki, məsələ mühüm olmaqdan ötrü müzayiqə etməyib iclasda isbati-vücud [iştirak] eyləsinlər.

**Balaxanı mədənləri mərkəzi**

"Müsavat" idarəsi Sabunçu-Balaxanı dairələri mədənlərində çalışan bütün müsəlman işçilərinə elan edir ki, işbu martın 18-i seşənbə günü saat 2-də Mədənlər mərkəzi "Müsavat" idarəsində təyin edilmiş işçilər iclasında iştirak etmək üçün hər mədən öz nümayəndəsini göndərməlidir. Fəhlə qardaşlarımız göstərilən vaxtı fövtə verməmələri rica olunur.

*Balaxanı Mədənlər mərkəzi*
*"Müsavat" idarəsi*

## GÜRCÜSTANDA

Tiflisdən bizə yazırlar:

Mart ayının 15-inci gecəsi saat 10 radələrindən Qafqaz türk və islam qəzetələrincə pək məruf şair Əliqulu Nə-

cəfov (Ə. Qəmküsar) evinə dönüb oda qapısının qabağında fəci surətdə milisiyalar tərəfindən qətl edilmişdir. Təfsilat sonra yazılacaq.

**Borçalı müsəlmanlarının qurultayı**

Həmin mart ayının 25-ində səhər saat 10-da Borçalı mahalının Aşağı Saral istasyonunun qarşısında Mantaşovun mülkündə Borçalı camaatı tərəfindən öz milli dərdlərinə çarə aramaq, siyasi və ictimai yaşamaqlarını bir müstəqim yola düzləmək üçün camaat başçıları tərəfindən bir qurultay təyin olunmuş, pişəzvəqt [qabaqcadan] hər kəsə dəvətnamə göndərilib, bununla belə, genə camaatdan rica olunur ki, qurultayın böyük əhəmiyyətini nəzərə alıb martın 25-ində qurultaya gəlməyə səy edərlər.

## ERMƏNİSTANDA

**Erməni Teleqraf Agentəliyindən**

İrəvan, 4 mart – Qarsda ingilislər Tiflisdən gəlmiş olan rus afserlərindən milis təşkil edirlər. Aleksandropol, Novo-Bayəzid, Qarakilsədə və bunların dairələrində gündən-günə aclıq davam edir. Şərirdə [Şərurda] səpmə yatalaq vardır.

İrəvan və Qarsda müsəlmanlarla ermənilərin əlaqəsi yaxşıdır. İrəvanda çörək 8, ət 6 manatdır. İngilislər Aleksandropola cövhər və ərzaq gətirirlər. Fəqət bu gətirilən şeylər əhalinin ehtiyacını görmür.

**Ərzaq**

Bakı Erməni Milli Şurası Ermənistana teleqraf göndərib Ermənistanın ərzaq cəhətindən nə halda olmasını xəbər almışdı. Həmin teleqrafa Xatisov böylə cavab vermişdir:

*"Bu il Ermənistana 22 vaqon taxıl, 14 vaqon un, 10 vaqon düyü, 18 vaqon mazut, 2 vaqon benzin və 3 vaqon neft gətirilmişdir. Səpmə yatalaq azarı azalmaqdadır. Növbəli yatalaq isə şiddət etmişdir. Baharda vəba azarı başlanması qorxusu var. Ermənistanda hər gün acından və zəiflikdən 2 min adam ölməkdədir. Azuqə lazımdır. Ərzaq şeyləri isə az gətirilir. Bakıda alınan şeylər göndərilməyir."*

## İZHARİ-MƏMNUNİYYƏT

Bu yaxınlarda Ağdaş gəncləri tərəfindən "Qaçqınlara müavinət [yardım]" namında bir cəmiyyət açıldığını xəbər almışdıq. Şimdi isə məzkur [adı çəkilən] cəmiyyət, qaçqınların nəfinə [xeyrinə] bir teatro verəcəyini və bir ianə dəftəri açmış olduğunu xəbər alırız. Ağdaş ünas [qızlar] məktəbinin müəllimə və müdirəsi Xoşqədəm xanım Əfəndizadənin kəndi təhti-tədrisində bulunan kiçik xanım qızlardan və kəndisindən üç yüz əlli rublə toplayaraq fövqəlzikr [yuxarıda adı çəkilən] cəmiyyətə hər kəsdən əvvəl ianə etdiyini də xəbər aldıq. Ümidvarız ki, fədakarlıqları ilə məşhur olan bütün Ağdaş xalqı bu cəmiyyətin qiymətini təqdir edər və müəllimə xanımdan geri durmazlar. Fəaliyyətinə qarşı cəmiyyətə, hümmətinə qarşı müəllimə xanıma təşəkkürlər edir və müvəffəqiyyətlərini diləriz.

*Parlaman məbusu:*
*Muxtar [Əfəndizadə]*





## ELANLAR

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708*

**Diş həkimi İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Elan**

Salyan Ünas [Qızlar] Məktəbi-ibtidaisi üçün 2 türk müəlliməsi lazımdır. Xahiş edən xanımlar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

**Müsamirə**

Yay Klubunun salonunda

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi nəf'inə [xeyrinə] mart ayının 18-ində Yay Klubunun salonunda fövqəladə bir müsamirə veriləcək. Müsamirə pək möhtəşəm və mütəntən [təntənəli] bir surətdə başlayacaq və Azərbaycan tarixinə, musiqisinə və ədəbiyyatına aid ən parlaq nümunələr göstəriləcəkdir. Faciələr, rəqslər, kabare, deklamasiya və sairə bu müsamirədə ən mötəna [etinalı] bir surətdə təmsil ediləcəkdir.

*T-66*

**Ümumi iclas**

Seşənbə [çərşənbə axşamı] günü martın 18-ində, axşam saat 5-də, Parlaman binasında Sosialistlər fraksiyonunda sosialist türk tələbələrinin və onlara meyl edənlərin ümumi iclası vaqe olacaqdır. Hamı yoldaşların müəyyən vaxtda gəlmələri rica olunur.

*Türk Tələbələr Komitəsinin*
*Sosialistlər fraksiyonu*
*T-69*

**Moskva camaşırxanası**

Məhəmmədəli Məhəmmədkazım oğlunun Çadrovı və Tatarski küçələrin küncündə birinci olaraq Bakı islamları arasında güşad edilən [açılan] camaşırxanasında hər qəbil çirkin və ləkəli libaslar silinib və təmizlənmək və yuyulmaq üçün qəbul edilir. Sifarişlər tez bir zamanda, intizam daxilində sahiblərinə iadə edilir. Qiymətlər qeyri yerlərə nisbətlə təfavütlüdür.

Ünvanlarını Nikolayevski küçədə kitabfüruş [kitab satan] Mirabbas Mirbağırovun dükanında buraxan ağaların sifarişlərini xüsusi məmurumuz kəndi evlərində qəbul edir.

**Elan**

Çaharşənbə [çərşənbə] günü mart ayının 19-unda, gündüz saat 2-də, 4-üncü paralelni küçədə Atababa Orucovun evində "Novxanı" Müstəhliklər Kooperativ Cəmiyyətinin ümumi iclası vaqe olacaq. Cəmi üzvlərdən rica olunur ki, vəqti-müəyyəndə [təyin olunmuş vaxtda] təşrif gətirsinlər. İclas ikinci dəfə olduğuna binaən [olduğuna görə] qanuni hesab olunur.

*Müstəhliklər Cəmiyyəti "Novxanı"*

Bununla ümuma elan edirəm ki, Qubernski küçədə 43-45 nömrəli Hacı Nemət Seydiyevin evini 72 ilə icarə edib və zaprodaj [qabaqcadan satış] ilə almışam. Həman evi, varislərdən Əziz bəy Yusifbəyov satmaq istərsə heç kəs almasın.

*Ağamirzə Cavadov*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Yaraşmaz hərəkətlər**

səh. 271. "...Gürcüstan məhbəslərində təhqir edilməsini...": qəzetdə "məhbəslərində" yerinə "məclislərində" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 272. "Adalar dənizi": Balkan və Kiçik Asiya (Anadolu) yarımadaları arasında yerləşən Egey dənizi nəzərdə tutulur.

"Dodekanes cəzirələri": Egey dənizinin cənub-şərqində arxipelaq; müasir dövrdə Yunanıstana məxsusdur."

**Qəzetələrdən**

səh. 273. "Mədən Suları": Rusiyanın Stavropol diyarında Mineralnıye Vodı şəhəri nəzərdə tutulur.

**Vükəla Şurasında**

səh. 275. "Baş Fabriçni müfəttiş" (Baş Fabrik müfəttişi): Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

**Əsgərliyimizə aid**

səh. 275. "Və əiddü ləhüm məstəta'tüm min-qüvvətin və min-ribatil-xeyli türhibunə bihi əduvvallahi və əduvvəküm...": "Quran"-ın Ənfal surəsinin 60-cı ayəsindən bir hissə. Mənası: "Onlara qarşı bacardağınız qədər qüvvə və bağlanmış atları hazırlayın. Bunlarla Allahın düşmənini və sizin düşməninizi qorxudarsınız."

səh. 276. "Hazır ol cəngə, əgər istər isən sülhü səlah": "Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan." Bu misra türk şairi və həkimi Əbdülhaq Mollanındır.

səh. 277. "Fitrət dəyişrə sanma, bu qan yenə o qandır": misra türk şairi Namiq Kamalın "Vətən şərqisi" adlı şeirindən götürülmüşdür.

**Köhnə və təzə təqvimlər**

səh. 277. Fərhad Ağazadə bu məqaləsini yazarkən türk yazıçısı və alimi Şəmsəddin Saminin "Qamusül-ə'lam" adlı bioqrafiya, tarix və coğrafiya ensiklopediyasından istifadə etmişdir.

səh. 278. "Yulius": Qədim Romanın dövlət xadimi Yuli Sezar nəzərdə tutulur.

"...üç əvvəlki illəri 365...": qəzetdə "illəri" yerinə "ayları" getmişdir.

səh. 279. "Qalile": italyan alimi Qalileo Qaliley nəzərdə tutulur.

səh. 280. "zic": astronomiyada ulduzların yerini və hərəkətini müəyyənləşdirmək üçün cədvəl.

"471-ci ildə Məlikşah Səlcuqi": burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 1078-1079-cu illərə uyğundur. "Məlikşah Səlcuqi" deyərkən Böyük Səlcuqlu dövlətinin sultanı I Məlikşah nəzərdə tutulur.

"Tarixi-Cəlali": Səlcuqlu sultanı I Məlikşah dövründə (XI əsr) tətbiq edilən Cəlali təqvimi nəzərdə tutulur.

səh. 281. "novruzi-sultani": Cəlali təqvimində ilin ilk günü; ilkbahar gecə-gündüz bərabərliyi.

"Şah Abbas": Səfəvi şahı I Abbas nəzərdə tutulur.

səh. 282. "Azərbaycan İstinaf Məhkəməsi (Palata)": Ölkədə məhkəmə hakimiyyətini formalaşdırmaq məqsədi ilə yaradılan Azərbaycan Məhkəmə Palatası nəzərdə tutulur.

"Srağagün şəhərdə sabiq okrujnoy sud binasında Azərbaycan İstinaf Məhkəməsinin (Palatanın) rəsmi-güşadı vaqe oldu.": Azərbaycan Məhkəmə Palatasının açılış mərasimi 16 mart 1919-cu ildə baş tutmuşdur.

"...II Aleksandr qanunu ilə...": II Aleksandr dövründə Rusiyada təhkimçilik hüququ, maliyyə, təhsil, yerli özünüidarə və bir

sıra başqa sahələrdə islahatlar həyata keçirilmişdir. II Aleksandrın islahatlarının başlıcalarından biri də məhkəmə islahatı idi.

**Moskva camaşırxanası**

"Mirabbas Mirbağırovun dükanında...": qəzetdə belə getmişdir: "Mirbağır Mirbağırovun dükanında."





**Çərşənbə, 19 mart 1919-cu il, nömrə 140**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 16 cəmadiyəlaxir sənə 1337. 19 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## YENİ KABİNƏ TƏŞKİLİNƏ AİD

Fətəli xan Xoyski həzrətlərinin istefası haqqında yazmış olduğumuz "Yeni böhran" sərlövhəli məqaləmizdə Xan həzrətlərinin bu qədər zəhmət və məşəqqətlər bə'dində [sonrasında] istirahətə ehtiyacı olduğunu iqrar [qəbul, təsdiq] və etiraf etdik və yeni Rəisi-vüzəra [Baş nazir] seçkisində lazım olan şərtlər riayətindən bəhs açıb, bu şərtlərdən – ümdələri olmaq üzrə – ikisini göstərdik və dedik ki, yeni rəis əvvəla fəal, bacarıqlı və saniyən [ikincisi] sahibi-təcrübə olmalıdır.

Görünür, Parlaman sədri Həsən bəy həzrətləri dəxi bu nəzərə şərik imiş ki, Kabinə təşkili üçün rəis ararkən bir taqım xüsusi şərtlərdən əlavə, bu iki şərti dəxi nəzərə alıb Kabinə təşkili işini sabiq Kabinə əzalarından [üzvlərindən] Maarif naziri Nəsib bəy Yusifbəyli həzrətlərinə həvalə edibdir.

Nəsib bəy həzrətlərinin fəal və son dərəcə çalışqan bir zat olduğu bizə məlum olan kimi, onun keçmişdə gördükləri işlərdən xəbərdar olanlara dəxi məlumdur.

Karkünlükdən [işgüzarlıqdan] əlavə xüsusi təbiətində Hafiz əleyhirrəhmənin "badustan mürüvvət, badüşmənan müdara" kəlami-hikmətamizi müfadına müvafiqət edən [hikmətli kəlamının mənasına uyğun gələn] və bununla bərabər haqqı nahaqqa verməməkdə sahibi-səbat olan [mətanət göstərən] bir mizaca [xarakterə] malik olduğu da o zatı yaxından tanıyanlara məlumdur.

İdareyi-məmləkət işindəki təcrübəyə gəlincə, Azərbaycan istiqlalı elanı günündən bəri bir nazir məqamında qalaraq, təbiidir ki, bu mühüm işdə tam bir vüquf [əhatəli bilik və məlumat] sahibi olub, işin nerədən başlandığından, nə yerdə qaldığından və nə yolda davam etdirmək lüzumundan kamalınca müxbirdir [xəbərdardır].

Məsləki-siyasisinə gəlincə, əsl demokrat və geniş nəzərli, səmimi bir millətpərəst olduğu, "Müsavat" partiyasına mənsubluğuna görə deyil, bəlkə özünün tərzi-məişətindən, qövl və feilindən [məişət tərzindən, sözündən və əməlindən] görünən aşkara bir həqiqətdir.

Bu üzdən, idareyi-ümuri-məmləkətdə [məmləkət işlərinin idarəsində] məqami-rəyasətin karkün, kardan və sahibi -təcrübə [işgüzar, işbilən və təcrübə sahibi] olan sınanmış bir millətpərəst əlinə tap-

şırılmasından naşi [tapşırılmasına görə] məmnun olub da gələcəyə xoş nəzərlə baxırıq.

Nəsib bəyin birinci ağır və müşkül vəzifəsi, özünə tapşırılmış olan Kabinə təşkili məsələsinin həllidir. Bu məsələnin o səyaq, bu səyaq həll edilməsi, təbiidir ki, Nəsib bəyin özünə məxsus olan gələcək fəaliyyətinə böyük təsir edəcəkdir. Müəyyən bir işə girişən həmqatarların [eyni yolda gedənlərin] əvvəl-əvvəl həmfikir olmaları birinci şərtdir. Arada bu şərt olmazsa, Krılovun "Ördək, balıq və xərçəng" hekayəsi doğru olub "araba yerində qalar" və iş yeriməz.

Həmfikir Kabinə təşkili əmrində [işində] işi çətinləşdirən, Kabinənin koalisyon (müştərək) olmaq şərtidir. Yəni Kabinə əzaları hər fraksiyaya mənsub adamlardan seçilməlidirlər. Halbuki hər bir fraksiyanın özünəməxsus siyasi məsləki və xüsusi proqramı olduğundan, ümuri-idarəcə bütün ümumi və xüsusi işlərdə həmfikir olan bir Kabinə təşkil etmək, həqiqət[ən] çətin bir əmrdir [işdir]. Nəsib bəy gərək bu çətinlikdən çıxsın və kənari təzyiqata qarşı durub da özünə yoldaş olmaq üzrə öz bəyəndiklərini, yəni hər bir cəhətcə etimad və etibar etdiyi adamları seçsin.

Ümumi və xüsusi idarə işləri arasında əvvəl-əvvəl əsasi bir məsələ var ki, o məsələ üstündə Kabinənin bütün əzaları – hansı fraksiyadan olur-olsun – biduni-şərtü-şürut [şərtsiz, heç bir şərt olmadan] mütləqa həmfikir olmalıdırlar. O əsasi məsələ – istiqlal məsələsidir ki, qeyd və haşiyə qəbul etməz bir əsasdır. Bu əsası zahirən və batinən qəbul etmiş olan əzalar, xüsusiyyat cəhətlərincə də müdara ilə [istəmədiyi adamla xoş keçinməklə] iş görmək istedadına malik olarlarsa, "həmfikir bir Kabinə əmələ gəldi, inşallah, araba yerində qalmaz" deyib, ümidvar ola bilərik, bu şərtlə ki, bir də bu əzalar fəal və çalışqan və iş bacaran olalar.

Biz ümidvarıq ki, Nəsib bəy həzrətləri hər bir barədə layiqli bir Kabinə əmələ gətirmək işində məharət göstərib bu çətin əmrin [işin] öhdəsindən gələrlər və tezliklə Kabinə təşkil edib də məmləkəti böhrandan xilas edərlər. Bu xüsusda müvəffəqiyyətlərini kamali-dil ilə [ürəkdən] arzu edənlər cümləsindənik.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 17-nci iclas, 17 mart

**Sədr** - Həsən bəy Ağayev
**Katib** - Əhməd Cövdət

**Sədr** - Parlamanın iclası açılır. Bugünkü yövmiyyə müzakiratımız [gündəlik müzakirələrimiz; müzakirə gündəliyimiz] Divani-Rəyasət tərəfindən bu qərar üzrə tərtib verilmişdir:

1) Daxil olmuş vərəqə və kağızlar. O cümlədən Təşriiyyə komisyonu intixabı [Qanunvericilik komissiyası seçkisi], Gürcüstan və Ermənistan ilə post-teleqraf münasibatı haqqındakı qanun layihəsi;

2) Hökumət təşkili barəsində;

3) Məclisi-Məbusan nizamnaməsinin üçünci qiraəti [oxunuşu];

4) Hökumət məmurlarına bayram münasibətilə fevral maaşının 75 faiz[i] miqdarında birdəfəlik müavinəti-nəqdiyyə verilməsi layihəsi;

5) Şəki şəhərinə səpmə yatalaq ilə mübarizə etmək üçün 2 yüz min manat faizsiz istiqraz verilməsi layihəsi;

6) Zabit namizədlərinin maaşlarını müəyyən etmək üçün layiheyi-qanuniyyə [qanun layihəsi];

7) Etibarnamə komisyonunun məruzəsi;

8) Yollar və qarayollar [quru yolları] və onların təmirat və inşasının Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] ixtiyarına verilməsi xüsusunda layiheyi-qanuniyyə.

9) Məclisi-Müəssisan intixabı qanunnaməsinin təb'i [çap edilməsi] üçün 20 min rublə verilməsi;

10) 1918-1919 sənələri üçün vilayət və dairələr vergisi məhkəmələrinə intixab qəvaidi [seçki qaydaları] xüsusunda layiheyi-qanuniyyə;

11) Gömrük idarəsinin mücəddədən [yenidən] təşkili xüsusunda layiheyi-qanuniyyə;

12) Azərbaycan vilayət sənaye vergisi məhkəməsinin təşkili haqqında qanun layihəsi;

13) Vergilər xüsusundakı şikayətlərə baxmaq üçün Maliyyə naziri indindəki [nəzdindəki] şuranın ali bir məhəll [məqam] olması haqqında qanun layihəsi;

14) Post və teleqraf qanunnaməsinin 131 və digər maddələrinin ləğvi xüsusunda layiheyi-qanuniyyə və qeyri cari məsələlər.

Hərgah yövmiyyə müzakiratın bu cür tərtib olunmasına etiraz yoxsa, qəbul olunur. Son zamanlar görürsünüz ki, layihələr gün-gündən artır. Bu layihələr Parlamanda qəbul edildikdən sonra surətə salmaq üçün bir Təşriiyyə komisyonu [Qanunvericilik komissiyası] lazımdır. Rica edirəm iclasın axırında həmin komisyona namizədlər göstərəsiniz. Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** - Ruznameyi-müzakiratın [müzakirə gündəliyinin] tərtibatı xüsusunda deyərdim ki, fraksiyamız tərəfindən maliyyə işləri xüsusunda hökumətə verilmiş sual da yövmiyyə müzakirata [gündəlik müzakirələrə] daxil edilsin.

**Sədr** - Bu sual yarım saat bundan əvvəl mənə verilibdir. Hərgah nizamnamə üzrə getsək, bu sual ruznameyi-müzakiratın axırına salınıb axırda müzakirə olunmalıdır. Hərçənd nizamnamə hələ qəbul olunmayıbdır. Lakin izin versəniz, daxil olmuş məktublar, vərəqələr cümləsinə salarıq.

**Səslər** – Sualdır?

**Sədr** – Sualdır. Bu barədə danışmaq istəyən varsa buyursun. Sual maliyyə işləri barəsindədir. Hərçənd nizamnamə qəbul olunmayıbdır. Amma iki dəfə oxunubdur. Hər halda bu sualı axırda elan edəcəyəm.

Keçən iclasların birində mənə tapşırılmışdır ki, bir şəxs tapıb hökumət təşkilini ona həvalə edim. İndi o adam tapılıbdır. Yusif bəy Nəsibbəyovdur. Hökumət təşkili ona həvalə olunmuş, o da bu barədə lazımi təşəbbüsatda bulunur. Keçəlim növbədəki məsələyə. Bir də onu ərz edim ki, yeni əzalardan Cəlil bəy Sultanov Zəngəzur tərəfindən Məclisi-Məbusana gəlmişdir. Mən bilmək istərdim ki, hangi fraksiyona mənsubsunuz?

**Sultanov** - Gələn iclasda elan edərəm.

**Sədr** - Divani-Rəyasətdən bixəbər sizi fraksiyalardan birinə yazıblar. Deməli gələn iclasda hansı fraksiyaya mənsub olduğunuzu məlum edəcəksiniz. Keçəlim növbədəki məsələyə. Məclisi-Məbusanın Nizamnaməsi. Söz məruzəçi Qara bəy Qarabəyova verilir.

**Qarabəyov** - Nizamnamə üçüncü dəfə oxunmalıdır. İki dəfə oxunmuşdur. Hərgah Parlaman razı olarsa, üçüncü dəfəsini oxumayalım. Çünki, Nizamnamə əvvəlcə hamı [bütün] fraksiyalara paylanmışdır. Hamı Nizamnamədən xəbərdardır. Özü də uzundur. Hərgah Parlaman razı olarsa bir daha oxumayalım. Böyləcə qəbul edəlim. Onsuz da başqa məsələlər çoxdur. Komissiya böylə təklif edir.

**Sədr** - Nizamnamənin üçüncü qiraəti barəsində kim danışmaq istər?

**Şəfi bəy [Rüstəmbəyli]** - *(yerindən)* Etiraz yoxdur.

**Səslər** - Etiraz yoxdur.

**Sədr** - Komisyon tərəfindən də məruzəçi doktor Qarabəyov təklif edir ki, Nizamnamə maddəbəmaddə oxunmasın, ümumən qəbul edilsin. Etiraz yoxsa səsə qoyuram. *(Rusca)* Onu da bilirsiniz ki, keçən iclasda cüzi təshihlər olmuşdur. Hər kəs Nizamnaməni həman cüzi təshihlərlə qəbul edirsə, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, əksəriyyətlə Nizamnamə qəbul olunur.

**Məhəmməd Əmin [Rəsulzadə]** - *(yerindən)* Mən bu barədə bir söz deyərdim.

**Sədr** - Buyurunuz.

**Məhəmməd Əmin** - Nizamnaməni qəbul etdiniz. Lakin türkcə istilahının [terminlərinin] təshihata ehtiyacı vardır. Ona görə təklif edərdim ki, Nizamnamə təshih üçün Təshih komisyonuna verilsin.

**Sədr** - Növbədəki məsələ hökumət məmurlarına bayram münasibətilə birdəfəlik olaraq fevral maaşının 75 faizini əlavəsi ilə müavinəti-nəqdiyyə verilməsi haqqında layihədir. Söz məruzəçi Mustafa Vəkilovundur.

**Vəkilov Mustafa** - Hökumət məmurlarına bayram münasibətilə birdəfəlik 75 faiz müavinəti-nəqdiyyə verilməsi üçün hökumət, Maliyyə və büdcə komissiyasına bir layihə təqdim eyləmişdir. Maliyyə komissiyası həman layihəyə baxıb böylə qərar verdi: əvvəla, bu müavinəti-nəqdiyyə nə üçün təklif olunur? Hökumət öz bəyannaməsində səbəb olmaq üzrə göstərir ki, hamıya məlumdur. Bahalıq gündən-günə artır, maaş çatmır. Hökumət bu barədə lazım bilir ki, bütün idarələr qulluqçularının məvaciblərini artırsın. Ona da beynəlidarə [idarələrarası] bir komisyon təşkil eyləyib, bu komissiyada 15 nəzarətin vəkilləri daxil olubdur. Bu komissiya məkulatın [ərzağın] bahalanması davamını nəzərə almayıb, müzakiratında davamla işini biti-rə bilməyir. Yalnız bir proje hazır edibdir. Ona görə, hökumət təklif edir ki, fevral ayının məvacibindən başqa müavinəti-nəqdiyyə olmaq üzrə həmin məvacibin 100-də 75 faizi də birdəfəlik verilsin və bu müavinəti-nəqdiyyəni Novruz bayra-mı münasibətilə verməyi təklif edir. Büd-cə və maliyyə komissiyası layihəyə baxıb bir qədər təbdil etdikdən [dəyişdirdikdən] sonra Parlamana təqdim edir.

Hökumət təklif edir ki, bütün idarə məmurlarına 75 faiz müavinəti-nəqdiyyə verilsin. Amma komisyon isə təklif edir





ki, bütün qulluqçuları üç qismə bölək. Birinci qism 1400 manatadək maaş alana 70 faiz, 1400-dən 2 minədək alana 60 faiz, 2 mindən artıq alana 40 faiz verilsin. Bu təbəddülatdan [dəyişikliklərdən] başqa bütün layihə qəbul edilmişdir. Və layihə də böylədir. *(Oxuyur)*

Hökumət idarələri qulluqçularına Novruz bayramı münasibətilə birdəfəlik müavinəti-nəqdiyyə verilməsi haqqında qanun layihəsi.

A - 1) Novruz bayramı münasibətilə bütün hökumət idarələrinin heyəti və gərək qeyri-heyəti qulluqçularına bu sənə fevral maaşının 75 faiz[i] miqdarında birdəfəlik müavinəti-nəqdiyyə verməli.

2) Birinci maddədə zikr olunan müavinəti-nəqdiyyəni almaq haqqı hərbiyyə idarələri qulluqçularına və həmçinin Parlaman izni ilə bu sənə yanvar və fevral aylarında aylıqları artırılmış olan digər idarələr qulluqçularına aid deyildir.

3) Birdəfəlik müavinəti-nəqdiyyə almaq haqqı fəqət [sadəcə] fevral ayının 28-inə qədər Azərbaycan Hökuməti qulluğunda bulunan xidmətçilərə aiddir.

B) Məzkur [deyilən] müavinəti-nəqdiyyə verilməsi məxarici Dövlət xəzinəsi departamentinin 1919-uncu sənəsi smetasının xüsusi fəsili ilə fövqəladə məxaric hissəsinə aid etməlidir.

C) Müqtəzi [lazım gələn] məbləğ aşkar olduqca hər bir müəssisə dövlət müfəttişi ilə əvvəlcə görüşərək hesab açmağını Maliyyə nazirinə mühəvvəl etməli [tapşırmalı].

Bu layihənin bir tərəfinə də diqqət etmişik ki, bütün qulluqçulara müavinəti-nəqdiyyə verilsə, hökumət xəzinəsindən bunun üçün nə qədər para veriləcəyi məlum olsun. Bu barədə komissiya hökumətdən sual edib, hökumət böylə cavab vermişdir:

Vaxtın təng [dar] olduğunu nəzərə alıb bu barədə Nəzarətlərdən məlumat yığmaq mümkün olmadığı üçün hökumət bu barədə heç bir məlumat və bəyanat verə bilmir.

**Sədr** - Bu barədə kim danışmaq istəyir? Söz Əhməd bəy Pepinovundur.

**Əhməd bəy Pepinov** - Əfəndilər! Sosialistlər fraksiyası əsas etibarilə bu layihənin əleyhindədir. Bu barədə hökumətin göstərdiyi dəlildən anlaşılır ki, həqiqətən hökumət qulluqçuları aldıqları məvaciblə çətin keçinirlər; bu müşkül vəziyyətdən onları qurtarmaq üçün yalnız bir dəfəyə məxsus olmaq üzrə bayram münasibətilə 75 faiz müavinəti-nəqdiyyə verilsin. Böyləliklə bəlkə bu bayram əyyamını [günlərini] bir dərəcə yaxşı keçirə bilsinlər. Bu çətin əhvallarda bir az məmurlara kömək olsun. Biz isə deyiriz ki, hər bir qulluqçuya və hər bir zəhmətkeşə öz işlədiyinə, xidmətinə, zəhmətinə görə para verilsin. Tainki o qulluqçuya aldığı maaşla özünü dolandırmaq mümkün olsun, nəinki onlara bəxşiş verilsin. Bu pul bəxşişdir, bunu biz rədd edirik. Bu bəxşişin məmurlara verilməsinə tərəfdar olmayırız. İkinci məsələ də budur ki, müavinəti-nəqdiyyə hamıya verilmir. Əzcümlə [o cümlədən] dəmiryol qulluqçularına aid deyildir. Bu yaxın zamanda onların maaşı artırıldığına görə, bəxşişdən məhrum edilirlər. Hökumət özü qulluqçularının aldıqları məvaciblə özlərini idarə edə bilmədiklərini bilir və bunu nəzərə alaraq məvaciblərin artırılması üçün bir beynəlidarə komisyon təşkil etmişdir. Bu

komisyon məvacibləri artıracaq və bu surətlə qulluqçulara insan kimi yaşamaq imkanı verəcəkdir. Amma o komissiya öz fəaliyyətindən hənuz bir nəticə göstərməmişdir. Heç olmazsa bu bir ay zərfində deyə bilərdi ki, hökumət qulluqçularına nə qədər verməlidir və bir də bu müavinəti-nəqdiyyə yenə 60-75 faiz olub 100, ya 50, ya qeyri miqdarda verilməyir. Bunun da səbəbi bizə məlum deyildir. Əlimizdə bir şey yoxdur ki, bu faizlərin miqdarını təyin edək və yaxud müəyyən bir qayda yox ki, qiyas [müqayisə] edək, ölçək. Yenə bir məsələ var ki, məlum olmayır hökumət xəzinəsindən bu barədə nə qədər para veriləcəkdir, 5-10-100 milyon, ya nə qədər? Bu pul bəlkə bayramın axırınadək qulluqçulara çatmayacaq və bugünkü sualda görəcəksiniz ki, əmələlər və fəhlələr hələ fevral məvaciblərini almamışlardır. Buna görə də tətillər başlanıb, hətta Nobel əmələləri tətil etmişlərdir.

**Sədr** - Təvəqqe edirəm sualınızın məzmununa keçəsiniz, mətləbdən danışasınız. Çünki müzakireyi-yövmiyyə [gündəliyin müzakirəsi] sırasında sualınız axıra buraxılmışdır.

**Pepinov** - Zənn edirəm mətləbə gəlirəm.

**Sədr** - Rica edirəm mənimlə bəhsə girişməyəsiniz.

**Əhməd bəy** - *(nitqinə davamla)* Bu barədə hökumət deməlidir ki, bu pul bayrama qədər xidmətkarlara veriləcək, ya yox. Şayəd biz bu qanunu qəbul olunmuş fərz etsək belə, yuxarıdakı ərz etdiyim səbəblərə görə hökumət bu məbləği bayramadək verə bilməyəcəkdir. Biz təklif edirik bütün hökumət qulluqçularının məvaciblərini daimi surətdə artırmaq üzrə tezliklə bir layihə tənzim və Parlamana təqdim edilsin. Bir də hökumət bizi məcbur edir bu müavinəti-nəqdiyyənin verilməsini qəbul edək. Əgər qəbul etməsək, o vaxt qulluqçuların düşmüş olacağı müşkül vəziyyətin müsəbbibi [səbəbkarı] biz olacağız. Deməli, istəristəməz bu layihəni qəbul etmək məcburiyyətindəyiz. Əsas etibarilə bu qanuna zidd isək də, lakin əleyhinə rəy verməməyə məcburuz.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

Fevralın 19-da Klemansonu yaralayan Kottin məhkəmeyi-hərbiyyə tərəfindən edam cəzasına məhkum edilmişdir.

**Trotskiyə sui-qəsd**

Petroqraddan "D. N." qəzetəsinə xəbər verirlər ki, Riqa cəbhəsindən qayıtmaqda olan Trotskiyə sui-qəsd edilmişdir. Qatar Dvinsk mövqifində [stansiyasında] dayandıqda Trotski vaqondan dışarıya çıxarkən Qırmızı ordu saldatları Trotskiyə bir neçə güllə atmışlardır. Trotski bu əhvalatı həman axşam Petroqrad Şurasına xəbər verib, güllələnmiş şlyapasını nişan vermişdir. Güllə Trotskinin başının üstündən keçmişdir. Trotski ərkanı [qərargahı] üzvlərindən bir nəfəri ölüb, digəri yaralanmışdır.

**Lloyd Corcun nitqi**

Avamlar Kamerasında Lloyd Corc nitqi münasibətilə verilən suallara cavab





verdikdə qeyd etmişdir ki, Sülh Konfransı mümkün qədəri tezliklə sülh bərpa etməyə çalışır. Hal-hazırda Almaniyanın qərb sərhədi məsələsi müzakirə edilməkdədir. Lloyd Corc Almaniyaya təqdim edilən tələbat məsələləri haqqında tamamilə saziş hüsula gələcəyinə ümidvardır. Şərqi sərhəd təbəddülatına [dəyişikliyinə] dəxli olan tələbatımız Polşaya gedən komissiya qayıdana qədər təxirə salınacaqdır. Çünki Elzas-Loren səhvimizi kifayət qədəri göstərdi.

Lloyd Corc Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] haqqında ehtiramsızlıqla danışan bir para üzvləri məzəmmət etmişdir. Xırda millətlər, o cümlədən çexslavlar və cənubi slavlar ki, bu yaxınlarda vücuda gəlmişlərdir, tamamilə Cəmiyyəti-Əqvamdan asılıdırlar. Lloyd Corc qeyd etmişdir ki, Amerikanın Cəmiyyəti-Əqvam haqqındakı rəyi müttəhidül-qəlbdir [yekdildir]. Cəmiyyəti-Əqvam fikrinin əzmkar və ən müstəid mütəşəbbisi [ən bacarıqlı təşəbbüskarı] olan [Vilyam Hovard] Taft etibarnamə məsələsində Vilsondan da irəli keçmişdir. Lloyd Corc ona razı olmuşdur ki, heç bir millət, onun məsuliyyəti müzakirə edilmədən əvvəl müharibəyə buraxılmayacaqdır. Bolşevikləri etiraf [qəbul] etmək və ya onları Sülh Konfransına buraxmaq təklifi heç vaxt daxil edilməmişdir. Lakin, Rusiya sülhsüz bilkülliyyə [tamamən] mənfəətsiz olar. O vaxt konfransda bütün cahan sülhünü bərpa etmək fikrindən imtina etməlidir. Bəziləri müdaxilə edilməsi tərəfdarları olmuşlardır. Lakin, bu müəssisədən ötrü tələb edilən rəqəmləri görən heç bir ağıllı şəxs onu təsvib [təsdiq] etməz.

İkinci təklif bolşeviklər əksinə olanları müdafiədən ibarətdir. Müttəfiqlər bolşeviklər əleyhinə olanlara kifayət qədəri silah və mühimmati-hərbiyyə [hərbi sursat] vermişlərdir. Lakin, əsgəri müavinətin [hərbi köməyin] ağırlığı ancaq İngiltərə ilə Fransa öhdəsinə düşmüşdür. Çünki Amerika əsgər göndərməkdən, pul və material verməkdən imtina etmişdir.

Üçüncü təklif atəşin özü-özündən sönməsi üçün şiddətli siyasətdən ibarətdir. Bu təkliflər hamısı müzakirə edildikdən sonra, Böyükada qərarnaməsi tələb edilmişdir. Bu qərarnaməni Lloyd Corc müdafiə etmişdir. Çünki ancaq bununla baha qiymətə oturan heyəti göndərməmək olar.

Lloyd Corc axırda demişdir ki, bolşevizm daimi deyildir. İngiltərə Hökuməti başsız qalan Rusiya məmləkətində ləyaqətli hökumət və asayiş bərpası üçün var qüvvəsi ilə çalışmaqdadır.

## SÜLH ƏTRAFINDA

**Pişon Böyükada Konfransı haqqında**

Pişon əcnəbi mətbuat nümayəndələrini hüzura qəbul etmişdir. Bolşevik hökumətinin Böyükada Konfransında iştirakına razı olmasına Müttəfiqlərin nə nəzərlə baxacaqları haqqında suala Pişon demişdir ki, bu məsələ hələ Müttəfiqlər tərəfindən ümumilikdə müzakirə edilməmişdir. Fəqət onun rəyinə görə, bu konfrans öz əhəmiyyətini itirmişdir. Müttəfiqlərin bu konfransı dəvət etməkdən qəsdi Rusiyanın müxtəlif firqə nümayəndələrini konfransda ancaq bitərəf şahidlər kimi iştirak edəcək Müttəfiq dövlət nümayəndələri ilə birləşdirmək idi. Lakin

bolşeviklər bu dəvətə öz bildikləri kimi münasibatda bulunduqlarından, konfrans dəvəti ilə məqsəd hasil olmamış və bu şərait üzrə konfrans gərəksiz hesab olunur.

**Sülh Konfransı nümayəndələri**

İstanbuldan xəbər verirlər ki, Türkiyə Ermənistanı nümayəndələri Papazyan və Tərzibekyan, həmçinin Ukrayna Yəhudi Şurayi-Millisi nümayəndəsi Usışkin fevralın 1-ində Parisə Sülh Konfransına əzimət etmişlərdir [getmişlərdir].

**Finlandiya istiqlaliyyəti təsdiq edilmişdir**

Stokholmdan xəbər verirlər ki, Finlandiya istiqlaliyyəti Sülh Konfransı tərəfindən təsdiq edilmişdir.

## DAĞISTAN ƏHVALI

**Xasavyurt-Qroznı xətti**

Cibaliyyun [Dağlılar] İttifaqı Hökumətinin Hərbiyyə naziri tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, Xasavyurt-Qroznı dəmiryol xəttinin təmiri işləri saxlanılmışdır. Həmin binagüzarlığa Könüllü ordunun irəli hərəkət etməsi səbəb olmuşdur.

**Prjevalskiyə təklif**

Şayiata görə, Cibaliyyun İttifaqı Hökuməti tərəfindən general Prjevalskiyə qəti surətdə olaraq Petrovsk şəhərini [tərk etməsi] və ələlümum [ümumiyyətlə] məzkur [adı çəkilən] cümhuriyyətin torpağından çıxması təklif edilmişdir.

**Lyaxovun təklifi**

Bugünlərdə Dağıstandan gəlmiş olan mötəbər bir şəxsin dediyinə görə, general Lyaxov çeçen xalqını kəndi tərəfinə cəlb etmək üçün onların nümayəndələrinə bir çox vədələrdə bulunub və onun tərəfinə gəlməyi təklif etmişdir. Nümayəndələr isə Lyaxovun həmin təklifini qəti surətdə olaraq rədd etmiş və məlum etmişdir ki, çeçen xalqı fəqət [sadəcə, ancaq] Cibaliyyun İttifaqı Hökumətini tanıyır və ancaq ona tabe ola bilər. Çeçenlərdən bu cavabı eşitdikdən sonra Lyaxov öz generallarına demişdir ki: "İndi mən sizə söyləyəcəyimi bilmirəm."

Bundan sonra Könüllü ordu dəstələri Qoytı və Aqur kəndlərinə qəflətən hücum etmişlərdir. Müharibə sübh tezdən başlanaraq axşam saat 4-ə qədər davam etmişdir. Yaxın kəndlərdən kömək gəldikdə, Könüllülər tab gətirməyib meydani-müharibədə 400 nəfərə qədər ölü və yaralı buraxaraq geri çəkilmişlərdir. Çeçenlər onları Qroznıya qədər təqib etmişlərdir.

- Məhəlli qəzetələrdən bəziləri böylə xəbər verirlər ki, guya Könüllü qoşunlar Dərbəndi götürüb Yalama mövqifinədək irəliləmişlərdir. İki gün bundan əvvəl Dərbənddən gələn bir nəfərin məlumatına nəzərən bu xəbər qətiyyən uydurma və əsilsizdir.
- Vladiqafqazda Sosialist duması tərəfindən bələdiyyə rəisliyinə intixab edilmiş [seçilmiş] olan Tsirulinikov və uprava üzvü Kot, Könüllü ordu tərəfindən həbsə alınmışlardır.
- Dağıstanlılardan alınan məlumata görə, Qroznı nahiyəsində çeçenlərin təşəbbüsatı ilə çeçen əhalisi nümayəndələrinin izdihamlı bir yığını vaqe olmuşdur. İctimada [yığıncaqda] 3 minə qədər adam iştirak etmişdir. Yığın əhvali-siyasiyyəni və Könüllü orduya qarşı münasibatı müzakirə etmişdir. Əvvəlcə ictimaya Könüllü ordu nümayəndələri, sonradan guya general Lyaxov özü də gəlmişdir. Digər tərəfdən Dağıstan Hökuməti sədri Kotsev ictimada iştirak etmişdir.

İctima müttəhidülqövl [yekdilliklə] müstəqil Dağıstan Cümhuriyyətini qəbul etmişdir. Könüllü orduya münasibat məsələsi qızğın mübahisələrə bais olmuşdur. Könüllü ordu başçıları şiddətli tənqid edilib, Könüllü ordu ilə mübarizə olunmasını mədh edici rəylər verilmişdir. Axırda ictima Dağıstan Hökuməti sədri Kotsevi vəkil etmişdir Müttəfiq dövlət komandanlığına xəbər versin ki, çeçen əhalisi Könüllü ordu tərəfindən təyin edilən naçalniklərə tabe olmayacaqdır.

## İRAN İŞLƏRİ

**Nadir şah məqbərəsinin təmiri**

Məşhəddə nəşr olunan "Agahi" qəzetəsinin verdiyi məlumata görə, böyük ehsan və xeyir sahibi olan Hacı Mürtəza Mirzə tərəfindən Nadir şah Əfşar məqbərəsinin təmirinə şüru edilmişdir [başlanmışdır]. Məqbərənin üzərində böyük bir məscid təmir ediləcəkdir. Həyətində isə bağ salınacaqdır. Məqbərə ziyarət edildikdən sonra zəvvarlar həyətdəki bağda seyr edəcəklərdir.

**Məşhəddə çörək qiymətləri**

Yenə həman qəzetənin yazdığına görə, Məşhəddə ərzaq qiymətləri get-gedə tənəzzül etməkdədir. Böylə ki, şəhərdə çörəyin qiyməti bizim pulla girvənkəsi 20 qəpikdir. Başqa zəruri şeylərin qiymətləri dəxi bu qərarla əskilmişdir.

**İran nümayəndəsi Parisdə**

"Rə'd" qəzetəsinin yazdığına görə, neçə vaxt bundan əqdəm [qabaq] Bakı-İstanbul təriqi [yolu] ilə Avropaya getmiş olan İran nümayəndəsi Ədlülmülk bugünlərdə Romaya varid olmuş [çatmış] və orada bir neçə gün qaldığından sonra Parisə mütəvəccihən əzimət etmişdir [Paris istiqamətində yola düşmüşdür].

**Sipəhdarın əziməti**

Şimali İran hakimliyinə təyin edilmiş olan Sipəhdar Əzəm bu günlərdə Tehrandan Təbrizə əzimət etmişdir [getmişdir].

**"Həblülmətin" müdirinin vəfatı**

Tehranda nəşr olunan "Həblülmətin" qəzetəsinin müdiri Ağa Mirzə Seyidhəsən neçə gün bundan əvvəl xəstələnib vəfat etmişdir. Mümaileyhin [adı çəkilən şəxsin] vəfatı Tehran əhalisinə artıq dərəcə sui təsir etmişdir. "Rə'd" qəzetəsi özünün təəssüfatını izhar ilə hökumətdən məzkurun [adı çəkilən şəxsin] ailəsinə yardım etməyi rica edir.

**Quldurları təqib**

Məşhur quldur Cəfərqulunu təqib və tövqif [həbs] etməkdən ötrü göndərilmiş olan bir dəstə bəxtiyarlar bu günlərdə Nayin şəhərinə varid olub oradan Sərdar Zəfər ilə ətrafa hərəkət etmişdir.

## QƏZETƏLƏRDƏN

**Romaniya və Müttəfiqlər**

"S." qəzetəsinin Paris müxbiri təyid [təsdiq] edir ki, Romaniya ilə Müttəfiqlər arasında olan etilaf [anlaşma] pozulmuşdur. Buna da səbəb, Romaniyanın Banatda vədə edilmiş imtiyazı almaması olmuşdur. Romaniya təvizat [əvəz, kompensasiya] surəti ilə Dobrucanı alır. Makedoniya Serbiyaya keçir. Bu qərar Romaniya hökumət dairələrində böyük narazılığa bais olmuşdur.

**Almaniyada**

Moskvadan xəbər verirlər ki, Berlində spartakların çıxışının birinci günlərində qayətdə qızğın müharibə vaqe olmuşdur. Bu hadisat əvvəlki qırğınların həpsindən dəhşətli imiş. Rəvayətə görə, bu vaxtadək eşidilməmiş bir dərəcədə şiddətli vuruşmalar olmuşdur. Bütün Almaniyanı dəhşətli bir mübarizə istila eyləmişdir. Əmələlərin tətili və burjuaznı əmələlərin əks-tətili süstləşmir. Dəmiryol tərəddüdatı [rabitəsi] dayandığı üçün bir çox şəhərləri azuqəsizlik hədələyir.

**Odessada gürcü konsulxanasının qapanması**

Könüllü ordu komandanlığının əmri üzərinə, Odessadan gürcü konsulgərliyi [konsulluğu] ləğv edilmişdir. Gürcülər buna protesto etmişlərdir. Fransız komandanlığının tələbi üzərinə gürcü konsulxanası üç gündən sonra təzədən açılmışdır.

**Odessa halı**

Odessanın əhvalı təhəmmül edilməyəcək [dözülməz] bir surətdədir. Nəhayət dərəcə bahalıqdır. Quldur dəstələri əhalini təngə gətirmişlərdir. Tramvay işləməyir. Odunun putu 27 manatdır. Füqəra həlak olmaq dərəcəsindədir. İctimai müəsissələr müavinətdən [kömək etməkdən] acizdirlər.

## İRƏVAN ƏHVALINDAN

### I

İrəvan vilayətində yaşayan türklər (yerli əhali) xatırlanarsa, təbii yalnız İrəvanın kəndi şəhəri deyil, çar hökuməti zamanında olduğu kimi, İrəvana tabe bütün qəzalar və nahiyələr də bərabər dərxatir edilər [yada salınar]. İrəvan üzərində Ararat [Ermənistan dövləti] havası, Ararat hissi, Ararat bayrağı əsməkdə olduğundan, insan yerli türklər naminə [adına] söz söyləməkdən diksinir kimi bir vəziyyətdə qalır. İrəvan və islamlar denildikdə şimdi yalnız Naxçıvan, Şərur və Ordubad tərəfləri yad olunaraq, İrəvan şəhəri uzaq və xəyali bir heçdən, məhcur [atılmış, tərk edilmiş] bir yabançılıqdan ibarət qalır. Bununla bərabər, ilk əvvəlcə İrəvanda sakin yerli türklər haqqında beş-on sətir məlumat vermək istərəm.

İrəvanda və İrəvan (erməni) hökumətinə tabe ətraf köylərdə yaşayan yerli türklər, zənn olunmasın ki, yaşayırlar. Onlar hər gün min kərə ölüb dirilirlər. Hər saat min kərə can çəkişirlər. Hər zaman min dürlü insaf və vicdandan məhrum pəncələr və dırnaqlarla yaralı ürəklərinin dırmalanıb qoparıldığını görürlər, hiss edirlər. Lakin bununla bərabər yenə səslərini çıxarmırlar. Çıxarmırlar, əvət, atəşi-fəlakət içində yanırlar da səslərini çıxarmaq istəməyirlər. Çünki çıxardıqları səsləri, qopardıqları fəryadları dinləyən, eşidən bir qulaq yox. Görən, göstərmək istəyən bir göz yox. Onlar üçün çırpınan, sızlayan bir qəlb yox.

İrəvanda yaşamaqda olan zavallıların halından ufacıq bir məlumat vermək üçün onların böyük bir məcburiyyət qarşısında qalaraq ehtiyatkar və mülayim bir qələmlə Naxçıvan hökumətinə göndərmiş olduqları ərzihaldan alınmış bir qaç maddəni möhtərəm qarelərin [oxucuların] nəzərinə ərz etməyi faydadan xali [faydasız] görməyirəm. İştə:

1) Gərnibasar tərəfində vaqe olan islam köylərinin yüzdə 90 əhalisi ata-baba yurdlarını, əşyasını buraxıb qaçmış.

2) Həmin köylərdən İrəvana köçmək istəyən irəvanlı müsəlmanların həpsinin ev əşyası, zəxirəsi [ərzağı], libasları, nəğd pulları, övrətlərinin qızıllarına kimi, əllərindən alınıb çılpaq və müflis şəhərə buraxılmış.

3) Zəngibasar mahalında müsəlman köylərində olan zəxirənin yüzdə 90 hissəsi ermənilər tərəfindən zəbt olunmuş, islam əhalisindən yüz min manatdan ziyadə cəbrən [zorla] pul alınmış, etiraz məqamında bulunanların bəzisi məqtul [qətl edilmiş] və bəzisi qaçmışlar.

4) Zeyldə [aşağıda] adları zikr olunan əşxas [şəxslər] şəhərin daxilində gündüz ermənilər tərəfindən soyulmuşlar:

1. Hacı Əlinağı;
2. Yusif bəy Qazıyev;
3. Hacıəli Hacıəsgərzadə;
4. Mirmehdi Mirqasım oğlu;
5. Mirməcid;
6. Kərbəlayi Cəfər külahduz [papaq- çı];
7. Mirzə Cabbar Əsgərzadə və yüzlərcə başqaları.

5) Genə şəhərin daxilində polis idarəsinin rəisləri [və] məmurlar tərəfindən soyulmuşlar:

1. Əkbər İsmayıl oğlu;
2. Məşhədi Mehdi Qasımov;
3. Mehdi Ordubadlı və yüzlərcə başqaları.

6) Polis məmurları, baxüsus [xüsusilə] üçüncü çastın [hissənin] rəisi hər gün bir neçə müsəlmanları küçə və bazardan bir bəhanə ilə polis idarəsinə gətirdib, yanlarında olan bahalı əşyasını alıb, özlərini həbs edirlər. Bir neçə gün saxladıqdan sonra məhbusların əqrəbasından bir neçə min manat alıb, onları azad edib, başqaları ilə bu rəftarda bulunmağa iqdam edirlər [başlayırlar].

7) Bir çox möhtərəm əşxasın evlərinə cəmiyyəti-kəsirə ilə [çox adamla] biizn [icazəsiz] daxil olub övrət-uşaqların libaslarını, qızıllarını və pullarını alıb getmişlər.

8) Terror dəstəsi (çətəsi) tərəfindən pul vermək üçün kağız alan əşxaslar:

1. Əkbər ağa Hüseynov;
2. Kərbəlayi Abdulla Yaqub oğlu;
3. Qəmbər Əliyev və başqaları.

Onların hər birisindən 12 min manatdan 50-60 min manata kimi istəyirlər. İstənilən miqdar məbləği verənlər azad, verməyənlərin bəzisi məqtul və bəzisi ailəsini bisahib buraxıb İrəvandan başqa yerlərə qaçmışlar.

9) Müsəlmanlara məxsus olan böyük imarətlərin əksəri ermənilər tərəfindən yanmış və yainki sökülüb uçurulmuş. O cümlədən, Aptek küçəsində vaqe olan

31 nömrəli Kopuşevin evi (həmin evdə ermənilərin üçüncü diviziya ştabı olurdu), Bazarnı küçədə Məşhədi Bağır Əliyevə məxsus olan ali imarət yandırılmış. Başqa dağılan evlərin hesabı yoxdur. Dərəkəndi məhəlləsi bütün dağıdılmış.

10) Müsəlmanları öz evlərindən çıxarıb böylə soyuq vaxtda "hara gedəcəksən get" əmrlərini verirlər. İştə bunun nəticəsi olaraq İrəvanda məscidlər və xarabalarda ürək yandırıcı dərəcədə fəna hallarda yaşayan müslimin [müsəlman] ailələri ilə dolmuş, bu yerlərdə sa-kin olanların əksəri soyuq və aclıqdan məhv olurlar.

11) Ali imarətlərin əksəri erməni hökuməti tərəfindən bilasəbəb [səbəbsiz] zəbt olunub, xanə sahibi[ni], bütün ailəsi ilə, bircə otağa sığınmağa məcbur edirlər.

12) Zəxirələri və pulları əllərindən alınmağa və qorxudan bir tərəfə çıxıb ticarətə, kəsbkara [işə-gücə] gedə bilmədiklərinə binaən [görə], İrəvan müsəlmanları iftiqara uğrayıb [möhtac qalıb], aclığa məhkum olmuşlar. Hərgah, bu yaxın zamanda onlara bilatəxir [dərhal] maddi və mənəvi imdad olunmazsa, büsbütün məhv olacaqları şübhəsizdir.

13) Şəhərin daxilində müsəlmanları dəhşətli əziyyət, məşəqqətlər və rəzalətlərə uğratmaq üçün xidmətdə bulunan dəstələr (çətələr):

1. Dəli Qazar partiyası [dəstəsi];
2. Anuşevan partiyası;
3. Koqol partiyası
4. Sumbat partiyası və hakəza [habelə] adları məzkur [adları çəkilən] adamların partiya üzvləri hər gün səhərdən axşama kimi işləri müsəlmanları soymaq və əziyyət verməkdən başqa deyil.

14) Bu qədər məzalimin [zülümün] qarşısında hansı müsəlman erməni hökumətinə şikayətə gedərsə, kəndisi məhbus olub, pul verməyincə azad olmayır. Fövqəlzikr məzalim [yuxarıda sadalanan zülümlər] həqiqətdə olan fənalıqların yüzdə biri deyil. Hərgah bir müfəttiş təyin olunarsa və işlərin təftişinə iqdam edərsə [başlarsa], o vaxt ürəklər partladıcı, ruhlar əzici hallar müşahidə olunması şübhəsizdir.

15) İrəvan müsəlmanlarını böylə fəna hallardan qurtarmaq üçün düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən bir nümayəndə İrəvana göndərilib ora islamlarını təhti-himayəsinə [himayəsi altına] alması vacibdir. Əks halda onlara nicat yolu olmayacağına şübhə yoxdur.

İştə, yuxarıda təsvir edilən maddələr İrəvan şəhərindəki islamların halını qismən anlatmış olur. Lakin məəttəəssüf [təəssüf ki], əhval şu yazılara nisbətən daha dəhşətli, daha qorxunc, daha bərbaddır. Bu dəhşət başqa şəhərlərcə məchul olsa da, Bakıca, Bakıda yaşayan türklərcə daha ruhaşina [başa düşülən], daha aydın olsa gərək. Çünki onlar qanun, üsul, insaf, mərhəmət tanımaz haydutların [quldurların], Türkiyədən azıb da Qafqaziyaya dağılmış qaxtaqanların bütün hüviyyətini [mahiyyətini], simasını, insaf və vicdanını keçən Mart hadisəsində layiqi ilə görüb duymuşlar. Həm də tam mənası ilə duymuşlar.

Şimdi İrəvan şəhərində ərzaq məsələsi, ərzağın bahalığı və yoxluğu, son dəhşəti ilə yerli əhalini qorxudur. Ufacıq bir anarşi və idarəsizlik də buna əlavə edilərsə, şübhəsiz anadan doğduğu gündən etibarən haqsızlığa, təərrüz [hücum] və





təcavüzə alışmış olan sapqın və azğın qaxtaqanların qanlı pəncələrindən qurtulmaq imkan xaricində olsa gərək. Günün günorta çağı yeyəcəyi yarım girvənkə əkməyini bir irəvanlı, bir İrəvan müsəlmanı saatlarca qapı-bacanı möhkəmcə qapamalı da, sonra yeyə bilməlidir. Çünki təcavüzkarlar əlindən xilas olmaq mümkün deyildir. Para soyğunluğu isə İrəvanda adi və təbii bir şəkil almışdır. İrz və namusa təərrüz isə, onu təsvir edib də qanları qaraltmaq, tükləri ürpərtmək istəməm. Hər halda, millətimiz və hökumətimiz sürətlə bu fəlakətlərin önünü almalıdır. Azərbaycan Hökuməti daxilində və Naxçıvan tərəfində hali-təslimdə yaşayan ermənilərə nasıl baxılırsa, erməni hökuməti daxilində yaşayan islamalara da o gözlə baxılmalıdır.

İrəvandakı islamların halına baxmaq, şikayətinə yetişmək üçün bir müddət var ki, bir nəfər fransız nümayəndəsi oturur. Məəttəəssüf, məzkur nümayəndə də islamlar içində deyil, yalnız erməni məhəlləsində yaşayır və daima erməni kontrolu altında bulunur. İştə onun üçün də kimsə şikayətə yol bulammayır və bütün təcavüzlər mühakiməsiz qalır.

Fəqət bu günlərdə Azərbaycan Cümhuriyyəti tərəfindən İrəvana göndərilmiş olan [Məhəmməd] Xan Təkinski nəzərə alındıqda, insan azacıq təsəlli bulmuş olur. Ancaq hər halda dürlü-dürlü vasitələrlə İrəvan və ətrafında yaşayan və erməni təbəəsi sayılan islamların acı fəryadlarına qulaq verib də ciddi təşəbbüsatda bulunmaq Azərbaycan Hökumətinin yeganə milli və dini borcu olduğu varəsteyi-iştibahdır [şübhəsizdir].

*Elçi*

## AXISKALILAR HÖKUMƏTİ

1918-də dekabrın 5-də gürcü əsgəri camaatın rizalığı ilə Axıskaya daxil oldu. Camaat demokrat hökumətdən rahatlıq, ucuzluq, müavinət [yardım], ədalət və insaniyyət ümid edirdi. Hər gün gözünü ertəsi günə, gələcəyə dikmişdi. Günlər keçdi, həftələr keçdi, aylar keçdi, lakin köylü ümid etdiyi rahat və səadəti görəmmədi. İrəliyə, daima irəliyə baxırdı. İki ay keçmişdi, lakin hər gün artan zülüm, qarət və həqarət keçən günlərə rəhmət oxudurdu. Bu sırada idi ki, Məclisi-Müəssisan seçkiləri başlandı.

Deyirlərdi ki, Məclisi-Müəssisana iştirak etsəniz, hər dərdinizə dərman olacaq. Siz keçmişlərə baxmayın. Gələcəyiniz, inşallah, yaxşı olacaqdır, deyirlərdi. Amma camaat görəcəyini görmüşdü. Artıq şarlatanlara inanmaq istəməyirlərdi. Gələcəyi hazırdan qiyas edəmməyirlərdi.

Bu səbəbə idi ki, bu zalım hökumət idarəsindən xilas olmaq fikrinə düşməyə məcbur oldular. Böylə zalım bir idarə altında bulunmaq istəmədiklərini Məclisi-Müəssisana iştirak etməməklə elan eylədilər.

Lakin bununla qalmadılar:

Fevralın ibtidalarında [əvvəllərində] 400-500 fədai qüvvəti ilə dörd-beş minlik bir qüvvəti Axıska və Axalkələk uyezdlərindən sürüb çıxardılar. Uyezdlərdə qayət adilanə hökumət qurdular. Bütün ufaq millətlərə hər dürlü hürriyyət və ədalət bəxş etdilər. Ən demokrat bir üsuli-idarə ilə hər kəsi məmnun etdilər. Az vaxtda hər dürlü əsgəri və mülki, ictimai idarələr təsis etdilər. Həqiqət[ən],

inanılmayacaq bir əsəri-mədəniyyət göstərdilər.

11 fevral - 11 marta qədər davam edən bir aylıq hökumətlərində bütün erməni, rus, yəhudi və hətta gürcülər son dərəcə məmnun qaldılar. Heç bir yerdə nə bir qarət, nə də bir qətl vüquya [meydana] gəlmədi.

Heyf ki, bütün qüvvətlərini idarə işlərinə verib, əsgəri təşkilata kamalınca baxammadılar və gürcülərin bir daha zalimanə hücum edəcəklərini xatirlərinə gətirmədilər. Gətirmədilər də, on-on beş minlik vəhşi bir qüvvətin hücumuna qəflətən düçar olub, dünyada təsəvvür olunmayan qətliama məruz qaldılar.

Bütün erməni və qeyri [digər] münsif [insaflı, vicdanlı] qəzetlərin mədh və tərif eylədikləri bu bir aylıq Axıska müsəlman hökumətini qərəzkarlar – gürcülər, vəhşi quldur bir hökumət deyə qəzetlərdə yazmamış böhtan və iftiralar qoymadılar. Heyif ki, "Azərbaycan" qəzeti də bilmədən bu qərəzkar qəzetlərin yazdıqlarını 16 mart tarixli "Azərbaycan"da nəşr eylədi. Bu kağızımla Axıska xüsusda edilən tərcümələrin tamamilə yalan və iftira olduqlarını ərz ilə yazdıqlarımın qəbul və nəşrini rica edirəm, əfəndim.

*Ə. H.*

## BAKI XƏBƏRLƏRİ

### Kantemirin xəstəliyi

Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyətinin Azərbaycan Hökuməti nəzdindəki siyasi nümayəndəsi Əlixan Kantemir yüngül surətdə olaraq "ispanyol" [ispan qripi] ilə xəstələnmiş və dörd gündür evdən kənara çıxmayır.

### Dilənçi uşaqlar haqqında

Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Daxiliyyə nazirinə müraciətən məlum etmişdir ki, axır vaxtlar şəhərin küçələrində cırıq və çirk paltarlarla xırda uşaqlar gəzərək, küçədən keçənlərə əl açaraq pul istəyirlər və bundan əlavə, onların natəmiz olaraq şəhərin içində gəzmələri müsri [yoluxucu] xəstələrin daha da artmasına səbəb ola bilər. Buna binaən [buna görə] nazir rica edir ki, uşaqları küçədən təmizləmək üçün təşkil edilmiş olan uşaqlar bürosuna yardım edilsin. Bu barədə Daxiliyyə naziri tərəfindən Bakı qubernatoruna lazımi binagüzarlıq [sərəncam] göndərilmişdir.

### Təkzib

Bizdən rica edirlər ki, məlum edək ki, Cibaliyyun İttifaqı Hökumətinin rəisi Pşemaxo Kotsev istefa verib Kabarda okruquna general-qubernator təyin edilməsi barəsində "İskra" və "Znamya truda" qəzetələrinin verdikləri xəbər doğru deyildir.

### Cabaqiyevin vürudu [gəlişi]

Dünən sürət qatarı ilə Cibaliyyun İttifaqı Hökumətinin Maliyyə naziri Cabaqiyev Tiflisdən Bakıya varid olmuşdur [gəlmişdir]. Mümaileyh [adı çəkilən şəxs] bir gün burada iqamət etdikdən sonra Teymurxanşuraya hərəkət edəcəkdir.

### Keşlədə

Yekşənbə [bazar] günü, martın 16-sında, Keşlə kəndində Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Keşlə şöbəsinin ümumi iclası vaqe oldu. İclasda ümum üzvlər, kəndlilər və Çornı-qorod əmələləri hazır olmuşlardı. İclas Hacı Zamanqulu Quliyevin sədarəti altında açılıb, şöbənin heyəti-idarə intixabı [idarə heyəti seçkisi] məsələsi müzakirə edilib, müttəfiqülqövl olaraq [yekdilliklə] zeyldəki [aşağıdakı] şəxslər intixab edilirlər:

Məşhədi Əli Əlizadə, Əsəd Hacı Baqi oğlu, Baladadaş Vəlizadə, Kərbəlayi Süleyman Axundzadə, Məşhədi Hüseynqulu Vəlizadə, Kərbəlayi Əlişah Rzaquluzadə, Möhsün Hacı Salah oğlu, Məşhədi İsmayıl, Hacı Mikayıl və Balarza Rzayev.

Seçkidən sonra, Piri əfəndi Mürsəlzadə "Azərbaycanın indiki halı" mövzusunda mühazirə oxuyub, Azərbaycan istiqlaliyyətinin tarixindən və indiki siyasi, ictimai və iqtisadi vəziyyətindən bəhs və iki saat davam edən mühazirəsinin axırında şimali qafqaziyalıların Denikin ordusunun xainanə hərəkat və təcavüzünə məruz qaldıqlarını bəyanla, onlara kömək lüzumunu camaata təlqin etdi. Mühazirədən sonra iclas əhvali-hazirə [mövcud vəziyyət] haqqında müzakirədə bulunub, nəhayət zeyldəki [aşağıdakı] qətnaməni qəbul edir:

*"Biz Keşlə kəndi camaatı və Çornı-qorod əmələləri [fəhlələri] əhvali-hazirə və həmçinin Denikin ordusunun Şimali Qafqaziya və Dağıstan torpağına soxulması haqqında müzakiratda bulunub, ona qarşı qəti surətdə protesto edərək, hökumətdən şimali qafqaziyalı qardaşlarımıza kömək edilməsini tələb etməklə bərabər, özümüzün dəxi hər növ fədakarlığa hazır olduğumuzu bildiririz."*

Bundan sonra, camaatın ehtiyacı olan bəzi məsələlər müzakirə və həll edilmişdir. O cümlədən ərzaq, su və əmələlərlə iş sahibləri arasında olan ixtilaf barəsində müzakirə edilib, bu barədə Mərkəzi Komitəyə müraciət edilməsi təhti-qərara alınmışdır.

### Balaxanıda mühazirə

Bu gün martın 19-da Balaxanı kəndində Böyük məsciddə Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Balaxanı şöbəsi tərəfindən Piri əfəndi Mürsəlzadə, "Hökumət böhranı və Məclisi-Məbusan" mövzusunda mühazirə oxuyacaqdır. Mühazirə gündüz saat üç tamamda başlanacaqdır.

## GÜRCÜSTANDA

### Dəmiryol komissiyası

Ermənistan Hökuməti Zaqafqaziya dəmiryollarının ümumi idarə olunması haqqında İngiltərə komandanlığı layihəsinə razı olub, Gürcüstanda olan erməni heyətinə həvalə etmişdir ki, dəmiryol komissiyasına iki nümayəndə təyin etsin.

### Rus dili

Azərbaycan ilə Gürcüstan arasındakı sazişə görə, dəmiryolunda yük və qeyri sənədlər rus dilində aparılacaqdır.

### Valyuta

Gəldikcə artmaqda olan bahalığı rəf [aradan qaldırmaq] və ticarət bazarını qaydaya salmaqdan ötrü Zaqafqaziyada işlənilməkdə olan pulların valyutasını qaldırmaq vasitələrinə baxmaq üçün Maliyyə Nəzarəti nəzdində xüsusi bir komissiya təşkil edilmişdir.

**Gürcüstanın Azərbaycan notasına cavabı**

Bakı, Xariciyyə nazirinə

Surəti Gürcüstan nümayəndəsi Kartsivadzeyə

44 nömrəli teleqrafınıza hökumət öz təəccübünü izhar etməyə bilməyir. Sizin bu cür teleqrafınız Gürcüstan Cümhuriyyətinin daxili işlərinə qarışmaqdan ibarətdir. Bu hər iki millətin bəradəranə [qar-daşca] əlaqə və münasibatına [mü-nasi-bətlərinə] ziddir. Gürcüstan Hökuməti bəyan edir ki, o, qeyrlərinin hüququna hörmət etməyə adət etmişdir. Bunu da bizə dost olan Azərbaycan Cümhuriyyətindən gözləyiriz. Axıska uyezdi hər növ ixtilaf xaricində olaraq Gürcüstan torpağına daxildir. Bu mahalın ümuri-idarəsinə [idarə işlərinə] ancaq Gürcüstan Hökuməti məsuldur.

*Xariciyyə naziri: Gegeçkori*
*12 mart 1919*

**TEATRO VƏ MUSİQİ**

Bazar günü martın 23-ündə, Hökumət Teatrosunda Qafqaziya Müsəlman Mütəəlimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi nəfinə [xeyrinə] teatro və müsamirə tərtib edilir. Biletlər bu aşağıdakı adreslərdə satılır: Şamaxınski küçədə Tağıyevin dükanında, Qubernski küçədə "İslamiyyə" mehmanxanasında, Nikolayevski küçədə Kazımzadə və Şərifzadənin dükanında. Mütəəllimlərə məxsus biletlər Mərkəzi Komitədə 15 manata satılmaqdadır.

* * *

Mart ayının 24-ündə, düşənbə [bazar ertəsi] günü qızıl və gümüş sənətkarlarının müstəhliklər [istehlakçılar] cəmiyyəti tərəfindən Maarif şöbəsinin nəfinə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır müsəlmanca operetta "Arşın mal alan" əsəri-Üzeyir bəy Hacıbəyov, ikinci pərdəsi; və rus dilində "Geyşa" üç pərdəli operetta; axırıncı pərdədə divertisment balet. Biletləri cəmiyyətin kooperatif dükanlarından almaq mümkündür.

**İZHARİ-TƏŞƏKKÜR**

Möhtərəm müdir əfəndi!

Təvəqqe edirəm mənim bu məktubuma qəzetənizdə yer verəsiniz. Məlumdur ki, bu ağır və ziyadə bahalıq vaxtında leyli (pansiyonlu) məktəb saxlamaq ziyadə müşkül bir əmrdir [işdir]. Qırx sənə boyu Qori şəhərində Zaqafqaziya darülmüəlliminin cənbində [seminariyasının nəzdində] davam etməkdə olan müsəlman şöbəsini keçən sentyabr ayında Allahın köməkliyi ilə Qoridən Qazaxa köçürmək bizə müyəssər oldu və burada məzkur [deyilən] şöbə müstəqil və milli bir darülmüəllimin şəklinə girdi. Əlan [indi] 50 nəfərdən ziyadə şagirdlər təlim və tərbiyə almaqdadırlar. Məktəbin idarəsi üçün hökumətimiz müəyyən bir məbləğ buraxmışdı ki, ancaq tələbələrin yemək və içməyinə, ev kirayəsinə, odununa və neftinə və təlimata [təlim prosesinə] məxsus əşyanın mühəyya [hazır] olunmasına kifayət edirdi. Əlbisə və ayaqqabı üçün para verilməmişdi. Verilməsi məmul deyildi [tələb edilmirdi]. Əzbəski [ona görə ki], onların alınması dövlətə ağır oturardı.





Bir tərəfdən də darülmüəllimlinə daxil olan şagirdlərin əksəri fəqir kəndçilərin uşaqları olduğu üçün ziyadə mündəris [çox köhnə], cırıq və pərişan libaslarda idilər. Belə ki, əsla şagirdlərə oxşamazdılar. Darülmüəlliminin müdiri və müəllimləri bu halı nəzərə aluban belə qərar qoydular ki, onlara bir tərz və tövrdə (formada) mümkün olduqca ucuz qiymətə libas tikdirilsin və onun üçün ən münasibraqı qara rəngli ləzgi şalı oldu. Təvanası [imkanı] olan şagirdlərə öz xərcinə, olmayanlara ianə təriqi [yolu] ilə para toplanıb libas tikdirildi. Əlan [indi] şagirdlərin hamısı bir libasa girib şagirdlərə bənzəyirlər. İanə edən möhtərəm şəxslərin adlarını aşağıda zikr edib, cümləsinə şagirdlərin tərəfindən və öz tərəfimizdən təşəkkür etməyi borc bilirik.

İanə edənlər:

Mədinə xanım Qiyasbəyzadə - 400 manat

İsfəndiyar bəy Muradzadə - 400 manat

İsmayıl ağa Qiyasbəyzadə - 400 manat

Cahangir bəy Şıxəli - 400 manat

Həmid Əfəndizadə - 400 manat

Molla Yusif Əfəndizadə - 400 manat

Rəhim bəy Vəkilzadə (Parlaman üzvü) - 400 manat

Mustafa Eyyubzadə - 400 manat

Hüseyn ağa Sübhanverdixanzadə - 400 manat

Hacı Rəhim ağa Sübhanverdixanzadə - 400 manat

Eyyub Eyyubzadə - 400 manat

Mərhumə Müqəddimətünnisa xanım Qaibzadənin adına ehsan - 640 manat

Cümlətanı - 5 min 40 manat

Xüsusən, Qazax qəzasının rəisi İsfəndiyar bəy Muradzadə cənablarına rizaməndlik izhar etməyi özümə borc bilirəm. Bu cənab, darülmüəllimin buraya köçən günündən imdiyəcən onun hər qisim qeydinə qalıb, maddi və mənəvi ehtiyacatını təmin etməyə canü-dildən çalışır. Bundan əlavə, Daş Salahlı sakini Kazım ağa Paşazadə ətin bu bahalıq vaxtında darülmüəllimin şagirdlərinə bir cöngə bağışlamağının və qazıqumuqlu Səid Hacızadə şagirdlərin libası üçün ucuz qiymətə şal verməyinin əvəzində hər ikisinə razılıq edirəm və həmçinin Şıxlı və Salahlı camaatına ki, bəziləri məccanən [pulsuz] və bəziləri ucuz qiymətə məktəbə odun verməklərinin əvəzində razılıq edirəm. Darülmüəllimin az bir vaxtda tamami Qazax uyezdinin [qəzasının] əhalisi nəzərində rəğbət və hörmət kəsb etməsi [qazanması] şayani-təqdir və təhsindir [təqdirə və alqışa layiqdir]. Bu hal isə çəkdiyimiz zəhmət və məşəqqəti xeyli yüngülləşdirir.

Cənabi-haqq cümləsindən razı olsun.

*Qazax darülmüəlliminin müdiri:*
*F. Köçərli*
*5 mart 1919, Qazax*

**Türk dili müəllimi**

Xüsusi bir surətdə türkcə lisan, riyaziyyat, təbiiyyat [fizika], tarix və sair dərslərdən oxumağa arzu edən tələbə əfəndilər hər gün saat 4-dən 5-ə qədər aşağıdakı adresə müraciət etməlidirlər:

Spasski və Kamenisti küçələrin küncündə, nömrə 34.

*5757*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Satılır**

Qırmızı stilnoy mebel, qostinnaya, qırmızı spalniya, stolovaya, kabinə, qırmızı büro, yumuşaq mebel, böyük xalçalar, şəkillər.

Ünvan: Tarqovı küçə nömrə 29, Musa Nağıyevin evində ikinci mərtəbə, ev nömrə 2. Baxmaq olar saat 11[-dən] 2-yədək və 4[-dən] 6-yadək. Dəllalların gəlməməsi rica olunur.

*5758*

**Elan**

Salyan ünas məktəbi-ibtidaisi [qız ibtidai məktəbi] üçün iki türk müəlliməsi lazımdır. Xahiş edən xanımlar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

Bununla ümuma elan edirəm ki, Qubernski küçədə 43-45 nömrəli Hacı Nemət Seydiyevin evini 72 ilə icarə edib və zaprodaj [qabaqcadan satış] ilə almışam. Həman evi, varislərdən Əziz bəy Yusifbəyov satmaq istərsə heç kəs almasın.

*Ağamirzə Cavadov*
*5756*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Yeni Kabinə təşkilinə aid**

səh. 289. "badustan mürüvvət, badüşmənan müdara": "dostlarla insaflı davranıb, düşmənləri yola ver" (farsca)

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 291. "Hərgah yövmiyyə müzakiratın...": qəzetdə "müzakiratın" yerinə "müzakiratının" getmişdir.

səh. 293. "C) Müqtəzi məbləğ aşkar olduqca...": qəzetdə maddələr ərəb qrafikalı Azərbaycan əlifbasının hərf sırasına uyğun işarələnmişdir, bu maddə "P" kimi verilmişdir.

**Teleqraf xəbərləri**

səh. 294. "...Kottin məhkəmeyi-hərbiyyə tərəfindən edam cəzasına məhkum edilmişdir.": Kottin haqqında verilən edam qərarı daha sonra 10 illik həbs cəzasına dəyişdirilmişdir. Kottin İspaniyada vətəndaş müharibəsində iştirak etmiş və döyüşdə həlak olmuşdur.

"D. N.": İngiltərədə nəşr olunan gündəlik "Deyli nyus" [The Daily News] qəzeti nəzərdə tutulur.

"Avamlar Kamerasında": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**İran işləri**

səh. 297. "...bir dəstə bəxtiyarlar...": güman ki, İranda Çahar-Mahal və Bəxtiyari, Xuzistan, Luristan, İsfahan ostanlarında yaşayan bəxtiyarilər etnik qrupu nəzərdə tutulur.

**İrəvan əhvalından**

səh. 300. "qaxtaqan": ermənicə "qaçqın" deməkdir.

**Axıskalılar hökuməti**

səh. 302. "Ə. H.": bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

**Teatro və musiqi**

səh. 304. "Geyşa" [The Geisha]: Britaniyalı bəstəkar Sidni Consun operettası. İlk dəfə 1896-cı ildə səhnəyə qoyulmuşdur. Librettosunu Oven Holl, şeirlərini Harri Qrinbank yazmışdır.

"divertisment": əsas tamaşa yaxud konsertə əlavə olaraq göstərilən musiqili yaxud dramatik hissə.

**Türk dili müəllimi**

səh. 305. "Spasski və Kamenisti küçələrin küncündə...": Spasski indiki Zərgər-palan, Kamenisti isə indiki Bəşir Səfəroğlu küçəsidir. Qəzetdə "Kamenisti" yerinə "Kamenski" getmişdir.



*"Azərbaycan" qəzetinin 141-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə axşamı, 20 mart 1919-cu il, nömrə 141**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 17 cəmadiyəlaxir sənə 1337. 20 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

1919 sənəsi mart ayının 20-sində, pəncşənbə [cümə axşamı] günü, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

*T-73*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrnamələri:

Əmrnamə № 89

Qaimməqam [qəza rəisi] Nağı bəy Əlizadə 1919 sənəsi mart ayının 15-indən etibarən Azərbaycan Məclisi-Məbusanı qorucu bölüyü komandanlığına təyin edilir.

Əmrnamə № 90

Yüzbaşı İsmail bəy Haşımbəyov 1919 sənəsi mart ayının 19-undan etibarən Azərbaycan Məclisi-Məbusanı qorucu bölüyü komandanının müavinliyinə təyin edilir.

*Məclisi-Məbusan rəisi naminə rəis müavini doktor Həsən bəy Ağayev*
*Mətninə mütabiqdir*
*Kargüzar C. Paşazadə*

## HANGİ KABİNƏ XEYİRLİDİR?

Parlamanımız yeni güşadında [açılışında] intixab etdiyi [seçdiyi] Kabinə ancaq iki ay ömür sürüb istefasını verdiyini həpimiz biliriz. Müttəfiqlər komandanı ilk əvvəl Bakıya varid olan günlərdə nisfi [yarısı] rus və erməni, nisfi məhəlli [yerli] türklərdən olmaq üzrə 12 adamdan ibarət yenidən bir Kabinənin təşəkkülünü təklif etmişdirsə də, Rəisi-Kabinəmiz Fətəli xan həzrətlərinin məharəti-siyasiyyəsi bərəkəti ilə nisf sülsə [üçdə birə] endirilmiş idi. Müttəfiqlər komandanı Tomsonun işbu təklifi bizi düşmənlərimizin təqdimi ilə tanıdığı bir vaxtda vaqe olmuşdur. Onların təqdimi ilə tanındığımız bir vaxtda böylə təklifin edilməsi təbiidir də. Nəsib bəy həzrətlərinin təhti-rəyasətində [rəyasəti altında] təşkil edilməkdə olan Kabinədə dəxi həman süls yenə bulunmalı imiş. İştə bu haqda bir neçə söz söyləməzdən əvvəl yeni Kabinədən nələr ümid etdiyimizi mücmələn [qısaca] söyləmək məcburiyyətində bulunuruz:

1) Müttəfiqlər və qonşu millətlərlə olan münasibətimizi daha eyiləşdirmək.

2) Daxili nizam və intizamı gözəl tərtibə salmaq.

3) Əski Kabinə vaxtında bütün idarələrdə olan xəyanətləri aşkar edib, xain və möhtəkirləri təhti-mühakiməyə vermək.

4) Hökumət idarə və müəssisələri-ni türkləşdirmək.

Qərəz, bu dörd maddəni yeni Kabinə ifa və icra etməyə ibtidar edərsə [təşəbbüs edərsə], əhalinin hüsn-təvəccöhünü qazanacağına əminiz.

Azərbaycan Cümhuriyyəti Azəri türklərin cümhuriyyəti deməkdir. O Azəri türklər ki, hər bir məfhumu ifadə edəcək gözəl lisanı, ədəbiyyatı vardır. Fəqət [hangi] idarəyə girsək, hangi ziyalı ilə qonuşsaq, rus yazısı görməyə, rus əlfazı [kəlmələri] eşitməyə məcbur oluruz. Hətta türkcə verilən bir ərzihalın ruscaya tərcümə edilməsi lüzumunu dərmiyan edən [meydana atan] türk nazirini hekayə edirlər.

Yeni təşkil edilməkdə olan Kabinə daxilində rus və erməni nazirləri bulunmalı, fəqət fövqdə məzkur [yuxarıda deyilən] maddələrin yerinə yetirilməsi üçün bunlar hər halda Kabinəyə "bezpartvel" [portfelsiz] surətdə iştirak etməlidirlər.

İngilislər həməvaxt [hər zaman] "sizin indiki və gələcək səadətiniz bizim iradəmizə bağlıdır" deyirlər. Bunu qismən ancaq indi təsdiq etməmizlə bərabər, biz de deyiriz: "30 milyon ingilislər təhti-idarələrində hesab etdikləri 150 milyondan fəzlə müsəlmanların məhəbbətini kəndilərinə cəlb etsələr, onların diləklərini yerinə yetirsələr faydadan xali [faydasız] olmaz zənnindəyiz."

Ona görə, istiqlaliyyətlərini bizimlə bir vaxtda elan edən qonşumuz gürcülər və ermənilərə təklif etməyən bir şeyi, əhalisi türk, eyni zamanda islam olan Azərbaycan Cümhuriyyətinə də təklif etməz. Təklif etmiş olsa, bir o qədər israr göstərməz. Gürcüstan və Ermənistan kabinələrində lüzum görülməyən bir şey, bizim Kabinəmizdə də gərək görülməsin.

Təkrar deyiriz, Müttəfiqlərin etdikləri təklif bizi düşmən təqdimi ilə tanıdığı bir vaxtda vaqe olmuşdur. İndi öylə təkliflər edilməz. Son həftələrdə Müttəfiqlər komandanının hökumətimiz ilə olan hüsn-müamiləsindən böylə təkliflərdə israr göstərilməyəcəyinə əminiz.

Cümhuriyyətimiz daxilində xristian 15-18 faiz olduğu halda, Parlamanımızın üçdə biri xristiandır. Biz bundan ənsəmi-mülqəlb [səmimi qəlbdən] razıyız. Çünki, məqsədimiz demokratiya əsası üzrə bir cümhuriyyət təsis etmək və bunu da bilfeil [əməli olaraq] göstərməkdir. Bu məqsədə məbni [əsasən] Kabinəmizdə də rus, erməni millətlərinin iştirakını tələb ediriz. Fəqət idarələrimizin əlan [indi] milliləşməsinə mane olmayan bir təriq [yol] ilə iştirak etmələrini istəriz. Bu da yuxarıda ərz etdiyim kimi ancaq "partvelsiz" iştirak etməklə ola bilər. Ruslar, ermənilər dəxi buna razı olar ümidindəyiz.

Nəzarətin [nazirliyin] ədədi dəxi hər halda səkkizdən ziyadə olmamalı. Şəxs üçün Nəzarətləri artırmaq deyil, Nəzarət üçün şəxsi axtarmaq əsasını göz önündə tutmalı. Səkkizdən ziyadə olmamaq əsası qəbul edilərsə, erməni və ruslardan biri kifayət edər.

Biz də bir kərə mövcudiyyətimizi bildirəlim. Dilsiz deyil dilli, ədəbiyyatlı, istedadlı və həssas bir millət olduğumuzu göstərəlim.

*Bayram Niyazi Kiçikxanlı*





## QAÇQINLARA ƏRZAQMI, SƏNƏTMİ?

Qarabağdan Məclisi-Məbusan sədri naminə göndərilmiş teleqramında Səfərov cənabları yazır ki, ərzaq şeylərinin məccani [pulsuz] paylanması qaçqınların əxlaqını fəna bir hala salmışdır. "Vaxta ki, hökumət verir nə üçün almayaq" deyə yüzlərcə bədəni salamat müftəxorlar xeyriyyə idarəsi ətrafına toplaşıb özlərinə məccanən [pulsuz] xörək və libas tələb edirlər.

İştə, qaş qayırılarkən göz çıxarılır! Möhtaclara imdad əvəzinə, bir dəstə müftəxor güruhu tərbiyələnir ki, buna yevropalılar "parazitizm" deyirlər. Parazitizm bundan ibarətdir ki, nəbatat arasında bəzi müftəxor otlar vardır. Bunlar torpaq üzərində yaşamayıb bəzi ağacların qabığında məskən salırlar. Ağacın rişəsi [kökü] ənvai zəhmətlə torpaqdan xörək hasil edir. Müftəxor otlar (parazitlər) heç bir zəhmət çəkməyərək ağacın xörəyinə şərik olur, müftəcə bəslənir. Bir neçə ildən sonra ağac bu iki nəfsi [iki canı] – həm özünü və həm də paraziti bəsləməkdən aciz qalır, yorulur, zəifləşir və axırda da quruyub tələf olur. Hərgah bu parazitlər ağaca ariz olmasaydı [sonradan meydana çıxıb ağaca yapışmasaydı], yəqin ki, biçarə ağac uzun müddətlərcə ömür sürəcəkdi.

Parazitlik yaxud bizim təbircə özgə kisəsindən yemək adəti, nəbatat arasında olduğu kimi heyvanat və ələlxüsus bəni-növi-bəşər arasında da mövcuddur. Fərz edəlim ki, beş əzalı [üzvlü] bir ailənin ancaq bir rəisi çörək qazanır, xörək tədarük edə bilir. Qalan dörd nəfəri isə müftəxor olaraq rəisin mədaxili ilə yaşayırlar. Biçarə rəis beş nəfərin xörəyini hasil etmək üçün beş dəfə də artıq çalışmalıdır. Odur ki, bu dərəcədə fövqəladə zəhmətə bədən tab gətirməyib, gün-gündən əriyir, sısqalaşır və günlərin birində də fövt olub, sair üzvlərin də pərişanlığına bais olur.

Bir dudman [nəsil; ailə] ki, onun qismiəzəmi [çox hissəsi] əlinin zəhməti ilə yaşaya, o dudmanın əsası qərinələrcə pozulmaz. Bərəks [əksinə], bir familiya ki, onun müftəxoru çox ola, o familiyanın da ömrü çox uzun çəkməz. Bu cəhətdən dünyada ən məsud bir millət varsa, o da yəhudi millətidir. Yəhudi ailələrində müftəxor üzv tapılmaz. Uşaqdan böyüyə qədər, hətta arvadlar da iş dalınca gedərlər, zəhmətkeşliyi çox sevərlər. Odur ki, aralarında sailləri [dilənçiləri], ianəyə möhtacları çox az olur və bəlkə də heç olmaz.

Müftəxorluq bir mərəzdir ki, əhalinin cəhaləti bununla ölçülür. Müftəxorluq artdıqca tənəzzül və əskildikcə də tərəqqi əlaməti və aşkar dəlilləridir.

Söz yoxdur ki, sağlam bədənə malik olmayan şikəst və əlil şəxslər müftəxorlardan məhsub [hesab] olmazlar. Bunlar müstəhəqqən [haqlı olaraq] ianəyə möhtac biçarələrdir ki, millətin nəzəri müdam bunların üstündə gərək olsun. Burada müftəxorlardan məqsəd o şəxslərdir ki, əzayi-bədəni [bədəninin orqanları] salamat olduğu halda işə getməzlər, özgənin hesabına yaşayarlar.

Şərqə doğru getdikcə müftəxorların ədədi artır, qərbə doğru əskilir. Səbəbi isə qərbdə mədəni və şərqdə avam millətlər yaşayırlar. Millət avam olduqca, müftəxoru da çox olur.

Qərb əhli müftəxorluğu cinayət züm-

rəsinə daxil edərək parazitlərə də çox alçaq bir nəzərlə baxırlar. Odur ki, onların arasında salamat bədənli müftəxor sinifi olmaz. Zatən hökumətləri də böylə sinifin yaradışına müsaidə göstərməzlər. Çünki, anlamışlar ki, hər bir cinayətin ümmülfəsadı [anası; mənbəyi] həmin bu müftəxorluqdur.

Müftəxorun pərəstarı [qoruyucusu], çörək verəni fövt olarsa, sair bir pərəstar axtaracaqdır. Bu da mümkün olmasa oğurluq, quldurluq, qarət və adam öldürmək kimi cinayətlər vasitəsi ilə çörək və güzəran hasil edəcəkdir. İştə, insan uşaqlığından gərək müftəxorluğa adət etməsin. Adət edərsə, tul [uzun] müddətlərcə atasının müftə çörəyini yeyərsə, vəliyyünneməsi [bəsləyəni, vəlineməti] vəfatından sonra naməşru [qanunsuz] hərəkətlərlə adət etdiyi müftəxorluğa davam edəcəkdir. Uşaqlarını məktəbə verməyib, bir sənətə də qoymayan valideyn Allah hüzurunda şəriətcə məsul olduğu kimi, millət müqabilində də məsuldur. Zira zəhmətkeş və nafe [faydalı] bir ünsür əvəzinə, millətin asayişini pozan bir müftəxor cani yaradır ki, əhalinin məişətini xələldar edəcəkdir.

Tarix bunu göstərir ki, kəndlilər azad olanadək rus bəylərinin, knyazlarının ixtiyarında bir çox torpaqlar, kəndlər var idi. Əllərini ağdan qaraya vurmayaraq hər il kənd əhlindən istədikləri qədər mədaxil alıb, böyləcə müftəxorluğa nəslənbənəsl [nəsildən-nəsilə] adətkərdə olmuşdular. Kəndlilər azad olunduqdan sonra müftə mədaxildən məhrum olmuş knyazlar, quldur dəstələri tərtib verib əhalini biri-birinə soydururdular. Qarət olmuş mallar bunların evlərində, anbarlarında "xakriz" olunurdu [ortaya qoyulub bölünürdü]. Mal sahibləri mallarının kimə qismət olduğunu məxficə öyrənib böyük pullarla geri alırdılar. Quldur bəyzadələrin əlindən əhali təngə gəlmişdi. Müftəxorluq adəti uşaqlıqdan bunların qanlarına, iliklərinə yerimiş idi. Buna hökumət ayrı bir çarə tapmayaraq, knyaz uşaqları üçün xüsusi dvoryanlar məktəbləri açdırdı. Banklardan yüngül faizlə bunlara borc pullar buraxıldı. Otuz-qırx ildən sonra rus bəyzadələri mürurі-zamanla [vaxt keçdikcə] mədəniləşib işləmək və zəhmət tərəfdarı oldular.

Atalardan əlavə müftəxorluğun davamına bir də əhalinin özü bais olur. Talan və qarət olunmuş zərərdidələrə [zərərçəkənlərə] müavinət [köməklik] lazımdır. Lakin bir günün yaxud bir neçə günün məsarifi üçün beş-on manat pul ətası ilə bunların maddi ehtiyacları rəf olunmaz [aradan qaldırıla bilməz]. Bəlkə bu müftəxorluğa doğru atılmış birinci qədəmdir. İanənin mənbəyini öyrənmiş zərərdidələr bunun yenə təkrarən edilməsinə ümidvar olaraq bir sənət, bir kəsbkarlıq [iş] dalınca getməzlər. İanənin ikinci dəfə verilməsinə müvəffəq olarlarsa, əbədən [qətiyyən] zəhmətə yaxın düşməyib, müftəxorluq bəlasına tamamən mübtəla olacaqlar ki, axırı da oğurluq və qarətçiliklə tamam olacaqdır. Halbuki, əzayi-bədəni salamat zərərdidələrə yaxud qaçqınlara bir faydalı məşğuliyyət tapmaq lazımdır ki, onun vasitəsi ilə maddi ehtiyacını rəf edə bilsin.

Əli-qolu sağ bir fəhlə sabiq hökümdarlardan birisinə küçədə rast gələrək ondan bir cörək pulu istəyir. Hökümdar yaxın bir maqazinə gedib bir balta alır. "Bu, sənə bir günlük deyil, hər günlük çörəkdir" deyə baltanı fəhləyə uzatdı. Fəhlə baltanı götürüb odunçuluğa getdi və onun vasitəsi ilə hər günün ruzisini rahatça qazanırdı.

İştə, Qarabağ qaçqınlarına ərzaq paylamaqla kömək olmaz. Bunun axırkı nəticəsi müftəxorluqdur, yəni öz əlimizlə öz əhalimizi quldurluğa, oğurluğa hazır edirik! Bu sonraki fənalıqları hökumət ricalı [adamları] düşünüb də salamat qaçqınları bir iş görməyə vadar etsin. Məgər bunlar əsgərlərimiz[in] ehtiyacı üçün şal toxuya bilməzlərmi? Səfərov cənabı demişkən xali [boş] yerləri əkə bilməzlər? Ata-babadan bunlar əkinçidirlər. Qoy getsinlər, əkinlə məşğul olsunlar. Əlbəttə, bunlara lazım olan mayehtacı [avadanlığı] hökumət gərək qabaqca hazır etsin. Böylə bir əhəmiyyətli məsələni hökumətlə bahəm Məclisi-Məbusan da gərək başlı-başına buraxmasın: həm ziyarət, həm ticarət!

*Fərhad Ağazadə*

## AZƏRBAYCAN TƏƏSSÜRATIM

Keçən rus müstəbid idarəsi zamanında Rusiyanın müxtəlif məhəllərində [yerlərində] və baxüsus [xüsusilə] Azərbaycan qitəsində yaşayan, millət və vətən duyğusu ilə şöhrət bulan azəri türk qardaşlarımızın varlığını eşidir, iftixar edirdik. Yalnız o qədər. Bundan irəli gedəmməzdik. Çünki, o müstəbid idarənin zalım siyasəti bizi siyasi münasibatdan mən etmiş [siyasi münasibətlərimi qadağan etmiş], iqtisadi, milli irtibatdan [əlaqədən] məhrum eyləmişdi. Fəqət bu mümaniətlər [manеələr], bu məhrumiyyətlər bizi əməl [arzu] yolundan alı qoymuşmuydu [məhrum etmişdirmi]? Xayır! Biləks [əksinə] hicran və təhəssürlə [həsrətlə] qaynayan, coşan milli duyğularımız daha ziyadə şiddətlənmiş və bizi biri-birimizə daha sıxı bağlarla bağlamışdı ki, inqilabı mütəaqib [inqilabdan sonra] vücuda gələn Ümumrusiya Müsəlman syezdləri [qurultayları] iddiamıza şahidi-adil olacaq canlı misallardandır.

Gərək Krımımızda və gərək türk ünsürü olan yerlərdə inqilabdan bəri zühur edən fəci [faciəvi] vəq'ələr və hələ Azərbaycandakı Bakı, Gəncə hadisələri, bütün varlığımızı sarsmışdı. Gecələri gözünə uyqu girməyən az bulunmayırdı. Zira biz o etiqaddayız ki, böyük bir əksəriyyətlə türk irqindən mütəşəkkil olan bu zəngin qitənin və sakinlərinin istiqbalı [gələcəyi] və eyni zamanda ümum Turan aləminin elmən, iqtisadən [elmi baxımdan, iqtisadi baxımdan] təalisi [ucalması] bu qitə sakinləri olan azəri-türk qardaşlarımızın istiqlaliyyəti-tamməläri ilə pək sıxı əlaqədardır. Bunun üçün əvvəl və axır söyləyəcəyimizdir: hər şeydən əvvəl təmini-istiqlaliyyət olacaqdır.

Yolda gələrkən, səbirsizliklə görmək istədiyimiz bir şey var idi ki, o da Azərbaycan hüduduna bir an əvvəl yetişib, elani-istiqlal ilə öz müqəddəratını öz əlinə alan hürr və müstəqil qardaşlarımızın məsudiyyəti idi. Buna müvəffəq olduğumuz zaman sevincimizdən ürəklərimiz inbisat, duyğularımız qələyan etmişdi [ürəklərimiz genişlənmiş, fərəhlənmiş, duyğularımız aşıb-daşmışdı]. Hələ keçəndə, hürriyyətin ikinci səneyi-dövriyyəsini al

və milli bayraqlarla icra edən soqaqlar dolusu məktəb şagirdləri ilə xalq kümələrinin [qələbəliklərinin] ara-sıra hürr və müstəqil bir ruhla: "Yaşasın, hürriyyət və istiqlaliyyət!" nidalarını və sonra Parlamentoda rəisi-möhtərəmin hürriyyət və istiqlaliyyət naminə irad etdiyi [söylədiyi] nitqinin təsiri ilə salonu çınladan alqış sədalarını eşitdikcə, iftixarımızdan göz yaşlarımızı zəbt edəmməmişdik. Millətlərin qanları bahasına olan bu hürriyyət və istiqlaliyyətlər qərbdə Paris sülh masasında o millətlərin lehinə həll olunacağına ümidimiz qəvidir [güclüdür]. Bu babda vaxt-vaxt təzahür edən əmarələr [işarələr] də o ümidi bir qat daha təqviyyə etməkdədir [gücləndirməkdədir].

Cümhuriyyətin gələcəyi haqqındakı təfəkküratımıza [fikirlərimizə] gəlincə, bu pək genişdir. Öylə bir-iki sütun yazı yazmaqla bitəcək, tükənəcək şey deyil. Lakin onu xülasə etmək lazım gələrsə, iki kəlimə ilə ifadə edə bilərik. Biri elmən (bilgi cəhəti ilə), digəri iqtisadən (qazanc yolu ilə). Bütün eşitdiyimiz, gördüyümüz mədəni millətlər, məmləkətlər bu iki güclü bina üzərinə qurulmuşlar, dayanmışlardır. Biri mənəvi, digəri maddi sərmayəni təşkil edən bu güclər, əvət, yalnız bunlardır ki, o millətləri, məmləkətləri sahili-səlamətə ulaşdırmış, qayeyi-əmələ [arzularının qayəsinə] qovuşdurmuşdur.

Birincisi, bilgi cəhəti ilə dedik. Bilgi mənbələri həpimizə bəllidir ki, məktəb namını daşıyan bilgi ocaqlarıdır. Bu ocaqların ibtidailərindən ta alilərinə qədər proqramları həyata əlzəm və onu təmsil edə biləcək ruhi [mənəvi], bədəni [fiziki] bir təlim və tərbiyəni ehtiva etmək iqtiza edir [əhatə etməlidir]. Şimdiyə qədər Turan, İslam aləmi şöylə dursun, ümumiyyətlə, Şərqin məktəbləri teoriyadan, kitabdan çıxıb həyata girməmişdi. Onun üçün də nə səylərindən layiqi ilə istifadə edə bilmişdi, nə də zəkalarından...

Anqlosaksonların təqib etdikləri o məqul [ağlabatan, məntiqli] üsuli-tərbiyə teoriya ilə qarışıq pratik təlim, daha açıqcası fikri-təşəbbüs və ixtiranı [təşəbbüs və ixtira fikrini] doğuran üsul bilatərəddüd [tərəddüdsüz] tətbiq ediləcək olarsa, məktəblərdən irəlidə basmaqalıb adamlar deyil, fikri-icad və ixtiraya malik mütəşəbbislər yetişdiyini görəriz. Əgər buna müvəffəq olunarsa, gələcək nəsil iştə o vaxt həqiqi hakimiyyəti, hakimiyyəti-iqtisadiyyəni əlində tuta bilər. Yoxsa, istiqbal Osmanlı yurdundakı türk qardaşlarımızın halına bənzəyəcəyinə heç şübhə etməz.

Bunları düşünür, yazarkən ağılları kimi bədənləri də sağlam olan ingilis əsgərlərinin xəyalı gözümüz önündə canlandı. Canlandı da lisani-hal ilə: "Bizi millətinizə nümunə olaraq göstəriniz!" dedi. Əvət, bu, nümunə olmağa pək layiqdir. Düşünməli ki, otuz beş milyonluq bir qövm dənizlərə, qitələrə və oralarda yaşayan üç yüz əlli milyon insanlara hakim olmuşdur. Səbəbi-hakimiyyətləri aldıqları ibtidai, tali [ikinci dərəcəli, ibtidaidən sonrakı], ali tərbiyənin kəndilərinə bəxş etdiyi fikri-icad və təşəbbüs xislətindən başqa bir şey deyildir.

İkincisi qazanc yolu ilə dedik. Bir millət və məmləkətin tərəqqisi, bəqası [əbədiliyi] onların sərvət və ümranına [rifahına] bağlıdır dersək, mübaliğə etdiyimiz zənn olunmasın. Bu gün hər şey zənginliklə, varlıqla meydana gəldiyi inkar olunmaz bir həqiqətdir. Milləti zəngin, vətəni məmur [abad] etmək babadan, dədədən qalma köhnə üsullarla deyil, biz şərqliləri istila edə gələn Qərb mədəniyyətinin son təşkilatı, təşkilati-iqtisadiyyəsi ilə müvəffəq olunacağına iman edənlərdəniz.

Azərbaycan sakinləri mə'dəni, heyvani, nəbati sərvəti-təbiiyyəsi ilə muxtariyyəti-iqtisadiyyəsini əlinə ala bilərlər. Buna şəkk yox. Əlverir ki, məmləkətin daxili vəsaitində, təşkilati-iqtisadiyyəsində, əzcümlə [o cümlədən] bir tərəfdən münaqilat və ittisalatını [nəqliyyat və rabitəsini] qolaylaşdıracaq qara və su yolları, teleqraflar, telefonlar, digər tərəfdən sənayeyi-daxiliyyəni inkişafa sövq edəcək himayə üsulları, primlər, subsidlər... gərəyi kimi tətbiq edilsin. Bu əməl [niyyət], bu qayə ilə mövqeyi-iqtidara gələn məmləkət mütəfəkkirləri, mütəfənninləri [elm adamları] ilə görüşdüyümüz, təatiyi-əfkarda [fikir alış-verişində] bulunduğumuz zaman yuxarıdan aşağı sərd etdiklərimizin [meydana qoyduğumuz fikirlərin] vücuda gələcəyinə qane olaraq, ümmidi-istiqbal [gələcəyə olan ümid] bir qat daha kəsbi-təqviyyət etdi [gücləndi]. Haqq yardımçıları olsun!

*Krım vəkili: Ədhəm Feyzi*

## TELEQRAF XƏBƏRLƏRİ

**Vilsonun Fransaya vürudu [gəlişi]**

Martın 13-ündə, səhər saat 7-də Vilson Brestə varid olmuşdur. Martın 14-ündə Vilson Parisə gəlib almanlara veriləcək müahidənaməni [sazişi] hazırlamağa başlayacaqdır. Bu müahidənamənin Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] şəraiti [şərtləri] ilə əlaqədar olub-olmadığına şübhə vardır. Əsas etibarı ilə Müttəfiqlər müahidənamə şəraitinə razıdırlar. Cəmiyyəti-Əqvam haqqında da həmçinin ixtilaf yoxdur. Vilson Amerikada olduqda Cəmiyyəti-Əqvamın sülh bərpası üçün lazım olduğunu söyləmişsə də, deyildiyinə görə, müvəzzəf [vəzifəli, iş başında olan] şəxslər həman Cəmiyyəti-Əqvam əsasında müahidənamə tərtib etməkdən müşkülat çəkirlər. Sülh Konfransına verilmiş şərait hələ qəti surətdə baxılıb qurtarmamışsa da, ola bilər ki, Konfransın tərzi-hərəkəti haqqında Parlaman məsələsi qaldırılsın. Çox ümid var ki, Vilson, ola bilər ki, İngiltərə, Cəmiyyəti-Əqvamın hələ qurtarmamış müahidənaməsini sülh müqavilənaməsinə daxil edib, Almaniyanı imza etməyə məcbur etsinlər. Rəsmi dairələrin təsəvvüratına görə, vücudu olmayan Cəmiyyəti-Əqvam şəraitinin təcili ifası ola bilər ki, şiddətli bir surətdə tənqidə məruz olsun.

**Əfqan əmirinin həbsi**

Xəbər verirlər ki, Əfqanıstanın yeni əmiri Nəsrulla xan həbs edilmişdir.

**Əfqanıstan əmirinin qətli**

Qabaqca xəbər vermiş olduğumuz üzrə, bu yaxınlarda Əfqanıstan əmiri qətl edilmişdir. Bu xüsusda Əfqanıstanın paytaxtı olan Kabildən xəbər verirlər ki, cəbhədə əfqan əmirinə sui-qəsd edilmişdir. Əmir qətl edilmişdir. Bu qətldən məqsədləri məlum olmayan iki nəfər həbs edilmişlərdir.

* Almaniya təcavüzündən xarabazara dönən yerlər yenidən təmirə başlamışdır. Öylə zənn edirlər ki, bu yaxınlarda Paris ilə Brüksel arasında dəmiryol hərəkatı başlanmışdır.

**Amerikanın müavinəti**

Brükselə əzimət edən [gedən] heyətin başçısı Huver olaçaqdır. Bu heyət, Almaniyaya ərzaq yetirmək barəsində nemeslərlə danışıqda bulunacaqdır. Bundan əlavə, Almaniya ticarət gəmilərinin Müttəfiqlərə təslim edilməsi barəsində danışıq olacaqdır. Huver vəkil edilmişdir ki, Avstriyaya da ərzaq müavinəti [yardımı] etmək üçün Ali Hərbi Şura nəzdində təşəbbüsatda bulunsun.

**Almaniyanın tərk-silahı**

"Frankfurt" qəzetəsi xəbər verir ki, Almaniya tərk-silaha razıdır. Fəqət bu şərtlə ki, tərəfi-müqabil ilə bərabər tərk-silah edilsin. Hərgah Müttəfiqlər birtərəfli siyasət işlədib yalnız Almaniyanı tərk-silah edərlərsə, o zaman öz qüvvələri ilə uzun müddət Almaniyanı idarə etməlidirlər ki, bu da onlar üçün pək müşkül olaçaqdır. Çünki, Almaniya daxilində ərzaq müşkülatı, bolşeviklər təhlükəsi və sairə vardır.

## SÜLH ƏTRAFINDA

**Yaponya və Çin**

Sülh Konfransında olan Yaponiya nümayəndələrinin başçısı Sayoken "Peti Parizyen" qəzetəsi müxbirinə məlum eyləmişdir ki, Yaponiya bəzi imtiyazata müqabil Çindaonu Çin dövlətinə qaytarmaq fikrindədir.

* Kiçik Asiyadan və Çanaqqaladan ablukanın [mühasirənin] qaldırılması İstanbulda böyük məmnuniyyətə səbəb olmuşdur. Hal-hazırda Etilaf [Antanta] dövlətləri ilə ticarət münasibatı başlanmaqdan ötrü ciddi tədbirlər ittixaz edirlər [tədbirlər görürlər].

* Lloyd Corc qəzetələr müxabirindən [müx-birlərindən] biri ilə müsahibə edərkən demişdir ki, Almaniya qəti surətdə sülh əqdnaməsini [müqaviləsini] imza etmədikcə, Almaniyadan abluka qaldırılmayacaqdır.

**Sülh Konfrasında bolşeviklər barəsində**

Sülh Konfransı cələsələrinin [iclaslarının] birisində Rusiyada olan müxtəlif cərəyanların, yəni firqələrin, o cümlədən, bolşeviklər nümayəndələrinin Konfransa dəvət edilməsi məsələsi müzakirə edilib, onların dəvətinə qərar verilmişdir. "Matin" qəzetəsi bu xüsusda yazdığı bir məqalədə deyir ki, bu ideyanı təbrik etmək olar, fəqət bunun müsbət nəticə verəcəyi şübhə altındadır.

**Sülh Konfransına gedən gürcü nümayəndələri**

Şayiata görə Sülh Konfransına getməkdə olan Gürcüstan heyəti üzvlərindən [Nikolay Semyonoviç] Çxeidze və [İrakli Georgiyeviç] Sereteli nagəhani bir surətdə fransız paraxoduna əyləşib Parisə deyil, Berndəki Sosialistlər Konqresinə azim olmuşlardır [yola düşmüşlər].

* Kuban tərəfindən Sülh Konfransına getməkdə olan heyət cümləsində Bakı şəhərinin sabiq bələdiyyə rəisi L. L. Bıç da vardır.

**Vilsonu gözləyirlər**

"Tribuna" qəzetəsinin siyasi mənbələrdən aldığı məlumata görə, Avropa dövlətlərini maraqlandıran məsələlərin haması ancaq Vilson Avropaya qayıtdıqdan sonra həll ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

**Kubanda**

Könüllü orduya texnika cəhətdən kömək eyləməkdən ötrü general Briks başda olmaq üzrə İngiltərə əsgəri heyəti Yekaterinodara varid olmuşdur. Heyətlə bərabər 60 zabit və 150 nəfər də əsgəri işlərdə mütəxəssis zabitlər gəlmişdir. Bundan əlavə, topxana, aeroplan, tüfəng və qeyri mühimmati-hərbiyyə [digər hərbi ləvazimat] gətirilməkdədir.

**Elbrus dağında vulkan əlaməti**

Yekaterinodardan gələnlərin rəvayətinə görə, Elbrus dağının başında tüstü görülür. Gecələr işıq da nümayan olur [görünür]. Elbrus dağı ətəyində qarlar əriyir. Odur ki, Kuban tərəfdə sular artmışdır. Elbrus ətrafında olan əhali arasında böylə şayiə vardır ki, qaçıb gedən bolşeviklər orada od yandırıb yaşayırlar. Elbrus dağının yanacağı qorxusundan Pyatiqorsk və Kislovodskdan Yekaterinodara qaçqınlar gəlməkdədir. Şimali Qafqaziya politexnikum darülfünunu bu işi təhqiq etmək üçün elmi bir heyət göndərmək fikrindədir.

**İngiltərə donanması**

Odessadan xəbər verirlər ki, amiral Celliko başda olmaq üzrə, İngiltərə Şimali donanması Qara dənizə daxil olacaqdır.

**Krımın istilası**

Odessadan xəbər verirlər ki, Zemstvo və şəhərlər bürosunun sədri Rudnev fransız komandanlığı tərəfindən vəkil edilmişdir xəbər versin ki, Krım Müttəfiqlər tərəfindən istila edilmişdir.

**Bolşeviklərin Odessaya hərəkəti**

Bolşevik ordusunun axırıncı müvəffəqiyyəti Odessa rayonunda müharibə xəttinin irəlilənməsinə bais olmuşdur. Kolosovo altındakı qalibiyyət sayəsində Odessanın 24 verst şimal-şərqindəki məntəqələr bolşeviklər tərəfindən işğal edilmişlərdir. Birzuladan iki stansiya məsafəsində olan Balta mövqifinin [stansiyasının] işğalı ilə Odessaya gedən dəmiryolları bolşeviklərin əlinə keçmişdir. Ağqvardiya əsgərləri Jitomir-Vinnitsa xəttində pərakəndə edilib, silahları əllərindən alınmışdır.

Odessadan xəbər verilər ki, bolşevik əsgərlərinin yaxınlaşmasına görə burjuaziya arasında həyəcan vardır.

**Odessada müsadimə**

Mövqif [stansiya] yaxınlığında fəhlələrlə Könüllü ordu arasında müsadimə [toqquşma] vaqe olmuşdur. Nəticədə 15 fəhlə qətl edilmişdir. Qətl edilənləri fəhlələr qırmızı bayraq və "Marselyeza" nəğməsi ilə dəfn etmişlərdir. Könüllülər bu mərasimi pozmaq istəmişlərsə də, müvəffəq olmamışlardır.

**Moskvada**

Moskvada üsyan olacağından ehtiyat edib şəhəri möhkəmləşdirməkdədirlər. Lefortov və Petropavlovsk parklarında xəndəklər qazılır. Evlərin yuxarı mərtəbələri boşa[l]dılmışdır ki, yuxarıdan bomba, pulemyot atmasınlar. Bolşeviklər özləri evlərin damında pulemyot düzəltməkdədirlər.

**Petroqradda**

Petroqraddan Yekaterinodara gələnlərin rəvayətinə görə, gəldikcə bolşeviklərin dəhşəti artmaqdadır. Əhali arasında narazılıq müşahidə edilir. Hamı Narva tərəfindən hərəkət edən ingilisləri gözləyir. Bolşeviklər ingilislər əleyhinə təşviqatda bulunurlar. Könüllü ordu barəsində olan xəbərləri əhalidən gizləyirlər. Petropavlovsk qalasında hər gün 20-25 adam güllələnməkdədir. Güllələyən adama bir girvənkə çörək və güllələnən adamın paltarını bağışlayırlar. Aclıqdan çox adamlar həlak olurlar. Nevada olan Petri-kəbir [Böyük Pyotr] heykəli götrülüb məhv edilmişdir.

**Amerikada Çin bolşevikləri**

Vaşinqtondan xəbər verirlər ki, Cəmahiri-Müttəfiqədə [Birləşmiş Ştatlarda] 3 nəfər Çin təbəəsi bolşevizm təbliğatında töhmətləndirilərək həbs edilmişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Maliyyə nazirinin kağız pul kəsməkdən ötrü pul təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı 20 milyonluq fonddan kağız pul kəsmək məxaricatı verilsin.

* Rəisi-vükəlanın [Baş nazirin] Odessadakı Beynəlmüttəfiqin Komisyonuna [Müttəfiqlər Komissiyasına] nümayəndə göndərmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Rüstəm bəy Sultanov cənabları Odessadakı Beynəlmüttəfiqin Komisyon nəzdində Azərbaycan Cümhuriyyəti nümayəndəliyinə təyin edilsin. Bütün yol məxaricatını hökumət öhdəsinə götürməklə, gündəlik 250 rublə verməklə bərabər, peşin [nəğd] surəti ilə 10 min rublə verilsin. Maliyyə və İqtisadiyyə Komitəsinə tapşırılsın ki, məzkur [adı çəkilən] Sultanova lazımi düsturüləməllər [təlimatnamələr] versin.

* Maliyyə nazirinin neftçilərə borc vermək qaydası haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Fəhlələrə pul vermək üçün neftçilərə istiqraz vermək işini Bakıdakı Rusiya Dövləti Bankı [Rusiya Dövlət Bankı] şöbəsi vasitəsi ilə icra etməli və nazirə tapşırmalıdır ki, həman işdən ötrü xüsusi bir təşkilat əmələ gətirsin və gələcək iclasda o təşkilat barəsində məlumat versin.

* Maliyyə və iqtisadiyyə komitəsinin dəftərxanası xərci üçün məbləğ təxsisi haqqında Türüq və Məabir [Rabitə və Nəqliyyat] nazirinin məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı 20 milyon fonddan 1400 rublə buraxılsın.

* Ticarət və Sənaye nazirinin Nəzarət cənbində [Nazirlik nəzdində] bir şura təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirə tapşırılsın ki, şuradan ötrü nizamnamə tərtib verib Vükəla Şurasına təqdim etsin.

* Məhbəslərin [həbsxanaların] mühafizəsi haqqında Rəisi-vükəlanın məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə nazirinə tapşırılsın ki, yaxın zamanda məhbəslərin əhvalı və mühafizəsi haqqında məruzə versin.

* Ədliyyə nazirinin Xüsusi təftiş və istintaq komisyonu məxaricatından ötrü istiqraz açılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı 20 milyon fonddan Xüsusi təftiş və istintaq komisyonu sədrinə mart ayı məvaciblərini vermək üçün 7140 rublə buraxılsın. Ədliyyə nazirinə tapşırılsın, bilavasitə həman komisyonun fəaliyyətinə nəzarət etsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

* Bələdiyyə Xidmətçiləri İttifaqı Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, 7 nəfər sabiq şəhər xidmətçisinə Bələdiyyə İdarəsi müştərək müqavilənamə üzrə xidmətdən kənar edilmək haqqını verməkdən imtina edir. İttifaq rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda [sərəncamda] bulunulsun.

* Səkkiz nəfər gəmi xidmətçiləri Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, gəmi sahibi Kərbəlayi Fəramərz onlara yol pulu verməkdən imtina edir. Xidmətçilər öz hallarını təsvirlə, lazımi binagüzarlıq edilməsini rica və təmənna etmişlər.

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

\- Məlumdur ki, şəhərdə xırda pullar işlənmir. Bələdiyyə İdarəsinin su budkalarında isə fəqət [sadəcə] böylə xırda pullar verilir. Şəhər xəzinəsinin əhvalını nəzərə alaraq Bələdiyyə İdarəsi Dövləti Bankaya [Dövlət Bankına] müraciətən rica etmişdir ki, böylə xırda pulları bank mübadilə etsin.

\- Bələdiyyə İdarəsi Ərzaq Nəzarətinə müraciətlə məlum etmişdir ki, Novruz bayramı münasibəti ilə xidmətçilərə məvacib vermək lazımdır. Bundan ötrü də iki milyon 400 min rublə pul lazımdır. Bələdiyyə İdarəsinin isə şimdi bir milyon 700 min rublə parası vardır. Bu paranın azlığı xidmətçilərin məvaciblərinin artırılmasından irəli gəlmişdir. Bir tərəfdən də Mərkəzi Ev Komitəsi və başqa mal verənlər şəhər xəstəxanalarına ərzaq buraxmaq istəmirlər. Onların da borcları verilməmişdir. Xəstəxanalar məxaricatından ötrü şimdilik Bələdiyyə İdarəsinə heç olmazsa 300 min rublə pul lazımdır. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi rica etmişdir ki, put vergisi hesabına Bələdiyyə İdarəsinə bir milyon rublə pul versin.

**Şəhərə gətirilən məkulat [ərzaq]**

Bakıya 18 mart 1919-cu sənədə gətirilən ərzaq barəsində məlumat.

Dəmiryolu ilə:

Buğda 3200 put, un 3502 put, arpa

2272 put, saman 1115 put, ot 3172 put.

17 mart 1919-cu sənədə gətirilən ərzaq:

Buğda 740 put, un 1171 put, odun 4900, arpa 1827 put, saman 1306 put, ot 338 put.

**Krım haqqında mühazirə**

Yaxında Krım müsəlmanlarının siyasi, ictimai və iqtisadi həyatına dair Krım Milli Parlamentosu vəkili Ədhəm Feyzi əfəndi tərəfindən bir leksiya oxunacaqdır. Proqramıyla bərabər, təyin olacaq məhəlli [yeri], vaxtı iləriki nüsxələrimizin birində zikr ediləcəkdir.

**Novruz münasibətilə**

Şənbə günü mart ayının 22-də Novruz bayramı münasibətilə Sabunçu aliibtidai məktəbinin binasında, gündüz saat 10 radələrində görüş məclisi olacaqdır. Camaatın və çocuqların ağalarının həman görüş məclisinə təşrif gətirmələri rica olunur.

*Heyəti-müəllimin*
*[Müəllim heyəti]*

**Yeni qalabəyi**

Bakı qubernatorunun binagüzarlığına [sərəncamına] görə, titulyarnı sovetnik [titulyar müşavir] Xanoğlan Talışxanov Bakı qalabəyiliyinə [komendantlığına] təyin edilmişdir. Mümaileyh [adı çəkilən şəxs] bu gündən etibarən öz vəzifəsini ifa etməyə başlamışdır.

**Balıq**

Azərbaycan Cümhuriyyətinin Balıq İşləri müdiri Bakı qubernatoruna müraciətən rica etmişdir ki, Qızılağac xəlicində [körfəzində] aprel ayının 1-dən və Araz, Aguş çaylarında mayın 1-dən etibarən balıq tutulmasının qadağan edilməsini nəzərə alaraq, həman dairə kəndxüdalarına bu xüsusdakı binagüzarlığa [sərəncama] əməl edilməsi haqqında əmr verilsin.

**Hadisat**

- Təhərri [axtarış] polisəsinin agenti Petrovski, naçalnikinə məlum etmişdir ki, o, Qanlıtəpə və Krasnovodski küçələrin küncündən keçdikdə arxasından bir güllə səsi eşitmişdir və geri döndükdə o qılçından yaralandığını hiss etmişdir. Bədəfkarlar [canilər] qaçıb gizlənmişlərdir.

- Təhərri polisəsi Bakı qubernatoruna məlum edir ki, Əlibala Dadaş oğlunu öldürməkdə ittiham edilən Keşləli Nuri Ağakişi oğlu bugünlərdə tövqif edilib [tutulub] Mərkəzi Həbsxanaya göndərilmişdir.

- Martın 15-də təhərri polisəsinin agenti Əlimirzə Məhəmmədəli oğlu Bakı sakini Əsəd Məhəmməd oğlunu iki rəs [baş] at oğurlamağına görə tövqif edib polisəyə göndərmişdir.

**FƏHLƏ KONFRANSI**

Çurayev məsələ müzakirəsindən əvvəl 18 martın tarixinə dair məlumat verir.

– 18 mart Paris iştirakiyyun (kommuna) günüdür ki, 48 sənə bundan əqdəm [qabaq] Paris füqərayi-kasibəsi [proletariatı] kommuna hökuməti tərzi-idarəsi təsis etmişdi.

Tətil komisyonu namindən Mikoyan məruzə oxuyaraq deyir ki:

– Biz ingilislərlə mübarizə etmək üçün intixab edildik [seçildik]. Burası siyasi bir məsələ olduğu halda iqtisadi məsail [məsələlər] meydana çıxdı ki, özü-özlüyündə birinci məsələni aradan qaldırdı. Əksinqilabçılar, ingilislər Bakı füqərayi-kasibəsindən qorxduqları üçün başqa bir təriq [yol] ilə onlarla mübarizə etməyi qət etmişlər. Onlar Bakı bonlarının çap edilməsinə mane olmaqla, fəhlələri siyasi tətil məsələsindən uzaqlaşdırırdılar. Məsələn, ayın 8-də veriləcək məvacib bu vaxtadək verilməmişdir.

Biz, ingilis və Azərbaycan [hökumətlərinə] və Neftçilər İttifaqına birər ultimatum verdik ki, fəhlə məvacibləri verilməzsə, vəqti-müəyyənədə [müəyyən edilmiş vaxtda] tətil elan ediləcəkdir.

Komisyon qət etdi ki, bir müraciətnamə nəşr edərək bütün Zaqafqaziya fəhlələrinə, füqərayi-kasibəsinə xəbər versin ki, ingilislər və Azərbaycan Hökuməti fəhlələr üzərinə qara siyasət yürüdürlər.

Çurayev – Məruzədən görülür ki, tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

Yoldaşlar! İngilislər daima ilhaq etməyə adət etmişdirlər. Azərbaycan Hökuməti deyir ki, biz ki, bon veririz, kimə və nə üçün verilməsini bilməliyiz. İngilislər isə fəqət bu bonları xərcləyirlər. Ona baxmayaraq yenə Azərbaycan Hökuməti neftçilərdən tabelləri istəmişdir. Biz bu vaxtadək ingilis komandanlığı vasitəsi ilə alırız. Şimdi denilir ki, xəzinədən alınmalıdır. Bizim işimiz yoxdur. Nerədən verilir verilsin, fəqət zəhmət haqqımız verilsin.

Bundan sonra bir çox natiq nitq söyləyərək ac olduqlarını söyləyirlər.

Əbilov – Yoldaşlar! Sizə bir az məlumat vermək istəyirəm. İngilislər buraya gəldikdən sonra fəhlələrə nerədən məvacib vermək məsələsi baş qaldırdı. Zira neftçilər deyirdilər ki, neft istehsalatı heç yerə getmədiyindən anbarlarda qalmışdır. Batuma neft gedəcək olarsa, para olacaqdır. Dövləti Bank ingilislər əllərindədir. Onlar da neftçilərə ayda 50 milyon para buraxırdılar ki, fəhlələrə məvacib verilsin. Bunu Azərbaycan edirsə də, orada ingilis qarovulçuları qoyulmuşdur. Azərbaycan Hökumətinin Dövləti Bankda hesabati-cariyyədə bonu vardır. Xəbər alınmışdır ki, ingilislər oradakı pulları xərcləyirlər. Bunu təsdiq etmək üçün oraya çek göndərildi. Demişdilər ki, para yoxdur. Para nə olmuşdur, xəbər yoxdur. Biz Parlamandakı sosialistlər də bundan xəbərdar deyildik.

Yoldaşlar! Öylə düşünülməsin ki, mən hökuməti müdafiə etmək istəyirəm. Xayır! Zira bizim qüvvətimizlə hökumət istefa verməyə məcbur olmuşdur. Fəqət həqiqəti söyləyəcəyəm. İngilislər bizim bütün işlərimizə müdaxilə edirlər. Bankdakı paranı bir özləri üçün deyil, hətta Denikin üçün xərc etmişlər. Bir tərəfdən ingilislər işlərimizə müdaxilə edirlər, digər tərəfdən nefti kontrolsuz aparırlar. Üçüncü tərəfdən də bonları xərcləyirlər. Biz dünən Parlamanda bu barədə sorğu verdik. Hökumət əzası [üzvü] olan yoldaşımız Səfikürdlü kafi cavab vermədi. Biz bu intriqanı bilirdik. Fəqət hamıya bildirməyi qət etmişdik. Bu iş bizim müsəlman yoldaşlarımız üçün dərsi-ibrət olmalıdır. İngilislər hətta vətənimizin da-

marları hesab olan para məsələsini belə öz əllərinə almışlardır. Bizim sorğumuza görə dünən Maliyyə naziri Protasov istefa vermişdir. O deyir ki, axır vaxtlarda Denikin ordusu əleyhinə Parlamanda danışılır. Ona görə mən çalışa bilməyəcəyəm. Çox təəssüf olsun ki, böylə denikinçilər hökumət başında oturmuşlar. Yoldaşlar! Məqsədim sizə işin nə şəkildə olmasını göstərməkdir. İngilislər əleyhinə nə yapılacaq olarsa müsəlman yoldaşlarımız da iştirak etməlidir.

Natiqlərə əksəriyyətlə 10 dəqiqə vəqti-müəyyənə verilir.

Ağazadə və Kərimzadə müsəlmanlardan nitq söyləyərək fəhlələri ittifaqa dəvət edirlər. Bolşeviklərdən Anaşkin nitqə başlayaraq Azərbaycan Hökumətinin də ingilislər kimi fəhlələrə düşmən olduğunu dərmiyanla [meydana atmaqla], ona da müavinət etməməyi tələb edir. – Burada denilir ki, ingilislər Azərbaycanın daxili işlərinə qatışmasın. Azərbaycan isə bizə düşməndir. Binaənileyh [ona görə], biz onun tərəfini saxlaya bilmərik. Biz deyiriz ki, ingilislər bizim, biz rusların işlərinə müdaxilə etmədən əlavə ən yaxın zamanda buradan getsinlər.

Averkin bir nitq söyləyərək axırında deyir ki: – Bizim Parlamanda sosialist nümayəndə yoldaşlarımız mövcuddur. Biz tələb etməliyiz ki, onlar Məsai [Əmək] nazirindən böylə işləri bilməyi tələb etsinlər. Biz tələb etməliyiz ki, bankda Məsai Nəzarətinin kontrolu olsun. O vaxt biz paranı fəqət Məsai Nəzarətindən istəyə biləcəyiz.

Yoldaşlar! Şimdi ingilislər paranı xərc etməklə əllərində sənədlər saxlayırlar ki, bir vaxt Azərbaycana "burasını biz aldıq, buradan gediniz" desinlər. Biz buna yol verməməliyiz.

İşbu təklif qəbul edilir:

"Konqre fəhlə işlərini işbu hala salan hökumət fəaliyyətinə etirazla, Tətil Komisyonu fəaliyyətini təsvib edir [bəyənir] və ona tapşırır ki, böylə işlər olmamaq üçün çalışsın."

İclasın axırında konqre Türküstanda edam edilən bolşeviklərdən Bakı fəhlələri başçıları 26 nəfər komissarın (Şaumyan və sairlər) edamına etirazla martın 20-nci gününü yas kimi tətil etsinlər. Həman gün mitinqlər olacaqdır. Bundan sonra konqredəkilər ayağa qalxaraq "Marselyeza" oxuyurlar.

## AZƏRBAYCANDA

**Nuxudan**

1919 sənəsi yanvar nəhayətlərində Nuxuda mövcud türk müəllimləri ictima [yığıncaq] edib vətənin tərəqqi, təalisi [ucalması] yolunda müəllimlər[in] öhdəsinə düşən vəzifəni layiqi ilə ifa etmək [işinin], İttifaq sayəsində daha müvəffəqiyyətli olacağını nəzərə alıb bir İttifaqi-müəllimin [Müəllimlər Birliyi] təşkilinə qərar verdilər. Həmin ittifaq, Nuxu-Ərəş maarif məntəqəsi dairəsində fəaliyyətdə bulunacağından "Nuxu-Ərəş məntəqəsi ibtidai və rüşdiyyəsi türk müəllimləri İttifaqı" təsmiyə edilməsi [adlandırılması] təsvib edildi [bəyənildi].

İttifaqın məqsədi Azərbaycan milləti və Cümhuriyyətini maarif gülüstanında daha dilnişin [ürək açan] yerə vasil qılmaq və millət övladını cəhalət bəlasından bir an əvvəl qurtarmağa çalışmaqdır. Bu məqsədə daha tez vasil olmaq üçün yollar arayaraq, müvəqqəti olaraq şu göndərdiyimiz proqramı tərtib edib, yenə müvəqqəti olaraq bir idarə intixab edildi [seçildi].

Digər məntəqələrdə xidmət edən müəllim arxadaşlarımızdan bu yolda müavinətlərini bəkləriz.

Müvəqqəti idarəyə intixab edilənlər bunlardır:

Sədr - Məbud əfəndi Əfəndizadə, müavini-sədr - Veysəl əfəndi Mustafazadə, katib - Haşım əfəndi Məhəmmədzadə, müavini-katib - Əbdülkərim İmamzadə, xəzinədar - Həsən əfəndi Əfəndizadə.

*İmamzadə*

## GÜRCÜSTANDA

**Gürcüstan Hökuməti rəisi**

Gürcüstan Məclisi-Müəssisanı N. N. Jordaniyanı hökumət sədri intixab etmişdir [seçmişdir]. Sosial-demokratlarla eserlər [sosialist-inqilabçılar] səs verməmişlərdir. Təzə Kabinə təşkili Jordaniyaya həvalə edilmişdir.

**Abxaz Xalq Şurası**

Suxumda 40 nəfər nümayəndədən ibarət Abxaz Xalq Şurası açılmışdır. Nümayəndələrdən 27-si sosial-demokrat menşevik, 8-i abxaz mülkədarları firqəsindən, 3 eser və 2 nəfər də milli-demokratdır.

**Culfa dəmiryolunda sərnişin hərəkatı**

Martın 15-də Culfadan Sanainə sərnişin qatarı gəlmişdir. Gürcüstana daxil olmağa icazəsi olan sərnişinlər gürcü qatarına əyləşib Tiflisə varid olmuşlardır [çatmışlar]. Bundan böylə həftədə iki dəfə Sanaindən Culfaya sərnişin qatarı gedəcəkdir. Biletlər ancaq Gürcüstandan Ermənistana keçməyə icazəsi olanlara satılacaqdır.

**Qəssabların tətili**

Tiflis qəssablarının tətili davam edir. Mal əti 12-15 manata satılır. Qəssablar qəti surətdə deyirlər ki, hökumət kəndlilərin qaramalı baha qiymətə satmaları üçün tədbirlər görməyincə, bazarda ət olmayacaqdır.

**Çörək**

Gün-gündən Tiflisdə çörək azalıb, qiyməti artmaqdadır.

* Mart ayının 13-də bütün gün Gürcüstan Cümhuriyyəti qoşunları Axıska mahalının qərbi və cənub-qərbi sərhədinə yürüşdə davam etmişlərdir. Bunlara zəif surətdə müqabilə edilir.

Axşam çağı gürcülərin sol cinahı Urcuşun-Badela cəbhəsində müsəlmanların hücumuna məruz qalmışlardır. Gecə onların hücumu təkrar edilmişsə də, dəf edilmişlərdir.

Mart ayının 11-də bizim tələfatımız bu qərar ilə idi: 11 zabit, 4 saldat ölüb, 18 afser, 93 saldat yaralanmışdır.

**Abastumanın işğalı**

Martın 11-də gündüz saat 4-də Abastuman gürcü əsgərləri tərəfindən işğal edilmişdir.

**Hökumət təbəddülatı [dəyişikliyi]**

Gürcüstan Məclisi-Müəssisanı təzə

Kabinə təşkilini Jordaniyaya həvalə etmişdir. Jordaniya özü hökumət rəisi olmaqla bərabər Gürcüstan Cümhuriyyətinin ali nümayəndəsi olmalıdır.

**Zaqafqaziya bonu**

Gürcüstan Hökuməti İrəvandan böylə bir teleqraf almışdır:

"Ermənistan Hökuməti Ermənistan Maliyyə naziri Enfiacyanı və maliyyə agenti Aritunyanı vəkil etmişdir ki, onların mülahizələrinə görə müəyyən şəraitlə 320 milyon bon buraxılması haqqında Gürcüstan Hökuməti ilə müqavilənamə əqd etsinlər. Təhriri [yazılı] vəkalətnamə birinci imkan dairəsində göndəriləcəkdir.

*Hökumət rəisi: Kaçaznuni"*

**ELANLAR**

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 2-41*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Doktor**
**Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*





**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Azərbaycan**
**müftüsü və şeyxülislam**

Bayram görüşünü Bakı Cəmiyyəti-Xeyriyyəsinin rautunda [təntənəli ziyafətində] 22 mart[da] qəbul edəcəkdir.

*T-72*

**Elan**

Salyan Ünas [Qızlar] Məktəbi-ibtidaisi üçün 2 türk müəlliməsi lazımdır. Xahiş edən xanımlar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

**Elan**

Bakı Ərzaq Nəzarəti bununla Bakı dairəsi kənd cəmiyyətlərinə elan edir ki, Bakı Kəndçilər İttifaqı tərəfindən onlara birinci lazım olan ərzaq şeyləri paylanacaq. Kənd cəmiyyətləri həman şeyləri almaq istərlərsə, Bakı Kəndçilər İttifaqına müraciət etməlidirlər.

*Ərzaq Nəzarəti məsulu: Əliyev*
*Kargüzar: imza*
*T-70*

**Bakı Cəmiyyəti-Xeyriyyəsinin**
**İdarəsi**

Novruz bayramı münasibəti ilə şənbə günü mart ayının 22-sində "Obşestvennı sobraniya"nın binasında (Nikolayevski və Sadovının küncü) raut (görüş) tərtib edibdir. Daxil olduqda Cəmiyyəti-Xeyriyyə nəfinə [xeyrinə] ianələr qəbul olunacaq.

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
Düşənbə [bazar ertəsi] günü
mart ayının 24-də
**Qızıl və gümüş sənətkarlarının**
**"Qənaət" müstəhlik cəmiyyəti**
tərəfindən həman cəmiyyətin Maarif
şöbəsinin nəfinə [xeyrinə] olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Arşın mal alan"**
2-ci pərdəsi
Əsər: Üzeyir bəy Hacıbəyov
Həmin pərdədə iştirak edirlər:
Sultan bəyin rolunu məşhur komik
Mirzəağa Əliyev və Əsgərin rolunu Sarabski
ifa edəcəkdir.
Dirijor: Müslüm bəy Maqomayev.
Rus dilində operetta
**"Geyşa"**
3 pərdədə
İştirak edənlər: Qukasov, Starostina,
Berezin, Yelenin, Ard və qeyriləri.
Axırıncı pərdədə maraqlı divertisment və
rəqslər (balet).
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Biletləri indidən cəmiyyətin kooperativ
dukanlarından almaq mümkündür.

*P. Amiraqo*
*Müvəkkil: Həmid İbrahimov*
*5759*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qaçqınlara ərzaqmı, sənətmi?**

səh. 311. "Qarabağdan Məclisi-Məbusan sədri naminə göndərilmiş teleqramında Səfərov cənabları yazır ki…": bu teleqram "Azərbaycan" qəzetinin 16 mart 1919-cu il tarixli 137-ci nömrəsində dərc edilmişdir.

**Azərbaycan təəssüratım**

səh. 313. "…Rusiyanın müxtəlif məhəllərində…": qəzetdə "məhəllərində" yerinə "məhəllələrində" getmişdir.

"…elmən, iqtisadən…": "iqtisadən" yerinə qəzetdə "iqtidarən" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 315. "…Əfqanıstan əmiri qətl edilmişdir.": söhbət 1901-1919-cu illərdə hakimiyyətdə olan Həbibulla xandan gedir.

səh. 316. "Huver": Amerika Yardım Administrasiyasının başçısı Herbert Huver nəzərdə tutulur; qəzetdə "Quver" kimi getmişdir.

"Frankfurt": 1856-1943-cü illərdə nəşr edilən "Frankfurter çaytunq" [Frankfurter Zeitung] qəzeti nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 316. "Sülh Konfransında olan Yaponiya nümayəndələrinin başçısı Sayoken…": Paris Sülh Konfransında Yaponiya nümayəndə heyətinin rəsmi başçısı Sayondzi Kimmoti olmuşdur, fəqət onun səhhəti əlverişli olmadığına görə, nümayəndə heyətinə faktiki rəhbərliyi Makino Nobuaki həyata keçirmişdir. Qəzetdə gedən ad güman ki, təhrif edilmişdir.

"Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

"Çindao" (yaxud Sindao): Çinin şərqində, Sarı dəniz sahilində şəhər.

"Matin" [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

**Bakı xəbərləri**

səh. 320. "titulyarnı sovetnik": titulyar müşavir; çar Rusiyasında mülki rütbə idi. Titulyar müşavir tamhüquqlu müşavir sayılmır, təxminən "müşavirliyə namizəd" hesab olunurdu.

"Qanlıtəpə və Krasnovodski küçələrin küncündən…": Bakıda, indiki Dağıstan və Səməd Vurğun küçələri nəzərdə tutulur.





**Cümə, 21 mart 1919-cu il, nömrə 142**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 18 cəmadiyəlaxir sənə 1337. 21 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## DARDANEL LOKANTASI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ

"Novruz Bayramı"nın təntənəli bir surətdə qarşılanması.

Hər cür təamlar mövcuddur. Bu gün lokantamızda bayram münasibətilə Keçəçi Məhəmməd oxuyub musiqi dəxi çalınacaqdır.

Cəmi müştərilərimizi Novruz Bayramı münasibətilə təbrik ediriz.

Telefon numero 40-95.

Eydi-firuz [xoşbəxt bayram] **NOVRUZ** münasibətilə qareə və qarelərimizi [qadın və kişi oxucularımızı] təbrik ediriz.

## CƏMİYYƏTİ-XEYRİYYƏYƏ DAİR

"Və təavənu əlal-birri vət-təqva və la təavənu əlal-ismi vəl-udvani vət-təkulləhə innalləhə şədidül-ikab."

Kamali-məhəbbətlə camaata təvəccöh edib [üz tutub] izhar ediriz [bildiririk] ki, füqəraya ianə etmək böyük və ümdə ibadatdandır [ibadətlərdəndir]. Kim ki, fəqət, qərəzi-şəxsisi ardınca gedib millət işindən bixəbər oldu, yaxud millət dərdinə qalmaya, o indallah cavabdəhəndə [Allah yanında cavabdeh] və insaniyyət aləmindən kənardır.

*"To kəz mehnəte digəran biğəmi*
*Naşayəd ke namət nəhənd adəmi"*

Ey camaat! Hümmətsizlik bəsdir, kəsalət [süstlük, hərəkətsizlik] bəsdir, kor və kar olmaq bəsdir. Gözümüzü açıb bir aləmə baxalım. Füqəranın ah və nalələrini eşidəlim. Başqalardan bir ibrət alalım. İnanalım ki, bu qədər bəlalar bizə dərs verməkdir ki, ta nadim [peşmançılıq çəkən] və peşman olub öz vəzifeyi-insaniyyət və islamiyyətimizi düşünüb doğru və insaniyyətə şayəstə [layiq] bir yola süluk edəlim [yola addım ataq].

Əgər, yenə də Allahtaalanın rizasını mənzur [nəzərdə] tutmayıb millətin və füqəranın qeydinə qalmayaq, olar ki, təzədən ənnəuzübillah [Allah qorusun, Allah eləməsin] böyük və şiddətli bəlalar nazil olub [enib], dəf və rəf'i [aradan qaldırılması] mümkün olmaya.

*"Lotfe Haq ba to modaraha konəd*
*Çonke əz həd boqzəri rosva konəd"*

Camaat! Məlumunuzdur ki, Cəmiyyəti-Xeyriyyə heyəti neçə vaxtlardır böyük

hümmətlər və səylər göstərib böylə qərar veribdir ki, müsəlman camaatı hər ayda hər nəfsə [adambaşına] bilaistisna [istisnasız] yarım manat füqəranın nəf'inə [xeyrinə] ianə versinlər. İnanalım ki, ayda yarım manat verməklə fəqir olmarız. Lakin, bu yarım manatlarla şəhərin füqərasına böyük imdad yetişə bilər və bu adət xalq arasında davam və intişar edib [yayılıb] vaxtilə böyük nəticələr verər və olar ki, başqa şəhərlərdə dəxi bu qayda cari və tətbiq olunub islam aləmində gözəl bir adət qalar.

*"Qətre qətre cəm gərdəd bədəz an dərya şəvəd."*

Bihəmdülillah, üləma [alimlər; ruhanilər] icmaən [birgə, yekdilliklə] bu gözəl qaydanın cərəyanına bəzli-hümmət etməkdədirlər [hümmət sərf edir, səy göstərirlər]. Lakin əfsuslar olsun ki, məhəllələrimizin bəzi nümayəndələri layiqincə üləmaya bu babda müavinət göstərməyirlər. Eyib etməz. Üləma bəzli-hümmət etməklə öz vəzifələrini əmələ gətirib, dünya və axirət cavabdəhəndəliyindən xilas olar. Bəzi nümayəndələrimiz isə olar ki, axır halda insaf edib onlar da müavinət göstərələr.

Camaat! Allahdan qorxun və həzrəti peyğəmbərin şəriətini ehya etməyə [diriltməyə] çalışın. Yoxsa bu qədər füqəranın ah və nalələri aqibət təsir verib həlakımıza bais olar. Dəxi Allahtaala dərgahında dua və ahu-zarımız fayda verməz.

*"Morade ma nəsihət bud qoftim*
*Həvalət ba Xoda kərdim və rəftim"*

*Məşixət sədrləri:*
*[Mustafa] Əfəndizadə*
*və [Axund Ağa] Ağaəlizadə*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**17 mart**

*(keçən nömrədən mabəd)*

**Sədr** - Söz Ağa Aşurovundur. Söz istəyənlərdən rica edirəm yazıb versinlər.

**Aşurov** - Mən də bu layihənin qəbul olunmasına bər-əksəm [əleyhinəyəm]. Parlaman gözübağlı bu işə getməməlidir. Hökumət bilmir ki, bu surətlə müavinəti-nəqdiyyə verməklə xəzinədən nə qədər pul çıxaracaqdır? Əgər bu gün hökumət neçə min manat neçə qəpik olduğunu qəti surətdə bilməyirsə, bari təxminən də deyərlər ki, 5 milyon çıxacaqdır, 10 milyon, yoxsa 100 milyon. Ancaq deyirlər ki, bu qanunu qəbul edin. Amma bunu böylə qəbul etmək olmaz. Burada ikinci bir məsələ vardır. Bir neçə hökumət qulluqçuları vardır. Məsələn müəllimlər, teleqrafda olanlar və qeyrilər. Bunlar qədim vaxtdan az məvacib alırlar. Bunların məvacibləri artırılmayıbdır. Nəzarət [Nazirlik] qulluqçularının halı nəzərə alınıb məvacibləri artırılmışdır. Amma onlar köhnə qərar ilə məvacib alırlar. Onların maaşları ancaq bir neçə prosent (faiz) artırılmışdır ki, o da bir şey deyildir. Onlara da Nəzarət qulluqçuları misalında insan kimi baxıb məvaciblərini artırmalıdır. Məsələn, müəllimlər fəna bir haldadırlar. İmdi 75 faiz müavinəti-nəqdiyyə verməklə siz onların səsini kəsirsiniz. Çünki bu dörd-beş yüz manat edəcəkdir ki, o da bir köməklik deyildir. Bununla onların halı yaxşılaşmaz. Ona görə deyirəm ki, bu layihəni rədd edək və hökumətdən tələb edək ki, qulluqçuların məvaciblərini artırmaq üçün bir proje tərtib versin, tainki hamısı bir cür məvacib alsınlar. Mən məruzəçiyə bir sual vermək istəyirəm...

**Sədr** - *(natiqi dayandırır)* Natiq əfəndi rica edirəm sualınızı məclisə deyəsiniz, məruzəçi sonra cavab verər.

**Aşurov** - Mən elə bunu demək istəyirdim. Mən deyəni başa düşərsiniz. *(Kürsüdən düşüb gedir) (Ümumi gülüş)*

**Sədr** - Söz Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Xudadad bəy Məlikaslanov cənablarınındır.

**Məlikaslanov** - Möhtərəm məbuslar! Maliyyə naziri burada olmadığına görə, hökumət tərəfindən deyirəm ki, komissiyanın qərarına etiraz yoxdur. Beynəlidarə Komisyonu [İdarələrarası Komissiya] məsələsinə gəlincə, onu deyərəm ki, komisyon çoxdan işləyir. Bahalıq gün-gündən artdığından komisyon bu gün qoyduğu qərarı sabah dəyişdirməyə məcbur olur. Ona görə də işlərini tez bitirməyir. Komisyon yanvar və fevral aylarını hesab etmişdi. Sonradan iskələ [liman] və dəmiryol qulluqçularının məvacibi artdığından, işə təzədən baxılması lazım gəldi. Odur ki, iş ləngidi. Ona görə hökumət borclu oldu ki, qanun qəbul olunana qədər bayramqabağı məmurlara kömək eyləsin, tainki bayramı bir növ yola versinlər. Beynəlidarə Komisyonu işləyir. Bu yaxınlarda öz qətnaməsini təqdim edəcəkdir. Ona görə təvəqqe edərdik ki, bu qanun qəbul edilsin. Ümidvaram ki, məmurlar bu faizi bayramda da almasalar, bayramdan bir neçə gün sonra alarlar.

**Sədr** - Söz Heybətqulu Məhəmmədbəyovundur.

**Qarabəyov** *(yerindən)* - Onun əvəzinə mənə söz veriniz.

**Sədr** - Söz Qara bəy Qarabəyovundur.

**Qarabəyov** (İttihad) - Xatirinizdədir ki, Parlaman təzə açıldıqda büdcə məsələsi müzakirə edilərkən bir belə məsələ var idi ki, Parlaman qulluqçularına 60 min manat peşkəş (naqradnoy) verilsin. O vaxt firqələrin çoxu, o cümlədən biz də bunu rədd etdik ki, bu bir həqarətdir [təhqirdir]. Bunu qəbul etmədik. Dedik ki, hökumət qulluqçulara o qədər məvacib versin ki, o məvacib onları təmin etsin və böylə həqarətə də ehtiyac qalmasın. Firqəmiz imdi də bu təklifin tərəfdarıdır. Bayram münasibətilə heç bir peşkəş olmamalıdır. Biz buna etiraz edirik.

Amma az məvacib alanların halları fənadır. Aclıq çəkirlər. Bayramqabağı bir peşkəş verilməsi ilə bu işlərə əlac olmaz. Ona görə hökumət gərəkdir ki, qanun layihəsi hazırlasın və bu layihə mövcibincə də [bu layihə əsasında da] məvaciblər artırılsın. Hər yerin məvacibi bir cürdür. Binaənileyh [ona görə], qulluqçuların hamısına 70 faiz vermək olmaz. Çünki Bakıda hər şey birə on baha olduğu halda [başqa yerlərdə] başqa qiymət ilədir. Oradakı qulluqçuların məvacibini buradakılar qədər artırmaq çox olacaqdır. Ona görə, biz təklif edərdik yaxın gələcəkdə məvaciblərin artırılması hesabına olaraq avans təriqi [yolu] ilə qulluqçulara müəyyən bir məbləğ verilsin. Sonra da həman məbləğlər onların artırılmış məvacibindən çıxılsın. Biz təklif edərdik ki, məvaciblərin artırılması layihəsi tezliklə tərtib və Məclisi-Məbusana təqdim edilsin. İmdi isə müavinəti-nəqdiyyə əvəzinə xidmətçilərə avans adı ilə bir qədər para verilsin.

**Sədr** - Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin Rəsulzadə** (Müsavat) - Burada məsələnin iki cəhəti var. Biri əməli, yəni praktik cəhəti ki, bu saatda məvaciblər artırılsınmı, ya yox? Əvvəlki natiq əfəndilər məvaciblərin artırılmasını nəticə etibarilə qəbul edirlər. Bəziləri qəbul etmənin günahını hökumət üzərinə qoyur. Bəzisi isə avans təriqi ilə verilməsini lazım bilir. Guya qulluqçulara bayram münasibətilə bəxşiş verilməyi qulluqçuların izzəti-nəfsinə toxunmuş kimi tələqqi edirlər [qiymətləndirirlər]. Fəqət bu məsələlər bəncə öylə deyil. Mənə öylə gəlir ki, bayram millətlərin həyatında böyük bir hadisədir ki, onda gərək qulluqçu olsun, qeyri-qulluqçu olsun onların həyatları üzrə bayramın böyük təsiri vardır. Millətlərin özlərinə görə adatı [adətləri] və ən'ənatı [ənənələri] var. İştə bu adat və ən'ənat dolayısı ilə bayramlar və sair bu kimi əyyam [günlər] vücud bulmuş ki, bu günlərdə gərək kasıb, gərək dövlətli, hər kim olursa-olsun həyatın digər günlərindən daha ziyadə məsud olmaq üçün bütün il qazancından artırdığı məbləğ ilə bayramda uşaqlarını geyindirəcək, onlara fəzlə yemiş alacaq, geyinəcək, sevinəcək, sevindirəcəkdir. Böylə bir gün üçün onlara vermiş olduğumuz müavinət peşkəş deyil, görkəmli bir paradır ki, o para ilə o qulluqçu arzularını qolaylıqla vücuda gətirə bilər. Və bəlkə də sizə müavinətinizdən dolayı məsud və mütəşəkkir olar. Millətlərin ən'ənatı daima kəndi mənliyini mühafizə eylər. O, asari-mədəniyyəyə [mədəniyyət əsərlərinə] başqa bir qiymət bəxş edə bilər. Millətlərin ən'ənatını daima təqib etməlidirlər. Bu məsələnin o surətlə vücud bulduğunu düşünməli ki, sanki məmurların keçmiş məvaciblərindən miqdari-kafi [kafi miqdarda] məbləğ qət edərək [kəsərək] toplanıb, birdən bayram münasibətilə mükafat tərzində öz pullarını özlərinə vermək kimidir. Bu surətlə siz layihəni qəbul etsəniz, qulluqçuların hallarını şənləndirmiş olarsınız. Bu mükafata sədəqə nəzəri ilə baxmayıb, ən'ənatı təqib və ifa nəzəri ilə baxsanız, o vaxt ən'ənati-milliyyəyə xidmət etmiş olarsınız. Əsasən bu nəzəriyyə də hökumət məmurlarına təşmil [şamil] olunammaz. Əvət, bir fabrika və ya kiçik bir dəstgahda [dəzgahda] sahibkar kəndi keyfi ilə bir xidmətçiyə qeyri-müəyyən olaraq [bir] məbləğ mükafat versəydi, o vaxt bu fikir orada əmələ gələrdi. Hökumət aparatı ələssəviyyə [bərabərlik əsasında] hamıya bir nəzərlə baxır... Ona görə, burada bəxşiş deyil, bəlkə məmurların şənlikləri üçün bu layihə təklif edilir və hamıya bərabər tətbiq ediləcəkdir. İstifadə ayrı-ayrı deyildir. Bu məsələ milli ənənatı şənləndirmək və xatırlandırmaq üçündür. Bu surətlə əməli nəzəriyyələr meydanda ikən bir taqım [qeyri-]əməli nəzəriyyətçilik ilə ortaya çıxmaq həm sol və sağ sosialistlər üçün gülüncdür. Mən və fraksiyamız bu müavinəti-nəqdiyyənin verilməsi əleyhində deyiliz. Zira biz hər kəsi küçədən çağırıb ona verməyiriz. Biz o adamlara veririz ki, hamısı bu ana qədər hökumət qulluğunda bulunmuşdur. Əməliyyata gəlincə, hökumət bunların məvacibini ümumən artırmalıdır, deyirlər. Bildiyimizə görə Daxiliyyə, Maarif Nəzarəti və sair nəzarətlər qulluqçuların məvaciblərini artırmaq üçün qanun layihəsi tərtib edərək Maliyyə və büdcə komissiyasına göndərmişlər. Komissiya da hal-hazırda tədqiqatla məşğuldur. Öylə zənn etməyiniz ki, nəzarətlər öz qulluqçularının məvaciblərinin artırılması fikrində olmayırlar. Türüq və Məabir və Hərbiyyə Nəzarəti bu layiheyi-qanuniyyə hökmündən istisna edilmişdir. Çünki onların məvacibləri bu yaxınlarda artırılmışdır. Onlar mükafat əvəzinə artırılan maaş fərqinə qane olacaqlar. O fəzlə məbləğ bittəsadüf [yerinə düşərək] bayram münasibətilə onların ehtiyacını dəf edə bilər. Xülasə, təklif edilən qanun layihəsi komisyonun təshihi ilə bərabər qəbul edilsin və bundan da hökumətə, dövlət xəzinəsinə böyük zərər olmaz. Bu sənə üçün təxmin hesabına görə dörd yarım, dörd milyon para gedəcəkdir. Bunu da avans surətilə verməyə ehtiyac yoxdur. Əgər bu müavinəti-nəqdiyyə məsələsi qəbul edilib də məmurlara veriləcək olarsa, onların şadlıq və sevinclərinə yardım ediləcəyi aşikar.

**Sədr** - Təklif var ki, müzakirə bitsin. İki natiqə söz verəcəyəm; biri lehinə, digəri əleyhinə. Əleyhinə kim danışmaq istəyir?

**Səslər** - Etiraz yoxdur.

**Sədr** - Danışmaq istəyən yoxsa səsə qoyuram. Hər kəs müzakirənin bitməsi tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli əksəriyyəti-rəylə müzakirənin bitməsi qəbul olunur. Son söz məruzəçinindir.

**Mustafa Vəkilov** - (Müsavat) Maliyyə-büdcə komisyonu mövzubəhs olan məsələyə praktik nöqteyi-nəzər ilə baxdı. Sol, sağ firqələr burada dedilər ki, bu məsələ əsas etibarilə qəbul olunmaz. Hökumət bu layihəni təklif etməklə demək istəmir ki, məvaciblər artmayacaqdır. Komisyon böylə baxdı ki, bahalıq davam edir, məvacib çatmır, hökumət nəzdində olan Beynəlidarə komisyonu işləyir, hələ işini bitirməyibdir. Komisyonun işi çətindir. Nəzərə gələn kimi asan deyil ki, böylə böyük bir hökumət idarəsi xidmətçilərinin məvaciblərinin nə qədər artırılmasını az bir zamanda müəyyən etsin. Ona görə, hökumət nəzdində olan Beynəlidarə komisyon işini bitirmədiyindən və qulluqçuların məvacibləri çatmadığına görə, Maliyyə-büdcə komisyonu təklif edir ki, məvaciblər artıncaya qədər bu layihə qəbul edilib qulluqçulara müavinəti-nəqdiyyə verilsin.

Burada bir sual verildi. Dedilər ki, komissiya söyləyə bilməzmi nə qədər pul veriləcəkdir. Əlbəttə bütün aparatlar əlində olan bir idarə bu iş üçün xəzinədən nə qədər para çıxacağını bilməsə, komisyon haradan bu suala cavab verə bilər. Ancaq komisyonda bir söhbət oldu ki, 7-8 milyon arasındadır. Ona görə, komisyon tərəfindən təklif edirəm ki, bu layihəni də qəbul edəsiniz.

**Muxtar Əfəndiyev** - *(yerindən)* Mən əleyhinə danışmaq istərdim...

**Sədr** - Rica edirəm əyləşəsiniz.

**Əfəndiyev** - Mən bu barədə...

**Sədr** - Rica edirəm əyləşəsiniz. Məsələ keçibdir. Vaxtında dedim, kimsə danışmaq istəmədi. Layihəni səsə qoyuram. Hər kəs layihəni komisyonun təshihi ilə – ki ibarət olsun 1400 rubləyə qədər alanlara maaşının 70 faizini, 1400-dən 2000-ə qədər alanlara 60 faiz, 2 mindən ziyadə alanlara 40 faiz müavinəti-nəqdiyyə verilməsi tərəfdarıdırsa, rica edi-

rəm əlini qaldırsın. *(Əllər qalxır)* Sayınız! Lehinə - 35. Kim əleyhinədir? *(Əllər qalxır)* Əleyhinə - 4. Kim səs verməyib? - 15. Deməli, layihə əksəriyyətlə qəbul olunur. Keçəlim növbədəki məsələyə. Növbədəki məsələ Şəki şəhərinə səpmə yatalaq ilə mübarizə etməkdən [ötrü] 2 yüz min rublə faizsiz para buraxılması layihəsidir. Söz Aslan bəy Qardaşova verilir.

**Qardaşov** - (Əhrar) Nuxa şəhərində səpmə yatalaq naxoşluğu şiddət etdiyinə görə, Nuxa Bələdiyyə İdarəsi mübarizə etmək üçün parası və lazımi alətləri olmadığından rica edir ki, hökumət tərəfindən müavinət olunsun və rica edir ki, dövlət xəzinəsindən ianə təriqi [yolu] ilə iki yüz min rublə buraxılsın. Nuxa Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciət edib, təvvəqesi də qəbul olunubdur. Lakin Daxiliyyə Nəzarəti böylə qəbul edibdir ki, Nuxa şəhərinə faizsiz olaraq dövlət xəzinəsindən iki yüz min rublə para borc verilsin və bu borc 1920-nci sənədən başlamış dörd ilin müddətində geri alınsın.

İmdi Daxiliyyə Nəzarəti də həman layihəni pişnihad [təqdim] etmişdir. Burada bir məsələ vardır ki, Nuxa şəhəri bu pulu borc deyil, ianə təriqi [yolu] ilə istəyir. Amma hökumət ianə deyil, borc təriqi ilə verir. Layihə də həmin şəkildə varid [daxil] olmuşdur. Daxiliyyə Nəzarəti hökumətin pulu olmadığını nəzərə alıb ianə təriqi ilə deyil, bu pulun borc təriqi ilə verilməsini qərara almışdır. Maliyyə-büdcə komisyonu da bu layihəyə baxıb Nəzarətin rəyinə şərik olmaqla bərabər, özgə şəhərlərə verildiyi qərar üzrə Nuxaya faizsiz borc verməklə müavinətdə bulunmağı qərara almışdır. Nuxa Bələdiyyə İdarəsinin borc götürməyə qüvvəsi olmadığı halda, lakin təcili surətdə müavinətdə bulunmaq lazım olduğuna görə komisyon bu rəyə gəldi ki, bu layihəni hökumət tərəfindən gəldiyi qərar üzrə qəbul etsin. Daxiliyyə Nəzarətinin təqdir etdiyi layihə budur:

*(Məruzəçi oxumağa başlarkən üzvlərdən bir paraları qalxıb dışarı çıxdıqda sədr məruzəçini dayandırır.)*

**Sədr** - Rica edirəm yerinizdən danışmayasınız. Qapını bağlayın, kimsəni bayıra buraxmayın.

**Qardaşov** - *(oxuyur)*

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanına

Nuxa şəhərində sari [yoluxucu] səpmə yatalaq xəstəliyi zühur etmişdir. Şəhərin həkimlər şurası istər əmrazi-ümumiyyəyi-adiyə [adı ümumi xəstəliklərə], istər əmrazi-sariyyeyi-şədidəyə [şiddətli yoluxucu xəstəliklərə] düçar olan xəstələri müdavim [daimi] surətdə tədavi etmək üçün şəhər daxilində heç bir xəstəxananın mövcud olmadığını nəzəri-etibara alaraq, əmrazi-sariyyə barakaları inşa etmək, məvadi-tənzifiyyə [dezinfeksiya maddələri] hazırlamaq, klozetlər yapmaq və mənqul tənzifat kameraları [səyyar sarğı, sterilizasiya kameraları] ehzar eyləməyi [hazırlamağı] təhti-qərara almışdır. Şəhər idareyi-bələdiyyəsi şəhər sandığında [xəzinəsində] vəsaiti-nəqdiyyənin kamilən fiqdanından [yoxluğundan] dolayı, həkimlər şurası tərəfindən tövsiyə edilən tədabirin ittixazı [tədbirlərin həyata keçirilməsi] imkanından büsbütün məhrum olduğundan, məzkur [adı çəkilən] idareyi-bələdiyyə 1918 sənəsi 31 kanuni-əvvəldə [dekabrda] olan cələsəsində [iclasında] səpmə yatalaq xəstəliyi ilə mübarizədə bulunmaq üçün mənabeyi-nəqdiyyə [nağd vəsait qaynaqları] aramaq məsələsini müzakirə və işbu qərarı əta eyləmişdir.

Nuxa şəhərinə əmrazi-sariyyə barakaları, klozetlər yapmaq, tənzifat məvaddı [sterilizasiya maddələri] və mənqul kameralar hazırlamaq üçün hökumət nəzdində Nuxa şəhərinə iki yüz min manat ianə buraxılması haqqında hökumət nəzdində iqdamatda [təşəbbüsdə] bulunur.

Gəncə valisi keçmiş kanuni-saninin [yanvarın] 31 tarixli 26 nömrəli təzkirəsilə məzkur [adı çəkilən] şəhər idarəsinin işbu iqdamatını təsvib etməkdədir [təşəbbüsünü bəyənməkdədir].

Baladakı məşruhata məbni [yuxarıdakı izahata əsasən] Daxiliyyə Nəzarəti Nuxa şəhərində hökmfərma olan [hökm sürən] sari səpmə yatalaq xəstəliyi ilə mübarizədə bulunmanın, xəstəliyi nəinki yalnız şəhərdə, əsasından qaldırmaq üçün, hətta köyə [kəndə] sirayət etdikdə [yayıldıqda, yoluxduqda] kəndisi ilə mübarizədə bulunmanın qeyri-mümkün olacağı səbəbi ilə kəndisinə son dərəcə diqqət olunacaq bir keyfiyyət olmasını nəzəri-etibara alaraq Nuxa şəhəri idareyi-bələdiyyəsinin işbu iqdamatını şayani-qəbul [qəbula layiq] olduğunu etiraf ilə atidə məsrud [aşağıda nəzərə çatdırılan] layiheyi-qanuniyyəni Məclisi-Məbusanın təsvibinə təklif eylər:

1) Xəzinəyi-dövlət vəsaiti-nəqdiyyəsindən [nəğd vəsaitlərindən] bilafaiz [faizsiz] olaraq Nuxa şəhəri idareyi-bələdiyyəsinə əmrazi-sariyyədə [yoluxucu xəstəlikdə] mübarizədə bulunması üçün iki yüz min manatlıq bir borcun verilməsi və;

2) Məzkur idareyi-bələdiyyənin işbu borcu 1920-nci səneyi-miladiyyəsindən bəd' ilə [başlamaqla] hər sənə müsavi [bərabər] hissələrlə dörd sənə zərfində xəzineyi-dövlətə verməsi üçün kəndisini məcbur etmək.

Maliyyə-büdcə komisyonunun bəratülqövlü [protokolu]

15 mart 1919 sənəsində Maliyyə-büdcə komisyonunun iclasında Nuxa şəhər idarəsinə iki yüz min rublə borc buraxılması xüsusunda Daxiliyyə Nəzarətinin təqdim etdiyi qanun layihəsi müzakirə olunaraq qət olundu:

Daxiliyyə Nəzarətinin Nuxa şəhər idarəsinə iki yüz min rublə verilməsi xüsusundakı qanun layihəsi bilatəbdil [dəyişdirilmədən, eynilə] qəbul olunsun.

Komisyon tərəfindən təklif edirəm ki, bu layihəni qəbul edəsiniz.

Sədr - Kim danışmaq istəyir? Hər kəs danışmaq istəyirsə, yazsın versin. Söz Qəbulzadənindir.

*(Yenə var)*

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

**Müqəddimə**

Bu keçirdiyimiz ağır vaxt, vicdan sahibi olan hər bir vətəndaşı öz millətinə və vətəninə bir qətrə də olsa mənfəət gətirməyə məcbur edir. Bu qətrələrin cəmindən elə bir qüvvəli çeşmə vücuda gələr ki, ağır və böyük müsibətdə gün keçirmiş, həm də həlakətdən [həlak olmaqdan] təzəcə qurtarmış vətənimizə ən vacib və ən mühüm bir qüvvə olar. Bu

dəmdə bizim səltənət və dövlət imarətimizin binası qoyulur. Zamanı ki, bu səltənət imarətinin vicdanlı və canını yolunda fəda etmiş övladlarının hümməti ilə üstündə sancılacaq istiqlaliyyət baydağı bütün varlığı ilə mütəkəbbiranə bir surətdə yellənəcək, o halda təbiidir ki, böyükdən kiçiyədək hər bir vətəndaş bu imarətin tiki[li]şində iştirak eyləməsə, o zaman onun ürəyində bir pərişanlıq haləti əmələ gələcəkdir. Vətənin mənafeyini və onun yolunda üzərimə düşəcək vətəndaşlıq vəzifəmi düşünüb 1918 sənənin oktyabr ayının 30-uncu günündə cavan Azərbaycan Cümhuriyyəmizin Xariciyyə Nəzarəti işlərinin ifasına iqdam etdim [başladım]. O gündən sonra məmləkət daxilində və xaricində vaqe olmuş hadisələr məni məmləkətimizin siyasi əhvalı xüsusunda bir məruzə təqdim etmək məcburiyyətində qoydu. Bu məruzənin hazırlanmasında keçmiş tarix aləm[in]ə də nəzər etmək məcburiyyəti olduğundan, mənim məruzəm xalis siyasi şəkli almayıb, siyasət aləmindən savayı, tarixi və ədəbi aləmlərindən də bəhs eyləməyə məcbur olduq. Bununla mən boynuma almalıyam ki, bu qələmdən keçirdiyim şey bir qayda və nizam üzrə olmamaq və yazdığım mətləbləri daha əsaslı, daha əsil dərin mənbəyindən əldə etməməklə bərabər, bir mətləbdən digər bir mətləbə fövri [sürətlə] keçildiyi kimi, bu məruzəmdə artıq, lazım olmayan sözlərə də meydan buraxmışam. Bu qədər məzmuni [məzmuna dair] və zahiri nöqsanlarla bərabər, bu cüzü natamam [bütün hissələri tamamlanmamış] əsərimi mətbuat səhnəsinə buraxmaqdakı məqsədim budur ki, Məclisi-Məbusan, hökumət, siyasi və ictimai təşkilatlarımız bizim tarixi, siyasi və ədəbi işlərimizə dara [dərindən bələd], mütəxəssis olanlara və tarix yazanlarımıza tapşırsınlar ki, onlar bu xüsusda və bu yolda çalışıb əsaslı, ciddi, ətraflı və elmi nöqteyi-nəzərlə lazımeyi-məruzə əhaliyə təqdim və pişnihad etsinlər [meydana qoysunlar]. Bu kimi məruzələr və yazılardır ki, vətənimizin, hökumət və səltənətimizin istiqlaliyyət və azadəliyini möhkəmləşdirəcək və öz nuru ilə onun hər bir nöqtəsinin işıqlandırmasına bais olacaqdır.

*Azərbaycan Cümhuriyyətinin*
*Xariciyyə Nəzarəti müavini:*
*Adil xan Ziyadxan*
*Bakı, 1919 sənə (9) 22 martda*
*Novruz bayramı*
*Müstəqil Azərbaycan Cümhuriyyəsi*
*baydağı altında ilk dəfə*
*mübarək birinci günü*

**Məruzə**

Mən məruzəmi başlayıram oradan ki, haradan Azərbaycan ləfzi [sözü] və Azərbaycan vücuda gəlmişdir. Azərbaycan ləfzi bir rəvayətə görə fars lisanında "Azərbadkan" kəlməsindən, yəni "od mədəni" deməkdən vücudə gəlmiş, digər rəvayətə görə "Azərbabkan" kəlməsindən, yəni "Babəkin odu" kəlməsindən olmuş. Babək atəşpərəst olub, bir çox müridləri ilə bərabər Azərbaycan ölkəsində imişlər. Məlum olduğu üzrə, atəşpərəstlik bu məmləkətdə daha qədim zamanda bina tutulduğu cəhətdən adı da "Azərbaycan" qalmışdır. İndiki Azərbaycan paytaxtının, yəni Bakı şəhərinin yaxınlığında mövcud "Suraxanı" denilən yerdə bu vaxtadək atəşpərəstlərin ibadətgahı və atəşkədələri görünməkdədir. Hərgah müvəqqəti olaraq əsil mətləbdən uzaqlaşıb tarix aləminə keçərsək, o zaman qeyd olunmalı ki, kimləri və hankı bir tayfanı Azərbaycan öz torpağında görməyibdir. Rəvayət olunur ki, məşhur İskəndər Zülqərneyn böyük cahangirlik və dava səyahətində Azərbaycana gəlmiş və Bakıya da daxil olmuşdur. Hətta Badkubəli Sə'dan adlı məruf [tanınmış] və məşhur, o zamanənin pəhləvanı İskəndərin Bakıya gəlməsini eşidərək böyük cəlal və mötəbər şəxslərlə onun pişvazına çıxmış və ona lazımi hörmətləri və mehmannəvazlığı [qonaqpərvərliyi] göstərmişdir. İndiyədək Dərbənd qalasının divarlarına "Səddi-İskəndər" adı verilməsinə səbəb, həman divarların İskəndər tərəfindən qayıtdırılmasına (isnad verirlər). Filcümlə [o cümlədən] İskəndərin şəxsi işlərinə dair verilən xəbərlər onun Bərdə şəhərinin hakiməsi olan məşhurə Nüşabə xanıma eşq yetirməyi də onun Azərbaycana gəlməsini təsdiq edir. Bu vaxtadək, əskidən bəri özünün əvvəlki adını saxlamış Bərdə həman indiki Azərbaycan dəmiryolunun Yevlax mövqifinin [stansiyasının] yaxınlığında vaqe bir qəsəbədir. Kvint Kurtsi adlı bir tarix yazan yenə İskəndərin gözəl Nüşabə xanıma olan eşqini qeyd edir.

Tomris xatun. Hələ İskəndərdən əqdəm [əvvəl], təqribən iki min beş yüz il bundan əqdəm Azərbaycanda padşahlıq etmiş olan Tomris xatun (Tomirida) fars atəşpərəst padşahı Keyxosrov ilə Muğan çölündə müharibə edib qalib oldu və başını kəsdirib qanla dolu bir teşt içinə salıb bu sözləri dedi: "Doy bu qandan ki, ömründə qandan doymaq bilməzdin."

Bundan savayı Leon Kahen adlı firəng tarix yazanı, Şərqin digər məşhur dahisi olan Teymurləngin Azərbaycana gəlməsini bu növü təsvir edir:

"Azərbaycan" qədimdən bəri lisanca, ürf və adətcə, həm də əhalicə bir türk ölkəsi olub, öz razılıqları ilə Teymurləngə biət etmişlərdir. Azərbaycanın axırıncı elxanı ki, Hülakü xan nəslindən olsun, əlaqənin möhkəmləşdirməyi üçün öz sevgili qızını Teymurləngin oğlu Cahangir Mirzənin Pir Məhəmməd adlı oğluna vermişdir.

Bu yuxarıda göstərilən böyük zatlardan savayı Azərbaycan öz torpağında bir çox böyük adamlar və tayfaları görmüşdür. Məsələn rumları, yunanları, hunları, xəzərləri, ərəbləri, moğolları [monqolları], Osmanlı türklərini və rusları və daim torpağında sükunət tapmış [yaşamış] Azərbaycan türklərini görmüş və genə də görməkdədir. Azərbaycan torpağına gəlib-gedən tayfaları tarixcə təyin etmək və həqiqətə çıxartmaq mühüm və pək də müşkül bir məsələdir. Hətta türk millətinin tarixinə gözəl surətdə aşna olan Herman Vamberi adlı alim bu barədə böylə yazır:

*"İndiki Azərbaycandan ki, qədimdə Atropaten adlanırmış, nə vaxtı və nə cürə olub ki, köhnə İran tayfaları türk tayfası tərəfindən çıxarılmış, bunun həqiqətinə yetişmək böyük və çətin bir məsələdir."*

Fəqət bu halda, əlbəttə, növbət bizim tarix yazanlarımıza keçir ki, onlar gərək xarici alimlərindən daha ətraflı və məlumatlı türk, moğol və tatar millətinə mənsub və aid tariximizi düzəldib meydana çıxartsınlar.

Şərqin hürriyyət və nəhayətsiz səhralarının cəngavər balaları cahanın köçərilik qanunlarından baş qaçırtmayıb Asiyanın şərqindən qərbinə doğru hərəkət edib Avropa camaatının qonşuluğunda yer tutmuşlar. Bunlar əyri qılıncları sayəsində Asiya və Avropa və hətta Afrikaya qədər getmişlər və böyük hökumətlər düzəldə bilmişlərdir. Özlərinə görə ədəbiyyatları olub, ülum və fünuna [elmlərə və fənlərə] bir çox xidmətlər etmişlərdir. Və sonra türk millətinin mədəniyyət və tərəqqisi çox davam etmədiyinə səbəb onların öz aralarında vaqe olan çarpışmalar vasitəsilə zəif olub, başqa millətlərin bunlara olan hücum və hakimlikləri olmuşdur.

Ümid edirik bu yaxın zamanlarda, ehtimal üzrə bilümum [ümumiyyətlə] dünyada yaşayan millətlərin kəskin və atəşli toqquşmalarına artıq meydan qalmasın. Fəqət bu hal baş tutarsa, o zaman türk millətinin müqabilində böyük mədəniyyət və tərəqqi qapıları açıq olacaq və bu qapıya ayaq qoymaq böyük qüvvə və bacarıq istəyəcək, yəqinən türk tayfasına babalardan irsən qalma şücaət, nəcabət, doğruluq, rəhm və mehmannəvazlıq [qonaqpərvərlik], böyüyə itaət etmək, şəxsi hörmət və heysiyyətini saxlamaq, əhdinə vəfa etmək və bu kimi insaniyyət sifətlərini və adətlərini möhkəm tutub mədəniyyət yolu ilə hərəkət edəcəkləri təbiidir.

Burada türk xanlarından birisinin rum padşahının səfirinə qəribə söylədiyi sözlərini qeyd edirəm:

*"Siz həmin rumlar deyilmisiniz ki, ona kimi dil bilirsiniz və onunla da insanı aldadırsınız? Biz türk tayfasında isə nə yalan, nə əyrilik və nə də namərdlik sifətləri yoxdur. Unutmamalısınız ki, hər vaxt mənim əlimə fürsət düşərsə, dərhal padşahınızdan qisas alacağam, çünki padşahınız mən ilə dostluq etdiyi halda, düşmənlə də dostanə əlaqədə davam edir."*

Firəng alimi də məzkur [adı çəkilən] xanın həman bu yuxarıda dediyi sözlərini bu növü təsvir edib də təsdiq edir:

*"Siz həman rumlarsınız ki, on diliniz var, bircə yalanınız. Türklər isə yalan söyləməz."*

Türklərdə və moğol tayfasında olan rəhm və ağayana sifətlər o mərtəbədə imiş ki, Hülakü xan vəfat etdiyi zaman onun erməni rəiyyətləri onun üçün yas və matəm qurmuşlardı. Bu xüsusda firəng tarix yazanı Leon Kahen deyir:

*"1264-cü sənədə Hülakü xan vəfat etdiyi zaman, həm də onun dalınca arvadı Doqquz xatunun vəfatından sonra xaçpərəstlərin içində böyük əza məclisi qurulmuşdu."*

Əbülfərəcin verdiyi rəvayətə görə, xaçpərəstlərin "Qızıl yumurta" bayramında Hülakü xanın vəfat etdiyini və məzkur xanın ağlını, rəhmini və böyük-böyük xeyir işlərini söyləməklə vəsfə gəlməz arvadı Doqquz xatunun öz zövcündən bir sənə sonra vəfat etdiyini, həm də bu iki nəfər alicənabların vəfatı xaçpərəstlərə nə qədər təsir etdiyini, hətta onların vəfatı ilə xaşpərəstlərin işıqlı çırağının sönməyini qeyd edir. Bu xüsusda erməni tarix yazanı Orbelyanın verdiyi rəvayət Əbülfərəcinkindən daha [diqqətə] şayandır [diqqətəlayiqdir]. O deyir:

*"Cahanı əlində saxlamış və tamam dünyaya sahib olmuş, həm də xaçpərəstlərin ümidgahı və pənahgahı hesab olunan Hülakü xan 1264-cü sənədə vəfat eylədi. Ondan sonra onun arvadı Doqquz xatun vəfat eylədi. Allah bilir ki, xeyir işlərdə onlar Böyük Konstantin və onun anası Yelenadan geri qalmayırlar."*

Hərgah bizim tariximizin səhifələri vərəqlənərsə, o zaman orada sabiq Azərbaycanın müstəqil xanlarının daha bu tarixdən 400 sənə əvvəl ingilislərlə ticarət əlaqəsində olduqları görünər. Bu cümlədən olaraq Şirvanın müstəqil xanı Abdulla xan öz paytaxtı olan Şamaxı şəhərində təhti-himayəsində [himayəsi altında] olmaqla ingilislərə mütəəlliq [məxsus] bir ticarətxana açdırmışdı.

Bundan əlavə, bu Abdulla xan 1562 səneyi-miladidə, ki 969 səneyi-hicriyyəyə mütabiqdir, ingiltərəli Cenkinsonla bərabər müstəqil xanlığı tərəfindən Rusiya hökumətinin İvan Qroznı səltənəti nəzdində öz səfirini göndərmişdi. Məlum olduğu üzrə, Moskva ilə İngiltərə hökuməti arasında olan o zamankı ticarət əlaqəsi yenə ingiltərəli kapitan Riçard Çensler vasitəsilə Ağ dəniz [Aralıq dənizi] yolu ilə olurmuş.

Xülasə, Azərbaycan səltənət [dövlət] tarixinin şövqündə olanlara hədsiz və nəhayətsiz lüzum görüləcək tarixi məlumat vardır ki, onların zahirə çıxarılmasına bir qüvvə və yorulmaz bir hərəkət istər.

Bir çox əsrlərdən bəri indiki Azərbaycan Cümhuriyyəsinin hüdudu daxilində, yəni günçıxan tərəfdən Xəzər dəryası, qiblə tərəfdən İran və Osmanlı dövlətlərinin sərhədləri, günbatan tərəfdən Gürcüstan və şimaldan isə Qafqaz dağları arasında Gəncə, İrəvan, Qarabağ, Şəki, Şirvan, Quba, Naxçıvan, Talış, Bakı xanlıqları kimi bir çox azad və müstəqil xanlar yaşayırdılar.

*(yenə var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Royter acentəliyindən)*

**Müttəfiqlərlə bolşeviklər müharibəsi**

Londondan xəbər verirlər ki, Lordlar palatasında Kerzon izhar etmişdir ki, bolşeviklər vilayət hökumətini yıxmağa və şimali ordunu Denikin əleyhinə döndürməkdən ötrü azad etməyə çalışmışlardır. Hərbiyyə naziri namindən Pill demişdir ki, Arxangelsk cəbhəsində axırıncı geri çəkilməkdə bizim tələfatımız az olub, düşmən isə böyük tələfat vermişdir. Hələliyə bizim əsgərlərimizi heç bir təhlükə hədələməyir. Hərgah, bolşeviklər inad göstərməkdə davam etsələr, kömək lazım olacaqdır. Əsgərlərimiz arasında xəstəlik azdır.

**Almaniyanın protestosu**

Londondan teleqraf edirlər ki, Almaniya Hökuməti mütarikə şəraiti [atəşkəs şərtləri] qərarı ilə almanların Çin Hökuməti daxilindən çıxarılmaları əleyhinə protesto etmişdir.

**Polyaklarla çexlər arasında**

Varşavadan xəbər verirlər ki, polyaklarla çexlər arasında vaqe olan ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün Beynəlmüttəfiq komissiyası Praqaya azim olmuşdur [yola düşmüşdür].

**"Tan" qəzetəsinin rəyi**

Parisdən xəbər verirlər ki, "Tan" qəzetəsi Veymar Şurasının Almaniya[nın] Avstriyanı istila etmək arzusundan və bu iki həftə ərzi müddətində istila olunması nəfinə [lehinə] iki dəfə müttəhidülrəy [yekdil] qətnamə çıxardığından bəhs edib, Avstriyanın bitərəf bir məmləkət elan edilməsi təklifini edir.

**Klemanso yaxşı olmuşdur**

Parisdən xəbər verirlər ki, Klemanso səhhət tapıb, martın 28-də Sülh Konfransında sədarət etmək iqtidarı olacaqdır.

**Vilsona sui-qəsd hazırlanırmış**

Nyu-Yorkdan xəbər verirlər ki, Vilsona sui-qəsd olacağı kəşf edildiyinə görə, yekşənbə [bazar] günü axşam 14 ispanyollu həbs edilmişdir.

**Trotskinin intibahnaməsi**

Stokholmdan xəbər verirlər ki, Trotski bir intbahnamə [bəyannamə] buraxıb Finlandiyanı xəbərdar edir ki, hərgah, Finlandiya sərhədə əsgər yürütməkdə davam etsə, Şura hökuməti hərəkətsiz durmayacaqdır.

**Alman gəmilərinin həbsi**

"Havas" acentəliyi xəbər verir ki, "Krifamma" minanosu [mina gəmisi] Baltik dənizində icazəsiz üzməkdə olan iki alman paraxodunu tutmuşdur.

Paris - Royter ajansı müxbiri ilə müsahibədə bulunan Pişon bəyan eyləmişdir ki, sülh əhdnaməsi may ayının ortalarında qurtaracaqdır. Bu əhdnamə qəti olmayacaq, fəqət Müttəfiqlərin idarə etdikləri sülh projesindən ibarət olacaqdır. Konfrans hələlik Almaniya flotu müqəddəratını həll eyləməmişdir. Almaniya, Avstriya-Macarıstan lazimə iltizamnaməni əmələ gətirmək məsələsi qaldırılmışdır. Zənn edilir ki, bütün Bavariyanı da Spartak hərəkatı tutmuşdur. Münxendə vətəndaş müharibəsi davam edir. Rusiya siyasəti barəsində konfrans demək olar ki, razılığa gəlmişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

Rəisi-vükəlanın [Baş nazirin] Maliyyə naziri tərəfindən göndərilən təhrirən [yazılı] istefası barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Maliyyə naziri vəzifəsini müvəqqəti olaraq Dövləti Müfəttiş Əliağa Həsənzadəyə mühəvvəl [həvalə] etməli.

## NƏZARƏTLƏRDƏ

**Məsai Nəzarətində**

- Baş Fabriçni müfəttiş Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Azərbaycan Kazyonnaya Palatası [Xəzinə Palatası] müdirinin məruzəsinə görə, xəzinəyə axır vaxtlar marka vergisi zəif daxil olmaqdadır. Müfəttiş Nəzarətdən rica etmişdir ki, hökumət dairələrində işbu məsələ ciddi surətdə nəzərə alınmalıdır.

- Maliyyə Nəzarəti dəftərxanası Məsai Nəzarətinə məlum etmişdir ki, 21 mart saat 11-də Ədliyyə Nəzarətində (Vorontsovski nömrə 19) məvacibləri artıracaq komisyonun iclası vaqe olacaqdır.





- Baş Fabriçni müfəttiş Məsai Nəzarətinə məlum etmişdir ki, Məclisi-Məbusan əzasının [üzvlərinin] verdikləri məlumata görə, Mirbabayev mədənlərində fəhlələrlə fəna müamilədə [rəftarda] bulunmaqla vaxtlı-vaxtında məvacibləri verilməyirmiş. Şimdi kiçik müfəttiş təhqiqatı sayəsində təhqiq edilmişdir ki, fəhlələrin məvacibləri vaxtlı-vaxtında verilməmişdir. Baş müfəttiş tərəfindən mədən müdiriyyətinə lazımi tədabir ittixazı [tədbirlər görülməsi] təklif edilmişdir.

- Nobel Qardaşları fəhlələrinin tətili haqqında Baş müfəttiş Məsai Nəzarətinə böylə məlumat vermişdir:

Martın 18-də turba zavodu fəhlələri 110 nəfər işə başlamışlar. Memar, xərratlar da 76 nəfərdir, işə başlamamışlardır. Çornı-qoroddakı mədənlər fəhlələri bir makinə emalatxana fəhlələrindən başqa həpsi işə başlamışlardır. Balaxanıda tətil davam edirdi. 18 martda tətil edənlərin ümumi hesabı 1000 nəfərdir. Başqa firmalarda iş qayda üzrə getmişdir. Şimdiki məlumata görə, fəhlələrə məvacib verildiyindən işə başlanılmışdır.

## MƏTBUAT

Xəzər Müstəhlikin İttifaqı "Kooperatsiya" tərəfindən nəşr edilmək üzrə mətbuat sırasına "Zəhmət həyatı" nam [adlı] həftəlik bir məcmuə dəxi daxil olmuşdur. Bu məcmuə birinci nömrəsinin baş məqaləsində məqsədini bəyanla deyir ki:

*"«Zəhmət həyatı» məcmuəsinin ümdə məqsədi kooperatsiyanın müsəlmanlar arasında intişar tapması* [yayılması] *olacaqdır."*

Son zamanlar təqazayi-zəmanəyə [zəmanənin ehtiyaclarına] görə Bakı türk-islam camaatı arasında dəxi bu fikrin rəvac tapdığını, fəqət kooperativ hərəkatını ətraflıca anlamış xadimlərimiz az olduğundan kooperativ cəmiyyətlərinə adi bir baqqal dükanı kimi baxılaraq, cəmiyyət başına ancaq mənfəət axtaranlar keçərək ali məqsədi unudurlar. Bu səbəbdən də müsəlman kooperativləri cəmiyyətləri və dükanlarının həpsi bağlanır. Ona görə:

*"Biz məcmuədə böylə cəmiyyətləri idarə etməyə fəal və doğru adamlar hazırlamaq üçün kooperatsiyaya dair lazımi məlumat verəcəyiz."*

Məcmuənin məzkur [deyilən] nömrəsində kooperativ cəmiyyətinin tarixinə və fəaliyyətinə aid məqalələr, müsahibələr, Bakı və ətrafındakı kooperativlər haqqında bəzi məlumat dərc edilmişdir.

Müstəhlikin [istehlak] cəmiyyətlərinin həyati-iqtisadiyyə, ictimaiyyə və hətta siyasiyyədə tutduğu mühüm mövqeyi camaatımıza anlatmaq və bu kimi gözəl fikrə rəvac vermək uğrunda təşəbbüsata girişən yeni rəfiqimizə müvəffəqiyyətlər diləriz.

## BAKI XƏBƏRLƏRİ

**Fəhlə həyatından**

18 mart tarixində saat 2-də mədənlər mərkəzi "Müsavat" idarəsində təşəkkül etmiş işçilər müşavirəsi iclasında müzakirə ediləcək məsələ cümləsində Parlaman rəyasəti tərəfindən yeni Kabinə təş-

kili Nəsib bəy cənablarına həvalə edilməsi məsələsi müzakirə[si] bə'dində [sonrasında] Sabunçu, Ramanı, Zabrat, Balaxanı dairələri mədənlərində çalışan müsəlman işçiləri iclası namından [adından] "Azərbaycan" qəzetəsi vasitəsilə ümum Azərbaycan füqərayi-kasibəsi vətəndaşlarımıza müraciətən zirdə mühərrər [aşağıda yazılmış] məzmunlu ərzi-təbrik etmək qərara alındı:

Məşhur millət xadimlərindən sevgili vətəndaşımız Yusifbəyli Nəsib bəy cənabi-alilərinin məqami-rəyasəti işğalı [tutması] dolayısı ilə demokratik bir hökumət təşkil edilib də, cərəyani-ümurisiyasiyyəmiz böhran[ı] istiqamətə vəz edilməklə [siyasi işlərimizin gedişatın-dakı böhran yoluna qoyulmaqla], Azərbaycan əhalisinin 97 faizini təşkil edən zəhmətkeş xalq camaatının maddi və mənəvi cəhətlərinin islah və tərəqqisinə tam mənası ilə bəzli-məsai buyurulacığına [səy göstəriləcəyinə] əmin olduğumuzdan, bütün Azərbaycan zəhmətkeş xalq camaatını təbrik ediriz. Qismən qərib[ən] [yaxın vaxtlarda] Azərbaycan füqərayi-kasibəsini təbrik etməkdə haqlı olduğumuzun təhəqqüq edəcəyinə [meydana çıxacağına] inamımız möhkəmdir.

*İclas sədri: Mirzəağa Kərimzadə*
*Katib: [Əbdürrəhim] Yusifzadə*

**Novruz münasibətilə**

Eydi-Novruz [Novruz Bayramı] münasibətilə cümə, şənbə, bazar və bazar ertəsi günləri mətbəə və idarələrimizin tətil edəcəyini və bundan naşi [bu səbəbdən] qəzetəmizin növbəti nömrəsinin çaharşənbə günü çıxacağını elam ediriz [bildiririk].

**"Bəsirət"**

Bu gün saat 6-da Novruz Bayramı münasibətilə "Bəsirət" qəzetəsinin bayram nömrəsi çıxacaqdır.

**Tətil**

Dün Fəhlə Konfransının qərardadına görə bir çox müəssisələrin əmələ və xidmətçiləri tətil etmişlərdi. Bizim mətbəəmizlə bərabər, Birinci Hökumət Mətbəəsi, Nəzarətlər və bəzi sair müəssisələr tətil etmədilər.

**Axtarış**

Təhərri [axtarış] polisəsi müdiri Bakı qubernatoruna məlum edir ki, martın 14-də gecə o, şəhərin Zavağzalnı hissəsində axtarış icra edib 11 nəfər adam tövqif etmişdir [tutmuşdur] ki, onların heç bir müəyyən sənədləri olmayıb, ancaq qarətgərlik və bədəfkarlığa [soyğunçuluq və cinayətlə] məşğul imişlər.

**Cərimələr**

- Bakı qalabəyisinin [komendantının] binagüzarlığı [sərəncamı] ilə Urmiyə şəhəri əhli Avetis Babayeviç Piricanyans icazəsiz "Brauninq" tapançası gəzdirməkdə müqəssir edilərək 1000 manat cəriməyə məhkum edilmişdir. Cəriməni verə bilmədiyi halda bir ay müddətinə həbs ediləcəkdir.
- Azərbaycan Cümhuriyyətinin Baş ərkani-hərb [qərargah] idarəsi rotasının fərari əsgəri Əmir Həmzə Kərbəlayi Məhəmməd oğlu İbrahim Gəncə şəhərinə göndərilən vaxta qədər Mərkəzi Həbsxanaya göndərilir.
- Dağıstan mahalı Aşuqə kəndinin əhli Əbdülqədir Baba oğlu icazəsiz tapança gəzdirməkdə müqəssir edilərək 500 [manat] cəriməyə məhkum edilmişdir. Cəriməni verə bilmədiyi halda beş gün həbs ediləcəkdir.
- Mirqulam Mirəli oğlu və Ağabala Ağabala oğlu icazəsiz tapança gəzdirməkdə müqəssir hesab edilərək hər birisi 1000 manat cəriməyə məhkum edilmişdir. Cəriməni verə bilmədikləri halda bir ay həbs ediləcəkdir.
- İbrahim Molla Mahmud oğlu icazəsiz tapança gəzdirməkdə müqəssir hesab edilərək 50[0] manat cərimə edilmişdir. Cəriməni verə bilməməyi halda 15 gün müddətinə həbs ediləcəkdir.

**Məhbusları tövqif etmək**

Təhərri polisəsi müdiri Bakı qubernatoruna məlum edir ki, neçə gün bundan əqdəm [qabaq] qaçmış məhbuslardan dörd nəfəri İlyas Ələkbər oğlu, Məhəmməd Hüseyn oğlu, Süleyman Nəsrulla oğlu və Əlibala Səməd oğlu tövqif edilmişlərdir [tutulmuşlar].

## ERMƏNİSTANDA

**Ermənilər Sülh Konfransında**

Ermənistan Hökumətinin Sülh Konfransında olan heyəti sədri Aqaronyan Parisdən böylə bir teleqraf göndərmişdir:

*"Fevralın 26-da mən və Poqos Nubar paşa Sülh Konfransına öz tələbatımızı təqdim etdik. Konfransdan hələ cavab almamışıq."*

**Amerikanın müavinəti**

Müharibədən mütəzərrir olanlara [zərər çəkənlərə] müavinət [köməklik] edən Amerika komissiyası bugünlərdə Amerikadan İstanbula varid olacaqdır [gələcəkdir]. Bu komissiya beş nəfərdən ibarətdir. Bunlardan biri doktor Bojine dağılmış vilayətlərə, digəri isə Balkana azim olacaqdır [gedəcəkdir].

## İANƏ

Əbdülhüseyn bəy Hacıyev cənablarından artist Mirzə Muxtar Məhəmmədov nəfinə [xeyrinə] olaraq idarəmizə 50 manat ianə vüsul olmuşdur [çatmışdır].

## ELANLAR

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 2-41*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Azərbaycan**
**müftüsü və şeyxülislam**

Bayram görüşünü Bakı Cəmiyyəti-Xeyriyyəsinin rautunda [təntənəli ziyafətində] 22 mart[da] qəbul edəcəkdir.

*T-72*

**Elan**

Salyan Ünas [Qızlar] Məktəbi-ibtidaisi üçün 2 türk müəlliməsi lazımdır. Xahiş edən xanımlar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**

Düşənbə [bazar ertəsi] günü
mart ayının 24-də
**Qızıl və gümüş sənətkarlarının**
**"Qənaət" müstəhlik cəmiyyəti**
tərəfindən həman cəmiyyətin Maarif
şöbəsinin nəfinə [xeyrinə] olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Arşın mal alan"**
2-ci pərdəsi
Əsər: Üzeyir bəy Hacıbəyov
Həmin pərdədə iştirak edirlər:
Sultan bəyin rolunu məşhur komik
Mirzəağa Əliyev və Əsgərin rolunu Sarabski
ifa edəcəkdir.
Dirijor: Müslüm bəy Maqomayev.
Rus dilində operetta
**"Geyşa"**
3 pərdədə
İştirak edənlər: Qukasov, Starostina,
Berezin, Yelenin, Ard və qeyriləri.
Axırıncı pərdədə maraqlı divertisment və
rəqslər (balet).
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Biletləri indidən cəmiyyətin kooperativ
dükanlarından almaq mümkündür.

*P. Amiraqo*
*Müvəkkil: Həmid İbrahimov*
*5759*

**Bakı**
**Cəmiyyəti-Xeyriyəsinin**
**İdarəsi**

Novruz bayramı münasibəti ilə şənbə günü mart ayının 22-sində "Obşestvennı sobraniya"nın binasında (Nikolayevski və Sadovının küncü) raut (görüş) tərtib edibdir. Daxil olduqda Cəmiyyəti-Xeyriyyə nəfinə [xeyrinə] ianələr qəbul olunacaq.

**Teatro və müsamirə**

Yekşənbə [bazar] günü martın 23-də Novruz bayramının ikinci günü Qafqaziya Müsəlman Mütəəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi Hökumət Teatrosunda (sabir Mailov Teatrosu) teatro və müsamirə qoyacaqdır. **"O olmasın bu olsun"** oynanacaqdır.

Teatrodan sonra **müsamirə** olacadır.

Biletlər satılır Nikolayevski küçədə Kazımzadə və Şərifzadənin mağazasında, "İslamiyyə" mehmanxanasında (Qubernski küçə), Şamaxı küçəsində Tağıyevin qalanteriyni dükanında. Mütəəllimlərə aid biletlər satılır Mərkəzi Komitədə (Verxni-Təzəpirski və Gimnaziçeski) (Təzəpirdə).

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Cəmiyyəti-Xeyriyyəyə dair**

səh. 327. "Və təavənu əlal-birri vət-təqva və la təavənu əlal-ismi vəl-udvani vəttəkulləhə innalləhə şədidül-ikab.": "Quran"ın Maidə surəsinin 2-ci ayəsindən bir parça. Mənası: "Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"

"To kəz mehnəte digəran bigəmi / Nəşayəd ke namət nəhənd adəmi": "Sən ki başqalarının əziyyətindən qəm çəkmirsən / Yaraşmaz ki adını adəm qoysunlar" (farsca; beyt Sədinindir).

"Lotfe Həq ba to modaraha konəd / Çonke əz həd boqzəri rosva konəd": Tanrının lütfü sənə çarələr edər / Ancaq həddini aşsan, rüsvay edər." (farsca; beyt Hafizindir).

"Qətre qətre cəm gərdəd bədəz an dərya şəvəd.": "Damcı-damcı yığılar, sonra dəniz olar." (farsca)

"Morade ma nəsihət bud qoftim / Həvalət ba Xoda kərdim və rəftim": "Muradımız nəsihət idi dedik / Tanrıya ismarlayıb getdik" (farsca)

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 330. "Biri əməli, yəni pratik cəhəti…": qəzetdə "əməli" yerinə "elmi" getmişdir.

**Azərbaycan haqqında**
**tarixi, ədəbi və siyasi məlumat**

səh. 334. "…bir mətləbdən digər bir mətləbə fövri keçildiyi kimi…": qəzetdə "fövri" yerinə "quru" getmişdir.

səh. 335. "Tomris xatun (Tomirida) fars atəşpərəst padşahı Keyxosrov ilə Muğan çölündə müharibə edib qalib oldu və başını kəsdirib qanla dolu bir teşt içinə salıb": E. ə. 530-cu ildə Massaget hökmdarı Tomris

tərəfindən məğlub edilən və başı kəsilən Əhəmənilər İmperiyasının hökmdarı II Kir olmuşdur.

səh. 336. "Əbülfərəc": XIII əsr arami kilsə xadimi və tarixçisi Əbülfərəc bin Harun nəzərdə tutulur.

səh. 337. "Böyük Konstantin": Roma imperatoru I Konstantin nəzərdə tutulur.

"Yelena": Roma imperatriçəsi Flaviya Yuliya Helena nəzərdə tutulur.

"Abdulla xan": Abdulla xan Ustaclı nəzərdə tutulur.

"ingiltərəli Cenkinsonla": qəzetdə "Cenkinson" yerinə "Cekson" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 338. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet "Le Temps" [Le Temps] nəzərdə tutulur.

**Nəzarətlərdə**

səh. 338. "Baş Fabriçni müfəttiş": Baş Fabrik müfəttişi; sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

səh. 339. "...fəhlələrlə fəna müamilədə bulunmaqla...": qəzetdə "müamilədə" yerinə "mübadilədə" getmişdir.

**Bakı xəbərləri**

səh. 340. "Brauninq": odlu silah ixtiraçı-konstruktoru Con Brauninq tərəfindən ixtira edilmiş tapança.





**Çərşənbə, 26 mart 1919-cu il, nömrə 143**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 23 cəmadiyəlaxir sənə 1337. 26 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ**
**VƏ İNNA İLEYHİ RACİUN**

Hüseynbala, Kazım, Sadıq və Haşım Hüseynovlar **Hacı Əliməhəmməd Hüseynovun** vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir matəm və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün mart ayının 26-sında səhər saat 9 tamamda özünün Verxni-Təzəpirski küçədə 72 nömrəli evindən Təzəpir məscidinə aparılacaqdır.

*5763*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Posta və Teleqraf nazirinin bütün Azərbaycan Cümhuriyyətindəki posta və teleqrafxanalarına təmimnaməsi [göstərişi]**

Bu mart ayının 19-uncu günündən etibarən Cümhuriyyətin bütün posta və teleqrafxanalarında türkcə olaraq daxili teleqrafların qəbulu müqərrər edilir [qərarlaşdırılır].

*Posta ve Teleqraf naziri: "imza"*
*Dəftərxana baş müdiri: "imza"*
*5-ci şöbə müdiri: "imza"*
*Əslinə mütabiqdir [uyğundur]:*
*Birinci şöbə kargüzarı: Rəsul Rəhimli*

**Daxiliyyə nazirinin əmri**

Bakı, Gəncə və Zaqatal[a] qubernatorlarına:

Daxiliyyə Nəzarətində[n] alınan məlumata görə, hökumət idarələri heyətləri, ələlxüsus qəzalardakı hökumət idarələri, ələlümum [ümumiyyətlə] kəndi öhdələrinə düşən vəzifələri layiqincə ifa edəmməyirlər. Bu isə şimdi keçirməkdə olduğumuz ağır zamanlarda son dərəcə lazım və vacibdir.

Həmin idarələr və onların məmurları təcili olaraq öylə bir vaxtda təşkil edilmişlərdir ki, onların sifət və iqtidarları [səlahiyyətləri] müəyyən edilməmişdir. Bəzi yerlərdə məmurların təyini və ya intixabı [seçimi] sahibi-nüfuz şəxslərin hərəkətləri ilə olmuşdur. Böylə ki, həman şəxslər kəndi xeyir və mənfəətini gözləyərək hökumət idarələrinə insaflı məmurların təyin edilməsinə imkan verməmişlərdir. Kəndlərdə dəxi böylə halət davam etmiş və hal-hazırda etməkdədir. Bundan naşi [buna görə], məzkur mə-

həllərdə [adı çəkilən yerlərdə] hərc-mərclik qurtarmayıb və əhali tərəfindən qanuna müraat [riayət] edilməyir.

Məmurların qanundan kənar hərəkatı, onların əhali ilə müğayir [uyğun olmayan] surətdə davam edən rəftarı, rüşvətxorluq və bir çox hökumət məmurlarına yaxışmayan bəd müamilələri [pis rəftarları], bir tərəfdən iqtidarları olmadığı halda mənsəblərinin artması uğrunda cürbəcür xainanə hərəkata təvəssüt etmələri [əl atmaları], məhəlli [yerli] hökumət işləri həyatında təbii bir halət kəsb etmişdir.

Əhalini müvəffəqiyyətli surətdə idarə etmək üçün hökumət idarələri və məmurları hamısından əvvəl insaflı, ədalətli, bacarıqlı və ağıllı olmalıdır. Ancaq böylə bir idarə əhalinin hüsn-rəğbətini qazanar. Qüvvəyə istinad edən hökumət idarələri və məmurları çox vaxt davam edəmməz və işləri dəxi müvəffəqiyyətsiz olar. Böylə şərait və tələbatı bütün hökumət məmurları nəzəri-etibara almalı və bunlara müvafiq hərəkət və rəftar etməlidirlər. Bunların xidmətə ləyaqətləri və əxlaqları olmalıdır. Bunlar isə birinci dərəcə əhəmiyyəti haizdir [əhəmiyyət daşıyır]. Bunlardan əlavə heç bir nəzəriyyə doğru və hökumət işlərinə müvafiq ola bilməz. Məmurlarımızda yuxarıda göstərilən sifətlər olmadıqda, heç bir dəstə və əlahiddə şəxsin nüfuzu onların xidmətə qəbul olmalarına səbəb ola bilməz.

Yuxarıda göstərilən şərtləri nəzərə alaraq zati-alilərinə təklif edirəm ki, tezliklə hökumət idarəsi və onların məmurları ilə aşina [tanış] olub, ləyaqəti olmayanları və ələlxüsüs yuxarıda göstərilən sifətlərə malik olmayan şəxsləri xidmətdən kənar edib, onların əvəzində isə göstərdiyim sifətlərə malik olanları qəbul edəsiniz. Bu barədə siz kəndinizi müstəqil olaraq hiss edəsiniz. Bundan ötrü sizlərə lazımi ixtiyarlar verirəm. Ümidvaram ki, öhdənizə tapşırdığım vəzifəni layiqincə ifa etməyə səy edərsiniz. Bunu isə vətənin səadəti və istiqlaliyyəti sizdən tələb edir. Binaənileyh [ona görə], tezliklə hökumət idarələri və məmurların təbdil və təğyir edilməsi [dəyişdirilməsi, düzəldilməsi] və həmçinin onların lazımi dərəcə vəzifə sahibi olmalarından ötrü ciddi tədbirlər ittixaz etmənizi [tədbirlər görmənizi] gözləyirəm. Eyni zamanda sizi əvvəlcə sərhesab etməyi [xəbərdar etməyi] kəndimə vəzifəədd edirəm [sayıram] ki, bundan sonra hökumət məmurları tərəfindən sadir olan [meydana gələn] hər bir qeyri-qabil hərəkət və rəftardan dolayı mən beşəxsən [şəxsən] sizləri məsul edəcəyəm və onların böylə hərəkatında siz cavabdəhəndə olacaqsınız.

*Daxiliyyə naziri:*
*Xəlil bəy Xasməmmədov*

## CİDALAR GÖRÜNÜR

Azərbaycan istiqlaliyyətinin sağ və solunu tutan və meydani-siyasətdə dəxi məqamları sağdan və soldan ibarət olan bədxahlarımız [düşmənlərimiz] bəzən olur ki, bizə qarşı hazırlamış olduqları cidalarını [mizraqlarını] – əlaltı bir politika xatirəsi üçün – ciblərində gizlətmək istəyirlər ki, biz görməyək və bir gün bizi cidalamaq istərlərsə, biz qəflət altında olub həmlələri rədd və dəf edə bilməyək. Lakin cida cibə sığmayır və sığmayıb da itilənmiş və zəhərlənmiş olan ucunu bizə göstərib guya zəbani-hal [hal dili] ilə deyir ki, xəbərdar olun! Qəflətə uymayın, sipər və qalxanlarınızı həmişə hazır saxlayın, yoxsa böyrünüz deşilər və yarası zəhərlənər! Zəhərli yara isə möhlik [həlak edici] və öldürücüdür.

........................................................

Mavərayi-Qafqaz [Zaqafqaziya] cümhuriyyətləri içində nə Gürcüstanın Kabinəsi müştərəkdir, nə də Ermənistanın. Bunların kabinələri, yəni hökumət əzası [üzvləri] heyəti bircinsdir [eynitərkiblidir]. Böylə ki, Gürcüstan vəzirlərinin [nazirlərinin] hamısı gürcü olan kimi, Ermənistanınkı da hamısı ermənidir. Lakin bizim Azərbaycanda, məlum olduğu üzrə, böylə deyildir. Kabinəmiz müştərəkdir. Hökumətimiz əzaları içində müsəlmanlardan əlavə xaricilər dəxi vardır. Müxtəlif millətləri olan bir məmləkətdə bu əhvalın iqtizası [ehtiyacı] olaraq müştərək bir hökumət mövcud olması geniş siyasət yeridənlər nəzərincə şayani-təqdir [təqdirəlayiq] bir haldır ki, bunun bizdə tətbiqi, ədalətimizi bildirən və dargöz mütəəssib [dar düşüncəli təəssübkeş] olmadığımızı aşkar edən gözəl bir dəlildir. Biz müştərək kabinə təşkil əsasını qəbul edib də böylə adilanə [ədalətli] və münsifanə [insaflı] rəftarımıza heç bir kəsdən "mərhəba" [təqdir] və "afərin" gözləmirdik, fəqət gözlədiyimiz bir şey vardısa, o da bizim Kabinəyə daxil olmaq istəyənlərdən ümid etdiyimiz sədaqət idi. Biz Kabinəmizdə Azərbaycan istiqlalı tərəfdarı olmayan və ya Azərbaycan istiqlalına toxunan hərəkətlərdən məmnun görünən bir vəzir ola bilər ehtimalına yol vermirdik və əmin idik ki, Kabinəmizi təşkil edən əzalar [üzvlər], türk və müsəlman olsun və ya xarici olsun, istiqlal əsasında möhkəmdirlər. Bundan əlavə, vəzirlik mənsəbini qəbul edən bir zatın, xain deniləcək qədər düruyə [ikiüzlü, riyakar] olacağını təsəvvürümüzə belə gətirmirdik.

Lakin heyhat! Biz safdərunluğa [sadəlövhlüyə] məxsus səhv də etmişik... Kabinəmizdə öylə bir vəzir varmış, öylə bir vəzir ki, düruyəlik kimi alçaq və xainanə bir sifəti haiz olub da bu sifəti, Azərbaycan Cümhuriyyəti vəzirinin şərəf və heysiyyətinə yaraşan bir sifət bilirmiş. Bu vəzir, Azərbaycan dövlətinin Maliyyə vəziri məqamını işğal etmiş olan Protasov cənablarıdır ki, hökumətimizin, istiqlalımızı təhdid edən denikinlərə qarşı ciddi politikasından məmnun olmayaraq istefa vermək məcburiyyətindədir. Bu şəxsin istefası öz ixtiyarı iləmi və ya bunun düruyəliyini sezmiş olan Hökumət rəisinin təklifi iləmi vaqe olur, bu başqa bir məsələdir. Mətləbimiz bundadır ki, Protasov bizim içimizə sağ cinah cərgəsindən gəlmə bir şəxsdir ki, bu tövr hərəkətlə düruyəlik göstərib sağ cinahda duranların cidasını cibində gizlədə bilmədi və cidanı bizə göstərməyə məcbur oldu. Bu əhvalın, yeni Kabinə təşkili işimizin bidayətində [başlanğıcında] vüqu bulması şayani-ibrət [ibrət alınası] bir keyfiyyətdir. Deməli, yeni Kabinə təşkil edilərkən Kabinəmiz içində Protasov kimilərinin bir daha olmayacağını ümid etməliyik...

Sağ cinahın cidasını görmək üzrə idik ki, sol cinah dəxi öz cidasını gizlədə bilməyib, o da göstərdi.

Qüvveyi-bərqiyyə [Elektrik gücü] cəmiyyətinin sosialist fəhlələri, məvaciblərinin bir neçə saat gec verilməsini bəhanə edərək Bakı müsəlmanlarınının və müsəlman demokratiyasının bayram axşamını şami-qəribana münqəlib eylədi [qəriblər axşamına çevirdi]. Zənn edilməsin ki, "inqilabiyyun"ların bu "münqəlib" hərəkəti yalnız müsəlman "burjuy"larını qaranlıqda qoyub, bayram şənliklərinə mane oldu. Bakı müsəlman füqərayi-kasibəsi [proletariatı], evində elektrik işığına adət etməyibdirsə də, şəhər küçələrinin adi günlərdəki işığına adətkərdədir. Bu füqəra adi gündə işıq görünən küçələrin, əziz bayram axşamı buludlu bir gecədə tam zülmata dönməsindən mütəəssir olmazmıydı ki, füqərayi-kasibə "tərəfdarı" olanlar bu nalayiq hərəkəti özlərinə rəva görüb, bir millətin əziz bayramına qarşı bu qədər ehtiramsızlıq göstərdilər!..

"İskra"ların bu nalayiq hərəkəti, fəhlələrin xudsəranə [özbaşına] bir rəftarı deyə adlandırmasından və acınmasından bizə bir təsəlli ola bilməz! Biz bu hərəkəti, sol cinahın bizə qarşı bədxahanə hissiyyatından tövlid edən [doğulan] bir rəftar surətində tələqqi edib [qiymətləndirib] də "İskra"çılara bunu deyə bilərik ki, əbəs yerə acınmayın! Cidanı cibdə gizlətmək olmaz...

Özümüzə gəlincə, arzumuz budur ki, bu cidaları görən gözümüz olsun!

*Hacıbəyli Üzeyir*

## HAVA AYDINLAŞIR

Məlum olduğu üzrə, bir qaç [bir neçə] gün bundan müqəddəm [qabaq] siyasətimizdə bir çox düyünlər, bir çox qaranlıq, qarışıq məsələlər mövcud idi:

Birinci, Kabinəmiz ansızın istefa etdi.

İkincisi, Denikinin mürtəce qüvvəsi Şimali qafqaziyalı qardaşlarımızı zorlayır, kəndləri, şəhərləri alt-üst edir, qadınlar, çoluq-çocuqlar bu qara qüvvənin zülümünə, təcavüzünə tam mənası ilə məruz bulunurdu. Hətta Lyaxov canavarcasına hər növ vəhşət və dəhşəti icra etməklə iktifa [kifayət] etməyib dağıstanlı qardaşlarımızın istiqaliyyətinə də əl uzadaraq, qaba bir təbirlə "hökumətinizi kəndi əlinizlə məhv ediniz" kimi təkliflər etdiyini eşidirdik.

Üçüncü, Azərbaycan istiqlaliyyətini düvəli-müəzzəmə [böyük dövlətlər] nəzdində müdafiə və təsdiq etdirmək üçün iki ay bundan müqəddəm Paris Sülh Konfransına getmək üzrə yola çıxan nümayəndələrimiz hələ İstanbulda durur, ötəyə buraxılmayırlardı.

Dördüncü, məmləkətimizdə, daha doğrusu paytaxtımızda Azərbaycan istiqlaliyyəti, azərbaycanlılar[ın] məqsədi ilə daban-dabana zidd olan monarxistlər (mürtəcelər) qüvvəti hazırlanır, ətrafa qol-budaq ataraq anənfanən [anbaan] böyüyürdü.

Beşinci, kəndimizi idarə edəcək qədər əsgərimiz mövcud olduğu halda, heyni-hacətdə [lazım olan vaxtda] onlardan istifadəyə imkanımız yox idi. Paytaxtımızda belə bir nəfər əsgərimizi görmək şərəfindən məhrum idik.

Altıncı, hökumət məmurlarının qəza və nahiyələrdə bipərva [qorxmadan, çəkinmədən] icra etdikləri sui-istemallar [sui-istifadələr, qanunsuzluqlar] həddən aşmış və bu üzdən hökumətlə camaat arasına böyük bir soyuqluq girmişdi.

Yeddinci, şimdiyə qədər Xəzər dənizində dönüb-dolaşan, əvvəlləri Biçeraxova tabe olub sonraları heç kəsə tabe olmayan monarxist flot yalnız bizə deyil, arxalarında duranlara qarşı da üsyan edirlərdi.

İştə, bu yeddi böyük-böyük hadisələri heç bir azərbaycanlı etidali-dəmlə [soyuqqanlılıqla] qarşılayammayırdı. Hər kəsdə bir düşüncə, bir iztirab, bir qəlb sıxıntısı var idi. Hasili, siyasətimiz həm xaricdə, həm daxildə bir çox yerindən düyünlü, dolambaclı (pırtşaşıq) idi.

İndi, əlhəmdülillah, yağmurlu havaya bənzəyən siyasətimiz bu günlərdə yavaş-yavaş aydınlaşır.

Birinci, Azərbaycanımızda türkləşmək tərəfdarı olmaqla məşhur olan Yusifbəyli Nəsib bəy cənablarının rəyasətilə yeni Kabinə təşkil olunmaqdadır.

İkinci, Denikin və Lyaxov əsgərləri (Dağıstan, Gürcüstan və Azərbaycan hökumətlərinin səmimi və ciddi ittifaqı və müttəfiqən [birgə] Müttəfiqlər komandanlığına verdikləri nota saiqəsi [səbəbi] ilə olmalıdır ki) əvvəlki vəziyyətini büsbütün dəyişmiş, olduğu yerdə durur, daha təərrüzdə [hücumda, təcavüzdə] bulunmayır. Yaxın zamana qədər kəndi-kəndinə dəf olub getməz və Dağıstan məmləkətini maliki-həqiqisi [həqiqi sahibi] olan dağıstanlılara tərk etməzsə, məqhurən [məğlub edilərək] çıxarılacağında heç şübhə yoxdur.

Üçüncü, Sülh Konfransına getmək üzrə İstanbulda bulunan nümayəndələrimiz başqa Qafqaziya cümhuriyyətləri nümayəndələri ilə birlikdə, ümumrusiya nümayəndələrindən müstəsna olaraq, bir qaç gün əvvəl alınan teleqrafa nəzərən bugünlərdə Parisə göndəriləcəklər. Demək, Qafqaziya nümayəndələrinin ciblərində bolşevizm mikrobu bulunmadığı Müttəfiqlərcə təhəqqüq etmişdir [anlaşılmışdır]. Binaənileyh, sari [yoluxucu] xəstəlik şəfaxanası olan Böyükadaya göndərilməyib, adi şəfaxanaya göndərilirlər.

Dördüncü, şimdiyə qədər Bakıya gəlmələri bir çox müşkülata uğrayan əsgərlərimizin bir hissəsi Bakıya gəlmiş, Salyan qışlasında [kazarmasında] yerləşmiş, bir qədər də gələcək. Şimdiyə qədər əlbisə və sairə cəhətindən zəhmət və üsrət [sıxıntı, əziyyət] çəkmiş övladlarımız, qardaşlarımız Hərbiyyə Nəzarətinin təmininə görə tez bir vaxta mükəmməl geyinəcək, yemək və içməkləri kamilən yoluna qonulacaq.

Beşinci, mürtəcelərin hazırladığı qüvvət tamamilə paytaxtımızdan çıxarılmış, onların qol-budağı isə yeni Kabinəmizin məharəti sayəsində kəndi-kəndinə məhv olub gedəcək.

Altıncı, qəza və nahiyələrdə vüqu bulan sui-istemalları yaxından öyrənmək üçün qubernatorlarımız yavaş-yavaş qəzalara getməklə əhali ilə rabitə peyda etməyə başlamışdır. Yeni Daxiliyyə nazirimiz kəndisi də böylə bir rabitənin lüzumunu dərk edir, əhalinin haqlı ciyərsuz və taqətfərsa [ciyər yandıran və dözülməz] şikayətlərini kəndi qulağı ilə dinləmək üçün nəzarəti dəröhdə etdiyi [nazirliyi öhdəsinə götürdüyü] andan etibarən qəzalara, hətta nahiyələrə gedib əhali ilə dərdləşir zənnindəyiz.

Yeddinci, Bəhri-Xəzərdə xudsəranə [özbaşına] hərəkət edən flot tamamilə tərk-silah edilib təslim alındı.

Deməl, yuxarıda zikr olunan dərdlərimizdən xilas olmaq ərəfəsindəyiz. Bunlardan maəda [başqa] bir çox dərdlərimiz qalır ki, onlar da vəqti-mərhununda [müəyyən vaxtda, vaxtı gələndə], yəni biz deyil, camaatın həqiqi müntəxibləri [seçilmişləri] Azərbaycan Məclisi-Müəssisanında isbati-vücud [iştirak] etdikləri zaman həll olunacaq.

Mahəza [bununla birgə], camaat arasında olan bəzi güft-guların [söz-söhbətlərin], çayxanalarda yürüdülən siyasətlərin əvəzində hər qəza xalqı kəndi arzu və şikayətini o qəza tərəfindən Azərbaycan Parlamanına gələn məbuslarına təhrirən [yazılı olaraq] bildirməlidirlər. Hərçənd, Parlaman banilərinin qeyri-təbii olan təqsimi [bölgüsü] sayəsində hər qəzadan yalnız iki-üç nümayəndə (məbus) gəlmişsə də, Məclisi-Müəssisana qədər o iki-üç məbus bu qəzanın hər işini məhəlli-aidi [aidiyyətli yer] vasitəsilə həll etmək zəhmətinə qatlanar. Ağlamayana süd verilməz. Əhali ilə məbus arasında daima rabitə olmalıdır. Bu rabitəni əhali vücuda gətirəcək, əhali kəndi tələbini məbusa yazacaq, məbus da çarəsini düşünəcək.

Hökumət ilə əhali arasında da əlaqə və rabitə lazımdır. Bu rabitəni hökumət vücuda gətirəcək, qəzalara gedəcək, əhalinin ehtiyacatını öyrənəcək, şikayətlərini dinləyəcək, Azərbaycan hökumət və məmləkətini yalnız Bakı ilə Gəncə şəhərindən ibarət bilməyəcək.

Yeni Kabinəmizin kəndi vəzifəsini kəma-hüvə-haqqa [layiqiylə, haqqıyla] ifa edən bir Kabinə olacağına ümidvarız.

*Ağdaş məbusu:*
*Muxtar [Əfəndizadə]*

## TÜRKCƏ TELEQRAMMA

Əhalinin teleqrammaya olan ehtiyacını, eyni zamanda bu teleqrammaların cərəyan və hərəkatından hasil mənafeyi, baxüsus [xüsusilə] ticarət aləmində yetirdiyi xidmət, təbii mühüm bir mövqe tutmuşdur. Əhalinin mənafeyini gözləyərək və onlara yetirəcək xidmətin daha qolayca və məhsullu olması üçün Posta və Teleqraf Nəzarəti bu vaxta qədər yabançı bir lisanla icra olunan teleqramma müxabiratını [rabitəsini] öz ana dilimizdə və türkcə qullanılmasına artıq diqqət vermişdir. Bu cəhətdən, daha noyabr aylarında türkcə icra ediləcək teleqraf müxabirəsi üçün lüzum görülən layihəni və tədabiri [tədbirləri] görməkdə idi. Fəqət o zaman posta və teleqraf müəssisələrində türkcə icra olunacaq müxabirəni ifa etməyə lazım qədəri türk məmurları yox idi. Nəzarət bu cəhəti nəzərə alaraq birinci növbədə posta və teleqrafxana məktəbini güşad etdirdi [açdırdı]. Eyni zamanda, əyalətlərdən və sair nöqtələrdən teleqraf müəssisələrində türk məmurlarını cəlb etdi. Binaənileyh, Nəzarətin bu iqdamatından [təşəbbüsündən] dolayı bilaxirə [nəhayət] bu mart ayının 19-cu günündən etibarən bütün Azərbaycan Cümhuriyyəsində bulunan posta və teleqrafxanalarında türkcə olaraq daxili teleqrammaların qəbulu üçün təmimnamə [nizamnamə] elan edildi. Bu təmimnaməni oxuduqdan sonra, Azərbaycan türk və islamları bugündən sonra öz milli lisanlarında teleqramma yazmağı arzukeş olacaqlar [arzu edəcəklər].

Əlbəttə, teleqrammanı yazdıqları zaman gərək mümkün qədəri aydın və anlatmalı yazılsın. Nəzarətin işlərini milliləşdirməyə bu qədər cidd-cəhd edən nazir cənablarının xidmətini və verdiyi əhəmiyyətini, ümid edəriz bütün əhali təhsin edəcəkdir [alqışlayacaq]. Əminiz ki, bir az vaxt keçmədən qeyri işlərin də milliləşdirilməsi mövqe tutacaqdır.

Bu sətirləri yazmaqla biz sair nəzarətlərdən də imkan daxilində olan işlərin türkləşdirilməsini arzu ediriz. Fəqət məəttəəssüf [təəssüflər olsun ki], bu xüsusda sair nəzarətlərdə heç bir fəaliyyət və iqdamat [təşəbbüs] görməməkdəyiz. Əyalətlərdə mövcud bütün məktəblərin rəsmi möhürü və blankları həman ikibaşlı qartallıqda qalmışdır. Yenə, həmçinin əyalətlərin zəbtiyyə [polis, asayiş] idarələrində də həman möhürlər hökmündə durmuşlardır. Halbuki, bu cürə cüzi, eyni zamanda əhəmiyyəti haiz [əhəmiyyət daşıyan] şeylərin dəyişdirilməsi imkan daxilindədir.

Nə isə, bu gün hər nəzarət kəndi dəvairində [öz idarələrində] mövcud bütün rəsmi möhürlərin təbdili [dəyişdirilməsi] üçün və o dairələr [idarələr] üçün rəsmi Azərbaycan Bayrağı hazırlamasına, həm də imkan daxilində olan işlərin milliləşdirilməsinə çalışmalıdırlar.

*Posta və Teleqraf Nəzarətinin*
*kargüzarı: Rəsul Rəhimli*

## TELEQRAF XƏBƏRLƏRİ

**Amerikada əmələ hərəkatı**

Bostondan ingilis qəzetələrinə yazırlar ki, ingilis əmələlərinin [fəhlələrinin] tətil edib də məvaciblərinin artırılmasına müvəffəq olmaları Amerika əmələlərinə də sirayət eyləmişdir. Bir milyondan ziyadə Amerika əmələləri tətil elan edərək öz zəhməthaqlarının artırılmasını və əmələ həyatının yaxşılaşdırılmasını tələb edirlər. Foll-Riverdə əmələlərlə iş sahibləri arasında olan etilafa [razılığa] görə, əmələlər həftədə 48 saat işləməlidirlər və əlavə, məvacibləri də artırılmalıdır. Bu etilafdan sonra 30 min nəfər əmələ işləməyə başlamışlardır. Nyu-Bedfordda bu qədər əmələlər tətil etmişdir.

**Hindistanda əmələ hərəkatı**

Bombayda dok və manufaktur fabrikalarının əmələləri tətil elan edərək özlərinin iqtisadi tələbatını təqdim etmişlərdir. Başqa fabrika əmələləri və İngiltərənin Şərqi Hindistan dokunun əmələləri hakəza [habela] tətil elan edərək məvaciblərinin artırılmasını tələb edirlər.

Bombayda 30 min əmələlərin iclasında qərar qoymuşlar ki, qubernatorun yanına gedib ondan xahiş etsinlər ki, əmələlərlə iş sahibləri arasını düzəltmək üçün vasitəçiliyi qəbul eyləsin. Fəqət əmələləri pərakəndə etmişlərdir [dağıtmışlar]. İngilis qəzetələrinə verilən digər məlumata görə, nəhayət qubernator bu işə müdaxilə edib əmələlərin məvacibini 20 faiz artırmışdır.

**Misirdə üsyan**

Berlin – Misirdə Əl-Qahirə və sair

şəhərlərdə ingilis hökmranlığına qarşı protesto olmaq üzrə əhali nümayişlər yapmışlarsa da, ingilislər hərbi qüvvə ilə onların nümayişini dayandırmışlardır.

**İngiltərədə əmələ konfransı**

İngiltərə böyük bir əmələ konfransını dəvət eyləmişdir. Bu konfrans öylə tədbir ittixaz edəcəkdir ki [tədbir görəcəkdir ki], tətilə imkan verilməsin və qəti surətdə tətil edilməsin. Əmələlərin mübahisəli məsələləri bitərəf tribunala verilmişdir. Bir milyon əmələ tərəfindən konfransa 800 nəfər nümayəndə göndərilmişdir. Konfransa İngiltərənin Məsai vəziri Horn sədarət edirmiş. Horn öz nitqində demişdir ki, hökumət fabrikaların milliləşməsinə ziddir. Zira, bu tədbir xüsusi ticarətlərin tərəqqisinə mane ola bilər. İngiltərə əmələlərinin halını islah etmək yolunda konfransda böyük müzakirat olur. İngiltərə Baş naziri Lloyd Corc bu müzakiratda iştirak edəcəkdir.

## SÜLH ƏTRAFINDA

Royter acentəliyinə xəbər verilir ki, bu gün Sülh Konfransı yəhudilərin nümayəndələrini dinləmişdir. Bunlar Fələstinin yəhudilərə verilib də orada bir yəhudi dövləti təşkili barəsində yəhudilərin tələbatını bildirmişlərdir.

Bütün xırda millətlərin haqqı Sülh Konfransı tərəfindən təsdiq ed[il]əcək və bunlar Cəmiyyəti-Əqvamın etibarnaməsi ilə İngiltərənin təhti-himayəsində [himayəsi altında] olacaqlardır.

Almaniya sülh nümayəndələrinin Sülh Konfransında iştirak üçün Versala vürudu mart ayının axırlarında gözlənir. Bunlar ən əvvəl 5 böyük dövlətin nümayəndələri ilə görüşəcəkdirlər.

**Erməni vəkilləri**

Ermənilər tərəfindən Sülh Konfransına intixab edilmiş [seçilmiş] olan Papacanov və onun məşvərətçisi general Korqanov bu vaxta qədər hələ Tiflisdən getməmişlərdir. Ən mötəbər xəbərlərə görə, bunları ingilislər Rusiya tərəfdarı hesab etdiyindən Tiflisdən Parisə getmələrinə müsaidə verməyirlər. Ola bilər ki, bunlar heç də Tiflisdən əzimət etməsinlər [yola düşməsinlər].

## DAĞISTAN ƏHVALI

**Qoytı kəndi altındakı müharibənin təfsilatı**

Çeçenistandan gələn bir şəxsin rəvayətinə görə, Çeçenistan əleyhinə olan hərəkatda dün Birinci Süvari firqəsi [diviziyası] topxana ilə bərabər iştirak etmişdir. Müharibə martın 7-sində başlanmışdır. Dağıstan və Çeçenistan alayları Könüllü orduya hüsn-təvəccöhü olan öz komanda heyəti tərəfindən iğfal edildiyindən [aldadıldığından], general Şatilov hərəkatının müvəffəqiyyətli bir surətdə olmasına kömək etmişlərdir. Dağıstan və Çeçenistan alaylarının köməyi bundan ibarət olmuşdur ki, onlar çeçenlərlə müharibəyə girişməkdən imtina edib əsgərləri Könüllü ordu əleyhinə müharibə etməyə qoymamışlardır. Tersk kazakları da çeçenlərlə mehriban qonşuluğa istinadən və uzun müddət dağıstanlılarla kazaklar arasında intiqam hissi zühur





edəcəyindən ehtiyatla çeçenlər əleyhinə getməkdən imtina etmişlərdir. Odur ki, bir tək Don kazakları iştirak etdiklərindən, bu hərəkat Könüllü ordu üçün müvəffəqiyyətsiz olmuşdur. Denikin hökuməti və Parlaman Dağıstan ordusunun komandan heyətini təzələməkdən ötrü mühüm iqdamatda bulunmaq [addımlar atmaq] istəmişdir. Bir para əsgəri dəstələr tərxis edilmişdir.

**Vladiqafqazda**

(Bolşeviklərdən sonra)

Vladiqafqaz şəhəri hal-hazırda bir xarabazar təsvir edir. Evlər, küçələr və bütün məhəllələr yandırılmışdır. Küçələr boş və sakitlikdir. Ancaq adam asılan yerlərdə izdiham vardır. İşsiz camaat böyük dəstələrlə bolşeviklər asılan dar ağacları yanında durub tamaşa edirlər. Üç gün keçdikdən sonra dar ağaclarına təzə adamlar asırlar. Səpmə yatalaq xəstəliyi hər yerdə hökmfərmadır [hökm sürməkdədir]. Tabut tabut dalınca, şəhər içrə yatalaqdan ölənləri daşıyırlar. Ölənlərin çoxu bolşevik saldatlarıdır. Xəstəxanalar ağzına qədər xəstə ilə doludur. Şəhərdə heç bir yeməli şey yoxdur. Qəndin girvənkəsi 100 manat, çörək 8 manat, neft və cövhər baha deyil. Kerenski və Nikolayevski pulları işləyir. Bir çox adam şəhərdən çıxıb getməyə tələsir. Əhali aclıq çəkir. Mədən Sularında 30 minə qədər əsir bolşevik saldatları vardır ki, səpmə yatalaq xəstəliyinə düçar olmuşlardır.

**Mühacir çərkəzlərin övdəti**

İstanbuldan varid olan [gələn] bir şəxsin rəvayətinə görə, müvəffəqiyyətsiz Qafqaziya müharibəsindən sonra öz siyasi məsləklərinə görə Türkiyəyə mühacirət etmiş olan yarım milyon çərkəzlərin komitəsi Sülh Konfransının Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyasına bir müxtirə [xəbərdarlıq] təqdim etmişdir. Bu müxtirədə çərkəzlər Qafqaza qayıtmaq arzusunda olduqlarını xəbər verirlər. Bundan əlavə, çərkəzlər xırda millətlərin istiqlaliyyəti Müttəfiqlər tərəfindən əsasən qəbul edildiyi bir zamanda öz istiqlaliyyət hüquqlarını müdafiə etməkdə müttəhim olan dağıstanlılara siyasi əfvi-ümumi [amnistiya] şamil edilməsini istida [xahiş] edirlər. Rəvayətə görə, rəisi-cümhur Vilson çərkəzlərin Anadoludan və Ərəbistandan Qafqaziyaya övdət etmələri [qayıtmaları] arzusuna hüsn-təvəccöh göstərmişdir.

## BAYRAM GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**İngiltərədə əmələ hərəkatı**

London – Londonda olan bəhriyyunun [dənizçilərin] konfransında qərar qoyulmuşdur ki, əmələlərə beynəlmiləl surətdə məvacib artırılsın. Məvaciblərin artırılması məsələsi Sülh Konfransına idxal [daxil] edilsin. Təyin edilmiş komisyon məvaciblərin miqdarını təyin etməlidir. Əmələlər tərəfindən təşkil edilmiş etilafi-müsəlləs [üçtərəfli ittifaq] İngiltərənin siyasi dairələrini əndişəyə salır. Zira Müttəfiq ölkələrdə olan əmələlərin birləşməsi öz tələblərinin qəbul edilməsinə səbəbiyyət verəcəkdir. Məvaciblər barəsində Sədrəzəmin [Baş nazirin] verdiyi məlumatı, tətil barəsində olan qərarı

dəyişəcəkdir. Hər halda İngiltərədə əmələ hərəkatı getdikcə ciddiləşir və bu əhval əndişələrə səbəb olmaqdadır.

- Azərbaycan Hökuməti tərəfindən alınan rəsmi məlumata görə, İstanbulda olan İngiltərə komandanlığı Azərbaycan sülh heyətinin Parisə əzimət etmələrinə [getmələrinə] müsaidə [icazə] vermişdir. Neçə gün əvvəl heyət Parisə mütəvəccihən [Paris istiqamətində] hərəkət eyləmişdir.

- Bugünlərdə İstanbuldan varid olan [gələn] bir zatın rəvayətinə görə, İstanbul haqqında Qafqaziyada görünən xəbərlərin əksəri uydurma və yalandır. Osmanlı Hökuməti İstanbulda mövcud olub, həmişəki kimi öz işlərini yola verir. Hətta şayiat var ki, türklər yunanlılarla ittifaq əqd etmişlərdir [imzalamışlardır]. Türklərin İstanbulda son çıxışı Müttəfiqlərə artıq təsir eyləmişdir. Xüsusən, Hindistan müsəlmanlarının türklər nəfinə [xeyrinə] İngiltərə qarşısında etdikləri protestosu Müttəfiqləri əndişəyə salmışdır.

- Şayiata görə, Müttəfiqlər Almaniyaya son dərəcə böyük güzəştdə bulunurlar. Almaniyanın bütün ərzaq işlərini Müttəfiqlər öz öhdələrinə götürmüşlər. Müttəfiq dövlətlərdə vüqu bulan əmələ hərəkatı dəxi də Müttəfiqləri pərişan edir.

**Könüllü ordu və dağıstanlılar**

General Denikinin ordusu Dağıstan Hökuməti ilə danışığını tərk eyləmiş və Dağıstanda yenidən əməliyyati-hərbiyyəyə [hərbi əməliyyata] başlamışdır. Fəqət birinci çıxışında Denikin ordusu mükəmmələn məğlub olmuşdur.

Berlin – Seymada son atışmada yaralanmış olan Bavariya vəzirləri [nazirləri] Münxendən qaçmışlardır. Şəhərdə mükəmməl asayiş bərpa edildiyinə baxmayaraq, şəhər idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altındadır.

Amsterdam – Praqadan xəbər verilir ki, Praqada bütün gün atışma davam edirdi. Bolşeviklər hökumət müəssisələrinin əksərini işğal etmişlərdir. Studentlər [tələbələr] və Milli Qvardiya, bolşeviklərə qarşı çıxıb şəhərə girdikdən sonra bolşevikləri oradan qovmuşlardır.

London – Bu gün İngiltərə mədən əmələlərinin iclasında Lloyd Corc bəyan eyləmişdir ki, hökumət mart ayının 21-dən gec olmamaq şərti ilə Kraliyyə[t] komissiyası təyin edilməsinə razıdır. Bu komissiya əmələ iş vaxtı müddətini müzakirə edəcəkdir. Sonra mədənlərin milliləşməsi məsələsinə baxılacaqdır.

- Smayla bəyan eyləmişdir ki, mədənlərin milliləşməsi məsələsinin təxirə düşməsinə razı olarlar. Fəqət zəhmət müddətinin əskilməsi və məvaciblərin 30 faiz artırılması haqqındakı tələbinin təxirə düşməsinə heç vaxt riza göstərməyəcəkdirlər.

- Lloyd Corc cavabında demiş ki, bu barədə əvvəlcə müşavirədə bulunmamış, hökumət heç bir güzəştdə buluna bilməz. Ona görə də, Lloyd Corc məsləhət görür ki, bu məsələ ciddi surətdə müzakirə edildikdən sonra Kraliyyə[t] komissiyasına nümayəndələr təyin etsinlər. Smayla buna da rədd cavabı vermişdir.

- Yəhudi müəssisələrinə söz verilmişdir ki, ən yaxın zamanda yəhudi milli məsələsi Sülh Konfransında müzakirə ediləcəkdir.





**Parisdə**

Gürcüstan sülh heyəti-mürəxxəssəsi əzaları [nümayəndə heyəti üzvləri] [Nikolay Semyonoviç] Çxeidze və [İrakli Georgiyeviç] Sereteli Parisə varid olmuşlardır [çatmışlar]. Bunlar Gürcüstan Cümhuriyyətinin tələbatını Sülh Konfransına təqdim edəcəkdirlər.

“Peti Parizyen” qəzetəsinin müxbiri ilə bunlar müsahibə edərkən demişlər ki, Gürcüstan torpaq barəsində güzəştdə bulunmağı tələb etməyir. Onlar daxili işlərini özləri də islah edərlər. Fəqət Sülh Konfransından Gürcüstan Cümhuriyyətinin təsdiq edilməsini tələb edirlər.

- Mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, Türküstanda hökumət böhranı davam etdiyindən general Denikin bu qitəni öz əlinə almaq istəyir. Denikin istəyir orada hökumət təşkil edərək hökumət başçılığına general Lebedevi təyin eyləsin.

- Nyu-Yorkdan teleqrafla xəbər verilir ki, Şimali Amerikada bolşevik hərəkatı başlamaq istəyən ünsürlər işlərində müvəffəq olmamışlardır. İki günlük tətildən sonra əmələlər yenə işə başlamışlardır. İnqilabçılar özlərinin məğlub olmalarını təsdiq edirlər. Bütün fabrikalarda əmələlər işləyirlər.

- Məlum olduğu üzrə, Böyükadada rus nümayəndələrinin iştirakı ilə Rusiya məsələsinə dair bir konfrans tərtib verməк fikri var idi. Fəqət bolşeviklər, bəzi digər firqələr bu dəvətə icabət etməyirlərdi. Həm də Parisdən varid olan [gələn] məlumata görə Prinsev Konfransı məsələsi ləğv edilmişdir.

- Deməli, o cəzirədə [adada] Rusiya işlərinə dair şura olmayacaqdır.

- Gürcüstan Hərbiyyə naziri Giorqadze istefa vermişdir.

**Odessa altında müharibə**

Xarkov - 20 mart. Dünən bolşevik hissələri Voznesensk ilə Odessa arasında vaqe bulunan və Könüllü qoşunlarının durduğu Berezovka mövqifinə [stansiyasına] yürüş etmişlərdir. Texnika cəhətcə tərəfi-müqabil irəlidə idi. Yunan qoşunları ilə Könüllülər məğlub olaraq qaçmışlardır. Onlardan 100 ədəd mitralyoz, top və qeyri qənimət alınmışdır. Bunlardan əlavə, bir neçə zirehli qatar ələ keçmişdir. Düşmənlərdən 520, bolşeviklərdən 200 nəfər tələfat vardır.

* “N. V.” qəzetəsi yazır ki, bu yaxınlarda Qafqaziyada olan qoşunlar dəyişəcəkdir. Deməli, Qafqaziyaya ingilislərin rəngli qoşunları, fransız, yunan və İtaliya qoşunları gələcəkdir. Tiflisdə fransız qoşunlar olacaq, Zaqafqaziyada olan Müttəfiqlər qoşunlarının komandanlığına fransız generalı Laroş təyin ediləcəkdir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

**Azərbaycan sülh heyəti barəsində**

Bakıda olan İngiltərə ərkani-hərbi [baş qərargahı] İstanbulda olan baş ingilis ərkani-hərb idarəsindən aldığı teleqramın surətini Rəisi-vükəla [Baş nazir] Xan Xoyski cənablarına göndərmişdir. Teleqrafın məzmunu böylədir:

*“Sizə lazımdır Azərbaycan Hökuməti-*

*nə bildirəsiniz ki, Azərbaycan heyəti-mürəxəssəsinin [nümayəndə heyətinin] Parisə Sülh Konfransına getməsinə İngiltərə Hökuməti müsaidə vermişdir. Bu şərtlə ki, Fransa Hökuməti də razı olsun. Bu xüsus heyəti-mürəxəssəyə xəbər verilmişdir."*

- Pul kəsilən müəssisə üzərində kontrol təyini və nizamı haqqında Dövlət Müfəttişinin məruzəsindən sonra qət edilmişdir:

Dövləti Müfəttişin məruzəsini təsviblə [bəyənməklə], ona tapşırılsın ki, 1919-cu sənə smetasına işbu işdən ötrü dörd məmur maaşı üçün 57600 rubləni idxal [daxil] etsin. İşbu layihə təsdiqinədək hökumət təhti-idarəsindəki [idarəsi altındakı] 20 milyon fonddan üç aylıq məxaricat üçün 19200 rublə verilsin.

- Xariciyyə nazirinin Kuban Hökuməti nəzdində siyasi nümayəndə təyini haqqındakı məruzəsindən sonra qərar verilmişdir:

Doktor Cəfər bəy Rüstəmbəyov Kuban Hökuməti nəzdində Azərbaycan siyasi nümayəndəsi təyin edilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

### Məsai Nəzarətində

Bakı Məsai Borsası [Əmək Birjası] Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, axır vaxtlarda Bakıda işsiz fəhlələrin hesabı artmışdır. Bunlardan bir çoxu iş sahibləri ilə bilavasitə etilafa [razılığa] gələrək növbəsiz işə daxil olmaqla başqalarına böyük xəsarət verərək, Məsai Borsası fəaliyyətinin qeyri-müntəzəm surətdə aparılmasına səbəb olurlar. Borsa rica etmişdir ki, Nəzarət [Nazirlik] işin nizam üzrə getməsi üçün lazımi tədabir ittixaz etsin [tədbirlər görsün].

* Bir neçə vaxt bundan əvvəl Tağıyev fabrikasının əhvalını məhəllində [yerində] təhqiq üçün Məsai Nəzarəti tərəfindən xüsusi bir komisyon təşkil edilmişdi. Komisyon fabrika əhvalı barəsində bir məruzə verərək məlum etmişdir ki, ən yaxın zamanda fabrika makinaları üçün lazımlı makina hissələri gətirilməzsə, fabrika, işi yatırmalı olacaqdır. İşbu makina hissələrini ya Rusiya və yaxud İngiltərədən gətirmək mümkün olacaqmış. Məsai Nəzarəti müdiriyyətə təklif etmişdir ki, Rusiyaya bir nəfər nümayəndə göndərib lazımlı makina hissələrini gətirtsinlər.

### Ticarət və Sənaye Nəzarətində

Mühəndis Kandilaki Ticarət və Sənaye Nəzarətinə müraciətən Gürcüstan Hökuməti tərəfindən verilən icazənaməni pişnihadla [təqdim edərək] Gürcüstan üçün 80 min put cövhər aparmaq üçün izin istəmişdir. Nəzarət cövhər aparmağa icazə vermişdir.

## PARLAMAN ƏTRAFINDA

Şamaxıdan Bakıya, Azərbaycan Cümhuriyyəsi Məclisi-Məbusan rəisi həzrətlərinə böylə bir teleqraf gəlmişdir:

"Biz, İrəvan vilayəti qaçqınları Mədrəsədə açıqda qalmışıq. Bizim halımıza nəzər yetirib Bakı qəzasında və Mədrəsə





köyündə bizlərə yer təqsimatı [bölgüsü] üçün bilatəxir [gecikmədən] bir heyət təyin edilməsini rica ediriz. Ararat Cümhuriyyətindən hicrət [köç] edən qaçqınların ədədi günü-gündən tərəqqi etməkdədir. Ziyadə təzyiqatdan dolayı orada yaşamaq qeyri-mümkündür. Qanun və hürriyyət naminə istidamıza [xahişimizə] əncam verilməsi rica olunur.

*İmza: Mədrəsə köyündə*
*Qaçqınlar Komitəsi sədri:*
*Məşədi Hümmət Məhəmməd oğlu"*

* * *

Qusardan – Azərbaycan Məclisi-Məbusan rəisinə Bakı alayı zabitanından böylə bir teleqraf gəlmişdir:

"Zati-alilərinizin ali təntənəli Novruz bayramını təbrik etməklə bəndəniz və bəndənizin təhti-idarəsində [idarəsi altında] bulunan alay zabitanı kəndimizi bəxtiyar hiss etdiyimizi izhara ictisar [cürət] ediriz.

*Miralay [polkovnik]: Məhəmmədov"*

* * *

Qusardan – Azərbaycan Məclisi-Məbusan rəisinə Bakı alayından böylə bir teleqraf gəlmişdir:

"Azərbaycan milləti rəisinin ali təntənəli Novruz bayramını təbriklə müəzzəz [əziz] vətənimizin səadət və mənfəətinə dair müşkül təşkilat ümuratını [işlərini] icra etmək yolunda ən məqbul millət müntəxiblərinin [seçilmişlərinin] müvəffəqiyyətə nail olmaqlarını Bakı alayı arzu edir, əfəndim.

*Miralay [polkovnik]: Məhəmmədov"*

## BAKI XƏBƏRLƏRİ

### Bələdiyyə İdarəsində

Fəhlə Klubu [heyəti]-rüəsası [rəyasət heyəti] Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi Fəhlə Klubu tərəfindən fəhlə çocuqları və fəhlələr üçün tərtib edilən tiyatro və leksiyalardan vergi alır. Halbuki Fəhlə Klubu işbu tiyatro və yaxud leksiyalardan heç mənfəət almayır. Məqsəd fəqət [ancaq] ürfana xidmət etməkdir.

Heyəti-rüəsa rica etmişdir ki, Bakı və habelə mədən dəvairində [dairələrində] fəhlə çocuqları və fəhlələr üçün tərtib ediləcək nümayişlərdən vergi alınmasın.

### Bakıya ərzaq vürudu [gəlişi]

20 və 23 martda Bakıya gətirilən ərzaq:

Buğda: 27363 put – dəmiryolu ilə;
Un: 11041 put - » » » »;
Kartof: 996 put - » » » »;
Arpa: 18234 put - » » » »;
Saman: 6905 put - » » » »;
Ot: 2801 put - » » » ».

### Bayram münasibətilə mitinq

Martın 22-də Novruz bayramı münasibətilə Bibiheybətdəki "BORN" [Bakı Rus Neft Cəmiyyəti] şirkətinin neft mədənində müsəlman əmələləri tərəfindən mitinq məclisi tərtib edilmişdir. Mitinqdə bir çox qeyri millət əmələləri dəxi hazır olub öz yoldaşlarını təbrik etmişlərdir. Məclisin axırında sədr Sadıq Məhəmmədovun təklifi ilə hazirun [iştirakçılar] müsəlman fəqirləri nəfinə [xeyrinə] olaraq 350 manat pul ianə cəm edib "Azərbaycan" qəzetəsi idarəsinə göndərmişlərdir.

**HADİSAT**

**2 milyon manat qarət**

Dünən martın 25-də saat 2 radələrində Tarqovı küçədə sükunət edən [yaşayan] Ərzaq Nəzarəti dəxldarının [kassirinin] evinə 5 nəfər naməlum müsəlləh bədəfkarlar [silahlı cinayətkarlar] tərəfindən hücum edilib, 2 milyon manat pul qarət edilmişdir. Bədəfkarları təqib etmiş olan milissiya nəfəratı ilə onların arasında vaqe olmuş atışmada bədəfkarlardan bir nəfəri öldürülüb və qalanı isə qaçıb gizlənmişdir. Milissiyalardan bir nəfəri yüngül surətdə yaralanmışdır. Məhəlli-hadisəyə [hadisə yerinə] Bakı vitse-qubernatoru Müseyib Axıcanov, Bakı qalabəyisi [komendantı] və qeyri məmurları gəlmişlərdir. Bədəfkarları tövqif [həbs] etməkdən ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Məhbusların qaçması**

Bayılov həbsxanası müdiri Bakı qubernatoruna məlum etmişdir ki, martın 18-də məzkur [adı çəkilən] həbsxanadan pəncərənin dəmirlərini sındırıb məhbus Heydər oğlu qaçmışdır. Bir gün sonra həman pəncərədən bir nəfər məhbus dəxi qaçmaq istəmişsə də, milissiya tərəfindən tövqif [həbs] edilmişdir.

**ERMƏNİSTAN HAQQINDA MƏHƏMMƏD ƏLİ PAŞANIN BƏYANATI**

Trabzonda intişar edən [nəşr olunan] "İstiqbal" rəfiqimiz Ermənistan Cümhuriyyəti nəzdində Osmanlı mürəxxəsi [nümayəndəsi] olub, əxirən övdət edən [axır vaxtlarda qayıdan] Məhməd Əli paşa ilə mülaqat [söhbət, müsahibə] etmişdir. Yeni Ermənistanın əhvalı üçün şayani-diqqət [diqqətəlayiq] məlumatı havi olan [ehtiva edən] bu bəyanat bərvəchi-atidir [aşağıdakı kimidir]:

– *Nerədən hərəkət və nerəyə təşrif buyurulur, paşa həzrətləri?*

Ermənistan Hökumətinin mərkəzi-idarəsi olan İrəvan şəhərindən gəlirəm, İstanbula gedəcəyəm.

– *Ermənistan hökumət və məmləkəti haqqında lütfən məlumat ətа buyurularmı, əfəndim?*

Ermənilərin hal-hazırda bir Məclisi-Məbusanı ilə 8 dənə naziri vardır. Bunlar da Baş vəkalət [Baş nazirlik], Xariciyyə, Daxiliyyə, Maliyyə, Hərbiyyə, Maarif, İanə və İaşeyi-ümumiyyə nəzarətləridir. Hənuz, rəisi-cümhurları yoxdur. Nazirlərdən Baş vəkalət, Xariciyyə, Daxiliyyə nəzarətlərində bulunanlar daşnaksaqandırlar. Əhəmiyyətsiz olan nəzarətlərdə bulunanlar isə Əhali partisinə – ki rusların Kadet firqəsi deməkdir – mənsubdur. Məbusları [deputatları] 44 kişidir [nəfərdir]. Bunlardan 18-i daşnaksaqan, 6-sı islam, 6-sı sosial-demokrat, 6-sı sosial-revolyussioner, 6-sı da əhalidir (kadet). 6-nın birisi də yezididir. Erməni məbusları millətin intixabı [seçimi] ilə toplanmış olmayıb, hökumətin intixabı ilə toplanmışlardır.

Ermənilərdə bir də Məclisi-hərb vardır. Bu da beş kişidən [nəfərdən] mürəkkəbdir [ibarətdir]. Bu məclisin rəisi fəriq [general] Nazarbekovdur. Altı alaydan ibarət bir firqə [diviziya, tümən] əsgərləri vardır. Məclisi-Məbusanda müzakirat rusca, ermənicə cərəyan edir. Məbusların əksərisi rusca söylər, müamilati-hökumət [hökumət işləri] ruscadır. Əsgərin əmr komandası və qitəatdakı [hərbi hissələrdəki] təlim ruscadır.

Ermənistan acdır. Hökuməti-Səniyyə ermənilərə iki dəfəlik olmaq üzrə 450 ton buğda vermişdir. Bu, hökumətin sırf ermənilər haqqında şəfqət və mərhəmətidir və ermənilərlə idareyi-hüsn-münasibata [yaxşı münasibətləri davam etdirmək istəməsinə] bir dəlildir. Ayrıca erməni mühacirlərinə ordu un və buğda vermişdir. Brest-Litovsk muahidəsi xaricində və istilamız altında olan yerlərə övdət edən [qayıdan] erməni millətçilərini hüsn-surətlə qəbul etmiş və kəndilərinə bir çox təshilat iraə eyləmişdir [vəziyyətlərini yüngülləşdirəcək tədbirlər görmüşdür]. Hökumətin ibraz etdiyi [göstərdiyi] bu müamileyi-müşfiqanə [şəfqətli rəftar] hər dürlü təqdirlərə səzadır [layiqdir].

Ermənistan əhalisi kaffətən müsəllehdir [başdan-ayağa silahlıdır] və silah daşıyanlardan silahın miqdarı daha ziyadədir. Şimdiki Ermənistan daxilində və əlviyeyi-səlasədə pək çox qürayi-islamiyyə [müsəlman kəndləri] (250-yə qərib [yaxın]) erməni çeteləri tərəfindən təxrib və ehraq edilmiş [dağıdılmış və yandırılmış] olduğundan, mövcud qüraya [kəndlərə] islam və erməni əhalinin yerləşməsi pək müşküldür.

Gərək Ermənistanda və gərək Brest-Litovsk müahidəsi [sazişi] xaricində təxliyə edilən ərazidə, ən münbit və məhsuldar və feyzdar [bərəkətli] məntəqə Aras vadisidir. Oradakı islam köyləri və oraya birikən [toplaşan] islam mühacirləri mühafizeyi-mövcudiyyət əməlindədirlər [öz varlıqlarını qorumağı arzu edirlər].

Ermənistanda bulunan əhaliyi-müslimə kaffətən türkdür. Onları bizdən təfriq [ayırmaq] üçün ruslar onlara tatar deyirlər və kəndilərinin cahil qismi də kəndilərini tatar zənn edirlər. Halbuki lisan və təşkilat vəchi ilə [baxımından] tamamən Anadolu əhalisinin eynidir. "İştə", "nerəyə" kimi kəlmələri ruslar kitablardan çıxarırlardı və bunların yerinə "hara" kimi, Van cəhətlərində [tərəflərində] "nerəyə" mənası ilə qullanılan kəlmələri iqamə edərək [qoyaraq] bu surətlə araya bir lisan fərqi qoymağa çalışırlardı ki, pək adi və amiyanə [avamca] bir fikirdir.

Aras vadisində Naxçıvan[dan] Sərdarabadın qərbinə, yəni İğdıra qədər pək çox islam köyləri vardır. Hal-hazırda qismi-əzəmi xarabdır. Aras vadisinin spirto, konyak, pambıq məhsulatı fövqəladədir. Qəmərli nahiyəsində mütəəddid [çox sayda] spirto və konyak fabrikaları mövcuddur. Ermənilər Qafqazda zəngin iki yer söylərlər. Biri petrol istehsalatı cəhətilə Bakı, digəri də spirto, konyak, şərab, bəkməz cəhətilə Qəmərlidir.

– *Qafqaziyanın hal və atisi [indiki vəziyyəti və gələcəyi] haqqındakı mütalieyi-dövlətləri nə mərkəzdədir [zati-alilərinin fikri necədir], paşa həzrətləri?*

Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətləri konfederasyon halında bir dövlət təşkil edərlərsə, Rusiya ilə bunlar arasındakı silsileyi-cibal [dağ silsiləsi, Qafqaz sıradağları] qayət təbii bir xətti-hüdud [hüdud xətti, sərhəd] olar və Rusiyanın istila əməli təhdid olunar [istila arzusunun qarşısı kəsilər]. Cinsən [milli, irqi baxımdan] bu əhalinin zatən ruslarla heç

bir münasibəti yoxdur və sırf çarlıq politikası Qafqaziyanı Rusiyaya zəmimeyimülk etmişdir [Rusiyanın torpaqlarına əlavə etmişdir].

Görüşdüyüm azərbaycanlılar qayət gözəl türkcə söylərlər. İçlərində münəvvər [ziyalı] adamları da çoxdur. Rusiyada zabitlik etmiş olanlar da vardır və xalis türk qanı orada safiyyətini [saflığını] tamamən mühafizə etmişdir. Gərək Azərbaycan və gərək Aras hövzəsindən bir çox gənclərin Dərsəadətə gəlib Osmanlı məktəblərində təhsil etməsi şayani-arzudur [arzuediləndir]. Rusiya məktəblərində təhsil edənlər təbiidir ki, o maarifin təhti-təsirində [təsiri altında] qalırlar.

## TEATRO VƏ MUSİQİ

Həmin mart ayının 27-sində çaharşənbə [çərşənbə] günü axşam saat 7-də, İkinci Realnı məktəbinin binasında, Şamaxı yolunda, sabiq Lalayev evində həman məktəbin müsəlman mütəəllimlərinin [şagirdlərinin] təşkilatı tərəfindən bir müsamireyi-teatro [teatr tamaşası] tərtib verilmişdir. Teatro türk dilindədir. Xahiş edənlər biletləri həman məktəbin binasında ala bilərlər.

## TƏKZİB

Möhtərəm müdir əfəndi!

Təvəqqe edirəm bu məktubumu möhtərəm qəzetənizdə çap etdirəsiniz:

"Gələcək" qəzetəsinin 9-uncu nömrəsində "Qazaxda" ünvanlı məqaləni oxudum. Həman məqalədə mənim haqqımda böhtanlar yazıldığı üçün Çaylı köyündə üz verən əhvalı möhtərəm oxuculara tamamilə aşkar və aydın etmək qəsdindəyəm.

Fevral ayının 19-uncu günündə mənim təhti-nəzarətimdə [nəzarətim altında] olan birinci nahiyənin müdiri əsgər toplamaq üçün Çaylı köyünə getmiş idi. Orada müdirin milisləri, Çaylı koxası və onun milisləri kəndə dağılıb camaatı müdirin hüzuruna təklif ediblər. Əhalidən bir neçəsi onların üzünə ağ olub, gülləyə tutublar. Bu əhvalı təcili surətdə müdir mənə məlum etmişdi. Mən isə əhvalı Gəncə valisinə bildirib, kəndi milislərimlə Çaylı köyünə getdim. Əhali müdiri və onun milislərini, koxanı atəşə tutduğunu mən orada təsdiq etdim. Mən oraya daxil olduqda sakitlik oldu. Müdir onlara bilmərrə güllə atmamışdı. Bu əhval üz verən zamanı Azərbaycan Parlamanının əzası Hacı Kərim Sanıyev cənabları Çaylı köyündə öz evində idi. Müdirin sözünə görə həman evin ətrafından onun milislərini atəşə tutmuş idilər. Məqalədə yazılır ki, bu vuruşmada tərəfimdən dörd nəfər yaralanıb və Hacı Kərim Sanıyev tərəfindən isə bir nəfər ölmüşdür. Böylə böhtanı yazmaq mənim fikrimcə "Gələcək" qəzetəsini ancaq əhəmiyyətdən sala bilər. Böylə bir xəbərin bir nəticəsi, binası əsla yoxdur və ona heç əhəmiyyət vermək olmaz. Çünkü mənim milislərimdən heç biri yaralanmayıb və Hacı Kərim Sanıyev tərəfindən bir kəs ölməyibdir. Ancaq müdir Çaylıya gedən günü əhali onun və koxanın milislərini atəşə tutan zamanı koxanın milisinin birisi qolundan yaralanıbdır. Gəncə valisi Qazaxa gəldiyi doğrudur. İstintaq etdiyi də doğrudur. Həman istintaq zamanı Hacı Kərim Sanıyev vali cənablarına söylədi ki, mən Çaylıya daxil olan kimi sakitlik düşdü və ancaq əsgər toplamaq fikrini əhali ondan bildi. Müqəssir olan tezlikdə aşkar olar. "Gələcək" qəzetəsi yazdıqları böhtanları dəxi anlar. Bir daha bu əhvalı tamamilə öyrənməmiş, təsdiq etməmiş yazmamağını mən təklif edirəm. "Qazaxda" ünvanlı məqaləni yazan cənabdan rica edirəm ki, üstüörtülü danışmasın, pərdəni açsın. Əgər "Gələcək" qəzetinin öylə bir cəsarəti var ki, böylə böhtanları yazır, yəqin ki, onun mühərririnin dəxi cəsarəti olar, ismini söylər və istədiyi cavabları məndən alar.

*Qazax qəzası qaimməqamı:*
*İsfəndiyar Muradzadə*
*14 mart 1919, Qazax*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 2-41*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Diş həkimi M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Elan**

Martın 20-də Bazar və Parapet rayonlarında 97 ədəd Nikolay yüzlüyü düşüb itmişdir. Onları [tapan] ağalar bir yaxşılıq olaraq sahiblərinə qaytarmaq kimi bir alicənablıq göstərmək istəsələr, "Azərbaycan" qəzetəsi idarəsinə Əbdülxaliq Yusifova verilmək üçün təslim etsinlər.

*5760*

Kraynı Krivoy küçədə olan dükanımdan naməlum bədəfkarlar [canilər] tərəfindən aparılan dükan əşyası arasında şəhər tərəfindən icarə edilən ev yerimin sənədi ilə Fatmayı kəndində özümə məxsus olan bağımın priqovoru dəxi aparılmışdır. Hər kimdə olmuş olsa yuxarıda məzkur [deyilən] sənədlər etibardan saqit [etibarsız] hesab edilir.

*Əbdül Ağadayı oğlu*

*5761*

**Elan**

Ərzaq Nəzarəti bununla Bakı dairəsi kənd cəmiyyətlərinə elan edir ki, Bakı Kəndçilər İttifaqı tərəfindən onlara birinci lazım olan ərzaq şeyləri paylanacaq. Kənd cəmiyyətləri həman şeyləri almaq istəsələr Bakı Kəndçilər İttifaqına müraciət etməlidirlər.

*Ərzaq Nəzarəti məsulu: Əliyev*

*Kargüzar – imza*

*T-70*

**Elan**

Hökumətin qərardadı ilə layihə hazırlamağa müsabiqə (konkurs) elan olunur.

1) Azərbaycan Hökumətinin nişanına (gerbə) və 2) Öyləcə də möhürünə.

Layihələrin təqdimi [üçün] bu sənəsi aprel ayının 20-sində vaxt qoyulur.

Ən gözəl layihələrə mükafat olaraq müqərrər edilir [qərarlaşdırılır]:

1-cilirə: gerb üçün 1000 manat;

» » » » » möhür üçün 500 manat;

2-cililərə: gerb üçün 500 manat;

» » » » » möhür üçün 250 manat.

Müfəssəl [ətraflı] məlumat iş günlərində Posta və Teleqraf Nəzarətindən almaq olar.

*Dəftərxana baş müdiri: Blajevski*

*1-inci şöbə kargüzarı: Rəsul Rəhimli*

*T-74*

**"Xidmət"**
**müstəhliklər cəmiyyəti idarəsi**

Bununla öz üzvlərinə məlum edir ki, cəmiyyətin 2-nci ümumi iclası martın 28-də 1919-cu ildə səhər saat 10-da Çadrovı küçədə 216 nömrəli evdə təyin olunubdur. İclasa nə qədər üzv gəlmiş olsa, iclas qanuni hesab olunur.

*5762*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Cidalar görünür**

səh. 347. "………………": nöqtələr (bir sətir) qəzetdə, mətnin içində getmişdir.

səh. 348. "inqilabiyyunların bu münqəlib hərəkəti": müəllif ərəb dilində eyniköklü sözlər olan "inqilabiyyun" (inqilabçı) və "münqəlib" (dəyişilmiş, başqa şəklə düşmüş) sözləri ilə oynayır.

"İskra": menşeviklərin 1918-1920-ci illərdə Bakıda nəşr etdikləri qəzet nəzərdə tutulur.

**Türkcə teleqramma**

səh. 351. "ikibaşlı qartallıqda": üzərində ikibaşlı qartal təsviri olan, Rusiya imperiyası gerbi nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 351. "Foll-River": Amerikada bu adda bir neçə şəhər vardır. Burada, güman ki, XIX əsrdə və XX əsrin əvvəllərində Amerika toxuculuq sənayesinin əsas mərkəzi hesab olunan, Massaçusets ştatındakı Foll-River [Fall River] şəhəri nəzərdə tutulur.

"Nyu-Bedford": XIX əsrin axırları və XX əsrin əvvəllərində Amerikada toxuculuq sənayesinin mərkəzlərindən biri hesab olunan, Massaçusets ştatındakı Nyu-Bedford [New Bedford] şəhəri nəzərdə tutulur.

səh. 352. "…Məsai vəziri Horn…": qəzetdə Əmək nazirinin soyadı "Qorn" kimi verilmişdir.

**Dağıstan əhvalı**

səh. 353. "Mədən Sularında": Rusiyanın Stavropol diyarında yerləşən Mineralnıye Vodı şəhəri nəzərdə tutulur.

**Bayram günkü mühüm xəbərlər**

səh. 355. "Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

"Prinsev Konfransı": Böyükada Konfransı nəzərdə tutulur; "Prinsev" sözü qəzetdə təhrif edilmişdir.

"Berezovka": Ukraynanın Odessa vilayətindəki Berezovka şəhəri nəzərdə tutulur; qəzetdə "Berezovski" kimi getmişdir.

"…ingilislərin rəngli qoşunları…": Britaniyanın müstəmləkəsi olan Hindistandan, Seylondan və Afrikadakı müstəmləkələrdən yığdığı əsgərlərdən ibarət qoşunlar nəzərdə tutulur.

**Ermənistan haqqında**
**Məhəmməd Əli paşanın bəyanatı**

səh. 358. "İstiqbal": 1918-ci ilin dekabr ayında Trabzonda (Türkiyə) nəşrə başlayan qəzet; 1925-ci ilə qədər nəşr edilmişdir.

"Əhali partisi": Erməni Xalq Partiyası nəzərdə tutulur.

səh. 359. "Hökuməti-Səniyyə": "Ali hökumət", Osmanlı hökuməti nəzərdə tutulur.

"əlviyeyi-səlasə" (üç sancaq): Batum, Qars və Ərdahan sancaqlarını birgə ifadə edən termin.

səh. 360. "Dərsəadət" (xoşbəxtlik qapısı): İstanbul şəhəri.

**Təkzib**

səh. 360. "Gələcək": "Hümmət" partiyasının orqanı olan və Tiflisdə nəşr edilən qəzet.

**Elan**

səh. 362. "Ərzaq Nəzarəti bununla…": qəzetdə belə getmişdir: "Bakı Ərzaq Nəzarəti bununla…"



***"Azərbaycan" qəzetinin 144-cü nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 27 mart 1919-cu il, nömrə 144**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 24 cəmadiyəlaxir sənə 1337. 27 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

1918-ci il dekabrın 26-da general Tomsonun intibahnaməsi [bəyanatı] ilə təmin edilən Bakı mətbuatı öz azadlığından suiistifadə etdiyi münasibətilə mətbuat, ingilis komandanlığı tərəfindən mühafizə edilməyəcəkdir. Həman intibahnamədə[n] bu aşağıdakı sözlər götürülür:

"İnzibatiyyə qaydası ilə qəzetələr heç bir cəzaya giriftar edilməyəcəklər. Qəzetələr ancaq mənim tərəfimdən bağlana bilər."

*Bakı şəhərində olan*
*Müttəfiq ordu komandanı*
*miralay [polkovnik] Şattlvort*

## TÜRKCƏ TELEQRAFLAR

Posta və Teleqraf naziri Parlamanda, Nəzarət kargüzarı isə "Azərbaycan"da izah eylədilər ki, türkcə teleqraflar çəkilməsi üçün tədbirlər görülmüş və bu tədbirlərin sözdən işə keçməsi üçün əmrlər verilmişdir.

Bu tədbir və əmrlərin bir nümunəsini dün idarəmizi təşrif edən sabiq Posta və Teleqraf naziri Ağa Aşurov cənabları nümayiş etdirirlərdi. Kəndisi ilk dəfə olaraq türkcə təbrik teleqrafı almışdır.

Təbrik teleqrafı türkcə sözlər, fəqət fransızca hərflərlə yazılmış, öylə göndərilmişdir. Türkcə teleqrafların rusca hərflərlə yazılması lazım gəldiyini dəxi təxmin eyləmiş və buna aid rəvayətlər eşitmiş idik.

Şübhəsiz ki, işin bu qədəri də əvvəlki hala nisbətlə şayanı-təqdirdir [təqdirəlayiqdir]. Fəqət bununla məsələ qətiyyən həll edilməyir.

Milliləşmənin əməli faydası odur ki, teleqraf çəkmək istəyən Azərbaycan vətəndaşı yalnız türkcə bilərkən başqa birinə müraciət edib də rusca və yaxud fransızca yazdırmağa və yaxud oxutdurmağa möhtac olmasın. Bunun üçün də lazımdır ki, yalnız türkcə sözlərlə deyil, türkcə hərflərlə də yazılı olan hər qisim teleqrafı teleqraf kantorlarında bilaşərtü-qeyd [qeydsiz-şərtsiz] qəbul eyləsinlər və o teleqrafı göstərilən mürsəli-ileyhinə [göndərilən şəxsə] həman türkcə yazılı olaraq təslim etsinlər. Yoxsa, rus hərflərini və yaxud firəng hərflərini oxumaqdan aciz olan birisi üçün teleqrafın türkcə sözlərlə çəkilməsindən heç bir fayda

hasil olmaz. Yenə birisini bulub da sözlərini hərflərə keçitdirmək və sonra da birisini bulub alınmış teleqrafı oxutdurmaq lazım gələcək. Bu isə qətiyyən milliləşdirməkdən istənilən məqsədi hasil etdirməyəcəkdir.

Məqsədin tamamilə hasil olması üçün lazımdır ki, bütün posta və teleqraf kantorlarında türkcəni oxur məmurlar olsun və türkcə hərflərlə yazılan teleqrafları qəbul edib, türkcə alınan teleqrafları da həman türkcə yazılı olaraq sahibinə versinlər. Böylə olarsa, o zaman həqiqətən də teleqrafımızın milliləşməsinə qane ola biləriz. Yoxsa, faydaya möhtac olan və yalnız türkcə bilən vətəndaşlar deyil, teleqrafın milliləşməsindən rusca və fransızca oxumaq bilən vətəndaşların hissini qazana biləcəkdir.

*N.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**Abdulla bəy Qəbulzadə** - Nuxu şəhərinə 200 min rublə borc pul verilməsi barəsində bir neçə söz söyləmək istəyirəm. Nuxuda yaşayanlar, yaxud yaxınlarda bulunanlar Nuxu şəhərini yaxşı tanıyırlar və bilirlər ki, dörd il bundan əqdəmədək [əvvələ qədər] Nuxu şəhəri qeyri ticarət şəhərləri kimi böyük ticarət şəhərlərindən biri idi. Burada böyük ipək fabrikaları və qeyri sənaət [sənaye] müəssisələri var idi. Dörd sənədən bu yana Nuxu şəhəri ticarət şəhərliyindən çıxıb, iş bir yerə müncər olub [çatıb] ki, 12 yaşından yuxarı bütün əhali fəhləlik üçün Zaqatalaya, Ağdaşa, Ərəş və qeyri yerlərə gedirlər. Bu axır vaxtlarda Nuxu şəhəri bu fəhləlikdən də çıxıb füqəra şəhəri olmuşdur.

Hal-hazırda əgər bu şəhər əhalisinin beşdə biri qəni [varlı] isə, beşdə dördü füqəradır. Bunlar bütün ev əşyalarını: palaz-qazan, yorğan-döşək, qab-qacağın bir qədərini Nuxuda, bir qədərini də ətraf kəndlərdə satıblar. Xalq üçün heç bir şey qalmamışdır. Bu işə aşina olduğum üçün təklif edərdim ki, bu 200 min rublə Nuxu şəhərinə qərz [borc] deyil, ianə təriqi [yolu] ilə verilsin. İndi qəbul olunan layihə mövcibincə [layihəyə əsasən] hökumət məmurlarına 7-8 milyonluq bir müavinəti-nəqdiyyə [nəğd yardım] verilməlidir. Nə olar ki, bir dəfəlik 200 min manat da Nuxuya ianə verilsin. Bəlkə ianə səbəbinə Nuxu dövlətliləri də öz tərəflərindən 100 min manat ianə verərlər. Olsun ki, nuxulular iyun ayınadək bir qayda ilə dolanarlar. Və bir də bu 200 min manat pul veriləcək fəqirlərə, azarlılara, aclara və qeyrilərinə. Amma hökumət qulluqçularına verilməli olan 8 milyon yemişə və sair tatlı şeylərə veriləcəkdir. Nuxu üçün veriləcək ianə zəruri şeylərə sərf olunacağından bu pulun borc təriqi ilə deyil, ianə surətilə buraxılmasını təklif edirəm.

**Aslan bəy Qardaşov** - Bu pulun ianə surəti ilə verilməsi barəsində komissiyada dəxi məsələ qalxdı. Lakin layihə müzakirə olarkən qərara alındı ki, borc surəti ilə verilsin. Çünki ianə surəti ilə versək, qeyri şəhərlərə ianə etməyə yol açılar. Bir də Səhiyyə Nəzarəti tərəfindən bu xüsuslarda böyük və vase [geniş] qanun layihəsi tənzim edilərək daxil olubdur ki, həman layihədə müsri [yoluxucu] xəstəliklər barəsində böyük tədbirlər görülür. Bu layihəyə görə, Nuxu şəhərində də xəstəliklərlə mübarizədən ötrü barakalar açılacaq, sanitarnı tədbirlər görüləcəkdir. Hər halda komissiya təklif edir ki, borc təriqi ilə faizsiz verilsin.

**Sədr** - Bu barədə kim danışmaq istəyir? Danışmaq istəyən yoxsa, səsə qoyuram. Daxiliyyə Nəzarətinin Nuxu şəhəri üçün 200 min rublə faizsiz borc buraxılması barəsindəki təklifini komissiya bilatəğyir və təbdil [dəyişdirmədən və düzəliş etmədən] qəbul etmişdir. Bu surətlə, layihəyə görə, Xəzineyi-dövlət vəsaitinəqdiyyəsindən [dövlət xəzinəsinin nağd vəsaitindən] bilafaiz [faizsiz] Nuxu şəhəri idareyi-bələdiyyəsinə əmrazi-sariyyə [yoluxucu xəstəliklər] ilə mübarizədə bulunması üçün 200 min manatlıq bir borcun verilməsi və məzkur idareyi-bələdiyyənin [adı çəkilən bələdiyyə idarəsinin] işbu borcu 1920-nci səneyi-miladiyyəsindən bəd' ilə [başlamaqla] hər sənə müsavi [bərabər] hissələrlə dörd sənə zərfində xəzineyi-dövlətə verilməsi üçün kəndisini[n] məcbur edilməsi təklif olunur.

Hər kəs bu layihənin komisyon qəbul etdiyi kimi qəbuluna tərəfdar isə əllərini qaldırsın. *(Əllər qalxır)* Deməli, əksəriyyətlə qəbul olunur.

Növbədəki məsələ, zabit namizədlərinin maaş miqdarını müəyyən edici qanun layihəsidir. Dokladçı Qara bəy Qarabəyovdur.

**Qarabəyov** - Keçən dəfə Hərbiyyə naziri tərəfindən varid olan [gələn] Hərbiyyə Nəzarəti büdcəsi maaşına baxılanda zabit namizədlərinin maaşı qələmdən düşmüşdür. Yəni büsbütün xatirdən unudulmuşdur. Əsasən, Hərbiyyə Nəzarətinin büdcəsi qəbul edilmişdir. Zabit namizədləri maaşı məsələsi o qanuna əlavə olaraq təklif olunur ki, zabit namizədləri üçün ayda 800 manat maaş təyin edilsin. Komissiya bu məsələyə baxıb qəbul eyləmişdir. Keçən layihədə zabitlərə min rublə maaş təyin edildiyindən, komisyon bunlara, yəni zabit namizədlərinə 800 rublə məvacib verilməsininin Parlaman tərəfindən qəbul edilməsini təklif edir.

**Sədr** - Danışan yoxsa, səsə qoyuram. Hər kəs bu layihəyə, yəni zabit namizədlərinə komisyonun qərarı üzrə 800 rublə məvacib verilməsinə tərəfdar isə əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, əksəriyyətlə qəbul olunur.

**Sədr** - Növbədəki məsələ Etimadnamə komisyonunun məruzəsidir. Söz Etimad[namə] komisyonu sədri Şəfi bəy Rüstəmbəylinindir.

**Rüstəmbəyli** - Ötən səfər Ərəş uyezdi nümayəndələrinin seçki bəratülqövlləri [protokolları] düz olmadığından etibarnamələri geri qaytarılmışdı. İndi həman uyezddən iki nəfər şəxs: Muxtar əfəndi Əfəndizadə və Əşrəf bəy Tağıyev seçilmişlərdir. Orada Milli Komitə olmadığından, kənd cəmiyyəti nümayəndələri köhnə qayda ilə bir yerə yığılıb ədliyyə məhkəməsi sədrinin təhti-sədarətində [sədrliyi altında] qanun üzrə seçilmişlərdir. Etimadnamə komisyonu bunların seçki bəratülqövllərinə baxıb düz olduğu üçün Ərəş uyezdi nümayəndələrinin Parlaman tərəfindən qəbul olunmalarını təklif edir.

İkinci, Zəngəzur uyezdindən Əhməd bəy Ağayev və Ələkbər bəy Xasməmmədov Parlaman üzvü intixab edilmişlərdi

[seçilmişdilər]. Bunların seçki bəratülqövlləri düz deyildi. Əvvəla, onların seçki bəratülqövllərinin surəti (kopiyası) göndərilmişdi. Bundan əlavə, milli komitə üzvləri və katib tərəfindən imza olunmamışdı. Buna görə, həman bəratülqövllər geri göndərilmişdi ki, uyezdni naçalnik [qəza rəisi] yenidən seçki icra etdirsin. Məlum olduğu üzrə, Ələkbər bəy Xasməmmədov İstinaf Məhkəməsi [Məhkəmə Palatası] sədri təyin edilib hökumət qulluğuna getdi. Ələkbər bəy Parlamandan çıxmış hesab olduğu üçün yalnız Əhməd bəy Ağayevin məsələsi qaldı. Sonra Zəngəzurdan Cəlil bəy Sultanov nümayəndə intixab edilib [seçilib] göndərildi. Etibarnamə komisyonu Əhməd bəy Ağayev ilə Ələkbər bəy Xasməmmədovun bəratülqövlləri düz olmadığından rədd etməyi təhti-qərara aldı. Cəlil bəy Sultanovun etibarnaməsi dürüst və seçkisi qanun üzrə olduğundan Etibarnamə komisyonu qəbulunu Parlamana təklif eyləyir və qərara almışdır təvəqqe etsin ki, Zəngəzurdan ikinci bir nümayəndə göndərilsin.

Üçüncü ixtilaflı bir etimadnamə vardır ki, o da Şamaxı uyezdindən bir neçə mirski priqovor [camaat qərarı] ilə intixab olunmuş Şirin bəy Səfərəlibəyovundur. Qəza kəndləri bir yerə toplanıb, bir qətnamə çıxarmamışlar. Ancaq, hər kənd parça-parça öz mirski proqovorlarını göndərmişlərdir. Etibarnamə komisyonu qərar qoymuşdu ki, fevralın 7-sinə kimi yeni və qanuni bəratülqövl göndərilməsi tələb edilsin. Vaxt keçib, qanun üzrə etimadnamə gəlmədiyindən komisyon son iclasında Şamaxı uyezdindən yeni nümayəndə intixab olunmasını təklif etməyi təhti-qərara almışdır.

Erməni milləti nümayəndələrinin intixabnamələri [seçki məktubu] indiyə qədər gəlmədiyindən, Etibarnamə komisyonu bu məsələni hələlik açıq buraxır. Etibarnamə komisyonu bu məsələlərin Parlaman tərəfindən qəbul olunmasını təklif edir.

**Sədr** - Həmin məruzə barəsində kim danışmaq istəyir? Söz istəyən yoxdursa, səsə qoyuram. Etibarnamə komisyonunun məruzəsi üç hissədən ibarətdir. Əvvəla: Ərəş qəzasından iki üzv – Muxtar əfəndi Əfəndizadə və Əşrəf Tağızadə intixab olunmuşdur. Hər ikisinin etibarnaməsi düz olduğundan Etibarnamə komisyonu təsdiqini təklif edir. Etiraz yoxsa, qəbul olunur. Qaldı Zəngəzur qəzası. Zəngəzur qəzasından Ələkbər bəy Xasməmmədov ilə Əhməd bəy Ağayevin etimadnamələri dürüst deyildir. Etibarnamələrdə imzalar olmadığından və başqa bir neçə səbəblərə görə bu etimadnamələr qəbul olunmayırlar. Ələkbər bəy, məlum olduğu üzrə, dövləti qulluğa getmişdir. Əhməd bəy Ağayevin də etibarnaməsi qəbula keçməyir. Zəngəzur uyezdindən Cəlil bəy Sultanov intixab edilib, etibarnaməsi düz olduğundan qəbul edilməsi təklif olunur. Zəngəzur uyezdindən ikinci bir üzvə də ehtiyac vardır.

Hər kəs Etimadnamə komisyonunun Zəngəzur qəzası haqqındakı rəyini bu cür qəbul edirsə, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, əksəriyyətlə qəbul olunur. Zəngəzurdan bir nəfər də intixab olunmalıdır.





Şamaxı qəzasından Şirin bəy Səfərəlibəyov seçilmiş, fəqət etibarnaməsi dürüst olmadığından geri qaytarılmış və yenidən başqa bir nümayəndə intixabı təklif edilmişdi. İndiyə qədər seçki olmamışdır. Ona görə, bu məsələni səsə qoymuram.

Növbədəki məsələ yollar və qara yollar [avtomobil yolları], onların təmirat və inşasının Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] ixtiyarına verilməsi haqqındakı layiheyi-qanuniyyədir [qanun layihəsidir]. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Şəfi bəy** - Rusiyanın köhnə qanunu ilə cəmi qara yolları Daxiliyyə Nəzarətinin ixtiyarında idi. Bu yolların çoxunu ələddəvam [həmişə] camaat özü qayırır və təmir edirdi. Hal-hazırda isə camaatın əski vaxtındakı kimi halı və vəziyyəti müsaid deyildir ki, hökumətə kömək etsin də yollar qayırılsın. Hökumət bunu nəzərə alaraq və Azərbaycan daxilindəki yolların azlığını və bu azlıq nisbətində əhaliyə lüzumu olduğunu hiss edərək bütün yolların bir nəzarət öhdəsində bulundur[ul]mağını münasib bildi. Bunun üçün də yollar ilə daha ziyadə əlaqə və mərbutiyyəti [bağlılığı] və yolların təmir və inşasında daha ziyadə məharət və vəsaiti olan Türüq və Məabir Nəzarətinə verməyi təhti-qərara alıb, bu xüsus üçün bir qanun layihəsi təklif edir. Bu layihə mövcibincə [əsasında], Azərbaycan daxilindəki bütün yollar Türüq və Məabir Nəzarəti təhti-idarəsinə [idarəsi altına] keçir. *(Oxuyur)* Bu qanun qəbul edildiyi təqdirdə işlərin əmələ gəlməsi və yolların idarəsi üçün Nəzarət tərəfindən bir də ştat təklif olunur. Deməli, bu ştatlar altı yerdə olacaq. Yəni quru yolları idarə üçün altı stansiya olacaq. *(Burada bu ştat əfradına [fərdlərinə, nəfərlərinə] veriləcək məvaciblərin rəqəmini oxuyur)* Bu da quru yollar üstündə olacaq məmurların məvacibidir. İştə bu layihəni Layiheyi-qanuniyyə komissiyası ətraflıca tədqiq etdikdən sonra bir neçə təshih ilə qəbulunu təklif edir. Birinci, təzə qanun nəşr edildiyi tarixdən etibarən köhnə rus qanunları ləğv olunmuş hesab edilir və bir də Dəmiryol Nəzarətinin 668 nömrə və beşinci proqramının ikinci cildi mətnindəki yolların Daxiliyyə Nəzarəti əmrinə tabe qismini bəyan etmiş olan maddə dəxi gərək rədd olunsun. Üçüncüsü isə komisyondan bir neçə üzvlər bəyan edirlər ki, bu ştat azdır, bu səbəblə ştat müvəqqəti götürülmüşdür. Və bir də məvacibləri hal-hazırda olan qulluqçuların məvacibləri ilə mütənasib surətdə təyin edilmiş olduğundan, ümuma təzyidi-maaş [maaş artımı] olduğu zaman bunların məvacibləri ümumi üsul üzərinə artırılmalıdır.

**Sultanməcid Qənizadə** - Rusiyada köhnə qanun üzrə bütün quru yollar Daxiliyyə Nəzarətinin idarəsində idi. Nəzarət bu yollarda xərc etmək üçün təxsis etdiyi [ayırdığı] pulları məmurlar xüsusi ciblərinə qoyur, yolların təmiratını sırf camaatın üzərinə yükləyərək işlədirlərdi. Öylə zaman olurdu ki, axırda camaat getmək istəməz və hətta getməzdi. Bunun barəsində bir çox şikayətlər vaqe olur, yıxılan və pozulan yollar uzun zaman təmir olunmaz da işlər cığırından çıxır, mürur və übur [gediş-gəliş] azalırdı və əhali çox-

çox məşəqqət çəkirdi. Əlbəttə, bu bizdə olmayacaqdır. Ştat ədalətli olacaqdır. Ştat üçün lazım gələn pul buraxılacaqdır. Amma hansı nəzarətə buraxılsın? Daxiliyyə, yoxsa Türüq və Məabir Nəzarətinəmi? Bu xüsusu bir az izah etmək lazımdır. Məncə yolu tikməkdən ziyadə saxlanması müşküldür. Yəni mövcud yolları təmirdən daha ziyadə, pozulmamasını təmin etməkdir. Əksərən mövsümlərdə yağışlar yağar, sel gələr, körpü uçar və bu pozuqluqları təmir üçün çox qüvvə lazımdır. Yol pozulduğu kimi, həman [dərhal] adamlar çağırıb yolu təmir etmək, düzəltmək icab edir. Yola həmişə diqqət lazımdır. Mən zənn edirəm ki, bu işləri Dəmiryol Nəzarəti vaxtında bacarmaz. Zira Dəmiryol Nəzarəti bu yerlərdən çox uzaqdır. Biləks [əksinə] bu qarayolların işi Daxiliyyə Nəzarətinə yavuqdur. Bu məbləğ gərək Dəmiryol Nəzarətindən götürülüb, Daxiliyyə Nəzarətinə verilsin, yəni quru yolların ştatı üçün götürülmüş təxminən 700 min rublənin Dəmiryol Nəzarəti ixtiyarına verilməsi, yuxarıda ərz etdiyim səbəblərə görə, bir nəticə verməyəcəkdir. Dediyim odur ki, o məbləğ gərək Daxiliyyə Nəzarəti ixtiyarına verilsin və quru yollar da Daxiliyyə Nəzarəti idarəsində olsun.

**[Rəhim bəy] Vəkilov** (Müsavat) - Şübhəsiz ki, bu şose yolları və araba yolları Rusiyanın daxili vilayətlərində zemstvo idarəsi əllərində idi. Ümidvaram ki, Qafqaziyada da zemstvo idarələri [yerli özünüidarə orqanları] təşkil olunar və bu yolları ən eyi bir surətdə idarə edər. Bununla belə, məişət də tələb edir ki, biz də zemstvo idarələri təşkil edək. Fəqət, zemstvo təşkilatı meydana gələnə qədər bu yolların müvəqqəti surətdə Türüq və Məabir Nəzarəti ixtiyarına verilməsinə tərəfdarız. Deyirlər ki, bu yolları Türüq və Məabir Nəzarətindən ziyadə, Daxiliyyə Nəzarəti ixtiyarına vermək yaxşıdır. Amma nəzərimcə Türüq və Məabir Nəzarəti ixtiyarına vermək yaxşı olar, texnika cəhətindən yol işinin Türüq və Məabir Nəzarətinə çox münasibəti vardır. Bundan əlavə, bir para vəzifələr də vardır ki, onlar da meydandan götürülər. Məsələ müvəqqəti olduğundan yolların hansı bir nəzarət ixtiyarına verilməsinin bizcə o qədər əhəmiyyəti yoxdur. Əsasən isə biz bu məsələnin zemstvoya aid olduğu rəyindəyiz. Nəzərimizi cəlb edən bir məsələ vardır ki, o da bu vaxta qədər cəm edilən zemstvo vergiləridir. Bilinməyir bu yollar Türüq və Məabir Nəzarəti ixtiyarına keçsə, əcəba bu pullar yollara sərf olunacaq ya yox? Biz təklif edərdik ki, zemstvo vergiləri bu yollara sərf olunsun və zemstvo təşkil edildikdə bu məbləğ zemstvoya verilsin.

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** (Hümmət) - Möhtərəm əfəndilər! Şose yollarının bir böyük mənası olduğu, əlbəttə, hamımıza məlumdur. Yollar nə qədər gözəl olsa, camaatın şəhərlə əlaqəsi o qədər yaxşı olar. Bunu bilməlisiniz ki, Rusiyanın köhnə qanununda bu yolların təmiratı həmişə kəndli əhalinin boynunda idi. Kənddə müəllim olduğum zaman mənim yaxşı yadıma gəlir ki, kəndliləri nə qədər zülüm ilə qamçılaya-qamçılaya yığıb, yol təmiratı üçün işə aparırdılar. Ağanın əvəzindən nökər gedirdi. Ağa da nökərin əvəzində atasını





və ya anasını gətirib qapısında işlədirdi. Bütün bu yolların təmiratı, həqiqət ərz edirəm, gözümün qabağında olmuşdur, özümdən demirəm, camaatın boynunda idi. Bu işləri camaatın boynuna yıxan polisə idi. Və bu iş polisə əlində idi. Məəttəəssüf [təəssüf ki], indiki polisə də köhnə polisədən geri durmayır. Bu işin polis əlində qalması tərəfdarı olammayız. Biz buna inanırız ki, bu polisə ki var, ağanın evində nökərin əvəzinə atasını ya anasını işlətməyə yol tapacaqdır. Ona görə bu yollar vergidən hasil olan məbləğ verilən idarəyə verilməlidir. Yolların mükəmməl surətdə qayırılması və dəmiryol idarəsinə keçməsinə etiraz etməyiriz. Lakin bu və buna aid ümum işlər zemstvo işləridir. Demokratik əsaslar üzərinə tezliklə gərək zemstvo təşkilatı vücuda gətirilsin. Hökumətimiz gündə böylə qanunları tək-tək keçirməkdən çəkinməyir, vaxt tapmır ki, zemstvo təsisinə şüru etsin [başlasın]. Bu nə Daxiliyyə nazirinin işidir, nə də Türüq və Məabir Nəzarətinin. Bu nöqteyi-nəzərdən zemstvonun tezliklə təsisi və bu işin ona verilməsi arzusundayız. Təəccüb edirəm, "İttihad" firqəsi kəndçi tərəfdarı olduğu halda, necə cürət edib bu yolların polisə əlində qalmasını təklif eylədi. Bu sözləri deməkdən məqsudumuz budur ki, həmişə deyiriz, gərək demokratik əsası üzrə düzələcək idarələr tezliklə təşkil edilsinlər. Biz tək-tək qanun keçirmək əleyhindəyiz. Tək-tək qanun keçirməyə vaxt tapırlar, amma o idarələri çağırmağa vaxt tapmayırlar. Biz yolların yol vəziri öhdəsinə keçməsinə etiraz eyləməyib, tezliklə Zemstvo idarələrinin təşkilini və bu yolların zemstvo idarəsi ixtiyarına verilməsini tələb ediriz. Ümid ediriz, Türüq və Məabir vəziri də ağanın evində nökərin əvəzinə ata-anasının işləməsinə razı olmaz. *(Alqış)*

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

Münxendən teleqrafla xəbər verilir ki, Landtaqda Əmələ, saldat və kəndçi şuralarının iki yüz nəfər nümayəndələrinin iclasında bu rəy təsvib edilmişdir [bəyənilmişdir], belə ki, Konqre, müvəqqəti Milli Şura olmalıdır. Heyət bəyan eyləmişdir Rusiya Cümhuriyyəti kimi Almanyada da Şura Cumhuriyyəti elan edilib, dövlət borcları heç dərəcəsinə yendirilməlidir.

Berlin - Burada olan əcnəbilər burada artıq qaldıqca Almaniya millətinin ruh düşkünlüyünün getdikcə artacağına şahid olurlar. Buraya varid olan [gələn] əcnəbilərin birinci təəssüratı buradakı rüşvətçilik, qaydasızlıq və xəyanətdən nəşət edən [əmələ gələn] heyrətdir. Almaniyanın qərb cəhətində bir dərəcə intizam saxlanmışdır və lakin, burada da bir çox şeylərə ehtiyac vardır. Əhalinin aşağı sinfinin halı acınacaq bir haldadır. Bundan sərfi-nəzər [bu bir yana], əhaliyə verilən pay çox azdır. Ərzağı ancaq möhtəkirlərdən almaq olar ki, bunu da onlar artıq qiymətlə satırlar. Almaniyada işsiz əmələlərin miqdari-ümumisi 465 mindir. Bunların çoxusu da işləmək istəməyir. Çünki, bu cür işsizlər davada bulunduqlarından yorğun düşmüşlərdir. Gündən-günə narazılıq artır. Hərgah şimdiki hal uzun müd-

dət davam edərsə, o zaman camaatın ruhu bolşevizmaya təmayül edəcəkdir. Apreldən iyuna qədər vaxt böhranlı ola biləcəkdir. Hərgah Müttəfiqlər Almaniyanın ərzaq işlərini kontrolları idarəsinə alarlarsa, o zaman qayda və asayişi bərpa etmək olacaqdır.

**Almaniyada**

Almaniyadan alınmış olan son xəbərlər şəhadət edir ki, Almaniyanı ümumi tətil xətrələyir [təhdid edir]. Bəzi yerlərdə indidən tətil başlanmışdır. Əmələlər tələb edirlər ki, kömür mədənləri və dövlət inhisarında olan şeylər milliləşdirilsin və şura təsdiq edilsin. Mərkəzi Almaniyanın dağ mədənləri əmələlərinin üçdən iki hissəsindən ziyadəsi tətil edirlər. İndi yavaş-yavaş tətil dəmir yoluna və posta idarələrinə sirayət edir. Hərçənd bu hərəkatın xətrəli olduğu mühəqqəq [şübhəsiz] isə də, amma bununla bərabər hökumət ümid edir ki, qoşunla bunların qabağını almaq mümkün olacaqdır. Böyük şəhərlərdə, məsələn Halle və Leypsiqdə məmurlar Berlində tətil edilməsi nəfinə [lehinə] təbliğatda bulunurlar və zənn edilir ki, bu təbliğat müsbət nəticələr verəcəkdir. Almaniyanın şərq cəhətində bolşeviklərin fəaliyyəti artır. Prussiya bolşevikləri camaata təklif edirlər ki, dəmiryolları təxrib etsinlər və böyləliklə əcələtən [təcili olaraq] bolşevizmin qələbə çalmasını istəyirlər.

London – Kölndən verilən teleqraf xəbərlərinə nəzərən, Düsseldorfda spartaklar Kil bəhriyyunları [matrosları] bir yerdə şəhərdə hökuməti əllərinə alıb Vestfaliya əhalisini qarət edirlər. Onlar ərzaq skladlarını [anbarlarını] zəbt etmişlərdir. Spartaklar Essendə olan daş kömür mədənlərini və kantoru tutub, maşınları xarab edib, Mulhaymda olan dövlət bankını qarət etmişlərdir.

## DAĞISTAN ƏHVALI

Teymurxanşuradan teleqraf edirlər ki, martın 22-də Dağıstan Hökuməti rəisi Kotsev Yekaterinodardan qayıdıb, Dağıstan Parlamanında məruzədə bulunmuşdur. Məruzədən anlaşılan budur ki, Könüllü ordu Dağıstan millətlərinin istiqlaliyyət və özlərini idarə etmək hüquqlarını etiraf [qəbul] etməkdən qəti surətdə imtina edib, öz məmurlarını və naçalniklərini camaat üzərində hakim təyin etmək istəyir. İxtilaf artır. Parlaman vəkilləri hökumətdən xəbər almışlar ki, məgər Müttəfiqlər qoyarlarmı ki Denikinin qara irticası azad Dağıstan millətlərinin qanını töküb, Dağıstan Parlamanını məhv etməklə asayişi və qanuni olan hökuməti dağıtsınlar?

Kotsev məruzəsini bitirib izhar etmişdir ki, Dağıstan millətləri ittifaqının hamı müntəxib [seçilmiş] nümayəndələri Parlamana gəldikləri münasibətlə, hökumət öz vəkalətini öhdəsindən buraxır.

Keçən gün əhvali-hazirə münasibəti ilə bir çox ictimalar [yığıncaqlar] olmuşdur. Hamı ictimalarda Müttəfiqlərin münasibatı məsələsi müzarikə edilib, bütün əhalinin etiqadı bunadır ki, ümumi Sülh Konfransında məsələ həll edilənə qədər Müttəfiqlər bu ixtilafı bərtərəf edərlər [aradan qaldırarlar; qarşısını alarlar]. Əhali Denikin ixtilafını Müttəfiq dövlət komandanlığının – Parisin, Yevropanın və Amerikanın Dağıstan Cümhuriyyəti əhvalından bixəbər olmaları ilə təfsir [izah] edirlər.

Martın 23-də səhər və axşam Parlamanın örtülü iclası vaqe olmuşdur. Kotsevin məruzəsi davam etmişdir. Axşam iclas qurtarıb Parlaman açılmışdır. Hökumət rəisi intixabı [seçkisi] başlanmışdır. Müttəhidülqövl [yekdilliklə] Kotsev hökumət rəisi intixab edilib, Kabinə təşkil edilməsi dəxi ona həvalə olunmuşdur. Əhalinin ruhu yüksəkdir. Təzə tərzi-idarəyə məhəbbət görünür. Denikinə qara monarxiya irticası kimi baxırlar. İstiqlaliyyət haqqını və parlaman tərzi-idarəsini can-başla müdafiə etməyə hazırdırlar. Hamı Müttəfiqlərin müdafiəsinə inanır.

**Çeçenlər və Denikin**

Tersk oblastı Xalq Şurasının sabiq üzvü bir nəfər çeçen bugünlərdə Çeçenistandan varid olub [gəlib] Tersk oblastı haqqında maraqlı xəbərlər nəql edir. Könüllü ordu Vladiqafqaza və Qroznıya hücum etdiyi zaman çeçenlər inquşlarla və bolşevik əsgərləri ilə bu hücumu qaytarmışlardır. Dağıstanlılar bir para yerlərdə böyük zərbə edirməyə müvəffəq olmuşlardır. İnquşlar beş yüz nəfərdən ibarət bir dəstəni Beslan mövqifi [stansiyası] yaxınlığında pərakəndə etmişlərdir. Könüllü ordu münasibətində çeçenlər öz qonşuları olan inquş, kumık, ləzgi və Dağıstanın qeyri xırda millətləri ilə bərabər hərəkət edirlər. Çeçenlərin başında məşhur qəhrəmanlardan Şirinov və qeyriləri durmuşlardır.

## AXISKA ƏHVALATI

**Axıska təftiş heyəti**

Axıska qırğınının, Axıska məsələsinin səbəb və amillərini bulmaq üçün gürcü Məclisi-Müəssisanı tərəfindən fövqəladə bir komissiya intixab edilib [seçilib], məhəllinə [yerinə] göndərildi.

Bu komissiyaya böyük-böyük ixtiyarlar, xüsusi hakimliklər verildi. Axıska xəstəliyinin cinsini kəşf etmək, onun əlac və tədavisinə [müalicəsinə] baxmaq yalnız, yalnız o böyük ixtiyarlı heyətə həvalə edildi.

Heyət iki-üç gündür ki, Axıskaya getdi.

Şimdi hər kəs bu əzəmətli, bu heybətli heyətin kəşf və kəramətinə müntəzir, həm də səbirsizliklə müntəzir.

Çünki, bu heyət adi heyət deyil. Ufaq bir firqə tərəfindən və ya qeyri-mötəməd [etimad edilməyən] bir milli qrup tərəfindən göndərilmiş deyil.

Başdan-ayağa qədər sosial demokratlardan həm də gürcü sosial-demokratlarından ibarət olan Məclisi-Müəssisan tərəfindən intixab edilmiş bir heyəti-mötəbərə və "müəzzəmədir" [mötəbər və "əzəmətli" bir heyətdir].

Əcəb kimdir bu ali heyət əzası [üzvləri]?

Şəksiz ki, bu, hər kəsi maraqlandıran bir nöqtə, bir arzudur.

Əvət, bu ali heyətin əzası üçdür:

İkisi Axıska qanlı fəlakətinin baisiyeganəsi olan Axıska komissarı Ruxadzenin yoldaşları.

O biri? O biri də "xala xətrin qalmasın", daha doğrusu, sadə müsəlmanların gözlərini boyamaq üçün qəsdən in-

tixab edilən "müsəlman", ancaq öz adını yazmaq bilməyən, yoldaşlarının əmrinə qarşı iki əlini belinə qoyub: "Diyax, batunu!" (Bəli, knyaz) cavabını tez-tez deyə bilən Qaraçöplü kəndli Hüseyinquludur. Şimdi böylə fövqəladə bir heyətin edəcəyi təftişlə gətirəcəyi xəbəri siz qiyas [müqayisə] ediniz!

Ay, rica edirəm ki, gürcü demokratiyasının bu halına, daha doğrusu bu məntiqsiz halsızlığına çox da təəccüb etməyiniz!

Çünki, gürcü demokratiyası demək "Ramişvili hökuməti-müstəbidəsi [müstəbid hökumət]" deməkdir.

Dəxi, bundan sonra Gürcüstandaki müsəlmanların başına gələcək fəlakətləri siz düşününüz!

*Bitərəf*

## VİLSONUN NİTQİ

Rəisi-cümhur Vilson Amerikadan Avropaya övdət etməsi [qayıtması] münasibətilə təbrik edilməsinə cavab verərək demişdir ki, Sülh Konfransının məruzəsindən əvvəl öz vəzifəsi olaraq bəyan edir ki, Sülh Konfransının məsələləri xeyli ağır olmaqla bərabər, hamı böyük və kiçik millətlərin mənafeyinə dəxli vardır. Müxtəlif məmləkət nümayəndələrinin öz milli tələblərini qənaətkar bir surətdə təqdim etmələri Vilsonu heyrətə salmışdır. Onlar həmişə birinci növbədə Amerika nümayəndələrinə müraciət edirlər. Çünki, Yevropada heç bir elə məmləkət yoxdur ki, Amerikanın nə rəydə olduğuna şübhə etsin. Amerika hökuməti insaniyyət, dostluq şöhrəti qazanmışdır. Hər zaman ki, bir yerdə saldat lazım olur, amerikalılar dəvət olunurlar. Qəhrəman amerikalılar Yevropanı inandırdılar ki, Amerika hökuməti bəşəriyyət hüququ və ədalət üçün həm də dargöz millətçilik tələbi ilə deyil, bütün bəşəriyyət tələbi sövqü ilə hər bir vəsaili [vasitəni] müharib [savaşan] dövlətlər ixtiyarına vagüzar etmişdir [tapşırmışdır, vermişdir]. Yevropa möhkəm sülh ümidi ilə yə's [ümidsizlik] və naümidlikdən dirilib təzə bir dövr ərəfəsində olduğumuza inanır. Bu təzə dövrdə də millətlər bütün dünya haqq-hüququnun təmin edilməsi işində bir-birilərini müdafiə edəcəklərdir. Bu ümidlər doğru çıxmasa, nəticəsi qeyri-qabili-təsvir olacaqdır. O zaman millətlər təzədən düşmənçilik başlayıb, etibarlı adamlar isə müvəffəqiyyətsizliyə düçar olduqlarını hiss etməklə bərabər, ümidsiz bir surətdə evlərinə övdət edəcəklər.

Amerika öz böyük qüvvəsini, dargöz millətçilik, xudpəsəndlik qəsdi ilə saxlamamalıdır. Etiraf edərmisiniz ki, köhnə və qüvvətli millətlərin gözü önündə nə qədər təzə dövlətlər təşkil edilmişdir. Hərgah biz onları pənahsız, dostsuz qoyarsaq, tək qalarlar.

Lehistan [Polşa] işinə siz mən inandığım kimi inanırmısınız? Yetişməmiş, təcrübəsiz və bütün bir ordu tərəfindən mühasirəyə alınan Lehistandan üz döndərməyəmi hazırlaşırsınız?

Çex-slovakların və cənubi slavların ümid və arzusuna mən inandığım kimi siz də inanırmısınız? Sizə məlumdurmu ki, hərgah onların azadlığı bütün cahan tərəfindən təmin edilməsə, bir çox hökumətlər onlara təcavüzdən bir an qafil olmazlar.





Üsrət [sıxıntı] çəkən ermənilərə siz böyük səxavətlə pul ilə kömək etmişsiniz. İndi onlar daha üsrət çəkməsin deyə siz öz qüvvənizi tətbiq etməlisiniz.

Hazırlanmaqda olan sülh şəraiti bütün cahan mədəniyyətinin müttəhid [birləşmiş, birgə] qüvvəsi tərəfindən təmin edilməsə, çox müddət davam edə bilməz.

Vilson nitqinin axırında demişdir ki, Amerikanın qərarına şübhə etməyir və inanmayır ki, tərəqqi, məqsədə nail olmamış dayansın.

Hökumətlər deyil, millətlərin haqqı var tələb etsin və təkid edirlər ki, mövcud hökumətlər onların arzularını əmələ gətirsinlər və yaxud yerlərini başqalarına güzəşt etsinlər.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Ticarət və Sənaye nazirinin Azərbaycandan çiyid aparmaq barəsindəki mə-ruzəsindən sonra qət edilmişdir:

Azərbaycan dairəsindən beş yüz min putadək çiyidin aparılmasına izin verməli, bu dəfəlik hər putundan üç rublə gömrük almalıdır.

* Maliyyə nazirinin xidmətçilərə məvacib vermək üçün pul təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-idarəsindəki yirmi milyon fonddan Maliyyə Nəzarətinə hökumətin 1 fevral qətnaməsi mövcibincə [əsasında] xərclənmək üçün əlli min rublə buraxılsın.

* Ədliyyə nazirinin Zaqatal quberniyası və cənub-qərbi Azərbaycanın məhkəmə qaydası ilə Gəncə nahiyə məhkəməsinə ilhaqı haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Oralarda məhkəmə təşkilinədək məzkur [adı çəkilən] yerlər Gəncə nahiyə məhkəməsinə mülhəq edilsinlər [birləşdirilsinlər].

* Rəisi-vükəlanın Voyeykovun istefası haqqındakı məktubuna dair məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarəti dəftərxanası müdiri vəzifəsi ifası ilə müvəzzəf [vəzifələndirilmiş] və Maliyyə Nəzarəti Şurası üzvü Voyeykovu öz ərizəsinə mütabiq 22 martdan etibarən vəzifəsindən əzl etməli [azad edilməli].

* Ədliyyə nazirinin Xüsusi təftiş və istintaq komisyonuna üzv təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mühəndis Ağa Əminzadəni həman komisyon üzvlüyünə təyin etməli.

* Rəisi-vükəlanın [Baş nazirin] sülh heyəti üçün para buraxılması haqqındaki məruzəsindən sonra qət edilmişdir:

Sülh heyəti üçün əlavə olaraq iki milyon yarım buraxılsın və Maliyyə nazirinə tapşırılsın ki, qanun layihəsi surətində təsdiq üçün Məclisi-Məbusana idxal etdirilsin.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Maliyyə Nəzarəti, Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, xidmətçilərə yeni məvacib vermək işləri tamama yetmişdir. Binaənileyh [ona görə], mart ayı üçün artırılmış

məvacib alacaq olanların siyahısı Maliyyə Nəzarətinə göndərilməlidir.

**Ticarət və Sənaye Nəzarətində**

Aldığımız məlumata görə, Fövqəladə təftiş və istintaq komitəsi Ticarət və Sənaye Nəzarəti dəftərxanasının fəaliyyətini təftiş və təhqiqata başlamışdır.

**Səhhəti-Ümumiyyə Nəzarətində**

* Bakı xəstəxana işləri tənzimatına [qaydaya salınmasına] dair Səhhəti-Ümumiyyə Nəzarətində işbu mart ayının 28-də gündüz saat 12-də müşavirə təyin edilmişdir.

* Səhhəti-Ümumiyyə Nəzarətindən aldığımız məlumata görə, həbsxanalarda bu axır vaxtlarda əhval dəyişmişdir. Bütün məhbusların əlbisələri təthir edilərək [təmizlənərək] yeni yatacaqlar verilmişdir. Məhbuslar vaxtlı-vaxtında yuyundurulub tüklərini kəsdirdiklərindən, xəstə artıran həşərat bir daha görülməməkdədir.

**Xariciyyə Nəzarətində**

Sərhəd qaraqolxanası

Azərbaycan Hökumətinin Gürcüstan Hökuməti nəzdində olan siyasi nümayəndəsi [Məmməd Yusif] Cəfərova böylə bir teleqraf göndərilmişdir:

Bu gün Zaqatal qubernatorundan hökumətə bir teleqraf gəlmişdir ki, gürcü sərhəd məmurları çoxdan bəri davam edən Mazımçay sərhəd qaraqolxanasının götürülməsini təkidanə bir surətdə tələb edib, təcili surətdə gürcü qaraqolxanasını Alazan çayından Ulçala köçürmək istəyirlər. Bu əhvalatı sizə xəbər verib xahiş edirəm tezliklə Gürcistan Xariciyyə nazirinə məlum edəsiniz ki, Azərbaycan Hökuməti hər iki cumhuriyyət arasında mehriban münasibat [münasibətlər] saxlamaq naminə Gürcüstan Hökumətindən təkidanə surətdə xahiş edir ki, davam edən sərhəd qarovulxanalarının olduğu yerdə qalması üçün öz məmurlarına binagüzarlıqda bulunub [yazılı əmr, sərəncam verib] Zaqafqaziya cümhuriyyətlərinin dəvət ediləcəyi təsəvvür olunan [nəzərdə tutulan] konferans tərəfindən mübahisəli sərhəd məsələlərinin həllinə qədər müharibə halını saxlasın. Davam edən əhvalı təcavüzkaranə təbdil etmək [dəyişdirmək] təşəbbüsatı arzu edilməyən və ağır nəticələrə müncər ola [gətirib çıxara] bilər.

*Xariciyyə naziri əvəzinə:*
*Ədil xan Ziyadxanov*

**Arvadların xilası haqqında**

Azərbaycan siyasi nümayəndəsi [Məmməd Yusif] Cəfərova, Tiflisə yenə böylə bir teleqraf göndərilmişdir:

İrəvan uyezdi Qaraxaç, Qədili, Qarabağlar, Ağasıbəyli, Dəhnəz və Şahablı kəndləri ermənilər tərəfindən qarət edildiyi zaman məzkur [adı çəkilən] kəndlərdən aparılan neçə yüz arvadların və qızların azad edilmələri, xəsarətdidələrin zərərlərinin özlərinə qaytarılması haqqında Tiflisdə olan Müttəfiq dövlət komandanlığı nəzdində tezliklə ən ciddi iqdamatda bulununuz [addımlar atın]. Aparılmış olan arvadlar və qızlar hal-hazırda İrəvan uyezdi Vedibasar rayonunda erməni dəstələrinin əlindədir. Təcili cavab gözləyirəm.

*Xariciyyə naziri əvəzinə:*
*Ədil xan Ziyadxanov*





## PATRON KƏFFARƏSİ, QƏFLƏTƏN ZABASTOVKA

Bayram axşamı Bakının qəribə hallarından ən qəribəsi müşahidə olunurdu. Müsəlman əhli sabahkı bayramını atəşbazlıq ilə qarşılayaraq yüz minlərcə havaya patronlar atırdı. Təxminən bir-iki milyon manatlıq patron sərf olundu. Yəqin ki, həman gün füqəradan bir neçə acından öləni, dəfinsiz qalanı yaxud kəfənsiz basdırılanı da az deyildi. Atəşbazlığa sərf olunmuş bir bu qədər bihudə məbləğin dörddə biri füqəra əhlinə qismət olsaydı, varlılarla bərabər yoxsullar da əziz günün düxulunu [gəlişini] anlardılar.

Bayram günləri tamam millətin malı olduğundan, füqəranın halı həmişə mülahizə olunmuşdur. Məsələn, Ramazan bayramında füqəraya fitrə verilir. Qurban bayramında da onlara qurban əti paylanır. Odur ki, bayramlar da ümumlaşır. Novruz bayramına gəldikdə, füqəraya heç bir şey verilmədiyindən, bayram da xüsuslaşır. Yəni, bu ancaq varlıların bayramı olmuşdur. Filvaqe [doğrudan da], insaf deyil ki, əhalinin qismi-əzəmi [böyük hissəsi] bayram gəldiyi halda Molla Pənah Vaqif kimi: "Bayram oldu heç bilmirəm neyləyim" desin!

Pis ya yaxşı, bir tövr bayram da keçdi getdi. Lakin füqəranın halı getdikcə çətinləşir, ağırlaşır. Cəmiyyəti-xeyriyyə füqəra naminə ianə toplayır. Havayı güllə atan ağalar hökumətin, ziyalıların dəfəatla [dəfələrlə] təklifini qəbul etməyib, əbəs yerə patronlarını boşaltdılar. Bu isə əhalinin rəislərinə qarşı böyük bir inadlığıdır ki, sair millətlərdə müşahidə olunmayır. Məgər cahillərimiz indi də anlamamışlarmı ki, bihudə atəşbazlığın bizə heç bir faydası yoxdur. Atalarımız "Yüz gün yaraq, bir gün gərək" dedikləri halda, bizimkilər bir gecədə yüz min yaraq puça çıxarmışlar. Məncə rəislərin sözündən çıxmış ağalar, füqəra naminə "patron kəffarəsi" verməlidirlər.

Qoy Cəmiyyəti-xeyriyyə hər məhəllə mollasına birər kitabça göndərsin. Mollalar hər sahibi-xanəni [ev sahibini] dəvət edib onun cavanları əli ilə tələf olmuş patronların hər birinə yarım manat pul alsın və alınmış pula da qəbz versin. Ümidvaram ki, heç kəs bu kəffarədən boyun qaçırmaz. Bu minval ilə füqəra üçün xeylaq pul yığılar.

Əcaib hallardan biri də həman bayram axşamı elektrik işığının qəflətən kəsildiyi üçün əhalinin qaranlıqda qalması idi. Adətdir, bayram axşamı adi lampalara kifayət etməyərək bir çox çıraqlar, şamlar yandırırlar. Elektrik nuru ilə faidəmənd olanlar [faydalananlar], söz yoxdur ki, şam və çıraq tədarükünü görməmişlərdir. Zatən elektrik sayəsində böylə tədarükata əsla ehtiyac yoxdur. Mətbəxə qədər tamam otaqlarını elektrik nuru ilə işıqlandırmaq arzusunda bulunan müsəlmanlar kamali-şövqlə buna müntəzir var idilər. Saatlarla qaranlıqda əyləşib işığı gözlədilər. Ənvai xəyalat ilə davrandılar ki, bəlkə elektrik xəttinə bir xəta toxunmuşdur. Xülasə, hərçi [nə qədər] gözlədilər, işığa nail olmadılar, məyus qaldılar. Bir çoxu öylə xəyala düşdülər ki, elektrik mənbəyi əcnəbi fəhlələr əlində olduğu üçün bəlkə müsəlmanların bayram tədarükatına xələl qatmışlardır. Bunları zülmat [qaranlıq]

içində buraxmaq istəmişlər. Bu növ xəyallarla sabaha qədər qaranlıqda qaldılar. Sonra məlum oldu ki, elektrik əmələləri [işçiləri] vəqti-müəyyənədə [müəyyən edilmiş vaxtda] məvaciblərini almayaraq, qəflətən zabastovka (tətil) yapmışlar. Bunların zabastovka hərəkatından xəbərdar olmamış əhali, çıraq və neft tədarükünə qalmayaraq, bayram axşamını da zülmat içində keçirmişlər.

Filhəqiqə [doğrudan da], bunların xəbərsiz və qəflətən zabastovka yapmağına haqqları vardırmı? Əlbəttə, yoxdur. Böylə fərz edəlim ki, elektrik əmələləri sübh tezdən bazara gedib çörək almaq istəyirlər. Birinci çörək dükanını bağlı görüb ikincisinə, onu da bağlı görüb üçüncüsünə gedirlər. Axırda məlum olur ki, çörəkçilər qəflətən zabastovka yapmışlar. İndi çörəksiz qalmış əmələlərin halı necə keçəcəkdir? Bir gün qabaqca bilsəydilər, yəqin ki, çörək tədarükü qılardılar. İndi buyursunlar görüm ac qarına işləyə biləcəklərmi?

Xəbərsiz və qəflətən yapılmış zabastovkalar kim tərəfindən olursa-olsun cinayətdən məhsub deyilmi [hesab olunmurmu]? Bir vaxt əczaçılar da zabastovka yaptılar. Lakin qabaqca əhalini xəbərdar etdilər, hətta bir neçə əczaxanada növbətçilər qoydular ki, əhalinin ədviyyə [dərman] ehtiyacı asanca rəf olunsun [aradan qaldırılsın]. Böylə aqilanə yapılmış zabastovkaya kimin nə bir sözü ola bilər? İşıq, su, telefon, teleqraf, tramvay kimi dünyada vahid və bir mənbədən hasil olan şeylərin əmələləri xəbərsiz və duyuqsuz zabastovka etməyə haqqları yoxdur. Zira böylə olarsa, sərmayədarların deyil, bəlkə əhalinin güzəranı müşkülləşir; tədarüksüz camaat bilməyir ehtiyacını nə növlə rəf etsin. Bu kimi işlərin, sərmayədarlarına bir o qədər də zərər və ziyan dəyməz. Ələlxüsus, telefon kimi şeylərin zabastovka müddəti nə qədər artıq davam etsə, bir o qədər sahiblərinə mənfəətdir. Sənəlik ücrəti ağalar qabaqca alıb ciblərinə yığmışlar. Ona görə, zabastovka məsələsi bunları heç bir təşvişə salmaz. Burada hər nə zülüm olursa, biçarə əhaliyə olur.

Burasını əmələlər anlasınlar ki, zabastovka məsələsi böyük bir mübarizə əslihəsidir [silahıdır]. Bununla əmələlər sərmayədarlarla intəhayi-məratibdə [son mərtəbədə] mübarizəyə qalxırlar. Bəs bitərəf əhalinin günahı nədir ki, zabastovkanın çanağı onun başında çatlayır? Müsəlmanların bayram axşamı, şami-qəribana [qəriblər axşamına] döndü. Qabaqca bilsəydilər, yəqin ki, şam və neft tədarükünü görərdilər.

Bundan əlavə, nə qədər mərizxanalar [xəstəxanalar], lazaretlər [qospitallar] işıqsız qalmışdır ki, bunlarda minlərcə ağır naxoşlar yatırlar. Qaranlıqda can vermiş mərizlərin halı bunların vicdanını ağrıtmayırmı?

Məmləkətimizin hürriyyətindən istifadə edən əmələlər zabastovka haqqına malikdirlər. Lakin bunun ən böyük şərti bitərəf əhalinin hüququna toxunmamaqdır. Hərgah burada bitərəflərin hüququ paymal olarsa [tapdalanarsa] da, zabastovkaçılar məsul olaraq təhti-mühakiməyə [mühakimə altına] alınmalıdırlar, zənnindəyəm.

Bu məsələnin yeni bir qanuna ehtiyacı vardır ki, günahsız əhalinin hüququ məhfuz olunsun [qorunsun]. Əmələ Konfransı da bunu başlı-başına buraxmamalıdır. Məhkumiyyət – zülüm, hakimiyyət də – bəla! Üçüncü bir əziyyətsiz yol vardırmı?

*Fərhad Ağazadə*





## BAKI XƏBƏRLƏRİ

### Litva Konsulgərindən

Qafqazya cümhuriyyətləri nəzdindəki siyasi nümayəndəlik iqdamatı [təşəbbüsü] ilə Azərbaycandakı Litva təbəələri mənafeyini mühafizədən ötrü Bakıda Litva konsulgərisi [konsulluğu] güşad edilir [açılır]. Konsulgərinin dəftərxanası müvəqqəti olaraq Pozenovski küçədə, 15 nömrəli evdə yerləşdirilmişdir.

Litva siyasi nümayəndəliyindən alınan məlumata görə, mayın əvaxiri [axırları] və yaxud iyunun əvailində [əvvəllərində] vətənlərinə qayıtmaq istəyən litvalılar öz yerlərinə göndəriləcəklər. İşbu hicrət [köç] İngiltərə Hökuməti vasitəsilə olacaqdır. O vaxtadək Ukraynada salamatlıq olmazsa, bunlar başqa təriqlə [yolla] göndərilərək Libavaya çıxarılacaqlar.

### Bələdiyyə İdarəsində

* Bakı valisi Bələdiyyə rəisinə müraciətən məlum etmişdir ki, həbs işlərinə baxmaq üçün Daxiliyyə Nəzarəti tərəfindən verilən əmr mövcibincə [əmrə əsasən] xüsusi bir müşavirə təşkil edilməlidir. Həman müşavirədə bələdiyyə nümayəndəsinin də iştirakı lazımdır. Binaənileyh [ona görə] vali, bələdiyyə namizədinin kim olacağını soru[şu]r.

* Bələdiyyə dava [məhkəmə] vəkili Kikodzenin istefasından dolayı Qadaseviç Bakı Bələdiyyəsi dava vəkilliyinə təyin edilmişdir.

* Martın 28-də, cümə günü saat 11-də Üçüncü Zükur [oğlanlar] ali-ibtidai məktəbinin binasında müsəlman müəllimlərinin ümumi iclası olasıdır. Müəllim arxadaşlardan rica olunur ki, məclisə hamı vaxtlı-vaxtında gəlsinlər.

* Martın 27-də, səhər saat 10 tamamda Birinci Realnı məktəbinin binasında Bakı və ərtafının Türk Mütəəllimləri [Tələbələri] İttifaqı idarəsinin növbəti iclası təyin olunur. Üzvlərdən gecikmələri rica olunur.

*İdarə*

* Cümə günü, martın 28-i, səhər saat 10-da Çadrovı küçə 216 nömrəli evdə "Xidmət" Müstəhlikin Cəmiyyətinin ikinci iclasi-ümumisi təyin edilmişdir. Müzakirə olunacaq məsələlər bunlardır:

1) Cəmiyyətin fəaliyyəti haqqında idarənin məruzəsi;

2) 1917 və 1918-ci illər hesabatının təsdiqi;

3) Məzkur [deyilən] illər mənfəətinin təqsimi [bölünməsi];

4) İdarə və təftiş komissiyası əzaları intixabı [üzvlərinin seçilməsi];

5) Qalxa biləcək məsələlər.

Bu iclas ikinci olduğundan nə qədər əza [üzv] gəlsə də qanuni hesab ediləcəkdir.

### Şəhərlər İttifaqı

Gəncə Şəhər İdarəsi, Gürcüstan Şəhərləri İttifaqının Baş Komitəsi münasibətını nəzərə alıb Azərbaycan Daxiliyyə nazirinə müraciətlə bütün Azərbaycan şəhər idarələrinin hamısının Şəhərlər İttifaqına birləşməsi arzusunu və bundan

əlavə vilayət mənafeyi nöqteyi-nəzərincə Zaqafqaziyanın üç cümhuriyyətinin şəhərlərinin birləşməsini göstərmişdir. Şəhərlərin birləşməsi gələcəkdə Azərbaycan və Zaqafqaziyada zemstvo [yerli özünüidarə] təşkilatları əmələ gəldikdən [sonra] hər üç qonşu cümhuriyyətlərin münasibat və əlaqəsinə böyük xidmət edib və yaxşılaşmasına səbəb ola bilər. Daxiliyyə naziri Gəncə Bələdiyyə İdarəsinin müraciətini nəzəri-etinaya alıb və Bakı Bələdiyyə İdarəsinə göndərərək hər quberniya idarəsinə təklif edir ki, əvvəlcə quberniya ittifaqı təşkil edib və sonra Azərbaycan şəhərlər ittifaqına daxil olsunlar. Bu əmələ gəldikdən sonra bütün Zaqafqaziya şəhərlərinin birləşməsi mümkün ola biləcəkdir.

**Bankların mühafizəsi**

Hacı Zeynəlabidin Tağıyev, Bakı Tacirlər Bankı, Voljsk-Kamski Bank [Volqa-Kama Kommersiya Bankı], Rus-Asiya Bankı, Tiflis Tacirlər Bankı, Hacı Həsən Bankı, Livit və Mehdi Cəfərov Bakı qubernatoruna müraciətən rica etmişlər ki, məzkur [adı çəkilən] banklar olan dairəni (məhəlləni) mühafizət etməkdən ötrü təyin etmiş olduqları doqquz nəfərdən ibarət qaravul dəstəsinə silah alıb saxlamağa icazə verilsin.

**"Müsavat" firqəsi konfransı**

Cümə günü martın 28-də Parlaman binasında Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin ümumi əmələ [fəhlə] konfransı dəvət edilir. Konfransa hər əlli nəfərdən bir nəfər olmaq üzrə əmələ nümayəndələri dəvət edilirlər. Konfransda əhvali-hazirəyə dair mühüm məsələlər müzakirə və həll ediləcəkdir. İclas gündüz saat 11-də başlanacaqdır.

**Qubernatorun xəstələnməsi**

Bakı qubernatoru Rəşid bəy Axundzadə xəstələnmiş və iki gündür evdən kənara çıxmayır. Qubernatorun vəzifəsini müvəqqəti olaraq vis-qubernator Müseyib bəy Axıcanov ifa edir.

## GÜRCÜSTANDA

**Gürcüstan şəhərlərinin ikinci ictiması**

Martın 16-dan başlamış Tiflisdə Gürcüstan Şəhərləri İttifaqına daxil olan şəhərlər nümayəndələrinin ikinci ictiması [yığıncağı] vaqe olmaqdadır. Əcnəbilər iştirak etməyirlər. Baş komitə şöbələrinin müdirləri tərəfindən ictimaya bir çox məruzələr təqdim edilmişdir. Bu məruzələrdən ən maraqlısı Təsərrüfat Şöbəsi (Xozyaystva) müdiri Falaleyevin bahalıqla mübarizə edilməsi, ələxüsus çörəyin ucuzlanması haqqında olan məruzəsidir. Bundan əlavə, piyin doğru bir surətdə təqsim edilməsi sayəsində sabunun qiymətini azaltmaq mümkün olmuşdur. Qafqaziya cəbhəsindən və Ləvazimati-əsgəriyyə [Hərbi ləvazimat] idarəsindən irs qalan əmval [mallar] böyük məbləğ vermişdir. Təsərrüfat bürosunun köməkliyi sayəsində bu şeylər möhtəkirlər əlinə keçməyib, İttifaqın özü üçün saxlanmışdır.

Texnika şöbəsi dəri və gön zavodunu və ayaqqabı kargahını [atelyesini] açıb ordudan ötrü qırx minə qədər çəkmə və əhalidən ötrü də qırx beş minə qədər ayaqqabı hazırlayıb buraxmışdır. Texnika şöbəsində mətbəə, mebel və çertyojnı sənətxanalar [emalatxanalar] açılmışdır.

Xalq maarifi haqqında məruzədə bulunan Robakidze Gürcüstanda ümumi və icbari tədris haqqında maarif şöbəsinin fəaliyyətini söyləmişdir. Bu məsələ ictimanın bir neçə üzvü tərəfindən etiraz edildiyinə görə ciddi münaqişəyə bais olmuşdur ki, icbari tədris Şəhərlər İttifaqının deyil, hökumətin vəzifəsidir.

Ələlümum [ümumiyyətlə] məruzələr təsvib edilib [bəyənilib], Gürcüstan Şəhərləri İttifaqının geniş bir dairədə işləməsini göstərmişdir. İctima davam edir.

**Axalkələk və Axıska uyezdlərində**

Gürcüstan Hökumətinin binagüzarlığına [sərəncamına] görə, Axalkələk və Axıska uyezdlərində martın 15-dən etibarən general-qubernatorluq ləğv edilmişdir. General-qubernator vəzifəsini ifa edən general Kvinitadze bundan belə ancaq əməliyyati-hərbiyyəyə baxacaqdır. Axalkələk və Axıska uyezdlərinin gürcü əsgərləri tərəfindən zəbt edilən yerlərində idareyi-inzibatiyyə təşkili Maqlakelidzeyə həvalə edilmişdir.

**İtibdir**

Əlihüseyn Məhəmmədhəsən oğlunun İran konsulxanasından aldığı pasport itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5765*

**İtibdir**

İsa Əliyevin İran konsulxanasından aldığı pasport və dükan doqovornı kitabı [müqavilə kitabçası] itib. Etibardan saqitdir [etibarsızdır].

*5766*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**"Müsavat" firqəsi konfransı**

Cümə günü martın 28-də Parlaman binasında gündüz saat 11-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin konfransı dəvət edilir. Konfransa hər əlli nəfərə bir nəfər olmaq üzrə şəhər və ətrafından nümayəndələr dəvət olunur. Konfransda əhvali-hazirəyə dair mühüm məsələlər müzakirə və həll ediləcəkdir. Mədən dairəsi əmələ yoldaşlardan göstərilən üsul üzrə öz nümayəndələrini intixab edib [seçib] konfransa göndərmələri rica olunur. Nümayəndələrdən əlavə rayon komitəsi idarə heyətləri dəxi konfransa iştirak edəcəklər.

**Elan**

Ərzaq Nəzarəti tərəfindən Bakı Mahal Kəndçilər İttifaqına ərzaq şeyləri – düyü, kiş-

miş, lobya və bu kimi şeylər buraxılmışdır. Buna görə İttifaq, Bakı mahalında yaşayan kəndçilərə məlum edir ki, azuqə almaq üçün İttifaqın idarəsinə müraciət etsinlər. İttifaqın idarəsi Ərzaq Nəzarəti binasında 33-cü otaqdadır.

*İdarə*
*5764*

**Elan**

Bakı Ərzaq Nəzarəti bununla Bakı dairəsi kənd cəmiyyətlərinə elan edir ki, Bakı Kəndçilər İttifaqı tərəfindən onlara birinci lazım olan ərzaq şeyləri paylanacaq. Kənd cəmiyyətləri həman şeyləri almaq istəsələr, Bakı Kəndçilər İttifaqına müraciət etməlidirlər.

*Ərzaq Nəzarəti məsulu: Əliyev*
*Kargüzar – imza*
*T-70*

**Elan**

Hökumətin qərardadı ilə layihə hazırlamağa müsabiqə (konkurs) elan olunur.

1) Azərbaycan Hökumətinin nişanına (gerbə) və 2) Öyləcə də möhürünə.

Layihələrin təqdimi [üçün] bu sənəsi aprel ayının 20-sində vaxt qoyulur.

Ən gözəl layihələrə mükafat olaraq müqərrər edilir [qərarlaşdırılır]:

1-cililərə: gerb üçün 1000 manat;
» » » » » möhür üçün 500 manat;
2-cililərə: gerb üçün 500 manat;
» » » » » möhür üçün 250 manat.

Müfəssəl [ətraflı] məlumat iş günlərində Posta və Teleqraf Nəzarətindən almaq olar.

*Dəftərxana baş müdiri: Blajevski*
*1-inci şöbə kargüzarı: Rəsul Rəhimli*
*T-74*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 366. "...bu fəhlələrdən də çıxıb...": qəzetdə "bu" yerinə "bir" getmişdir.

səh. 368. "Cəlil bəy Sultanov": qəzetdə səhvən "Cəmil bəy Sultanov" kimi getmişdir.

**Teleqraf xəbərləri**

səh. 371. "Landtaq": Almaniya və Avstriyada yerli məclis (regional parlament).

səh. 372. "Kil" [Kiel]: Almaniyanın şimalında şəhər.

**Axıska əhvalatı**

səh. 373. "İkisi Axıska qanlı fəlakətinin baisi-yeganəsi olan Axıska komissarı Ruxadzenin yoldaşları.": söhbət Georgi Nesteroviç Ancaparidze və Samson Georgiyeviç Pitsxalavadan gedir.

səh. 374. "Qaraçöplü kəndli Hüseynquludur": burada söhbət Hüseyn Məhəmmədovdan gedir. H. Məhəmmədov Gürcüstanın Qaraçöp (Muğanlı) kəndində anadan olmuşdur.

"Ramişvili": söhbət Gürcüstanda Baş nazir, Daxili İşlər naziri, Xarici İşlər naziri kimi vəzifələr tutmuş Noy Vissarionoviç Ramişvilidən gedir.

**Vükəla Şurasında**

səh. 375. "Voyeykov": söhbət Maliyyə Nazirliyi dəftərxanasının müdiri Nikolay Aleksandroviç Voyeykovdan gedir. "Voyeykov" familiyası qəzetdə təhrif edilmişdir.

**Nəzarətlərdə**

səh. 376. "Mazımçay": Balakən rayonu ərazisindəki Mazımçay kəndi nəzərdə tutulur; Azərbaycanla Gürcüstan arasındakı sərhəd-buraxılış məntəqəsi bu kəndin yaxınlığında yerləşir. Qəzetdə "Maziloçay" kimi getmişdir.





"Qaraxaç": İrəvan quberniyasının İrəvan qəzasındakı Azərbaycan kəndi nəzərdə tutulur; qəzetdə "Qaraqac" kimi getmişdir.

"Dəhnəz": Vedibasar mahalındakı Dəhnəz kəndi nəzərdə tutulur; qəzetdə "Dahnaz" kimi getmişdir.

**Patron kəffarəsi, qəflətən zabastovka**

səh. 377. "kəffarə": İslamiyyətdə, günahların bağışlanması ümidi ilə verilən sədəqə, tutulan oruc və s.

**Bakı xəbərləri**

səh. 379. "Pozenovski": Bakıda, indiki Cəfərov qardaşları küçəsi.

"Libava": Latviyanın cənub-qərbində, Baltik dənizi sahilində yerləşən Liepaya şəhərinin 1920-ci ilə qədərki adı.

"Çadrovı": Bakıda, indiki Mirzəağa Əliyev küçəsi.



*"Azərbaycan" qəzetinin 145-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 28 mart 1919-cu il, nömrə 145**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 25 cəmadiyəlaxir sənə 1337. 28 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**[Muxtar] Əfəndizadə** (Əhrar) - Yollar təmir edilən zaman camaata nə qədər zülümlər edildiyi barəsində əvvəlki natiq məlumat verdi və əhalinin əhvalının ağırlığını təsvir etdi. Bunu ancaq camaat məişətinə yaxın olan adamlar yaxşı bilərlər. Məsələn, Ləki ilə Ağdaş arasındakı şose yolunu götürək. Bizdə zemstvo idarəsi hərçəndi yoxdur, amma məzkur [deyilən] yol zemstvo pulu ilə saxlanırdı və hökumət məmurları yayın istisində, qışın soyuğunda camaatı cəbrən [zorla] aparıb o yollarda işlədirdilər. Ancaq hər kəs rüşvət versə, "biyar" denilən bu zəhmətdən xilas ola bilərdi. İndi yenə bu məsələ qalxdıqda biz onun tərəfdarıyız ki, bu yollar Türüq və Məabir Nəzarəti [Rabitə və Nəqliyyat Nazirliyi] təhti-idarəsinə [idarəsi altına] verilsinlər. Çünki bizdə hələ zemstvo yoxdur. Bu zəmanədə isə yolların təmirinin böyük əhəmiyyəti var. Ələlxüsus ərzaq daşınması və sairə cəhətdən bu məsələ mühüm bir məsələdir. Və biz ümidvarız ki, Türüq və Məabir Nəzarəti bu məsələyə yaxşı diqqət və əhəmiyyət verəcəkdir.

**[Xudadad bəy] Məlikaslanov** (Türüq və Məabir naziri) - Sabiqdə yalnız dəmiryolları deyil, dəniz və çay yolları da, həmçinin dövləti əhəmiyyəti olan qara yolları da Türüq və Məabir Nəzarətinin təhti-idarəsində olurdu. Bu surətlə şose və sair qara yollar iki qisimə bölünərək, dövləti əhəmiyyəti olan birinci qisimi Türüq və Məabir Nəzarəti təhti-idarəsində olurdu. İkinci qisimi isə zemstvo idarəsi ixtiyarına verilirdi. Qafqaziyada zemstvo idarələri olmadığından, ikinci qisim yollar Daxiliyyə Nəzarətinin təhti-idarəsində idilər. Azərbaycan ərazisində irəlicə dövləti əhəmiyyətli hesab olunan yol, demək olar ki, bilmərrə yox idi. Ancaq bir neçə verslik bir xətt sövqülceyş əhəmiyyətini haiz [stratejik əhəmiyyətə malik] hesab olunurdu. Amma şimdi məmləkətimiz daxilindəki yolların bir çoxu Azərbaycan üçün dövləti əhəmiyyət kəsb etmişdir [qazanmışdır]. Ona görə yollarımızı iki qisimə ayırmalıdır: dövləti yollar və zemski [zemstvoya məxsus, yerli əhəmiyyətə malik] yollar. Zemstvo barəsində çox işlər görülmüşdür və ümidvar olmalıdır ki, onun təsisi haqqında lazımi tədabir ittixaz ediləcək-

dir [tədbirlər görüləcəkdir]. Fəqət zemstvo idarələri təsis edilənədək gözləmək olmaz. Yolların təmiri öylə mühüm məsələdir ki, təxirə salmaq mümkün deyildir. Ona görə hökumət bu rəyə gəlmişdir, bütün yollar müvəqqət olaraq Türüq və Məabir Nəzarəti təhti-idarəsinə verilsinlər, bu şərtlə ki, zemstvo idarələri təsis edilən kimi zemski yollar ayrılıb zemstvo müəssisələri ixtiyarına tapşırılsınlar. Burada Sultanməcid Qənizadə deyir ki, Türüq və Məabir Nəzarəti qəzalar və köylərə, camaat həyatına o qədər yaxın deyildir. Buna cavabən deyirəm ki, yolları idarə etmək üçün altı naçalnik təyin olunacaqdır və məzkur [deyilən] naçalniklər əyalət mərkəzlərində əyləşəcəklərdir. Bu surətlə də camaat ilə yaxın əlaqə və rabitədə bulunacaqlardır. Yolların təmiri üçün camaatı işlətmək məsələsinə gəlincə, hökumət bu işi demokratik hesab etmədiyindən, qərar vermişdir ki, camaatı pulsuz işlətməyərək yolların təmiri və sair xidmətlərə dövlət xəzinəsindən muzd versin. Zemstvo idarələri təsis edildikdən sonra da məzkur muzdlar zemstvo və dövlət pulundan veriləcəkdir.

Qanun səsə qonularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

Qanun budur:

1) Azərbaycan quberniya müəssisələri təhti-idarəsində bulunan ümum şose və sair qara yollarını dövləti əhəmiyyəti haiz tələqqi edərək [dövlət əhəmiyyətli hesab edərək], məzkur yolları və onlara baxan idarə və məmurları Türüq və Məabir Nəzarəti təhti-idarəsinə vermək lazımdır.

2) Daxiliyyə Nəzarəti tərəfindən yolların inşa, təmir və saxlanması qəsdi ilə 1919-ncu il üçün istənilmiş kredit və həmçinin 1918-ci ilə də şamil edilmiş və 1919 sənəsində qüvvədə qalmış olan 1915-1917 sənələri zemstvo kredit smetasını Türüq və Məabir Nəzarəti binagüzarlığına [sərəncamına] verməlidir.

3) Daxiliyyə Nəzarətinin smeta və təklifi ilə buraxılmış kreditlər və birinci maddədə göstərilən yollara xidmət məmurlarının Türüq və Məabir Nəzarəti binagüzarlığına keçirilməsi məsələlərinin təfsilat və cüziyyatı [təfərrüat və xırdalıqları] məsələsini Türüq və Məabir naziri ilə Daxiliyyə nazirinin etilafına [uzlaşmasına] mühəvvəl etməlidir [tapşırmalı].

4) Bu qanun layihəsi mövcibincə [əsasında] Türüq və Məabir Nəzarəti təhti-idarəsinə verilən yolların məmur və xidmətçiləri heyətini təsdiq etməlidir.

Ləvaehi-qanuniyyə [Qanun layihələri] komissiyası bu layihəyə bir maddə dəxi əlavə etmişdir ki, həman maddə mövcibincə məzkur yolları Daxiliyyə naziri təhti-idarəsinə tabe etmək haqqındakı köhnə qanunlar, dəmiryol nizamnaməsinin 665-ci və sair bəzi maddələri və Məcmuyi-qəvaninin [Qanunlar məcmuəsinin] 2-nci cildindəki bu xüsusa aid qanunlar ləğv edilirlər.

**20 min rublə təxsisi [ayrılması]**

**Sədr** - Növbədəki məsələ Məclisi-Müəssisan intixabı [seçkisi] qanunnaməsinin təb'i [çapı] üçün 20 min rublə buraxılmasıdır. Söz məruzəçi Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət [Pepinov]** - Əfəndilər! Məlumunuzdur ki, gələcək Məclisi-Müəssisan əsaslarını hazırlamaq üçün bir komisyon vardır. Biz dörd gözlə bəkləyiriz ki, bu komisyon işini bitirib seçkilərə şüru edilsin [başlansın] və Məclisi-Müəssisan tezliklə çağırılsın. Məclisi-Məbusanımızın camaat arasında çətin bir mövqedə olduğu da hamıya məlumdur. Buna görə Məclisi-Müəssisan tezliklə dəvət olunmalıdır. Məclisi-Müəssisan intixabları qanunu hazırlayan komisyon indi işini bitirmişdir. Komisyonun qanunnaməsinin tərcüməsi və təb'i [çapı] üçün iyirmi min rublə para lazımdır. İndi həman komisyon Məclisi-Məbusana müraciət edib, iyirmi min manat istəyir və bu barədə də böylə bir kağız yazmışdır:

*"Azərbaycan Məclisi-Məbusanı Divani-Rəyasətinə.*

*Məclisi-Müəssisan intixabları qanunu tərtib edən komisyon layiheyi-qanuniyyənin ilk qiraətini bitirmişdir. Məzkur layihənin tərcüməsi əzaya [üzvlərə] paylanmaq, mətbəədə təb' [çap] olunacaq əsli hazırlatmaq üçün komisyonun qərarına təb'ən [tabe olaraq] Divani-Rəyasətə müraciətlə irəlidə Məclisi-Müəssisan intixablarına sərf olunmaq üçün ayrılacaq məbləğ hesabına iyirmi min rublənin təhti-idarəmdə bulunan komisyon idarəsinə verilməsi üçün Məclis hüzurunda təşəbbüsdə bulunmanızı rica eylərəm.*

*Komissiyon rəisi*
*Məhəmməd Əmin Rəsulzadə."*

Divani-Rəyasət həman bu kağızı Büdcə və maliyyə komisyonuna göndərmişdir. Təbiidir ki, komisyon da qəbul etmişdir. Komisyon bu barədə böylə qərara gəlmişdir:

*"Məclisi-Məbusan Maliyyə və büdcə komisyonunun 11 mart 1919 tarixli iclasında Məclisi-Müəssisana intixab komisyonuna çıxardığı qanunları təb' və nəşr etmək [çap etmək və yaymaq] üçün iyirmi min rublə buraxılması müzakirə olunaraq qət olundu:*

*Məclisi-Müəssisana intixab komisyonunun tələb etdiyi iyirmi min rublə məzkur [adı çəkilən] komisyona Məclisi-Müəssisana intixab məsarifi [xərcləri] hesabına olaraq peşin [nəğd; qabaqcadan] buraxılsın."*

Zənn edirik ki, istənilən iyirmi min manat buraxılmalıdır, tainki tezliklə Məclisi-Müəssisan dəvət olunsun. Ona görə bu məbləğin buraxılmasının Parlaman tərəfindən də qəbul olunmasını təklif edirik.

**Sədr** - Bu barədə danışmaq istəyən yoxdursa, səsə qoyuram. Maliyyə-büdcə komisyonu təklif edir ki, Məclisi-Müəssisan intixabı hazırlayan komisyona istədiyi iyirmi min manat buraxılsın. Hər kəs Məclisi-Müəssisan intixabı qanunlarını hazırlayan komisyon ixtiyarına müəyyən məqsəd – qanunnamənin tərcümə və təb'i üçün iyirmi min manat buraxılması tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, müttəhidilqövl [yekdilliklə] qəbul olunur.

Tənəffüs elan edirəm. Lakin ondan əvvəl burasını elan edim ki, Müdafieyi-milliyyə komisyonuna Xosrov Paşa bəy Sultanovun yerinə Behbud xan Cavanşir namizəd göstərilir. Etiraz yoxdursa, qəbul olunur. Erməni komisyonundan Təşriiyyə [Qanunvericilik] komissiyonuna təklif olunur.

**Əhməd Cövdət** - İcazə veriniz.

**Sədr** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Məlumdur ki, Mü-

dafieyi-milliyyə komisyonuna seçkilər şəxsən qəbul edilmişdir, bütün Parlaman fraksiyaları nümayəndələrindən təşkil edilməmişdir. Buna görə...

**Sədr** *(dayandırır)* - Bu məsələ Divani-Rəyasətdə müzakirə edilmişdir. Hərgah, nümayəndəniz iştirak etməmişsə, bu sizin öz günahınızdır.

**Əhməd Cövdət** - Mən orasını deyirəm ki...

**Sədr** - Məsələ keçib.

**Əhməd Cövdət** - Mən söz almışam...

**Sədr** - Mən elə bildim siz başqa şey barəsində danışmaq istəyirsiniz. Tənəffüs elan edirəm.

*(Tənəffüs elan olunur)*

## PARLAMAN ƏTRAFINDA

### Qubadan teleqram

Quba uyezdi Qonaqkənd camaatı tərəfindən Parlaman rəisi, Bakı qubernatoru, Məhəmməd Əmin Rəsulzadə, Parlaman üzvləri, Camo bəy Hacınski naminə zeyldəki [aşağıdakı] məzmunda bir teleqram gəlmişdir:

*"Bu gün Parlaman üzvü Əli bəy Zizikski bizi tutub öldürmək hədəsi ilə uyezd naçalnikindən [qəza rəisindən] şikayət etməyi tələb edir. Buna isə bizim insafımız yol verməyir. Zizikski və onun qövmləri [qohumları] Şıxlar bəylərindən qorxaraq sizin müavinətinizi [köməyinizi] və bizləri müdafiə etməsini rica ediriz.*

*Qonaqkənd camaatı vəkilləri:*
*Hümmət Məsum oğlu,*
*Paşa Əli oğlu."*

## ORDUMUZ

Bir neçə zaman bundan əvvəl, Parlaman iclaslarının birində Hərbiyyə nazirimiz general Səməd bəy Mehmandarovun ordumuz təşkili haqqındakı bəyanatını dinlədik. Ordu görməmiş, rəsmi əsgərliyə adət etməmiş olan millətimiz içində birinci qədəm olaraq ordu təşkil etmək işinin nə qədər çətin bir əmr [iş] və bu işin bu qat-qarışıq zamanda nə tövr müşkülat və maneələr qarşısında əngəllərə düçar olduğunu eşidib, bütün çətinliklərini təsəvvürə gətirməklə, bu çətinlikləri rəf və izalə edəcək [aradan qaldıracaq və ləğv edəcək] olan zatın nə qədər sahibi-qüdrət və maliki-qüvvət bir orqanizator olması lüzumunu da dərk etdik. Bu təsəvvüratdan hasil olan təəssüratın o rəng və ya bu rəngdə [növdə, halda] olması Hərbiyyə nazirimiz olan general həzrətlərinin istedadına bağladığımız ümidin qəvi [güclü] və ya zəifliyinə vabəstə [bağlı] idi. Rus ordusunda əsgərlik istedadı ilə məxsusi bir məqam qazanmış və Port-Artur mühasirəsində böyük qəhrəmanlıqlar göstərməklə ad çıxarmış olan Səməd bəy həzrətlərinin bacarıq və istedadi-əsgəriyyəsinə [hərbi istedadına] ümidimiz bərkamal idi. O idi ki, general həzrətlərinin bəyanatını dinləyib də ordu təşkili işimizin bütün çətinliklərini təsəvvürə gətirməklə bərabər, general həzrətləri bu çətinlikləri rəf edər deyə ümidvar olduq.

Ümidvar olmağımızda da səhv etmədik. Həqiqət, Gəncədə Novruz münasibətilə qurulmuş olan Azərbaycan ordusu rəsmi-keçidini gördükdən sonra, ordu təşkili işimizin kamali-intizam ilə irəli getdiyini bileyn [gözümüzlə] müşahidə edib qəlbimizdə dərin bir əminlik hasil olduğunu hiss etdik.

Ordu təşkili işimiz bu intizam ilə davam edərsə, bir qədər zamandan sonra mükəmməl bir ordusu ilə sayılan bir dövlət olduğumuzu hər kəs iqrar [təsdiq] etməyə məcbur olacaqdır.

Arzumuz budur ki, qoşunumuzun bir kərə də manevrasını görək. Böylə manevra ki, böyük bir əndazədə qurulub ordu hissələrimizin hər bir əməliyyatını şamil və came olsun [əhatə və ehtiva etsin]. Ümid edirik ki, havalar düzəldikdən sonra general həzrətləri bunu da bizə göstərməklə qəlbimizi şad etməkdən əlavə, aramızda əsgərlik hissiyyat və həvəsinin qat-qat artmasına da böyük bir səbəb olarlar. Bunu intizar etməklə bərabər, cahandidə və karazmudə [dünyagörmüş və təcrübəli] nazirimizə artıq-artıq müvəffəqiyyətlər diləməkdəyik.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

### Kerzon əfqan əmiri barəsində

London – Müsahibə zamanında lord Kerzon bəyan eyləmişdir ki, əfqan əmirinin qətl edilməsi xəbərindən İngiltərə hökuməti artıq dərəcədə mükəddər olmuşdur [kədərlənmişdir]. Zira əfqan əmiri bizim sadiq dostumuz və müttəfiqimiz idi. Xüsusən, axırıncı Avropa müharibəsində bizə sadiq qalmışdı. Kerzon zənn edir ki, əmir xüsusi bir işdən dolayı qətl edilmişdir. Bu qətl Əfqanıstanda inqilab hərəkatının başlamasından nəşət etməmişdir [irəli gəlməmişdir]. Ona görə də qonşuluqda olan Asiya dövlətləri əndişəyə düşməməlidirlər.

### Spartaklar Berlində

Berlindən xəbər verilir ki, Berlin kənarlarında spartakların hərəkatı güclənmişdir. Berlinin bir hissəsində spartakların səngəri çox güclüdür. Bütün şəhəri onlar qorxu altında saxlayırlar. Buna baxmayaraq, əhali kafelərdə eyş-işrətə məşğuldurlar. Polis kafelərdə rəqsi qadağan eyləmişdir.

### İtaliya kralının qətli şayiəsi

Berlin qəzetələri İtaliya kralının qətl edildiyini xəbər verirlər. Royter ajansına bildirilir ki, bu xəbər həqiqətə müvafiq deyildir.

### İspaniyada həyəcan

Madrid - (İspaniya paytaxtıdır) Burada birinci zəruri şeylər və ərzaq qəhətliyindən camaat arasında həyəcan vardır. Çörəkçi və qəssab dükanları qarət edilmişdir. Şəhərdə idareyi-örfiyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan edildikdən sonra asudəlik bərpa edilmişdir. Qoşunlar küçələri mühafizə edirlər.

### Almaniya matrosları flotu verməyir

Nauen – Mütarikə şəraiti [atəşkəs şərtləri] üzərinə Müttəfiqlərə verilməli olan Almaniya flotunu [donanmasını] verməkdən Almaniya matrosları qəti surətdə imtina etmişlərdir.

### Lloyd Corc və bolşeviklər

İngiltərə Rəisi-vükəlası [Baş naziri] ye-

ni intixab edilmiş [seçilmiş] Aşağı Palatada böyük bir nitq irad edərək İngiltərənin bolşeviklərlə olan əlaqəsi barəsində müfəssəl məlumat vermişdir. Lloyd Corcun nitqi məbuslar tərəfindən ciddi surətdə alqışlanmışdır. Palata üzvü Vedjvud Palata namindən hökumət başçısına rizaməndlik [məmnuniyyət] bəyan edərək Lloyd Corcun Rusiya məsələsi barəsində Sülh Konfransında tutduğu mövqedən, bolşeviklərlə etilafa [uzlaşmaya] girişmək kimi Vilson prinsipinə riayət etməsindən Palatanın qayət məmnun qaldığını ixtar eyləmişdir [xatırlatmışdır].

**İngiltərə qəzetələri bolşevizm haqqında**

"Deyli teleqraf" qəzetəsi yazır: Bolşevizm ancaq anarşidən ibarətdir. Cinayətçilər ilə danışığa girişmək bir səhvdir. Müharibə zamanında qəbul etdiyimiz şüara bu etilaf [uzlaşma] ziddir. Pratik nöqteyinəzəri ilə də bu yaman bir işdir. Zira onlarla etilafa girişməmiz bolşevizmin artmasına səbəb olacaqdır.

"Qlob" qəzetəsi deyir: Bolşeviklər xüsusunda edilən qətnaməyə biz çox təəssüflər ediriz. Çünki bu hal bolşeviklərə təslim olmaqdan ibarətdir. Qarətçilər və quldur dəstələri ilə etilafa girişmək olmaz. Zira onlar öz cinayətləri ilə özlərini millətlər hüququndan kənara çıxarmışlardır.

London - İqtisadi Şura bir hesab nəşr edərək, abluka [mühasirə] barəsində rəyini bildirir. Belə ki, bunların fikrincə, Müttəfiqlər ya bilatəxir [dərhal] sülh əqd etməli [bağlamalı], yaxud ablukanı ləğv etməlidirlər. Bu halda, bu da izah edilir ki, Ali Şura komisyona öz işlərini yetirməyə mane olur. Cürbəcür müşkülat çıxarır. Alınan məlumata görə, Romaniya paytaxtı Bükreşdə hər gün acından 350 adam tələf olur. Hal-hazırda üç mühüm məsələni həll etmək lazımdır. Bunların biri Almaniyanın qərbi sərhədi, digəri Rusiya məsələsi, üçüncüsü də Adriatik dənizi məsələsidir.

**Fransız qoşunları bolşeviklərə qoşulmuşlar**

Nauen - Odessada olan üç mindən ziyadə fransız qoşunları bolşeviklərə mülhəq olmuşlardır [qoşulmuşlar].

**Almaniya flotunun müqəddəratı**

Almaniya gəmilərinin müqəddəratı barəsində Royter ajansına rəsmən xəbər verilir ki, əvvəla Almaniya hərbi gəmilərini sökub-dağıtmaq üç il vaxt, yarım milyon ingilis lirəsi xərc istəyəcəkdir. Saniyən [ikincisi], o dövlətlər ki, bu gəmilərdən alacaqlar, bunları işlətmək üçün zapas [ehtiyat] hissələr tapmayacaqlarından böyük müşkülata düçar olacaqlardır. Salisən [üçüncüsü], bu hərbi gəmilər çox köhnədir. Rabiən [dördüncüsü], bunları ticarət gəmiləri əvəzinə işlətmək qətiyyən mümkün deyildir. Çünki, işlədildiyi təqdirdə külli kömürə ehtiyac vardır ki, onu da mühəyya [hazır] etmək mümkün deyildir. Xamisən [beşincisi], Skapa-Flouda mütəxəssislər tərəfindən isbat edilmişdir ki, dəniz (mol [dalğaqıran, bənd]) inşaatı məqsədi ilə bu gəmilərin qərq edilməsinin mənası yoxdur. Sadisən [altıncısı], hərgah bu gəmilər dövlətlər arasında bölünməli olarsa, bu da mütənasib bir əhval üzərinə bölünməlidir. Bu işlərdən dolayı iki təklif vardır:





1) Bu gəmilər müharibədə olan gəmi nəqliyyatına mütənasib dövlətlər arasında bölünməli;

2) Hər flotun gücünə mütənasib verilməlidir.

**İtaliyanın tələfatı**

Təcdid komitə tərəfindən alınmış olan məlumata nəzərən İtaliyanın müharibə zamanında 462.391 nəfər əsgəri qətl edilmişdir, 953.799 nəfər isə yaralanmışdır. Bunların yarısı öylə ağır yaralananlardır ki, bir dəxi ordu cərgəsinə daxil olmaqdan məhrumdurlar. Flotda isə italiyanlardan 3.169 matros ölən, 5.252 nəfər yaralanan vardır. İtaliyanların ümumi tələfatı 4.885.487 nəfərdir ki, bu cümləyə 2.400.000 xəstə əsgərlər də daxildir. Ələlümum [ümumiyyətlə] İtaliyanın tələfatı bütün İtaliya müstəmləkəsində olan əhalinin yüzdə 12 faizini təşkil edir. İtaliya ticarət flotundan 2.008.000 tonnaj qərq olmuşdur. Bu da ümum İtaliya flotunun yüzdə əlli yeddi yarım faizini təşkil edir.

## QƏZETƏLƏRDƏN

*(Paris, London və Cenevə qəzetələrindən)*

**İngiltərə bolşevikləri**

"M. R." qəzetəsi İngiltərədə baş verən axırıncı tətil hərakatını "Ne. A." qəzetəsində dərc edilən bəyanatla təfsir [şərh] edir. "M. R." qəzetəsi həman "Ne. A." qəzetəsini müharibə zamanında məğlublar, sülh zamanında isə bolşevizm mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] adlandırır. Həmin qəzetə "Bu tətilin mənası nədir?" ünvanlı məqaləsində işləri əksinə və həqiqətləri yalana çıxarmaqla əhali arasında həyəcan və narazılıq salmağa çalışıb, məqaləsinin axırında "Zəhmətkeşlər nə istəyirlər, tətil nədən ötrüdür?" suallarına böylə cavab verir:

*"Rədd olsun mükəlləfiyyəti-əsgəriyyə! Tərxisi-əsgər deyil, əsgərliyə dəvət edilənlər azad olmalıdırlar. İşsizlərə bütün məvacib, zəhmət haqqı ixtisar edilmədən həftədə 44 saat iş, mədənlərin, dəmiryolların və nəqliyyatın fəhlə kontrolu ilə milliləşdirilməsi, hamı kəsbkarlar [həmkarlar], o cümlədən əlbəttə saldat, matros və polisə ittifaqlarının etirafı [təsdiq edilməsi, qəbul edilməsi], ticarət-sənaət işlərini, poçta idarəsini, mülki və dövləti xidmətlərdə müstəqil idarə, kəsbkarlar ittifaqlarının hüququnun bərpası, hökumət tərəfindən verilən icbari qərarların büsbütün ifası, hamı siyasi və əsgəri cinayətlə məhbus olanlara əfvi-ümumi, sənaət ixtilaflarında əsgəri qüvvələrdən istifadə edilməməsi, Rusiyadan əl çəkmək."*

**Londonda ruslar**

"M. R." qəzetəsinin verdiyi xəbərə görə, Londonda davam edən rus təşkilatlarının mitinqində Londonda yaşayan ruslar namindən [adından] bir neçə nəfərin Rəisi-cümhur [Prezident] Vilsona müraciətlə rus işlərinə müsəlləh [silahlı] müdaxilə etməsi haqqındakı istidasına [xahişinə] narazılıq və protesto edilmişdir. Mitinqdə olanlar Rusiyada qanun və asayiş bərpasından ötrü əcnəbi ordusuna müraciət etməyi rus vətəndaşına yaraşmaz ədd [hesab] edib, çıxardıqları qətnamələrində Rusiyanı xilas etmək işi ancaq rus xal-

qının öz işidir demişlərdir.

**Kimə məxsusdur?**

"Ümumi iş" namində Parisdə çıxan rus qəzetəsində M. L. Bernşteyn alman sənədlərindən istifadə edib, almanların 1918-ci il fevral və mart aylarında Rusiyadan aldıqları qənaimi-hərbiyyəni [hərbi qənimətləri] böylə yazır: Bu iki ay müddətində almanlar Rusiyadan 4381 top, 9490 pulemyot, 2100 paravoz, 26560 vaqon almışlardır. Hərgah bu qənaim üzərinə başqa hücum əsnalarında zəbt edilən qənimət əlavə edilsə, görəriz ki, Almaniya ərkani-hərbi [qərargahı] mütarikə şəraiti ilə Müttəfiqlərə verməyə məcbur olduğu şeylərin çox hissəsini Rusiyadan almışdır. Qəzetə xəbər alır ki, bu şeylər kimə qaytarılmalıdır? Qəzetə bu sualı eyni zamanda Sülh Konfransına və Rusiya siyasi müşavirəsinə verir.

**Müttəfiqlər Qafqazda**

Tiflisdə olan ingilis komandanlığı ingilis saldatları əvəzinə qaravul və xidməti türklər ilə hindulara vagüzar etmişlərdir [tapşırmışlar]. Təhqiq edilməmiş xəbərlərə nəzərən ingilis saldatları vətənlərinə əzimət edəcəklərdir [gedəcəklər].

**İstanbulda**

Mart ayının 4-də İstanbuldan varid olan [gələn] bir nəfərin məlumatına görə, İstanbulda türklər ilə ingilis saldatları arasında müsadimə [toqquşma] vaqe olmuşdur. İstanbula yunan və erməni qoşunları varid olmuşlardır. Erməni qoşunları Samsun təriqi [yolu] ilə Ermənistana əzimət edirlər [gedirlər]. Hələb ilə Dəməşqdə yüz min qaçqın erməni vardır.

**Ukraynada**

* Ukrayna bankları milliləşdirilmişdir. Ukrayna pulları Tsarski meydanda yandırılmışdır.

* Kiyevdə bolşeviklər dövlətliləri cərimə etməkdədirlər. Kiyevdən çıxmaq xeyli müşküldür. Şəhadətnaməsi olmayanlar buraxılmayırlar.

* Yunan əsgərləri Nikolayev altında bolşeviklərlə müharibəyə başlamışlardır.

* Jmerinkadan xəbər verirlər ki, Korsun şəhərini işğal etməkdən ötrü Qırmızı ordu əsgərləri ilə Direktoriya saldatları arasında başlanan müharibə 18 saat davam etmişdir. Hər iki tərəfdən böyük tələfat vardır. Bolşevik əsgərləri bir çox top və qeyri mühimmat buraxıb qaçmağa məcbur olmuşlardır. Komisar Sedov başda olmaq üzrə bütün bolşevik ərkani-hərbi [hərbi qərargahı] dərdəst edilmişdir [ələ keçirilmişdir].

**Kolçaka qarşı iqdamat**

Ufadan "Əxbar" qəzetəsinə xəbər verildiyinə görə, Sibiryanın siyasi dəvairində [dairələrində] hökumətə yeni vərəsələr çıxmışdır. Əqsayi-Şərqdə [Uzaq Şərqdə] olan kazakların atamanı polkovnik [Qriqori Mixayloviç] Semyonov Kolçak hökumətini qəbul etməyir.

Semyonov general Xorvat ilə müttəhidülrəy [əlbir] işləyir. Bunlara Yaponiya müavinət [kömək] edir. Kolçaka isə Amerika müavinət edir. Sibiryada bəzi imtiyazat barəsində Semyonov ilə Yaponiya hökuməti arasında razılıq əmələ gəlmişdir. Sibir mətbuatı bu halları bəyanla axırda bu işlərdən yenə vətəndaş müharibəsi qalxacağından ehtiyat edirlər.





**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

* Türüq və Məabir [Nəqliyat və Rabitə] nazirinin torpaq təmizləyən karvan fəhlələrinin zəhmət haqqlarını artırmaq barəsində məruzəsindən sonra qət edilmişdir:

Türüq və Məabir Nəzarətinə tapşırılsın ki, lazım olduğu qədər torpaq təmizləyən karvan fəhlələrinin zəhmət haqqları artırılsın.

* Türüq və Məabir nazirinin ərəb hürufatı tənzimatına [ərəb hərflərinin nizamlanmasına] dair məruzəsindən sonra qət edilmişdir:

Maarif nazirinə tapşırılsın ki, hökumət üzvü X. b. Məlikaslanov ilə bərabər xüsusi bir komisyon təşkil etsin və Hökumət Şurasına ərəb hürufatı tənzimatına dair məlumat təqdim etsin.

* Türüq və məabir nazirinin 1918-ci sənəsinin 3 mart qanununun Bakı Bəhriyyə məktəbi xidmətçilərinə də təşmili [şamil edilməsi] barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Həman qanun Bəhriyyə məktəbi xidmətçilərinə də şamil olmalıdır.

* Ədliyyə nazirinin Fövqəladə İstintaq Komisyonunun hüququ artırılmasına dair məruzəsindən sonra qət edilmişdir:

Fövqəladə İstintaq Komisyonu cinayət nizamnaməsi mövcibincə [əsasında] məhkəmə və istintaq məmurlarına məxsus hüquqa malikdir.

* Rəisi-vükəlanın [Baş nazirin] ermənilərin Azərbaycan təriqi [yolu] ilə Ermənistan üçün 40 vaqon buğda aparmaq haqqındakı təşəbbüssatlarına dair məruzəsindən sonra qət edilmişdir:

Ərzaq Nəzarətinə Azərbaycan təriqi ilə Tiflis Erməni Milli Komitəsi tərəfindən Lənkərandan alınmış 40 vaqon buğdanın aparılmasının müsaidə verilməsini tapşırmalı, fəqət Lənkəranda alınmış ərzağın nisfi [yarısı] öz qiyməti ilə Azərbaycan Ərzaq Nəzarətinə güzəşt edilməlidir.

* Ərazi nazirinin çəyirtkə və çöl siçanları ilə mübarizə etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-idarəsindəki yirmi milyon fonddan Ərazi Nəzarətinə siçan və çəyirtkə ilə mübarizə üçün altmış min rublə buraxılsın.

* Daxiliyyə nazirinin Biçeraxovdan qalmış ərzaq anbarı üzərindən mühafizəni götürmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə nazirinə tapşırılsın ki, mühafizəni anbar üzərindən götürüb, anbarı Mərkəzi Ev Komitəsinə versin. Fəqət, oradakı ərzağın əhali miyanında [arasında] təqsimi məşrutdur [paylanması şərtdir]. Ərzaqdan alınan para avtokoloniyaçıların məvaciblərinə verilməlidir.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

**Arvadların xilası haqqında**

İrəvanda olan Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd xan] Təkinskiyə böylə bir teleqraf göndərilmişdir:

*"İrəvan uyezdi Qaraxaç, Qədili, Qarabağlar, Ağasıbəyli, Dəhnəz və Şahablı kəndləri qarət edildiyi zaman erməni əsgərləri tərəfindən aparılan neçə yüz müsəlman arvad və qızlarının azad edilmələri və xəsarətdidələrin zərərləri özlərinə*

*qaytarılması haqqında Ermənistan hökuməti nəzdində tezliklə ən ciddi iqdamatda bulununuz* [addımlar atın]. *Aparılan arvadlar və qızlar hal-hazırda İrəvan uyezdi Vedibasar rayonunda erməni əsgərlərinin əlindədir. Təcili cavab gözləyirəm.*

*Xariciyyə naziri əvəzinə:*
*Ədil xan Ziyadxanov"*

Buna cavabən İrəvanda Azərbaycan siyasi nümayəndəsindən Xariciyyə naziri naminə böylə bir teleqraf alınmışdır:

*"Bu gün martın 24-də Ermənistan Xariciyyə nazirinə bu məzmunda bir nota təqdim etmişəm:*

*Ermənistan Xariciyyə naziri cənablarına,*

*Türklər İrəvan quberniyasından getdikdən bir neçə gün keçmiş, erməni müsəlləh* [silahlı] *dəstələri erməni zabitlərinin komandası altında Naxçıvan tərəfə hücum edib, yolda Səyib, Qanıqlı, Şalaub və Xaraba Qataqlı kəndlərini qarət etməklə bərabər, dinc müsəlman əhalisini, arvadları, uşaqları, həmçinin bu kəndlərdə olan müsəlman qaçqınlarını qırmışlardır. Erməni dəstələri Şərurda müqavimət göstərəmməyib Dəvəliyə çəkilmişlərdir. Eyni zamanda digər bir erməni dəstəsi Cərmanisdən, Qaraxaç, Şahablı, Qədili və Yuxarı Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Şıqşıq dağ kəndlərinə hərəkət edib, əvvəlcə bu kəndlərdə olan bir neçə yüz gözəl müsəlman arvad və qızlarını apardıqdan sonra qalan dinc əhalinin hamısını qırmışlardır. Həman arvadlar və qızlar hal-hazıra qədər erməni saldatlarının əllərindədir. Erməni saldatlarının bu nagüvara* [çirkin] *hərəkətlərini müsəlman nümayəndələri vaxtlı-vaxtında Ermənistan hökumətinə xəbər vermişlərdir. Hökumətimin sifarişinə görə Ermənistan hökumətinə təklif edirəm ki, erməni saldatları tərəfindən aparılan hamı arvad və qızlar erməni saldatları əlindən azad edilib, yuxarıda göstərilən müsəlman kəndləri əhalisinin zərərini aşkar etməkdən ötürü ingilislərdən, müsəlman və ermənilərdən ibarət müştərək bir komissiya təşkil edilsin. Bununla bərabər ümidvar oluram ki, Ermənistan hökuməti Azərbaycan hökuməti ilə mehriban münasibat saxlamaq arzusu ilə tezliklə mənim hökumətimin ədalətli tələbatına əməl edər. Hökumətinizin bu barədə olan qərarını mənə xəbər verməniz xahiş edirəm.*

*Kamali-ehtiramla siyasi nümayəndə:*
*M[əhəmməd] xan Təkinski"*

**GƏNCƏDƏ**
**RƏSMİ-KEÇİD**

Martın 23-də Novruz bayramının ikinci günü hökumət və Parlaman əzalarından [üzvlərindən] bir qrup təşkil edilib, xüsusi trenlə Gəncəyə rəvanə oldular ki, orada bunların hüzurunda Azərbaycan qoşunlarının bayram münasibətilə rəsmi-keçidi vaqe olacaqdı. Gedənlər bunlar idi: Rəisi-vükəla Fətəli xan Xoyski, Maarif naziri Nəsib bəy Yusifbəyli, Daxiliyyə naziri Xəlil bəy Xasməmmədov, Post və Teleqraf naziri Aslan bəy Səfikürdski həzrətləri ilə Xariciyyə naziri müavini Ədil xan Ziyadxan, Ümuri-Xeyriyyə naziri müavini Rüstəm xan Xoyski, Türüq və Məabir naziri müavini Yusif xan Məhəmmədbəyov həzrətləri və Azərbaycan Hökuməti Baş katibi Talıb bəy Məhəmmədov cənabları; bədəhu [sonra] "Müsavat" fraksiyası rəisi, Parlaman əzası Məhəmməd Əmin bəy Rəsulzadə, Sosialistlər İttifaqı fraksiyası rəisi, Divani-rəyasət əzası Əhməd bəy Pepinov, Müdafieyi-milliyyə komisyonu üzvlərindən Parlaman üzvü Camo bəy Hacınski və Parlaman əzasından Ağa Əminov və Məhəmmədbağır Şeyxzamanov həzrətləri ilə "Azərbaycan" qəzetəsi müdiri Üzeyir bəy Hacıbəyov və Kırım türkləri nümayəndələrindən [Ədhəm] Feyzi əfəndi cənabları idilər.

Tren yola düşərkən Türüq və Məabir naziri Xudadad bəy Məlikaslanov həzrətləri ilə bərabər dəmiryol baş məmurları Teymur bəy Məlikaslanov, Ələsgər bəy Bəylərbəyov cənabları ilə bərabər sair sahib-mənsəblər [vəzifəli şəxslər] dəxi Bakı vağzalında hazır olub treni yola saldılar. Treni Gəncəyə qədər müşayiət edənlər içində Türüq və Məabir naziri müavinindən əlavə dəmiryol istifadə müdiri Tolstonoqov ilə bərabər, dəmiryol mühafizə müdiri Xanbaba bəy Sədrəddinbəyov dəxi mövcud idilər. Tren axşam saat 8 radələrində Gəncəyə tərəf yola düşdü.

Yevlax istasyonunda Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov həzrətləri öz xüsusi sifariş məmurları Səməd bəy Cəmillinski cənabları ilə bərabər dəxi gedənlərə qoşuldular. Həmin istasyonda Gəncə qubernatoru İbrahim ağa Vəkilov həzrətləri gələnlərin qabağına çıxıb Gəncəyə qədər müşayiət eylədi.

Tren səhər saat 9-da Gəncə istasyonuna varid oldu [çatdı]. İstasyon bayraqlarla müzəyyən edilib [bəzədilib], hər bir millətdən camaat ilə dolu idi. Hərbiyyə naziri general Səməd bəy Mehmandarov həzrətləri ilə bərabər müavini general Əliağa Şıxlı, Gəncə qubernatoru müavini Hüseyinqulu xan Xoyski, Bələdiyyə rəisi Ələsgər bəy Xasməmmədov, Bələdiyyə İdarəsi əzalarından [üzvlərindən] Cahangir bəy Əliyev, Fərəc bəy Baxşəlibəyov, S. Ter-İsrailyan, müddəiyiümumi [prokuror] Nəsrəddin bəy Səfikürdski, mahal camaatının rəisi və ağsaqqalları, başlarında qəza qaimməqamı [qəza rəisi] Mikayıl bəy İsrafilbəyov cənabları olmaq üzrə pişvaza çıxıb, xoş gəldin rəsmini əda etdilər [mərasimini yerinə yetirdilər]. Rəisi-vükəla trendən çıxarkən bir dəstə qoşun taqımı səfbəsteyiehtiram ilə durub [ehtiramla sıraya düzülüb] əsgəri salam verdilər. Məhəlli [yerli] mühafizə rəisi Abbasəli Həmzəyev cənabları dəxi rapor[t] təqdim etdilər.

Bədəhu [ondan sonra], gələnlər və pişvaz edənlər avtomobil və faytonlara minib şəhərə tərəf rəvanə oldular. Bunların dalınca bir dəstə atlı taqımı çapa-çapa gedirdilər. Şəhərə girilən yerdə alaqapı qurulub, şəhər küçələri milli bayraqlarla təzyin edilmişdi [bəzədilmişdi]. Tamam küçə və bazar, evlər və hətta evlərin damları dəxi camaatla dolu idi. Hər tərəfdə zurna və musiqi vurulurdu.

Gələnlər küçələrdən keçib Topçu meydanına tərəf yönəldilər. Meydan miyanında [ortasında] Parlaman sədri Həsən bəy Ağayev, Parlaman əzalarından Abuzər bəy Rzayev, Musa bəy Rəfiyev, Nəriman bəy Nərimanbəyov, məhkəmə rəisi Ələkbər bəy Xasməmmədov və Krım sabiq hökumət rəisi general [Süleyman bəy] Sulkeviç həzrətləri dəxi gələnlərlə görü-

şüb, birlikdə olaraq meydana daxil oldular. Meydanın hər tərəfi böyük bir izdihamla divar misalı əhatə olunub, içində rəsmi-keçidə hazır olan qoşun taqımları səf-səf kamali-nizam və intizamla durmuşdular.

Rəisi-vüzəra [Baş nazir] meydana daxil olarkən "Hazır ol!" komandası verilib, bütün qoşun əhli salama durdular. Rəis həzrətləri qoşun taqımlarını salamlayıb bədəhu meydanın ortasında dayandılar və dua oxunmağa başlandı. Ordu axundlarından Şahtaxtlı Molla Əhməd cənabları "Quran"dan bir surə oxudu. Molla Yaqub Baratzadə cənabları isə bir nitq irad edib [nitq söyləyib], xeyir-dua verdi. Dua əsnasında Ruhani Mədrəsəsi müdiri Pişnamazzadə cənabları dəxi isbati-vücut [iştirak] etməkdə idilər.

Bədəhu [sonra] rəsmi-keçid başlandı. Rəsmi [mərasimi] idarə edənlər Hərbiyyə naziri müavini general Əliağa Şıxlinski ilə bərabər ərkani-hərb [qərargah] rəisi general Həbib bəy Səlimov həzrətləri idilər. Komanda edən isə general İbrahim ağa Yusifov həzrətləri idi ki, gözəl bir at üstündə oturub əlində üryan qılınc olaraq nərəli bir səda ilə öz dilimizdə komandalar verirdi. Əsgəri musiqi orkestri çalınıb, qoşun hissələri rəsmi marş addımları ilə kamali-nizam və qayda ilə gəlib keçməyə başladılar. Rəisi-vüzəra həzrətləri yanından keçərkən əsgəri salam verib rəisin "Mərhaba!" sözlərinə bir ağızdan "Çox sağ ol!" deyib cavab verirdilər.

Qoşun taqımları bu qayda ilə keçdilər:

1) Hərbi məktəb şagirdanı [şagirdləri] ərkani-hərb zabitanı [qərargah zabitləri] ilə bərabər;

2) Birinci Gəncə piyada alayı;

3) Piyada qisminin təlim komandası;

4) Mitralyoz taqımı;

5) Topçular və top arabaları ilə bərabər;

6) Qazmaçı [istehkam] taqımı;

7) Mizraqlı süvari dəstəsi;

8) Sihhiyyə və Hilali-Əhmər [Qırmızı Aypara] dəstəsi təbiblərlə bərabər.

Rəsmi-keçiddən müqəddəm [qabaq] Rəisi-vüzəra həzrətləri Məktəbi-Hərbiyyə şagirdanından zabit vəkili olanlarını zabitlik və namizədləri vəkillik rütbəsinə tərfi edib [yüksəldib, rütbəsini artırıb] təbrikatda bulundu və əsgərlik haqqında gözəl bir nitq irad etdi.

Bədəhu Rəisi-vüzəra, Parlaman sədri və Bələdiyyə rəisi həzrətləri birər nitq söyləyib Hərbiyyə naziri general Mehmandarov həzrətlərinə izhari-təşəkkür etdilər.

Gedənlər həman gün axşam məxsusi trenlə Bakıya qayıtdılar.

## ƏLİQULU NƏCƏFOV

Əziz yoldaşım! Doğrudur, ölmək təbiidir. Amma bu tövr nahaq, xunxar qatil əlində ölməyin ciyərimi dağdar etdi [dağladı].

Artist yoldaş! Sənin o vəhşi qatilin nəinki bir tək şeir aləminə, bəlkə türk səhnəsindən səni bizim əlimizdən almaqla böyük bir zərbə vurdu.

Sevgili yoldaşım! Bu axır vaxtlarda mənə yadigar olaraq göndərdiyin əksin dalında yazdığın "Həsb-hal"dan görünürdü ki, həqiqətdə dünyadan o qədər incimişsən ki, ölməyi istərmişsən. Qoy sənin bu küskün halını mən də şeir və səhnə mühibblərinə [aşiqlərinə] xəbər verəyim. Qoy onlar da oxusunlar.

**Həsb-hal***

*Təsviri-pürməlalımı mütləq görən zəvat*
*Anlar keçirtmişəm necə əfsürdə bir həyat*
*Gəldim cahana sanki həmişə bəla çəkim*
*Könlümdə vardı min əməl ü min təhəssürat*
*Dünyada bir mərami-dilim hasil olmayır*
*Yağı olub yenə bütün əcrami-kainat*
*Bəs kim düşünmüşəm qırışıbdır üzüm-gözüm*
*Zaye edib vücudumu işbu təfəkkürat*
*Sinnim otuzda, tüklərim iştə bəyaz olub*
*Köçmək sifarişin yetirib qasidi-məmat*
*Qalmıb ümid çünki həyatın bəqasına*
*Əksim götürtmüşəm qala bəlkə bu xatirat*

Ey türk səhnəsinin mehriban artisti! Allah rəhmət eyləsin.

*Mirzəağa Əliyev*

* Bu şeir, mərhum Nəcəfov tərəfindən öz əksi ilə bərabər mənə son yadigar göndərilmişdi.

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

- Ərzaq Nəzarəti, Bələdiyyə İdarəsinə məlumat vermişdir ki, put vergisi Ərzaq Nəzarətinindir. Hökumət tərəfindən hələlik bunu ləğv etmək haqqında bir qanun verilməmişdir. Hərgah məsələ Bələdiyyə İdarəsi nəfinə [xeyrinə] həll edilərsə də, yenə bundan mənfəət aparmaq mümkün olmayacaqdır. Zira, iki ayın zərfində Ərzaq Nəzarətinin put vergisi mədaxili 1.920.501 rublə 12 qəpikdir. Halbuki Bələdiyyə İdarəsinin borcu 1.333.619 rublə 55 qəpikdir.

- Bələdiyyə İdarəsi Bakı valisinə müraciətən məlum etmişdir ki, bu vaxtlaradək hər müfəttişlikdə xüsusi bir dəftər var idi ki, şəhər məntəqələrində vəfat edənlər həman dəftərə qeyd edilirdi. Bu dəftərlər üzrə şəhər Səhiyyə şöbəsi müsri [yoluxucu] xəstəliklərə dair məlumat cəm edə bilirdi. Alınan məlumata görə, səkkizinci dairə müfəttişliyində böylə dəftər yoxmuş. Bələdiyyə İdarəsi rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunulsun [addımlar atılsın].

- Səhhəti-Ümumiyyə Nəzarəti [Səhiyyə Nazirliyi] Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, hal-hazırda şəhər üç təşkilat tərəfindən təmizlənməkdədir: Bələdiyyə İdarəsi, Mərkəzi Ev Komitəsi və Müsri xəstəliklərlə mübarizə edici komisyon. Buna baxmayaraq, şəhər təmizlənməmiş qalmışdır. Səhhəti-Ümumiyyə Nəzarəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, bugündən etibarən şəhəri təmizləmək işləri Müsri xəstəliklərlə mübarizə edici komisyona mühəvvəl edilmişdir [tapşırılmışdır].

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə məlum etmişdir ki, 1918-ci sənənin oktyabrındakı Şəhər Bələdiyyə Məclisi müsəlman əzası [üzvləri] tərəfindən göstərilən iyirmi iki namizəddən fəqət [ancaq, sadəcə] səkkiz nəfəri Məclisi-Məbusana daxil olmaq istəmişlərdi. Məzbətədə [protokolda, qərarnamədə] başqalarının əsamisi [adları] yoxdur. Binaənileyh [ona görə], Məclisi-Məbusandan çıxmış Ağa Zeynal Tağızadə və Əliağa Həsənza-

dənin əvəzində əza intixab etmək [seçmək] üçün xüsusi iclas dəvət edilməlidir.

**Qiraətxana**

Balaxana "Qardaş birliyi" maarif cəmiyyəti təhti-idarəsində [tabeçiliyində] olan qiraətxana təzədən açılıb hər növ qəzetə və jurnallar mövcuddur. Camaatımızın gəlmələrini arzu ediriz. Əlavə, nisan (aprel) ayının 1-dən etibarən Balaxana məktəbində məzkur [adı çəkilən] cəmiyyət tərəfindən gecə kursları açılacaqdır. Elm oxumaq arzusunda olanların Balaxana istehlak cəmiyyəti "El köməyi" mağazasında yazılmaları xahiş olunur.

**Balaxanada**

Novruz bayramının birinci günü Balaxana məktəbi zalında "Qardaş birliyi" maarif cəmiyyəti tərəfindən bayram münasibətilə görüş məclisi tərtib olunub, bayramın ikinci günündə axşam üç pərdəli bir tamaşa göstərildi. Camaatın artıq həvəslə gəlmələri müşahidə olunurdu. Böylə ki, 250 dəvətnamə verildiyi halda 350-dən ziyadə tamaşaçı qonaqlar var idi. Cəmiyyətin nəfinə [xeyrinə] 3663 manat pul yığılmışdır. Ondan məxarici çıxdıqdan sonra cəmiyyətin nəfinə xalis 1475 manat qalmışdır. Məclisdə cəmiyyətimizə kömək edən neçə nəfər cavanlara səmimi təşəkküratımızı izhar edəriz.

**Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsində**

Cümə günü mart ayının 28-də Qafqaziya müsəlman mütəəllimlərinin [tələbələrinin] Mərkəzi Komitə və fondunun Təzəpir məscidi nəzdində olan idarə binasında iclası olacaqdır. Arxadaşlardan rica olunur ki, saat 12 tamamda zəhmət çəkib təşrif gətirsinlər.

**Müsavat konfransı**

Bu gün (cümə) martın 28-i səhər saat 11-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin konfransı təyin edilmişdir. Konfransa şəhər və ətrafından əlli nəfərə bir nümayəndə göndərməlidir. İclasda əhvali-hazirəyə aid bir çox mühüm məsələlər müzakirə ediləcəklərdir.

**Məhəllə nümayəndələrinin nəzəri-diqqətinə**

Şənbə günü saat 11-də hər məscid məhəllə nümayəndələrindən rica olunur ki, Parlaman dairəsindəki "Müsavat" fraksiyonuna təşrif gətirsinlər.

**Sənətkarların nəzəri-diqqətinə**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən bu gün martın 28-də gündüz saat 11-ə təyin edilmiş olan konfransa Bakı və ətrafında yaşayan bütün sənətkarların böylə ki, mürəttiblər, xərratlar, dəmirçilər, kantorçular, qırçılar, ərradəçilər [arabaçılar], faytonçular, hamballar, dərzilər, rəngsazlar, malakeşlər, çəkməsilənlər, çəkməçilər, başmaqçılar, çayçılar, aşbazlar, papaqçılar, zərgərlər, restoran qulluqçuları, dükançılar və qeyrilərinin hər sinfindən iki nəfər olmaq üzrə nümayəndələri (ağsaqqalları) dəxi dəvət edilirlər. Konfransda məzkur [deyilən] sənətkarlara aid məsələlər dəxi müzakirə və həll ediləcəkdir.

**Lənkəranda Makarov dəstəsinin tərksilahı**

Axır vaxtlar Lənkəranda olan polkovnik Makarovun dəstəsi Bakıdan göndərilən bir əmrə görə tərk-silah edilmişdir. Həmin dəstə 3 minə qədər süvari və piyada nəfəratından ibarət idi. Bu dəstə Biçeraxov qoşununun bir hissəsi olub, o getdikdən sonra maddi cəhətdən çox çətinlik çəkməkdə idi. Axır günlər dəstədən ancaq min nəfərə qədər adam qalmışdı. Çox hissəsi isə məvacib almadığından evlərinə getmişdi. Bir çoxları da Muğanda olan qoşun hissələrinə mülhəq olmuşlardır [qoşulmuşdular]. Bakıdan əmr aldıqda dəstə bütün əslihəsini [silahlarını] və əşyasını Lənkəran komandanına verib, saldatlar isə hissələrlə Bakıya gətirilmişlər ki, buradan Ermənistana göndərilsinlər (Makarov dəstəsi tamamilə ermənilərdən təşkil edilmişdi). Lənkəranda qalanlar üçün "Süleyman Hüseynov" adlı paraxod göndərilib və martın 24-də Bakıya üç afiser [zabit] ilə 110 nəfər saldat gətirilmişdir. Bunlarla bərabər, Makarov başda olmaq üzrə dəstənin ərkani-hərbi [qərargahı] dəxi gətirilmişdir. Dəstəyə daxil olan saldatlara məvacib əvəzində Lənkəran Ləvazimat İdarəsi tərəfindən ərzaq verilmişdir. Tərki-silah edilmiş olan dəstənin Lənkərandan Ermənistana keçib getməsi ingilis komandanlığı tərəfindən təmin edilmişdir [qarantiya verilmişdir]. Polkovnik Makarov müxtəlif zamanlar Bakıya gəlmiş olan erməni saldatlarını cəm edib, buradan Ermənistana aparacaqdır.

**Məhkəməyə cəlb**

Azərbaycan İstinaf Məhkəməsi müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum edir ki, onun tərəfindən Bakı Okrujnoy sud məhkəməsi [nahiyə məhkəməsi] vasitəsilə sabiq 8-ci uçastok pristavı təhti-mühakiməyə [mühakimə altına] alınır.

**Səhiyyə işləri**

Bakıda müsri xəstəliklərlə mübarizə edən komitə Bakı qubernatoruna məlum edir ki, hifzüssihhəyə dair qərardad məcburiyyətini pozmaqda müttəhim edilmiş olan 17 nəfər ev sahibləri və qəssablardan bəratülqövl [ptotokol] tərtib edilib, qalabəyinin [komendantın] binagüzarlığına [sərəncamına] göndərilmişdir.

## GÜRCÜSTANDA

**Bolşevizm haqqında**

Gürcüstana pənah gətirmiş olan bolşeviklər barəsində ingilislərlə gürcülər arasında mübahisə davam edir. İngilislər təklif və tələb edirlər ki, bolşeviklər hərbi əsir sifəti ilə saxlanılıb, xərcini gürcü hökuməti versin. Jordaniya isə bu rəydədir ki, bolşeviklərə siyasi təqibatdan bitərəf bir məmləkətə pənah apardıqları nöqteyi-nəzəri ilə baxmalıdır. Ona görə də onlar tərki-silah edildikdən sonra Gürcüstanda öz hesabları ilə azad gəzə bilərlər. İngilislər İstanbuldan İngiltərə Baş ərkani-hərbindən [Baş qərargahından] bu barədə düsturüləməl [təlimatnamə] gözləyir. Hələlik min nəfər bolşeviklər buraxılıb, qalanı isə Msxeta yanında saxlanılırlar.

**Axalkələk əhvalı**

Axalkələkdə olan İngiltərə əsgəri nümayəndəsi Xariciyyə nazirinə xəbər verir

ki, məzkur [adı çəkilən] uyezd əhalisi böyük ehtiyac içindədir. Hərgah bu yaxınlarda kömək olmasa, nəticəsi xeyli fəna görünür. Yerləri əkmək üçün bu il toxumluq yoxdur. Hərgah vaxtlı-vaxtında əhaliyə toxum verilməsə, çöllər əkilməmiş qalar və əhali azuqədən məhrum olar. Əkindən ötrü otuz min pud taxıl lazımdır.

**Abxaz Xalq Şurasının güşadı**

Suxumdan "Qruziya" qəzetəsinə teleqraf edirlər ki, martın 18-də Aloizi teatrosunda böyük izdihamla Abxaz Xalq Şurasının təntənəli rəsmi-güşadı [açılış mərasimi] olmuşdur. Dmitri Emuxvari şura sədri intixab edilmişdir [seçilmişdir]. Gürcüstan hökuməti tərəfindən İsidor Ramişvili şuranı təbrik etmişdir. Fraksiya nümayəndələri məruzədə bulunmuşlardır. Martın 20-də məruzələr müzakirə edildiyi zaman Abxaziyanın muxtariyyət əsası ilə Gürcüstan Cümhuriyyətinə daxil olması qətnaməsi qəbul edilmişdir. Qətnamənin elan edilməsi, şura üzvləri və əhali tərəfindən sürəkli və şiddətli alqışlarla qarşılanmışdır.

**Rus Milli Şurası sədrinin təbidi**

Zaqafqaziya Rus Milli Şurası, şura sədri Lebedevin Gürcüstandan təbidi [uzaqlaşdırılması, sürgün edilməsi] münasibətilə Gürcüstan hökumətinə protesto etmişdir. Milli Şura idareyi-örfiyyə [fövqəladə vəziyyət rejimi] ləğv edildiyi bir halda Lebedevin təbidinə beynəlmiləl normanın xələldar edilməsi kimi baxır.

**Gürcüstan-İngiltərə müqavilənaməsi**

Gürcüstan hökuməti İngiltərə ilə əqd etdiyi [bağladığı] müqavilənaməsində Gürcüstanda olan neft yerlərinin altı il müddətinə inhisarla imtiyazını İngiltərəyə vermişdir.

## ERMƏNİSTANDA

- Naxçıvan dairəsində müsəlman məmurları, erməni fərarilərini [qaçqınlarını] yerlərinə qaytaran erməni məmurlarına mümaniət [maneçilik] göstərirlər. Oraya göndərilmiş olan erməni fərarilərinin nümayəndələri Naxçıvana buraxılmamışlardır. İngilis general-qubernatoru Lauton ermənilərə heç bir müavinət göstərməmişdir.
- Ermənistan hökuməti general-qubernator Lautona müraciət ilə təvəqqe edir ki, müsəlmanları erməni hökumətini təsdiq etməyə vadar eyləsin. Zira Araz Cümhuriyyətindən erməni qoşunları öz xahişləri ilə çıxdıqda, onlara yuxarıdakı mətləb vəd edilmişdi.
- Ermənistan Daxiliyyə nazirinin ikinci müavinliyinə Daşnak firqəsinə mənsub Hayk Yaxşıyan dəvət edilmişdir.

**Ermənistan Parlamanında**

İrəvandan verilən məlumati-rəsmiyyəyə [rəsmi məlumata] görə, iki həftədir ki, Ermənistan Parlamanının iclası münəqid olmayır [baş tutmayır]. Buna səbəb, məbusların əksərinin xəstəliyi və möhkəm əksərinin xələldar olduğudur.

"Znamya truda" qəzetəsinin məlumatına görə, fevralın 28-də vaqe olan tarixi cələsədən sonra iclas olmayır. Bu iclas üçüncü iclasdır ki, Daxiliyyə vəziri Xatisovun Ermənistandan idareyi-örfiyyeyi-əsgəriyyənin [hərbi fövqəladə rejimin] qaldırılması, Ermənistanda general-qubernatorluq təşkil edilməsi barəsindəki layihəsini müzakirə edirdi. Bu hadisədən sonra daşnakların İrəvan komitəsi martın 4-də bir intibahnamə [bəyannamə; vərəqə] buraxaraq Parlamanın qovulduğunu əhaliyə elan etmişdir.

## İZHARİ-TƏŞƏKKÜR

Müdir əfəndi! Atidəki [aşağıdakı] şu qaç kəlmə sözümü möhtərəm qəzetənizin bir guşəsində dərc etmənizi acizanə rica edirəm.

İttifaqi-Mütəallimin [Tələbələr İttifaqı] idarəsi tərəfindən cəşn məclisi [bayram məclisi] tərtibində idarəyə böyük yardımlar edən Pəri xanım Topçubaşzadəyə, müəllimə Mina xanım Aslanzadəyə səmimi təşəkkürümü izhar edirəm.

*Kamali-ehtiram ilə katib:*
*Əbülfəzl Babazadə*

**İtibdir**

Səlimə Məşhədi Qulam qızının öz oğlu İsmayıl Kərbəlayi Mikayıl oğluna satdığı evin kağızı itib. Etibardan saqitdir [etibarsızdır].

*5767*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708*

**"Müsavat" firqəsi konfransı**

Cümə günü martın 28-də Parlaman binasında gündüz saat 11-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin konfransı dəvət edilir. Konfransa hər əlli nəfərə bir nəfər olmaq üzrə şəhər və ətrafından nümayəndələr dəvət olunur. Konfransda əhvali-hazirəyə dair mühüm məsələlər müzakirə və həll ediləcəkdir. Mədən dairəsi əmələ yoldaşlardan göstərilən üsul üzrə öz nümayəndələrini intixab edib [seçib] konfransa göndərmələri rica olunur. Nümayəndələrdən əlavə rayon komitəsi idarə heyətləri dəxi konfransa iştirak edəcəklər.

**Elan**

Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu tərəfindən qoşun və camaatdan ötrü buğda, arpa, düyü, krupa [yarma], lobu, noxud, saman, ot, xırda-böyük 4 ayaqlı heyvanlar, inək yağı və quyruq yağı lazımdır.

Bu yuxarıda zikr olunan şeyləri satmaq istəyənlərdən xahiş edirəm kağız vasitəsi ilə bu ünvana müraciət etsinlər: Gəncə, Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu.

Şeylərin qədərini və qiymətini dəxi əlavə etməlidir.

*Gəncə Quberniyası Ərzaq Nəzarəti məsulu: A. Brilinski*
*T-76*

**Bəhri-Xəzər İstehlak Cəmiyyətləri İttifaqı "Kooperasiya"**

Türk təbiblərini İttifaqın açılmış ambulatoriyasına cəlb etməyi türk demokratiyasının [xalqının] mənafeyi arzusundaədd [hesab] edib, bununla siyahıya yazılmış türk təbiblərinə təklif edir ki, 1919-cu il aprelin birinə qədər həyati-sabiqəsi ərzihalını [keçmiş həyatları haqqında ərizə] məlum etsinlər.

Dörd boş yer vardır:

1) Arvad xəstəliyi (bu yer üçün təbibəyə tərcih veriləcəkdir),

2) Göz xəstəliyi,

3) Dəri və əmrazi-zöhrəviyyə [zöhrəvi xəstəliklər] və

4) Əmrazi-daxiliyyə [daxili xəstəliklər].

Şərait: Gündə iki saatlıq iş üçün ayda min (1000) manat məvacib.

1914-cü ildən sonra kurs qurtarmış təbiblərin ərzihalı bisərəncam buraxılacaqdır [müraciətlərinə baxılmayacaqdır].

*5769*

**Elan**

Bakı Ərzaq Nəzarəti bununla Bakı dairəsi kənd cəmiyyətlərinə elan edir ki, Bakı Kəndçilər İttifaqı tərəfindən onlara birinci lazım olan ərzaq şeyləri paylanacaq. Kənd cəmiyyətləri həman şeyləri almaq istəsələr, Bakı Kəndçilər İttifaqına müraciət etməlidirlər.

*Ərzaq Nəzarəti məsulu: Əliyev*
*Kargüzar – imza*
*T-70*

**Elan**

Hökumətin qərardadı ilə layihə hazırlamağa müsabiqə (konkurs) elan olunur.

1) Azərbaycan Hökumətinin nişanına (gerbə) və 2) Öyləcə də möhürünə.

Layihələrin təqdimi [üçün] bu sənəsi aprel ayının 20-sində vaxt qoyulur.

Ən gözəl layihələrə mükafat olaraq müqərrər edilir [qərarlaşdırılır]:

1-cililərə: gerb üçün 1000 manat;
» » » » » möhür üçün 500 manat;
2-cililərə: gerb üçün 500 manat;
» » » » » möhür üçün 250 manat.

Müfəssəl [ətraflı] məlumat iş günlərində Posta və Teleqraf Nəzarətindən almaq olar.

*Dəftərxana baş müdiri: Blajevski*
*1-inci şöbə kargüzarı: Rəsul Rəhimli*
*T-74*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Parlaman ətrafında**

səh. 388. "...uyezd naçalnikindən...": Quba qəzasının rəisi vəzifəsini 1918-ci ilin avqustundan 1919-cu ilin aprelinə qədər Əmir xan Xoyski tutmuşdur. Əmir xan Xoyski Fətəli xan Xoyskinin qardaşı oğlu idi.

"Şıxlar bəylərindən qorxaraq...": hal-hazırda Xaçmaz rayonunun kəndi olan Şıxlar nəzərdə tutulur.

**Ordumuz**

səh. 388. "Port-Artur mühasirəsi": Rusiya-Yaponiya müharibəsinin (1904-1905) gedişində Sarı dənizdəki Port-Artur limanının Yaponiya tərəfindən mühasirəsi nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 389. "...əfqan əmirinin...": söhbət 1901-1919-cu illərdə hakimiyyətdə olan Həbibulla xandan (1872-1919) gedir.

"Spartaklar": Birinci Dünya müharibəsindən sonra Almaniyada fəaliyyət göstərən marksist təşkilat olan Spartak İttifaqı [Spartakusbund] üzvləri və tərəfdarları nəzərdə tutulur.

"...İtaliya kralının...": söhbət 1900-1946-cı illərdə hakimiyyətdə olan III Viktor Emmanueldən (1869-1947) gedir.

səh. 390. "...Aşağı Palatada...": söhbət Böyük Britaniya Parlamentinin İcmalar Palatasından gedir.

"Vedjvud": Britaniya liberal və leyborist siyasi xadimi Cozayya Klement Vedjvud nəzərdə tutulur; bu ad qəzetdə təhrif edilmiş formada verilmişdir.

"Deyli teleqraf" [The Daily Telegraph]: 1855-ci ildən etibarən nəşr olunan gündəlik ingilis qəzeti.

"Qlob" [The Globe]: 1803-1921-ci illərdə Londonda nəşr edilmiş ingilis qəzeti.

"Skapa-Flou" [Scapa Flow]: Şotlandiyada Orkney adalarında [Orkney Islands] liman. Britaniya hərbi-dəniz donanmasının əsas bazası Birinci Dünya müharibəsi (eləcə də İkinci Dünya miharibəsi) dövründə bu limanda idi. Birinci Dünya müharibəsindən sonra Almaniya hərbi-dəniz donanmasının bir hissəsi 1919-cu ilin iyun ayında bu limanda batırılmışdır.

**Qəzetələrdən**

səh. 392. "Ümumi iş": 1918-1934-cü illərdə Parisdə rus dilində nəşr olunan "Obşee delo / La Cause Commune" qəzeti nəzərdə tutulur.

"Tsarski meydanı": Kiyevdə indiki Avropa meydanı; Şevçenko rayonunda yerləşir.

**Nəzarətlərdə**

səh. 394. "Səyib, Qanıqlı, Şalaub və Xaraba Qataqlı": kəndlərin adları təhrif edilmişdir.

**"Həsb-hal" şeiri (səh. 397) üçün lüğət**

həsb-hal: hallaşma, dərdləşmə
təsviri-pürməlal: çox kədərli şəkil
əfsürdə: solğun; hissiz; ruhsuz
əməl: arzu
mərami-dil: qəlb arzusu
əcrami-kainat: göy cisimləri, səmavi cisimlər
bəs kim: o ki var
qasidi-məmat: ölüm qasidi
təhəssürat: həsrətlər
təfəkkürat: fikirlər
bəqa: daimi, qalıcı olmaq

**Bakı xəbərləri**

səh. 399. "...ingilis komandanlığı tərəfindən təmin edilmişdir.": qəzetdə "təmin" yerinə səhvən "təsis" getmişdir.

**Gürcüstanda**

səh. 400. "Qruziya": 1918-1921-ci illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Heç bir partiyanın orqanı olmadığını elan etsə də, bu qəzet əslində gürcü millətçilərinin görüşlərini əks etdirirdi.

"Aloizi teatrosu": sənayeçi və xeyriyyəçi İoakim Aloizi tərəfindən Suxumidə açılmış teatr. Qəzetdə "Aloizi" yerinə "Aloidi" getmişdir.

**Ermənistanda**

səh. 400. "Znamya truda": Tiflisdə 1917-1918-ci illərdə rus dilində nəşr edilən gündəlik qəzet. Sosialist-inqilabçılar partiyasının orqanı olmuşdur.





**Bazar, 30 mart 1919-cu il, nömrə 146**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Bazar, 27 cəmadiyəlaxir sənə 1337. 30 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**ELAN**

Bazar ertəsi martın 31-i səhər saat 11-də Azərbaycan Məclisi-Məbusanının növbəti iclası təyin edilmişdir.

**BÜTÜN AZƏRBAYCAN ƏMƏLƏ VƏ KƏSBKARLARINA**

Yoldaşlar və vətəndaşlar!

Əmələ Konfransının qərarı ilə bizləri martın 31-ində bir günlük zabastovkaya çağırırlar.

Martın 31-ində – ki 1918-ci il, martın köhnə qayda ilə 18-inə düşür – qoy bütün həyat dursun:

Səhər saat 8-dən zabastovka boruları (qudokları) çalınıb axşam saat 6-ya qədər mədənlər, zavodlar işləməsin. Dükanlar, bazarlar bağlansın. Hər kəs komitəmiz tərəfindən təyin olunan məhəllərə [yerlərə] toplanıb Mart facieyi-əliməsində [ələmli Mart faciəsində] kəsilən qurbanların, Azərbaycan fikri yolunda şəhid düşən minlərlə məsum və fədakar vətəndaşların ruhuna dua eyləsinlər.

Bu gün Bakı şəhəri, Azərbaycanın paytaxtı göstərməlidir ki, Martda vaqe olan ədalətsizlik, o böyük zülüm heç bir zaman azərbaycanlıların xatirindən silinməz, bu gün vətənin hürriyyətini, millətin səlamətini görən vətəndaşlar bu hürriyyət və səlamət uğrunda fəda olmuş şühədanı [şəhidləri] unutmazlar, onların ruhi-məzlumu [məzlum ruhu] hüzurunda xüşu və xüzu edər də [ehtiram və təvazökarlıq göstərər də], hürriyyət və istiqlalın payidar [əbədi] olması üçün əzm etdiklərinə dair and içərlər.

Vətəndaşlar! Haydi gəliniz, Azərbaycan demokratiyası sizi çağırır. Mart hadisələrini təşviq edənlər, bu hadisəni milli bir şəkilə salanlar bizi ayırmışlardı. Qoy bu zülümə, bu ədalətsizliyə qarşı mənəvi bir protest təşkil edən bir günlük matəm bizi birləşdirsin. Bu günü birləşəlim, firqə və millət fərqi gözləmədən Mart qurbanlarına rəhmət, o günün cəlladlarına isə lənət deyəlim.

Bu gün hər məhəllənin öz məscidində məclis qurulub ayini-tərhim [yas məclisi] icra olunacaqdır.

Faideyi-ümumiyyəni [xalqın mənafeyini] nəzərə alaraq aşağıdakı müəssisələr tətil etməyəcəklərdir:

1. Dəmiryol idarəsi;
2. Suçular – vodoprovod;
3. Çörəkçi dükanları;

4. Apteklər, xəstəxanalar;
5. Elektrik;
6. Posta, teleqraf və telefon.

Tətil Komitəsi tərəfindən məhəllələrdə və küçələrdə məxsus[i] adamlar qoyulacaqdır. Adamların qollarında məxsusi əlamətlər olacaq. Nə iş olarsa o adamlara müraciət etməli, özbaşına iş görməkdən, komitəsiz hərəkət eyləməkdən həzər etməlidir [saqınmaq lazımdır].

Fitnə və təhrikə meydan verməməli, təmkin və sükut ilə zabastovkanı başa aparmalıdır.

Azərbaycan demokratiyası özünün idraklı və mütəşəkkil olduğunu göstərməlidir ki, bu da sükun və nizamı saxlamaqla olar.

Yaşasın ittifaqla qüvvətlənmiş demokratiya!

Yaşasın Azərbaycan!

*Əmələ Konfransının Tətil Komitəsi*

## HEYƏTİ-MÜRƏXXƏSƏNİN PARİSƏ ƏZİMƏTİ MÜNASİBƏTİLƏ

Parisdə Sülhi-ümumi konfransına ezam etdiyimiz heyəti-mürəxxəsə [nümayəndə heyəti] nəhayət İstanbuldan Parisə əzimət etdilər [getdilər].

Bir xəbər ki, bizi həm sevindirir həm də düşündürür. Sevindirir, çünki əzimətləri İstanbulda təxir edilərək Böyükada və Heybəli adada ictima edən [yığıncaq keçirən] Rusiya hökumət və millətlərinin mürəxxəsləri ilə birlikdə ibrazi-fəaliyyət edilmiş [fəaliyyət göstərilmiş] və Şərq məsələlərinin bir çoxu kimi Azərbaycan məsələsinin də İstanbulda tədqiq və ya həll ediləcəyi qənaəti ortaya çıxmış idi. Halbuki, müstəqil və təyini-müqəddərat etmiş bir millətin hüquqi-istiqlaliyyə və milliyyəsi daha ümumi bir surətdə Sülhi-ümumi konfransının məsələləri arasında baxılıb görülməli idi. İştə, şimdi bu hasil olmuş, mürəxxəslərimiz Parisə əzimət etmişdir.

Paris! O məhdi-siyasət və mədəniyyət [mədəniyyət və siyasət beşiyi] olan şəhər, şimdi yüzlərcə, minlərcə mürəxxəslərin cahanın müxtəlif millətləri naminə müdafieyi-haqq və hüquq eyləmələri etibarı ilə nasıl bir cəvvaliyyət [hərəkət, canlılıq] və hay-huy içərisindədir. Bu hay-huyi-siyasi [siyasi hay-huy] içərisinə iştə Azərbaycan məsələsi, Azərbaycan istiqlaliyyəti də daxil olur. Nə səadət!

Fəqət, bizi düşündürür. Əcəba, Sülhi-ümumi konfransı istiqlaiyyət və müqəddəratımız haqqında nə qərar verəcək? Azərbaycanın təyini-müqəddərat və sahibi-hüquq olması məsələ və əsasına nə surətlə baxacaq?

İştə, bu suallar qarşımızda durur. Bu sualların hər birinə cavab vermək müşküldür. Çünki, ələlümum Asiya məsələsi və ələlxüsus sabiq Rusiyada yaşayan millətlərin hüquq keyfiyyəti Sülhi-ümumi konfransında belə müşkül məsail [məsələlər] arasına daxil olmuşdur. Lehistan [Polşa], Litva, Finlandiya, Ukrayna ilə bərabər Ermənistan, Gürcüstan və Azərbaycan məsələləri bir-biriləri ilə pək ziyadə əlaqədar olduğu qədər, Etilaf [Antanta] dövlətlərinin də ümumi müvazineyi-siyasiyyələrinə [siyasi tarazlıqlarına] bağlı və sabiq Rusiyanın bəqiyyətüssüyuf qəbilindən olan [müharibənin dağıntılarından geriyə qalan, müharibədən sonrakı] siyasiyyat və maliyyəsi ilə də münasibətdardır.

Aşkar bir keyfiyyətdir ki, Azərbaycanla sabiq Rusiyada təyini-müqəddərat etmiş millətlər mürəxxəsləri hər surətlə də ümumi və beynəlmiləl olan bir qayə ətrafında toplaşıb mənafeyi-müştərəkəyə [ortaq maraqlara] görə hərəkət edəcəklərdir. Yalnız bu qədər deyil, hətta başqa uzaq yerlərdə yaşayan millətlərin mürəxxəsləri ilə də tövhidi-məsai [əməkdaşlıq] ediləcək, həmdərd olan böyük bir mürəxxəslər qrupu da təşəkkül edəcəkdir. Bilxassə, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] kimi böyük və ümumi bir məsələdə bizim mürəxxəslərimizin Türkiyə, İran, Hindistan, Misir və sair millətlər mürəxxəsləri ilə birlikdə ümumi bir saheyi-siyasət bulunaraq Cəmiyyəti-Əqvama daxil ola biləcəklərdir. Hətta, bu kimi hüquqdan Azərbaycan – haşa [Allah eləməsin] – məhrum da olsa, yenə kəndisi ilə bərabər bir çox başqa millətlərin mürəxxəsləri də bu məhrumiyyətə düçar olacaq və hər halda Azərbaycan, istiqbali-siyasisi [siyasi gələcəyi] haqqında ilk təməlini Parisdə atacaqdır. Düşününüz ki, biz kimi daha yeni elanı-istiqlal edən bir millətin Parisdə, Sülhi-ümumi konfransında mövcudiyyət və hürriyyətinə nail olmuş bir millət olaraq səsi çıxması və aləmə kəndisini tanıtdırması keyfiyyəti belə bizim üçün böyük bir feyz və fövzdür [nemət və müvəffəqiyyətdir].

Demək ki, Sülhi-ümumi konfransına əzimət edən heyəti-mürəxxəsənin bu əziməti Azərbaycan üçün hər surətlə bir fali-xeyirdir [uğurlu əlamətdir]. Buna iman edəlim və biləlim ki, hüququmuz er-geç [tez-gec] təsdiq ediləcək və mühiti-beynəlmiləldə [beynəlxalq arenada] milliyyət və istiqlaliyyətimiz məsun [toxunulmaz] qalacaqdır.

Digər tərəfdən, Etilaf dövlətləri ilə olan münasibətimiz dostanə bir surətdə olmasına görə bizim haqqımızda Etilaf dövlətləri tərəfindən məkus [əks] bir təsir hüsulu da imkan xaricində bulunmaqdadır. Etilaf dövlətləri bilirlər ki, Azərbaycan Hökuməti və Azərbaycan türkləri daxilən və xaricən müntəzəm bir təşkilat qoyaraq yaşamağa layiq və müstəhəqq [haqqı çatan, layiq] bir hökumət və bir millətdir. Şübhəsiz, Etilaf dövlətləri onu da bilirlər ki, Azərbaycan türkləri üçün sabiq Rusiyanın bugünkü macəracu [avantürist] siyasiləri – və bəlkə də demokrat və sosialistləri – ilə haqq və hüququndan keçmək surəti ilə birləşmək və ya etilaf eyləmək [uzlaşmaq] qeyri-mümkün bir işdir.

Azərbaycan, hüququnu istəyir. Bu hüququnu da hər surətlə müdafiə edir. Bunu bütün dost və düşmənlərimiz bilsinlər. Bilsinlər və görsünlər ki, can və qan bahasına mal olmuş [başa gəlmiş] olan Azərbaycan istiqlaliyyəti Azərbaycan türkləri və Azərbaycanın Parisə gedən heyəti-mürəxxəsəsi üçün həyat və məmat [ölüm-qalım] məsələsidir. Azərbaycan dost və düşmənlərinə müqəddərati-tarixiyyə icabı olaraq düçar olduğu məhkumiyyət və təzyiqlərə əbədi bir vida göndərdiyini qətiyyətlə elan edir və o maziyi-mənhusa [uğursuz keçmişə] qırmızı qələm çəkərək:

– İstiqlal! İstiqlal! – deyir.

*Ə. H.*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

*(keçən nömrələrdən mabəd)*

**Tənəffüsdən sonra**

**Sədr** - Məclisə davam ediriz. Tənəffüsdən qabaq komisyonlara namizədlər barəsində təkliflər var idi. Onlardan biri Müdafieyi-Milliyyə Cəmiyyətinə bitərəflər tərəfindən Cavanşir Behbud xan təklif olunubdur. Mən o məsələni səsə qoymuşdum. Mən etiraz varmı, deyə soruşduqda cavab verən olmadı. Namizəd qəbul olundu. Divani-Rəyasət əzasından [üzvlərindən] Əhməd bəy Pepinov söz istədi, lakin danışanda məlum oldu ki, keçmiş məsələ barəsində danışır. Ona görə sözünü saxladım. Mənim bu hərəkətimə Əhməd etiraz etdi. Mən onun etirazını haqlı hesab etmədim. Əgər istəsə etirazını təhrirən [yazılı olaraq] verərsə əlavə edərik. Keçirəm növbədəki məsələyə. Gömrük idarəsinin təğyir və təbdili [dəyişdirilməsi və başqa şəklə salınması] barəsində layihədir. Söz dakladçı [məruzəçi] Şəfi bəy Rüstəmbəyovundur.

**Şəfi bəy** - 21 oktyabr 1918-ci ildə hökumət, Mərkəzi Maliyyə İdarəsi təşkil edəndə Maliyyə naziri öz idarəsində gömrük işlərinə baxmaq üçün iki məmur və iki qulluqçu təyin etmişdi. 19 avqustda hökumət bir də Mərkəzi Gömrükxana İdarəsini təşkil etmişdi. İndi bu idarələr iki olur. Maliyyə naziri iki idarəni lazım görməyir və təklif edir ki, bunların əvəzində Maliyyə Nəzarətində bir idarə təşkil olunsun və hər bir gömrük işləri bu idarəyə verilsin. Bir də Bakıdakı gömrükxana ki Rusiyadan gəlib İrana gedən mallara baxırdı, bu idarədə iş azdır. Təklif olunur ki, bu idarələri ləğv edib, əvəzində Maliyyə Nəzarətində bir şöbə açılsın. Ona görə, məzkur Nəzarət [adı çəkilən Nazirlik] bu qanun layihəsini təqdim edir. *(Oxuyur)* Komisyon öz tərəfindən bu layihənin qəbulunu təklif edir.

**Sədr** - Söz Aşurov Ağanındır.

**Ağa Aşurov** - Bu məsələ barəsində mən iki cəhətdən danışmaq istəyirəm. Biri əsas üzrə. Burada qanun layihəsi göstərir ki, Maliyyə Nəzarətində bir reform olsun, iş ayrı cürə aparılsın. Əvvəla, gərək bu idarə Maliyyə Nəzarətində olmasın. Tarixə baxsaq görərik ki, üç yüz il bundan qabaq Rusiyada gömrükxana təsis edildikdə bu idarə Ticarət və Sənaye Nəzarətində olub. Lakin Vitte bütün ümuri-idarəni [idarə işlərini] əlinə aldığı zaman onu da öz əlinə, yəni Maliyyə Nəzarətinə keçirtdi. Gömrük ilə hökumət vergilərini artırmaq bir bilvasitə [dolayı] vergidir ki, buna da siz tərəfdar deyilsiniz. Bir də məsələyə iqtisadi nəzərlə baxmalıdır. Heç vaxt Gömrükxana İdarəsi, Maliyyə Nəzarətində olmamalıdır. Hətta Zaqafqaziya Komitəsində bu məsələ belə idi. Bizim hökumət təşkil olunanda bu idarə Ticarət və Sənaye Nəzarətində idi. Bundan da mən bixəbərdim, çünki o zaman mənim təhti-idarəmdə [tabeçiliyimdə] iki Nəzarət var idi. Ona görə, 21 oktyabrda mən təklif etdim ki, bu idarə Ticarət və Sənaye Nəzarətinə verilsin. O vaxt təklifim qəbul olunmayıb, gömrük işləri Maliyyə Nəzarətində qaldı. Hərçəndi mən o vaxt sözümü dedim və indi də yenə deyirəm ki, bizim gömrükxana işlərimiz nə cür olsa da çox geridədir.





Bir də natiqlərdən bəziləri buyurdular ki, guya gömrükxana işləri azalmışdır. Mən buna inana bilmirəm. O zaman ki, biz Rusiyanın bir hissəsi idik, o zaman bir yol İrana gedirdi. O vaxt iş çox idi. İndi hər tərəfdən sərhədimiz açıq ikən necə ola bilər ki, iş az olsun? Mən belə başa düşürəm ki, iş az deyildir. Yalnız işə baxan adam yoxdur. Poyluda bir gömrükxanamız var ki, oradan Gürcüstana mal gedir. Zaqatalada gömrükxanamız yoxdur. Dağıstandan gələn yumurtaya ora hökuməti əlli qəpik alır. Amma biz sərhədi açıq qoymuşuq, kim nə istəyir aparır. Təkrar edirəm ki, gömrükxana bir Poyluda, bir də Bakıdadır. Mən təvəqqe edirəm komissiya bildirsin ki, bu barədə nə etmişdir. Və təklif edirəm gömrükxanalar öz yerində qalsın və lazım olan yerdə təzələri təşkil edilsin. Gömrükxanalar da Maliyyə Nəzarəti təhti-idarəsində deyil, Ticarət və Sənaye Nəzarətində olsun. Məmurlara likvidasiya verib təzədən məmur tutmaq da nahaqdır. Mən təklif edirəm bu layihə qəbul edilməsin.

**Sədr** - Məruzə barəsində kim danışmaq istəyir? Söz Rza bəy Qaraşarovundur.

**Qaraşarov** - Parlamanın keçən iclaslarından birində qərar qoyuldu ki, bu cürə layihələr əvvəlcə fraksiyalara gəlsin. Bizim fraksiyamız bu layihəni almamışdır. Təklif edərdim ki, layihənin müzakirəsi təxirə salınsın, əvvəlcə layihə fraksiyalara verilsin, sonra Parlamanda müzakirə edilsin. Bundan əlavə, belə görünür ki, bir neçə fraksiyalar da layihəni almamışlardır.

**Sədr** - Layihənin surəti fraksiyalara göndərilmişdir.

**Qaraşarov** - Biz almamışıq.

**Sağdan** - Biz də almamışıq.

**Sədr -** Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** (Əhrar) - Gömrükxana məsələsi əhəmiyyətli bir məsələ olduğundan və fraksiyalardan bir paralarına layihə çatmadığından "Əhrar" fraksiyası tərəfindən təklif edirəm ki, bu məsələ hələliyə müzakirə edilməyib qalsın.

**Sədr** - Məclisi-Məbusan Nizamnaməsinə görə belədir ki, layihə fraksiyalara getmiş və getməmiş də olsa Parlaman qərar qoya bilər ki, layihə müzakirə edilsin və ya götürülsün. Təklif var ki, layihə müzakirədən götürülsün. Hər kəs layihənin müzakirə olunmaması tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, layihə növbeyi-müzakiratdan götürülür. Keçirik növbədəki məsələyə. Növbədəki məsələ 1918-1919-cu sənələri üçün vilayət və dairələr vergisi məhkəmələrinə intixab qəvaidi [seçki qaydaları] xüsusunda layiheyi-qanuniyyədir [qanun layihəsidir]. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Rüstəmbəyli** - Padşahlıq [dövlətə məxsus] gəlir vergisinin 52 və 53-cü maddələrinə görə vergi uçastok idarələrinin üzvünü və onların yerini dolandıran[ı] şəhər idarələri ya şəhər nümayəndələri şurası və uyezdlərdə [qəzalarda] isə zemstvo idarələri [yerli özünüidarə orqanı] intixab edirdi [seçirdi]. [O] uyezdlərdə ki, zemstvo yox idi, Azərbaycan daxilində 1918-ci ilədək qubernatorlar köhnə qanunla 10-cu şöbənin 3-cü və 4-cü maddələri mövcibincə [əsasında] bir komissiya düzəldirdilər ki, vergi işlərini idarə edirdi. İndi Azərbaycan daxilində bu işlərə baxan bir idarə və zemstvo olma-

dığından, Maliyyə naziri təklif edir ki, həman qanun bir ilə qədər öz qüvvəsində qalsın və qubernatorların ixtiyarı olsun ki, əvvəlki kimi bu işlərə baxmaqdan ötrü uçastok quberniya komisyonları təşkil etsinlər. Ona görə, Maliyyə naziri belə bir layihə təklif edir:

1) Dövləti [dövlətə məxsus] gəlir vergisi qanunlarının 10-cu şöbə 3-cü və 4-cü maddələrin qüvvəsini (1916-cı il 26 apreldə 106 nömrəli 838 maddə hökumət binagüzarlıq [sərəncam] və qanunlarının məcmusu) Azərbaycan Cümhuriyyəti daxilində quberniya və uyezd zemstvo idarələri təşkil edilənə qədər uzatmaq.

2) 1919-cu il üçün quberniya və uyezddə təzə gəlir vergisi məntəqələri təşkilində dövləti gəlir vergisinin 10-cu şöbə 3-cü və 4-cü maddələri mövcibincə hərəkət edilməsinə icazə verilsin.

Maliyyə naziri təklif edir ki, bu qanun 1917-ci ilədək qəbul edildiyi kimi, 1919-cu ildə qüvvətdə qalsın.

**Sədr** - Məruzə barəsində danışmaq istəyən varmı? Danışmaq istəyən yoxdursa, son söz məruzəçiyə verilir.

**Rüstəmbəyli** - Bu qanun layihəsi komisyonda müzakirə edilərkən Camalbəyov və Malxazyan böylə rəy vermişlər ki, bu işlər hamısı zemstvodan asılıdır. Bununla bərabər tələb etmişlər ki, tezliklə zemstvo düzəlsin. Zemstvo olmasa, vergilər məhəllində [yerlərdə] yaxşı yığılmaz. Tələb edirlər ki, hökumət zemstvo təşkilatlarının tezliklə başa gəlməsinə böyük diqqət və əhəmiyyət versin.

**Sədr** - Qiraət olunan layiheyi-qanuniyyə, gördünüz ki, komisyon tərəfindən təshih və təğyir edilməyibdir [düzəliş və dəyişikliyə məruz qalmayıb]. Ona görə, layiheyi-qanuniyyəni eyni surətdə komisyon tərəfindən təklif edildiyi kimi səsə qoyuram. Hər kəs həmin qanun layihəsini komisyon üzvlərinin zemstvo arzuları ilə bərabər qəbul edirsə, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, layiheyi-qanuniyyə əksəriyyətlə qəbul olunur. Növbədəki məsələ Azərbaycan quberniya sənaye vergisi məhkəməsinin təşkili haqqında qanun layihəsidir. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Rüstəmbəyli** - 1914-cü ildə köhnə qanuna görə Bakı Vilayət Nafiə Komisyonunun sədri Bakı şəhər qradonaçalniki olardı. Dövlət Dumasında və bir çox sairlərinin rəyləri buna idi ki, bu komisyonun sədri Kazyonnı Palata [Xəzinə Palatası] müdiri olsun. Kazyonnı Palata müdiri bu işlə əlaqədar olduğundan [bu işdə maraqlı tərəf olduğundan], bu rəy rədd edilmişdi. Bir neçə vaxtdan sonra Kazyonnı Palata vergilərin bir çoxuna baxmırdı. Baxdığı vergilər ancaq hökumətə böyük xeyiri olan vergilər idi. Qeyri xırda vergilərin şikayətlərinə isə uçastok [sahə] vergi idarəsi baxırdı. İndi isə komisyonun rəyi budur ki, Kazyonnı Palata müdiri vilayət təşkilatında rəis ola bilər. Həmin təşkilatda məhkəmə üzvləri də iştirak edəcəyindən, Palata rəisinin təsiri ola bilməz və məsələlərə ətraflı baxıla bilər. Ona görə, Maliyyə naziri bir belə layiheyi-qanuniyyə təklif edir:

1) Sənaye vergiləri nizamnaməsinin davam edən qanunlarının 414, 415 və 417-ci maddələrinin (Məcmeyi-qəvaninin [Qanunlar toplusunun] 5-ci cildi, 1914-cü il təb'i [çapı]) təbdil [dəyişiklik] və əlavəsi olaraq böylə olsun:





413-cü maddə - (Qeyd) Vilayət sənaye vergiləri komisyonunda neft aksizlərinin aksiz idarəsi müdiri üzv sifətilə iştirak edir.

415-ci maddə - Vilayət sənaye vergiləri komisyonunda hər bir işi – İstinaf [Apelyasiya] Məhkəməsinin ümumi qətnaməsinə verilən şikayətlərdən başqa – İstinaf Məhkəməsi müdiri sədarət [sədrlik] edir, fəqət məzkur [deyilən] şikayətlər verildiyi zaman şəhər rəisi sədarət edir.

417-ci maddə - Vilayət vergiləri komisyonunun kargüzarlığı İstinaf Məhkəməsinin sənaye vergiləri işlərinə baxan şöbəsi naçalniki öhdəsinə vagüzar olunur [tapşırılır].

2) 1918-ci ildə vilayət vergisi komisyonunun dəftərxanasına dövlət xəzinəsindən 500 rublə buraxılsın və hər il həmin bu iş üçün Maliyyə Nəzarəti smetasına 3 min rublə daxil edilsin.

Bu qanun layihəsi Ləvayehi-qanuniyyə [qanun layihələri] komisyonunda baxılıb komisyon tərəfindən qəbul edilmişdir. Komisyon həmin qanun layihəsinin qəbulunu Parlamana təklif edir.

**Sədr** - Layihə barəsində kim söz istəyir? Danışmaq istəyən yoxdursa, səsə qoyuram. Hər kəs qiraət olunmuş layiheyi-qanuniyyəni komisyon qərarı ilə qəbul edirsə, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, layiheyi-qanuniyyə əksəriyyətlə qəbul olunur.

Növbədəki məsələ vergilər xüsusundakı şikayətlərə baxmaq üçün Maliyyə naziri indindəki Şuranın ali bir məhəl [qurum] olması haqqında qanun layihəsidir. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

*(yenə var)*

## PARLAMAN ƏTRAFINDA

Məclisi-Məbusan sədri naminə Zaqatal[a] quberniyası Qaxdan bu məzmunda bir teleqraf alınmışdır:

*"İki polkovnik, üç afiser, altı nəfər müsəlləh [silahlı] milisionerdən ibarət olan naməlum və şübhəli bir gürcü heyəti bir həftədir ki, quberniyanı dolaşıb təbliğatda bulunurlar. Məhəlli [yerli] hökumət məmurları nəinki bu barədə bir iş görməyir, hətta bəzi ziyalıların bu işə etirazından sonra belə heç bir tədbir ittixaz etməyirlər [tədbir görməyirlər]. Böylə bir siyasi cərəyanda gürcülərin bizim ölkəyə təcavüz etmələrinə qarşı ciddi binagüzarlıqda bulunmanızı [ciddi addımlar atmağınızı] və bu işlərə qarşı ciddi tədbirlər ittixazını rica edirəm.*

*Parlaman üzvü: Kiçikxanov"*

## TELEQRAF XƏBƏRLƏRİ

**Sülh Konfransının "böhranlı həftəsi"**

Yekşənbə [bazar] günü Sülh Konfransının ikinci "qəti həftəsi" başlanır. Lakin bu həftə Sülh Konfransı üçün qəti olduğu kimi həm də böhranlıdır. Nə o münasibətlə ki, sülh müahidənaməsi [sazişi] işləri təxirə uğrayır, bəlkə ona görə ki, rəylər müxtəlif olduğundan, konfrans işlərinin bilmərrə [tamamən] dayanması ehtimalı vardır. Çünki Sülh Konfransına iştirak edənlər arasında ixtilafi-rəy əmələ gəlmiş, fikirlər ayrılmışdır və bu iş getgedə nəhayət dərəcəyə varmışdır.

- Kopenhaqa verilən xəbərlərə nəzərən, sosialist Hofmann, Baş Bavariya na-

zirliyinə intixab edilmişdir [seçilmişdir].

Yekaterinodar – General Denikinlə Müttəfiqlər Baş komandanı general Bertlonun görüşməsi şayiata görə baş tutmayacaqdır.

- Odessadan xəbər verildiyinə görə, Cənubi Rusiyada hökumət təşkili üçün qayət bir mühüm şura vaqe olmuşdur.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

Amsterdam – Hindistanda başlanmış olan inqilabı yatırmaq üçün ingilis hökuməti tədbirlər ittixaz edir [tədbirlər görür].

- Odessada əhval son dərəcə həyəcanlıdır. Saatbasaat üsyan gözlənir. Senni meydançada xəndəklər hazır edilib top qoyulmuşdur. Odessadan afiserlər fərar edirlər. Əmələlərlə [fəhlələrlə] Könüllü qoşunlar arasında müsəlləh müsadimə [silahlı toqquşma] vaqe olub, hər iki tərəfdən tələfat vardır.

– Bu günlərdə Türküstandan varid olmuş [gəlmiş] bir zatın [şəxsin] dediyinə görə, bolşeviklər Türküstanda Bayraməli mövqifindən [stansiyasından] ətrafa hökmranlıq edirlər. Bolşeviklər Daşkənddən də qovulmuşlardır.

Türküstanın çox yerlərində, o cümlədən Buxarada Türküstan müsəlmanları özlərini bolşevik elan edib öz işlərini özləri idarə edirlər.

Buxarada hal-hazırda əmirin 9 min müntəzəm bolşevik qoşunları vardır.

Bolşeviklər Türküstan müsəlmanlarının işlərinə müdaxilə etməməyə məcbur olmuşlardır.

## DAĞISTAN ƏHVALI

**Dağıstanda**

25 martda Dağıstanlılar Məclisi-Məbusanının iclasında məlum edilmişdir ki, Baş vəkil Kotsev zeyldəki [aşağıdakı] surətlə yeni Kabinə təşkil etmişdir:

Daxiliyyə və Xariciyyə naziri Kotsev; Xalq Təsərrüfatı (Narodnı Xozyaystvo), Ticarət, Ərzaq, Maliyyə nəzarətlərinə Butayev; Hərbiyyə nazirliyinə Malsarov; Maarif nazirliyinə Şahvarov; Dəmiryol, Poçta-Teleqraf nazirliyinə Teymurxanov; Ədliyyə nazirliyinə və şəriət işlərinin müddəiyi-ümumiliyinə Yepzulayev. Yanvarın 26-da Parlaman Divani-rəyasəti seçilmişdir. Seçilənlər bunlardır: sədr: Qaplanov; müavini: Xanməhəmmədov; katib: Ömər Kadi.

**Çərkəzlər və Kuban Radası**

İstanbuldan alınan məlumata nəzərən, hal-hazırda İstanbulda bulunan Dağıstan Cümhuriyyətinin sülh nümayəndələri ilə Kuban Radası [Şurası] nümayəndələri arasında Qara dəniz boyuna, Kuban oblastına və Tersk oblastına türk çərkəzlərinin qaytarılması məsələsi müzakirə edilmişdir. Kuban Radasının sol cinahı bu amala tərəfdardır. Zira çərkəzlər vaxtilə silah gücü ilə qovulmuşdurlar. İndi zaman onların öz məkanlarına qayıtmalarına müsaidə verir.

**Dağıstanlılar və Könüllü ordu**

Vladiqafqazdan bu günlərdə varid olan [gələn] bir şəxs bəyan edir ki, Nalçik okruqunda olan dağıstanlılar arasında Könüllü orduya qarşı üsyan başlanmışdır. Bezengi, Xulam və Cigəm dərələrində yaşayan kabardinlər, balkarlılar Könüllülərə qarşı üsyan etmişlərdir. Onlar tələb edirlər ki, bilatəxir [dərhal] Könüllü ordu Nalçik okruqundan çıxsın və Nalçik dairəsində olan dağıstanlılar Dağıstan Hökuməti ilə əlaqəyə başlasınlar. Könüllü ordu bu yerlərə iki dəstə kazak göndərmişdir ki, orada üsyanı yatırsınlar.

## QIZIL BÖHTAN

23 mart[da] nəşr olunan hamı gürcü qəzetələri Axıska qırğınına qarşı Axıska müsəlman köylü vəkillərinin guya Azərbaycan[a] müraciətini rədd etmələri xüsusundakı qətnamələrini böyük hərflə elan edirlər. Elanın məzmunu o mərtəbə axmaq aldadan, o dərəcə açıq saxtakarlıqla yazılmışdır ki, ən mühakiməsizlər belə bunun nə məqsədlə yazıldığını anlamaqda güclük çəkməzlər, sanıram. Bu kimi qırmızı böhtan və yalanlarla məşğul olanların indiyə qədər köylülər adından nə alçaqca oyunlar oynadıqları və istədikləri vaxt daha nə arsızlıqlar, nə hiyləkarlıqlar, nə iftiralar meydana gətirə biləcəkləri həmin bu qətnamədən bəlli olmaqdadır.

Nədir o qətnamə?

Qətnamənin məzmunu gödəkcə budur:

*"Axıska müsəlman köylü vəkilləri Azərbaycan müsəlman hökumətinin Axıska qırğını əleyhinə gürcü hökumətinə verdiyi notanı müzakirədən sonra hamı bir səslə qərar vermişdir:*

*Axıska vüquatını [hadisələrini] meydana gətirənlər türk agentləri ilə posxovlulardır. Axıska qırğınında qırılarsaq biz qırılarız. Talan olarsaq, biz talanarız. Azərbaycan hökumətinin bizim işimizə qarışmağa nə haqqı var? Biz onun müavinət [köməklik] və himayəsinə əsla möhtac deyiliz. Bizim yerlər Gürcüstanın ayrılmaz bir hissələridir. Buna görə məmləkətimizdə hər nə qətl, qarət, soyğunçuluq olarsa, biz ilə onlar biləriz. Yadların qarışmasına qarşı protesto ediriz."*

Budur, iştə budur Axıska müsəlman (?) köylü vəkillərinin qətnaməsi!

Ey oxuyan, ey sahibi-izan [anlayış, idrak sahibi]! Söylə, insafla söylə! Dünyada bu arsızlıqda yalan, bu qırmızılıqda böhtan nərədə görülmüş?

Söylə, ey qare [oxucu], söylə! İki ildən artıqdır hürriyyət və hüquqi-mədəniyyə uğrunda gecə-gündüz çalışan, hər dürlü ağır zəhmət və fədakarlıqlara təhəmmül edən [dözən], axırda zülümə təhəmmül edəmməyib vətəninin qanlı ovalarında, boranlı dağlarında şəhidlər qanından yer-yer laləzarlar vücuda gətirən bir millət övladı böylə rəzilanə qətnaməyə tənəzzül edərmi?

Əmin olunuz ki, bu ya Tiflisdə uydurulmuş və ya Axıskada beş-altı gürcü parası ilə keçinən gürcü qanlı qafillərin, o da bilməyərək, aldadılaraq onların adından yazılmış bir qətnamədir.

Əvət, bu qətnamə müsəlmanlar adından yazılmış qırmızı böhtandır. Çünki martın 20-21-də, hənuz pərişan, gizləndikləri yerlərindən çıxmayan, çıxanları da aclıqlarından həlak olmaqda olan bir camaatın kəndi dərdlərini buraxıb da "siyasi" protestolarla məşğul olmaqlarına inanmaq, o kimi qətnamələr, qırmızı böhtanlarla məşğul olan "qara" fikirlilərin xasiyyətidir.

Yanvar ayında gürcü qüvvətinin sıxıntısı altında Məclisi-Müəssisan seçkisini rədd edən, fevral ayında kəndi arzuları ilə Cənub-Qərbi Qafqaz Hökuməti Məclisi-Məbusanına vəkillərini göndərən və indi də orada bulunan bir camaat bu kimi alçaq qətnamələr yazarmı? Hər kənddə özlərindən onlarca şəhid verən, yüzlərcə övladını sipərlərdə [səngərlərdə] yatıran və bir çox qardaşlarını indi də əsir sifəti ilə Tiflis "qazarmalarında" çürüdən bir camaat gürcü hökumətindən yerlə göy qədər razıyız deyərmi?

Əgər qətnamədə deyilən kimi, Axıska vüquatını meydana gətirənlər yalnız Osmanlı agentləri ilə posxovlular isə, daha ədalətli (?) gürcü hökuməti nədən ötrü yüzlərcə axıskalı müsəlmanı qoyun kimi doğradı? Nədən ötrü on minlərcə camaatı yurdlarından, kəndlərindən çıxarıb bütün var-yoxlarını qarət və yağma etdirdi? Qardaşlarının qanı hənuz qurumadan, bacılarının irzi hənuz vəhşi əsgərlərin əlində ikən, övladlarının ahuənini [ah-naləsi] hənuz qulaqlarda sızlarkən, minlərcə qonşuları "bir loqma ətmək!" fəryadı ilə inlərkən, əcəba axıskalıları, həm də "köylüləri" böylə aclıq və ölüm arasında, Azərbaycanı protest etmək kimi siyasi məsələlərdə məşğul etməyə vadar edən nədir?

Heç!

Həm Azərbaycanı neyçün protesto etsinlər?

Azərbaycan, notasında nə yazmış?

Yazmış ki:

*"Axıskalıları vəhşiyyətcə qırmayın, mallarını qarət etməyin, müharibəni saxlayın."*

Məgər, axıskalılar o qədər beyinsizmidirlər ki, bu dərəcə alicənab bir müavinəti-insaniyyəni [insani yardımı] rədd eyləsinlər?

Xayır, xayır!

Böylə küfrani-nemətlər [nankorluqlar], böylə alçaqlıqlar ancaq bu kimi qətnamələr, iftiralar bağlayan "siyasi naxal"ların [siyasi həyasızların] işidir. Müsəlmanların qətiyyən böylə bir rəzalətdən xəbəri yoxdur. Bu, gürcü demokrasisinin, daha doğrusu Ramişvili hökuməti-müstəbidəsinin üsuli-idarəsi tədbir və vasitələrindəndir. Özgə heç bir şey deyil. Ancaq: qırmızı böhtandır.

*Axıskalı*

## BAKIDA TƏZƏ DARÜLMÜƏLLİMİN GÜŞADI

Bu günlərdə Bakıda Birinci gimnaziyanın otaqlarında təzə darülmüəllimin [pedaqoji seminariya] açılır.

Hal-hazırda cavan Cümhuriyyətimiz daxilində milli darülmüəlliminlərin vücudu əhəmm və əlzəm [vacib və lazımlı] şeylərdən olmağını kimsə inkar edəməz. Mənən, kəbeyi-məqsudumuz [qayəmiz, məqsədimiz] bu heyndə [bu zamanda] bu qisim məktəblərdən ibarədir.

Bakı darülmüəlliminin ləvazimatibeytiyyə və tədrisiyyəsi [əşyaları və tədris ləvazimatları] bu halda hazırdır. Yalnız, tələbələr cəlb olunmağa ehtiyac vardır. Rəhleyi-ulada [ilk tədris ilində] açılacaq və şagirdlər qəbul olunacaq siniflər iki ehtiyat [hazırlıq] sinifləridir ki, buraya dərəceyi-qəbula ləyaqəti olan tələbələr sinn [yaş] cəhətindən 14-ü təcavüz etmiş [keçmiş] və məlumatları heysiyyətindən





[məlumatları, bilikləri baxımından] iki sinifli mübtədə [ibtidai] məktəblərin proqramması na tövfiqən [uyğun olaraq] türk lisanına kamalınca dara [bələd] olmuş cavanlardan olmalıdır. İşbu aprel ayının əvailində [əvvəllərində] rəsmi-güşadına iqdam olunacaqdır [açılış mərasimi həyata keçiriləcəkdir]. Bu məktəbə daxil olmağı arzu edən cavanlar məktəbin müdiri adına ərizə verməlidir. Suraxanski küçədə kain [yerləşən] Bakı Birinci gimnaziyasının otaqlarında darülmüəllimin üçün tədarük olunmuş qələm odasına saat 9-dan 2-yə qədər hər gün ərizəçilər şimdidən rücu [müraciət] etməlidir ki, rəsmi-güşad zamanı tələbələrin hüzuru [iştirakı] mümkün olsun.

Bu məktəbə daxil olmaq istəyənlərə həm məktəb haqqında və həm oxunmalı elmlərin vəziyyəti babında bir neçə söz söyləməyi münasib bildik.

Darülmüəlliminin dörd əsasi siniflərindən maəda [başqa] iki ehtiyat sinifi dəxi vardır ki, tələbəsi altı sənə mürurunda [ərzində] təhsil görəcəkdir. Lisani-təlimimiz türkcə olacaqdır. Fününi-mütənəvvedən [müxtəlif fənlərdən] başqa üç əcnəbi lisan dəxi oxunacaqdır: ərəb, fars və rus lisanlarıdır. Bu lisanlar üçün məxsusi müəllimlər olacaqdır. Darülmüəllimin rəsmən məkatibi-taliyyədən [orta məktəblərdən] məduddur [sayılır]. Yəni, tələbələrimiz gimnaziya kursu dərəcəsində təhsil görüb, gimnaziyanın kəsb etdirdiyi [qazandırdığı] hüquqi-rəsmiyyəyə [rəsmi haqlara] malik olacaqlar.

*Bakının Zükur darülmüəlliminin [oğlanlar seminariyasının] müdiri: Rəşid bəy Əfəndizadə*

## BAKI XƏBƏRLƏRİ

### Şəhər qulluqçuları və əmələlərinin tətili

(27 mart[da] olan Tətil Komitəsinin iclası)

Məlum olduğu üzrə, şəhər qulluqçuları və əmələləri Şəhər Dumasına bir tələbnamə vermişlərdi. Dumanın 26-sı martda vaqe olan [baş tutan] iclasında Duma qəti surətdə bu tələbi rədd etdiyindən, srağagün Duma qulluqçularının Tətil Komitəsinin təcili iclası olmuşdur. Komitədə davamlı surətdə müzakirat edildikdən sonra böylə qərar qoyulmuşdur:

Uprava və Dumanın cavabını Komitə istima edərək [dinləyərək] və İttifaqın heç bir tələblərinin qəbul edilmədiyini düşünərək Tətil Komitəsi qərar qoyubdur ki, bilamüddət [müddətsiz] tətil elan edilsin. Yekşənbə [bazar] günü saat 12-dən tətil başlanır. Əhaliyə xüsusi vərəqələrdə həqiqəti-əhvaldan bəyanat veriləcəkdir.

Şəhər upravasının bütün idarələri üç hissəyə bölünüb bir gün bir-birindən təxir ilə tətilə başlayacaqlardır. Birinci dəstə bu gün, mart ayının 30-da tətil başlayır. Birinci dəstəyə daxil olanlar: şəhər qlavası, Kanselyariyası [Dəftərxanası], Maliyyə şöbəsi, Məkatib [Məktəblər] şöbəsi, İnşaat şöbəsi, Statistik şöbəsi, Ərazi [Torpaq] şöbəsi və sairə.

İkinci dəstə: şəhərin bütün səhiyyə idarələri, məsələn Səhiyyə şöbəsi, aptek skladı [anbarı] və mexaniçeski camaşırxana. Bu da martın 31-də tətilə başlayacaqdır.

Üçüncü dəstəsi aprelin 1-dən başlayacaqlardır. Onlar da bunlardır: şəhər xəstəxanaları, Şollar su yolu, rezervuar [su

anbarı] Şollar uçastoku, Xırdalan, Biləcəri, Sumqayıt hissələri də buraya daxildir, növbətci mövqif [stansiya], şəhər budkalarından su buraxanlar, Mixaylov xəstəxanası.

**Silah tutulması**

Bu günlərdə Bakı təhərri [axtarış] polisəsi müdiri Fətəlibəyov ermənilər tərəfindən şəhərin bəzi hissələrində külli miqdarda əslihə [silah], patron və qeyri patlanğıc şeylər saxlanması barəsində məlumat alaraq, məzkur [adı çəkilən şəxs], polisə acentləri Maslak və Vəliyevə müəyyən məhəlləri [yerləri] axtarmağı əmr etmişdir. Acentlər axtarış edərək, nəticəsində Ermənikəndində 9-uncu Naqornı küçədə olan Voskan Qriqoryanın yanmış evində külli miqdarda patron, dinamit, böylə ki, əl bombaları üçün fitil 10 yeşik, fişəng 8 qutu, üçaçılan tüfəng patronu 1200 dənə, bikford ipi 20 parça, tüstüsüz barıt 30 qutu, yenə başqa fitil 10 qutu, dinamit 7 svertok [bağlama], 2 yeşik başqa patlanğıc şeylər tapılmışdır. Həmin şeyləri saxlamaqda müttəhim edilənlər Mixail Stepanyan, Mixail İsluns, Qriqori Babayans, Ayrapet Osipov və Məliksint Bağdasarov Bakı qubernatoru tərəfindən hər biri üç ay müddət həbs edilmişlərdir.

**İdilboyu müsəlmanlarının iclası**

İdilboyu [Volqaboyu] müsəlmanları Cəmiyyəti-Xeyriyyəsinin bir dəstəsi öz həmvətənlərindən təvəqqe edirlər ki, yekşənbə [bazar] günü mart ayının 30-da, saat 3-də iniqad edəcək [baş tutacaq] Cəmiyyəti-Xeyriyyənin ümumi iclasına təşrif gətirsinlər. İclas 4-üncü Paralel küçəsində vaqe, 27 nömrəli məscidin mənzilində olacaqdır.

Müzakirə ediləcək məsail [məsələlər]:

1) İnşası başlanmış olan məscid inşasını idarə üçün divani-rəyasət intixabı [seçilməsi];

2) İclasda qalxacaq sair məsələlər.

**Mütəəllimlər arasında**

Bayram cəşni [məclisi]

Martın 23-də Birinci Realnı məktəbinin binasında Bakı və ətrafının Türk Mütəəllimləri [Tələbələri] İttifaqı tərəfindən cəşn [şadlıq] məclisi tərtib verilmişdi. Məclisdə Bakıda mövcud bütün edadi məktəblərinin mütəəllim və mütəəllimələri [oğlan və qız tələbələri], türk lisanı müəllimləri və tələbələr iştirak edirdilər.

Əbülfəzl əfəndi İttifaqi-Mütəəllimin İdarəsi tərəfindən məclis əzasını [üzvlərini] birinci müstəqil Novruz münasibətilə təbrik etdikdən sonra, Azərbaycan türklərinin istiqlaliyyəti yolunda Qafqaziyanın geniş səhralarını kəndi qanları ilə boyayan türk şühədası [şəhidləri], türk qəhrəmanlarının istirahəti-ruhu üçün hamının ayağa qalxmasını rica edir. Məclis əhli hamısı müttəhidən [birgə] ayağa qalxır. Natiq, gənclərin millət həyatında böyük rollar oynadığını qeyd edib, türk mütəəllimlərini maddi və mənəvi cəhətdən təmin etmək uğrunda çalışan İttifaqi-Mütəəlliminə yardım etməyi rica edir.

Bədəhu [sonra], məclisin fəxri sədrliyinə İsa bəy Aşurbəyli cənabları intixab olunur [seçilir]. Məzkur [adı çəkilən şəxs], Maarif Nəzarəti tərəfindən mütəəllimləri təbrik edib mütəəllimlərdən böyük ümidlər bəslədiyini söyləyir. Qəhrəman Məhəmmədzadə tərəfindən tərtib verilmiş tarçılar dəstəsi bir qədər şərqi mahnılar çaldıqdan sonra qonaqlar süfrə kənarına dəvət olunurlar. Nahardan sonra Birinci Realnı məktəbinin naziri [müdiri] Denfer cənabları mütəəllimləri təbrik edir. Məzkur [adı çəkilən şəxs], "Azərbaycan Hökumətinin əsası ancaq elm, maarif və fənn ilə möhkəmləşəcək" sözünü dəfələrlə təkrar edir. İdarə sədri Aslanzadə izhari-təşəkkür edir. Müəllimə Vəsilə xanım sürəkli alqışlar içrə nitqə başlayır, natiqə əfəndi türk qadınlarının acınacaq halına təəssüf edir. Məzkurə: "Yetər bu qədər əziyyət, yetər bu qədər heyvanlar kimi yaşadığımız. Mən müəllimə və mütəəllimələr tərəfindən, siz mütəəllimlərlə həmişə bir yerdə işləyəcəyimizi vəd edirəm" sözləri ilə nitqini bitirir.

Cavan şairimiz Cəfər Cabbarzadə cənabları türklük və gənclik barəsində yazdığı şeiri oxuyur. Sənaye məktəbi mütəəllimi Mirzəbala Məhəmmədzadə əfəndi Novruz barəsində gözəl bir nitq irad edir. Bir qədər danışıldıqdan sonra şərqi rəqslər başlanır. Saat iki radələrində qonaqlar həpsi üzlərindən bir bəşaşət [sevinc] müşahidə olunduğu halda sazəndələrin şərqisi altında dağılıb gedirlər.

*Mütəəllim*

**18 mart münasibətilə**

Keçən sənə Mart hadiseyi-əliməsində son dərəcə dəhşət və müsibətə uğramış olan şəhərin Məhəmmədli məhəlləsi və Hacı Ağababa təkyəsi hissələrinin müsəlman əhalisi tərəfindən martın 18-19 və 20-si üç gün olaraq həman faciədə şəhid düşənlərin istirahəti-ruhu üçün təziyə məclisi (pəsməzar) tərtib ediləcəkdir. Pəsməzar, məzkur [adı çəkilən] məhəllələrin məscidlərində tərtib edilib, şühədanın əqvamı [şəhidlərin qohumları] tərəfindən bəyani-təziyət qəbul ediləcəkdir.

**Məhəllə nümayəndələrinin iclası**

Dünən martın 29-da, Parlaman binasında Türk Əmələ [fəhlə] Konfransının seçildiyi Tətil Komitəsi tərəfindən dəvət edilmiş olan məhəllə vəkillərinin iclası vaqe oldu. İclasda şəhərdə mövcud 32 məscid və təkyədən nümayəndələr iştirak edirlərdi. İclas 31 Mart münasibətilə keçən 18 Mart hadiseyi-əliməsini yad etməklə bir gün tətil etmək məsələsi müzakirə edilib, zeyldəki [aşağıdakı] qərardad qəbul edildi:

Şəhərdə, mədənlərdə olduğu kimi, səhər saat 8-dən tətil başlanıb, axşam saat 6-ya qədər davam edəcəkdir. Bütün dükan, bazar bağlanır, fəqət suçular, çörəkçilər, elektrik, aptek və xəstəxana, telefon, teleqraf, posta işləyəcəkdir. Bunlardan başqa ümum işlər saxlanılacaqdır. Hər məhəllənin öz məscidində cüz qoyulub "Quran" oxunmaqla şühədanın ruhuna fatihə oxunacaqdır. Məclis saat 2-yə qədər davam edib, ondan sonra hər məhəllənin camaatı öz nümayəndələri ilə bərabər Təzəpir məscidinə cəm olur. Burada dəxi "Quran" oxunduqdan sonra camaat məscidin həyatinə cəm olur, natiqlər tərəfindən Tətil Komitəsinin tərtib etmiş olduğu proqramma üzrə nitqlər irad olunub Mart hadisatına dair məlumat veriləcəkdir və məclis xitam olacaqdır.

Məhəllələrdə asayiş və nizamı saxlamaq üçün hər məhəllə tərəfindən birər

komitə intixab edilir [seçilir] ki, onlardan iki nəfəri – birisi məsciddə qalıb, o birisi isə Mərkəzi Tətil Komitəsi, Parlaman binasında olur, hər bir ittifaq [hadisə, təsadüf] və məsələ barəsində Mərkəzə müraciət edir və oradan təlimat alır. Komitənin qalan üzvləri isə səyyar üzvlər olub məhəlləni gəzir və nizam və qaydaya nəzarət edirlər. Mərkəzi Tətil Komitəsi və səyyar üzvlərə məxsus nişanlar olacaqdır. Mərkəzi Komitə üzvlərinin boyunlarında qara şallar, səyyarların isə sağdan sola sinələrində qara hamayıl olacaqdır. Məhəllə məscidlərinin və həmçinin Təzəpir məscidinin üzərində qara bayraqlar asılacaqdır.

## MART MATƏMİ

### Müsəlman Əmələ və Kəsbkarlar Konfransı

1919 sənəsi mart ayının 28-ci günündə Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin mərkəzi bürosunun binasında Məhəmməd Əmin Rəsulzadə cənablarının təhti-sədarətində [sədrliyi altında] 300 əmələ nümayəndələrinin iştirakı ilə bir konfrans məclisi iniqad etdi [baş tutdu]. Məclisdə əmələ nümayəndələrindən maada [başqa] bəzi əsnaf [sənət və peşə sahibləri] nümayəndələri dəxi mövcud idi. Sədr cənabları məclisə daxil olar-olmaz ümumi alqışlarla qarşılandı.

**[Məhəmməd Əmin Rəsulzadə]** – Həzərat! Bu gün bizi buraya toplayan məsələ Mart matəmidir. Əlbəttə, bundan bir il əvvəli xatırlarsınız. O zaman bizlər geniş bir salonda, "İsmailiyyə" binasının işıqlı və havadar binasında toplanardıq. İndi bilməcburiyyə bu daracıq otaqlarda yığışmaq məcburiyyətindəyiz.

Əvət, yoldaşlar! Mart hadiseyi-əliməsini xatırlamalıyız. O gün bizim həyatımızda əbədiyyən unudulmaz bir gündür. Bir millət, şadlıq günlərini yadında saxladığı kimi, matəm günlərini də unutmamalıdır.

O gün, o qital [qırğın], o öldürüş, istəməyərək bizə, biz türklərə bağlanmış idi. O gün, keçən martın 18-ində – ki təzə qayda ilə martın 31-i deməkdir – Azərbaycan muxtariyyəti və azərbaycanlıların hürriyyətinin düşməni olanlar "sovet" namını taqınaraq [özlərinə "sovet" adı verərək] müsəlmanlara elani-hərb eyləmişlərdi. Fəqət, müsəlmana elani-hərb etmək "demokratik" olmadığından, başqa bir ünvan lazım idi. Bu ünvan da "burjuy Müsavat" ola bilərdi. Fəqət onların ikiüzlülüyünü kim örtə bilərdi? "Müsavat"ın o günlərdəki tərzi-hərəkəti, sülhpərvərliyi, ixtilaf çıxarmaq istəmədiyi hangi bitərəf bir şəxsə məlum deyildir? Bunu qətnamələr, bəyannamələr və "Müsavat"ın natiqləri ilə isbat etmək mümkündür.

Fəqət məsələ burada idi ki, Bakı Rusiyanın kadeti-burjuyuna da, bolşeviki-əmələsinə də lazım idi. Onun üçün azərbaycanlılara ancaq "xarabazar" verilə bilərdi. Bunu bizə bolşevik mətbuatı deyirdi.

İştə, Mart faciəsi hürriyyət və muxtariyyət əvəzinə bizə xarabalıq vermək istəyənlərin cinayəti idi. Onun üçün Martda kəsilən minlərlə qurbanlar, fəda edilən şəhidlər Azərbaycan fikri-hürriyyət və istiqlalının qurban və şəhidləridir. Biz onları Martın 31-də xatırlamalı, o günü həyatı durduraraq matəmə girməli, ruhlarına fatihə oxumaqla qanımız bahasına alınan hürriyyətimizi qanımızı tökməklə olsa da mühafizə edəcəyiz deməliyiz. *(Alqışlar)* Bu xüsusda danışmaq istəyənlər söz alsınlar.

**Zülfüqar** – Sədr cənablarının buyurduqları vəchlə biz bu möhtərəm şəhidlərin xatirəsi ilə onların faciəsi günü dövreyi-sənəviyyəsini [il dönümünü] matəm etməliyiz. Bu şəhid olanlar burjuazi sinifindən olmayıb Xələf, Qara və Əhməd kimi öz əmələ yoldaşlarımızdır ki, onlar lianozovlular tərəfindən qətl edilmişlərdir. Bu şəhidlər 27 əmələ yoldaşlarımızdan ibarətdir ki, bunlar haqsız yerə qətl edilib Məlikovun quyusuna doldurulmuşlardır. Bu şəhidlər, o fəhlələr, qadın, ixtiyar, çoluq və çocuqlardır ki, nahaq yerə süngülənmiş və müqabiləsiz [müqavimətsiz] qətl edilmişlərdir. Onun üçün həqiqətən bu matəm bir demokratiya [xalq] matəmindən başqa bir şey deyildir. Biz onların matəmində bütün varlığımızla iştirak edib o günü ümum millətdaşlarımız bu müsibətin matəmində iştirak etməlidirlər.

**Abbasqulu Kazımzadə** – Bu gün buraya toplanmaqdan məqsəd bir hadiseyi-əlimə və ikinci aşuranı dərxatir etməkdir [yad etməkdir]. Mən bir az bunun əsbabi-mövcibəsindən [səbəblərindən] bəhs edəcəyəm. Keçən sənə mart ayının 18-də "Müsavat" idarəsinə telefon ilə İmamverdi körpüsündə əsgərlərimizdən 26 kişinin mühasirə edilmiş olmaqla xəl'i-əslihə edilməkdə [silahları əllərindən alınmaqda] olduqları ittila [xəbər] verildi. "Müsavat" oraya bu işləri islah [yoluna qoymaq] üçün göndərmiş olduğu məmurlar yollarda olan atışma dolayısı ilə gedəməmədilər. Gecə saat 1-də biz bir çox təşəbbüsdən sonra körpüyə getdik. Bir çox qonuşmadan sonra saat 5-də, ələssabah [səhər] xəl'i-əslihə edilmələri təqərrür etdi [qərarlaşdırıldı]. O vaxta qədər gecə atışmasında əsgərlərimizdən dörd kişi öldürülmüş, orada alınan silahlar özümüzə iadə edilmədiyindən ayın 18-də biz əhali içərisindəki həyəcanı yatırtmaq və bu işə sülh ilə əncam vermək məqsədi ilə cəmiyyətin bürosuna toplandıq. Bu xüsusda nə qədər təşəbbüs etdiksə də, bir taqım qara qüvvələri razı edəməyib iş alovlandı. Bizim bəzi bolşevik biçar sosialistlərimiz də iştirak etməklə daşnakların əskidən bəri qurmuş olduqları planları və oynamaq istədikləri rolları meydana çıxdı, dava başlandı. Fəqət kimsə nə dava olduğunu bilməyirdi. Zahirdə burjuazi müharibəsi namı ilə qətl edilən füqəra, əmələ və kəndçilərimiz və şəhid olan əlsiz-ayaqsız çoluqçocuq, qadınlarımız. Bu davanın nə dava olduğunu, yoldaşımız Zülfüqar da söylədiyi vəchlə, hər kəs bilir. Şimdi isə biz heç bir kimsənin yaşamasına müxalifət etməyiriz. Yalnız biz kəndi yaşamamızı təmin etmək arzusundayız. Bununla da yaşamağa haqqımız olduğunu bütün cahana isbat eylədik və istiqlalımızın rəhni olan bu şəhidlərimizi unutmayıb, bu ikinci məhərrəm gününü və o gündə şəhid olanları xatirimizə gətirməklə bir daha iləridə millətimizin qoyun kimi boğazlanmasına meydan verməmək üçün gözümüzü açmalıyız. Martın 31-də edəcəyimiz matəm tətili bunun bir nümunəsini təşkil etməlidir. *(Alqışlar)*

**Məhəmməd Əli Rəsulzadə** – Mart fa-

cieyi-əliməsinə səbəb, bir çoxları bir neçə nəfər əsgərlərimizin silah verməmiş olduqlarını göstərirlər. Halbuki bu işə ümdə səbəb, müsəlmanların səbir kasasının son damla ilə daşmasıdır ki, müsəlmanlar da kəndilərini müdafiə etmək üçün silaha sarıldılar. Zira, hürriyyətin elanından sonra burada qurma bir əmələ şurası tərtib edildi. Müsəlmanlardan o şurada yalnız iki kişi vardı. Sonra bu şura, fəhlə və əsgər şurasına təbdil edildi [çevrildi]. Bundan da bir nəticə çıxmadı. Bədəhu [ondan sonra], qanun daxilində icra edilən intixablarda [seçkilərdə] "Müsavat" cəmiyyəti 75 faiz nisbətində səs aldı. Onun üçün bu bir çoxlarının işlərinə gəlmədi və bunu pozub təyin üzrə özləri istədikləri adamlardan bir şura tərtib etdilər.

Burada əskisi kimi müsəlman az idi. İştə bu vəchlə sosialistlik niqabı altında bir çox milli intriqalar çevrilməkdə idi və bu adamlar uyumayıb gecə və gündüz milli vəzifələrini ifa edirdilər. Məsələn, Astaradakı müsəlmanların, Lənkərandakı millətdaşlarımızın və Qızılağacdakı din qardaşlarımızın və bilaxirə [nəhayət] buradakı millətdaşlarımızın bir çox qanını tökmək və toplara hədəf etməkdə olan həman sosialistlik niqabı altında çalışmaqda olanlardı. Burada sosialistlər Qırmızı ordu deyə əsgəri təşkilat yapırdılar. "Müsavat"ın və müsəlmanların göndərmiş olduqları adamlara silah verməyirdilər. Tiflisdən buraya gəlmiş olan ştab (ərkani-hərbiyyəmiz) belə onların təəddi [zülüm] və təcavüzlərindən təxlisi-giriban edəmmədi [yaxasını qurtara bilmədi]. Bunca ədavətpərvəranə [düşməncə] təşəbbüslər idi ki, müsəlmanları səbir və təhəmmüldən [dözümdən] çıxardı. Şura Hökuməti müharibə edəndə "Müsavat" cəmiyyəti bir çox bəyannamələr nəşr etmək və nəsayehdə bulunmaqla [nəsihətlər etməklə] bu faciənin önünə bir sədd çəkmək istədisə də, mümkün olammadı. Burada əlhal [indi] yenə bolşevizm hərəkatı vardır. Bunlar yenə bizim hüququmuzu məhv etmək üçün bir taqım intriqalardır. Bunlar həqiqi bolşevizm olsaydılar bəlkə onlarla razı ola bilərdik. Fəqət, hal bu minval ikən bizim müsəlmanlarımız bunlara aldanmasınlar. Bunlarla iqtisadi məsələlərdə iştirak etmək olar, fəqət siyasi işlərimizi kəndimiz öz əlimizə almalıyız. Zira bu Mart faciəsi bizə eyi bir dərsi-ibrət olmuşdur. *(Alqışlar)*

**Rəfizadə Yunis** – Necə ki, yoldaşımız [Məhəmməd Əli] Rəsulzadə cənabları söy-lədilər, Şura Hökumətində müsəlmanlardan ancaq iki adam var idi. Sonra bizim 75 faiz nisbətində qazandığımızı görüncə bu intixabı onların qəbul etməmələrinin səbəbini sorduq. Bizə cavabən Caparidze və arxadaşları cavab verdilər ki, bu intixabı matroslar qəbul etməyirlər. Siz haqqınızı isbat etmək üçün əlinizdə silah olmalı idi. Mən kəndim bu işlərdə çox işlədim və bir çox şey eşitdim və öyrəndim. Böylə ki, əgər şura qoşunu Ağcaqabuldan [Hacıqabuldan] Yevlax istasyonuna yetişmiş olsaydı, Qafqaziyada ümumi bir müsəlman qırğını başlayacaqdı və nəticədə böyük bir Ermənistan təşkil ediləcəkdi. Burada acınacaq bir vəq'ə [hadisə] dəxi vardır ki, bu işlərdə onlara bizim bir taqım sosialist müsəlmanlarımız da müavinət [kömək] edirdilər. "Müsavat"ın Sabunçu şöbəsinin katibi, bəradəri [qardaşı] və oğulları ilə bərabər qətl





edildilər və bir çox bunun kimi millətpərvər və millətinin təali [inkişaf] və tərəqqisi üçün çalışan zəvat [şəxslər] şəhid düşmüşlərdir. Bu adamlar müsəlmanlara ümumiyyətlə zidd olduqları kimi, eyni vəchlə xüsusi olaraq "Müsavat"a da zidd gedirdilər. Onun üçün gözümüzü açmalıyız.

**Sumbatəli** – Biz Suraxanı əmələsindəniz. Suraxanıdakı müsəlmanların fəlakətli hallarını və füqərayi-kasibə öldürüldüyünü və arvad-uşaqların pərişan olduğunu gözümüzlə gördük. Bu işləri bizim başımıza gətirənlərə hər zaman protesto edəriz.

**Rəhim Cahangirzadə** – Biz üç mədən tərəfindən gəlmişiz. Mən burada açıq danışacağam. Bu işlərin bizim başımıza gəlməsinə ümdə səbəb bizim gözümüzün açılması və istiqlaliyyətimiz üçün çalışmamızdır ki, onlar bizi həmişə öz boyunduruqları altında mühafizə etmək istədiklərindən, bizi həmişə əzmişlər və əzmək istəmişlərdir. Hətta, bizim yoldaşlarımızdan bir çoxusunu yoldaşlıq adı ilə birər bəhanə ilə aldadıb, götürüb öldürmüşlərdir. Bizim sosialist qardaşlarımız bu işdə çox yanlış yol getdilər. Laəqəl [heç olmasa] ölənlər kim və quyuya tökülənlərin kimlər olduğunu görməli idilər. Bunların əsas fikirləri Azərbaycan fikrini daşıyanların imhası [məhv edilməsi] idi.

**Cavad bəy** – İrandan gəlmiş olan doxsan min tüfəngdən biz adam göndərib beş yüzünü müsəlman əmələləri üçün istədik. Əvvəlcə pək eyi söylədilərsə də bilaxirə [axırda] yalnız 151 dənə tüfəng verdilər. Şamxor hadisəsində Mişa Arzumanov Şaumyana yazmış idi ki, Şamxor hadisəsində müsəlmanların əlinə bir çox silah keçmişdir. Bunun çarəsi şimdidən edilməlidir. Odur ki, bizim bu qədər qanlarımız töküldü, minlərcə şəhidlər verdik. "İsmailiyyə"miz yandı, "Açıq söz"ümüz yandı. Bundan sonra gözümüzü açmalıyız.

**Mirzəağa Musazadə** – Bizim buraya toplanmamızın səbəbi nə olduğu məlumdur. Keçmiş günlərdə biz böylə toplansaydıq, bu işlər bizim başımıza gəlməzdi. İndiyə kimi qurdlar qoyun dərisində bizi yırtdılar, dağıtdılar. İndi də aramızda qoyun dərisində bir çox qurdlar vardır ki, mən onlardan ehtiyat edirəm. Bu gün yas və matəm etmək istəyiriz biz onların namını daimi etmək üçün. Biz onları daima xatırlayaq və keçmiş olan qara günlərimizi unutmayaq.

**Həsən** (Dağıstanlı) – Bizə ən birinci ittifaq [birlik] lazımdır. Bunlar bizimlə nəinki yalnız mart ayından, bəlkə Xorasanı topa tutmaq və Kərbəlanı uçurtmaq və Təzəpiri yıxmaqla münasibətimizi kəşf etdilər. Bunları biz kəndimiz böyütdük və onlara hər daim səs verməklə üzərimizə ağa kəsdirdik. Mən Mart faciəsindən əvvəl nə qədər dadü-fəryad etdim ki, bu işlər şura məsələsi deyildir, bu, millət davasıdır. Hazırlıq üçün çox çalışdım, fəqət biz onları kəndimizə [özümüzə] ağa eylədiyimiz üçün onlara kor-koruna tabe olduq. Türklər buraya gəlmiş olmasaydılar, bizi kamilən məhv edəcəkdilər. Peyğəmbərimiz bir Xədicənin parası və Həzrəti Əlinin qılıncı ilə islamı diriltdi. Bu qədər müsəlman öz millətdaşlarımızı mühafizə edəmməziksə, biz nasıl müsəlman olarız? Əlhal, bizim yekdigərimizdən [bir-birimizdən] ayrılmamıza yenə qara qüvvətlər çalışırlar. Biz gərək bu gün Mart

faciəsindəki şəhidlərimizə matəm saxlamaqla ağlımızı başımıza toplayaq.

**Piri Mürsəlzadə** – Cənabi-Allah Qurani-kərimində ədalət və ehsanı əmr edir. İslamlar buna əməl etdikcə, tərəqqi edirdi və bundan uzaqlaşmaqla inhitata [geriləməyə] başladılar. Biz hüququmuzu aldıqda başqalarının hüququnu mühafizə etdik. Dünyada insanlar xoşbəxt olmaq istərlərsə, fədakar olmalıdır və o xoşbəxt olanlar fədakar olanlardır ki, öz fədakarlıqları ilə bizim istiqbal [gələcəyimizi] və istiqlalımızı təmin etdilər. Səadət və şəqavət [bədbəxtlik] təriqini [yolunu] qazanmaq hər bir insanın öz ixtiyarındadır. Bugünkü günün şəhidləri dəxi millət qəhrəmanları olduğundan, onların ruhlarına durmaqla təzim edib fatihəxan olalım [fatihə oxuyaq]. *(Ümumən qalxırlar.)*

**Ağabala Əlizadə** (Rəşt şöbəsi nümayəndəsi) – Bu gün Rəştdə olan "Müsavat" şöbəsi haqqında məlumat verəcəyəm. Yevropa siyasəti iki dürlüdür. Onların birisi hürriyyət və digəri istibdad olmaq üzrə iki dürlü siyasəti vardır. Bunun hər ikisi İranda tətbiq olunmaqda idi və bu ikiüzlü siyasət İranı bugünkü fəlakətə soxdu. Nasıl ki, buradakı bizim sosialistlər də işə gələrkən müstəbid, sözdə isə hürriyyət iddiası ilə bizim başımıza Mart faciyeyi-əliməsini gətirdilər və bir çox müsəlmanların qanını tökdülər. Mart ayının 19-da İranın Rəşt iskələsinə [limanına] bir vapor [gəmi] gəldi. Bakıda iğtişaş başlanmış olduğunu xəbər verdilər. Sonra, telsiz teleqraf ilə martın 22-də müsəlmanların silahlarının alındığını xəbər aldıq. Biz bu hadisəyə inanmadıq. Bilaxirə, qaçqınlar gəlməyə başlayınca məsələni bildik. Rəşt və Ənzəlidəki ermənilər orada, bir islam torpağında da silaha sarılıb qaçqın müsəlmanları öldürmək istəyirdilər. Mən burada bir çoxunun sözünü əsla unutmaram ki, babasına "Baba, biz islam torpağına qaçdıq; buradamı da ermənilər bizi öldürəcəklərdir?" Bu söz nə qədər müəssirdir [təsirlidir]. Onun üçün həyat və yaşamaq istəyən bir millət silaha sarılmalı və kəndi hökumətini təqviyə etməlidir [gücləndirməlidir]. Hökuməti olmayan bir millət yaşayammaz. Biz də yaşamaq haqqına haiz [malik] olduğumuzu cahana isbat edək. Allah rəhmət eyləsin şəhidlərimizə! Yaşasın Azərbaycanın istiqlaliyyəti!

**Sədr [Məhəmməd Əmin Rəsulzadə]** – Natiqlər ümumiyyətlə bu facieyi-əliməgünü olan 31 mart yövmünü [gününü] matəm etmək məqsədilə tətil eyləmək fikrində olduqlarını isbat eylədilər və bunun üçün böylə bir qətnamə təklif olunur:

Əmələ rayonlarının hər tərəfindən toplanan Əmələ Vəkilləri Şurası martın 28-də əqd eylədiyi ictimasında [baş tutan yığıncağında] keçən il martın 18-də (ki təzə qayda ilə martın 31-ə təsadüf edir) vaqe olan Mart facieyi-əliməsinin Azərbaycan muxtariyyət və istiqlal fikri əleyhinə icra edilmiş bir zərbeyi-xainanə [xain zərbə] olduğunu və qəsd [məqsəd] və nəticə etibarı ilə Azərbaycan demokratiyasının [xalqının] zalımanə bir surətdə qətl və talan[ı] şəklini alması ilə vətəni [milli] bir matəm təşkil eylədiyini nəzərə alaraq, bu gündə tökülən nahaq qanların, verilən şəhid və qurbanların tərhimi-yadı [rəhmətlə yad edilməsi] üçün Martın 31-də bir günlük matəm tətili elan etməyi təhti-qərara aldı. Konfrans tətilin icrası üçün kəndi arasından Tətil Komitəsi intixab edərək [seçərək], bütün əmələ yoldaşlara Martın 31-də səhər saat 8-dən axşam saat 6-ya qədər tətil etməyi təklif edir.

Qətnamə ittihadi-ara [yekdillik] ilə qəbul olunur.

**Sədr [Məhəmməd Əmin Rəsulzadə]** – Burada matəm tətilini idarə etmək üçün bir mərkəzi və bilaxirə rayonnı staçeçnıy komitet (tətil komitəsi) intixabı təklif olunur. Mərkəzi Tətil Komitəsi 6 və ya 10 kişi olması üçün iki dürlü təklif vardır. Hər ikisini səsə qoyacağam. *(Əksəriyyətlə 6 kişi olması qəbul olunur.)* Tətildə son dərəcə asayişi mülahizə etməklə [nəzərə almaqla] bərabər, əhalinin şiddətiehtiyacına dair, su, xəstəxana, aptek, dəmiryolu kimi müəssisələr xaric tutulmalıdır. *(Ümumiyyətlə qəbul olunur.)* Burada bu mövzudan xaric bəzi arxadaşların bir taqım təklifləri vardır. *(Onların söylənməsi qəbul olunur.)*

**Zülfüqar bəy** – Mənim təklifim budur ki, bizim ictimamız [yığıncağımız] üçün yerimiz yoxdur. "İsmailiyyə"ni təkrar bina etmək üçün gərək hökumətimizdən və gərək zəngin dövlətlilərimizdən tələb ediriz ki, bu binanı tezliklə yapsınlar.

*(Burada bəzi arxadaşlardan əmələlərin qəpik-qəpik toplayacaq olan paralarından yapılması təklif olunur.)*

**Sədr [Məhəmməd Əmin Rəsulzadə]** – Bizim milli vəzifələrimizdən birisi də "İsmailiyyə" kimi milli bir müəssisəmizin dirilməsidir. Bu xüsusda hökumətimiz və milli müəssisələrimiz tərəfindən ciddi surətdə iqdamat [addımlar] lazımdır. *(Ümumiyyətlə qəbul olunur.)* Bir də bugünkü tətil haqlı və məşru [qanuni] bir tətil olduğundan, o günün haqqı əmələlərimizdən yalnız bir gün olaraq kəsilməsi icab etdiyindən, mədən sahiblərindən hangi birisi üç gün kəsmək istərsə, büroya məlumat verməlidirlər və bu para 360 manatdan dəxi kəsilməyəcəkdir.

**Cavad** – Mədən rayonlarında bir çox meyxanələr mövcuddur ki, oradakı müsəlmanların bir taqımının parasını bitirməkdə olduğu və ailəsinin səfalətinə səbəb bulunduğu kimi, rayonlarda parasızlıqdan və bu yüzdən bir çox xırsızlıqlara da meydan verməkdədir. Onların da qapadılmasını hökumətdən tələb edirəm. *(Ümumiyyətlə hüsn-qəbula məzhər olur [məmnuniyyətlə qarşılanır].)*

**Hacı Səlim Axund** – Siz ölmüş şəhidlərimizi xatirə salırsınız. Bu gün mən dəxi Lənkəranda bir çox diri şəhidlərimizi, düşmən əlində əsir qardaşlarımızı xatirə gətirərək hökumətimizdən onların xilası üçün ələləcələ [təcili olaraq] iqdamat [təşəbbüs] edilməsini tələb edirəm. *(Alqışlar)*

**Sədr [Məhəmməd Əmin Rəsulzadə]** – Bu mövzudan xaric təkliflər dəxi bitdi və mən yenə əsl mövzuya aid sizə və intixab etmiş [seçmiş] olduğunuz Tətil Komitəsinə söyləyirəm ki, bu matəm tətili son dərəcədə müntəzəm və pürvüqar [vüqarlı] olmalıdır. Nasıl ki, hər kəs kəndi əziz ölüsünə matəm saxlar. Öylə də hər bir müəssisə bağlanır, hər kəs məscidlərdə matəm halında toplanaraq Qurani-məcid oxumaq və şəhidlərimizin ruhuna fatihə oxumaqla onları yad və təbcil eylər [ucaldar, ehtiram göstərər] və asayişi ixlal edəcək heç bir hərəkətdə bulunmazlar və hər bir kəsə göstərər ki, biz ma-

təmimizi də həqiqi matəm olaraq tuturuz və bu xüsusda ən ziyadə Tətil Komitəsinin fəaliyyət və davamına ümid edərək məclisi bağlayıram.

Məclisin xitamında Hacı Molla Musa Axund cənablarının şühədanın ruhunu fatihə ilə ehtiram etməklə məclis xitam bulmuşdur.

## AZƏRBAYCANDA

### Zaqatalada mədəni bir təşəbbüs

Gənc Cümhuriyyətimizin gələcəkdə mövqeyi-icraya qoyacaq şeylərdən ən əhəmiyyətlisi olan “məhəlli [yerli, regional] idarələr”dir. Bu gün əhali bunun faydasını anlamış olsa gərək ki, Azərbaycanın mərkəzdən uzaq olan məhəllərində belə məhəlli idarələrin lüzumunu dərk edib qövldən feilə [sözdən işə] çıxarmağa başlamışlardır.

Zaqatala vilayətinin Balakənd nahiyəsində bugünlərdə məhəlli idarəyə oxşayışlı bir idarə təsis etmişlərdir. İdarə üzvləri 22 nəfər olub bir sədr, bir müavini-sədr, bir sandıq əmini [mühasib, kassir] və bir katibdən ibarətdir. İşbu məhəlli idarənin görəcək işləri:

1) Əhvali-hazirə siyasətindən əhalini tez-tez baxəbər [xəbərdar] etmək;

2) Nahiyədə olan məktəblərə nəzarət və müavinətdə bulunmaq [köməklik etmək];

3) Fəqir uşaqları oxutmaq;

4) Fəqir və biçizlərə [yoxsullara] darüləcəzə [əlillər evi, qocalar evi] təsis etmək;

5) Toxumu, öküzü olmayan əkinçilərə yardım etmək;

6) Camaatlıq torpaqları qəsb edənlərin əlindən alıb sahiblərinə və torpağı olmayanlara pulsuz və əvəzsiz verdirmək üçün hökumət nəzdində təşəbbüsatda bulunmaq;

7) Əkini vaxtında əkdirmək və ziraət haqqında əkinçilərə hər vaxt məlumat vermək;

8) Qəyyum tərəfindən zülüm görən yetimləri müdafiə və mühafizə etmək;

9) Məhəlli məmurların nalayiq və qanunsuz hərəkətlərini tənqid və məhəllinə bildirmək;

10) Zəhmətkeş və rəncbərləri müdafiə etmək idarənin qayə və əxəss [xüsusi, əsas] amalı olacaqdır.

*Zaqatalalı*

## İDARƏYƏ MƏKTUB

**[I]**

Müdiri-möhtərəm!

Bəndənin bu təşəkkürünü qəzetənizdə dərcə müsaidə buyurmanızı rica edərim.

Sevgili qardaşım İsrafilin vəfatı kimi ağır bir müsibət münasibətilə mənə bəyani-təziyət etmiş [baş sağlığı vermiş] olan ümum hökumət müəssisələri, camaat təşkilatlarına və dost-aşnalarıma dərin və səmimi təşəkkürümü ərz edərim.

*Xosrov Paşa bəy Sultanov*

**II**

Möhtərəm müdir əfəndim!

Bu məktubumun mübarək qəzetənizdə dərc olunmasını acizanə rica edirəm.

Mart hadiseyi-əliməsindən 10 gün əvvəl xüsusi işlərim üçün Bakıdan İrana getmək məcburiyyətində bulundum. Bir tərəfdən Mart hadisatı və digər tərəfdən xüsusi işlərim bəndənin bugünlərə kimi İranda qalmasına səbəb olmuşdur. Zamani-qeybubətimdə [qaib olduğum, burada olmadığım vaxtda] bəzi bədxahlarım və məslək düşmənlərim tərəfindən bəndənin haqqında bir çox böhtan və iftiralar camaat arasına buraxmışlardır. O cümlədən “Müsəlmanlıq” firqəsi naminə millətdən külli miqdarda para toplayıb İrana qaçdığımı və qorxudan orada oturduğumu söyləmişlər. Böylə iftiraların haqqımda söyləndiyini eşidib təbii ixtiyari-sükut edəmməm [susa bilmərəm]. Firqə yoldaşlarıma məlum olduğu üzrə, firqə naminə topladığım paralar firqənin ehtiyacatına məsarif olunubdur. Bu məktubumla haqqımda söylənilən iftiraların naşirlərini [iftiraları yayanları] bu sözləri təkrar etməyə və onların məxəzlərini [mənbələrini] ələnən [açıq-aşkar] göstərməyə dəvət edirəm. Bəndə indiyə kimi kəndimi millət parasından istifadə edən tanımamışam və kəndimin az olmayan varidatımın qismi-küllisini millət yolunda isar [sərf] etmişəm. Hər kəsin fikri bu mərkəzdə olmayıb bəndənin haqqında başqa bir məlumatı vardır, açıqca qəzetə vasitəsilə söyləsin. O vaxt mən də ona sübut edəyim ki, böylə sözlərin qətiyyən əsli olmayıb düşmənlərim tərəfindən icad edilən iftiralardır. Böylə açıq söyləyən adama olduqca minnətdar olaram ki, qeybubətimdən bilistifadə [istifadə edərək] bəndənin haqqında qəsdi-qərəzlə əfsanələr intişarına qalxışanları və günahsız olduğum halda bəndəni millət nəzərində ləkələndirmək istəyənləri təhti-mühakiməyə cəlb etməklə özümün bu gunə [bu cür] töhmətlərdən ari olduğumu millət qarşısında bildirməyə qadir olum.

*Bəşir bəy Aşurbəyli*

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi! Rica ediriz işbu məktubumuza qəzetənizin bir guşəsində yer verəsiniz.

İstehlak cəmiyyəti “El dükanı” vasitəsilə ağır vaxtda Ərzaq Nəzarəti tərəfindən ucuz qiymətə çay, kişmiş, düyü, lobya və bu kimi ərzaq verilmişdir ki, paylanmağa başlanmışdır. Nəzarətə işbu babda [mövzuda] izhari-təşəkkür edəriz.

*Bir sabunçulu*

Mənim Ramazan adlı 12-13 yaşında oğlum Mart hadisəsindən sonra Bakıda qalmış, türklər tərəfindən Bakı alındıqda yenə Bakıda imiş. Hətta son zamanlarda da onu Bakıda görmüşlərdir. Bununla islam qardaşlardan rica edirəm ki, mənim oğlum kimin yanında isə və ya kim ondan bir xəbər bilirsə, “Azərbaycan” qəzetəsi kantoruna kəndi adresini məlum etsin.

*5771*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

**“Azərbaycan” qəzetəsi kantoru tərəfindən**

“Azərbaycan” qəzetəsini nəşr etməkdən ötrü məxaric və idarə qulluqçularının maaşı artdığından, biz məcburuz müvəqqəti olaraq abunə şəraiti və elan fiatını artıraq.

Abunə şəraiti:

qeyri şəhərlər üçün 3 aylığı 60 rublə

2 aylığı 45 rublə

1 aylığı 25 rublə

Bakı üçün 3 aylığı 50 rublə

2 aylığı 35 rublə

1 aylığı 20 rublə.

Elan fiatı:

Tekstdən qabaq sətri 4 rublə

tekstdən sonra sətri 3 rublə

itən şeylər və yer axtaranlar üçün sətri 2 rublə

*b*

**Elan**

Bakı Ərzaq Nəzarəti bununla Bakı dairəsi kənd cəmiyyətlərinə elan edir ki, Bakı Kəndçilər İttifaqı tərəfindən onlara birinci lazım olan ərzaq şeyləri paylanacaq. Kənd cəmiyyətləri həman şeyləri almaq istəsələr, Bakı Kəndçilər İttifaqına müraciət etməlidirlər.

*Ərzaq Nəzarəti məsulu: Əliyev*
*Kargüzar – imza*
*T-70*

**Elan**

Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu tərəfindən qoşun və camaatdan ötrü buğda, arpa, düyü, krupa [yarma], lobu, noxud, saman, ot, xırda-böyük 4 ayaqlı heyvanlar, inək yağı və quyruq yağı lazımdır.

Bu yuxarıda zikr olunan şeyləri satmaq istəyənlərdən xahiş edirəm kağız vasitəsi ilə bu ünvana müraciət etsinlər: Gəncə, Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu.

Şeylərin qədərini və qiymətini dəxi əlavə etməlidir.

*Gəncə Quberniyası Ərzaq Nəzarəti*
*məsulu: A. Brilinski*
*T-76*

**Bakıda Xırda Mədənçilər və Neftçilər Cəmiyyəti İdarəsi**

Bununla xırda mədənçilərə elan edir ki, qulluqçulara və fəhlələrə mart məvacibini almaqdan ötrü tabellər yazıb versinlər ki, onlar Hökumət Bankından məvaciblərini alsınlar. Tabellərin verilmək vaxtı aprelin 1-dən 5-nə qədərdir.

Ünvan: Olqinski küçə nömrə 5, 3-cü mərtəbə.

*5772*

**Bakı İkinci İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

Cəmiyyət üzvlərini xəbərdar edir ki, fövqəladə ümumi iclas aprelin 13-də saat 10-da Bankın binasında təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) İdarəyə gəlməyən üzv Sergey İvanoviç Çiknaverovun yerinə təzə üzv intixabı [seçilməsi];

2) Öz xahişi ilə istefa vermiş cəmiyyətin buxalterinə bəxşiş verilmək barəsində.

*5773*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Heyəti-mürəxxəsənin Parisə əziməti münasibətilə**

səh. 407. “Ə. H.”: bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

**Teleqraf xəbərləri**

səh. 411. “Hofmann”: 1919-cu ilin martından 1920-ci ilin martına qədər Bavariyanın Baş naziri olan İohan Hofmann nəzərdə tutulur. Qəzetdə bu ad təhrif edilmişdir.

**Cümə günkü mühüm xəbərlər**

səh. 412. “Senni meydança”: Odessa şəhərinin tarixi mərkəzində yerləşən Starosennaya meydanı nəzərdə tutulur.

“Buxarada hal-hazırda əmirin 9 min müntəzəm bolşevik qoşunları vardır.”: söhbət Buxaranın sonuncu əmiri Seyid Mir Məhəmməd Alim xandan gedir.

**Qızıl böhtan**

səh. 413. “posxovlular”: Posxov (yaxud Potsxov; Posof) hal-hazırda Türkiyənin şimal-şərqində, Gürcüstan sərhədində yerləşən rayondur.

səh. 414. “Axıskalı”: bu imza çox güman ki, Əhməd Cövdət Pepinova məxsusdur.

**Bakıda təzə darülmüəllimin güşadı**

səh. 415. “məkatibi-taliyyə”: ikinci dərəcəli məktəb; ibtidai məktəbdən sonra, ali məktəbdən əvvəl gələn məktəb.

**Bakı xəbərləri**

səh. 416. “bikford ipi”: alovu partlayıcı maddəyə ötürmək üçün istifadə edilən, barıtlı ip. İngilis ixtiraçısı Vilyam Bikford tərəfindən ixtira edilmişdir.

səh. 416. “Qəhrəman Məhəmmədzadə”: güman ki, Azərbaycan Cümhuriyyəti Parlamentinin qərarı ilə xaricə təhsil almağa göndərilən tələbələrdən biri olan Məhəmmədzadə Qəhrəman İsrafil oğlu nəzərdə tutulur.

səh. 417. “müəllimə Vəsilə xanım”: burada güman ki, Bakı məktəblərində müəllimə işləmiş Vəsilə xanım Musabəyova nəzərdə tutulur; qəzetdə “Vasilə” kimi getmişdir.

“Məhəmmədli məhəlləsi”: Bakıda məhəllə olmuşdur; indiki Bakı sirkinin və Təzə bazarın yerləşdiyi ərazidən cənubda yerləşirdi. Bakının eyniadlı kəndindən gələnlərin yaşadığı məhəllə idi.

“təkyə”: müsəlmanların yığışaraq namaz qıldıqları, mərsiyə oxuduqları və digər dini ayinlər həyata keçirdikləri yer.

“...31 mart münasibətilə keçən 18 mart hadiseyi-əliməsini...”: köhnə və yeni təqvimlər arasında 13 günlük fərq var idi.

“cüz”: “Quran”ın bölündüyü 30 hissədən hər birinə cüz deyilir.

**Mart matəmi**

səh. 419. “Zülfüqar”: burada söhbət güman ki, Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak edən Zülfüqar Məhəmmədzadədən gedir.

“lianozovlular”: erməni əsilli neft sənayeçisi Stepan Georgiyeviç Lianozov nəzərdə tutulur.

“İmamverdi körpüsü”: Bakı limanındakı körpülərdən olmuşdur.

səh. 423. “Hacı Səlim Axund”: söhbət Azərbaycan Parlamentinin üzvü Hacı Mirzə Səlim Axundzadədən gedir.

səh. 424. “Hacı Molla Musa Axund”: burada güman ki, Binəqədi mədənlərindəki müsəlman fəhlələri təşkilatının rəhbəri olmuş Musa Axundzadədən söhbət gedir.

**Azərbaycanda**

səh. 424. “...qövldən feilə çıxarmağa

başlamışlardır.": qəzetdə belə getmişdir: "... qüvvədən feilə çıxara başlamışlardır."

**İdarəyə məktub**

səh. 425. "...Müsəlmanlıq firqəsi...": "İttihad" partiyası nəzərdə tutulur; bu partiya daha əvvəl "Rusiyada Müsəlmanlıq İttihad" adını daşımışdır.





**Bazar ertəsi, 31 mart 1919-cu il, nömrə 147**

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Bazar ertəsi, 28 cəmadiyəlaxir sənə 1337. 31 mart sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**ELAN**

Azərbaycan Məclisi-Məbusanının 31 marta təyin edilmiş növbəti iclası, Bakı facieyi-əziməsinin səneyi-dövriyyəsi [böyük Bakı faciəsinin ildönümü] gününə təsadüf etdiyindən, həman gündə minlərcə şəhid olan məsum və məzlumların ehtirami-ruhları üçün təxir və Məclisi-Məbusan idarəsi tətil edəcəyi elan olunur.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əliheydər Qasımov və Kərbəlayı Məhəmmədəli bəy Xanlarov, əvvəlincinin atası və ikincinin dayısı Hacı Məhəmmədtağı Qasımovun vəfat etdiyini kamalihüzn və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dostaşnalarına xəbər verirlər. Mərhumun təşyiyi-cənazəsi [cənazəsinin yola salınması] bu gün mart ayının 31-ində saat 10-da İçəri şəhərdə Sabornı küçədə 7 nömrəli evdən Şah məscidinə aparılacaqdır.

*5775*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əbülqasım Hüseynzadə Hacı Məhəmmədtağı Qasımovun vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına xəbər verir. Mərhumun təşyiyi-cənazəsi bu gün mart 31-ində saat 10-da İçəri şəhərdə Sabornı küçədə 7 nömrəli evdən Şah məscidinə aparılacaqdır.

*5776*

**UNUDULMAZ FACİƏ!**

Martın 31-i bizə Azərbaycan tarixi-siyasətində unudulmaz üç günü xatırladır.

Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz.

31 Mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd edə bildiyi "aşura", "bartelemey" (varfalameyevski noç) kimi xainanə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi.

Bizə deyə bilərlər ki, Hərbi-ümumi səfəhatı [Dünya müharibəsinin səhifələri] arasında Mart hadiseyi-əliməsini dəfələrlə ötən əsəfli [təəssüflü] hadisələr vaqe olmuşdur. Bunun üçün dəxi Mart günlərində Bakı soqaqlarında [küçələrində] icra olunan məzalim və qitalı [zülüm və

qırğını] Ərəbistanın qızğın çöllərində və yaxud Firəngistanın inqilabla qaynar şəhərlərində hadis olan [baş verən] uzaq misallarla müqayisə etməyə nə hacət!

Əvət, doğrudur. Doğrudur ki, Belçikada, Serbiyada, Türkiyədə, Acarıstanda, nəhayət Qars, Muş, Van və sair yerlərdə, hətta Hərbi-ümumidən rəsmən xaricdə qalan İranda, Urmu, Salmas və Xoyda, şəklən Bakı hadisəsinə bənzər və bəlkə də bundan daha fəci hadisələr vaqe olmuşdur.

Bunlar doğrudur.

Biz Bakıdakı Mart hadisələrini yada salarkən şübhəsiz ki, o günlərdə icra olunan vəhşətə, zülümə, yaxılan xanimanlara, parçalanıb da divarlara mıxlanan yavrulara, hətk olunan [tapdalanan; yırtılan] irz və namuslara dəxi ətfi-nəzər edir [nəzər salır] – insanın bir anda dönüb canavardan da betər hala düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi-infial və şərməndəliklə [həyəcan və xəcalət hissi ilə] görürüz.

Fəqət Mart günlərinin əsl faciəsi bu cəhətdən də deyildir.

Martda söylədiklərimizdən və söyləyəmmədiklərimizdən daha böyük, daha şəni [biabırçı], daha mərdud [alçaqca], daha iyrənc bir hadisə vaqe olmuşdu.

İctimai bir inqilab nam və pərdəsilə ortaya çıxıb, milli bir ədavət icra edilmişdi.

Burjuaziyə elani-hərb edilib, əmələ və kəsəbə [fəhlələr və proletariat] qırılmışdı.

“Müsavat”a xitabən elani-hərb edilib, nəticədə sosialist, bolşevik və “Müsavat”, heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu nöqteyi-nəzərdən şaumyanların Bakıda çıxardıqları hadisə, leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə sinif hərbi namı altında milli bir qital [qırğın], bir qitali-amm [kütləvi qırğın] icra olunurdu.

Daşnaklar intiqam alırdı.

Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korladır, yanyana sülh və müsalimətlə [əmin-amanlıqla] yaşayan millətləri sənələrlə biri-birindən ayırırdı.

* * *

Bolşeviklər “Sizə muxtariyyət deyil, xərabələr verəcəyiz” deyirlərdi. Müttəfiqləri daşnaklar da indi izah edirlər ki, Bakını sahiblərinin əlindən çıxarmaları ilə onlar erməniliyi mühafizə edirlərmiş.

Həqiqətdir ki, martın 18-indən 21-inə qədər Bakı türk demokratiyasının qafasında patladılan toplar, müsəlmanlar haqqında rəva görülən məzalim, Azərbaycan fikrini daşıyan, muxtariyyət və istiqlal əqidəsi ilə pərvərdə olan [bəslənən; yetişən] vücudları məhv etmək üçün idi.

Fikir öldürülmək istənilirdi. Millət kəsilirdi.

Fəqət kəndiləri inqılabçı ikən, inqilabın böyük düsturunu unudurlardı:

– Məş’əli-əfkari-əhraranə sönməz xun ilə!

Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürəmmədi!

Bakı küçələrində tökülən nahaq qanlar bir “piysuz” [şam; çıraq], yaxılan İsmailiyyə isə bir “iplik” işini görərək ürəklərdə söndürülmək istənilən hürriyyət məşəlini daha ziyadə tutuşdurdu.

Qanlar içində boğdurulmak istənilən Azərbaycan fikri, bu kərə müstəqil bir hökumət şəkili ilə təcəlli etdi [meydana çıxdı]!

Bakı bir qan, bir fitnə ocağı deyil, paytaxtımız oldu!

* * *

Bu gün Mart hadisələri kimi böyük bir riyazət [çətinlik] nəticəsində kəndi haqqını istirdad etmiş [geri almış] olan paytaxtımızda 31 Mart şühədasının [şəhidlərinin] ruhi-məzlumuna [məzlum ruhuna] fatihələr oxurkən, bir şeyi xatırlatmaq istərəm.

Mart hadisəsindəki müvəffəqiyyətsizliyin ən böyük səbəbi, bunu artıq hər kəs təsdiq edir ki, camaatımızın başsızlığı, o vaxta qədər bildiyi camaat xadimlərinə və siyasi firqə rəislərinə deyil, qeyri-məsul adamlara, ağlından ziyadə hissiyyatına tabe şəxslərə uyduğu olmuşdur.

Ləhülhəmd [Allaha şükür olsun], bu gün o vəziyyətdə deyiliz. Millətin müqəddəratından məsul hökumətə və bu hökuməti doğmuş Parlamana malikiz.

Hökumət və Parlamanımızın, bütün nöqsanı ilə bərabər bir məziyyəti var ki, böhranlı və məsuliyyətli dəqiqələrdə millətə başçılıq edir, onu hər hissiyyata qapılmış yol ötən “mücahid”lərin şərindən saxlaya bilir.

Bunun üçün lazımdır ki, biz bütün hərəkatımızda etidaldan [təmkindən; soyuqqanlılıqdan] uzaqlaşmayıb, sükun və intizamı pozmayalım.

Tətil heyəti bizi bu gün matəmə dəvət edir. Bu dəvətə icabət edərək [razılıq verərək; tabe olaraq], bütün həyatı durduraraq Mart şühədasının ruhi-məzlumu qarşısında diz çökəlim. Çökəlim də deyəlim ki:

Siz məzlum oldunuz. Biz sizin bu məzlumiyyətinizi təlafi etdirmək [əvəzini çıxmaq] üçün qanınız bahasına aldığımız hürriyyət və istiqlalı bərk saxlayacağız!

*M. Ə. Rəsulzadə*

**31 MART**

*Şənidəm qusfəndi ra bozorgi*
*Rəhanid əz dəhan o dəst e qorgi*
*Şəbangəh kard bər holgəş bemalid*
*Rəvan e qusfənd əz vey benalid*
*Ke əz çənqal e qorgəm dər robudi*
*Çe didəm aqibət qorgəm to budi*

Rus mütləqiyyət istibdadını kökündən yıxmış olan rus inqilabi-kəbiri [Böyük Rus inqilabı], mütləqiyyətin zənciri-əsarətinə giriftar olmuş olan millətləri azad etdi. Əsrlərcə zəncirbənd qalmış olan zavallı millətlər, uyuşmuş bədənlərinə bir hərəkət verib qol-qanadını açmaq istəyirdi ki, mütləqiyyət istibdadı əvəzinə Rusiyada bolşevizm istibdadı caygir olub [yerləşib], bədbəxt millətləri təkrar əsarət zəncirinə vurmaq əməlinə girişdi.

Bolşevizm amalına qarşı müqavimət göstərmək istəyənlərlə “qrajdan” müharibəsi açan və istiqlal üzrə yaşamaq istəyən və böylə yaşamaya haqqı olanlarla dəxi milli cəngə girişən rus bolşevizmi,

"azad millətlər" şüarını həqarətlə tapdalayıb, bu millətlər füqərayi-kasibəsinin [proletariatının] və demokratiyasının [xalqının] canını və malını dəmir və atəşə tutmaqdan çəkinmədilər.

O idi ki, rus bolşevizmi araya bir "qrajdanski" və bir də milli olmaq üzrə iki rəngli müharibə salıb çaylarca qanlar axıtdı, milyonlarca bəşər övladını tələf etdi, yüz minlərcə evlər viranə qoydu və bu qanlı vəq'ədən [hadisədən] hasil olan təəssürat, təbii, böylə bir əqidə törətməsinə səbəb oldu ki, rus inqilabı yalnız bir rusluğa müxtəss [xas, məxsus] olub, çarizm istibdadını qaldırmaqla, deyil ümum millətləri, bəlkə rus xalqını bu istibdad təhtindən [altından] qurtarıb, digər millətləri təkrar əsarət altında baqi [daimi, qalıcı] saxladı. Yalnız bir fərq bu oldu ki, bu əsirlərin keşikçiləri əvvəl rus çarizmi idi, bu səfər isə rus bolşevizmi oldu. Hər halda əsirlik aradan götürülmədi. Qurd əlindən qurtarılmış quzu, qurtaranın yemi olmaq məcburiyyətində qaldı...

Bir əsr bundan əvvəl müstəqil yaşamaqda olan azəri türkləri, rus istibdadının yıxıldığını görüb təkrar müstəqil yaşamaq ümidi-fərəhbəxşilə [fərəhləndirən ümidi ilə] şad olub, istiqlala hazırlaşmaq üçün tədarükatda bulunmağa başladılar. Lakin yeni hakimlərimiz bu fikrimizi duyub, həman dəm əks tədarükat görməyə iqdam edib [başlayıb], "Biz sizə istiqlal əvəzində xarabazarlar verərik, torpağınızda daşı-daş üstə qoymarıq" deyə, barmaq işarəsilə hədələdilər.

İstiqlalımıza qarşı ittixaz edilmiş [həyata keçirilmiş] olan sui-qəsdlərində özlərini "inqilabçılıq" nöqteyi-nəzərindən haqlı göstərmək niyyətilə, adımızı "kontr-revolyusaner" [əksinqilabçı] qoyub, hücuma hazırlandılar. Hazırlanıb da başımıza Mart fəlakətini gətirib, hədələrinə müvafiq olaraq, paytaxtımızı xarabazara döndərdilər.

Çarizm zənciri-əsarətindən yenicə qurtulmuş olan azəri türkləri bir əsr müddətində əsarətin ağırlıqlarından o qədər zəif düşmüşdü ki, istiqlalını müdafiə etməyə və istiqlal düşmənlərinə qalib gəlməyə qüdrəti yox idi. Bu zəiflik, deyil yalnız maddi və cismani qüvvətimizi, bəlkə bütün mənəvi və ruhani qüvvələrimizi də şamil olub [əhatə edib], bədənimizin bütün qüvayi-ruhaniyyə və cismaniyyəsini [mənəvi və fiziki qüvvətlərini] atil [fəaliyyətsiz] qoymuşdu və bu ətalət o dərəcə idi ki, özümüzü müdafiə vəziyyətinə salmağa dəxi qüdrətimiz olmayıb, düşmənin hücum və təərrüzləri [təcavüzləri] qarşısında üryan bir bədənlə əli-qolu bağlı yıxılıb, "ölüm-dirim" məsələmizin o tövr və ya bu tövr həlli düşmənin rəhminə və ya rəhmsizliyinə bağlı idi.

Bundan fəna bir hal olmaz ki, sənə qarşı təcavüz edilə və sənin də bu təcavüzü dəf etməyə heç bir vəsilən [vasitən, vəsaitin] olmaya!

Bakı müsəlmanları Mart günlərində bu halda idilər!

Və əgər türklər, Osmanlı türk qəhrəmanları vaxtlı-vaxtında gəlməsə idilər azəri türkləri Bakı həzimətindən [məğlubiyyətindən] sonra özlərini yığışdırıb müdafiəyə hazır olmağa fürsət tapınca, deyil bir Bakıda, Şamaxıda, bəlkə ümum Azərbaycanda daş-daş üstə qalmazdı...

Keçən keçdi və olan oldu. Mart hadisatı Azərbaycan tarixində mühüm bir səhifə işğal edib, azəri türklərinin istiqlal yolunda can verib qan tökdüklərini gələcək nəslə oxutduracaqdır. Bugünkü vəzifəmiz isə o qara günləri yaddan çıxartmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır. Böylə hazırlıq ki, bu hadisələr bir də təkrar edərsə, müdafiəsinə qadir olalım. Bunun üçün həm hökumətimizin və həm də millətimizin çalışması lazımdır. Bu gün istiqlal ilə yaşayıb da bu neməti-üzmadan [böyük nemətdən] istifadə ediriksə də, özümüzü xaricən əmin və amanlıqda bilmək və istiqlalımızın ibqasını [əbədiliyini] təmin etmək üçün müdafiəyə hər an hazır və amadə [hazır, müntəzir] olmalıyıq. Biz indi öz müqəddəratımızı öz əlimizə aldıq. Borcumuz, bu müqəddəratı gələcəkdə zühuru möhtəməl olan hər növ təcavüzatdan qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır.

*Hacıbəyli Üzeyir*

**18-31 MART**

Bu gün 18-31 Mart hadiseyi-əliməsi səneyi-dövriyyəsi münasəbətilə Azərbaycan türk-islamları milli matəm elan edirlər.

Bu gün bütün hökumət və camaat idarələri, məktəblər, qəzetələr, bazar, dükan, emalatxana və sair müəssisələr tətil edirlər. Şəhərdə həyat dayandırılır. Zira:

Bu gün; gözəl ideya, böyük şüar altında qara fikir yürüdən bir taqım alçaq qaragüruhun əlində məqtul düşənlərin [qətl edilənlərin] illiyidir. Bu matəmdə azərbaycanlılar məscidlərə yığılaraq günahsız ölənləri, irz və namusuna toxunulmuş məzlumları, canilər əlində tələf olmuş məsum çocuqları yad edəcək, Quran oxuyacaq, məzlumlara rəhmət, zalımlara lənətxan olacaqlardır.

Təzəpir məscidində – həman keçən il bu günlərdə düşmən mərmiləri dəydikcə, yaralanan pəhlivan gibi nərə çəkərək guya zəbani-hal ilə [hal dili ilə] "Ey Türk milləti! Namusun qəbul etməsin! Allah, götürmə bu zülümü!" deyə fəryad edən bu böyük məscidin həyətində cəmmikəsirin [böyük qələbəliyin] iştirakilə ictima [yığıncaq] tərtib verəcəklərdir.

Fəqət Azərbaycan türkləri bu matəmdə yadlarından çıxarmamalıdırlar ki, keçən il ibtida [əvvəla] Bakıda və Şirvanda, daha sonra da Qubada və sair yerlərdə bizim başımıza gələn müsibətlərin təqsirinin çoxu özümüzdədir. Həm də nə o mənaya ki, camaatımızın bir qismi maska geymiş canilərə inanaraq onlarla sosialist kimi rəftarda bulunmaqla özlərini aldatmış oldu, nə o mənaya ki, camaatımızın bir qismi məhz firqəbazlıq xatirinə özünü üzə çıxarmaq və tərəfi-müqabili [qarşı tərəfi, rəqibi] nəzərdən salmaq niyyətilə xalqı yoldan çıxardı, heç bir fitnə və fəsaddan çəkinmədi.

Doğrudur, həyatımızda bu müəssif [təəssüf verici] amillər böyük rollar oynadılar. Doğrudur, on minlərcə günahsız olan vətən övladı bu hərəkətlərin qurbanı oldu!

Lakin bir şeyi xatirdə tutmalıdır, bizim zəifliyimiz və düşmənin güclülüyü, bizim aramızda firqənin təfriqə [ayrılıq, ikitirəlik] kimi tələqqisi [qəbul edilməsi], dillərdə əzbər olan ittihadsızlığımız [bir ola bilməmək, birgə hərəkət edə bilməmək] və sairə

## 1918-ci il 18-31 Mart hadisatına dair



Yanğından sonra "İsmailiyyə" imarəti, "Açıq söz" və "Kaspi" qəzetələrinin mənzərələri

Şamaxı faciələri



Şamaxıda kain tarixi məscidi-camenin yanğından sonra daxili mənaziri





həp iki şeydən nəşət etmişdir [irəli gəlmişdir]:

İdrak və etirafi-milliyyə [milli şüur və özünüdərk] yoxluğu;

Və sadəlövh, safdərunluğumuz [təmizürəkliliyimiz].

Həyat bir məktəb və tarix bir ayineyi-ibrətdir. Yaşayışın acı həqiqətlərinə açıq göz ilə baxalım da, işləmiş olduğumuz xətaları islah edəlim. Əks surətdə böylə faciələr həyatımızda təkrar-təkrar oynana bilər.

Keçən il həmin bugünkü gün müsəlman-türk firqələri, camaatı sakit etmək qəsdilə buraxmış olduqları bir intibahnamədə [vərəqədə] "Erməni qonşularımız dəxi bu məsələdə bizimlə bərabərdirlər" yazmışdılar.

Halbuki dörd saat sonra başlanmış davanı milli qitala [qırğına] döndərən yenə həman "bizimlə bərabər olan qonşularımız" oldular.

Yalnız o gün deyil, həmişə bu surətlə aldanmışız. Bu da hər şeydən ziyadə siyasi xamlığımızdandır. Siyasətdə millət, dövlət və firqə mənafeyi hər şeydən uca tutulduğundan, şübhəsizdir ki hər dövlət, hər millət və hər firqə ancaq mənafeyi özüylə bir və bərabər olanlara inana bilərlər.

Digər tərəfdən yenə həman keçən il Mart hadiseyi-əliməsindən bir az qabaq, faciənin oynanacağını qabaqcadan görmüş olanların "Açıq söz" qəzetəsində yazmış olduqları "Birlik gərək", "Birlik tələb olunur" və sair bu kimi bir çox məqalələrin və bu yolda icra olunan təbliğat və təşviqatın nəticəsiz qalması həp camaatımızın milli mənafeyi dərk etməmiş olmasındandır.

Ona görədir ki, cənnətasa [cənnətə bənzəyən] vətəninin xarabazara döndərilməsi səneyi-dövriyyəsini matəm saxlayan Azərbaycan türkləri, əski Roma imperiyası lejyonlarının ayaqları altında əzilmiş millətini və dağılmış vətənini görən Hannibalın müqəddəs atəşkədə və qoca atası hüzurunda etdiyi kimi, bu gün düşmən qumbarasıyla minarəsi dağılmış müqəddəs Təzəpir məscidi qabağında əllərini döşlərinə qoyaraq, başlarını aşağı dikərək qəsəm yad etməlidirlər [and içməlidirlər] ki, gözəl Azərbaycan və nəcib türk millətini hər cəhətdən sahili-nicat və səadətə [qurtuluş və səadət sahilinə] çıxaranadək başlarını yuxarı qaldırmayacaq və Azərbaycan istiqlalı, türk azadlığı, millət səadəti yolunda son qətrə qanına və son nəfəsinədək heç bir fədakarlıqdan geri durmayacaqlardır!

Ölənlərə rəhmət!

Qalanlara ibrət!

*Xəlil İbrahim*

### XƏYALAT

*"Kəs nəyayəd be zir e sayeye bum*
*Vər homay əz cəhan şəvəd mə'dum"*
*Sədi*

O viranələr aşiqi, məxrubiyyət [xaraba qalma], fəlakət düşkünü, kəndi sövti-bədtinət və kədər-nisarı [bəd yaradılışlı və kədər yayan səsi] ilə məni daima narahat edir. Qəlbimi dağdar, fikrimi son dərəcə vəlvələdar edir. Onun hər bir ququltusu mənə riqqət verir, ağlımı, zehnimi cərihədar edir [yaralayır]!

Könlüm, meylim ona yaxlaşmayır. Kəndisini ona yağı hiss edir də, təbii olaraq xarabalıqlara qoşmayır. Onun sövtündə [səsində, sədasında], onun sayəsində [kölgəsində] səadət yoxdur, nəğməsi fərəhəfza [fərəhləndirən, fərəh verən] deyil. Zira o, səadəti-eşq və məhəbbət nə olduğunu düşünəmməz. Bəlkə düşünər də, o vaxt o, xarabazar sevir, mən isə sevməm. Onun nəğməsi mənə yabançıdır. Sövtündə bətalət [süstlük; fəaliyyətsizlik], əsarət görürəm. Hiss edirəm ki, o, kəndi sövtibəd-fitrəti [bəd təbiətli səsi] ilə bir çox parlaq və məsud xanimanların pamalivəhişiyyət olmasına [yırtıcılığın ayaqları altında tapdalanmasına] ruyi-riza göstərmişdir [razılıq vermişdir]. Keçən sənə üzərinə qonmuş olduğu xanəni, mən bu gün xarabazar halında, məmur [abad] deyil, viranə şəklində buldum. Kəndi xanəm, o məmureyi-eşqim [eşqimin abad evi] olan bamın [damın] üzərinə bir daha qonmasına razı olammam. Onun sövtündən pərişan-xatir olmaq və dolayısıyla xarabazarlar görmək istəməm. Çıx, rədd ol!

* * *

Çox zaman hicrində ah-nalə və suz[ü]-güdaz etdiyim [yanıb-yaxıldığım] o məhbubə, o dilbəri-hürriyyət, ol hümayi-xoş-tinəti [xoş təbiətli hüma quşunu] istədim. O mənim mövcudiyyətim, həyatımdır! Daima vüsalı uğrunda çarpışdığım o mürği-dilim [könül quşum], kəndi sövti-pürsüruru [sevinc dolu səsi] ilə yenidən mənə ruh verdi. Vüsalına yetişdim. Onu dər-ağuş edərək [qucaqlayaraq] yanıq qəlbimdə, düşkün xəyalımda yeni bir həvəs ehsas etdim [duydum]. Onu bir daha qeyb edəmməm. Zira o, mədum [yox olan] deyildir! Xəyalımın, mövcudiyyətimin əbədi bir ruhu, qəvi [güclü, qüvvətli] bir əzəmətidir. Onu bir daha buraxamması.

İştə, o mənim istiqlaliyyətimdir!

*Piri [Mürsəlzadə]*

## EL YASI

– İslam qardaş! İslam qardaş! Mənə müavinət [kömək] ediniz!

İşbu iltica edici [yalvarıcı], ürək yandırıcı, qəlb patladıcı sözləri, üzü, sinəsi məxruş [cırmaqlanmış, cızılmış] gənc bir islam qadını:

– Mənə, beş nəfər məqtul əhbabını [qətl edilmiş beş nəfər istəkli adamını], bir nəfər sirdaşını, ələm, qəm, hüzün, şadlıq müxatəbini [həmsöhbətini] "Nərədəsiniz?" deyə axtaran boynu qaralı, qəlbi yaralı bədbəxtə, – deyə xitab edirdi.

Dəniz kənarındakı gömrükxana həyətində, pambıq tayları miyanında [arasında] sıra ilə yan-yana düzülmüş müsəlman və müslimə [müsəlman kişi və qadın] meyitləri ətrafında müsəlman qadınları "oğul vay", "ata vay", "qardaş vay" deyə dolaşaraq mühiti məmat [ölüm] musiqisinə məxsus "vay" zənguləsilə zingiltdikləri halda, işbu qadının "müavinət" diləməsi şimşək kimi əsabımı [əsəblərimi] vurdu, qəlbimi yaraladı da ona tərəf yönəlmək məcburiyyətində buraxdı.

– Həmşirəm [bacım]!





– Qardaş! Mən yeddi nəfər əqvamını [qohumunu, yaxınını] məqtul [qətl edilmiş], qarşısında uzanmış, bütün ümidini dünya və mafihadan [dünyadan və yer üzündəki hər şeydən] kəsmiş, evi talan edilmiş, əsasınadək [bünövrəsinə qədər] yandırılmış səfiləyə müavinət ediniz!

– Həmşirəm!

– Mənim meyitlərimi arabaya qoyunuz da qəbiristana aparayım!

Daha artıq danışmaq yeri qalmamışdı. Ətrafı dolaşdıqdan sonra iki dənə şəhər zibil arabalarından almağa müvəffəq olduq.

– Həmşirəm, nərədəsiniz?

– Burada!

Qadın yeddi nəfər meyiti bir tərəfə çəkib, lalə butaları kimi düzərək miyanlarında lalə qönçəsi kimi oturub, çənəsini ovcuna almışdı. Ağ saqqallı, ağ zülfləri qırmızı qana bulaşmış, şəmsin parlaq şüası altında tələlö edən [parıldayan] iki ixtiyar [qoca], yanlarında birər sarı arizli [bənizli], biləklərində incə mərcan qolbağlı, dodaqlarında səbavətə [uşaqlığa] məxsus zərif məsumanə təbəssüm qızcağızlar, birər geniş alınlı, yüksək kökslü, şümşad qollu gənclər, bunların miyanında üzü, gözü xain əllər tərəfindən vəhşiyanə bir surətdə süngülənmiş başqa bir gənc yatırdı.

Məqtul, təravətini qeyb etmiş butalar miyanındakı diri qönçə, dodaqlarını təprədirdi.

Yaxın yürüdüm.

– Soldunmu?.. Mən qaldım! Bəs vəzifəm nədir? Ağlamaqmı?

– Xayır!

Bir səs eşidildi. Qadın ayağa qalxaraq ətrafa baxmağa başladı.

Möhtərəm qare [oxucu]! Qadının o vəziyyətini təsvir etməkdən qələm acizdir! Qadına baxan, şimdi uçacaq, həman sədanı asimanlarda belə olsa bulacaq, qəlbi yarıb ürəyi sandıqçasına alacağını hiss edirdi.

– Qardaşım, buldunuzmu? – deyə, gənc qadın mənə müraciət etdi.

– Buldum! – dedimsə də, davam edəmmədim. Oturdum, biixtiyar göz yaşlarım axmağa başladı. "İntihar et!" qulaqlarım pərdələrində xüsusi bir caduedici mahnı kimi tərənnüm edirdi.

– Qardaşım! – deyə qadın oturdu.

Mən yenidən göz yaşları billurlarından onu tamaşa edirdim: Təbarəkallah! Qadının məxruş üzündəki hüsnü [gözəlliyi], əzəməti, parlaq gözlərindəki ülühiyyəti [ilahiliyi], ürəyimə soxulub "Məbəddir! Kəbədir!" deyə, "Təzim et!" kimi təlqinatda bulunurdu [təlqin edirdi]. Əllərimi köksümə qoyaraq başımı aşağı saldım.

– Qardaşım! Mənə yazığın gəlir, deyilmi? Əvət! Mən yazığam, zira bütün əqvamım məqtuldur, istinadgahım yox, məlcəm [pənahım] yox, ümid qapılarım bağlanmış, deyilmi?

Mən yenə başımı qaldırıb qadına baxdım.

– Qardaşım! Xayır, öylə deyil, hamısı məqtul, mən də, sən də, o da, o birisi də məqtul. Fəqət el məqtul olmadı, el yaşayır, yaşayacaq, el hər il mart ayından başlayaraq...

Qadın sözünü itmama yetirmədən həyətdə oxşamaq, ağlamaq sədası ucaldı. Qadın ayağa qalxıb:

– Qardaşım, meyitlərimi arabaya qoyalım!

Mən məbudəyə səmiən və taətən [eşi-

dirəm və itaət edirəm] deyən kimi qadınla bərabər meyitləri arabalara qoyduq.

Arabalar yola düşdü də, qadın bir kəlmə söz demədən onların ardınca getdi. Əllərim köksümdə olduğu halda məbudəni mümkün qədər müşayiət etdim.

O vaxtdan sonra bir daha qadını görməmişdim.

* * *

Bağ vaxtı idi. Qəhrəman Türk ordusu çəlik kökslü igidlərini Anadolu ovalarından, Azərbaycan bucaqlarından hilal-ulduzlu bayrağı altına cəm edib “azadlığa” doğru yürüyürdü. Bakı ətrafında top gumburtuları, bomba patıltıları, mitralyoz şaqırtılarına qarışaraq “hürrrrrrrriyyət”... deyə bağırırdılar.

Əsəbiliyim həddən aşmışdı. Gecə yarısı işbu bağırtı altında bir küncdə əlbisəyə bürünüb mürgülədim. Nərədən isə həman qadının “el hər il mart ayından başlayaraq...” yarımçıq buraxdığı cümləsi qulaqlarıma doldu. Cümlə ilə mübarizəyə başlayaraq, arxasını bulmaq istədim. Gözlərim qarardı, ətrafım zülmətə büründü, heç şey görməz oldum, çırpındım, gözlərimi bərəltdim. Qarşımda münəvvər [işıqlı] bir nöqtə peyda olub get-gedə qara əlbisəli, al örtüklü bir qadın həyulasına [siluetinə] mübəddəl oldu [çevrildi]. Üzünə baxdım, dırnaq yerlərini müşahidə ilə həman qadını tanıdım. Əllərimi köksümə qoyaraq, dizlərim üstə çöküb məbudəmə təzim etdim.

– El hər sənə mart ayından başlayaraq... sentyabr ayınadək matəm saxlar, – deyə məbudəm həyulası nitqə gəldi.

Üzünə baxdım, üzündəki o hüsn, o əzəmət, gözlərindəki o üluhiyyət baqi olmaqla [qalmaqla], xüsusi bir təravət, xüsusi bir ülviliyi də havi idi [ehtiva edirdi].

*Ayn. Rüfət*

## KEÇMİŞ MART GÜNLƏRİ

Rusiya istibdadının mütəmadi təzyiqatı altında əzilməkdə olan Qafqaziya millətləri arasında ən böyük zərbə türk və müsəlman əhalisinə endirilməkdə idi. Şimaldan gələn qara qüvvələr güruhuna həpsindən əvvəl olduğu kimi, həpsindən fəzlə də məruz qalan Şamilin qəhrəman nəsli, o cəsur dağ qartalları olmuşdur.

Bütün bu təzyiqat işbu müharibə ibtidasilə [müharibənin başlaması ilə], xüsusilə Rusiya ixtilali-kəbirinin zühurilə [Böyük Rusiya inqilabının meydana gəlməsi ilə] türk və müsəlman ünsürləri üçün daha kəskin bir dövrəyə girmişdir ki, hər tərəfdə türk və müsəlmanların canı, irzi təcavüzlərə məruz qalırdı. Bu hadisat əsnasında türkləri qətl və qarət etməklə iştirakda ən böyük rol və birinci dərəcədə fəaliyyət göstərənlər ermənilər olmuşdur. Bunlar bizimlə yan-yana yaşaya gəlmiş olduqlarına və bundan böylə də yaşamağa məcbur olmalarına rəğmən, fəlakət və müsibət günlərimizdə, qonşuluq xatirəsi üçün olaraq bizə həpsindən ziyadə dəsti-müavinəti [yardım əlini] uzatmaları lazım gəlir ikən, biləks [əksinə], onlar bizə həpsindən ziyadə irasi-zərər edə gəlmişlər [ziyan vurmağa davam etmişlər] və hələ də etməkdədirlər.

Rusiya əsakiri [əsgərləri] tərəfindən işğal edilmiş Türkiyə ərazisi daxilində və Qafqaziyada, xüsusilə Bakıda 1918 sənəsi martının 31-ində bolşevik kisvəsinə [donuna] bürünərək ancaq türk və müsəlman əhalisinə iras etdikləri təxribat və vəhşət, şübhəsiz bir türkün, bir müsəlmanın xatirəsində iləlƏbəd unudulmayacaq pək müəllim [ələmli], pək xunin [qanlı] bir xatirə həkk etmişdir. Bunlar təəssübləri saiqəsilə [ucbatından] türklük və müsəlmanlığa qarşı ağlın və məntiqin qəbul edəmməyəcəyi bir dərəcədə qudurmuşcasına bir düşmənlik ibraz etdilər [nü-mayiş etdirdilər].

Bakının soqaqları içərisində, keçmişdə olduğundan min kərə daha fəzlə olaraq, təkrar ehtirasati-insaniyyənin [bəşər ehtiraslarının] ən çirkin, ən mərdud [iyrənc] şəkilləri kəndisini göstərdi. Yenə bir çox əziz və məsum canlar heysiyyətini çiynəmiş [tapdalamış], insanlığını unutmuş bir sürü yırtıcı heyvanların qurbanı oldu və bir çox türk və müsəlman qadınları zalım, qəddar əllərdə günlərcə inlədi, məhv oldu. Nazlı gəlinlər, qızlar soqaqlarda sürükləndilər, təhqir olundular. Fədakar analar, nazənin bacılar oğullarının, qardaşlarının ölüləri üstündə baş açdılar, ağladılar.

İştə, bütün bu ürək dağlayan vəq’ələr [hadisələr], sənələrdən bəri əsarətə qarşı bəslənməkdə olan kin və qərəz atəşlərinin iştialına [şölələnməsinə] bir səbəb təşkil etdi.

Tam bir əsr vaxt bundan əvvəl pək ağır bir təzyiq altında sükun-pəzir olmağa [səssizləşməyə, sönməyə] məcbur edilmiş həyati-milliyyə, qeyri-müsavi bir qüvvət altında əzilmiş qalmış, get-gedə bu qüvveyi-təzyiqiyyə kəsbi-şiddət etdikcə [şiddətləndikcə], qüvveyi-müqabilə də o nisbətdə təzayüd etməkdə [artmaqda] bulunurdu.

Fəqət Cahan müharibəsində bu qüvayi-təzyiqiyyə [təzyiq qüvvətləri] tənaqüs edər-etməz [azalan kimi], xarici qüvvəyə qarşı olan hissiyyati-xüsumətkaranə [düşməncə hislər] fəvərani-vulkaniyyə [vulkan püskürməsi] kimi tüğyan edərək, qarşısına durmaq istəyən bütün maneələri qırdı, yıxdı, təbiətin kəndisinə cızmış olduğu xətt üzrə cərəyan etməyə [axmağa] başladı.

Əvət, şimdi istiqlali-milliyə doğru pək böyük bir addım atmış bulunuruz.

Türk milləti keçən sənəki Mart hadisatını, türklük payidar olduqca [qaldıqca, mövcud olduqca] heç bir zaman xatirindən çıxarammaz və çıxarammayacaqdır. Bu gün bütün əfradi-millət [millətin bütün fərdləri] bu yolda vermiş olduqları qurbanları xatırlayaraq, kəndilərinə matəm tutur, ağlayır və bunlara səbəb olanlara qarşı qəlbində kin, qeyzi-intiqam hissləri tüğyan edərək, onların namlarını lənətlərlə, nifrətlərlə yad edir.

Əvət, keçən sənə martında məsum türk qanını axıdan o vəhşi, mənfur çöhrələr qəhr olsunlar, gəbərsinlər...

Əmin olunuz ki, bu gün o əziz və müqəddəs qurbanların pak və müqəddəs olan ruhları əfradi-millətin haqlarında göstərmiş olduğu bu haqşünaslıqdan məmnun olur və ulu Tanrıdan kəndi millətinin səadətini diləyir, istirham [xahiş] edirlər.

Bu gün hər bir türkün, müsəlmanın yapacağı kimi mən də Mart vəq’eyi-əlíməsinin birilliyi münasibətilə matəmi-milliyə iştirak etməyi kəndimə bir və-

zifeyi-milliyyə və insaniyyəədd [hesab] edir və o qurbanların böyük ruhları qarşısında təzimat və ehtiramatımı ibraz edirəm.

*Abidin*

## ŞÜHƏDAYİ-HÜRRİYYƏTİMİZİN ƏRVAHINA İTHAF

*Sizin məzarınız iştə qülubi-millətdir!*
*Bu sözlərim ürəyimdən qopan həqiqətdir.*
*Sizi unutmayacaq şanlı millətim əsla,*
*Əmin olun buna, ey zinəti-cahani-fəna!*
*Sizinlə buldu bu millət şərəfli istiqlal,*
*Sizinlə buldu bu millət həyati-pür-iqbal.*
*Bu gündə etmədə əhli-vətən sizi dəryad,*
*Salamlayır sizi iştə bu milləti-azad.*
*Müəbbədən diridir namınız bu dünyada,*
*Sizin də ruhunuz uçsun behişti-ə'lada.*
*Bizi xilas edərək pənceyi-əsarətdən*
*Nicat-bəxş olaraq dəsti-əhli-vəhşətdən*
*Çəkildiniz əbədi xüldzari-rəhmana,*
*Behişti-rəhmətə, yəni diyari-rəxşana.*
*O xununuzla açıldı bahari-hürriyyət,*
*Sizin də yurdunuz olsun behişti-ülviyyət.*

*Bakı, 31 mart 1919*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## "ACI HƏQİQƏTLƏR"İM

Hər gün yazdığım dəftəri-xatiratımın hər nədənsə mazidəki [keçmişdəki] səhifələrini qarışdırırdım. Bundan tamam bir il əvvəl yazdığım "acı həqiqətlər" sözü gözümə ilişdi.

Lahuti [ilahi] bir səda da: "Əcəba, sən bu günü unutdunmu?" deyə mənə xitab edirdi.

Bu sual qarşısında ayın on yeddisində başlayıb da aylarla təmadi edən [uzanan, davam edən] o qara lövhə qorxunc bir heykəl halında qarşıma dikildi. Müxatəbim [həmsöhbətim] bu sualı ehtimal ki, bir çoxlarına sor[uş]muş, əksərisinin unutmuş olduğunu görməsindənmi, nədənsə, orasını bilmirəm, yalnız deyə bilərəm ki, mənə də müstəhzi [istehzalı] və acı bir səda ilə təkrar edir, bittəb' [təbii olaraq] məndən də əcələ [təcili] bir cavab bəkləyirdi. Çünki bütün Azərbaycan şəhər və köylərini gəzəcək və hər bir müsəlman şəxsə bu günün acı həqiqətini təxəttür etdirdikdən [xatırlatdıqdan] sonra, daha irəlidə Dağıstan, İran, Türküstan, ehtimal ki, ta Çin, Hindistan yaylalarına qədər gedəcəkdi... Halbuki müxatəbimə "Xayır!" cavabını verincə, dərhal hekayə tərzində isbata başladım.

İsmailiyyə; bu ali kaşanə, millət böyüklərinə yalnız millətin rifah [və] səadətini təmin etmələri üçün milyonlar sərf edilərək təsis edilmiş bir müəssisə, düşmənlərimiz gözlərinə tikan olub, ta uzaqlardan görüb də məyus olmaları üçün qurulmuş bir bina idi.

İlk zamanlarda dostlar müstərih [ürəyi sakit] və qəlbi ümid ilə məmlu [dolu], bu binanın önündən keçərkən, biləks, düşmənlərimiz istiqbalda [gələcəkdə] bu binadan çıxacaq qırılmaz və qayət mətin hazırlanmış əməlləri [arzuları, planları] təxəyyül edər, məyus, adəta qorxaraqdan, heç baxmağa cəsarət etmədən keçərdi. Çünki burası müsəlmanlığın ümidgahı deyə hər kəsdə bir fikir oyandırmışdı.





Fəqət həqiqəti-hal böyləmiydi? İsmailiyyədə yeni açılan bufetdə çox sevdiyim yoldaşlarımdan biri ilə münaqişə edirdik.

Münaqişəmiz yeni açılan İttihad və Tərəqqi firqəsi idi. Deyirdim:

- Yetməzmi bu qədər firqələrimiz? Biz digərlərinin birlikdə çalışmasını arzu edərkən, milləti daha bir taqım parçalara təqsim edirlər [bölürlər]. Həqiqi bir türk mühibbi [aşiqi] olan yoldaşım türklərə qovuşmağı ancaq bu firqənin vücudunda hiss edirdi. Əksini iddia edərkən, bulvar tərəfindən şiddətli atışma sədaları eşidilməyə başladı.

Bakıda üç hökumət vardı. Hər axşam bu atışmalara qulaqlarımız alışmışdı. Lakin bu axşamkı atışma heç birinə bənzəmirdi. Çünki təmadi edir [davam edir], ziyadələşirdi. Xatirimdədir, bu axşam İsmailiyyəmizdə yəhudi vətəndaşlarımızın milli teatroları vardı. Bifaidə olan münaqişəni tərk ilə İsmailiyyənin uzun mərdivanlarından hər kəslə bərabər mən də yoldaşımla adəta qoşaraqdan enirdik. Atışmanın səbəbini və istiqamətini öyrənmək istəyirdik. Öyrəndim: Diki diviziyamızla bolşeviklər çarpışırlar.

O əsnada ağlıma bu söz gəlmişdi: Möh-tərəm bir zatın evində müsafirdim. Daha çox millət xadimləri, müqəddərati-milləti idarə edən bir çox zəvati-kiram [böyük adamlar] da bu məclisdə isbati-vücud [iştirak] edirdi.

Yeməkdən sonra firqələrimizin böyük rüknündən [etibarlı şəxslərindən] olan bir zatın yanında oturdum. Hər nədənsə firqələrində alati-hərbiyyənin [hərbi ləvazimatın] cins və miqdarını öyrənmək istədim. "Zaman gələr, görərsən" cavabını xəndəli [təbəssümlü] bir əda ilə almışdım və müstərih olmuşdum.

İştə, bu atışma gecəsində bu zatın sözü xatirimə gəlmişdi. Sənətim hərbi olduğundan dərhal o zatın firqəsinə adəta yüyürdüm. Çünki yalnız bu firqədən ümidim vardı. Birinci dəfə buraya daxil olurdum. Burada toplananlar məni görüncə "Aman Allah, evimiz yıxıldı, nə yapalım? Sən Allah burda qal, bir yerə getmə..." daha buna bənzər bir taqım sözlərlə məni qarşıladılar. Halbuki mən mütəmadiyən [daim] ətrafıma baxınıb top-tüfəngləri araştırıram. Sonradan anladım ki, mən də digər əfradi-millət [millət fərdləri] kimi aldadılmışam. Daşnakların rəisi telefonla "Camaata tapşırın erməni-müsəlman davası yoxdur, biz tamamən bitərəfiz" deyirdi.

Ey sevgili millətim! Sizi təmin edirəm ki, daşnakın bu sözü doğru idi. Çünki düşmənlər bizim kamilən qolsuz, qanadsız olduğumuzu bilməyirdi... Bizdən hələ qorxurdu. Yetişdirdiyimiz zabitlərin arxasında yetişmiş əsgərlərimizin də olduğuna – heç şübhə yox qismi-əzəmi [çox hissəsi] – inanmışlardı. Düşmənlərimizdən bizi çox gözəl bilənlər vardı. Fəqət bunlar ümumu inandırammırdı ki, bu zabitlər bir maskadan ibarətdir...

Təzə yetişən zabitlərimizin "Bizi niyə yetişdirdiniz, hanı əsgərlərimiz, nərədə tüfənglərimiz?" deyə təmadi edən atəşin suallarına heyhat ki, havanın boşluğu həsəbilə [səbəbilə] əks-sədalarından başqa bir cavab verən yox idi!..

Durmaq zamanı deyil, sonda olsun birləşmək lazım. Bu axşam hər partiyaya baş vurdum. Əksərisində bir adam yox. Kəndi-kəndimə yalnız bu sözü təkrar edirdim: "Hey zavallı millət!.."

Məhəllələrə dağıldıq, hər kəslə bərabər mən də bağırırdım: Müsəlman olan silah başına! Silahını alan çıxır, silahı olmayanlar da İsmailiyyəyə qoşurdu. Zavallılar bilməyirdilər ki, millətin bir tüfəngi belə yox. Varsa belə, verən yox...

Millət birləşmişdi. Məəttəəssüf [təəssüf ki], bu ilk və son birləşmədən daha vəxim [ağır; qorxulu] nəticələr təvəllüd etdi [meydana gəldi]. Ayın on səkkizində millət qeyri-müntəzəm, bir silah baş[ın]da saxta qoçularımız olduqları halda İsmailiyyə binasında mitinq yapırdı. Böyüklərin artıq bu məclisdə heç bir qiyməti qalmamışdı. Hər kəs, bilxassə qoçularımız ağzına gələn sözü söyləyir, küfr edir [söyür], kimsəyə danışmaq haqqı verməyirdi. Danışanlara da qulaq asan yox. İştə, dediyim vəxim nəticə: Birlik var, böyük yox...

Bu hal daha fəci [faciəli] lövhələr hazırlayırdı. Bu zamana qədər ümumi ictimalarda [yığıncaqlarda] – natiqəpərdaz [gözəl, bəlağətli danışan] olmadığım üçün – camaata xitabən söz söyləmədiyim halda, bu gün mən də söylədim:

Birləşməmək həsəbilə əlimizdə heç bir müdafiə alətimiz olmadığını, yalnız bir ümidimiz varsa ancaq sözlə düşmənlə etilaf edə [uzlaşa] biləcəyimizi, əks təqdirdə namusumuzun ayaqlar altında çiynənəcəyini [tapdalanacağını] adəta ağlayaraqdan söyləyirdim, yalvarırdım.

Yuxarıda zikr etmişdim: millətin başında bu gün böyüklər deyil, saxta, cahil qoçularımız dururdu. Onlar ancaq kəndilərini cihada dəvət edən mollaları alqışlayırdı. Mollalarımız əmmamələrini, qoçularımız papaqlarını əllərində sallayır, bəziləri papaqlarını yerlərə vururdu: "Bizə bu papaqlar artıq haramdır, namusumuz ləkələndi" deyirlərdi.

Çox doğru, lakin buradakıların heç biri təqdir etməyirdi ki, namusumuzu ləkələyən bizzat kəndimizik.

İsmailiyyədəki mitinqdən bir nəticə çıxmadı. Camaat dağıldı. Çox sevinmişdim. Təəssüflər olsun ki, Təzəpirdə tərtib edilən ikinci bir mitinqdə millət edamını kəndi əliylə imza edirdi. Qərar verildi: ya həyat, ya ölüm! Düşmən yenə bizdən qorxdu. Ultimatumu əlinə [alar-]almaz bilaqeydü-şərt [qeydsiz-şərtsiz] təkliflərimizi qəbul etdi. Lakin başsız millət bundan da qürura gəldi.

Bizi eyi tanıyan bir taqım düşmənlərimiz fürsəti qaçırmamaq üçün müxtəlif məhəllərdə [yerlərdə] atəşə başlamışdı. Nə yapdıqlarını bilməyən qoçularımız da nümayişkaranə atəş səslərinə atəşlə cavab verirdi. Bir çoxlarımız soqaqlarda "Atma, qardaş, atma" deyə bağırırdı.

On doqquz mart sabahı düşmən tərəfindən birinci top patladı. Zənn edərsəm nəticəni heç bir müsəlman unutmamışdır. Nə oldu? Minarələrimiz yıxıldı, bir çox xanimanımız yandı, bir çox ismətli ana-bacılarımızın namusları söndü, bir çox məsum qanlar töküldü, məscidlərimiz başları bədənindən ayrılmış, tamamən yanmış, engizisyon məzalimini [inkvizisiya zülümünü] unutduracaq dərəcədə ənva [cürbəcür] işgəncələrlə öldürülmüş qadın, erkək, qız, oğlan bigünah bir taqım vücudlarla doldu. Bolşevik kisvəsinə [donuna] bürünmüş namərd düşmən müvəqqətən olsa da qürurla evlərimizi gəzdi, hər dürlü həqarət və təcavüzdə bulundu, əmvalımızı [mallarımızı] yəğma etdi. Namusunu qurtarmaq istəyən biçarə





ailələrimiz çöllərə töküldü, pərişan oldu. Düşməndən qaçayım derkən, dostun əlinə əsir düşdü. Yollarda adını müsəlman qoyan bir taqım alçaqlar tərəfindən soyuldu. Xülasə, hər ailə birər surətlə fələyin qəhrinə uğradı. Bu hal, bütün Azərbaycan və Dağıstanı istila etdi. Hər tərəfini xarabazara döndərdi. Mövcudiyyətimiz təhlükədə idi deyərsəm – zənn edərsəm – xəta etmərəm.

Ölən Adilə rəhmət, Nəcəfqulu Rzayev və yoldaşlarına burada qadınlarımız naminə təşəkkür etmədən keçəmməyəcəyəm. Bu dilavərlər [qoçaqlar] bir çox fədakarlıqla, heç olmazsa ricət [geri çəkilmə, qaçış] yolumuzu təmin etmişlərdi.

Millət həddən ziyadə qeyrət etdi. Əfsus ki, nanəcib düşmənə məğlub olduq. Ağladıq, sızladıq... Bir taqım fədakaranimillət [millət yolunda fədakarlıq edənlər] naümid bir halda tərtib etdikləri kiçikkiçik çətələrlə [qeyri-nizami dəstələrlə] aylarca düşmənlə çarpışdı. Saxta qoçularımızın – isimlərini şəxsiyyatı [məsələni şəxsiləşdirməyi] sevmədiyim üçün yazmayıram, millətin kəndisi bilir və bir gün cəzalarını verər – kimisi qəsdən kəndini namərd və alçaqcasına düşmənə təslim etdi. Əksərisi evindən dışarı çıxmadı. Çünki bu alçaqlar yalnız məsum müsəlman qanı tökməklə şöhrət qazanmışlardı. Cihad elan edən mollalarımızdan heç bir əsər görünməyirdi.

Ey sevgili millətim! Xatiratımın bu səhifəsi burada xitam bulur.

Bunu unutmayalım ki, mazidən [keçmişdən] ibrət almayan millətlər daima məhkumi-həqarət olmuş, əhfadı [nəvələri, gələcək nəsilləri] tərəfindən də daima lənətlə yad edilmişdir...

Düşmənimizin unutduğunu yuxarıda zikr etdiyim yaralı qardaşlarımız imdadımıza gəldi. Onlarla birlikdə intiqamımızı aldıq, istiqlalımıza qovuşduq.

Bu nacilər [nicat verənlər, xilaskarlar] namusumuzu təmsil edən müqəddəs Azərbaycan bayrağını bizə təslim ilə xəstə olan vətənlərinə xəstə olduqları halda övdət etdilər [qayıtdılar]. Bizi qurtaranlar bu gün daxili və xarici, aldıqları müdhiş və vəxim [dəhşətli və ağır] yaralarla naümid bir halda inləyirlər, kəndilərini tədavi [müalicə] edəcək doktorları, yaralarını eyi edəcək mərhəmləri arayırlar... Onlardan heç bir ümid bəkləməyə haqqımız yoxdur.

Biləks [əksinə], vətənimizdə yeni doğan ay və günəşimizlə onları təsəlli etməyə məcburuz...

Ey millət başçıları! Bu gün başsızlıq üzündən qəhr olduğumuz matəm gününü yad edərkən, həqiqi surətdə birləşəlim. Əvət, birləşəlim! Daxili və xarici düşmənlərimiz görsünlər ki, qarşılarında çəlikdən daha mətin bir qala vardır. Birləşərsək yıxılmaz, yıxılsaq da mərdcəsinə yıxılar, tarixdə altun hürufatla [hərflərlə] qeyd ediləriz...

Yaşasın bu gündən sonra həqiqi birləşəcək millət və böyüklərimiz!

Qəhr olsun aramızda bu gündən sonra ixtilaf çıxaranlar!..

*Ə. Bədi'*

**İTHAF**

Bolşeviklərin pənceyi-qəhrində can verən müqəddəs arxadaş, millətdaş və irqdaşlarıma!

Ey mazisi pürşanü-şərəf [keçmişi şan və şərəflə dolu], böyük və müqəddəs Azərbaycanın şanlı övladları! Sizi qəhhar [qəhredici] zərbələri altında, müftəris [yırtıcı] və qanlı dişləri ilə boğan, xəzələyi-nassdan mütəşəkkil [insanların ən alçaqlarından ibarət] o canavar sürüsü mərdüm-xarlar [yamyamlar; adamyeyənlər] zənn edirlərmi ki, Həzrəti-Teymurun bu atlı möhtərəm övladlarını, əsil türk yavrularını artıq bir daha əsəri-həyat görüləmməyəcək dərəcədə boğdular, ədəmabada [yoxluq diyarına] yuvarladılar?!..

Xeyr!

Yüz min kərə xeyr!

Bu gün o qəddar bolşeviklərin alçaqcasına kəsdikləri gənc türklərin, o alicənab türklərin müqəddəs ruhları yüksəklərə pərvaz etdilər [qanadlandılar], oralardan, bu xəzələyi-nassın icra eylədikləri zülüm və etisafa [təcavüzə] qarşı "Nifrət, nifrət!" deyə hayqırırlar. O zaman Azərbaycanın bütün o atəşin, qəyur [alovlu, qeyrətli] gəncləri yekavaz olaraq [bir ağızdan] "Qəhr olun, ey qan və vəhşət içində puyan olan [yüyürən] ərazili-nas [insanların ən alçaqları]! Ey qəddar və zalımlar! Biz azərilər ən son fərdimizə qədər sizin o alçaq, səfil idareyi-zalımanənizə tabe olmaqdan istinkaf edərək [boyun qaçıraraq] elani-üsyan edəriz!" deyirlər.

Ey zavallı, bədbəxt gənclər; istiqlali-millinizi elan edərək, sənələrdən bəri bu talehsiz diyarda dalğalanammayan bayrağınızı təməvvüc etdirmək [dalğalandırmaq] üçün millətinizə qurban getdiniz! Fəqət əmin olunuz, o sizin müqəddəs və milli məfkurələrinizi ta həşrə qədər yaşadacaq, hətta yövmi-ərəsatda [məhşər günündə] belə sizə, sizin pək ziyadə təqdis və təbcil etdiyiniz [müqəddəsləşdirdiyiniz və ucaltdığınız] o bayrağı ərməğan götürəcək övladları biz varız!..

Ey Azərbaycanın şanlı qurbanları; sizin qan və canınızla qurulan Azərbaycanın ulu kəbəsində, türklüyün müqəddəs mehrabında heç bir zaman nə o vəhşilərin müstəkrəh [iyrənc] bayrağı dalğalanacaq, nə də müstəbidlərin daşqın və haq tanımayan keyfəmayəşası [özbaşınalığı] hökm-fərma olacaqdır [hökm sürəcəkdir].

Burada, bu cənnətasa [cənnət kimi] diyarda yalnız bizim, biz türklərin milli bayrağı təməvvüc edəcək, yalnız bizim, biz azərilərin mədəniyyəti intişar olacaqdır [yayılacaq].

Ey hüzuri-rəbbüləaləminə [aləmlərin rəbbinin hüzuruna] qanlı libas və dəlik-deşik vücudlarıyla varan Azərbaycan şəhidləri! Məscidlərimizin minarələri və Cəmiyyəti-Xeyriyyəmizin qübbəsi üzərində dolanan ruhlarınız əmin və şahid olsunlar ki, sizin mübarək qanlarınızın damladığı hər yerdə bir türbeyi-cənnət, bir qibləgahi-ümmət hüsula gəlmişdir.

Buralardan keçəcək hər bir türk hörmətlə əyiləcək, tatlı və ruhnəvaz [ruh oxşayan] mərsiyələrilə tərənnümsaz olaraq sizin məşhədi-mübarəkinizdə [şəhid olduğunuz yaxud dəfn edildiyiniz mübarək yerdə] şanlı tarixinizi yad və təzkar edəcəkdir [xatırlayacaq]. Mazinin [keçmişin] müzlim [qaranlıq] dəqiqələri içində müşəşə bir atini [təntənəli bir gələcəyi] biz gənclərdə təcəlli etdirən [meydana çıxaran; göstərən] sizin o bitməz-tükənməz cihadınız, cihadi-mənəviniz, cihadi-fikriniz-dir.

Siz öylə qəvi [güclü] və mətin bir iman ilə Azərbaycanın xilasına çalışdınız ki, – ey müəzzəz [əziz] ruhlar! – səadəti-atiyyədən [gələcək xoşbəxtlikdən] məhrum biz avarəgana [avaralara, sərsəri gəzənlərə] bir üfqi-novini-istiqbal [yeni bir gələcək üfqü] iraə etdiniz [göstərdiniz]. Fəqət vaheyfa [heyif] ki, səyiniz sizə səməreyi-təlxamiz [acı bir meyvə] bəxş etdi.

Bir atəş-fəşan nikbət [atəşlər yağdıran bir bədbəxtlik] içində qaib oldunuz!

Lənət olsun o zalımlara ki, xunin [qanlı] əllərilə əqtari-cahanı [cahan məmləkətlərini] ridayi-matəm [matəm örtüyü, matəm şalı] içinə soxdular, hər yerdə qan, vəhşət, ölüm vulkanları saçarkən, sevgili yurdumuzun müqəddəs övladlarını da parçaladılar.

İştə o zaman Azərbaycanın pənbə, laciverd səmasında məxuf [təhlükəli] buludlar toplanaraq, yurdumuzun dilrüba [könül oxşayan] səması qarardı, hər yerə bir yövmi-qəsvətəngiz [ağır, ürək sıxan bir gün] çökdü!

Tarixi-aləm bu qəddarları lənətlə, məzəllətlə [alçaqlıqla] yad edərkən, xətti-zərrinlə [qızıl xətlə] yalnız sizi, ey Azərbaycanın mübarək şəhidləri, əvət, yalnız sizi yazacaq və hörmətlə salamlayacaqdır!

*Ələsgər Ələkbərzadə*

## MART HADİSEYİ-ƏLİMƏSİNİN MÜXTƏSƏR TARİXÇƏSİ

1914-üncü il ibtidalarında [əvvəllərində] Yevropa müharibəsi başlanana qədər erməni ictimai dairələri və mətbuatı Türkiyə hökumətinin ermənilər münasibətində etdiyi vəhşiliklər haqqında səs salıb heç bir şeyi unutmayaraq, hər cür iftira və yalanlar ilə Yevropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] müsəlmanlar əleyhinə qaldırmağa çalışırdılar.

"Daşnaksaqan" firqəsinin və erməni şovinistlərinin müsəlmanlar əleyhinə, xüsusən türklər və müharibə ibtidasından Qafqaziya müsəlmanları əleyhinə etdikləri işlər hamıya məlumdur. Yevropada və Rusiyada yaşayan ermənilərin hamısı müttəhidülqövl [bir ağızdan] bütün dünyaya müraciətən "Ermənistan ermənilərə çatmalıdır" deyə qışqırmağa başladılar. Hər yerdə erməni könüllü dəstələri təşkil edilib, Qafqaziyaya göndərilirlərdi. Bu könüllü dəstələr hər yerdən keçdikdə rus saldatı adı ilə qabaqlarına gələn müsəlman kəndlərini qarət edib dağıdırdılar.

Daşnaksaqanlar əfkari-ümumiyyəni müsəlmanlar əleyhinə qaldırmaq arzusuyla özlərini o yerə yetirmişdilər ki, Bakı gömrükxanasından düyü və çərəz aparan arabaları kisələrdə patron və qeyri mühimmati-hərbiyyə [hərbi ləvazimat, silah-sursat] var deyə bəhanəsilə tutub axtarırdılar. Guya ki, müsəlmanlar silahlanırlar. Bu müfəttinanə [fitnəkar] və yalan xəbərləri əhali arasında nəşr etməkdən [yaymaqdan] ötrü ermənilər Rus Milli Komitəsinin müavinətindən [köməyindən] də istifadə edirdilər.

Türkiyə əsgərləri Qafqaziya cəbhəsində geri çəkildikləri zaman, Türkiyə ermənləri Qafqaziya ermənilərinə qoşulub geri çəkilən Türkiyə əsgərlərinə hücum ilə onları təqib etməyə başladılar. Bir tərəfdən Andraniklərin, digər tərəfdən Dro, Qaro və Muradın dəstələri hücum etməkdə idilər. Müsəlman kəndlərinin hamısı qarət edilib dağıdılmış idi.

Dəmiryol xəttinin hər bir nöqtəsində müsəlmanlar silah daşıyır deyə agentlər qoyulmuş idi. Bu agentlər bir çox müsəlmanı da tutub öldürmüşlərdi.

1917-inci il ibtidasında [əvvəlində] hürriyyət elanından sonra onlar pərdəni götürüb öz üzlərini aşkara çıxardılar.

Rus saldatları hürriyyətdən istifadə edərək müharibəni qət edib [kəsib] evlərinə getdikləri zaman, erməni saldatları daşnaklar ilə birləşib rus saldatlarının buraxdıqları mühimmati-hərbiyyəni cəm etdikdən sonra, dəstələr düzəldib rus saldatı adı ilə müsəlman kəndlərini dağıdıb talan və qarət etməyə başladılar.

Rostovdan başlamış Tiflisə qədər hər bir stasyonda müfəttinlər [fitnəkarlar] rusları müsəlmanlar əleyhinə qaldırdılar. Bu fitnəkarlıqlar nəticəsi olaraq bir çox müsəlman qətl edildi. Dağıdılmış və yandırılmış dəmiryol mövqifləri [stansiyaları] bunu gözəlcə isbat edir.

Xaçmaz mövqifində olan fəcianə hadisələrə gəldikdə, onları təsvir etmək belə mümkün deyildir. Əlbəttə ki, bu hadisələr müsəlmanların qəlbini dağdar edib [dağlayıb, yandırıb], gəldikcə böyük düşmənçiliyə bais olurdu. Bu zamanda Bakıda Əmələ və Saldat Vəkilləri Şurası [Fəhlə və Əsgər Deputatları Soveti] vücuda gəldi.

Sosialist bayrağı altında məzkur [adı çəkilən] şuraya daxil olan daşnak Şaumyan, Sako Saakyan, A. Arakelyan müsəlman fəhlələrin şura heyətinə daxil olmasına hər cür mümaniət [maneçilik] göstərməyə çalışırdılar.

Mədənlərdə və zavodlarda Qırmızı ordu (Krasnaya armiya) təşkil edildi. Bu orduya ermənilər, ruslar və müsəlmanlar da yazılırdılar.

Lakin müsəlmanları qəbul etməyirdilər. Qırmızı ordu başdan-ayağa ermənilərdən ibarət idi. Bu ordunun başında cəllad Avakyan dayanmış idi.

Bu vaxt müsəlmanlar gürcülər və ermənilər misalı özləri üçün milli ordu təşkil etməyə çalışırdılar. Seymin binagüzarlığına [sərəncamına] görə, Gəncədə duran 216-ıncı və Bakıda olan 219-uncu alaylar, özlərində olan mühimmati-hərbiyyəni Gəncə və Bakı alaylarına verməli idilər. Lakin ermənilər nə Gəncədə və nə də Bakıda müsəlmanlara heç bir şey vermədilər. Hər bir şeyi yığışdırıb özləri ilə apardılar. Bu iş üstə Gəncədə müsəlmanlar ilə ermənilər arasında fəna nəticələr ilə təhdid edən ədavət vücuda gəldi. Düşmənçilik edənləri barışdırmaq və müsadiməni [toqquşmanı] rəf etməkdən [aradan qaldırmaqdan] ötrü Tiflisdən – Seym tərəfindən, Bakıdan isə müsəlman və erməni milli şuralarından və "Müsavat" firqəsindən Gəncəyə vəkillər göndərildi.

Bir növ ilə bu iş qurtardıqdan sonra müsəlmanlar tezliklə öz qüvvələrini milli ordu təşkilinə sərf etməyə başladılar. Daşnaklar var qüvvələri ilə bizə bu işdə mane olmağa çalışırdılar. Onlar fitnəkarlıqdan və yalandan çəkinib həya etmirdilər. Bu qərar üzrə onlar Seymdə "Müsavat" əleyhinə fitnəkarlığa başlayıb, "Müsavat" firqəsini türklər ilə sazişə girməkdə müttəhim etməklə bərabər, müsəlmanların özləri üçün ordu düzəltmələrinə mümaniət göstərilməsini təklif edirdilər.

Ermənilər mətbuatında da bu cür fikir yürüdüb ələlümdə [başlıca olaraq] "Müsavat" firqəsinə və müsavatçılara hücum etməklə bərabər, onları Türkiyə agentləri adlandırırdılar.

Müsavatçılar isə var qüvvələri ilə camaatı sakit etməyə və bu iki millət arasında mehriban münasibat [münasibətlər] saxlamağa çalışırdılar. Bu məqsədlə də bir çox müttəhid [birgə] mitinqlər tərtib verilib, hər iki millətin ruhanilərindən və ziyalılarından müavinət istənilirdi. Hər iki millət ruhaniləri arasında təntənəli qardaşlıqlar vaqe olurdu. Bizi sakit edib inandırırdılar ki, ermənilər bizə dostdurlar.

Amma bununla belə, daşnaklar yatmayıb xəlvətcə öz işlərini işləyirdilər. Həştərxandan, Petrovskdan, Krasnovodskdan gələn ermənilər bu bəhanə ilə Bakıda saxlanırdılar ki, guya müsəlmanlar yollarda onlara hücum edirlər. İrandan və Krasnovodskdan paraxodlarda Şura Hökuməti adına gətirilən mühimmati-hərbiyyə və qeyri şeylər həqiqətdə isə daşnakların əlinə keçirdi. Bu şeylər etibarlı yerlərə yığılırdı. O cümlədən Mantaşevin zavoduna və qeyri yerlərə.

Bunların hamısıyla bərabər, eyni zamanda Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri vaqe olurdu. Şaumyanın bu münasibətlə yazdığı məktub Gəncə komendantının əlinə keçmişdi. Bu kağızdan aşkar görünür ki, Şaumyan və Avakyan xalis daşnakdırlar.

Şura heyətinə daxil olan müsavatçı fəhlələr, şurada olan bütün qara işləri aşkar görüb, dəfələrlə deyib şuraya göstərirdilər ki, erməni şovinistləri sosialist maskası altında şurada işləməkdədirlər. Müsavatçı fəhlələr az olduqlarından, onların sözlərinə etina olunmayırdı. Müsəlman ərkani-hərbi [hərbi qərargahı] birinci dəfə Bakıya gəldiyi zaman erməni millətpərəstləri şura adı ilə ərkani-hərb heyətinin hamısını tutub həbs etdilər. Bakı müsəlmanları bu işdən narazı olub həyəcan artdı. Protesto olaraq bazar-dükan bağlandı. Müsavatçılar var qüvvələri ilə əhalini sakit etməyə çalışdılar. Axırda həbs edilənlər azad edildilər, lakin müsəlmanlara sataşmaq davam edirdi. Xüsusən Bakı mövqifində [stansiyasında] başsızlıqlar vücuda gəlib, bir neçə müsəlman tələbəsi qətl edilmişdi. Bakı mövqifində o qədər başsızlıq artdı ki, Zaqafqaziya dəmiryoluyla getmək istəyən müsəlmanlar mövqifdən qaçıb, Heybət mövqifinə gedirdilər. Oradan qatar ilə yola düşürdülər. Ermənikəndinə getmək daha təhlükəliydi. Salamat gedən daha qayıtmayıb xəbər belə olmayırdı.

Məlum oldu ki, erməni saldatları məşhur qaniçən Amazaspın komandasına verilmişlər. Onlar hamısı Şura Hökumətini qəbul etdilər. Müsavatçılar mövsuq [etibarlı] mənbədən xəbərdar oldular ki, ermənilər Ermənikəndində xəndəklər qazıb istehkamat yapmaqdadırlar. "Müsavat" firqəsi öz nümayəndəsi vasitəsilə bu əhvalatı qradonaçalnik Ter-Mikaelyandan xəbər almışdı. Bu əhvalat daşnaklar vasitəsilə təftiş edildikdən sonra aşkar olmuşdur ki, "Müsavat"ın aldığı xəbərlər doğrudur. Ermənilər üzr istədilər və xəndəklərin doldurulmasına binagüzarlıq olundu [qərar verildi], fəqət bir neçə vaxt keçdikdən sonra bu xəndəklər təzədən qazılmışdı. "Müsavat" firqəsinin bu münasibətlə ikinci dəfə etdiyi protestosuna Ter-Mikaelyan cavab vermişdir ki, bu xəndəkləri ermənilər başqa qəsd üçün deyil, ancaq özlərini müdafiə və mühafizə etməkdən ötrü qazırlar.

Bu işlərin hamısı Müsəlmanları əsəbləşdirib həyəcana salırdı. "Müsavat" firqəsinin Əmələ və Saldat Vəkilləri Şurasına dəfələrlə etdiyi müraciəti nəticəsiz qalırdı.

1918-inci il martın 14-ndə Əmirovun komandası altında Şamaxıya bolşevik əsgəri dəstəsi göndərilmişdir. "Müsavat" firqəsi bu əsgəri dəstəni göndərməkdən məqsud nə olduğunu sorduqda, Əmələ və Saldat Vəkilləri Şurası cavab vermişdir ki, bu dəstə uyezddə olan xırda üsyanı yatırmaqdan ötrü göndərilir.

Buna qədər Hacıqabuldan Salyana və oradan da Muğana bolşevik qoşunu göndərilmiş idi. Lənkəranda olan Diki Diviziyanı tərksilah etmək üçün dəniz təriqiylə [yoluyla] bolşevik dəstələri göndərilmişdi. Bunlar hamısı Erməni Milli Şurasının xəbəri ilə edilirdi.

Göndərilən bolşevik əsgərlərinin hamısı yolda qabaqlarına gələn müsəlman kəndlərini dağıdıb zirü-zəbər [alt-üst] edirdilər. Bu qərar üzrə Astaraya da bolşevik əsgərləri göndərilmiş idi. Astara top atəşinə tutulub qarət edildikdən sonra, əhalinin varı-yoxu aparılmışdı. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasında olan hamı müsəlman kəndləri "Aleksandr Candar" paraxodu tərəfindən top atəşinə tutulmuşdu.

Styopka Lalayevin quldur dəstəsi gecələr müsəlman evlərinə hücum edib, ev sahibinin silahını aldıqdan sonra özünü də kötəkləyirdilər. Flot [donanma] matrosları da bu cür hərəkətlərdə bulunurdular. Yanvar ayından başlamış Mart hadisələrinə qədər bu halət davam etdi.

Hacı Zeynalabdin Tağıyevin oğlunun cənazəsini Bakıya gətirən 48 nəfər Diki Diviziya əsgərləri şəhərə gəldikdən sonra şəhər əhvalı daha da fənalaşdı. Şəhərin hər yerində müsəlmanlar əleyhinə mitinqlər tərtib edilirdi. Əhali həyəcana düşüb hadisələri gözləyirdi.

Müsavatçılar var qüvvələrini bu işlərin hamısının sülh ilə bərtərəf olmasına [aradan qaldırılmasına] sərf edirdilər. Lakin daşnaklar yatmayırdılar. Fevral ayından başlamış onlar xəlvətcə erməni ailələrini şəhərin müsəlman hissəsindən köçürməyə başladılar. Bununla belə şayiat buraxırdılar ki, müsəlmanlar bütün xristianları məhv etməyə hazırlanırlar. Xüsusən müsavatçıları müttəhim edirdilər.

Şura Hökuməti başında olan Şaumyan, Saakyan və Arakelyan bu qeyri-təbii əhvalın bərtərəf edilməsi üçün heç bir təşəbbüsatda bulunmayırdılar. "Müsavat"ın hər bir müraciətinə onlar cavab verirdilər ki, hər bir işdə müsəlmanlar özləri günahkardırlar və işlərin böylə olmasına müsəlmanlar çalışırlar. Bunlara baxmayaraq, müsəlmanlar fikirlərinə belə gətirmirdilər ki, ermənilər Mart hadisatına bais ola biləcək bir ədnalıq [alçaqlıq] edə bilərlər. Bununla belə, müsəlmanların bu niyyətlərinə şübhəli baxırdılar.

Bu halda Şamaxı hadiəsləri haqqında Bakıya xəbərlər gəlməyə başladı. Martın 16-sında xəbər gəldi ki, bolşevik saldatları Şamaxıya hərəkət edərək intizamsızlıq salıb, yolda qabaqlarına gələn müsəlman kəndlərini, o cümlədən Ağdərə, Novxanlı, Qorxanlı və qeyrilərini qarət edib müsəlmanları qırırlar.

Müsavatçılar bu kəndlərin müsəlman əhalisini sakit etməyə çalışıb onları inandırırdılar ki, müsəlmanlar ilə ermənilər arasında ədavət yoxdur. Eyni zamanda Bakıda olan erməni saldatları körpülərdə olan fəhlələri, hammalları və qeyri müsəlmanları döyüb incidirdilər.

Mart ayının 17-sində Bakıya xəbər verildi ki, ermənilərin milli qoşunları Şamaxıyadək yetişmişlərdir və orada ermənilər ilə müsəlmanların əlaqəsi çox kəskinləşmişdir. Hətta xırda müsadimələr də vaqe olmuşdur [toqquşmalar da baş vermişdir]. Ələlümum [ümumiyyətlə] Şamaxıdan gələn xəbərlər çox yaxşı deyildi.

Həman gün mart ayının 17-sində axşam "Avetik" paraxodunda bir çox arvad, uşaq, qoca kişilər, "Müsavat" nümayəndəsi və 38 nəfər Diki Diviziya saldatları Lənkərana getməliydilər. Fəqət Şura Hökuməti paraxod komandirinə əmr vermişdi ki, xüsusi icazə almayanadək yola çıxmasın.

Heç bir şeydən xəbəri olmayan sərnişinlər bu əhvaldan həyəcana düşürlər.

Saat 10 radələrində bir qarqaşalıq olur, deyirdilər ki, erməni saldatları körpünü əhatə etmişlərdir. Əhvaldan xəbər bilmək istəyən müsəlləh [silahlı] Diki Diviziya nəfəratı [əsgərləri] atəşə məruz qalır.

Bu heyndə [bu əsnada] körpüdə atışma başlanır və on beş dəqiqədən sonra qurtarır. "Müsavat" üzvlərindən bir neçələri aranı sakit etmək üçün körpüyə gəlirlər.

Sonra başlanan atışma nəticəsiz olaraq yarım saat davam edir. Sonra gecə saat üçədək xəndəklərdə əyləşirlər. Sair firqə üzvləri ilə bərabər müsavatçılar Şura Hökuməti komitəsinə gəlirlər. Oradan bir neçə nəfər alıb körpüyə gəlirlər və məqsəd də bu idi ki, orada olan hadisə bir növ ilə yatırılsın. Ermənilər bu hadisədən istifadə edərək, bütün şəhər içərisində atışmağa başlayırlar. Gecə şura qoşunu namı ilə ermənilər Velikoknyajeski, Olqinski və Voronsovski caddələrini işğal edirlər.

Həman gecə ermənilərin süvari qoşunları küçələri dolaşıb əhalini daha artıq xof və dəhşətə salırdılar.

Müsavatçılar bu yolda çox çalışırdılar. Həyəcana düşmüş müsəlmanları sakit edirdilər, küçələrdə qalan müsəlmanları evlərinə qaytarırdılar və eyni zamanda Diki Diviziya saldatlarını vadar edirdilər ki, onlar silahlarını təslim etsinlər. Zira bolşeviklər silahın təslimindən sonra onları azad edəcəklərini bildir[ir]dilər.

Nəhayət, saldatlar silahlarını müsavatçılara verərək bəyan etdilər ki, ortalıq qarışmasın deyə bunları təslim edirlər.

Lakin bolşeviklər ilə daşnaklar yatmayırdılar. Bizimkilər pristanda [liman körpüsündə] əhatə edildiyi zaman, onlar müsəlmanlara hücum etmək istəmişlərdir, fəqət onlar Şamaxı qoşunlarını gözlədiklərindən, bir gün sonraya bu qırğını təxir edirlər.

Müsavatçılar İcraiyyə Komitəsindən mart ayının 18-ində yekşənbə [bazar] günü səhər saat 7-də qayıdırlar. Müsəlmanlar saldatların silahlarını aldığını duyaraq, həyəcana düşürlər və dükanları bağlayaraq Milli Komitə iclasına gəlirlər.

Mitinqdə natiqlər etiraz nitqləri deyərək, bir neçə nəfər vəkillər seçirlər ki, onlar İcra Komitəsindən tüfəngləri tələb eyləsin və bəyan eyləsinlər ki, tüfənglər qaytarılmadıqca bazarı açmayacaqlardır. Müsavatçılar bu mitinqlərdə camaatı asudəliyə dəvət və üç dəfə intibahnamələr

[vərəqələr] buraxaraq dükançılara dükanlarını açmağı təklif edirlər. Axırıncı intibahnamədə bildirilmişdi ki, İcra Komitəsi axşam saat 6-da silahları qaytaracaq və üzr dəxi istəmişdir.

O zaman ki, müsavatcılar əhalini asudəliyə dəvət edirdilər, eyni zamanda şura qoşunları, erməni saldatları rast gələn müsəlmanları silah bəhanəsi ilə axtarırdılar.

Daşnak saldatları qaraqolda duran beş nəfər müsəlman saldatlarını "samosud" etmək [linç etmək, məhkəməsiz divan tutmaq] istəmişsələr də, ruslar və müsəlmanlar yetişərək bunları xilas etmişlərdir. Bu heyndə xəbər yetişir ki, şəhərin kənarında və Şamaxı altında Styopka Lalayevin dəstəsi müsəlmanları qırır. Bu xəbərlər və erməni saldatlarının insaniyyətdən kənar hərəkətləri müsəlmanları fövqəladə bir surətdə həyəcana salırdı. Saat 5-də müsavatçılar İcraiyyə Komitəsində silahların qaytarılmasını gözləyirdilər. Bu halda xəbər yetişir ki, bolşeviklər Şamaxı kü-çəsində müsəlmanlara hücum edib onla- rı öldürürlər.

Axşam saat 6-da bir çox müsəlman vağzalda tövqif [həbs] edilmişlərdi. Axşam saat 7-də bolşeviklər rastlarına gələn müsəlmanları öldürməyə başlayırlar.

Müsavatçılar dəfəatla [dəfələrlə] İcra Komitəsinə müraciət etmişlərsə də, hər dəfə "Heç bir şey bilməyiriz" cavabını alırmışlar. Bu vaxt Mars teatrosunun damından pulemyot işləməyə başlanır.

Saat 10-da məlum olur ki, Velikoknyajeski, Olqinski və Mariinski küçələr bolşeviklər tərəfindən işğal edilib, şəhərin aşağı hissəsi ilə əlaqə kəsilmişdir.

Saat 11-də erməni nümayəndəsi doktor Ter-Zaxaryan "Müsavat" idarəsinə Milli Komitəyə gəlib demiş ki, Erməni Milli Komitəsi "Metropol"a yığılmışdır ki, müsəlmanlar ilə bir yerdə bolşeviklərin qarşısına çıxmaq üçün şura etmək istəyirlər. Və əlavə eyləmiş ki: Bizim şura qoşunu ilə heç bir əlaqəmiz yoxdur. Bu, siyasi bir mübarizədir. Çalışmalı ki, bu mübarizə hər iki millətə zərər yetirməsin.

Bu zaman müsəlmanlar müavinət [kömək] etmək istərlər. Milli Komitədən Əlimərdan bəy Topçubaşovu, Əbdüləli bəy Əmircanovu, Ağahüseyn Tağıyevi, Yusifəli Əliyevi, "Müsavat"dan Əmin Məhəmmədovu, Səməd bəy Əliisgəndərovu, Əsədulla Əhmədovu oraya göndərirlər.

Axşam saat səkkizdə səkkiz nəfər müsəlmanlar bir nəfər erməninin sözünə görə "Metropol"a əzimət edirlər [gedirlər].

Müsəlmanlar və Erməni Milli Komitəsi bu yerədək ermənilərə inanırdılar. Vəkilləri, erməni saldatları gülləyə basdığından, bunlar qayıdırlar. Sonra Ter-Zaxaryan telefon ilə "Metropol"a Ter-Mikaelyan və Taqianosov ilə danışır və qərar qoyurlar ki, səhər saat 7-də yığışsınlar. Eyni zamanda ermənilər söz verirlər ki, erməni hissəsində olan müsəlmanları mühafizə edəcəklərdir. Müsəlman hissəsində olan erməniləri də müsəlmanlar mühafizə etsinlər.

Müsəlmanlar bu barədə məhəllələrə əmr verirlər. Saat 5-də bildik ki, bizi aldatmışlardır. Bunlar bir tərəfdən bizimlə danışığa girişdiyi halda, digər tərəfdən Şaumyan və eserlər ilə danışığa girişmişlərdir. Bunlar qət eyləmişlərdir ki, bizi aldadıb bütün ixtiyarı əllərinə alsınlar.

"Müsavat"ın birinci şöbəsindən bildirilirdi ki, Ermənikəndindən ermənilər Qanlıtəpəyə müsəlman məhəllələrinə hücum edirlər və zirehli avtomobillər "Müsavat" qarşısında dayanıb onları gülləyə basır və bir neçə müsəlmanları küçəyə çağırıb öldürmüşlər. Müsəlmanlar İcra Komitəsinə müraciətlə, nə üçün böylə edilir dedikdə, "Sizə böylə lazımdır" deyə Qaraxanyan cavab verirmiş.



## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN*

Millətdaşlar!

Bu gün sevgili vətənimiz Azərbaycan bir əza məclisinə dönmüş.

Gözlərdən axan qan-yaşlar, dillərdən səmalara doğru yüksələn dəhşətli ah-əninlər [ah-nalələr] böyük bir tufan qoparırlar.

Millətdaşlar!

Bu gün hər yanı bir hüzün, hər yeri bir yas, hər tərəfi br pərişanlıq içində görürüz. Diqqət etdikdə, hər bir məmləkətdə bir təlaş, hər sözdə bir məhəbbət, hər sükutda bir şikayət anlayırız. Ətrafa baxırız:

Güllər solmuş, bülbüllər sükuta dalmış, aləm qara matəm libasına bürünmüş. İnsanların üzündə bir hüzün, bir mükəddərlik müşahidə olunur. Guya şimdiki bu an həyat məmata təbdil olunacaq [həyat ölümə çevriləcək], guya şimdi soqaqlarda dolaşan insanlar biruh [cansız] bir müqəvva şəklinə giriblər.

Əcəba bunlar nə üçün? Bu təbəddülatlara [dəyişikliklərə] səbəb nə?

Əvət!

Bu gün adlarını insan qoyub feillərində bir yığın vəhşilər sürüsünü təşkil edən canilər əliylə Azərbaycanımızın geniş səhraları azəri türklərinin kəndi qanları ilə boyanmış. Bu gün mədəniyyəti yıxan qorxulu zərbələrə məruz qalan gözəl, müqəddəs vətənimiz bir yığın nadanlar əliylə xarabazara döndərilmiş.

Bu gün sevgili Azərbaycanımızın bir qəbiristana döndərilmək fərmanı verilmiş. Bu gün azəri türklərinin irzinə, namusuna təcavüzlər olunmuş. Bu gün məzlum övladlarının namusuna təcavüz edilməyini görən şanlı babalarımızın o qəhrəman ruhları coşmuş, ildırımlar çaxdırıb, qara buludları toplayıb, şiddətli rüzgarlar əsdirib, şu gördüyümüz yaslı, pərişan, ağlar təsəvvüratı təşkil etmişlər. Bu gün dağılan xanimanlarımızın tozu, yaxılan imarətlərimizin atəş tüstüsü, qırılan cavanlarımızın fəryadı, namusu gedən qadınlarımızın ah-ənini, doğranılan çocuqlarımızın "Anam! Anam!" deyən sədaları yek-digərlərinə [bir-birinə] qarışaraq səmalara doğru yüksəlib, gördüyümüz qiyamətləri bərpa etmişlərdir.

Ey vətənini, millətini sevən, namusunu uca tutan, Azərbaycan şühədasının [şəhidlərinin] hörmətini bilən millətdaşlar, bu gün tətil etməli! Ey şanlı Türk millətinin balaları! Bu gün kəmikləri, canları, qanları ilə Azərbaycan istiqlaliyyətinin əsasını qoyan azəri-türk cavanlarının istirahəti-ruhları üçün əza məclisləri tərtib vermək həpimizin müqəddəs vəzifəsi olmağı düşünməli. Bu məqsədlə Bakı Türk Mütəəllimlərinin [Tələbələrinin] İttifaqı tərəfindən martın 31-ində səhər saat 11-də Birinci Realnı

* Camaata xitabən intibahnamə surətində nəşr edilmişdir.

məktəbinin binasında əza məclisi tərtib veriləcəkdir.

*İttifaqi-Mütəallimin İdarəsi*

## TELEFONOQRAMMA NÖMRƏ 5

29 mart 1919-uncu sənə

Hamı Nəzarətlərə

Hökumət İşləri İdarəsi, Rəisi-vükəlanın [Baş nazirin] qərardadına görə elam edir [bildirir] ki, bugün mart ayının 31-ində, Mart hadisatı münasibətilə heç bir dövləti müəssisələrdə iş olmayacaqdır.

* * *

Düşənbə [bazar ertəsi] günü ibarət olsun təzə qayda ilə mart ayının 31-indən, bir gün Suraxanski küçədə Hacı Hacıbaba mərhumun təkyəsində keçən ildə şəhid düşən müsəlman əhalisinin və ələlxüsus öz həmkarları olan mərhum Məhəmmədhüseyn, Məhəmmədəli və İbrahim, İmamverdi və Cənnətin istirahəti-ruhları üçün təziyə (pəs-məzar) təyin olunur. Bəyanitəziyə Zərgərlər tərəfindən qəbul olunur.

**Bakı və Ətrafında**
**Zəhmətkeş Ziyalılar İttifaqı**

Bütün zəhmətkeş ziyalıları martın 31-ində, saat 11-də Təzəpir məscidinə dəvət edir. Orada Mart hadisatında fəcianə bir surətdə qətl edilən cəmiyyət üzvləri ruhuna "Yasin" xətm olunacaqdır.

*6274*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və**
**inna ileyhi raciun**

səh. 429. "Sabornı küçə": Bakıda, indiki Sabir küçəsi.

"Şah məscidi": Bakıda, İçərişəhərdə Şirvanşahlar sarayı kompleksində XV əsrdən qalma məscid.

**Unudulmaz faciə!**

səh. 429. Varfolomey gecəsi (yaxud Varfolomey qırğını): Parisdə 24 avqust 1572-ci ildə kalvinizm tərəfdarı fransız protestantları hugenotların katoliklər tərəfindən kütləvi surətdə qətl edilməsi.

səh. 430. "Məş'əli-əfkari-əhraranə sönməz xun ilə": "Hürriyyət fikrinin məş'əli qanla sönməz". Misra türk şairi Abdullah Cövdətə məxsusdur.

"Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan ataşi-müqəddəsini söndürəmmədi!": müqayisə et: "Bakı küçələrində tökülən nahaq qanlar... ürəklərdə söndürülmək istənilən hürriyyət məşəlini daha ziyadə tutuşdurdu." Yuxarıdakı cümlədə də "türklərdəki" yerinə güman ki, "ürəklərdəki" olmalı idi.

**31 Mart**

səh. 431. "Şənidəm qusfəndi ra bozorgi / Rəhanid əz dəhan o dəst e qorgi / Şəbangəh kard bər holgəş bemalid / Rəvan e qusfənd əz vey benalid / Ke əz çənqal e qorgəm dər robudi / Çe didəm aqibət qorgəm to budi": "Eşitdim ki bir böyük adam / Bir qoyunu qurdun ağzından və əlindən qurtardı / Gecə bıçağı boğazına sürtəndə / Qoyunun ruhu nalə çəkdi ki / Məni qurdun caynağından qurtardın / Nə gördüm, axırda özün mənə qurd oldun" (farsca)





**18-31 Mart**

səh. 433. "18-31 Mart": köhnə və yeni təqvilər arasında 13 günlük fərq var.

**Xəyalat**

səh. 435. "Kəs nəyayəd be zir e sayeye bum / Vər homay əz cəhan şəvəd mə'dum": "Hüma dünyadan yox olsa da / Heç kim bayquşun kölgəsi altına girməz" (farsca)

**El yası**

səh. 437. "təbarəkallah": tədqir və razılıqla birgə təəccüb, heyrət ifadə edən söz, "Allah mübarək eləsin!"

**"Şühədayi-hürriyyətimizin**
**ərvahına ithaf"**
**şeiri (səh. 440) üçün lüğət:**

şühədayi-hürriyyət: hürriyyət şəhidləri

ərvah: ruhlar

qülubi-millət: millətin qəlbləri

zinəti-cahani-fəna: axirət dünyasının bəzəyi

həyati-pür-iqbal: gələcək vəd edən, uğurlu həyat

dəryad etmək: yada salmaq

müəbbədən: əbədi olaraq

behişti-ə'la: cənnətin ən ali mərtəbəsi

dəsti-əhli-vəhşət: vəhşilərin əli

xüldzari-rəhman: Tanrının cənnət bağı

rəxşan: parlaq, işıqlı

xun: qan

**"Acı həqiqətlər"im**

səh. 443. "Hər tərəfini xarabazara döndərdi.": qəzetdə "xarabazara" yerinə "xanimana" getmişdir.

"Ölən Adilə rəhmət...": Adil Əbdürrəhim oğlu nəzərdə tutulur. Məşhədi Adil Kərbəlayi Əbdürrəhim oğlu (1868-1919) 1918-ci ilin mart qırğınlarında daşnak-bolşevik qoşunlarına qarşı vuruşmuş, dinc Azərbaycan xalqını müdafiə etmişdir.

"Bu nacilər...": "naci" sözü əslində "nicat tapan, qurtulan, xilas olan" mənasına gəlməklə birgə, görünür ki, burada "nicat verən, xilaskar" yerində işlənmişdir.

"Ə. Bədi'": bu imza Əhməd Bədi' Tiriniçə məxsusdur.

**Mart hadiseyi-əliməsinin**
**müxtəsər tarixçəsi**

səh. 445. "...Dro, Qaro və Muradın...": erməni terrorçu və quldurları Drastamat Kanayan, Armen Qaro (Karekin Pastırmacıyan) və Murad Sebastatsı (Murad Xrimyan) nəzərdə tutulur.

səh. 447. "Amazasp": erməni terrorçusu Hamazasp Srvandzyan nəzərdə tutulur.

səh. 448. "Əmirov": Daşnaksutyun partiyasının üzvü olan, ermənilərin və bolşeviklərin Azərbaycanda yerli əhaliyə qarşı törətdikləri soyqırımda xüsusi qəddarlıqla iştirak edən Tatevos Əmirov nəzərdə tutulur.

"Styopka Lalayev": Azərbaycanlı dinc əhaliyə divan tutulmasında xüsusi qəddarlıq nümayiş etdirən daşnak zabiti Stepan Lalayan (yaxud Lalayev) nəzərdə tutulur.

# ADLAR GÖSTƏRİCİSİ


A. B.: Bakı sakini; mühəndis. 264

Abaşidze, Heydər (1893-1966): Acar siyasi xadimi; Gürcüstan Müəssislər Məclisinin üzvü olmuşdur. 179, 183

Abbas I (Şah Abbas; 1571-1629): Səfəvi şahı; 1587-1629-cu illərdə hakimiyyətdə olmuşdur. 281, 287

Abbas Sevdim oğlu (Məşhədi Abbas): Abşeronun Saray kəndinin sakini. 174

Abbasəliyev, Cəbrayıl (Məşhədi Cəbrayıl): Lənkəran sakini. 223

Abbasov, Əliağa: Bakı sakini. 36

Abdulla xan Ustaclı (1515-1567): Səfəvi sərkərdəsi; 1549-1567-ci illərdə Şirvan bəylərbəyi olmuşdur. 337, 344

Abdullabəyov, Məhəmmədağa Molla Ağakişi oğlu 206

Abdullah Cövdət (Karlıdağ; 1869-1932): türk həkim, şair və siysaətçisi. 452

Abidin: “Azərbaycan” qəzetindəki imzalardan biri. 440

Abuyev: Dağlılar Respublikası hökumətində Poçt və Teleqraf naziri olmuşdur. 128

Adil Əbdürrəhim oğlu (Məşhədi Adil Kərbəlayi Əbdürrəhim oğlu; 1868-1919): 1918-ci ilin mart qırğınlarında daşnak-bolşevik qoşunlarına qarşı vuruşmuş, dinc Azərbaycan xalqını müdafiə etmişdir. 221, 237, 238, 443

Ağa Mirzə Seyidhəsən: İranda nəşr olunan “Həblülmətin” qəzetinin müdiri olmuşdur. 297

Ağabala Ağabala oğlu: Bakı sakini. 341

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 41, 207, 328

Ağalarov: Azərbaycanın hərbi xadimi; polkovnik. 107

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 76, 226

Ağamalıyev, Səməd ağa: bax. Ağamalıoğlu, Səməd ağa.

Ağamalızadə: bax. Ağamalıoğlu Səməd ağa.

Ağamalov: bax. Ağamalıoğlu, Səməd ağa.

Ağamehdi Lətif oğlu: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin üzvü. 36

Ağaoğlu, Əhməd bəy (1869-1939): Azərbaycanın və Türkiyənin gökəmli ictimai-siyasi xadimi; hüquqşünas, şərqşünas, yazıçı-publisist. Türkçülük hərəkatının ideoloqlarından biri olmuşdur. 132, 179, 251, 368, 395

Ağayan, Qriqori: Şamaxının Saqiyan kəndinin sakini. 119

Ağayev, Əhməd bəy: bax. Ağaoğlu, Əhməd bəy

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə

rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 1, 110, 159, 220, 239, 250, 289 290, 309, 395

Ağayev, Yusif bəy: Zaqatalada məmur olmuşdur. 24

Ağazadə: Bakıda Fəhlə Konfransının işində iştirak etmişdir. 322

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün “İkinci il” dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin “Azərbaycan” qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 112, 133, 170, 228, 281, 287, 313, 379

Aharonyan, Avetis: bax. Aqaronyan, Avetis.

Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 358, 380

Axundov: Dağıstanın Gürcüstandakı siyasi nümayəndəsi olmuşdur. 253

Axundov, Bərham bəy (1861-1932): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 193

Axundov, Əlihüseyn: Balaxanı sakini. 266

Axundov, Fətəli: Tiflisdə Müsəlman Milli Şurasının üzvü olmuşdur. 178

Axundov, İsmayıl: Zaqatala dairəsində yaşamışdır. 27

Axundova, X. X.: Qadın Xeyriyyə Cəmiyyətinin (Bakı) üzvü. 199

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 423, 427

Axundzadə, Musa: neft sənayeçisi Səlimovun Binəqədidəki mədənlərində müsəlman fəhlələri təşkilatının sədri olmuşdur. 424, 427

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 54, 137, 249, 282, 380

Axundzadə, Süleyman: maarif xadimi. 240

Axundzadə, Süleyman (Kərbəlayi Süleyman, yaxud Mirzə Süleyman): “Müsavat” partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 30

Axvelidiyani, Mixail Loginanoviç: Bakı sakini. 135

Akopov, Boqos: Zaqatala dairəsi sakini. 25

Aqaronyan, Avetis Arakeloviç (1866-1948): Erməni ictimai-siyasi xadim, “Daşnaksutyun” partiyasının üzvü idi. Ermənistanın müstəqilliyini elan edən Erməni Milli Şurasının sədri, Ermənistan Parlamentinin rəhbəri olmuşdur. İstanbulda danışıqlar aparan erməni nümayəndə heyətinə rəhbərlik etmişdir. Paris Sülh Konfransında iştirak edən erməni nümayəndə heyətinin rəhbəri olmuşdur. 1920-ci ildən Fransada mühacirətdə yaşamışdır. 49, 59, 114, 341

Aqasanov: Zatala dairəsi sakini. 25

Aqniyev: Gürcüstan bolşeviklərindən. 16

Aleksandr II (1818-1881): Rusiya imperatoru. 1855-1881-ci illərdə hakimiyyətdə olmuşdur. 282, 287

Alim xan, Seyid Mir Məhəmməd (1880-1944): Buxaranın sonuncu əmiri. 10 yanvar 1911-ci ildə atasının yerinə taxta keçmişdir. Buxaranın Qırmızı ordu tərəfindən işğal edilməsi nəticəsində, 30 avqust 1920-ci ildə Əfqanıstana qaçmış və orada vəfat etmişdir. 427

Allahverdi Qənbər oğlu: Masallının Xəlfələr kəndinin sakini. 175

Altunyans, Aslan Avakoviç: Bakı sakini. 72

miraqo, Pavel İvanoviç (yaxud Pavel İvanoviç Amiraqov; 1879-1945): Opera və operetta artisti, tenor. Tiflisdə anadan olmuş, Tiflis, Moskva, Peterburq, Xarkov, Daşkənd, Varşava və digər şəhərlərin opera teatrlarında işləmişdir. Bakıda Mailov Teatrı, Rus Opera Teatrı və Bakı Dövlət Opera və Balet Teatrında rəhbər vəzifələrdə işləmişdir. 325, 342

Amiraqov: bax. Amiraqo.

Ananov: Bakıda axtarış polisi olmuşdur. 163

Ananova, Zarya: Zaqatala dairəsi sakini. 25

Ancaparidze, Georgi Nesteroviç (1887-1937): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1937-ci ildə güllələnmişdir. 382

Andranik: bax. Ozanyan, Andranik.

Arakelyan, A.: daşnak, Sentrokaspi Diktaturasının rəhbərlərindən biri. 446, 448

Ard: opera artisti. 325, 342

Artinov, Serdyuk: Zatala dairəsi sakini. 25

Arutyunov, D. D.: 1917-ci ilin dekabrında Bakı Bələdiyyəsinin sədri olmuşdur. 173, 174, 182

Arzumanov: Ləkidə fabriki olmuşdur. 10

Arzumanov, Mişa: 1918-1920-ci illərdə Qərbi Azərbaycanda və Qarabağda dinc Azərbaycanlı əhaliyə divan tutan daşnak ordularının komandirlərindən olmuşdur. 421

Aslanov, Zəkəriyyə bəy: bax. Aslanzadə, Zəkəriyyə bəy.

Aslanova, Mina xanım (yaxud Aslanzadə; 1898 - ?): Azərbaycanın maarif xadimi. Atası Zəkəriyyə bəy Aslanov da pedaqoq olmuşdur. Mina xanım 1958-ci ildə Azərbaycan SSR-nin Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. 401

Aslanzadə, Mina xanım: bax. Aslanova, Mina xanım.

Aslanzadə, Zəkəriyyə bəy (yaxud Aslanov; 1858-1938): Azərbaycanlı pedaqoq. Qori Müəllimlər Seminariyasını bitirmiş, Qarabağda və Bakıda müəllimlik etmişdir. Teatrla da yaxından maraqlanmışdır. 417

Aşxana: Şamaxının Saqiyan kəndinin sakini. 119

Aşurbəyli, Bəşir bəy (yaxud Aşurbəyov; 1875-1930): Azərbaycanlı neft sənayeçisi; eyni zamanda “İttihad” partiyasının qurucularından biri olmuşdur. 425

Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və “Nicat” cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda “Həqqi” təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 416

Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 4, 5, 44, 64, 89, 91, 328, 329, 365, 408

Aşurovlu: bax. Aşurov, Ağa.

Atababayev 19

Atabek, Osman Sərvər: bax. Atabəyov, Osman Sərvər bəy.

Atabəyov, Osman Sərvər bəy (yaxud Osman Sərvər Atabek, 1886-1962): Mesxet müsəlmanlarının siyasi və hərbi lideri olmuşdur. Türkiyəyə mühacirətə getmişdir. 179, 261, 268

Atayans, İshak Avetisoviç: Bakıda həkim olmuşdur. 37, 77, 139, 181, 227, 244, 285,

324, 341, 361, 401
Atomyans, Sergey: Zaqatala dairəsi sakini. 25
Avanesov, Ağamirzə: Zaqatala dairəsi sakini. 25
Avanesov, Krebit: Zaqatala dairəsi sakini. 25
Averkin: Bakıda Fəhlə Konfransının işində iştirak etmişdir. 322
Avetov, Aleksanr: Zaqatala dairəsi sakini. 25
Avksentyev, Nikolay Dmitriyeviç (1878-1943): Rusiyanın siyasi xadimi. Sosialist İnqilabçılar Partiyasının üzvü idi. Ümumrusiya Müvəqqəti Hökumətinin (Ufa Direktoriyasının) sədri olmuşdur. 209
Aybala Qurban qızı: Qubanın Tülər kəndinin sakini. 175
Ayn. Rüfət: "Azərbaycan" qəzetində imza. 438
Ayrapetov, Əmircan: Zatala dairəsi sakini. 25
Ayrapetov, Qəribşah: Zaqatala dairəsi sakini. 25
Ayvazov, Həsən Səbri (1858-1938): Krım tatarlarının ictimai-siyasi xadimi; yazıçı və tənqidçi. İstanbulda təhsil almış, İstanbul və Bakı mətbuatında məqalələrlə çıxış etmişdir. 1938-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 179, 251
Baba Məhəmməd oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Babacan: Şamaxının Saqiyan kəndinin sakini. 119
Babayev, Ərrəhman180
Babayev, Heybət 205
Babazadə, Əbülfəzl 401
Babək 334
Badkubəli Sə'dan: bax. Sə'dan
Bağdasarov, Məliksint: Bakıda, qanunsuz silah-sursat saxladığına görə həbs edilmişdir. 416
Bağır Cabbar oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Bağırov: Bakı sakini. 73
Bağırov: Tiflis Türk Dram Cəmiyyətinin vəkili. 264
Bağırov, Əlisabit: Balaxanı sakini. 266
Baxşəlibəyov, Fərəc bəy 395
Baxtadze: Gürcüstan bolşeviklərindən. 16
Bakıxanzadə, Şeys bəy: "Müsavat" partiyasının Bülbülə şöbəsinin katibi olmuşdur. 138
Balakişi Əbdürrəşid oğlu: Bakı sakini. 263
Balayev, Şıx: neft sənayeçisi. 206
Balazadə, Şükür: Ramana kəndinin sakini. 176, 177, 183
Baratzadə, Hacı Yaqub: Gəncə ruhanilərindən; Gəncə oğlanlar gimnaziyasının şəriət müəllimi olmuşdur. 396
Baronov, Qriqori: Zaqatala dairəsi sakini. 25
Bayrambəyov, Paşa bəy: Araz Türk Cümhuriyyəti hökumətinin və İrəvan Azərbaycanlılarının nümayəndəsi olmuşdur. 51
Bayraməlibəyov, Teymur bəy (yaxud Bayraməlibəyzadə, 1862-1937): Azərbaycanın ictimai-siyasi xadimi, maarifçisi və tarihçisi. Qori müəllimlər seminariyasını bitirmiş, Lənkəranda müəllim işləmişdir. "Müsavat" partiyasının Lənkəran şöbəsinin səri olmuşdur. 100, 138, 220, 223.
Bayraməlibəyzadə, Teymur bəy: bax. Bayraməlibəyov, Teymur bəy.
Bayramqulu Məşhədi Rza oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Bayramov, Paşa: bax. Bayrambəyov, Paşa.
Bekoviç-Çerkasski, Aleksandr (yaxud Dövlət Girey Mirzə; ? - 1717): Kabardin knyazlarının nəslindən idi. 92
Berezin: opera artisti. 325,342
Bernşteyn, M. L. 392
Bertlo, Hanri [Henri Berthelot; 1861-1931]: Fransanın hərbi xadimi; general. 1916-cı ildən Rumıniyadakı fransız hərbi missiyasına başçılıq etmiş, 1918-ci ilin noyabrından Dunay ordusunun komandiri, 1919-cu ilin martından Balkan yarımadasında və Cənubi Rusiyadakı Müttəfiq qoşunlarının baş komandanı olmuşdur. 23, 251, 252, 273, 412
Bəhaəddin bəy: Cümhuriyyət dövründə Polis Müfəttişi-ümumisi (Baş Polis müfəttişi). 169
Bəhlul əfəndi: Cəbrayıl qəzasının qazısı. 242
Bəhmən, Əliəkbər xan (1846-1928): İranlı diplomat. 159
Bəttani (858-929): Orta əsrlər ərəb astronomu və riyaziyyatçısı. 280
Bəylərbəyov, Ələsgər bəy: Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 395
Bıç, Luka Lavrentyeviç (1870-1945): Kuban kazaklarının siyasi və ictimai xadimi. Hüquq təhsili almışdır. Bakıda işləyərkən Bakı Şəhər Dumasına üzv seçilmiş, 1912-1917-ci illər arasında Bakı Şəhər İdarəsinin rəisi olmuşdur. 1917-ci ilin Fevral inqilabından sonra Kubana qayıtmış, Kuban Hökumətinin sədri seçilmişdir. Kuban heyətinin başçısı olaraq Paris Sülh Konfransında iştirak etmiş, Kuban Xalq Respublikası süqut etdikdən sonra mühacirətdə qalmışdır. 317
Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İrandakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə vermişdi. 54, 55, 56, 83, 84, 88, 134, 216, 349, 393, 399
Bikford, Vilyam [William Bickford; 1774-1834]: ingilis ixtiraçı və sənayeçisi. 427
Bilal (Hacı Bilal): Zaqatala dairəsində yaşamışdır. 27
Blajevski, V. F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 19, 362, 382, 402
Boldırev, Vasili Georgiyeviç (1875-1933): Rusiyanın hərbi xadimi. Rusiyanın Dirçəlişi İttifaqının rəhbər heyətinə daxil olmuşdur. Ümumrusiya Müvəqqəti Hökuməti qoşunlarının baş komandanı idi. 154
Bökeyxanov, Əlixan Nurmuxamed oğlu (1866-1937): Qazaxların ictimai-siyasi xadimi. Alaş-Orda Hökumətinin sədri olmuşdur. 154, 162
Brilinski, A. L.: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin Gəncədəki vəkili olmuşdur. 402, 426
Budaqov, Dilim: Balaxanı sakini. 266
Butayev, Aslambek (1880-1939): Dağlılar Respublikasının Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 412
Cabaqır: bax. Cabaqiyev, Vassan-Gəray.
Cabaqiyev, Vassan-Gəray (1882-1961): Şimali Qafqazın siyasi və dövlət xadimi; milliyyətcə inquşdur. Almaniyada təhsil almışdır. İnquş Milli Şurasının sədri olmuş, Şimali Qafqaz Dağlılar İttifaqının (Dağlılar Respublikasının) qurulmasında yaxından iştirak etmiş, İttifaqın Mərkəzi Komitəsinin üzvü və Maliyyə naziri olmuşdur. Dağlılar Respublikasının Müstəqillik Aktının müəllifi və Dağlılar Respublikası Konstitusiyasının müəlliflərindən biri idi. Şimali Qafqazın sovetləşməsindən sonra mühacirətə getmişdir. İstanbulda ölmüşdür. 302
Cabbar Salman oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Cabbarzadə, Cəfər (yaxud Cəfər Cabbarlı; 1899-1934): Azərbaycanın məşhur dramaturqu, şairi və teatr rejissoru. Cümhuriyyət dövründə Qafqaz Türk Tələbələri Mərkəzi Komitəsinin üzvü, Parlamentin türkcə stenoqrafı olmuşdur. 136, 220, 417
Cahangir bəy Şıxəli 305
Cahangir mirzə: bax. Qiyasəddin Ca-

hangir mirzə.
Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. “Hümmət” partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 370, 410
Caparidze, Prokofi (1880-1918): Bakı Xalq Komissarları Sovetinin rəhbərlərindən biri. Daxili işlər və Ərzaq komissarı olmuşdur. 1918-ci ilin martında Bakıda bolşevik və daşnak quldurlarının türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımda fəal iştirak etmişdir. Bakı komissarları sırasında güllələnmişdir. 420
Cavad bəy 421, 423
Cavadov, Ağamirzə 286, 306
Cavanşir, Behbud xan (1886-1921): Azərbaycanın dövlət xadimi. Almaniyada Frayberq Dağ-Mədən Akademiyasını bitirmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Daxili İşlər naziri, Ticarət və Sənaye naziri kimi vəzifələr tutmuşdur. İstanbulda erməni terrorçusu Torlakyan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 387, 408
Cavid: bax. Rasizadə, Hüseyn Cavid.
Celliko, Con Raşvort [John Rushworth Jellicoe; 1859-1935]: Britaniya ordusunun admiralı. 317
Cenkinson, Antoni [Anthony Jenkinson; 1529-1611]: ingilis diplomatı, səyyahı və taciri. 337
Cəbizadə, Həbib: “Qardaş birliyi” maarif cəmiyyətinin idarə heyətinin katibi. 72
Cəbrayılbəyov, Camo bəy 207, 226
Cəbrayılov, Camo bəy: bax. Cəbrayılbəyov, Camo bəy
Cəbrayılzadə, Camo: bax. Cəbrayılbəyov, Camo
Cəfər (Kərbəlayı Cəfər): İrəvan sakini; papaqçı. 299
Cəfər Məşhədi Ramazan oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Cəfərqulu Həmzəli oğlu: Bakı sakini. 263, 297
Cəfərqulu xan: İranda quldurluqla məşğul olmuşdur. 257
Cəfərov, Mehdi 380
Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 376
Cəmillinski, Səməd bəy: Daxili İşlər Nazirliyində işləmişdir. 395
Cənnət: Mart soyqırımında Bakıda qətl edilən azərbaycanlılardan. 452
Cons, Sidni [Sidney Jones; 1861-1946]: Britaniyalı bəstəkar. 307
Cuvarlı, Cavad bəy: bax. Cuvarlinski, Cavad bəy.
Cuvarlinski, Cavad bəy: Gəncədə maarif müfəttişi olmuşdur. 74
Çensler, Riçard [Richard Chancellor; ? - 1556]: ingiltərə dənizçisi; İngiltərə ilə Rusiya arasında ticarət əlaqələrinin banisi. 337
Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində “Vəhşi diviziya”nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 253
Çxeidze, Nikolay Semyonoviç (1864-1926): Rusiyanın və Gürcüstanın siyasi xadimi. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin və Gürcüstan Müəssislər Məclisinin sədri olmuşdur. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin sədri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 316, 355
Çinçadze: Gürcüstan bolşeviklərindən. 16





Çurayev, Andrey Yemelyanoviç [1881 - ?]: Fəhlə, menşevik. Bakıda inqilabi fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Bakı Şəhər Dumasının üzvü, 1920-ci ildə qısa müddət Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. 56, 133, 156, 157, 320, 321
Dadaşov, Tatos: Balaxanı sakini. 266
Dadaşzadə, Əbülfəzl 14
Dadaşzadə, T.: Balaxanı sakini. 239
Darablı, Rza (yaxud Rza Darab-linski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. “Nicat”, “Səfa”, “Hacıbəyov qardaşları müdiriyyəti” truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 226
Darablinski: bax. Darablı.
Daşkəndli Xalid Səid: bax. Xocayev, Xalid Səid
Davud: Gəncəli müəllim. 243
Davud əfəndi (Dağıstanlı) 220
Demosfen (e. ə. IV əsr): qədim yunan natiqi; eyni zamanda dövlət adamı. 257
Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 6, 7, 9, 13, 15, 23, 48, 49, 50, 54, 55, 56, 57, 67, 83, 84, 85, 86, 87, 94, 100, 115, 116, 123, 124, 125, 128, 134, 138, 145, 146, 147, 157, 159, 173, 175, 189, 190, 191, 192, 193, 194, 195, 200, 208, 216, 220, 235, 239, 252, 253, 254, 255, 256, 303, 321, 322, 337, 348, 349, 353, 354, 355, 372, 373, 412
Denisov, Svyatoslav Varlamoviç (1878-1957): Rusiyanın hərbi xadimi; general-leytenant. Birinci Dünya müharibəsində iştirak etmişdir. Rusiyada Vətəndaş müharibəsi dövründə Ağ qvardiyada xidmət etmiş, Don ordularının komandiri olmuşdur. 1919-cu ildə mühacirətə getmişdir. 9
Dədəqulu: Sığırlı kəndinin (Kürdəmir rayonu) sakini. 119
Doqquz xatun (? - 1265): Hülakü xanın arvadı. 336, 337
Dondukov: bax. Dondukov-Korsakov, Aleksandr Mixayloviç.
Dondukov-Korsakov, Aleksandr Mixayloviç (1820-1893): Rusiyanın dövlət xadimi. Qafqaz yürüşlərinin, Krım müharibəsinin iştirakçısı idi. 1882-1890-cı illərdə Qafqaz Hərbi Dairəsinin komandanı (Qafqaz canişini) olmuşdur. 168, 182
Dotsev: Rusiyanın hərbi xadimi; general. 154
Dro: bax. Kanayan, Drastamat.
Dutov, Aleksandr İliç (1879-1921): Rusiyanın hərbi xadimi; general-leytenant. Ağqvardiyaçılar hərəkatının iştirakçısı, Orenburq kazaklarının atamanı olmuşdur. 71, 79, 253
Elxani İsrafil oğlu: Bakı sakini. 264
Emin əfəndi: maarif xadimi. 240
Emuxvari, Dmitri: Abxaz Xalq Şurasının sədri olmuşdur. 400
Erdeli, İvan Georgiyeviç (1870-1939): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun qurucularından olmuşdur. 1919-cu ilin yanvarından Zaqafqaziya və Şimali Qafqazda fəaliyyət göstərmişdir. 255
Etter, Nikolay Sevastyanoviç (fon-Etter; 1865-1935): Rusiyanın diplomatı. 1915-1917-ci illərdə İranda səfir olmuşdur. 171
Eyxelman, Otton Ottonoviç (1854-1943): Rusiya və Ukraynanın ictimai-siyasi xadimi; beynəlxalq hüquq sahəsində mütəxəssis.9
Eyqoro: Almaniyada Spartak hərəkatının iştirakçılarından. 69
Eyvazov: Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarə heyətinin sədri olmuşdur. 120, 140, 161
Eyyubzadə, Eyyub 305

Ə. Bədi': "Azərbaycan" qəzetində imza; bax. Triniç, Əhməd Bədi'
Əbdizadə, Məhəmmədrza: "Azərbaycan" qəzetində imza. 36
Əbdül Ağadayı oğlu 362
Əbdülbaqi Hacı Həmid oğlu: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin üzvü. 36
Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 166, 182
Əbdülhüseyn Əhməd oğlu 73
Əbdülqədir Baba oğlu: Dağıstan sakini. 340
Əbdülsəlimzadə, Məhəmməd Hadi: bax. Hadi, Məhəmməd.
Əbdülzadə, Ayn.: maarif xadimi. 240
Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 66, 321
Əbülfərəc bin Harun (yaxud Qriqori Bar-Ebrey; 1226-1286): Arami kilsə xadimi. Müxtəlif elm sahələrinə, o cümlədən tarixə dair əsərləri var. 336, 344
Əbülfəz Əli oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Əbülfəzl əfəndi: Türk Mütəallimləri İttifaqının [Türk Tələbələri İttifaqının] üzvü olmuşdur. 416
Ədhəm Feyzi: bax. Feyzi, Ədhəm.
Ədil bəy: Ağsunun Kalva kəndinin sakini. 175
Ədlülmülk 297
Əfəndiyev, Muxtar: bax. Əfəndizadə, Muxtar.
Əfəndiyev, Süleyman bəy: bax. Əfəndizadə, Süleyman bəy.
Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 97
Əfəndizadə, Həmid 305
Əfəndizadə, Həsən: Şəki-Ağdaş Müəllimlər İttifaqının mühasibi olmuşdur. 323
Əfəndizadə, Xoşqədəm: Ağdaş qız məktəbinin müdirəsi olmuşdur. 284
Əfəndizadə, Məbud: Şəki-Ağdaş Müəllimlər İttifaqının sədri olmuşdur. 323
Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 284, 331, 350
Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 41, 207, 228, 240, 328
Əfəndizadə, Rəşid bəy (yaxud Əbdürrəşid bəy; 1863-1942): Azərbaycanın görkəmli maarifçisi. Qori Seminariyasını və Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Zaqafqaziya Sünni Ruhani İdarəsində işləmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Uşaq bağçası", "Bəsirətül-ətfal" dərsliklərinin müəllifidir. Şeir və hekayə də yazmışdır. 207
Əfəndizadə, Süleyman bəy (1864-1919): Azərbaycan Cümhuriyyətinin hərbi xadimi; general. Ağdamda xidmət əsnasında səpmə yatalaq xəstəliyindən vəfat etmişdir. 30, 31, 32, 39, 110, 144, 223
Əfəndizadə, Yusif (Molla Yusif) 304
Əfi əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 119
Əhməd: 1918-ci ilin Mart qırğınlarında qətl edilən azərbaycanlı fəhlələrdən. 419
Əhməd paşa (yaxud Hacı Əhməd paşa): Ənvər və Nuri paşaların atası. 196
Əhməd Rza bəy: Türk Ordusunun Bakıdakı Mərkəz Komandanı. 251
Əhməd şah Qacar: bax. Sultan Əhməd şah Qacar.





Əhməd Tofiq paşa (Okday; 1845-1936): Osmanlı dövlət xadimi. 1909-cu ildə, 1918-1919-cu illərdə və 1920-1922-ci illərdə Baş nazir olmuşdur. Eyni zamanda Osmanlı dövlətinin axırıncı Baş naziri idi. Soyadı qanunu çıxdıqdan sonra "Okday" soyadını qəbul etmişdir. 59, 250
Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və Müsavat partiyasının üzvü olmuşdur. 450
Əhmədov, Qeybulla: Zaqatala dairəsində yaşamışdır. 27
Əhmədov, Yusif (yaxud Yusifəli Əhmədov; ? - 1938): Ticarət və Sənaye İttifaqının sədri olmuşdur. Azərbaycan Parlamentinin üzvü idi. 43, 44, 89, 144, 193
Əkbər İsmayıl oğlu: İrəvan sakini. 299
Ələkbər (Mirzə Ələkbər): İranlı, Ərəkittə yaşamışdır. 242
Ələkbərzadə, Ələsgər (1895-1938): Azərbaycan arxeoloqu və etnoqrafı. 1937-ci ildə "xalq düşməni" kimi həbs edilmiş və həbsxanada vəfat etmişdir. 445
Əli Abbas oğlu: Qaziyan (Ucar) kəndinin sakini. 119
Əli Hacı Rza oğlu: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin üzvü. 36
Əli ibn Əbu Talib (601-661): İslam xəlifəsi, Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni. 421
Əli Kamal bəy (1867-1922): Osmanlı dövlətinin siyasi xadimi, yazıçı və jurnalist. 250
Əli Mehrab oğlu: Suraxanı sakini 37
Əlibala Bala oğlu: Bakıda polis məmuru (qaradavoy) olmuşdur. 174
Əlibala Dadaş oğlu: Keşlə sakini. 320
Əlibala Feyzulla oğlu: Lənkəran sakini. 100
Əlibala Səməd oğlu: Bakıda məhbus olmuşdur. 341
Əlibalaxan Məhəmməd oğlu: Sığırlı kəndinin (Kürdəmir rayonu) sakini. 119
Əlibəyova, C. X.: Qadın Xeyriyyə Cəmiyyətinin (Bakı) üzvü. 199
Əliəkbər Məşhədi Qənbər oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Əliəkbərov, Əliəkbər: Bakı sakini, Suraxanski (indiki Dilarə Əliyeva) küçəsində yaşamışdır. 78
Əlihüseyn Əbdürrəhim oğlu (Kərbəlayi Əlihüseyn Kərbəlayi Əbdürrəhim oğlu) 205
Əlihüseyn Məhəmmədhəsən oğlu: İran təbəəsi. 381
Əlixanov: bax. Əlixanov-Avarski, Maqsud.
Əlixanov-Avarski, Maqsud (1846-1907): Rusiya imperiyasının general-leytenantı. Tiflis qubernatoru olmuşdur. Gümrüdə erməni daşnak terroristləri tərəfindən öldürülmüşdür. 167, 168, 182
Əlikərimov, Nəsir: Kəndçilər İttifaqı İdarə heyətinin üzvü olmuşdur. 201
Əliqara Əziz oğlu: Sığırlı kəndinin (Kürdəmir rayonu) sakini. 119
Əliqulu Qəmküsar: bax. Qəmküsar, Əliqulu.
Əlimərdanov, Qəni: Balaxanı sakini. 266
Əlimirzə Məhəmmədəli oğlu: Bakıda axtarış polisi olmuşdur. 320
Əlinağı: bax. Dəli Əlinağı. 299
Əlinağı Vəli oğlu: Cəlilabadın Mirzəli kəndinin sakini. 175
Əliyar Kərbəlayı Təhməz oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Əliyev: Azərbaycan Cümhuriyyətinin Ərzaq Nazirliyində işləmişdir. 325, 362, 382, 402, 426
Əliyev, Ağarza: Balaxanıdakı ordubadlılardan. 226
Əliyev, Bağır (Məşhədi Bağır): İrəvan sakini. 300
Əliyev, Cahangir bəy: Gəncə Bələdiyyəsi Ərzaq şöbəsinin sədri olmuşdur. 395
Əliyev, Erisxan Sultan Girey (1855-1920):

Rusiyanın hərbi xadimi; general. Çeçenistanın ali hakimi olmuşdur. 92
Əliyev, İsa: İran təbəəsi. 381
Əliyev, Möhsün (Məşhədi Möhsün) 58
Əliyev, Yusifəli: Ərzaq Nazirliyinin vəkili olmuşdur. 4, 99, 450
Əlizadə: Müsəlman Şagirdləri Cəmiyyətinin üzvü olmuşdur. 14
Əlizadə, Ağabala: “Müsavat” partiyasının Rəşt şöbəsinin nümayəndəsi olmuşdur. 422
Əlizadə, Əli (Məşhədi Əli): “Müsavat” partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303
Əlizadə, Qiyas: Zabrat sakini. 72
Əlizadə, Mirzəağa (1883-1954): Azərbaycanlı aktyor. “Həmiyyət”, “Nicat” truppalarında çıxış etmişdir. 1924-cü ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında çalışmış, 1949-cu ildə Xalq artisti adına layiq görülmüşdür. 325, 342, 397
Əlizadə, Nağı bəy (1897-1920): Azərbaycan Cümhuriyyəti Parlamentinin mühafizə dəstəsinin rəisi olmuşdur.Bolşeviklər tərəfindən güllələnmişdir. 309
Əlövsət Məhəmmədsadiq oğlu: Bakıda polis məmuru (qorodovoy) olmuşdur. 163
Əmanulla xan (1892-1960): Əfqanıstan hökmdarı. 1919-1926-cı illərdə Əfqanıstan əmiri, 1926-1929-cu illərdə Əfqanıstan şahı olmuşdur. 113
Əminov, Ağa Məşhədi Kərim oğlu (yaxud Əminzadə; 1888-1921): “Müsavat” partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1919-cu ildə Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 65, 375, 395
Əminzadə, Ağa: bax. Əminov, Ağa Məşhədi Kərim oğlu.
Əminzadə, Əbülqasım: Şamaxı qazısı olmuşdur. 36
Əmir Əziz oğlu (Kərbəlayi Əmir): İran təbəəsi; Göyçay qəzasında yaşamışdır. 119
Əmir Həmzə Kərbəlayi Məhəmməd oğlu İbrahim: əsgər. 340
Əmircanov, Əbdüləli bəy (1870-1948): Azərbaycanın ictimai-siyasi xadimi. Tiflisdə Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra yerlərində müəllim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə naziri, Dövlət Nəzarəti naziri vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirətə getmişdir. 450
Əmircanov, Lütfəli bəy: Balaxanı-Sabunçu dairəsinin, sonra Bakının polis müdiri (komendantı) olmuşdur. 13, 72, 135, 137, 282
Əmirxanov: Dağıstanlı zabit. 27
Əmirov, Azad bəy (1889-1939): Azərbaycanın maarif xadimi; həkim və hüquqşünası. Qori Seminariyasını, Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Novorossiya Universitetinin (Odessa) Tibb fakültəsindəki təhsilini yarımçıq qoymuş, Azərbaycanda maarif sahəsində müxtəlif vəzifələrdə işləmişdir. Sovetləşmədən sonra Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini bitirmiş, Azərbaycanın ilk fizioloqlarından olmuşdur. 97
Əmirov, Tatevos Minayeviç (1873-1918): Daşnaksutyun Partiyasının üzvü olmuşdur. Azərbaycanda yerli dinc əhaliyə qarşı törədilən soyqırımda xüsusi qəddarlıqla iştirak etmişdir. 26 Bakı komissarları sırasında güllələnmişdir. 448, 453
Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk xalq-larını birləşdirmək uğrunda mübarizə aparmışdır. 196, 212
Ərəbli, Hüseyn (yaxud Hüseyn Ərəblinski; Xələfov; 1881-1919): Azərbaycanın teatr aktyoru və rejissoru. “Nicat”, “Səfa”, Hacıbəyli Qardaşları müdiriyyəti truppalarında çıxış etmişdir. 98, 99, 118, 136, 137, 239, 264
Ərəblinski, Hüseyn: bax. Ərəbli, Hüseyn.
Əsəd Hacı Baqi oğlu: “Müsavat” partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303





Əsədullayev, Mirzə (1875-1936): Azərbaycanlı sahibkar, ictimai-siyasi xadim. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Azərbaycanın Ticarət və Sənaye naziri olmuşdur. 61, 81
Əsədullayev, Şəmsi 62, 82
Əsədullazadə, Mirzə: bax. Əsədullayev, Mirzə
Əsgərov, Hacı Zeynal: Zaqatala dairəsində yaşamışdır. 27
Əsgərzadə, Cabbar (Mirzə Cabbar; 1885-1966): Azərbaycan pedaqoqu və publisisti. 1919-cu ildən İranda yaşamışdır. 299
Əsli Əliyoldaş qızı: Zabrat sakini. 73
Əşrəf ağa (Ağa Seyid Əşrəf ağa): Salyan ruhanilərindən. 224
Falaleyev: Gürcüstan Şəhərlər İttifaqı Təsərrüfat şöbəsinin müdiri olmuşdur. 380
Fatma Kərbəlayi Hüseynağa qızı: “Azərbaycan” qəzetinə məktub yazmışdır. 119
Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı, 1921-1933-cü illərdə İraq kralı olmuşdur. 232
Feyzi, Ədhəm: Krım Milli Şurasının üzvü olmuşdur. Türkiyəyə mühacirətə getmiş, “Gözaydın” soyadını qəbul etmişdir. 315, 320, 395
Feyzullazadə, Ağarəşid: Kəndçilər İttifaqı İdarə heyətinin üzvü olmuşdur. 201
Fəramərz (Kərbəlayi Fəramərz): gəmi sahibi. 319
Fərəc Kərbəlayi Bəhram oğlu: Zabrat sakini. 73
Fərəcullayev, Ağahüseyn: Balaxanı sakini. 266
Fərhad Kərbəlayı Ağa oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Fərzəlibəyov: Bakıda polis olmuşdur. 249
Fətəlibəyov: Bakı polis idarəsində istintaq şöbəsinin rəisi olmuşdur. 249, 416
Fətəli Ağakişi oğlu: Göyçay qəzasının Axarlı kəndinin sakini. 34
Flon: Fransanın jandarma polkovniki. 166
Fon-Etter: bax. Etter.
Foş, Ferdinand [Ferdinand Foch, 1851-1929]: Fransanın hərbi xadimi, marşal. 69, 113, 195, 273
Fyodorov: general. 92
Fyodorov: Rus generalı; İranda xidmət etmişdir. 172
Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik. Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdi. Gürcüstan müstəqilliyini elan etdikdən sonra Xarici İşlər naziri, 1921-ci ildə isə Ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etdi. 253, 304
Gegile: Zaqatala dairəsi sakini. 25
Gildebrandt, G. G.: 1917-ci ilin iyun-dekabr aylarında Rusiyanın Qəzvindəki general-konsulu olmuşdur. 182
Giorqadze, Qriqol (1879-1937): Gürcüstanın ictimai-siyasi xadimi, hüquqşünas. Xarkov Universitetini bitirmişdir. 26 may 1918 – 13 fevral 1919 tarixləri arasında Gürcüstan Respublikasının Müdafiə naziri olmuşdur. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 355
Gize: Ləkidə fabriki olmuşdur. 10
Gövhər xanım: mama. 37, 77, 139, 180, 245, 285
Gülbəndyans, Aram 119
Gülbəndyans, Rüstəm: Şamaxının Saqiyan kəndinin sakini. 119, 175
Gülziyad Eyvaz qızı: Balaxanı sakini. 73
Haaze, Hüqo [Hugo Haaze; 1863-1919]: Almaniyanın siyasi xadimi, sosial-demokrat. 69
Hacəli Məhəmməd oğlu 263
Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və

jurnallarında, o cümlədən “Azərbaycan” qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. “Azərbaycan” qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 19, 38, 58, 68, 78, 88, 98, 102, 103, 105, 120, 121, 136, 141, 144, 161, 181, 202, 225, 227, 228, 246, 267, 271, 286, 304, 306, 325, 342, 343, 362, 382, 402, 426, 433

Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 58, 102, 105, 120, 207, 419

Hacıbəyov, Ağalar bəy: Cəbrayıl qəzası sakini. 242

Hacıəlizadə, Səməd bəy: Azərbaycanın maarif xadimi. 239, 240

Hacıəsgərzadə, Hacıəli: İrəvan sakini. 299

Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 388, 395

Hacınski, İsa bəy (1860-1919): Azərbaycanın ən böyük neft sənayeçi və xeyriyyəçilərindən biri. 173, 174, 182

Hacınski, İsmayıl bəy İsgəndər bəy oğlu: Bakıda Mərkəzi Ev Komitəsinin vəkili olmuşdur. 37

Hacıyev: Dağıstanlı hərbçi; polkovnik. 3-cü Dağıstan atıcı batalyonunun komandiri olmuşdur. 198, 274

Hacıyev, Əbdülhüseyn bəy 341

Hacıyev, Mirzə Məcid: Balaxanıdakı ordubadlılardan. 226

Hadi, Məhəmməd (Əbdülsəlimzadə; 1879-1920): Azərbaycanlı şair və jurnalist. 440

Hadizadə, Əbdürrəhim: Bakı qazısı olmuşdur. 137

Hafiz Şirazi: XIV əsr İran şairi. 289

Haqverdibəyov: Bakı şəhəri 3-cü polis sahəsi pristavının müavini olmuşdur. 163

Haqverdiyev, Əbdürrəhim bəy (1870-1933): Azərbaycanın yazıçısı və dramaturqu, ədəbiyyatşünası və teatr xadimi. Azərbaycan Cümhuriyyətinin Dağıstandakı siyasi nümayəndəsi olmuşdur. 118

Hamazasp: bax. Srvandzyan, Hamazasp.

Hamburq, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi olmuşdur. 19, 38, 58, 77, 102, 140, 161, 181, 227, 244, 266, 285, 206, 325, 342, 401

Hardinq, Vorren [Warren Harding; 1865-1923]: 1921-1923-ci illərdə ABŞ-ın 29-cu prezidenti olmuşdur. 22

Haşım Şahbaz oğlu: İran rəiyyəti. 174

Haşımbəyov, Əliyar bəy (1856-1920): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-mayor rütbəsinə yüksəlmişdi. Cümhuriyyət dövründə Zaqatala valisi (qubernatoru) olmuşdur. 235, 236

Haşımbəyov, İsmayıl bəy: Azərbaycan Cümhuriyyəti Parlamentinin mühafizə dəstəsi rəisinin müavini olmuşdur. 24, 236, 309

Helena, Flaviya Yuliya [Flavia Iulia Helena; ? - 330]: Roma imperatriçəsi; imperator I Konstansi Xlorun arvadı, I Konstantinin anası idi. 337, 344

Heybət Ağakişi oğlu (Heybət Məşhədi Ağakişi oğlu) 78

Heybət Kərbəlayı Məhəmməd oğlu (Məşhədi Heybət) 74

Heydərov, Əliəkbər Molla Əli oğlu 123

Heydərov, Əliheydər Molla Əli oğlu 123

Heydərov, Qədir: bax. Heydərzadə, Qədir.

Heydərov, Molla Əli 123

Heydərova, Səkinə xanım Molla Əli qızı 123

Heydərova, Zəhra xanım 123

Heydərzadə, Qədir: Azərbaycan jurnalisti. 123

Həbibulla xan (1872-1919): Əfqanıstan əmiri. 1 oktyabr 1901 – 20 fevral 1919-cu il tarixlərində hakimiyyətdə olmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 121, 326, 403

Həbibzadə, Abdulla xan 14

Həmzə Şirəli oğlu (Məşhədi Həmzə): Göyçay qəzasının Axarlı kəndinin sakini. 34

Həmzəyev, Abbasəli 395

Həsən: Dağıstanlı. 421

Həsən: İrəvan quberniyası sakini; kürd. 54

Həsən (Məşhədi Həsən): Ərəkit sakini. 242

Həsən Cavad oğlu: Zərdabın Lələağacı kəndinin sakini. 34

Həsən Məhəmmədkərim oğlu: Zaqatala sakini. 27

Həsən Məşhədi Fətəli oğlu: Balaxanıdakı ordubadlılardan. 226

Həsən Sadıq oğlu (Hacı Şeyx Həsən Axund Molla Sadıqzadə): Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 207

Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Dövlət Müfəttişi, Azərbaycan Parlamentinin üzvü olmuşdur. “Nəşri-maarif” cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 50, 150, 338, 397

Həsənov, Mirzə Məhəmməd 61, 81

Həsənova, Kövsər xanım 61, 81

Həsənzadə, Əliağa: bax. Həsənov, Əliağa.

Həsənzadə, Hüseyn (Mirzə Hüseyn Həsənzadə): Tiflisdə Müsəlman Milli Şurasının üzvü olmuşdur. 178

Həsənzadə, Qulam: “Azərbaycan” qəzetində imza. 13

Hindenburq, Paul fon (Paul von Hindenburg, 1847-1934): Almaniyanın hərbi və siyasi xadimi, Birinci Dünya müharibəsinin ən məşhur sərkərdələrindən biri. 1925-1934-cü illərdə Almaniya prezidenti olmuşdur. 69, 71

Hinderen, Nikolay: Rusiya vətəndaşı, Ufa quberniyasından. 118

Hofmann, İohan [Johannes Hoffmann; 1867-1930]: Almaniyanın siyasi xadimi. 1919-cu ilin martından 1920-ci ilin martına qədər Bavariyanın Baş naziri olmuşdur. 411, 427

Holl, Oven [Owen Hall; 1853-1907]: İrland dramaturqu, teatr tənqidçisi və vəkili Ceyms Devisin səhnə əsərlərində işlətdiyi təxəllüsü. 307

Horn, Rober [Robert Horne; 1871-1940]: Britaniyanın dövlət xadimi. 1919-cu ilin yanvarından 1920-ci ilin martına qədər Əmək naziri, 1921-ci ilin aprelinə qədər Britaniya Ticarət Şurasının sədri, 1922-ci ilin oktyabrına qədər Xəzinə kansleri olmuşdur. 352, 363

Huver, Herbert [Herbert Hoover; 1874-1964]: Amerikanın ictimai-siyasi xadimi. 1918-1923-cü illərdə Avropa ölkələrinə qida köməyi göstərən Amerika Yardım Administrasiyasının [American Relief Administration] rəhbəri olmuşdur. 1929-1933-cü illərdə 31-ci ABŞ prezidenti olmuşdur. 210, 228, 316, 326

Hülakü xan (1217-1265): Elxanilər dövlətinin qurucusu. Çingiz xanın nəvəsi idi. 335, 337

Hümmət Məhəmməd oğlu (Məşhədi Hümmət): İrəvan qaçqınlarının Şamaxının Mədrəsə kəndindəki Qaçqınlar Komitəsinin sədri olmuşdur. 357

Hümmət Məsum oğlu: Qubanın Qonaqkənd kəndinin camaat vəkili olmuşdur. 388

Hüseyn bəy Hacıbəy oğlu (Hüseyn bəy): Balaxanı sakini. 266

Hüseyn İbrahim oğlu (Kərbəlayi Hüseyn Kərbəlayi İbrahim oğlu): Lənkəran sakini. 226

Hüseyn Kərbəlayı Oruc oğlu: Balaxanıdakı ordubadlılardan. 226

Hüseyn Məşhədi Qulam oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Hüseynov, Əkbər: İrəvan sakini. 53
Hüseynov, Əliməhəmməd 345
Hüseynov, Haşım 345
Hüseynov, Hüseynbala 345
Hüseynov, Kazım 345
Hüseynov, Sadıq 345
Hüseynzadə, Əbülqasım (1890-1988): Azərbaycan folklorçusu. 429
Hüseynzadə, Ələkbər (1887-1967): teatr və kino aktyoru. Azərbaycan SSR Əməkdar artisti idi. 226
Hüseynzadə, Əli bəy (1864-1940): Azərbaycanın və Türkiyənin görkəmli ictimai xadimi, eyni zamanda həkim, publisist və pedaqoq. 130, 141
Hüseynzadə, Fətulla: "Qardaş birliyi" maarif cəmiyyətinin mühasibi. 72, 266
Hüseynzadə, Hüseynqulu 14
Hüseynzadə, Məhəmmədqulu: maarif xadimi. 240
Hüseynzadə, Məzahir: "Müsavat" partiyasının Zabrat şöbəsinin sədri olmuşdur. 72
Hüseynzadə, Rəhim: Əmək Nazirliyində işləmişdir. 10, 151
Hüsü Hacıağa oğlu: Lənkəran sakini. 100
Xaçaturov, Aram: Zaqatala dairəsi sakini. 25
Xalid Səid: bax. Xocayev, Xalid Səid.
Xaliqov, Əliəkbər: Bakı sakini. 222
Xanlarov, Məhəmmədəli bəy (Kərbəlayı Məhəmmədəli bəy) 429
Xanməhəmmədov: Dağlılar Respublikası Parlamenti Rəyasət Divanı sədrinin müavini. 412
Xanmirzəyev, Xanmirzə: Balaxanı sakini. 266
Xarkovski: Bakıda polis məmuru olmuşdur. 163
Xasməmmədov, Ələkbər bəy (1870-1925): Azərbaycanın ictimai-siyasi xadimi. "Difai" partiyasının, Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin, Gəncə Milli Komitəsinin üzvü olmuşdur. Fövqəladə Təhqiqat Komissiyasının sədri təyin edilmişdir. Azərbaycan Məhkəmə Palatasının sədri vəzifəsini tutmuşdur. 10, 282, 367, 368, 395
Xasməmmədov, Ələsgər bəy: Gəncə Şəhər Bələdiyyə İdarəsinin rəisi olmuşdur. 283, 395
Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 345
Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş Naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 284, 400
Xatisyan: bax. Xatisov, Aleksandr İvanoviç.
Xədicə (555-619): İslam peyğəmbəri Həzrəti Məhəmmədin həyat yoldaşı. 421
Xələf: 1918-ci ilin Mart qırğınlarında qətl edilən azərbaycanlı fəhlələrdən. 419
Xəlil paşa: Xəlil Qut (1882-1957). Osmanlı İmperiyasının hərbi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin üzvü olmuşdur. Ənvər paşanın əmisi (Ənvər paşadan 1 yaş kiçik idi), eyni zamanda Hərbi Akademiyada Mustafa Kamalın (Atatürk) sinif yoldaşı olmuşdur. Birinci Dünya müharibəsində İraq cəbhəsində böyük müvəffəqiyyət qazanmış, Qafqaz İslam Ordusu ilə birgə Bakıya daxil olmuş, Türk Qurtuluş Savaşında iştirak etmişdir. 212
Xəlilov, Sultan: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin üzvü. 36





Xəyyam: bax. Ömər Xəyyam.
Xocayev, Xalid Səid (1888-1937): özbək əsilli türkoloq. İstanbul Universitetində oxumuş, Azərbaycanda işləmişdir. 1937-ci ildə güllələnmişdir. 12
Xoyski, Əmir xan (1888-1954): Azərbaycanın ictimai-siyasi xadimi, milli istiqlal hərəkatının iştirakçısı. Bakı qubernatorunun müavini, eləcə də bir sıra yerlərdə qəza rəisi olmuşdur. 403
Xoyski, Fətəli xan (1875-1920): Azərbaycan Cümhuriyyətinin qurucu-larından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş Nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 15, 42, 88, 112, 122, 145, 146, 147, 159, 160, 189, 263, 282, 283, 289, 309, 355, 394, 403
Xoyski, H. R.: podpolkovnik; Quba qəzasının rəisi olmuşdur. 35, 36
Xoyski, Hüseynqulu xan İsgəndər xan oğlu (1869-1955): Rusiyanın və Azərbaycanın hərbi xadimi; general-mayor. Cümhuriyyət dövründə Gəncə qubernatorunun müavini olmuşdur. Fətəli xan Xoyskinin qardaşı böyük idi. 395
Xoyski, Rüstəm xan (1888-1939): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. Fətəli xan Xoyskinin qardaşı. Hökumətin İşlər İdarəsinin müdiri, daha sonra Sosial Təminat naziri olmuşdur. 394
Xrimyan, Murad: bax. Sebastatsi, Murad.
İbad Talıb oğlu: Quba qəzasının Həmşəhri kəndində yaşamışdır. 35
İbrahim: Mart soyqırımında Bakıda qətl edilən azərbaycanlılardan. 452
İbrahim əfəndi: aktyor; Tiflisdə fəaliyyət fəaliyyət göstərmişdir. 137
İbrahim Molla Mahmud oğlu: Bakı sakini. 341
İbrahimov, Həmid 325
İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 99, 103, 118, 137, 189, 203, 435
İbrahimzadə, Ağaməhəmməd: Bakı sakini. 222
İdaşkina, M. S.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 37, 78, 139, 181, 202, 245, 285, 324, 342, 361, 401
İlyas Ələkbər oğlu: Bakıda məhbus olmuşdur. 341
İmamverdi: Mart soyqırımında Bakıda qətl edilən azərbaycanlılardan. 452
İmamzadə, Əbdülkərim: Şəki-Ağdaş Müəllimlər İttifaqının katibinin müavini olmuşdur. 323
İrəvanski Ağa xan: İrəvan Müsəlman Milli Şurasının sədri olmuşdur. 149
İsa Molla Mehcan oğlu: Ağsunun Kalva kəndinin sakini. 175
İsabəyov: Bakıda polis məmuru (qorodovoy) olmuşdur. 163
İsgəndərzadə, Məhəmmədəli: Ərəkit məktəbinin şagirdi. 242
İskəndər Zülqərneyn 335
İskəndərzadə, Rüstəm: Salyan sakini; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 178, 224, 226
İsluns, Mixail: Bakıda, qanunsuz silah-sursat saxladığına görə həbs edilmişdir. 416
İsmayıl (Məşhədi İsmayıl): "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur.

303
İsmayıl Kərbəlayi Mikayıl oğlu 401
İsmayıl Kərbəlayı Murad oğlu: Bakı sakini 118
İsmayıl Osman oğlu: Zərdabın Lələağacı kəndinin sakini. 34
İsmayılov, Mirzə Qədir 58, 76, 102, 120
İsmayılov, Rəşid bəy (1877-1942): Azərbaycanın ictimai-siyasi xadimi, pedaqoq və publisisti. İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. Qafqazın müxtəlif yerlərində pedaqoji və publisistik fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan və tarixi və ədəbiyyatına dair əsərlər yazmışdır. Araz Türk Cümhuriyyəti hökumətinin nümayəndəsi olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 202
İsrafil Abbas oğlu: Bakı sakini. 264
İsrafilbəyov, Mikayıl bəy: Gəncədə qaimməqam (qəza rəisi) olmuşdur. 395
İsrafilzadə, Ağababa bəy (yaxud İsrafilbəyli): Azərbaycanın maarif xadimi; dərslik müəllifi. 240, 247
İvan IV (İvan Qroznı; 1530-1584): Rus çarı; 1547-1584-cü illərdə hakimiyyətdə olmuşdur. 337
İvanov: Zaqatala sakini. 235
Jordaniya, Noy Nikolayeviç (1868-1953): Gürcüstanın dövlət xadimi. Menşevik. Varşavada veterinarlıq təhsili almışdır. Tiflisdən Dövlət Dumasına üzv seçilmişdi. 1918-1921-ci illərdə Gürcüstan Demokratik Respublikasının Baş Naziri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirət etmişdir. 324
Jukovski, Vasili Andreyeviç (1783-1852): Rus şairi; rus poeziyasında romantizmin banilərindən biri kimi qəbul edilir. 182
Juruli, Georgi Durmişxanoviç (1865-1951): Gürcüstanın dövlət xadimi. Gürcüstanın müstəqilliyi barəsində aktı imzalayanlardan biri idi. Maliyyə və Ticarət naziri olmuşdur. Gürcüstan Respublikasının süqutundan sonra mühacirətə getmiş, Parisdə ölmüşdür. 159, 160, 166
Kaçaznuni, Hovanes (1868-1938): Ermənistanın siyasi və dövlət xadimi. Daşnaksutyun Partiyasının, Erməni Milli Şurasının üzvü olmuşdur. Ermənistan Respublikasının ilk hökumətində Baş Nazir vəzifəsini tutmuşdur. Ermənistanın sovetləşməsindən sonra mühacirətdə qalmış, Daşnaksutyun Partiyasından istefa edərək Sovet Ermənistanına qayıtmışdır. 1937-ci ildə həbs edilmiş, həbsxanada ölmüşdür. 324
Kaftaradze, Sergey: bolşevik. 16
Kahen, Leon: fransız tarixçisi. 335, 336
Kamal bəy: bax. Mehmed Kamal bəy
Kanayan, Drastamat (Dro; 1883-1956): Erməni terrorçu və hərbi cinayətkar; Daşnaksutyun üzvü. Şərqi Anadolu və Qafqazda dinc müsəlman-türk əhaliyə divan tutulmasında xüsusi rolu olmuşdur. 445, 453
Kantemirov, Əlixan Qadoyeviç (1889-1963): Dağlılar Respublikasının siyasi xadimi və diplomatı. Milliyyətcə osetindir. Peterburq və Kiyev Universitetlərində təhsil almışdır. Zaqafqaziya Seyminin üzvü, Dağlılar Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi olmuşdur. 7, 93, 94, 116, 159, 253
Kazımov, Kazım: Hacıbəyov Qardaşları truppasının əməkdaşı. 136, 137
Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 220, 237, 282, 304, 343, 419
Keqo: Zaqatala dairəsi sakini. 25
Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (1917) başçısı. 45, 172, 188, 353
Kerzon, Corc Nataniel [George Nathaniel Curzon; 1859-1925]: İngiltərənin dövlət xadimi. 1916-1925-ci illərdə Lordlar Palatasının başçısı, 1919-1924-cü illərdə Xarici İşlər naziri olmuşdur. 337
Keyxosrov 335, 343
Kələntərzadə, Xudaverdi: maarif xadimi.





240
Kərimov: Gürcüstan bolşeviklərindən. 16
Kərimov, Balakərim: Balaxanı sakini. 266
Kərimzadə: Bakıda Fəhlə Konfransının işində iştirak etmişdir. 322
Kərimzadə, Mirzəağa: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin sədri olmuşdur. 340
Kərimzadə, Muxtar 135
Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 28, 236, 310
Kikodze: Bakı Bələdiyyəsinin vəkili olmuşdur. 379
Kindi, Yaqub (801-873): ərəb kəşfiyyatçısı və astronomu. 280
Kir II (e. ə. 600-530): Əhəməni hökmdarı; e. ə. 559-530-cu illərdə hakimiyyətdə olmuşdur. 344
Kirkov: Zaqatala dairəsi sakini. 25
Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş Nazir olmuşdur. 48, 114, 209, 294, 338
Koblianski, Sərvər bəy 179
Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 129, 166, 173, 189, 392
Konev (general) 252
Konstantin I (yaxud Böyük Konstantin; 272-337): 306-337-ci illərdə Roma imperatoru olmuşdur. 337, 344
Kopernik, Nikol [Mikołaj Kopernik; 1473-1543]: polyak astronomu və riyaziyyatçısı. 279
Korqanov: general; 1919-cu ilin yanvarında Gürcü-Erməni Konransında Ermənistan heyətinin tərkibində olmuşdur. 352
Kornilov, Lavr Georgiyeviç (1870-1918): Rusiyanın hərbi xadimi; general. 1917-ci ilin iyul-avqust aylarında rus ordusunun Ali baş komandanı olmuşdur. 267
Kostanyan: erməni aktyoru. 137
Kot: Vladiqafqaz bələdiyyəsinin üzvü olmuşdur. 296
Kotsev, Pşemaxo Tamaşeviç (1884-1962): Şimali Qafqazın siyasi xadimi; Dağlılar Respublikasının Baş naziri olmuşdur. 50, 217, 228, 254, 256, 297, 302, 372, 373, 412
Kottin, Lui Emil [Louis Émile Cottin; 1896-1936]: fransız anarxisti; 19 fevral 1919-cu ildə Fransanın Baş naziri Klemansoya suiqəsd etmişdir. 294, 307
Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 223, 305
Krasnov, Pyotr Nikolayeviç (1869-1947): Rusiyanın hərbi xadimi, general. Don kazaklarının atamanı olmuşdur. 9
Krılov, İvan Andreyeviç (1769-1844): əsasən təmsilləri ilə məşhur olan rus şairi. 290
Kvazmadze, Heydər 179
Kvinitadze, Georgi İvanoviç (1874-1870): Rusiya imperiyasının və Gürcüstanın hərbi xadimi; general-mayor. 18, 381
Qacar: Azərbaycanın hərbi xadimi; general-mayor. 107
Qacar: Azərbaycanın hərbi xadimi; polkovnik. 107

Qacar: bax. Sultan Əhməd şah Qacar.
Qacar, Ağa Məhəmməd şah 98
Qacar, Məhəmməd Mirzə (1872-1920): Azərbaycanın hərbi xadimi, general-mayor. Azərbaycan Cümhuriyyəti ordusunda polkovnik rütbəsi ilə xidmət etməyə başlamış, 1919-cu ilin iyun ayında general-mayor rütbəsi almışdır. 107
Qaçaq Yunis: Cümhuriyyət dövründə Azərbaycanın cənub bölgələrində fəaliyyət göstərmiş qaçaq. 138
Qadaseviç: Bakı Bələdiyyəsinin vəkili olmuşdur. 379
Qaibzadə, Müqəddimətünnisa xanım 305
Qaliley, Qalileo [Galileo Galilei; 1564-1642]: italyan fiziki, astronomu və riyaziyyatçısı. 287
Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 412
Qara: 1918-ci ilin Mart qırğınlarında qətl edilən azərbaycanlı fəhlələrdən. 419
Qaraağazadə, Əhməd Həmdi (1893-1928): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 268, 307, 427
Qarabağlı, Mirhəsən Seyidzadə 156
Qarabəyov, Qara bəy: bax. Qarabəyli, Qara bəy.
Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. "Difai" partiyasının rəhbərlərindən, "İttihad" partiyasının sədri olmuşdur. "Həyat", "İrşad", "Kaspi" kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 35, 36, 192, 292, 329, 367
Qaraxanyan 451
Qaraş Məhəmməd oğlu 78
Qaraşarov, Rza bəy (yaxud Qaraşarlı; 1891-?): Azərbaycanın siyasi xadimi. Bir sıra məktəblərdə, o cümlədə Gəncə Ruhani Mədrəsəsində müəllimlik etmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 136, 220, 409
Qarayev 57
Qardaşbala Dadaşbala oğlu (Hacı Qardaşbala): Novxanı kəndi sakini. 135, 136
Qardaşov, Aslan bəy (1866-1920): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. "Əhrar" partiyasının liderlərindən biri, Milli Şuranın və Parlamentin üzvü, Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 194, 332, 366, 409
Qaro, Armen (yaxud Karekin Partırmacıyan; 1872-1923): Erməni terrorçusu. Daşnaksutyun partiyasının liderlərindən olmuşdur. Türkiyədə və Qafqazda terror əməliyyatlarında, dinc əhaliyə divan tutulmasında iştirak etmişdir. 1920-ci ildə Ermənistanın ABŞ-dakı səfiri təyin edilmişdir. 445, 453
Qasım Şikar oğlu (Məşhədi Qasım): Balaxanıdakı ordubadlılardan. 226
Qasımov, Əliheydər Hacı Məhəmmədtağı oğlu 429
Qasımov, Qasım: Bakı Şəhər Dumasının üzvü. 158
Qasımov, Qasım: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin sədri olmuşdur. 36
Qasımov, Mehdi (Məşhədi Mehdi): İrəvan sakini. 299
Qasımov, Məhəmmədtağı (Hacı Məhəmmədtağı) 429
Qaydeman: Rusiyanın hərbi xadimi; general. Könüllü ordunun komandirlərindən





olmuşdur. 254
Qazıyev, Yusif bəy (yaxud Qazızadə): İrəvan Müəllimlər Gimnaziyasını bitirmişdir. 299
Qazızadə: Zaqatala dairəsində Milli Komitə sədri olmuşdur. 26
Qəbulov, Abdulla əfəndi (yaxud Qəbulzadə; 1853-1943): Zaqatala nahiyəsindən Azərbaycan Parlamentinin üzvü olmuşdur. 333, 366
Qəbulov, Mustafa bəy (? - 1920): Cavanşir qəzasının rəisi və Bakı şəhərinin polismeysteri olmuşdur. 24, 25
Qədirov, Mirabdulla: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin katibi olmuşdur. 36
Qəmküsar, Əliqulu (Nəcəfov; 1880-1919): Azərbaycanın şair və publisisti. "Molla Nəsrəddin", "Yeni füyuzat", "Həyat", "İrşad" və sair qəzet və jurnallarda müxtəlif imzalarla çıxış etmişdir. 283
Qəni Hüseyn Əlibala oğlu: Bakı sakini. 118
Qənizadə, Sultanməcid Murtuzəli oğlu (1866-1938): Azərbaycanın ictimai-siyasi xadimi; yazıçı, pedaqoq və publisisti. Tiflis Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 46, 57, 64, 65, 156, 194, 219, 283, 369, 386
Qirişqori, Y. A.: Bakıda fəaliyyət göstərmiş həkim. 37, 77, 139, 161, 181, 202, 227, 245, 285, 325, 342, 361, 381
Qiyasəddin Cahangir mirzə (1356-1376): Əmir Teymurun böyük oğlu. 335
Qiyasbəyli, Mədinə xanım (yaxud Qiyasbəyzadə; 1889-1937): Azərbaycanlı pedaqoq, jurnalist və tərcüməçi. Anadan olduğu Salahlı kəndində (Qazax) qız məktəbi açmışdır. Maarifçilik fəaliyyətinə Bakıda da davam etmişdir. Sovet rejimi tərəfindən güllələnmişdir. 305
Qiyasbəyzadə, İsmayıl ağa 305
Qiyasbəyzadə, Mədinə xanım: bax. Qiyasbəyli, Mədinə xanım.
Qolitsın, Qriqori Sergeyeviç (1838-1907): Rusiyanın dövlət xadimi, general. Qafqaz müharibəsinin iştirakçısı idi. 1896-1905-ci illərdə Qafqaz Hərbi Dairəsinin komandanı (Qafqaz canişini) olmuşdur. 168
Qriqori XIII [Gregorius PP. XIII; 1502-1585]: 1572-1585-ci illərdə Roma papası olmuşdur; Qriqorian təqvimini tətbiq etmişdir. 279
Qriqoryan, Voskan: Bakıda 9-uncu Dağlıq (indiki Akademik Həsən Əliyev) küçəsində yaşamışdır. 416
Qriqoryans, Kazar: Zaqatala dairəsi sakini. 25
Qriqoryans, Şamil: Zatala dairəsi sakini. 25
Qriqoryev: Kaspi hərbi donanmasının Bakıdakı nümayəndəsi olmuşdur. 237
Qrinbank, Harri [Harry Greenbank; 1865-1899]: ingilis yazıçısı və dramaturqu. 307
Qu, Veytzyun [Wellington Koo; 1888-1985]: Çinin siyasi xadimi və diplomatı. 1915-1920-ci illərdə Çinin ABŞ-dakı səfiri olmuş, Paris Sülh Konfransında Çin nümayəndə heyətinin tərkibində yer almışdır. Həmçinin Çinin Millətlər İttifaqındakı ilk nümayəndəsi olmuşdur. 1920-ci illərdə Baş nazir və Prezident postlarını tutmuşdur. 126
Qukasov, Nerses (1865-1928): opera artisti. 325, 342
Qulaməliyev, Kərim Hacı Həsən oğlu: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 226
Quliyev, Hüseynqulu: Bakı sakini. 221
Quliyev, Xankişi: Bakı sakini. 174
Quliyev, Mirmehdi: Lənkəran sakini. 223
Quliyev, Zamanqulu (Hacı Zamanqulu): "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303
Qulu Əkbər oğlu (Məşhədi Qulu): İrəvan sakini. 54
Qulubəyov, Mahmud bəy Ağabala bəy oğlu: Bülbülə kəndinin sakini. 138
Qvozdenoviç, Anto (1854-1935): Qarada-

ğın (Çernoqoriyanın) hərbi və dövlət xadimi; general-leytenant. 1918-1921-ci illərdə ABŞ-da səfir olmuş, Paris Sülh Konfransında Qaradağ nümayəndə heyətinin tərkibində yer almışdır. 125

Lalayan, Stepan Balabekoviç (1891-1919): Şamaxıda anadan olmuşdur. Daşnak zabiti Lalayanın dəstəsi yerli azərbaycanlı əhaliyə qarşı törədilən soyqırımda xüsusilə qəddarlıq nümayiş etdirmişdir. Bakıdakı ingilis ordusu tərəfindən həbs edilmiş, məhkəməsi davam edərkən həbsxanada ürəktutmasından ölmüşdür. 359, 448, 450, 453

Lalayev, Stepan: bax. Lalayan, Stepan Balabekoviç.

Larionov, Pavel Averyanoviç: Bakıda işləmiş həkim. 38, 78, 120, 140, 181

Laroş: fransız generalı. 355

Lauton [Lawton]: Müttəfiqlərin Şərur-Naxçıvan bölgəsindəki general-qubernatoru olmuşdur. 400

Lebedev (general) 355

Lebedev: Zaqafqaziya Rus Milli Şurasının sədri olmuşdur. 400

Leburxadze: Acar siyasi xadimi. 179

Lenin, Vladimir İliç (1870-1924): Rus inqilabçı və marksist. Əsl soyadı Ulyanov idi. Rusiyada 1917-ci il Oktyabr inqilabının təşkilatçısı və rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) qurucusu və SSRİ Nazirlər Sovetinin ilk sədri olmuşdur. 187, 273

Levin, B. L.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 18, 37, 57

Leyla Əlihəsən qızı: Gilan Qorlanı kəndinin sakini. 175

Lətif bəy: türk zabiti; Atsxuri stansiyasının rəisi olmuşdur. 179

Lətifbəyov, Rza (Rza Zaki): Azərbaycanlı pedaqoq və yazıçı. Bakı, Gəncə, Şəki, Göyçay və Batumda müxtəlif təhsil ocaqlarında ana dili və şəriətdən dərs demişdir. Bədii yaradıcılıqla da məşğul olmuş, xüsusilə tarixi mövzularda əsərlər yazmışdır. 137, 219

Lianozov, Stepan Georgiyeviç (1872-1949): Erməni əsilli neft sənayeçisi. 1907-ci ildə "G. M. Lianozov və oğulları" adlı neft şirkətini qurmuşdu. 427

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 8, 126, 148, 165, 210, 231, 233, 294, 295, 316, 352, 354, 389, 390

Lomakin: Bakıda polis məmuru olmuşdur. 33

Lou, Bonar [Bonar Law; 1858-1923]: Britaniyanın siyasi xadimi. 1916-1921-ci illərdə Mühafizəkarlar Partiyasının lideri olmuş, 1922-1923-cü illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 47, 113

Lu, Çenq-Çanq [Tseng-Tsiang Lou; 1871-1949]: Çinin siyasi xadimi və diplomatı. Bir çox ölkələrdə səfir kimi fəaliyyət göstərmiş, Paris Sülh Konfransında Çin nümayəndə heyətinin rəhbəri olmuşdur. Çinin Xarici İşlər naziri və Baş naziri vəzifələrini də tutmuşdur. 126

Lütfulla Abbas oğlu: Bakının Bülbülə kəndinin sakini. 14

Lvov, Aleksey Fyodoroviç (1798-1870): Rus bəstəkarı. 1833-1917-ci illərdə Rusiya imperiyasının dövlət himni olan "Boje tsarya xrani" himnini bəstələmişdir. 182

Lvov, Georgi Yevgenyeviç (1861-1925): Rusiyanın siyasi xadimi. 1917-ci ilin mart-iyul aylarında Müvəqqəti Hökumətin başçısı olmuşdur. 8, 188, 203

Lyaxov, Vladimir Platonoviç (1869-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. 7, 49, 92, 115, 145, 157, 168, 193, 200, 212, 217, 220, 235, 239, 254, 255, 297, 348, 349

M. H.: "Azərbaycan" qəzetində imza; Dərbənddən yazmışdır. 274





M. K. əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 226

Maçabeli, Baxşibəy: Mesxet müsəlmanlarının liderlərindən olmuşdur. 179, 183, 261

Mahmudzadə 14

Makarov: Lənkəranda ermənilərdən ibarət hərbi dəstənin başçısı olmuşdur. 398, 399

Makino Nobuaki (1861-1949): Yaponiyanın siyasi xadimi. 1913-1914-cü illərdə Xarici İşlər naziri olmuşdur. Paris Sülh Konfransında ölkəsini təmsil etmişdir. 326

Makinski, Teymur bəy (1874-?): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Bir müddət Ədliyyə naziri vəzifəsini tutmuş, daha sonra Ermənistan Hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 202, 282, 283

Maklakov, Nikolay Alekseyeviç (1871-1918): Rusiyanın dövlət xadimi. 1912-1915-ci illərdə Daxili İşlər naziri olmuşdur. 5 sentyabr 1918-ci ildə Moskvada bolşeviklər tərəfindən güllələnmişdir. 8

Maqlakelidze, Şalva (1893-1976): Gürcüstanın hökumət xadimi, hüquqşünas. 1919-1920-ci illərdə Tiflisin general-qubernatoru olmuşdur. 1921-ci ildə mühacirətə getmişdir. İkinci Dünya müharibəsi illərində Almaniya ordusunda xidmət etmişdir. 1954-cü ildə DTK agentləri tərəfindən oğurlanaraq SSRİ-yə aparılmışdır. Qısa müddət həbsdə olmuş, daha sonra DTK-nın nəzarəti altında yaşamışdır. 381

Maqomayev, Müslüm (1885-1937): Azərbaycanlı bəstəkar və ictimai xadim. Milli musiqinin inkişafında müstəsna xidmətləri olmuşdur. 58, 76, 102, 120, 207, 225, 325, 342

Maqsudi, Sahib: "Qardaş birliyi" maarif cəmiyyətinin idarə heyətinin sədri. 72

Malaxan Vəli oğlu: İran rəiyyəti. 174

Malxazov: bax. Malxazyan.

Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov): "Daşnaksutyun" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 194, 203, 410

Malsaqov, Səfərbek (1868-1944): Rusiyanın hərbi xadimi; general-mayor. Milliyyətcə inquş olmuşdur. 92

Malsarov: Dağlılar Respublikasının Hərbi naziri. 412

Maniç: Rusiyanın hərbi xadimi; general. 8

Marağayi, Məhəmməd Səidülvüzəra: İranın Azərbaycandakı konsulu olmuşdur. 159

Martınov, Pyotr İvanoviç (1867 - ?): polkovnik; 1909-1916-cı illərdə Bakının Bələdiyyə sədri olmuşdur. 169, 182

Martirosov, Nikolay: Zaqatala sakini. 235

Mehcan Hacıəfəndi oğlu (Molla Mehcan): Ağsunun Kalva kəndinin sakini. 175

Mehdi Ordubadlı: İrəvan sakini. 299

Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 30, 106, 108, 121, 283, 388, 395, 396

Mehmed Kamal bəy (1884-1919): Türkiyənin Yozqat vilayətinin Boğazlıyan qəzasının rəisi olmuşdur. Ermənilərin köçürülməsi (təhcir) əsnasında vəzifəsini yaxşı yerinə yetirməməkdə günahlandırılaraq edam edilmişdir. 1922-ci ildə "milli şəhid" elan

dilmişdir. 70, 79
Mendereşvili: Zaqatala dairəsi sakini. 25
Məhəmməd (Kərbəlayi Məhəmməd): İran təbəəsi; Göyçay qəzasında yaşamışdır. 119
Məhəmməd (Hacı Məhəmməd): Qaxın Almalı kəndinin sakini. 26, 27
Məhəmməd Hüseyn oğlu: Bakıda məhbus olmuşdur. 341
Məhəmməd Kərbəlayi İsmayıl oğlu: Lənkəran sakini. 100
Məhəmmədbağır Əbdüləziz oğlu: Qaziyan (Ucar) kəndinin sakini. 119
Məhəmmədbəyov, Heybətqulu (yaxud Heybətqulu Məhəmmədbəyli; Məmmədbəyov; 1888-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin dekabrından 1920-ci ilin aprel ayına qədər Dövlət Nəzarəti naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən həbs edilmiş və güllələnmişdir. 45, 64, 90, 329
Məhəmmədbəyov, Yusif xan Mirzəməhəmməd xan oğlu (1866-1934): Azərbaycanlı mühəndis; Azərbaycan Cümhuriyyəti dövründə Rabitə və Nəqliyyat nazirinin müavini olmuşdur. 394
Məhəmmədcəfər Əbdüssəməd oğlu: Biləcəri sakini; yüzbaşı. 265
Məhəmmədəli: Mart soyqırımında Bakıda qətl edilən azərbaycanlılardan. 452
Məhəmmədəli (Molla Məhəmmədəli): Zaqatala dairəsində yaşamışdır. 27
Məhəmmədəli Məhəmmədkazım oğlu: Bakıda, Çadrovı (indiki Mirzəağa Əliyev) və Tatarski (indiki Əlimərdan bəy Topçubaşov) küçələrinin kəsişməsində camaşırxana açmışdır. 286
Məhəmmədəli Sidqi: bax. Sidqi, Məhəmmədəli.
Məhəmmədhüseyn: Mart soyqırımında Bakıda qətl edilən azərbaycanlılardan. 452
Məhəmmədnağı Hüseyn oğlu: Bakı sakini. 263
Məhəmmədov: Azərbaycan Ordusu zabiti; polkovnik. 357
Məhəmmədov, Əmin 450
Məhəmmədov, Həbib: İrəvan sakini. 53
Məhəmmədov, Hüseyn Gülməhəmməd oğlu (1875-1921-ci ildən sonra): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü və Hümmət Sosial-Demokrat Müsəlman Partiyasının təsisçilərindən idi. 374, 382
Məhəmmədov, Mirzə Muxtar: bax. Məhəmmədzadə, Mirzə Muxtar.
Məhəmmədov, Sadıq: Bakı Rus Neft Cəmiyyəti mədənlərində işləyən müsəlman fəhlələrinin liderlərindən olmuşdur. 357
Məhəmmədov, Talıb: vəkil; Azərbaycan Cümhuriyyəti Hökumətinin katibi. 395
Məhəmmədvəli Ağakişi oğlu: Göyçay qəzasının Axarlı kəndinin sakini. 34
Məhəmmədzadə, Əbdülvahab: bax. Yurdsevər, Əbdülvahab Məmmədzadə.
Məhəmmədzadə, Əsədulla: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 226
Məhəmmədzadə, Haşım: Şəki-Ağdaş Müəllimlər İttifaqının katibi olmuşdur. 323
Məhəmmədzadə, Qəhrəman İsrafil oğlu (1897-?): Azərbaycan Cümhuriyyəti Parlamentinin qərarı ilə xaricə təhsil almağa göndərilmişdir. Berlində təhsil almışdır. Sonrakı taleyi haqqında məlumat yoxdur. 416, 427
Məhəmmədzadə, Mirzə Muxtar (yaxud Mirzə Muxtar Məmmədov; 1852-1929): Azərbaycanlı xanəndə və teatr aktyoru. 137, 341
Məhəmmədzadə, Mirzəbala (1898-1959): Azərbaycanın ictimai-siyasi xadimi, publisist və dramaturq. 1924-cü ildən mühacirətdə yaşamışdır. 30, 417
Məhəmmədzadə, Mustafa: Zaqatala dairəsində yaşamışdır. 27
Məhəmmədzadə, Zülfüqar: Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak etmişdir. 427





Məhərrəmzadə, Qara 15
Məhməd VI (1861-1926): Osmanlı İmperiyasının sonuncu sultanı Məhməd Vəhidəddin. Sultan Əbdülməcidin oğlu idi. 3 iyul 1918-ci ildə Osmanlı sultanı olmuş, Türkiyə Böyük Millət Məclisinin monarxiyanı ləğv etdiyi 1 noyabr 1922-ci il tarixinə qədər hakimiyyətdə qalmışdır. Mühacirətdə ölmüşdür. 59
Məhməd Əli paşa: Türkiyənin Ermənistandakı səfiri olmuşdur. 358, 363
Məhzun oğlu: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 119
Məlik Balaağa oğlu: Bakı sakini. 72
Məlik-Yeqanov, Salman bəy 220
Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 90, 329, 385, 393, 395
Məlikaslanov, Teymur bəy: Azərbaycan Dəmiryolu İdarəsinin rəisi idi. 395
Məlikov: erməni əsilli neft sənayeçisi. 419
Məlikşah I (Əbülfəth Cəlaləddin Məlikşah; 1055-1092): Böyük Səlcuqlu sultanı; 1072-1092-ci illərdə hakimiyyətdə olmuşdur. 280, 287
Məlikül-Mütəkəllimin, Mirzə Nəsrulla (1860-1908): İranın ruhani və ictimai xadimi; inqilabçı və mütəfəkkir. 182, 193
Məlikzadə, Əmirəli: Ərəkit sakini. 242
Məmiş Məşhədi Rəhim oğlu: Zəngibasar mahalı sakini. 53
Mənaf Haşim oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Məsum Ələkbər oğlu: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin üzvü. 36
Məsum Əmiraslan oğlu: Saatlının Dəlilər kəndinin sakini. 175
Məsumə Mirkərim qızı: Bakının Bülbülə kəndinin sakini. 14
Məşhədibəyov, Eyyub 206
Məşhədibəyov, Məhəmməd bəy 206
Mixail: Zaqatala dairəsində gürcü keşişi olmuşdur. 25, 26
Mixaylov: tibb professoru. 37, 77, 139, 181, 227, 244, 285, 324, 341, 361, 401
Mikayıl (Hacı Mikayıl): "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303
Mikayıl Hüseyn oğlu (Məşhədi Mikayıl): Balaxanıdakı ordubadlılardan. 226
Mikoyan: Bakıda Fəhlə Konfransının işində aktiv iştirak etmişdir. 321
Miller, Aleksandr Yakovleviç (1868-1940): Rus diplomatı və şərqşünası. 1910-1913-cü illərdə Təbrizdə general-konsul olmuşdur. 172
Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 5, 188, 189, 203
Milyukova, H. H.: Qadın Xeyriyyə Cəmiyyətinin (Bakı) üzvü. 199
Mirqasımov, Mir Əsədulla (1883-1958): cərrah. Odessada Novorossiya Universitetini bitirmişdir. Bakıda müxtəlif xəstəxanalarda işləmişdir. Azərbaycanda müasir tibb təhsilinin və elminin əsasını qoyanlardan biri kimi qəbul edilir. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti olmuşdur. 38, 78, 121, 140, 181
Mirqulam Mirəli oğlu: Bakı sakini. 341
Mirmehdi Mirqasım oğlu: İrəvan sakini. 299
Mirməcid: İrəvan sakini. 299
Mirvarid Ələsgər qızı: Saatlının Dəlilər kəndinin sakini. 175
Mirzəcani: "Azərbaycan" qəzetində imza.

171
Mirzəyev: Bakı quberniyasında polis olmuşdur. 163
Mirzəyev, Şərif bəy (yaxud Mirzə Şərif bəy): Azərbaycanlı müəllim, publisist, alim və ictimai xadim. Tiflisdə yaşayıb-yaratmışdır. 277
Mitrofanov, Vasili Qriqoryeviç (1864 - ?): Bakıda işləmiş həkim. 38, 78, 121, 140, 181
Mollazadə: Bakı şəhərinin 3-cü sahəsinin pristavı olmuşdur. 72, 163
Monro, Ceyms [James Monroe; 1758-1825]: Amerikanın dövlət xadimi; 1817-1825-ci illərdə 5-ci ABŞ prezidenti olmuşdur. 182
Monteqyo, Edvin Semuel [Edwin Samuel Montagu, 1879-1924]: Britaniyalı siyasətçi. 1917-1922-ci illərdə Hindistan İşləri naziri olmuşdur. 121
Möhsün Hacı Salah oğlu: "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303
Muxtarov, Mirzə Saleh: həkim. Tiflisdə Müsəlman Milli Şurası tərəfindən yaradılan Ruhani Komissiyasının üzvü olmuşdur. 178
Muxtarova, Liza (Yelizaveta Tuqanova): Osetin zadəganlarından Aslanbek Tuqanovun qızı, Murtuza Muxtarovun həyat yoldaşı. 199
Murad Əsəd oğlu (Hacı Murad): Qubanın Tülər kəndinin sakini. 175
Murad Sebastatsi: bax. Sebastatsi, Murad.
Muradov, A. K. 240
Muradzadə, İsfəndiyar: Qazax qəzasının rəisi olmuşdur. 305, 361
Murzin: Zaqatalada meşəbəyi olmuşdur. 235
Musa bəy: Zaqatala dairəsində komissar olmuşdur. 26
Musa Kərbəlayı Bəhram oğlu: Zabrat sakini. 73
Musabəyova, Vəsilə xanım: Bakı məktəblərində müəllimə işləmişdir. 417, 427
Musazadə, Mirzəağa 421
Mustafa Məhəmmədcəfər oğlu: Balaxanıdakı ordubadlılardan. 226
Mustafa Səbri əfəndi (1869-1954): Osmanlı dövlətinin ictimai-siyasi xadimi; "Hürriyyət və Etilaf" partiyasının qurucularından. Məclisi-Məbusan üzvü idi. 1919-1920-ci illərdə Osmanlı şeyxülislamı olmuşdur. 250
Mustafazadə, Əliməhəmməd: maarif xadimi. 240
Mustafazadə, Veysəl: Şəki-Ağdaş Müəllimlər İttifaqının sədrinin müavini olmuşdur. 323
Mürsəl paşa (Mürsəl Bakü; 1881-1945): Türkiyənin hərbi və siyasi xadimi. Qafqaz İslam Ordusu ilə birlikdə Bakının azad edilməsi hərəkatında iştirak etmişdir. Türk Qurtuluş Savaşında iştirak etmiş, İzmirə daxil olan ilk türk generalı olmuşdur. Müharibədən sonra Türkiyə Böyük Millət Məclisinin üzvü seçilmişdir. Soyadı qanunu çıxdıqdan sonra "Bakü" soyadını qəbul etmişdir. 6
Mürsəlzadə, Piri: "Müsavat" üzvü. 137, 199, 200, 220, 237, 238, 303,422
Mürtəza Mirzə: İranlı xeyriyyəçi. 297
Müseyib Əliəkbər oğlu: Bakı sakini. 263
Nadir şah Əfşar (1688-1747): Əfşarlar sülaləsinin banisi və Əfşarlar dövlətinin I şahı; 1736-1747-ci illərdə hakimiyyətdə olmuşdur. 207
Nağdəlizadə, Tağı 260
Nağı Haşım oğlu: Bakıda qaradovoy olmuşdur. 249
Nağıyev, Ağa Əli: bax. Nağıyev, Əli
Nağıyev, Ağa Musa: bax. Nağıyev, Musa.
Nağıyev, Əli 61, 81
Nağıyev, Murad 61, 81
Nağıyev, Musa (1842-1919): Azərbaycanın neft sənayeçisi və xeyriyyəçi. 61, 62, 63, 81, 82, 97, 98, 306
Nağıyev, Sadıq 61, 81
Nağıyev, Tağı 61, 81
Nağıyeva, Xədicə xanım 61, 81





Nağıyeva, Ümmüsəlimə xanım 63, 82
Nağıyeva, Yelizaveta Qriqoryevna 61, 81
Naxçıvani, M. Ayn. 75
Nakaşidze, Mixail Aleksandroviç (1844-1905): Rusiya imperiyasının dövlət xadimi. Bakının qubernatoru olmuşdur. Bakıda 1905-ci il hadisələrində səhlənkarlıqla günahlandırılaraq erməni terrorçusu Dro tərəfindən öldürülmüşdür. 168
Nazarbekov, Foma İvanoviç (yaxud Tovmas Ovanesoviç Nazarbekyan; 1855-1931): Rusiyanın və Ermənistanın hərbi xadimi; general. 358
Nazarbekyan, Tovmas Ovanesoviç: bax. Nazarbekov, Foma İvanoviç.
Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 95, 103, 196, 260, 271
Nəcəf (Kərbəlayi Nəcəf): İrəvan quberniyası sakini. 54
Nəcəfov, Əliqulu: bax. Qəmküsar, Əliqulu.
Nərimanbəyov, Nəriman bəy Haşım bəy oğlu (yaxud Nərimanbəyli; 1889-1938): Azərbaycanın ictimai-siyasi xadimi, "Müsavat" partiyasının üzvü. Xarkov Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Zaqafqaziya Seyminin və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Dövlət Nəzarəti naziri olmuşdur. Sovet dövründə bir neçə dəfə həbs edilən Nərimanbəyov 1938-ci ildə güllələnmişdir. 395
Nərimanov, Əlimirzə: Tiflisdə Müsəlman Milli Şurası rəyasət heyətinin üzvü olmuşdur. 178, 264
Nəsir Seyid Şəkər oğlu: Qarabəyli (Ucar) kəndinin sakini. 119
Nəsrulla xan (1874-1920): Əfqanıstan əmiri. 21-28 fevral 1919-cu ildə bir həftə hakimiyyətdə olmuşdur. 113, 315
Nigar xanım: Qadın Xeyriyyə Cəmiyyətinin (Bakı) üzvü. 199
Nikola I Petroviç [1841-1921]: 1910-1918-ci illərdə Qaradağ (Monteneqro) krallığının ilk və yeganə kralı olmuşdur. 125, 126, 141
Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə haki-miyyətdə olmuşdur. 26, 27, 168, 187, 188, 203, 235, 236, 238, 256, 267
Nurəddin paşa 250
Nuri Ağakişi oğlu: Keşlə sakini. 320
Nuri paşa (Killigil; 1889-1949): Osmanlı ordusunun general-leyte-nantı. Qafqaz İslam Ordusunun komandanı olmuşdur. 6, 108
Nurizadə 14
Nüşabə: Bərdə hakimi. 335
Okinşeviç, Aleksandr İsidoroviç (1869 - ?): Bakıda işləmiş həkim. 38, 78, 121, 140, 181
Olenskaya, Yeva Nikitiçna (1900-1959): Azərbaycan aktrisası. Qubada doğulmuş, kiçik yaşda ailəsiylə birgə Bakıya köçmüşdür. "Nicat" və "Səfa" truppalarının, "Hacıbəyov qardaşları müdiriyyəti" truppasının üzvü olmuşdur. Uzun müddət Milli Dram Teatrının səhnəsində çıxış etmişdir. 1949-cu ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 58, 102, 120, 226
Orbeliani 179
Orbelyan, Stepanos (1250-1303): erməni kilsə xadimi və tarixçisi. 336
Orconikidze, Qriqori Konstantinoviç: bax. Orconikidze, Serqo.
Orconikidze, Serqo (Qriqori Konstantinoviç; 1886-1937): gürcü inqilabçısı, bolşevik.6
Orlov: Azərbaycan Məhkəmə Palatası sədrinin müavini olmuşdur. 282
Orucov, Atababa: Bakı sakini. 286
Osipov, Ayrapet: Bakıda, qanunsuz silah-sursat saxladığına görə həbs edilmişdir. 416
Oskanova, Yelena: Zaqatala dairəsi sakini. 25
Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiya-sının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda,

Zəngəzurda və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 132, 151, 216, 445

Ömər: Zaqatalanın Tala kəndinin yüzbaşısı olmuşdur. 27

Ömər Faiq: bax. Nemanzadə, Ömər Faiq.

Ömər Xəyyam (1048-1131): fars şair, riyazıyyatçı və astronomu. 280

Ömər Kadi: Dağlılar Respublikası Parlamenti Rəyasət Divanının katibi. 412

Pantoryans, Mkırtıç: Zatala dairəsi sakini. 25

Papacanov, Mixail İvanoviç (yaxud Mikael Ovanesoviç Papacanyan; 1869-1929): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Hüquq fakültəsini qurtarmış, bir sıra yerlərdə (o cümlədən Bakıda) məhkəmə sistemində işləmişdir. Rusiya imperiyasının IV Dövlət Dumasına Bakı, Yelizavetpol və İrəvan quberniyalarından üzv seçilmişdi. Osmanlı, Azərbaycan, Gürcüstan hökumətləriylə bir sıra danışıqlarda iştirak etmiş, Paris Sülh Konfransına göndərilən Ermənistan heyətinin tərkibində yer almışdır. 352

Papacanyan, Mikael: bax. Papacanov, Mixail İvanoviç.

Papanov, Osip: Bakı sakini. 118

Papazyan 296

Paşa Əli oğlu: Qubanın Qonaqkənd kəndinin camaat vəkili olmuşdur. 388

Paşazadə, Camal: Parlament İdarəsində dəftərdar (qeydiyyat məmuru) olmuşdur. 309

Paşazadə, Kazım: Qazaxın Daş Salahlı kəndinin sakini. 305

Patseviç, N. K.: Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyində işləmişdir. Fövqəladə İstintaq Komissiyasının (Xüsusi Təftiş və İstintaq Komissiyası) sədri olmuşdur. 237

Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. (ayrıca bax: Axıskalı) 1, 44, 64, 66, 90, 91, 191, 194, 290, 291, 386, 387, 388, 408

Petlyura, Simon Vasilyeviç (1879-1926): Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 23

Petrosov, Petros: Zaqatala dairəsi sakini. 25

Pərvaz Dadaş oğlu: Bakıda gözətçi (strajnik) işləmişdir. 238

Pir Məhəmməd (1376-1407): Əmir Teymurun nəvəsi və vəliəhdi; Teymurun böyük oğlu Qiyasəddin Cahangir mirzənin oğlu idi. 335

Piricanyans, Avetis Babayeviç: Urmiyə sakini. 340

Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 8, 114, 295, 338

Pitsxalava, Samson Georgiyeviç (1872-1952): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1921-ci ildə Fransaya mühacirətə getmiş, 1946-cı ildə Gürcüstana qayıtmışdır. 1951-ci ildə həbs edilərək Orta Asiyaya sürgünə göndərilmiş və sürgündə ölmüşdür. 382

Plumer, Herbert [Herbert Plumer; 1857-1932]: İngiltərənin hərbi xadimi; feldmarşal. Birinci Dünya müharibəsi illərində Fransa və İtaliyadakı ingilis ordularının komandanı olmuşdur. 1918-ci ilin dekabrından 1919-cu ilin aprelinə qədər Reyndəki Britaniya işğal ordusunun komandanı olmuşdur. 233

Poqos Nubar paşa (1851-1930): Osmanlı dövlətində yaşayan ermənilərin siyasi təşkilatı olan Erməni Millət Məclisinin və Ümumi Erməni Xeyriyyə İttifaqının sədri olmuşdur. 22, 114, 341

Portsiladze: Zaqatala dairəsində gürcü





keşişi olmuşdur. 26, 28

Prjevalski, Mixail Alekseyeviç (1859-1934): Rusiyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsi dövründə, 1917-ci ilin iyun-dekabr aylarında Qafqaz cəbhəsinin komandiri olmuş, daha sonra ağqvardiyaçılar hərəkatına qoşulmuşdur. 54, 55, 565, 57, 83, 84, 85, 88, 165, 192, 216, 296

Protasov, İ. N.: Slavyan-Rus Cəmiyyətinin üzvü; Azərbaycan Cümhuriyyətinin Maliyyə naziri olmuşdur. 322, 347

Pyotr I (1672-1725): Rusiya hökmdarı; 1682-1725-ci illərdə hakimiyyətdə olmuşdur. 318

Radek (general) 71

Railson: Antantanın Dağlılar Repsublikası nəzdindəki nümayəndəsi olmuşdur. 115

Ramazan: Bakılı uşaq. 425

Ramazan Heydər oğlu: Balaxanıdakı ordubadlılardan. 226

Ramişvili, İsidor İvanoviç (1859-1937): Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü, menşevik. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Gürcüstan Milli Şurasının və Müəssislər Məclisinin üzvü olmuşdur. 1937-ci ildə sovet rejimi tərəfindən həbs edilərək güllələnmişdir. 400

Ramişvili, Noy Vissarionoviç (1881-1930): Gürcüstanın dövlət xadimi. Menşevik. Ruhani seminariyasını bitirmiş, yarımçıq hüquq təhsili almışdır. Zaqafqaziya Demokratik Federativ Respublikasının Daxili İşlər naziri, Gürcüstan Demokratik Respublikasının Baş Naziri, eyni zamanda Daxili İşlər naziri, daha sonra Xarici İşlər naziri olmuşdur. 382, 414

Rasizadə, Hüseyn Cavid (1882-1941): Azərbaycanın görkəmli dramaturqu, yazıçısı və şairi. 134, 244, 247

Raten 47

Rəcəbəli: İranda quldurluqla məşğul olmuşdur. 257

Rəfiyev, Musa bəy (1888-1938): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Səhiyyə və Sosial Təminat naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 1, 3, 18, 37, 58, 64, 77, 102, 139, 180, 202, 227, 244, 266, 285, 306, 324, 341, 361, 381, 395, 401, 425

Rəfizadə, Yunis 420

Rəhimli, D.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində karügzar işləmişdir. 19

Rəhimli, Rəsul: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində kargüzar işləmişdir. 345, 351, 362, 382, 402

Rəhimov, Yusif Kənan (1885-1937) 95

Rəhimzadə, Həsən: Ərəkit ibtidai məktəbinin müdiri olmuşdur. 241

Rəhimzadə, Hüseyn: Azərbaycan Cümhuriyyəti Əmək Nazirliyinin müvəkkili olmuşdur. 50

Rəhmanov, Əbdül: Bakı sakini. 174

Rəsul bəy: maarif xadimi. 240

Rəsulov, Səfərəli 240

Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 59, 79, 136, 156, 190, 219, 228, 292, 330, 387, 388, 418, 419, 420, 422, 423, 431

Roxlin, Abram Veniaminoviç (1881-1941): Menşeviklərin Bakı komitəsinin üzvü, Sentrokaspi Diktaturasının Ərzaq komissarı, Bakı Şəhər Bələdiyyə Şurasının üzvü. Sovet dövründə Bakıda kommunal təsərrüfatı sahəsində işləmişdir. Casusluqda təqsirləndirilərək 1939-cu ildə həbs edilmiş, 1941-ci ildə güllələnmişdir. 54, 57, 88

Romanov, Aleksey Nikolayeviç (1904-1918): Rusiya imperatoru II Nikolayın oğlu. 203

Rudnev: Zemstvo və şəhərlər bürosunun sədri olmuşdur. 317

Ruxadze, Levan Porfiryeviç (1884-1937): Gürcüstanın siyasi xadimi. Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1937-ci ildə sovet rejimi tərəfindən güllələnmişdir. 373

Rüstəmbəyli, Cəfər bəy Mustafa bəy oğlu (yaxud Rüstəmbəyov; 1884-1938): Azərbaycanın diplomatı və dövlət xadimi. Don, Kuban və Krım hökumətləri nəzdində Azərbaycan Cümhuriyyətinin diplomatik nümayəndəsi olmuşdur. Bir müddət Ticarət, Sənaye və Ərzaq nazirinin müavini vəzifəsini tutmuşdur. Azərbaycan Parlamentinin üzvü Şəfi bəy Rüstəmbəylinin qardaşı idi. 356

Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. 292, 367, 369, 408, 409, 410, 411

Rüstəmbəyov, Cəfər bəy Mustafa bəy oğlu: bax. Rüstəmbəyli, Cəfər bəy Mustafa bəy oğlu.

Rüstəmbəyov, Fətulla bəy 62, 82

Rza Zaki: bax. Lətifbəyov, Rza.

Rzabəyzadə, Nigar xanım: maarif xadimi. 240

Rzaəli bəy: Ağsunun Kalva kəndinin sakini. 175

Rzaquluzadə, Əlişah (Kərbəlayi Əlişah): "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303

Rzayev, Abuzər bəy Əliəsgər bəy oğlu (1876-1920): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Moskva Ali Texniki Məktəbini bitirmiş, Azərbaycanda neft mədənlərində mühəndis kimi işləmişdir. Gəncədən Azərbaycan Parlamentinə üzv seçilmişdir. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 65, 91, 395

Rzayev, Balarza: "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303

Rzayev, Mirzəağa: Bakıda polis məmuru (qorodovoy) olmuşdur. 163

Rzayev, Nəcəfqulu 205, 443

Saakyan, Sako: Sosialist-inqilabçı; Sentrokaspi Hökuməti İcraiyyə Komitəsinin üzvü, Bakı Sovetinin sədri olmuşdur. 446, 448

Sadıqov, Mətləb 206

Sadıqov, Səlim 62, 82

Sadıqova, Rüqiyyə xanım 62, 82

Sadıqzadə, Sadıq: Balaxanı sakini. 176

Sakanov, Keqomona: Zatala dairəsi sakini. 25

Saks, Persi: İrandakı ingilis ordusu komandanlarından olmuşdur. 128

Salamzadə, Kərbəlayı Balakərim: Bakı sakini. 113

Saleh: "Azərbaycan" qəzetində imza. 154

Salman Əsgər oğlu: bax. Salman Mümtaz.

Salman Mümtaz Məhəmmədəmin oğlu (1884-1941): Azərbaycanın şair və ədəbiyyatşünası. Klassik poeziya və şifahi xalq ədəbiyyatı irsinin toplanması və tədqiqi sahəsində misilsiz xidmətləri olmuşdur. Sovet hakimiyyəti tərəfindən repressiyaya məruz qalmışdır. 137, 220

Samson: Zaqatala dairəsi sakini; baqqal. 25

Sanders paşa: bax. Sanders, Otto Liman fon

Sanders, Otto Liman fon [Otto Liman von Sanders; 1855-1929]: Almaniyanın hərbi xadimi;general-leytenant. Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyasında hərbi məsləhətçi olmuşdur. 7

Sanılı, Hacı Kərim (yaxud Sanıyev; 1878-1937): Azərbaycanın ictimai-siyasi xadimi, şair. Qori Seminariyasında təhsil almış, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Azərbaycan Parlamentinin üzvü olmuşdur. Repressiyaya məruz qalmışdır. 144, 360, 361





Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 58, 102, 120, 325, 342

Sarabski: bax. Sarablı, Hüseynqulu

Savinkov, Boris Viktoroviç (1879-1925): Rusiyanın siyasi xadimi. Sosialist-İnqilabçılar partiyasının liderlərindən biri olmuşdur. Bolşeviklərə qarşı mübarizədə kömək almaq məqsədi ilə Antanta hökumətləri ilə danışıqlar aparmışdır. 8

Sayondzi Kimmoti (1849-1940): Yaponiyanın siyasi xadimi və diplomatı. Mədəniyyət naziri, Xarici İşlər naziri, Baş nazir kimi vəzifələr tutmuşdur. Paris Sülh Konfransında ölkəsini təmsil etmişdir. 326

Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 5, 71

Sebastatsi, Murad (yaxud Murad Xrimyan; Murad Akopyan; 1874-1918): Erməni qulduru. Hnçak və Daşnaksutyun partiyalarının üzvü olmuşdur. Türkiyə ərazisində və Qafqazda quldurluq etmiş, dinc əhaliyə divan tutmuşdur. 445, 453

Sedov: Ukraynadakı bolşevik komissarlarından olmuşdur. 392

Serebrenikov: Azərbaycanın hərbi xadimi; polkovnik. 107

Sereteli, İrakli Georgiyeviç (1881-1959): Rusiya və Gürcüstanın siyasi xadimi. Rusiya imperiyası II Dövlət Dumasının üzvü olmuşdur. Gürcüstanın müstəqillik atkını imzalayanlardan biri idi. Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderləri arasında yer almışdır. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətində olmuşdur. 1921-ci ildən mühacirətdə yaşamışdır. 316, 355

Serkisov, Aleksandr: Zaqatala dairəsi sakini. 25, 28

Seydiyev, Hacı Nemət 286, 306

Seyfulla Hacı Bədir oğlu: Masallının Xəlfələr kəndinin sakini. 175

Seyid Alim xan: bax. Alim xan, Seyid Mir Məhəmməd.

Seyidov, Mirhidayət bəy (1887-1919): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 144

Sezar, Yuli [Gaius Iulius Caesar; b. e. ə. 100 – b. e. ə. 44]: Qədim Romanın dövlət xadimi. 278, 279, 280, 287

Sə'dan (Badkubəli Sə'dan) 335

Sədrəddinbəyov, Xanbaba bəy: Azərbaycan Dəmiryolu İdarəsində mühafizə müdiri olmuşdur. 395

Səfər Məşhədi Məmi oğlu: Lənkəran sakini. 100

Səfərağa: Zaqatala dairəsində yaşamışdır. 27

Səfərəlibəyov, Şirin bəy Hüseyn bəy oğlu (1888-1938). 368, 369

Səfərəlizadə, Baba bəy: maarif xadimi. 240

Səfərov: Sosial Təminat Nazirliyində işləmişdir. 242, 311, 313, 326.

Səfikürdski, Aslan bəy (1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 160, 394

Səfikürdski, Nəsrəddin bəy (1884-1920): Azərbaycanlı hüquqşünas. Peterburq Universitetində təhsil almışdır. Sovet hakimiyyətinə qarşı Gəncədə təşkil edilən üsyanda şəhid olmuşdur. 395

Səfiyyə Məlikməhəmməd qızı: Bakı sakini. 135, 136

“Səid”: “Azərbaycan” qəzetində imza. 32
Səidülvüzəra: bax. Marağayi.
Səlimə Məşhədi Qulam qızı 401
Səlimov, Həbib bəy (1881-1920): Azərbaycanın hərbi xadimi; general-mayor. 107, 149, 396
Səlimov, Hüseynqulu: Azərbaycan Şeyxülislamlıq İdarəsinin kargüzarı olmuşdur. 41
Səmədov, Əşrəf: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin üzvü. 36
Səmədov, İbrahim (Məşhədi İbrahim): Lənkəran sakini. 222
Sidqi, Məhəmməd Tağı (1854-1903): Azərbaycan şairi və pedaqoqu. 136
Similt: Zaqataladan camaat vəkili olmuşdur. 235
Simonov: Zaqatala dairəsi sakini. 25
Sipəhdar 297
Smayla 354
Snarski, İvan Aleksandroviç (1852-1911): Rus generalı; İranda xidmət etmişdir. 172
Speqalski: Bakıda polis olmuşdur. 249
Srvandzyan, Hamazasp (1873-1921): “Daşnaksutyun” partiyasının liderlərindən, erməni qatil və terrorist. Türkiyənin Van şəhərində anadan olmuşdur. Gəncə, Şuşa, Quba, Bakı və başqa yerlərdə dinc Azərbaycanlı əhaliyə divan tutmuş, minlərlə dinc sakini qətl etmişdir. Bolşeviklər tərəfindən İrəvanda həbs edilmiş, həbsxanada öldürülmüşdür. 103, 132, 447, 453
Stankeviç, Silvestr Lvoviç (1866-1919): Rusiyanın hərbi xadimi; general-leytenant. 8
Starostina, E. M.: opera artisti. 325, 342
Stepanyan, Mixail: Bakıda, qanunsuz silah-sursat saxladığına görə həbs edilmişdir. 416
Stepanyans, Marqarit: Zaqatala dairəsi sakini. 25
Stroqov, D. V. 201
Suxomlinov: Bakıda qaradovoy olmuşdur. 249
Sulkeviç, Süleyman bəy (Məmməd bəy Sulkeviç; Matvey Aleksandroviç Sulkeviç; 1865-1920): Rusiyanın, Krımın və Azərbaycanın hərbi xadimi. Mənşəcə tatardır. Rus ordusunda xidmət etmiş, Krımda yaradılan Krım-Tatar Hökumətinin sədri olmuş, bu hökumətin Denikin tərəfindən aradan qaldırılmasından sonra Azərbaycana gəlmişdir. Azərbaycan Cümhuriyyəti Ordusunun Baş qərargah rəisi olmuş, milli ordu quruculuğuna böyük töhfə vermişdir. Cümhuriyyətin süqutundan sonra güllələnmişdir. 395
Sultan Əhməd şah Qacar (1898-1930): Qacar nəslindən İran şahı; 1909-1925-ci illərdə hakimiyyətdə olmuşdur. 199
Sultanov: yüzbaşı 178
Sultanov, Cəlil bəy Əsgər bəy oğlu (1880-?): Zəngəzur qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 291, 368
Sultanov, Hacıxan bəy: polkovnik. 27
Sultanov, Xosrov bəy (1879-1943): Azərbaycan Cümhuriyyətinin siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 242, 387, 424
Sultanov, Rüstəm: Azərbaycan Cümhuriyyətinin Müttəfiqlər Komissiyası (Odessa) nəzdində nümayəndəsi olmuşdur. 318
Sultanzadə, Əbdüləhəd xan: Şəkidən “Azərbaycan” qəzetinə məktub yazmışdır. 77
Sumbatəli: Suraxanılı fəhlə. 421
Sübhanqulov: müəllim. Tiflisdə Müsəlman Milli Şurası tərəfindən yaradılan Ruhani Komissiyasının üzvü olmuşdur. 178
Sübhanverdixanzadə, Hüseyn ağa 305
Sübhanverdixanzadə, Rəhim ağa (Hacı Rəhim ağa) 305
Süleymanzadə, Kərbəlayı Nəsrulla: Ərəkit kənd sakini. 242
Süleymanzadə, Talıb: Ərəkit məktəbinin şagirdi. 242





Sürəyya xanım: aktrisa. 207, 225, 226
Sverçkov, Dmitri Sidoroviç: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin nümayəndəsi olmuşdur. 201
Sze, Alfred Sao-ke [1877-1958]: Çinin siyasi xadimi və diplomatı. ABŞ və İngiltərədə səfir olmuşdur. 126
Şaban Yusif oğlu: Zaqatala dairəsində yaşamışdır. 27
Şabanbəyov: Zaqatalada məmur olmuşdur. 24
Şahnəzərov: Bakıda həkim olmuşdur. 37, 78, 180, 227, 245, 285
Şahtaxtlı, Molla Əhməd 396
Şahvarov: Dağlılar Respublikasının Maarif naziri. 412
Şaiq: bax. Talıbzadə, Abdulla Şaiq.
Şatilov, Vladimir Pavloviç (1855-1928): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun Gürcüstandakı nümayəndəsi olmuşdur. Mühacirətə getmişdir. 93, 217, 218, 352
Şattlvort, Diqbi [Digby Shuttleworth; 1876-1948]: Britaniya Hindistanı Ordusu’nun zabiti; general. 1917-1919-cu illərdə Britaniyanın Qafqazdakı 39-cu piyada briqadasının və Qara dənizdəki 83-cü piyada briqadasının komandiri olmuşdur. 365
Şaumyan, Stepan (1878-1918): Erməni əsilli bolşevik, Bakı Kommunasının lideri. Bolşeviklərin və daşnakların 1918-ci ilin mart ayında Bakıda dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımına rəhbərlik etmişdir. 132, 322, 421, 430, 446, 447, 448, 450
Şefkunov: Lənkəranda Bolşevik komissarı olmuşdur. 138
Şexter, Z. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 19, 37, 57, 77, 101, 139, 160, 181, 227
Şerbakov: Zaqatala dairəsi sakini. 25
Şervaşidze, Qədir (1887-1919): Acar siyasi xadimi; Gürcüstan Müəssislər Məclisinin üzvü olmuşdur. 179
Şevkunov: Muğanda Azərbaycanlı əhaliyə divan tutan silahlı dəstələrin rəhbərlərindən. 216
Şeyxzadə, Məhəmmədəmin: pedaqoq. Axalsız qəzasının Azğur kəndində anadan olmuş, Şəkidə və Şamaxıda məktəb açmışdır. Dərs kitabları yazmışdır. 95, 103
Şeyxzamanov, Məhəmmədbağır: bax: Şeyxzamanzadə, Məhəmmədbağır. 395
Şəmsəddin Sami (1850-1904): Türk yazıçısı, publisisti və dil alimi. “Təəşşüqi-Tələt və Fitnat” adlı əsəri türk ədəbiyyatında ilk roman olaraq qəbul edilir. Müxtəlif qəzetlərdə baş redaktor olmuş, eləcə də məqalələr yazmışdır. Fransızca və ərəbcə lüğətlər, türk dilinin izahlı lüğətini (“Qamusi-türki”) hazırlamışdır. “Qamusül-ə’lam” adlı bioqrafiya, tarix və coğrafiya ensiklopediyasını nəşrə hazırlamışdır. Dram əsərləri, fransız ədəbiyyatından tərcümələri, türk mədəniyyəti və ədəbiyyatı tarixinə dair əsərləri var. 287
Şəmsəddinov, Rəşid bəy: İrəvan quberniyası sakini. 54
Şərifzadə 282, 304, 343
Şərifzadə, İzzətulla: “Müsavat” partiyasının Bülbülə şöbəsinin sədri olmuşdur. 138
Şıxlinski, Əliağa (1863-1943): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-leytenant rütbəsinə yüksəlmişdi. Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında böyük xidmətləri olmuşdur. Azərbaycan Hərbi nazirinin müavini vəzifəsini tutmuşdur. 31, 107, 149, 396
Şirəli Məşhədi Məmi oğlu: Lənkəran sakini. 100
Şirinov: Çeçen liderlərindən biri. 373
Şişəbəyim Şamil qızı: Sığırlı kəndinin (Kürdəmir rayonu) sakini. 119
Şkuro, Andrey Qriqoryeviç (1887-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Kuban kazaklarındandır. Birinci Dünya müharibəsində və Rusiyada Vətəndaş müharibəsində iştirak etmişdir. 1920-ci ildə mühacirətə getmişdir. İkinci Dünya müharibəsində Hitler Almaniyası ilə əməkdaşlıq

etmişdir. İngilislər tərəfindən tutularaq SSRİ-yə təhvil verilmiş və Moskvada edam edilmişdir. 173

Şpak: Bakıda pristav olmuşdur. 249

Şpak, Vladimir: Bakı sakini. 263

Şpitov, Yakov: Bakı sakini. 174

Şternin, Boris Moiseyeviç: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 139, 180, 227, 244, 285, 324, 361, 401

Şvetsov 241

Tağıyev, Ağahüseyn 75, 450

Tağıyev, Əşrəf bəy (yaxud Qarxunlu Əşrəf bəy; 1867-1930): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 367, 368

Tağıyev, Zeynalabdin: Azərbaycanlı milyonçu və xeyriyyəçi. 62, 82, 174, 448

Tağıyev, Zeynal Sadıq oğlu (Ağa Zeynal Ağa Məhəmmədsadıq oğlu; 1893-1940): Azərbaycanın siyasi xadimi; Hacı Zeynalabdin Tağıyevin nəvəsi. Petroqrad Politexnik İnstitutunu və Petroqrad Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının, "İttihad" partiyasının və Parlamentin üzvü olmuşdur. 1940-cı ildə güllələnmişdir. 397

Tağızadə, Ağa Zeynal: bax. Tağıyev, Zeynal.

Tağızadə, Məhəmməd Hənifə: Bakı sakini 282

Taqianosov 450

Talıbzadə, Abdulla Şaiq (1881-1959): Azərbaycan şairi, yazıçısı və pedaqoqu. 215

Talışxanov, Xanoğlan: Cümhuriyyət dövründə Bakının komendantı olmuşdur. 320

Tanailidi, Panfiliya (1891-1937): aktrisa. Milliyyətcə yunan olmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. 207, 225, 226

Tarkovski, Nuh-bəy (1878-1951): Dağlılar Respublikasının hərbi xadimi. Kumık əsilli Tarkovski Rusiya ordusunda xidmət etmiş, Dağlılar Respublikası dövründə isə Hərbi nazir vəzifəsini tutmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 92

Tarşteynbaum, İ. S.: Bakıda fəaliyyət göstərmiş diş həkimi olmuşdur. 18, 37, 57, 77, 101, 139, 161, 181, 227, 245, 266, 285, 306, 324, 342

Tarzanov, Tatevos Xaçiyeviç: Şamaxı sakini. 73

Temiraz: Zaqatala dairəsində Əliabad nahiyə müdiri olmuşdur. 26

Ter-Bağdasarov, A. A.: baytar 18

Ter-İsrailyan, S.: Gəncə Bələdiyyə İdarəsinin üzvü olmuşdur. 395

Ter-Mikaelyan 447, 450

Ter-Mkırtıçyan (yaxud Ter-Mkırtıçyans): Zaqatala dairəsində erməni keşişi olmuşdur. 25, 28

Ter-Zaxaryan: doktor. 450

Teymur: XIV əsrdə yaşamış görkəmli türk sərkədəsi; Teymurilər dövlətinin banisi. 335, 444

Teymur bəy: İrəvan quberniyası sakini; kürd. 54

Teymurxanov: Dağlılar Respublikasının Dəmiryol, Poçt-Teleqraf naziri. 412

Teymurxanov, Zübeyr (1868-1952): Şimali Qafqaz Dağlılar Respublikası Şurasının sədri olmuş, Şimali Qafqaz heyətinin tərkibində Paris Sülh Konfransında iştirak etmişdir. 1930-cu illərdə repressiyalara məruz qalmışdır. 256

Təfkilev, Qutlu-Muhəmməd Batırgirey oğlu (1850-1919): Tatar ziyalısı, ictimai-siyasi xadim. Rusiya Dövlət Dumasında Müsəlman fraksiyasının üzvü olmuşdur. 197

Təkinski, Məhəmməd xan (1880-1938): Azərbaycanın siyasi xadimi və diplomatı. Azərbaycan Cümhuriyyətinin Ermənistandakı siyasi nümayəndəsi (səfiri), həmçinin Azərbaycan Xarici İşlər nazirinin müavini olmuşdur. 16, 393

Tərlan Murad oğlu: Gilan Qorlanı kəndinin sakini. 175

Tərzibekyan 296

Tlexas, Murad Gəray bəy (1873-1920): Azərbaycan Cümhuriyyəti ordusunun general-mayoru. 107

Tofiq bəy (Binbaşı Tevfik bey): mayor; Türkiyənin Yozqat vilayətinin jandarma komandiri olmuşdur. 70, 79

Toxtamış əfəndi: maarif xadimi. 240

Tolstonoqov: Azərbaycan Cümhuriyyəti Dəmiryol İdarəsində işləmişdir. 395

Tomris 335, 343 ,344

Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Britaniya generalı. Bakının general-qubernatoru olmuşdur. 7, 32, 33, 56, 83, 86, 87, 93, 115, 133, 134, 145, 146, 156, 157, 162, 175, 189, 190, 201, 216, 217, 221, 241, 256, 309, 365

Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusyia Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 450

Topçubaşova, Pəri xanım (yaxud Topçubaşzadə; 1873-1947): Həsən bəy Zərdabinin qızı, Əlimərdan bəy Topçubaşovun həyat yoldaşı. 401

Topçubaşzadə, Pəri xanım: bax. Topçubaşova, Pəri xanım.

Torqov: Bakıda polis olmuşdur. 249

Triniç, Əhməd Bədi' (yaxud Ə. Bədi'; 1893-1936) 443

Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiya-sının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 253, 338

Tsirulnikov: Sosialistlər tərəfindən Vladiqafqaz bələdiyyəsi sədri seçilmişdir. 296

Tumanov: Tiflisdəki danışıqlarda erməni heyətinə rəhbərlik etmişdir. 75

Tusi, Nəsirəddin (1201-1274): fars riyaziyyatçısı və astronomu. 280

Uluqbəy (1394-1449): türk riyaziyyatçısı, astronomu, şairi və dövlət xadimi. Görkəmli sərkərdə Teymurun nəvəsi idi. 280

Usışkin, Menaxem (1863-1941): Rusiyada yəhudi hərəkatının rəhbərlərindən olmuşdur. 296

Ustaclı Abdulla xan: bax. Abdulla xan Ustaclı.

Vaçiyans, Sedrak: Şamaxının Saqiyan kəndinin sakini. 119

Vaqif, Molla Pənah (1717-1797): Azərbaycan şairi; eyni zamanda Qarabağ xanlığının baş vəziri olmuşdur. 377

Valinkov, Vasili: Bakıda qaradovoy olmuşdur. 249

Vanq Da [Wang Da; 1881-1946]: 1915-1920-ci illərdə Pekin bələdiyyəsinin sədri olmuşdur. 126

Vano: Zaqatala dairəsi sakini. 25

Vedjvud, Cozayya Klement [Josiah Clement Wedgwood; 1872-1943]: Britaniyanın liberal və leyborist siyasi xadimi. 403

Veliçko, Konstantin İvanoviç (1856-1927): Rusiyanın hərbi xadimi; mühəndis-general. 252, 253

Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 165, 182

Vəkilov, İbrahim ağa (1853-1934): Rusiyanın və Azərbaycanın hərbi xadimi, general-

mayor; topoqrafiya mütəxəssisi. Azərbaycan Milli Şurasının üzvü, Gəncənin general-qubernatoru olmuşdur. 69, 107, 163, 178, 395

Vəkilov, Mustafa bəy Nadir ağa oğlu (1896-1965): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuş, 1920-ci ildə Daxili İşlər naziri vəzifəsini tutmuşdur. 292, 331

Vəkilov, Rəhim bəy (1898-1934): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. Sovet rejiminin təqibləri üzündən intihar etmişdir. 220, 305, 307

Vələdzadə: Bakıda fəhlə hərəkatının iştirakçısı. 56

Vəlizadə, Baladadaş: "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303

Vəlizadə, Böyükağa: Ramana kəndinin sakini. 176, 177

Vəlizadə, Hüseynqulu (Məşhədi Hüseynqulu): "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 303

Vəlizadə, Məhəmmədsadıq 14

Viktor Emanuel III [Vittorio Emanuele III; 1869-1947]: 1900-1946-cı illərdə İtaliya kralı olmuşdur. 403

Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). I Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 6, 22, 48, 76, 114, 147, 148. 165, 209, 210, 231, 273, 295, 315, 317, 338, 353, 374, 375, 390, 391

Vorobyov: Zaqatala sakini. 235, 236

Vorontsov-Daşkov, İllarion İvanoviç (1837-1916): Rusiyanın dövlət xadimi. 1905-1915-ci illərdə Qafqaz canişini olmuşdur. Ermənilərə xüsusi rəğbəti ilə seçilmişdir. 168, 172, 255

Voyeykov, Nikolay Aleksandroviç: Cümhuriyyətdən əvvəl Bakı Xəzinə Palatasında şöbə rəisi olmuş, Cümhuriyyət dövründə Maliyyə Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 375, 382

Yahya İsrafil oğlu: Qobu sakini. 72

Yaxşıyan, Hayk: Ermənistan Daxili İşlər nazirinin müavini olmuşdur. 400

Yaqubzadə, Məhəmməd 224

Yegiazarov: Ləkidə fabriki olmuşdur. 10

Yejevski, S. A.: Bakıda diş həkimi kimi fəaliyyət göstərmişdir. 244, 266, 285, 306, 324, 361, 381, 401, 426

Yelena: bax. Helena, Flaviya Yuliya.

Yelenin: opera artisti. 325, 342

Yepzulayev: Dağlılar Respublikasının Ədliyyə naziri. 412

Yevanqulov 56

Yevanqulov: Ermənistanın Gürcüstandakı siyasi nümayəndəsi təyin edilmişdir. 225

Yuli Sezar: bax, Sezar, Yuli.

Yulius: bax. Sezar, Yuli.

Yunis: bax. Qaçaq Yunis.

Yunis ağa: İrəvan quberniyası sakini. 54

Yurdsevər, Əbdülvahab Məmmədzadə (yaxud Məhəmmədzadə; 1898-1976): publisist və siyasi xadim; Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı. Siyasi və ədəbi fəaliyyətini mühacirətdə davam etdirmişdir. 137

Yusif Kənan bəy: bax. Rəhimov, Yusif Kənan

Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 16, 156, 220, 271, 289, 290, 309, 340, 349, 394

Yusifbəyov, Əziz bəy 226 286, 306





Yusifov, Əbdülxaliq 361

Yusifov, İbrahim ağa (yaxud Usubov; 1872-1920): Rusiyanın və Azərbaycanın hərbi xadimi; general-mayor. 396

Yusifzadə, Əbdürrəhim: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibi olmuşdur. 176, 340

Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 14

Zaxarov, Parsam: Zatala dairəsi sakini. 25

Zaki Həsən oğlu: İran rəiyyəti. 174

Zalsman: Bakı komendantının müavini olmuşdur. 249

Zeynallı, Hənəfi (1896-1937): Azərbaycanlı müəllim, yazıçı, tənqidçi və ədəbiyyatşünas. Bakıda anadan olmuşdur. İlk qələm təcrübələri Cümhuriyyətdən əvvəl çap edilmişdir. "Azərbaycan" qəzetində "M. Hənəfi", "M. H." imzaları Hənəfi Zeynallıya məxsusdur. Bolşevik işğalından sonra ədəbiyyatşünas kimi fəaliyyətini davam etdirmiş, xüsusilə Azərbaycan şifahi xalq ədəbiyyatını tədqiq etmişdir. Eyni zamanda ictimai həyatda yaxından iştirak edən Zeynallı, represiya qurbanı olmuş, 1937-ci ildə Bakıda güllələnmişdir. 1957-ci ildə bəraət almışdır. 137

Zeynalov, Salam: Bakı sakini. 264

Zeynalzadə, Balasadıq: Balaxanı sakini. 176

Zinovyev, Qriqori Yevseyeviç (1883-1936): Rus inqilabçı, SSRİ-nin dövlət xadimi. Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olmuşdur. 1934-cü ildə həbs edilmiş və 1936-cı ildə güllələnmişdir. 273

Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 160, 334, 376, 394

Zizikski, Əli bəy (1876-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Bakı qubernatorunun müavini olmuş, Quba qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 388

Zoryan, Zori Navasardoviç (1885-1943): Gürcüstanın siyasi xadimi. Milliyyətcə erməni idi. Daşnaksutyun partiyasının üzvü idi. 1917-1918-ci illərdə Axalsıx Şəhər İdarəsinin rəisi olmuşdur. Sovetləşmədən sonra Gürcüstanda yaşamışdır. 17

Zülfüqar: Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak etmişdir. 57

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

**Nəşriyyat direktoru:** Rəhilə Soltanqızı
**Mətbəənin direktoru:** Zöhrab Vəlibəyli
**Texniki redaktor:** Ruslan Mahmudov

Çapa imzalanmışdır: 28.03.2023
Formatı 70x100 $^{1}/_{16}$. F.ç.v 30.5
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 484
Tiraj: 300, Bakı-2023

**Hazır materiallar əsasında**
**GALAXY PRINTING MMC**
**mətbəəsində çap edilmişdir.**

ISBN 978-9952-8314-9-8
9 789952 831498

# AZƏRBAYCAN

QƏZETİ

1918-1920

*Müasir Azərbaycan dövlətçiliyinin bünövrəsinin qoyulduğu Cümhuriyyət illərində (1918-1920) nəşr edilən "Azərbaycan" qəzeti mətbuat tariximizdə müstəsna rol oynamışdır. Qəzetin səhifələrində dərc olunan rəsmi məlumatlar, yerli və xarici xəbərlər, dövrün qabaqcıl ziyalılarının məqalələri tariximizin bu zəngin səhifəsini əks etdirmək baxımından əvəzsizdir.*

*"Azərbaycan" qəzetinin ilk sayı 15 sentyabr 1918-ci ildə Gəncədə işıq üzü görmüş, 5-ci nömrədən etibarən qəzet Bakıda nəşr edilmişdir. Qəzetin sonuncu – 443-cü nömrəsi 28 aprel 1920-ci ildə çıxmışdır. "Azərbaycan"ın redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar.*

*Cümhuriyyət dövrünün canlı şahidi olan "Azərbaycan" qəzetinin tam külliyyatının ilk dəfə olaraq ərəb əlifbasından latın qrafikalı müasir Azərbaycan əlifbasına çevrilməsini və çoxcildlik nəşrini ADA Universiteti həyata keçirir.*

**VI cild**

(Mart 1919)

UNİVERSİTET ○ UNIVERSITY
ADA